AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU

## İSGƏNDƏR BƏY MÜNŞİ TÜRKMAN

# DÜNYANI BƏZƏYƏN ABBASIN TARİXİ

**(*Tarixe-aləmaraye-Abbasi*)**

**II kitab**

"ŞƏRQ-QƏRB"
Bakı – 2011

*Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına
Tarix İnstitutu Elmi Şurasının qərarı ilə nəşr olunur*

Layihənin rəhbəri, redaktor və ön sözün müəllifi: **Yaqub Mahmudov**
*Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor*

Fars dilindən çevirən: **Şahin Fərzəliyev (Şahin Fazil)**
*tarix elmləri doktoru, professor*

Rəyçilər: **Vasim Məmmədəliyev**
*AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor*

**Vaqif Piriyev**
*tarix elmləri doktoru, professor*

**Tofiq Cahangirov**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

**İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-aləmaraye-Abbasi).**
Bakı, "Şərq-Qərb" Nəşriyyat evi, 2011, ____ səh.

Səfəvi tarixşünaslıq məktəbinin ən böyük nümayəndəsi olmuş azərbaycanlı İsgəndər bəy Münşi Türkman (1560-1634) üç cilddən ibarət "Tarixe-aləmaraye-Abbasi" ("Dünyanı bəzəyən Abbasın tarixi") kimi böyük və faydalı əsərini yazmaqla dünyanın şərqşünas müəllifləri sırasında xüsusi yer tutmuşdur. Mövcud olduğu mühitdə dövrünün yazı dilinin tarixi ənənəsinə sadiq qalan tarixçinin fars dilində qələmə aldığı bu məşhur kitab ümumilikdə türk səfəvi sülaləsi sələflərinin, xüsusilikdə isə həmin sülalənin ən əzəmətli xələflərindən birinin – I Şah Abbasın dövrü, hökmdarlıq fəaliyyəti, mədəni və iqtisadi-ictimai məsələlərdə rolu, siyasi-diplomatik hadisələrlə zəngin həyatı haqqında yazılmış ən müfəssəl tarixi abidədir. Kitabda bir sıra Yaxın və Orta Şərq, habelə Kiçik, Mərkəzi və Cənubi Asiya, Cənubi və Şimali Qafqaz, Şərqi və Qərbi Avropa ölkələri və onların bir sıra nümayəndələri haqqında müəyyən məlumatlar öz əksini tapmışdır.

"Tarixe-aləmaraye-Abbasi" əsərinin dilimizə tərcüməsi ilk dəfədir ki, tam şəkildə və iki kitabdan ibarət halda Azərbaycan oxucularına təqdim olunur. 1109 səhifədən ibarət birinci kitab 2010-cu ildə çapdan çıxmışdır.

**ISBN 978-9952-34-620-6**

© AMEA Tarix İnstitutu, 2011
© "Şərq-Qərb" Nəşriyyat evi, 2011

İSGƏNDƏR BƏY MÜNŞİ TÜRKMAN

# DÜNYANI BƏZƏYƏN ABBASIN TARİXİ

(*Tarixe-aləmaraye-Abbasi*)

**II kitab**

## BƏ'Zİ ADAMLAR TƏRƏFİNDƏN MİN DOQQUZUNCU (1600/1601) BƏ'ZİLƏRİ TƏRƏFDƏNSƏ MİN ONUNCU İL (1601/1602) KİMİ QƏBUL EDİLƏN VƏ HÜMAYUN CÜLUSUN ON BEŞİNCİ İLİNƏ TƏSADÜF EDƏN XOŞBƏXT AMALLI ÖKÜZ İLİNİN BAŞLANMASI

Aləmi işıqlandıran bu mübarək fallı novruz mübarək ramazanın on altısına (21 mart, 1601), şənbə gününə təsadüf etdi. Aləmin mürəbbisi olan Şərq mülkünün günəşi hut (balıqlar bürcü – 19 fevral, 20 mart – *Ş.F.*) nihanxanasından çıxdı və onun aləmi işıqlandıran şüaları qələbə bəxtli həməl taxtına əyləşdi.

**s.609 (420)**

*Bir də işıqlandı yerin çöhrəsi,*
*Çulğaladı aləmi novruz səsi.*
*Bir daha nurlatdı həməl torpağı,*
*Bir də yaşıllaşdı şərafət bagı.*
*Verdi təravət yerə novruz adı,*
*Bir də şahın cah-cəlalı başladı.*[1]

O vaxt, səadətli İsfahan darüssəltənəsi dünya şəhriyarının (Şah Abbasın – *Ş.F.*) qədəmləri ilə cənnətə dönmüşdü. O, hər gün həmin behiştə bənzər (firdovsneşan) yerdə eyş-işrətlə vaxt keçirirdi. Allahın inayətindən qalibiyyət daha tam və kamil[2] şəkildə ona nəsib olmuş, qüdrətli dövlət övliyalarının təşvişinə səbəb ola biləcək heç bir hadisə baş verməmişdi.

---

[1] Beytin farscası:

Baz cahan məş'ələfruz şod,
Gərmiye-həngameye-novruz şod.
Fərqe-həməl çon ze xor əfsər gereft,
Bage-şərəf xorrəmi əz sər gereft.
Dad cəhan ra ze təravət novi,
Taze şodəş kovkəbeye-xosrovi.

[2] İfadənin ərəbcəsi: "Ətəmmu və əkməli"

Bu ilin başlanmasından bir neçə gün sonra, Bəlxdə baş vermiş hadisələri o həzrətə söylədilər, [əlahəzrət] *Məhəmməd İbrahim xanın* (özbək şahzadəsi – *Ş.F.*) zəmanənin bəd nəzərinə yetişərək, cavan ikən dövlət taxtından və şadimanlıqdan nakam qalmasına görə bir qədər kədərləndi, xeyli təəssüfləndi. Şah buraya gəldikdən sonra onun ardınca *Xacə Nəqib, Yar Məhəmməd Mirzə, Şirəfkən Mirzə, Ərəb Məhəmməd Atalıq*, habelə sultanzadələrin xidmətində olan üç yüz nəfərədək adam İsfahan darüssəltənəsinə gəlibçatdılar.

**Özbək sultanzadədərinin İsfahana gəlmələri və Şah Abbasa pənah gətirmələri.**

Ə'lahəzrət zilləllah şah onları izzət və ehtiramla qarşıladı, gələnlərin üzünə dostluq və ehsan qapılarını açdı. Hümayun fərman alan bir dəstə əmir, dövlət başçıları, əyanlar və bütün əhali qarşılamağa yollandı və onları böyük ehtiramla şəhərə gətirdilər. Gələnlər Nəqşicahanın (İsfahanın – *Ş.F.*) mübarək dövlətxanasında ə'lahəzrətlə görüş şərəfinə yetişdilər.

**s.609** Şah sultanzadələri özünün mehribanlıq ağuşuna çəkdi, özünə xas tərzdə iltifat və mehribanlıq göstərdi. Qonaqlara layiqli mənzillər hazırlandı, xərclərindən ötrü min tümən İraq şahi pulu (şahiyi-İraqi) verildi, qoyun, yağ, düyü və buğdaya olan tələbatları bu şəkildə[1] tə'min edildi.

Ertəsi gün özbək sultanzadələri, ə'yanları və onların yoldaşları kiçik peşkəşlər təqdim etdilər. Peşkəşlər arasında bir ədəd qiymətli almas da vardı. Həmin almas imaməl-cinn və-l-ins nas rövzəsinin feyzli sərkarına verilmiş nəzirlərdən idi ki, müqəddəs Məşhəd özbəklərinin əlinə keçdiyi vaxt müqəddəs rövzənin bütün zər-zivərini onlar özlərinə götürmüşdülər. O alması isə *Abdulla xanın oğlu Əbdülmömin* xan götürmüş, xanın qətlindən sonra isə *Yarməhəmməd Mirzəyə* qismət olmuşdu. İndi isə həmin almas töhfə kimi şaha təqdim olundu. Şahın nurlu qəlbi o almasın feyzli sərkara nəzir verildiyini bildikdə şah ondan imtina etdi,

[1] İfadənin ərəbcəsi: "Alə həzə-l-qiyaş"

alması sədr və üləmalara verdi ki, feyzli sərkardanı ötrü saxlasınlar. Üləmalar möminlərin məsləhətinə görə o daşın satılmasın məsləhət gördülər ki, onun puluna layiqli mülklər (əmlak) alsınlar və həmin mülklərdən əldə olunan pul sərkar tərəfindən istifadə olunsun. Buna görə də, alması Rum vilayətinə aparıb, İstanbulda dəyərinə görə satdılar və pulunu feyzli sərkara göndərdilər.

Xülasə, ə'lahəzrət zilləllah şah sultanzadələrə və onların yoldaşlarına öz mərdlik və yaxşılığını göstərərək, onların Qəzvin darüssəltənəsində yaşamaları barədə tapşırıq verib belə buyurdu: Qəzvinin bir neçə əlverişli yeri həmin özbəklərin ixtiyarına verilsin ki, o yerlərdən yığılan məhsul onların ehtiyaclarına sərf olunsun; qoy onlar həmin yerlərə gedib bir müddət rüzgarın möhnətindən uzaq olsunlar, əgər Allah izn versə bu dərgahın (səfəvi sarayının – *Ş.F.*) köməyi ilə geri qayıdıb öz mətləblərinə yetişinlər.

Xoş amallı ildə baş vermiş hadisənin bir də budur: Səltənət asimanında (sepehr) və tale göyündə (məşreq) parlaq bir ulduz dünyaya gəldi. Həzrət Allah-taalanın əta etməyi sayəsində ə'lahəzrət şahın əziz bir oğlu doğuldu və o, *İsmayıl Mirzə* adlandırıldı. Ümidvarıq ki, [şahzadə] şahanə məhəbbət kölgəsi altında böyüyəcək, ilahinin və şahın iltifatı ilə yaşayacaqdır.

## İMAM RZA – ONA ALLAHIN MİNLƏRLƏ SALAMI OLSUN[1] – RÖVZƏSİNİ ZİYARƏT ETMƏK MƏQSƏDİ İLƏ Ə'LAHƏZRƏTİN MÜQƏDDƏS MƏŞHƏDƏ PİYADA YOLA DÜŞMƏYİNİN ZİKRİ

Ə'lahəzrət zilləllah şah əhd etmişdi ki, bir yol İsfahan
**s.610** darüssəltənəsində çıxıb həzrət imaməl-cinn və-l-insin
**(421)** müqəddəs rövzəsinin ziyarətinə piyada getsin. Buna görə də, o, bu il öz əhdinə vəfa edib həmin səadətli feyz ilə işıqlanmaq istədi, bu düzgün niyyət və layiqli məqsədlə sədaqət

[1] İfadənin ərəbcəsi: "Aleyhi ə'ləfu-t-təhiyyəti və-s-səna'i"

yoluna doğru qədəm atdı, mübarək Nəqşi-cahan dövlətxanasından çıxıb aləm-aləm şövq və cahan-cahan arzu və etiqadla
s.610 hərəkətə başladı. Birinci gün şəhərdən kənarda yerləşən Məşhəd-Tuqçi adlanan yerə təşrif gətirdi. Oradan üç fərsəxlik yol olan Xar [şəhərinin] Dövlətabad adlı yerinə getdi.

**Əhdinə vəfa etməkdən ötrü Şah Abbasın İsfahandan Xorasana piyada getməyi**

Qərara aldı ki, əmirlərin, dövlət başçılarının, mülazimlərin və başqa yaxın adamların hər biri əgər həzrət imamın nurlu qəbrini ziyarət etmək istəyirsə, atlarına minib ona yoldaş olsun. Şah heç kimə piyada getməyi təklif etmədi, çünki həmin əhd şahın özünün mübarək zatına məxsus idi. İzzət büsatının mülazimləri və yaxın adamları eləcə də müqəddəs şah qoşununun (rikab)* xidmətçiləri növbətlə keşik çəkirdilər. Piyada yol getməkdən yorulan adamlar atlara suvar olurdularsa da, yalnız iki-üç nəfər əvvəldən-axıradək şahın mülazimətində olub, ata minmədi.

Dərgah mülazimlərindən *bukavul*** kimi məşhur olan Məhəmmədzaman Sultan Bayandur Türkman, Mehtər Salman Rikabdarbaşı, İsfahandan Nəcmi-Saninin*** nəvəsi Mirzə Hidayətullah və üç dəstə (səllas) adam əllərində tutduqları kəndirlə uzunluğu bir şəri fərsəxə bərabər olan on iki min zər**** ölçüsündəki yolu ölçə-ölçə getməkdə idilər. Xasseye-şərifə sərkarının münəccimi olan *Mövlana Cəlal Yəzdi****** həmin hesablamanı öz nəzarəti altında saxlayırdı ki, bir gün ərzində nə qədər yol getdiklərə bilinsin və habelə İsfahandan Məşhədədək neçə şəri fərsəx yol olması müəyyənləşdirilsin. Ali ordu təyin olunan qayda üzrə mənzil-mənzil****** yol gedirdi. Ə’lahəzrət əhd etdiyi kimi gedir, piyada getməkdən yorulanda bir qədər dayanır, azacıq istirahət etdikdən sonra yenidən getməyə başlayır, beləliklə də məhəl və mənzillər geridə qalırdı. Bu minvalla həmin uzaq məsafəni iyirmi səkkiz gündə başa vurdu, uğur mərhələlərini keçib müqəddəs Məşhəd şəhərinə daxil oldu, pak rövzəyə girib təvaf və ziyarət səadəti ilə işıqlandı:

**Beyt**

*Necə ki, ərz eləyibdir ulu peyğəmbərimiz:*
*Bir təvaf*[*] *etdi ki, yetmiş Həcə yeksan oldu.*[1]

Yuxarı aləmdə duanın qəbul olunma yeri (estecabət) və feyzlər məkanı kimi qəbul olunan həmin cənnətmisal rövzədə hədsiz yalvariş (xozu') və böyük təvazökarlıqla (xoşu) namaz qılma mərasimini yerinə yetirdi, həzrət küreyi-ərz və səma Xaliqindən dünyəvi və üxrəvi (axirət dünyası – *Ş.F.*) mətləblərini dilədi, dualar etmək səadətinə yetişdikdən sonra mübarək dövlətxanə olan müqəddəs Məşhədin Çaharbağına təşrif apardı, səadət və iqbal ilə orada iqamət etdi. Bu
**s.611** hadisənin [maddeyi-] tarixi bu sətirlər müəllifinin ilhamı ilə belə səbt olundu:

**Maddeye – tarix**

*...Piyada getdi və tarixi bu oldu:*
"*Ze Esfahan piyade ta be Məşhəd*"[2]

Həqiqətən də, islamın zühurundan başlayaraq indiyəcən adlı-sanlı sultanların heç birinə belə səadət uğuru qismət olmamış, belə iş heç kim tərəfindən yerinə yetirilməmişdir. "*Rövzətüs-səfa*"*da* yazılmışdır: "Rum qeysərlərindən xristian (nesari) milliyyətli Herakl (Herəql)[**] bə'sət[***] vaxtı həzrət peyğəmbərin (səlləllahi əleyhi və alihi və səlləm) müsəlman olmaq çağırışını qəbul etmədi. O, əhd etmişdi ki, dövlət paytaxtı olan Qəstəntəniyyədən (Konstantinopol, İstanbul – *Ş.F.*)[****] Beytülmüqəddəsə ayaqyalın və pay-piyada gedəcəkdir. Əhdinin həyata keçirilməsi zamanı fərraş və xidmətçilər onun yolları üstünə əlvan xalılar döşəyir, xalıların üstünə isə gül-çiçək səpirdilər. Herəql (Herakl – *Ş.F.*) öz nədim və

---

[1] Beytin farscası:

Yek təvafi-dərəş əz qovle-rəsule-mədəni
Ta be həftad Həce-nafele yeksan aməd.

[2] Misranın tərcüməsi:

Getdi yol payi-piyadə İsfahandan Məşhədə.

həmsöhbətləri ilə o cür xalıların üstü ilə yol gedirdi. Beləlliklə, o, iyirmi günlük yolu iki ayda qət etdi. [Əlahəzrət] isə qabarlı ayaqlarını torpaq üstünə qoyur, yolun cürbəcür əziyyətinə dözür, mənzil-mənzil məsafə qət edirdi.

**Misra**

*Yolun təfavütü gör orda necə, burda necə!*[1]

**s.612 (422)** Xülasə, [əlahəzrət] həmin qışı müqəddəs Məşhəddə başa vurdu, rəcəb, şəban və ramazan aylarını (yanvar, fevral, mart 1601) həmin müqəddəs rövzədə taət və ibadətlə başa vurdu. O, şərafətli cümə, məb'əs və leylətülqədr* gecələrini nurlu və ətirli rövzədə keçirir, şamın əvvəlindən başlayıb günəşin doğuşuna qədər xidmət göstərir, bircə dəqiqə də bu işindən qalmırdı.

## MÜQƏDDƏS MƏŞHƏD QIŞLAĞINDA BAŞ VERƏN BƏ'Zİ ƏHVALATLARIN ZİKRİ

Ə'lahəzrət zillələllah şah mərhum Məhəmməd İbrahim xanı Bəlxə tərəf yolladı. [Şahın] hümayun yardımı və köməyi sayəsində oranın ələ keçirilməsindən sonra həmin xan onun bütün əmirlərini yerinə yetirməkdə idi. Xanın vəfatından sonra *Baqi xan* cənab şahın kimliyini düşünmədən Bəlxə ləşkər çəkərək o vilayəti işğal etdi. Şahın nurlu düşüncəsi həmişə bu fikirdəydi ki, Baqi xanın həyasızlığı və tüğyanı ilə birdəfəlik hesablaşsın, onu qəflət yuxusundan azacıq da olsa bidar etsin, elə olsun ki, Bəlx yenə də bu dövlətin köməyi ilə özlərini bu dərgaha pənah gətirmiş həmin sülalədən olan o iki [özbək] padşahzadəsinin ixtiyarında olsun.

**Baqi xanın Şah Abbasa məktubu.**

Müqəddəs Məşhədin şahın cah-cəlallı gəlişinin mərkəzinə çevrildiyi bu günlərdə *Mərv hakimi Bək-*

[1] Misranın farscası:

Bebin təfavote-rah əz kocast ta be koca!

**Qeyd:** İskəndər bəy Münşinin kitabında getmiş minlərlə misranın bir neçəsi (təxminən 20-25 misra) tərəfimizdən tərcümə olunmadı – *Ş.F.*

*taş xan* tərəfindən belə bir məktub gəldi ki, orada yazılmışdı: "Baqi xan onunla (Bəktaş xan ilə – *Ş.F.*) ülfət və aşinalığa başlamışdır və əlahəzrət zilləllah şaha öz sədaqət və dostluğunu izhar edir. Xan öz aşinalığı üzündən ona bir məktub yazmış və ondan iki baş tubçaq (?) at xahiş etmişdir". Ə'lahəzrət həmin məktubun məzmunundan agah olduqdan sonra, xanın yuxarıda yazdığımız yersiz hərəkətindən inci-
**s.612** diyinə baxmayaraq, insanpərvərlik və dostluq rəftarnına əməl edərək, Bəktaş xana özbək padşaşına xoş məzmunlu bir məktub yazmasını, etibarlı elçilərlə ona başqa layiqli töhfələrlə birlikdə bir neçə baş yaxşı at göndərməsini tapşırdı. Ə'lahəzrətin icazəsindən sonra Bəktaş xan, ustaclu tayfasından ağıllı, dilli-dilavər və təcrübəli cavan adam olan *Bayraməli bəyi* Baqi xan elçiliyinə təyin etdi, onu atlar və töhfələrlə Buxaraya yolladı. Baqi xan da elçiliyə böyük ehtiram etdi, Bəktaş xanın üzünə mülayimlik qapılarını açdı və Bayraməli bəyi dostanə töhfə və hədiyyələrlə geriyə göndərdi.

Belə əhvalatlar vaxtı, ə'lahəzrət düşünürdü ki, Baqi xanda bu sülaləyə qarşı ülfət və aşinalıq olmadığı üçün, qoy xana qarşı öz dostluğunu izhar etsin və xanı öz fikrindən ağah etməkdən ötrü ona dostanə nəsihət versin. [Buna görə də,] o sülalənin qədim etibarlı mülazimlərindən olan, bir neçə il bundan qabaq Tun cəngində qələbə şüarlı əsgərlər tərəfindən ələ keçirilən və Baqi xanın qardaşı Dinməhəmməd xanın divanbəyisi* olan *Canməhəmməd bəyi* xanın yanına göndərdi. Ə'lahəzrət həmişə əsir saxlanılan adamlara mehmandan da artıq iltifat göstərdiyindən, onları ali orduda izzət və hörmətlə saxladığından, Canıməhəmməd bəyi yanına çağırıb ona dedi ki, qoy öz vətəninə getsin, nəvazişli dili ilə bu həqiqətdən xəbər verən sözləri Baqi xana çatdırsın: "Bütün dünya insanlarına mə'lumdur ki, Canı bəy sülaləsindən olan özbəklərlə bu sülalə arasında həmişə düşmənçilik və savaş olduğundan onların arasına ixtilal düşmüş, həmin sülalədən Məhəmməd İbrahim xan bu xanədan mənsubları tərəfindən tutulmuşdu. Biz ləngimədən qədim ədavəti sülh, ülfət, dostluqla əvəz

etdik və öz zahiri və batini diqqətimizi o sülalədən olanlara yönəltdik, Məhəmməd İbrahim xanı Bəlxə tərəf göndərdik və onun işlərini qaydaya salmaqdan (təmşiyət) ötrü bərk çalışdıq, bu dövlət adamlarının köməyi ilə Bəlx onun tərəfindən tutuldu və İbrahim xan bizim hümayun əmrimizə tabe oldu. [Amma,] Məhəmməd İbrahim xanın başına gələn qaçılmaz vaqiədən (yəni onun vəfatından – *Ş.F.*) sonra, heç də münasib deyildi ki, Baqi xan hümayun şahın əmr və işarəsi olmadan həmin vilayətə dəxalət etsin. Hal-hazırda bizim o vilayətə heç bir tamahımız yoxdur. Biz istəyirik ki, Məhəmməd İbrahim xanın mülkü olan Bəlx vilayəti və oranın ətraf yerləri İbrahim xanın əqrəbasından və Abdulla xana dudmanından olub bizim xanədana pənah həmin gətirən iki tifil oğlana çatsın. Abdulla xanın Baqi xana xeyrxahlığı çox keçmişdir və o, uzun müddət xanın ata və qardaşlarına qarşı rəhmdillik məqamında olmuş, onları öz tərbiyəsi ilə böyüt-
**s.613** müşdür. Amma, hal-hazırda Allahın iradəsi və təqdiri ilə o
**(423)** sülalənin əhvalı pozulmuş, onların dudmanına xas olan Mavərənnəhr və Türküstanın bütün səltənəti və mülkiyyəti Baqi xanın ixtiyarına keçmişdir. Belə olan halda duz-çörək haqqına riayət olunması, habelə alicənablıq (fotovvət), insaf və insanlıq tələb edir ki, Baqi xan Abdulla xanın neçə illik haqqını unutmayıb, onun əqrəba və sülalənin yetimlərinə yaxşılıq etsin, onlara öz mehribanlıq və şəfqət kölgəsini salsın, onları öz fərzənd və qardaşları bilsin, Bəlx vilayətini və çayın bir tərəfini onlara versin, özü isə Allah-taalanın ona nəsib etdiyi Mavərənnəhr* və Türküstanla** kifayətlənsin, İlahinin ona əta etdiyi nemətlərlə razılaşsın, özünün atalıq və qardaşlıq şəfəqqətini o yetimlərdən əsirgəməsin ki, onlar da xanı öz ataları və böyük qardaşları bilib, itaət və tabelik məqamında dayansınlar. Əgər Baqi xan şahın istəyi ilə razılaşaraq o kiçik (mohəqqər) vilayəti onlara verərsə, bu iş həzrət Allahın razılığına, onunsa şöhrətinə (niknami) səbəb olar. Elə biz də onu özümüzə qardaş sanıb, hər bir işdə ona hər cür imdad göstərər, hər sahədə onunla həmrah olarıq. Yox, əgər Baqi xan cəhalət və qürur yolunun yolçusu olarsa,

bizim şəfqətli nəsihətlərimizi razılıq qulağı ilə dinləməzsə, insafsızlıq edib bizim fikrimizə qarşı çıxarsa, öz düşmənçiliyində israrlı olarsa, uca varlıq tərəfindən təklif olunan bizim o padşahzadələrə imdad və köməyimiz Allah-taalanın istəyinə uyğun şəkildə yerinə yetiriləcəkdir."

*Canməhəmməd Divanbəyi* rüxsət alıb *Buxaraya* rəvan oldu. Onun gəlişindən olduqca sevinən Baqi xan onu əmirlər silkinə daxil etdi. Canməhəmməd şaha bir məktub yazaraq məktubda onun mərhəmətinə qarşı öz təşəkkürünü izhar etdikdən sonra Baqi xan tərəfindən dostanə münasibət, böyük sədaqət və hüsni-etiqad bildirdi və sultanzadələr barədə belə yazdı: "Bizdən qorxan (xayef) Yarməhəmməd xan bir dəstə adamı da öz əlaltısı edərək siz tərəfə apardı, amma bizim onlara iltifat və atalıq şəfqətindən başqa bir münasibətimiz olmamışdır. Buna görə də, əgər həzrət şah onları bu tərəfə yollayarsa, tərəfinizdən edilən ali işarəyə əməl edib, ehtiram göstərər, başqa qardaşlarımız və fərzəndlərimiz kimi onlara münasib yerlərdə yurd və məqam verər, maaş həm təyin edərik."

Amma Canməhəmməd özü ilə [Buxaraya] gedən Bəktaş xan mülazimlərinə gizli şəkildə belə demişdi: "Baqi xan şaha öz sözlərini vəd şəklində bildirmişdir, əslində o, Bəlx və ətrafının [özbək şahzadələrinə] verilməsinə razı deyildir. Baqi xan istəyir ki, əlahəzrət şah həmin sultanzadələri Mavərənnəhrə onun yanına göndərsin, onlara maaş təyin edilsin, yalnız öz dövlətinin razılığı və məsləhəti ilə onlarla rəftar olunsun".

Baqi xana etibar olmadığı üçün sultanzadələrin onun yanına göndərilməsi mürüvvət və mərdlikdən olmazdı. Buna görə də əlahəzrət öz hümayun fikrini izhar edərək, Bəlxə yürüş silah-sürsatı hazırlığına başladı və qabiliyyətli əmir və əskərlərin çağırılması haqqında hökm sadir etdi. Habelə Qəzvin darüssəltənəsində yaşayan Şah Xacəyə, Yarməhəmməd Mirzəyə və yoldaşlarına məktub göndərib buyurdu ki, sultanzadələr də ali ordunun tərkibində Xorasana yollansınlar.

## BU İLDƏ, UĞURLU ŞƏHRİYAR (ŞAH ABBAS-*Ş.F.*) İQBALININ QÜVVƏSİ VƏ ALLAHVERDİ XANIN SƏYİ İLƏ BƏHREYN VİLAYƏTİNİN FƏTH OLUNMASININ ZİKRİ

Qətif[*] və Bəhreyn[**] məmləkəti sabiq zamanlar və keçmiş əsrlərdə ərəb valilərinin əllərində idi "Nuzhətül-qülub"un müəllifi Həmdullah Mustovfi[***] yazmışdır ki, Bəhreyn fars adalarından ibarət olub lolo[****] və mərcan yeridir, uzunluğu on, eni isə beş fərsəxdir.

Bəhreyində çıxarılan lölö (mirvari – *Ş.F.*) cövhərtanıyan və sahibnəzər adamların nəzərincə başqa bəhrlərdəki lölölərdən daha qiymətlidir. Bol mənfəətli həmin vilayət vaxt ötdükcə Hörmüz valisi Turanşah ibn Sulğurşahın əlinə keçdi. Hörmüz[*****] valiləri tərəfindən oraya təyin edilən hakimlər həmişə qiyama qalxmışlar. *Süleyman şanlı xaqanın (I Şah İsmayılın – Ş.F.)* zühurundan otuz bir il keçəndən sonra doqquz yüz iyirmi ikinci ildə, *II Turanşahın oğlu Sulğurşahın* dövründə *Avropanın (Firəngiyyə) portuqal əhalisi* Hörmüz valisisni hiyləgərliklə aldadıb, adanı öz əllərinə keçirib,
s.614 orada *Küt* adlı qala inşa edərək məskunlaşdılar. Vaxt ötdükcə
(424) bu adaya çoxlu portuqal gələrək orada da qaldılar. Onlar get-
gedə mülki işlərə dəxalət edərək o yerin əksər mənfəət və
s.614 mədaxilini öz əllərinə aldılar. Qalanın əmiri və hakimi olan firəng kapitanı (kəpitan) Hörmüz hakimindən daha şövkətli və iqtidarlı oldu. Onlar buna görə də Bəhreynə də dəxalət etdilər. Hörmüz valisi Fərruxşah vəfat etdikdə oğlu Firuzşah atasının qayimməqamı oldu.

Hörmüz vəziri *Rəis Şərəfəddin Lütfullanın* qardaşı *Rüknəddin Mə'sud* mütləq ixtiyar sahibi idi və Bəhreyn dövlətinin bütün işlərinə qarışırdı. O, hər iki hakim arasında mötəbər adam olan qardaşının köməyi ilə həmin vilayətdə iqtidar sahibi olmuşdu. Həmin vaxtlarda o, firənglilərin iqtidar və ixtiyarlarından qorxuya düşərək, Fars [vilayətinə] – öz qohumu olan *Xacə Moinəddin Falinin* yanına adam yollayaraq ondan kömək istədi. Adı çəkilən xacə məsələni *Fars bəylərbəyi Allahverdi xana* bildirdi. Həmin vilayətin Farsın

tabeliyində olan o yerinin əhalisinin yaramaz işlərlə məşğul olduğunu bilən cənab xan oranı fəth etmək fikrinə düşüb hərb işlərində məharətli olan Moinəddin Fali tüfəngçilərini, zahirdə hakimə kömək etmək, batində isə o mülkü özü tutmaq niyyətiylə Bəhreynə yolladı. Adı çəkilən xacə Bəhreynə gəldi, orada bir neçə gün ərzində həmin mülkün tutulması üçün ehtiyatkarlıqla yol axtarmağa başladı ki, o lətafətli güşəni ələ keçirtsin və bu fürsəti əldən verməsin.

Sübhə yaxın olan bir gecə vaxtı o, əmisi oğlu *Rəis Mənsur* və bir dəstə adamla Rüknəddin Məs'udun evinin qapısına yaxınlaşıb, qorxu bilmədən içəri daxil oldu. Onlar öz yatağında olan Rəis Mənsuru bir neçə qohum-qardaşı və mülazimi ilə qətlə yetirdilər. Rəisin adamları əhvalatı bilərək hadisənin qarşısını almaq istədilər, amma, hakimləri artıq öldürüldüyü üçün Bəhreynin o kütləsi bu işə çox da can yandırmadı, Xacə Moinəddin və yoldaşları [vəziyyəti belə görüb] özlərini qorumaqdan ötrü onların qarşısını almağa başladılar.

Şah iqbalına xas olan gözəl fürsətlərdən biridir ki, o vaxtlarda *Əmir Kamal Bərangarın* qardaşı *Əmir Yusifşah* Beytülhəram ziyarətindən qayıdarkən, o yerin yaxınlığındakı quldurlar onun bə'zi mallarını əlindən almışdılar, buna görə də, *Allahverdi xan, Yusifşahı* bir dəstə bərangar tüfəngçisi ilə əlindən alınan malları tapmaq və quldurları tutmaqdan ötrü Bəhreynə göndərdi ki, əgər Xacə Moinəddin xana qarşı çıxarsa Yusifşah öz işində olmuş olsun. Mərdanəlik və vuruşda başqalarından üstün olan bərangarlarla birlikdə Yusifşah mallarını tapmaqdan ötrü Bəhreynə rəvan oldu. Bu elə vaxta təsadüf etdi ki, onun gedişi artıq Xacə Moinəddin və əmisi oğlunun öldürüldüyü və xan adamlarının onların adamları ilə vuruşduğu vaxta düşmüş, arada hələ rahatlıq yaranmamışdı. O, hiyləgərliklə özünü şəhərin və qalanın əndərun hissəsinə çatdırdı, adı çəkilən xacənin və fal əhalisinin köməyi ilə xilaf məqamında olanları dəf etməklə məşğul oldu, müxaliflərin bir neçəsini öz cəzalarına çatdırdı, təslim olanlar isə əfv olunub öz rəiyyətlikləri ilə məşğul

oldular. [Beləliklə,] iki dənizin qovuşmasindan yaranan və mirvari (lölö) ilə mərcan məskəni olan[1] o ürəkaçan Bəhreyn diyarı İlahi inayətinin sədəfpərvəri olan şahın zavalsız iqbalının sayəsində bəzənmiş oldu.

Elə ki, bu əsrarəngiz (mərmuz) xəbər gəlib çatdı, Hörmüz valisi Firuzşah və *firəng kapitanı* öz döyüşçülərini Bəhreyni geri almaqdan ötrü göndərdilər, tərəflər arasında həm quruda, həm də suda hərblər başlandı. Savaş vaxtı həm Xacə Müinəddinin, həm də Mir Yusifşahın yaralanıb öldürülmələ-
**s.615** rinə baxmayaraq Fars döyüşçüləri hümayun qüvvənin iqbal gücü sayəsində o zillət dəstələrinə qalib gəldilər, onların əksəriyyəti ədəm bəhrində qərq oldu, sağ qalanlar isə öz məqsədlərinə yetişmədən savaşdan əl çəkdilər. Allahverdi xan oraya hakim yollayaraq qalanın möhkəmləndirilməsinə böyük səylər etdi.

## UĞURLU (KAMKAR) ŞƏHRİYARIN İQBALI VƏ ALİMİQDAR XANIN SƏ'Yİ İLƏ HƏMİN İLDƏ LAR VİLAYƏTİNİN FƏTH OLUNMASININ ŞƏRHİ.

**s.615** Bu hadisələr baş verərkən, Lar vilayəti də Allahverdi
**(425)** xanın səyi ilə bu əbədi dövlət övliyalarının əlinə keçdi. Əcəm məliklərinin vəziyyətləri haqqındakı tarix kitablarında yazılmış və xalq arasında belə yayılmışdır ki, Lar hakimləri *Gorgin Miladın*[*] nəslindəndirlər. Gorgin Kəyanilər dövründə Lara hakim tə'yin edilmiş və o tarixdən başlayaraq onun övladları həmin vilayətdə hökmran olmuşlar. Tayfa məlikləri zamanında iqtidarda başqalarından üstün olmaqla onlar qonşu hakim valilərdən bac almışlar. Qədim dövrlərdə, islamın zühurundan əvvəl və sonra İran məmləkətləri içərisində sözü keçən fərman sahiblərindən olmuşlarsa da, əksər vaxt başqalarına itaət də etmişlər, başqa vaxtlardasa özbaşınalıq bayrağı qaldırmışlar.

---

[1] İfadənin ərəbcəsi: "Mərcu-l-Bəhreyn yəltəqiyani və yəxrucu minhuma əl lu'-lu' və-l-mərcanu"

O tayfanın ilk müsəlman hakimi *Cəlaləddin İrəc ibn Keyqubad olmuşdur*. O, *Ömər Əbdüləzizin* dövründə müsəlmanlığı qəbul etmişdir. Müqəddəs səfəvi dövlətinin yaranmasından indiyəcən onlar itaət və bacvermə məqamında dayanmış və bu dövlətin divan əmiri (əmirdivan) vəzifəsini tutmuşlar.

İsgəndər şanlı nəvvabın (Sultan Məhəmməd Xudabəndənin – *Ş.F.*) zamanında "*Şah Adil*" adı ilə tanınan *Nurəddin xan ibn İbrahim xan ibn Ənuşirəvan* həzrət cənnətməkan şahın (I Şah Təhmasibin – *Ş.F.*) dövründə Ların valisi idi. O öldükdən sonra oğlu *Mirzə Əlaülmülk* qayimməqam oldu. İsgəndər şanlı nəvvab ona *İkinci İbrahim xan (İbrahim xane-sani)* ləqəbi verdi. Qələbə bəxtli taxtın padşahlığı zilləllah şah ilə bəzəndiyi vaxt humayun fallı cah-cəlal ordusu *Yaqub xan* fitnəsinin dəf olunmasından ötrü Fars [vilayətinə] tərəf getdikdə, onlar gəlib Şiraz darülmülkündə dayanıb Lar vilayətinə yaxınlaşdılar. O zaman münasib olardı ki, İbrahim xan onlara yaxınlaşaraq, öz mülazimətini bildirməyi özü üçün böyük bir uğur sanaydı, hümayun cülus (Şah Abbasın taxta çıxmağının – *Ş.F.*) mərasimini təbrik edəydi, qafillik etməyib öz sədaqət üzünü başı göylərə çatan dərgaha tutaydı, şah ilə görüşmək səadətinə yetişəydi.

Amma, özünün cəhaləti və nadanlığından, həmçinin Lardakı pis məsləhətçiləri, xüsusilə ixtiyar sahibi olan dərgah əmirinin sözlərinə uydu, özünü elə səadət uğuruna çatdırmadı, qafillik etdi. Buna görə də, şahın mübarək məzacı İbrahim xan barəsində dəyişildi və onun gəlişini gözləməyə başladı. Xan isə, yalan vədlərlə kifayətlənərək öz gəlişini təxirə salırdı. Şahın ona olan inamı olduqca zəiflədi. Dərgah əmirinin Lar vilayətindən bac və xərac almaq üçün göndərilən saray mülazimləri ilə pis rəftar etməsi də şahın qəzhəbinə səbəb oldu. [Buna görə də,] fərman alan *Allahverdi xan* onları cəzalandırmağa yollandı. O, Lara yaxınlaşdığı vaxt İbrahim xan üzrxahlıq fikrinə düşərək boyun oldu ki, bundan
**s.616** sonra şahın mübarək razılığına yetmək üçün çalışacaq və ona yaxşı qulluq göstərəcəkdir. Allahverdi xan zamanın məsləhətinə uyğun olaraq humayun şah fərmanını həyata keçirmədən

geri döndü. İbrahim xan isə o il bir azacıq barışıq yolu tutdu, amma sonra yenidən xilaf yoluna düşdü. O, Lara daxil olan tacir və yolçulara əziyyət verir, hamıdan zorla pul qoparırdı. Tacirlər İbrahim xanın vəkllərinin və başqa adamlarının etdikləri işlər barədə, xanın isə onlarla bacara bilməməsi haqqında [dərgaha] çoxlu şikayət etməyə başladılar.

Bu dəfə, onların cəzalandırılmaları və tacirlərin mallarının geri qaytarılması vacib bilindi, Allahverdi xan əvvəlki kimi Lara yollandı. Oraya yaxınlaşdıqda, İbrahim xan tacirlərdən alınan malları geri göndərərək, yenə öz üzrxahlıq dilini işə saldı. Allahverdi xan ona dedi: "Bu yerlərdə nifaq baş alıb getməkdədir. Əgər İbrahim xan özünü şah dərgahının bəndələrindən hesab edirsə və öz sözünə sadiqdirsə, münasibdir ki, qorxu-hürküsüz gəlsin və tərəflər arasında görüş başlansın. Əgər belə olmazsa, mənim yenidən geri qayıtmağım bizim padşahın dövlətinə qarşı nalayiq iş olmuş olar". [Amma,] İbrahim xan şah yanına getməyə cürət etmədi və əvvəlki kimi xilaf yolunu tutdu, müdafiə və qaladarlıq məqamına gəldi. Alicənab xan ordusu şəhər kənarına gəlib çatdı və dayandı. Qalibiyyətli Fars əsgərləri şəhər və qalanın fəthinə başlayaraq, mühasirəyə düşənlərə təzyiq göstərməyə girişdilər, larlılar isə qızılbaş əsgərlərinin gəlişindən vahiməyə düşdülər.

Bu əsnada Lar əyanlarından mötəbər bir insan olan *Qazi Əbülqasim* sədaqət və şahsevənlik izhar edərək, qardaşı ilə birlikdə xanın yanına gəldi. Onların gedişindən qorxan İbrahim xan adı Novşad olan öz sipəhsalarını bu hadisənin qarşısını hiyləgərliklə almaq məqsədiylə şəhər xaricinə göndərdi. Görüş vaxtı, həmin göndərilən adamlar öz paltarlarının altından zirehli libas geyinmişdilər ki, onların əməlindən
**s.617** hiyləgərlikləri məlum oldu, xanın üzü döndü və onların həbsi
**(426)** üçün işarə etdi. Larlılar bu məsələdən bərk qorxuya düşdülər. Cənab xan Lar əhalisinin əksər adamlarına alış-veriş qapılarını açmaqla Lar əhlini ona qarşı müxalif olmaq və qaladarlıq etməkdən çəkindirdi. İbrahim xan isə cəng etməyi məsləhət bilməyərək, larlılarda pərişanlıq müşahidə etdiyindən şəhər

və hasardan əl çəkib, bir tərəfi dağa birləşən böyük qalaya getdi, oraya sığındı. Qalibiyyətli əsgərlər qüdrət və iqtidarla səhərə və başqa daxil oldular və qala ayağına seybə çəkməyə və qalatutma ləvazimatı yığmağa başladılar.

Özündə cəng etmək və müdafiə olunmaq qüdrəti görməyən İbrahim xan özünün üsyankarlığı və dikbaşlığından pərişan olub acizlik və aman istəmək zorunda qaldı, xanın yanına getməyə meyilləndi. Allahverdi xanın aman verdiyi İbrahim xan bir dəstə larlı ariflər və əyanlar ilə qaladan çıxaraq acizlik izhar etdi. Cənab xan ona ehtiramla yanaşdı, qonaq qismində saxladı ki, saraya gətirib, şahın rəyinə uyğun hərəkət etsin. Xan, qızılbaşlara xilaf mövqedə dayanan və xislətləri fitnə-fəsad olan bir neçə Lar adamını aradan götürdü, başqalarını isə ümidvar etdi. Qalada qalanlarınsa qalanı təhvil verməkdən başqa heç bir çarələri qalmadı. Şəhər və qalanı etibarlı adamlara tapşıran Allahverdi xan o məmləkət işlərinin nizamlanmasını Qazi Əbülqasimə tapşırdı, İbrahim xanı isə yaxın adamları və öz dudmandan olanlarla birlikdə Şiraza gətirdi, onun xəzinə, mal və vəsaitlərini zəbt etdi. [Beləliklə,] bir ildə baş vermiş bu iki böyük fəth barədə ali saraya məlumat göndərdi. O zaman qələbə ayəli cah-cəlal qoşunu müqədəs Məşhəddə idi, cahanı bəzəyən şah isə Bəlx yürüşünə yollanmağı qərara alaraq, qarşıdakı səfər üçün silah ləvazi-
s.617 matı hazırlığı ilə məşğul idi. Belə bir şəraitdə həmin fəthlərin müjdəsi xəbəri şahın əhvalının şadlanmasına səbəb oldu, böyük iqtidarlı [Allahverdi] xan ali hümayun tərəfindən mükafatlandırılmaqla şərəfraz oldu, xanın və Fars əsgərlərinin geri çağırılması xüsusunda əmr [yərliğ] sadir oldu.

Gələn il, qələbə ayəli ordu müzəffər əsgərlərin bir yerə cəmlənməsindən ötrü Heratın yaraşıqlı yerlərində və Badğisin ürəkaçan çəmənlərində olarkən [Allahverdi xan] nizamlı qoşunu ilə fələk əzəmətli orduya gəlib çatdı, İbrahim xanı gətirdi, Lar sultanının xəzinəsində olan töhfə və hədiyyələri şahın nəzərinə yetirdi ki, onların biri dürrlər və yaqutlarla bəzədilmiş bir tac idi. "*Keyxosrov tacı*" adlanan həmin tac onların ata-babalarından qalmışdı.

Lar şəhərinin əvvəllər adı başqa idi. Deyilənə görə, *Keyxosrov Kəyani** Görgin Miladı o şəhərə hakim yolladı. Onun bir oğlunun adı *Lar* idi. Atasının qayimməqamı olan Lar həmin böyük şəhəri onun adı ilə adlandırdı. Yuxarıda adı çəkilən tacı Keyxosrov Lara vermişdi. O tarixdən başlayaraq həmin tac onların sülaləsində qalmışdı və səltənətə gələnlərin hər biri o tacı başına qoymaqla tacdan özlərinə xoşbəxtlik diləyirdi.

Əhali arasında belə danışılır: Gorgin Milad Lar şəhərinin kənarına gəlib çatdıqda şəhərə girməkdən ötrü münasib bir vaxt gözləyirdi. Əcəm münəccimləri və Lar ulduzşünasları xoşbət (səd) və bəd (nəhs) ulduzları özlərinin o günkü nəzəriyyələrinə görə müəyyənləşdirirdilər. Ların taleyinə müvafiq gələn xoş saatı axtarmaqla yeddi il ötdü. Bu müddətdən sonra Ların zicinə müvafiq olan xoş saat gəlib yetişdi, onun hakimiyyətdə qalma müddətinin ulduzu başqa nəhs ulduzlardan ayrıldı. [Beləliklə,] şəhərə daxil olmaqdan ötrü Gorgin yeddi il şəhər kənarında gözləməli oldu. Həmin xoşbəxt saatın müəyyənləşdiyi gün Lar şəhərə girdi. O vaxtdan *dörd min il* keçmişdir və Ların övladları nəsilbənəsil o diyarda hakimiyyət sürdülər. Həmin mülkü heç bir şan-şöhrətli padşah fəth edə bilməmiş, fəqət oranın valilərindən xərac almaqla kifayətlənmişdir. Habelə əhali arasında belə söyləyirlər ki, əcəm hakimləri o yerə tilsim bağlamışdılar ki, həmin mülkün ərazisi ləşkər gedib-gəlişindən və biganə at dırnaqlarından əziyyətə düçar olmasın. Allahın böyük hikməti sayəsində bu səadətli zamanda həmin tilsim dərgah mülazimlərinin iqtidar pəncəsi və qiymətli şəhriyarın (Şah Abbasın – *Ş.F.*) iqbalı sayəsində sındırıldı və həmin vilayət bu məğlubedilməz dövlət övliyalarının əlinə keçdi. Əcəm məliklərinin tarixi barədə yazılan kitablarda ağıl dairəsindən kənar və qəbul əhatəsindən xaric olan belə hadisələr barədə çox yazılmışdır. Bu sətirlərin müəllifi də xoşbəxt saatın seçilməsi, tac və til-
**s.618** sim barədə ötən vaxtların məlumatlarının doğru və yalan
**(427)** olmamaların fərqinə varmadan onları bu səhifədə dərc etdi.

Xülasə, İbrahim xan Badğis yaylağında şahın astanasını öpmək şərəfinə yetişdi. Qərara alındı ki, o, bu səfər müddətində Allahverdi xanın evində qalsın. Xan onunla ehtiramla davranırdı. Səfər müddətində orduda xəstəlik yayıldığından İbrahim xan da xəstələndi, təbiblərin müalicələrinin faydası olmadı, təbiətin səhnəsi (yəni Allah-taala – *Ş.F.*) onun əlini mülkündən uzaq etdi və o, varlıq iztirabından xilas oldu. İbrahim xan qabiliyyətli, dərvişxislət, aşiq, şair təbiətli adam idi. O, o vaxt üçün məlum olan elmlərin əksəriyyətini öyrənmişdi və musiqi elmində *Davud** kimi mahir idi. Amma, olduqca ağlıdayaz və sadəlövh adamdı. Dövlət işlərində, məmləkətin zəbt və rəbtində (nizamlanmasında – *Ş.F.*) tələb olunan xüsusiyyətə az malik idi. Cavanlığında tiryək nəşəsinə meyl edərək onu çox çəkməklə adətkərdə olmuşdu.

Xülasə, otuz beş yaşında ikən bəqa aləminə yollandı, o dudmanın dövləti süqut etdi və həmin sülalədən dünyada
**s.618** quru addan başqa heç nə qalmadı.

## MİN ON BİRİNCİ (1602/1603), SƏADƏTLİ CÜLUSUN İSƏ ON ALTINCI İLİ OLAN HÜMAYUN FALLI PƏLƏNG İLİNİN BAŞLANMASI.

Bu hümayun fallı ilin novruzu mübarək ramazan ayının iyirmi altısına (9 mart, 1603), pəncşənbə gününə düşdü. Qış fəslinin istəyi ilə müxtəlif səbəblər və xəstəliklərdən zəifləyən təbiətin məzacı sağalmağa doğru istiqamətləndi, aləmi bəzəyən bahar cürbəcür şadyanalıqlarla cilvələndi. Cavanlığın təravətli günləri yenidən başlandı, cahanda xoşluqlar büsatı quruldu, yəni ulduzlar xosrovu (günəş – *Ş.F.*) taxta və iqbala ziynət bəxş etdi, dünyanı bəzəyən büsata qədəm basdı, ünsürlər aləmində (su, hava, od, torpaq – *Ş.F.*) güllər və çiçəklər qoşunu bəzəklənib göründü və görünüş bayrağını göyə qaldıraraq geniş cahanı İrəm gülzarına döndərdi.

**Beyt[lər]**

*Cahan canlanmağa başladı yenə,*
*Novruzdan əzəmət tapdı özünə.*
*Günəş baş endirdi şah dərgahına,*
*Bəzədi gül-çiçək qoşunu ona.*[1]

Söz qoşmaq meydanının qoşun başçıları məlumatlar meydanını bu vasitə (nəmət) ilə bəzəyib belə dedilər: Əlahəzrət zilləllah şah gəlib ona sığınmış özbək sultanzadələrinə kömək etməyi özünə borc bildiyi üçün belə qərara gəldi ki, Məhəmməd İbrahim xanın tutduğu Xorasana yaxın Bəlx vilayətini və çayın bu tərəfindəki mahalları onlara versin. Yuxarıda yazıldığı kimi Canməhəmməd Divanbəyinin mək-

---

[1] Beytlərin farscası:

Degər rəh cəhan ərcoməndi gereft,
Ze novruz firuzməndi gereft.
Bər arast mehr əz rəyahin sepah,
Be əzme-zəminbusi dərgahe-şah.

tubundan və o tərəfdən gələnlərin gətirdikləri xəbərlərdən məlum oldu ki, bu iş Baqi xanın xoşuna gəlmir və o heç vəchlə həmin yerlərdən əl çəkmək istəmir. Buna görə də Baqi xan Cicəktu və Meymənə sərhədini möhkəmləndirmək məqamına gəlmiş, özbəklərin tabeliyindəki oymaqlardan və qıpçaq* əhalisindən xeyli adamı Cicəktuya köçürtmüşdür. O, hər yerdə öz qardaşının qanını alacağını bildirir, boş-boş sözlər (gəzaf) danışırdı. Bu xəbərləri eşidən şahın alnından [sultanzadələrə] kömək göstərmək təri axtarmağa başladı, Bəlxə yürüş istəyi daha da çoxaldı. Məmləkətlərdə olan əmir və əsgərlərini çağırmaqdan ötrü iti surətli qorçilər göndərildi, belə qərara alındı ki, bu yürüşdə top, zərbzən və yaraqla dolu üç yüz araba, həmçinin on min nəfər Xorasan və İraq tüfəngçisi gərək hümayun orduda hazır olsun.

Müqəddəs Məşhəddən Əliqulu xan Şamlını və xasseyi-şərifə qulamı Qərçiqay bəyi müzəffər ləşkərin bir dəstə əskərinə sərkərdə edərək, onları Meymənə vilayətinə və Cicəktuya basqına göndərdi, ona görə ki, həmin sərhəd həmişə özbək ulus və oymaqlarının yaylaqları olduğundan, gərək düşmənlərin vücudundan təmizlənib qarətə mə'ruz qalsın. Onların gedişindən sonra ə'lahəzrət həzrət cinn və-l-insin müqəddəs ruhundan kömək xahiş etdi, zəfər ayəli ordu
**s.619** Herat darüssəltənəsinə tərəf hərəkətə başladı. Müqəddəs Məşhədin yaxınlığında hümayun şahın könlünə "*cərgə şikarı*"ndan zövq almaq düşdü və bir neçə gün həmin fərəh artıran və şənlik bəxş edən ov ilə məşğul oldu. Şadyanalıqla oradan çıxıb Herat darüssəltənəsinə çatdı, İrəm gözəlliyini özündə əks etdirən o yer şahın hümayun qədəmi ilə şərəfləndi.

Cicəktunu qarət etməyə yollanan Əliqulu xan və Qərçiqay bəy həmin vilayəti taraca mə'ruz qoydular. Savaş məqsədi ilə irəli çıxan özbək tayfalarının hər kişi nümayəndəsi zəfərşüar qazilərin qılıncına yem oldu, qadın və qızları isə əsir götürdülər, kəsilən başları və ələ keçən malları (əxtərmə)
**s.620** Herat darüssəltənəsinə gətirərək şahın nəzərinə yetirirdilər.
**(428)** Ə'lahəzrət Heratın gözəl yerlərində, xoş əhvali-ruhiyyə bəxş

edən bağ və bostanlarında bir neçə gün seyr və söhbətlə məşğul oldu, oradan Badğis yaylaqlarına təşrif apardı, iki ayadək ləşkər toplanışı, yaraq və topxanə hazırlığı ilə məşğul oldu. Qalibiyyətli əsgərlər və əzəmətli əmirlər hər gün hər tərəfdən qoşunlar bəzəyərək fələk əzəmətli (gərdunşokuh) orduya qoşulmaqdaydı. *Mirzə, Şah Xacə* və onların yoldaşları da sultanzadələrlə birlikdə gələrək hümayun orduya birləşdilər, onlara zəruri yaraq və döyüş ləvazimatı verildi, *Cahangir Sultan* uca "xan" ləqəbinə layiq görüldü, *Yarməhəmməd Mirzə* onun atalığı təyin edildi.

Səltənətə gəlməsi, xan ləqəbinə layiq görülməsi, Bəlx və oraya yaxın yerlərin onun adına yazılması barədə *Cahangir xanın* adına hökm sadir olundu, əmr verildi ki, Yarməhəmməd Mirzə də *Cahangir xanın* adından qələbə sərdarlarına yərliğlər göndərib onları şahanə inayətlərə ümidvar etsin.

Xülasə, Badğisdə çoxlu ləşkər cəmləndi, üstündə topu, zənciri və yarağı olan üç yüz araba hazırlandı, müzəffər ləşkər köçə hazır oldu. Müzəffər düşərgə bir neçə gün Mürğab çayı kənarında qərar tutdu, oradan Cicəktu tərəfə yollandı. Topxana əmirliyi və bütün topçulara, tüfəngçilərə sərdarlıq etmək Qərçiqay bəyə tapşırıldı, qərara alındı ki, xasseyi-şərifə qulamlarının bir dəstə əsgəri onunla birlikdə olub, gəliş-gediş vaxtı topxanə xidmətində dayansınlar. Bu döyüşkən qoşunun çərxçiliyi isə Herat hakimi *Hüseyn xan Şamlıya* və Mərv hakimi *Bəktaş xana*, Xaf və Baxərz hakimi *Mehrab xana*, Fərah hakimi *İsmayıl xan Alplıya*, Qayin hakimi *Nəcəfqulu xana* və başqalarına həvalə olundu. Qərara alındı ki, sayı süvari və piyada əsgərlər daxil olmaqla on iki min tüfəngçidən ibarət qoşuna başçılıq edən çərxçi əmirləri hərəkətdə olan ordunun yarım fərsəxlik məsafəsində olsunlar, hər gün çərxçi əmirlərinin biri növbə ilə qarovul keşiyində dayansın, çərxçi qoşunundan sonra topçular və arabaçılar arabaları irəli gətirsinlər, ümumi sayı üç min nəfər tüfəngçidən ibarət döyüşçülər isə hər iki arabada on tüfəngçi olmaq şərtilə araba zəncirlərinin arxasınca piyada halda yola düşsünlər.

Topxanə miri Qərçiqay bəy və onun tabeliyində sayı on min nəfər olan qulamlar və başqa tüfəngçilər arabalaın arxasınca dəstə-dəstə və səliqə-sahmanla yol gedirdilər, qızılbaş əmirlərindən şamlı eşikağasıbaşısı Mehdiqulu xana və başqalarına tüfəngçi dəstələrinə köməkçi və topxanaya yardımçı olmaq tapşırıldı, topxanə və tüfəngçi dəstələrindən sonra isə hümayun şah məiyyəti zəfər və qələbə bayraqlarını qaldırıb hərəkətə başladı. Allahverdi xan, Qorçibaşı Əliqulu xan Şamlı, Nədr xan Möhrdar, Kirman hakimi Gəncəli xan və onlar kimi başqa alişan əmirlər əzəmətli qorçilər, xassə qulamlar və fələk ehtişamlı dərgah mülazimləri ilə birlikdə
**s.620** əmr alıb, sağ və sol qolda dayanaraq, zəfər naminə irəli aparılan bayraqların kölgəsi altında hərəkət edirdilər. Bu faydalı səfərdə iştirak edən döyüşçülərin sayı qırx min döyüşkən və müsəlləh əsgər, həmçinin on min nəfər sərrast güllə atan tüfəngçi (*qədərəndaz*)[*] olmaqla siyahıya alındı ki, hamısı birlikdə əlli min nəfər oldu. Hər bir ülka və vilayətdən toplanaraq orduya gətirilən nökər, qulluqçu[**], xidmətkar, sarban, ordubazar əhli və başqa adamlar isə saya gəlmirdi.

Süvarilər yol gedərkən ləşkərin çoxluğu və at ilxılarının (xeyul) tozanağı el yüksəlirdi ki, səhra və göyün fəzası qapqara olur, yanaşı gedən iki adam bir-birini görmürdü. Hümayun qoşunun arxasında on iki kərənay daim səslənirdi, ona görə ki, qorçilər, qulamlar və şah qoşununun mülazimləri öz yerlərində olub hümayun qoldan uzaq düşməsinlər. Bə'zi əmirlər də növbə ilə [şahın] keşiyini çəkir (cəndovoli), ləşkərin ardınca hərəkət edirdi. Düşmən (yaği) məmləkətinin torpağında gecə vaxtı yol getmək qorxulu olduğundan gündüzlər yol gedirdilər. Günəşin istisindən və havanın hərarətindən dəvələr iki-üç fərsəxdən artıq irəliyə bilmirdi. Böyük ordu yolu yavaş-yavaş qət edirdi. Əndxod yaxınlığındakı *Qətləş* adlanan yurdda məşhur özbək bahadırı *Qaraca Qeyqan* bir neçə nəfərlə birlikdə qarovul olan Mehrab xanın mülazimləri tərəfindən tutuldular. Onların məlumatına görə, aydın oldu ki, Baqi xan iyirmi min özbək döyüşçüsü ilə *Qərşidədir*. O, zəfərli ordunun saysız-hesabsız dəstələrlə

Bəlxə tərəf yeridiyini eşitcək, özündə dərya kimi dalğalanan qızılbaş qoşunları ilə qarşılaşmaq qüdrətinin olmadığını bilərək Bəlxdə olan qardaşı Vəli Məhəmməd xanın yanına
s.621 (429) bir adam göndərdi və ona bildirdi: "Həddən ziyadə çox olan qızılbaşlarla vuruşmaq bizim imkan xaricimizdədir və məsləhət də deyildir. Qızılbaşların qayıdışından sonra şəraitə görə fəaliyyətə başlamaq olar". Qardaşının yanına adam yollayan Vəli xan ona bu sözləri çatdırdı: "Hələ tam dəqiq deyildir ki, onlar bizim tərəfə (Bəlxə – *Ş.F.*) gəlirlər, həm də qızılbaş ləşkərlərinin kəmiyyət və keyfiyyəti hələ məlum deyildir. [Belə olan halda] biz niyə vahiməyə düşüb məmləkətimizi əldən verək?" Baqi xan *Qaraca Qeyqanı* Əndxoda – oranın hakimi *Mö'min bəyin* yanına göndərib bu sözləri çatdırdı: "Bir neçə nəfər təcrübəli bahadır [Qaraca Qeyqana] qoşulub Cicəktuya tərəf getsinlər, qızılbaş ordusundan, onların buraya gəlib-gəlməməyindən, ləşkərlərinin keyfiyyət və kəmiyyətindən mə'lumat əldə etsinlər". Bu məqsədlə Əndxoda gələn həmin adamlar İlahinin təqdiri ilə Qətləşdə yaxalandılar.

### ƏNDXOD QALASININ FƏTH OLUNMASI, QALİBİYYƏTLİ ORDUNUN, ALLAHIN KÖMƏYİ İLƏ, BƏLXƏ YÜRÜŞÜNÜN ZİKRİ

Qələbə ayəli, cah-cəlallı ordu qalibiyyət və iqbalın köməyi ilə Qətləşdən çıxıb Əndxod yaxınlığında xeymə qurdu. Məlum oldu ki, Baqi xanın etibarlı mülazimlərindən olan Əndxod hakimi *Mömin bəy* qalaya sığınmağı və qaladarlıq etməyi qərara alıb bürc və barıları möhkəmləndirməklə məşğuldur.

Bə'zi rə'y və təbdir sahibləri məsləhət gördülər ki, Əndxod və yol üstündəki başqa qalaları almadan sürətlə Bəlxə getsinlər, çünki, əgər Bəlx qalası ələ keçirilərsə, başqa qalalar da Bəlx kimi onlara tabe olarlar. Amma, şahın aləmi bəzəyən fikri belə oldu: "Əvvəlcə, qoy Əndxod qalasını ələ

keçirsinlər, çünki bu qala özbəklərin əlində qalarsa, Xorasan-
**s.621** dan ali orduya gəlib-getmək çətin olacaqdır. Yaxşısı budur ki, əvvəl bu qala tutulsun və əsgərlər üçün get-gəl yolu açıq olsun". Ağıllı adamların əksəriyyəti bu fikri düzgün saydılar. Buna görə də yürüş cilovu o tərəfə istiqamətləndi, qələbə [istəyi] və iqballa qala ayağına çatıb dayandılar. Elə həmin gün qalanın hər tərəfi məşhur əmirlər, zəfər şüarlı əsgərlər və qalibiyyətli ordu tayfaları arasında bölündü, murçəllər* çəkilməyə başladı. Qalibiyyət şüarlı əsgərlər qalanı dairə kimi araya aldılar, lağım atmağa və xandaq sularını axıtmağa başladılar. Gecə surən** çəkib hay-haray saldılar, özləri ilə gətirdikləri üç yüz topu və zərbzəni*** on min ədəd tüfənglə bir dəfədə işə saldılar.

İldırım kimi səs salan top-tüfəng və qazilərin surənləri hər yanı zəlzələ və vəlvələyə gətirdi, fələyin qulağını kar etdi. Ertəsi gün, qalalar basan igidlər hər tərəfdən hücuma keçərək, xandağa daxil oldular, oradan keçib özlərini hasara saldılar. Əndxod qalasının sakinləri özlərini hər yandan bəlaya düçar gördülər, qızılbaş ləşkərinin hücumundan hədsiz qorxuya düşdülər. Onlar bərk təşvişlə Mömin bəyin yanına yığılıb özlərinin çarəsizliklərini, qızılbaş ləşkərininsə istilasını izhar etdilər. Qaladakılar vəziyyəti belə görərək aman istəməkdən başqa çarə tapmayıb əllərini aman ətəyinə uzatdılar, "*Əzizan*" (yəni əziz adamlar – *F.Ş.*) adı ilə məşhur olan şeyx və müqtədalarından**** xahiş etdilər ki, öz əziyyət ayağını irəli atıb eşiyə çıxsın və mühasirədə olanlardan ötrü aman istəsin. Belə deyirlər ki, özünü "*əhlüllah*" züməsindən sayan müqtəda özünün gələcəyi görmə (kəşf və mocahede) qabiliyyəti ilə qızılbaş ləşkərinin bu qalanı tutacağını görmüş və belə demişdi: "Güclü düşmənlə savaşmaq – "özünüzü öz əlinizlə məhv etməyin"[1] fərmanına əks olaraq, öz qanına qəltan olmaq və sağ qalma dairəsindən ayağı kənara qoymaqdır".

O əvvəlcə, e'tibarlı adamlarından iki nəfəri şahın yanına yola saldı və qala sakinlərinin acizanə sözlərini çatdırdı: "Əgər bizə şahın mərhəməti olarsa, qala [qapılarını] zavalsız

[1] İfadənin ərəbcəsi: "Va təlqau bi eydikum ilə-l-təhləkəti"

dövlət övliyalarının üzünə bəxt və iqbal kimi açarıq”. Qalanı hümayun ordu mülazimlərinin üzünə bağlayan və cəng ayağı atan Mömin bəyin taxsır və ədəbsizliyinin əfv olunması xüsusunda edilən xahişə əlahəzrət zilləllah şah mülayimliklə yanaşdı, Mömin bəyin və qala əhalisinin cəzalanmayacağı haqda onlara müjdə verdi, Mömin bəyin və qala sakinlərinin adina istimalətnamə sadir etdi ki, məzmunu beləydi: “Bizim sizə tərəf hümayun yürüşümüzün səbəbi Canı bəy sultanzadələrinə imdad etmək olmuşdur. Biz bu vilayətə tamah etmirik, əhalinin və ibadullahın rifahından və rahatlığından başqa heç bir istəyimiz yoxdur, bütün tayfalara qarşı sülh məqamındayıq, həmçinin bizim heç kimin məzhəb və milliyyəti
**s.622** ilə [də] işimiz yoxdur. Buna misal olaraq, bilməlisiniz ki,
**(430)** *Mərv, Nisa və Əbivərd* bu qüvvətli dövlət övliyalarının əlinə keçəndən bəri, məscid və məbədlərdə sünni əhli ilə şiəməzhəb camaatın hərəsi öz şivə və şüarlarına uyğun şəkildə həyat tərzi keçirirlər. Onların heç birinə istəkləri əleyhinə heç nə təklif olunmamışdır və olunmayacaqdır da. Hər həs hara getmək istəsə, buyurub getsin. Rəiyyət və kasıb adamlar qoy asudə tərzdə öz işləri ilə məşğul olsunlar, onlara əsgərlər tərəfindən heç bir ziyan dəyməyəcəkdir”. Şahın yanına gələn [özbəklər] nəvazişləndirildilər və fərəh hissi ilə geri qayıtdılar. Elə bir iltifat sənədinin sadir olmasından sonra əhali arxayın oldu və elə həmin ləhzə bir [dəstə] əzizan, otuz-qırx ə’yan, əşraf və mürid ilə qaladan xaricə çıxdılar, [şah ilə] görüşüb şərəfləndilər. Ə’lahəzrət əzizan ilə özbək sultanlarının qocaman mürşidlə mürid kimi davrandıqları kimi rəftar etdi. Əzizan, əzəmətli əskərlərin bu gecə qalatutma işlərindən
**s.622** əl götürmələrini xahiş etdi ki, sabah Mömin bəy, ərbablar və aşağı təbəqədən (mohəqqər) olan adamlar peşkəş hazırlayıb eşiyə çıxsınlar. Ə’lahəzrət əmr etmişdi ki, bu gecə dəmir biləkli lağımatanlar (nəqbçiyan)* hasarı qoy bir neçə yerdən yarsınlar və dağıtsınlar, sübh başlayan vaxt kərənay çalaraq, qalaya yürüşə başlasınlar. Buna görə də həmin fərmanı alanlar var qüvvələri ilə çalışmaqdaydılar. Ə’lahəzrət, qaladarlıqda vacib əməllərdən sayılan məkr və hiylə işlədildiyindən,

onların sözlərinə etimad etməyib əmr verdi: "Əgər öz dediklərinə sadiqdirlərsə, qaladan elə bu ləhzə eşiyə çıxsınlar, bizim isə heç bir peşkəşə ehtiyacımız yoxdur. Əks təqdirdə sübh vaxtı hərbə hazır olsunlar".

Onlar həyəcanla [şahdan] rüxsət alıb qalaya qayıtdılar, elə saat Mömin bəy bir dəstə özbəklə, yaxın adamlarıyla və öz qohumları olan əyan – əşrafla qaladan çıxıb şah ilə görüşməklə sərəfraz oldu. Onlara izzət və ehtiram nəzəri ilə baxan ə'lahəzrət özbəklərin ürəklərini almaq və mərhəmətli söhbətlər etməklə inam bəxş etdi, əyinlərinə "aman" xələti geyindirdi. Mö'min bəy qalaya qayıtma icazəsi aldı ki, bu gecə öz yerlərinə qayıtsınlar, sabah isə şahın yanına gəlsinlər. Onlar böyük şadyanalıq, qarət və namussuzluqdan qurtulmaq arxayınlığı ilə qalaya döndülər. Sübh, qala qapılarını zəfər və iqbal kimi dövlət övliyalarının üzünə açdılar. Mö'min bəy bütün seyidlər, qazilər, üləmalar və əyan-əşrafla fələk iqtidarlı dərgaha gəldi, sadiq olacaqlarını ərz etdi. Şövkət, vüqar, böyük cah-cəlal və ilahi əzəmətlə bəzənmiş ali bargahda qalıb, hamısı şah ilə görüşməklə işıqlandılar, qiymətli xələtlər almaqla sərəfraz oldular. Əndxod ülkası sultanların nəticəsi olan *Məhəmməd Səlim Sultana* verildiyindən, *Ərəb bahadır Atalığın* onun naibi kimi gedib orada hakim olması qərara alındı, ərbab və rəiyyət öz işləri ilə məşğul olmağa başladı. Müqəddəs ordu mülazimlərindən *Məhəmmədqulu bəy Eşikağası Ərəbgirlini* yüz əlli nəfər süvari və tüfəngçi ilə qalanın qorunması məqsədi ilə Ərəb bahadıra yoldaş etdilər, Mömin xan Baqi xanın yanına gəlmək meylində oldu.

Kamına yetən şah bəyin səmimiyyətini bəyənərək, onu xcüsusi xələt, ciqqə (?) və daş-qaşlarla bəzənmiş kəmərə layiq gördü və getməyinə izn verdi, başqa özbəklərə isə Məhəmməd Səlim Sultanın xidmətində qalmaq ixtiyarı verildi. Elə həmin gün Mö'min bəyin mülazimləri və adamları onun yüngül-ağır bütün şeylərini atlara yükləyərək, Kərki yoluyla və çay kənarı ilə rəvan oldular. Bəyin özü isə günortaya qədər şahın behişt ayinli məclisində qaldı. Adamlar dağıldıqdan sonra xüsusi məclis quruldu, ortaya dostluq

badələri gətirildi, onlar nişat qədəhlərini ələ götürdülər, cürbəcür söhbətlərlə məşğul oldular. Ə'lahəzrət ilhamlı dili ilə rüzgarın ağıllı adamlarına xas olan şahanə sözlərlə Mömin bəyə belə xitab etdi: “Baqi xana bizim duamızı çatdır. Ona de ki, bundan əvvəl biz Məhəmməd Divanbəyi vasitəsiylə öz dostanə sözlərimizi yazıb göndərmişdiksə də, o, cəhalət və qürur üzündən bizim şəfqətli nəsihətlərimizi razılıq qulağı ilə dinləmədi və elə buna görə də bu tərəfə hümayun yürüşümüz vacib bilindi. İndi də biz söylədiyimiz sözlərin üstündə dururuq və mübahisənin aradan qalxması üçün təkrar edirik: Hamıya məlumdur ki, bu gün *Abdulla xan məmləkətlərinin* səltənət taxtının və padşahlığının varisi olan hər iki tifil o dudmandan yadigar qalmışdır. İndi heç də mürüvvət və
**s.623** mərdliklərdən deyil ki, mərhum padşah Abdulla xanın sizin
**(431)** dudmana olan haqqını unudub, onun sülaləsinə mənsub iki yetimi öz irsi mülklərindən uzaqlaşdırasınız və özünüz isə saxtakarlıqla onların bütün irsi mülklərinin sahibi olasınız. Keçmiş vaxtlarda bizim və sizin sülalələr arasında həmişə
**s.623** qətl və hərb atəşi şölələnmişdi. İndi biz bizə pənah gətirən o şahzadələrə yüz il davam edən düşmənçilik gözü ilə baxmayıb, onlara kömək etmək qərarındayıq, ona görə ki, bizdən rüzgarın səhifəsində yaxşılıq etmək niyyəti yadigar qalsın.

Yaxşısı budur ki, Baqi xan Bəlxdən və oraya tabe olan yerlərdən öz tamahını kəssin, oranı o şahzadələrə versin, onun əlinə keçən Mavərənnəhr və Türküstan məmləkətləri ilə kifayətlənsin, Allah-təalaya şükr etsin, qədəmini insaf dairəsindən çıxarmasın. Əgər o dudmandan baqi qalan həmin iki padşahzadəyə öz əcdadlarına xas geniş məmləkətlərdən bircə vilayət verilməsinə razı olarlarsa, onlardan müzayiqə etmək ancaq insafsızlıq ola bilər. Yox, əgər insafsızlıq edib həmin mülkün varislərini tamamilə özlərinin irsi hüquqlarından məhrum etmək istəsələr də, belə əməl xuda və xalq tərəfindən bəyəniləcəkdir. Elə insafsızlığın nəticəsi o sülaləyə qarşı duz-çörək haqqını unutmaq deməkdir və qeyb aləmi tərəfindən bəyənilməyəcəkdir. Əgər Baqi xan bu məsləhətlə razılaşarsa və həmin sultanzadələrlə iltifat və ata-oğul müna-

sibətində olarsa, məni də qoy qardaş məqamında bilsin. Bizim qardaşlıqda qürurumuz olmayacaqdır:

**Beyt**

*Mən bəlagətlə sənə şərtimi ərz eyləyirəm,*
*Sən sözümdən ya nəsihət, ya da ki, al məlal*[1]

Bu həqiqətə söykənən sözlərini dedikdən sonra [ə'lahəzrət] Mö'min bəyi nəvaziş və ehtiramla mürəxxəs etdi. Bəy şahın iltifat badəsi ilə məst olub behiştayin məclisdən çıxdı və yola rəvan oldu. [Şah] Mö'min bəyin aman və amal camını şahanə mehribanlıqla doldurub, onun arxasınca ayıqlıq və agahlıq meyxanəsində hazırlanmış mey ilə dolu bir gümüş kuzə, bir qızıl piyalə və zərli iplərlə toxunulmuş bir döşlük (pişəndaz) göndərdi ki, yolda onun yorğunluğunu dəf' etsin. Ali divana vermək üçün böyük məbləğ pul olan aman malı vergisi ödəməyi öz boyunlarına götürmüş Əndxod vilayətinin əhalisinə şah tərəfindən şahanə kömək olundu və həmin məbləğ ləğv edildi. Bu hərəkət gündən-günə (ruzəfzun) böyüyən bu dövlətə oxunan duaların artmasına səbəb oldu.

## ƏNDXOD QALASININ FƏTHİNDƏN SONRA FAYDALI BƏLX SƏFƏRİ ZAMANI BAŞ VERƏN HADİSƏLƏRİN ZİKRİ

Elə ki, Mö'min bəy şahdan ayrılıb yola rəvan oldu, ertəsi gün fələk əzəmətli ordu qala ayağından qalxaraq Əndxodun bir mənzilliyindəki *Xacə Dekəh* (Dekkə?) adlanan yerdə dayandı. Şah orada bir gün qalıb sahib və əyanların mübahisəli mətləblərinin həlli ilə məşğul oldu. İkinci gün yola düşüb Xacə Dekəhdən iki fərsəx aralıda dayandılar. Burada məlum oldu ki, Baqi xan iyirmi min adamla Ceyhunu keçərək Bəlxə getmişdir.

[1] Beytin farscası:

Mən ançe şərte-bəlağəst ba to miguyəm,
To xah əz soxənəm pənd gir-o xah məlal.

Ə'laházrət elə təsəvvür etdi ki, Baqi xan döyüş ayağını irəli ataraq hümayun şah ordusu ilə döyüşmək fikrindədir. Qələbəyə ümidvar olan əlahəzrətin əmri ilə ali orduda şah nağaraları çalınmağa başladı. O, cəng hazırlığı məsqsədi ilə qarovul, çərxçi, sağ (*saq*) və sol (*sul*) qol (*qul*), *bukrəkçi* (?) və əsgər, həmçinin araba və tüfəngçi dəstələri və başqa hərb alətlərinin nizamlanmasına başladı. Cahan bəzəyən fikir belə oldu ki, yubanmadan hazırlıqlı şəkildə mənzil-mənzil irəliləsinlər, əgər haradasa müxalif döyüşçülərlə qarşılaşarlarsa,
**s.624** döyüş səflərin bəzəsinlər, İlahinin istəyi nədirsə qoy qeyb aləmi tərəfindən həyata keçirilmiş olsun. Məlum oldu ki, bə'zi yerlərdə su qıtlığı vardır və müzəffər əsgərlər və heyvanlar çox olduqları üçün susuzluqdan çətinlik çəkəcəklər.

Ə'lahəzrət, iqbal əsgərlərinin susuzluğdan əzab çəkməmələrindən ötrü o vilayətinin yollarına bələd olan Yarməhəmməd Mirzə və yoldaşlarından yolları xəbər alırdı ki, daha da münasib və suyu bol yerlərdən keçsinlər. Yarməhəmməd Mirzənin və özbək ağsaqqallarının fikirləri belə oldu ki, tez-tələsik hərbə başlamaq məsləhət deyildir, bəlkə də məsləhət budur ki, fələk əzəmətli ordu ləşkərin çoxluğu, adamların bolluğu, havanın hərarəti və istiliyin şiddətlənməsinə görə ahəstə-ahəstə yol gedib, cəngi bir qədər yubatsınlar. Onlar bu qərara gəldilər: Abdulla xanın illərlə çörəyini yeyən özbək tayfaları vaxtın məsləhəti və özlərinin qorunmasından ötrü Baqi xan ilə yaxşı münasibət saxlamaqda və
**s.625** ona itaət etməkdədirlər. Hal-hazırda ki, hümayun şahın
**(432)** zəfərli ordusu o tərəfə hərəkətə başlamışdır, özbəklərə qorxu və dəhşət üz vermişdir. Onlar düşünürlər ki, əlahəzrət Mavərənnəhr vilayətinin fəth olunmasını və özbəklərin cəzalandırılmasını istəyir. Buna görə də, özbəklər zərurət üzündən Baqi xanın başına yığışıb, bacardıqları qədər müdafiə olunacaqlar. Əgər onlar bilsələr ki, ə'lahəzrət zilləllah şahın bu məmləkətə tamahı yoxdur, onun bu yürüşdən məqsədi Abdulla xan sülaləsinin ehya olunmasıdır və vilayət özbək əmirlərinin əllərində qalacaqdır, tədriclə arxayınlaşıb Baqi xandan ayrılacaqlar. Beləliklə də, getdikcə özbəklərin arasına təfriqə

düşəcək və onlar dağılışacaqlar. Biz ki, hər gün bir mənzil yol gedərik, bə'zi özbəklər sultanzadələrin gəldikləri ordunun istiqbalına çıxacaqlar, işıqlı məqsədimiz isə dava-dalaşsız həll olunacaqdır.

Amma, onların bu məsləhəti ali şahın rəyinə müvafiq olmadı. Buna baxmayaraq, özbək ağsaqqalları bu fikri bəyəndiklərindən və qızılbaş dövlətxahları da o rəylə razılaşdıqlarından, həmçinin deyildiyinə görə Baqi xanın məqsədi qardaşını Bəlxdən çıxartmaqdadır və onun [şah ilə] cəng etmək fikri yoxdur, əlahəzrət özbəklərlə məşvərət və məsləhətdən sonra onların fikrinə əməl edərək, sürətlə getməyi təxirə saldı. Hər gün olduqca az yol getməyə başladılar. Yarməhəmməd Mirzənin qohumları olan özbək ə'yanı *Mirzə Məhəmməd bəy* on-on beş bahadırla Bəlxdən gəlib sultanzadələrin düşərgəsinə (məəskər) birləşdi. Aydın oldu ki, yuxarıda söylənilən rəy düzgün (sayeb) imiş və bundan sonra özbəklər dəstə-dəstə onların yanına gələcəklər. Yarməhəmməd Mirzə Cahangir xanın adından özbək əmir və əyanlarına yərliğlər göndərirdi. Müntəzir idilər ki, tezliklə elə bir hadisə baş verəcəkdir ki, mətləbləri yerinə yetəcəkdir. Amma, bu tədbir İlahinin təqdirinə müvafiq olmadı, məqsədə yetişməkdən ötrü iki fitnə-fəsadlı (mofsəde) məsələ qarşıya çıxdı:

Birincisi budur: Yol gedərkən şahın hümayun fikrinə əks olan ləngimələrə müxaliflər mat qaldıqlarından, onların qiyamətəsər qızılbaş ləşkərindən olan qorxusu aradan çıxdı; ikincisi isə budur ki, [Bəlx] vilayətinin suyu və havası ordu əhlinin məzacına uyğun deyildi və onlar havanın hərarətdən, istilikdən yaranan üqunətdən bezir, gilli sulardan istifadə edirdilər, buna görə də əsgərlər arasında bərk xəstəlik yarandı, ishal mərəzi şiddətləndisə də qızılbaşlar iyirmi gün ərzində Bəlx şəhərinin yaxınlığına gəlib-çatdılar. Amma, ləşkərin xəstələnməyini görən əlahəzrət hərbə başlayıb-başlamamaq barədə tərəddüd etdi. Axı, necə də tərəddüd etməyəydi? Axı, gələcəyi düşünən bu hümayun rəy sahibi
s.625 daim xırda işlərdə belə olduqca ehtiyatlı adamdı. Axı, *İran və Turan** *ləşkərləri* arasında qədim vaxtlardan bəri böyük

əhvalatlar baş vermişdir və həmin cənglərin vurduğu ziyan (məfased) şərhə-bəyana sığışmadığından əlahəzrət bunu necə nəzərə almaya bilərdi?

Amma, Baqi xanın vəziyyəti, hamıya məlum olduğu kimi, beləydi: O, elə ki, çayı keçib Bəlxə tərəf hərəkətə gəldi, Mö’min bəy Əndxoddan gəlib özünü ona yetirərək qalanın əldən verilməsi və başqa həqiqətləri xana söylədi. Zahirdə bəy ilə bir döyüşçü kimi davransa da, batində baş verənləri götür-qoy edirdi. Mö’min bəy padşahın əzəmət və cah-cəlalından bir qədər danışıb, zəfərəsər [qızılbaş] ləşkərinin böyüklüyündən xəbər verdi və söylədi: “Özbək döyüşçüləri heç vəchlə elə saysız-hesabsız qızılbaş ləşkəri ilə cəngə girə bilməzlər”.

Heyrət bəhrinə qərq olan Baqi xanın nə geri qayıtmaq, nə də irəli getmək üzü qalmadı. Amma, qızılbaş ləşkərinin gündən-günə ləngiməsi özbəklərin başından-qorxu-hürkünü çıxardı və bu işə bir qədər təəccübləndilər. Hər tərəfdən gələn özbək əsgərləri Baqi xana birləşdilər, onun ordusuna çox adam toplaşsa da, xan cəngə hələ cürət etmədi. Xan şəhər yaxınlığına çıxıb, orada münasib bir qala seçib oraya sığındı, arxasını qalaya və şəhərə çevirib dayandı. O, qabaq tərəfdə xandaq qazdırdı, xandağın arxasını top və tüfənglərlə möhkəmləndirdi və bu yolla şəhəri və qalanı qorumaq qərarına gəldi. Hər iki tərəfin qarovullarının atlarını qovaraq bir-biriləri ilə vuruşduqları birinci hərbdə iyirmi dörd nəfər məşhur bahadır iqbal döyüşçülərinin əlinə keçdi, özbəklər müzəffər döyüşçülərin hücumundan qaçıb şəhər yaxınlığına gəldilər. Artıq bir aya yaxın idi ki, *İran və Turan ləşkərləri* bir-birilərinin qarşısında dayanmışdılar, amma onların aralarında hələ cəng başlamırdı, çünki özbək tərəfindən bircə nəfər də olsa döyüş qədəmini şəhər və qalanın bəst divarından ayırıb irəli atmırdı. Məlum oldu ki, Baqi xanın “*səhra*
**s.626** *cəngi*” etmək* fikri yoxdur. Bu tərəf üçün də sərfəli deyildi
**(433)** ki, qızılbaşlar irəli çıxsınlar, “*səngər, xandaq və şəhər hasarı*”
cənginə başlansın. Yox, əgər qalanı mühasirə etməyə girişsələr bu iş çox vaxt aparar, uzun müddət davam edər, ləşkərəin

xəstəliyi artar, ərzaq azalar, bunlar ləşkəri zəiflədər, qızılbaşların süstlüyünə (zəbuni), müxalif qoşunursa güclənməsinə səbəb olar, səhvlər baş verər.

Əzəmətli əmirlər və ağsaqqallar təkrar-təkrar müqəddəs şah məclisində toplaşıb məsləhətləşir, cürbəcür söhbət-məşvərətlər keçirirdilər. Əlahəzrət belə buyurdu: "Bu yürüşdən bizim məqsədimiz sultanzadələrə köməklik göstərmək və yaxşılıq etməkdir. Əgər, həmişə lovğalıq edən Baqi xan hümayun orduya tərəf irəli çıxarsa, biz də döyüş səflərini bəzəyərdik və bu hərb ilahinin istəyi ilə əncana yetərdi. Bir halda ki, xan üzbəüz vuruşdan çəkinib öz işinin sərfəsinə çalışır, bəs biz niyə fikirləşmədən ləşkəri hasar və səngərə yürüdüb top və tüfəng qarşısında qalaq? Ləşkərimizdə isə xəstəlik şiddətlənir, hər gün bir dəstə əskər ədəm yoluna yollanır. Biz əgər cəhalətə və qürura qapanarsaq, dünyanın şərəf (həmiyyət) və qeyrətini çəkərsək, belə hərəkət müzəffər əsgərlərin və dövlət işlərinin bərk sarsılmasına səbəb olar. Məsləhət belədir ki, bu şəraitdə ləşkərin qorunmasından ötrü uzaqgörənlik edib, geri qayıdaq. Əgər Baqi xan bizi tə'qib etməkdən ötrü xandaq arxasından çıxarsa, cilovu geri döndərib müdafiəyə başlayarıq, əks halda isə sağ-salamat qayıdıb, Allah-taalanın köməyi ilə ordunu arxayın bir yerə çıxararıq və istəyimiz İlahinin istəyi ilə gözəl şəkildə cilvələnər".

Xülasə, məhərrəmül-həram ayının doqquzunda (29 iyun,
**s.626** 1602) fələk əzəmətli ordu oradan geri dönüb, *Xətəb (?) çayını* keçdi və dayandı. Bu köç zamanı məlum oldu ki, müzəffər ləşkərin üçdə bir (sols) hissəsi ağır xəstədir (səqimül-məzac), başqa hissəsi isə başqa bir iş görməyə qadir deyildir o ki, qalmış ola vuruşmağa. Bu vəziyyəti müşahidə edən şahın nurlu xatirindən geri qayıtmaq keçdi. Məlum oldu ki, əgər qayıdış bir həftə də yubansa ordunun vəziyyəti elə pozular (moxtəll) ki, Allah göstərməsin[1] bir daha özünə gələ bilməz.

Elə şəraitdə geri qayıtmaqdan başqa heç bir yol, habelə ləşkərin vəziyyətinin islahından başqa heç bir tədbir bundan yaxşı ola bilməz.

[1] İfadənin ərəbcəsi: "əl-'iyaz bil-l-lahi"

Sözün qısası, onlar aşura günü Xətəb çayının kənarında dayandılar həzrət seyyidəş-şühədanın (İmam Hüseynin – *Ş.F.*) və Kərbəla səhrası təşnələrinin təziyə mərasimini keçirdilər. On birinci gün "geri qayıtmaq daha məsləhətdir"[1] dedilər və köç başlandı. Birinci dəstədəki çərxçi əmirlərinə tapşırıldı ki, ləşkərin ardınca gəlsinlər, gündüzlər ehtiyat tədbirləri görsünlər, gecə vaxtları isə ordunun yarım fərsəxliyində dayansnlar. Elə ki, o hüşyar yuxusuzlar (bidardelan) geridə dayanma (pas) və keşik çəkmə işinə başladılar, "nə qədər ki, müxalif ölkədəyik düşmənin gecə basqınından (şəbixun) arxayın ola bilmərik" fikrini bir ləhzə də yaddan çıxarmadılar. Böyük ordu bu dəfə üç fərsəx yol gedib dayandı. Bir az sonra birinci dəstənin [çərxçi əmirlərindən] belə xəbər gəlib yetişdi ki, müxalif tərəfdən gələn ləşkərin qaraltısı görünməkdədir və onlar yavaş-yavaş bizə yxınlaşırlar. Qiymətli hökm səsləndi: "Əgər müxalif qoşun cəng əzmi ilə gəlib hərbə başlayarsa, ön dəstə müdafiyə başlayaraq bizi döyüşün gedişatı haqda məlumatlandırsın, yox, əgər özbəklərin cəng etmək fikirləri yoxdursa, qoy bizim döyüşçülər özlərini qorumaq məqsədi ilə hərbi ehtiyatkarlığı əldən verməsinlər və qazilər hərb etməyib özlərini ahəstə-ahəstə hümayun orduya çatdırsınlar".

Çox keçmədən, özbəklərin böyük bir ləşkərinin hərb etmək məqsədilə irəli gəlmələri haqda xəbər gəldi. Məlum oldu ki, özbəklər atlarını sürətlə çapıb, özlərini qazilərə çatdırmış, arada hərb atəşi şölələnmişdir ki, daha ehtiyatkarlıq işində iş-işdən keçmişdir. Ə'lahəzrət *İbn Hüseynxanı* və bə'zi cığatay əmirlərini ordu mühafizəsinə təyin edib dövlətin və iqbalın qələbəsi naminə atlandı, araba və tüfəngçi dəstəsini irəli yolladı, hümayun qolun sağ və sol cinahını döyüş meydanının təcrübəli və igid döyüşçüləri ilə möhkəmləndirdi, zəfər və iqbal bayraqlarını yuxarı qaldıraraq düşmənlə qarşılışmağa yollandı. O, bə'zi əmirləri çərxçi ləşkərinə kömək tə'yin edərək irəli göndərdi, hümayun qol isə onların ardınca hərəkətə gəldi. Onlar ordudan bir yarım fərsəx aralanaraq, döyüş

[1] İfadənin ərəbcəsi: "əl-avud əhmədu"

meydanına yaxınlaşdılar. Bu vaxt, əzəmətli qazilər ələ keçirilən bir özbək bahadırını gətirdilər. Əsirin sözlərindən məlum oldu ki, qızılbaşların köç etmələri xəbəri Baqi xana çatdıqda fikrə daldı: "Görəsən bu qayıdışa səbəb nə olmuşdur?" Bə'zi adamlar bunun səbəbini orada dayanıb çox ləngimədə, sıxıntı (osrət) keçirməkdə və azuqə qıtlığında görüb dedilər: "Gərək fürsəti əldən verməyib onların təqibinə başlayaq". Dünya görmüş və
**s.627** təcrübəli bə'zi ağsaqqallar və atalıqlar məşhur olan və dünya
**(434)** cəngi səhifəsində yazılan *həzrət Şah İsmayıl ilə Şahi bəyin cəngini xatırlatdılar:* "[Şah İsmayıl] Mərvdən bir mənzil aralandı. Şahi bəy dözməyərək onun tə'qibi üçün qaladan çıxdıqda qızılbaşlar geri qayıdıb cəngə başladılar. Zəfər və iqbalın [uğuru] həmin şir ürəkli padşaha (Şah İsmayıla – *Ş.F.*) nəsib oldu və Şahi bəy xan qətlə yetirildi. Ola bilər ki, [bu] alicah şah da sizinlə həmin hərəkəti etmiş olsun". [Beləliklə,] onlar [Baqi xana] qızılbaşları təqib etməyi məsləhət bilmədilər. Amma, döyüşkən bahadırların bir dəstəsi qızılbaşların ardınca yollandı, çaya çatıb o biri sahilə keçdi, döyüşə hazırlaşdı. Bu tərəfdən də, əzəmətli əmirlər ləyaqətlə cəngə başladılar. Hər iki tərəf igidlik nümayiş etdirdi. Çərxçilərin qarovulu və döyüşün ön sırasında olan Bəktaş xan Ustacı mərdanə həmlələr edərək, müxalifləri çayın kənarınadək qovdu və özbəkləri çayı keçməyə məcbur etdi.

Bu əsnada, hümayun şah ordusunun döyüş meydanına gəlməsi xəbəri gəldi. [Bundan ruhlanan] Bəktaş xan və Nəcəfqulu xan Şamlı bir dəstə qalibiyyətli igidlər və qol ləşkəri ilə çayın o tərəfinə keçdilər, orada cəng qızışdı, günəşin qürubünadək davam etdi.

Qürubdan sonra şahın zavalbilməz iqbalının gücü ilə zəfər nəsimi müzəffər əmirlərin və iqbal qoşununun bayraqlarına tərəf əsdi, müxalif ləşkər məğlub oldu. Qazilər hava qaralanədək müxaliflərə hücum edib ya onların başlarını, ya da özlərini gətirməkdəydilər. Günəş ordunu hələ ki, işıqlandıran vaxt müxaliflərin xəbəri gəlib çatdı. Ə'lahəzrət əmirlərin yanına qadağan məqsədilə bir adam göndərib onlra əmr etdi ki, artıq gecə yetişdiyi üçün qazilərdən bircə nəfər də

çayın o biri tərəfində qalmamalı, geri qayıtmalıdır. Şah müxaliflərin məkr və hiyləsindən xatircəm olduqda, hümayun məiyyət ali orduya tərəf qayıtdı və gəlib hümayun dövlətxanada dayandı. Ə'lahəzrət gecədən altıda bir hissə (dang) keçənəcən kəsilən başlara və gətirilən əxtərmələrə baxmaqdaydı.

O zaman, mötəbər özbək əmirlərindən *Əbdülrəhman* bəy adlı birisi əsir götürülmüşdü. O, şaha göstərildikdə özünün kim olduğunu söylədi. Ali əşrəfin (şahın – *Ş.F.*) gözəl adətlərindən və yaxşı xüsusiyyətlərindəndir ki, o, [bə'zi] əsir götürülənlərlə əvvəlcə qiyabi tanış olur, sonra onlarla mehman kimi davranırdı. Bu dəfə də şah öz adətinə əməl etdi. Elə o dəm Əbdülrəhman bəyin qolundan zəncirini (bəndardəst) açdılar, əynindəki qanlı paltarını çıxarıb, ona təmiz paltar inayət etdilər, başqa əsirləri isə elə o gecə cəzaya mə'ruz qoydular. Qızılbaşlar tərəfindəndə məşhur adamlardan Mehrab xan Qacarın qardaşı Şərif bəydən başqa heç kəs tələf olmadı. Bir neçə kəs belə dedilər ki, əgər hümayun ordu bu hərbdən geri qayıdıb, sübh vaxtı Bəlxə tərəf getsəydi, Baqi xan və özbəklər daha orada dayanmağa və hərb etməyə cürət etməzdilər.

Amma, ə'lahəzrətin düzgün məqsədə yönələn rə'yi (sayeb) geri qayıtmaq qərarında qalmışdı, çünki ləşkər içərisində xəstəlik çoxalmışdı. Buna görə də, şah zəfər ehtimalı ilə batində danışanların sözlərinə qulaq asmayıb ehtiyat yolunu tutdu və bu fikirdən dönmədi. Hərbi işlərdə və qərardan dönməməkdə bu qədər fəth və zəfər qazanan şah öz fikrini dəyişmədi. Həqiqətən də, o vaxt bu qələbədən də üstün olan başqa bir fəth olmamışdı. Gecə yarısına yaxın idi ki, mərəkə meydanının ad-sanlı əmirləri geri qayıdıb, şaha təbriklərini təqdim etdilər, şahanə nəvazişlərlə sərəfraz olub, öz ordularına qayıtdılar.

Əmr oluünduğu kimi, birinci dəstədə ehtiyat işlərinə əməl olunmaqdaydı. Əgər işdi-şayəd (ehyanən) ləşkərdəki piyadalardan, yaxud zəif adamlardan biri geridə qalardısa, onu özləri ilə birlikdə götürüb gətirirdilər. Vəfat edən xəstəni isə

elə oradaca dəfn edirdilər ki, dəfn yeri mə’lum olmasın. Birinci dəstənin əmirləri ilə kifayətlənməyib, yüzbaşılar və əzəmətli qorçilər ordunun sağ qoluna, bə’zilərsə sol qoluna təyin olundu. Tapşırıldı ki, [hər gün] yarım fərsəx, bədkə daha da az yol getsinlər ki, əgər özbəklər hücuma keçsələr, dərhal onlara qarşı çıxıb, agahlığı əldən verməsinlər.

Xülasə, ehtiyat tədbirlərinə əməl olundu. Elə ki, Əndxoda gəldilər, qarətkarlıq və əsir tutmaq haqda verilən qadağan aradan götürüldü. Qarətkarlar yaxınlıqdakı hər tərəfə, xüsusilə, Sibirqana gedib, əllərinə hər nə keçirdisə, zəbt edib gətirirdilər. Ali ordu qala ayağında bir gün dayandı. Böyük adamların, əyanların, qazilərin, müftilərin və Əndxod qəsəbəsinin bütün əzəmətli şəxslərinin adları siyhıya alındı, qərar verildi ki, onların hamısını İraqa aparsınlar. Hər ailəni ordunun bir adamına təhkim etdilər ki, onları öz dəvələrinə mind-
s.628 irib Xorasana və İraqa çatdırsınlar. Həmin abad qəsəbə bir göz qırpımında (torfətül-eyn) viranəyə çevrildi. Qadın və qızların çoxusu əsir götürüldü. Əndxodlu əsir adamı olma-
s.629 yan adam az idi. Bu vaxt yada belə bir məqam düşdü, hərçənd
(435) əvvəlki illərin təsvirində bu barədə yazılmışdı, amma onun təkrarı yenə də münasibdir. Təcrübəli aqillərin işıqlı yaddaşlarından və rüzgarın agah adamlarından gizli qalmasın ki, keçmiş zamanlarda özbək sultanlarının Xorasana, rum xaqanlarının isə Azərbaycana o yerləri tutmaq, yaxud qarət etməkdən ötrü gələn döyüşçülərinə müsəlmanların əyalını və uşaqlarını əsir götürmək cayiz deyildi. Onlar şiəməzhəb ölkələrdən əsir aparmırdılar. Qızılbaş ləşkəri də heç vaxt o pis (məzmum) işə qurşanmırdı. Amma, Rum xandgarı *Sultan Murad xanın dövründə* rum və tatar ləşkəri bu işi *Azərbaycanda və Şirvanda etdilər*. Belə ki, Təbrizin fəthi zamanı Haşimi peyğəmbərinin nəslindən olan seyid uşaqlarını əsir götürüb, İstanbulda firəng kafərlərinə satırdılar. Abdulla xanın və onun oğlu Əbdülmömin xanın zamanında da, özbəklər Xorasanda o pis əməli görməyə başladılar. Müqəddəs Məşhəddə həzrət imaməl-cin və-n nasin, habelə məşhur adamların, üləmaların, zahidlərin, namuslu ərbabların, hərbçi

şəxslərin və rəiyyətin bir neçə min təbəəsi əsir aparılaraq, Türküstanın və Mavərənnəhrin uzaq yerlərində (əqsa) satılıb Kabul və Hindistana qədər aparıldılar.

Dünya mükafat evi olduğundan və həqiqi qənimət sahibi olan Haqq-taalanın iradəsi ilə (məşiyyət) özbəklər tərəfindən elə bir iyrənc işə əməl edildiyindən, fələyin və asimani hadisələrin tələbatı (eqteza) ilə pis işlərə göz yumulduğu (eğmaz) üçün qəzavü-qədər icraçılarının təhriki ilə bu yürüşdə də bir neçə min adam əsirliyə giriftar olub öz vətənlərindən ayrı düşdü. Ondan sonra Astrabad hakimləri də dəfələrlə müsəlmanlıqda quru addan başqa heç nəyi qalmayan oxlu və kuklən düşmənlərini cəzalandırmaqdan ötrü ləşkər çəkərək, o imansız adamların çoxunu əsir etdilər. Amma, bu işi bəsirət gözü və insaf [nəzəri] ilə müşahidə edənlər şahın bu işini pisləmirlər. Həqiqətən də zilləllah şah belə işi görməkdə hidayət sahiblərinin savabına yetişmişdir, çünki, zəfər döyüşçülərinin arasında əsirlərə qarşı ixtiyarsızlıq (rəqqiyyət) və bəndəlik (bəndegi) edilməsinə yol verilmir, əsirlərlə əsir kimi rəftar olunmurdu. [Belə ki,] şiə əhli və əhli-iman arasında böyüyən minlərlə qadın və qız Həqqin məzhəbinə gəldilər.

İndi isə, sözümüzə qayıdaq: Hamılıqla Əndxoddan çıxıb köç-köç yola rəvan oldular. Ə’lahəzrət ehtiyatkarlıqla, günəşin havadakı hərarətdən fələk təndirində qovrulduğu vaxt, qoşun və ləşkəri dilbirliklə (təbani) irəli aparır, hərbçi kimi, onların qayğısına qalmağı bir dəqiqə belə unutmurdu. Qətləş yaxınlığında hücumla gələn bir dəstə özbək, ordunun sol qolunu qoruyan ustaclı qorçiləri ilə qarşılaşdı. Qorçilər qürur üzündən ehtiyatı unudaraq dağınıq və etinasız halda yol getməkdə idilər. Şibirgandan ülkanı qorumaq məqsədi ilə gəlmiş bə’zi özbəklər qorçilərin qəflətindən xəbərdar olub, qəflətən onlara hücum etdilər, qorçilərin özlərinə gəlib müdafiəyə hazırlaşmalarınadək onların bir neçə nəfəri özbək gülləsinə tuş gələrək məhv edildi. Əlahəzrət onların yüzbaşılarını cəza (yərğu), danlaq (itab) və nəsihət (xetab) təriqilə cəzalandırdı, bütün o camaatın, həmçinin onların el və

oymaqlarının üzərindən ixrac qələmi çəkdi və həmin adamlar bir neçə il qəzəbə düçar oldular. Amma, Azərbaycan yürüşündə və rumilərlə olan cənglərdə onlar mərdanəlik göstərdilər, hər biri yenidən xidmətə cəlb olundu, təqsirləri əfv edildi, barələrində hökm yazıldı və təzədən qorçilər silkinə qatıldılar. Buna baxmayaraq, onlar yenə də yaxın-uzaq adamlar arasında etmiş olduqları təqsirlə danlanmaqdadırlar.

Xülasə, bir neçə köç edib Cicəktuya çatdılar, oranın [da] qalasını dağıdıb yerlə bərabər etdilər, oradan çıxıb Maruçaqa
**s.629** gəldilər, Maruçaq qalasını möhkəmlətməyə başladılar.

Nəzərəli Sultan Şamlının o sərhədlərin zəbt olunmasında ləyaqətsizliyi məlum olduqda onun vəzifəsini müqəddəs Məşhəd hakimi Budaq xanın oğlu Yusifqulu xana verdilər, həmçinin onun qardaşı Bayraməli Sultana da o vilayətdə ülka verdilər, qardaşına köməkçi təyin etdilər. Yusifqulu xanın ləşkərinin layiqli ehtiyacını təmin etməkdən ötrü zər, silah, yaraq, qalaya zəruri şeylər və azuqə verdilər. Muqəddəs Məşhəd hakimliyi Mehrab xana verildi. Pəncdehdə *Bəktaş xan* və oğlu *Mülkəş Sultan* rüxsət alaraq Mərvə – özlərinin
**s.630** tiyul yerinə getdilər. Hümayun ordu oradan çıxıb Herat
**(436)** darüssəltənəsinə doğru yollandı, qələbə və iqballa həmin cənnətmisal şəhərə daxil oldu. Həmin darüssəltənədə ə’lahəzrətin cəlal qulağına bu xəbər yetişdi ki, Baqi xan Cicəktuya ləşkər göndərmişdir və Xorasan sərhədinə əl uzatmaq fikrindədir. Əlahəzrət bir dəstə qalibiyyətli əsgəri onların üzərinə yolladı. Onlar hücuma keçib həmin özbəklər dəstəsini hələ müzəffər ləşkər gəlib-çatmazdan əvvəl dağıtdılar, qələbə və iqballa geri qayıtdılar.

Həqiqətən də, bu yürüşdə ə’lahəzrətin özü şəxsən cürbəcür çətinliyə qatlaşdı və müzəffər əsgərlər də böyük zəhmət çəkdilər. Hər tayfadan çoxlu adam ishala düşüb tələf oldu. Belə ki, ləşkərin əksər kasıbları və aşağı təbəqədən olanlar öz xəstələrini atlara yükləyib mənzil başına çatdıra bilmir, qeyrətə sığınaraq qorxurdular ki, məbadə birdən özbəklər qana susayıb xəstələrin başını kəsərlər, buna görə də hələ nəfəslərinin kəsilmədiyi halda onları torpağa quyulayırdılar.

Həmçinin qüsl və dəfn mərasiminə şəriətə uyğun şəkildə əməl olunmurdu. Sədaqətli adamlar vəlineməti (Şah Abbası – *Ş.F.*) əbədi həyat sahibi bilirdilər.

Xülasə Heratda olduqları on-iyirmi gündə, hələ də həmin hadisələrin təəssüratı qalmaqdaydı. Bu yürüşdə axirət aləminə yollanan məşhur adamlar bunlardır: Nəcəfi-əşrəf nəqiblərindən olan, cənnətməkan şah zamanı "böyük əmirlər" silkinə mənsub edilən, mübarək möhrün* möhrdarı vəzifəsini idarə edən *Seyid bəy Kəmunə*. Onun babası Seyid Məhəmməd Süleyman şanlı xaqanın dövründə Bağdadda şahsevənlik şüarı etmiş Hellə hakimi idi. O, həmin həzrətin müqəddəs ordusu tərkibində olub, Çaldıran cəngində şəhid oldu. Hümayun cülus zamanı[1] onun ülkası, tiyulu, həşəmət və böyüklük ləvazimatı[2] əlindən alındığına baxmayaraq, amma hələ də möhrdarlıq mənsəbi saxlanılmışdı və şahla zahiri yaxınlığı vardı.

Başqa [vəfat edən məşhur adam] Allahverdi xanın evində həmişə izzətli və ehtiramlı mehman olmuş *Lar valisi İbrahim xan* idi ki, ishal mərəzindən keçindi.

Başqası, şamlı tayfasının mötəbərlərindən və şaha yaxın adamlar silkinə mənsub olan *qurxanə yasovulbaşısı*** *Qasım bəy Şamlı* idi.

Başqası, Şiraz seyidlərindən və bu vilayətin möhtəsibi*** olan *Mirzə Yaqub Dəstqeybdir* ki, bu mərəzə (islah – *Ş.F.*) giriftar olub Heratda vəfat etdi.

Başqası, ruzigar fazillərindən və nadir söz sahillərindən *Mövlana Qovsi Şüştəri* idi. Onun ömür ağacı əcəl küləyindən (sərsər) qurudu və Əndxodda dəfn olundu.

Xülasə, hər tayfa və təbəqədən çoxlu adam fəna yoluna yollandı. Biz burada söz ipini uzatmırıq və qələmin dilindən
**s.630** tutub çəkirik. Bütün iman əhli olan kəslərə Allah rəhmət eləsin.

---

[1] Şah Abbasın cülusu nəzərdə tutulur – *Ş.F.*

[2] Əmir mənsəbinə layiq şəxslərə təqdim olunan ləvazimat – *Ş.F.*

## ALƏM XOSROVUNUN (ŞAH ABBASIN – *Ş.F.*) XORASANDAN İRAQA QAYIDIŞI VƏ ONUN ALLAHIN YÜKSƏK İLTİFATI VƏ XEYİRXAHLIĞI[1] SAYƏSİNDƏ AFİYƏT VƏ ÜRƏK XOŞLUĞUYLA DÖVLƏT PAYTAXTINA GƏLİŞİ

Qələbə ayəli ordu Bəlx səfərindən qayıdıb, Herat darülsəltənəsində olduğu bir neçə gün ərzində əlahəzrət oranın tənzimlənmə işləri ilə məşğul oldu, sonra isə müqəddəs Məşhədə təşrif apardı. Orada [da] bir neçə gün Xorasanın qiymətli hakimlərinin, sahiblərin və əyanların mətləb və mübahisəli məsələləri ilə məşğul olaraq, şahanə nəvazişlər və xələtlər verməklə hamını sevindirdi və sərəfraz etdi, onlara geri qayıtmaq icazəsi verdi. O, iki-üç gün də müqəddəs astanaya (İmam Rza rövzəsinə – *Ş.F.*) gedərək öz şərif vaxtını rövzə sərkarının, ərizə verənlərin, seyidlərin, xidmətçilərin, vəzifə sahiblərinin və başqa işlərin qaydaya düşməsinə sərf etdi, oradan İraqa tərəf yollandı, bir neçə gün Radkan Ələngində iqamət çadırı qurdu, əzəmətli qorçiləri və sərkare-şərifə mülazimlərini qəbul etdi, daha bir neçə gün də şikar nəşəsinə daldı. Bu səfərdə ləyaqətlə xidmət göstərənlərin bir dəstəsini ənamlarla sərəfraz etdi, bir neçə müqəssir isə xidmətdən kənarlaşdırıldı. Bu işləri yerinə yetirdikdən sonra, Xəbuşan yolu ilə ov edə-edə mənzilə tərəf üz tutdu. Əzəmətli ordunu ağrəqlə birlikdə Bəstamın Hənəkməğz yoluyla göndərdi, özü isə demək olar ki, tənha halda (subay) az miqdar müqəddəs qoşun mülazimiylə Dərun ülkasına təşrif apardı, Dərun qalasının əgər-əskik işlərinə nəzər yetirdi. Mirçeşmgəzəkin xasseyi-şərifə qulamı olan *Şahqulu Sultana* yüksək əyalət və xan rütbəsi verməklə sərbülənd etdi, Dərun hakimliyini ona verdi. O yerin işlərindən xatircəm olub, Xar ülkasında əzə-
**s.631** mətli orduya birləşdi. Özbək sultanzadələrinə Yarməhəm-
**(437)** məd Mirzə və yoldaşları ilə birlikdə rüxsət verərək, onları özünün bağışladığı və sakin olacaqları yerə yolladı. Siyahkuh yoluyla Kaşana gəldi, [bu münasibətlə] Kaşan əhalisi

[1] İfadənini ərəbcəsi: "Bi-məyamin əltaf mə'liki-l-mülki bi-l-istihqaq"

şəhəri çırağban etdi. Üç gün orada şənlik keçirildi. Kaşandan İsfahan darüssəltənəsinə tərəf getdi, qələbə və iqballa bu əbədi dövlətin paytaxtında iqamət etdi. Ə'lahəzrət şənlik artıran payız və qış fəslini həmin darüssəltənədə işrət və şadyanalıqla keçirib hamıya rahətlik (fərağət) və sevinc bəxş etdi.

Baş verənlərlən biri, böyük cah-cəlal sahibi *Cəlaləddin Məhəmməd Əkbər padşahın** əmirlərindən olan Qəndəhar hakimi *Şahibəy xanın göndərdiyi elçinin* gəlişidir. O, ali saraya sədaqət ayinli bir məktub yazaraq, öz sadiqliyini, dövlətxahlığını və bəndəliyini izhar edirdi. Şahibəy xan həmçinin nəfis mallar və layiqli peşkəşlər göndərmişdi. Ə'lahəzrət onun elçilərini nəvazişləndirdi və onlara qiymətli hədiyyələr verdi.

## MÜZƏFFƏR MƏİYYƏTİN QAYIDIŞINDAN SONRA BAQİ XANIN VƏZİYYƏTİNİN ZİKRİ

Gələn adamlar belə xəbər gətirdilər: Müzəffər qızılbaş ləşkəri ilə, yuxarıda yazıldığı kimi, hərbindən sonra qələbə zəfərnişan əsgərlərə nəsib oldu və özbəklərin məğlubiyyəti xəbəri Baqi xana çatdı. Xanın əhvalı pərişan oldu. O, elə həmin gecə fərar yolunun yolçusu olub Mavərənnəhrə tərəf qaçmaq fikrinə düşmüşdü. Amma, dünyagörmüş bə'zi ağsaqqallar aə atalıqlar ona həmin gecə mane olmuşdular. Ertəsi gün isə məlum oldu ki, [qızılbaş] ləşkərinin xəstəliyinin şiddətlənməsi səbəbindən hümayun şah ordusu Xorasana yollanmışdır. Bunu eşidən Baqi xan tamamilə arxayınlaşmış və [sevincindən] öz şadlıq papağını asimana tərəf atmışdı.

Allahın təqdir səhifəsində səbt olunmuşdu ki, Baqi xan qoy bir müddət o vilayətdə (Mavərənnəhrdə – *Ş.F.*) öz iqtidar bayrağını qaldırıb, hakimiyyətə çatsın. Ona belə böyük bir
**s.631** vəzifə asanlıqla qismət oldu və dövləti yüksəlişə doğru üz tutdu. Ali ordunun geri qayıtmasından sonra, Baqi xanın ləşkəri çoxaldığı üçün o, Bədəxşana yürüş etmək istədi, çünki Əbdülmömin xanın öldürülməsindən sonra özbəklərin qor-

xusundan dağlıq (kuhestan) yerlərə qaçıb-gedən cığatay və Bədəxşan əhalisi hər yandan baş qaldırıb bir yerə toplaşdı. Əhrar xacələri nəslindən Bədəxşan valisi Şah Süleymanın qız nəvəsi olan Bədiüzzaman adlı bir şəxs özünü vali elan edərək özbəkləri o mülkdən qovmuşdu.

Özbəklər arasında zəifliyin (fetrət) baş verdiyi bu iki-üç ildə o vilayət həmin mirzənin və cığatay qoşununun əlindəydi. Baqi xan o vilayət üzərinə getdikdə, özündə "səhra cəngi" qüdrəti görməyən *Bədiüzzaman Mirzə* qalaya sığındı, amma bədəxşilərin əksəriyyəti ona vəfasızlıq edib dağılışdılar. Nəticədə, Baqi xan qalanı tutdu, Bədiüzzaman Mirzəni ələ keçirib öldürdü, Bədəxşan vilayətini bir nəfər etimad etdiyi əmirə tapşırdı. Bu hadisələr baş verən vaxt, Baqi xanla düşmənçiliyi olan bə'zi əmirlər cəzaya məruz qaldılar. Məsələ belə olmuşdur: Cah-cəlal ordusunun yürüşü zamanı, Baqi xandan inciyən bə'zi əmirlər Bəlxdə bir-birləri ilə danışığa girərək, ona qarşı sui-qəsd qərarına gəlmiş və *Cahangir xana* meyl göstərmişdilər.

Lakin hümayun ordu geri qayıdandan sonra, həmin fikirdən daşındılar. Sui-qəsd təşkil etmək istəyən adamların biri xana öz sədaqətini ərz edib onun yanına gəldi və həmin sirri açdı.

Həmin vaxtlarda Baqi xan biganə ləşkərin qorxusundan (qızılbaşların- *Ş.F.*) xatircəm olmuşdu, buna görə də Bədəxşan işlərini də ürəyinin istəyinə uyğun həll etdi, bədxah adamları dəf etmək qərarına gəldi. Xan sui-qəsd işini təşkil etmək istəyən öhbəkləri bir bəhanə ilə məşvərətə (kəngaş) çağıraraq, özünün bə'zi sədaqətli və fədəvi* adamldarını pusquda saxladı. Söhbət zamanı xan onları danlağa tutub, təşkil edəcəkləri sui-qəsddən söz açdısa da, o camaat bunu inkar etdi. Amma, həmin sirri Baqi xana demiş şəxs onların üzünə durdu. Xan hökm çıxartdı, onların həbs olunmaları haqda fərman sadir etdi. Elə həmin ləhzə məşhur özbək əmirlərindən otuz-qırx nəfər öldürüldü. Xan onların yerinə özünün tərbiyət etdiyi adamları təyin edərək, şadlıq və iqballa Buxaraya qayıtdı və onun dövlət çəməni təzədən göyərməyə başladı. Xan

**s.632** Daşkənddə istiqlal bayrağı qaldıran *Kəlri (?) Məhəmmədcan*
**(438)** *Qazaq* ilə mülayim davranmağa başladı. [Məhəmmədcanın] üləma və ağsaqqalları məzhəbin qüvvətlənməsindən ötrü onunla sülh məqamına gəldilər, elçilərini xanın yanına yolladılar. Baqi xanın fikri həmişə Daşkənd vilayətini ələ keçirtmək idi və oranı hər hansı yolla Qazağın əlindən çıxartmaq istəyirdi. Amma, qızılbaş qoşununun hücum qorxusundan onunla sülhə gəldi, vaxtın məsləhətinə uyğün şəkildə barışıq yoluyla davrandı, amma, yenə də Bəlx yürüşündə müşahidə etdiyi şah ordusunun çoxluğu qorxusundan qayğılandı. Xan uca şahın bu yaxınlıqlarda bu diyara ləşkər çəkəcəyini söyləyirdi. O, qızılbaşlar barədə əvvəllər danışdığı boş sözləri tərk edərək, dilini qarnına qoydu. Xan özünün sərhəd əmirlərinə deyirdi ki, Mərv, Maruçaq və Heratın əzəmətli əmirləri ilə aşinalıq etsinlər, qoy onlar bir-birilərinə qarşı düşmənçilik etməsinlər, biri-digərinin məmləkətinə zərər yetirməsinlər, karvan və tacirlər gediş-gəlişinə mane olmasınlar.

Əzəmətli əmirlər məsələni ali saraya ərz etdilər. Cah-cəlallı şah tərəfindən də belə bir hökm sadir oldu ki, rəiyyətin rahatlığından ötrü özbəklərə tərəf əgər hümayun yürüş başlamazsa, sərhəddin əmniyyəti barədə çalışsınlar, gedib-gələnlərin və tacirlərin gediş-gəliş qapılarını bağlamasınlar. İki-üç il tərəflərarası savaş baş vermədi, hər iki tərəfdən bir-birinə qarşı əliuzunluğa yol verilmədi. Xorasan vilayəti bü
**s.632** qüvvətli dövlətin gücü ilə artıq əmin-amanlıqdaydı.

**Özbək padşahı Baqi xanın vəfatı:**

Amma həqiqəti müşahidə edən adamlar söyləyirlər ki, ləşkərin vəziyyəti yaxşılaşdırıldıqdan və müzəffər əsgərlərin rahatlığı təmin olunduqdan sonra təzədən Bəlxə yürüş baş verdi, amma bu dəfə Allahın köməyi ilə şahın istəyi uğurla nəticələndi. Baqi xan həmişə elə bundan qorxurdu. O vaxtlarda fələyin təqdiri ilə Bağdad və Azərbaycan sərhədinə rumulərin bə’zi hücumları başlandı. Buna görə də hümayun ordunun yürüşünün o səmtə istiqamətlənməsi zəruri oldu ki, bu haqda gələn ilin hadisələrinin təsvirində yazılacaqdır. Bu xəbəri eşidən Baqi xanın hüma-

yun yürüş barədə qorxusu dağıldı və o, tamamilə rahat oldu, dövlət və iqballa işrət içində yaşamağa başladı. Amma, qəddar zəmanə, özünün adət etdiyi kimi, Baqi xanın iqtidarının davamı xüsusda çox çalışmadı. Bir neçə gün içində, şahın ilhamlı dil ilə dediyi fikir – yəni, Baqi xanın Abdulla xana qarşı çıxışı, onun sülaləsindən çıxan yetim oğlanlara etdiyi insafsızlığı və onları öz irsi mülklərindən məhrum etməsinin mükafatını aldı və əcəl tacına giriftar oldu, Baqi xan min on üçüncü ildə (1604/1605) fani dünyadan baqi aləminə köçdü:

**Beyt**

s.633 *Həyatını əcəl o təhər aldı,*
*Taxtından düşürüb, taxtaya saldı*[1].

---

[1] Beytin farscası:
Əcəl xaneye-omr pərdaxtəş
Ke əz təxt bər təxte əndaxtəş.

## BƏZİ ADAMLAR TƏRƏİFNDƏN MİN ON BİRİNCİ (1602-1603), BƏZİLƏRİ TƏRƏFİNDƏNSƏ MİN ON İKİNCİ (1603-1604) İL KİMİ QƏBUL EDİLƏN VƏ HÜMAYUN CÜLUSUN ON YEDDİNCİ İLİNƏ TƏSADÜF EDƏN MÜBARƏK DOVŞAN İLİNDƏ BAŞ VERƏN HADİSƏLƏR

*Cahanı nurladan o günəş yenə,*
*Göstərdi gücünü yer iqliminə.*
*Hamı şadimandır, kədər qaçıldı,*
*İşrət qapıları yenə açıldı.*
*Təzədən birləşdi gündüzlə gecə*
*Novruz bəxş elədi müştuluq necə!*
*Torpaq qucaq açıb "buyurun" dedi,*
*Dünyanı şadlığa dəvət elədi.*
*Novbahar nəsimi ətirli oldu,*
*Gülüstan fəzası fərəhlə doldu.*[1]

Baharın ənbər ətirli küləyi ahunun müşkü kimi xoş ətir (ətirbiz) saçmağa başlayıb, insanların sevincini artırdı. Cahanı nurladan gözəl novruzun sədası göyün doqquz qatına yetişərək bütün aləmi işrət və şadkamlığa dəvət etdi. Dördüncü fələk darülmülkünün taxtında əyləşib aləmi bəzəyən günəş cümə günü, şəvval ayının yeddisində (9 mart, 1604) işrət və ülfətlə hut aramgahından çıxaraq həməl şərəfxanəsinə daxil oldu və onun şövkət və iqtidar bayrağı

[1] Şe'rin farscası:
Degər rəh aftabe-aləməfruz
Bər eqlime-zəmane gəşt firuz.
Zəmane kərd ahənge-tərəbsaz,
Dəre-eşrət be ruye-xəlq şod baz.
Behəm peyvəste şod əqde şəb-o ruz
Nəvide-eyş-o eşrət dad novruz.
Zəmin gostərdi məhde-xosrovani,
Begiti zəd səlaye-şadmani.
Nəsime-novbahari ətrsa gəst,
Həvaye-qolsetan behcətfəza gəst.

asimana yüksəldi, cahanda yaşayanlara təzə şadimanlıq bəxş olundu, adamların üzünə nişat və şadyanalıq qapıları açıldı. Döyüşlər görən (rəzmcu) və məclislər bəzəyən şəhriyar adəti üzrə İsfahan darüssəltənəsində nişat məclisi qurdu və şah fərmanı ilə Nəqşe-cahanın (İsfahanın – *Ş.F.*) Cahanara bağında behiştnişan məclislər tərtib olundu, çıraqlar hazırlandı və hər yan işığa qərq oldu.

**Beyt [lər]**

*Məclisdə o qədər işıqlandı şam,*
s.634 *Fələk işığını yox etdilər tam.*
(439) *Məclis işıqlıydı günəşdən, aydan,*
*Gözəlliklər ilə doluydu hər yan.*
*Ətraf başdan-başa bəzəkli oldu,*
*Şadlıq artırıldı, kədər qovuldu*[1].

Xülasə, hərbiçilər və rəiyyət üç gecə-gündüz eyş-işrətlə məşğul oldular, məclislərbəzəyən şəhriyar da öz şahanə xeyrxahlığı ilə onların şənliyini [daha da] artırdı. Bu hümayun fallı ildə fərəh artıran hadisələrin biri [hamının] işrət və
s.634 şadkamlığınını artmasına səbəb oldu.

**Ə'lahəzrət şahın əziz fərzəndi olan uca nəvvab İmamqulu Mirzənin təvəllüdü:**

Belə ki, həzrət vaheb (bağışlayan) Allah ilahi əta qəvvaslarının köməyi ilə dibi görünməz fəzilət (fəzl) bəhrindən sahilə bir varlıq çıxartmaqla məclisi ziynətləndirdi, yəni ə'lahəzrət zilləllah şaha bir fərzənd əta oldu. Aqibəti bəyənilmiş (məhmud) o mövlud məsud bir saatda ədəm sirrxanəsindən (ketm) vucud meydanına qədəm basdı və şahın məsum imamlara olan əqidə və qulamlığına görə ona *İmamqulu*

[1] Beytlərin farscası:

Ze bəs şəm' dər məclis əfruxtənd
Dele-rovşənane-fələk suxtənd.
Dər an bəzme-rovşən ço xorşid-o mah
Behin lobətane-morəsse kolah.
Xoraman həmi məclis arastənd
Məsərrət fozudənd-o ğəm kastənd.

*Mirzə* adı verildi. Ümidvarıq ki, o, səadətpərvər şəhriyarın tərbiyə və xeyrxahlıq kölgəsi altında boya-başa çatacaq, o həzrətin mübarək xatirinin razılığı ilə xoşbəxt yaşayacaqdır.

## QEYB DÖYÜŞÇÜLƏRİN VƏ BU ƏBƏDİ DÖVLƏTİN QÜVVƏSİ İLƏ NƏHAVƏND QALASININ ƏLƏ KEÇİRİLMƏSİNİN ZİKRİ

Bu ilin əvvəllərində baş vermiş hadisələrin biri də Nəhavənd qalasının alınmasıdır. Ə'lahəzrət zilləllah şahın cülusunun başlanğıcındakı zəif (fetrət) günlərində, o il hadisələrin şərhində yazıldığı kimi, *Cığaloğlu* Həmədana tabe və Əlişəkərlə həmsərhəd olan çoxlu qızılbaş tayfalarının məskunlaşdığı Nəhavənd qəsəbəsində bir qala inşa edərək, oraya mühafizlər qoydu, Həmin mühafizlərin ülufə və azuqəsi Bağdad xəzinəsindən ödənilirdi. Ə'lahəzrət ilə *Rum xandgarı Sultan Murad* arasında sülh baş verəndə belə bir şərt qoyulmuşdu: [Bu] sülh bağlantısı vaxtı tərəflərin işğalı altındakı hər yer onlarda qalsın və tərəflər oralara dəxalət etməsinlər. Buna görə də, həmin qala on beş ilədək rumilərin zəbtində qaldı və əhd-peyman şərtinə görə, bu tərəf oraya dəxalət etmədi.

Amma, bu vəziyyət o hüdudda yerləşən qızılbaş hakimlərinin təbəələri üçün olduqca ağır idi. Belə ki, rumilər on günlük yolu onların məskənlərindən keçərək, bu sərhədin bəlkə də İraqi-Əcəmin ortasında yerləşən Nəhavənd qalasından ötüb gedirdilər. Rum padşahının vəzirlərinə və dövlət başçılarına dəfələrlə bu məsələni ərz edib bildirdilər: "O dörd divarın (yəni Nəhavənd qalasının – *Ş.F.*) aramızda qalmağı son nəticədə sülhün və birliyin pozulmasına səbəb olacaqdır. Lap tezliklə tərəflərin bə'zi cahil adamları tərəfindən elə bir iş baş verə bilər ki, sülhün pozulmasına gətirib-çıxarar. Əgər arada olan əhd-peymana sadiqdirlərsə, yaxşısı budur ki, o qala dağıdılsın". Amma, rumilər süst əhd-peymanlı [adamlar] olduqları üçün bu təklifi qəbul etmədilər. Sultan Murad xanın vəfatından sonra onun oğlu *Sultan Məhəmməd xan* pad-

şah olan vaxt Rum məmləkətlərində hər təbəqədən olan quldurlar və talesiz adamlar fitnə-fəsad başlarını yuxarı qaldıraraq, özlərini "*cəlali*" adlandırıb, cəlalilər haqqında yuxarıda yazıldığı kimi*, məsləhət olmayan əməllərə iqdam etdilər.

Sərhəd paşaları və əsgərləri də cəlalilər kimi hərəkət etməyə başladılar. Bağdad qulamları özbaşına olaraq, padşah tərəfindən təyin edilmiş hakimi şəhərdən çıxarıb, Bağdad ağalarından *Uzun Əhməd* adlı birisini hakim qoydular, Bağdaddan Nəhavənd qulamlarından ötrü verilən ülufəni isə özlərinə götürdülər. O adamların bə'ziləri ülufə və vergilər (mərsumat) yığmağa dağılışdılar, bə'ziləri isə Nəhavənd hasarını özlərinə pənahgah seçərək üsyan qalırdılar. Onlar xəlqullaha ziyan vurur, tüğyana qalxır, tabesizliklərini gün-
s.635 gündən artırırdılar. Əzəmətli əmirlər o tayfanın yersiz əməlləri haqqında Bağdad hakimini xəbərdar etdilər. Qarşı tərəfdən *Məhəmməd ağa Qiyəsaqqal* (?) onlara əmir təyin olunub Nəhavəndə rəvan oldu, amma qala sakinləri ona tabe olmadılar.

Bununla belə, onlar Məhəmməd ağanın mallarını da qarət etdilər. Məhəmməd ağa cahanpənəh dərgaha gedib bu astananın mənsublarından olmaq xahişini etdi. Cah-cəlallı şah tərəfindən o camaatın adına nəsihətlərlə dolu xeyirxahlıq və mehribanlıq (əfzal) məktubu da sadir olundu, orada yazıldı ki, tabesizliyi tərk edib, üsyan və qarışıqlıq yaratmağa baş qoşmasınlar. Əlişəkər sərhədinin hakimi *Həsən xan* və o sərhədin əmirləri Məhəmməd ağanın köməyinə göndərildilər. Hələ yuxarıda adı çəkilən məktub gəlib çatmazdan əvvəl rumilərin fəsadlarından cana doyan o yerlərin varlı adamları və mahalın
s.635 kasıb rəiyyəti hücuma keçib o güruhu Nəhavənd hasarından
(440) qovmaqdan ötrü yola düşdülər. Qaladakılar müdafiə olunmağa başladılar və aralarında savaş tonqalı şölələndi. Bu vəziyyətin islah olunması və Məhəmməd ağaya kömək üçün Həsən xan o tərəfə yollandı. Vuruşma zamanı Məhəmməd ağa hakimiyyətindən əl çəkməyi və sağ-salamat qalmağı qənimət bilib öz qeydinə qaldı. Hasar sakinlərindən *Vəli bəy Verməzyar* bu dudmandan ötrü şahsevənlik və tərəfdarlıq şüarı qaldırıb, o

qalanın öz əlində olan bürclərindən birini qala xaricindəkilərə verdi. Rumiyyə bundan xəbərdar oldu və aralarında cəng başlandı, onların sərdarı və bir neçə adamı qətlə yetirildi və Nahəvənd qalası xaricdəkilər tərəfindən tutuldu.

Bu vaxt qala ayağına gələn Həsən xan qalada qalanlara aman verdi və onların hərəsi bir yana qaçdı, qala isə boşaldıldı. Həsən xan əmr alaraq dərhal Nəhavənd qalasını dağıtmağa başladı. Bu hadisələr baş verən zaman heç kim düşünməzdi ki, sülh məsələsi tezliklə pozular, şahın istədiyi Bəlx yürüşü isə təxirə salına bilər.

**Beyt**

*Kiçik çayda üzər kiçik balıqlar,*
*Nəhəng balığınsa öz dəryası var*[1].

[Buna görə də] biixtiyar olaraq, barəsində aşağıda yazılacaq Azərbaycan yürüşü başlandı.

## DÜNYANI FƏTH EDƏN ŞAHIN AZƏRBAYCANA TƏRƏF YÜRÜŞÜNÜN ZİKRİ VƏ BU İL BAŞ VERƏN QALA VƏ ŞƏHƏRLƏRİN MƏŞHUR FƏTHİ

Nəğməkar qədəm bülbülü söz gülşənində Azərbaycan fəthinin ürəkaçan havasını və müzəffər məiyyətin həmin səliqə-sahmanlı (nozhət) məmləkətə yürüşünü belə oxumağa başlayır: İlahinin təsdiqi (tə'yid) və şahənşah dövlətinin qüvvəsi ilə artıq İran mülkünün səfalı torpağı (delqoşa) tüğyan əhlinin tör-töküntüsündən təmiyləndiyindən, hümayun şahın xatiri o işlərdən rahatlıq tapdı. Şahın qəlbində həmişə qeyrət alovu şölələndiyindən o, istəyirdi ki, İranın ən əzəmətli məmləkətərindən olan *Şirvan və Azərbaycanın* dövranda baş verən hadisələr üzündən Rum sultanlarının əlinə keçməyinin xiffətini çəkir, xüsusən dünyanın [məşhur]

---

[1] Beytin farscası:
Ze abe-xord mahiye-xord xizəd,
Nəhəng an beh ke, ba dərya setizəd.

şəhərlərindən olan və şan-şöhrətli İran hökmdarlarının paytaxtı məşhur Təbriz dalüssəltənəsinin yenə də əvvəllərdə olduğu kimi bu xanədan tərəfindən geri alınmasını istəyirdi, amma bu barədə dillərdə müxtəlif fikirlər söylənməkdə idi.
**s.636** Bə'zi dövlətxah və ağah adamlar Rum sultanının qeysərlik şan-şövkəti, qoşununun çoxluğu və əzəmətindən şah məclisində sözlər danışıb ona rum tüğyanı ilə savaşa başlamağı məsləhət bilmir, şahın hümayun yürüş atəşini nəsihətamiz kəlmələrlə soyudub hərb tonqalını alovlanmağa qoymurdular. Şahın özü də yuxarıdakı ali istəyin baş tutmasını arzu edirdi, lakin arada sülh sazişi olduğundan müqəddəs ayədə buyurulduğu kimi "İmana gəldikdən sonra imanınızı pozmayın"[1] fikrinə əməl edərək o, bağlanmış əhd-peymanı pozmaq istəmirdi. Bu məslənin tikanı hümayun yürüşün ətəyinə batır və o qeybdən gələn bir hadisə intizarında qalmaqda idi. Bu mətləbin yerinə yetiriləcəyi təqdir qələmi ilə qəza lövhəsində artıq yazıldığı üçün məsələ qeyb aləminin iş görənləri tərəfindən başa çatdırılmaqda idi. Amma, qarşı tərəfin adamlarından bə'zi işlər baş verdi ki, müzəffər ordunun o tərəfə yürüşü vacib bilindi. Belə ki, yuxarıda yazıldığı kimi, rum alçaqları və kürd aqibətsizləri öz üsyan və fitnə-fəsad başlarını yuxarı qaldırdığından onların hər birinin beynində özbaşınalıq və mənəm-mənəmlik sevdası baş qaldırmışdı. Sərhəd paşa və hakimləri cəlalilər* kimi hərəkət edib, üsyan və tüğyana başlayaraq bu tərəfin adamları ilə pis rəftar etməyə başladılar, bir sıra ədəbsiz hərəkətlərə yol verdilər. Belə ki, Vanda hakim olan *Əhməd paşa*** xasseye-şərifə tacirlərindən birini tutub, malına tamah salaraq onu qətlə yetirdi və xasseyi-şərifəyə məxsus xeyli pulu mənimsədi.

Onlar Şirvanda da əsir düşən adamları və vəhşi heyvanları satın almaq üçün *Dağıstana* tərəf gedən şah mülazimlərini tutaraq, mallarını qarət etmişdilər. Ə'lahəzrət [isə] onların belə cahilanə hərəkətlərinə baş qoşmayıb padşahanə gözləmə mövqeyində qalmaqda idi. Sərhəd paşalarının bu cür

[1] İfadənin ərəbcəsi: "Lə tənqudu əl-imənə bə'də təvkidiha"

qəbahətli əməlləri barədə Rum padşahına və baş vəzirələrinə dəfələrlə məlumat verilmişdisə də bundan heç bir nəticə hasil
**s.637** olmamışdı. Rumiyyə öz xoşagəlməz hərəkətlərini davam
**(441)** etdirir, padşahlarının fərmanlarına məhəl qoymurdular.

Xülasə, sərhəd adamlarının yuxarıda qeyd olunan həkərətləri öz həddini aşarıq el bir yerə çatmışdı ki, daha buna dözmək şahanə qeyrətə və padşahanə həmiyyətə sığan məsələ deyildi. Bu hadisələr baş verən zaman *Şahqulu Mətilanın* övladlarından olan *Qazi bəy Kürd* ilə rumilər arasında münaqişə baş verdi. Qazi bəy Səlmasa yaxın ərazidə yerləşən *Qarnıyarıq qalasını* tutub, Təbriz bəylərbəyisinə itaət etməməyə başladı.

O zamanlarda *Cəfər paşanın* əvəzinə bəylərbəyi olan *Əli paşa Qazi bəyi* və kürd üsyançılarını cəzalandırmaqdan ötrü *Təbriz, İrəvan* və *Naxçıvan* qoşunlarını toplayaraq üsyançıların üzərinə yürüş etdi.

Oğlu *Xan Abdalı* ali saraya göndərən Qazi bəy [şahdan] kömək istədi. [Ə'lahəzrətin] nurlu beyninə belə bir fikir gəldi: "Rumilər onların torpaqlarında nifaq törədib çox halda qızılbaşların qəzəbinə səbəb olduqlarından (xüsusilə Nəhavənd qalasının dağıdılmasında), hətta öz qüvvələrinə güvənib üzrxahlıq belə etmədikləri bir vaxtda bizim irsi hümayun mülkümüz olan Azərbaycan və Şirvan məmləkətlərini öz padşahları ilə üsyan məqamında olan bir dəstə cəlalilər kimi zavalı adamın ixtiyarında qoymaq və fürsəti əldən vermək ağıllı insana xas rəftar ola bilməz. Əgər bir neçə gün ərzində Təbriz bəylərbəyisi ilə əsgərlərin kürdlər üzərinə hücuma keçdikləri və qalada heç kimin olmadığı bir vaxtda bizim hümayun yürüşümüz o istiqamətə başlayarsa və biz Əli paşanın geri dönməsindən əvvəl Təbrizə gedəriksə, ehtimal ki, qala asanlıqla alınar, beləliklə də irsi mülkümüz olan Azərbaycanı fəth etmək və düşmənləri cəzalandırmaq bizə qismət olar". Şah ona qeyb [aləmindən] gələn bu mətləb xüsusunda öz iqbal dövlətxahları və cah-cəlallı mərhəm
**s.637** adamları ilə məsləhətləşməyə başladı. Dəfələrlə sınaqdan

keçirilmişdir ki, dövlət işlərində sədaqət dili ilə baş verən və ilhamlı qəlb ilə təsdiq olunan hər hansı bir mətləb, şübhəsiz ki, ehtimaldan həqiqətə doğru yönəlir. Bu məsələdə şahın səfalı beyni qeyb surətlərinin (sovər) güzgüsü və şəksiz təcəllasıdır (təcəliyyate-lareybi). Bu isə onu göstərir ki, yaxın vaxtlarda güman yəqinləşəcək, tezliklə mətləb yerinə yetəcəkdir. Buna görə də dövlətxah adamların tutarlı (saqebe) rəyi, adama ruh verən (molhəm) iqbalın və rüzgar hadisələrini həyata keçirən təhrikçilərin (qeyb aləmi təhrikçilərinin – *Ş.F.*) dəlaləti ilə bu yürüşə başlamaq qərara alındı.

Həmişə [xoş] saatın təyini, dəqiqələrin hesablanması və zaman dərəcələrinin müəyyənləşdirilməsində olduqca fərasətli [münəccim] olmuş cənab *Mövlana Cəlaləddin Məhəmməd Münəccim Yəzdinin** məsləhəti ilə hər baxımdan uca, nücum qüsurlarından xali və hümayun tale ulduzlarına müvafiq görülən bir vaxt müəyyənləşdi. Onlar əvvəlcə düşməni aldatmaq məqsədi ilə belə bir xəbər yaydılar ki, guya *firənglər* Bəhreynə ləşkər çəkdikləri üçün cah-cəlal ordusu onları dəf etmək niyyəti ilə Farsa yollanmaqdadır.

Bu xəbərin ətrafa yayılmasından dörd-beş gün keçdikdən sonra başqa bir xəbər də yaydılar ki, *Fars hakimi Allahverdi xanın* qasidi gələrək firənglərin həmin yürüşdən vaz keçdiklərini və bir daha cəlal ordusunun oraya yürüşünə ehtiyac olmadığını bildirmişdir. Ə'lahəzrət belə buyurdu: "İqbal ordusu mülazimlərinin səfər niyyətilə bir yerə toplaşdıqları belə bir vaxtda, artıq çoxdan bəri behiştə bərabər Mazandaranı seyr və orada şikar etmədiyimizdən, bir neçə gün o ürəkaçan vilayətdə eyş-işrət etməkdən ötrü həmin istiqamətə getməliyik".

Səltənətə məhrəm adamlardan *vəzir Hatəm bəydən*, *Əliqulu xan Şamlıdan, qorçibaşı Mehdiqulu Qacardan* və *Bəstam ağadan* başqa heç kimin bu gizli danışıqdan xəbəri yox idi və heç kəsin ağlına gəlmirdi ki, həmin niyyət belə bir vaxtda zor gücünə həyata keçə bilər.

**Şah Abbasın Təbriz səmtinə hücumu və Azərbaycan məmləkətlərini fəth etmək cəhdi:**

Qəribə hadisələrdən biri də budur ki, İsfahanda yuxarıda söylənən razılığa gəldikləri gün Təbriz qalasında qalan paşanın vəkili ilə görüşməkdən ötrü şəhərdən çıxan *təbrizli münəccim Mövlana Səburi* qalaya yetişdikdə vəkil ondan soruşur: "Qızılbaş padşahının Təbrizə yürüş etməsi xəbəri nəyə görə şəhərdə yayılmışdır?" Movlananın bu işdən xəbəri olmadığından ona belə deyir: "Şəhərdə belə bir xəbər yoxdur, siz bunu kimdən öyrənmisiniz? ". Vəkil isə deyir: "Mənim qulağıma belə demişlər, amma bu xəbərin doğru olub-olmadığını bilmirəm".

Bu söhbət baş verərkən orada olan *Lisanül-qeybin*[*] divanından fal açdılar. Mövlana Səburi danışır ki, fal açılan kimi soldakı səhifənin ilk beytində bu misraları oxudular:

"*Xoş şe'rlə İraqı, Farsı tutubsan, Hafiz,*
*İndi Bağdad ilə Təbriz tərəfə getməlisən*".[1]

Xülasə, şah Azərbaycanı və Şirvanı fəth etməyi qarşısındakı ən uca məqsəd bilib min on ikinci ilin rəbiüs-sani ayının yeddisində (9 sentyabr 1603), qərarlaşdırılan xoş bir saatda səadət və iqbal üzəngisinə öz himmət qədəmini basıb İsfahan darüssəltənəsindən çıxaraq, bir gecə Dövlətabad kəndində və bir gün Kaşanda dayandı. Oradan çıxıb üç mənzil yol getdikdən sonra Qəzvinə yaxınlaşdı. Elə orada olduqları vaxt hümayun şahın Azərbaycana tərəf yürüşü şah ordusu mülazimlərinə məlum oldu. Qəzvin daruğəsi olan *Əmirgunə xan*
**s.638 (442)** *Qacara* hökm olundu ki, oradakı bütün qulamlar və qorçilər cəld gəlib müzəffər orduya birləşsinlər. Tezliklə Miyanca[**] gəlib müqəddəs orduya qoşulmasından ötrü *Ərdəbil hakimi Zülfüqar xanın* yanına adam göndərildi. Beləliklə, onlar Qəzvindən çıxıb, altı gün ərzində Təbrizə çatdılar. Onların Cəra-

---

[1] Beytin farscası:
"İraq-o Fars gerefti be se're-xoş, Hafiz,
Biya ke novbəte-Bəğdad-o vəqte-Təbrizəst"

handan[1] çıxmalarından on bir gün ötmüşdü. On ikinci gün sübh vaxtı şəhərə daxil oldular. *Əli paşa* Qarnıyarıq qalasını Qazi bəydən döyüşsüz götürmüşdü və hələ də həmin qalada qalmaqdaydı. Təbriz qalasındakılar isə hələ bu hadisədən xəbər tuta bilməmişdilər.

**s.638** Ordunun şəhərə daxil olduğu sübh vaxtı Şebli karvansarasındakı dünyadan bixəbər olan bir neçə rumiyyə əsgəri əcəl quşunun cəngində giriftar oldular.

Şəhərə qədər üç fərsəxlik məsafədə yerləşən Fəhusfənc kəndinə çatdıqda oranın rəiyyət və əhalisinin gözü qızılbaş qoşununa sataşan kimi dərhal şahsevənlik şüarı söyləməyə başladılar. Onlar ə'lahəzrətin təşrif gətirdiyini bilib, rumiyyənin qorzusundan zirzəmilərdə və başqa gizli yelərdə gizlətdikləri *on iki zolaqlı Heydəri papaqlarını* öz məğrur başlarına qoyaraq, başlarını o qiymətli örtük ilə bəzədilər, orada olan bütün rumiyyə əsgərini qətlə yetirdilər. Onlar qəhrli ordunun önünə çıxdılar və qızılbaşların uca şüarı olan gözəl "Allah-Allah" sədalarını asimana bülənd etdilər. Ali əmrə mütabiq olaraq bir dəstə döyüşçü fürsət olan kimi özlərini qalaya çatdırmaqdan ötrü irəli şığıdı.

Qala əhalisinin bir hissəsi qaladan çölə çıxıb bazarda alver ilə məşğul idi. Elə ki, Təbriz əhalisinin şadlıq səsləri gəlib onları çatdı, elə təsəvvür etdilər ki, şəhər və qalanın boşaldığını görən bə'zi sərhəd avaraları və quldurlar qarət məqsədi ilə hücuma keçmişlər. Ordunun ön dəstəsi gəlib çantanadək onlar özlərini qalaya çatdırıb darvazaları bağladılar. Təbriz əhalisinin əksəriyyəti qızılbaş ləşkəri və şahın xoşbəxt ordusunun gəlişindən xəbər tutan kimi onları qarşılamaq səadətinə çatdılar, illərlə öz ümid gözlərini zillədikləri cahanı gəzən atları görüb nəzərlərini nurlandırdılar.

Amma, məşhur Təbriz şəhərini viranəliyə dönən bir şəhər kimi gördülər, çünki, Təbriz rumiyyənin əli ilə zəbt olunan o bir neçə il ərzində təbrizlilərdən xali olmuşdu. Rumiyyələr evləri və ali imarətləri viran etməkdən bir dəqiqə belə əl çəkməmişdilər. O mülkün rumiyyə əlində olduğu *iyirmi il*

[1] Qeyd: İsfahan olmalıdır – *Ş.F.*

*müddətində* ətraf yerlərdən bir neçə dəstə yoxsul qarətçi adam şəhərə doluşmuş, yar-yaraşıqlı hər yüz evdən birinin hətta üçdə bir hissəsi də öz əvvəlki gözəlliyini saxlaya bilməmişdi. Təbrizin viran olması barədə *Mövlana Vüqui* bu beyti olduqca yaxşı yazmışdır. Baxmayaraq ki, kitabın birinci səhifəsində Osman paşanın gəlişi və Təbrizi tutması əhvalatı barədə məlumat yazılarkən həmin beyt orada verilmişdi, amma münasib görüldüyündən bizim tərəfimizdən təkrar nəzərə çatdırıldı:

*Vüqui, Kərbəla dərdi məni təskin edir, yoxsa,*
*Ürək Təbriz kimi Təbrizdən ayrı viran olmuşdur.*[1]

Xülasə, müqəddəs ordu şəhərə çatdığ vaxt qala mühafizəçiləri qapıları bağlamışdılar və şəhərdə hümayun cəlal sahibinin (Şah Abbas – *Ş.F.*) yerləşməsi üçün münasib bir ev yox idi. O, *Şənbi-Qazana* təşrif aparıb orada əyləşdi. O vilayətin əhalisi şəhərdən və onun ətrafındakı yerlərdən gələrək öz ümid üzlərini cahana pənah verən şaha tuturdular. Onlar şəhər və ətraf yerlərdəki rumiyyə tayfasından olan hər kəsi ali dərgaha gətirib qətlə yetirir, kəsilən başları şaha göstərirdilər. Təbrizlilər bu işdə həddi elə aşdılar ki, hətta ötən iyirmi il müddətində təbrizli qadınla evlənən və evdə təbrizli qızı və başqa övladları olan rumiyyə zövcələrinin ata, qardaş və qohumları bu yaxınlığın səbəbini belə soruşmadan rumiyyəni öz arvad – uşaqlarından ayırıb qətl edirdilər. Bir neçə il təqiyyədə (gizin yer – *Ş.F.*) gizli yaşayan əhli-beyt[*] və səfəviyyə xandanının dostları öz məhəbbət şüarlarını dilə, gözəl və pak əhli-beytə sevgilərini isə zahirə çıxarıb, öz fərəhli sədalarını Keyvan bürcünədək ucaltdılar. Onlardan olduqca sədaqətli və ləyaqətli bir əməl zahir oldu.

---

[1] Beytin farscası:
Voqui, Kərbəla təskine-dərdəm midəhəd və-r ne
Dələm əz həsrəte-Təbriz virantər ze-Təbrizəst.

**s.640 (443)**

## ƏLAHƏZRƏTİN VƏ ALİ MƏİYYƏT MÜLAZİMLƏRİNİN ƏLİ PAŞA VƏ TƏBRİZDƏKİ RUMİYYƏ DÖYÜŞÇÜLƏRİ İLƏ MÜHARİBƏSİ, YERİN VƏ GÖYÜN XALİQİNİN İNAYƏTİ SAYƏSİNDƏ O TAYFA ÜZƏRİNDƏKİ QƏLƏBƏNİN ZİKRİ

Söz söyləmək meydanının (mezmar) süvariləri (fares) cahanlar gəzən qələmi söz cövlangahında covlana gətirərək belə yazmışlar: Cahanlar alan şah ordusunun İlahinin köməyi ilə Təbriz şəhərinə daxil olduğu birinci gün qalanı qorumaqdan ötrü qalan rumiyyə döyşçüləri onlara qarət məqsəliylə sərhəd quldurlarının hücum etdiklərini düşünüb, iti sür’ətlə gedən bir qasidi Əli paşanın yanına yollayaraq, onu bu məsələdən xəbərdar etdilər. Paşa bu məsələnin həllini asan zənn edib əzm yüyənini qayıdış istiqamətinə döndərdi. Mərənd yaxınlığında Naxçıvan və İrəvan ləşkəri ondan ayrılıb öz ülkalarına getdi. O tayfa adamları (rumiyyə – *Ş.F.*) acınacaqlı aqibətə mə’ruz qaldığından, həyat badələri əcəl şərabı ilə dolduğundan, gözləri qəflət pərdəsi ilə örtüldüyündən və bəsirət nəzərləri qapandığından ehtiyatı əldən verdilər və qürurlu cəsarətlə Təbrizə tərəf üz tutdular. Yolda qala əhlindən başqa bir qasid ona çatıb söylədi ki, *Ərdəbil hakimi Zülfüqar xan* öz ləşkəri ilə gəlmişdir, ehtiyatlı olsunlar.

Əli paşa bu xəbəri eşidib yürüşünü saxladı. O, yaxın yoldaşları olan *Xəlil paşa, Mahmud paşa*, ordu rəhbərləri və ağsaqqallarla birlikdə gələcək hərəkət barədə məsləhətləşməyə başladı. Bütün döyüşçülərin əhli-əyalı, var-dövləti və silahları Təbriz qalasında qaldığından qalanın müdafiə olunması üçün qala camaatına etibar etmədikləri üçün hamılıqla irəli getməyi üstün tutdu. Onlara çatan xəbəri qulaq ardına vuran rumiyyə döyüşçüləri yanlarındakı beş min adamla ilə hərəkətə başladılar. Üçüncü gün qaladakılara mə’lum oldu ki, şəxsən ə’lahəzrətin özü [Təbrizə] gəlmişdir və o, başqa bir qasid yollayıb Əli paşanı bu məsələdən agah etdi.

Paşa bu xəbəri döyüşçülərdən gizlədib, böyük qorxmazlıq və igidliklə, səfehlik və qafilliyi ucbatından, daha da irəlilə-

yərək, Təbrizdən altı fərsəxlik[1] məsafədə yerləşən *Sufiyan* adlı yerdə dayandı. Ə'lahəzrət isə davamlı olaraq paşa və döyüşçülərinin vəziyyətini öyrənmək məqsədilə adamlar yollayır, onlar da paşa ləşkərinin kəmiyyəti və keyfiyyəti barədə məlumat əldə edərək bir-birinin ardınca ona xəbər göndərirdilər. Şaha mə'lum oldu ki, paşa artıq Sufiyana çatmışdır və döyüşə hazırdır. Paşanın belə qorxmazlıqla irəli çüxması təəccüblü idi. Baxmayaraq ki, müzəffər orduda da o zaman beş-altı min nəfərdən artıq döyüşçü yox idi, lakin paşanın əcəm mülkünün padşahı və Cəm taxt-tacının bəzəyi olan bir hökmdarla elə az miqdarda qoşun vasitəsiylə döyüşə başlaması bacarıqsızlıq və ağılsızlıq kimi görünürdü.

Xülasə, rumilərin Sufiyana gəlmələri xəbəri aydınlaşan həmin gecə əzəmətli şah qoşunu Şənbi-Qazandan çıxıb müxaliflərlə döyüşməkdən ötrü hərəkətə başladı. Onlar şəhərdən iki fərsəx[2] məsafədə olan *Hacı Hərami* adlı yerdə dayandılar. Şah ertəsi gün sübh vaxt Zülfüqar xanı müzəffər
**s.640** ləşkərin çərxçisi təyin edib, onu rumilərin qarşısına göndərdi. Əzəmətli əmirlərdən birinin və müzəffər ləşkər igidlərinin bir neçəsinin döyüşə göndərilməsinin kifayət olmasına və hümayun ordunun onlara qoşulmasına heç bir ehtiyacın olmamasına baxmayaraq əlahəzrət dövrün ağıllı adamlarına xas olan qətiyyət və ehtiyata bu beytdəki kimi

**Beyt:**

*Düşmən əgər olsa da düşmən, asan sanmayın,*
*Olsa alov, azca da, bilməyiniz az onu*[3]

[məsləhətə] əməl edib hümayun ordunun meymənə və meysərəsini işbilən əsgərlər və döyüş meydanının qəhrəmanları ilə möhkəmləndirdi, özü isə qəlbdə (mərkəzdə – *Ş.F.*) öz

---

[1] 36 km-rə bərabərdir – *Ş.F.*

[2] 12 km-ə bərabərdir – *Ş.F.*

[3] Beytin farscası:

Doşmən əgər pəşşeəst səhl nəbayəd gereft,
Ataş əgər zərreəst xord nəbayəd şomord.

yerini tutdu, qələbə bayrağını qaldırıb çərxçilərin ardınca hərəkət etdi. Kərənay, nəfir, gəbərkə və kus sədaları fələyin mavi rəngli gümbə'zinədək ucaldı.Əli paşa da qarşı tərəfdən rumilərin döyüş qaydasına uyğun olaraq top arabalarını və zərbzənləri bir-birinə bağladı, topçu və yeniçəriləri irəli atdı, özü Mahmud paşa ilə birlikdə qəlbdə dayandı. Əzm ilə irəliləyən mübarizlər bir-birinə çatdılar, qızılbaş və rumi döyüşçüləri qılınc və nizə ilə döyüşməyə başladılar. Döyüşün başlanğıcında rumilər igidlik göstərib, ardı-ardınca cəsarətli həmlələr edirdilər. Dərya dalğalı qızılbaş çərxçiləri hümayun qoldan (şahın dayandığı yerdən – *Ş.F.*) aralı olduqlarından hələ rumilərlə möhkəm döyüşə başlamırdılar. Qoşunun qabağında gedən *Kürd Ulamənin oğlu Əyyubə Sultan* rumilər tərəfindən öldürüldü. Hümayun qol dəstəsinin döyüş meydanında görünməsindən sonra, müzəffər şah məiyyətinin aləmi yandıran qələbə nişanlı əsgərləri hamılıqla şığıyıb
**s.641** müxaliflərin üstünə atıldılar. Hərb atəşi göyə ucaldı. Qızğın
**(444)** atların təpiklərindən göyə qalxan toz su kimi onların başlarına tökülürdü. Rumiyyə döyüşçüləri döyüş meydanı igidlərinin hücumuna tab gətirməyib padşahın bayraqlarını görərək titrətməyə düşdülər, süstləşdilər, qaçmağa başladılar. Hümayun qol mübarizlərindən bir dəstə döyüşçü öz yamanlıq qılınclarını çəkərək vuruşa girişdilər. Belə ki, ağır rumi qoşunlarından bu səhra və dağda heç kim qalmadı. Paşalardan *Mahmud paşa* və *Xəlil paşa* öldürüldü, Əli paşanı isə şaha yaxın adam olan *Məhəmməd bəyin* qardaşı *Sarı bəy Begdeli* tutub gətirdi. Paşaya inayət və iltifatla nəzər salan ə'lahəzrət mürüvvət üzündən ona ürək-dirək verdi, onu şahanə xeyrxahlıqla zəmanənin məkr və sədəməsindən arxayın etdi. Paşa özünün *Məhəmməd Əmin bəy* adlı oğlunun döyüş meydanında öldürülə biləcəyindən bərk iztirab içində idi. Elə o dəm sur'ətli, yaxşı görünüşlü və gözəl camal sahibi olan həmin oğlanı sağ-salamat gətirdilər. Paşa bir qədər arxayın oldu və heç də gözlənilmədiyi halda şəhriyarın lütfünə şükür etdi.

Qalibiyyətli döyüşçü dəstələri fərar edən rumiləri Mərəndə qədər izlədilər. Onlardan çox az adam döyüşdən

yayınıb nicat tapa bildi, gecənin qaranlığında Vana tərəf qaçdılar. Qalib ordunun əlinə böyük qənimət keçdi. Əlahəzrət öz döyüşçülərində fəth və zəfər nişanəsini müşahidə edib Allah-taalaya şükr etdi, şəhərə tərəf qayıtdı, qalanı ələ keçir-
**s.641** məyi qərara aldı.

## UCA (RƏFİE') TƏBRİZ QALASININ FƏTHİ VƏ HƏMİN İŞRƏTƏNGİZ VİLAYƏTİN ƏLƏ KEÇİRİLMƏSİNİN ZİKRİ

Yuxarıda şərh edilən döyüşdən sonra, ə'lahəzrət gəlib şəhərdə dayandı və vəziyyətin necəliyi qala əhalisinə məlum oldu. Onlara [şah] tərəfindən belə məsləhətamiz və'd verildi: "Özünüzü əbəs yerə həlak etməyin və qalanı təslim edin. Təbriz vilayətindən olan hər kəs dərgah mülazimləri silkinə daxil olunaraq rumiyyə [üsul-idarəsi] dövründə olduğu kimi öz ülufə və başqa imtiyazlarına sahib olacaqdır. Amma, kim ki, çıxıb getmək istəyir, öz əhli-əyalı, var-dövləti ilə birlikdə sağ-salamat, müzəffər əsgərlərdən heç bir zərər görmədən qalanı tərk edə bilər". [Şah] Əli paşanı qala böyükləri ilə danışıq aparmaqdan və inadkarlığın son nəticədə qorxulu olacağını başa salmaqdan ötrü qala ayağına göndərdi. Vəziyyətin başlanğıcında qala mühafizəçiləri hərbiçilərə xas danışığa girişib, öz ayaqlarını əminlik və səlamətlik dairəsindən kənara çıxardılar, süllhə razı olmadılar, Əli paşa ilə acıqlı danışıb barışıqla razılaşmadılar. [Buna görə də] iqballı əsgərlər hər tərəfdən axışıb Təbrizə gəldilər, az miqdar döyüşçü ilə qalanı hər tərəfdən mühasirəyə aldılar. Onlar dörd bir yandan seybə düzəldib, murcəllər yaradır, qalanı ələ keçirtməyə çalışırdılar. Qarşı tərəf isə qalanı qorumaqda davam edir, bu sahədə öz sə'ylərini artırırdı.

Amma, belə işlərdən xəbəri olan qaladakı mühafizəçilərin ağıllı və tədbirli adamlarına məlum idi ki, qızılbaş qoşunu qalanı zorla ələ keçirəcəkləri, qaladakıların isə döyüşçü və azuqə ehtiyatlarının az olması və heç yerdən o zaman kömək gələ bilməməsi səbəbindən onların İran padşahına müqavimət

göstərmək taqətləri yoxdur. Buna görə də, yığışıb sülh və cəng barədə məsləhətləşməyə başladılar. Onlar müftidən və qazidən də bu haqda məsləhət soruşdular. Onlar "özünüzü öz əlinizlə məhv etməyin" kimi müqəddəs ayəyə[1] əsaslanıb, canlarının və mallarını qorunmasından ötrü müxtəlif dəlillər irəli sürdülər. [Bundan sonra] qaladakılar bir dəstə adamı qaladan çıxarıb [şaha] belə ərz etdilər: Əgər qızılbaşların əhd və şərtləri etibarlı olarsa, qalanı şah ordusuna təhvil verə bilərlər.

Ə'lahəzrət adamların vəziyyətini nəzərə alıb yaranan şəraiti qoruyub saxlamaq naminə və həzrət Xaliqin razılığı ilə aman verib onları qalaya qaytardı. Qala əhli də bundan təsəlli tapıb qala qapılarını bəxt və iqbal kimi bu əbədi dövlət övliyalarının üzünə açdılar, var-yoxları ilə bərabər qaladan çıxdılar. Onların şəhərdə qalmaq istəyən bə'zi adamlarına qarşı vəfa vəd edildi, rumiyyə zamanında aldıqları ülufə və başqa imtiyazlara [yenə də] sahib oldular, [hətta] salyanə* [mükəlləfiyyətini] onlara nəqd qızılla bir dəfəlik inayət etdilər, çıxıb getmək istəyənlərə isə icazə verildi. *Maqsud bəy Nazir* öldürülən kəslərin mallarını və qaladakı silahları
**s.642** zəbt etməkdən ötrü qalaya göndərildi, *Qərçiqay bəy* isə bir
**(445)** dəstə şah qulamı ilə qalanın mühafizəsi və öldürülənlərin evlərinin qorunması üçün işə başladı. Fəth xəbəri ətraf məmləkətlərə yayıldı, hər yana fəthnamələr göndərildi. Kürd əmirlərindən *Qazi bəy* və qardaşı *Qorçi bəy*, bəyin oğlanları, bir müddət rumilərlə mübarizə aparan *Əmirə Mokrinin oğlu Şeyx Heydər* cahana pənah verən dərgaha üz tutub şahın əlini öpməklə şərəfləndilər, hümayin orduya mülazim olmaqla ehtiramlandılar. Ətraf yerlərin hakimləri saraya elçi göndərib
**s.642** Təbriz fəthini təbrik etdilər. O ürək açan yerin idarə olunması Zülfuqar xana tapşırıldı, Mərənd bir neçə müddət bundan əvvəl saraya gəlib hümayun ordu mülazimi olan, həmçinin Bəlxə və Xorasana yürüşdə iştirak edən *Cəmşid Sultan Dünbülüyə* verildi. Xoy və Səlmas ülkələrı *Qazi bəyə*, Marağa isə *Şeyx Heydərə* mərhəmət olundu.

[1] İfadənin ərəbcəsi: "Lə təlqau bi 'eydikum ilə-t-təhləkəti"

*Çıraq Sultan Kərampa Ustaclını* bir dəstə müzəffər əskərlə *Araz çayı* kənarına, *Culahı*[*] mühafizə etməyə, Naxçıvan və İrəvan ləşkərindən xəbər tutub, oraldakı vəziyyət barədə mə'lumat toplamağa göndərdilər. Hələ əmirlik rütbəsi almayan *Əmirgunə bəy Qacara* şahanə etibar göstərib bir dəstə *Təvaleş* və *Sugələn* camaatı ilə *Arazbar* tərəfə yolladılar ki, o ətrafın el, ulus və oymaqlarını toplayıb *Araz çayı* kənarına gətirsin, *Qarabağda* qalan qacar və tərakomat[**] əhlini bu tərəfə köçürüb öz yanında saxlasın, onları *Gəncə və Şüvanda* olan rumi hücumlarının qarşısını almaqdan ötrü Araz çayı kənarında yerləşdirsin. Əli paşanı oğlu ilə birlikdə *Bəstam ağaya* tapşırdılar ki, öz evində qonaq saxlasın. Ə'lahəzrət hümayun məiyyət ilə döyüşdə igidlik göstərmiş Əli paşanın hərəkətini bəyənib, onu öz iltifatına layiq etdi. Paşanın qaladakı bütün var-dövlətini özünə verdi, o da özünün gözəl söhbətləri, rəngarəng sözləri, zarafatçıl danışığı ilə şahın məclisinə yol tapıb ə'lahəzrətlə ünsiyyətdə oldu.

## HÜMAYUN MƏİYYƏTİN NAXÇIVAN VƏ İRƏVANA YÜRÜŞÜ VƏ ALLAH-TƏALANIN İNAYƏTİ SAYƏSİNDƏ O YERLƏRİN QALALARININ FƏTH OLUNMASININ ZİKRİ

Ə'lahəzrət zilləllah şah Təbriz qalasını alıb oranın işlərini nizamladıqdan sonra öz himmət kəmərlərini *bütün irsi Azərbaycan vilayətini almağa* ataraq, cahangirlik bayrağını qaldırdı, şahanə yürüş yüyənini *Naxçıvan* və *İrəvan* səmtinə yönəltdi.

O vaxtlarda *Şərif paşa* adı ilə məşhur olan *Seyid Məhəmməd paşa* [rumilərin] Naxçıvan və İrəvan *bəylərbəyi* idi. Həmin yerlərdəki ləşkər döyüşçülərinin sayının isə on iki min nəfər olduğunu söyləyirlər. Həmçinin, belə deyirlər ki, rumilər elə ki, Mərənd yaxınlığında Əli paşadan ayrılıb Naxçıvana gəlib çatdılar, hələ orada qalıb möhkəmlənməmişdilər ki, Təbriz ləşkərinin əzilməsindən, Əli paşanın əsir düşməsindən, Təbriz qalasının tutulmasından xəbər tutdular və pərişan oldular,

Naxçıvan qalasında qalmaqdan qorxub, olduqca möhkəm olan İrəvan qalasına getdilər. Şərif paşa bu qalada əyləşib, ağalardan birini yüz əlli nəfər döyüşçü ilə Naxçıvan qalasında saxladı. O, əzəmətli adamlar, başqa döyüşçülər və yeniçərlərlə birlikdə İrəvan qalasını xeyli möhkəmləndirdi. Qalada təxminən on min nəfər olan bu qədər adamın yerləşə bilmədiyi səbəbdən Naxçıvan ləşkəri üçün Ətiq qalasının əvvəlki yerində başqa bar qala inşa etməyi qərara aldılar, *Çuxur-Sə'd* qoşunu və rəiyyəti gecə-gündüz orada işləməyə başladılar. Əlahəzrətin Təbriz işlərini qaydaya saldığı iyirmi gün müddətində [rumilər] göstərilən qalanı tikdilər və belə
**s.643** əmr olundu ki, oraya iki-üç illik azuqə və silah-sursat yığsınlar.

**Sərdar Mahmudun rumilər tərəfindən öldürülməsi:**

Xülasə, ə'lahəzrət xoş bir saatda Təbrizdən çıxaraq, Zülfüqar xanı çərxçi əmirləriylə birlikdə özündən əvvəl Naxçıvana yolladı və hümayun ordu onun ardınca hərəkət etdi. Bir müddət cəlali rumilərinin yanında qalan və öz igidliyi ilə rumiyyə camaatı arasında məşhur olan, amma bir qədər əvvəl hümayun şah ordusunun çadırı altına sığınan *Sərdar Mahmud Çeşmgəzəki* ə'lahəzrətdən izn alıb, üç yüz nəfər qarətçi adamı ilə İrəvan və oraya yaxın yerlərə yollandı. Amma ağılsız və tədbirsiz olduğundan bir gecə İrəvana yaxın yerlərin birində dayandı, içdiyi şərabın xumarı və məstliyin qəftəli nəticəsində ehtiyatı
**s.644** unutdu, min nəfərə yaxın rumi isə bundan xəbər tutub onu
**(446)** ələ keçirdi və qətl etdi, həmçinin onun bə'zi yoldaşları da öldürüldülər.

Xülasə, qoşunun önündə gedən Zülfüqar xan müzəffər döyüşçülərlə birlikdə Naxçıvana gedib çatdı. O mülkün əhalisi və ə'yanları xanı qarşılayıb öz sevinclərini bildirdilər. Naxçıvan qalasında qalan rumilər isə hümayun şah qoşununun və qalibiyyətli qızılbaş ləşkərinin gəlişindən qorxuya düşərək qalada qalmaq kimi cür'ət və cəsarətə düşmələrindən peşiman oldular. Onlar müzəffər ordu gəlib çatmazdan əvvəl aman ətəyinə əl uzadıb Zülfüqar xanın yanına bir adam yol-

ladılar, can və malları üçün ondan aman xahiş etdilər. Xan özünə xas olan əhd-peymanla onlara aman verdi. Rumilər başqa bir çarə görməyərək, istər-istəməz qaladan çıxdılar. Beləliklə də, Azərbaycan vilayətinin əzəmətli yerlərindən biri olan Naxçıvan qalası da qalıb dövlət övliyalarının ixtiyarına keçdi, əzəmətli ordu gəlib köç-köç oraya çatdı və müzəffər ordu Naxçıvan şəhərində göründü.

*Araz çayının* bu tərəfindən başqa qalaların mühafizəçiləri də qalaları boşaldıb İrəvanda toplanırdılar. Ə'lahəzrət Naxçıvan ülkasını *Çıraq Sultan Ustaclıya* verdi, Zülfüqar xan mülazimlərinin yanında mehman olan və yuxarıda adı çəkilən rumiləri ona tapşırdı, rumilərə müəyyən olunan evlərin İrəvan qalasında olması səbəbindən onları qala tutulanadək öz yanında saxlamasını Çıraq Sultana həvalə etdi. Bu yerdə əzəmətli kürd əmirlərindən olan Maku qalasının hakimi *Mustafa bəy Mahmudi* əl öpmə izzəti ilə şərəflənib şahanə diqqətə yetdi, oradan qələbə və iqballa İrəvana yollandı. Qızılbaşların hakimiyyəti vaxtı Çuxur-Sə'd vilayətində yaşayan və rumilərin tabeliyinə keçdikdən sonra o yerlərdə qalan sə'dli və pazuki tayfalarına xas oymaqların əhalisi *Didi* adlı bir nahiyyədə şahsevənlik izhar edərək, hümayun orduya birləşdi. O vilayətin bütün ağsaqqalları və məlikləri də gəlib öz itaətlərini izhar etdilər. Şah oradan çıxıb İrəvan qalasının bir fərsəxliyində dayandı.

Bu mənzildə İrəvan və Naxçıvan ülkasında və o yerlərin hüdudlarında on iki minədək əskər olduğu müəyyənləşdi ki, onlar qala ayağına gəlib qala divarlarını dağıtmaqdan ötrü şeybə hazırlasınlar. Həmin gün şüarları igidlik olan qazilər qala ayağına gedib öz şücaətlərini göstərdilər. Rumilər də qaladan çıxdılar və onların arasında kiçik bir hərb baş verdi. Nəticədə hər iki tərəfdən bir neçə nəfər yaralandı.

Ertəsi gün zəfər ayəli ordu qala ayağına doğru hərəkətə başlayıb, dağın ətəyinə qədər irəlilədi. Rumilər qala qapılarını bağlayaraq top, zərbzən və bağlic atmağa başladılar.
**s.644** Hümayun ordu gəlib qala yaxınlığındakı bağlara və barılara çatdı və hər bir döyüşçü münasib yerdə dayandı. [Qızılbaş-

lar] qaladan dolu kimi yağan güllə, zərbzən və badlicdən qorunmaqdan ötrü qalaya yaxın yerlərdə xeymələr qurub bir qədər səbr etdilər.

*İrəvan qalası üç qaladan ibarət idi.* Biri Sərdar Fərhad paşanın 991-ci at ilində (1582/1583) həmin vilayəti almağa gələrkən inşa edilən *Ətiq qalasıdır*. O zaman İskəndər şanlı nəvvab *Sultan Məhəmməd padşah* Xorasanda idi. Qızılbaşlar Zəngiçayın kənarında möhkəm bir qala tikmiş, qalaya şirhacı çəkmiş*, ətrafında dərin xandaqlar qazmışdılar. İkincisi, qalanın cənub-qərbindəki təpənin üzərində yerləşən *Gözçü* adlı kiçik bir qaladır ki, bu iki qala arasındakı məsafə iki-üç ox sür'ətinə bərabərdir. O qalanın mühafizəçiləri böyük qala adamlarının çağırışı ilə çölə çıxıb, özlərinin suya və başqa şeylərə olan ehtiyaclarını böyük qala vasitəsi ilə təmin edirlər. Üçüncüsü isə, bir neçə gün ərzində Naxçıvan ləşkərinin Ətiq qalasının yanında olduqca möhkəm inşa etdikləri Yeni qaladır (Qəl'eye-cədid), amma oraya şirhacı çəkmək və xandaq qazmağa hələ imkan tapa bilməmişdilər. Ə'lahəzrət zillləllah şah və əzəmətli əmirlər qalanın hər tərəfini gözdən keçirdilər. İçərisi təcrübəli adamlar və bol ehtiyatla dolu olan hər üç möhkəm qalanı qoruyan mühafizəçilər gələcəkdə biri-digərinin çağırışı ilə gəlib bir-birinə kömək edə biləcəkləri üçün həmin qalaların haçansa alınması hamının nəzərində olduqca çətin görünürdü. Səfəviyyə dövlətinin yaranması və fatehliklə məşğul olmasından bu vaxta qədər qızılbaş qoşununun rumilərdən zor gücünə qala alması olduqca az baş vermişdi və buna görə də xalq arasında belə bir zərbül-məsəl yaranmışdı. Rumilərdən qala almaq bir əməldir müşkül"!

Amma, ə'lahəzrət o qalaların ələ keçirilməsini qərara aldı, qalanın hər tərəfini əzəmətli əmirlər, qorçilər, qulamlar və başqa müzəffər əskərlər arasında bölüşdürdü, *Zülfüqar*
**s.645** *xana və Azərbaycan ləşkərinə Gözçü qalasının* fəthini tap-
**(447)** şırdı. O xasseyi-şərifə qulamları ilə birgə Qərçiçay bəyi [həmçinin] əmir və əskərlərin hər birini münasib yerlərə təhkim etdi. Rumilər [də] böyük əzmlə müharibə və müdafiəyə hazırlaşmağa başladılar. Onlar bir neçə dəfə böyük

dəstə ilə qaladan çıxaraq, yeni qala tərəfində səf çəkib döyüşə hazırlaşdılar. Bu tərəfdən də qızılbaş ləşkəri onların qarşısına şığıyır və arada döyüşlər başlayırdı. Hər iki tərəfdən bir dəstə döyüşçü öldürüldü və yaralandı. Döyüşlərin birində *Şeyx Heydər Mokri* özünü qorxmazlıqla rumilərə çatdırdı və tüfəng gülləsindən öldü. Rumilər qala və onun divarlarına sığınaraq irəli gəlmədiklərinə və qızılbaşların cahil və xəsarətli döyüşçüləri isə cəhalət, qürur və cavanlıq üzündən qala ayağınadək gedib çatdıqlarına görə, qazilər rumilərin pusquda qoyduqları tüfəngçilər tərəfindən yaralandılar. Bu mərəkədə igid cavanlardan bir neçəsi tələf oldu. Ə'lahəzrət belə döyüşün sərf etmədiyini görüb, bundan sonra qala qapıçılarından kimsənin eşiyə çıxmasına yol verməməkdən ötrü əmr etdi ki, o ətrafda bir körpü tikilsin, körpüdə müzəffər əskərlər və hümayun ordunun tüfəngçilərindən bir dəstə adam keşikdə dayansın.

Fərman alanlar hümayun əmrə əsasən körpünün tikilişinə başladılar, qazilər və tüfəngçilərsə mühafizə işləri ilə məşğul oldular, rumilər isə qaladan çölə çıxmağın və döyüş səfi çəkməyin daha mümkün olmadığını görüb döyüşdən əl çəkdilər.

Mühasirə və seybə təşkil etmək işləri hər iki tərəfdən davam etməkdə idi. *Topçubaşı Bərxurdar bəy top tökmək işinə başladı*, əmr olundu ki, o bu işi qalayadək bir fərsəx yol olan İrəvan şəhərində həyata keçirsin. Təbrizə adam yollayaraq qaladakı böyük balyeməzi* və bir neçə başqa topu
**s.645** gətirdilər. Birinci topu topçularla birlikdə Zülfüqar xana verdilər ki, Gözçü qalasını topa tutsunlar, çünki qalaya yol açılmırdı və o tərəfdən seybə daşıyıb gətirmək çətin idi. *Ətiq qalasında* və *Yeni qalada* olan rumilərsə *Gözçü* qalasındakıların çağırışına baxmayaraq çay kənarında və bağlarda dayanıb durmuşdular. [Belə olan halda] qızılbaş ləşkərinin o iki qala arasına yollanması və seybə təşkil etməsi olduqca çətin bir məsələ idi.

Bir neçə günlük top ataışmasından sonra güllələrdən biri təsadüfən içərisində su olan bürclərin birinə dəyib su borula-

rını dağıtdı, su ətrafa axmağa başladı. Elə həmin gecə Zülfüqar xanın mülazimləri şücaət göstərib qalaların arasındakı dərəyə girdilər. Gözçü qalasının mühafizəçiləri su qıtlığından və qızılbaşların dərəyə doluşmalarından çaş-baş qaldılar, su yolundan da məhrum olduqlarından çıxılmaz vəziyyətə düşüb gecə yarısı qılınclarını qından sıyıraraq çölə çıxdılar, döyüşə-döyüşə özlərini Yeni qalaya atdılar. Rumilərin bir neçə nəfəri öldürüldü və yaralandı, Gözçü qalası isə qızılbaşların əlinə keçdi. Bu iş qələbənin müqəddəməsi oldu. Şüarları igidlik olan qazilər elə əvvəl də mühasirəni gücləndirmək və seybəni daha da qüvvətləndirmək üçün çalışırdılar, amma havanın soyuqluğu xeyli çoxaldıqından şaxta elə bir həddə çatdı ki, əllər donub hərəkətdən qaldı. Qızılbaşlar taqətdən düşdülər.[1] Buna görə də onlardan elə bir təsirli hərəkət görünmür, onlar seybələri qüvvətləndirməklə kifayətlənir, gecə-gündüz ehtiyat tədbirləri görürdülər.

Rumilərsə bir kərə pazuki qazilərinin səngərinə, bir dəfə isə biyutat fəhlələrinin səngərinə hücum edib qızılbaşlara əl uzatdılar. Onların başqa bir dəfə Qarçiqay bəyə və qulamlara qarşı çıxmaları baş verdikdə rumilərin mötəbər ağalarından olan *Hüseyn Ağa Əliyə* güllə dəydi, ölən və yaralananların sayı isə əlli-altmış nəfər oldu.

Dey* ayının soyuğu və mühasirə müddəti davam edir, tərəflər bir-birlərinə top və tüfəng gülləleri yağdırırdılar. Rumilər o qədər *badlic* və *zərbzən* atdılar ki, hümayun ordunun hər xeyməsinə on-on iki min güllə düşdü, nəticədə isə ordubazar əhlindən xeyli adam həlak oldu.

Kitabın bu yerində [tərəfimizdən] belə münasib bilindi ki, biz indi əvvəlcə bu qış fəslində İrəvan qalası ayağında baş vermiş hadisələrin təhririnə keçək, sonra isə qala vəziyyətinin təsvirini davam etdirib, adlı-sanlı sultanlara və ruzigar xaqanlarına şöhrət ola biləcək o möhkəm qala fəthinin şərhini başa çatdıraq.

---

[1] İfadənin ərəbcəsi:
“Mətinül-mə’sikunə”

## O QIŞ FƏSLİNDƏ İRƏVAN QALASININ MÜHASİRƏSİ ZAMANI QƏZAVÜ-QƏDƏRİN İSTƏYİ VƏ ALLAH-TƏALANIN TƏQDİRİ İLƏ BAŞ VERƏN HADİSƏLƏRİN ZİKRİ

**s.646** **(448)** Ağıllı və hüşyar adamlara, həmçinin intibah aləminin diqqətcil şəxslərinə yaxşı mə'lumdur ki, əgər xoşbəxtliyin iqbal ulduzu ümid səmasından parıldamağa başlayarsa, gözəgörünməz işlər üzərindən pərdə götürənin köməyi ilə fəth qapıları səadətli adamın üzünə açılar, buna görə də ucalıq və cahcəlala yetişməkdən ötrü o iqbal sahibinə lazım olan hər şey hazırlanar. O iqbal sahibi isə səadətli və bənzərsiz şəxs olan ə'lahəzrət zillƏllah şah ola bilər.

**Rum xandgarı Sultan Məhəmməd xanın vəfatı:**

Şah elə ki, öz himmət ayayğını dövlət və iqbal atının üzəngisinə basdı, uca himməti sayəsində Təbriz və Naxçıvan qalalarını, yuxarıda yazıldığı kimi, aldı və İrəvan qalasının mühasirəsi əmrini verdi. Mühasirə zamanı o vaxtlar Rum ölkələrinin hökmdarı
**s.646** *olan Sultan Məhəmməd xan ibn Sultan Murad xan,* hərəkətlərindən səltənət və padşahlıq nişanəsi görünən iyirmi bir yaşlı böyük oğlunu anasının ziddinə gedən bə'zi hərəmxanə zövcələrinin təhriki ilə hərəmxanaya çağırıb xacələrin əli ilə öldürdükdən sonra olduqca qüssələndi. O həmçinin Təbrizin fəth olunmasından və ölkəsindəki qarışıqlıq və qiyamlardan da bərk qəmləndi, kəramətli ayədə buyurulduğu kimi "əgər əcəlləri çatıbsa bir ləhzə də gecikmirlər və ölüm özü gəlir"[1] ifadəsinə uyğun olaraq bu qurulan məsələ onun öz başına gəldi və o üqba aləminə üz tutdu. Aləmdəki işlərin baş verməsi Allah-təalanın qüdrətinə tabe olduğu üçün, həqiqətən də məcazi padşahlar ən qüdrətli padşahın (Allahın – *Ş.F.*) razılığı olmadan dövlət işlərini apara bilməzlər. Ətrafdakı məliklər, habelə yaxın-uzaq adamlar baş verən hadisələri görməkdədirlər. Hadisələr hümayun dövlətin və [şahın] iqba-

[1] İfadənin ərəbcəsi: "izə cə'ə-əcəlihum lə yəstəxirunə saatən və lə yəstəqdimunə hədimə ləzzətin"

lının genişlənməsinə, rumiyyənin isə halının sarsılmasına səbəb oldugu kimi qalanı qoruyanların da vəziyyətlərinin pisləşməsinə gətirib çıxardı.

**Hindistandan Mir Məhəmməd Mə'sum xanın elçi sifətiylə təşrif gətirməsi**

Qiyam və qarışıqlığa səbəb olan bu iki ağır hadisədən osmanlı vəzirləri və dövlət başçıları həyacanlandılar. Sultanın *Sultan Mustafa* adlı oğlu ağıldan kəm olduğundan onun on altı yaşlı başqa oğlu *Sultan Əhmədi* Rum padşahı taxtına əyləşdirib, məmləkət işlərini nizamlamağa başladılar.

Mühasirə dövrünün başqa hadisələrindən biri də Mökr vilayətinin ali məqamlı padşahları xandanından *Cəlaləddin Məhəmməd Əkbərin* mö'təbər əmiri *Mir Məhəmməd Mə'sum xan Mokrinin* gəlişidir. O həmin Firidun əzəmətli padşah tərəfindən hələ yeddi il bundan əvvəl elçi sifəti ilə Hindistana gedən xasseyi-şərifə qulamlarından *Mənuçöhr bəy Eşikağası* ilə birlikdə gəlib, ləyaqətli töhfə və hədiyyələr gətirdi. Hədiyyələrin arasında qilaflı bir qılınc, başdan-başa qızılla və xırda almas və cəvahirlərlə işlənmiş zirehli bir paltar da vardı. Mə'na aləminin uzağı görən adamları yuxarıda göstərilən qılıncın əlahəzrətin öz himmət qılıncını belinə bağlayıb Şirvan, Azərbaycan və Gürcüstan kimi irsi məmləkətləri almaqdan ötrü düşmənlərin üzərinə yollandığı bir zamanda göndərilməsini sahibqran* ailəsindən və gürəkani** xanədanından çıxan və həmişə özünün qəhr qılıncını əfqan və hindli [hünud] düşmənlərin başına endirən bir dövlət sahibinin xoş məramı kimi qiymətləndirdilər, kamkar şəhriyarın fəth və zəfərinə ümüdvar oldular.

Xülasə, adı çəkilən elçi İrəvan qalası ayağında zəfər nişanlı orduya çatıb, Mənuçöhr bəylə birgə ayini behişt olan məclisdə iştirak etməklə şərəfləndi. O, həmin şahanə hədiyyələri dövlətxana qapısına gətirib yan-yana düzdü ki, əgər icazə olarsa, onları müqəddəs nəzərə (Şah Abbasa – *Ş.F.*) göstərsinlər. Ə'lahəzrət zilləllah şah qalatutmaq məşğələsindən bir qədər ayrılıb, öz himmət nəzərini töhfə və hədiyyələrə

yönəltdi, amma onun uğurlu falı olan həmin qılıncdan qeyri başqa hədiyyələrə baxmadı.

Mokr xanının mülazimləri ruhu bədənlərdə donduran soyuğa və qışın şiddətinə baxmayaraq, dörd ay dövlətxanada keşik çəkmək və onların mallarını (barxanə) mühafizə etməklə məşğul oldular. *Şərif paşanın* və Rum ordusunun əksər əzəmətli və savadlı şəxslərinin qalanın fəthindən sonra gəlib ali dərgahda olduqları vaxt [Hindistan elçiləri] gətirdikləri şahanə töfhə və hədiyyələri elçinin peşkəşi ilə birgə müqəddəs nəzərə çatdırdılar. Ə'lahəzrət isə onların hamısını əzəmətli əmirlərə, vilayət hakimlərinə, hümayun ordudakı hər tayfanın ə'yan-əşrəfi arasında payladı.

Baş verən başqa hadisələrdən biri də mühasirə zamanı Kaxet Gürcüstanının valisi *Aleksandr xan ibn Ləvənd xanın* [şahın yanına] gəlməsidir ki, o, bu dudmana bac verən və fərmana tabe olan hökmdarlardan biridir. Aleksandr xan cənnətməkan şahın fərmanı əsasında öz atasından və qarda-
**s.647** şından sonra yuxarıda adı çəkilən vilayətin valisi olmuşdu və o həzrət (Şah Təhmasib – *Ş.F.*) nə qədər ki sağ idi, itaət yolunda durmaqda və ilbəil öz bac-xəracını yollamaqda idi. Kitabın birinci səhifəsində yazıldığı kimi, cənnətməkan
**s.648** şahın və İskəndər şanlı nəvvabın başlarına gələn ölüm hadi-
**(449)** sələrindən sonra rumilər Şirvan vilayətini almaqdan ötrü ləşkərlər yolladılar ki, onların yolu Gürcüstan vilayətindən keçirdi. Öz rəyi və tədbiri ilə cavan və qocaların ən üstünü, hiyləgərlikdə isə qoca qurd olan Aleksandr xan, Kartil valisi *Hümayun xanın* əksinə olaraq rumilərə itaət və gəlib-gedən paşalara və sərdarlara xidmət etməyə başladı. Şirvan və Azərbaycan vilayətləri rumilər tərəfindən tutulanda Aleksandr xan da bac-xərac etməyə boyun olub Rum xandgarına öz sədaqətini izhar etdi.

İskəndər şanlı nəvvabın zamanında qızılbaş əmirlərinin bir dəfə ona hücum etdikləri vaxt, o, oğlu *Kostəndil Mirzəni* öz asılılığını yenidən bəyan etmək niyyətiylə *Sultan Həmzə Mirzənin* yanına yollamışdı və Kostəndilin uşaqlıq dövrü qızılbaşlar arasında keçmiş, şahın xidmətində durub, xüsusi

məclisin (şah məclisinin – *Ş.F.*) ən yaxın adamları zümrəsinə daxil edilmişdi. [Sonradan] Aleksandr rumilərə xidmət etdiyinə baxmayaraq, öz gələcəyini düşünmüş, dəfələrlə ali dərgaha adam yollayıb, sədaqətini izhar etmiş, töhfə və hədiyyə yollamış, özü də şahanə ənamlar almaqla şərəflənmişdi.

İrsi mülklərin geri alınmasının və düşmənlərin cəzalandırılmalarının başlandığı belə bir dövrdə Azərbaycan səfəri başlandı. İrəvan qalasının mühasirəsi vaxtı Kostəndil Mirzə şahdan izn alıb, atasına öz əvvəlki günahları üçün üzr istəməsi və bundan sonra onun rumilərin tərəfində durmayacağını, cənnətməkan şah zamanı olduğu kimi şah fərmanlarına tabe olacağını bəyan etməsindən ötrü İrəvana gətirdi. Aleksandr xan gəlib ali orduya çatan vaxt ali əmrə müvafiq olaraq bütün əmirlər və dövlət başçıları onun pişvazına gedərək onu ehtiramla [şahın yanına] gətirdilər. O, elə ki, göründü şahın ayağını öpməklə şərəfləndi. Öz vilayətində hazırlanın və üstü qızıl təbəqəsi ilə örtülən hümayun niqabını Gürcüstan qaydası üzrə əlinə götürüb görüş anında hümayun şahın başına qoydu. Nəvvab şah onu özünün lütf və iltifat ağuşuna alaraq, yaşının çoxluğu üzündən nəvazişləndirdi, padşahlıq iltifatını ona sarı yönəltdi. Aleksandr xan bundan sonra həmişə xüsusi məclisin iştirakçısı və həmsöhbəti oldu.

**Gorgin xanın cahana pənah verən dərgaha gəlişi**

Həmçinin xasseyi-şərifə qulamlarından və dərgahın yaxın adamları silkinə mənsub olan *Məlik Mermən Samxutinin oğlu Təhmasibqulu bəy*, atası *Simeon xanın* həbsindən sonra irsi mülk olan *Kartil Gürcüstanında* xan olan *Gorginin* tələbi ilə [şahın yanına] getdi və o da əyninə iqbal ehramını geyinib qala ayağında ali orduya çatdı, behişt ayinli məclisə getməklə şərəfləndi, şahanə təzimlərə və padşahanə inayətlərə layiq görüldü.

Bu hadisələr baş verən vaxtda Rum vilayətinin müxtəlif oymaqlarından özlərini türkcə "*sil-süpür*" yəni "*pak süpür*" "pak berob" adlandıran bir dəstə adam "*şahsevən*"* oldu və iki minədək ailə cahana pənah verən dərgaha ümid gətirdi. Onlar Rum vilayətinin hansı yerindən keçirdilərsə, əllərinə

düşən hər şeyi öz *adlarına uyğun hadisə süpürgələri ilə silib-süpürürdülər*. Onların ağsaqqalları qala ayağında şaha səcdə etmək şərəfinə nail oldular, şah tərəfindən nəvazişlə qarşılandılar. Onlar üçün Rey, Savə, Xar və Firuzgahda qışlaq və yaylaq yerləri müəyyən edildi və [sil-süpürçülər] İraqa yollandılar.

**s.648** *Şəmsi Paşa Qazaqlar* qızılbaş oymaqlarından olan və Qarabağda yaşayan qazaqlar eli ilə birgə rum ağalığı zamanı rumilərə itaət etmişdi, əmirlik və paşalıq rütbələri almışdı. O, şəmsəddinli, hacılı və başqa tayfalarla birlikdə ali saraya gələrək yenidən öz iftixar başlarına on iki zolaqlı "isnaəşəri" papağı qoydular və adı çəkilən paşaya yüksək xan ləqəbi verildi.

[Beləliklə,] şahın şövkət və iqtidarı gün-gündən çoxalır və [bu vəziyyət] rumilərin sarsılıb zəifləmələrinə və qala mühafizəçilərinin pərişanlıqlarına səbəb olurdu.

## FARS BƏYLƏRBƏYİ ALLAHVERDİ XANIN FƏRMAN ALARAQ BAĞDAD ÜZƏRİNƏ HÜCUMUNUN VƏ ONUN FƏLƏK ƏSASLI DƏRGAHA QAYIDIŞININ ZİKRİ

**s.649** Keçən il Bağdad ağaları zümrəsindən olan və öz kamilliyi
**(450)** (roşd), bacarığı ilə həmin yerin başqa ə'yanlarından və döyüşçülərindən seçilən *Uzun Əhməd Paşa*, xandgar tərəfindən vəzifəyə tə'yin edilən bir hakim ilə müxalifətdə oldu, İraqi-Ərəb hakimliyini özünə saxladı, ali şah sarayına (ətəbə) sadiqlik və tərəfdarlıq məqamına gəldi, belə ərz etdi: "Mən Bağdad bölgəsini (xotte) sizin əbədi dövlət övliyalarından ötrü hifz etməkdəyəm. Əgər müzəffər şah məiyyəti, yaxud məşhur əmirlərin biri bu tərəfə gələrsə, bir bəndə kimi fərmana əməl edib şəhəri və qalanı verərəm". Qələbə qoşunu (qızılbaşlar – *Ş.F.*) Azərbaycana tərəf yürüşə başlayan vaxt belə bir hümayun hökm verildi: "*Fars əmirülümərası Allahverdi xan* o vilayətin müzəffər əskərləri ilə Şüştər və Həvizə yoluyla Bağdada tərəf getsin. Əgər Uzun Əhməddən sizə tərəf sədaqət rayihəsi əsərsə və o, verdiyi sözə əməl edərsə,

Bağdad vilayətini hifz etməyə çalışın, yox əgər belə olmazsa, vaxtın məsləhətinə görə hərəkət edin".

Allahverdi xan verilən fərmana uyğun Fars, Kuh-Giluyə və Xuzistan ləşkəri ilə birlikdə Ərəbistan və Luristan yoluyla Bağdad istiqamətinə yollandı. Həmədan hakimi *Həsən xan Ustaclı*, habelə Luristan hakimi *Hüseyn xan* əmrə görə Əlişəkər sərhədinin əmir və əskərləri ilə xana qoşuldu, yığılan on iki min nəfər döyüşçü səf bəzəyərək gəlib Bağdad yaxınlığına çatdı.

Bağdadda çoxdan şahsevən olan, ali şah sarayına gələn dərgah qulamları silkinə keçirilən *İbrahim bəy* adlı bir şəxsi şəhərə – Uzun Əhmədin yanına göndərərək ona xoş vədlər və şahanə hədiyyələr verib söylədilər: "Biz ali əmrə itaət edib, şah dərgahının adamlarına etdiyiniz vədə görə sizin yanınıza gəlmişik. Əgər vədə vəfa etsəniz və verdiyiniz söz ilə əməliniz bir olsa, hər vaxt şah xidmətində məqsədlərinizə çatacaq, mətləblərinizə yetməklə şərəflənəcəksiniz. Əks təqdirdə hər şey İlahinin istədiyi kimi olacaqdır." Hakimlik vəzifəsində müstəqillik peyda edən, onun osmanlı dövlət adamları tərəfindən, vaxta münasib olaraq Bağdadda hakim, İraqi-Ərəbdə isə əmirülümərа olmasına göz yumulan Uzun Əhməd bu zaman özünü Ale-Osman dövlətinin tərəfdarı kimi apardı, qızılbaş ləşkərinə qarşı xilaf məqamında dayandı və istədi ki, belə hərəkət etməklə osmanlıların yanında öz hakimliyini möhkəmləndirib nəqdi nisyəyə verməsin. O, buna görə də, elçi ikmi gəlmiş yuxarıda adı çəkilən İbrahim bəyi, bütün dövrlərin qanun-qaydasının əksinə olaraq, qətlə yetirdi, müxalifət bayrağını göyə qaldırdı [amma] nəticədə bu bəyənilməz əməlinin cəzasını çəkdi. Onun başına gələn hadisə və həmin sərgüzəşt barədə gələn ilin başlanğıcını əks
**s.649** etdirən səhifə[lər]də məlumat veriləcəkdir.

Sözün qısası, müzəffər döyüşçülər Bağdad şəhərinin yaxınlığına yetişəndə şəhərin qara əhalisi (mötəcənde) darvazadan çıxaraq qalibiyyətli ləşkərin müqabilində döyüş səfi bəzədi. Bu tərəfdən də güclü dəstələr hərəkətə gəldilər. Cəng meydanının mübarizələri, xüsusiylə iqbal döyüşçülərinin

çərxçiləri olan *Həsən xan* və *Hüseyn xan* öz döyüş ayaqlarını irəli ataraq külək kimi sürətli bir həmlə ilə onları pərən-pərən saldılar, mübarizlərin qanlarını cəng meydanının tozuna bulaşdırdılar. Bağdaddan gələnlər müqavimət göstərə bilməyib şəhərə tərəf qaçdılar, şəhər və qala qapılarını bağlayaraq, oraya sığınmaq və qaladarlıq etmək qərarına gəldilər. Müzəffər əskərlər məğlubiyyətə uğramış həmin adamları qala darvazasınadək təqibə keçərək bir çoxunu ölüm torpağına sərdilər, bir neçə nəfərini isə taxta körpü (təxtepol) kənarında ədəm şəhristanına yolladılar. Cənab xan əzəmətli əmirlərlə gəlib tam şövkət və iqtidarla orada atdan düşdü. Elə həmin gün izzət və cəlal sahibindən (Şah Abbasdan – *Ş.F.*) bir iqbal məktub gəldi.

Bəlağətli, xitabla başlayan, asimanın işarəsi ilə özündə minlərlə əməli hikməti ehtiva edən, qeyb sirlərinin üstündən pərdəni götürən, təqdir qələmi və əzəmətli padşahların tədbir sözləri ilə qələmə alınan həmin məktubda belə yazılmışdı: "Əgər Uzun Əhməd verdiyi vəddən peşiman olub müxalifət və qaladarlıq məqamına gələrsə, siz qalanın mühasirəsini tərk
**s.650** edin, Bağdadda dayanıb qala mühasirəsi ilə məşğul olmayaraq
**(451)** Azərbaycana gəlin və qalibiyyət nişanlı məiyyətə qoşulun, çünki biz özümüzün irsi Azərbaycan, Şirvan və Gürcüstan vilayətlərini fəth etməyə yollanmışıq, hal-hazırda isə özüm şəxsən İrəvan qalasını mühasirədə saxlamaqdayam. Ehtimal ki, mühasirədə qalanları xilas etmək və [sizinlə] savaşmaqdan ötrü Rum padşahı tərəfindən böyük bir ləşkər gələcəkdir. [Buna görə də,] iki hadisə ilə qarşı-qarşıya dayanmaq hələlik məsləhət deyildir". [Bəli] o vaxt Bağdad mülkünün fəthi Allah təqdirinin nihanxanasında niqab altında gizli qaldığı üçün, adı çəkilən xan zaman hökmranının fərmanını qəbul etdi, qalanın mühasirəsini davam etdirmədi və qayıdış təbilini döydü.

Yolda məlum oldu ki, rum sancağı əmirlərindən olan *Mir Ömər Kolhərin oğlu Qubadın oğlanları Zəncir qalasında* və o qalaya yaxın yerlərdə dayanıb, əzəmətli əmirlərin arxasınca hərəkət edən iqbal döyüşçülərinə basqın etməkdədirlər. [Buna görə də], idbar vadisində məskən salan həmin adam-

ları cəzalandırmaq vacib bilindi, bu iş bir dəstə əmir və əskərə tapşırıldı, onlar [Qubad oğlanlarının] olduqları məskənlərə hücuma keçdilər, öz həmişəki yerlərində qəflət yuxusuna getmişlərin el və uluslarını ələ keçirdilər, [müxaliflərin] var-yoxları qarət və tərac olundu. Qardaşların rəisi və sərvəri olan *İmadın oğlu Mir Ömər* ulus adamlarının arasından qaçıb, Zəncir qalasına gəldi. Hüseyn xanın güclü mülazimlərindən bir dəstəsi onu təqibə başlayıb, Mir Ömərlə təxminən eyüni vaxtda qalaya çatdı. Müdafiə olunub qaladarlıq etməyə fürsəti olmayan Mir Ömər fərar etmək istədi, amma dərhal qeyb döyüşçülərinin köməyi ilə müzəffər ləşkər mübarizələrinə giriftar oldu və onların bütün qalaları və məmləkəti bu əbədi övliyaların əlinə keçdi.

Vəziyyəti belə görən başqa övladları acizlik və çarəsizlik əllərini uzadıb cənab xanla birlikdə əzəmətli orduya gələrək şahanə mərhəmətlə sərəfraz oldular, qalibiyyətli əskərlər silkinə qoşuldular, amma dövlətçilikdən bixəbər ollduqları üçün günlərin bir günü iqbal sarayından üz döndərdilər, ayaqlarını fərar səhrasına atdılar. *Luristan hakimi Hüseyn xan* başqa əmirlərlə birlikdə mürəxxəs olub öz ülka və iqtalarına, Həsən xan isə hümayun orduya getdi. Həsən xan İrəvan qalasının mühasirəsi, Allahverdi xan isə fəthi zamanı
s.650 saraya gələrək şah ilə görüş və şahanə nəvazişlərlə şərəfləndi. Həsən xan Mesq Gürcüstanına* mənsub yer və Hümayun xanın damadı *Mənuçöhr xana* məxsus iqta olan, amma rumilərin əlinə keçən Əxəsqə üzərinə talana göndərildi, həmin xidməti yararlı şəkildə yerinə yetirdi, gürcü (gorc) qadın və qızlarının bir çoxunu əsir tutdu, sağ-salamat geri qayıtdı.

O vaxtlarda baş verən hadisələrdən biri Təbriz qalasının və oranın ali imarətlərinin dağıdılmasıdır ki, həmin binalar Təbriz şəhəri rumilərin əlində olduğu otuz il müddətində inşa olunmuşdu. Həmin qalada əksər evlərin, hamamların və gözəl anbarların tikilməsinə baxmayaraq, qala bu hadisələr burulğanında (məğak) yoxluq (ədəm) şəhristanına çevrilmişdi. Amma, rumiyyə tayfası, xüsusiylə də onların qohum-

ları bəşəriyyətin qaçılmaz nəşəsi olan mülk əldə etmək xasiyyətinə giriftar olduqlarından, həmin ev və mülklərdə yaşamaqda idilər. Onların illərlə yaşadıqları tikililərlə əlaqələrinin [biryolluq] qırılması üçün, habelə rumilərin yaratdıqlarını məhv etməkdən ötrü şahın ilhamlı beyninə həmin yerləri dağıtmaq fikri düşdü. Buna görə də, bu cahcəlal sahibindən təbrizlilərə o haqda fərman sadir olundu. Təbrizin sadiq və əqidəli adamları bu işə iqdam etdilər və bir neçə gün ərzində həmin qaladan, habelə bütün bina, imarət, ev, dükan, hamam və başqa tikililərdən əsar-əlamət qoymadılar.

Bu il *müstövfiəl-məmalik olan Ağa Mirzə Əli Dövlətabadı*, keçən il *Müəzza İbrahima Şirazi* tərəfindən hümayun dəftərxana dəftərinin yoxlanılması zamanı bir neçə qüsur aşkar olunduğu üçün, işdən çıxarıldı və həmin vəzifə Müəzzaya verildi.

Bu hümayun fallı ildə olan hadisələrdən və qalanın mühasirəsi vaxtı baş verən əhvalatlardan yazıldığı üçün, indi sözə başlayıb, dünyanı gəzib-dolaşan fikri dastan yazmaq (qissepərdazi) meydanında cövlana gətirmək və türkicə xoşbəxt amallı balıq ilində baş verən hadisələrin yəni o səadətli ildə iqbalın gücü ilə baş verən qala fəthinin şərhini və başqa fəthləri yazı ipinə düşmək gərəkdir.

**Beyt[lər]**

*Uğurun rəhbəri olsa mənə yar,*
*Açsa qələmini o Pərvərdigar,*
**s.651** *Ümid qalasını fəth eləyərəm,*
"*Hədərə getmədi sə'yim*" *deyərəm.*[1]

---

[1] Beytlərin farscası:

Konəd gər qayede-tovfiq yari,
Be moftahe-qələm əz lotfe-bari,
Goşayəm qəl'eye-ommid-ra çost,
Nəgərdəd gər benane-hemmətəm sost.

## s.652 (452) BƏZİ ADAMLAR TƏRƏFİNDƏN TÜRKİCƏ BALIQ İLİNİN MİN ON İKİNCİ (1603/1604), BƏZİLƏRİ TƏRƏFİNDƏNSƏ MİN ON ÜÇÜNCÜ (1604/1605) TARİXLİ BALIQ İLİ KİMİ QƏBULEDİLƏNVƏABBASCÜLUSUNUNONSƏKKİZİNCİ İLİNDƏ BAŞ VERƏN HADİSƏLƏR

Hümayun fallı, xeyirli, zəfərli və iqballı bu il səvval ayının on doqquzu (21 mart, 1604) yekşənbə gününə təsadüf etdi. Dördüncü göy (tarom) qalasını fəth edən ulduzlar xosrovu (yəni günəş – *Ş.F.*) dəlv və hüt [bürclərini] arxada qoyaraq, öz zəfər və iqbal bayrağını gözəl həməl bürcündə uzatdı. Qoşununun sayı ulduzlar qədər çox olan ali məqamlı şah öz əzəmətli ordusu ilə İrəvan qalasının kənarında dayanmışdı. Mühasirə müddətində dey ləşkərinin hücumu, qış [fəslinin] soyuğu və təbiətin sərtliyi üzündən torpaqlar donaraq polad kimi möhkəmləndiyindən elə bir iş görülməmişdi.

Dünyanı canlandıran və cahanı gəzən şahsüvar, yəni aləmi bəzəyən günəş əzəmət, iqbal və şövkətlə zülmətə qərq olan dey qəfəsindən çıxdıqda və qızılı himmət saçağının kəməndini cahanın Vüs'ətabad (ən hündür – *Ş.F.*) qalasını fəth etmək üçün atdıqda təbiət bir qədər isinməyə, bağ və bahar qaladağıdanları cilvəgərlik etməyə başladılar. Döyüş mə'rəkəsinin cəngavərləri və iqbal ordusunun bahadırları hər şeydən əvvəl bellərinə himmət kəməri bağlayıb qala tutmaq işlərinə başladılar. Hərəsi təxminən otuz Təbriz məni* ağırlığında daş atan iki ədəd qaladöyən top hazırlayıb, əvvəlcə cahanı bəzəyən şahın əmri ilə Yeni Qala sakinlərinə təzyiq etməkdən ötrü atmağa başladılar. Sonra Allahın köməyi ilə Yeni Qalanın qabağınadək seybəni irəli gətirib Ətiq qalasının fəthinə başladılar və bu iş məşəl işığı altında davam etdirildi. Qərçiqay bəy bir dəstə Xorasan qulamı və tüfəngçisi ilə Yeni Qalanın ön tərəfindən seybə atmağa göndərildi. Qərçiqay bəyə və qulamlara həvalə olunan Ətiq qalasının şimal səmti *Zülfüqar xan* və Azərbaycan ləşkəri ilə əvəz olundu. Seybə

çəkmək əməliyyatı *Maqsud bəy Nazirə* və karxana əmələlərinə tapşırıldı, həmçinin *Təbriz tüfəngçilərinin minbaşısı** olan *Məhəmməd Tağı bəyə* və *Bafqi tüfəngçilərinə* tapşırılan Ətiq qalasının şərq tərəfində bir top yerləşdirildi. *Qarabağdan* gələn və İrəvana hakim təyin edilən *Əmirgunə xan* belə qərara gəldi ki, gərək Ətiq qalası və Yeni qalanın arasındakı şərq istiqamətində tikilən və başqa bürclərdən əzəmətli və uca olan *Ağ bürcü* tutmaq üçün öz qorxmazlıq və mərdanəlik ayağını irəli atsın. *Qənbər bəy Silahdarbaşı Gözüböyüklü* bə'zi igidlərlə birlikdə Yeni Qalanın şərqində dayandı. Yeni Qalanın ön tərəfindəki böyük bürcün darvazası qorçibaşının və əzəmətli qorçilərin öhdələrinə qoyuldu və bir topu orada qurdular. *Məşhur Zəngiçayın* keçdiyi qərb səmtindən başqa hər iki qalanın hər bir tərəfi, oraya seybə çəkilməsi çətin olduğu üçün iş adamlarına təhkim olundu və qala [döyüşçülər tərəfindən] mühasirəyə alındı. Sərdarların hər biri öz mürcəl-
**s.652** lərini möhkəmlədib çuvallarla torpaq daşıyaraq qala divarı qarşısında Əlvənd dağı ucalığında torpaq dağı düzəltdilər. Onlar bürc və barıların altından lağım atıb, bürcləri top zərbələri ilə çatlatdılar. Yeniçərilərin və qala mühafizəçilərinin bir çoxu tüfəng güllələrindən yaralanaraq ədəm yoluna yollandılar. Mühasirəyə düşənlərin vəziyyəti pisləşdi, onlar bərk təşvişə və həyacana düşdülər. Yeni Qalaya yürüş ləvazimatını bir yerə toplayıb qalalar açan mübarizlər və döyüşkən igidlər bu işi yerinə yetirməyə amadə oldular.

Amma, ə'lahəzrət şah yürüş məsələsində bir qədər tərəddüdlü və qayğılı idi. Məğlubedilməz dövlətin bə'zi başçıları, məsələn qorçibaşı, Bəstam ağa və başqaları da yürüşə keçmək fikrində idilər, amma bə'ziləri bunu istəmirdilər. Belə ki, bu məsələ on gün danışığa və təxirə səbəb oldu. Deyirdilər ki, nə vacib düşüb ki, işə yararlı cavanların çoxu tüfəng zərbələri ilə həlak olsun? Əgər bu yürüş zamanı qala alına bilməzsə mühasirədəki (rumilər) ürəklənəcəklər və iş uzanacaq.

Belə danışıqlar aparılan həmin bir neçə gündə Yeni qala rumiləri [qızılbaşların] qala divarınadək daşıyıb qaldırdıqları

torpağı qala daxilinə daşıyırdılar. Nəhayət belə qərara alındı ki, ə'lahəzrətin özü seybələrin yanına gedərək, hər şeyi öz gözü ilə müşahidə etsin və o hər nəyə əmr edərsə, iqbal fədailəri itaət kəmərlərini bellərinə bağlayıb o işə başlasınlar.
**s.653 (453)** Baxmayaraq ki, belə hərəkətlər padşahlara dəxli olan məsələlərdən deyildir və ehtiyatkarlıq tələb edir ki, hökmdarların və nejad sahiblərinin şərafətli vücudları yeddi dəmir qala içərisində qorunsun, lakin ə'lahəzrət şah inanırdı ki, asimanın razılığı olmasa, heç bir iş sirr pərdəsi altından çıxaraq cilvələnməz. Buna görə də, o, qala ayağına getməkdən çəkinmədi. Tayı-bərabəri olmayan bədənini Allah himayəti ilə bəzəyib, qələbə əzmi ilə mübariz döyüşçülərin murçəllərinə tərəf təşrif apardı. Onlara tapşırılan hər işi yerinə yetirməkdən ötrü dərgah bəndələrinin hər biri bundan xəbər tutaraq seybələrin vəziyyətini bir daha yoxladı. Hazırlıq işləri bitdiyindən yürüş əmri verildi. Zilhəccə ayının iyirmi yeddisində (16 may, 1605) pəncşənbə günü Yeni Qalanı fəth etmək tapşırığı alan hər əskər, seybələrdə toplaşıb qalaya mərdanəliklə hücuma keçməkdən ötrü, şahın işarəsini gözləyirdi. Seybələrdə elə çoxluq yarandı ki, öz canlarını fəda etməyə hazır olan igidlərin biri digərinin yerini dar edirdi, çünki dayanmağa yer yox idi. Şah qəzanın hökmünü bildiyindən belə əmr etdi: "Yürüş başlayan vaxt seybədəki döyüşçülər Ətiq qalası səmtinə hay-küy salsınlar və çoxlu top və oraya tüfəng güllələri atılsın. Amma öz yerlərindən tərpənməsinlər ki, Ətiq qalasının mühafizəçiləri özlərini itirsinlər, Yeni Qalaya kömək yollaya bilməsinlər. Sübhi-sadiq başlayan vaxt kərənay və surənlər çalınsın, müzəffər döyüşçülərin hər biri öz mürcəllindən çıxıb bürc və barılara tərəf hücuma keçərək divarlarda yaranmış yarıqların arasından qalaya daxil olsunlar".

Rumilərsə bu gecə [qızılbaşların] bərk səs-küyündən qorxub ötən gecələrdən daha çox ehtiyat tədbirləri gördülər, sübhədək bürc və barıların yanında dayandılar, müdafiə və döyüşə hazırlaşdılar.

Allahın razılığı ilə baş verən gözəl bir təsadüf nəticəsində belə bir əməl həyata keçdi: Gecə yarısına yaxın göy üzü

təmamiylə qaraldı və qapqara buludlar fələyin üstünü zil qaranlığa qərq etdilər, şiddətli yağış yağmağa başladı. Mürcəllərə və seybələrə elə sel axdı ki, gil və palçığın çoxluğundan qalibiyyətli qoşunun hərəkət etmək macalı belə olmadı. Buna görə də, belə düşündülər ki, yürüş [bir neçə günlüyə] təxirə salınsın, çünki belə hövlnak bir gecədə yürüşə keçmək mümkün ola bilməz. Sürət aləminin zahirpərəst adamları həmin tufanın zəfər yolu üçün sədd olduğunu və qalaya hücumun dayanacağını güman etdilər, amma məna cahanının uzaqgörən şəxslərinə məlum idi ki, o yağışın hər bir qitrəsi yerə iqbal buludundan düşməkdədir. Buna görə də, Allahın məsləhəti ilə ertəsi gecə həmin ayın iyirmi səkkizində (17 may, 1605), cümə günü, yuxarıda qərara alınan tərzdə qalibiyyət nişanlı əskərlər mürcəllərə yığılıb yürüşə hazır oldular.

Rumilər keçən gecə olduğu kimi gecə yarısına qədər döyüşə hazır vəziyyətdə gözlədilər, amma gecə yarısından sonra bütün əlamətlərinə görə bürclərdə və barıların üstündə az adamın qaldığı, əksər adamların isə yuxuladığı hiss olundu.

**İrəvanın Yeni Qalasının fəth olunması:**

Düşmənlərin bəxt ulduzunun qürubu olan sübhi-sadiqin başlanmasına yaxın saatda qızılbaş sərdarları bir birini xəbərdar etdilər. Əvvəlcə qorçilər tərəfdən kərənay çalındı, hər tərəfdən sürən səsləndi və [qızılbaşlar] qala üzərinə tökülüşdülər. Ətiq qalası istiqamətindən də surən çalındı, şadimanlıq nağaraları nəvazişlə döyülməyə başladı. Rumilər xəbərdar olub özlərini bürc və barıların yanına çatdırdılar, döyüş başlandı. Hər tərəfdən yayılan top-tüfəng səsləri yeri-göyü titrətdi. Bu tərəfdən ucalan kərəney sədaları fələyin qulağını kar etdi. Qızılbaş ləşkərinin qızılbaşları düşmənlərdən qətiyyən qorxmayaraq özlərini səməndər kimi cəng atəşinin içərisinə atdılar. Məğlubedilməz qoşunun mərdanə döyüşünü görən rumilərin iqamət (duruş – *Ş.F.*) ayaqları sustaldı, əlləri hərəkətdən qaldı. Bəlanın hər tərəfdən gəldiyini müşahidə etdilər və qalanı artıq qızılbaş dəstələri ilə dolu gördülər. Döyüşü

davam etdirə bilməyib, zərurət üzündən pərişanlıqla Ətiq qalasına tərəf üz tutdular. Əcəli hələ gəlib çatmayan hər bir rumi özünü qalaya çatdırıb yarımcan halda canını nicat sahilinə çatdıra bildi.

Qızılbaş dilavərlərinin yamanlıq qılıncları işləməyə başladı, az bir müddətdə iki minədək rumi-bə'ziləri qılınc zərbindən həlak, bə'ziləri isə əsir və giriftar oldular. Onların malları, silahları, evlərindəki bütün şeylər qarət edildi.

Elə ki, Yeni qala əbədi dövlət tərəfindən fəth olundu, peşələri igidlik, şüarları şücaət olan döyüşçülər qarşı tərəfdən seybəni irəli gətirib Ətiq qalasını dairə kimi ortaya aldılar. O qala sakinlərinə sonsuz qorxu üz verdisə də, imkan
**s.654** olduqca, qalanı qorumağa başladılar. Şimal səmtindən Zülfü-
**(454)** qar xan üç gün ərzində seybəni şirhacının yanına gətirib çıxara bildi və şirhacının liləsinə atəş vurdu. Şərq tərəfindənsə xasseyi-şərifə mülazimləri, büyutat ağaları, Təbriz və Bafqi tüfəngçiləri və başqa döyüşçülər hücuma keçərək şirhacının yanına gəldilər. Şirhacını qoruyanlar qorxuya düşüb cəngdən əl götürdülər, qalaya qaçdılar. Əmirgünə xan şərq tərəfdə olan Ağ bürcə yürüş edib qacar qazilərinin aramsız hücumları nəticəsində, amma uzun sürən hərbdən sonra, mərdanəliklə həmin bürcü ələ keçirdi.

Qala əhli acizlik və yorğunluq baxımından özləri-özlərini seyr etdiyindən, onların aqil adamları müqavimətin mə'nasız olduğunu görüb, aman istəməyi zəruri bildilər. *Şərif paşa* özünün Həsənağa adlı çavuşbaşısını şahın yanına göndərib ərz etdi: "Əgər şəhriyarlıq inayəti mühasirəyə düşənlərin halına şamil edilsə, onlar tərəfindən mühasirə vaxtı çarəsizlik üzündən baş verən təqsirlərinin üzərinə əfv qələmi çəkilsə və
**s.654** bütün qala əhli padşahın mərhəmətinə layiq görülsə, qalanı təslim edərəm".

Əlahəzrət zilləllah şah iltifatının çoxluğundan bu təklifi hərb, yürüş və qan axmadan üstün tutub Şərif paşanın iltimasını qəbul etdi. O, *pornak yüzbaşısı Mirzə Əli bəy Türkmanı* qalaya yollayaraq, onunla Şərif paşanın adına iltifat məktubu, bütün qala əhlinə isə şahanə lütfkarlıq və mərhəmətlə dolu amannamə göndərdi.

Amma, ağıldan bəhrəsiz olan rumi cahilləri, güya onlara kömək yetişəcəyi barədə yayılan ara xəbərlərinə inanıb, qalada olan *Xızır paşa oğlu Məhəmməd paşanın* başına yığışaraq, boş yerə, döyüşmək xəyalı ilə qalanı təslim etməyə razılaşmadılar. Onlar Mirzə Əli bəyi iki gün qalada saxlayıb, üçüncü gün çölə buraxdılar. Ağalar cahil ağılsızların və ağılsız cahillərin qəlb təskinliyi üçün on günədək möhlət istədilər. Onlar belə etməklə döyüşü bir müddət saxlamaq və köməyin həqiqətən gəlib-gəlməyəcəyini bilmək istəyirdilər.

Hesabdanlıq aləmi və fəth müamiləsinə görə, düşməndən nəsə bir xahiş etmək olmaz, ələlxüsus qalalar fəth edən hökmdarların qalatutma işlərində öz məqsədlərinə yetişmələrindən ötrü bir saatı, hətta bir dəqiqəni belə fövtə vermək qüsurlu bir hal, ağıldan kənar bir məsələdir. Düşmənə möhlət vermək ağıl tərəzisində çəkilə bilməz. Müxaliflərin elə yersiz hərəkətindən şahın məzacı pozuldu, belə fərman verildi: “Rumilərin verdikləri söz sədaqətdən və e’timaddan uzaq olduğundan qəhrli döyüşçü dəstələrimiz qalanın alınması və mühasirədəkilərə təzyiq göstərilməsi işində əvvəlkindən daha artıq səy etsinlər və qalanı qəhrlə ələ keçirsinlər”.

İqbal qoşunları amalları zəfər olan əskərlərin köməyi ilə işə başlayıb sürətlə irəli şığıdılar, mühasirədəkilərin vəziyyətini hər tərəfdən pisləşdirdilər. Topçular top atəşi ilə bürclərdə çatlar əmələ gətirdilər. Savaş bazarının qızğın olduğu həmin bir neçə gün ərzində qaladakı camaatın əksəriyyətinə hədsiz qorxu üz verdi. Hər gün onlardan bir neçə adam özlərini bürc və divar çatlarından yerə ataraq “şahsevənlik” şüarı ilə hadisələr günəşinin istisindən qaçıb özlərini şahın iqbal kölgəsinə çatdırdılar. İş o yerə çatdı ki, onlar artıq dəstə-dəstə yerə atılmağa başladılar, çünki qala mühafizəçiləri ləşkəri qorumaqda, burcləri və barıları mühafizə etməkdə aciz qalmışdılar.

Bu tərəf adamlarının həzrət seyidüş-şühədaya (şəhidlər seyidinə, yəni İmam Hüseynə – *Ş.F.*) yaş tutduqları aşura gecəsində *ordubazardakı* aşura saxlayanların səs-küylərini eşidən qala mühafizəçiləri bunu yeni yürüşün başlanması sandılar. Sülhə və qalanın təslíminə razı olmayan adamlar

qəflət yuxusundan ayılıb pərişanlıqla Şərif xanın ətəyindən yapışdılar.

Seyyidüş-şühədanın qətl günü münasibətiylə qəbul olunan qayda üzrə matəm libası geyən ə'lahəzrət isə tə'ziyə mərasiminin icrası ilə məşgul idi. Şərif paşa yenidən Həsən ağa Çavuşbaşını uca saraya göndərib özlərinin beş *Ale-əba ruhanisi və Kərbəla şəhidlərinin* ruhuna bağışlanmalarını xahiş etdi. Belə qərara alındı ki, elə bu gün çıxıb qalanı [qızılbaşlara] təslim etsinlər. Baxmayaraq ki, şahın mübarək xatiri rumilərin yersiz hərəkətlərindən incimişdi, onlar şəhidlərin müqəddəs ruhlarına and verdiklərindən onun bir qədər qaralan nurlu xatiri mərhəmət sığalı ilə təmizləndi. Belə qərara alındı ki, xasseyi-şərifə qulamı* Qərçiqay bəy bir
**s.655** dəstə qulam ilə qalaya gedib, qala mühafizəsini və rumilər-
**(455)** dəki yaraqları şahın sərkarına tapşırsın, Şərif paşa isə bütün qala əhli ilə birgə qaladan çölə çıxaraq öz xeymələrini səhrada qursunlar. Qoy bu diyarda qalmaq istəyən hər şəxs qalsın, istəməyən isə Ruma getsin.

Həsən ağa bu qərarın yerinə yetirilməsindən ötrü qalaya getdi.

**İrəvanın Ətiq qalasının fəthi:**

Mühasirəyə düşən əzəmətli ağalardan, məsul şəxsçlərdən (züəma),
**s.655** çavuşlardan, yeniçərilərdən və başqa döyüşçülərdən ibarət hazır vəziyyətdə gözləmə mövqeyində olan böyük bir dəstə bərk qorxu ilə mühasirə darısqallığından qurtulub, şadyanalıqla yuxarıdakı qərar əsasında qaladan çölə çıxdı, xeymələrdə sakit əyləşdi, Qəriçay bəy qalaya daxil oldu.

*Azərbaycan və Şirvan qalalarının kilidi olan o möhkəm qala* İlahinin bəyənməsi və qeybdən gələn imdadın köməyi ilə qəhrli dövələt övliyalarının əlinə keçdi. Rumi camaatı həyatı qənimət sayıb öz əlaqələrini məmləkətlərindən üzdülər və ə'lahəzrətin xosrovanə xasiyyətinə xas himmət bəhri onların bütün mülklərini özlərinə təhvil verdi.

Rumilər xəyallarına belə gətirmədikləri bu mürivvət və ehsandan sonra qərara gəldilər ki, bu iltifata cavab olaraq

xoşhallıqla öz aralarında on iki min iraq tüməni məbləğində pul toplayıb onu müqəddəs nəzərə yetirsinlər. Ə'lahəzrət zilləllah şah onların canlarına və mallarına aman verdiyindən həmin məbləğə qəbul nəzəri salmadı. Rumi böyükləri elə güman etdilər ki, göstərilən məbləğ şaha çatası ənam müqabilində azdır və bəlkə də o, daha çox pul istəyir. Ə'lahəzrət yenə də yeni təklifə qəbul nəzəri salmayaraq yenidən həmin məbləği də onlara əta etdi. Şərif paşa, Xızır paşanın oğlu və bə'zi rumilər şaha at, yaraq və başqa layiqli töhfələr gətirdilər. Ə'lahəzrət onların pərt olmamalarından ötrü gətirdikləri peşkəşlərdən iki-üç at, iki-üç zirehli libas, bir-iki firəng tüfəngi və başqa şeylərdən qəbul edib, yerdə qalanlarını onların özlərinə qaytardı. Belə ali iltifatı görən və hadisələr burulğanı tərəfindən döyülən rumilər rahat oldular.

Şərif paşa əslən isfahanlı idi. Cavanlıqda asiman qüvvəsinin təqriri ilə Rum vilayətinə düşmüş və sultanın xidmətində pillə-pillə iştirak edərək nökərlikdən paşalıq rütbəsinədək ucalmışdı. O şiəliyi qəbul edib Müqəddəs Məşhədə getməyi və səkkizinci İmam Rza – ona Allahın salam və sənası olsun[1] – sənanın rövzəsində mücavir olmaq istəyini ərz etdi. [Şərif paşa beləliklə,] ömrünün sonunda özünü behişt misallı rövzədə üqba aləmi üçün hazırlayıb, əbədi dövlət qazandı. Buna görə də, paşa Rumda qalan övladlarından və var-dövlətdən əl çəkərək belə bir səadətə nail oldu, ixtiyarındakı sayı yüz nəfərədək olan mülazimləri və başqa adamları ilə birlikdə ali məqsədinə doğru rəvan oldu. Şah isə onun üçün illik üç yüz İraq tüməni məbləğində nəqd pul və beş yüz xarvar taxıl müəyyən etdi və başqa mücavirlər kimi gecə-gündüz xidmət etməsindən ötrü paşanı həmin müqəddəs rövzəyə göndərdi. Xızır paşanın oğlu Məhəmməd paşa başqa rumi dəstəsinin sərkərdəsi kimi Ruma yola düşdü. Ə'lahəzrət yolda ona və mallarına qarətçilər tərəfindən xəsarət yetirilməməsindən ötrü rumlu *eşikağası Əlixan bəyin* müşaiəti ilə bir dəstə çəkəni qorçisini də *Səfərqulu bəy Çəkəniyə* qoşub, onların rumilərin əlində

[1] İfadənin ərəbcəsi: "əleyhi ə-t-təhiyyətu və-s-sənau"

olan Qars qalasına qədər ötürülməsi əmrini verdi. Səfərqulu və çəkəni qorçiləri onları təhlükəli yerlərdən keçirib geri qayıtdılar, Əlixan bəy Eşikağası isə həmin rumiləri Qarsa çatdırdı. Qars qalasındakı rumilər Əlixan bəyi tutub Sərdar Cığaloğlunun gəlişinədək həbs etdilər ki, bunun təfsilatı Cığaloğlunun gəlişinin şərhində və o zaman baş verən hadisələrin izahında yazılacaqdır.

Xülasə, İrəvan qalasının fəthindən sonra o vilayətin idarəsi Əmirgunə xana tapşırıldı. Naxçıvan ülkası *Maqsud Sultan Kəngərliyə*, Qaqzaman və onun ətraf yerləri isə *Nəfəs Sultan Səd'liyə* verildi. [O zaman] şahsevən olmuş kürd əmirləri ali saraya gəldilər və *Şahqulu Bəlilan Həkarinin*
**s.656** *oğlanları Qazi bəy və Qorçi bəyə*, [həmçinin] *Qılınc bəy Dünbüliyə, Cəmşid Sultan Dünbülüyə, Mənsur bəy Mahmudiyə* və onun övladlarına münasib tiyullar paylandı. Gürcüstan sultanlarından Kartil valisi *Simeon xanın oğlu Gorgin xan* Tiflis və Əxəsqə qalalarının rumilərin əlinə
**s.657** keçməməsindən ötrü şahdan rüsxət istəyib, padşahlıq iltifatı,
**(456)** qiymətli xələtlər və başqa hədiyyələrlə nəvazişlənərək Gürcüstana yollandı. *Aleksandr* xan isə əvvəllər olduğu kimi ali orduda qaldı. Əzəmətli ordu Çuxur-Sədin zəruri işlərini qaydaya saldıqdan sonra qala ayağından çıxıb ***Qarabulağda*** dayandı.

## QARABAĞ RUMİLƏRİNİN HÜSEYN XAN MÜSAHİB QACARLA DÖYÜŞÜ VƏ ONLARIN ARASINDA BAŞ VERƏN HADİSƏLƏRİN ZİKRİ

Uca aşiyanlı, Cəm həşəmətli cənnətməkan şahın (Şah Təhmasibin-*Ş.F.*) zamanında *Gəncə və Qarabağın əmirülüməralığı Ziyadoğlu Qacar ailəsinə verilmişdi.* Zilləllah şahın hökmranlığı əyyamında *Ziyadlı oymağından Hüseyn xan* şahanə tə'lim-tərbiyə almışdı və ona "*Qarabaği*" deyə xitab edirdilər, o, bu əsnada Astrabad məmləkətinin hakimi idi. Əzəmətli məiyyət Azərbaycana tərəf hərəkətə başlayanda [şah tərəfindən] ona iltifatlı bir məktub yazıldı və bu uca

mənsəb verildi. Hüseyn xana tapşırıldı ki, ***Qarabağa gedib Araz çayı*** kənarındakı torpaqları zəbt etsin, əgər qalibiyyətli ordu o yerləri tutmaqdan ötrü gəlib yürüşə başlarsa, qoy hümayun orduya qoşulsun. Xanın gəlişinədək, yuxarıda yazıldıbı kimi, Əmirgunə xanı o istiqamətə yollamışdılar ki, həmin tərəfin döyüşçü dəstələri ilə birgə olub hümayun orduya birləşsin. Həm də bundan əvvəl yazdığımız kimi, Hüseyn xanın gəlişinədək Əmirgunə xanı göndərmişdilər ki, o tərəfin qoşunu ilə ona həvalə olunan vəzifəni yerinə yetirsin. Hüseyn xan ali saraya təşrif gətirdi. O tərəflərə gedən Əmirgunə xan mərdanəldiklə Araz çayı üzərindəki ***Xudafərin körpüsündən*** keçib Qarabağa daxil oldu.

*Qarabağın qacar, tərəkəmə, otuz iki* və başqa el və oymağı şahsevənliyi qəbul edib xanın ətrafına yığışdı, xan isə öz rəyinin məqbulluğu və hüsni-tədbiri nəticəsində o sərhəddə iqtidar sahibi olub, Araz çayının o tərəfində qalibiyyətlə əyləşdi. Əmirgunə xan tez-tez qarovullar göndərir, rumilərlə qazilər arasında savaşlar baş verirdi. Onun orada olduğu vaxt ərzində müzəffər döyüşçülərin hər birinə heç bir sədəmə toxunmadı. Hüseyn xan Qarbağinin oraya gəlişindən sonra həmin gəliş barədə şaha xəbər göndərildi və Əmirgunə xan fərmana tabe olub qalibiyyət nişanəli orduya birləşdi, Qarabaği isə o tərəfin Qozluçay adlı yurdunda məskən saldı, qoşun və rəiyyətin işləri ilə məşğul olmağa başladı. Hüseyn xan olduqca şücaətli qorxmaz, mərdanə və insaflı adam idi, amma çox özündən razı, təkəbbürlü olub hadisələrin baş verdiyi həmin vaxtlarda da özündən razılıq edirdi. Xasiyyətinə uyğun olaraq özünü öyür, etibarlı əmirlər və camaatla təkəbbürlə davranırdı. Qürur və şücaətinə qapıldığından Qarabağ rumilərini vecinə almır, tədbirli sərdarlara xas əməlin əksinə gedir, ehtiyat tədbirləri görmürdü. Amma ruzigar hadisələri
**s.657** onu qəflət məstliyindən ayıltdı. Bu sərgüzəştin şərhi belədir: Qarabağın bəyləri və Gəncənin hakimi olan *Davud paşa* qalibiyyətli əskərlərin İrəvan qalasının mühasirəsi ilə məşğul olduqları o soyuq günlərdən sonra Qarabağdakı və o ətrafdakı rumiləri bir yerə topladı və Şirvan ləşkərinin bir hissəsi də

ona qoşuldu. Onlar *Qozluçayda* dayanan Hüseyn xan və qızılbaş ləşkəri ilə döyüşməkdən ötrü yeddi min adamla Gəncədən çıxıb Qozluçay istiqamətinə yolladılar. Elə ki, Qarabağ rumilərinin yürüş xəbəri Hüseyn xana gəlib-çatdı, hər şeyini o yurdda qoyaraq, hətta ləşkərin keyfiyyət və kəmiyyətinin artırılması barədə düşünmədən, müxaliflərin qarşısına çıxdı. Amma elə qarşıçıxmadan ötrü səbat qədəminin də olması vacibdir. Tərəflər qarşılaşanda Hüseyn xan rum ləşkərinin sayının onun süvarilərindən çox olduğunu bilib qəflət, yuxusundan bir qədər ayıldı. Cəngdən qaçaraq öz əmir və yoldaşları ilə məsləhətləşməyə başladı. Əmirlərin bə'zisi dedi ki, şahın əmri və rüxsəti olmadan paşa ilə döyüşə girmək yaxşı hərəkət deyil, bə'ziləri isə buyurdular: "Gərək
**s.658** bunu məsələnin başlanğıcında düşünərdik, amma indi yaxanı
**(457)** cəngdən çəkmək qaçmağa bərabərdir. Əgər belə olarsa ordu parçalanar, məhv olar".

Hüseyn xan öz əvvəlki istəyinin əksinə çıxıb, üzbəüz döyüşə girməmək qərarına gəldi və orduya, el və ülusa icazə verdi ki, çaya tərəf gedib Xudafərin körpüsündən keçsinlər, təhlükəsiz bir yerdə dayansınlar. Xan həm də belə qərara aldı ki, yorğa atları olan döyüşçülər qoy başqalarından əvvəl yola düşsünlər, elə onun özü də ahəstə-ahəstə gedib çay kənarına yetişəcəkdir.

Bu əsnada mə'lum oldu ki, Qarabağın dönük camaatı bələdçilik edərək, rum ləşkərini qızılbaşların üstünə gətirir. Döyüşçülərin əksəriyyəti qayıtdığından el, ülus və ləşkərin arasına bərk çaxnaşma düşdü və hamı qaçmağa başladı. Əksəri dönüklər olan əskər, el və ülus qızılbaşların hər şeyinin rumilər tərəfindən tarac ediləcəyini düşünüb onları qabaqladılar və qarətə başladılar, nəticədə əmirlərə məxsus şeylərin çoxu tarac olundu.

Hüseyn xanın və əmirlərin yanında çox az adam qalmışdı. Belə bir anda müxalifət ləşkəri göründü. Onlar olduqca yaxşı tərzdə səf bağlayıb döyüşməkdən ötrü irəli gələrək Hüseyn xana və qızılbaş qoşununa yaxınlaşdılar.

O əsnada *Rüstəm Sultan Sugələn* dedi: "Əvvəla, gəlin biz buraya gəldiyimiz kimi Allahın kərəminə və şahın iqbalına bel bağlayaraq mərdanəliklə döyüşə başlayaq, qoy ilahi necə istəyirsə elə də olsun. Döyüşsüz əzilmək bədnamçılıqdır və şahın qəzəbinə gələrik. Əgər məsləhət olarsa özümüzü müxaliflərə vurub bacardığımız qədər vuruşaq, hərbiçilər kimi cəngdən qətiyyən yayınmayaq ki, elə etməklə şahın və qızılbaşların yanında bədnam olmayaq". Hüseyn xanın da şücaət və mərdlik təri üzə çıxmağa başladı, yanlarında az adamın olduğuna baxmayaraq belə qərara gəldilər ki, atına etibarı olan hər bir döyüşçü döyüşə başlasın, yerdə qalanlar isə döyüşdən çıxıb özlərini arxayınlıq olan bir yerə çatdırsınlar. Hhüseyn xan və əmirlərlə birlikdə dörd-beş yüz döyüşçü yeddi min nəfərin önündə səf çəkərək savaşa girişdi. Şücaətli adam olan Rüstəm Sultan Sugələn öz igidlik qədəmini irəli atıb müxaliflərlə mərdanə vürüşmağa başladı. Rumilərin bir dəstəsi onu dövrəyə alaraq yaraladılar və əsir tutdular. Onun ələ keçməsindən sonra Hüseyn xan və abır-həya üzündən yanındakı az miqdar qazi döyüşə başlayıb, çıxıb gedən döyüşçülərin rumilər tərəfindən təqib olunmalarına yol verməməkdən ötrü rumiləri özləri ilə məşğul etdilər. Nəticədə
**s.658** aradan çıxan döyüşçülər düşmənlərdən nicat tapdılar. Hüseyn xan və daha bir neçə nəfər də vuruşa-vuruşa döyüşdən sağ-salamat çıxa bildi. Belə bir böyük vuruşmada qızılbaşlar tərəfindən fəqət dörd-beş nəfər həlak oldu. Rumilər Hüseyn xanın və iqbal ləşkərindəki mübarizlərin az saylı döyüşçülərində olan döyüş məharətlərini müşahidə edərək, Rüstəm Sultanı əsir götürməklə kifayətləndilər və daha irəli addım atmadılar, elə ordaca qayıdış təbilini döyüb qayıtdılar.

*Davud paşa* Rüstəm Sultana xeyli ehtiram etdi və cərrahlar onun yaralarının müalicəsi ilə məşğul olmağa başladılar, onu Gəncə qalasında saxladılar.

Çayın kənarına gəlib çatan Hüseyn xan və yoldaşlarının mallarının çox hissəsi artıq qarət olunmuş, döyüşçüləri dağılmışdı. Ertəsi gün rumilərin qayıtmaları xəbəri gəlib – çatanda bir qədər xətircəm olub münasib bir yerdə dayandılar, el və

üluslarını toplamaq və qarət olunmuş mallarını axtarmaqla məşğul oldular, Hüseyn xan özünün və əmirlərinin əllərindən çıxmış malların çox hissəsini, o cümlədən çoxlu at, dəvə və çadırı yenidən ələ gətirib onları sahiblərinə qaytardı, amma nəğd pullar və çoxlu qızıl – gümüş tapılmadı. Hüseyn xan baş verən hadisəni xəcalət və utancaqlıqla ali saraya ərz edib xahiş etdi ki, o qoy Gəncəyə gedib [rumilərlə] haqq – hesabı çürütsün.

Onun şücaət və igidliyindən xəbərdar olan həzrət zilləllah şah baş verən vəziyyətin qəzavü-qədər nəticəsində olduğunu bildirib, Hüseyn xanın bağışlanması barədə sənəd imzaladı, münasib sözlərlə onu arxayınlaşdırdı. Bəli, döyüş vaxtı belə səhvlərə tez-tez təsadüf olunur, yaxşı fikirli aqil adamların fikri bəzən təqdirə zidd olur, döyüş meydançasında gah zəfər, gah da fərar halları baş verir ki, belə hallar adamlardan asıllı olmur.

**s.659** İrəvan qalası hələ fəth olunmadığından igid əskərlər o işlə
**(458)** məşğul olmağa başladılar. Şah o zaman intiqam almaq fikrinə düşmədi və qərara alındı ki, Hüseyn xan hələlik özünün, qazilərin, el və ülusun işləri ilə məşğul olsun, başqa məsələlərə isə ilahinin köməyi ilə qalanın fəthindən sonra yaranacaq vəziyyətin necəliyindən asılı olaraq qurşanılsın.

## ALLAHQULU BƏY QORÇİBAŞININ SƏRDARLIĞI İLƏ İQBAL QOŞUNUNUN BİR DƏSTƏ DÖYÜŞÇÜSÜNÜN QARABAĞA GÖNDƏRİLMƏSİ VƏ ONLARIN QARƏTKARLIQDAN SONRA QAYITMALARININ ZİKRİ

İrəvan qalalarının fəthindən sonra qələbə və iqbal çadırları *Qırxbulaqda* quruldu. *Qarabağın* havası olduqca istidir və buna görə də hümayun ordunun oraya gedişi münasib deyildi. Amma, *Şurəgil* və *Mağazbordda* rumilərin əlində bir-iki qala qalmışdı ki, şahın o yerlərə yürüşü vacib idi. [Başqa yandan], rum ləşkərinin buraya gəlişi də ehtimal olunurdu. Şahın ilhamlı xatirinə düşdü ki, əvvəlcə Gəncəyə qədər gedib çatmaqdan ötrü müzəffər ordu gərək Qarabağa

göndərilsin. [Elə olan halda] əgər rumilər döyüşməkdən ötrü irəli çıxsalar, bu tərəf də hərbə başlayıb onların cəzalarını versin, yox əgər rumilər qalada qalıb döyüşə yollanmasalar, qalibiyyətli ləşkər rumilərin tərəfdarı kimi o ətrafda yaşayan və indiyədək bu tərəfə yollanmayan dönük camaatı və başqa el və ülusları qətl-qarət edərək onların məhsullarına xəsarət vurub geriyə qayıtsın. Sonra isə [qızılbaşlar] qışlaq zamanı yetişdikdə və İrəvan sərhədindən, həmçinin rum ləşkərinin gəlişindən arxayın olsalar gərək həmin vilayətə hücuma
**s.659** keçib yürüş cilovunu oraya yönəltsinlər.

Belə düzgün düşünülən bir məqsədlə şah *qacar qorçibaşısı Allahqulu bəyi* bir dəstə əmir, qorçi və müzəffər əskərə sərkərdə təyin edib, bu işi ona həvalə etdi. Allahqulu bəy də on beş minədək xoşbəxt döyüşçü ilə Qarabağa rəvan oldu. Gəncəyə yaxınlaşanda rumilər də bir yerə yığılıb, döyüş üçün şəhərin bağlı divarından üzə çıxdılar, [qızılbaşların] qarşısında səf bağladılar. Qorçibaşı və qızılbaş ləşkərinin sərdarları qalibiyyətli ləşkərin döyüşə hazırlanma işlərinə başlayıb çərxçi, qol, bərangar və cəvangarı hazır vəziyyətə gətirdilər, rumilər tez-tələsik çərxçilərin qarşısına çıxıb döyüşə başladılar. Amma gözləri böyük qola dəyən zaman özlərində müqavimət taqəti görməyərək döyüşü tərk edib qalaya tərəf qaçdılar, qala divarlarını möhkəm bağlayıb qalanın müdafiəsinə başladılar. Qəhrli döyüşçülərsə düşməni xandağın kənarınadək təqib edib bir xeyli adamı həlak, bir neçəsini də əsir etdilər.

Əsir tutulanlar arasında rumi mötəbərlərindən və Təbriz qalasından qaçıb Gəncə qalasına gedən *Kiçik Həsən* adlı bir rumi də vardı. Qorçibaşıya qalanı mühasirədə saxlamağ tapşırılmadığından, o, münasib bir yerdə dayanıb üç gün müddətində müzəffər ləşkəri dəstə-dəstə ətraf yerlərin qarəti üçün göndərdi. Qalibiyyətli əskərlər də o yerləri qarət süpürgəsi ilə süpürüb, çoxlu at, dəvə, qoyun və məişət əşyaları ələ götürdülər. Xeyli qız və qadın əsir alındı. Allahqulu bəy üçüncü gün köç etmək əmrini verdi və qələbə ordusu geri döndü. Şah hələ Qarabulağda idi ki, qorçibaşı və əmirlər ali

saraya gələrək qətl edilmişlərin başlarını, həmçinin ələ keçirilən şeyləri və əsirləri onun müqəddəs nəzərinə yetirdilər, onların bu xidməti bəyənildi. Amma, şah şər'ən qadağan edilən müsəlman qadın və qızlarının əsir götürülməsini bəyənməyərək bütün əsirlərin azad edilmələri əmrini verdi. Əsirləri özləri üçün gizlində saxlayan bir neçə qızılbaş cəzalandırılıb padşahın qəzəbinə gəldi. Belə ədalət xəbəri Qarabağa çatdıqda əsir götürülənlərin adamları ali orduya gəlib öz əsirlərini geri apardılar. Hesablanan bütün qənimətlərsə bərabər şəkildə əskərlərin arasında bölündü. Kiçik Həsən isə bir mehman kimi *Bəndər xan Möhrdara* tapşırıldı və o, bir neçə müddət xanın evində izzət və ehtiramla yaşadı.

Amma *Cığaloğlu* [rumilər tərəfindən] sərdar sifətiylə gələndə Kiçik Həsən Qars yaxınlığında fərar edib rumilərə
**s.660** birləşdi ki, həmin hadisələrin şərhi öz vaxtında bəyan
**(459)** ediləcəkdir, İnşaallah.

## UZUN ƏHMƏD VƏ BAĞDAD QOŞUNLARININ ƏLİŞƏKƏRİ TUTMAQ ÜÇÜN YÜRÜŞÜ, HƏMİN SƏRHƏDİN ƏZƏMƏTLİ ƏMİRLƏRİNİN ONUNLA HƏRB ETMƏLƏRİ VƏ QƏLƏBƏ QAZANMALARININ ZİKRİ

Qırxbulaq yaylağında calal çadırı qurulan günlərdə Həmədandan belə bir xəbər gəldi: Uzun Əhməd və Bağdad ləşkəri o vilayətə gəlib çatmışlar. Bu xəbərin ardınca isə xoşxəbər qasidlər gələrək müzəffər əskərlərin fəth və zəfər müjdəsini və Uzun Əhmədin əsir düşmə xəbərini gətirdilər.

Hadisə belə baş vermişdir: Allahverdi xan və əmirlərin Bağdaddan qayıdıb Bağdad sancaqbəyilərinə tabe olan *Mir Ömər oğlu Mirqubadın* ülkası Kolhəri tutduqları və qayıdıb ali orduya birləşdikləri vaxt Uzun Əhmədin yadına düşdü ki, Əlişəkər hakimi Həsən xan oranı tərk edib şahın ordusuna getdiyi üçün Həmədan hakimsiz qalmış və o sərhədlər boşal-
**s.660** mışdır. [Buna görə də,] o, gərək Bağdad əskərləri ilə Həmədanadək gedərək o yerlərdə qətl-qarət törətsin ki, beləliklə həm qızılbaş ləşkərindən intiqam alınsın, həm də Ərəb İraqı

ləşkərinin hücum xəbərini eşidən Əcəm İraqındakı qoşunların arasına çaxnaşma düşsün və qızılbaş ləşkəri bir qədər nigaran olsun, Azərbaycanda fəth etdikləri qalalardan əl çəkib özlərinin İraq mülklərini qorusunlar. [Güman ki,] onun bu xidməti Rum padşahının şəfqət nəzərində cilvələnərək, bundan əvvəl olduğu kimi, daha onu cəzalandırmayacaqdır.

Amma, Uzun Əhməd bu məsələdən qafil idi ki, qızılbaş dövlətinin işlərini səhmanlamaqda olan qeyb aləminin başbilənləri əvvəlcə bədxah adamların dəf olunmalarına çalışacaqlar.

O, paşalığın sonuncu mərtəbəsinədək yüksəlmiş oğlu *Məhəmməd bəyi* Bağdadda öz yerinə hakim təyin edərək, qarət məqsədi ilə gəlib ona qoşulan lur və kürd süvari və piyadaları, habelə Bağdadın on min əskəri ilə şəhərdən çıxıb Həmədana üz tutdu. Qızılbaş əmirlərindən *Qasım Sultan İmanlı Əfşar* və Hərseyn hakimi *Şah Əli Sultan Xudabəndəli* həmin sərhəddə idilər. Onlar rumilərin hücumundan xəbər tutduqda, Qasım Sultan Luristan hakimi Hüseyn xanın yanına adam yollayaraq, ondan bu hadisənin düzgünlüyünü soruşdu. Hüseyn xan ləngimədən lur qəbilələrindən ibarət min nəfər adamla birgə işıq və külək sürəti ilə o tərəfə yollanıb Qasım Sultanla birləşdi. Onlar birlikdə Uzun Əhməd şərini dəf etməkdən ötrü rumilərin keçib gəldikləri Mahidəştə tərəf hərəkət etdilər, Əlişəkərin ülus, tayfa və döyüşçülərinin yanına adam göndərib tapşırdılar ki, süvar olmaqdan ötrü atı olan hər bir kəs rumiləri dəf etmək üçün gəlib müzəffər döyüşçülərə birləşsin. Beləliklə, lurlardan, əfşarlardan və başqa tayfalardan yığılan üç min müzəffər döyüşçü ilə bir yerə yığışaraq məsləhətləşməyə başladılar. Hamının fikri savaş oldu. Onlar müzəffər ləşkərin çoxluğunun fərqinə varmadan, ilahinin lütfünə və şahın iqbal gücünə arxalanıb, düşmən qarşısına şığıdılar. Əlişəkərə tabe olan Zəhab adlı yerdə əskərlərin bir-birləri ilə qarşılaşması baş verdi. Qalibiyyətli ləşkərin sərdarları belə qərara aldılar ki, müxalif ləşkərdəki döyüşçülərin sayı çox olduğundan, onların qızıl-

başlәşkәrinin sayından xәbәr tutmalarından әvvәl gәrәk toz-tozanaq qaldıraraq, cәsarәtlә hәmlә etsinlәr vә cәng qayda-qanununa fikir vermәsinlәr.

Xülasә, qәhrli qoşun iki hissәyә bölündü: qızılbaşları bir dәstәsi Qasım Sultanın sәrkәrdәliyi vә Şah Әli Sultanın çәrx-çiliyi, lurlardan ibarәt ikinci dәstә isә Hüseyn xanın sәrkәr-dәliyi ilә müxaliflәrin qarşısına çıxdı. Qarşı tәrәfdәnsә Uzun Әhmәd qızılbaş döyüşçülәrinin hücumundan xәbәr tutaraq, ordusunu elәcә dayandıqları yerdә qoyub, özü ilә gәtirdiyi tüfәngçi vә oxçulardan (kәmandar) ibarәt süvari vә piyada-larla sәf düzәltdi vә döyüşә hazır vәziyyәtdә dayandı. Qali-biyyәtli qoşun döyüşçülәrinin gözü elә ki, müxalif әskәrlәrә sataşdı, yuxarıda qәrara aldıqları kimi hәr iki tәrәfdәn hәmin çoxlu döyüşçüsü olan sәfә qarşı şığıdılar. Elә ilk hәmlәdә rumilәrin sәbat ayaqları yerdәn üzüldü, әllәri vuruşmaqdan qaldı. Onlar iqbal dәstәsinin hücumuna tab gәtirmәyәrәk cilovu fәrar vadisinә tәrәf tutdular. Meydanda bir anlığa sәbat qәdәmi atan Uzun Әhmәd öz döyüşçülәrinin fәrar etmәlәrininm qarşısını almaq cәhdinә vә onların cәngә rәğbәtlәndirmәk istәyinә düşsә dә bu ona müyәssәr olmadı.
**s.661** Uca boylu vә möhkәm bәdәnli adam olduğundan meydan-
**(460)** dan çıxa bilmәdi vә elә oradaca әlә keçirildi. Rumilәrdәn vә kürdlәrdәn iki minә qәdәri öldürüldü vә әsir alındı. Lur döyüşçülәri isә rumilәri tәqib edib, qarәtlә mәşğul oldular. Әfşarlar vә qızılbaş tayfaları imkanlarına müvafiq olaraq mәrdanәliklә döyüşdülәr vә qalibiyyәtli lәşkәr çoxlu qәni-mәtә sahib oldu.

Xülasә, o vilayәtin [daim] sәrasimә olan vә tәşviş hissi keçirәn әskәr vә rәiyyәti arxayınlaşdı, bütün o sәrhәdlәrdә tam asayiş vә rahatlıq yarandı. Әzәmәtli әmirlәr Uzun Әhmәdi öldürülәnlәrin başları, әsir düşәnlәrin özlәri ilә bir-likdә etibarlı adamlara tapşırıb yüksәk saraya göndәrdilәr,
**s.661** hәmçinin qәnimәtlәrin içәrisindә şaha layiq olan şeylәri dә şaha yolladılar. Ayәlәri qәlәbә olan ordu *Göycә dәniz* yaylaq-larından olan *Qırxbulaqda* dayandığı vaxt Uzun Әhmәdi

qolları bağlı halda və göndərilən qənimətlərlə birgə müqəddəs zatın nəzərinə yetirdilər. O cümlədən hədiyyələr içərisində bir neçə boş ayğır at və külək kimi iti sür'ətli və tazı nəsilli bədəvi madyanı da vardı ki, onların hər birisi gözəllikdə, bənzərsizlikdə (taq) və qaçışda dünyanın nadir heyvanlarından idilər. [Belə atlar haqqında] şair demişdir:

**Şe'r**

*Bütün əzaları baş bir-birindən,*
*Hamısı kök idi bəsləndiyindən*[1]

Ə'lahəzrət zillələllah şah gətirilənlərə maraq və iltifat gözü ilə baxdı və dedi ki, Uzun Əhmədin əllərindən kəndiri açsınlar. O, sonra gövhərlər səpən dili ilə dedi: "Sən bizə söz verib demişdin ki, şahın dövlətxah bəndəsiyəm və Bağdadı o həzrət üçün zəbt etmişəm, hər kimə istərsə ona da verərəm. Biz də və'd etmişdik ki, əgər sən hərgah imtahandan təmiz çıxa bilsən şahanə nəvazişə layiq görüləcəksən. Sən öz dediyindən peşiman olub və'dinə vəfa etmədin, amma biz öz iltifat və'dimizdən peşiman deyilik. Səndən bizə qarşı baş verən curət və cəsarətə baxmayaraq öz vədimizə vəfa edib səni təzədən Bağdada göndəririk".

Uzun Əhməd öz xəcil başını aşağı salıb yazıq-yazıq dilləndi: "Əgər şahanə inayət bu günahkar bəndənin əməlləri üzərindən əfv qələmi çəkərək bizi sağ qoyarsa, bütün ömrüm boyu bunu şükranlıqla xatırlayacaq, itaət boyunbağını boynumdan çıxarmayacağam. Özü də Bağdadı kimə desələr ona verib, oğlanlarımla birlikdə şahın ordusunda qulluq edərək xidmət mərasimini sədaqətlə yerinə yetirəcəyəm".

Ə'lahəzrət Uzun Əhmədi ali mütfikarlıqla şərəfləndirib onu mehmanı olmaqdan ötrü Əlişəkər hakimi Hüseyn xana tapşırdı.

---

[1] Serin farscası:

Həme ə'zaş bər həm səbqətəndiş,
Kəfəldağ əst əz pəs mandəne-xiş.

**Uzun Əhməd Ruminin Zəncan qəsəbəsində vəfatı**

Yol əziyyətindən və zəncir məşəqqətindən xilas olduğu bir neçə gündən sonra Uzun Əhmədə gözəl xəl'ətlər verildi,o, Həsən xanın mülazimlərinə tapşırılıb göstərilən səmtə yola salındı. Luristan hakimi Hüseyn xana, həmçinin Qasım Sultan və Uzun Əhmədlə döyüşdə igidlik göstərən bir dəstə adama da qiymətli xəl'ətlər göndərildi və onlar nəvazişə layiq görüldülər.

Amma Uzun Əhməd öz yolundan çıxdığı üçün mətləbinə yetişə bilmədi və İlahi qəzavü təqdir nəticəsində yolda xəstələndi, *İraqın məşhur qəsəbələrindən olan Zəncana* çatdıqda əcəl tikanı onun ətəyinə ilişib, varlıq libasını əynindən çıxardı. Onunla gedən Həsən xanın mülazimləri ölümün həqiqi səbəbini şaha ərz etdilər. Qərara alındı ki, həmin müqəddə ərazidə [Bağdadda – *Ş.F.*] dəfn olunması üçün Uzun Əhmədin nə'şini oğlanlarına versinlər. Oğlu *Məhəmməd bəyin* adına başsağlığı məktubu göndərildi. Həmin məktubda atasının vəfatı münasibətiylə şahın mərhəməti və lütfkarlığı əks olunmuşdu. İndi bir qədər Bağdad ləşkərinin sağ qalan döyüşçüləri haqqında: Məğlubiyyətdən sonra onlar peşiman halda şəhərə qayıdıb, atasının giriftar olması barədə Məhəmməd bəyə xəbər çatdırdılar. O da Bağdad döyüşçülərini müttəfiq edib özünü paşa adlandırdı, o vilayətin hakimi oldu. Sonra isə atasının həbsi barədə Rum sarayına mə'lumat göndərib öz dövlətxahlığını izhar etdi. Osmanlı dövlətinin başçıları yaranmış şəraiti nəzərə alaraq, onun adına paşalıq sənədi və Bağdad əyalətinin
**s.662** ona verilməsi barədə məktub göndərdilər. Məhəmməd bəy o vilayətin taxtında əyləşib ali sarayın [Səfəvi sarayının – *Ş.F.*] tərəfdarları ilə nifaqda və müxalifətdə oldu. Ata və oğulun özbaşına hərəkətlərindən osmanlı dövlətinin başçıları da narazı idilər. Məhəmməd bəy Ərəb İraqındakı varlı adamlara hücumlar edir, onların mallarını ələ keçirirdi. Özü üçün, rumilər arasında "səkban*" adı ilə məşhur olan xüsusi ləşkər (ləşkərexassə) yaratmışdı və Bağdad ləşkəri ilə ehtiyatla davranırdı. Məhəmməd bəy də atası kimi çox yaşamadı, saxta hakimiyyəti vaxtı möhkəm olmayan ömrü tez başa çatdı ki, gələcəkdə bu haqda mə'lumat veriləcəkdir.

s.663 (461)

## KEÇƏN GÜNLƏRDƏN BAŞLAYIB RUM SƏRDARI CIĞALOĞLUNUN GƏLİŞİNƏ QƏDƏR YAYLAQDA BAŞ VERƏN BƏZİ HADİSƏLƏRİN ZİKRİ

Təbiətin paklıq və xürrəmilik vaxtı olan bahar günlərində ə'lahəzrət zillələh şah havasının lətafəti, suyunun bolluğu, gül-çiçəyinin çoxluğu, çay və bulaqlarının göz oxşaması ilə göz oxşayan və cənnət gülzarına bənzəyən Göycə dəniz yaylağında işrətlə məşğul olub şikara qurşandı. Yanına gəlmiş Hind [istan] məmləkətləri hökmdarının elçisi *Məhəmməd Mə'sum xan Mokrinin* qayıtmasına izn verərək, onu Hind diyarına rəvan etdi. Şah həmçinin ali sarayda olan kürd əmirlərini, xüsusiylə *Qazi bəy Həkari* və *Mustafa bəy Mahmudinin* qayıtmasına izn verdi və onlar öz ülkalarına getdilər.

O günlərdə baş vermiş hadisələrdən biri də *Aleksandr xan oğlu Davud xan* oğlanlarının şahın yanına gəlişləridir. Davud xan bir neçə gün bundan əvvəl atasının ixtiyarını əlindən almış və yerinə keçmişdi, amma ömründən və dövlətindən ləzzət almaqdan məhrum olub təbii əcəllə vəfat etdi. Davud xandan adı *Təhmurəs* olan böyük və adı *Kemic* olan kiçik oğlu qalmışdı. Onlar öz xanədanlarında baş verən bə'zi hadisələrdən qaçıb ali orduya təşrif gətirdilər və şahın mülazimi olmaqla şərəfləndilər.

O ilin başqa hadisələrindən biri də Allahverdi xanın və qalibiyyətli əmir və əsgərlərin *Əhməd paşa Cəlali* üzərinə hücuma keçmələridir. Məsələ yığcam şəkildə belə olmuşdur:

Əhməd paşa Təbriz hakimi *Cəfər paşanın* mülazimlərindəndi. Cəfər paşa Əhməd paşanın yanında tərbiyə almışdı və Əhməd paşanın xahişinə görə onu Vana hakim tə'yin etmişdi. Şahın iqbal təntənəsinin avazı və zillələh şahın hümayun ordusunun səs-sədası Azərbaycanda yayılan əsnada Əhməd paşa artıq Van əyalətini idarə etməkdən uzaqlaşdırılmışdı, lakin öz padşahının hökmünə əməl etməyərək yenə də öz hakimliyini icra etməkdə idi. [Hətta] yaxın vilayətlərə də yürüşlər etməklə Əxlatı, Adilcəvazı, Əlbostanı və o ətrafdakı Diyarbəkirə qədər olan yerləri öz əlinə keçirmiş, ətrafına

saysız-hesabsız qoşun və rəiyyət toplamışdı. Əhməd paşa zəbt edə bilmədiyi yerlərinsə dörd yanını qarət süpürgəsi ilə süpürərək, topladığı malları hər tərəfdən yığışıb gələn və onun beyninə üsyan fikrini dolduran əskərlərə və əlsiz-ayaqsız ləvəndlərə paylayırdı. Xəbərdar olanların məlumatına görə onun mülazimlərinin sayı on iki min nəfərə çatmışdı.

Rum padşahı *Sultan Məhəmməd xanın* vəfatı və *Sultan Əhməd xanın* cülusundan sonra Əhməd paşa yeni sultana xidmət edəcəyini izhar edib, ona öz yalan sözlərini ərz etdi. Osmanlı sülaləsinin dövlət başçıları dövlətin vəziyyəti və
**s.663** zamanın şəraiti baxımından çıxış edərək onun [keçmiş] əməllərinə göz yumdular, ürək-dirək verdilər. O özünə gəlib, əvvəlkindən də artıq dərəcədə həvəsləndirici böyüklük badəsini və özbaşınalıq qədəhini başına çəkdi, hətta şah mülazimləri ilə də yerli-yersiz davranmağa başladı, bu diyarın tacirlərinə tamah əlini uzatdı. Şahın ədalətli xatiri həmişə bu fikirdə idi ki, imkan ələ düşən vaxt və fürsət gəlib-çatan kimi gərək ona qulaqburması verilsin.

İqbal çadırları ***Göyçə dəniz*** yaylaqlarında qurulduğu vaxtlarda Əhməd paşanın Ərciş qalasına hücumu və ona itaət etməyən *Zal paşa oğlu Məhəmməd paşanı* mühasirə etməsi və oranı tutmaq istəyi barədə şaha xəbər çatdı. İrəvandan Ərcişə altı-yeddi günlük yoldur və sürətli yürüşlə oraya üç günə gedib çatmaq olar. Aləmi bəzəyən rə'y belə oldu ki, Əhməd paşanın qala altında cəngə hazırlaşdığı bir vaxta əgər onun özünü də tuta bilməsələr, heç olmasa paşanın divanəliyinin mayası və özbaşınalığının istinadgahı olan adamlarını dağıdıb, öz diyarlarına qaytarmaqdan ötrü, xoşbəxt ordu döyüşçülərinin bir dəstəsi onun üstünə göndərilsin. Bu savablı yürüşü yerinə yetirməkdən ötrü Allahverdi xanı bir dəstə qalibiyyətli döyüşçü ilə o tərəfə rəvan etdilər. Qəhrli əskərlər fərmana əməl edərək məqsədə doğru yollandılar, hərəkət sür'ətini qəmərdən borc alıb həmin məsafəni hücumla üç günə qət' etdilər. Onlar Ərciş vilayətinə çatdıqda məlum
**s.664** oldu ki, Əhməd paşa qorxaqcasına ehtiyat üzündən özünün
**(462)** etibarlı bir neçə adamını, ə'lahəzrətin artıq məşhur olan

böyük hücumlara başlamaq xəbərinin düzgünlüyünün yoxlanması məqsədilə, İrəvan səmtinə yollamış, ləşkərin artıq göyə tozanaq qaldırma xəbərini alaraq çaşqınlıqla iti sürətli bir ata minib, Muş səhrasına qədər dayanmadan qaçmışdı. Buna görə də onun ləşkəri arasına çaxnaşma düşdüyündən, döyüşçülərinin əksəriyyəti özlərinin idbar diyarlarına qayıtmış oldu, Əhməd paşanın özü isə Cığaloğlu gəlib-çatana qədər Muş səhrasında qaldı, irəli getmə icazəsi olmayan Allahverdi xan geri qayıtdı. Müxalif ölkə olmasına baxmayaraq o, aciz kəndlilərə və rəiyyətə zərər dəyməməsindən ötrü öz ləşkərinə qarətkarlığı qadağan etdi və buna görə də bu gediş-gəliş zamanı onlara heç bir ziyan dəymədi.

Başqa hadisə isə *Çuxur-Sə'də* tabe olan *Şuragil* qalasının ələ keçirilməsidir. Rumiyyə quldurlarından ibarət bir dəstə o qalanı alaraq, oranı özlərinin rənah yeri və sığınacağı edib Allah bəndələrinə (xəlqullah) zülm edir, zərər yetirirdilər.

Ayələri zəfər olan ordu oraya hərəkət edərək cənnət bağından xəbər verən və qəşəng güllər, çəmənlər və otlaqlarla dolu olan bir yerdə dayandılır. O qarabəxt adamlar həmin zəif qalanın özləri üçün ənniyyət yeri olduğunu düşünərək, oranı qorumaqdan ötrü cəsarət addımı atdılar. Bu tərəfdənsə qələbə nişanlı əskərlər və qəzavü qədər güllələri yağdıran İsfahan tüfəngçiləri qalanı almaq üçün göndərildilər. O iqbal dəstəsinin əskərləri qalanı fəth etməkdən ötrü bellərinə möhkəm himmət kəməri bağlayaraq elə birinci gecə cəsarət və mərdanəlik qədəmlərini irəli atıb, özlərini qala ayağına çatdırdılar. Mühasirəyə düşən rumilər iqbal döyüşçüləri ilə nə qədər döyüşdülərsə də onların faydasız cəhdlərinin təsiri olmadı.

Qalatutan mübarizlər divarın bir gecə yerindən dəlik açıb qalaya girdilər. Bəxtləri dönük və xristyan məzhəbli mühasirədəkilər qaçaraq, qədim zamanlarda bu qala içərisində qara daşdan tikilmiş olduqca möhkəm, uca və qala içərisində qala olan bir kilsəyə pənah apardılar. Nəhayət [gızılbaşlar] həmin kilsənin də divarlarını deşib o hündür imarəti ələ keçirdilər. Mühasirədəkilərin hamısı padşahın bərk qəzəbinə gəldiklə-

**s.664** rindən, zaman qəhrəmanının fərmanına görə, onların qarınlarını bir-bir cırıb, baxanlara ibrət dərsi olmaqdan ötrü qala qüllələrindən asdılar. Belə ki, qalanın bütün dövrəsi o xəbislərin xəbis vücudları ilə bəzəndi və onlardan bircə nəfəri belə nicat tapa bilmədi. O gözəl və ürəkaçan yerin zəfər və iqbal ordusu üçün istirahət yeri olduğu bir neçə gündən sonra ordubazar əhalisinə qalanın və divarlarının qazıdılması əmri verildi və onlar az bir müddətdə oranı yerlə yeksan etdilər. Amma o zəif qalanın ən möhkəm yeri olan və daşyonan sənətkarlar tərəfindən roxam daşından* tikilən kilsə tamamilə dağıdılmadı. Şah bu işlərdən xatircəm olandan sonra yürüş cilovunu Qarş qalası istiqamətinə döndərdi.

O günlərdə baş vermiş başqa bir hadisə Xoşab və Qarahisar hakimi *Süleyman bəy Mahmudinin* gəlişidir. O, Van bəylərbəyinin tabeçiliyindəki bir rum sancağının əmirlərindəndir. Şahın şan-şöhrətinin və əzəmətinin səs-sədasını eşidən *Süleyman bəy* kürd əmirlərinə xas olan bir hərəkətlə öz gələcəyini düşündü. Kürdlərin rəftar və şüarları qəddarlıqdır (şəqavətnejad). Onlar vaxtın məsləhəti ilə hərəkət edib hər yanı tutur, yerləşir və gəldikləri yerin hakiminə dövlətxahlıq izhar edirlər. Süleyman bəy də gələcəyini düşünərək dilində düzgünlüyün bol sədaqət cövhəri, qəlbindəsə dövlətxahlıqdan əsər-əlamət olmadan belinə iqbal Kə’bəsinin ehramını bağladı, şahın yanını gəlmək səadətinə yetişdi. Ə’lahəzrət zillallah şah o tayfaya inanmasa da, surət aləmi hökmdarlarının rəftarına xas olan zahiri diqqətə əməl etdi, ona lütfkarlıq göstərərək xanlıq ləqəbi verdi və qiymətli xəl’ətlərlə mükafatlandırdı. Süleyman xan hörmətli əmirlər arasında əlinə iftixar bayrağı götürüb bir neçə gündən sonra kamyab şahdan izn aldı, ülkasına qayıtdı.

O zaman baş verən başqa bir hadisə isə *Firəngistan sultanlarının sərvərləri olan İspaniya və Portuqaliya şahları* tərəfindən göndərilmiş mötəbər elçilərin təşrif gətirmələridir. Yanlarında əlli nəfərədək yaraqlı mülazimləri olan həmin elçilər Qars yaxınlığında fələk əzəmətli dərgaha gələrək, görüş şərəfinə nail oldular, müqəddəs zata layiqli töhfə və

hədiyyələr təqdim edib onun inayət və iltifatına layiq görül-
s.665 dülər, bir neçə gündən sonra şahdan rüsxət alıb, böyük ruh
(463) yüksəkliyi və xoş əhval runiyyə ilə geri döndülər.

Bu hadisələrin baş verdiyi günlərdə vəziyyəti öyrənmək və mə'lumat toplamaqdan ötrü İstanbula getmiş casuslar gəlib belə xəbər verdilər: "Osmanlı sülaləsinin dövlət başçıları rumilərin arasında böyük şücaəti, rə'yinin düzgünlüyü və hüsni-tədbiri ilə başqalarından fərqlənən, ***Firəngistan sərhədində qabudan*** (kapitan – *Ş.F.*) olan və rumi istilahı ilə ***mire-bəhr**** – yəni qabudan adlanan ***Cığalı*** saraya çağırıb onu vəzire-əzəm və sərdar etdilər, sonra isə ona çoxlu qapıqulu və yeniçəri verib qızılbaşların üstünə yolladılar. İstanbulun o biri tərəfində yerləşən və *rumilərin Anadolu adlandırdıqları Bursa, Qaraman, Sam, Səlb, Trablis, Trabzon, Diyarbəkr, Ərzrum, Van, Kürdüstan və başqa yerlərdən ibarət* ərazilərin ləşkərlərini toplamaqdan ötrü həmin yerlərə qəmər sür'əti ilə hərəkət edən cavuşlar göndərildi. *Cığaloğlu* isə hazırda İstanbuldan çıxıb Diyarbəkr hüduduna çatmış və qoşunların gəlib bir yerə toplanmasını gözləməkdən ötrü Muş səhrasında dayanmışdır."

Bu xəbərin doğruluğunu öyrəndikdən sonra ə'lahəzrət zillallah şah düşməni dəf' etmək fikrinə düşərək, qalibiyyətli əskərləri dəstə-dəstə Qarsı, Zərneşadı və o yerlərin ətrafını qarət etməkdən, taxıl və ot-ələfi yandırmaqdan ötrü üola saldı. Onlara tapşırıldı ki, rum ləşkərlərinin o yerlərdən keçəcəyi günlərdə hər yeri viran etsinlər, çöllərdə taxıl,ot və abadlıqdan əsər-əlamət qoymasınlar, o yerlərin başqa millətdən olan rəiyyətini bu tərəfə köçürsünlər, rumilərin tərəfdarı olan
s.665 hər tayfanın torpaqlarına basqın edərək, onları dərhal taraca
mə'ruz qoysunlar.

Qalibiyyət nişanlı əskərlər fərmana boyun əyib Qars və Ərzrumun arasında yerləşən *Həsənqalası* adlı yerə qədərki torpaqları qarət və talan edib hər yanı dərhal yandırdılar, ot və taxıldan əsər-əlamət qoymadılar. Onlar həmin vilayətlərdə yaylaqları olan iki-üç min erməni və başqa tayfaları ailəliklə bu tərəfə köçürüb, İraqa yolladılar. Şüarı zəfər olan əskərlərin

əlinə xeyli heyvan və başqa qənimət keçdi. Onlar sair millətdən olan iyirmi minədək əsiri tutub gətirdilər və həmin adamlar qızılbaşların yanında islamı qəbul etmək şərəfi ilə feyziyab oldular. Cah-cəlallı, zəfər ayəli ordu hümayun şah məiyyətindəki iqbal əskərləri ilə birlikdə o ətrafda dayandı. Onlar rum əskərlərinin bu vilayətə gəlmələrini gözləyirdilər ki, zamanın məsləhətinə əsasən düşmənlə döyüşərək, qəza-qədər pərdəsi altında örtülü qalan hadisələri gerçəkləndirə bilsinlər.

Agahlıq büsatının uzaqgörən adamlarına mə'lum olsun ki, osmanlı sülaləsi qanunlarında belə yazılmışdır: Hər hansı bir yerə qoşun çəkən osmanlılar qoşunun vəziyyətinin yaxşılaşmasından ötrü gərək "*Qasım günü*" adlandırdıqları əqrəb* ayının on üçündə (5 dekabr, 1604) o yerdən geri qayıtsınlar və qışın başlanğıcı, soyuğun şiddətlənməsi və qarın yağması ayı olan ceddi** ayında öz evlərinə gəlib çatsınlar. Onlar bu qanunun pozulmasına [heç vaxt] yol vermirlər. İşdi-şayəd əgər öz padşahları ilə birlikdə səfərdə olsalar belə, Qasım günü başlayanda piyada əskərlərdən ibarət və başqalarına nisbətən səfər istedadına az malik olan yeniçərilər padşahın xeyməsi önündə dikələn bayrağı öz yerindən götürüb, xeymənin arxa tərəfinə sancırlar ki, padşah qayıdış gününün çatdığından agah olsun. Beləliklə də, əlbəttə, ertəsi gün köçüb geriyə qayıdırlar, qəbul olunmuş qayda-qanun da pozulmur. Amma, ləşkər sərdarı öz məqsədinə yetmək naminə geri qayıtmaqdan imtina edib, bir neçə gün gözləyərsə yeniçərilər buna dözməyərək, onun xeyməsini bağlayan kəndirləri qılıncla doğrayır, xeyməni onun başına endirir və sərdarı zorla qayıtmağa vadar edirlər ki, heç kim bu işdə yeniçərilərə mane olmağa qadir deyildir.

Bu sözləri deməkdən məqsədimiz budur ki, qələbə ayəli ordu payız vaxtı o yerlərdə dayandığı üçün daha çöldə qalmaq münasib deyildi, artıq hava soyumağa başlamış və rumilərin "Qasım günü" yaxınlaşmışdı. Cığaloğlu isə hələ də Muş səhrasında idi. Osmanlı qayda-qanununa görəsə onun bu il hücum edəcəyi gözlənilmirdi. Şahın qərarı belə oldu ki, bu il qayıdıb münasib bir yerdə qışlasınlar, ləşkərin hərəkət

vaxtı olan bahar əyyamındasa qəhrli dövlətin məsləhət bildiyi hər hansı bir yaylaqda toplaşıb düşmənlə döyüşə hazır-
**s.666** laşsınlar. Buna görə də, əmirlərdən, qörçilərdən, tüfəngçilər-
**(464)** dən və başqa əskərlərdən ibarət bir dəstəni hümayun qoşunda saxlasınlar, müzəffər ordu döyüşçülərinin yerdə qalan hissəsi isə geri qayıtmaq izni alaraq öz oymaq və qışlaqlarına getsinlər. Elə o əsnada Cığaloğlunun gəlişi barədə ardı-ardınca xəbər gəlib çatdı, amma o heç nəyə nail olmayaraq geri dönməli oldu ki, gələcək yazımızda bu barədə məlumat veri-
**s.666** ləcəkdir.

### RUM LƏŞKƏRİNİN SƏRDARI CİĞALOĞLUNUN AZƏRBAYCANA GƏLİŞİ VƏ ONUN ÖZ MƏQSƏDİNƏ YETMƏDƏN NAXÇIVANDAN VƏ BAŞQA SƏADƏT NİŞANLI YERLƏRDƏN GERİ QAYITMASININ ZİKRİ

*Cığaloğlunun adı Sənan paşadır. Avropa nəslindəndir* (firənginejad) və atasının adı Cığal olduğuna görə onu Cığaloğlu adlandırmışlar. O, özünün qorxmazlığı, mərdanəliyi, şücaəti, aqilliyi ilə Rum vilayətində ad çıxarmış, tədbirli adam olmasına görə məşhur olmuşdur. Harada mühüm bir hadisə baş verirdisə onu oraya göndərirdilər. Firənglərin düşmən hərəkətlərini dəf' etdiyinə görə Cığaloğlunu *qapudan, yəni mire-bəhr edib*, Firəngistan sərhədlərinin qorunmasını ona həvalə etmişdilər. O vaxtlarda müzəffər qızılbaş döyüşçülərinin müqaviməti və bir neçə şəhər və qalanın alınması baş vermişdi. Cığaloğlu özünün şücaət, igidlik və hüsnitədbirinə görə başqalarından üstün olduğu üçün Əhməd xan onu *vəzire-ə'zəm və ləşkər sərdarı* təyin etmişdi. O zaman diqqət Azərbaycandakı qızılbaşlara yönəldiyindən Cığaloğlunun yürüşü ləşkər toplanılması səbəbindən bir neçə dəfələngidildi və o əskər və vəsait toplanışına başladı, nəticədə bir çox ləşkərin gələrək ona qoşulmasından sonra böyük bir ordu yarandı. Cığaloğlu elə böyük ordu və yararlı hərbi təchizatla məqsədə doğru hərəkət edib Ərzruma gəldi, Əhməd paşaya istimalətnamələr yollayıb onu şirnikləndirdi

və öz yanına çağırdı. Əhməd paşa xoşagəlməz əməlləri, özbaşınalığı ıə üsyanı səbəbindən Cığaloğludan qorxmasına baxmayaraq, başına toplanan ləvənd adamlarla birgə gəlib ona birləşdi, həmçinin Ərzrum, Əxəsqə və başqa yaxın yerlərdəki əskərlər də Cığaloğlu ləşkərlərinə qoşuldular.

Xülasə, Cığaloğlu böyük döyüşçü dəstələri ilə Ərzrumdan çıxıb Qarsa qədər heç yerdə dayanmadı. Aləmi bəzəyən rə'yi qeyb nuru ilə bəzənən, nurlu beynində isə özünə inanan sirləri olan ə'lahəzrət əzəmətli əmirləri yanına dəvət edib, onlarla hər xüsusda məsləhətləşdi və ağıllı məsləhətləri olanların hər birisi öz fikirlərini ərz etməyə başladılar. Ə'lahəzrət zilləllah şah qeyb məlhəminin tərcümanı olan ilhamlı dili ilə belə buyurdu: "Rumilər bir neçə müddətdir ki, ləşkəri yaraqlandırıb, çoxlu döyüşçü və güclü silahlarla [üstümüzə] gəlmiş, müzəffər qızılbaş döyüşçülərinin əksəriyyəti isə mürəxxəs olub, öz yurd və məskənlərinə getmişlər. Belə olan halda, ləşkərimizin azlığı səbəbindən döyüşə başlamaq dövlətin məsləhəti deyildir."

Əzəmətli əmirlər və cəsarət sahibləri qeyrətlərinin çoxluğundan igidlik və dilavərlik eşqinə düşüb, hərbdən və döyüşlərdən danışmağa başladılar. Nəhayət, cahanı bəzəyən rəy belə oldu: "Hal-hazırda dayandıqları yerdən köçüb başqa bir səmtə yollansınlar, orada bir neçə gün dayanıb, Cığaloğlunun Araz çayını keçməsini gözləsinlər. Əgər dövlətin məsləhəti olarsa döyüş qoy çayın bu tərəfində başlasın".

Ə'lahəzrətin şəxsən özünün Rum sultanının mülazimləri ilə vuruşması səltənət namusuna layiq və padşahlıq rütbəsinə yaraşan bir hərəkət olmadığındın, onlar oradan çıxıb ***Ağcaqalada*** dayandılar ki, Cığaloğlunun hansı tərəfə gedəsəyi müəyyənləşdirilsin.

Adı çəkilən yurd fələk əzəmətli ordunun iqamət yeri olandan bir neçə gün sonra, Cığaloğlunun ***İrəvan və Naxçıvan*** səmtinə üz tutduğu və köç-köç hərəkət etdiyi məlum oldu. Rəiyyətin pərişanlığına yol verilməsin deyə belə bir hökm verildi: "Bu yerin rəiyyəti köçürülsün və uzaq bir yerə göndərilsin ki, müxalif ləşkər hücumundan kənar və dövran

s.667 hadisələrindən arxayın olsunlar. Qızılbaş ləşkəri özləri ilə apara biləcəyi qədər azuqə götürüb, yerdə qalan hər şeyi oda yaxıb yox etsinlər ki, rumilərin əlinə heç nə düşməsin. Hümayun ordu ilə öz ləşkərləri isə rumilərin olduqları yerin həndə-
s.668 vərində dayanıb gözləsilər ki, rumilər irəli gəlib Araz çayını
(465) keçsinlər, rum ləşkərinin əksəriyyəti özləri azuqədən, atları isə yemdən məhrum olmaqla, pis vəziyyətə salınsın və belə olan halda fəth nişanlı əskərlər harada məsləhət bilinsə orada da onların dəf olunmalarına başlasınlar."

O zamanki şəraitdə hümayun dövlət üçün münasib olan düzgün niyyət və ləyaqətli əzm ilə fikirləşdikləri kimi də hərəkət edərək, ağrəqi özlərindən ayırıb ***Ələnciq*** tərəfə göndərdilər, Əmirgunə xanı isə İrəvan camaatını köçürməyə yolladılar. O da fərmana əməl edib, rəiyyəti ***Qaracadağ*** tərəfə köçürdü. Meşələrdə və əlyetməz yerlərdə qalanlardan başqa bir nəfər də olsa yol üstündə qalmadı. Ordu Ağca qaladan çıxıb Üçkəlisada* dayandı.

Qarsa gəlib çatan Cığaloğlu söhbət zamanı İrəvandan aman tapıb gələn *Əlixan bəy Eşikağasıdan* soruşmuşdu: "Həzrət şahın ləşkər çəkməyinin və dostluq sazişini pozmağının səbəbi nə olmuşdur?"

Əlixan bəy vaxta münasib cavablar verdikdən sonra sonda belə demişdi: "Ey səadət sahibi, yeri cənnətlik olan şahın (Şah Təhmasibin – *Ş.F.*) vəfatından sonra bəs Sultan Murad xanın ataların əhd-peymanını pozub neçə il arada mövcud olan sülh sazişini pozmağının, sakit aləmi həyacana gətirməyinin səfəvi sultanlarının irsi mülkünə hücuma keçməyinin səbəbi nə idi?" Cığaloğlu bu cavabdan sonra susub onun getməyinə izn verdi. Sonra o, Əlixan bəyə [qızılbaşlara] çatdırmasından ötrü qürur hissi ilə dolu sözlər yazılmış bir məktub verib göndərdi. Bu tərəfdən də aşağıdakı məzmunda rəğbətləndirici bir namə yola salındı: "Siz öz səbat və qərarınızda möhkəm dayanın. Əgər belə olarsa, qızılbaş döyüşçüləri də sizinlə yaxınlıq etməkdən uzaqlaşmayacaqlar. Əgər Allahın və zamanın istəyi ilə müharibə başlayarsa, onun qarşısını almaq mümkün olmayacaqdır".

Xülasə, rum ləşkəri İrəvana çatan vaxt hümayun ordu Vadi* (Vedi – *Ş.F*) çayının kənarında dayanmışdı. Ə'lahəzrət orada Naxçıvan hakimi *Maqsud Sultan Kəngərlini* həmin mülkün əhalisini, xasseyi-şərifə qulamı *Təhmasibqulu bəyi* isə ***Culaf*** camaatını köçürməyə göndərdi. Naxçıvan şəhərinin əhalisi köçüb ***Dizmara*** və ***Qaraca dağa*** getdi, amma öz qədim məskənlərindən əl çəkmək istəməyən Culah camaatını isə onların can və mallarının qorunması üçün zorla köçürüb İraqa yolladılar. Culahlıları cənnətnişan İsfahan darüssəltənəsində *Zayəndərud çayı* kənarında yerləşdirdilər və onlar həmin yerdə tədricən bağlı-bağçalı evlər tikib orada həmişəlik qalmalı oldular ki, hal-hazırdı üç min culahlı ailə zaman hadisələrindən aman tapıb şadyanalıqla orada yaşamaqdadır və onların hamısı artıq öz köhnə məskənlərini unutmuşlar. Əlahəzrət, şüarları igidlik olan mübarizlərin bir dəstəsini rumilərin vəziyyətini hər gün öyrənmək və fürsət olduqca onlara hücumlar etməkdən ötrü sağa, sola və ön tərəfə göndərdi. Onlara tapşırıldı ki, azuqədən ötrü kənara çıxan hər kəsi ədəm diyarına yollasınlır. Cah-cəlal ordusu Naxçıvanda bir gün qaldı, taxıl və başqa azuqə toplanmasından ötrü ətrafa adam göndərildi. Asimanın qəzavü-qədəri nəticəsində oradakı şəhər, kənd və tarlalardan qalıb-yaşamalı
**s.668** olan kiçik bir yer belə qalmamışdı. Sələfləri münəccim olan nücum elmi (təncim) sahiblərindən *Molla Məhyəddin* həmin ildə baş vermişələviyyin qranı ulduzlarının[1] yerləşmə hökmü əsasında Kirman narı və soğanı ilə [fal açdı və mollanın dedikləri düzgün çıxdı].

Azərbaycanın əksər yerlərində fitnəkarlıq və qarışıqlıq baş verdi, Naxçıvan və başqa mahallarda dağıntılar yarandı. Ertəci gün ordan çıxıb *Culah keçidi* vasitəsilə Araz çayını keçərək dərəni də arxada qoydular, münasib bir yerdə dayandılar. Onlar gözləyirdilər ki, Rum ləşkəri Arazı keçdikdən sonra müzəffər orduda olan mübarizlərin bir neçəsi darısqal

---

[1] Məşhur İran lüğətşünası d-r Məhəmməd Moin öz lüğətində "ələviyyin" ifadəsinin ulduzlara (setaregan və kəvakib) aid olduğunu göstərir (Bax: M.Moin. Göst. Lüğət. c. II, s. 2348)

keçid olan *Gərivədə* düşmənlə qarşılaşıb döyüşsünlər ki, İlahinin istəyi hər nə olarsa o da baş versin. Hücuma gedən və dil gətirmək üçün yollanan müzəffər mübarizlər bə'zi rumi döyüşçülərini tutub gətirirdilər. Atlarının arıqlağı onların vəziyyətlərinin necə çətin olmasından xəbər verirdi.

Hümayun ordu qarovulları bir neçə gündən sonra Cığaloğlunun Van tərəfə qayıtma xəbərini gətirdilər. Rumiyyə ordusu əskərlərinin bir dəstəsi isə bu hadisəni belə izah edirdi: "Rumiyyənin keçib-gəldikləri heç bir yerdə abadlıqdan əsər-əlamət yox idi. Ehtiyat azuqənin olmaması və başqa çətinliklər vəziyyəti elə bir hala çatdırmışdır ki, yeniçərilər və sərdar qoşununun qolundakı əskərlər sərdarın xeyməsinə hücum çəkib ona demişdilər: Sən qanuna xilaf hərəkət edib,
**s.669** Qasım günündə düşmən vilayətinə ayaq basmısan, ləşkərin
**(466)** bütün atları zəiflikdən hərəkət etməkdən məhrum olmuşlar, qizilbaşların padşahı da çayın o biri tərəfində döyüşə hazır vəziyyətdədir. Belə bir halda, nə müqavimətə taqətimiz, nə də burada qalmağa qüvvətimiz vardır."

Cığaloğlu məsləhətləşmədən sonra belə qərara gəldi ki, bu yerə yaxın olan Vana qayıdıb orada qışlasınlar, amma o, Əhməd paşanın bələdçiliyi ilə (qolavuzi)*, Çurəs və Maku yolu ilə yola düşdü. Həmin yerlər yaylaq yerləri olduğundan hər yanı qar bürümüşdü və nəticədə ləşkərə böyük məşəqqət üz vermiş, çoxlu at və adam tələf olmuşdu. Buna görə də, Cığaloğlu bərk əzab-əziyyət və pərişznlıqla Vana çatdıqdan sonra öz qapıqulları ilə birlikdə şəhər və ətraf yerlərdə qışlamalı oldu, başqa əckərlər isə ətrafa dağılışdı.

Amma öz adətlərinə, yəni hər iki tərəfə xidmət etməyə sadiq qalan kürdlərin hamısı Vana-Cığaloğlunun xidmətinə gələrək, ona öz tabeliklərini bildirdilər. Ağıl sahiblərinə isə məlumdur ki, şüarı qəflət olan bu qafil sərdar həmin get-gəl zamanı heç bir iş görə bilməmiş, ziyandan başqa heç bir xeyir əxz etməmişdir. Həmçinin onun azsaylı əskərlərələ Van qalasına sığınması da uzaqgörənlik əlaməti deyildi. Buna görə də, qoşun çəkmək və bu tərəflə döyüşdə uğur əldə edə bilmək mülahizəsi ilə [rumilər] bir neçə mənzil hərəkət

etmiş, Cığaloğlunun ağıldan uzaq qüruruna görə qızılbaşlara hücuma keçmiş, amma heç nə əldə etməyərək Təbrizdən altı günlük məsafədə yerləşən Van qalasdında qalmalı olmuşdular. Amma, nəticədə o, qəflət yuxusundan ayılmış, gördüyü işin peşimançılığını çəkməli olmuşdur ki, bu barədə gələn il hadisələrinin şərhi zamanı şirin bəyanlı qələmələ mə'lumat veriləcəkdir, inşallah!

## QƏLƏBƏ AYƏLİ ORDUNUN TƏBRİZ DARÜSSƏLTƏNƏSİNƏ QAYIDIŞI, HƏMİN MƏLAHƏTLİ MƏKANDA QIŞLAMASI VƏ XOŞ ƏHVALI-RUHİYYƏLİ HADİSƏLƏRİN ZİKRİ

Dövlətin səadətli işləri həmişə qeyb aləmindəki işguzar şəxslərin köməyi ilə icra olunduğundan, əlahəzrət zilləllah şah özünün bütün hərəkətlərində yerin və göyün xaliqinə
**s.669** əsaslandığı üçün həmişə müridlərinin müvafiqliyi və e'timadının gözəlliyi sayəsində surət və mə'na cəhətincə kamyab olurdu. Elə buna görə də güclü düşmənlərin işlərinin gətirməməsi (nəkabət) aləm karxanəsini tənzim edənlərin himmət və imdadı ilə [qızılbaşların xeyrinə] nəticələnirdi. Elə ki, sərdar Cığaloğlunun Vana çatma xəbəri məlum oldu, şah öz qayıdış cilovunu Təbriz darüssəltənətinə doğru çevirib, müzəffər ordunun dayandığı yuxarıda adı çəkilən keçiddən çıxaraq, xoşbəxt bir saat və zamanda şəhərə daxil oldu, orada qışlamağı qərara aldı. Köçürülən və orda-burda qalan rəiyyətin qayğısına qalıb divan malından (male-divan) onlara lütfkarlıqla azuqə və qış üçün zəruri mallar ayırdı. Əzəli iradə (yəni Allah-taala – *Ş.F.*) İrəvan ermənilərinin cəzalandırılmasına yönəldiyindən, həmin qış onların böyük bir hissəsi ölüm xəstəliyinə yoluxaraq yoxluq diyarına yollandı. Bahar fəsli gəlib çatanda Təbriz mülkündə qalıb yaşamaqdan ötrü şərait olmadığından və ə'lahəzrətin Allah xəlqinə hədsiz rəğbəti olduğundan əcəl caynağından qurtulan erməniləri əmin-amanlığı olan İsfahana köçürülməsi və orada bir neçə il rahat yaşamaları üçün ailələri ilə bərabər İsfahanın müxtəlif yerlərinə

köçürdü, orada onlara əkin yerləri, toxum və başqa zəruri şeylər ayrıldı. Bunun yerinə yetirilməsindən ötrü isə onlara divan malından iki-üç min tümən pul da verildi.

*İrəvan hakimi Əmirgunə xan* həmin qışı *Naxçıvan hakimi Maqsud Sultanla* və tabeliyindəki başqa adamlarla birgə Ələnciqdə keçirdilər. Şah qışlamaqdan ötrü *Kirman hakimi Gəncəli xanı* Marağaya göndərdi və baharın əvvəlində gəlib zəfər şüarlı orduya birləşmək şərti ilə başqa əmirlər öz ülkələrinə çıxıb getdilər. Oymaq ağsaqqallarına tapşırıldı ki, onların hər birisi İraq və Azərbaycandakı el və oymaqların xanlarını siyahıya alsınlar, hər bir tayfanın xanları dinin və məzhəbin çağırışı ilə yasaq[*] vəziyyətinin tələbatına uyğun və iste'dadlarına müvafiq olaraq, baharın əvvəlində yola çıxıb
**s.670** müzəffər orduya birləşsinlər. Bəhram əzəmətli qoyxçılərə bu
**(467)** işi yerinə yetirmək tapşıpığı verildi. Şirvanı tutub Allahın köməyi ilə öz əlində saxlamaqdan ötrü o vilayətin idarəçiliyi, bütün mülkiyyəti və əmirülüməralığına *Aleksandr xanın oğlu Kustəndil Mirzə* namizəd edildiyində mirzə o vaxt şahdan belə bir xahiş etdi: "Qoy oğlunu da özünə qoşub onları Şirvana yollasınlar ki, birlikdə bu tapşırığın icrasına başlasınlar, [beləliklə] Şirvan rumilərinə bu qış ərzində heç yandan kömək gələ bilməyəcəyindən, dərhal həmin vilayəti zəbt edib oranı oğluna versin və əyarı sədaqət olan belə bir yaxşı xidməti hümayun şaha göstərmiş olsun." Hərçənd ki, şaha onun sədaqət əlaməti olmayan sözlərindəki məna aydın idi və bilirdi ki, mirzənin əsl məqsədi özünü öz vilayətinə çatdırmaqdır, amma aləmi bəzəyən rə'yi vəziyyəti nizamlamaq olan ə'lahəzrət zilləllah şah hökmranlıq qayda-qanunun tələbinə əməl edib Kustəndil Mirzəyə şahanə diqqət yetirdi, onu yüksək əmirülüməyi rütbəsi və uca xan ləqəbi ilə şərəfləndirdi. Şah [həmçinin] əmirliyə ləyaqəti olan bir neçə kürdə də əmir rütbəsi verib, onlara Şirvan vilayətində ülka ayırdı, onları öz işlərini səhmana salmaq və ləşkər toplamaq məqsədi ilə Ərdəbil darülnüşarına rəvan etdi. Belə bir ali hökm verildi ki, Ərdəbildə, Ərşəqdə, Təvalişdə və o ətraflarda yaşayan, Küstəndil xana və Şirvan əmirlərinə mülazimlik

etmək istəyən heç kəsə heç kim mane olmasın. [Şah] *Aleksandr xanı* şahanə iltifata layiq görüb, ona qiymətli xəl'ətələr, o cümlədən tac, cirə (?), daş-qaşla bəzədilmiş kəmər və başqa layiqli hədiyyələr verərək və onun oğlu *Təhmurəsi* öz yanında
**s.670** mülazim kimi saxlayaraq, başqa övladlarına və o xanədanın ali orduda yaşayan yaşmaqlı qadınlarına qayıtmaq icazəsi verdi və onlar ata və oğulla birgə öz diyarlarına rəvan oldular. Küstəndil xana xidmət etmək üçün təyin edilən əmirlər adları aşağıda yazılanlıardan ibarətdir: Şəki vilayətinin qədim valiləri nəslindən olub bir neçə müddət bundan əvvəl ali saraya gələn, öz sədaqətini bildirən və ali şahən-şahlıq iltifatına yetən *Şahmir xan* ki, şah onu ursi vilayətinin hakimi tə'yin edərək, Şəki mülkünü ona tapşırdı, adı çəkilən əmirülümərа ilə birgə rəvan etdi.

*Şəmsi xan Qazaqlar*: Öz adamları ilə Qarabağda qalıb, rumiyyə tərəfindən paşa rütbəsinə layiq görülmüşdü. İrəvan qalacının ayağında dərgaha gələrək, sədaqətini ishar etdi, şahanə iltifata layiq görülüb "xan" rütbəsinə yetişdi, elə həmin vaxtdan da Şirvan əmirləri silkinə mənsub edildi.

*Əlixan Müvafiq*: O, Qarabağ rumiyyasindən idi. Küstəndil xan öz atası ilə görüş məqsədi ilə Gürcüstana gedən vaxt bu Əlixan onunla Qarabağda görüşərək müxtəlif köməklik göstərmisdi. Rumiyyə əhli onu "Əli bəy Münafiq" adlandırırdı. O da, İrəvan qalasının ayağında şahın xidmətinə gəlib əmirlik və "xan " rütbəsi aldı. Qərara alındı ki, Əlixan şamlı oymağına başçılıq etsin və bundan sonra ona "*Əli xan Münafiq*" desinlər. Şirvanda ona da ülka müəyyən edib, Küstəndil xanla birgə yola saldılar.

Belə mə'lumatlara yuxarıda işarə edildiyinə baxmayaraq, təkrarçılıqdan çəkinməyərək onlar barədə məlumat veririk: *Bəktaş Sultan*: O, *Məhəmməd xan Mosullu Türkmanın* oğludur və *Küstəndil xanla qohumluq əlaqəsi vardır*. Xanın xahişi ilə onu əmirlik və "sultan" rütbəsi verildi və Şirvan əmirləri silkinə mənsub edildi.

Başqaları *Tizrov Sultan Müqəddəm, Əxi Sultan Cagirli, Əlixan Sultan Şəmsəddinli, Sərdar Mahmudun oğlu Əli Sul-*

*tan Ərəşi* idilər ki, bu dəstə hümayun ordu tüfəngçiləri ilə birlikdə xana yoldaş olub yola düşdülər. Hamılıqla Gəncəyə yaxın olan Kür çayının "Qoyun ölümü" adlı keçidindən keçərkən, onların Gəncə və Şirvan rumilərindən zərər görməmələrindən ötrü qərara aldılar ki, *Ərdəbildən Zülfüqar xan Qaramanlı və Arazbardan Hüseyn xan Ziyadoğlu* özlərinin qoşun və ləşkərləri ilə Aleksandr xan və Küstəndil xana qoşulub onları çaydan sağ-salamat keçirib geri qayıtsınlar. Onlar əvvəlcə Ərdəbil darülirşadına gedərək övliyalar sultanı və mərhum şeyxləri ziyarət etməklə şərəfləndilər, o dini
**s.671** rəhbərlərin müqəddəs ruhlarından kömək istəyib, qızılbaş
**(468)** tayfalarından iki-üç min adam toplayaraq, məqsəd istiqamətinə yollandılar. Zülfüqar xan və Hüseyn xan fərmana əməl edərək, onları çaydan keçirib geri döndülər. Küstəndil xan isə Şirvan əmirləri ilə öz atasının yanına – Gürcüstana qetdi ki, orada *gürc qoşununu* özünə birləşdirib, Şirvan vilayətini fəth etməyə yollansın. Bu məsələnin şərhi və Küstəndil xanın Gürcüstan və Şirvanda başına gələn hadisələr gələn il hadisələrinin bəyanı zamanı Allah-taalanın köməyi ilə yazılacaqdır.

Xülasə, ə'lahəzrət zillə llah şah o qışı fəxarətli Təbriz şəhərində keçirib, mülki işlərlə, [həmçinin] qoşunu döyüşə hazırlamaq və camaata köməklik göstərməklə məşğul oldu, qiymətli vaxtını eyş-işrətlə keçirdi. Qərara alındı ki, Xorasan əskərlərinin bir hissəsini də baharın əvvəllərində Azərbaycan yasaqına gəlib, cah-cəlallı ordunun gələn il olası yürüşündə
**s.671** iştirak etsin.

Bu get-gəl zamanı Cığaloğlu heç bir iş görə bilmədiyi üçün Rum padşahına yalandan bir neçə mə'lumat verib sultana xatırlatdı ki, bəlkə sülh danışıqları yolu ilə nə isə bir iş edə bilsinlər.

Cığaloğlu ali saraya gələn və xan rütbəsi alan Xuşab hakimi Süleyman bəy Mahmudiyə *etimadüddövlə Hatəm bəylə* – qəhrli dövlətin bu vəziri ilə birlikdə məktub hazırladı. Məktubda yazılmışdı: "Tərəflər arasında imzalanan sabiq sülh sazişi qüvvədə qalsın. Ə'lahəzrət zillallah şah İraqa tərəf gəlsin, hər iki tərəfdən baş verən işlər tərəflərə güzəştə gedil-

sin (eğmaz)". Bunlar isə ağıl dairəsindən uzaq olan işlərdi. Həmin dayaz fikirli və alçaq təbiətli adamlar özlərinin rahatlığı və dincliyi üçün belə sülh danışıqları təklif edirdilər: "Təbriz darüssəltənəti və Araz çayının bu tərəfində qızılbaşların əlinə keçən yerlər onların ixtiyarında qalsın, amma çayın o tərəfindəki yerlər rumilərin olsun, tərəflər həmin yerlərə bir daha dəxalət etməsinlər, Araz çayı isə sərhəd təyin edilsin. Amma, heyhat ki,

**Misra**

*Aşiqin sevdası başqa, yar fikri başqadır!*[1]

"Uca şahın qəti qərarı belədir ki, mərhum cənnətməkan şah və Rum xandarı Sultan Süleyman arasında yazılmış sazişdən sonra[2] o cənnətməkanın ixtiyarındakı məmləkətlər, şəhərlər və sərhədlər [osmanlılar tərəfindən] zəbt olunmuşdur. Artıq, cənnətməkan şaha mənsub olan əkilən və əkilməyən torpaqların yarım zər' sahəsi belə başqalarının əlində qalmayacaqdır və bunun yerinə yetirilməsindən ötrü bütün cəhdlərə əl atılacaqdır." Paşaya cavab məktubu belə yazıldı. Amma, yuxarıda söylənilən sözlər bir dəstə hərzə və bihudə danışan adamlar, o cümlədən *Süleyman bəyin* mülazimi tərəfindən şifahi şəkildə yayılmaqdaydı. Öz qüruru və böyüklüyünə qapılan Cığaloğlu bir daha Süleyman bəyə təklif etdi ki qoy yenə də bir adam yollayıb yuxarıda yazılanları [sultana] çatdırsınlar. Bu dəfə aydın bir cavab məktubu yazıldı. Şaha yaxın olan adamlara tapşırıldı ki, bu barədə şahın yanında heç kim məktub barədə danışmağa cürət etməsin. Ağıllı adamlar hər iki dövlət adamları arasında gedən bu yazışmanın gizli qalmasını belə əsaslandırırdılar: "Cığaloğlu öz rəyi və hüsni-tədbiri xüsusunda saxta şöhrət qazanmışdır və onda zərrə qədər ağıl yoxdur. Bir halda ki. cah-cəlal sahibi olan şah ağlı və ali fitrəti ilə öz irsi və öz ali məqsədinin

---

[1] Misranın farscası:

Fikre-canan digər – o sevdaye-aşeq digərəst.

[2] 1555-ci il Səfəvi-Osmanlı sülh sazişi nəzərdə tutulur – *Ş.F.*

yerinə yetməsinə çalışır, vəziyyət haqqında belə sözləri dilə gətirmək uşaqların və ağılsız adamların işidir."

Xülasə, Allahın istəyi və təqdiri dəyişildiyi üçün həmin yazışma və get-gəllərin heç bir təsiri olmadı. Buna görə də hər iki tərəfin adamları bu işlərin icrasını Allaha həvalə etdilər, görsünlər ki qeyb nihanxanasından nələr baş verəcək, həzrət İlahinin təqdir qələmi necə yazacaqdır.

## BU İL QADİR ALLAHIN TƏQDİRİ İLƏ QƏNDƏHAR GƏRMSİRİNƏ MƏXSUS ZƏMİNDAVƏR QALASININ ƏLƏ KEÇİRİLMƏSİNİN ZİKRİ

Mübarək fallı bu ildə baş verən hadisələrdən biri Bəst
**s.672** qalasının fəth olunmasıdır. Məsələ belə olmuşdur: Qələm[imiz] bundan əvvəl yazmışdı ki, bir müddət Qəndaharda dövlət kamına çatıb orad yaşayan *Bəhram Mirzənin* (I Şah İsmayı-
**s.671** lın oğlu – *Ş.F.*) oğlu *Sultanhüseyn Mirzənin* övladları səadət-
**(468)** sizlik və idbar üzündən [bu] dövlətdən üz döndərmiş, özbək ləşkərinin qorxusundan Hindistana getməyə meyillənmiş, o diyarın uca məqamlı padşahı və hökmdarı *Cəlaləddin Məhəmməd Əkbərin* icazəsi ilə *Qəndaharı Şahibəy xan Cığataya* tapşıraraq, o həzrətin (Əkbərin – *Ş.F.*) yanına getdilər; indiyədək, ali səfəviyyə sülaləsi ilə ali məqamlı teymuri dudmani, xüsusilə uca *baburi ailəsi* arasındakı ülfət və dostluq əlaqələrinin möhkəmliyi səbəbindən bu dövlətin yüz ildən bəri irsi mülkü olan o vilayətə dəxalət olunmadı.

Müzəffər ordu Bəlx səfərindən qayıdan il İraqa yollandı. Qəndahar Gərmsirində böyük rütbə sahibi olan *Mir Əbdülhüseynin nəvəsi Mir Zeynalabdin* o diyarın istilaçılarının yersiz hərəkətləri və kobud (nahəmvar) davranışlarından təngə gələrək, özünün qədim məqamını tərk etdi, fərzənd və adamlarını atdı, gəlib şahanə iltifat və ədalət kölgəsinə doğru üz tutdu, Herat darüssəltənətində şah ilə görüş şərəfinə yetişdi. Ə'lahəzrət onu Xorasan əmirülümərası Hüseyn xana tapşırdı və Mir Zeynalabdin Fərah vilayətində* məskunlaşdı. Qəndəhar hakimi Şahibəy xan buna görə də o seyidin ailəsini

və iki oğlunu Qəndahar qalasına apararaq, zamin sifəti ilə orada saxladı və onların geri qayıtmalarına on il izn vermədi. Mir Zeynalabdin öz fərzəndlərinə görə həmişə həyacan hissi keçirirdi. O, gediş-gəliş bacını toplamaq üçün Fərahda yaşayan Hüseyn xanın qulamı *Xosrov bəyi* təhrik edib onu Zəmindavəri və Bəst qalasını tutmağa şirnikləndirdi. Zəmindavərdə yaşayan *qədim Mir Əbdülhəy sülaləsinin* bir dəstə mülazimi Xosrov bəyə dedilər: "Bəst qalasının qoruyucuları olan *Xanəm bahadur Moğolun* oğlanları Həsən bəy və Hüseyn bəy qəflət yuxusundadırlar, əgər bir dəstə döyüşçü ilə bu tərəfə gələrlərsə, qala ələ keçiriləcəkdir."

Bu təklif həmin iddianı hərəkətə gətirdi, Xosrov bəyi əvvəlkindən də çox şirnikləndirdi. O, "şücaət" adlandırdığı cəhaləti və özbaşınalığı səbəbindən Hüseyn xanın əmri olmadan bir dəstə tabeliyindəki adamla Mir Zeynalabdinə qoşuldu və həmin tərəfə hərəkət etdi. Qırx fərsəx yol getdikdən sonra bir gecə qala qapısına gəlib–çatdı, qala qoruyucularını yatmış gördü, onlar hasara nərdivan qoyub qalaya daxil oldular.

Qala əhalisi xəbərdar olub qızılbaşlarla cəngə başladı, Hüseyn bəy öldürüldü, Həsən bəy isə özünü qaladan aşağı ataraq fərar etdi. Qədim məşhur qalalardan və Qəznəvi məliklərindən Əmir Nəsrəddin Səboktəkinin* iqamət yeri olan Bəst qalası Xosrov bəy tərəfindən asanlıqla tutuldu. Bundan xəbər tutan Şahibəy xan tabeliyindəki əmirlərdən Qollat hakimi *Zələ (?) xanı*, Zəmindəvar hakimi *Urus bahadırı* və o yerlərin qəsbkarlarından bir dəstə adamı Qəndəhar ləşkəri ilə döyüş filləri və cəng ləvazimatlarıyla Bəst qalası üzərinə yolladı. Xosrov bəyin Bəstə yürüşündən və onun özbaşına hərəkətindən xəbərdar olan Xorasan əmirülümərası Hüseyn xan bəyin bu yersiz hərəkətinin qarşısını almaq və onu cəzalandırmaq fikrində oldu. Ali şahın bu haqda rəyi olmadığı üçün, qalanı əvvəlki kimi ali məqamlı padşahın (Əkbərin – *Ş.F.*) adamlarına vermək qərarına gəldi. O elə bu fikirdəydi ki, Şahibəy xanın Xosrov bəyin üstünə artıq ləşkər göndərdiyi xəbəri gəlib Herata çatdı.

Hüseyn xan bu xəbərdən çox pərişan oldu, çünki, o, gözləyirdi ki, Şahibəy xan bir adam yollayıb bu məsələnin həlli
s.673 xüsusunda onunla məsləhətləşəcəkdir, amma o öz qüruru və cah-cəlalı üzündən bu xəbəri əmirilüməraya bildirmək fikrində olmayaraq, hətta ləşkər göndərdi. *Qızılbaşlıq qeyrəti* Hüseyn xanı elə çulgadı ki, Xosrov bəyə kömək etmək məqamına gəldi. O, Heratda olan *Məlikşah Sistani* ilə birlikdə şamlı qaziləri və oymaq mirlərinin bir dəstəsini o tərəfə rəvan etdi, həmçinin Fərah hakimi *İsmayıl xan Alplıya* da tapşırdı ki, öz qoşunu ilə gedib onlara köməklik göstərsin. Fərahdan yola düşən həmin dəstə sübh tezdən Hirmənd çayını keçərək, qızılbaşlarla birləşmək məqsədiylə irəli yollandı. Onların çayı keçən ləşkərinin üç yüzdən çox əskəri, işə yararlı cığatay döyüşçülərininsə beş min nəfər olmasına baxmayaraq tərəflər bir-birləri ilə görüşdülər və cənd başlandı. Elə birinci həmlədə məğlubiyyət bu zavalsız dövləti gücü və iqbalın qüvvəti ilə cığatay ləşkərinə qismət oldu, Zələ xan çoxlu bahadırı ilə tutuldu, Urus bahadır qətlə yetirildi, beş yüz nəfərdən çox [özbək] meydanda Bəhram intiqamlı igidlərin
s.674 qilincina yem oldu. Qızılbaş döyüşçüləri zəfər çalıb, qalanı
(470) Müzəffər Hüseyn Mirzənin mülazimlərindən olan, bir neçə vaxt bundan əvvəl Hindistandan qayıdıb Hüseyn xanın yanına gələn və o vilayətin vəziyyətini bilən *Məhəmməd Zaman Sultan Şamlıya* verib, qaladarlıqdan ötrü azuqə və silah-sursat tədarük etdikdən sonra geri qayıtdılar.

Qızılbaşların qayıdışından sonra Şahibəy xan elə o günlərdə ləşkər bəzədi, fil hazırladı, qalatutma ləvazimatı təqarük etdi və Bəst qalasının üstünə getdi. Qalaya yaxınlaşıb qürurunun və hirsinin çoxluğundan yürüş edib oranı zorla tutmaq istədi, döyüşçülərinin ön sırasındakı məşhur filləri qala qapılarına gətirdi və əskərlər hər tərəfdən hücuma keçdilər. Döyüş vaxti qaladan bir badliç* atıldı, xortumunu qaldırıb qala qapısı və divar ilə əlləşməkdə olan həmin filin ağzına dəydi, xortumu parçaladı, fil yerə dəyib hərəkətsiz qaldı. Filin yıxılması əskərlərin əllərini işdən, ayaqlarını qətiyyətdən ayırdı, bahadırların əksəriyyəti tüfəng yarasından həlak oldu, bu

yürüşdə Şahibəy xan bir iş görə bilmədi. O öz qüdrət əlini niyyət ətəyindən aralı görərək, geri dönməkdən başqa çarə tapmadı, həmin vilayətdən aralanıb Qəndahara qayıtdı, Gərmsir vilayəti bu güclü dölət övliyalarının əlinə keçdi, seyidlər və rəiyyət əkinçilik (ziraət) və abadanlıq işləri ilə məşğul olmağa başladılar. Bu hadisələri ali saraya ərz edən Hüseyn xan Zələ xanı şahın yanına göndərdi. Qəzanın qərarı ilə biixtiyar baş vermiş bu məsələdən əlahəzrət zillallah şah narazı qaldı, düşündü: "Bu tərəfin o tərəfə ülfət və dostluğu olmadığı bir halda, nə üçün qızılbaşlar Qəndəhar qalasını tutmaqla deyil, Bəst qalası ilə məşğul olmuşlar? Bundan başqa, hələ Azərbaycanda da görüləsi böyük işlər qalmışdır." O, Zələ xanı saxlamaqdan ötrü Rey hakimi *Əliqulu xan Şamlıya* tapşırdı ki, Azərbaycan işlərinin həllindən sonra onu başqa izzətli və həşəmətli əsirlərlə birlikdə öz diyarlarına qaytarsın.

Bu ilin sonunda, mustovfil-məmalik olan və özünün belə mühüm işinin öhdəsindən layiqincə gələ bilməyən *Müəzza İbrahima Şirazi* mənsəb etinasızlığı ucbatından və huşsuzluq
**s.674** badəsindən məst olması səbəbindən vəzifədən çıxarıldı. Gilan mühasibatında divan malından böyük məbləğ pulu nəzərə almadığına görə, həmin mülkün vəziri olan aləmlər mirzəsi* şahın yanına gələrək məsələni şaha ərz etdi, Müəzzanın şüursuzluğu barədə şahın şüurunu işıqlandırdı və min on dördüncü ilan ilinin (1605/1606) əvvəlində həmin ali dərəcəli mənsəb ata-babadan İsfahanın böyüklərindən olub o zaman Heratda vəzir olan *Mirzə Qəvama ibn Mirzə Həsən Küfrani İsfahaniyə* verildi. Qəvama səyaq elmini mühasiblər ustadı (ustadül-mohasibin) olan sabiq *mustovfi Ağa Şahəli Dövlətabadidən* öyrənmişdi və həmin şərafətli fənn üzrə
**s.675** məharətli adam idi.

## TÜRKİCƏ SƏADƏT AMALLI MİN ON DÖRDÜNCÜ İLAN İLİNDƏ (1605/1606), YƏNİ HUMAYUN ZİLLƏLLAH ŞAHIN TAXTA CÜLUSUNUN ON DOQQUZUNCU İLİNDƏ BAŞ VERƏN HADİSƏLƏR.

Səadətlə keçən bu ilin işrət artıran novruzu min on dördüncü ilin ziqə'dəiil-həram ayına (mart-apre 1606) düşənbə gününə təsadüf etdi, yəni cahan bağının nəsimlərini hərəkətə gətirən və aləmə bəxşişlər əta edən ən böyük ulduz (günəş – *Ş.F.*) özünün şərəf mənzilinə gəlib yetişdi, cahanı bəzəmək və cahandakılara bahar feyzindən təzə təravət və hədsiz gözəllik verməklə məşğul oldu. Ə'lahəzrət zilləllah şah o fərəhli ğünü xoş əhvali – ruhiyyə ilə keçirib bayramlaşmaq və şadimanlıq mərasimləri təşkil etməklə keçirdi, əhalinin vəziyyətini yaxşılaşdıran xosrovanə mərhəmətlərlə məşğul oldu. Adlı – sanlı əmirlər, alimiqdar sədrlər, vəzirlər, başı fələyə çatan saraya yaxın adamlar, o zaman zəfərli şah ordusunda olan zəfər şüarlı qoşun başçılarının hər biri özlə-
**s.676** rinin, əmirlərinin və məmləkət sərhədləri xanımlarının nov-
**(471)** ruz hədiyyələrini şahın nəzərinə çatdırıb yüksək nəvazişlərlə sərbülənd oldular. Elə həmin novruz günü, fərmana görə *Naxçıvanın Ələnciqində* olan Əmirgunə xan Qacarın mülazimləri saraya gəlib xan və rum sancağına xidmət edən *Məhəmməd Təkəli* barəsində həqiqətdən və Məhəmmədin qalibiyyətli əskərlər tərəfindən məğlub edilməsindən danışırdılar, müxaliflərdən ələ götürülən qənimətlərdən bir neçə baş atı, şaha layiq bir neçə tüfəngi şaha göstərdilər. Məsələ belə baş vermişdi: Məhəmməd Təkəli özünü dövranın şücaətli adamlarından hesab edirdi və ona sərdar tərəfindən əmirlik rütbəsi verilmişdi. O, İrəvan, Göycə və o ətrafdakı yerlərin bir dəstə yaramaz adamı ilə gələrək, oralarda dayanan qızılbaş döyüşçüləri ilə döyüşmək üçün fürsət gözləməyə başladı. Elə o əsnada da, rumiyyə döyüşçülərindən *Qəcər Paşa* və *Mustafa paşa* da ağır qoşunla və Vandakı kürd əmirləri ilə hərəkət edib Əmirgunə xanı əzmək məqsədilə Naxçıvana

gəlib çıxmışdılar. Bundan xəbər tutan Əmirgunə xan igid qacar qazilərindən ibarət bir dəstə, həmçinin tabeliyindəki əmirlər və onun köməyinə verilən əsgərlərlə Araz çayı kənarına qədər gəlib çatmışdı. Onun qorxmazlığını və cəsarətli addımını görən adları çəkilən paşalar qorxub evdən çıxmağa cürət etmədilər, yürüşdən sərf – nəzər edib geriyə döndülər. Əmirgunə xan da müxaliflərin daha hücum etməyəcəklərindən xatircəm olub, qayıdış cilovunu geri qaldırdı.

Əmirgunə xanın çay kənarına getmə xəbərini eşidən Məhəmməd Təkəli Ələnciqə yaxın gedib, o yerləri qarət etmək xəyalına düşdü, bir dəstə avara, ləvənd və üsyankar adamla Naxçıvanadək gəlib çıxdı. Əmirgunə xan bütün qiymətli şeyləri özlərində olan adamlarının əksəriyyətini irəli yollayıb, özü az miqdar adamla gəlirdi. O, Məhəmməd
**s.676** Təkəlinin yaxınlıqda olduğunu və daim məkr pusqusunda durduğunu bildiyindən bir neçə nəfəri ondan xəbər tutmaqdan ötrü İrəvan səmtinə göndərdi ki, qazilərin yolu qəflətən [o quldur tərəfindən] tutulmasın. Onlar bir neçə qarovula rast gəlib, sayca az olmalarına baxmayaraq, həm də hərb qanununda yazıldığı kimi "zərurət olmayan müharibəyə başlamaq olmaz" misalına e'tina etməyərək, cəhalət və qürur hissinə qapılıb hücuma keçdilər və döyüş başlandı. Məhəmməd Təkəlinin adamları cəhalət və nadanlıq süvariləri olan həmin bir neçə adamla tülkü kimi hiyləgərliklə cəngə başlayıb bir qədər onların başlarını qatdılar. Əmirgunə xanın göndərdiyi döyüşçülərin çoxu həmin mərəkə zamanı həlak oldu, bir neçə nəfəri isə döyüşə – döyüşə, yaralı, gücsüz və qüvvətsiz halda aradan çıxıb özlərini Əmirgunə xana çatdırdılar və məsələni danışırdılar. Elə həmin ləhzə də müxalif ləşkər gəlib çatdı.

Cəngə girmək imkanından hələlik məhrum olan Əmirgunə xan, adamlarının irəli gedib, atları da özləri ilə apardıqlarına baxmayaraq, hərbə başlamaqdan başqa öz ad və namusuna layiq bir carə tapmadı, yanındakı azsaylı qoşunla döyüş meydanına girdi, hərbə başladı. Məhəmməd Təkəli də öz çoxsaylı ləşkəri ilə vuruşa başlayıb, qızılbaş hərbçilərini bir həmləyə məğlub etdi.

Bu vəziyyəti müşahidə edən Əmirgunə xan qüdrətli Allaha təvəkkül edib, öz əmirləri və yanındakı döyüşçülərlə düşmən üzərinə hücuma keçdi, döyüş məşəli şölələndi. Müxalif qoşun üstünlük qazandı və qızılbaş ləşkərli dilavərlərinini əksəriyyəti yaralandı. Belə ki, *Maqsud Sultan Kəngərli* də yaralandı, Əmirgunə xanın süvar olduğu at da bir necə yara aldı. Qızılbaşların məğlubiyyətinə az qalmışdı. Əbədi əmin – amanlığa layiq olan adamlarının halına həmişə yanan zilləllah şah bu dəfə də onlara yardımçı oldu. Belə ki, Əmirgunə xanın bir neçə gün bundan əvvəl Ələnciqə göndərdiyi bir neçə mülazimi xanın gec gəlməyindən həyəcanlanıb, nökərlik ədəb-ərkanına sadiq qalaraq geri qayıtmış, xanın İrəvan səmtinə getdiyini eşidib işıq və külək sürəti ilə, döyüşün ən qızgın vaxtında, özlərini döyüş meydanına çatdırmışdılar. Bu elə bir vaxt idi ki, xanın atı və başqa atlar yaralanıb hərəkətdən qalmışdılar. Belə bir zamanda cilovdar* irəli gələrək, xanı gətirmiş olduğu atların birinə mindirdi. Əmirgunə xan qeybdən gələn bu lətif hadisənin fəth və zəfər əlaməti olduğunu bilib, yanındakı döyüşçüləri ilə özünü düşmən səd-
**s.677 (472)** dinə vurdu, qələbə əldə etmək imkanı qazandı. Müxaliflər xanın bu cürətindən və qorxmaz həmləsindən qızılbaşlara kömək gəlib çatdığını düşündülər, müqavimət edə bilməyib, məğlubiyyətlə qaçış vadisinə tərəf üz tutdular. Qızılbaş döyüşçüləri onları təqib edərək, o idbar adamların çoxunu qılınca yem etdilər, bir hissəsini isə əsir götürdülər. Məhəmməd Təkəli məğlub olub aradan çıxdı, qalibiyyətli qoşunun əlinə bol qənimət keçdi, onlar zəfər və iqbal kamına yetib atların yüyənlərini Ələnciqə tərəf döndərdilər. Bu əzmətli cəng Əmirgunə xanın o vaxtlarda müxaliflərlə igidliklə etdiyi müharibələrdən biri idi və dost – düşmən arasında məşhur oldu.

## RUMİLƏRİN VƏ KÜRDLƏRİN XOY VƏ MƏRƏND TƏRƏFƏ GƏLMƏLƏRİ, MÜZƏFFƏR ORDUNUN ONLARIN ŞƏRİNİ DƏF’ ETMƏSİ VƏ O ZAMAN BAŞ VERƏN HADİSƏLƏRİN ŞƏRHİ

Bu il baş verən hadisələrdən biri rumiyyə və kürd döyüş-
**s.677** çülərinin Xoy və Mərənd hüduduna gəlmələridir. Məsələ belə olmuşdur: Sərdar Cıgaloğlu kürd sancaq bəylərini bir dəstə rumi ilə Xoy və Mərəndi qarət etməyə yollayıb, *Mustafa paşanı* onlara başçı (*başlıq*) tə’yin etdi. O zaman əlahəzrət zilləllah şah gözəl Təbrizdə idi. Mustafa paşa Təbrizdən Mərəndədək yolun üç mərhələ məsafəsində olduğunu və şahın həmin yolu bir gecə içərisində qət’ edəcəyini bildiyindən çəkinib, özü Xoyda qaldı, mahmudi əmirlərini, həmçinin başçıları Xoşab hakimi Süleyman bəy Mahmudi olan başqa kürdləri Mərəndə göndərdi. Mərənd hakimi *Cəmşid Sultan Dünbüli* müxaliflərin hücumunu eşidib, məsələni şaha ərz etdi. Bu xəbəri bilən ə’lahəzrət elə həmin dəm qorçibaşı Allahqulu bəy Qaçarı bir dəstə zəfər qorçisi ilə o dəstə üzərinə yolladı. Kürdlər qorxu və təlaş içində Mərənd ətrafına çatıb iki-üç mahalı qarət edərək, o yerlərin ələ keçirdikləri heyvan və qənimətlərini və bir neçə əsir rəiyyəti özləri ilə götürüb dərhal geri döndülər.

Bu işdən xəbər tutan Cəmşid Sultan onlarla döyüşməyi asan bildi, kömək gəlməsini gözləmədən özünün üç yüz nəfər adamı ilə onları altı fərsəxədək təqib etdi. O, qarət olunan yerlərə çatdıqda qarətçilər qənimətlərdən və əsirlərdən əl çəkib qaçdılar. Qoşun çəkməyin əsas şərtlərindən biri olan ehtiyat və uzaqgörənlikdən uzaq olan Cəmşid Sultan müxaliflərin fərarını onların zəiflikləri olduğunu düşünüb, hələlik üzlərinə dövran şilləsi dəyməyən zəmanə cavanları kimi qorxmazlıqla o qaçanları daha üç fərsəxədək izlədi. Həmin yerdə dayanıb özlərinin dağınıq düşən adamlarını gözləməkdə olan Mustafa paşa və Süleyman bəy Cəmşid Sultanın öz az adamı ilə gəldiyindən xəbərdar oldular, onunla hərbə üz tutdular. Cəmşid Sultan da ləşkərinin azlığına baxmayaraq

cəngə başlayanda birdən gördü ki, müxaliflər onu tamamilə dövrəyə almışlar. Tez qəflət və bihuşluqdan huşa gəlib fərardan başqa çarə tapmadı, özünü qol gücünə təhlükədən, çıxarıb qaçış yolunu tutdu. Müxaliflər onun qardaşını tutdular, adamlarının bir hissəsi isə öldürüldü və əsir alındı. Özü isə sağ qalan döyüşçüləri ilə birlikdə məğlubiyyət və pərişanlıqla Mərəndə çatdı. Orada qorçibaşı gələrək onunla nəsihətamiz tərzdə danışmağa başladı, amma faydası olmadığından geri qayıdıb şahın yanına gəldi. Elə o vaxt ə'lahəzrət zilləllah şah Sahibabad meydanında *çovkan oyunu* ilə məşğul idi. Əmirgunə xanın mülazimi gəlib xanın ərizəsini və dostlarından birinin ona ünvanladığı məktubu təqdim etdi. Məzmunu belə idi: "Bundan əvvəl Əmirgunə xanın üstünə yürüş etmək niyyətində olan və buna nail olmayan *Qəcər paşa* və *Mustafa paşa* yenidən yürüş niyyəti ilə rəvan olmuşlar və hal – hazırda gəlib çayın[1] kənarına çatmışlar". Şah Təbrizdən hücumla gedib o ləşkərin arxasına çatmaq və Əmirgunə xandan və humayun ordudan əvvəl müxalifləri araya alıb cəzalandırmaq fikrinə düşdü. Əgər ona göndərilən məlumat düzgün olsaydı
**s.678** qəribə bir savaş baş verəcəkdi. Buna görə də, əlahəzrət ərizə
**(473)** və məktubun məzmununa inandı və belə yürüşlərin təxirə salınmasının qoşunçəkmə işində peşimançılığa səbəb olduğunu bildiyindən, elə o gecə səadətli orduya gəlib, işıq və külək sürəti ilə məqsədə doğru rəvan oldu. Təsuc qəsəbəsinə və Səlmas şəhərinə çatdıqda, ona paşaların Vandan çıxmaları, lakin bir mərhələ yol getdikdən sonra ə'lahəzrətin və onun ordusundakı qızılbaşların hücumunu eşidərək Vandan uzağa getməyərək geri dönmələri barədə xəbər çatdırdılar.

Qalibiyyətli əsgərlər Təbrizdən yürüş niyyəti ilə çıxdıq-
**s.678** ları üçün şah onları qorçibaşının başçılığı ilə hakimi rumi olan Əlbaq vilayətini qarət etməyə yolladı. Özü isə o ətrafda bir neçə gün şikarla məşğul olduqdan sonra dövlət paytaxtına qayıtdı. Novruzdan iki ay keçməsinə baxmayaraq keçilməsi çətin olan dağların çoxluğu zəfər amallı əsgərlərə çətinlik törətdiyi üçün, onlar Əlbağı qarət edib, elə çoxlu qənimət

[1] Araz çayı – *Ş.F.*

keçirdilər, *nəsraniyyə kafirlərindən* olan, müsəlman döyüşçülər qalibiyyətli qazilərlə döyüşə çıxan, peşələrini unudub hərbiçi olan şəxsləri və şərən həddi – buluğa çatan min nəfərədək qız və qadını əsir edib çoxlu qənimətlə qayıdaraq hümayun orduya birləşdilər.

### GÜRCÜSTAN VƏ ŞİRVAN HADİSƏLƏRİNİN ZİKRİ, KUSTƏNDİL XANIN RUMİLƏRLƏ MÜHARİBƏSİ VƏ ONUN DÖVR ŞAHƏNŞAHININ İQBAL KÖMƏYİ İLƏ QALİB GƏLMƏSİ

Keçən ilki hadisələrinin şərhi zamanı qələmimiz belə yazmışdı: *Şirvan vilayətinin idarəsi Kustəndil xana verildiyindən* o, Şirvana getmək əzmi və Allahın köməyi ilə *Aleksandr xanın* yoldaşı olan əmir və əsgərlərlə Gürcüstana yollanmışdı. Baxmayaraq ki, Kustəndil xan Şirvana getmək barədə danışırdı, lakin onun atası bunu ləngidir və oğlunun oraya getməsini istəmirdi. Onun vəliəhd elan etdiyi *Gorgin Mirzə* adlı başqa bir oğlu da var idi, buna görə də, qətiyyən istəmirdi ki, islamı qəbul edən Kustəndil xanın iqtidarı onun qonşuluğunda möhkəmlənsin və atasına maneçilik törətsin.

Qızılbaş əmirlərinin hövsələsi həddini aşdı və burada dayanmaqdan məyus oldular. Onlara bu il qızılbaş döyüşçüləri ilə rum sərdarı arasındakı döyüşün nəticəsini gözləməyi və zamanın tələbinə görə qalib gələn tərəfə üz çevirməyi gözləyən Aleksandr xanın və Görgin Mirzənin məqsədləri məlum oldu və qızılbaşlar öz narazılıqlarını bildirdilər.

Bir gün Kustəndil Mirzə qızılbaş əmirləri ilə birlikdə öz ordusundan çıxıb, atasının evinə gəldi. O, qardaşını da çağırıb Şirvana getmək barədə onlarla sərt söhbət etdi. Onun söylədiyi hər sözə Aleksandr xan bir bəhanə gətirirdi. O, [Aleksandr xan – *Ş.F.*] onu gürcülərin yanında qoyub, öz xəlvətxanasına [istirahət otağına – *Ş.F.*] getdi. Görgin Mirzə də atası kimi öz evinə doğru üz tutdu. Belə rəftarı görən Kustəndil xanın hövsələsi tükəndi və qardaşının ardınca yollandı. Çataraq, gürcü dilində ona ağır sözlər dedi, Gorgin

Mirzə də dayanıb, qardaşına cavab olaraq acı dilini açdı. Kustəndil xan yanaşaraq, qanlar tökən qılıncını qından sıyırıb, ona vurdu və işini bitirdi. Oradan geri qayıdıb *Şahmir xan* və *Əli xan Müvafiqlə* atasının xəlvətxanasına getdi, *Bəktaş Sultan Mosullu Türkman* isə bir dəstə qızılbaşla eşikdə gözlədilər. Kustəndil xan və atası gürcü dilində bir – birinə acı sözlər dedilər.

Bu əsnada ata Gorgin Mirzə qəziyyəsindən xəbərdar olub fəryad qopardı və gürcü aznaurlarına qızılbaş əmirlərini qətl etmək işarəsini verdi. Əli xan Müvafiq bir zərbə endirdi,
**s.679** Şahmir xan isə onun işini tam surətdə bitirdi, qılınc çəkib, Aleksandr xana kömək edən iki-üç aznaur da həmin şərbətdən daddı və qızılbaş döyüşçüləri Kustəndil xanın və əmirlərin başına toplaşdılar. Aleksandr xanın və Gorgin Mirzənin öldürüldüklərini görən gürcü aznaurları, həmçinin o zaman orada
**s.680** olan dörd–beş yüz gürcü Kustəndil xanın və əmirlərin öhdə-
**(474)** sindən gəlməyəcəklərini bilib, Kustəndil xana itaət etməkdən başqa çarə tapmadılar, onların hamısı onun fərmanına boyun əydi. [Beləliklə], Kustəndil xan öz ata və qardaşının dəfinələrinə sahibləndi və Gürcüstanda müstəqil hökmran oldu. O, əsgərlərə *ülufə* və başqa xərclər verdi və sayı on min nəfərə çatan qızılbaş və gürcülər Şirvana rəvan oldular. Bu heyrətli və ibrətamiz hadisə bu ilin əvvəllərində baş verdi. Kustəndil xan Şirvan vilayətinə qədəm basanda oranın əhalisinin və əyanlarının əksəriyyəti qəzavü – qədərin fərmanına itaət edib ona tabe oldular.

Ordunun önündə dayanan *Şəki hakimi Şahmir xan* və bə’zi əmirlər *Qəbələ* yaxınlığında oranın hakimi *Məhəmməd Əmin paşa* ilə döyüşüb onu məğlub etdilər, Paşa və bir dəstə rumi öldürüldü, sağ qalanlar isə qalaya girib qaladarlıqla məşğul oldular. Qalib döyüşçülər Qəbələ qalasını mühasirəyə alaraq nərdivan və başqa qalatutma əşyaları hazırladılar. Kustəndil xan və əmirlərin gəlmələri xəbəri Şirvan bəylərbəyi *Cığaloğlunun oğlu Mahmud paşaya* çatdıqda ətrafdakı rumiyyə əsgərlərini Şamaxıya topladı, sonra döyüşmək üçün top və arabalarla yola düşdü.

Kustəndil xan bir dəstə döyüşçünü Qəbələ qalasının ətrafında saxlayıb qalan əsgərlərlə birlikdə düşmənlərə tərəf getdi. Ağsu çayı kənarında tərəflər arasında cəng başlandı və hərb atəşi şölələndi.

Rumilər döyüşün başlanğıcında qızılbaşların gücünü kifayət qədər qiymətləndirməyib irəli şığıdılar, çərxçilərin sağ və sol qollarına üstün gələrək özlərini mərkəzə çatdırdılar. Qəhrli döyüşçülərin məğlub edilmələrinə lap az qalmışdı ki, qızılbaşlar Allahın ilahi lütfinə və şahın qüdrətinə bel bağlayıb qol ləşkərinin gücü ilə döyüş meydanına girdilər, atlarını igidliklə düşmən səfi üstünə sürdülər. Sağ və sol qol əmir və əsgərləri də məğlub olmaq üzrə idilər, lakin qüvvələrini bir yerə toplayaraq dqşmənlərin arasına qarışıqlıq saldılar, müxaliflər məğlubiyyətə uğradılar. Cığaloğlunun oğlu Mahmud paşa pərişanlıqla mə’rəkədən yaxa qurtarıb qaça bildi. Müzəffər döyüşçülər onları təqib edərək rumiyyənin bir çox adamını məhv etdilər. Orada belə bir hadisə də baş verdi: Mahmud paşa Kustəndil xanın qabağına düşüb qaçmaqda idi. Xan onun Mahmud paşa olduğunu bilərək, irəli gəllib nizəsinin ucunu onun zirehinə keçirmək istəyəndə özü yaralandı, paşaya isə heç bir sədəmə toxunmadı. Tizrov Sultan Müqəddəm onu bir müddət tə’qib etsə də, Küstəndilin ələ keçirilməsi hələlik qəzavü qədər lövhəsində yazılmadığından onu ələ keçirə bilmədi. Qızılbaşlar Kustəndil xanın yaralandığını görüb daha qaçanları təqib etmədilər, qənimət toplamaqla məşğul oldular. Mahmud paşa isə mərəkədən sağ – salamat qurtararaq, sağ qalanlarla birlikdə Şamaxı qalasına ğəldi, qaladarlmaq sursatı və ləvazimatı hazırlamaqla məşğul oldu, qalanın bürc və barılarını möhkəmlətdi.

Qəbələ qalası mühasirəsində qalan bir dəstə rumiyyə daha orada qalmayıb, rumilərin məğlub olmaları əsnasında mərəkə meydanına gəlib çatdı və hımin döyüş zamanı rumilərdən iki min nəfərədək əsgər öldürüldü. Qəbələ qalasındakı mühafizəçilər rumi döyüşçülərinin məğlubiyyəti və qızılbaş ləşlərinin qələbəsindən xəbər tutub qalanı boşaltdılar, fərar yoluna düşdülər. Həmçinin, başqa qala kutvalları öz qalalarının

müdafiəsindən əl çəkərək Şamaxıya toplaşdılar və [beləliklə] *Şamaxı, Badkubə və Dərbənd qalalarından başqa* rumilərin
s.680 əlində heç bir qala qalmadı.

Kustəndil xan şahın yanında boyun olduğu kimi hərəkət edib, əmirlərdən ötrü ayrı – ayrı yerlərdə ülkalar tə’yin etdi və bütün Şirvanın əhali və ə’yanları ona tabe oldular. O, Gürcüstanda və Şirvanda baş verən hadisələri şaha ərz etdi, Təbriz darüssəltənəsində şadmanlıq nağaraları nəvazişlə səslənməyə başladı. Kustəndil xanın ardınca onun mülazimləri gələrək özləri ilə öldürülən rumilərin başlarını, on iki alay bayrağını və bir neçə nəfər diri adam gətirdilər. Şahın əmrinə görə gürcü və çərkəs qulamları onları qarşılayaraq öldürülən adamların başlarını, əsirləri və başqa döyüşçüləri Sahibabad meydanında şaha göstərdilər. Əlahəzrət zilləllah şah Kustəndil xan və əmirlərdən ötrü lütfkarlıqla qızıl tac, daş – qaşlarla bəzənmiş xəncər kəməri, qızıl qılınc, yəhərlənmiş və qızıl
s.681 üzəngili tazi at və başqa layiqli hədiyyələr göndərdi. Kustən-
(475) dil xan yaralarının müalicəsi üçün bir neçə gün orada qaldıqdan sonra tamamilə sağaldı, Şamaxı qalasına hücuma keçərək, həmin qalanı mühasirə etdi. Onun yanında qala tutan vəsait və sursat olmadığından, ali dərgahdan toptökmə cihazları, qurğuşun, barıt və bir neçə nəfər topçu göndərilməsini xahiş etdi. [Tezliklə] *Əbuturab bəy Topçu* və onun işçiləri, həmçinin toptökmə işi üçün zəruri mallar ona göndərildi ki, xanın əhvalatı barədə yaxın vaxtda məlumat veriləcəkdir.

## TƏBRİZ DARÜSSƏLTƏNƏSİNDƏ QALA İNŞASI VƏ GÜNƏŞ ŞƏFƏQLİ ORDUNUN DÜNYA ŞEYXLƏRİNİN SULTANI OLAN MƏRHUM ŞEYX SƏFİƏDDİNİN ZİYARƏTİNƏ GETMƏYİ

Mə’na aləminin hüşyaz adamlarına və hüşyarlıq səhifələrini mə’na qələmi ilə bəzəyənlərə mə’lum olsun ki, rum sultanlarının ölkələr tutmaqda [əsas] fəaliyyəti qalalar inşa etmək və hündür hasarlar qaldırmaqdır. Onların işğalına məruz qalan və əllərinə keçən bütün şəhər, qəsəbə və vilayət-

lərdə qala salınır, osmanlı xanədanının qanun – qaydasınca qalaya müdafiəçi və dejdar təyin edilir. O tayfa tərəfindən mülk zəbtinin əsas əlaməti qala tikməkdir və qala olmayan yeri onlar özlərinə xas yer saymırlar. Təbriz qalası qəhrli dövlət övliyaları [yəni qızılbaşlar – *Ş.F.*] tərəfindən ələ keçirilən vaxt əlahəzrət zillələllah şahın rəyi belə oldu: "Mərhum cənnətməkan şahın zamanında Təbrizdə qala yox idi. Rumilərin inşa etdikləri və içərisində ali imarətlər tikdirdikləri qalanı qoy yerlə – yeksan etsinlər ki, həmin şəhərdə rumi binalarınından əsar-əlamət qalmasın". Buna görə də, həmin tikililərdən heç bir əsər – əlamət qalmadı.

Bu günlərdə rumilər və kürdlər arasında belə bir fikir yayıldı: "Qızılbaşların bu diyarla [Təbrizlə – *Ş.F.*] əgər xoş münasibəti olsaydı, onun qalasını və gözəl tikililərini uçurmazdılar. Onların belə hərəkətlərindən məqsəd xarabarlıq və viranlıq yaratmaqdan başqa heç nə deyildir. Elə İrəvanla Naxçıvanın xaraba qoyulması və o yerlərin rəiyyətinin İraq vilayətinə köçürülməsi də bu fikrin düzgünlüyünə dəlalət edir". Belə vəziyyətin yaranması və müxtəlif danışıqların başlanması o mülk əhalisini qorxuya salmış, Təbriz əhalisinin [qızılbaşlara] inamı qalmamışdı. Buna görə də, səadətin açarı və dövlət xəzinəsinin sahibi olan düyünlər açan şah belə
**s.681** qərara gəldi ki, Təbriz qalasını yenidən təmir edib möhkəmləndirsin, beləliklə həm yaranmış olan əks fikirlər dəyişilsin, həm də Təbriz şəhəri və onun ətraf yerlərinin camaatı arasında arxayınçılıq yaransın. Dəqiqəşünas münəccimlər qala inşası üçün xoş bir saat təyin etdilər və min on dördüncü il, zülhəccə ayının iyirmi səkkizində (6 may, 1606) əlahəzrətin özü bu böyük işə başlayıb qalanın uzunluğunu, enini, hündürlüyünü və divarının ölçülərini təyin etdi. Qalanın dörd tərəfini ölçüb oranı əmirlər, ordu əyanları, qulamlar, qorçilər, başqa müzəffər əsgərlər və şəhər əhalisi arasında böldü və işə başlanıldı. Şah belə bir fikrə düşdü ki, qala tikilib başa çatanadək Ərdəbil darülirşadına gedib övliyalar sultanının, yerləri cənnət olan əcdadlarının və əzəmətli şeyxlərin rövzələrini ziyarət etməklə şərəflənsin, Allah dərgahının o adamla-

rının müqəddəs ruhlarından kömək xahiş edərək geri qayıtsın, düşmənlərin dəf'inə başlasın. Belə böyük bir əzmlə həmin ayın sonuncu günü yola çıxıb ali mətləbə və müqəddəs məqsədə doğru yollandı.

Ə'lahəzrət o cənnət ehtiramlı rövzənin uca məqamlı xidmətçilərini öz ləyaqətli nəvazişləri ilə sevindirdi, imkansızlara sədəqələr payladı. Sonra isə Əhər və Meşkin yolu ilə qayıdaraq, sultanüs – salekin Şeyx Şəhabəddin Əhərinin məzarını ziyarət etdi, min on dördüncü ilin məhərrəm ayının iyirmi ikisində (iyun, 1605) Allah-taalanın köməyi ilə qayıdıb Təbriz darüssəltənəsinə çatdı. Qalanı təmir və inşa edən adlı – sanlı əmirlər və başı göylərə çatan dövlətin başçıları isə [şahın orada olmadığı müddətdə] qalanın təmiri və
s.682 tikilməsi ilə məşğul idilər, indi isə bu işi iyirmi gün ərzində
(476) başa çatdıra bilmişdilər. Belə ki, qəza memarları və qədər mühəndisləri başı doqquzuncu günbəzə çatan bir bina ucaltmış, onun bürclərini aya qədər qaldırıb bəzəmişdilər. İndiyədək heç bir qüvvətli qala belə tezliklə başa çatdırıla bilməmiş, belə dərin xandaq aqil adamların dəqiq fikirləri kimi daha da dərinləşdirilməmişdi.

Şah [qala üçün] iki – üç illik azuqə, yaraq, top, tüfəng, qurğuşun, barıt, heymə (?), neft, taxıl və başqa şeylər müəyyənləşdirdi. Həqiqətən də bu qalanın inşası misli görünməmiş bir tədbir idi. [Beləliklə] rumilərə, kürd əmirlərinə, uzaqda – yaxında yaşayanlara aydın oldu ki, qızılbaş döyüşçüləri bu mülkə vurğundular və ondan hələm – hələm əl çəkməyəcəklər. Dövrün bir neçə istedad sahibi Təbriz qalasının tamamlanması barədə yaxşı [maddeyi –] tarixlər yazmış, bu işi bəlağətlə vəsf etmişlər. O cümlədən cənab etimadüddövlə *Hatəm bəy Vəzirin* "Təbriz əmin oldu" ["Əmn şod Təbriz"] sözləri də [maddeyi –] tarix oldu və bu qitədə öz əksini tapdı.

**Q i t ə**

*İnşası bu möhkəm qalanın bitdiyi anda*
*Düşmənlərinin sinəsinə dağ basıldı.*

*Təbrizdəki əmniyyəti etmiş deyə bərpa*
"*Təbriz əmin şod*" *ona tarix yazıldı.*[1]

Bu sətirlərin müəllifi (yə'ni İskəndər bəy Münşi – *Ş.F.*) istədi ki, həmin [madeyi-] tarix barədə fikirlərə dalsın. Bir gecə, o, təfəkkür aləminə qərq oldu, hətta xırdalıqları da görməyi bacaran əqli və insaf axtaran ilhamı ilə öz qəlb xəlvətxanasında bir görüntü çırağı yandırdı və ona belə bir mə'na aydınlaşdı: Cənab Asəf* (vəzir Hatəm bəy Ordubadi – *Ş.F.*) bu qi'tə və [madeyi-] tarixində elə bəlağətlə sşz demişdir ki, daha ondan yaxşı nə demək olar? Həqiqətən də, bu fənn (madeyi-tarix yazmaq fənni – *Ş.F.*) müəlliflərinin fikrinə görə, tarixi göstərilən rəqəmlərin şer'in axırında gəlməsi daha yaxşıdır.Tarixin göstərilməsi üçün yazılan həmin qit'ə [cənab Asəf tərəfindən] nəzm ipinə [məharətlə düzülmüşdür] ki, sizin nəzərinizə kitabın bu yerində çatdırıldı. Mahir söz ustadlarının yazdıqları qit'ə və qəsidələrdə qeyri-işlək və işlək qafiyələrin yazılması, əlbəttə, cayizdir ki, xəllaqülməani (mə'nalar yaradan – *Ş.F.*) Kəmaləddin İsmayılın
**s.682** "Divan"ında bu qəbildən olan mə'nalar çoxdur:

**Qitə**

*Təbriz içrə o böyük Şah Abbas*
*Çox mətin bir qala inşa elədi.*
*Tarixi haqda sözə hatifdən*[2]
*Bir mələk* "*Təbriz əmin oldu*" *dedi...*[3]

---

[1] Qit'ənin farscası:

Qəl'eyi-Təbriz çon etmam yaft,
Dideye-ə'daye-din-ra mix şod.
Baese-əmniyyəte-Təbriz şod
"Əmn şod Təbriz" əz an tarix şod.

[2] Hatif – gizli səs, qeybdən xəbər gətirən mələk ( Bax: Nəyyezzaman Səqəfi. Göst. lüğət c. II, s.819)

[3] Misraların farscası:

Şahe-Əbbas, şahe-valacah
Xoş əsasi nehad dər Təbriz...
Çon beporsidəməş əz an tarix
Hatefi goft "əmn şod Təbriz".

## ŞAHIN DƏRYA KİMİ DALĞALANAN QIZILBAŞ DƏSTƏLƏRİNİ ALLAHVERDİ XANIN SƏRKƏRDƏLƏRİ İLƏ RUMİLƏRİN SƏRDARI CIĞALOĞLUNUN ÜSTÜNƏ - VANA GÖNDƏRMƏSİ

Ə'lahəzrət zilləllah şah Təbriz qalasının təmiri və inşası işini bitirib arxayınlaşandan sonra, ətraf yerlərin ləşkərləri, ətrafında mələklərin təvaf[1] etdikləri dərgaha gəlməyə başladılar. Şahın aydın şüurlu xatirə işığı aşağıdakı istiqamətə yönəldi: "Keçən il onlar rumilərlə müharibədən ələ bir xeyir götürməyiblər. *Cığaloğlu* isə geri qayıdıb Təbrizdən altı mənzillik məsafədə yerləşən Vanda arxayıncasına dayanmışdır. Onun üzərinə yürüşə keçməzdən əvvəl gərək qızılbaş ləşkərinin şücaətli döyüşçülərindən ibarət bir dəstə göndərmək lazımdır. Cığaloğlu mühasirədə qalsa, yaxud fərar etsə belə hər iki halda o etibardan düşməli olacaqdır". Buna görə də, şah *Allahverdi xanın* sərkərdəliyi altında iqbal ordusunun dərja kimi dalğalanan döyüşçü dəstələrini Vana tərəf yolladı. Adı çəkilən xan aliqədr əmirləri, xüsusən Azərbaycan bəylərbəyi *Zülfüqar xan Qaramanlını,* Kirman hakimi *Gəncəli xanı*, Əlişəkər sərhədinin hakimi *Həsənxanı* və başqa ad – sanlı əmirləri, həmçinin şüarları zəfər olan qorçi və qulamları, təxminən otuz min əsgəri tam şövkət və iqtidarla o tərəfə göndərdi.

Sərdar dövlət və şadmanlıq badəsindən məst olan bihuş adamlar kimi qürur və qəflətə qapılıb qalibiyyətli qızılbaş ləşkərinin yürüşünü elə də asan təsəvvür etmirdi və gözləyirdi ki, onun yanına gələsi rum əsgərləri gəlib bir yerə toplansınlar və Azərbaycan üzərinə hücum başlansın. O, hərbçilərə
**s.683** lar və Azərbaycan üzərinə hücum başlansın. O, hərbçilərə
**(477)** xas olan ehtiyat hissindən uzaqlaşdığından qızılbaşların Təbrizdən iyirmi gün müddətində Vana çatmalarından və aralarında fəqət bircə mənzil məsafə qaldığından xəbər tuta bilmədi. Belə ki, qalibiyyətli qoşunun çərxçiləri olan Zülfü-
**s.683** qar xanın əşkərləri çataraq, həmin yol üzərindəki bir neçə

[1] Kə'bə daşının ətrafına fırlanan adamların dini mərasimi icra etməyinə "təvaf", yaxud "mətaf" deyilir. (Bax: Персидско – русский словарь, том II, M., 1983, səh. 524).

rumi tayfasına mənsub adamı və bir neçə baş atı ələ keçirdilər. Şiraz kürdlərinin əmirlərindən olan *Sultan Mahmudi* özünün bir neçə qardaşı oğlanları və başqa qohumları ilə gələrək müzəffər əsgərlərə birləşdi. Hiyləgər torpaq sahibləri olan kürd qəbilələrinin başqa əmirləri müəyyən bəhanələrlə geri qayıtdılar və cənab xan bundan sonra bir daha o vəhşisifət adamlara orduya qoşulmaq təklifini etmədi.

Xülasə, zəfər nişanlı əskərlər Vanın bir mənzilliyinə gəlib çatanda Cığaloğlu bundan xəbər tutdu. Ertəsi gün qızılbaş döyüşçüləri hərb qaydasına uyğun olaraq çərxçiləri başqa dəstələrdən əvvəl meydana yolladılar, cəvanğarı, bərənğarı və qolu bəzəyib döyüşə amadə oldular, müxalif qoşununun gəlişini gözləməyə başladılar. Həmin vaxt Cığaloğlunun on – on beş min nəfərdən artıq döyüşçüsü yox idi və buna görə də, belə az adamla onun qarşısında dayanan qızılbaş döyüşçülərinin önündə duruş gətirə bilməzdi. O, qalaya sığınmağı qərara alıb şəhərdən çıxmadı. Amma bə’zi paşalar rum döyüşçüləri ilə birlikdə arxalarını şəhər divarlarına söykəyib döyüş səfi bəzədilər, çərxçilərini irəli göndərdilər, amma şəhərdən yarım fərsəxdən çox aralanmadılar. Hər iki tərəfdən igidlik qədəmləri atılırdı.

*Hələ Allahverdi* xanın sərdarlığı ilə düzələn qol qoşunu görünməmişdi və hələ rumilər əl – qol atırdılar. Qol görünəndən sonra döyüşənlərin qulaqlarına kərəney və nəfir səsləri gəlib çatdı. Qalibiyyətli qoşunun çərxçiləri müxalif qoşunun önünə çıxıb düşmənin səfini bir – birindən ayırdılar və rumi döyüşçülərinin qismətinə məğlubiyyət düşdü. İldırım parıltısına bənzər atəş yağdıran qılınclar başları bədənlərdən ayırırdı. Qalibiyyətli əsgərlər dövlətin qüvvəti və iqbalın köməyi sayəsində rumilərin top – tüfəngindən çəkinməyib mərdanə döyüşdülər. Onlar bir neçə rumini körpü üzərində və xandaq kənarında ələ keçirdilər. Həmin döyüşdə iki minədək rumiyyə adamı qətl olundu, bir neçə möhtərəm rumi, ələlxüsus osmanlı dövlətinin ehtiram sahibi olan adamlarından ali dərgahın *mütəfərriqə ağası Xəndan ağa* özünün bir oğlu ilə ələ keçdi. Qələbə nişanlı əsgərlər cahan şahının iqbal gücü

ilə qələbə qazandılar və qızılbaş ordusu gəlib şəhər yaxınlığındakı münasib bir yerdə dayandı. Allahverdi xan rumiyyə sərdarının önündə öz çadır və bargahını ayadək ucaltdı, əzəmətli əmirlərsə tam şövkət və iqtidarla özlərinin qələbə xeymələrini qurdular, zəfər çətirlərini açdılar. Ertəsi gün məlum oldu ki, "*Şeşgah*" ləqəbi ilə məşhur olan Məhəmməd paşa sayı iki minə çatan rumiyyə döyüşçüləri, həmçinin Suvas və başqa yerlərin ləşkəri ilə birlikdə sərdara birləşməkdən ötrü gəlməkdədir.

Allahverdi xan Qərçiqay bəyi bir dəstə qulam və qazi ilə birlikdə onun üzərinə yolladı və iqbal əsgərləri Banın altı fərsəxliyində həmin qoşunla üzləşdi, cəng atəşi şölələndi. Məğlubedilməz dövlətin qüvvəti ilə düşmən tərəf əzildi, böyük bir hissə öldürüldü, bir dəstə isə əsir ğötürüldü. Məhəmməd paşa da yaralanıb tutuldu, amma yarası ağır olduğundan dərhal keçindi. Qəhrli döyüşçülər qələbə ilə qayıdıb əmirlərin ordusuna birləşdilər.

Qərçiqay bəyin ordudan çıxdığı həmin gün rumilər çoxlu ləşkərin ordudan kənara çıxdığını müşahidə edərək, elə təsəvvür etdilər ki, onlar qarət məqsədilə atlara süvar olmuşlar, [çünki onların təsəvvürünə görə] qızılbaş sərdarının ətrafında elə bir adam yoxdur ki, böyük bir dəstə ilə şəhəri tərk etmiş olsun. Onlar yeniçəriləri şəhər bağlarını əhatələyən darvazaların arxa tərəfinə yerləşdirirdilər ki, əgər qızılbaş tayfaları döyüş məqsədi ilə gələrlərsə onları tüfəng atəşləri ilə məhv etsinlər. Bu tərəf də kifayət qədər ehtiyatlı idi, iqbal dəstələrinin qarovulları müharibəyə hazır dayanmışdılar. Onlar döyüş meydanına çoxlu adam çıxarıb döyüşə başladı-
s.684 lar. Rumilər qızılbaş döyüşçülərinin şücaətli hücumlarına tab gətirməyərək arxalarını döyüşə çevirib şəhərə və qalaya üz tutdular. İqbal dəstələri isə müxalifləri xandağın yanına qədər qovdular. Fərar zamanı rumilərin şəhərin bir qapısından keçmələri çətin olduğundan onların bir hissəsi həmin qapıdan keçə bilməyib xandağın kənarından başqa qalaya üz
s.685 tutdu. Qələbə şüarlı qazilər fürsəti qənimət bilib yeniçərilərin
(478) qala bürcləri və divarların arxasından güllələri dolu kimi

yağdırmalarına baxmayaraq, bundan qorxmadılar və bərk döyüş oldu. Rumiyyə tərəfdən böyük miqdar əsgər qətl qapısından keçib ədəm şəhristanına getdi. Ordubazar camaatı isə şəhər yaxınlığındakı bağlar və xarabalıqlarda künc – bucaqda gizlənən qırx – əlli nəfər rumini ələ keçirib gətirdilər, onları cəzalarına çatdırdılar. Bu mə’rəkədə qalibiyyətli qoşunların adı – sanı olan heç bir döyüşçüsü həlak olmadı və müzəffər ləşkərə böyük zərər dəymədi. Rumilər də bir daha şəhərdən kənara çıxmaq qüvvə və qüdrəti qalmadığından, onlar qalaya doluşdular. Sərdar təfəkkür bəhrinə qərq olub Vanda qalmalarının səhv olduğunu anladı. Qızılbaşların mühasirəsində qalmağını istəməyib, öz – özünə fikirləşdi ki, bir tərəfi qalaya birləşən Van dəryasındakı gəmi və qayıqları hiylə yolu ilə gətirib qaçmaq istəyənləri onlara mindirsin. O, bu yolla da öz fikir gəmisini dəryaya salıb gizlicə aradan çıxdı. Allahverdi xan baş vermiş vəziyyəti və bu səfər zamanı rumilərlə olan vuruşları ali saraya ərz etdi.

## MÜZƏFFƏR ORDUNUN TƏBRİZ DARÜSSƏLTƏNISİNDƏN ÇIXIB XOY YAYLAQLARINA GETMƏSİNİN ZİKRİ VƏ HƏMİN ŞADLIQ YERİNDƏ BAŞ VERƏN BƏ’Zİ HADİSƏLƏRİN BƏYANI

Zəfər ayəli ordunun qalibiyyətli ləşkərinin qələbə xəbəri gəlib çatandan sonra humayun şah Təbriz darüssəltənəsindən çıxdı və Allahverdi xanın, əmirlərin və qalib əsgərlərin ardınca o tərəfə yollandı. Cığaloğlunun dərya yolu ilə aradan çıxması xəbəri əmirlərin ordusunda eşidiləndə onun dalınca hərəkətə gəldilər, onun keçib – gedəcəyi ehtimal olunan Adilcur[1] və Ərcişə getdilər. O yerlərdə Cığaloğludan əsər əlamət görünmədi və onun hansı istiqamətə getdiyi bilinmədi. Beləliklə, biz Cığaloğlunun getməyi və gəlməyinin şərhini elə bu il öz şirin bəyanlı qələmimizlə sizə təqdim edəcəyik.

Allahverdi xan və əmirlər Əcriş ətrafından qayıdış cilovunu çevirib, Xoya tabe olan Salmanabad yurdunda sağ –

[1] Ehtimal ki, Adilcəvazdır – *Ş.F.*

salamat halda humayun şahın müqəddəs ordusuna birləşdilər, onun lütf və iltifatına layiq görüldülər. Əlahəzrət zilləllah şah o yerlərin yaylaqlarında bir neçə gün şadyanalıqla seyrana və şikara başladı. Zəfər nişanlı ordu Cəm qədrli, Süleyman şanlı padşah ilə[1] Rum məmləkətlərinin hökmdarı Sultan Səlim arasında döyüş meydanı olması ilə məşhurlaşan Çaldıran səhrasına gəlib yetişdi.

**Beqt**

*Bu qərara gəldi o uca fələk:*
*Səlimlə Xətai döyüşsün gərək*[2]

Həzrət xaqanın təxəllüsü "*Xətai*"* idi və çox məşhur adam
s.685 olduğu üçün onun heç bir bəyana ehtiyacı yoxdu. Elə oradaca [Çaldıranda – *Ş.F.*] iqbalın köməyi ilə Van döyüşündə həlak olanların başları, əsir tutulanlar və ələ keçən qənimətlər şahın nəzərinə çatdırıldı, qəhrəmanlıq meydanı süvarilərinin o vuruş zamanı göstərdikləri şücaət və mərdanəliklər barədə şaha mə'lumat ərz olundu və onlar şahanə iltifatla şərəfləndilər.

Mütəfərriqə ağası Xəndan ağanın tatar padşahı *Qazi Gəray xanla* olan dostluğuna görə oğluna rəhm olundu və o, sonradan Qazi Gəray xanın yanına göndərilməkdən ötrü mehman sifətilə Qaracadağ hakiminə tapşırıldı. Həmin xoşbəxt əyyamda əzəmətli ordu həmin səhrada olduğu vaxt cahanı bəzəyən rəy [yəni Şah Abbasın rəyi – *Ş.F.*] belə oldu ki, həqiqətən havasının lətafəti, suyunun dadı, səhra və bostanlarının gözəlliyi ilə Azərbaycanın ən yaxşı qəsəbələrindən olan Xoy şəhərində [də] bir qala inşa etsin, çünki, o sərhəddə yerləşən o şəhər əhalisinin əksəriyyəti [baş verən] hadisələrin tapdağına məruz qalmışdı o cür ürəkaçan bir yerdə basqından qorunmaq üçün bir pənahgah yoxdu. Bu məqsədlə müna-

---

[1] İ Şah İsmayıl – *Ş.F.*

[2] Beytin farscası:

Qəza dər kargahe – kebriyayi
Fekəndə tərhe – Eslimi – Xətayi.

sib bir yer təyin edildi və qala inşasının sərkarlığı səlihdarbaşı*
s.686 Qənbər bəy Ustaclıya tapşırıldı. [Həmçinin] bu işin icrası
(479) *Təbriz hakimi Pirbudaq xanın* və başqa şəxslərin öhdələrinə qoyuldu. Qalanı az bir vaxt ərzində tikib oraya ehtiyat azuqə və yaraq yığdılar. *Seydi Sultan Xəbuşlu* qalaya kütval tə'yin olundu və Xoy ülkası ona verildi. Bu iş Xoy əhalisinin sakitləşməsinə səbəb oldu və onlar öz yerlərində aram əyləşib rahat yaşamağa başladılar.

O vaxtlar baş verən ibrətamiz hadisələrdən biri də *Şeyx Əhməd ağanın* öldürülməsidir. O, ustaclı tayfasının *şərəfli* [adlı] qoluna mənsub olan və ortabab həyat tərzi keçirən üzvlərindən idi. Hümayun zillələllah şahın taxta cülusu zamanı onun xidmətinə yetişib, ali dərgahda gecə – gündüz işləməklə özünə etibar qazana bildi. Şeyx Əhmədin işbilənliyini və bacarığını müşahidə edən əlahəzrət ona əvvəlcə humayun dövlətxana qapılarının qorunmasını, sonra isə Qəzvin darüğəliyini verdi. O bu vəzifədə olarkən, təbiəti etibarilə amansız olduğuna görə, cəza dükanına açıb qantökmə bazarına rəvac verdi. Öz ətrafına iki yüz – üç yüz qantökən adam yığıb Qəzvin hökumətində əyləşərək İraqın hər tərəfində hökmranlıq etməyə başladı. Şeyx Əhməd ağanın mülazimləri başlarına qırmızı şal bağlamışdılar ki, onlar qızılbaşlar arasında bu əlamətlə fərqlənirdilər. Şahanə qəzəbdən qorxan əzəmətli əmirlərin heç biri qorxu üzündən onun adamlarının icra etdikləri heç bir işin ziddinə getməyə cürət etmir, itaətdən başqa heç bir çarə tapa bilmirdi. Onun cəza üsulu elə dərəcəyə çatdı ki, o, tutduğu oğru və quldurların bir neçə nəfərini Qəzvinin Səadətabad meydanında dəmir şişlərə kecirib yandırdı və kabab etdi.

**Şeyx Əhməd ağanın öldürülməsi:**

Ədalətli hakim olan Allah – taala hərəkətləri ədalət qanunundan kənara çıxan adamlrın bədkarlığını cəzasız qoymaz. Şeyx Əhməd ağa əhalinin qorxu və təlaşına səbəb olmuşdu, gədə – güdələr və başqa aqibətsiz adamlar arxayınlıqla öz ləyaqətsiz əlaqələrini davam etdirirdilər. Əlahəzrət zillələllah şah isə heç bir ağır cinayəti cazasız qoymurdu.

Xülasə, [Şeyx Əhməd ağa] mirqəzəb idi. O, bir müddət ali hərəmxana eşikağasıbaşı vəzifəsinə getməkdən ötrü cidd – cəhd etdi və nəhayət əmir mərtəbəsinə ucaldı. Əməlləri həddi aşdığından əməllərinin qarşısı alındı. O, bu səfər zamanı şah ordusunun mülazimi idi. Günlərin bir günü
**s.686** zülqədər qorçilərinin biri bir taxıl quyusuna görə onun bir mülazimi ilə dalaşdı. Xəbər Şeyx Əhməd ağaya çatanda öz qüruru, nəfskarlığı və təbii adətinə görə dərhal o cavanın qətlinə fərman verdi. O cavanın qohumları saraya gələrək onun zülmündən şikayət edib dedilər: "Əlahəzrət onu məmləkətin hakimi və qoruyucularından biri kimi vəzifəyə təyin edən vaxtlarda biz bəd adamların cəzalandırılması və məmləkətin qorunmağı naminə Əhməd ağa tərəfindən görülən bəd işlərin üzərindən keçirdik. Artıq neçə müddətdir ki, o cür əməllər qadağan olunmuşdur. Necə ola bilər ki, Əhməd ağa əzəmətli qorçilər silkinə daxil olan bir şəxsi səbəbsiz yerə cəzalandırmağa cürət etsin?" Ali diyanın üzvləri həmin hadisəni təhqiq etməkdən ötrü gedib ondan [bu barədə] sorğu-sual etdikdə, Əhməd ağa, qüruru üzündən, bu işi gördüyünü etiraf etdi. Divan üzvləri həmin qorçinin qatilinin hansı mülazim olduğunu soruşduqda o, bu işi öz boynuna götürərək açıq – aşkar dedi ki, qorçini mən özüm öldürmüşəm.

Məsələ şaha ərz edildikdə həmin adil hökmdar Əhməd ağanın öldürülən qorçinin adamlarına verilməsi barədə hökm etdi və onu qana qan tələb edənlərə verdilər. Amma, heç kim inanmazdı ki, onlar qisas almaq naminə Əhməd ağanı öldürməyə cürət edə bilərlər. Lakin, onun həyat qədəhi dolmuş olduğundan öldürülən qorçinin adamları dərhal onu qətlə yetirdilər və bu iş başqaları üçün ibrət dərsi oldu. Hökmə görə, Əhməd ağanın qoşun və ləşkəri onun oğlu *Təxtə bəyə* verildi ki, öhdəsinə qoyulan vəzifəni yerinə yetirsin.

O vaxtın başqa hadisələrindən başqa biri də budur: Xoyun Salmanabad yurdunda şaha ərz etdilər ki, Mavərənnəhr valisi *Baqi xan* təbii əcəllə ölüb axirət aləminə yollandı. Özbək əmirləri onun kiçik qardaşı *Vəli Məhəmməd xanla* ittifaq edərək, onu Buxarada Mavərənnəhrin şahlıq taxtına əyləşdirdilər.

## İRAN ŞAHI ORDUSUNUN MAKUYA TƏRƏF YÜRÜŞÜ, MAHMUDİ KÜRDLƏRİNİN CƏZALANDIRILMASI VƏ O VAXT BAŞ VERMİŞ HADİSƏLƏRİN ZİKRİ

**s.687** Ölkələr alan ordu Xoy yaxınlığındakı ürəkaçan çöllərdə,
**(480)** fərəhartıran istirahət yerlərində və oranın eyş – işrət məkanlarında olduğu vaxtlarda havanın istiliyi bir qədər azaldı. Qiyamçıların daim cəzalandırılması şahdan ötrü bir zərurətə çevrilmişdi. Pəcək qalasında, Makuda və o ətraflarda yaşayan mahmudi kürdləri fələk əzəmətli ordu o yerlərdə olan vaxtlarda ali saraya gəlməkdən imtina etdilər. Kürdlərin Mənsur bəy övladına aid olan bir firqəsi isə bu xanədana öz sədaqətlərini izhar edirdilər ki, onları köçürüb İraq vilayətinə göndərdilər. Sonra o tayfanın [kürdlərin – *Ş.F.*] cəzalandırılması üçün yollanan əmirlər bu dəstə yenilməz əsgəri Pəcək hakiminin el və tayfası üstünə yolladılar, əzəmətli ordu isə Makuya tərəf hərəkət etdi.

Maku hakimi Mustafa bəy bəxtinin dönüklüyündən canlarında həmişə xilaf və nifaq əlaməti olan qardaşlarının və bir dəstə fitnəkar adamın təhriki ilə tabeçilik qapılarını bağlayaraq, öz qohum – əqrabası və başqa adamları ilə *Miyanədərə dağının* ətəyində yerləşən Maku qalasına sığındı. Maku qalası olduqca uca və möhkəm olduğundan dünyanın hər yana şüalar saçan günəş sultanından başqa hələ heç bir şövkət sahibinin fəth əli oraya çata bilməmişdi. Mustafa bəy özünün doğulduğu yer olan dağ ətəyindəki başqa bir qalanı da möhkəmlədib, var – yoxunu o qalaya yığdı və adamlarına qalaların müdafiəsini tapşırdı.

**s.687** Ordunun ayağı həmin vilayətə dəyəndə mahmudi tayfasının müxalifəti üzündən qəhrəmanlıq atəşi şölələndi, *qaradağlı və müqəddəm tayfaları* dağ ətəyindəki qalanın fəthinə göndərildi. Onlar elə həmin gecə qalanı dörd tərəfdən əhatələyib ilk hücumla qala mühafizəçilərini məhv edərək, özlərini qala ayağına çatdırdılar, qalanı dəlik – dəlik edib içəri doluşdular, bədənlərini qoruya bilməyən bir dəstə müxalif kürd fəna qılıncına tuş gəldi, qalanın başqa əhalisi də hadisələr burulğanına düşərək hər şeylərini itirdi.

Bu hadisədən sonra iqbal qoşununun bir dəstəsi mahmudi tayfasını qarət və talan etməyə göndərildi. Miyankuh qalasını[1] asan almaq mümkün olmadığından, hökmə görə qiyamət təsirli qoşun o qaladan əl çəkdi və qət etdilər ki, əgər mahmudi müxalifləri cürət qədəmlərini irəli atıb qızılbaşlarla döyüşə başlasalar, onların cəzaları qala kənarında verilsin, yaşayış yerlərindəki var – dövlətləri isə qarət olunsun. Mahmudi kürdlərinin el və tayfaları çoxsaylı olduğundan, darısqal qalaya yerləşə bilmədiklərindən və su qıtlığından onların az bir hissəsi qalada qalmış adamlarının əksəriyyəti əsgər atlarının tapdağı altında paymal olmuşdu. [Qızılbaşlar] kürdlərin istər Pəcəkdə, istərsə də Makuda olan bütün heyvan və var – yoxlarını Mustafa bəy və qardaşlarına tabe olan bir neçə tayfa fitnəkarlarının təqsiri üzündən tarac elədilər. Belə ki, əlli İraq dinarı qiymətində olan bir qoyun ali orduda yarım dirhəmə, iki yüz dinarlıq bir baş inək isə iki dirhəmə alınıb – satılırdı. Həmçinin o tayfanın bir çox qız – qadını da əsarət möhnətinə giriftar oldu.

Xülasə, fələk əzəmətli ordunun orada olduğu on gün ərzində o tayfa (kürdlər – *Ş.F.*) qarətə məruz qaldı. Belə ki, hətta müzəffər ləşkərin qarətindən qaçıb qalın meşələrdə gizlənən tayfa üzvləri də ələ keçirilərək hadisə cəzasından qurtula bilmədilər. Onların cəzalandırılmasından sonra aləmi bəzəyən rəy belə oldu:

"Van və Ərzrum arasında yerləşən və rum ləşkərinin keçid yeri olan Naxçıvana gedib, Araz çayı kənarında dayansınlar. Əgər bu il rum sərdarı adam toplayıb Azırbaycana hücum etsə, qızılbaşlar hər iki yol arasında mövqe tutub müdafiəyə hazır olsunlar, yox əgər sərdar bu il gəlməsə, hümayun qışlaq Qarabağda olsun və Allahın köməyi ilə [qızılbaşlar] Gəncə qalası və Şirvan məmləkətini ələ keçirsinlər". Onlar bu savablı rəyə əməl edərək, yürüş cilovunu o yerlərə döndərdilər. Naxçıvanda Araz çayının Yəzdabad keçidindən keçib, çay kənarında dayandılar, çadırlarını günəşə və ayadək

[1] Azacıq yuxarıda Maku qalasının adı "Miyanədərə dağı" şəklində yazılmışdı – *Ş.F.*

ucaltdılar, şah Əmirgunə xana bir dəstə adam verib onu Şirvan qalasının təmirinə göndərdi. Müqəddəs şah dəstəsinin Araz çayı kənarında olduqları həmin bir neçə gün ərzində carçılar sərdarın Əlbaq və Səlmas yolu ilə gəlmə xəbərini
s.688 gətirdilər. Şah İrəvan qalasının təmirini başqa vaxta saxladı,
(481) müzəffər ordu sərdarın gəldiyi yol istiqamətinə yollandı ki, bu hadisənin şərhi *Gürcüstan hadisələri* və *Küstəndil xan* əhvalatından sonra qələmə alınacaqdır.

## GÜRCÜLƏRİN VƏ KÜSTƏNDİL XANIN ÜSYANI VƏ XANIN MƏĞLUBİYYƏTLƏ ŞİRVAN VİLAYƏTİNDƏN ÇIXMASININ ZİKRİ.

Söz sənətinə vaqif olanlara və gizli sirrləri bilənlərə açıq
s.688 – aşkar aydındır ki, mülk işlərinin ipi qadir Allahın iradə və ixtiyarındadır və şəhriyarlıq işlərinin tənzimlənməsi Yaradandan asılıdır.

**Beyt**

*İstəyini, kimdir o ki, car edə,*
“*Mülk mənimdir*” *deyə israr edə?*[1]

Hər dövlət başçısı bütün insanları yaradan həzrətin (Rəbbül – ibad) razılığı ilə mülk və millət işlərini ədalətlə idarə etməli, cahandarlıq bayraqlarını öz muradına uyğun şəkildə cahan üzərində qaldırmalıdır, amma hər bir xudpəsənd, aqibətsiz, dar düşüncəli hökmdar isə şeytan vəsvəsəsi və nəfsani duyğularla qürura gələrək bu əməllərə qurşanır. Onlar öz nəfslərinin havasına, təkəbbürə və boş xəyallara uyaraq yaramaz hərəkətlərlə məşğul olur, allahpərəstlikdən və həqiqi qisasçı olan vəlinemətinin razılığını almaqdan qafil olur, az bir vaxtda öz dövlət binalarını yoxluğa düçar edir,

[1] Beytin farscası:
Kist dər in dəstgəhe-dirpay
Kuse – “Limən – molk” zənəd coz Xoday?

**Qeyd:** “Limən əl-mülk” ifadəsi o kəs ki [mülk sahibidir” mə’nasını verir – *Ş.F.*]

iqballarını hadisələr küləyinə verir, Xaliqin və xəlayiqin bəyənmədiyi işlər görür, yüksək məqam, ehtiras (həvapərəsti) və dünyəvi bağlılıq işlərinə qurşanır, belə əməllərin rüsvayçılığına öz bəsirət gözlərini yumurlar. Elə pis əməllərə qarşı aydın dəlil bu kəramətli ayədə əks olunmuşdur: "Öz valideyinlərinə dedi: "Nə yazıqlar olsun sizə"[1] İslamın zuhurundan, hətta ondan da əvvəl, lap bu günədək zaman sultanları və dövran xaqanlarından hər hansı kəs cahandarlıq bayrağına göyə qaldırmaq naminə əgər öz atasına qarşı çıxırsa məqsəd və mərama yetmir, hər hansı naxələf isə yaxşı iş gördüyünü düşünərək öz atasını öldürərsə kamranlıq taxtında altı aydan çox əyləşə bilmir. Üləma müəlliflərin və xəbər sahiblərinin əsərlərindən məlum olur ki, islamın zühurundan əvvəl Xosrov Pərvizin oğlu Şiruyə belə bir alçaq hərəkətə məram etdisə də, altı aydan çox hakimiyyət sürə bilmədi. Teymuri xanədanından olan cığatay sultanlarından Mirzə Uluğ bəyin oğlu Mirzə Əbdüllətif də belə alçaq bir əməl edib özünün fazil, adil, elmli, xoş xasiyyətli atasının qətlinə iqdam etdi və bu məşhur beytin məzmununa uyğun olaraq

**Beyt**

*Ata öldürəndən padşah olmaz,*
*Altı aydan artıq ondan şah olmaz*[2]

hörmətdən düşdü, kitablarda yazıldığı kimi kamranlıq və iqbal atına süvar olub getdiyi vaxt bir canüzən ox qəfil açılıb ona dəydi və o bəd gövhərli adamı həlak etdi, yüz həsrətlə mülk və maldan ayırdı, izzət atından zillət torpağına saldı. Bunları yazan vaxt *əlli dörd yaşı olan bu cümlələrin sahibi* [İskəndər bəy Münşi] bütün həyatı boyu ibrət görən gözü ilə baxıb, atalarını öldürən, lakin cavanlığından heç bir həzz görməyib bir neçə vaxtdan sonra elə həmin fəna şərbətini içərək dünyadan köçən bir neçə nəfəri şəxsən görmüşdür.

[1] İfadənin ərəbcəsi: "Qalə li valideyhi: uffin ləkumə"

[2] Beytin farscası:

Pedərkoş padşahi-ra nəşayəd
Və gər şayəd becoz şeş mah nəpayəd.

Elə bir vəziyyətə misal və ibrətamiz bir hadisə kimi *Aleksandr xanın oğlu Kustəndil xanın* əhvalatını göstərmək olar. Atası onu, bu kitabın birinci səhifəsində yazıldığı kimi, mərhum *Sultan Həmzə Mirzənin* hökmranlığı vaxtı tabeçilik qayda – qanununun və sədaqətin möhkəmlənməsindən ötrü
**s.689** fələk ehtişamlı saraya göndərmişdi. Kustəndil xan uşaqlıq çağından başlayaraq bu günlərədək bu səadətli dövlətdə böyüyüb boya – başa çatmış, inkişaf və əql mərtəbəsinə yetişmişdi. Əlahəzrət zilləllah şahın cülusu zamanı olduqca böyük diqqət və iltifata layiq görüldüyündən şahın xüsusi məclislərində onunla həmsöhbət olmuş, etibarı hamının nəzərində ucalmışdı. Azərbaycana yürüş vaxtı Şirvanın idarəsi və mülkiyyəti ona tapşırılmış, atası ilə bərabər Təbriz qışlağından çıxaraq yola rəvan olmuşdu. Bu ilin hadisələrinin şərhi zamanı göstərildiyi kimi, o, Gürcüstanda ata və qardaşının qətlinə iqdam etmiş, müstəqil hökmran olmuş və öz hökumət bayrağını yuxarı qaldırmış, sonra, ağır qoşunla Şirvana yollanaraq Şamaxı qalasını mühasirəyə almışdı. Şücaətli və mərdanə cavan olmasına baxmayaraq, şahanə
**s.690** şəfqətə yetib qazandığı etibardan qürurlandığından daha
**(482)** özünə yoldaş olan əmirlərə e'tibar etmirdi və onun kəllə qəsrindən təkəbbür buxarı qalmaqdaydı. Fərmana görə Kustəndil xana tabe edilən qızılbaş əmirləri şahın qorxusundan xanın iqtidarına tabe olduqlarından, onun yanında nəfəs belə dərmirdilər. Amma, gürcü tayfası iki əhvalatına görə onunla barışmırdı. Xanın hakimiyyətinə nifrətlə baxdıqlarından [tezliklə] onunla nifaqa başladılar. Əhvalatın biri bu idi ki, xan müsəlman olmuşdu və gürcülər özlərinə xristian hakim istəyirdilər. İkincisi isə, Aleksandr xanın gürcü ***aznaurları**** ilə xüsusi tərzdə davranması idi. Onların qayda – qanunlarında örtük və hicab məsələsi yox idi. Həmçinin onların yasovul** və eşikağasıbaşıları heç vaxt heç bir məsələdə maneçilik görməmişdilər. Örtüksüz halda Aleksandr xanın xəlvətsarayına tez – tez gedib – gələn adamlar indi isə iki gündə bircə dəfə də olsa divanxanaya yollana bilmirdilər. Gürcülər onun şahanə davranışından bezərək elə

fürsət düşən kimi ondan Aleksandr xanın qanını almaqdan ötrü bir – birləri ilə əhd etdilər. Onlar Kustəndil xanın yanında olan Aleksandr xanın iki nəvəsini də özləri ilə götürüb Gürcüstana gəldilər. Amma xanın dövlətxahlarından biri gürcülərin sui – qəsdindən onu xəbərdar etdi. Kustəndil xan bərk təkəbbürlü və qürürlu olduğundan həmin hadisənin dəf'inə çalışmadı, amma ona qarşı hazırlanan sui – qəsdin mayası olan bir neçə gürcü ə'yanını aradan götürmək məqsədilə əvvəllər Aleksandr xanın, indi isə onun özünün vəziri olan *Xacə Ziyaəddin Kaşi* ilə məsləhətləşdi.

O tədbirsiz vəzir gürcülərin sui – qəsdinin həqiqət olmadığını bildirib, nadan xanı fikrindən döndərdi və xana xatırlatdı ki, əgər əlini onların birinin belə qanına bulasan, bu hərəkət bütün gürcülərin qorxu və həyəcanına səbəb olar. Vəzir gürcü başçıları ilə söhbətə başlayaraq onlara nəsihətlər etdi. Gürcülər dedilər ki, xan bizim vəlinemətzadəmizdir və ondan heç bir giley və incikliyimiz yoxdur, amma səfər müddətinin uzanmağından təngə gəlmişik və daha Şirvanda qalmaq istəmirik.

Cənab vəzir gürcülərə söz verib dedi ki, onların bir aylıq ehtiyaclarını xanın sərkarından tələb edəcək və bir aydan sonra onlar Gürcüstana qayıdacaqlar. Vəzir [sonra] bu söhbətləri xana danışdı, Sadədil xanı gürcülərin fitnəsindən arxayınlaşdırdı. Amma vəzirin nəsihəti gürcülərə faydalı görünmədi, hətta onların sui – qəsd barədə fikirləri daha da qüvvətləndi. Gürcülər gecə yarısı keşik çəkdikləri vaxt aznaurlar bir-biri ilə danışığa girlərək cənab xanın çadırını mühasirəyə alıb qiyama başladılar. Ə'lahəzrət tərəfindən xanın yanına göndərilən xasseyi-şərifə mülazimi Qara Piri bundan agah olub tez – tələsik özünü cənab xanın yanına çatdırdı və onu qəflət yuxusundan bidar etdi. Xan qılıncı ilə çadırın arxa tərəfini cırdı və özünü Əli xan Müvafiqin evinə çatdırdı. Üsyançı gürcülər isə çadırın içinə girib xan xidmətçilərindən iki ayüzlü cavanin birinin Kustəndil xan olduğunu güman etdilər və onları qəzəb qılıncı ilə parça – parça doğradılar. Gürcülərin başqa dəstəsi isə Aleksandr

xanın nəvələri saxlanan xeyməyə girərək, onları da özləri ilə
s.690 götürüb bir yerə yığıldılar. Amma, Kustəndil xanın həyat peymanəsi hələ dolmamışdı, Allahın icazəsi ilə hələ bir neçə günlük ömrü qalmışdı və buna görə də o, həmin təhlükədən sovuşub özünü sağ – salamat Əli xanın xeyməsinə çatdırdı.

Hamı elə düşünürdü ki, gürcülər rumilərlə danışığa girmiş və onların tələbi ilə belə bir hərəkətə iqdam etmişlər. [Buna görə də] Əli xanın evində kərənay çalındı, seybə və murcəllərdə olan qızılbaşlar gəlib həmin evdə toplaşdılar və həmin hövlnak gecə vaxtı bərk səs – küy və qovğa başladı. Kərənayın səsindən və ləşkərin bir yerə toplaşmasından gürcülər başa düşdülər ki, Kustəndil xana heç bir xətər toxunmamışdır. Onlar hamılıqla yığışaraq öz əmirzadələrini də götürüb Gürcüstan yolunu önə tutdular. Xan dərhal əzəmətli əmirlərlə atlanıb intiqam almaq, yaxud qiyamçıların əlində dəstavuz olan əmirzadələri geri götürmək məqsədilə yola çıxdı. Amma, Kustəndil xanın dəstəsi ehtiyatsızlıq üzündən öz ordularını qala ayağında saxlayıb hərəkətə başlamışdı.

Günəş doğan vaxt Kustəndil xan bir neçə nəfərlə gəlib başqa adamlardan tez gürcülərə çatdı. Gürcülər dayanıb müdafiəyə başladılar və öz səbat ayaqlarını yerdə möhkəm saxladılar. Onlar aşkarca uca səslə qışqırıb dedilər: “ Sən müsəlmansan və bizə xristian hakim lazımdır. Səninlə bizim aramızda heç bir qiyam söhbəti olmayan vaxtlarda da biz sənə etibar etmirdik, bir halda ki, indi belə bir münaqişə baş verdi, biz səndən arxayın ola bilərikmi? Əvvəla, sən gərək öz fikrindən dönüb geri qayıdasan, yoxsa son nəfərimiz sağ qalana qədər səninlə döyüşəcəyik”.

Onların sayı çox olduğundan və zəngin sərfəli olmadığın-
s.691 dan, əzəmətli əmirlər Kustəndil xanın inadını qırdılar və onu
(483) döyüşdən çəkindirdilər. Amma, qala ayağına qayıtmağa cürət etməyib, elə oradan fərar etdilər. Ağır – yüngül var yoxlarından əl üzüb Kür çayına qədər heç yerdə dayanmadılar.

Tizrov Sultan Müqəddəm yaralı olduğundan, ata süvar ola bilmirdi və buna görə də orduda qalmışdı. Ordu camaatı isə xan və əmirlərin yolunu gözləyirdi.

Bu əsnada Tizrov Sultanın mülazimlərindən bir neçə nəfər gəlib ləşkərin basılma xəbərini gətirdi. Ağrıdan əziyyət çəkməkdə olan sultanı dəvənin üstünə qaldırıb bağlamışdılar. Bu xəbərdən agah olan ordu camaatı bir – birinə dəydi. Rumiyyənin qorxusundan hamı öz var – yoxundan əl çəkib sağ – salamat qalma yolunu önə tutdu. Ordubazardakı tacir və adamların mal və yaraq – yasağının çox hissəsi tökülüb qaldı. Maraqlısı budur ki, rumilər bu hay – küyün nəsə bir hiylə olduğunu düşünüb ehtiyat üzündən başlarını qaladan çölə çıxarmırdılar. Amma [rumilərin bəxti gətirdi]. Karxana əmrlərindən biri o zaman xəstə və zəif olduğu üçün fərar edə bilməmişdi, orduda qalmışdı. O, öldürülmə qorxusundan ayağa – qalxıb yıxıla – dura özünü şəhər darvazasına çatdırdı və içəriyə daxil olmasını təmanna etdi. Dərvazəbanlar onu şəhərə gətirdilər. Həmin xəstə baş verən o qəribə hadisəni onlara danışdı. Həqiqətən də, bu hadisə qəribə vəziyyət və təəcüblü təsadüflərdən biridir. Rumiyəyə məsələnin əsl məğzi agah olandan sonra onlar şadyanlıqla qaladakı mühasirə əziyyətindən və darısqallıqdan xilas olub Kustəndil xanın ordusuna tərəf üz tutdular. O zaman rumiyyənin əlinə əsgər, rəiyyət və tacirlərin çoxlu malı və saysız – hesabsız ehtiyat məhsulları düşdü, daha azuqəyə ehtiyacları qalmadı.

Cənab xanın qoşununun tərkibində Kür çayına gələn əmirlər ləngimədən çayı keçdilər, geridə qalanlar da yavaş – yavaş gəlib çatırdılar. Onlar rumilərin xan ordusundakı əvvəlki vəziyyətdən xəbərsiz olduğunu indi anlayır və dişləri ilə öz peşimançılıq barmaqlarını dişləyirdilərsə də, indiki peşimançılığın artıq heç bir faydası yox idi.

Xülasə, cəhalət, qürur və tədbirsizliyinin çoxluğu üzündən Kustəndil xan və əmirlər döyüşmədən bədnam məğlubiyyətə düçar oldular. Onlar Ərdəbil darülirşadına gələrək bu qəziyyənin çarəsini tapmaq fikrinə düşdülər. Adı çəkilən Qara Piri Kür çayı kənarından sürətlə gəlib özünü saraya çatdırdı və ordu Maku qalasının ayağında olan vaxt baş üerən əhvalatı
**s.691** ali əşrəfə (şaha – *Ş.F.*) söylədi.

## KUSTƏNDİL XANIN İKİNCİ DƏFƏ GÜRCÜSTANA GETMƏSİ VƏ ALLAH – TAALANIN İRADƏ VƏ İSTƏYİ İLƏ O NADAN CAHİLİN BAŞINA GƏLƏN HADİSƏNİN ZİKRİ

Gürcülərin Kustəndil xana qarşı baş verən üsyanı və xanın Şirvandan çıxma xəbəri calal sahibinin [Şah Abbasın – *Ş.F.*] qulağına çatdı. Xan özü də məsələnin necə baş verdiyini göndərdiyi adamlar vasitəsilə ərz edərək, əlahəzrətdən kömək xahiş etdi. Amma hələ sərdarın və rumilərinin gəlib – gəlməyəcəyi barədə bir xatircəmçilik hasil olmadığı üçün şah onu şahanə lütfkarlıqla şərəfləndirib qərara aldı: "Xan qoy tezliklə hümayun orduya birləşsin, inşallah rum əskərinin hücumundan sonra zəfərli ordu Qarabağa gedəcək və müzəffər döyüşçülərdən ibarət bir qoşunsa onun tabeliyinə verilmiş Şirvanı tutmaqdan ötrü xanın köməyinə yetişəcək, Gürcüstanın işləri barədə xanın məsləhətinə müvafiq tədbir görüləcəkdir".

Kustəndil xan isə bir neçə günlük hakimiyyət və istiqlal badəsinin qürur meyindən sərməst olub, ya sədaqətinin səbatsızlığından, yaxud da başına gəlmiş hadisənin xəcalətindən hamının yanında pərt olduğuna görə hümayun hökmə əməl etmədi, beyninə yol tapan boş xəyallara qapılıb ali saraya gəlmədi, Gürcüstana getmək barədə vəlinemət şahın izni olmadan özbaşnalıqla Ərdəbil darülirşadındakı tacirlərdən zorla müəyyən məbləğ pul yığıb avara adamlar arasında bölüşdürdü, bir ləşkər yaratdı. [Sonra isə] onun xidmətinə tapşırılmış əmirlərlə birlikdə gürcülərdən intiqam alaraq Şirvanı tutmaq niyyəti ilə Gürcüstana getdi. [Deyilməlidir ki,] ə'lahəzrət Şirvan vilayətini ona verdiyinə baxmayaraq, Gürcüstanı hələ xana tapşırmamışdı, lakin onun özü bu işə dəxalət etməkdə idisə də bu məsələnin həlli vəlinemət şaha məxsus olduğundan xannın hakimliyi təsdiqlənmədi. Qəzavü – qədər qələmi də onun fikir və tədbirlərinin əleyhinə yazı
**s.692** yazmaqdaydı.

**(484)** Bu əhvalatlar baş verən vaxt gürcülərdən bir neçə sədaqət ərizəsi gəldi. Həmin yazılarda Kustəndil xanın bu rəftarından xeyli şikayət yazılmışdı və gürcülər xahiş edirdilər ki, şah

qoy ali sarayda [qızılbaş sarayında – *Ş.F.*] yaşayan *Təhmurəs ibn Davud xanı* Gürcüstana hakim tə'yin etsin. Əlahəzrət zilləllah şah aydın bilirdi ki, islamı qəbul etmək şərəfinə nail olan Kustəndil xan ilə xristian gürcülər arasında ülfət və barışıq mümkün deyildir. Yox, əgər Gürcüstan [Təhmurəs ibn Davuda] verilsə, gürcülər arasında üsyan və tüğyan qaşılmaz olacaqdır. Böyük işlərin həyata keçirilməsinin vacib olduğu bir vaxtda dövlətin məsləhəti belə olmalıdır ki, gürcüləri şahanə vədələr və şəfəqqətlərlə ümidvar etsin və onlar bu dövlətə qarşı müxalifətdə olmasınlar. Buna görə də məmləkət işlərinə dəxalət edən gürcü aznaurlarına və gürcü başcılarına lütfkarlıq ifadə edən məktublar və şirnikləndirici hökmlər yazıldı və onlar məsələnin Kustəndil xana bildirilməsindən ötrü *zülqədər carcısı Hüseyn bəylə* göndərildi.

Adı çəkilən qorçinin göndərilməsindən sonra mə'lum oldu ki, Kustəndil xan bu dövlətin ona qarşı olan bu qədər yaxınlıq və xeyirxahlığına baxmayaraq vəlinemətin razılığı və izni olmadan öz iradəsi ilə intiqam məqsədilə gürcülərin üzərinə yollanmışdır.

Dövranın təcrübəsindən hali olan agahlıq büsatının uzaqgörən adamları Kustəndil xanın yersiz hərəkətlərini bəsirət gözü ilə müşahidə edərək, heç vaxt bunu təsdiqləyə bilmirdilər ki, xan belə təlaşı və cidd – cəhdi ilə öz məqsədinə yetişə bilsin. Çünki, batil bir hərəkət olan qoca atanın öldürülməsi məhz dünyəvi əql və hissiyat baxımından xalq tərəfindən bəyənilən bir hərəkət ola bilməz. Bundan başqa
**s.692** Gürcüstan məmləkəti də hələ şah tərəfindən ona verilməmişdi və xanın bu xüsusdakı cidd – cəhdi vəline'mətin razılığı ilə baş vermirdi. Elə buna görə də, xan bu məsələdə heç nə edə bilmədi, cavan çağında, ömrünün və hakimiyyət kamranlığının başlanğıcında ikən öz mətləbinə yetişmədi, qəza valisi və qədr qəhrəmanı [Allah – taala – *Ş.F.*] onun əlini bədən mülkü hökmranlığından uzaqlaşdırdı. Atasının öldürülməsindən heç altı ay keçməmişdi ki, onun özü qətl olundu, necə ki, yuxarıda deyilmişdir:

**Beyt**

*Ata öldürəndən padşah olmaz,*
*Altı aydan artıq ondan şah olmaz.*

Bu beytin əhvalatın başlanğıcında yazılmasına baxmayaraq, onun indi də təkrarlanması münasib oldu. Məsələ belə baş verdi: *Kustəndil xan Kür çayının Qəbələ keçidindən* keçib, əvvəlcə *Şirvan işləri* ilə məşğul olmaq deyil, gürcülərdən intiqam almaqla üsyançıların əlindən Gürcüstan vilayətini xilas etmək məqsədilə həmin vilayətə yollandı. Avara, yolkəsən, ləzgi, şirvanlı və otuz iki elindən olan xeyli adam onun başına toplandı, Şəkidən gələn Şahmir xan da ona qoşuldu. Gürcü aznaurları Kustəndil xanın gəlişi xəbərindən həyəcana düşdülər. Onların Kustəndil xana xilaf olan bə’zi mötəbər adamları *Aleksandr xanın nəvəvlərini və qız övladlarını* zorla özləri ilə götürüb, özünün möhkəmliyi, meşəsinin sıxlığı və yollarının darısqallığı ilə o vilayətin ən təhlükəsiz yeri olan Gürcüstana tabe *Seydəmli* tərəfə getdilər. Kustəndil xan o xanədanın dövlət paytaxtı olan Zəkəmə gəlib, o diyar camaatının, istər müxalif olsun, istərsə müvafiq, yaxud istər əskər olsun, istərsə rəiyyət, üzünə özünün lütf və ehsan qapılarını açdı. Gürcüstanın mötəbər admlarının əksəriyyəti onun xidmətinə gələrək öz bağlılıqlarını bildirdi, üsyançılar da itaət məqamında durub mülazimliyə tələsdilər. Kustəndil xan onların taxsırından keçib, o xanədanın xanımlarına, xüsusən nəinki məmləkət işlərinə dəxalət edən, hətta onları idarə edən Təhmurənin anası Didemalın yanına adam göndərib, lütfkarlıq və şəfəqqət dili ilə bildirdi: “Qətlimi istəyən və bir – neçə fitnə-fəsada səbəb olan dörd nəfər aznaurdan başqa mənim heç kəslə işim yoxdur. Habelə öz sifətlərini bizim rəhm silləmizə çatdiran başqa övladlara da atalıq lütfü və məhəbbətindən qeyri heç bir bəd əməl göstərilməyəcəkdir. Əgər o dörd nəfər aznaur da onun hakimiyyətini qəbul edərək öz əməllərindən peşiman olub itaətsizliyi və fitnə-fəsadı tərk etmək məqamına gələrlərsə, bizim tərəfimizdən onlara da heç bir xətər toxunmayacaqdır. Yox, əgər onlar bizə inanmırlarsa, qoy öz eti-

barlı adamını yanımıza göndərsinlər ki, arxayınçılıqları hasil olunsun”.

Göndərilən adam Seydəmliyə çataraq *Didemalın* dili ilə dostanə söhbətə başladı və [beləliklə] barışıq qapıları açıldı. Dedilər ki, onların yazdıqları ərizələrə artıq ali dərgahdan cavab gəlmişdir, hümayun əmr və işarə necədirsə, eləcə də əməl olunacaqdır.

Onlar bir neçə gün danışıq aparıb xanla barışıq mövqeyində durmuşdular. O zaman Didemalın və Gürcüstan böyüklərinin
**s.693 (485)** adına bir iqbal məktubu da gəldi. Orada yazılmışdı ki, Kustəndil xan Gürcüstana özbaşına gəlmişdir və onun və onun həmin mülkdə hakimiyyətə gəlmə cəhdi şahın mübarək razılığı ilə olmamışdır. Xanın qətli əzəli iradəyə [Allaha – *Ş.F.*] aid olduğundan məktubda yazılanlar gürcülərin ona qarşı çıxışına səbəb oldu, ayrı – seçkilik və pərişanlıq birlik və ümiyə çevrildi. Onlar öz böyüklərini toplayaraq, Didemalla və Aleksandr xanın nəvəsi olan gürcü mirzələri ilə birlikdə Kustəndil xanla cəng məqamında durdular. Xan onların itaətsizliyindən mə’yus olub, cəngə yollandı. *Seydəmliyə tabe olan Mazu çayı və Kivlan* adlı yerdə tərəflər bir – birlərinə yaxınlaşıb döyüş hazırlığına başladılar. Cəmadüs – ayı-
**s.693** nın doqquzunda, şənbə günü Kustəndil xan çərçxu, bərangar və cəvangarı düzüb, topçu və tüfəngçiləri münasib yerlərə təhkim etdi. Özü isə müharibələr görmüş köhnə əskər olan *Şəki hakimi Şahmir xanla* və bə’zi əmirlərlə qoşunun qəlb hissəsində qərar tutdu. Gürcülər tərəfdən də cəng səfi düzüldü və döyüş başlandı. Cahad mərəkəsinin igidləri ardı-ardınca həmlələr edərək gürcü kafirlərinə üstün gəldilər və onları bir – birlərindən ayırdılar. Kafirlər bərk həyəcana düşdülər. Onların bə’ziləri fərar vadisinə tərəf üz tutdu. Onların tam məğlubiyyətə yaxın və Kustəndil xanın murad aynasında fəth və zəfər çöhrəsinin cilvələnməsinə lap az qalmış xan Şahmir xanı, *Əlixan Sultan Şəmsəddinlini* və bə’zi əmirləri qəlbdə qoyaraq, özü bu döyüş zamanı ləşkırin səfini tənzimləmək xəyalı ilə qəlbdən ayrılıb sağ qola tərəf getdi.

Xidməti sədaqətinə görə Kustəndil xanın əmirlik dərəcəsinə qədər qaldırıb Qərçiqay Sultan adlandırdığı Qərçiqay adlı qulamı sağ qolda cəng ilə məşğul idi ki, gürcülər ona zor gəlib dərhal məğlubiyyətə uğratdılar, adamları isə bir – birlərindən ayrılıb qəlbə tərəf getməyə başladılar.

Kustəndil xan bu vəziyyəti müşahidə edərək onu müdafiə məqsədilə atını irəli sürdü və hərbə başladı, adamlarının gəlib yetişməsini gözləmədən mərəkəyə girdi. Rəbbani qəza nəticəsində mə'rəkədən qaçan bir neçə gürcü ona çatdı. Onların ikisi xanı tanıyıb gürcü dilində yoldaşlarına dedilər ki, bu adam xandır. Gürcülər də mərəkə guşəsində xanı tək görərək ona doğru üz tutdular. Zəmanə adamlarının " qeyrət" adlandırdıqları cəhalət, qürur və lovğalığa qapılan Kustəndil xan düşmənin ağır qoşunu önündən qaçıb sonradan dövran igidləri tərəfindən töhmətlənmək istəməyərək təkbaşına onlarla döyüşə girdi və ətəyi cəhalətin və yalançı cəngin tikanına ilişdi.Gürcülər nizələrini bir neçə yerdən xanın zirehli geyiminə keçirib onu dövlət atından çəkərək zillət torpağına saldılar, dərhal ağır zərbələr endirərək işini bitirdilər. Amma, hələ nə qızılbaş əmir və ə'yanları, nə də gürcü əsgərləri bundan xəbər tutmamışdılar. Kustəndil xanla müvafiq olub onun ləşkərində vuruşan bə'zi gürcülər əmirlərdən daha tez bu qətl qəziyyəsindən xəbərdar oldular və adamlarından bir nəfərini Didemalın, gürcü mirzələrinin və onların əsgərlərinin yanına yollayıb dedilər ki, möhkəm dayansınlar, belə bir qəziyyə baş vermişdir. Onlarsa xanın meyidini görənədək bu xəbəri yalan sanıb, deyilənə inanmırdılar. Bu qətl müjdəsi gürcülərin fərəh və şadlığına səbəb oldu.

Qızılbaş tayfaları isə yerlərində dayanıb öz fəth və zəfərlərini yəqinləşdirmişdilər və belə bir hadisənin baş verməsi onların heç birinin xəyal səhnəsində canlana belə bilməzdi. Amma, mə'rəkə zamanı xanın yanındakı adamların bir neçə mötəbər mülazimi qoşunun önünə gəlib onu axtarmaqda ki, onlar birdən – birə xanın torpaq və qana bulaşan nə'şini gördülər, bu xəbəri qoşunun qəlbindəki əmirlərə çatdırdılar. Əmirlərin bu xəbəri gizli saxlamaq və döyüşü davam etdirib

gürcülərin tində dəstavuz olan gürcü mirzələrini tutaraq əşrəfin xidmətinə aparmaq istəyi həyata keçmədi.

Elə o əsnada gürcülər əmirlərin yanına adam yollayıb bildirdilər: "Kustəndil xan hümayun hökmə xilaf olub Gürcüstana gəlmişdi. Biz onun hökmranlığını qəbul etmirdik. Amma o, müharibəyə gəldi və asimanın təqdiri ilə qətl olundu. Gəlin biz daha əlimizi döyüşdən çəkərək bir – birimizi öldürməyək. Biz şahın fərmanının əleyhinə deyilik və hamımız o dərgahın bəndələri və qulamlarıyıq".

Lakin, bu hadisədən xəbər tutan hər döyüşçü mərəkədən yaxasını çəkib fərar edirdi və ləşkəri saxlamaq əmirlərin qüdrətindən asılı deyildi. Əmirlər də naçar qalaraq, gürcülərin həmləsindən çaş-baş oldular, qaçış yolunu üzə tutdular. Bu
**s.694** itiifaqsızlıq nəticəsində ləşkərdəkilərin bə'zisi Gürcüstan
**(486)** cəngəlliklərində məhv oldu, bə'ziləri isə at, yaraq və libasdan məhrum olub qaçdılar və pay – piyada özlərini nicat sahilinə çatdırdılar.

[Beləliklə,] qızılbaşların çoxlu malı və var – dövləti, habelə sərvət qazanmaqdan ötrü Kustəndil xanla gələn tacirlərin və bazar əhlinin malları hadisələrin taracına getdi və onların xəyal etdikləri fayda ziyanla əvəz olundu. Əmirlərin bə'zisi Kür çayını keçərək bu tərəfə, bə'zisi isə Şahmir xanla Şəkiyə gedib, baş verənlər barədə ali saraya məlumat verdilər.

Sərdar Cıgaloglunun saysız – hesabsız rum ləşkəri Azərbaycana yürüşə çıxıb Səlmasdan keçərək Təsuca çatdığı vaxt qələbə nişanlı ordu düşmənlə döyişmək üçün hərəkət etdi və Təbrizin Sufiyan qəryəsinin bir fərsəxliyində dayandı. Elə o zaman da həmin qəziyyə xəbəri gəlib çatdı. Gürcülər də hadisə barədə məktub göndərmişdilər.

Arada ondan da böyük hadisə olduğundan və əlahəzrətin bütün fikri rum qeysəri ləşkərinin dəfinə yönəldiyindən bu xəbər və hekayətlərə maraq göstərilmədi.

## VƏZİRE – Ə'ZƏM VƏ SƏRDAR CƏLALOĞLUNUN RUMİYYƏ DƏSTƏLƏRİ İLƏ TƏBRİZƏ TƏRƏF GƏLİŞİ, ONLARIN DÖYÜŞÜ, MƏĞLUB OLMALARI VƏ O GÜNLƏRDƏ BAŞ VERƏN BAŞQA HADİSƏLƏRİN ZİKRİ

Bundan əvvəl, bu ildə baş verən hadisələr zamanı şirin bəyanlı qələm yazmışdı ki, bədniyyət Cığal Van ətrafında özünü mühasirədən çıxarıb gəmiyə minərək dəniz yolu ilə aradan çıxdı, Müşabad adı ilə məşhur olan səhraya gedərək orada dayandı. O, sonra rum əsgərlərini və o yerin tayfalarını yanına toplamaqdan ötrü qəmər sürətli çavuşları göndərdi, ardı – ardınca məktublar yollayıb, onların tez gəlmələrini tələb etdi. Paşalar, bəylərbəyilər, rum sancaqlarının əmirləri mirsəncəq* Cəzirə hakimi kürd Mir Şərəf, mahmudi, behesti, çekari mirləri, Zəkəriyyə xanın oğlanları, qardaşları və bəradust tayfası istisna olmaqla başqa kürd tayfaları ətraf yerlərdən yığışıb gələrək ona birləşdilər. Onlar payız fəslinin axırlarında ağır qoşunlarla Azərbaycana üz tutub Əlbaq yolu ilə Səlmasa gəldilər. Cığaloğlunun gəlişi xəbəri hümayun orduya çatanda yuxarıda qeyd olunan qələbə ayəli döyüşçülərin dayandıqları yerdən hərəkətə başladılar. Onlar elə həmin gün çayı keçərək o güruhun şər'inin dəf' olunmasını özlərinə himmət edib Çurəs yolu ilə köç – köç Xoya gəldilər və həmin vilayətin hər tərəfi iqbal əsgərləri ilə doldu. Oradan şah Təbriz hakimi Pirbudaq xanı rumilərin gələcəkləri yollar üstündə yaşayan adamları köçürməkdən, onları əmniyyət naminə dağlara yollamaqdan, özləri ilə apara bilməyəcəkləri azuqəni yandırmaqdan, şəhəri boşaldıb qalaları möhkəmləndirməkdən və qaladarlıq vəsaitlərini hazırlamaqdan ötrü tez şəhərə göndərdi. Pirbudaq xan fərmana əməl edərək şəhərə çatıb ona tapşırılan işləri yerinə yetirməyə başladı. Şəhərin qara kütlələri əmrə bir qədər tabe olmadılar, həmçinin əsgərlər tərəfindən də yersiz hərəkətlər göründü, amma Pirbudaq xan tacir və rəiyyətin malına əliuzunluq edən bir neçə nəfəri qətl edib onların başlarını nizədən keçirdi və məhəllələrdə gəzdirdi, beləliklə də həmin qiyamlar yatırıldı. Bərxudar bəy

Topçubaşı, topçu və tüfəngçilər qalaya gələrək bərk cidd – cəhd ilə topxana işlərinin tənzimlənməsinə, bürc və barıların möhkəmləndirilməsi işlərinə başladılar. Göydə Keyhan bürcünü də axtarmağa qadir olan ordu Xoyda iki gün qaldı.
**s.695** Orada igid cavanların bir dəstəsi və təcrübəli əsgərlər qarovulluğa təyin edildilər. Onlar müxalif ordunun yaxınlığına qədər gedib, gəlib çatan və gəlməkdə olan ləşkərin keyfiyyəti və kəmiyyəti barədə məlumat əldə etdilər. Təxmini hesablamalara görə [rum ləşkərinin sayı] yüz min nəfər oldu. Qarouulların tutub gətirdikləri bir- iki adam da həmin məlumatı təsdiq etdi.

Hövlnak sərdar böyük qürur və xəyallarla ordusunu sürətlə Ərdəbil darülirşadına getmək və oğlu Mahmud paşanın bəylərbəyi olduğu Şirvan vilayətinə yaxın yerdə yerləşən Qızılağacda qışlamaqdan ötrü Təsuc yolu ilə köç-köç irəli rəvan etdi. Həmin yolda rum ləşkəri üçün azuqə qalmadığından, hümayun ordu *Axtaxana çəməni* yolu ilə Mərəndə tərəf hərəkət etdi ki, məsləhət görülən və ilahinin məsləhət bildiyi hər hansı yerdə dayanaraq müxaliflərin yolunu kəssinlər və
**s.696** müdafiəyə başlasınlar. Ə'lahəzrət zillallah şahın iqbal məl-
**(487)** həmi olan və cahanı bəzəyən rəyi belə oldu ki, şəxsən özü düşmən ləşkərinin miqdarını öyrənmək üçün irəli getsin. Bu məqsədlə o, müşahidənin müfəssər ola biləcəyi dağ zirvəsinə qalxıb rumi ordusunu öz ehtiyat nəzəri ilə seyr etdi, ləşkərin keyfiyyəti, kəmiyyəti və vəziyyəti barədə ümumi məlumata malik oldu. Həqiqətdə isə, həmin yüksəklik garşıdakı fəthin və zəfərin əlaməti, şahın dağ qülləsinə qalxması isə qələbə və xoş günün zirvəsi kimi səciyyələnməlidir.

Şah Mərənddən çıxdı. O, qızılbaş tayfalarının adlı- sanlı əmirlərindən və şir ovlayan qazilərindən ibarət bir dəstəsini öz rəyinin möhkəmliyi, hüsni – tədbirinin düzgünlüyü ilə zəmanə aqillərinin öncülü olan, igidliyi və qorxmazlığı iləsə başqalarından fərqlənən *Fars bəylərbəyi Allahverdi xanın* başçılığı ilə ordudan ayırdı. Belə qərara alındı ki, özü ümumi qoşunun qəlbində dayansın, *Zülfüqar xan, Gəncəli xan və Mir Müqəddəm* isə onun çərxçiləri olsunlar. Əmirgünə xanı

bə’zi əmirlərlə sağ qola təyin edib, sol qolu etibarlı adamların bir dəstəsi ilə möhkəmləndirdikdən sonra onları Allahın köməyi ilə müzəffər ordudan ayırdı, ciddi tapşırıq verdi ki, fürsəti və ehtiyatı əldən verməsinlər, lüzumsuz yerə irəli getməsinlər ki, məbada iti pəncəli cavanların nəfsi kimi cəhalət və qürura qapılıb hücumla qarşılaşsınlar və sədəməyə düçar olsunlar. Hümayun ordu beləliklə oradan çıxıb Sufiyan qəryəsinin yanında dayandı.

Tərəflərin arasındakı məsafə azaldığından bu ilin cəmadüs – sani ayının iyirmi dördünün (6 noyabr, 1605) seşənbə günündə, hərçənd ki, ə’lahəzrət zillələllah şahın rumi sərdarının qarşısına getməsi səltənət rütbəsinə uyğun deyildi, qoşunçəkmə və hərbetmə qayda-qanununa əməl edən şah belə buyurdu: Şahın köməyi ilə güclü olan qalibiyyətli ləşkərin arxa hissəsi qoy şahın hümayunfal çətrinin iqbal kölgəsi ilə daha da güclənsin ki, məbadə müxaliflər tərəfdən cah-cəlal ordusundan ayrılan qalibiyyətli döyüşçülərə xətər toxuna bilsin.

Belə əzm ilə hymayun orduda qalan əzəmətli əmirlər, qorçilər, qulamlar, tüfəngçilər və fələkpənah dərgahın başqa mülazimləri ilə irəli çıxaraq amalı zəfər olan qoşundan xəbər tutmaqdan ötrü şah özünü hərbi qayda-qanunla əsgər və zabitlərlə əhatələyib Təbriz yolu üzərindəki bir yüksəkliyə qalxdı.

Əqlinin və işgüzarlığının cövhəri elə öz simasından görünən və İrəvan qalasının fəthi zamanı layiqli xidmətlər göstərmiş Qərçiqay bəyi bir dəstə xassə qulamlar və tüfəngçilərlə birlikdə döyüşə başlayan hər hansı bir yerdə iqbal qoşunu çərxçilərinə kömək etməkdən və hər əməliyyatdan xəbərdar olmaqdan ötrü irəli yolladı. Ustaclı tayfasının şücaətli adamlarından olan *Qənbər bəy Gözüböyüklü Səlihdarı** bir dəstə bacarıqlı cavanla ali orduya mülazim təyin etdi ki, Qərçiqay
**s.696** bəyin və tüfəngçilərin yaxınlığında dayanıb, işdi-şayəd müxaliflər üstünlük əldə edirlərsə, [bu tərəfin döyüşçülərinə] kömək etsin.

Qarşı tərəfdənsə, sərdar rumiyyə döyüşçüləri ilə Şəbüstərdən keçib, Təbrizin altı fərsəxliyindəki Cəbəs qəryəsində dayandı. O, ordusunun qızılbaş ləşkəri istiqamətindəki bir his-

səsini araba və zəncirlərlə əhatələyib, rumilərin hərbi qayda-qanunu üzrə yeniçəriləri arabaların arasında yerləşdirdi. Rum sərdarının yanında olan və öz şücaət və döyüşkənliyi ilə rumiyyə arasında şöhrət qazanan Ərzrum bəylərbəyi Kosa Səfər, Şam bəylərbəyi Osman paşa, Əli Paşa Zəncirqıran və başqa paşalar qızılbaş ləşkərinin yaxınlaşmasından xəbər tutdular. Onlar özlərinin şan-şövkət və qüdrətlərilə qürurlanaraq huşu başdan aparan təkəbbür badəsi ilə məst olub dəstə-dəstə və sancaq-sancaq öz ordularından ayrıldılar, qəhrli səflərin önündə səf qurdular. Bu xəbər həmin mərəkə meydanı üstünə vəsl kölgəsi salan şahın nurlu ürəyinə zühur işığı salanda "məbada rum ləşkərinin çoxluğundan qalibiyyətli əsgərlər üzərində zəfər çalınsın" fikri ilə gözəl bir aldadıcı tədbir düşündü. Belə ki, rumiyyə ordusu ilə hər hansı bir ləşkər arasında hərb başlanan vaxt uca bir yerdə dayanıb döyüşə başlamamalarından və fəqət qaraltı yaratmalarından ötrü qorçibaşçıya məxsus qacar tayfasından olan bir dəstə adamı göndərdi ki, rumilər naçar qalıb müharibə niyyəti ilə bir dəstə döyüşşünü onların qarşısına göndərsinlər və beləliklə onların çoxluğu bir qədər azalmış olsun. Bundan əvvəl, şahın hüzurunda danışmaq və fikir söyləmək hüququna malik bə'zi adamlar belə deyirdilər: "Şahın qərarı belədir ki, qoy bir neşə gün tərəflər arasında "cəngi-sultanı" [şahın da iştirak etdiyi əsas döyüş – *Ş.F.*] baş verməsin və müharibə bircə cəng ilə bitməsin, qoy iqbal qoşunlarının dilavərləri fürsət taparaq özlərini onlara vurub tez-tez hücumlar etsinlər və belə vəziyyət müxaliflərin Təbrizə daxil olmalarınadək davam etsin. Şəhərə daxil olandan sonra onlar, əgər qalanı mühasirəyə alsalar, gediş-gəliş yollarını bağlasınlar, havalar soyuyub qar mövsümü yetişəndə
**s.697** və onların ordusunda ərzaq ehtiyatı tükənəndə qəhrli döyüş-
**(488)** çülər qadir Allahın iradəsi ilə daxildən və xaricdən hücumlar edib işlərini bitirsinlər. Yox, əgər rumilər qalanı almaga baş qoşmayıb Ərdəbilə və Qızılağaca tərəf getsələr, Sərab və Ərdəbil arasında müqəddəs imamların və şeyxlərin ruhlarından kömək diləyərək, "cəngi – sultaniyə" başlasınlar və beləliklə də qoy nəticə Allahın istədiyi kimi olsun. Həqiqətən də, hərbi ehtiyat belə bir tədbir tələb edirdi.

Şah həmin gün yenə də fürsət gözləyib cəngə tələsməməsindən və bihudə yerə irəli çıxmamasından ötrü Allahverdi xanın yanına iti sür'ətli döyüşçülər göndərdi. Lakin əzəli qüdrətin iradəsi və Allahın hökmü bu fikrin xilafına olduğundan həmin carçı döyüşçülərin gəlişinədək qəzaya zor gələnlər və qolu güclü adamlar döyüş mə'rəkəsi dilavərlərinin əllərindən ixtiyar cilovunu aldılar və [qızılbaşlar] öz igidlik qədəmlərini irəli atdılar. Artıq Qərçiqay bəy və tüfəngcilər rumi səfləri ilə bəzənən yüksəkliyə gəlib catmışdılar.

Amma, əlahəzrətdən ordunun irəli getməməsi və böyük cəngin başlanmaması xüsusda məzəmmətli bir xitab gəldiyi üçün onlar şahın əmrindən çıxmaq və özbaşına böyük müharibəyə başlamaqdan çəkinərək həmin yüksəklikdən aşağı endilər, özlərini bir qədər kənara çəkdilər. Rumiyyə əskərləri bunu acizlik kimi başa düşüb qorxmazlıqla irəli şığıdılar və əllərini qətl alətlərinə atdılar. İş o yerə çatdı ki, çərxçi əmirlərin əksəriyyəti yaralandı, onların topluluqları pozuldu. Vəziyyəti belə görən Qərçiqay bəy və Qənbər bəy olduqları yerdə möhkəm dayanıb həmin təlatümlü dənizdə qalmaqda davam etdilər. Dolu kimi yağan tüfəng güllələrindən yaxa qurtarmaq üçün hamı atları öz seybələrinə çevirmişdi. Məs'ud dəstələrin qəzavü qədər güllələri yağdıran tüfəngçiləri müxaliflərin sədəmələrini öz atəşləri ilə dəf' edib vüqar dağı kimi öz mərs.697 danəlik qədəmlərini [daha da] möhkəmləndirmişdilər. Tüfəng tüstüsü ağ aləmi qaraltdı:

**B e y t l ə r**

*O qana boyanan səhrada bu an*
*Güllə yağdırırdı tüfənglər yaman.*
*Atəşdən tüstüyə büründü göylər,*
*Zülmətdə gizləndi günəş müxtəsər.*[1]

---

[1] Beytlərin farscası:

Tofəkha əndər an səhraye-xunxar
Şərarəfşan həme çon şoleye-nar.
Ze bəs dude-tofək bər aseman şod,
Roxe-xorşid dər zolmət nehan şod.

Qərçiqay bəy Allahverdi xanın yanına bir adam yollayıb ona bildirdi ki, rumilər bir yerə yığılıb müharibə havası çalmaqdadırlar. Əgər bir qədər də bizim soyuqqanlılığımız davam etsə, onlar hamılıqla qızılbaşların üzərinə cumacaqlar və belə olan halda pusquda durub gözləməkdən heç bir nicat ümidi görsənməyəcəkdir. Ali şah tərəfdən vəziyyəti öyrənmək üçün gələn *carçıbaşı Məlik Əli bəy* də hər şeyi öz gözü ilə müşahidə edib gördüklərini şaha ərz etdi.

Elə ki vəziyyətin həqiqəti, [qızılbaşların] şaşqınlığı və alçaq müxaliflərin qələbəsi xəbəri şahın ilhampərvər çöhrəsində əks etdi, dağlılara xas qeyrətlə düşməni dəf etməyi öz himmət və məqsədi bilib iqbal dəstələri və zəfər bayraqları ilə hərəkətə başladı, yavaş-yavaş irəliləmələrindən ötrü Allahverdi xanın və əmirlərin yanına carçı göndərib dedi ki, qoy iqbal qoşununun çərxçiləri mərdanə olub düşmənə aman verməsinlər, çünki tezliklə hümayun ləşkər hərəkət edəcək və onun ardınca şahın zəfər görkəmli bayraqları döyüş meydanı üzərində vüsal kölgəsi yaradacaqdır. O, carçıbaşı Məlik Əli bəyi bir daha Qərçiqay bəyin yanına göndərdi ki, onu şahənşah ləşkərinin hücumundan və hümayun qolun yaxınlaşmasından xəbərdar etsin və bəy döyüş badəsini içərək cuşa gəlsin.

Sərdar ordusundan dəstə-dəstə və alay-alay ayrılıb döyüş meydanına yollanan rumilərin hərəkətini müşahidə edən şahın savablı rəyi belə oldu ki, bir dəstə döyüşkən mülazimi hümayun sol qoldan ayırıb rumi ordusu yaxınlığına göndərsin ki, hər iki tərəf arasında döyüş qızışsın, bunu görən rumi dəstələri bir-birlərindən ayrılıb həmin meydana girsinlər ki, rum əsgərinin hücumu bir cinahdan toplulugla baş verməsin. Bu məqsədlə o, münəzzəm qoşunu olan *Əliqulu xan Divanbəyibaşı Şamlını* sağ qolda məqam tutan şamlı qorçiləri ilə həmin səmtə rəvan etdi ki, əqlə və biliyə arxalanıb öz şücaətlərini nümayiş etdirsinlər. [Sonra] şah əvvəlcədən irəli göndərilən qoşununa birləşməsindən və Əliqulu xanla birgə dövlət məsləhətinə əməl etməsindən ötrü *Alllahqulu bəy Qorçibaşı Qacarı* da irəli yolladı.

Meydandan gələn iqbal küləyi dövlətxahların burnuna
zəfər rayihəsi gətirdiyindən əlahəzrət qeybdən gələn bir
ilhamla öz məqsədini həyata keçirməyə başlayaraq, bütün
**s.698** şamlı tayfasını özünə yaxın (müqərrəbül-həzrət) şəxslərdən
**(489)** və xoşagələn şamlı böyüklərindən olan Məhəmməd bəy
Begdelini bir neçə ildırım səsli kərənay və sağ qol döyüşçülərinin bir dəstəsi ilə Əliqulu xanın köməyinə göndərdi. O, başqa bir qəhrli dəstəni Qərçiqay bəyin və çərxi əmirlərinin köməyinə yollayaraq sağ və sol qol döyüşçülərini ardıcıl şəkildə döyüşə rəvan etdi, fələk ucalıqda bayraqlar kölgəsində olan ordunun hər cinahını, imkan olduqca, təzə-təzə köməklərlə möhkəmlətdi.

[O zaman] şahın məiyyət xidmətdə (mülazim) olan bu
sətirlər müəllifi öz kitablarının məqsəd səhifələrini ilhamlı
qələmləri və bəlağətli sözləri ilə bəzəyən tarixçilər kimi
həqiqəti bəyan edərək belə məlumat verir: O gün zilləllah
**s.698** əlahəzrət şah Allah-taalanın məsləhəti və iqbalının qüvvəti
ilə elə yüksək tərzdə sipəhdarlıq [komandanlıq – *Ş.F.*] etmək və döyüşü lazımi şəkildə tərtib etməklə məşğul oldu ki qətiyyət, uzaqgörənlik və igidlikdən bir dəqiqə də olsa uzaqlaşmadı, düşündüyü hər bir tədbiri ilahinin təqdiri ilə yerinə yetirdi. Əgər bu zaman öz şücaəti, sərdarlığı və hüsni-tədbiri ilə kamyab sultanlar üçün örnək və adlı-sanlı xaqanlardan ötrü dəsturüləməl olan böyük Əmir Teymur sağ olsaydı və bu elm və sənət cahanını müşahidə etsəydi, ondan cahandarlıq və döyüş təlimi öyrənərdi. Biz əgər bu barədə çox yazsaq söz çox uzanar.

Xülasə, ə’lahəzrət ləşkərləri göndərdikdən sonra özü ilahinin lütfü sayəsində hümayun qoldakı bütün müzəffər döyüşçülərlə irəli gedib döyüş meydanına çevrilən təpəyə qalxdı. İqbal mübaşiri [xəbərgətirəni – *Ş.F.*] dəmbədəm fəth xəbəri və zəfər sorağı çatdırmaqdaydı. Qərçiqay bəy və çərxşi əmirləri cəngə başlayıb kömək əsər-əlaməti gördükləri üçün, Əliqulu xan və qorçibaşı rumi dəstələrinin və sərdar ordusunun arasına girib hərb atəşini alovlandırırdılar. Meydanın tozu fələyədək ucaldı. Əlahəzrətin gözəl tədbiri Allahın

istəyinə müvafiq oldu, rum ordusunun yaxınlığındakı tozanağı və savaşı müşahidə edən rum ləşkərinin paşa və sərdarları müzəffər şah ləşkərinin sərdar ordusuna hücum etdiyini düşünüb bərk həyəcana düşdülər, istədilər ki, o yüksəklikdən aşağı enərək öz sağ qol döyüşçülərini qızılbaşların önünə göndərsinlər, özləri də ləşkərlərini orduya yaxınlaşdırıb hər iki tərəfin əməliyyatlarından xəbərdar olsunlar. Onlar belə bir əzmlə hərəkətə başladılar. Qalibiyyətli qoşunun mübarizləri o hərəkəti görərək, yerbəyerdən uca təbəqəli qızılbaşların şüarı olan "Allah-Allah" sədalarını ucaldıb öndən, arxadan, cərənğardan və bərənğardan hücumlar etdilər, hər tərəfdən düşmənlərin üstünə tökülyşdülər. İqbal döyüşşülərinin şücaətli sədəmələrindən və mərdanə həmlələrindən rumilərin əhvali-ruhiyyəsinə həyəcan və ziddiyyət qalib gəldi, onlar daha müdafiə və səf düzəltmək imkanı tapmadılar, şan-şövət binaları birdən-birə lərzəyə düşdü.

Qızılbaşların döyüşkən dilavərləri fələyin mavi tasına fəth və zəfər sədaları doldurub, mərəkə meydanını düşmən qanı ilə gül kimi bəzədilər. Bütün rumi qoşunu "fərar et dözülməz kəslərdən"[1] deyərək qaçış vadisinə üz tutdu. Paşalar və sərdarlar vəziyyətin bəlkə də dəyişəcəyi ehtimalı ilə həmin yüksək təpədə bir neçə ləhzə gözləyib, düşündüklərinin baş vermədiyini görərək, öz ordularına olan yolu bağlı gördülər, cilovlarını fərar vadisinə tərəf çevirdilər, Təsuc və Səlmas istiqamətinə qaçdılar. Qəzavü qədərin xəbər gətirənləri [qızılbaşlara] fəth və zəfər müjdəsi verdilər, qeybdən xəbər gətirən mələk (soruş) xoş "həqiqətən də biz parlaq zəfər caldıq"[2] nidasını dilə gətirdi.

Qəhrli döyüşçülər məğlub olan rumilərin ardınca götürülüb, hər gecə bir dəstəni canlar alan nizələrin ucu ilə həlak torpağına tullayırdılar. O vəhşətlə dolu səhrada ölü cəsədlərdən təpələr yarandı. Sərdarların əksəriyyətinin bə'ziləri əsir tutuldu, bə'ziləri isə öldürüldü. Öz igidliyi ilə qürrələnib həmişə hədyan sözlər danışan Ərzrum bəylərbəyi və mö'təbər

[1] İfadənin ərəbcəsi "Əl-fərar mimmən la yutaqu"

[2] İfadənin ərəbcəsi "innəna fətəhna ləkə fəthən mədinən"

sərdar olan *Kosa Səfər, həmçinin Rəziyyə xatunun oğlu və ikinci vəzir, habelə vəzire – əzəmin qayimməqamı olan Mustafa paşa, Qars vəziri Şirəhməd* paşa, bu dövlətdən üz çevirib qorxaq sərdara birləşən *Qazi xanın qardaşı Qorçi xan Kürd* əsarətə düçar olanlardan idilər. Öz bəyənilməz hərəkətlərinə mükafat olaraq Kosa Səfər öldürüldü.

Qətl olunanlar sırasında *Əli paşa Zəncirqıran* və Şam bəylərbəyi *Osman paşa* da vardı. Rumiyyə əmir və paşaları, sancaqbəyiləri və kürd tayfalarının mötəbər əmirləri içərisin-
**s.699** dən altmış-yetmiş nəfərə yaxın adam öldürüldü və əsir alındı
**s.700** ki, onların adlarının zikr olunmasının [heç bir] faydası yoxdur.
**(490)** Yalnız Kamyab sultanlara müyəssər olan bu məşhur fəth gün batana yaxın baş verdi. Aləmi işıqla bəzəyən günəş həmin döyüş şiddətini görüb başını hicaba saldı, qol və səhranın fəzası din və dövlət düşmənlərinin üzləri kimi qaraldı. Savaş meydanının bahadırları qaçanları təqib etməkdən əl çəkməyir və onların heç birisi bu məqsədlərinə yetmədən geri qayıtmırdı.

Xülasə, o qarabəxtlilərin əksəriyyəti o hövlnak gecədə ədəm səhrasının avaraları oldular. Amma, gecənin zülmətindən istifadə edib gizlənən bə'zi düşmənlər o gecə ələ keçirilməsələr də, ertəsi gün öz zaviyələrində gizlənən və indi isə fəth xəbərini eşidən o yerlərin rəiyyəti özlərini həmin idbar varisi avaralarına çatdırıb, onların həyat günlərini məmat [ölüm – *Ş.F.*] axşamına döndərdilər. Xasseyi-humayun qolundan cəngə yollanan döyüş meşəsinin bəbirləri dəstə-dəstə gəlib savaş meydanında kəsilən başları gətirərək, külək sürətli atların ayaqları altına atır, əsirləri onların üstlərində olan var-yoxları ilə birlikdə şahın nəzərinə yetirir, fəth və zəfər şadyanalığı nümayiş etdirirdilər. Cahanı bəzəyən günəş müxaliflərin bəxt ulduzu kimi zaval məqribində qürub edən vaxt artıq təbiətin qoynu abbasilərin libasları ilə bəzənmişdi. Əlahəzrət zillələllah şah tam qələbə və iqballa kəsilən başları, diri adamları, ələ keçən qənimətləri [əxtərmə] görmək və mərdanə döyüş meydanı fədailərinə öz iltifatını bildirməkdən ötrü elə həmin yerdə atdan düşdü. Orada olan adlı-sanlı əmirlər və

saraya yaxın adamlar büsat məclisi quraraq eyş-işrətə başladılar. Rəzm [döyüş – *Ş.F.*] meydanı bəzm [şadlıq – *Ş.F.*] məclisinə çevrildi. Qazilərin qənimət kimi tutub gətirdikləri gözəl surətli rumineşad [oğlanlar], həmçinin avropa və rus [millətindın olan] qılman sifətli qulamlar həmin məclis saqisinin fərmanına görə şadlıq qədəhlərini gərdişə gətirirdilər.

Nəğməçi müğənnilər və xoşavaz çalğıçılar, (motreban[*]) Döyüş meydanında qurulan o ürəkaçan məclisdə müxalif pərdəsində [səslənən] fəth və zəfər nəvasını[**] belə oxuyurdular :

**Beyt [lər]**

*Fələk tabe olub sözünə, ey şah,*
*Tax-tac gülümsəyir üzünə, ey şah.*
*Qoy ötsün həyatın şadlıqla sənin,*
*Düşsün ayağına başı düşmənin.*
*Cahan ədalətlə qoy abad olsun,*
*Sənin dövlətində hamı şad olsun.*[1]

Şadlıq meydanının içki işənləru büsat badəsindən sərməst olur, atlas səma ilə örtülü olan fələk sakinlərinə "nuş olsun" sədalarını çatdırırdılar. Məşhur əsirlərə toxunulmur, başqalarını isə qızılbaşlara paylayırdılar. Təsadüfi hadisələrdən biri də budur ki, Van müharibəsində müzəffər əsgərlərə əsir düşən və yuxarıda göstərildiyi kimi əfv olunan *mütəfferiqə ağası Xəndan ağanın* kiçik oğlu kimi bu döyüşdə əsir düşən onun böyük oğlu *Məhəmməd bəy* də öz bəxtinin gücü və taleyinin qüvvəsi sayəsində əlahəzrətin yanına gətirildi, o da atası və qardaşı kimi iltifata yetib nəvazişləndirildi.

---

[1] Beytin farscası:

Şaha, fələk tabe'e-raye-tost,
Sərire-kehan-o mehan caye-tost.
Bemolke-səadət bəqaye-to bad,
Səre-doşmənan zire-paye-to bad.
Cəhan yeksər əz ədlət abad bad,
Dele-xəlq əz dövlətət şad bad.

Xülasə, əcəl saqisi tərəfindən igidlərin qanı tökülür, zəmanə öz bədməstliyini davam etdirirdi. Həmin şadyanalıq
s.700 məclisində olduqca qəribə bir əhvalat baş verdi və az qaldı ki, əmin-amanlığa və aləm adamlarının dincliyinə səbəb olan hümayun zata [şah Abbasa – *Ş.F.*] bərk göz dəysin və o xətaya düçar olsun. Allahın inayəti sayəsində əmin-amanlıq sərmayəsi [sayılan] və insanların rifahına səbəbkar olan mübarək zata göz dəydisə də, amma o misilsiz zatı ilahinin inayəti hər cür məkr və zərərdən qoruduğu üçün həmin hadisənin mənfi təsiri olmadı, əlahəzrət barədə düşünülmüş hiylə [keyd] və xətanın [zənb] axırı yaxşılıqla bitdi.

O ibrətamiz hadisənin şərhi belədir: Meydanda güclü döyüş gedərkən bu dövlətin gücü və qəhrli şah qüvvəsi tərəfindən zillət torpağına sərilən əjdahaya [sə'ban] bənzər yekəpər və yoğun əndamlı bir adam kiçik cüssəli bir ustaclı qorçisi əsir tutub şahın yanına gətirmiş, lakin onun yaşının azlığına və təcrübəsizliyiə aldanıb əllərini başqa əsirlər kimi arxasına bağlamamışdı. Ə'lahəzrət onun adını, nəsəbini və tayfasını soruşduqda "mən mokri* qəbilələrindənəm" dedi. O tayfa nümayəndələrindən bir dəstə adam şahın mülazimətində olaraq bu səadətlə şərəfləndikləri üçün həmin bədneyad [ustaclı qorçisi] düşünmüşdü ki, mokrilərin köməyi və xahişi
s.701 ilə ölümdən nicat tapa biləcəkdir. O camaatın böyüklərindən
(491) biri olan Rüstəm bəy qəzəblə buyurdu: " Bizimlə onların arasında heç bir əlaqə yoxdur və arada qədim ədavət mövcuddur, qan axıdılmışdır". Ə'lahəzrət qorçiyə öz gövhərnişan dili ilə əmr edib dedi: "Onun cəzasını verməkdən ötrü Rüstəm bəyə ver, qoy istədiyi kimi hərəkət etsin. Rüstəm bundan imtina edib buyurdu: "And içib əhd etmişəm ki, acizliyə mübtəla olan düşməndən intiqam almayım və əlibağlı adamı öldürməyim".

Belə nifaqlı söz-söhbətdən şahın müqəddəs məzarı dəyişildi. O, baxmayaraq ki, məsələnin əvvəlində həmin gözünü qan tutan adamın qətli barədə fərman verməmişdi, lakin nifaqın aradan götürülməsindən ötrü qorçiyə onu qətl etməsini tapşırdı. Qorçi həmin adamı müqəddəs zatın yanından bir

qədər kənara aparmaqdan ötrü əlini onun belinə aparanda "qətl" sözünü eşidən o qəddar və kinli adam dərhal yanında saxladığı xəncəri çəkdi, mübarək zatı öldürmək məqsədi ilə yüyürüb özünü o həzrətə çatdırdı və xəncərini işlətdi. Ə'la-həzrət öz mübarək əlini açaraq, əcdadından ona miras qalan qorxmazlıq və mərdanəliklə, onun xəncərli əlini möhkəm sıxıb özünə tərəf çəkdi, mübarək dizini əlinin üstünə qoydu. Orada olanlar bu hadisəni müçahidə edib bir-birinə dəydilər və hər tərəfdən qılınclarını çəkərək o idbarın üstünə hücuma keçdilər. İzdihamın çoxluğundan və garmagarışıqlardan məşəl-lərin işığı azalmışdı və adamlar iztirab və şaşqınlığın çox-luğundan əlahəzrət və həmin idbar şəxsi bir-birlərindən seçə bilmirdilər, çünki onunla əlahəzrətin zirehi eyni rəngdəydi və bu səbəbdən də qılınc çalmağa cürət etmirdilər.

Arada bir müddət vaxt keçdi. Hamı həyəcanlı idi. Nəhayət əlahəzrət öz mərdanəlik qolunun və iqbal gücünün tə'siri ilə xəncəri onun əlindən aldı Bə'zi qulamlarsa onu bir qədər kənara aparıb, hər tərəfdən qılınc içlətməklə onun murdar bədənini tikə-tikə doğradılar.

Baş verən bu böyük hadisə nəticəsində döyüş meydanında sanki qiyanət qopdu. Adamlar müqəddəs zata bir xətər toxuna biləcəyindən qorxub, iztirab anları keçirdilər. Həmin ibrə-tamiz hadisəni yazan bu sətirlər müəllifi də o hövlnak mərəkə baş verən vaxt oradaydı. Mən bu vəziyyəti müşahidə etdikdə uzun zaman bayıldım. O həzrətin mübarək səsi qulağıma dəydikdə həmin hadisədən heyrətlənmiş xatirim dərhal təs-kinlik tapdı. Oradakılar yeri və göyü saxlayan Allahın zamini
**s.701** olan zatın sağ-salamat olmasını görüb ilahiyə səcdə və şükr etdilər, sədaqət sahiblərinə tazə can verildi. O həzrət isə bu hadisədən qətiyyən mütəəssir olmayaraq, ətrafındakı haldan düşən adamlara təsəlli verib, dərhal sevinc badəsi içdi, öz vəzifəsini yerinə yetirməyə başladı. O bədkirdar adamın yer-siz hərəkətindən qəzəblənən sadiq şah fədailərinin qeyrət atəşləri şölələndi və onlar əsirlərin əksəriyyətinin həyat xır-manını yandırdılar.

Xülasə, gecə yarısınadək hamı öz işi ilə məşöul oldu. Ləşkərinin məğlubiyyətindən sonra Cığaloğlunun fikrinin nə olduğu mə’lum olmadığından Allahverdi xana və əzəmətli əmirlərə orada dayanmaq əmri verildi ki, sabahkı gün Cığaloğlunun əhvalından xəbər tutaraq, Allahın köməyi ilə, ona qarşı din və dövlətin məsləhətinə uyğun hərəkətə başlasınlar. Şah qalibiyyətlə özünün dövlət atına süvar olub, oradan təxminən bir fürsəx aralıda olan hümayun orduya gələrək, mübarək dövlətxanada əyləşdi. Elə həmin gecə Təbriz hakimi Pirbudaq xanın adına dünya qədər qiymətli bir məktub yazıldı, iqbalın gücü ilə baş vermiş hadisə şərh olundu. Belə qərara alındı ki, qalanı qoruyanlardan xatircəm olduqdan sonra hamı öz qüvvəsi ilə şəhər tərəfdən hücuma yollansın və Allah- taalanın köməyi ilə sərdarın qüvvəsi məlum olan kimi vaxtın müsaidəsi və dövlətin məsləhəti həyata keçsin, vəssalam.

### CIĞALOĞLUNUN FƏRAR ETMƏSİNİN ZİKRİ, SAĞ QALAN RUMİLƏRİN ƏHVALININ BƏYANI VƏ ALƏM PƏRVƏRDİGARININ KÖMƏYİ İLƏ QALİBİYYƏTLİ ƏSGƏRLƏRİN QALİB GƏLMƏLƏRİNİN ŞƏRHİ

Şirin sözlər yazan qələm *Cığalın* və onunla birgə olan adamların sonrakı hallarını əhvalat səhifəsində aşağıdakı kimi bəyan etmişdir: Barəsində danışılan müharibənin ertəsi günü cəmadüş-sani ayının iyirmi beşi (7 noyabr, 1605) çərşənbə günü, sübh çağı şah mübarək dövlətxanadan ata süvar
**s.702** oldu və gəlib öz vüsal kölgəsini döyüş meydanına saldı.
**(492)** Sərdar [isə] dayandığı yerdən hələ hərəkət etməmişdi. Şahın cəlal qulağına [belə bir xəbər] çatdı ki, sərdara birləşməkdən ötrü arxadan gələn Hələb və o ətraf əsgərlərinin sərdarı Canpoladoğlu Rumi və beş min nəfər rumi döyüşçüsü ilə birlikdə artıq Təsuc qəsəbəsinə gəlib-çatmışdır. Hələ mərhum İskəndər şanlı nəyyabın hakimiyyəti zamanından orduda olan bə’zi dar düşüncəli şəxslər rum sərdarlarının ehtirasını və ləşkərlərinin çoxluğunu müşahidə edərək, ağlasığmaz fikirlər

söyləyirdilər. Ə'lahəzrət isə öz uzaqgörənliyindən, həmçinin böyük cahandarlara və qoşun sərkərdələrinə xas ehtiyatkarlığından sərdarın üstünə getməkdən, araba, top və tüfənglərlə şəng etməkdən şahanə tərzdə çəkindi və bu işdə tələsməyi
**s.702** məqbul əməl saymadı.

**Beyt [lər]**

*İstəsən ki, işin uğurlu ola,*
*İş görən zamanda tələsmə əsla.*
*Hər iş düşüncəylə görülsə əgər,*
*Düşüncə ziyanı xeyrə çevirər.*[1]

"Səbr etmək çətinlikdən qurtulmağın açarıdır" misalı bu əhvalata tamamilə uyğundur. Şah düşündü ki, əskərlərin bir dəstəsini Canpoiadoğlunun üstunə göndərib keçib-gəldiyi yollardan xatircəm olandan sonra onun işini bitirmək olar.

Həmin vaxtlarda Rum padşahı tabeliyində olan və tayfa üzvlərinin sayının çoxluğuna görə başqa kürd qəbilələrinin ən böyüyü sayılan Cəzirə hakimi Mir Şərəfin kürdlərindən biri o yürüş zamanı Cəzirə döyüşçüləri ilə birlikdə Cığaloğlu ilə yoldaş idi və sərdarın yanında qalıb döyüşə çıxmamışdı. Onu ələ keçirib şahın yanına gətirdilər. Adı çəkilən *Mir Şərəf* artıq neçə ildi ki, şah mülazimləri ilə dostluq edərək öz sədaqətini izhar etməkdə idi. Ə'lahəzrət o kürdü azad edərək, iki kəlmə söz yazıb onunla Mir Şərəfə aşağıdakı məzmunda bir məktub göndərdi: "Bu vaxtadək aradakı məsafənin uzaqlığından qızılbaşlarla Cəzirə kürdləri arasında heç bir dava-dalaş baş verməmiş, ədavətin şiddətlənməsinə səbəb olan qanlar axıdılmamışdır. Onun (Mir Şərəfin – *Ş.F.*) sədaqət şüası müqəddəs zatın alnında işıqlandığından bu cəng zamanı onun adamlarından ələ keçən hər döyüşçünü sağ saxlayaraq,

---

[1] Beytlərin farscası:

Əgər xahi nəgərdəd kar tə'til
Məkan dər karha besyar tə'cil,
Təəmmol dər həme karist məhmud
Ziyanət dər təhəmmol mişəvəd sud.

oğlunun barəsində qətl hökmü çıxarmamışıq. Əgər imkan tapsa gəlib ya özünü ordunun aman evinə çatdırsın, yaxud qoy bu mərəkəyə girməsin və Cəzirəyə yollansın ki, ona və adamlarına heç bir xətər toxunulmasın".

O şəxsin sərdarın ordusuna sağ-salamat çatmasından ötrü onu qalibiyyətli qoşunun qarovullarına tapşırdılar.

Həmin məktubu oxuyan Mir Şərəf Cəzirənin və o yerlərin kürdlərindən gizli şəkildə sərdarın səfindən ayrılaraq, özünün var yoxundan keçdi, dəryadan keçməklə fərar yolunu tutdu.

Amma, bir dəstə əsirin sözlərindən sərdarın vəziyyəti məlum oldu. Belə ki, o, ləşkərinin məğlubiyyəti, qoşun başçılarının giriftar olmaları və döyüş mərəkəsində pərən-pərən düşən ordusunun belə vəziyyətindən sonra həmin gecəni yüz qəm – qüssə ilə keçirib, sübh olan kimi, orduda onun ətrafında qalan yeniçərilərinə və ləşkərin hər tayfadan ibarət bir dəstə döyüşçüsünə tapşırıq verərək, onları araba və topxana işlərinə, meysərə və meymənənin möhkəmlənməsinə göndərdi. [Həmçinin] rumilərin "at oğlanı" adlandırdıqları ordu qulluqçularını qələbəyə şirnikləndirib, onları günortayadək yalan sözlərlə aldatdı. Günorta bitdikdən sonra isə Mir Şərəfin fərar etməsi və onun kürdlərinin şaşqınlıqla ətrafa səpələnməsi hamıya məlum oldu. Sərdar qorxusundan nə edəcəyini bilməyərək öz işinə heyran qalmışdı və hər saat bir fikir, hər ləhzə bir xəyala düşürdü. Bu əsnada ona belə bir xəbər çatdı: Canpoladoğlu Hələb qoşunu ilə cəng günü Təsuca gəlmiş, günün sonunda isə məğlubiyyətə düçar olan ləşkərin adamları gedib ona çatmış və o, elə həmin saat geri qayıtma təbilini çalaraq, əmin-amanlıq yolunu seçmiş və Vana tərəf getmişdir.

Bu xəbərdən [başqa] döyüşçülərin giley və iztirabları artmış, rumi qoşun ağalarını bərk vahimə bürümüş, məsələnin üstündən pərdə götürülmüşdü. Fərar yolunu açıq görən adamlar müxtəlif bəhanələrlə hərbi düşərgədən ayrılıb topa-topa və dəstə-dəstə qaçırdılar. Sərdar məcburiyyət üzündən döyüş fikrindən daşındı, ləşkər başçıları, qazisi və müftisi ilə məsləhətləşdi və haminin fikri fərar etmək oldu. Onlar gecə-
**s.703** nin zülmətini özlərinə kömək sanıb bir-birlərinə dedilər ki,

qaçaraq özünüzü bəla girdabından nicat sahilinə catdırın. [Beləliklə], sərdar günün axırınadək fikir-xəyalı və qorxunu arxada qoyub, qürub vaxtı fərar yolunu önə tutdu. Düşərgədə məhşər gününün əlamətləri göründü. Döyüşçülər öz var-yoxlarından və sərdarla həmrah olmaqdan əl çəkib dəstə-dəstə fərar vadisinə düşərək, qaçmaqda bir-birlərinin geridə
**s.704** qoyurdular. Qədim dövrlərin şan-şöhrətli şəhriyarlarının
**(493)** namələrində belə yazılmışdır ki, əgər düşmən fərar yoluna düşübsə, həmin yolu bağlamaq mərdanəlik sayılmır və [belə iş] mürvət sahibi olan padşahlara layiq xüsusiyyət deyildir:

**B e y t**

*Çarə axtarırsa əgər düşmənin,*
*Mane olmaq fikrin olmasın sənin.*[1]

Xülasə, həmin günün sonunda rumilərin qaçmaları məlum oldu. Ə'lahəzrət bu xəbərin səhihliyini aydınlaşdırmaq və ərz etməkdən ötrü Əliqulu xanı [rumi düşərgəsinə] göndərdi. O, fərmanı qəbul edib qürub vaxtı və məşəllərin yandırılan zamanı rumi ordusunun yaxınlığına çatdı. Aydın oldu ki, orduda iki-üç nəfər xəstədən başqa kimsə qalmamışdır. Gecədən bir qədər keçdikdən sonra Əliqulu xanın etibarlı bir adamı gəlib sərdarın fərarını şaha ərz etdi. Gecə vaxtı düşməni izləmək sultanların qayda-qanununa uyğun olmadığından, ə'lahəzrət həmin gecə onların təqibi xüsusunda fərman vermədi.

Amma, qızılbaşlardan bir dəstə alçaq və quldur adam qənimət ələ keçirmək tamahı ilə qaçanların ardına düşdü. Onlar rumilərin bə'zi tamahkar adamlarının özləri ilə apardıqları mallarını və dəvələrini özlərinə götürür, çatdıqları hər kəsi qətl edirdilər.

Qızılbaşların [o zaman] mübtəla olduqları idbar əməllərdən bir də belə bir hadisənin baş verməsi oldu. Təxminən beş

---

[1] Beytin farscası:
Ço doşmən rəhe-çare cuyəd ğəmin,
Məşov manee çarecuyan ze kin.

yüz nəfərdən ibarət olan bir dəstə rumi gecə öz yollarını itirib, Təsuc qəsəbəsinin bağlarına gəldi. Onlar oradan sağ-salamat çıxmaqdan ötrü yerli bir adama qızıl verib bələdçilik etməsini xahiş etdilər. O şəxsin bu xanədana sədaqət və məhəbbəti olduğu üçün sələmət vadisinin həmin yol azanlarını bəla yoluna atdı və onları Təsuc qəsəbəsinin meydanına gətirdi, məsələdən təsucluları xəbərdar etdi. Rəiyyət hücum çəkib qaçış yolunu bağladı, taraca və qətlə başladı. Rumilər əldən elə düşmüşdülər ki, yaraqsız hər bir rəiyyət öz çomağı ilə üç-dörd yaraqlı ruminin silah və yarağını əlindən alaraq onları qətl edirdi.

Xülasə, o heyrət və sərgərdanlıq səhrasının heyrətə düşmüş adamlarının hamısı təsucluların intiqam qılınclarına düçar oldular və rumilərin hər şeyi onlara qismət oldu. Səlmas və Əlbaq kürdləri də rumiyyə ilə elə hərəkət etdilər. Onlar rumilərin başlarından keçirdilərsə də, libaslarından keçmirdilər.

Beləliklə, gecə yarısı sərdarın fərarı qızılbaş qoşununa məlum oldu və onlar rumilərin var-dövlət və silahlarını qarət etmək üçün müxalif orduya tərəf üz tutdular, sübhədək gedib onlara çatdılar. Başqalarından tez catan bir dəstə adam belə söhbət edir: Fərşlərlə döşənmiş çadırlar, cürbəcür sandıqlar, xeymələr önündə yerə yatırılmış dəvələr vardı. Belə məlum olurdu ki, bunlar döyüşdə öldürülən və giriftar olanların, yaxud fərar edənlərin sahibsiz qalan mallarıdır. Rumilərin bir
s.704 qismi öz qara gününü fikirləşib heç nəyi özü ilə götürməmiş, başqa bir hissəsi isə cəngə getməyib öz ev-eşiyində qalmış, pul və nəfis əşyalarını özləri ilə aparmış, başqa şeylərini isə orada qoymuşdular.

Şam vaxtının başlanğıcında sərdarın ordusuna daxil olan *Piri Sultan Qazaqlar* belə danışır: “Sərdara xas olan xərgaha girdim. Orada qırmızı və ağ sikkəli qızıllar yerə tökülmüşdü. Sərdarın üzüyü taxtının kənarına düşmüş, qayda-qanuna görə əmirlərin belindən asılan qiymətli daş-qaşlı qılıncı isə yerə düşmüşdü. Sərdarın xəzinəsini açdım. Böyük və uzun bir xeymə idi. Xeymənin dövrəsinə sandıqlar düzülmüş,

üstlərinə isə məxmərlə və zərlə işlənmiş sandıq örtükləri sərilmişdi. Sandıqların əksəriyyəti qıfıllı idi. Açdığım bir-iki sandıq cürbəcür əşya və qumaş parçalarla doluydu. Yanımda bir nəfərdən artıq adam olmadığından, dəvəçidən (şotorxan) bir qatar dəvə gətirib, üstlərinə on dörd qapağı bağlı sandıq yüklədim və onları həmin qılıncla bərabər xeymədən çölə çıxardım".

Piri bəyin xəzinədən çıxmasından sonra adamlar hər tərəfdən tökülüşüb orduda taraca başladılar. Adamların biri üzərində rum münşiləri tərəfindən münasib ayələr və hədislər yazılmış, cəvahir və laciverdlə bəzədilmiş sərdarın möhürünü ələ keçirib, onu şaha göstərdi.

Xüsusi sandıqçalarda böyük adamların iftixarı olan [çoxlu] ehkam və sənədlər də vardı ki, buradan belə mə'lum olur: Rumilər elə pərişanlıqla buranı tərk etmişlər ki, hətta onları da özləri ilə götürə bilməmişlər. Sözün qısası, ordudakı bütün mallar və silahlar hadisələrin taracına getdi, kasıb
**s.705** adamların əlinə elə keçdi, amma sonra heç kəsin o şeylərdən
**(494)** xəbəri olmadı. Xassə mülazimlərin bə'ziləri öz qənimətlərini şaha göstərdilərsə də, o öz nəzərini onlardan yayındırdı və hər şeyi onu gətirənə əta etdi. Piri Sultan Qazaqların gətirdiyi şeylər də əlahəzrətə göstərildi, onlar da onun özünə verildi. Barxudar bəy Ənis Topçubaşı topxananı zəbt etməyə göndərildi və yüzə yaxın top, böyük və kiçik zərbzən, habelə başqa silahlar ələ keçirildi.

Xülasə, bu hadisələrdən sonra qənimətlər Təbrizə göndərildi, səadətli ordu isə Səlmasa tərəf hərəkət etdi. Üsyandan dəm vuran və Maku qalasına sığınan *Mustafa bəy Mahmudi* qılıncını boynuna qoyub şahın ayağına gəldi, ona şahanə əfv münasib bilindi və ayaq öpməklə şərəfləndi. Onunla düşmən olan *Xuşab hakimi Süleyman bəyin oğlu Zeynal bəy Mahmudi* də şahın mərhəmətinə üz tutub nəvazişə layiq görüldü, Xuşab ulkası onun adına yazıldı. Hümayun zilləllah şahın böyüdüb tərbiyələndirdiyi Əmir xan Çolaq Bəradust Rum ülkasından gəldi, onun bu cəng zamanı hümayun ordu mülazimi kimi orduya qoşulmaması taxsırından keçildi. Başqa

vəhşisifət kürdlərin də günahları əfv olundu. Zəkəriyyə xan Həkari[1] bu qələbəni təbrik etmək və şaha sədaqətini billdirmək üçün öz elçilərini və etibarlı adamlarını göndərdi. Ə'lahəzrət onun göndərdiyi adamlara xitab edib buyurdu ki, xanın sədaqət varlığı xilas butəsindən kənarda qalmışdır ki, qoy özü gəlib bizə mülazimət səadətinə nail olsun. Zəkəriyyə xan bu nəsihətamiz xitab barədə düşünüb, şahın yanına gəlməkdən başqa çarə görmədi, qorxu və təşviş içində əyninə mülazimət kəfəni geyib Səlmasa rəvan oldu. Şahın Səlmasda qalma müddəti iyirmi gün çəkdi və zəruri işlər yerinə yetirildi. Soyuq və şaxta qoşunu hücuma keçdiyi üçün şah Təbriz darüssəltənəsinə yollandı. Əzəmətli əmirlərə hökm oldu ki, Zəkəriyyə xanı ehtiramla istiqbal edib, Təbrizə gətirsinlər.
s.705 Əmirlər hökmə əməl etdilər və Zəkəriyyə xan mübarək Təbriz darüssəltənəsində şahın ətəyini öpmək şərəfinə yetib, behiştə bərabər məclisdə ehtiramla qarşılandı. O, peşkəşlər gətirərək öz şahanə təzimləri ilə iftixarlı səadət tapdı, şaha xas məclisdə iştirak etdi və ona fəxarətli xələtlərdən xəncər kəməri, qızılla işlənmiş qılınc kəməri, qiymətli daş-qaşlarla bəzənmiş yəhər və cilovu olan xüsusi cinsli tazı at, qumaş parçalar, müxtəlif əşyalar, qızıl qədəh, piyalə və başqa şeylər əta olundu, geri qayıtma icazəsi verildi. Onun qardaşı oğlu olan *Əlbaq hakimi Həsən bəyə* də əmrə müvafiq olaraq qiymətli xələtlər verildi və o, mərama yetdikdən sonra öz məqamına qayıtdı.

Yuxarıda yazıldığı kimi, sərdar o cür pərişanlıqla fərar etdikdən sonra bir neçə adamla özünü Vana çatdırdı və orada müzəffər şah ordusunun Səlmasa tərəf gəldiyini eşidib narahat oldu və Diyarbəkr yolunu önə tutdu, yol gedən zaman Canfuladın oğluna çatdı. Söhbət vaxtı sərdar onu orduya gec gəlib çıxdığı üçün danladı və sərdarın onun işarəsi ilə pusquda duran bir neçə döyüşçü irəli gələrək onu qətlə yetirdilər. Kəsik başını əskərlərinin əksəriyyəti ad-sansız və əslnəcəbsiz ləvəndlər olan Hələb qoşununun içərisinə tulladılar. Bunu görən Hələb qoşunu dağılmağa başladı və Hələbə

[1] Qeyd: Bir qədər yuxarıda bu ad "Çekari" kimi yazılmışdır – *Ş.F.*

doğru üz tutdu. Qoşunun başqa bir dəstəsi isə onun (sərdarın – *Ş.F.*) başına yığıldı və onlar *cəlali* oldular. Bu hadisə cəlalilər hərakatının şərhi zamanı qələmə alınacaqdir.

Diyarbəkrə çatan sərdar baş verənləri xandgarın dərgahına ərz etdi və bir neçə gün sonra qəm və ələm qoşunu onun həyat ölkəsinə hücuma keçdi və o, axirət səfərini önə tutdu:

**[M i s r a]**

*Getdi ki, başqa bir aləm tutsun.*[1]

### CAHANGİR XAN VƏ MƏHƏMMƏD SƏLİM ÖZBƏKİN YARMƏHƏMMƏD MİRZƏ İLƏ NAXÇIVANDAN XORASAN VƏ ĞORÇESTANA GÖNDƏRİLMƏLƏRİ VƏ ONLARIN VƏZİYYƏTLƏRİNİ ZİKRİ

Əvvəlki əhvalatların təsviri zamanı savabkar qələm belə yazırdı: *Seyid Məhəmməd Sultanın oğlu Cahangir xan* və *Pirməhəmməd xan Özbəkin oğlu Məhəmməd Səlim Sultan* Bəlxin divanbəyisi, ən ümdə əmiri (ümidətül-üməra) və ixtiyar sahibi olan *Yarməhəmməd Mirzə* ilə birlikdə, həmçinin *Şah Xacə, Şirəfkən Mirzə, Ərəb Atalıq və başqa yoldaşlar*
**s.706** *Baqi xan* tərəfindən məğlub edildikdən sonra şahın iqbal
**(495)** kölgəsinə və şahənşahın dünya boyda cah-cəlal fəzasına [sahət] gəlib sığındılar. Min onuncu pələng ilində (bars yil) onların iştirakı ilə xeyirli Bəlx səfəri baş verdi. O vaxt Allahın istəyi onlara sarı yönəlmədiyindən, yuxarıda yazıldığı kimi, sultanzadələrin mətləbi yerinə yetmədisə də, amma onlar həmin səfərdə iqbal ordusu ilə birlikdə iştirak etdilər.

Bu vaxt Yarməhəmməd Mirzə belə məsləhət gördü: Qoy sultanzadələrlə birlikdə Xorasana gedib Ğorçestanın bu dərgaha mənsub adamlarının zəbtində olan bə’zi mahal və qalaları Cahangir xana versinlər, bol məhsulu və mətin qalaları olan Ğorçestan vilayətinin və Xorasanın baqa yerləri ələ keçirilən əmirlərin əmin-amanlıq məkanına çevrilsin, onlar həmin yerlərdə səs-küy qaldıraraq özbək tayfalarını öz yan-

[1] Misranın farscası:

Rəft ta aləme-degər girəd.

larına dəvət etsinlər, əgər ləşkərin sayı ürək istəyincə çoxalarsa, fürsət tapıb Bəlxi ələ keçirsinlər. *Ə'lahəzrət irsi Azərbaycan və Şirvan mülkünün fəthi ilə bərk məşğul olduğu üçün* sultanzadələrin mətləbi onun tərəfindən dəstəklənmədi, o istəmirdi ki, müzəffər əsgərlərin və diyarın içləri ilə məşğul
**s.706** olduqları belə bir vaxtda Xorasan sərhədində fitnəkarlıq və qarışıqlıq yaransın. Şah bu məsələnin icrasını başqa bir vaxta saxladı və belə buyurdu: "İnşallah, asimanın köməyi və iqbalın gücü ilə Azərbaysan və Şirvanın işləri nizama düşər, rahat olarıq və [o vaxt] hümayun yürüş Xorasan istiqamətinə başlayar və sizin səfəriniz [tərəfimizdən] təsdiqlənər".

Yarməhəmməd Mirzə belə ərz etdi: "Bizə bundan yaxşı fürsət ələ düşə bilməz, çünki Baqi xan artıq aradan getmiş, [onun] qardaşı Vəli Məhəmməd xanın isə hələ müəyyən istiqaməti yoxdur, amma Mavərənnəhrdə onu böyük işlər gözləyir. Hələ məlum deyil ki, Bəlxin və bu tərəfin zəbt olunması mümkün olacaq, ya yox? Belə olan halda o vilayət asanlıqla ələ gələ bilər, bu işi ləngitmək olmaz". Hesabdanlıq aləmi və fəhm mülahizəsinə görə məsləhət toplantısı (kənqaş) keçirilməliydi və bu məsələ heç də uzaqda deyildi. O mülkün işlərindən xəbərdar olan Yarməhəmməd xan bu fikri düzgün saydı və [Bəlxə] getməkdə israr etdi. Həzrət zillələllah şah razılaşaraq, sultanzadələrə və yoldaşlarına qiymətli xələtlər, ənamlar və başqa zəruri şeylər verib onları mürəxxəs etdi. Xorasan bəylərbəyi Hüseyn xanın və başqa əmirlərin adına belə hökm (yərliğ) sadir oldu: "Sultanzadələrə izzət və ehtiram göstərilsin, layiqli xidmətlər olunsun. Bu dərgaha aid cəmşidi və başqa tayfaların əllərindəki bütün Ğorçestanın ülka və qalaları onlara verilsin, ehtiyaclarının rəf'i üçün kömək olunsun və onlar həmin vilayətə getsinlər". Sultanzadələr Naxçıvan yaxınlığında, Araz çayı kənarında ə'lahəzrətdən ayrılıb şadimanlıqla yola rəvan oldular.

Onların yoldaşlarından biri və olduqca etibarlı seyid [seydi] olan Şah Xacə hümayun ordudan ayrılmayıb qızılbaşlarla qaldı, Yarməhəmməd Mirzə də ali dərgahda işlərin əncamından və özlərinə köməklik yetirilməsindən ötrü Şah

Xacənin orduda qalmasına razılıq verdi. Onlar hələ Qəzvin darüssəltənəsindəydilər ki, rum sərdar və əskərlərinin cəng etmələri hadisəsi baş verdi, ə'lahəzrət qələbə çaldı, bu xəbərin səsi gedib Xorasana yetişdi. Yarməhəmməd Mirzə və yoldaşları qadınlarını Qəzvində qoyub Xorasana yollandılar. Hüseyn xan onları bir neçə vaxt Herat darüssəltənəsində saxladı və bütün ehtiyaclarını layiqincə rəf etdi. Min on dördüncü (1605-1606) at (yunət) ilində-müzəffər ordu Qarabağın fəthinə yollanıb Gəncə qalasının mühasirəsi ilə məşğul olduqda Hüseyn xan qızılbaş döyüşçülərindən, xüsusilə yüksək şamlı tayfa üzvlərindən ibarət bir qoşun sultanzadələrə verib onları Ğorçestana yolladı. Onlar bu xanədanın imdadı ilə o vilayəti ələ keçirdilər, Ğorçestanın böyük qalalarını fəth etdilər, bütün böyük adamlar gələrək Cahangir xan ilə görüşdülər, o qəbilələrin əksər həzarəcat və sədəcat* qaladarları və sərdarları onlara tabe oldular. Ləşkər və qoşunları gündən-gündən çoxalmaqdaydı. Buna görə də, Yarməhəmməd Mirzənin ürəyinə Bəlxə hücum fikri düşdü və yola rəvan oldu ki, bu haqda gələn ildə baş verən hadisələrin təsviri zamanı tezliklə məlumat veriləcəkdir.

s.707
(496)

## HÜMAYÜN ORDUNUN QARABAĞI TUTMAQ ÜÇÜN ƏRDƏBİL YOLU İLƏ HÜCUMU, ALLAH-TAALANIN KÖMƏYİ İLƏ GƏNCƏ QALASININ FƏTHİ

Ə'lahəzrət Təbriz və Kürdüstan sərhəddinin zəruri işlərindən xatircəm oldu və kürd əmirləri istər-istəməz bu vəlayət nişanlı xanədanın itaət dairəsinə qədəm basdılar. Düşməni
s.707 yandıran və dosta yanan xaqan kürd əmirlərinə qiymətli ənamlar və xəl'ətlər əta edib, hamıya geri qayıtma izni verdi və onların hər biri öz hökumət paytaxtlarına qayıtdı. Səfər və yasaq müddətinin uzanmasına baxmayaraq İlahinin köməyi ilə elə bir fəth baş vermişdi ki, adamlar ordunun vəziyyətini yaxşılaşdırmaq məqsədilə İraqa və öz vətənlərinə qayıtmaq istəyirdilərsə də, amma əmirlərin və dərgah adamlarının heç biri bu istəyi şaha izhar etməyə cürətlənmirdi. [Buna görə

də,] aləmi bəzəyən şahın rəyi belə oldu ki, Qarabağa, Gəncə qalalarının fəthinə və Şirvana yürüş edilsin. Bu yürüş qəzavü qədərin qələmi ilə cahanı tutan padşahın tədbir səhnəsinə elə nəqşlənmişdi ki, onun dəyişilməsi çətin bir məsələ idi.

Qışın şiddətli vaxtı və havanın olduqca soyuq keşən ceddi ayının əvvəllərində dağ və səhranın (hamun) dey ayının soyuğundan kürkə büründüyü, buludun isə səncab dərisindən papaq deyindiyi bir vaxtda torpağın buz bağlaması nəticəsində insanların isti bir yer və qışlaq arzuladıqları bir fəsildə heç kim inanmırdı ki, səfər və yasaq ehtimalı ortaya çıxa bilər. Amma ə'lahəzrət Təbriz darüssəltənətindən çıxıb atının cilovunu yuxarıda göstərilən istiqamətə tutdu.

Adlı-sanlı əmirlərdən Allahverdi xan qışda ləşkərini təchiz etmək və baharın əvvəlində təşkil olunmuş qoşunla yasaqa çıxaraq müzəffər düşərgəyə qayıtmaq üçün Farsa yollandı Hümayun orduda olan Xorasan əmirlərinin döyüşçüləri izn alıb həmin səmtə getdilər. Səfərin uzun çəkməsinə görə əldən-ayaqdan düşən bə'zi qalibiyyətli əsgərlər zərurət üzündən qışı öz vətənlərində qalmaq, yasaq zərurətini yerinə yetirmək və baharın əvvəllərində qayıdıb cahanı fəth edən orduya qoşulmaq üçün icazə aldılar. Sərhədi zəbt etməkdən ötrü Bağdada gedən Həmədan hakimi Həsən xan Ustaclını əlahəzrət o vaxt geri çağırdı və xan əmrə əməl edib başdan-başa qarlı yollarla, insan və heyvanlardan ötrü nahamvar olan üstü buz bağlamış torpaqlarla yıxıla-dura hərəkət edib özünü iqbalın yuva qurduğu astanaya çatdırdı.

Nəticədə hümayun ordu maneəsiz gedib Ərdəbil darülirşadına çatdı. Şah həzrət övliyalar sultanının və əzəmətli səfəvi şeyxlərinin məzarlarını ziyarət edib o mərhum əcdadlarının müqəddəs ruhlarından kömək xahiş edərək, mübarək ramazan ayının əvvəllərində həzrət Sultan Cəbrayılın dəfn olunduğu Kəlxarana yollandı və bir neçə gün həmin müqəddəs yerdə zəruri işlərini yerinə yetirməkdən ötrü dayandı.

O günlərdə baş verən hadisələrdən birisi budur: Şahın cəlal qulağına belə bir xəbər gəlib çatmışdı ki, Xorasan şəhərlərində hakimlər və başqa dövlət adamları tərəfindən

acizlərlə və onların əlləri altındakı adamlara zülm edilməkdədir. Ədalətli rə'y belə oldu ki, şaha yaxın işgüzar adamların biri və savab əhli olan katiblər (dəbiran) gedərək o vilayətin işlərini nizamlamaqdan ötrü bütün Xorasan məmləkəti vəzarətini təftiş etsinlər, israfçılıq və mənimsəmələri aşkara çıxarıb ədalətli tədbir görsünlər. Bu iş belə məsələlərdə iftixar sahibi olmaq səlahiyyəti hamıdan fərqlənən vəzirlər zümrəsindən olan və "Mirzaye-aləmiyan"[1] kimi xitab edilən bütün sərhədlərin vəziri ["vəzire-kolle – darülmərz"] Xacə Məhəmməd Şəfiyə məsləhət görüldü və onun sabiq mənsəbi üzərinə bu izzətli və uca mənsəb də əlavə olundu. Beləliklə, o vilayətin bütün yaxşı və pis işləri, əmələ və kəlantərlərin işdən çıxarılmaları və vəzifəyə təyin edilmələri ona həvalə edildi, onun qədir-qiyməti başqa vəzirlərdən fərqlənib yüksəklik zirvəsinədək ucaldı.

Bu il Azərbaycan hüdudunda məhsul azlığı olduğundan və qızılbaşların hücum və qarətlərindən Qarabağda rəiyyətin vəziyyəti pisləşdiyindən əkin əkilməmişdi, məhsul olduqca az qalmışdı. Əsgərlərin sayının azaldığına görə və bunun
**s.708** əvəzinə Azərbaycanın abadan yerlərinə iyirmi min xarvar[2] və yüz mən[3] ağırlığında məhsul verilməsindən ötrü divan işçilərinə hökm olundu ki, həddi-büluğa çatmış rəiyyət həmin
**s.709** məhsulu öz ulaqları vasitəsilə daşıyıb ali orduya gətirsinlər,
**(497)** onun yüz mən çəkisi olan hissəsini qalibiyyətli əsgərlərə beş min şahi dinarı məbləğində pula satsınlar. Sonradan yolun uzaqlığı və rəiyyətin mənfəəti nəzərə alındı və yüz mən məhsulun qiyməti bir İraq tüməni məbləğində müəyyən edildi, bu işiş əncamından ötrü mühəssillər* təyin olundu və göndərildi.

Belə işlərdən azad olan ordu Arasbara tərəf yollandı, ə'lahəzrət gəlib *Xələf bəy Süfrəçinin*** Araz çayının kənarındakı mənzillərində dayandı, oruc (ruze) tutduğu üçün orada

---

[1] Aləmdəkilərin mirzəsi – *Ş.F.*

[2] Xarvar – 300 kq. – *Ş.F.*

[3] Mən – Müxtəlif vaxtlarda Təbriz məni 3 kq, şah məni isə 6 kq. olmuşdur. – *Ş.F.*

qalaraq orucluq ayını keçirdi. O, elə həmin mənzildən Gəncə qalasının rum mühafizəçilərinə qiyamət gününün rəf olunma zərurəti barədə şahanə nəsihətlərlə dolu bir məktub göndərdi, paşa, qazi və müftiyə bildirdi: “Azərbaycan və Şirvan məmləkətləri bizim hümayun şahlarımızın irsi mülkləridir və cənnətməkan şahın vəfatından sonra [rumilər] sabiq əhd-peymanı pozaraq həmin yerləri işğal etmişlər. İndi isə biz Allahın köməyi ilə o torpaqların geri alınmasına başlayıb heç bir vəchlə əlimizi öz məqsəd ətəyimizdən çəkməyəcəyik. İndiyədək hücuma keçdiyimiz hər yerdə mətləbimizə çatmış, fəth və zəfər qazanmışıq. Rum sultanı tərəfindən sərdar olan Cığaloğlu ağır qoşunla bu diyara gəlib çatmışdı, lakin hamıya mə’lum olduğu kimi o, qeybdən gələn döyüşçülərin köməyi ilə əzildi. Daha bu il sizə heç yandan kömək gələ bilməz. Buna görə də, siz bizə müxalif olmaqdan və qala hifz etməkdən əl çəkin və bu işi həyata keçirmək şər’ən əqlən sizə lazımdır. Düzgün yol budur ki, öz taleyinizi düşünərək, işinizdə aqilanə hərəkət edib həyatınızı əldən verməyəsiniz. Əgər kim bu diyarda qalmaq istəsə, şahanə mərhəmətə nail olmaqdan ötrü arxayınlıqla cahanpənah dərgaha gəlməyə tələssin, çıxıb getmək istəyənsə qalibiyyətli əsgərlərdən heç bir zərər görmədən var-dövləti və əhl-əyalı ilə öz diyarına tərəf getsin. Yox əgər bizim faydalı nəsihətimizi qəbul etməyib qala qapılarını hümayun üzümüzə bağlasanız və müzəffər əsgərlərimizə top-tüfəng atəşləri yağdırsanız cəng, savaş və inadkarlığınız nəticəsində əziləcəksiniz və o zaman sizlərə ümidsizliyin imanı olan aman verilməyəcəkdir, qaladakılara qiyamətəsər ləşkərimiz tərəfindən hər cür zərər yetiriləcəkdir ki, bunun günahı (vəbal) sizin öz boynunuza olacaqdır”.

Bu səadət məktubunu yollayan şah Araz çayını keçərək, qala camaatının qəflət yuxusundan ayılıb, əmin-amanlıq və səlamətlik yoluna düşəcəyini güman etdi, yavaş-yavaş oradan çıxdı və ov edə-edə irəliləməyə başladı. Amma, o qızğın talesizlər və kinli bəxtidönüklərin ətəyi cəhalət və qürur tikanına ilişdi, onlar ruzgar inadkarlarının qulaqlarında sırğa ola biləcək şahanə nəsihətləri və mürşidanə məsləhətləri qulaq

ardına vurub qala qapılarını bağladılar, möhnət və bəla qapılarını üzlərinə açdılar, müdafiə və qaladarlıq işinə başladılar. Həmin nəsihətlərin onlara heç bir faydası olmadı, nəticədə inadkarlığın cəzasına məruz qaldılar ki, bu haqda gələcəkdə məlumat veriləcəkdir.

Bu ilin sonunda baş verən hadiıələrdən biri də ə'lahəzrət Qarabağa gedərkən, Gürcüstanın Kaxet əyalətinin hakimi *Aleksandr xanın* öz nəvəsi Təhmurəslə əvəz olunmasıdır. Hadisənin şəhri belədir: Şah ordusu Kürəkçayda dayanarkən, Küstəndil xana qarşı çıxıb onun dəfinə çalışan gürcü böyüklərinin aznaurları aləmpənah dərgaha gələrək öz itaətlərinin bildirdilər, qüsurlarının əfv olunmasını xahiş etdilər və dedilər: " O vilayət hakimliyinə şaha xidmət etmiş *Təhmurəs ibn Davud xan ibn Aleksandr xan* təyin edilsin, [belə olarsa, biz] ətəklərimizi belimizə yığıb, Təhmurəs xanın mülazimi kimi bizə buyurulan hər bir işi səmimi – qəlbdən yerinə yetirərik". Şahın lütfkarlığı gürcülərin vəziyyətinə münasib görüldü və o, onların təkliflərini qəbul etdi. Belə qərara gəldi ki, Aleksandr xanın indiyədək Gürcüstanda əsir kimi saxlanılan iki nəvəsi onların sədaqətinin ifadəsi kimi aləmpənah dərgaha gətirilsin və beləliklə gürcü böyüklərinin etdikləri bəd əməl-
**s.709** lərin üstündən əfv qələmi çəkilsin, barəsində söz gedən oğlanların gətirilmələrindən sonra Təhmurəs xan onlarla birlikdə Gürcüstana rəvan olsun.

Ə'lahəzrət gürcülərin arxayın olmalarından ötrü xoşbəxt bir vaxt [saət] təyin edərək qəhrli dövlət başçılarını və adlısanlı əmirləri öz hüzuruna çağırdı. Onun behişt ayinli məcli-
**s.710** sində şahanə bir bayram təntənəsi keçirildi, Təhmurəs yüksək
**(498)** "xan" ləqəbi ilə Gürcüstana hakim təyin edildi.

Gürcülərin qayda-qanunları belədir ki, əgər o xanədanın şahzadələrindən biri öz irsi mülkündə taxta cülus edərsə, onların xristian mürşidlərindən olan bir rahib gürcü mötəbərləri və ağsaqqalları ilə birlikdə yeni hakimin önündə qızıl saplarla toxunulmuş bir xalça açaraq onu həmin xalçanın üstündə əyləşdirirlər, hər bir gürcü əyanı isə içərisi qırmızı və ağ qızılla dolu bir tabağı ələ götürüb şahzadənin ayağı

xalçaya dəyən kimi qızılları onun başına yağdırırlar, sonra önündə diz çökərək ona kasa təqdim edirlər və o da öz tərəfindən hər məclis əhlinə kasa paylayır.

Beləliklə, səltənət xalçasının gürcüləri öz qayda-qanunlarına uyğun olaraq Təhmurəs xanın qabağında səltənət xalçası açdılar, xan kamran və kamyab padşahın əmri və işarəsi ilə həmin xalça üzərinə çıxdı, gürcülərsə tabaqlardakı qızılları onun başına səpdilər.

Ə'lahəzrət [gürcülərin] bu qayda-qanunu barədə məlumatlandıqdan sonra böyük iltifatla əmr etdi ki, əvvəlcə qoy qarşı tərəf bu mərasimi davam etdirsin, sonra ə'lahəzrətin özü bir tabaq zər və cəvahiri Təhmurəs xanın başına səpdi. Adlı-sanlı əmirlər və İrəm* kimi bəzəkli bu məclis iştirakçıları da hərə öz imkanı müqabilində xanı təbrik etdi. Gürcü böyükləri də xana ağ və qırmızı pullar nisar edib qaydaya uyğun olaraq kasa verdilər və kasa aldılar. [Gürcülər] həmin gün əlahəzrətin şərəfinə böyük işrət büsatı qurdular və şah nəğmə oxumaqdan və qeyri adi söhbətlər etməkdən xali olmayan məclisdə işrətlə məşğul oldu. O tayfa üzvlərinin hər biri şahanə hədiyyələr və qiymətli xəl'ətlərlə sərəfrazlandı və izn alıb məclisi tərk etdi.

Gürcülər qayıtdıqdan sonra [ordu] oradan çıxdı və hut[1] ayının əvvəlində həqiqət axtaranların rəhbəri (qüdvətül – mühəqqeqin) mərhum *Şeyx Nizaminin türbəsinin* yani – Gəncə şəhərinin kənarı cah və calal xeymələri ilə doldu. Ə'lahəzrət Bərxudar bəy Ənis Topçubaşıya əmr etdi ki, Bərgüşadda hazırladıqları top qəliblərini gətirib top tökməyə başlasınlar. Qərçiqay bəyə və bə'zi əmir və ə'yana isə hökm olundu ki, qala ətrafında kəşfiyyat aparıb, ali ordunun yerləşmə məkanını və seybə yerlərini müəyyənləşdirsinlər. Müxaliflərin qalaya giriş-çıxış yollarını bağlamaqdan ötrü əvvəlcə qala darvazalarının önündə bir hasar ucaltdılar və *Əlixan Müvafiq və Qənbər bəy Səlihdarbaşı* bir dəstə qulam və tüfəngçilərlə həmin divarın mühafizəsinə başladılar. Top qəliblərinin gətirilməsi və seybə ləvazimatının hazırlanma-

[1] İran şəmsi ilinin on ikinci ayı (fevral – mart)

sından ötrü bir neçə gün orada dayandılar, il başa yetdi və novruzun şahanə ulduzu bir daha aləmi işıqlandırdı.

**Hind padşahı Əkbərin vəfatı:**

Bu il baş verən hadisələrin biri də uca məqamlı *Cəlaləddin Məhəmməd Əkbər padşahın vəfatıdır*. Hadisənin şərhi belədir: Bu il ali məqamlı [Əkbər padşah] – geniş Hindistan məmləkətlərinin hökmranı, o dudman dövlətinin mərkəzi olan Aqra (Əqrə) şəhərində xəstələndi, natrəvanlıq yatağına düşdü. [Quranın] qiymətli ayəsində buyurulduğu kimi "əgər onların əcəli çatarsa, nə bircə saat ondan önə keçə, nə də geri qala bilərlər"[1] təbiblərin müalicəsinin faydası olmadı, fani aləmi tərk edib ölməz cahana tələsdi. Kamkar və ad-sanlı şahzadə olan şahzadə Səlim – padşahın böyük oğlu elə həmin günlərdə atası ilə görüşməkdən ötrü Allahabaddan çıxıb Aqraya gəlmişdi. O, hələ çayın kənarına gəlib çatmışdı ki, bu dəhşətli (hayele) hadisə baş verdi. Əksər əmirlər və dövlət əyanları o vaxtlarda öz izzəfli və böyük babasının yanında yaşayan Sultan Xosrovun – Şahzadə Səlimin oğlunun padşah
s.710 olmasını istəyirdi. O sülalənin mötəbər əmirləri Şeyx Fərid Bəxşi və dövlətin bir-iki ağıllı başçısı həmin əmir və ə'yanlara qarşı çıxaraq, şahzadə Səlimin yanına getdilər, onunla görüşdülər. [O vaxt] başqa əmirlərə və dövlət başçılarına zahir oldu ki, böyük oğulun sağ olduğu halda oğulzadənin (pesərzadə) taxta çıxarılması çətin ola bilər. Onlar həmin istəkdən daşındılar və Şah Səlimin hökmdarlığına razı oldular. Padşah olmaq iddiasında olan *Sultan Xosrov* vəziyyəti belə görərək fərar etdi, Lahur və Pəncab tərəfə getdi, Şah Səlim isə işıq və külək sürəti ilə oğlunun ardınca yollandı. Lahur hüduduna gedib çatan Sultan Xosrova ciqatay, həzarə*, qarabəxt əfqan, racput və başqa tayfalar birləşməyə başladılar və onun yanında iyirmi min nəfərədək adam toplandı. Elə o vaxt da münqəlayı Şeyx Fərid olan Şah Səlim qoşununun işartısı göründü. Şahzadə və onun yoldaşları çilovdan yapışdılar, tərəflər arasında səflər bəzəndi və ağır bir hərb başlandi.

---

[1] Ayənin ərəbcəsi: "izə cə'ə əcəluhum lə yəstə'xirunə saatən və lə yəstəqdimunə"

Şah Səlimin döyüşçüləri arxadan dəstə-dəstə gəldikləri üçün şahzadənin tabeliyində olanlar döyüşə bilmədilər, onların əksəriyyəti qaçış yoluna düşdü. Bir azacıq əl-qol atan racput tayfasının çox hissəsi ədəm diyarına göndərildi, şahza-
**s.711** dənin qisməti bədnam məğlubiyyət oldu, arxasını döyüş
**(499)** meydanına çevirib fərar etdi. O, Lahur çayı kənarına çataraq oranı keçmək istərkən gəmi sahibləri onu tanıdılar və bu haqda Lahur hakimi Qılınc (Qilic) xana xəbər verdilər. Mehribanlıq göstərən və ürəkaçan vədlərlə Sultan Xosrovu arxayınlaşdıran Qılınc xan onu öz yanına gətirdi, [amma] hümayun fallı padşah məiyyəti gəlib yetişdikdən sonra şahzadəni padşaha verdi, Şah Səlim zəfərlə Aqraya qayıtdı, səltənət və hökmranlıq taxtına əyləşdi.

*Mir Fani təxəllüslü Seyid Məhəmməd Kirmani* bu hadisənin [maddeye-] tarixi barədə söyləmişdir:

**Q i t' ə**

*Səxavət bəhri idi, getdi böyük Əkbər şah,*
*Amma ki, tifli – təmannası*[1] *onun qaldı yetim.*

*Xəbər aldım öz – özümdən :* "*Görəsən dünyadə*
*Mənə rəvamı olar tarixin edim tərqim*"?[2]

*Ürəyim etdi dua, verdi cavabım şəstlə,*
"*Əvəz etdi, – dedi, – Əkbər şahı şahzadə Səlim*"[3]

Başqa bir [maddeye-] tarix Xacə Şueyb Cuşqani tərəfindən nəzm olunmuşdur, amma bir qədər nöqsanlıdırsa da həmin ölüm tarixinə se'rin başlanğıcında [belə] işarə olunmuşdur:

---

[1] Tifli – təmənna, yəni təmənna tifili – Ş.F

[2] Təqdim etmək, yəni yazmaq – *Ş.F.*

[3] Qitənin farscası:

Şəhe-boləndməkan, bəhri – cud Əkbər şah
Berəft-o tefle-təmənna be dəhr mand yetim.
Soal kərdəm əz del ke dər səhifeye-dəhr
Rəva bovəd ke konəm sale-fovte-şah tərqim?
Cəvab qoft "be rəsme-doa bequy delir:
– Be caye Əkbər şah padşahzadə Səlim".

*Din və dövlət cəlalı Şah Əkbər*
*Göyə qaldırdı uca xərgahın*[1]*...*
*... Yıxılan vəqhtdə şahlıq agacı*
*Oldu fövt*[2] *tarixi Əkbər şahın*[3]

İnanılmış [səqat] adamlardan belə eşidildi: Sultan Xosrovun diri götürülmüş bir dəstə fitnəkar döyüşçüsü xüsusunda dara çəkilmə hökmü [hökme-səlb] sadir olundu və onların hamısını ibrət darından asdılar. Şah Səlim oğluna dedi ki, qoy dara çəkilmiş adamların yanına gedib öz bəşkərini necə bəzədiyini seyr etsin [təyərroc] Sultan Xosrov isə cavabında dedi: "Günahkar mənəm. Dara çəkilib cəzalandırılası şəxs də elə mən özüməm İbrət darında məni asmaq lazımdır. Onların
s.711 günahı yox idi Xahiş edirəm ki o, həzrət bu günahkarı da xəcalət möhnətindən və utanmaqdan [enfeal] xilas etsin". Şah Səlim ona rəhm etdi və qanından keçdi, gözlərinə mil çəkdi, amma, Sultan Xosrovdan qorxub onun padşahlığını istəyən başqa dövlət başçıları və əmirlərlə yaxşı davrandı və onlardan intiqam alınmadı. Şahzadəni isə hərəmxananın etibarlı adamlarına tapşırıb orada saxlayırdılar. Görünür ki, şahzadənin gözünə çəkilən mil onun gözünə elə də çox ziyan vurmadı, o yenə də görürdü. Hərçənd ki, bu əhvalatın yazılmasının İran və İranlılara dəxli yoxdur, amma çox böyük əhvalat baş vermişdi. Həmin sülalə ilə bu vəlayəfnişan dudman arasında gediş-gəlişin və əlaqənin tarixi çox qədimdir. Buna görə də, yuxarıdakı əhvalatın yazılmasının heç bir ziyanı olmayacaq və bu cildin [səhifə] müəllifi e'tirazla qar-
s.712 şılanmayacaqdır.

---

[1] Xərgah – şahlıq çadırı
[2] Fovt – ölüm
[3] Qit'ənin farscası:

Şah Əkbər cəlale-dövlət-o din
Ke zəd əz qorbe-qədr bər fələk xərgah...
...Nəxle-şahiş çon ze pa oftad
Gəşt tarixe-fovte-Əkbər şah

## TÜRKİ TARİXLƏ XOŞ AMALLI AT İLİNDƏ – HİCRİ TARİXLƏSƏHÜMAYUNŞAHINMÜQƏDDƏSCÜLUSUNUN İYİRMİNCİ İLİ OLAN MİN ON BEŞİNCİ İLDƏ (1606/1607) BAŞ VERƏN HADİSƏLƏR, GƏNCƏ QALASININ FƏTH EDİLMƏSİNİN BƏYANI, RUMİLƏRİN VƏZİYYƏTİ VƏ O XOŞBƏXT DÖVRDƏ BAŞ VERƏN [BAŞQA] HADİSƏLƏR

Hümayun fallı at ili başlandı, ürəkaçan bahar aləmə novruz xosrovunun qədəmləri ilə qalibiyyət və xoşbəxtlik müjdəsi verdi, cahan başdan başa baharın lətafəti ilə cənnət bağçası kimi təzədən təravətləndi. Havasının rütubətli olması səbəbindən gözəl Qarabağ vilayəti həmişəbahar təbiətlidir, fərəhartıran bağ kimi yam-yaşıldır və burada yay və qış [isti və soyuq – *Ş.F.*] yanaşıdır. Qarabağın paklığı və yaşıllığı barədə *məşhur söz ustadı olan mərhum Şeyx Nizami* belə demişdir:

**N ə z m**

*Nə xoşdur Bərdə mülki, seyr edin bir,*
*Nə gülsüz ordibeheştdir[1], nə deydir[2]*
*Təmuz[3] olcaq, dağı gül bu diyarın,*
*Qışında var nəsimi novbaharın.*
*Tamam il boyu yamyaşıldır bağı,*
*Həmişə təravətlidir torpağı.[4]*

---

[1] Ordubeheşt – İran günəş ilinin ikinci ayı (aprel-may)
[2] Dey – Yeni günəş ilinin onuncu ayı (dekabr-yanvar)
[3] Təmuz – Suriya təqvimi üzrə onuncu ay (iyun-iyul)
[4] Nəzmin farscası:

Xoşa molke – Bərde ke eqsaye – vey
Nə ordibeheştəst bi qol, nə dey.
Təmuzəş qole-kuhsari dehəd,
Zemestan nəsime-bəhari dehəd.
Həme sale reyhane-u, səbzşax,
Həmişe dər naz-o neməte-fərax.

Dördüncü iqlimin basıuca sultanı [olan günəş] asimanın ulduzları ilə birlikdə aləmi bəzəyən ayağını izzət və şərəf taxtına basdı, yəni Yunis* kimi hut [ayının] gizləndiyi yerdən (nihanxane) çıxıb həməl ayının şadimanlıq yerinə (tərəbxane) getdi və zəfərli novruz ziqədə ayının on beşinə (14 mart, 1607), şənbə gününə təsadüf etdi, qoca dünya təzədən öz cavanlığına başladı.

**B e y t [l ə r]**

*Yer yenə başladı öz şənliyinə,*
*Əsdi səba yeli hər yerə yenə.*
*Gül yenə başladı cilvəgərliyə*
"*Bütün gözəllərdən üstünəm*" *deyə*
*Meyxana sahibi qaçdı mey sarı,*
*Gənclərin bəxti tək açdı camları.*[1]

Qiymətli ordu Şeyx Nizaminin məzarı yaxınlığında dayandı və elə oradaca novruz bayramı keçirildi, işrət büsatı bir neçə gün davam etdi. Sonra qalanın fəth olunmasından ötrü oradan çıxıb qala ayağına gəldilər. Seybə çəkilişi müəy-
**s.713** yənləşdirildi və lləşkərin hər təbəqəsi öz murçəllərində [səngər – *Ş.F.*] yer tutdu. Öz ev-eşiklərinə getmiş olan müzəffər əsgərlər günbəgün gələrək mühasirə işinə və onlara tapşırılan başqa xidmətlərin icrasına başladılar. Topçular top tökməyə iqdam etdilər. Qala əhli isə inadkarlıqdan əl çəkməyib müdafiə olunmaqda və qaladarlıq etməkdə idi. Onlar hümayun ordu üzərinə top, tüfəng və badlic [kiçik top – *Ş.F.*] gülləri yağdıraraq, bacardıqları qədər öz qaladarlıqlarını davam etdirirdilər. Onların və qızılbaşların arasında sülh qapılarının tamamilə bağlanması və rumiyyənin cəngə daha

---

[1] Beytlərin farscası

Baz cəhan-ra tərəbağaz şod,
Bade-səba ləxləxepərdaz şod.
Şahede-qol celvegəri saz kərd,
Bər həme xubane-cəhan naz kərd
Pire-moqan əz meye-çon ərğəvan
Cehre bərəfruxt ço bəxte-cəvan

böyük çalışqanlıqla qatılmasından ötrü rumilər, yuxarıda qeyd etdiyimiz kimi, döyüş zamanı tutulan və iki il qalada məhbus olan *Rüstəm Sultan Sugələn Zülqədəri* mühasirə zamanı qətlə yetirdilər. Onlar həmçinin, şahın ana tərəfindən qohumu və böyük mirlərdən biri olan, asimanın təqdiri ilə Gəncə şəhərinə gələn, rumilər tərəfindən tutulub qalaya aparılan izzətli və möhtərəm Mazandaran seyidlərindən birini – o əziz, günahsız və talesiz seyidi də Rüstəm Sultan kimi öldürdülər. Qapılar açarı olan [müftahül-əbvab], minnətsiz bağışlayan, bəxt və səadət qapılarını açan həzrət [yəni Allah-taala – *Ş.F.*] hümayun ruzgarın səadətli üzünə fəth qapılarını açaraq səltənət, cahandarlıq, əzəmət və kamkarlıq açarlarını əbədi hakimiyyət sahibləri olan uca dövlət övliyalarının bacarıq ovcuna və bilik qəbzəsinə verdi, o tayfanın [rumilərin – *Ş.F.*] sə'ylərinin heç bir təsiri olmadı və nəticədə onlar qaçılmaz inadkarlıq və uğursuzluq bədbəxtliyinə giriftar olaraq özlərinin cavabsız əməllərinin cəzasına çatdılar.

Məsələnin qısa xülasəsi belədir: Mühasirədə duran Bəhram intiqamlı əsgərlər fərmana müvafiq olaraq seybələrin toplarını hazırlayıb onları top atma yerinin yaxınlığındakı xandağa kimi irəli apardılar və yerləşdirdilər. Tərəflər arasında üç ayadək savaş atəşi alovlandı. Rumilər birdən-birə ürəklənərək, Zülfüqar xanın seybəsinə hücum etdilər, bundan xəbərsiz xan adamları ilə bacardıqları kimi vuruşub bir neçə nəfəri öldürdülər. Sonra bir-iki dəfə də Həsənxan Ustaclının seybəsinə əl uzadıb döyüşdülərsə də, heç nə edə bilməyərək, kor-peşiman geri qayıtdılar. Qızılbaşlar dördüncü ay artıq döyüşə hazırladıqları böyük topları münasib yerə qoyub atəşə başladılar, bürc və barı bünövrələrini laxlatdılar. Bu işlər baş verən vaxt Allahverdi xan da süvari ləşkəri ilə gəlib çıxdı, qalanın şərq tərəfində dayandı, seybəsini irəli apardı. Mühasirədə qalan rumilərin vəziyyəti hər tərəfdən pisləşdi, iqbal dəstəsinin mübarizləri olan qorçi, qulam və başqaları xandaqlara lağım ataraq onları bürc və barıların dibinə çatdırdılar. [Qızılbaşlar] qalanın bir tərəfindəki divarın təxminən beş yüz zər' uzunluğundakı hissəsində sütunlar dikəldib

onlara od vurdular, nəticədə divarda çatlar peyda oldu. Hücuma keçən rumilər həmin çatların qarşısını tüfəngçilərin atdıqları güllələrdən xilas etməkdən ötrü çox çalışdılarsa da, buna nail ola bilmədilər. Qaladöyən toplar onların möhkəm dövlət divarlarını lərzəyə gətirir, atəş yağdıran güllə sədaları isə rumilərə dəmbədəm əcəl salamı aparırdı. Qalaalan igidlərdən əvvəlcə əzəmətli qorçilər dəstəsi başqa bürclərdən ən möhkəmi olan və mühasirədə qalanların ümid etdikləri Çahartaq adı ilə məşhur olan bürcə hücuma keçdilər. Mühasirədəkilərin, güllələri onların başlarına dolu kimi yağdırmalarına baxmayaraq, qorçilər qətiyyən qorxmadılar, mərdanəliklə bürcün yuxarılarına doğru yüyürməyə başladılar. Rumilər isə atəşbazlığa başlayaraq neft və barıt fitillərini (qarurə) onların başlarına yağdırırdılar. Bə’zilərinin üzü, bə’zilərinin saçı yanan altmış-yetmiş nəfər qorçi elə hala düşmüşdü ki, saqqallının və saqqalsızın fərqi bilinmirdi. Qızılbaşlardan bir neçə nəfəri ədəm yoluna yollandı.

Xülasə, rumilərin müdafiə məqsədilə öz maneçilik başla-
**s.714** rını qaldırmalarına baxmayaraq bundan heç nə çıxmadı, sübhdən axşamadık döyüş beləcə davam etdi. Axşam vaxtı qorçilər hücuma keçdilər. Onların bir neçə nəfəri bürcə qalxaraq, o hündür məkanı rumilərin əllərindən aldılar. Amma bürcün belə itkilər hesabına ələ keçirilməsi hümayun məzaca
**s.715** müvafiq deyildi, çünki, şahpərvər bir adam kimi həmin
**(501)** döyüşkən şəhidlərin bircəsini on qalaya bərabər tuturdu və istəmirdi ki, onlar qala cəngində həlak olsunlar [Buna görə də] əlahəzrət qorçibaşlıya öz etirazını bildlrib onu danlamağa başladı. Amma, nəhayət əzəmətli qorçilərdən o gün elə mərdanəlik görsəndi ki, top, tüfəng və atəşli qarurələrdən onlara dəyən sədəmələrə baxmayaraq, bürcü əllərindən vermədilər. Onlar müəyyənləşdirdilər ki, bu cəngdə təxminən yüz əlli rumi yaralanmış, həftad-həştad nəfərsə öldürülmüşdür. Xasseyi-şərifə qulamları da öz seybələrindən hücuma keçərək şirhacı bürclərinin iki-üçünü tutdular, əsl qala divarını uçurmağa başladılar.

**Gəncə qalasının fəthi.**

Rumilər müzəffər qoşunun qüvvə və qüdrətini, özlərininsə zəifliyini müşahidə etdilər. Mühasirədə qalıb qaladarlıq etdikləri bu dörd ay ərzində heç yandan kömək gəlmədiyindən və hər tərəfdən bəla gəldiyindən onlar çarə axtarmağa başladılar.

*Amma Məhəmməd* paşa adlı qala hakimi rumiləri möhkəm dayanmaya və qaladarlığı davam etdirməyə tərğib etməkdə idi. Amma, iş-işdən keçdi. İqbal döyüşçüləri şirhacının bürclərindən aşaraq öz mərdanəlik qədəmlərini irəli atdılar. Rumilərin müdafiə olunma cəhdlərinə baxmayaraq bunun heç bir faydası olmadı. Qəhrli əsgər dəstələrindən biri igidliklə qala bürclərinə qalxdı və iki-üç möhkəm bürc qazi və qulamların əlinə keçdi. Mühasirədəkilər hamılıqla "əlaman" fəryadı qopardılar, şahın yanına adam yollayaraq öz qüsur və ədəbsizliklərinin əfv olunmasını xahiş etdilər.

Elə vəziyyətin başlanğıcından etibarən rumilərin sübutları əsassız sayıldığından və onların üsyan və ədəbsizlikləri həddini aşdığından ə'lahəzrət deyilənlərə elə bir etina göstərmədi. Ertəsi gün səfər ayının iyirmi səkkizi (5 iyul, 1606) və düşənbə günü idi. Paşa və rumi böyükləri qaladan çıxıb öz xəcalət səcdələrini təqdim etdikdən sonra axşam çağı rüxsət alaraq öz mənzillərinə getdilərsə də, qala müdafiəsindən əl çəkib qapı açarlarını xasseyi-şərifə qulamlarına təhvil verdilər. Şahın əmrini alan Qərçiqay bəy bir dəstə qulamla o gecə qalanın keşiyində durdu, ertəsi gün isə qala əhlinin siyahıya alınması keçirildi.

Rumiləri dəstə-dəstə şahın qarşısından keçirirdilər. [Sonra] mallarının və silah-sursatlarının zəbt olunmasından və ələ keçirilən şeylərin iqbal döyüşçüləri arasında mümkün olduqca düzgün bölüşdürülməsindən ötrü rumiləri qazilərin və qulamların ixtiyarına verdilər. Məhəmməd paşa əslən təbrizli idi. O, uşaqlıq əyyamında rumilərin içərisinə düşərək, Van hakimi *Əhməd paşanın* yanında xidmət etmiş, öz səyi və bacarığı ilə hakimlik və paşalıq rütbəsinə çatmışdı. Təbrizlilər bu paşaya qarşı olan inamsızlıqlarının çoxluğundan paşanın onlara verilməsini və paşanın özləri tərəfindən cəzalandırıl-

masını xahiş etdilər. Rüstəm Sultan Sugələnin oğlanları da atalarının qanını almaqdan ötrü paşanın onlara təhvil verilməsini istədilər, amma ə'lahəzrət paşanın yüksək mövqeyini nəzərə alıb onu mazandaranlılara tapşırdı, mazandaranlılar da paşadan həmin əziz və günahsız seyidin qan qisasını aldılar. Qalanın fəthindən əvvəl oradan çıxıb şahsevənlik izhar edən rumiləri əfv edərək bağışladılar, yerdə qalanlar isə müzəffər qazilərə giriftar oldular. Allah-taala tərəfindən qəddar rumilərin fənaya getmələri və edam olunmaları müəyyənləşdirilmişdi. O diyarın [Gəncənin – *Ş.F.*] bə'zi camaatı xəyanət eləyib rumilərin xidmətinə keçdiklərindən onlar
**s.715** barəsində şahın qəzəb atəşi elə alovlandı ki, o alov fəqət gözlərini o qantutanların qanlarının axıdılması ilə sönə bilərdi.

Buna görə də, *Həsən çayı* adlı yerdə qəza qəhrəmanının fərmanı və ilahinin hökmü ilə onların qətlinə başlanıldı və hamısı bütünlüklə fəna qılıncından keçirildi, təxminən iki min beş yüz nəfər intiqam xəncəri ilə öldürüldü. O vəhşətli yerdə ölülərdən təpələr yarandı. Ad – sanları olmayan az miqdar adam isə rəhmə gəlib ölümdən nicat tapdı. Ordudakı istedadlı şəxslər qala fəthi xüsusunda yaxşı maddeyi-tarixlər qələmə aldılar, nəzm etdilər. O cümlədən şirin sözlü və *xoş təbiətli şair Mirzə Əhməd Küfrani İsfahaninin nəvəsi Ziya Nurullahi* də bir [maddeyi-] tarix yazdı ki, həqiqətən də, həmin şe'rin tə'sir ziyası işıqlandı, şe'rdəki fikir həyata keçdi və bu qalanın fəthi Şamaxı fəthinin açarı oldu.

**[Maddeyi]-tarix**

*Əzəl təqdiriylə rəbbül – aləmin*
*Zəmanə şahının mülki çoxaldı.*
*Başvermə tarixi Gəncə fəthinin*
*Şamaxı fəthinin açarl oldu.*[1]

---

1 Maddeye – tarixin farscası:
Mennət xoday-ra ke be eqbale-bizəval
Molke-şəhe-zəmin – o zəman dər fəraxiəst,
Əz bəske nosrət əz peye-nosrət həmirəsəd
Tarixe-fəthe-Gənce kelide-Şəmaxiəst.

s.716 (502)

## GƏNCƏ QALASININ FƏTHİ VƏ QARABAĞ MÜLKÜNÜN ƏLƏKEÇİRİLMƏSİNDƏNSONRABAŞVERƏNMÜXTƏLİF HADİSƏ VƏ QƏZİYYƏLƏRİN ZİKRİ LORI, TİFLİS VƏ TUMANUS QALALARININ ZƏBT OLUNMASI

Gəncə qalasının fəthindən sonra *Hüseyn xan Qacar* tərəfindən bə'zi yersiz hərəkətlər baş verdi. Qarabağ camaatı da onun qaba davranışından şikayət etməkdə idi. Ədalətli rə'y onu e'tibar nəzərindən kənarlaşdırdığı üçün o vilayət, keçmişdəki bə'zi fəaliyyəti barəsində [oxucuya] məlumat verdiyimiz *Məhəmməd xan Ziyadoğlu Qacara* verildi. [Beləliklə] Qarabağın işlərinin tənzimlənməsindən sonra ali məqsəd Lori, Tiflis və Tumanus qalalarını ələ keçirmək olduğundan, iqbal qoşunu o səmtə yollandı. Ordu ***Ehsanabadda*** dayananda qala mühafizəçilərinin ürəyinə elə təşviş və qorxu dolmuşdu ki, müxalifət və qaladarlıq etmək heç kimin xəyalına belə gəlmirdi.

Əvvəlcə, indiyədək rumiyyənin tərəfində dayanan və onlardan heç cür ayrıla bilməyən *Lori hakimi Məhəmməd paşa Qazaqlar* istər-istəməz ali şahın yanına özünün bir etibarlı adamını göndərdi. O, dərgaha yaxın şəxslərdən biri olan *Məhəmməd bəy Bigdeli Şamlı* vasitəsilə tabeçiliyini ərz edib "istiğfar" kəlməsi ilə özünün zar dilini açdı və fikrini belə bildirdi: "Əgər bu məzlumun sabiq günahları xilaskar şəhriyar tərəfindən əfv olunarsa, başımı ayağa çevirərək o dərgahın torpağını öpməyə gələrəm".

Məhəmməd bəyin sədaqətlə etdiyi və'd o xosrovun işıqlı feyzinə təsir etdiyindən onun günahının bağışlanması qərara alındı, şah bəyin göndərdiyi adamlara şahanə və'dlər verdi. Məhəmməd bəy bəxş olunma müjdəsini aldıqdan sonra ümid və qorxu ilə dolu ürəklə o amal Kəbəsinə tərəf yollanıb ali orduya daxil oldu, əmirlərin və yaxın şəxslərin vasitəçiliyi
s.716 ilə behişt ayinli məclislərdə iştirak etmək səadətinə yetdi, inayət və iltifata nail oldu. Ona şah tərəfindən qiymətli xələt-

lər, daş-qaşla bəzənmiş tac, kəmər, yəhər və başqa qiymətli şeylər bağışlandı. Məhəmməd bəy Lori qalasının açarlarını dərgah adamlarına verdi və şah tərəfindən oraya qalanın mühafizəsi, topxana və yaraq-yasaqın zəbtindən ötrü adamlar göndərildi. Nurlu xatir artıq Lori qalasından xatircəm olduğundan hümayun yürüşün Tiflisə və Tumanusa tərəf yönəlməsi qərara alındı.

Bu hadisələr baş verən vaxt Tumanus qalasından üzrxahlıqla dolu bir məktub gəldi. Məktubda xahiş olunurdu: "Əgər müzəffər qızılbaş ləşkəri tərəfindən onlara bir xətər dəyməzsə və biz qiyamət təsirli şahanə qəzəbə düçar olmasaq qalanı təslim edib, öz acizlik üzümüzü başı fələyə çatan iqtidar dərgahına tərəf tutub gələrik". Onlara xosrovanə mərhəmət və şahanə iltifatla dolu bir məktub göndərildi. Orada yazılmışdı: "Rumilərdən kimsə orada qalmaq istərsə, rumiyyə hakimiyyəti vaxtında onlara verilən ülufə və başqa qayğılarla yenə də tə'min olunacaqlar, yox əgər Rum diyarına qayıtmaq istəyən olarsa, qoy öz əhl-əyalı, ərzağı və malları ilə rəvan olsun. Onlara ləşkər əhli tərəfindən heç bir zərər toxunulmayacaqdır".

Tumanus qalasını qoruyan rum camaatı [ərvam] bu sözləri özlərinin nicat sərmayəsi kimi başa düşüb, ümid üzlərini cahanpənah dərgaha tərəf tutdular və qiymətli xələtlər və bol nəvazişlərlə qarşılandılar. Getmək istəyənlərə adam qoşub onları sağ-salamat rəvan etdilər, qalmaq istəyənlərin də arzuları ürəklərinin istəyincə təmin olundu.

Əzəmət və cah-calal çadırları Gürcüstana yaxın olan *Alkit çayının* yaxınlığında qurulduqda, *Tiflis hakimi Əbdüllətif paşa* və o qaladakı rumiyyə ağaları və ağsaqqalları Gəncə, Lori və Tumanusdakı camaata göstərilən şahanə iltifatın və qəhrin nəticələrini müqayisə edərək, şahın yanına bir ziraətnamə yolladılar və elə həmin xahişi ondan təmənna etdilər. Onların iltimasları da qəbul olundu və əfv olunmaları xüsusunda adı çəkilən paşaya və rumiyyə böyüklərinə bir məktub yazılaraq *Hüseyn bəy Qorzulqədər Carçıbaşı* ilə göndərildi. Paşa və rumilər o səadət məktubunun məzmunundan xəbər tutduqdan sonra şahanə vədələrə şübhə yeri olmadığına, aman verilən hər

nəfərə qızılbaşlardan zərər yetirilməyəcəyinə baxmayaraq, başqa qalalardan olduqca möhkəm olan o qala camaatını daha da arxayınlaşdırmaqdan ötrü xahiş etdilər ki, aliqədr əmirlərdən birini qala ayağına göndərsinlər və onlar qalanı təslim edərək elə onunla birlikdə şahın hüzuruna gəlsinlər.

Ə'lahəzrət zillələllah şah bu işin icrasını *Əliqulu xan Şamlıya* tapşırdı və onu Tiflisə tərəf yolladı. Adı çəkilən xan qalaya yaxınlaşanda *Əbdüllətif paşa* və ağalar onun istiqbalına gələrək, öz itaət və bağlılıqlarını ərz etdilər və qalanı xana tapşırdılar. Sonra iki-üç gün ordu ilə birlikdə yır-yığış işlərinə başladılar, yük və minik ulaqlarını səfərə hazırlayıb hamılıqla qaladan çıxdılar. Əliqulu xan fərmana əməl edib
**s.717** bir dəstə şamlı qazi və tüfəngçilərini qalada saxladı, özü isə
**(503)** paşa və rumi mötəbərləri ilə birlikdə orduya qayıtdı.

Alkit çayında paşa və yoldaşları astananı öpmək səadətinə yetişərək, şahanə nəvazişlərə layiq görüldülər. Onların hamısına mərtəbələrinə uyğun olaraq qiymətli xələtlər inayət olundu. Qalmaq istəyən bir neçə nəfər öz yüksək məqsədlərinə çatdı, amma getmək istəyən paşaya və daha bir neçə nəfərə, onların qorunmasından ötrü dərgah mülazimləri təyin olundu və sağ-salamat çıxıb sərhədə çatdılar. Əlahəzrətin özü şəxsən qalaya yollanıb oranın yaxşı və pis cəhətlərini ehtiyat gözü ilə seyr etdi.

**s.717** Uca dağ ətəyində salınmış Tiflis qalasının bir tərəfində narınqala öz başını Süräyya bürcünə qədər ucaltmışdır və digər tərəfində Kür çayı qərbdən şərqə doğru axmaqdadır, Şirvan səmtində isə Araz çayı Kürlə birləşərək Xəzər dənizinə tökülməkdədir. Amma, həmin çaylar Tiflis yaxınlığında birləşmişlər və baxana elə gəlir ki, sanki suyun axarı şimaldan cənubadır.

**Tiflis qalasının döyüşsüz zəbt olunması:**

Qalanın yaxınlığından çaya nəzər yetirdikdə [görürsən ki,] sanki bu çay cənub səmtindən şərqə doğru axmaqdadır. Suyun keçib getdiyi şəhər və qala yaxınlığındakı yerlər hündür daşlarla hörülmüşdür. Sonra uca dağ görünür və çay üzərində taxta körpü salınmışdır. Belə ki, Tiflisdən keçib Gürcüstan vilayətinə gedənlər həmin körpü-

dən keçməlidirlər. Çoxlu nəhrləri ilə dünyada məşhur olan o əzəmətli çay həmin taxta körpünün altından axır və Tiflis şəhəri o körpünün qərb istiqamətində qalır. O dağdansa saysız hesabsız çeşmə və bulaqlar axmaqdadır ki, onların yetmiş-həştadının suyu istidir. Qədim zamanlarda hər bir müsəlman sultanı və gürcü kafəri o isti suların yuxarı hissələrində gümbəzlər tikərək onların dövrələrini bağlayırdılar. Şəhərin hamamları indi də o gümbəzlərdədir. Qalanın içərisində bir neçə, xaricində isə çoxlu hamam vardır. Hal-hazırda [köhnədən qalma] qırx-əlli hamam mövcuddur ki, onların bə'zisi dairəvi, bə'zisi isə yarımdairəvidir. Qalanın bürcləri hündürlük cəhətincə fələklər fələyi ilə yarışa girə bilər, buna görə də dünya sultanlarının heç birisi o qalanı ala bilməmişdir, çünki qala üç tərəfdən başı fələyə dəyən dağlarla əhatələnmişdir və onun bir tərəfindənsə Kür çayı axmaqdadır. Buna görə də, şəhərin və qalanın yaxınlığında ləşkərin dayanıb-yerləşməsindən ötrü yer yoxdur. Həqiqətən də Gürcüstan vilayətinin və Şirvanın sütunu olan elə möhkəm bir qalanın ələ keçirilməsi asimanın təsdiqi, Allahın köməyi və əlahəzrət xaqanın iqbal gücü olmadan asanlıqla mümkün olan məsələ deyildi.

O şəhərin əhalisinin əksəriyyəti erməni və gürcü xristianlarından, az hissəsi isə müsəlmanlardan ibarətdir. Çoxu qədim xristian kilsə və mə'bədləri də o şəhərdə və şəhər ətraflarında boldur.

**Kartil valisi Gorgin xanın vəfatı:**

Gürcüstan səmtinə hümayun yürüşün başlandığı əsnada baş verən o günlərin hadisələrindən biri Kartil valisi *Səmayun xanın oğlu Gorgin xanın vəfatıdır*. O xanədanın bir neçə e'timadlı şəxsi cahanpənah dərgaha gəlib bu hadisə barədə məlumat verdi. Ə'lahəzrət bu xəbəri gətirənləri nəvazişləndirib o vaxt on dörd yaşında olan Ləvarsab xanı

*Hüsni tamdır, özü on dörd gecəlik ay kimidir*[1]

---

[1] Misranın farscası:

Con məhe-çəhardəh dər hosne-təmam.

atasının yerinə həmin irsi mülkə hakim qoydu və onu yüksək "fərzənd" ismi ilə ləqəbləndirdi. Ona və xanədanın qadın üzvlərinə qiymətli xəl'ətlər göndərib, yerdə qalanlara baş-sağlığı verməkdən, şahın şəfqət və iltifatından onları arxayın etməkdən ötrü *Məhəmməd bəy Bigdeli Şamlını* o səmtə yolladı. Bəy əmrə əməl edib, həmin bir neçə gün ərzində Gürcüstandan geri qayıtdı. Onunla birlikdə ali saraya gələn gürcü mirzələrinin və aznaurlarının əksəriyyəti astananı öpməklə sərəfraz oldular və xüsusi ehtirama və münasibətə layiq görüldülər.

**s.718** Gürcülərin həmin silsilədən olan üzvləri kamkar xosrovun lütfünə və şəfəqqətinə yetişdi, ə'lahəzrət gürcü mirzələrini öz lütfkarlığı və bəndəpərvərliyi ilə onların mərtəbələrinə uyğun şəkildə şahanə hədiyyələr və padşahanə töhfələrlə (tənsuqatlarla)* mükafatlandırdı, mirzələrin işlərini öz istədikləri kimi tənzimlədi və onlar ürək xoşluğu və şadmanlıqla öz vətənlərinə qayıtdılar. Şah Ləvarsab xan üçün yenidən qiymətli xəl'ətlər və bol hədiyyələr göndərərək, onu şahanə və'dlərinə ümidvar etdi.

Tiflis hökumətini və qalanın kütvallığını "*Dəli Məhəmməd*" ("Dəlu") adı ilə məşhur olan *Məhəmməd Sultan Şəmsəddinliyə* verərək, onunla bircə qalanın mühafizəsini təmin etməkdən ötrü xasseyi-şərifə tüfəngçilərinin bir dəstəsini də qalada sax-
**s.719** ladı. İrəvan qalasına nəql edilməsindən ötrü Lori və Tumanus
**(504)** qalaları üçün döyüş sursatı, silah və yaraq da müəyyən olundu.

Nurlu xatiri o tərəfin işlərindən arxayınlaşdıqdan sonra şah qayıdış bayrağını qalibiyyətlə yuxarı qaldırıb oradan çıxdı.

Şirvan vilayətinin və İrəvan qalasının ələ keçirilməsi fikri həmişə şahın ilhamlı başında dolandığından cahanı bəzəyən rə'y belə oldu ki, İrəvan sərhədinə yollanıb, oranın qalasını təmir etsin, bu işin yerinə yetiriləcəyinə xatircəm olduqdan sonra rum ləşkərinin bu il buraya gəlib-gəlməyəcəyini müəyyənləşdirsin, sonra isə qələbə yüyənini kömək və mədəddən məyus olan Şirvan rumilərinə doğru yönəldərək, bu ilin qışında həzrət Allahın (zülcəlal) köməyi sayəsində Şirvan qalalarının fəthinə başlasın.

Şah belə bir əyan olası qələbə əzmi ilə Əxəstabad dağı yoluyla yollandı. Olduqca çətin bir yoldur. Ağacın, cəngəlin və meşənin çoxluğundan günəşin macalı yox idi ki oraya işıq saçsın. Yolun eniş – yoxuşunun təsviri bu beytdəki kimidir:

**B e y t**

*Kimsə görməz o uca səmti xəyaldan başqa,*
*O genişlikdə olar təkcə gümanın ayağı*[1]

Yollar o qədər darısqal idi ki, keçdikləri yerlərin əksəriyyətindən yüz təşvişlə yalnız bircə suvari keçə bilirdi. Əlahəzrət ləşkəri bir neçə dəstəyə ayırdı. Oradan hər gündə təkcə bircə dəstə gedə bilərdi.

Beləliklə, bütün qalibiyyətli qoşun yalnız on gün ərzində o yolu qət edə bildi və onlar gəlib *Göyçə dənizdə* bir yerə yığıldılar.

Gəncə qalasının fəthi zamanı bu ildə baş üerən başqa hadisələrdən biri də budur:

*Əmir Əbdülvali Əncu Şirazi* özünə xas olan lovğalığı və diqqətsizliyindən (mosamehe) şər'i işlərə [bir qədər] soyuqqanlı yanaşırdı. Mülazimləri ondan xəbərsiz cəsarətlənib imaməl çinn və-l-ünsün uyuduğu rövzə sərkarının tə'liqə vergilərini mənimsəmişdilər. [Buna görə də, o] ali sədarət mənsəbindən çıxarıldı və onun o ali rütbəsi yüksək *Seyfi Hüseyni Qəzvini* seyidləri nəslindən və cənnətməkan şahın vəziri olmuş *Qazi Cahanın* qohumlarından olan *Mirzə Bürhanın oğlu Qazi xana verildi*. [Həmçinin] əksər yerləri İsfahan darüssəltənəsindən, Yəzzdən, Qumdan və Kaşandan ibarət olan İraqın bə'zi torpaqları İsfahanda ata-babadan başlayaraq həmişə bu müqəddəs dudmanda ali vəzifələr tutan vəzifəli və söz sahibi olan seyidlərdən *Mir Cəlaləddin Həsən*
**s.719** *Səlayi – İsfahaniyə verildi.*

---

[1] Beytin farscası
Kəsi nədide fərazəş məgər be çeşme-zəmir,
Kəsi nərəfte nəşibəş məgər be paye-goman.

## İRƏVAN QALASININ TƏ'MİRİ VƏ ŞİRVAN YÜRÜŞÜ ZAMANI BAŞ VERƏN MÜXTƏLİF HADİSƏLƏR BARƏDƏ SÖHBƏT

Müzəffər ordu Göycə dənizdə dayanarkən, qalibiyyətli əsgərlər xalqların pənahı olan dərgaha qoşun-qoşun gəlib çıxdılar. Ə'lahəzrətin fərmanı ilə dərgahda qalan Allahverdi xandan və saraya yaxın bə'zi adamlardan başqa hamı İrəvan qalasının təmirinə təyin edildi və onlar *Allahqulu bəy Qorçibaşının* başçılığı ilə həmin işin əncamı üçün yola düşdülər. Əlahəzrət zilləllah şah şadimanlıqla Göycə dəniz sahilindən keçib, seyr edə-edə və şikar ovlaya-ovlaya Sushan yolu ilə Naxçıvana yollandı.

Bu hadisələr baş verən vaxtlarda, hələ cənnətməkan şahın vaxtında bu xanədana mənsub olan qadınlardan biri olan və şahın vəfatından sonra Simeon xanla birlikdə Gürcüstana aparılan *Gülçöhrə adlı bir gürcü* övrəti Rum sultanının vəzirləri və dövlət başçıları tərəfindən və *baş vəzir Dərviş paşanın* razılığı ilə *Simsen xanın* çavuşlarının biriylə səadətli dərgaha gəlib bir neçə məktub gətirdi. Gülçöhrə, sonradan, yuxarıda yazdığımız kimi, rumilər tərəfindən tutulub İstanbula aparılan Simeon xanın xidmətində dayanmış, ona qulluq etməkdən ötrü həmin gürcü ailəsinin qadınları tərəfindən İstanbula göndərilmiş və Rum xandgarı Sultan Məhəmməd xanın *Validə Sultan* adı ilə məşhur olan və o xanədanın dövlət işlərində ixtiyar sahibinə çevrilən möhtərəm anasının yanına yol tapmış, bir neçə müddət İstanbulda yaşamışdı. Onun gətirdiyi məktublarda bu sözlər yazılmışdı: "Dünyanın əmniyyətini və xalqın rahatlığını istəyən ədalətli sultanlar həmişə ali dünya
**s.720** qanunlarına riayət etmişlər və onları hər şeydən üstün tut-
**(505)** muşlar. İki ali məqamlı padşah arasındakı düşmənçilik məmləkətin viran olmasına, aciz adamların narahatlığına və xalqlar arasında qan tökülməsinə səbəb olmuşdur. Dünya işlərinin yaxşılaşması və üqba aləminin savabından ötrü möhtərəm məqamlı Rum padşahı ilə gərək danışığa başlayasınız. Bu tərəfin adamları da, xüsusilə baş vəzir Dərviş paşa sülh

niyyətindədir və onlar şahın ürəyi necə istəyirsə bu xeyrli işin əncamına çalışacaqlar".

Bu tərəfdən də Simeon xanın məktublarına cavab olaraq belə yazıldı: "Ona və ale-Osman sülaləsinin ağsaqqallarına mə'lumdur ki, həzrət *cənnətməkan şahla* mərhum padşah *Sultan Süleyman* və oğlu *Sultan Səlim** arasında nəsilbənəsil müxalifət baş verməməsindən ötrü əhd-peyman münasibətləri möhkəmləndirilmişdi. Cənnətməkan şahın qaçılması mümkün olmayan vəfatından sonra qızılbaş tayfaları arasında baş verən azacıq çaxnaşmadan istifadə edən rumilər fürsət əldə edərək, bica yerə əhd-peymanı pozmuş və bizim irsi məmləkətimizi qəzəblə zəbt etmişlər. İndi isə biz öz irsi haqqımızı tələb edirik. Əgər Rum hökmdarı ataların əhd-peymanını nəzərə alıb dostluq məqamına gəlsə və sərhədlər o zamanlarda olduğu vəziyyətə gətirilsə, biz də xalqların və Allah bəndələrinin rahatlığı naminə düşmənşilik və inaddan vaz keçib dostluq və birlik yolunda olacağıq. Yox, əgər inad göstərib yenə də ədavət saxlasanız, Allahın iltifatına təvəkkül edib öz irsi haqqımızın tələbindən əl çəkməyəcəyik. Qoy
**s.720** həzrət Allah-taala necə istərsə o cür də olsun! Çünki olacağa çarə yoxdur və ümidvarıq ki, Haqqın köməyi ilə biz öz mətləbimizə çatacağıq".

Bu il baş verən başqa hadisələrdən biri də budur : Keçən ilin qışında cah-cəlal ordusu Gəncə və Qarabağı tutmağa gedəndə rumilərdən bir dəstə adam qarət məqsədilə hücuma keçib, ***Əmirgunə xana mənsub olan Göycə dəniz hövzəsinin bir neçə kəndini*** tarac etmişdi. Bu il isə Əmirgunə xan öz adamları və səflənmiş qoşunu ilə rumi ölkələrinin qarətinə doğru hərəkətə başlayıb, Vana və Adilcəvaza qədər olan yerləri taraca mə'ruz qoyaraq sağ-salamat geri qayıtdı. O sərhədlərdə yaşayan mahmudi kürdlərindən Xoşab hakimi *Abdulla bəy*, Qarahisar hakimi *Zeynal xan*, Maku hakimi *Mustafa bəy*, Çurəs hakimi *Zeynal bəy*, o tərəfdəki sancaq mirlərinin elçiləri, Cəzirə hakimi *Sima Mirşərəf*, Teblis[1] hakimi Şərəf xanın oğlu Ziyaəddin xan və Zəkəriyya xan Çekari[2] öz dövlət

[1] Bitlis olmalıdır! – *Ş.F.*

[2] Hekkari (yaxud Hekari) olmalıdır! – *Ş.F.*

xahlıqlarının izharı və məqsədlərini bəyan etmək məqsədilə Əmirgunə xanın yanına gələrək, onunla birlikdə cahanpənah dərgaha təşrif buyurdular, xanın vasıtəçiliyi ilə Naxçıvan yaxınlığında şahla görüş səadətinə nail oldular. Əmirgunə xan icazə alıb İrəvana tərəf getdi, adı çəkilən əmirlər və elçilərsə lütf və ehsana layiq görüldülər. Fərmana görə Çurəs hökuməti [yenidən] *Zeynal bəyə*, Maku isə *Mustafa bəyə verildi* və ona iki yüz tümən şahiye-iraqı məbləğində nəğd qızıl pul şəfqət olundu. *Abdulla bəy* qardaşı Süleyman bəyin vəfatından sonra tayfasının əmiri və Xoşab hakimi olmuşdu. Amma, Süleyman bəylə inad mövqeyində dayanan və Qarahisarı zorla ondan olan əmisi oğlu *Zeynal xan, Cığaloğlu* ilə olan döyüşdən və paşanın məğlubiyyətindən sonra, şahın iltifat kölgəsinə sığınmaq diləyi ilə Səlmasda onun yanına gəlmiş, tayfasının başçılığı və Xoşab hakimi olması barədə onun adına hökm yazılmış, bu səbəbdən də əmizadələr arasında münaqişə yaranmışdı. Onların hər ikisinin şahsevənlik şüarı ilə dünyaya pənah verən dərgaha gəlib çıxdıqları bu məqamda belə qərara alındl ki, əmizadələrin arasında sülh yaransın və onların ülkaları kürd ağsaqqallarının məsləhəti ilə aralarında bölüşdürülsün. Kürd əmirləri verılən əmrə əməl edərək bölgü barədə bir sənəd hazırlayıb, onu müqəddəs zatın nəzərinə təqdim etdilər. Elə həmin sənədin əsasında da onların hər birinin adına hümayun hökm imzalandı. Amma, bir neşə gündən sonra Zeynal xanla Abdulla bəy arasında yenidən nifaq qızışdı. Nəhayət, fitnə-fəsadlı adamların, xüsusilə də kürdlərin xasiyyətindəki fəsad əlaməti çoxaldı, Xoşab qalası Zeynal xanın əlinə keçdi ki, bu barədə yaxın vaxtlarda məlumat veriləcəkdir.

Xülasə, şahanə inayət kürd əmirlərini və adı çəkilən elçiləri qiymətli xələtlərlə mükafatlandırdı, *Mirşərəf, Zəkəriyya xan* və *Ziyaəddinə* gözəl xəl'ətlər və layiqli hədiyyələr göndırildi, o dəstə üzvlərinin hamısı şadyanalıqla qayıdış izni alıb, öz yerlərinə rəvan oldular. Onlar gedəndən sonra şəra-
**s.721** fətli zat Ordubadı seyr etməyə başladı və o, həmin gözəl
**(506)** şəhərdə yaşayan adamların üzərinə iqbal kölgəsi saldı. Belə-

liklə, əlahəzrət İrəvan qalasının tə’miri bitənədək, əmir və əsgərlərin qayıtmalarına qədər bir neçə gün havası gözəl olan həmin işrətli məkanda qaldı, adı çəkilən qalanın işlərindən xatircəm olandan sonra atının qələbə çilovunu Şirvan vilayətinin fəthinə tərəf döndərdi ki, o, buna müyəssər olacaqdır, inşallah.

## HÜMAYUN MƏİYYƏTİN ÜRƏKAÇAN ORDUBADA YÜRÜŞÜ, ŞAHIN AZƏRBAYCAN İŞLƏRİ İLƏ MƏŞĞUL OLMASI VƏ İQBAL QOŞUNUNUN ŞİRVANI ZƏBT ETMƏYƏ YOLLANMASI

Ordubad olduqca ürəkaçan (delgoşa) və ürəyəyatan (delnesin) bir qəsəbədir. Onun şimal tərəfindən *Araz çayı* axır ki, *Şirazın söz sahibi Xacə Hafiz* o yerin gözəl sahillərinin mədhiundə buyurmuşdur:

**Ş e ’ r**

“*Ey səba, keçsən Araz sahillərindən sən əgər*
*Torpağından busə al ki, qoy ətirlənsin nəfəs*”[1]

*Ordubad Qapan dağının ətəyində* yerləşmişdir və suyunun təmizliyi, bağ və bostanının meyvəsi və çeşmələrinin gözəlliyi ilə bütün aləmdə məşhurdur. *Dünyada elə bir yer və ölkə yoxdur ki, bu lətafətdə və sırinlikdə su çeşməsinə malik ola bilsin*. Oranın camaatı möhkəm şiə (təsəyyö’) xislətdirlər, kəramətli səfəviyyə xanədanına sadiq olmaları ilə məşhurdurlar. Belə ki, məhz buna görə də rumiyyənin ağalığı vaxtı *bir neçə dəfə qətli-am olundular*, həmin cənnətməkan yer tamamilə dağıdıldı, əhalisinə, xüsusilə *ustadülbəşər və nəsirülmillət vəd-din olan Xacə Tusinin*[*] nəslindən yüksək nəsiriyyə tusiyyə təbəqəsinə böyük sədəmə dəydi. Həmin pərişanlığın iqbal qüvvəsi ilə aradan qaldırıldığı bu vaxtlarda Ordubad şahanə inayətə layiq görüldü, *bütün divan vergilərindən azad*

[1] Şe’rin farscası:
“Ey səba, gər boqzəri bər sahele-rude-Ərəs,
Buse zən bər xake-an vadi-yo meşkin kon nəfəs”

*olundu, Azərbaycan vilayətində ona bənzər başqa bir yerə bu imtiyazlar verilmədi. Cəm iqtidarlı etimadüddövlə Hatəm bəy* [də] o ali silsiləyə mənsubdur. Bu sətirlərin müəllifi həmin fələk ehtiramlı alicənab şəxsin məclislərində uzun müddət iştirak etdiyindən və onunla həmsöhbət olduğundan, o ali sülalə üzvlərindən bir neçəsi barədə mə'lumat verməyi məqsədə müvafiq sayır.

Xülasə, o uca təbəqə öz ulu babalarının fəzilət və əqli üstünlüklərindən bəhrələnmişlər. Həmin iqbal sahibləri barədə Şeyx Əli Nəqi Kəmrəh nəzm yazmışdır, gözəl beytlər və ürəkaçan mənalı sözlər söyləmişdir. O cümlədən onun bu beyti münasibdir:

**B e y t**

"*Ordubad torpağının hətta tikanlıqları da*
*Daima fəzlü hünər meyvəsinə sahibdir*".[1]

Onların əksəriyyəti görünüşcə gözəgəlimli, pərhizkar, daxili qabiliyyətə və iste'dada malik, nəfsi tox, gözəl əxlaqlı olduqlarından o diyarın bütün camaatı tərəfindən həmişə sevilmişlər. O da [Hatəm bəy Ordubadi – *Ş.F.*] yüksək rütbəli dövlət xadimi olub təmiz əxlaqlı, nəfsi tox, xalqın yaxşılığını istəyən adam idi və qabiliyyəti, işgüzarlığı ilə məşhur olduğundan ali divanın vəziri rütbəsi ilə şərəflənərək, iyirmi ilədək divanın vəziri kimi cahan işlərinin tənzimlənməsi (həll və əqdi) ilə məşğul olmuş, onları nizama salmışdı. Şahanə iltifat və tərbiyət nuru həmişə ona işıq saçmışdı və ehtiramı
**s.722** gün-gündən çoxalmaqdaydı. Onun dürrlər səpən ilhamı heç kəsin istəyini ürəyində qoymurdu, səadətli divanı, padşahın razılığı ilə bütün məmləkət işlərini nizamlayırdı. Camaatın hər işi onun ağlı və bacarığı sayəsində yüksək səviyyədə yerinə yetirilirdi. İşlədiyi müddətdə kobudluğa yol vermirdi,

---

[1] Beytin farscası:
"Ta əbəd barvəre – meyveye – fəzlənd – o honər,
Hər xəs – o xar ke, dər xotteye – Ordubadənd"

Süleyman mənzilli o Asəf[1] hətta bir qarışqanı belə incitməmişdir.

Xülasə, sözlər yazan qələm o tədbirli vəzirin bəyənilən əməlləri barədə söz yazmaqdan acizdir. Fikir guşəsinə çəkilən adamlar-münzəvilər[2] onun xoş sifətlərindən çox söyləmişlər və bu barədə yazılası olsa çox uzun çəkər.

Beləliklə, [Hatəm bəy Ordubadi] bu vəzifədə çox yüksəldi. Onun özü mərhum *Məlik Bəhramın* oğlu idi. Məlik Bəhram da böyük ürəkli, mərhəmətli zat və bəyənilən bir şəxs kimi sabiq sultanların hakimiyyəti zamanı öz əcdadları kimi izzət və şərəf taxtına çıxmış, ondan nəciblik və böyüklük üstünlükləri (məziyyət) zahir olmuşdu. *Bayanduriyyə sultanları*[3] tərəfindən bu vəzirin üzərinə iltifat işığı salınmış, onun amalı
**s.723** nurlu olmuş, o mülkün işləri onun vasitəsilə nizamlanmışdır.
**(507)** Yeri cənnətlik olan mərhum əbədiyaşar (əbülbəqa) Süleyman şanlı xaqan Şah İsmayıl dövlətinin zühuru zamanı [Məlik Bəhram], həsədkar adamların və qərəzli şəxslərin iftiralarına görə bir müddət qürbətə getmiş, vətənindən ayrılmış. Misirdə və ora yaxın yerlərdə yaşamışdı. Nəhayət əbədi aləmin iş buyuranları [yəni Allah-taala – *Ş.F.*] məlikin mühacirət dövrünü sona yetirmiş, onun rahətliyini və qalibiyyətini təlim etmişdi. [Beləliklə] Süleyman şanlı xaqanın qərarı ilə gözəl Ordubad torpağının ziynəti onun hümayun qədəmləri ilə daha da çoxaldı.

---

[1] Qeyd: Bizə Asəf adlı iki tarixi şəxs mə'lumdur: 1) Asəf – Livanlı Yusif Hümama verilən addır (miladi 1859). O, Misrin baş hakimi olmuş, Qahirə şəhərində hüquq və tarixi tədris etmişdir. "Şərhe-qanune-mədəniye-Mesri" adlı əsər yazmış, məşhur fransız tədqiqatçısı Monteskyunun (1689-1755) bir kitabını "Osulən nəvamiş və-şşəraye" adı ilə ərəb dilinə tərcümə etmişdir; 2) Asəf – Bu Asəf isə Asəf ibn Bərxiyadır. Bəni-İsrail üləmalarından olan A. Ibn Bərxiya, rəvayətə görə, Həzrət Süleyman əleyhüssalamın vəziri olmuşdur. O, bir çox elmləri mükəmməl bilirmiş (Bax: d-r Məhəmməd Moin. Göst. lüğət, c.V, s.40)

[2] Münzəvilər – yəni inzivaya (xəlvətə) çəkilənlər – *Ş.F.*

[3] Ağqoyunlular – *Ş.F.*

Ucalıq və böyüklük nişanələri zahir olan Məlik Bəhramın xoş əməllərini müşahidə edən [*Şah İsmayıl*] *Ordubadın ürəkaçan torpağını öz hümayun qədəmləri ilə ziynətləndirdi*, o var-dövlət sahibinin tikdiyi gözəl mənzilləri müşahidə etdi, onlardakı ucalıq və böyüklüyə göz yetirdi, dövran hadisələri, zamanın gedişi, bu evlərin və ev sahibinin burada olmamasına görə həmin tikililərin xarab olma səbəbi, o həzrətin vəziyyəti və tərki-vətən olmağı barədə məlumat soruşdu. Sarayın xüsusi məqam sahibi və dövlətxah adamlarından olan *Hüseyn bəy Lələyə* Məlik Bəhramın pak xasiyyəti məlum olduğundan, onun barəsində şaha məlumat verdi. O həzrətin [Şah İsmayılın – *Ş.F.*] xürucunun əvvəllərində *Xacə Ətiq Münşi* bu əbədi dövlətin ilk tuğrasını yazan şəxs idi və o, Məlik Bəhrama nəvazişli bir məktub yazaraq, onu öz vətəninə çağırdı. Məlik Bəhram həmin iltifatlı məktubu aldıqdan sonra öz məskəninə qayıdıb vəziyyətini yaxşılaşdırmağa basladı. O, mərhum cənnətməkan şahın hakimiyyəti zamanı [Şah Təhmasibin – *Ş.F.*] daha çox iltifata layiq görüldü və həmin mülk [Ordubad – *Ş.F.*] əhalisinin kəlantərlık mənsəbi və böyüklüyü əvvəlki kimi yenə də ona verildi. Cənnətməkan şahın o cənnətmisal şəhərə böyük diqqəti olduğundan, orada şərafətli bir məscidin inşası barədə mübarək Qəzvin dövlətxanasından fərman verdi, hümayün göstərişə görə Qəzvindəki şərafətli büq'əyə bənzər büq'ənin inşası xüsusunda bu şəhərə nadir rəssamlar (nəqqaşlar) – mübarək Qəzvin dövlətxanasının möcüzə yaradan rəssamları göndərildi. Şah təkrar-təkrar o gözəl yerdə, Araz çayında balıq ovlayır və öz mübarək vaxtını həmin fərəhnak məkanda keçirərdi. Hər gəlişi zamanı o cənabın evini öz qədəmləri ilə işıqlandırar, həmin ürəkaçan yerdə şadyanılığa başlardı. Bu səfərlər o aliməqamlı adamın izzət və cah-cəlalının daha da artmasına səbəb oldu və onun qədir-qiyməti yüksəldi.

Öz qabiliyyət və istedad zivəri ilə zinətlənmiş və yaxşı təhsil görmüş mərhum *Mirzə Kafi Münşi* də o sahibdövlətlə [Məlik Bəhramla – *Ş.F.*] qohumluğuna görə yüksək məmləkətlər münşisi mənsəbinə çatdı və o həzrətin kimya təsirli

tə'limi nəticəsində bu peşədə bərk tərəqqi etdi, öz mövzun qələmi ilə özündən əvvəlki başqa münşilərin qələmləri
**s.723** üstündən yoxluq rəqəmi çəkdi. Onun zərrin qələmlərlə yazdığı sözlər bəyan səhifəsinə girdə (ğəltan) mirvarilər kimi düzülürdü. [Mirzə] neçə illər boyu müqəddəs hərəmxanaya (sərayere-qods) məhrəm adamlar zümrəsindən və [şahla] ünsiyyət büsatına yaxın şəxslərdən (moqərrebane-bosate ons) idi.

**Beyt**

*Hər nə var isə cahanda nəzər nəticəsidir,*
*Nəzər iksire-kimiyaəsər nəticəsidir.*[1]

O silsilədən olan adamlar uzun müddət bu əbədi dövlətdə həmin yüksək vəzifədə çalışmaqdadırlar.

Xülasə, o səadət sahibi və ali himmətli adam həmin məsciddə əyləşirdi. Onun şərafətli yaşı həştaddan keçib doxsana çatanda-həyatının sonunda beytullahülhəram Həcc ziyarətinə gedib şərafətli Mədinədə müqəddəs imamların rövzələrini təvaf etmək fikrinə düşdü və həmin mübarək səfərə yollandı. Şam və Yəsrib arasında onun səhhəti öz istiqamət yolundan döndü və o, müqəddəs cənnət bağına yollandı. Öz böyük atası ilə birgə olan oğlu Ədhəm bəy o xoşəxlaq adamın pak nə'şini oradakı "*Qəl'eye – Heydər*" adı ilə məşhur olan yerdə dəfn etdi. Rəhmətlik *Məsum bəy Səfəvi* həmin xeyrli səfərə çıxan il onun [Məlik Bəhramın – *Ş.F.*] böyük oğlu *Mirək bəy* də onunla həmrah idi. O, atasının şərafətli cəsədini həmin qaladan çıxarıb Mədinəyə apardı, imam Bəqi' əleyhüssalamın məzarı yanında dəfn etdi. Onun vəfatı zamanı sağ olan əziz övladları beş nəfərdir və bu kitab müəllifinin onların hamısı haqqında xoş sözləri (təarof) vardır. O, səadətmənd şəxslər
**s.724** barəsində məlumat verməyin bu tarix kitabında münasib
**(508)** olmadığına baxmayaraq, barələrində başlanğıcda (sədr) işarə

[1] Beytin farscası:

Hər çe həst əz nətayece-nəzər əst,
Nəzər eksire-kimiyaəsər əst.

(ima) olunduğu kimi, onların sədaqətlərinin bəyanını qələmə gətirib deyirəm: O sadiq cənabların birincisi adı yuxularda çəkilən *Mirək bəydir*. O, qalibiyyət bəzəyi, iste'dad və qanacaq zivəri ilə bəzənmişdi. Ordubaddan kənara çıxdığı gənclik illərində *rüknüs-səltənə Məsum bəy Səfəvinin* mülazimi olmuş, münşilik və ləşkərnevislik mənsəbinə çatmışdı. Get-gedə *vəzarət* mərtəbəsinədək yüksəldi və bir neçə il bu vəzifədə müstəqil surətdə işlədi. Hicaza səfər vaxtı Mə'sum bəylə həmrah idi və Mə'sum bəy rumilərin qəddarlıq qılıncı ilə öldürülüb, şəhadət dərəcəsinə yetişdiyi vaxt Mirək bəy o xoşbəxt şəhidin bütün var-yoxunu gətirib, onları o böyük əmirin yaxın adamlarına verdi, onun haqqını və zəhmətini unutmadığını və öz etibarını bildirdi. Mirək bəy cənnətməkan şahın behişt ayinli məclislərinə yol tapıb, məclisnevislik edir və məslisin tərbiyəti altında xidmət edirdi. Elə o vaxtlarda da əcəli çatdı, onun həyatını varlıq səhifəsindən sildi, sonradan yaşaması üçün onu o biri dünyaya yolladı.

*İkincisi Ədhəm bəydir*. O da öz iste'dad və qabiliyyətinin çoxluğu və əxlaqının təmizliyi ilə məşhur idi. Atası ilə birlikdə faydalı Hicaz səfərinə yollandı, atasına üz verən qaçılmaz vaqiədən sonra həmin ziyarət səadətinə yetişdi. Qayıdıb orduya gəldi. Bir müddət vaxtını qabiliyyət və hesab elmini öyrənməyə sərf etdi. Şah tərəfindən [Şah Təhmasib – *Ş.F.*] mərhum şahzadə *Sultan Mustafa Mirzənin sərkarı oldu*. Son illərində isə [həmin] *nəvvab mirzənin vəziri* olmuşdu.

Ədhəm bəy cənnətməkan şahın vəfatından sonra, bu kitabın birinci cildində yazıldığı kimi, İsmayıl Mirzənin hakimiyyəti zamanı bir müddət dünya vəzifələrinin heç birisində
**s.724** işləmədi, amma İsgəndər şanlı nəvbab *Şah Sultan Məhəmmədin* səltənətə vaxtı böyük vəzifələrdən biri olan Təbriz darrüssəltənətinin *kəlantari* mənsəbi ona verildi. Lakin, *Əmir xan Türkmanın* və onun sərkarına tabe olan işçilərin iqtidarı zamanı xanın paxıllığı, qüruru, özbaşınalığı və xüdpəsəndliyi üzündən vəzifədən kənar edilib bir müddət Ordubadda yaşadı. Mərhum şahzadə *Sultan Həmzə Mirzənin* son günlərində Əmir xanın dövlət busatı başa yetdiyi və Əliqulu xan

Fəthoğlu Ustaclının Təbriz darüssəltənəsinin hakimi olduğu vaxt o, Ədhəm bəyi yenə öz vəzifəsinə rəğbətləndirdi və nəhayət xanın sərkarının vəzirliyi bəyə verildi. Əlahəzrət zillələh şahın səadətli cülüsü zamanı Ə'liqulu xan və yoldaşlarının dövlət büsatı pozulduqda, o cənab (Ədhəm bəy – *Ş.F.*) bir neşə gün möhrdar *Asılmaz xan Tatioğlu Zülqədərin* vəziri oldu. Nəhayət, dünyəvi vəzifələrdən bezdi, müqəddəs şəhidlərin olduqları yerlərə getməyə meylləndi, bir neçə dəfə imamların qəbirlərini ziyarət etdi. Sonra öz xoşbəxt qardaşının yolu ilə gedərək onu görmək arzusuna düşdü, onunla görüşdü. İraqa gəldikdən sonra qardaşı və qohumları ilə yenidən görüşmək arzusunda oldu, Şirazda vətən saldı. Orada şahanə şəfəqqətə layiq görüldü və ona hər il yüz *tüməni-şahi* məbləğində pul soyurğal şəklində verildi. Şirazda bir qədər yaşadıqdan sonra yenidən faydalı Hicaz səfərinə getməyi qərara aldı və yenidən Həcci ziyarət etdi. Bir neçə dəfə də səkkizinci həzrət imam əleyhüssalamın müqəddəs rövzəsinin ziyarəti üçün müqəddəs Məşhədə getdi və həmin böyük səadətə nail oldu, min on yeddinci xoruz ilində Şirazda bəqa səfərinə yollandi, əynindəki varflıq paltarını ədəm darülmülkündə soyundu.

**Ş e' r**

*O da bütün təmiz adamlar təki*
*O biri cahana sür'ətlə getdi.*[1]

Məlik Bəhramın başqa övladı vəzarət və iqbal asimanının ayı olan mərhum *etimadüddövlə Hatəm bəydir* ki, uca məqamlı atasının vəfatından sonra Ordubadın kəlantəri[*] mənsəbində işlədiyi vaxt qəzəbə gəldi. Yaşının azlığına və gəncliyinə baxmayaraq öz biliyi və fərasəti nəticəsində həmin vəzifəni aparırdı, amma o mülkün bə'zi paxıl adamlarının onunla münaqişəsi və söz-söhbət nəticəsində kəlantər olmaqdan peşi-

---

[1] Şeirin farscası:
U niz ço comle pakmərdan
Gərdid be an cəhan şetaban.

man oldu, vəzifəsini öz istəyi ilə tərk edib orduya gəldi. Bir müddət Xoy hakimi *Dəli Budaq Rumlunun* vəziri kimi həmin vəzifəni apardı. Dəli Budaq hakimlikdən kənar edildikdən sonra Hatəm bəy bir-iki il işsiz qalıb Ordubadda yaşadı və elə bu vaxt cənnətməkan şahın vəfatı hadisəsi baş verdi. O, İsmayıl Mirzənin hakimiyyəti zamanı Kərbəla, Nəcəf və
**s.725** Bağdaddakı imam qəbirlərini ziyarət etdi. İsmayıl Mirzənin
**(509)** vəfatından sonra məqamı cənnət olan İskəndər şanlı nəvvab hakimiyyət taxtına cülus edəndə Hatəm bəy Kirmanda hakim olan *Vəlixan Əfşarın vəziri oldu*. Ə'lahəzrət zilləllah şahın hümayun cülusu zamanı Vəlixan orduya gəldiyindən Kirman əyaləti onun oğlu *Bəktaş xana* verildi və Vəlixanın təklifi ilə Hatəm bəy istər-istəməz onun vəziri oldu.

Daim özbaşınalıq və xundpəsəndlik badəsinin sərxoşu olan Bəktaş xanla, bu xasiyyət cəhətincə heç də ondan geri qalmayan Şiraz hakimi *Yaqub xan Zülqədər* arasında müxtəlif məsələlər üzündən vəhşətli narazılıqlar yarandıqda Yaqub xan, yuxarıda yazıldığı kimi, Bəktaş xanın üzərinə ləşkər yolladı və Yəzd darülibadəsi yaxınlığında onların arasında müharibə baş verdi. Taleyinin dönüklüyü üzündən Bəktaş
**s.725** xan orada Şiraz əsgərləri tərəfindən öldürüldü və Hatəm bəyin var-dövləti o hadisə zamanı hadisələrin taracına getdi. Amma, Yaqub xan o alicənabla görüşdükdən sonra ona izzət göstərib, özü ilə Şiraza apardı. Bu hadisə mə'lum olan vaxt zilləllah şahın cahanı fəth edən qoşunu İsfahan darüssəltənəsinə gəldi. Sabiq zamanlarda Hatəm bəyin yaxşı xidmətlərini nəzərə alan ə'lahəzrət onu vəzifəyə tə'yin etməkdən ötrü onların yanına qorçi göndərdi.

Huşdarlığı başdan çıxaran qəflət badəsini içib sərməst olan Yaqub xan ondan Bəktaş xanın xəzinəsi və başqa var-yoxu barədə sual olunacağından vahiməyə düşərək boş fikirlərə, puç düşüncələrə daldı və getməkdə tərəddüd etdi. Amma, qəzavü qədərin işbuyuranları kamil sifatlı zatın (Şah Abbasın – *Ş.F.*) boynuna elə gözəl (şegerf) işlərin icrasını qoymuşdur ki, gərək onlar bu dövr padşahının xidmətində olmaqla [Hatəm bəy tərəfindən] yerinə yetiriləydi, bu əbədi dövlətdəki

bir çox şətin düyünlər (oqdehaye-moşkel) şahın ölkələr fəth edən rə'y açarı ilə açılaydı, səltənət rüsxarının xalı onun bədaye' tərzdə yazdığı qələmlərlə vurulub dövlət nigarıstanının zivəri olaydı. Buna görə də onun batil fikirləri baş tutmadı, getməkdən başqa çarəsi qalmadı. O cənab qorçinin yoldaşlığı və İlahinin köməyi ilə şahın ali sarayına yollandı, İsfahan darrüssəltənəsində ə'lahəzrətin ayağını öpmək və onunla ünsiyyət (məcalesət) etmək səadətinə çatdı.

Yuxarıda mə'lumat verilmişdi ki, Kirman darül-amanının işlərini yoluna qoymaq və *Yusif xan Əfşarın* fitnə-fəsadını dəf' etməkdən ötrü Fərhad xan namizəd görülmüşdü. Bu işin yerinə yetirilməsindən ötrü Kirman işlərinə bələd olan və illərlə əfşar tayfası içərisində yaşayan cənab Asəfi (Hatəm bəyi – *Ş.F.*) də Fərhad xana qoşdular və o vilayətin işlərinin qaydaya salınmasını ona tapşırdılar. [Hatəm bəy] ona tapşırılan vəzifəni yüksək səviyyədə yerinə yetirib, Şirazda şahın astanasını öpmək şərəfinə yetişdi. Ə'lahəzrət onda ağıl və huşyarlıq müşahidə etdi, ona vəzifə verdi. Əvvəlcə məhrusə məmləkətlərin vergilərini tənzimləməklə məşğul oldu və alti ay müstəqil şəkildə bu işdə çalışdı. Ona vergilərin tənzimlənməsi tapşırılmasına baxmayaraq ali divan vəzarətinin əksər işlərinin vəziyyəti də şahın tapşırığı ilə ondan soruşulurdu. Beləliklə, get-gedə Hatəm bəyin qədir-qiyməti yüksəlirdi. Buna görə də, hicrətin min birinci (1592/1596) dovşan ilinin başlanğıcında ali divanın vəzarəti mənsəbinədək yüksəldi və məhrusə məmləkətlərin bütün mali və mülki işləri, yuxarıda yazıldığı kimi, onun düyünlər açan rə'yinə həvalə olundu.

Xülasə, o alicənab öz vəzifəsini olduqca sədaqətlə yerinə yetirdi və işlədiyi vaxt ərzində bu əbədi dövlətin yolunda ləyaqətli işlər gördü, aləm adamlarının rifah halını yaxşılaşdırdı, iranlıların əhvalını xoş məcraya yönəltdi. Hatəm bəydən əvvəlki vəzirlər isə öz mənfəətləri naminə adamları narahat edir və ə'lahəzrətin ədalət mizanının əksinə bəyənilməz işlər görürdülər. Hatəm bəy isə hüquqi məsələlər, ədalətli
**s.726** tapşırıqlar, maliyyə haqq-hesabları və divan işlərinin yoluna
**(510)** qoyulmasında olduqca bacarıqlı idi. Bir neçə yol şah tərə-
1310

findən başqa-başqa işlərə göndərildiyi üçün hümayun şövkətdən (şahdan – *Ş.F.*) aralanmışdırsa da öz vəzifəsini sədə-
s.726 qət, dövlətxahlıq, qeyrət və mərdanəliklə, şahın razılığı, din və dövlətin məsləhəti ilə icra etmişdi. Belə ki, onun gördüyü işlərin hər biri haqqında yuxarıda ətraflı məlumat verilmişdir. Amma, indi yazdıqlarımızın təkrar olmamasından ötrü qələmin dili sözün qısalığından ötrü çalışdı və yenidən müxtəsər məlumat verildi. Min on doqquzuncu it ilində Dəmdəm qalasını fəth etmək və *Əmir xan Bəradustun* üsyanını yatırmaq üçün göndərilən vaxt Hatəm bəyin bir gecə qala ayağında halı pisləşdi və faciəli şəkildə vəfat etdi və bu məsələ hamının qəm-kədərinə səbəb oldu. Həmin il hadisələrinin təsvirində yazıldığı kimi, bütün işlərdə atasının layiqli oğlu olan, fəzilət və kamal elmlərində biliyi, və ztına xas səxavətdə üstünlüyü ilə seçilən Mirzə Əbu Talib hər işdə sədaqətli oğul kimi öz mərhum atasının vəzifəsinə təyin olundu və uca ali divanın vəziri rütbəsinə yüksəldi.

Hal-hazırda bu böyük dövlətdə baş verən qarışıqlığın qarşısının alınması (məsun) qələmə alınacaqdır və hicri tarixlə min iyirmi beşinci ildir (1616/1617), vəzarət taxtı o Suleyman mərtəbəli Asəfin səxavətli (cud) vücudu ilə bəzənmişdir. Ümidvarıq ki, o, həmişə bu zəmanə padşahının, dövlət və səadət kamyabının iltifat kölgəsi altında olacaqdır.

Məlik Bəhramın başqa övladlarından və o gözəl görünüşlü və gözəl əxlaqlı, Asəf mərtəbəli vəzirin qardaşlarından ikisi *Əbu Turab bəy* və *Əbu Qalib bəydir* ki, onların hər biri qabiliyyətlərinin və iste'dadlarının çoxluğundan səyaqət[1] və nevisəndegi[2] elmlərində məşhur adamlardır. Hər iki qardaş cənnətməkan şahın hakimiyyəti vaxtı bir müddət qardaşları ilə birgə ali orduda olub kamal kəsb etmişlər.

Əbu Turab bəy bir neçə vaxt müqəddəs Məşhədin vergilərini toplamaq mənsəbində çalışdı. O, İsmayıl Mirzənin hökmranlığı zamanı müqəddəs Məşhədin hakimi Mürtəzaqulu xan Pornakın vəziri kimi oraya yollandı, iftixar və

[1] Hesab elmi – *Ş.F.*

[2] Katiblik – *Ş.F.*

e'tibar sahibi oldu və elə orada da onun ömür büsatı qəzanın əli ilə pozuldu və həmin müqəddəs rövzədə dəfn olundu. *Əbu Talib*[1] *bəy* isə yaxınlıq etdiyi Herat bəylərbəyi Əliqulu xan Şamlının vergi toplayanı kimi onun xidmətində Xorasana yollandı və Herat darüssəltənətində bir neçə il həmin iqbal sahibinin kölgəsi altında ömür sürdü. *Özbək Abdulla xan* Mabərənnəhrdən Xorasana qoşun çəkib, Herat qalasını tutmaq istədiyi vaxt mühasirə müddəti uzandı və mühasirədə qalan adamların vəziyyəti çox çətinləşdi. Əliqulu xan Əbu Talib bəyi şamlı tayfasının bir-iki üzvü ilə elçi sıfətilə qaladan çıxardı ki, onlar xeyrxah adamlar vasitəsilə sülh danışıqlarına başlasınlar. Abdulla xan sultanların qayda-qanunlarının əksinə hərəkət edərək, insanlıq çeşməsini mürüvvətsizlik torpağı ilə doldurdu, elçini öldürmək kimi qəbahətli işdən çəkinmədi və təbiətin o gözəl cavanını yoldaşları ilə birlikdə güllə əvəzinə böyük topun lüləsinə qoyub qalaya tərəf atdı və o mürüvvətsiz padşahın zülm atəşi onun varlıq libasını yandırdı, onun həyat şahbazı din və dövlət yolunda müqəddəs aləmə pərvaz etdi.

Onun vəziyyəti bu misralara uyğun gəlir

**Beyt**

*Zülmkar sandı ki zülm edib bizə,*
**s.727** *Amma zülm özünün boynunda qaldı.*[2]

Baş vermiş hadisələrin gərçəkliyi və o əhvalatın ağırlığı haqqında şirin sözlü qələm öz mə'lumatını verdi. Xoş gərdişli qələm bəyan meydanında həmin uca sülalədən mümkün qədər çox yazdığı üçün, indi elə vaxt gəlib çatmışdır ki, söz ipinin ucunu ələ alıb öz məqsəd yolumuza (şare'ye-məqsud) üz tutaq, bəlağət nişanlı qələmin köməyi ilə sözümüzün

[1] Fikrimizcə, bu qardaşın adı Əbu Qalib olmalıdır. Yuxarıda yazıldığı kimi Əbu Talib bəy atası Hatəm bəy Ordubadinin vəfatından sonra onun yerinə dövlətin baş vəziri oldu.

[2] Beytin farscası:

Pendaşt setəmgər ke, setəm bər ma kərd,
Dər gərdəne-u bemand-o bər ma bogzəşt.

əvvəlinə qayıdaq. Xülasə, ə'lahəzrət zillələllah şah Ordubad qəsəbəsinə gedəndə mərhum Hatəm bəyin e'timadlı adamları onun şərəfinə böyük ziyafətlər verdilər. O, yerin ağıllı
s.728 adamları və böyükləri onun görüşünə gəlib sədaqət və fədai-
(511) liklə, öz ümid gözlərini ona dikdilər. O həzrət də onlara iltifat və mərhəmət nəzəri saldı, uca sülaləyə məxsus həmin ürəkaçan yerlərin gözəlliyini fərəh və heyranlıqla seyr edib, oranı öz hümayun qədəmləri ilə bəzədi. Orada mehmanlığa layiq bir məclis quruldu, hüri və qılmanlar kimi gələn gül üzlü gözəllərin atəşin və gülgün rüxsarları o behişt misallı məclisi bəzədi, reyhani meylə dolu qədəhlər əllərdə dolanmağa başladı. Onlar nışat və şadyanalıqla bir neçə gün şənləndilər. Cəm iqtidarlı Asəfin mülazimləri belə ləziz yeməklər, içkilər və müxtəlif meyvələrdən ayrılmadılar. Hər bir ne'mətdən o qədər gətirmişdilər ki, bundan artığı təsəvvürə belə gəlmirdi. Bu minvalla o cənab bir neçə gün geniş süfrə açdı ki, dövlətin bütün əmirləri və başçıları, padşaha yaxın adamlar və dərgah mülazimləri onun yanında qaldılar. İrəvan qalasının tə'mirini başa çatdıran əmirlər və ə'yanlar dəstə-dəstə gəlir, öz dərəcələrinə uyğun şəkildə şaha qulluq göstərirdilər. O həzrət ona xidmət göstərənləri, çalğıçıları və nədimləri qiymətli xəl'ətlər və ən'amlarla mükafatlandırdı.

Bir neçə gündən sonra padşah Ordubadın görməli yerlərini seyr etmək istədi. O cümlədən Vənənd adlı bir yer ki, oranın mö'təbər və lətif yerlərindəndir. Vənənd bir dağın ətəyindədir və orada bir dərə də vardır. Dərənin hər iki tərəfində çoxlu meyvəli bağlar və bostanlar, saf sulu çayları vardır. O yerdə bə'zi ali *nəsiriyyə*[1] təbəqəsindən olan adamlar yaşayırdılar və o yerin ən gözəl yerləri həqiqətən də onlara mənsubdur. Orada da o alicənabın sərkarı tərəfindən Ordubadsayağı (be dəsture-Ordubad) ziyafət verildi, ehtiyaclar tə'min olundu. Mizbanblıq bir dəqiqə belə ləngimək bilmirdi. Oradan, əhalisinin əksəri əhli-zemmə[2] məsihiləri, bir hissəsi isə müsəl-

---

[1] Nəsirəddin Tusinin mənsub olduğu "nəsiriyyə" təbəqəsi – *Ş.F.*

[2] Əhli-zemmə – Zərdüştlər, cuhudlar və müsəlman torpaqlarında yaşayan xristianlar belə adlanır (Bax: D-r M.Moin. Göst. lügət, c.I, s.1411)

man olan Kəlis [Klis, Əklis-? – *Ş.F.*] qəsəbəsini seyr etməyə təşrif apardılar, onların mənzillərini öz gəlişləri (hozur) ilə nurlandırdılar, fərəhlərini artırdılar.

O yerlərin seyrindən və tamaşasından sonra Ordubada tərəf qayıtdılar və o gözəl yer yenidən hümayun padşahın gəlişi ilə İrəm bostanının qibtəsinə səbəb oldu. Şahın fikri Qarabağa getmək və Şirvana yürüş etmək idi. Ordubaddan Qarabağa gedən və ***"Əli dərəsi"*** adlanan yol dağ arası dar bir yoldur ki, oradan iki süvarinin yan – yana keçməsi olduqca çətindir. Fərman belə oldu ki, ləşkərin əmirləri, əyanları və müxtəlif tayfalar qoşun-qoşun və hissə-hissə o yoldan keçərək düzəngahları və otlaq yerləri olan ***Çuldər*** və ***Bərgüşadda*** toplansınlar. Həmin yolu keçməyin çətinliyi və saysız-hesabsız əsgərin keçidini gözləməkdən ötrü şah on günədək gözəl Ordubadda qaldı və işrətlə məşğul oldu, o yerin sakinlərinə
**s.728** kam bəxş etdi. İzzətli nəsiriyyə sülaləsindən olanlar, mərhum e'timadüdövlənin qohumları və dostları onun xidmətində dayandılar, xalqın alqışlarına səbəb oldular. Həqiqətən də, həm dost, həm düşmən, həm həsədkar, həm də ziddiyyətdə olanlar (əzdad) şaha öz tə'rif və razılıq (təhsin) dilini açdılar. Ə'lahəzrət zilləllah şah yenidən şadyanalıq edib, onların hamısını gözəl xəl'ətlərlə sərəfraz etdi. Hümayun ordu [üzvləri] oradan öz məqsədlərinə doğru hərəkətə gəldilər. İrəvana getmiş olan əzəmətli əmirlər və müzəffər əsgərlər vaxtın tələbi ilə ətrafını qazmış olduqları sabiq qalanın hər tərəfini qızılbaş tayfaları və ləşkər dəstələri arasında bölüşdülər, hərə öz işinə başladı və az bir vaxtda qalanın inşasını bitirdilər. Ordu başçıları oraya zəruri azuqə və silah daşıdılar, ali əmrə görə qalanı Əmirgunə xana tapşırıb oradan çıxdılar, yuxarıda yazıldığı kimi, yavaş-yavaş "Əli dərəsi"ndən keçərək Çuldər və Bərgüşadda toplandılar, sonra isə müzəffər orduya birləşdilər.

## MÜZƏFFƏR ŞAH MƏİYYƏTİNİN ŞİRVAN VİLAYƏTİNİN FƏTHİ ÜÇÜN YÜRÜŞÜ VƏ ALLAHIN İNAYƏTİ İLƏ QƏLƏBƏ ÇALMASI

Bu xeyir amallı yürüş haqqında xəbər vermək üçün bizim gülşəndə avaza gələn qələm bülbülümüz belə oxumağa başladı:
**s.729** ladı: Şahın nurlu xatiri İrəvan qalasının təmirindən və rumi-
**(512)** lərin yürüşündən arxayınlaşdığı üçün müzəffər ordu ***"Əli dərəsi"***ndən keçib ***Çuldər və Bərgüşadda*** dayandı. Səfər müddəti və yasaq dövrü artıq dörd ilə çatdığı, həmçinin iki il olar ki, taxıl qıtlığı yarandığı üçün Azərbaycanın hər bir mahalında aclıq tüğyan edirdi. Taxılın qiyməti sür'ətlə [təs'ir] qalxmışdı. Ləşkərin zəif adamları mal yeminin çatışmazlığı [əliqəd-dəvab] səbəbindən at-ulaqsız qalmış, xidmətlərini piyada yerinə yetirirdilər. Qoşun başçıları tövlələrin çoxunu səhra otu [yığmaq] üçün hazır vəziyyətdə saxlamışdılar. Heyvanlarda güc qalmamışdı.Yasaq dövrünün uzanması nəticəsində ləşkərdə yaranan nizamsızlıq gəlib elə bir həddə çatmışdı ki, aqil adamların nəzərincə Şirvana o zaman yürüşə başlamaq münasıb görünmürdü. Dövlət ə'yanlarının heç birisi də bu vaxt Şirvana getməyi məsləhət bilmirdi. Amma ötən illərin təcrübəsi onu göstərirdi ki, rumilərdən bu il hərəkət görünmədiyi üçün, onlar, şübhəsiz ki, bol tədarük görərək gələn baharda buraya lazımi səviyyədə gəlib çıxacaqlar. Şirvan yasağı isə ləşkərin nizamsızlıq və pərişanlığına səbəb olduğundan müxaliflər gəlib-çıxan zaman onlarla qarşılaşmaq qalib əsgərlərin qüdrət və qüvvətindən xaric bir hal olacaqdı. Buna görə də, İraqa qayıtmağı, sursat yığmağı və gələcək yasaq ləvazimatını hazırlamağı münasib bilirdilər. Amma qeybdən gələn bir səda və gözəgörünməz xəbər gətirənlərin verdikləri xəbərin tə'siri ilə Şirvan fəthinin müjdəsinə yetişmək ə'lahəzrət şahın ilhamlı beynində özünə möhkəm yer tutmuşdu, amma bu yürüşün bu il zəfərlə nəticələnəcəyi ehtimalı qətiyyən yox idi. Çünki, rum ləşkərinin geriyə qayıdışına görə fürsət əldən çıxmış, qalaların rum hakimiyyətinə və qoruyucularına heç yandan kömək gözlənilmirdi. Hal-hazırda

fürsəti əldən vermək hərb işindən uzaq bir məsələdir. Buna görə də, İlahinin inayətinə bel bağlayıb [qızılbaşlar] o tərəfə hərəkətə başladılar.

Əvvəlcə, şah izzət büsatına mənsub adamlardan biri olan huşyar və bacarıqlı *Kor Xəlifə Rumlunun oğlu Məhəmməd bəyi* Şamaxıya göndərdi.

Gəncə qalasındakı rumilərə lütfkarlıqla dolu bir namə yazıb ona verdilər və həmin namədə bir çox ürəkaçan nəsi-
**s.729** hətlər bəyan etdilər. Xülasə, orada belə yazılmışdı: "Biz cahanı gəzən fikir atımızı irsi mülkümüz olan Azərbaycan və Şirvanı fəth etmək üçün yürüş meydanına doğru hərəkətə gətirdiyimiz gündən bu günədək fütuhat qapıları qapılar açan Allahın icazəsi ilə bizim dövlətimizin övliyalarının üzünə açıq olmuşdur və bunun nəticəsidir ki, o məmləkətlərin fələyədək ucalan bütün qalaları az bir vaxtda əlimizə qayıtdı. Amma bu il rum ləşkəri hərəkətə başlamadı, gələn il də sizə kömək yetişəcəyi təsəvvürə sığmır. İndi siz öz halınızı və əhvalınızı düşünüb ağıl və düşüncəyə tabe olaraq gərək müqayisə edəsiniz ki, Gəncə qalasını mühasirəyə alan rumilərin inadkarlığı onlara nə verdi, Tiflis və Tumanus qalalarındakı rumilərin qala tutmaq inadından əl çəkmələri necə əmin-amanlıq yaratdı? Bu sözlərdən bizim məqsədimiz budur ki, əgər onlar müxalifətə və qala tutmağa yenə də israr edərlərsə, Allahın köməyi ilə bizə fəth və zəfər üz verdikdən sonra bir daha bizdən aman istəməsinlər. Belə olan halda mühasirədəkilərin qanının günahı sizin öz boynunuzda qalacaqdır".

Məhəmməd bəy qayıdana və rumilərdən bir xəbər gətirənədək şah *Arasbarda* bir neçə gün işrət və şikarla məşğul oldu.

Məhəmməd bəy Şamaxıya çatdıqda *Əhməd paşa* və rumiyyə böyükləri qəzavü qədər fərmanının (şah məktubunun – *Ş.F.*) məzmunu ilə tanış oldular və bir-birləri ilə məsləhətləşdilər. Ata-babadan Şirvan şeyxzadələrindən olan, məqbul xidmətinə görə rumilərin arasında əmirliyə və paşalığa layiq görülən Şəmsəddin paşa rumilərə bəyənilmiş xidmət etdiyinə görə əmirlik və paşalıq mərhələsinə layiq görülmüş və onların

tərəfdarı idi. Rumilər bu paşanın məsləhətindən çıxmırdılar. Şəmsəddin paşa fırıldaqçı və hiyləgər şeyxlər kimi hərəkət edib rumiləri məkr və əfsunla düzgün yoldan çıxarıb hiylə dükanını açdı, istədi ki, qızılbaş ləşkərini indi hiyləgərliklə Şirvana gəlməkdən çəkindirsin. Sədaqətdən uzaq olan, yaltaq sözləri dilinə gətirib Məhəmməd bəyə belə izhar etdi: "Şirvan vilayəti İran padşahının mülazimlərinə aiddir. Amma bizim və ev ləvazimatları olan rum ləşkərinin bu qışın soyuğunda buradan çıxıb getməyi olduqca çətindir. Biz indi Şamaxı qalasından kənar ola bilmərik. Xahiş edirik ki, həzrət şah üş-dörd ay da bizə möhlət versin, qoy Arasbarda və oraya yaxın yerlərdə seyr və şikarla məşğul olsun. Gediş-gəliş yollarının açılacağı bahar günlərində isə biz, əgər şahın mübarık razılığına müvafiq hərəkət etməsək, nə istəsələr onu da etsinlər".

Amma, qohumları ali orduda olan Şamaxı şahsevənlərinin bir dəstəsi şaha xəbər göndərib ərz etdilər: "Əhməd paşa və
s.730 rumiyyə ağaları onlara kömək göstərilməsindən ötrü Şəmsəd-
(513) din paşanı artıq İstanbula göndərmişlər. Onların məqsədi Şirvan qalası və bu məmləkətdən əl çəkib, möhkəmlik baxımından bütün dünyada məşhur olan Dərbənd qalasına gedərək Dağıstana arxalanmaq, bu qışı orada keçirmək, sonra isə gələn bahar fəslində kömək gözləyib, vaxtin tələbinə görə hərəkət etməkdir".

Elə bu əsnada Şəmsəddin paşa *Kəffə yolu* ilə gələrək, cənab xandgardan şaha nəvazişli məktub, osmanlı dövlət başçılarından isə Şirvanın hakimlərinə namə gətirdi. O, onlara bildirdi: "Sizin köməyinizə bir neçə min yeniçəri yollanıb, artıq Kəffəyə gəlib-çıxmışlar, yaxın vaxtlarda burada olacaqlar. Böyük bir orduya sərdar da təyin olunmuşdur ki, baharın əvvəlində gələcək, tatar valisi Qazi Gəray xan isə öz tayfası ilə birlikdə Şirvana yürüşə başlayacaqdır. Belə ki, saysız-hesabsız rum ləşkəri iki tərəfdən gəlməkdədir". [Şəmsəddin paşa] şirvanlıları möhkəm dayanmağa və qalanı əldə saxlamağa rəğbətləndirir, öz fikirlərindən dönməməyə təhrik edərək onlara deyirdi: "Bütün qütblərin [əqtab] övliyaları mənə xəbər vermişlər ki, qızılbaş ləşkəri Şirvanı tuta bilmə-

yəcək. Onlar əgər o vilayətə gələrlərsə, məğlub olacaqlar və onlardan Şamaxı qalasına və qaladakılara heç bir xəsarət
s.730 dəyməyəcəkdir".

Yüngül fikirli sadəlövh şəxslər və peşələri səfahət olan səfeh adamlar Səmsəddin paşanın – *o ikinci Şəyyadın, Ömərin və Asın** yalan sözlərinə inanıb, müxalifətə və qalanın müdafiəsi sevdasına düşdülərsə də, hiyləgərliklə özlərini bu qış qızılbaş hücumundan qorumaq fikrində qaldılar, baharda isə onlara köməyin və tatar ləşkərinin gəlib çatacağını gözləməyə başladılar. Şahın işıqlı beyninə o məkrli adamların hiyləsi mə'lum olanda ə'lahəzrət onların təklifi ilə razılaşmayıb müzəffər ordunun dayandığı Arasbarın Xanarxı adlı yerindən çıxdı, mübarək ramazan ayının otuzunda Kür kənarına gəlib çatdı.

Rumilər Cavaddakı körpü yolunu kəsdiklərindən, həmin yerlərdə çaydan keçmək mümkün deyildi. Buna görə də, qızılbaşlar öz mallarının böyük hissəsini çayın bu tərəfində qoyub lazımi şeylərini keçirməkdən ötrü ağac və qamışdan sal düzəltdilər, at və dəvələri üzə-üzə sahilə çıxmaqdan ötrü suya tərəf qovmağa başladılar. Beləliklə, ertəsi gün çayın o biri tərəfindən çıxaraq ***Qarasuda*** dayandılar, ***Üqbə və Yasamal*** yolu ilə Şamaxı şəhərinə yollandılar. Gəlib çatan ləşkərlər, bazar əhli və ordunun başqa adamları çayı on günədək əzab-əziyyətlə keçib dəstə-dəstə hümayun orduya birləşdilər. Həqiqətən də, o zaman həmin çaydan keçmək ağır və mümkünsüz bir iş kimi görünürdü, çünki soyuğun şiddəti üzündən buz parçaları və qar qalaqları suyun üstünü bürümüşdü. Bu keçid zamanı müzəffər əsgərlərə çox ziyan dəydi, o qədər mal-qara və dəvə suda qərq oldu ki, saya gəlmədi.

Xülasə, hümayun ordu *Yasamaldan* keçdi, mübarək ramazan ayının onu (9 yanvar, 1607), çeşənbə günü sübh tezdən qızılbaşlar ləşkəri nizama saldılar, qalanın yaxınlığına gəlib çatdılar, ehtiyatla şəhər və qala ətrafına nəzər saldılar, qalanın qərb hissəsində yerləşən iki dağın arasında, qaladan dörddə bir fərsəx məsafədə dayandılar. Təxminən dörd min nəfər olan rumiyyə döyüşşüləri qala qapılarını öz üzlərinə bəxt və səadət qapıları kimi bağlayıb, hərb alətlərinə əl uzatdılar.

## ŞAMAXI QALASININ MÜHASİRƏSİ VƏ MÜHASİRƏ VAXTI HƏZRƏT ALLAHIN TƏQDİRİ İLƏ BAŞ VERƏN HADİSƏLƏRİN ZİKRİ

Səadətli ordu qala ayağında dayananda hava bərk qaraldı
və səma minlərlə göz ilə ağlamağa başladı, yağmurun çoxlu-
ğundan palçıq o qədər çoxaldı ki, çadırlar və ordubazar ara-
sındakı yolu keçmək həm piyadalar, həm də süvarilər üçün
s.731 çox çətin oldu, xarici yollar bağlandı, ləşkərin azuqəsi azal-
mağa başladı, ərzağın nırxı yuxarı qalxdı, arpa və saman
s.732 yoxa çıxdı. Qoşunun halının və ləşkərin əzabının bir qədər
(514) yüngülləşməsindən ötrü şah hökm etdi ki, qalibiyyətli əsgər-
lər qala ayağında saxlanması zəruri olan yük və minik ulaq-
larını həmişə quru və yaş ot ilə bol və isti havası olan ***Kür
çayı*** səhrasına yollasınlar. Buna görə də, ordunun əksər his-
səsi öz yük və minik ulaqlarını yem qıtlığı üzündən adı çəki-
lən səhraya göndərdi. Üç ay müddətində başını hicab niqabı
altında gözlədən günəş üzünə pərdə çəkdi, qara bulud arxa-
sından öz çöhrəsini göstərmədi. Hava əksər vaxt buludlu və
yağıntılı oldu və o iki-üç ayda əskərlər böyük çətinlik çək-
dilər. Orucluq [sovm] ayı bitdikdə əlahəzrət zilləllah şah
qalanı tutmağa yollandı.

*Şamaxı şəhəri* [böyük yolun] ortasında yerləşir. Qala və şəhər [ərazisi] dərə boyunca uzanıb gedir, amma rəiyyətin məskən və evlərinin mövcud olduğu əsas şəhər dağın cənub ətəyindədir. Keçmiş hakim və sultanların evləri dağın şimalındadır ki, onun ərazisi şəhərin ərazisindən yuxarıda yerləşir. Rumilər o evlərin hər birini bir qala şəklinə salmış və iki qalanı bir-birinə birləşdirmişlər. Şimal səmtindəki uca qalada daş və əhəngdən inşa olunmuş ali bürclər vardır ki, uca olduqlarına görə onları fəth etmək olduqca çətindir. [Qala] elə möhkəmdir ki, divarlarında heç bir çat yoxdur. Ali bürclərin müqabilindəki şimal yolundan qalaya seybə gətirib çatdırmaq xeyli müşkül bir işdir.

Hamı şəhər və qalanın hər tərəfini öyrəndi, murçəllər* müəyyənləşdi. Şimal səmti *Allahverdi xana* tapşırıldı. Şəhərə,

qalaya və ali orduya tərəf uzanan qərb istiqamətində isə əvvəlcə qorçibaşı və əzəmətli qorşilərin seybələri yerləşdirildi. Onlardan sonra *Zülfüqar xanın və Azərbaycan ləşkərinin*, sonra *Qərçiqay bəyin*, qulamların və tüfəngçilərin, daha sonra Kirman hakimi *Gəncəli xanın*, nəhayət qərb tərəfdə *Əliqulu xan Eşikağası Şamlının* seybələri qərar tutdu. Başqa müzəffər əmirlər və əsgərlər həmin seybələrə köməkçi təyin olundular. Şərq tərəfə isə heç kəs təyin olunmadı. Amma seybə üçün zəruri olan avadanlıq və təchizat qala ayağında olmadığından və gətirilməsinin də, yağmur və palçığın çoxluğu üzündən, çətin olduğundan iqbal qoşununun mübarizləri əlacsız qalaraq, padşahın göstərişi ilə uzaq yoldan lağım atmağa başladılar. Onlar hər qədəmdə bürclər ucaldır, ətrafında isə xandalar qazırdılar. Lağım atanların qorunmasından ötrü lazımi qədər tüfəngçi və oxçu döyüşçü təhkim olundu. İş beləliklə irəliləyir, gecə-gündüz yağmur yağmasına baxmayaraq, aramsız halda seybələrdə iş davam edirdi. Rumilər qürur üzündən, heç kimin olmadığı şərq və cənub qapılarından çıxıb, dağ ətəyində səf çəkir, döyüşə hazırlaşırdılar. Onlar bəzən irəli gələrək, cəng ahəngi qaldırırdılar. Bu tərəfdənsə, əsgərlər qala döyüşündə zərurət olmadan atların çoxunu səhraya göndərmişdilər, amma buna baxmayaraq, müxaliflərin sədəmələrinə qarşı çıxıb, onları [cəng üçün] barılardan yerə endirə bilmirdilər. Müxaliflər öz ağılsızlıq qədəmlərini günü-gündən artırır, onlar ali ordu igidlərinin yolunu kəsir, döyüşə başlayırdılar. Bu vəziyyət atları olan qoşun başçıları və dərgah mülazimlərinin şahın danlağı ilə səhraya gedib oradakı atları geri gətirənədək davam etdi. Müxaliflar yenə
**s.732** də bir-iki dəfə qaladan çıxıb cəng etdilər və onların sədəmələri nəticəsində qalibiyyətli qoşun dəstəsi məğlubiyyətə düçar ollaraq geri qayıtdı. Qalaya doğru yaxınlaşmaqda olan murçəllər və seybələr möhkəmləndirildi. Əsgərlər hərçənd ki, bir neçə dəfə qala divarlarına çıxır, düşmənlərin seybələrinə hücum edir və qala əhli ilə döyüşürdülər, amma məqsədə yetmədən kor-peşiman geri qayıtdılar.

Bu tərəf seybəni get-gedə irəli aparıb, lağım atılmasını başa çatdırdı. Gəncə qalasının mühasirəsi zamanı düzəldilən və Gəncədə qalan böyük topların, hökmə görə, Şamaxı qalasının ayağına gətirilməsi tapşırıldı. Qalanın fəthindən əvvəl biçarə adamların qorunmasından ötrü hakim təyin olunmasına ehtiyac olduğundan, şah bu yüksək mənsəbi *Zülfüqar xan Qara-*
**s.733** *manlıya* inayət etdi, ***Şamaxının bütün yerləri, mülkiyyəti və***
**(515)** ***bütün Şirvan vilayəti ona verildi.*** Şamaxı qalasının mühasirəsi müddətində orduya bə'zi fütuhat nəsib oldu ki, onlar barədə yazmaq zərurətdir. Buna görə də həmin fütuhatlar barədə məlumat verməklə məqsədimizə çatarıq, inşallah.

## FƏLƏK UCALIQDA OLAN BADKUBƏ* VƏ DƏRBƏND QALALARININ TAYI – BƏRABƏRİ OLMAYAN XUDAVƏNDİN İSTƏYİ, İQBALIN VƏ ƏBƏDİ DÖVLƏTİN GÜCÜ İLƏ [GERİ] ALINMASININ ZİKRİ

Maddi dövlət işlərindən xəbərdar olanlardan və mə'nəvi səltənətin üstüörtülü sirrlərini açanlardan gizli deyildir ki, bu cahanı yaradan Dadar (Allahın adlarından biridir – *Ş.F.*) [zilləllah şahın] səadətmənd amallarının üzünə zəfər qapılarını açarsa və onun dövlət bayrağı asimana qədər ucaldılarsa, səltənətin işləri iqbal qoşununun vasitəsilə tənzimlənər, müşkül düyünlər və çətin işlər, əgər onlar təfəkkür sahiblərinin gözünə çətin görünsə də, qeyb sirləri üzərindən pərdəni götürənlərin köməyi ilə asanlıqla aradan götürülər.

Buna misal olaraq fələk ucalıqda olan ***Badkubə*** və ***Dərbənd*** qalalarının geri alınmasını göstərmək olar. [Badkubənin] bir tərəfi Xəzər dənizinə bitişikdir, quru tərəfdə olan hissəsi isə elə möhkəmləndirilmişdir ki, oraya çıxmaq xəyal əndişəsindən uzaq bir işdir. ***"Babül-əbvab"***** və ***"Sədde-İskəndər"****** adlandırılan o biri qala isə narınqalasının ucalığı və dənizin ortasına qədər çəkilmiş şəhər divarlarının hündürlüyünə görə heç bir təsvir və bəyana sığmır. Cahanı tutan ordunun Şirvana yürüşü zamanı rumilər Şirvan vilayətini tərk edib, Dərbənd qalasına getmək fikrindəydilər.

Amma, igidlik (cəladət) ərbabı və uzaqgörən (bəsarət) əshabdan heç kimin ağlına gəlmirdi ki, göyə ucalan o iki qala fəth oluna bilər. Rumilərin isə bəsirət gözü idbar toz-torpağı ilə qaralmış və örtülmüşdür. Buna görə də onlar Şamaxı qalasına girib əzab-əziyyətlə yaşayır, həmin qalaların zəbti barədə düşünmürdülər. Halbuki, hər iki qalanın kutval və gözətçilərinin sayı azı-çoxu iki-üç yüz adamdan da az idi ki, onların əksəriyyəti oranın yerli adamlarından ibarət idi. Həmin adamlar döyüşçülər silkinə mənsub olduqlarından ülufə və timar sahiblərinə çevrilmişdilər.

Hümayun izzət və cəlal ordusunun Şamaxıya gəlməsindən bir neçə gün keçəndən sonra iqbal əsgərləri mühasirə əməliy-
**s.733** yatına başladılar. *Badkubənin* bə'zi sahibləri özlərinin ayıq-sayıq bəxtlərinə görə müqəddəs [səfəvi] xanədanın tərəfdarı olduqlarını dildə şüar edərək get-gedə əhalini öz tərəflərinə çəkmiş, onlarla danışığa girmiş, kutvala və qalanı qoruyanlara qəsd etməyi qərara almışdılar, amma, onların hələ bu qərarın möhkəmliyinə və bütün əhalinin onlarla əlbir olacağına tam inamları yox idi. Bu vaxt qala kutvalı və onun mülazimləri onların gümanlarını alt-üst edərək qarşı çıxdılar və inadkarlıq məqamında durdular. Qəsdçilər elə düşündülər ki, rumilər onların məqsədlərindən tamamilə agah olublar. Onlar buna görə də uzaqgörənlik edib, öz yoldaşları və onlarla əlbir olan adamlarla birlikdə kutvalın üzərinə hücuma keçdilər, onu və adamlarını tutdular, etiraz əlaməti kimi döyüşə girənlərin hamısını qətlə yetirdilər. Rumilərə mülazimlik edən və beləliklə də timar sahibi olan yerli əhalinin bir dəstəsi qorxudan müdafiəyə qalxmayaraq, künc-bucaqda gizləndi, amma həmin qəsdçilər öz sədaqətlərini ali dərgaha ərz eləyib, əsir tutulanları və öldürülən adamların başlarını dərgaha gətirdilər, bu yaxşı xidmət müqabilində şahanə nəvazişlərə layiq görüldülər. Qəsdçilərin çoxuna qiymətlər xəl'ətlər, ən'amlar və soyurqallar verildi, müxaliflər tərəfindən Badkubə camaatından zəbt olunmuş var-dövlət ənam kimi onlara təqdim olundu. Beləliklə, o möhkəm qala çox asanlıqla ələ keçirildi, oraya müdafiəçilər tə'yin edildi.

Elə ki, *Badkubə sahiblərinin* bu dövlətxahlığı Şirvan vilayətində yayıldı, əksəriyyətinin rumiyyə adamlarının mülazimi kimi əsgərlər silkinə daxil olduğu Dərbənd əhalisi də öz yerlərini tutmaq üçün dövlətxahlıq məqamına gəldilər. Mərhum həzrət cənnətməkan şahın hakimiyyəti zamanı Şirvanda bəyənilən işlər görən və bir dövlətxah kimi cənnətməkanın şəfqətinə layiq görülən adamların biri olan *Xacə Məhəmməd Dərbəndinin* oğlu bu fikrin yerinə yetirilməsindən ötrü başqalarına nisbətən daha şox çalışıb dövlətxahlığı özünə şüar etdi. Gəncə ülkasının cah-cəlal ordusunun çadırları altında olduğu vaxtlarda əlahəzrət şaha həmişə öz sədaqətini bildirən *Usmi xan Qaytaq* öz bəxti və dövlətinin
**s.734** göstərişi ilə şahın yanına gəlir və özünün sədaqət və səmi-
**(516)** miyyətini ərz edirdi. Buna görə də, şah Dərbənd ülkasını ona vermiş, həmin usmi Dərbəndin idarəçilik sənədini *Alkit çayı* yurdunda əlinə götürüb geri qayıtmışdı.

**Dərbəndin fəthi:** Dərbənd sahiblərinin rumiyə itaətindən boyun qaçırıb, bu müqəddəs xanədana tabe olmaq yoluna düşdükləri vaxt onlar Usmi xanın yanına adam yollayıb, onu Dərbəndə çağırdılar. *Usmi xan* iki yüz-üç yüz nəfər *qaytaq camaatı* ilə gəlib Dərbəndə çatdı. Şəhər əhalisi şahsevənlik şüarı ilə darvazanı açaraq onu şəhərə gətirdilər. O vaxtlarda paşalıq rütbəsi ilə Dərbənd hakimi mənsəbinə sahib olan və qalanı qoruyan məşhur *Həsən paşa Kərəz* bu halın baş verməsindən iztiraba düşərək, özünü narınqalaya verdi, əsl rumlu olan altmış-yetmiş nəfər etibarlı adamı ilə oranı qorumağı qərara aldı. Xacə Məhəmməd Dərbəndinin oğlu bir dəstə dərbəndli və Usmi xanın bir neçə mülazimi ilə şahın dərgahına gələrək, onunla görüşmək səadətinə yetdilər. Ə'lahəzrət şah bu yaxşı hərəkət müqabilində onları qiymətli xəl'ətlər və daş-qaşla bəzənmiş hərb alətləri ilə başıuca etdi, onlara aid olan mülklərin vergilərini soyurqal sifəti ilə onlara bağışladı, şəhər camaatını divan vergilərindən azad edərək, onların adını vergi dəftərindən çıxardı. O, Usmi xanın adına bir məhəbbətnamə [mənşure-atifət] sadır edib, onu öz yaxşı rəftar tərzi ilə rəğbətləndirdi. İşgü-

zarlığı ilə məşhur olan xasseyi-şərifə qulamı *Mənuçohr bəyə* şah bir dəstə *cığatay, xorasanlı, iraqlı* və *bafqi* tüfəngçiləri
**s.734** verib onu qalanın kutvalı təyin etdi, hücumla narınqalanı tutmaq əmrini verdi.

Bə'zi əmir və əsgərlər də, o cümlədən uca xan rütbəsi ilə müqəddəs Məşhəd hakimi mənsəbinə ucalan *Şahnəzər bəy Təvəkküli*, habelə *Şahqulu Sultan Mirbayat, Ne'mətulla Sultan Mirsufi* və başqaları onların köməyinə göndərildilər.

Çığataylar və adları çəkilən adamların hamısı Dərbəndə çatıb Usmi xanla birlikdə narınqalanı tutmağa sə'y etdilər. Bürc və barıların altından lağımlar atıb, mühasirədəkilərin işini çətinləşdirirdilər. Qalanı mühafizə etməkdən və döyüşməkdən aciz qalan Kərəz Həsən əlini aman ətəyinə uzadıb əmirlərin yanına adam yolladı və dedi: "Əgər mənim halıma şahanə mərhəmət olunarsa, yoldaşlarımın və başqa adamlarımın canları və mallarına toxunulmazsa qalanı təslim edib, şah dövlətsarayının qapısına gedərək əynimizə o dərgahın mülazimət libasını geyərik".

Əzəmətli əmirlər onun təklifini şaha ərz etdilər və adına əfv olunma hökmü sadir oldu. Əmirlərə tapşırıldı ki, onu arxayınlaşdırıb xalqların pənahı olan dərgaha yollasınlar.

Kərəz Həsən istər-istəməz qalanı əmirlərə verib ümid üzünü fələk əzəmətli dərgaha tutdu, mülazimlik səadətinə çatdı. Həmin ağır sədd və o möhkəm hədd[1] ki, onun bir tərəfi Əlbuzz adı ilə məşhur olan uca dağlardır, orduların həmin yerlərdən keçib-getmələri cox çətindir. Qalanın başqa tərəfi isə ***Xəzər dənizinə*** bitişmişdir ki, ***Dəşti-Xəzərdən**** və ***Qıpçaq diyarından***** Şirvan vilayətinə gələnlərin həmin ağır səddin ortasında olan və ***Babuləbvab*** adlanan darvazasından keçmələri mümkün deyildir, amma ora iqbalın və asimani qüvvənin gücü ilə məğlubedilməz dövlət övliyalarının əlinə keçdi. Dərbəndin fəthi barədə *Mir Cəlaləddin Həsən* Səlayi belə bir [maddeyi]-tarix demişdir:

---

[1] Dərbənd qalasına olunan təşbihdir – *Ş.F.*

**Qit'ə**

*Bir səda gəldi qeybdən ki, belə söylərdi:*
"*Fəthe-Dərbənd*" *sədası elə ki yüksəldi,*
*Belə tarix oxudum mən kitabında ürəyini;*
"*Fəthe-Dərbənd hümayun-hümayun gəldi*".[1]

O, vilayətin dünyagörmüş adamları deyirlər ki, sabiq zamanlarda çöl tərəfdən Şirvana bir karvan gələrdisə gələn adamlar Dərbəndə çatdıqları vaxt axşam düşdükdə onlar səhər açılanda darvazadan keçmək üçün miniklərindən yerə düşürdülər, ertəsi gün qapıçılar qapını açdıqda orada karvandan və karvandakılardan əsər-əlamət görmədilər. Keçid üçün başqa bir yol olmadığından məlum olurdu ki, onlar şəhərə bitişik olan dənizin sahil suyundan keçmişlər, çünki orada dərinlik yoxdur və dənizin enib-qalxması zamanı dəniz kənarının dayazlaşmasına görə sahil suları azalır, at və dəvənin keçməsi asanlaşır.

Ə'lahəzrətin cahanı bəzəyən rəyi Babüləbvabın möhkəmləndirilməsinə doğru yönəldi. O, bürclərin və o qədim səddin divarlarının təmiri üçün *Qənbər bəy Səlihdarbaşı Gözüböyüklünü* sərkar təyin edib, fərasətli me'mar və mühəndisləri də ona qoşaraq belə əmr etdi: "Dənizin quru ilə bitişdiyi heyvanlar keçən bu az sulu yerdən irəli gedib heç kimin keçə bilmə-
**s.735** məsi üçün uca bir ali bürc inşa etsinlər, sonra dənizin uc
**(517)** tərəfinə mümkün qədər çox girib bürcün kənarınadək uzanan hündür divarı çəksinlər və onları bir-birinə birləşdirsinlər; həmin bürcdən *Əlbürz dağının** ətəyinədək bütün bürc və
**s.735** barıları təmir edib, onları elə möhkəmləndirsinlər ki, tamamilə nöqsansız olsun; o ali bürcdə və başqa bürclərdə yuxusuzluğa dözümlü mühafizəçilər yerləşdirilsin, onlar keşik və mühafizə ilə məşğul olsunlar".

[1] Qit'ənin farscası:
Fəthe-Dərbənd ço şod hatefe-ğeybi migoft
Fəthe-Dərbənd be pəs fəth ke məşhun aməd.
Moshefe-del ço qoşadim bər aməd tarix:
"Fəthe-Dərbənd homayun-homayun aməd"

Qənbər bəy me’mar ustadlar və təcrübəli bənnalarla oraya gedib tikinti materialları hazırlayaraq dənizin dərinliyində, münasib bir yerdə bürcün bünövrəsini qoydu. Onlar uzun müddət işlədikdən sonra həmin divarın çəkilişini bitirdilər və o divarı köhnə divara çalardılar.

Nadir hadisələrdən biri barədə belə söyləyirlər: Bürcün inşası üçün təyin olunan yerdə me’marlar, mühəndislər və təcrübəli ustadlar qəribə fənlərə əsaslanaraq bina atılan yeri sudan xalı etdilər və bürcün bünövrəsi inşa olundu. Dənizin içərisində daşdan, kərpicdən, dəmir millərdən tikilmiş bir imarətin qalıqları göründü və məlum oldu ki, qədim zamanlarda, hələ islamın zühurundan əvvəl orada əzəmətli bir bürc tikilmişdir. Dövr ötükcə ya dövranın sədəmələri, həmçinin suyun və tufanın zərbələri nəticəsində həmin bürc uçulub dağılmış, ya da şövkətli padşahlar və müxtəlif ölkə hökmdarları yad ləşkərin gəlib-keçməyinə mane olmaq məqsədi ilə bürcü viran etmişlər. Sonradan həmin məkanda hökmranlıq eləmiş padşahlar o bürcü təmir etmək fikrinə düşməmişlər. *Dəşti-Qıpçağın*[*] *padşahı Xanı bəy*[1] Məlik Əşrəf Çobaninin[**] hakimiyyəti zamanı o yolla Azərbaycana gəlib çıxmış, sahibqıran Əmir Teymur Gürgan İrandan keçib Dəşti-Qıpçaqda Toxtamış xanla[***] (Tuqməs xan) müharibəyə yollananda həmin yoldan keçib getmişdi. Doğrusunu Allah-taala bilir[2].

Xalq arasında belə bir əhvalat məşhurdur: Qurani-məciddə adı çəkilən *Sədde-İskəndər Zülqəzrneyn* elə həmin *Babuləbvab səddidir* ki, səhranın Yəcuc və Məcuc sifətli səhra adamlarının hücumlarının önünü almadan ötrü, dəniz kənarından Əlbürz dağınadək çəkilmişdi. Amma, bu həqiqətə uyğun deyildir, çünki o sədd ***Beytülmüqəddəsin (Əqsa)***[****] şərqi və şimali ərazisində çəkilmişdir ki, Zülqərnaeyn onu adamlar və Yə’cucla Mə’cuc arasında dəmir və qurğuşundan tökmüşdür. Başqa bir məlumatda deyilir ki, Şah Ənuşirəvan Kəsra adam surətinə oxşamayan *Gəşt əhalisinin* hücumlarını rəf etmək məqsədilə o səddi çəkmişdir.

---

[1] Sanı bəy olmalıdır. *Ş.F.*

[2] İfadənin ərəbcəsi: “Allah ə’ləm bihaqiqat əl-hali”

[Adamlar] hansı bir adamasa, "kamil fərd" deməkdən və onu tərifləməkdən ötrü hər şeyi onun adına çıxırlar, amma ehtimal ki, bu sədd olduqca möhkəmliyinə görə mübaliğə tərzi ilə "Sədde-İskəndər" adlandırılmışdır. Doğrusunu [isə] Allah-taala bilər[1]. Bir görün ki, nədən danışırdıq, hara gedib çıxdıq!

Xülasə, bu sədaqətli dövlət övliyalarına qismət olan bu iki möhkəm qalanın fəthi Şamaxı qalasında mühafizədə qalanların pərişanlıqlarına səbəb oldu. Elə bu hadisələrin baş verdiyi vaxtlarda bir neçə müddət bundan əvvəl əlahəzrət şah tərəfindən məhəbbət və dostluğun izharı üçün elçi kimi *Qazi Gəray xan Tatarın* yanına gedən *Hacı Bayram* və həmçinin onun yoldaşı – *Əbülqasım bəy Yüzbaşı Evoğlunun* qohumu *Talib bəy* gəldi və xandan sədaqətlə dolu bir namə və töhfələr gətirdi. Məktubda yazılırdı ki, Qazı Gəray xan özünü bu yüksək xanədanın dostlarından və ona inam bəsləyənlərdən biri sanmışdır. Sonrakı cümlələrdə xan öz sədaqətini, [səfəvilərə] bağlılığını, sabiq işlərini, həbs olunmağını, düşdüyü *Ələmut qalasından* mərhum şahzadə *Sultan Həmzə Mirzənin* diqqət və iltifatı sayəsində çıxarıldığını yazmışdı ki, bu hadisənin şərhi İskəndər şanlı nəvvabın hakimiyyəti dövrünü təsvir edən bu əsərin birinci cildində bəyan olunmuşdur.

Bütün bunlar tatar ləşkərinin kömək gələcəyi barədə *Şəmsəddin paşanın* yalan sözlərinə inanıb Şamaxıda mühasirəyə düşənlərinin yas və ümidsizliklərinə səbəb oldu və onların əlləri gündən-günə işdən və döyüşdən soyudu. Onların vəziyyətləri pisləşməkdəydi. Nəhayət, (rumilərə) öz qürurları üzündən şahın qiymətli məsləhətlərinin tə'siri olmadı, Allahın istədiyi oldu ki, bu haqda gələcəkdə Allahınköməyi
**s.736** ilə yazılacaqdır.[2]

---

[1] İfadənin ərəbcəsi: "əl-elm andə Allah təalə subhən Allahu"

[2] İfadənin ərəbcəsi: "Minhu əl-əanə və-t-tovfiq"

## BƏZİLƏRİNİN HUMAYUN FALLI MİN ON BEŞİNCİ (1606/1607) BƏZİLƏRİNİNSƏ MİN ON ALTINCI (1607/1608) QOYUN İLİNDƏ BAŞ VERMƏSİ SÖYLƏNİLƏN HADİSƏLƏRİN-HUMAYUN CÜLUSUN İYİRMİ BİRİNCİ İLİNDƏ BAŞ VERƏN HADİSƏLƏRİN [ŞƏRHİ]

**s.737** **(518)** Bu humayun fallı ilin novruzu əzəmətli ordunun ***Şamaxı qalasının*** ətrafında dayandığı min on beşinci ilin zuqə'də ayının iyirmi ikisində (21 mart, 1607), çərşənbə günündə vaqe oldu. Həmin vaxt əzəmətli ordu Şamaxı qalasının ətəyindəydi. Dey ayının yağış və şaxta qoşunu üç ayadək niqabda gizlənən günəşin zərrin şüalarında məğlub oldu, dördüncü fələyin dörd pilləli taxtı (ovrəng) fələklərin xosrovu və ulduzları tərəfindən bəyənilmək şərəfinə yetişdi.

Təbiətin bəzəkçisi (məşşatə) çəmənləri bəzəyən gülləri gözəlləşdirdi və bahar məclisini işıqlandırdı, Şamaxı çölləri ot və gül-çiçəklə yeniləşdi, yollardakı gül və palçıq azaldı, sevdalı adamlar gəzintiyə çıxdılar, yemək-içmək sıxıntısı (osrət) aradan çıxdı, rahatlanmağa və şənlənməyə səbəbkar olan təbiətin bahar fəsli bərqərar oldu.

**Beyt[lər]**

*Kamlı şahənşahın taleyindənmi*
*Təzələndi cahan cavan bəxt kimi?*
*Günəşin işığı o qədər artdı*
*Novruz gecəni də tamam ağartdı*[1]

Müzəffər əskərlər fərmana boyun əyərək, qalatutma işlərindən ötrü ətəklərini çırmayıb gecə-gündüz istirahət etmə-

---

[1] Beytin farscası:

Be eqbale-şahənşəhe-kamiran
Cəhan gəşt xorrəm ço bəxte-cəvan.
Befiruziye-xosrove-nimruz
Ze novruz gərdid şəb həmço ruz.

dilər. Top gətirmək üçün göndərilən ***Əmirgunə xanın qardaşı Hüseynqulu bəy Qacar Gəncədə olan daş yağdıran böyük topları*** şahın iqbal qüvvəsi sayəsində Kür çayından keçirərək, arabalarla ali orduya gətirib çıxardı. Topun birini *Allahverdi xanın*, ikincisini isə *Qərçiqay bəyin* seybələrində yerləşdirdilər.

Adına çağırış hökmü sadir olan Təbriz hakimi *Pirbudaq xan* münəzzəm bir qoşunla gəlib humayun orduya çatdı, şahın qəbulunda oldu, qərara alındı ki, o, qalanın hələ heç kimin təyin olunmadığı şərq hissəsində dayanıb, seybəsini oraya tərəf irəli aparsın.

Qalibiyyətli ləşkərin mübarizləri seybələri hər tərəfdən irəli gətirib çoxlu çuval hazırladılar. Dəmir biləkli lağımatanlar lağımları qalanın yaxınlığına qədər çatdırdılar və topçular daş atmağa başladılar.

Yuxarıda yazılmışdı ki, *Gürcüstanın Kaxet hökuməti* Aleksandr xanın nəvəsi *Təhmurəs xana* verilmiş və o, bu ali mərtəbə ilə şərəflənmişdi. Bu istək ilə ali dərgaha gələn Gürcüstan böyükləri və o tayfa başçıları, yuxarıda yazıldığı kimi öz asılılıq iplərini boğazlarından asıb ali saraya gələrək
**s.737** boyun olmuşdular ki, nəzərə az çarpan xidmətləri və keçmiş qüsurları olduğuna görə Şirvan məsələsində, onlara nə kimi əmr olunarsa, bir qul kimi xidmət kəmərini bellərinə bağlayıb onu icra edəcəklər.

Bu vaxt cahanı bəzəyən hökm verildi ki, Təhmurəs xan mükəmməl bir qoşunla Şamaxı qalası ayağına gəlib ona tapşırılan xidmətə başlasın. Lakin daim bir neçə fitnə əhalinin təhriki ilə düz yolundan sapan cahil Təhmurəs xan həmişə dərgaha gəlməkdən boyun qaçırırdı. O, xahiş etdi ki, şah bu dəfə onu ali rövzənin ziyarətinə getməkdən azad etsin, lazımi qədər müəyyənləşdirilən qoşun isə məmləkət işlərinin icrasında onunla əlbir olan anası *Didibal ilə* köməyə göndəriləcəkdir. Ə'lahəzrət buyurdu: "Biz onun xahişinə e'tiraz etmirik, amma onun gəlməməyi səthi düşünən adamların nəzərində sədaqət bağlamaqdan sapma kimi görünə bilər, hamı onu üsyan etməkdə ittiham edər, başqa hakimlərin də

gəlib-çıxmalarına pis təsir edər. Münasibdir ki, onun özü əvvəlcə gəlib mülazimətə başlasın, sonra isə qayıdıb, istədiyi miqdar ləşkəri anası ilə buraya göndərsin”. Təhmurəs xan bu dəfə də fitnəkar adamların təhriki ilə yersiz üzrxahlıq elədi, şahın yanında qalmaq səadətinə yetişmədi. Anası isə bir neçə gündən sonra gürcü döyüşçülərindən ibarət yaxşı-pis min nəfərdən artıq olmayan qoşunla gəlib ali orduya çatdı, münasib bir yerdə dayandı. Bu yersiz hərəkətdən narazı qalmağına baxmayaraq [ə'lahəzrət] həmin qadını, ehtiram əlaməti kimi, şahanə təzimlərlə şərəfləndirirdi, Didibal səltənət qadınları ilə görüşdü, nəvazişlərə layiq görüldü.

Amma gürcü döyüşçülərinin ali orduda olduqları bir neçə gün ərzində onlara heç bir xidmət tapşırılmadı. Həmçinin Dağıstan hakimləri və Çərkəs əmirzadələri də cahana pənah verən dərgaha gəlib-getməyə başladılar. *Rüstəm xanın* qardaşları *Usmi xan Qaytaq, Əli bəy Zaxuri, Təbərsəran valisi Mə'sum xan* və başqaları səltənət mülazimliyi ilə şərəflənib, öz itaət alınlarını ehtiyac torpağına sürtdülər.

Dağıstan camaatı bütünlüklə vəhşisifət insanabənzər məxluq olduqlarından, qeyri-insani vəhşətabad içərisində böyüyən, dostluq və ülfətdən uzaq olan adamlardır. Mə'sum xan heç bir səbəb olmadan qorxuya düşərək humayun ordudan icazəsiz çıxıb getdi, Təbəristan yolunu tutdu. Əlahəzrət isə onun dalınca qiymətli xələtlər nə inayət məktubu göndərib, etdiyi yersiz hərəkətini bağışladı və onu arxayın etdi.

**Şah sarayının eyde-əzha[1] günü vuran olması:**

Bu əhvalatların baş verdiyi vaxtda dünyadakı qəribə işlərdən biri ali sarayda baş verdi: Qurban bayramında yekmənbə günü ə'lahəzrət humayun divanxana kənarında nəccarların taxta və sütunlardan düzəldib qamışla örtükləri bir sarayda bayram hazırlığı görülməsi əmrini verdi. Müxtəlif qonaqlıqlar keçirildi. Sərkərdələr məclisin baş tərəfində şahın əyləşməsindən ötrü

---

[1] Qurban bayramı (zilhəccə ayının 10-dan başlayan müsəlman bayramı) – *Ş.F.*

şahanə bir taxt qurmuşdular. Əzəmətli sədrlər, üləmalar, əmirlər, vəzirlər və dövlət başçıları bargahın qapısı önündə dayanıb əl öpmə şərəfinə yetməklərini, bayramı və o xoşbəxt günü təbrik etmək çağını gözləyirdilər. Günortaya yaxın
s.738 ə'lahəzrətin oraya gəlmə vaxtı idi. Tapşırıldı ki, ali bargahda olan adamlar, məliklər və sultanlar, Dağıstan əmirzadələri, Şirvan camaatı və qızılbaş ə'yanları qəsrə gəlib hərə öz yerində qərar tutsun. Məclis tərtibatı başa çatdıqdan sonra ə'lahəzrət zilləllah şah saraya təşrif gətirməli idi. Eşikağasılar gələnlərin hər birini onların dərəcə və mərtəbələrinə uyğun əyləşdirirdilər. Təşrif gətiriləsi adamların hələ iki dangı[1] öz yerlərində qərar tutmamışdılar ki, fələyin təqdiri ilə qəsrin bünövrəsi titrədi və bina yıxıldı. Bir tərəfdə əyləşən Dağıstan əmirzadələri çökmə vaxtının başlanğıcında bundan xəbərdar olub, özlərini kənara atdılar. Əl-ayaqlarını tərpətməyə macal tapmayan sədrlər, üləmalar isə torpağın və taxtaların altınla qaldılar.

**Şah Qəvaməddinin və Şir Əhməd paşa Ruminin ölmələri:**

Yaxşı təsadüflərdəndir ki, o əsnada xasseyi-şərifənin bir dəstə əli belli işçiləri həmin qəsrin qabağında bağça düzəltməkdən ötrü işləyirdilər. Onlar dərhal irəli cumub, taxtaları və torpağı bir tərəfə çəkərək, altda qalan adamları bir-bir çıxarırdılar. *Əllamətül-üləma Mirzə İbrahim Həmədaninin oğlu Şah Qəvaməddin Hüseyn* və Cığaloğlu ilə olan döyüşdə əsgərlərə əsir düşən, bağışlanan və ali orduya gətirilən möhtərəm insanlardan biri olan *Qars hakimi Şir Əhməd paşa Rumi* elə o anda ədəm yoluna şığıdılar.

Başqa adamları, xüsusən *Qazi xan Sədri, Mir Seyid Hüseyn Müctəhidin oğlu Mir Cəlaləddin Həsən Sədri, əsgər qazisi Mir Seyid Məhəmmədi, Mir Sədrəddin Məhəmməd Ələvi Mühtəsibül-məmaliki,* üləma zümrəsindən *Mir Abbas Gilaninin oğlunu və Hacı İnayət Təbrizini* sağ-salamat çıxardılar. Amma, adamların əksəriyyəti yaralı, zəif, sümükləri və bədən üzvləri bir-birinə qarışmış halda idi. Onların üz-gözləri

[1] Dang – 1/6 hissə deməkdir – *Ş.F.*

elə qaralmışdı ki, heç birisini tapnıaq olmurdu. Ə'lahəzrət zilləllah şah bu vəziyyətdən xəbərdar olub çölə çıxaraq dəllək çağırılması əmrini verdi və yaralananların hamısını fəsd[1] etdilər. Qan almadan sonra vəziyyətləri bir qədər yaxşılaşdı. Ertəsi gün ciyəri yaralanmış *Sədrəddin Məhəmməd Ələvi* allah rəhmətinə getdi. Başqaları isə yataq xəstəsinə çevrildilər. Rəbius-sani ayının səkkizində (27 may, 1516) cümə gecəsi həmin hadisədən sonra üç ay yataq xəstəsi olan, mədəsi ağrıyan, üstəlik ishalı da olan *Mir Cəlaləddin Həsən Sədr* fani dünyaya əlvida edib baqı saraya köçdü. Başqa yaralananlar isə sağaldılar.

Nadir hadisələrdən biri də budur: Xasseyi-şərifə münəccimləri şahın tale falına baxıb müəyyən etmişdilər ki, həmin əhvalat baş verən günün ortasında o müqəddəs zata xəsarət dəymə ehtimalı vardır, amma tale sahibinin ömür və dövlətinə nəzarət edən ulduzlara xoşbəxtlik ulduzları təsir edəcəkdir və ümid vardır ki, xəsarət baş tutmayacaq, müqəddəs zata ələm üz verməyəcəkdir. Buna görə də, xəlvətxana otağında ulduzların tə'siri bitənədək o həzrəti dəmbədəm söhbət və müxtəlif danışıqlarla məşğul etdilər. Elə bu səbəbdən şah eşiyə gec çıxdı və həmin hadisə ona xəsarət toxunulmadan baş verdi. Amma bu sətirlərin müəllifi olan mən, ə'lahəzrətə yaxın adamlardan biri, zəmanənin yeganəsi *Mövlana Əlirza Xoşnevisin* o həzrətin ilhamverən dilindən eşitdiyini eşitdim. Belə ki, eşiyə çıxma vaxtı o həzrəti yuxu tutduğundan istər-istəməz yuxuya gedir və o hələ yuxuda ikən həmin qəziyyə baş verir. Şahın ləngiməsinin səbəbi məhz vaxtsız gələn və o həzrətin oyaq bəxtinin gücü üzərində qələbə çalan həmin yuxusudur ki, həmin əhvalat ə'lahəzrətin saraya yollanıb dövlət taxtına əyləşməsindən əvvəl vaqe olmuşdur. Bəli, İlahinin qoruduğu kəsə ruzigar hadisələrindən nə zərər gələ bilər, yaxud Allahın iltifatı üstündə olan şəxsə tərpənməz və səyyar ulduzların nə tə'siri ola bilər?

Xülasə, bu hadisənin baş verməsi barədə xəbərlər seybələrə də gedib-çatdı, əsgərlər arasında çaş-başlıq yarandı, onlara

[1] Fəsd-yəni qan alma. Qan alan dəllək isə "fəssad" adlanırdı – *Ş.F.*

bərk iztirab üz verdi. Ordu əmirləri və sərdarlar pərişan halda
s.739 dövlətxanaya yığışıb arxayınlıq yaranmasından ötrü sarayın qapısında dayanaraq o mələksifət şahı görmək istəyirdilər. Onlar onu sağ-salamat gördükdə o müqəddəs zat üçün əvvəlcə dua səcdəsinə başladılar, sonra öz işlərinin icrasının ardınca
s.740 getdilər. Pərişanlıq arxada qaldı. Aləmlər Rəbbinə həmd
(520) olsun![1] Bu il başqa hadisələr də baş verdi ki, onların yazılması zəruri idi, amma gözəl sözlər yazan qələm Şamaxı qalasının vəziyyətinin ardını yazmağa başladığından, başqa hadisələr haqqında sonra mə'lumat keçiriləcəkdir, inşallah!

**Əmirgunə xanın vəziyyətinin, onun tərəfindən İrəvanda bə'zi qalaların humayun şah iqbalının gücü ilə qaçılmaz fəthinin zikri:**

Söz aşiqi olan dərrakəli adamlardan və təzə-köhnə məlumatları araşdıranlardan ötrü gələm sözə başlayır.

*Əmirgunə xana* İrəvanın idarə olunması və [bütün] mülkiyyəti tapşırıldı. Gündən-günə (ruzəfzun) çoxalan səadət əsaslı iqbal gücünün sayəsində keçən il və bu il bə'zi qələbələr baş verdi ki, qələm, rabitənin qırılmamasından ötrü, keçən və bu ilki əhvalatları bir-birinə birləşdirib belə bəyan etməyə başladı:

Əvvəl yazıldığı kimi, müzəffər əsgərlər İrəvan qalasının təmirinə başlayaraq, oraya ehtiyat azuqə və silah topladılar. Bu neçə ildə bir müddət ***Əlincə*** və ***Ordubadda***, bir müddət isə ***Naxçıvanda*** yaşayan Əmirgunə xan və onun yoldaşları *İrəvan qalasına* təhkim olundular. Xan öz şücaəti, mərdanəliyi və vəline'mət şah yolundakı canfəşanlığına görə Allahın ən yaxşı iltifatı olan sədaqətlə İlahinin kəramətinə və şahın iqbalına bel bağladı, həmin xarababadda və abadlıqdan əsər-əlamət görünməyən o vəhşətsarayda sakin olub, etibar etdiyi əmirlər və tabeliyindəki adamlara qala içərisində yer verdi, başqa adamları isə xaraba və viran halda olan qala kənarı və başqa yaxın yerlərdə yerləşdirdi. O, həmçinin Azərbaycanın müxtəlif el, ulus və tərəkəmə camaatınını da şirnikləndirib İrəvana gətirdi.

[1] İfadənin ərəbcəsi:
"Əl həmdu li-l-lahi Rəbbu-l-aləmin"

Əmirgunə xan ali əmrə görə İraqdan onun xidmətinə gələn *Ağcaqoyunlu qacar oymağına və Musaoğlu*[1] *Səbat elinə* də bütünlüklə İrəvan və Şərurun münasib yerlərində qışlaq yurdu verdi. Rum ləşkəri əksər vaxtlarda İrəvandan keeçib-getdiyi üçün belə qərara alınmışdı ki, *Azərbaycanın* işləri qaydaya düşənədək həmin yerlər əkilməsin, viran halda saxlanılsın və müxalif ləşkərin gəlişi vaxtı onlar üçün azuqədən əsər-əlamət qalmasın. Amma, Əmirgunə xan şaha ərz edib bildirdi: "Əgər humayun icazə olarsa, qazilər atlarını yemləməkdən ötrü qalaya yaxın bə'zi yerlərdə əkin əksinlər, əgər biçin başlamazdan əvvəl bu yerlərə müxalif qoşunlar gələrsə, dərhal əkin yerlərini yandırıb yox etmək mümkün olacaqdır, yox, əgər gəlməsələr, o zaman məhsulu qalaya daşıyıb, qazilərin dolanışığına sərf etmək mümkündür".

Xan icazə aldıqdan sonra, müxalif ülkalardan qarət olunan, həmçinin el, oymaq və qazilərin tabeliyindəki adamların öküzləri ilə qalada və ona yaxın yerlərdə çoxlu əkin əkdi.

İrəvanın ətrafa səpələnən və İraqa gedə bilməyən bə'zi
**s.740** kasıb rəiyyəti abadlıq qoxusunu duyub bir-bir, iki-iki gələrək gəldikləri yerlərdə iki ev, üç ev sakin olaraq əkinçilik etməyə başladı. Şahın yüksək bəxt və iqbalına görə, gələn baharda rumiyyə döyüşçüləri oraya gəlmədilər, məhsul yetişdi, qazilərin dolanışığı yaxşılaşdı.

Əmirgunə xanın, qaziləri daim müxalif ülkalara qarətə yollaması xəbəri həmin sərhədlərə yayıldı, sərhəddə olan müxaliflər ondan vahiməyə düşdülər. Onlar onun ləşkərinin qorxusundan bir yerdə qərar tuta bilmirdilər. Onun şahın iqbal gücü sayəsində əldə etdiyi birinci fəthi İrəvan və Qars arasında yerləşən *Məğazird qalasının* fəthidir.

Məsələ belə olmuşdur: Qars, Həsənqalası və ətrafdakı başqa yerlər Ərzruma qədər Əmirgünə xan adamlarının tapdaq yeri olduğundan, Məğazird qalası mühafizəçilərinin bu yerlərdə gediş-gəlişi çətinləşdi. Onlar qızılbaş hücumlarının qorxusundan qalanın dörd divarı arasına sığınıb bir neçə

[1] Musaoğlu Səbat eli, güman ki, İraq kərküklərinin bir qolu olmuşdur – *Ş.F.*

müddət arxayınlıqla yaşadılar. Öz hallarına qalan Qars və Ərzrum hakimlərindən kömək görə bilməyən mühafizəçilər məcbur olub Əmirgunə xanın yanına bir adam yollayaraq *şahsevənlik* izhar etdilər. Xan onları arxayınlaşdırıb, tabeliyə dəvət etdi. Min on dördüncü (1605/1606) at ilinin ortalarında o camaatın başçıları başda Əli bəy Məğazirdi adı ilə məşhur olan Əli bəy olmaqla özlərinə qala darısqallığından nicat ver-
**s.741** mək məqsədi güdərək *şahsevənlik əzmi* ilə Əmirgunə xanın
**521** yanına gəldilər, yerdə qalanlar isə başlarını tutub rəqəm-rəqəm düşdülər. Qala məğlubedilməz dövlət övladlarının əlinə keçdi. Cah-cəlal ordusu ***Şirvan yürüşündən*** geri qayıdıb ***Təbriz darüssəltənəsinə*** çatanda, xan o camaatı ali taxtın ayağına göndərdi. Şah onların halına yanıb, hər birinə *məvacib və tiyul* müəyyənləşdirdi və onları Əmirgunə xanın xidmətinə verdi. Bu qaladan sonra ***Çüxur-Sə'də məxsus olan Becənkürd qalası*** alındı. Oranın mühafizəçiləri də *ülufə və timarın** ələ gəlməməsindən, həmçinin maaşın azlığından təngə gələrək, qalanı saxlamaq imkanından məhrum idilər. Buna görə də qızılbaş ləşkərinin bir neçə döyüşçüsünün qorxusundan döyüşdən əl çəkdilər, çıxıb getdilər və qala fəth olundu.

Bu hadisələrin baş verməsindən sonra Qars qalasındakı rumilər öz həyatlarını dəyişmək (təcəllod) istədilər, Ərzrum hakimindən kömək alaraq, üç yüz nəfərədək adamla savaş etmək üçün qaladan çıxdılar, Məğazird yoluyla İrəvana rəvan oldular. Məğazird yaxınlığında bir dərənin ortasında yenicə dayanmışdılar ki, Əmirgunə xanın qızılbaş qaziləri, onların gəlişindən xəbərdar olmadıqları halda, gəlib həmin vaxt onlara çatdılar. Onlar rumi əskərlərinin həmin yerdə olduqlarını yüksəklikdən müşahidə edərək, dərhal vuruşa hazır olub atlarını irəli sürdülər. Qızılbaşların yürüşünü görən rumiyyə döyüşçüləri bərk çaxnaşmaya düşdülər, öz atına yaxın olan hər kəs süvar oldu və yüz nəfərədək rumi hərb istəyi ilə irəli şığıdı, lakin qazilərin hücumuna tab gətirməyib məğlubiyyətə uğradılar, onların əksəriyyəti qılınca yem oldu, az hissəsi isə yüz təşvişlə fərar yoluna düşərək, özlərini Qars qalasına çatdırdılar. Zəfərlə geri qayıdan qazilər müxaliflərin başlarını və

əxtərmələrini Şamaxıda ali sarayın ayağına gətirib çatdırdılar, mükafatlandırıldılar.

Xülasə, bu fəthlərdən sonra Ərzrum rumiləri də ehtiyatla yaşayır və həmişə qızılbaş döyüşçülərindən qorxa-qorxa gün keçirirdilər. O yerin paşası isə Əmirgunə xanla dostluğa başlayıb arxayınlıqla yaşayırdı.

Bu il həmçinin Bitlis hakimi *Şərəf xan Kürdün oğlu Ziyaəddin xanın vəkili Əlvənd bəy Ruzəki*, Allahverdi xan Van üzərinə hücuma gedərkən şahsevənlik izhar edib xanla birlikdə ali sarayın ayağına gəldi.

***O, Badkubə*[1] *və Qəleyi-Bayazid*** qalalarının hakimlərinə
s.741 qarşı üsyan edərək böyük iltifata layiq görülmüşdü. Amma, hər iki hakimlər öz başlarına bəla açıb Təbrizdən fərar etdilər, Vana getdilər və müxaliflərə birləşdilər.

Əmirgunə xan öz adamlarını *Mustafa bəyin* üstünə göndərəndə *mahmudu camaatı* adı çəkilən qalalarda qala bilməyərək Vana getdi. Makuyə və Bayazid qalaları məğlubedilməz dövlət övliyalarının əlinə keçdi və ***bayat qazilərindən ibarət*** bir dəstə döyüşçünü həmin qalaların mühafizəsinə təyin etdilər.

Bu əhvalatlardan sonra ***Qars qalası*** o məşhur xanın sə'yi ilə ba xanədan adamlarının əlinə keçdi. Qars, İrəvan və Ərzrum arasında ***Kiçik Ermənistan*** adlı vilayət yerləşir. "***Nüzhətül-qülub***"* əsərinin müəllifi yazmışdı ki, ***Kiçik Ermənistan tamamilə İran vilayətinə daxildir və türkman sultanlarının hakimiyyəti dövründə Çuxur-Sə'də tabe edilmişdir***. Ərzrum və Ərzincan vilayətləri osmanlı xanədanı sultanlarının əlinə keçəndən sonra Qars vilayəti Çüxur-Sə'd və Ərzrum hakimləri arasında keşməkeşə səbəb olmuşdu. Sultan Süleyman dövründə rumilər qalanı möhkəmlədib həmin vilayəti Çüxur-Sə'də tabe olan Şurəgil və Ağcqalaya birləşdirmək fikrinə düşürlər. Bu iş cənnətməkan şahın xoşuna gəlmir və buna mane olur. Qars üstündə Sultan Süleyman ilə cənnətməkan şah arasında bir neçə il fitnə tozu və dava-dalaş qalxmışdı. Nəticədə, bu kitabın birinci səhifəsində yazıldığı

[1] Səhvdir, zənnimizcə Badkubə əvəzinə Makuyə yazılmalıdır – *Ş.F.*

kimi, Qars uğrunda dəfələrlə cəng baş vermiş, qala dağıdılmış, vilayət isə hər iki tərəfin əsgərlərinin tapdağı altında qalmışdı. O, iki əzəmətli padşah arasında inadkarlıq və kobudluq (koloft) rəf' olunub, sülh sazişi bağlananda sülhün şərtlərindən biri belə oldu: "Arada olan Qars qalası viran edilsin və heç bir tərəfin əlində qalmasın".

**Qars qalasının fəthi:** Sülhün bərqərar olduğu müddət ərzində həmin qala və onun vilayətinin abadlığı yox idi. Sultan Muradın dövründə sülh sazişi pozuldu. Sazişin pozulmasının (nəqz) birinci səbəbi bu idi ki, rumilər ləşkər yollayıb Qars qalasını tə'mir etdilər, Erməniyyə ətrafından rəiyyəti köçürüb həmin vilayətin məskən və tarlalarını abadlaşdırdılar. Həmin qalada həmişə hakim bir paşa üç yüz mühafizəçi ilə oranı mühafizə edirdi. İndi min on beşinci qoyun ilidir (1606/1607) və artıq otuz il tamamdır ki, həmin qala abadandır və orada hakim əyləşir. Min on ikinci balıq (luy) ilində (1603/1607) zilləllah şahın cahanı tutan ordusu ***İrəvan qalasını tutandan sonra*** Qarsa tərəf irəlilədi. Qalibiyyətli əsgərlər yenidən həmin vilayəti qarət etməyə göndərildi, bütün əkin sahələri yandırıldı, oranın müsəlman və erməni əhali və rəiyyəti isə öz vətənlərindən aralı düşdü. Onların bə'zisini köçürüb bu tərəfə gətirdilər, bə'zisi əsarətdə qaldı, o vilayət yenidən viran edildi.

Qala camaatına məhsulsuzluqdan böyük ziyan dəydi. Bu vaxt *Osman paşa* adlı bir nəfər hakim tə'yin edilmişdi. O, bir müddət orada nizamsızlıq içində yaşadıqdan sonra azuqəsizlik ucbatından qalanı ağaların və mühafizəçilərin ixtiyarına verib Ərzruma getdi, orada qaldı və qala camaatına Ərzrumdan heç bir kömək gəlmədi.

O, vilayətin ərazisi əksər vaxtlarda qızılbaş qoşununun ayağı altında qaldı. Qala əhalisinin birdən-birə ayağa qalxaraq Məğazird yaxınlığına gəlib çatmaları zamanı, yuxarıda yazıldığı kimi, onlar Çuxur-Sə'd ləşkəri tərəfindən böyük məğlubiyyətə uğradıldılar, sağ qalanların vəziyyəti əvvəlkindən də pis oldu. Belə hal gün-gündən çoxalmaqda, əhali maneəsiz dağılışmaqdaydı. Qalada qalan əlli-altmış adam

özlərinin qulluqçuları, əhl-əyalı və uşaqları ilə birlikdə cəmi iki-üç yüz nəfər olardı. Onlar beş-altı ay da böyük aclıq
**s.742** keçirdilər. Qoyun ilinin ortalarında Əmirgunə xan müxtəlif ülkalar üzərinə hücuma və qarətə başlayanda o qalanın da fəthinə iqdam etdi. Qaladakılar qorxuya düşərək, özlərini və əhl-əyallarının qorumaqdan ötrü çarəni aman istəməkdə gördülər, Əmirgünə xan tərəfindən əfv edilib *şahsevənlik* şüarını irəli sürdülər, sağ-salamat İrəvana gəldilər və qala bu əbədi şah dövlətinin əlinə keçdi. Ali hökmə görə cənnətməkan şah dövründə olduğu kimi yenidən viran edildi, qalada olan yaraq, top, zərbzən, tüfəng, qurğuşun və barıt İrəvan qalasına aparıldı. O, ilin rəbiüs-sani ayının doqquzunda, pənşənbə günü Qars qalasının fəth olunma xəbəri ali orduya çatdı.

*Qars şahsevənlərinin* bir neçə nəfəri mülazim oldu, [bə'ziləri isə] divana xidmət etməyə başladılar, onlara məvacib tə'yin edildi, başqa bir dəstə isə əsgərliyə cəlb olundu. Əmirgunə xan həmin vilayətdə əvvəlkindən də çox istiqlal tapdı, şah dövlətinin iqtidarı gün-gündən artdı. Ərzrum qalasındakı rumilər də [qızılbaş] ləşkərinin sədəməsi qorxusundan şəhər və qalanın dörd divarı içərisinə doluşaraq, böyük dəhşət və ehtiyat içərisində yaşayırdılar.

*Bu il Əliqulu Sultan Sə'dlinin oğlu Mehdiqulu bəy şahsevən olmaq istəyi ilə İrəvana gəldi, mərhəmətə çatdı*, Çüxur-Sə'd bəylərbəyinin tabeliyində xidmətə başladı, ona *məvacib* və *tiyul*[*] verildi. Həmişə Çüxur-Sə'd əmirləri silkinə mənsub olan və Qaqzaman hakimi vəzifəsini aparan atası *Əliqulu Sultan* isə rum hakimiyyəti vaxtı Rum padşahı tərəfinə keçərək, o tərəfə meyl etmişdi və indiyə kimi rumiyyə arasında e'tibar sahibidir.

## CAHANGİR XANIN VƏ MƏHƏMMƏD SƏLİM SULTANIN ĞORÇESTANDAN BƏLXƏ TƏRƏF YÜRÜŞÜ, ONLARIN MƏQSƏDƏ YETİŞMƏDƏN GERİ QAYITMALARI VƏ YARMƏHƏMMƏD MİRZƏNİN ÖLDÜRÜLMƏSİ HAQQINDA SÖHBƏT

Min on beşinci (1606/1607) ilə bərabər olan bu qoyun ilində, Ğorçestanda *Cahangir xan, Məhəmməd Səlim Sultan və Yarməhəmməd Mirzənin* xəyalından daim Bəlxə getmək və o vilayəti fəth etmək keçirdi. Amuyyə çayının bu tərəfindəki özbək tayfaları artıq onların ətrafına toplaşmışdılar. O, dəstənin böyüklərinin təhriki ilə ürəklərində Bəlxə yollanmaq fikri yerləşdiyi üçün on-on iki min nəfərdən ibarət olan həmin qoşun Bəlx istiqamətinə yollandı. Bəlx hakimi olan Yetim Sultanın kiçik oğlu *Nədr Məhəmməd Sultanın* atalıqları qala qapılarını qapayıb qaladarlıq məqamında dayandılar, eşikdəkilər isə qalanı mühasirəyə başladılar.

Bu əsnada, qardaşının vəfatından sonra Mavərənnəhr və Türküstanın padşahı olmuş və *Turan mülkünün* taxtına əyləşmiş (məsnədneşin) *Baqi xanın qardaşı Vəli Məhəmməd xan* Qərşi vilayətinə gəldi və orada ona Cahangir xanın ləşkər çəkməyi və Bəlxi mühasirə etməyi mə'lum oldu. Məhəmməd Baqi, *Qəlmaq Səqqal Mirzə və Quzi Mirzənin* sərdarlıqları ilə Vəli Məhəmməd xanın iyirmi min nəfərlik qoşununu Bəlx adamlarının müdafiəsinə göndərildi. Onlar Ceyhun çayının
s.743 Termez keçidindən keçərək, bu biri sahilə gəldilər. Mavərən-
(523) nəhr ləşkərinin gəlişindən xəbərdar olan Cahangir xan və Yarməhəmməd Mirzə mühasirədən əl çəkərək, döyüş əzmi ilə o qoşuna tərəf yollandılar. [Aralarındakı] məsafə uzaqlığı yaxınlaşdıqda qarşılaşma başladı. Əvvəlcə, Səqqal Mirzə və Quzi Mirzə beş yüz nəfər adlı-sanlı bahadırın çöhrələri* ilə atları irəli sürüb Cahangir xanın döyüşçülərinin ön dəstəsinə yaxınlaşdılar. Bu tərəfin də cənglərdə sınaqlardan çıxmış
s.743 bahadırları döyüşə başladılar. Döyüş meydanının tozanağı bir an içində sürətlə fırlanan fələyə gedib çatdı və o dəstənin damarını bədənindən ayırdı, o bahadırların əksəriyyəti qılınca yem və qəza-qədər gülləsinə hədəf oldu.

Cahangir xan döyüşçülərinin qələbə xəbəri ətrafa yayıldıqda özbək tayfalarının çox adamı ona tərəf üz tutdu, ətrafında böyük izdiham toplaşdı. Mavərənnəhr əmirlərinə bu qələbə xəbəri yetişdikdə onlar qorxu və təlaşa düşdülər, ehtiyatdan ötrü, gəlib çatdıqları yerdə xandaq qazmağa başladılar. Ceyhun çayının bir tərəfini özləri üçün hasara çevirib, qarşılarındakı bir neçə yerdə istehkam (çəpər) qurdular, çəngi ehtiyatla gözləməyə başladılar. Bu vəziyyət Cahangir xan adamlarının ürəklənmələrinə və qüruruna səbəb oldu və onlar münasib olmayan bir yerdə lovğalaqıla cəngə girdilər.

Özbək tayfası içərisində başqa elə bir tayfa (qovm) yoxdur ki, bütün ləşkərə başçılıq (təvəffoq) edə bilsin. Özbəklərdə şücaət mərtəbəsi onların məharətlə at çapmalarıdır *(yekətazi)*. Onlar döyüş meydanında qılınclarını sıyırıb müxalif tərəfin səfinə tərəf at çapır, iki-üç həmlədən sonra dərhal geri qayıdırlar. Cahangir xanın yanındakı bahadırlar, hərdənbir bu barədə söz deyir, Yarməhəmməd xanı tə’rifləyirdilər. Yarməhəmməd xan həqiqətən də igid bir cavan və mərdanə bir bahadır idi, amma cəhaləti və qüruru üzündən ona həsəd aparanların tə’nələrinə uyaraq, özbəklərin qaydasınca *yekətazlıq* etmək istədi, yersiz olaraq şəmşirini sıyırdı və atını müxalif qoşuna tərəf sürdü, cəsurluqla çəpər və xandağın sağ-solunda at çaparaq, bir neçə nəfəri yaraladı. Geri qayıdarkən gördü ki, müxalif qoşun piyadalarından biri kmanına ox qoyub ona tərəf atmaq fikrindədir. Yarməhəmməd Mirzə atının cilovuna yönəldib, onu şəmşirlə öldürmək istədi, [amma] ömrünün sonu yaxınlaşdığı üçün, başqa tərəfdən tüfəngli başqa bir atıcı *(bəndəqəndaz)** tüfəngdən atış açaraq, Yarməhəmməd Mirzənin atını yaraladı, at yerə yıxıldı, mirzə atından *(baregi)* ayrı düşdü. Bə’zi adamlar isə belə danışırlar: Mirzə xandaqdan sıçrayan vaxt yəhərdən sürüşüb yerə yıxıldı. Fələyin təqdirindən, özlərini çatdıran piyadalar üstünə tökülüşüb onu tutdular. Cahangir xanın səfi uzaqda olduğundan və [Yarməhəmməd xan] cəsarətlə atını irəli sürdüyündən ona heç bir kömək yetişmədi. Məhəmməd Baqi Qəlmaq və özbək əmirləri onu Vəliməhəmməd xanın yanına diri aparmağı məsləhət bilməyərək, qətlə yetirdilər.

Yarməhəmməd Mirzənin tutulub öldürülməsi xəbəri Cahangir xanın döyüşçülərinə çatdıqda onların səbat ayaqları sustaldı, əlləri döyüşdən soyudu, aralarında pərakəndəlik yarandı: *Şirəfkən Mirzə* bir dəstə adamla Bədəxşana tərəf qaçdı, başqa bir dəstə isə *Məhəmməd Səlim Sultanı* özləri ilə götürüb başqa yana götürüldü, sonrasa Məhəmməd Səlimin aqibəti bilinmədi. Oyunbaz (lo'bət) fələyin şəbədəsindən heyrətə düşən Cahangir xan yanında olan iki-üç min nəfərlə atların yüyənlərini Qorçestana tərəf döndərdilər. Allahın karxanasında Cahangir xanın padşah olmaq işi imzalanmadığı üçün ona bu yürüşdə böyük məğlubiyyət üz verdi, cəngə başlamazdan əvvəl adamları bir-birlərindən ayrıldılar, fəth Mavərənnəhr ləşkərinə qismət oldu. Bu xoş xəbər Vəliməhəmməd xana çatdıqda, şadiman halda döyüşçüləri ilə çayı keçb əsgərlərini Xorasan üzərinə yolladı.

### MAVƏRƏNNƏHR QOŞUNUNUN XORASANA YÜRÜŞÜ VƏ UĞURSUZLUQLA GERİ DÖNÜŞÜ

Özbək qoşunu Xorasan yürüşünə getdikdə onların əksər
**s.744** hissəsi Maruçaq və Badğisə tərəf hərəkət etdi. Üç min nəfərədək adamı Mərvə yolladılar ki, o vilayəti soyub-talayıb, Buxaraya yaxın olan Caharcu yoluyla geri qayıtsınlar. Maruçaq və Badğisə tərəf gedənlər Hovzxan (?) qalasına çataraq üç gün qala ayağında dayandılar. Hovzxan elə bir su anbarıdır ki, Abdulla xan onu Badğıs və Heratın üç yolu arasında
**s.745** onu inşa etmişdi, indi isə həmin yer hasara alınmışdır. Herat
**(524)** bəylərbəyisinin bir mülazimi bir neçə əskər və tüfəngçi ilə o anbarı qorumaqdadırlar. Özbək bahadırları həmin hasarı tutmağa getməyərək, bir neçə nəfəri Zurabadın fəthinə, daha neçəsini isə Badğisin ulus və tayfaları üzərinə yolladılar. *Xorasan əmirülmərası Hüseyn xan* əvvəlcədən özbəklərin gəlişindən xəbərdar olub ətrafa adam yollamışdı ki, əsgərlər öz mallarını uzaq yerlərə göndərə bilsinlər, qalalara çoxlu tüfəngçi çağırıb [döyüşə] amadə olsunlar. Hüseyn xanın özü

isə ləşkər və döyüş ləvazimatı hazırlayıb, bu güclü dövlətin ona tapşırığına əməl etməkdən ötrü özbəklərdən qorunmağa hazırlaşdı.

Bu əsnada şahın zavalsız bəxtindən, yaxud İlahinin lütfündən bərk qar yağdı, saxta qoşunu hər yanı bürüdü və soyuq elə şiddətləndi ki, döyüşlərin əlləri işdən, işləri əldən soyudu, irləi gedənlər geri qayıtmaqdan başqa çarə tapmadılar. Özbək yertavlarının (yertavlan?) çoxu Badğıs dərələrində qar altında qalaraq soyuqdan həlak oldu. Belə vəziyyət yarandıqdan sonra özbəklər iztiraba düşdülər, Hovzxan qalasının (hisar) ayağından qalxdılar. Onlar hər tərəfdən topladıqları malların bə'zilərini apara bilməyərək, onları atıb yola rəvan oldular. Qayıdış vaxtı, Hüseyn xanın Maruçaq qalasında olan oğlu *Qazaq xan* bir dəstə döyüşçünü özbəklərin ardınca yolladı. Onlar Morğabın yuxarısında bir özbək dəstəsi ilə rastlaşdılar, mərdanəliklə döyüşdülər, yetmiş-həştad nəfəri qətlə yetirdilər. Mərvə gedən ləşkər isə oranın ətrafını qarət edərək mal, vəsait, heyvan və çoxlu qənimət əldə edib Caharcuya tərəf qayıtdılar.

*Mərv hakimi Bəktaş xan Ustaclı* öz adamlarından üç yüz nəfərini qalada saxlayıb, özü min iki yüz nəfər döyüşkən qazi ilə o dəstənin təqibinə başladı. Üç nəfər əskəri ləşkərin önündə yerləşdirən xanın yanında doqquz yüz adam qaldı.

Elə ki, öz qənimətlərini dəstə-dəstə aparan özbək əsgərlərinin qaraltısı gözə dəydi, ləşkərin önündəki həmin üç yüz adam özlərini qorxmazlıqla özbək dəstəsinə çatdıraraq, onların əksəriyyətini bir-birlərindən aralı salıb səf bəzəmək və cəng etmə imkanı vermədilər. Çoxusu məğlub olub qaçış yolunu önə tutdu. Dörd yüz-beş yüz nəfərədək məşhur sərdar və bahadır qarət olunmuş mallarından ayrılıb səf bəzədilər və hərbə hazırlaşdılar. Elə bu vaxt Bəktaş xanın özü gəlib meydana çatdı və cəng başlandı. Özbək bahadırları qazilərlə bacara bildikləri qədər mərdanə vuruşdular, qalanları isə özlərində savaş taqəti görməyərək, dava-dalaşdan kənar oldular, qarət etdikləri mallardan əl üzüb sağ-salamat yaxa qurtarmağa cəhd etdilər.

Bəktaş xan da vaxtın məsləhətinə və işin sərfəsinə görə hərəkət edərək, tə'qibdən əl çəkdi, qarət olunmuş malların zəbtinə başladı. Bu mərəkədə dörd yüz nəfərdən çox özbək döyüşçüsü öldürüldü və əsir götürüldü, qalanları isə rüsvayçılıqla geri qayıtdılar. Ziqədətül-həram[1] ayının birində (qorre) caharşənbə günü (28 fevral, 1607) Bəktaş xanın mülazimi ***Şamaxı qalasının ətəyində*** əzəmətli orduya çataraq, həmin mə'rəkədə özü tərəfindən tutulmuş bir özbəyi gətirdi. O, Bəktaş xanın həmin özbək dəstəsi ilə etdiyi döyüşünün gedişini dapnışaraq [belə] söylədi: Özbəklərin üç yüz nəfəri öldürülmüş, həştad nəfərisə diri tutulmuşdur. Bəktaş xan şahın iqbal gücü sayəsində qalibiyyətlə Mərvə qayıtmış, qarət
**s.745** götürülən mal, vəsait, heyvan və qənimətləri gətirərək öz sahiblərinə qaytarmışdır. Xan tutulan əsirlərdən on iki nəfər məşhur mübarizi həmin döyüşdə igidlik göstərən bir neçə qazi ilə birlikdə ali dərgaha yollamışdır".

Qəribə əhvalatlardan biri də bu idi: Bəktaş xanın mülazimləri özbəklərlə gəlib Xəlxalın Miyansaray adlı yerinə yetişdikdə, yol gedənlər yolun darısqallığı səbəbindən bir-birlərindən aralı hərəkət edirdilər. Özbəklərin biri hiyləgərliklə əllərinə bağlanmış ipi açıb, piyada gedən iki-üç özbəyi xilas etdi, onlarla birlikdə getməkdə olan bir xan mülaziminin kəmərindən çıxardığı şəmşirlə o biçarənin özünü qətlə yetirdi, iki-üç nəfəri yaraladı, başqa özbəkləri isə xilas etdi. Onlar fərar əzmi ilə özlərini dağa çatdırdılar. Bir azacıq öndə getməkdə olan xan mülazimləri bunu bilərək, *Xəlxalın* müxtəlif yerlərində yaşayan adamları xəbərdar etdilər. Dağın iç hissələrində (məğak) axtarış başlandı. Özbəklərin yeddi nəfərini tutdular, amma gecə vaxtı dağların künc-bucağında gizlənmiş özbəklər isə ələ keçirilmədi. [Qazilərin] tutub özləri ilə ali orduya gətirdikləri həmin bir neçə özbək adlı-sanlı bahadırlar idilər. Qəhr qəhrəmanı olan padşah özünün "əsirlər gərək həmişə əfv olunsunlar" kimi adətinə əməl etməyib, onların [qızılbaşlara qarşı] göstərdikləri cürət və igidliyə görə cəzalanmaları qərarına gəldi və özbəklər elə həmin ləhzə öldürüldülər.

[1] Məhərrəm ayı – *Ş.F.*

s.746 Öldürülənlərin biri gözəl görünüşlü və xoş qiyafəli bir
(525) oğlandı ki, hələ evlənməmişdi. Cəlladlar onu öldürmək istəmirdilər. O, özü çox israr edib Allah-taalaya and verir və deyirdi: "*Məni yoldaşlarımdan* ayırmayın". Çox xahişdən sonra qətlə yetirilərək yoldaşlarına birləşdi.

İndi səxavətli və iti yerişli qələm Şamaxı qalasının fəth olunması və o zaman baş verən hadisələrin təsvirinə başlayır.

## ŞAMAXI QALASININ FƏTH OLUNMASI VƏ O ZAMAN İRƏVAN VİLAYƏTİNDƏ ALLAHIN KÖMƏYİ İLƏ BAŞ VERƏN HADİSƏLƏRİN ZİKRİ

Bundan əvvəl məlumat verilmişdi ki, şahın iqbal əsgərləri və şahənşah məiyyətinin mübarizləri ***Şamaxı şəhərinin və qalasının*** ətraf yerlərini mühasirəyə alaraq hər tərəfdən seybələri irəli çəkdilər, çuvalları doldurub, topları öz yerlərinə bərkitdilər. Otuz mən ağırlığında daş atan top atəşlərindən bürc və barılarda çatlar peyda olmağa başladı. Lağımlar xandaqdan keçib barının altına çatdı. Üzlərinə maneçilik qalxanı tutan rumiyyə əsgərləri nə qədər şücaət göstərsələr və qalanı əldə saxlamaq üçün sə'y etsələr də bundan heç nə alınmadı, şahın iqbal əsgərlərinin hücumu günü-gündən çoxaldı, rumiyyənin səbat bünövrəsinə zəlzələ düşdü, savaş qüvvələri süstləşməyə başladı. Müzəffər döyüşçülərsə yürüş silahlarını əldə tutub şahın əmr və fərmanına müntəzir idilər.

Həzrət zillələllah şah vəziyyətin başlanğıcında (bedəyatehal) onlara ultimatum (hoccət) göndərmiş və aralarındakı inam yolu qapanmışdı. Ə'lahəzrət öz mərhəmət və lütfkarlı-
s.746 ğının çoxluğundan, qalanın yürüş və qəhrlə fəth olunmasına razılıq vermirdi, çünki o halda döyüş bazarında əsgərin, rəiyyətin, günahsızın, günahkarın-hamısının nırxı eyni qiymətdə olur. Döyüşçülərə qətl və qarətin qadağan edilməsi qalatutma və ölkəalma ayininin qayda-qanuna zidd bir məsələsidir, mümkün olmayan bir işdir, ümumi hücum zamanı yaş və qurunun hər ikisi bir qəhr atəşi ilə yanır. Hamı gözləyirdi ki, bəlkə başqa bir yol tapıla bilsən. Ordunun əmir

və sərdarları ali əmr və işarə olmadan belə bir xətərli işə cür'ət etmirdilər.

Səfər ayının beşində (12 iyun, 1606) pəncşənbə günü *Qərçiçay bəyin* seybəsində qulamların bir neçəsi fürsət tapıb top zərbəsindən sədəmə görən bir bürcün qatları arasından yuxarı dırmaşmağa başladı. İgid döyüşçülər yürüşün başlandığını güman edərək həmin seybədən hücuma keçdilər. Bundan xəbər tutan Qərçiçay bəy şahanə məzəmmət və qəzəbin qorxusundan onlara mane oldu, adam yollayıb bürcdən aşağı enərək evlərə daxil olan əsgərləri geri qaytardı.

Bu get-gəl vaxtı qalibiyyətli əsgərlərin bir neçə igidi məhv edildi. O, müşrif tayfanın (yəni rumilərin – *Ş.F.*) ömür və dövlətlərinin bünövrəsi (əsas) laxladığı üçün İlahinin böyük hikməti bu qərarda oldu ki, Şamaxı şəhəri və qalasının əhalisi əsgər və rəiyyət əlindən elə bərbad vəziyyətə düşmüşdür ki, gərək hər dəqiqə qətl və qarətdən əl çəkilməsin. Yaltaqlıq (modahene) və götür-qoy etməklə (təəmol) təklif olunan şərtlər qətiyyən təqdir oxuna mane ola bilməz, [buna görə də], İlahinin istəyi yerinə yetmiş oldu.

Səfər ayının iyirmi altınsında (3 iyul, 1606), cümə günü günortadan təxminən üç-dörd saat sonra qalada qalmağın məşəqqətindən cana doyan bir-iki nəfər rumi *Zülfüqar xanın* seybəsinin müqabilindəki bürcdən aşağı enərək, belə izhar etdilər: "Bu bürcdə biz iki kəsdən qeyri heç kəs yoxdur. Hal-hazırda bürc mühafizəçi və gözətçilərdən xalidir. Əgər yuxarı qalxmaq istəsəniz heç bir maneçilik görməzsiniz".

Bəxtin dönüklüyündən xanın adamları o neçə gündə həmin bürcün yanındakı qala divarından bir neçə zər' uzunluğunda olan hissəni uçurmuşdular və divarın başqa yerlərində də çatlar nəzərə çarpırdı. Zülfüqar xanın mülazimləri ondan xəbərsiz bu fürsəti əldən verməyib, təqdir aləminin iş buyuranlarının təhriki ilə o uçuq yerlərdən yuxarı dırmaşdı və təxminən yüz əlli adam qalaya daxil oldu. Zülfüqar xan məsələdən agah oldu, bildi ki, əgər azacıq gecikərlərsə, o camaat tələf olacaqdır. Şəhər və qala əhalisi də bunu eşidib üzlərinə maneçilik qalxanı tuturdular. Hərb atəşi şölələndi.

Xan çarəsiz qalıb əsgərlərinə yürüş icazəsi verdi və özü də bürcün üstünə çıxdı, haray çəkdi. Qoşunun səs-sədası Qərçiçay bəyin qulağına yetişəndə ona mə'lum oldu ki, Zülfüqar xanın əskərləri şəhərə girmişlər. O da daha gözləyə
s.747 bilməyib öz qulamlarına yürüş icazəsi verdi. Onlar da topun
(526) dağıtdığı bir bürcü ələ keçirib hücuma keçdilər. Kərənay, kəvərkə və nağara səsləri qara (abenus) göy günbə'zinədək ucalır, qaranlıq meydanındakı qalatutan igidlərin hay-harayları cəza günün müsibətini xatırladırdı. Bu xəbər hər yana yayıldı. Şəhərin ətrafında seybələri olan hər bir əmir və əskər yürüşə keçib şəhərin üstünə tökülüşdülər. Rumiyyə əsgərləri qəzəbli döyüşçülərin hücumuna tablaya bilməyərək, özlərini bürc və barılardan çıxarıb şəhərə atdılar, gizli yerlərdə gizləndilər, amma elə həmin an də qəhr şəhnəsinin əli ilə tutulub başqa rumilərə qoşuldular.

Ümumi götürüldükdə qarşı tərəfdən təxminən iki-üç min nəfərə qədər adam qətl olundu, var-yoxları taraca getdi, Şamaxı şəhəri baş verən hadisə süpürgəsi ilə süpürüldü. Bu yürüşdən müzəffər əsgərlərə elə bir zərər dəymədi, üç-dörd nəfərdən artıq adam itirilmədi. Amma şimal tərəfdəki ***Yuxarı qala*** yüksəkliyində seybə gətirməkdə olan *Allahverdi xan*, qorçibaşı və başqa adamlar, qala hakiminin və rumiyyə böyüklərinin bellərinə cidd-cəhd (ectehad) kəməri bağlayıb böyük səy göstərdikləri və nəticədə onların tüfəng atəşi ilə bu tərəfdən mühasirə müddətində çoxlu işəyarar cavan öldürüldüyü üçün, həmçinin o tərəfdəki möhkəm və uca bürclərə qalxmaq hələ mümkün olmadığından, özlərinin uzaqgörənliyi sayəsində, həm də humayun şahın əmri və işarəsi edilmədiyindən yürüşə cür'ət etmədilər, həmin gün yerlərindən tərpənmədilər. Yuxarı qalada olan Əhməd paşa, rumiyyə ağaları və böyükləri şəhər və ***Aşağı qala*** əldən çıxandan sonra da yenidən qala müdafiəsinə sə'y etdilər. Amma, əbəs yerə!
s.747 Beş-altı günün sə'yinin heç bir nəticəsi olmadı, çünki şəhərə girən müzəffər əsgərlər evlərin birindən o birinə yol tapıb artıq iki qala arasındakı Böyük qalanın bürc və barıları altından lağım atmış və onları uçurmuşdular. Əzəmətli qorçilər öz ad-sanlarını qorumaq mülahizəsi ilə gecə-gündüz rahatlıq

bilməyib, seybələrinin lağımlarını xandağa qədər çatdırdılar. Gecələrin birində xandağın ortasından yol açaraq, çox böyük və uca olan bir bürcün altından keçib [şəhərə] girirdilər, bürcün aşağı hissəsini [rumiyyədən] təmizlədilər. Onların ardınca gələn topçular fasiləsiz top atəşinə başladılar. O, bürcün bir tərəfinin top zərbələrindən çökməsinə baxmayaraq, hələ oraya asanlıqla qalxmaq mümkün deyildi.

Beşinci gün yüz əlli nəfər canfəda cavan, şücaət sütununa mərdanə qədəmlərlə qalxıb bürcə çatdılar. Həmin bürcü özlərinin varlıq bürcü sanan rumi mübarizləri müdafiəyə başlayıb qorçilərin üzərinə ox, güllə və belə ağır bir gün üçün hazırladıqları neftə hopdurlumuş (qarurehaye-neft) əskilər və başqa yanğın vasitələri yağdırmağa başladılar. Allahverdi xanın süvari ləşkərinin mülazimləri öz seybələrindən cəngə başlayıb mərdanəlik göstərdilər.

Həmin gün hərb atəşi elə şölələndi ki, qorxmaz əsgərlər özlərini səməndər [quşu] kimi atəş dənizinə atıb üzürdülər. Rum şücaətliləri müdafiə və atəş yağdırmaqda çox çalışdılarsa da, iqbal dəstələrinin mübarizləri öz mərdanəlik qədəmlərini yerə daha möhkəm dirəyib mərdanə döyüşdülər. İlahinin lütfünə nümunə olan zavalsız şah iqbalının gücü sayəsində bir neçə qorçi qılınclarını sıyırıb, başları üzərində qalxan tutdular, özlərini bürcün yuxarısına çatdırıb oranın gözətçiləri ilə əlbəyaxa oldular. Rumilər nəhayət vuruşmaqdan aciz qalıb bürcü tərk edərək aşağı düşdülər, evlərin damlarından qaziləri tüfəng atəşinə tutdular. Qazilər bürcün yuxarısında üzlərinə sipər tutaraq özlərini düşmən nişanından qoruyurdular. Rumiyyə əsgərlərinin qızılbaşları bürcdən uzaqlaşdırmaq sə'yləri baş tutmadı. Ard-ardınca irəli şığıyan qorçi cavanlar irəlidəkilərə birləşirdilər və onların güc-qüvvəsi bürcün fəthindən saatbasaat çoxalırdı. Buna baxmayraq, onlar rumiyyənin xəzinə və mallarının qarət olunmamasından ötrü qalaya daxil olmurdular.

Bu vəziyyəti müşahidə edən rumiyyənin *halı işdən, işi haldan* keçdi. Onların əksəriyyəti döyüşdən cana doyub, anladılar ki, qala artıq əldən getmişdir və daha müqavimət göstərə bilməyəcəklər. Buna görə də, vuruşu tərk edib, fay-

dasız sə'yi dayandırdılar, Allahın qəzavü qədərinə tabe olub bürclərdən yerə düşdülər. Qol, yeniçəri və başqa qüvvələri
s.748 Əhməd paşanın döyüşə tərğib etməsinə baxmayaraq, onlar
(527) öz qeydlərinə qalıb onun əmrinə tabe olmurdular. Çaşbaş və pərişanlıqla Allahverdi xanın yanına adam yollayıb əfv və aman istədilər. Amma paşanın özü yanında olan bir neçə xüsusi mülazimi və səgbanı ilə ***qədim vaxtlardan Şirvan sultanlarının məskəni olan və damda yerləşən köşkə çıxıb*** qorçi və qulamlara ox və güllə yağdırır, döyüşün davamı üçün bərk fəaliyyət göstərirdi. Axırda, onun adamları da cana doyub cəngi saxladılar, amma paşanın özü hərbin başlanğıcında sülhə razı olmadığı üçün qüvvət və qüdrəti qalanadək vuruşdu.

Bir nəfər düzdanışan adam *Əhməd paşanın* dilindən eşitdiyi bu sözləri deyirdi: "Pul ilə satın aldığım bir qulamım vardı ki, həya və ədəbinin çoxluğundan mənimlə danışmağa
s.748 belə cürət etmirdi. Mənimlə birgə olduğu vaxtdan bəri həmişə onun xidmətkarlıq və sədaqətini müşahidə edirdim. Qızılbaşlar bürcü ələ keçirən vaxt əsgərlər qalanı müdafiə etməkdən mə'yus oldular. Mənim və o qulamın əlində iki tüfəng vardı. O doldurur, mənsə atırdım. Birdən-birə o mənə dedi: "Ey səadət sahibi, əcəb ağıl sahibisən ki, özünə bir belə əziyyət verir və özünü tələf edirsən. Sənin adamların cəngi tərk edib, qəzavü qədər ilə razılaşmışlar. Ruzigarın gərdişi ilə bu nə döyüşdür ki, edirsən? Biz iki nəfərin əlindən nə gələ bilər? Bu günün ömrünü qənimət bil, sabahkı gün isə hələ məlum deyil".

Bunları deyib üzünü məndən çevirdi. Doldurmaqdan ötrü verdiyim tüfəngi istədim, amma vermədi. Elə ki, e'tibar etdiyim qulamın mənim üzümə ağ olduğunu gördüm təqdir karxanəsinin işinə mat-məətəl qaldım.

**Şe'r**

*Qəzanın üzünə olmamalı ağ,*
*Qədərin işinə olmaz qarışmaq*[1]

---

[1] Şerin farscası:

Ba qəza bər nəmitəvan aməd,
Ba qədər dər nəmitəvan amixt.

Buna görə də əlimdəki tüfəngi buraxıb, asimanın qəzavü qədərinin rə'yi ilə razılaşdım. Bürcə gələn qızılbaş döyüşçülərinə dedim: "Cəngdən əl çəkin, mən qaladan əl çəkirəm və bura həzrət şahındır".

Sözün qisası, Əhməd paşa ox qabında bir ox qalanadək qızılbaşlarla döyüşdü, qazilərsə sinələrini sipər edib vuruşdular. Xülasə, paşa Allahverdi xanın yanına adam göndərib rica etdi: "Siz bu gün əsgərlərin hücum əllərini qaladan çəkin, sabah şah necə istərsə elə də edərsiniz".

Allahverdi xan və qorçibaşı məsələni müqəddəs zata bildirdilər. Hökm olundu: "Bu gecə heç kəs qalaya hücum etməsin, amma hər yana gözətçi qoyun ki, heç kəs gecənin qaranlığında qaladan kənara çıxa bilməsin".

Altıncı günün səhəri ki, rəbiüləvvəl ayının ikinci (8 iyul, 1606) və çərşənbə günü idi, səba yeli şimal küləkləri kimi zəfərlə əsməyə başladı.

Ali bargahın *hacibləri** ali hümayunun əmrinə əsasən şahanə bir ali məclis və padşahanə bir yığıncaq təşkil etdilər. Allahın ona verdiyi bu bəxşişə görə (ətaya, ətiyyət) ə'lahəzrət şükürlər etdi, Yaradanın (məbd'ə) nurundan işıqlanan zahiri və batini maraqla (təvəccöh) qələbə və iqbal taxtına əyləşdi, orduda şadimanlıq nağaraları çalınmağa başladı. Qərçiçay bəy qulamlar və tüfəngçilərlə qalanın zəbtinə və darvazaları qorumağa tə'yin olundu. *Hüseyn bəy Carçıbaşı*** *Qor Zülqədəri* fitnə-fəsad mayası olan Əhməd paşanı, Şəmsəddin paşanın qardaşını və qardaşının kiçik oğlunu, həmçinin Kiçik Həsəni və daha bir neçə nəfəri gətirməyə yolladı. Əhməd paşa gəlməyə razı olmayıb, carçıbaşıya dedi: "Biz şah dərgahının qulamlarına qarşı etdiymiz ədəbsiz hərəkətlərə görə cəzaya layiq görülmuşuk və ali məclisə getməyə layiq deyilik. Yaxşısı budur ki, dərgah mülazimlərindən biri gəlib bizim cəzamızı elə buradaca versin".

Ə'lahəzrət lütfkarlıq müjdəsi ilə onu xaturcəm etdi və yenə çağırdı. Əhməd paşa behişt ayının məclisə gələrək, şaha xəcalət səcdəsi təqdim etdi. Ağıllı və sözlü adam olduğundan vaxta münasib və əqlə müvafiq sözlər ərz etdi. Humayun

təbiətinin o gün qəzəb və qəhr [libasına] bürünməsinə baxmayaraq, ə'lahəzrət paşaya mülayim nəzərinə baxıb onu məzəmmzt etmədi, amma Şəmsəddin paşa ilə qəzəblə danı-
s.749 şıb onun əməllərini bir-bir saymağa başladı.

Kiçik Həsən şahın xoşuna gəlsin deyə üzünü Şəmsəddin paşaya tutub dedi: "Bizim adamların həzrət şahla döyüşmək qüdrəti yox idi və onlar Şirvanı tərk edib Dərbəndə gedirdilər. Sən onları saxladın və darvazaya gedib körpünü dağıtdın. Adamları hərbə rəğbətləndirib vilayət tutmaqla kəramət kəşf etmək istədin. Sən o vaxt deyirdin: "Uca göy qütbləri övliyalarından mənə xəbər gəlib ki, qızılbaş döyüşçüləri bu qalanı
s.750 tuta bilməyəcəklər".

(528) Zarafatcıl adam olan və ali bargahda həmişə gülməli sözlər danışan *Məlik Əli bəy Carçı* uzun saqqalı olan Şəmsəddin paşaya dedi: "Əcəb şeyxanə saqqal uzatmısan. Etdiyin vəlayət və kəramət iddiası yalan çıxdı. Adamlarına və'd etdiyin qələbə baş tutmadı. Gərək bundan sonra sənin şeyxanə saqqalındakı tüklər azalsın".

O, şahın ali işarəsi ilə onun saqqalına əl uzadıb yonmağa başladı. Paşanın üzündə bircə tük belə qalmadı. Ona qarşı şahın qəzəb atəşi zəbanə çəkdi. Bu atəş yalnız cəza suyu ilə sönə bilərdi.

Xülasə, Şəmsəddin paşa qardaşı və kiçik oğlu ilə, həmçinin yersiz hərəkəti və nahamvar sözlərindən şahın bərk qəzəbləndiyi daha iki-üç nəfər adamla qəhr və qəzəbə tuş oldu, müxtəlif təhqirlərə mə'ruz qaldıqdan sonra paşanın gözlərinə mil çəkildi, onları ordubazara aparıb tikə-tikə doğradılar.

*Əsl şirvanlı olan (şirvanül-əsl) olan Maral adlı bir şəxs* rumiyyə arasında boya-başa çatdırılmış və onların e'tibarlı adamlarından biri olmuşdu. O, özünü rüzigarın şücaətli qəhrəmanı və məşhur oxatanı (tirəndaz) hesab edirdi. Maral hər oxa öz adını yazıb iqbal ordusunun mülazimlərinə tərəf atır və öz mərdanəliyi ilə öyünürdü. Qardaşı Maralın oxu ilə öldürülmüş dərgah mülazimlərindən biri qardaşının qanını almaqdan ötrü onu öldürmək üçün izn aldı. Dərhal qalaya gedərək, həmin qürur badəsinin məstinin başını kəsdi və gətirib şaha göstərdi.

Rumiyyə döyüşçülərinin hamısının cəzalanmağa və qətl olunmağa layiq olmalarına baxmayaraq, şaha dedilər ki, onların hamısı öz var-yoxlarından əl çəkmiş və hər şeylərini *xunbəha* kimi qazilərə vermişlər. Buna görə də daha azad oluna bilərlər və kim haraya istəsə, oraya da gedə bilər. Rumiyyənin hamısı bu hökmü rəğbətlə qarşıladı.

Qaladakıların biri Gilan valisi *Xan Əhmədin vəziri Xacə Hüsamiddin Gilaninin* qardaşı idi ki, Gilanda xanın qorçibaşısı olmuşdu. Xan Əhməd Gilana və oradan da Ruma gedən vaxt o, Şivanda qaldı. Elə köhnə adı ilə onu "*Qorçibaşı*" çağırırdılar. Varı ilə məşhur idi. Kin-küdurəti, nəfsinin bədliyi və işgüzarlığı ilə rumilər arasında ad çıxarmışdı. Şahın nurlu xatiri Gilandakı fitnəkarlığa, Xan Əhmədin üsyanına və onun Ruma getməsinə səbəb olan Xacə Hüsaməddin və qardaşlarından incik idi. Onun *Xacə Şəmsəddin* adlı bir qardaşı Qəzvin darüssəltənəsində qılıncla cəzalandırlmışdı. Vəzirin qardaşı olan bu qorçibaşı isə qalanın mühasirəsi zamanı rumilərin dövlətxahı və onları iqbar işlərə sövq eləyəni idi. Qalanın fəthindən sonra şahın yanına gəldi. Gilanlıların təbiətinə uyğun yağlı dili və yalan sözləri ilə divanda işləmək arzusunda oldu. Boyun oldu ki, qala əhalisinin qənimət və mallarından çox böyük məbləği şüarları qalibiyyət olan əsgərlərə versin. Bu üsulla o, bir neçə gün özünü şahın qəzəb şəhnəsindən qurtara bildi.

Əvvəlcə, əlli min tüməne-şahiye-İraqi məbləğində puldan söhbət açdı. Rüzigar darüz-zərbinin[1] əyarı müəyyən edən məhək daşı olan şaha mə'lum idi ki, onun sözləri hiyləgərlikdən ayrı deyildir və etibarı yoxdur. Vaxtın məsləhətinə və onun iç üzü bilinənə qədər inkişafda oldu-xələtlə şərəfləndirildiyi kimi, hətta İsfahan və Mazandaran vəzirliyini almaqla vaxtını xoş keçirdi. O, rumiyyə *dəftərdarlarını** gətirib, mühasirə zamanı qalada olan əsgərlərin adlarını ulufə və timar dəftərləri əsasında sadalamağa başladı. Sağ qalan, qətl
s.750 olunan və ölən hər adamın adına çox böyük rəqəmlər oxuyub, hətta ölülərdən də o pulu almağı təklif etdi. Həmçinin

[1] Darüz-zərb – Pul kəsmə evi – *Ş.F.*

Yuxarı qalada yaşayan kədxudalardan və Şamaxı əhalisindən *aman malı* və *cərimə* kimi siyahıya o qədər vergi adı saldı ki, onların hamısı otuz min tüməndən çox olmadı.

Xülasə, həmin məbləği qala ayağında xidmət edən qulamlar, qorçilər, dərgah mülazimləri və tüfəngçilər arasında böldülər. Müəyyən edilən pulunu almaq üçün hər adamı öz tayfasına görə ayırdılar. Ödəniş vaxtı, ortaya çıxası mübahisələri ayırd etməkdən ötrü, Gilan qorçibaşısı məs'ul edildi.

**Gilanlı qorçibaşının Sefidrud çayında qərq olması:**

Xülasə o, hiyləgərlik və tülkülüklə qızılbaşlar arasında bir neçə gün də yaşadı. Onun pul yığmaq bazarı qızışmışdı. Bir neçə varlı adamdan *tərcüman vergisi** yığdı. Başqalarındansa toplanılan pulun tam yarısını, üçdə birini, dörddə birini mənimsəyirdi. Öldürülən və vəfat edənlərin onlara çatası pulundan da böyük məbləğ pul topladı. Bütün qala malından qazilərə də beş-altı min tüməndən artıq pul verilmədi, qorçibaşı tərəfindən mənimsənildi. Gilək qorçibaşasının sözü və əməli sədaqət və
**s.751 (529)** düzgünlükdən uzaq olduğundan, onda təzədən, bədnəfslik və tamahkarlıq əlaməti göründü. Əvvəlki və indiki əməlləri müqabilində cəzalandırmaqdan ötrü onu mühəssillərin[1] ixtiyarına verdilər. Pulları müsadirə olandan sonra dedi: "Gilanda da çoxlu var-dövlətim və saysız xəzinələrim vardır". Mühəssilər onu Gilana aparıb, varidatının zəbtinə başladılar. Sözlərinin əksəriyyəti yalan idi, cürbəcür bəhanələr gətirirdi. Bir gün vüzu[2] almaq bəhanəsilə Sefidrud çayının kənarına getdi. Üz-üzə o biri sahilə çıxmaq məqsədilə özünü çaya atdı. Əməlləri sanki onun əl-ayağını bağladı. Xeyli sə'y etdisə də fəna bəhrində qərq oldu. Sübhanallah, mən nədən danışırdım, amma gör ki, iti sür'ətli qələm cilovu əlimdən alıb məni hara apardı. Amma, etdiyim söhbətlər qalanın fəthi barəsində olduğundan bir o qədər də namünasib olmadı.

Xülasə, Əhməd paşanı bir-iki xidmətçisi ilə şaha yaxın olması ilə, şərəflənən və nəhayət qorçibaşı rütbəsinə layiq

[1] Mühəssil-vergiyığan mə'mur – *Ş.F.*

[2] Vüzu – Dəstəmaz – *Ş.F.*

görülən *Məsum bəy Səfəvinin nəvəsi İsaxan bəyə* tapşırdılar. Paşa bir neçə gün onun mehmanı oldu. Sonra onu bə'zi xidmətçiləri və zəruri şeyləri ilə birgə Qəhqəhə qalasına göndərdilər. Bir müddət qalada qaldı, amma sonradan ondan heç bir xəbər eşidilmədi.

Qalada tutulanlar arasında rumiyyə hakimiyyəti vaxtı boya-başa çatan və *züəma*[*] *və timar*[**] *ərbabı silkinə* mənsub edilən bir neçə Şirvan əhli də vardı. Mülki işlər bunu tələb edirdi ki, başqa adamların arxayın salınması naminə illər boyunca dövlətxahlıq nümayiş etdirmiş olan o adamlara inayət və iltifat göstərilsin və onlara belə bir vaxtda heç bir sədəmə toxunmasın. Şirvanlıların bir neçəsini şəfqətləndirib, hər birinə iki-üç tiyul və soyurqal yeri mərhəmət etdilər. Qərara alındı ki, onların övlad və qardaşları müqəddəs ordu mülazimləri silkinə daxil olub İraqa gəlsinlər. Amma, hakimlər fitnə yaranması qorxusundan Şirvan vilayətini tədriclə onlardan təmizlədilər, illər boyu şirvanlılar ilə münasibətləri olan başqa əsgərləri də öz istədikləri yerə göndərdilər.

Rumilərlə müvafiq və onların xeyirxahı olan *Şirvan əhalisi* bu vaxt ərzində sə'y edirdi ki, etmiş olduqları əməllərini ətrafda gedən dedi-qodulardan safa çıxarsınlar. Öz çarələrini rumilərə qarşı arxa çevirməkdə görüb, onlara müxalif çıxdılar, şahsevən oldular, rumiləri qoşun-qoşun ədəm diyarına gedənlərə yoldaş etdilər, bir gecə-gündüz müddətində hamını
**s.751** axirət dünyasına göndərdilər.

**Zülfüqar xandan alçaq bir əməl görünməsi:**

Beləliklə, Allahın təqdiri ilə *şirvanlıların (şirvaniyan)* qılınc sədəməsəndən nicat tapa bilən azsaylı bir neçə xidmətçi və ad-sansız adamlarından başqa rumi tayfasından o diyarda heç kim qalmadı.

Bu hadisə zamanı Zülfüqar xandan alçaq bir əməl göründü və o, nəhayət həmin əməlin cəzasına giriftar oldu. Məsələ belə olmuşdur: Onun *ən böyük qardaşı Rüstəm xan*, talış əmirlərinə və düşmənlərinə qarşı müqavimət göstərib öz yurdunda və məqamında qala bilmədikdə, qardaşları və təbəələri ilə Kür çayını keçib Şirvana getdi, rumilərə birləşdi, bir

müddət o diyarda gün keçirdi. Axırda, onlar rumilərin nəzərindən düşdülər və rumilər onların dəf’ini lazım bilərək Rüstəm xanı bir-iki qardaşı və təbəəsi ilə qətl etdilər. Rüstəm xanın *ən kiçik qardaşı Fərhad xan* bacarıb Zülfüqar xan və kiçik qardaşı *Əlvənd Sultan* ilə birlikdə rumilərin həbsindən qurtulub qaçdılar və Azərbaycana gəldilər.

İran səltənət taxtı zilləllah şahın cülusu ilə zinətlənib dikbaş qızılbaşlar cəzalandırıldıqdan sonra məmləkətdə sakitlik yarandı. Onlar da düşmənlərindən arxayınlaşıb ali taxt ayayğına gəldilər, şaha mülazimlik etməklə uca mənsəblərə çatdılar. Həmin qardaşların bə’zisi haqqında yuxarıda məlumat verilmişdi. Xülasə, onların bir bacıları Rüstəm xanın iki qızı və xidmətçiləri ilə birlikdə Şirvanda rumilərə əsir və giriftar halda qalmışdılar. Rumiyyə ə’yanlarının bə’ziləri insanlıq edərək o nəslin namusunu qorumaq məqsədiylə həmin hər üç qızla nikah bağlamışdılar. Bu neçə ilə ərzində həmin nikahlardan oğlan və qız uşaqları da doğulmuşdu. Hakimliyinin Zülfüqar xana verildiyi Şirvan qalasının fəthi ərəfəsində həmin qadınların ərləri və övladları Zülfüqar xanla qohumluq əlaqələrinə görə ona birləşdilər və onlar zəruri olan vəziyyətlərinin pisləşməsi, təhlükəsizlikləri, əhl-əyal namusunun qorunması üçün xandan təvəqqə etdilər. Bundan xəbər tutan həzrət zilləllah şah Zülfüqar xana ehtiram və onun nəslinin namusunu qorumaq məqsədilə hökm etdi ki, həmin qadınlar öz ərləri, ovladları və təbəələri ilə birlikdə Zülfüqar xanın himayəsi
**s.752** altında asudə yaşasınlar və heç kim onlara toxunmasın. Rumiy-
**(530)** yənin cəzalandırılmasından ötrü gilək qorçibaşının hesablayıb müəyyən etdiyi məbləğ barədə Zülfüqar xana məlumat verildi və ona əmr olundu ki, heç bir biganə təhsildar[1] evlərinə gedib onlardan heç nə almasın. [Amma] Zülfüqar xan özünü “qaramanlı qeyrəti”* adlandırıb, görəcəyi mənfur əməlin aqibəti barədə düşünmədi, o üç qadını öz ərləri, kişi və qadın övladları, damad, xidmətçiləri və mülazimləri-təxminən iyirmi yeddi, ya otuz nəfəri, aralarında heç bir ixtilafın olmamasına

---

[1] Cərimə pullarını və başqa rüsum və vergiləri toplayan dövlət məmuru – *Ş.F.*

baxmayaraq, bir gecə həlak etdi. Ə'lahəzrət bu əməli olduqca pislədi və bu işdə əli olan hər kəsi məlamətləndirdi. Rəhmsizliyi rəva bilib, məzlum qadınları və günahsız uşaqları qətl etdiyinə görə Zülfüqar xan öz həyat ipini qırdı ki, tezliklə bu hadisənin şərhi veriləcəkdir.

Xülasə, bu əhvalatlardan sonra Şirvan məmləkətləri (torpaqları – *Ş.F.*) əzəmətli əmirlər arasında bölündü. Belə ki, ***Dərbənd, Şabran və bu yerlərin ətrafı Çıraq Sultan Kərampa Ustaclıya*** verildi. *Şahnəzər bəy Təvəkküliyə* əmr olundu ki, *Çıraq Sultana* kömək üçün o sərhələrdə xidmət etsin. Dərbəndə gedən başqa adamlar isə geri qayıtdılar. Zülfüqar xan bəd bir saatda Şamaxı şəhərinə gedərək qəhrlə qala, ev, bürc və barıları dağıtmağa başladı, lağımları və körpüləri bağladı. Humayun ordu Şirvandan çıxıb, hava isti olduğuna görə Şamaxı yaylaqlarına tərəf hərəkətə gəldi, bir neçə müddət qalın meşələrdə, bol otu və suyu olan başqa ürəkaçan
**s.752** yerlərdə xoş günlər keçirdi.

Ali dərgahda olan və bə'ziləri elə bu yaxınlarda peyda olub, humayun taxt ayağına öz adamlarını yollayan və xəl'ət və ən'amlarla mükafatlanan *Dağıstan və çərkəş əmir və hakimləri* geri qayıtdılar. *Rüstəm xan Dağıstaniyə* layiqli təbərrüklər göndərildi. Ali ordudan icazəsiz çıxıb getdiyinə və beləliklə yersiz hərəkətə yol verdiyinə görə *Tabasaran valisi Mə'sum xan* hələ də təlatümdə idi, eləcə o yerlərin adamları da qorxu altında qalmaqdaydılar. Onları arxayın etməkdən ötrü ə'lahəzrət *Şirvan vəziri Məhəmməd Saleh bəyi* qiymətli xəl'ət və hədiyyələrlə Məsum xanın yanına yolladı və onu xüsusi şəfqətlərə layiq gördü. Bu məsələ Tabasaran valisinin sakitləşməsinə səbəb oldu və o, başqa adamların yanında başını uca tutdu, elə həmin bir neçə gündə öz hərəmxanasındakı bə'zi qadınları xidmət üçün əlahəzrətin iqbal çadırına göndərdi, yenidən "səltənət bargahının tərəfdarları" silkinə daxil edildi.

## MÜZƏFFƏR MƏİYYƏTİN ŞİRVANDAN TƏBRİZ DARÜSSƏLTƏNƏSİNƏ QAYIDIŞI, ORADAN İRAQA YOLLANMASI, XORASAN SULTANININ (İMAM RZANIN-*Ş.F.*) ZİYARƏTİ SƏADƏTİNƏ YETDİKDƏN SONRA SƏLTƏNƏT PAYTAXTINA QAYITMASI

Şirvan və Dağıstan işləri nizamlandıqdan sonra geri qayıtmaq qərara alındı, *Cavada* gedib körpü düzəltmək barədə *Əlixan bəy Cavanşirə* hökm verildi. O, həmin hökmün yerinə yetirilməsindən ötrü yollanıb, bir neçə gün içərisində olduqca möhkəm bir körpü bağladı. Körpü hazır olandan sonra qayıdış nağarası çalındı, çayı keçdilər, *Dərbənd ülkasından keçərək Təbriz darüssəltənəsinə* əzm etdilər. Əmirlər və dövlət başçıları hümayun ordunun mallarını *Əhər yolu ilə* yolladılar, şahın özü isə bir neçə yaxın adamları ilə həzrət övlayalar sultanını və qiymətli səfəviyyə şeyxlərini ziyarət etmək məqsədi ilə *Ərdəbil darülirşadına* təşrif apardı, alnını həmin mələk aşiyanlı, müqəddəs torpağa sürtdü, Allahtəalaya şükürlər etmək mərasiminin icrasından sonra bir neçə gün də təfaf və ziyarət etməklə məşğul oldu, sonra oradan çıxıb qələbə və iqballa *Təbriz darüssəltənəsinə* çatdı, müzəffər orduya qoşuldu. O, bir neçə gün də Azərbaycan əmir və ə’yanlarının mətləbləri və başqa məsələləri ilə məşğul olub, sərhəd işlərini tənzimlədi. Şirvan fəthi münasibətilə Cəzirə hakimi *Mir Şərəfdən*, həmçinin *Zəkəriyya xandan* və başqa *kürd əmirlərindən* səadət astanasına gələn elçiləri qiymətli xəl’ətlər və müxtəlif nəvazişlərlə şərəfləndirdi və onlar məramlarını icra etdikdən sonra geri qayıtdılar.

**s.753 (531)** Krım (Qerəm) valisi *Qazi Gəray xan Tatar* şahdan iltimas etmişdi ki, Van cəngində müzəffər əsgərlər tərəfindən tutulan onun dostu mütifərriqə ağası[1] *Xəndan ağanı* həbsdən azad eləsin. Tatar xanının xahişini nəzərə alan şah onu və iki oğlunu-biri onun yanında olan, o biri isə Cığaloğlu ilə aparılan cəngdə giriftar olan oğlunu Qəhqəhə qalasından çıxardı.

[1] Mütəfərriqə ağası-“səltənəti qoruyan sərdar” mə’nasında işlədilir (bax: Dr. M.Moin. Göst. lüğət, c. III, səh. 3823)

Xəndan ağa ağıllı, söhbətcil və dünyagörmüş adam idi. O, şahı sülh bağlamağa meylləndirib, iltimas etdi ki, qoy onun oğlanları şahın yanında xidmət eləsinlər, özü isə Ruma gedib Qazi Gəray xanla birlikdə şahın istədiyi şərtlərlə həzrət cən-
**s.753** nətməkan şah zamanında bağlanan sülh sazişinin təzədən bağlanmasına cəhd etsin.

Ə'lahəzrətin özü də əhali və ibadullahın rahatlığı naminə bu təkliflə razılaşdı, Xəndan ağanı Qazi Gəray xanın yolladığı elçi və tatar xanının yanına elçi tə'yin etdiyi *Əbülqasim bəy Yüzbaşı Evoğlu* ilə birlikdə rəvan etdi. Qazi Gəray xana məhəbbətamiz bir namə də yazıldı. Onların yolu *Çərkəs ülkasından** keçirdi. Elə o əsnada fani aləmə vida edib baqi cahana köçən Qazi Gəray xanın vəfatı xəbəri gəlib çatdı. *Çərkəz hakimlərindən Utiyə* adlı birisinin sinəsində Xəndan ağaya qarşı köhnə vaxtlardan kin qalmışdı. O, Xəndan ağanın Əbülqasim bəydən ayrı olduğu bir məqamda bir dəstə çərkəslə fürsət əldə edib, onun üstünə hücuma keçdi və onu qətlə yetirdilər. Əbülqasim bəy isə həmin vaqiəyə görə çərəkslərlə mərdanə cənglər edib yaralandı, yanında olan mallar çərkəslər tərəfindən tarac edildi. Utiyə ə'lahəzrətin intiqamından qorxub, Əbülqasim bəyi sağ-salamat geri qaytardı.

Xəndan ağanın öldürülməsindən sonra onun oğlanları bir müddət əziz və möhtərəm şahın xidmətində yaşadılar. Nəticədə isə onlara göstərilən hörmətin qədrini bilməyib fərar yoluna düşdülər ki, bu hadisənin şərhi tezliklə bu kitabın zeyl[1] hissəsində veriləcəkdir.

İyirmi beş ilə yaxın bir müddətdə Rumiyyə tərəfindən zəbt olunan və onların işğalı və iqtidarı altında qalan irsi Azərbaycan, Şirvan və Aranın bütün vilayətləri Allah-taalanın qəhrli qüvvəti və asimanın razılığı ilə geri qaytarıldı. İş adamları və qala sursatları ilə dolu olan və barələrində kitabın "Hər ilin əhvalatları" hissələrində mə'lumat verilən o vilayətlərin bütün mətin və möhkəm qalaları fəth olundu, həmin yerlərin geniş sahələri düşmənlərin hücumlarından təmizləndi. Beş ilə yaxın idi ki, qalibiyyətli qızılbaş ləşkəri

[1] Zeyl-kitabın ardı deməkdir-*Ş.F.*

müzəffər hümayun orduda qalalar almaq və cənglərlə məşğuldurlar və uzun sürən yasaqın müxtəlif zülm, möhnət və əzabını görmüşdülər.

Mərhum Əmir Teymur Gürganın hakimiyyəti və ölkələr fəth etməsi zamanından bu vaxtadək iki yüz beş ildir ki, heç bir şövkətli padşah beş il yasaq saxlamamışdı və hər biri cahan sultanlarının karnaməsi və dünya şəhriyarlarının düsturüləməli ola biləcək belə zəfərlər qədim zamanlardan bəri az baş vermişdir. Buna görə də, şah yürüş cilovunu geriyə döndərib, əmirlərə və dövlət başçılarına əmr etdi ki, Təbriz darüssəltənəsində bir neçə gün qalaraq zəfər nişanlı əsgərlərin rəsmi-keçidini hazırlasınlar və qoşunlara baxış keçiriləndən sonra onların hər biri öz ülka və iqtalarına getsinlər. Ə'lahəzrət zilləllah şah bu fəthlərə (fotuhat) həzrət vəlayət şahı olan [İmam Əlinin], həzrət mə'sum inamların, xüsusən həzrət səkkizinci imamın istək işığı, habelə şəxsən özünün başı göyə ucalan astanənin Xorasan torpağında mücaviri və qulamı olması sayəsində yetişdi.

**Beyt**

*Elə bir imamdı ki, örtdülər qapısını*
*Mələklər qanadıyla, adamlar kipriyiylə*[1]

Ə'lahəzrətə həmin nurlu rövzə və o həzrətin ruhu kömək etmişdi. Allahın bu böyük mərhəmətinə (movaheb) şükranlıqdan ötrü o, müqəddəs rövzəni təvaf və ziyarət etməkdən ötrü yola düşdü ki, belə bir əbədi səadətlə səfərini başa vursun, yasaq səfərindən irəli çıxan və vaxtlı-vaxtsız gələn yol yorğunluğundan çıxsın, o amal Kə'bəsinin torpağını öpməklə [çəkilən] əziyyəti rahətliklə əvəz etsin, elə bir böyük səadətə
**s.754** yetişərək dövlət paytaxtına getsin. Buna görə də, bir dəstə dərgah adamı ilə o səmtə yollandı. *Qəzvin darüssəltənəsində* ə'yanlar onun yanına gəlmək səadətinə yetişdilər, Səadət

---

[1] Beytin farscası:
Emami ke ru bənd xake-dəraş-ra
Məlayek beşəhpər, xəlayeq bemojgan.

meydanına tərəf gedən küçə və meydanları bəzəyib çıraqban etdilər və şah orada bir neçə gün şadyanalıqla vaxt keçirdi. Oradan çıxıb səadət və ehtiyac qafiləsini əsl məqsəd və
s.755 mətləbinə tərəf gətirdi, az bir vaxtda həmin böyük səadətə
(532) yetmiş oldu. Herat hakimi *Hüseyn xan Şamlı* və Xorasanın əksər əmirləri müqəddəs Məşhəddə onun yanına gələrək, şahanə nəvazişlərlə şərəfraz oldular. [Əlahəzrət] Allahın mərhəmətinə şükr etdikdən və müqəddəs rövzədə ziyarət və xidmət mərasimini bitirdikdən sonra, atının yürüş cilovunu dövlət paytaxtına tərəf döndərdi, rəcəb ayının iyirmi altısında İsfahana öz gəliş işığını saldı, cənnətə bənzər o məkan hümayun çöhrəni görməklə cənnət işığına qərq oldu. Şəhəri, bazarı və qeysəriyyəni bəzədilər, şah bir neçə gün eyş-işrətlə məşğul olub əhalinin şənliyini artırdı. Ali əmrə görə, yuxarıda yazıldığı kimi, Təbrizdə əsgərlərin rəsmi-keçidinə (san) yollanmış əzəmətli əmirlər və dövlət başçıları həmin işi yerinə yetirmiş, müzəffər ləşkər əskərlərinin adlarını bir-bir siyahıya almışdılar. Bu beş il müddətində hümayun məiyyətdən qətiyyən aralanmayan və həmişə səadətli ordunun mülazimi olan bir dəstə adam, habelə bu səfərdə igidliklər və gözəl xidmətlər göstərən min nəfər şəxs özlərinin xidmətkarlıqları və sədaqətləri baxımından başqalarından fərqlənməkdən ötrü qiymətli hədiyyələrlə şərəfraz oldu, onlar üçün sənədlər yazılıb əzəmətli mustovfilərə verildi. Döyüşçülər icazə alıb öz məskən və yerlərinə getdilər, hər bir əzəmətli əmir isə öz *tiyul* və *iqtalarına* yollandı.

*Asəf sifətli [vəzir olan] etimadüddövlə Hatəm bəy Ordubada getməkdən ötrü* və orada şahanə iltifat sayəsində günlərini işrət və kamranlıqla keçirmək, habelə o ürəkaçan məkanda öz səxavətli xatirinə düşən bir neçə imarət inşa etməkdən ötrü ə'lahəzrətdən rüxsət aldı.

*Bu kitabın müəllifi* özünün əksər vaxtını o cənabın həmsöhbəti kimi keçirmək şərəfi ilə şərəfləndiyindən bütün görüşlər zamanı həmişə onun lütfünü və isti münasibətəini müşahidə edirdi. O, mələksifət insanın feyz bəxş edən söhbəti dostluq və ülfətlə dolu olduğundan, səfərin və yasaqın beş il

uzanmasına, dost və fərzəndlərdən ayrı düşülməsinə baxmayaraq, günlər o yüksək məqamlı cənabın yoldaşlığı və həmrahlığı sayəsində mə'nalı söhbətlərlə ötdü. Buna görə də, lazım bilindi ki, həmin işıqlı səfərin xüsusiyyətlərinin şərhi, baxmayaraq, ki, tarix kitabına münasib deyil, bu il hadisələrinin yazılışı zamanı təhrir ipinə düzülsün. Rica olunur ki, kəlamın uzanması zəka sahibinin (əzkiya) e'tirazına səbəb olmasın.

## ASƏF MƏQAMLI, XOŞ TƏBİƏTLİ CƏNAB [HATƏM BƏYİN] ORDUBADA GETMƏSİ, HƏMİN SƏFƏRİN XÜSUSİYYƏTLƏRİ, ONUN GERİYƏ DÖNMƏSİ VƏ İSFAHANDA [ŞAHA] MÜLAZİMƏT ŞƏRƏFİNƏ YETİŞMƏSİ

Müşk rəngli qələm xoş Ordubad səfərinin xüsusiyyətlərinin
**s.755** təsvirinə belə başlayır. Elə ki, o yüksək məqamlı cənab alişan icazə ilə Təbriz darüssəltənəsindən çıxıb o səmtə rəvan oldu, həmin səfərdə onunla yoldaş və həmsöhbət olan izzətli adamlardan Həvizə Ərəbistanının valisi, əzəmətli valilərdən *Seyid Nasirəddövlənin böyük oğlu (xələfül-vəllatül-üzzam) Seyid Mübarək xan* gəncliyindən bu günədək ali əmrə müvafiq olaraq o alicahın tə'lim-tərbiyəsi və atalıq şəfəqqəti sayəsində boya-başa çatmış, bir çox fəzilət elmlərini kəsb etmişdi.

Başqası, mötəbər rumiyyə əmirlərindən olan səadətli *Həzrət Mustafa paşadır* ki, vəzirlər silkinə mənsub olmuş, *Cığaloğlu cəngində* əsir alınmışdı. O, olduqca qabiliyyətli, xoşsöhbət, xoşəxlaq və münşi təbiətli adam idi. Həzrət zilləllah şah onu alicənab e'timaddövləyə tapşırmışdı. *Nəvvab mirzə (şahzadə Mirzə Talib xan – Ş.F.)* onunla bir müsahib kimi danışırdı və o, həmişə o alicənabın məclislərində olardı.

Başqası, ali dərəcəli Təfərroş seyidlərindən olan *Mir Məhəmməd Hüseyn Təfərroşi* idi ki, fəzilətlərin elmi və əməl kamalı ilə bəzənmişdi. O, inşa elmində, ibarət və istiarat* fənnlərində qabil, baməzə, səliqəli və ali rütbəli şəxsdir. Bir neçə il idi ki, iqbal sahibinin (Şah Abbasın – *Ş.F.*) sədaqətli oğlu, yəni cahan adamlarının ağası və ağazadəsi *Mirzə Talib*

*xanın*, qoy ömrü uzun olsun, tə'limi ilə məşğul olurdu. Onun qohum-əqrabasından olan *Mir Əbdülqəni Təfərroşi* xoş əxlaqlı, şirin söhbətli adam idi və onlar uzun müddət *əllamətül-üləma Mirzə İbrahim Həmədaninin* mədrəsəsində təhsil almışdır. Şerdə mərtəbəsi yüksək idi.

**s.756** **(533)** Başqası, bütün dövrlərin ağıllı adamlarını özündə təcəssüm etdirən *Mövlana Mütribi Qəzvini* idi ki, o, oxumaq və danışmaqda ruzigarın öncülü, söz düzməkdə və elmdə nadir şəxslərdən biridir. Olduqca gözəl təbiətli, zarafatcıl və xoşsöhbətdir. Başqası isə, mahir sazəndə, bəstəkar və ali sərkarın mülazimi olan ustad *Cəfərqulu Udidir*. O, müzəyə (şahzadə Mirzə Talib xana – *Ş.F.*) xidmət göstərmiş, onun xüsusi məclislərində həmin izzət sahibi ilə söhbətlər etmişdir. Şer yazmaqda, tarix elmində, hekayət və rəvayətlər danışmaqda hamıdan üstün idi.

Onlar əvvəlcə gəlib *Araz çayının cənub hissəsində yerləşən Dizmar ülkasının* adları *Duzal* və *Kurdəşt* olan iki kəndinə çatdılar, üç gün orada qaldılar. O iki yer iki qaladan ibarətdir. O, yerin cənnət bağına bənzər bağları bir-birlərinə birləşmişdir. Orada, düzgün qiymət verən adamların Yəzd, Əbrquh, Savə və Qum meyvələrinə bərabər tutduqları bol meyvələr, xüsusilə şirin nar vardır. Həqiqətən də o narın xüsusi yeri var. Orada yaxşı üzüm növləri də yetişir. Həmin mövsümdə bol meyvə yetişmişdi, xüsusən nar. Orada kifayət qədər nar hasil olur ki, onu Azərbaycan, Şirvan, Aran və Gürcüstanın şəhər və kəndlərinə daşıyırlar.

*Musa bəy Dizmari* övladının *ali-nəsiriyyeye-Tusiyə sülaləsinə* (*Nəsirəddin Tusi sülaləsi – Ş.F.*) qohumluğu çatır. Qaracadağ xüləfalarından olan *İlyas Xəlifənin* öz xanədanı və məkanına görə imtiyazı vardır. İlyas Xəlifə həmin vaxtlarda şahın şəfəqqət və iltifatına layiq görüldü və o məmləkətin hakimliyi ona verildi. İlyas Xəlifə də Musa bəy övladı ilə bir sülalədəndir. Cənnətmisal Duzal kəndində onun cəlbedici tərzdə tikilmiş gözəl evləri, uca sarayları vardır. Həmin səfalı yerdə kərəm süfrəsi açılır, gəlib-gedənlərin hallarına münasib onlara mehmannəvazlıq şivəsi ilə qonaqlıqlar verilir.

Adı çəkilən xəlifə və Musa bəy övladından gözəl xətt sahibi, pəhrizkar və qabiliyyətli adam olan *Şahrux bəy* hal-hazırda şahın xidmətində *əzəmətli qorçilər vəziri* rütbəsində çalışmaqdadır. Mö'təbər yüzbaşılar silkinə mənsub olan onun qardaşı *Heydər bəy* öz qohumları ilə gəlib mizbanlıq etdilər və böyük qonaqlıq verdilər. Nəvvab mirzə ilə həm-
**s.756** söhbət olan o izzətli adamların hamısına yüksək insani xidmət olundu. Ali himmət sahibi tərəfindən də (Şah Abbas – *Ş.F.*) xəlifəyə və övladına layiqli sovqat və ərməğanlar verildi, o sülalənin bütün üzvlərinə qiymətli xəl'ətlər əta olundu.

Oradan çıxıb şad-xürrəm halda Ordubada yollandılar. Xoş bir saatda o gözəl şəhərə daxil olub, *Hatəm bəy əcdadının* cənnət kimi gözəl evinə düşdülər. O, şəhərin bütün ləyaqətli adamları onları qarşılayaraq öz sevinclərini izhar etdilər. Hatəm bəy şəhərin əhalisi ilə məhəbbət və şəfəqqətlə rəftar etdi, onlarla böyük adamlara xas hörmət və ehtiramla davrandı. O, ali nəsiriyyə sülaləsinin üzvlərinə qiymətli xəl'ətlər və ərməğanlar təqdim edib, hər təbəqənin bütün ağaları, əyanları və ağsaqqalarına, həmçinin zəka və sənnət sahiblərinə də gözəl töhfələr verdi, yoxsullara, dərvişlərə, ehtiyaclı qadınlara hədiyyələr əta elədi.

Həmin gözəl yerdə iyirmi gün qaldılar və hər gün şahanə mehmannəvazlıqlar və layiqli görüşlər həyata keçirildi. Məclisdə olanlara səxavətlə həddindən artıq xidmət göstərildi. İki-üç gün Vənəndin və Kəlisin[1] seyrinə təşrif aparıb, vaxtlarını daim xoş keçirdilər.

Həmin şərafətli yerin bağları arasında ***Nəzarə adlanan uca bir dağ*** vardır ki, əhalinin seyrangahıdır. Nəzarənin ətəyi boyunca bağlar və bostanlar salınmışdır. Qərb tərəfdən axan Araz çayı çox gözəldir. Alicənab Hatəm bəy hündür dağlardan su çəkmiş və Nəzarə dağında fəvvarə yaratmışdır. O, dağın sahilində hər tərəfində eyvanı olan səkkiz bucaqlı bir imarət inşa etmişdir. İmarətin yuxarı hissəsində elə bir hovuz düzəldilmişdir ki, onun suyu imarətin hər tərəfinə axmaqda-

[1] Kəlis-Güman ki, bugünkü Əylis kəndidir – *Ş.F.*

dır. Hər eyvanın qabağında bir hovuz vardır. Nəzarə dağının cənub tərəfində oradan on zər' aşağı məsafədə üç-dörd cərib[1] uzunluğunda bir sahə mövcuddur. Hatəm bəy əmr etdi ki, oranı həmvar edərək, ortasında böyük bir hovuz düzəltsinlər və dörd tərəfində bağça salınsın, Nəzarənin yuxarısından isə suyu elə təzyiqlə həmin hovuza buraxsınlar ki, Herat şəhə-
**s.757** rindəki bütün dünyada məşhur olan "Təxte-səfər" hovuzunda
**(534)** olduğu kimi suyu yuxarıya vuraraq on gəz[2] hündürlüyündə fəvvarə yaratsın. Amma, istəyi hələ yerinə yetməmişdi ki, çərxi-fələyin gərdişi və ruzgarın adi adəti ucbatından o cənabın başına o qaçılmaz hadisə gəldi. Ümidvarıq ki, hal-hazırda haqq itirməyən saf təbiətli şahənşahın mərhəməti ilə uca vəzarət taxtında əyləşən onun sadiq oğlu həmin hovuz və fəvvarənin inşasına müvəffəq olacaqdır. Xülasə, o saf məkana tamaşa etmək ürək kaşanəsindəki qəmləri yox edir, Nəzarə dağı isə dünyanı seyr edən nəzər sahiblərinin göz işığını çoxaldırdı. Bu rübai elə o vaxt həmin dağ haqqında tərəfimizdən yazıldı və yeri düşdüyü üçün [bizim kitabımızın] yazılışı zamanı səbt olundu:

**Rübai**

*Sanki bu yerin günəş ki, səyyarəsidir,*
*Aləmdə behiştin bu məkan parəsidir.*
*Yüz çeşmə axır hər daşının altından.*
*Huri gözünün, bəlkə də nəzzarəsidir*[3]

Beləliklə, rəcəb ayının əvvəlində (oktyabr-noyabr 1606) o fərəhnak yerdən geri qayıtdılar. Dizmar ülkasının sərhədinədək *cənab İlyas Xəlifə* və qohum–qardaşları onları müşayiət etdilər, xidmət göstərdilər. Oradan Əhər şəhərinə gəlib şey-

---

[1] Cərib-bir hektara bərabər ölçü vahididir – *Ş.F.*
[2] Gəz-101 sm-ə bərabər uzunluq vahididir – *Ş.F.*
[3] Rübainin farscası:
İn boq'e ke afitab səyyareye-ust
Ovsafe-beheşt comle dər bareye-ust.
Səd çeşme nehan be zire-hər xareye-ust.
Rovşən kone-çeşme-hur nəzzareye-ust.

xül-arifin* olan *müqəddəs Şeyx Şəhabəddin Əhərinin* şərafətli türbəsini ziyarət etdilər. Oradan çıxıb Ərdəbil darül-irşadına gəldilər, *Ərdəbilin vəziri Məhəmməd Rzanın* çay kənarında
s.757 gözəl bir yerdə yerləşən evində dayandılar. Bu kitabı yazarkən xatirimə gəldi ki, o alicənab barədə qələm gərək bir neçə kəlmə yazsın.

Adı çəkilən xacə şairinə, zarafatcıl və ağıllı bir şəxsdir. O, cənabın ata-babaları Qəzvindəndirlər. Atası *Xacə Məlik* hesab elmini bilən savadlı bir adamdı, Xorasanda əzəmətli əmirlərin dəftərxana işlərini aparırdı. Ruzigar hadisələri və Xorasan vaqiləri zamanı qarət olundu, pərişan halda İraqa qayıtdı və doğulduğu vətənində yatağını axirət sarayına apardı.

Xacəzadə isə (Məhəmməd Rza – *Ş.F.*) himmətinin ucalığı və istedadının çoxluğuna görə kənddə oturub-qalmağı bacarmadı, az müddət mülazimlik elədi, bilik və bacarığını artırdı, dövlət işçisi olmaq istəyənlərin əl-ayaq etməkdən başqa bir çarələri olmadığı kimi çox çalışdı, nəhayət *Zülfüqar xan Qaramanlının* mülazimi oldu. Sə'y və xidmətinə görə onun hörməti günü-gündən artırdı. Mərtəbə-mərtəbə çıxıb vəzir dərəcəsinədək tərəqqi etdi. Bir neçə il müstəqil və sərbəst vəzir oldu. Onda inkişaf və işgüzarlıq əlamətləri göründüyündən nəhayət ali divanın vəzirlər və qələm sahibləri silkinə daxil edildi. *Azərbaycan vəzarətində* xidmət etdi. Xeyirli Gürcüstan səfərində, o ildə baş verən hadisələrin şərhində yazıldığı kimi, layiqli işlərinə və işə fədai kimi can yandırmağına görə yüksək "*Fədəvi*" *ləqəbinə layiq görüldü,* "behişt ayinli məclisin yaxın adamları" zümrəsinə daxil edildi. Elə o vaxtlarda Ərdəbil darül-irşadında ona tapşırılan divan xidmətlərində çalışdı. Şairlər, nəzm və iste'dad əhli ilə dostluq etdiyindən, imkanı olduqca, o təbəqədən olan adamlara əl tuturdu. Doğrudan da böyük təbiətli, dərviş xislətli, zarafatcıl, xoşsöhbət adam olmaqla ruzgarın xoşbəxt şəxslərindəndir.

Şirin, incə fikirlər (nokat), gözəl və rəngarəng kəlmələr, [şe'rlərindəki] lətafət və zəriflik (zərafət) onun mövzün təb'indən xəbər verir. Yaxşı şe'r söyləməyi də var. Aşiqanə

qəzəllərində xoşagələn və zəngin mə’nalar çoxdursa da onun nəzmlərindən (tənzimat) bu rübai təqdim olunur:

**Rübai**

*Elə şəxsəm ki, həzin və xəstəhal gəlmədəyəm,*
*Halsızam xeyli, vəli tapıb macal gəlmədəyəm.*
*Küləyin göylərə qaldırdığı toz zərrəsi tək*
*Dolaşıb ahimə etməklə məlal gəlmədəyəm*[1]

Xülasə, alicənab [Hatəm bəy] orada üç gün qalıb övliyalar sultanı və qiymətli Səfəviyyə şeyxlərinin həqiqətən də üzlərində güşənişinlik (təcərrod) və Allahpərəstlik (Xodacuyi) nuru parlayan o halal xəlvətsəralarının müqəddəs məzarlarını ziyarət elədi, cənab Fədəvidən böyük sədaqət və məhəbbət gördü, ondan öz köməyini əsirgəmədi, onların arasında ehtiram yarandı və Fədəvi Xəlxal yolu ilə İraqa rəvan oldu. Cənab vəzir onu bir neçə mərhələ müşayiət edib, xidmət göstərirdi. [Hatəm bəy] oradan çıxıb Qəzvin darüssəltənəsinə gəldi, Bağe-səadət xiyabanında yerləşən ürəkaçan evlərdə qərar tutdu. Üç gündən sonra cilovu məqsədi istiqamətinə çevirib, bir gün Savə şəhərində valilər xələfi o şəhərin hakimi *Seyid Mübarəkin oğlu Seyid Nasirin* mehmanı oldu. Oradan Qum darül-mömininə gəlib pak Mə’sumə məscidində
**s.758** o həzrəti ziyarət eləmək şərəfinə yetişdi, həmin müqəddəs rövzənin seyid, molla və xidmətçilərinə hədiyyələr təqdim etdi. Ona gözəl görünüşlü və şirəli nar gətirən Qum əhalisinə
**s.759** özü ilə gətirdiyi *Dizmar narlarından* verdi və bu narlar düz-
**(535)** gün qiymətləndirilməyi bacaranlar tərəfindən daha yaxşı qiymətləndirildi. Baxmayaraq ki, Qum əhalisi içərisində bu qiymətlə razılaşmaq istəyənlər də vardı, amma nainsaflıq edirdilər.

---

[1] Rübainin farscası:

Anəm ke həzin-o xəstetən miayəm,
Can bəste be tare-pirəhən miayəm.
Manəndə-ğobari ke bepiçəd bər bad.
Piçide be ahe-xiştən miayəm.

Onlar bir gün Kaşanda qalıb şə'ban ayının səkkizində (9 dekabr, 1606) İsfahan darüssəltənəsinə çatdılar. Ordubaddan İsfahana qədər hər yerdə istirahət edən və yol yorğunluğu çəkən o yoldaşlar ali məclisə gəlib söhbətə başladılar. Nəğmə və söz əhli insana feyz bəxş eyləyən məclisdə işrət sahibi oldu, gözəl nəğmələr və şirin tərənnümlər dinlənildi

**Beyt**

*Bil qənimət sənə xoşluqla gələn hər gününü,*
*Kimsə bilmir gələcəkdir başına sonra nələr.*[1]

**Şah Abbasın Mazandaranda ova getməyi**

Həmin səfər başlanğıcdan sona qədər (əz bədayət ta nəhayət) şadimanlıq və xoşhallıqla (şekoftegi) başa çatdı, hamı bu ali məclis sahibinin həmsöhbəti olmaq səadəti ilə feyziyab oldu, bu bir neçə günü ömürdən [qənimət] bildi. Elə gəldikləri gün də hümayun şah xidmətinə yetməklə şərəfləndilər, şah tərəfindən şahanə nəvazişlərə layiq görüldülər. Hərçənd ki, bu əhvalatın şərhinin başlanğıcında oxucudan üzr istənilmişdi, lakin bu sətirlərin müəllifi həmin səfərdə onlarla yoldaş olduğundan, lazım bilindi ki, onlardan gördüyü şəfəqqət və diqqəti həmin səfərin həqiqi təsviri ilə müfəssəl şəkildə yazı ipinə çəksin ki, həm yediyi duz-çörəyin əvəzini versin, həm də rüzgar böyüklərinin və insanlıqdan agah olanların etdikləri rəftarın düsturüləməli gözə görünsün. İndi isə, bu cümlədən sonra öz məqsəd və mətləbimizin öncə dediyimiz yerinə qayıdaq.

Xülasə, ə'lahəzrət zillələh şah İsfahanın mübarək Nəqşicahan dövlətxanasında bir neçə gün şadimanlıqla vaxt keçirdi, seyr, söhbət, şikarla məşğul oldu, əhali və İraqın dövlət işləri ilə bağlı işləri tənzimlədikdən sonra onun hümayun xatirinə behiştnişan Mazandaranda seyr və şikar etmək istəyi baş qaldırdı. O, alicənab e'timadüddövlə, əzəmətli sədrlər, əmirlər

[1] Beytin farscası:
Hər vəqte-xoş ke dəst dəhəd moğtənəm şomar,
Kəs-ra voquf nist ke əncame-kar çist.

və dövlət başçılarını divan işləri ilə məşğul olmaqdan ötrü İsfahanda qoyub bir neçə nəfər özünə yaxın adamlar və dərgahın xüsusi nümayəndələri ilə birlikdə Mazandarana təşrif apardı. Qış və bahar fəsillərini o diyarın cənnət bağından xəbər verən görməli yerlərində keçirdi. O vilayət payız və bahar mövsümlərində gül-çiçəyin, lalə və nərgizin çoxluğu ilə dünyanın ən yaxşı yerlərindəndir, oranın adamları həmişə təzə-tər güllər qoxulayırlar.

**Şe'r**

*Hava ətirlidir nigar ətri tək,*
*Nə isti, nə soyuq... Bahardı gerçək.*
*Bənövşə bürüyüb torpaq üstünü,*
*Çinli gözəllərin çöhrəsi kimi.*[1]

**s.759** Ə'lahəzrət vaxtını sevinc və iqbal ilə keçirərək hamıya şadlıq bəxş elədi.

## MÜXTƏLİF HADİSƏLƏR

Bu ildə baş verən hadisələrdən biri də budur: Ali müqəddəs Məşhəddə *Aləmlər Mirzəsi (mirzaye-aləmiyan*[2]*)* və Məşhəd hakimi Mehrab xan Qacar arasında bir dəstə fəsad əhlinin və təbiət camı qürur badəsi ilə dolmuş sultan nişanlı *Asəfin (Asəfe-sultannişan, yəni vəzir – Ş.F.)* hövsələsizliyi ilə vəhşətli bir münaqişə yarandı. Belə vəziyyət ona səbəb oldu ki, aləmlər mirzəsinin tərsliyi (ləcacət) və inadkarlığı üzündən Mehrab xan bu vaxta qədər qoruyub saxladığı öz ədəb və işgüzarlığından yayındı, mirzəyə qalib gəldi (çire). Xan qoşun sahibi olduğu üçün aləmlər mirzəsi ondan qorxub

[1] Şerin farscası:
Həva moskbu çon şəmime-negar,
Nə gərm-o nə sərd-o həmişebahar.
Bənəfşe gerefte sərasər zəmin
Ço xətt bər roxe-xubruyane-Çin.

[2] Aləmlər mirzəsi (mirzaye-aləmiyan)-Xacə Məhəmməd Şəfiyə verilən ləqəbdir – *Ş.F.*

müqəddəs astanaya (saraya-*Ş.F.*) gəlib sığındı. O ətrafa adam yollayıb, çoxlu tüfəngçi topladı. Məsələnin mahiyyəti onların hər ikisi tərəfindən cah-cəlal sahibinə (Şah Abbasa – *Ş.F.*) ərz olundu. Ə'lahəzrət həzrət mirzənin hərəkət və əməllərindən *beyin pozulması (xəbte-deması)* və divanəlik əlaməti olduğunu bilib onu yanına çağırdı. Mazandaranda şahın yanına gəlməklə şərəflənən mirzə, gözlədiyinin əksinə olaraq, şahdan iltifat görmədi. Artıq onda cünunluq və beyin pozğunluğu görünməkdəydi. Baş vermiş başqa bir əhvalat budur: Barəsində yuxarıda bir qədər yazılan *cənab Xacə Məhəmməd Rza* o vaxtlarda hələ Azərbaycan vəziri olmaq rütbəsinə çatmamışdı. O, Mazandaranda şahla görüş şərəfinə yetişdi. Sədaqətinin çoxluğu, xidmətinin ləyaqəti, divan işlərini bilməyinə görə şəfəqqət nəzərinə layiq görüldü, şahın ülfət (atifət) nurlarının parıltısı onun üstünə düşdü və Xacə Məhəmməd Rza bütün Azərbaycanın ali mərtəbəli *vəziri və müməyyizi*[*] təyin edildi, müasirləri içərisində elə bir uca məqama çatmaq ucalığına çatdı. *Mir Cəlaləddin Səlayi* vəfat etdiyi üçün bu il onun İraq Mazandaranının *uca qədirqiymətli və əzəmətli sədarət mənsəbi (mənsəbe-rəfiül-qədre-*
s.760 *sədarəte-moəzzəm)* fəzilət və kamal zivəri ilə zinətlənən və
(536) bu ali mənsəbə layiq olan qardaşı oğlu *Mirzə Rəziyə* verildi.

### Ə'LAHƏZRƏT ŞAHIN ŞAH MÜLKİYYƏTİNİ (SƏRKARE-ƏŞRƏF) HƏZRƏTLƏR ON DÖRD MƏSUM (ÇARDƏH MƏSUM)[**] ƏLEYHİMMƏSSƏLAMA VƏQF ETMƏSİNİN ZİKRİ

Bu il, [çöhrəsində] qeyb surətlərinin şölə saçdığı və bişübhə (lareybi) incəliklər (dəqayeq) gözünün parlatdığı ali şahın məsləhəti belə oldu: Həmişə o həzrətin xeyir amallı vəziyyətinə yardım edən Allah fərmanlarının (tovqiat) və asiman təsdiqinin (tə'yidat) göstərişlərinə (rəhnəmuni) əməl etdiyi üçün [şah] qərara aldı ki, bütün *xassə əmlak və xassə vəsaitini (moktəsəb)* müqəddəs on dörd mə'sum həzrətlərinə vəqf etsin. O, həmin mülkləri özünün gündən-günə (ruzəfzun) çoxalan hakimiyyəti müddətində öz sər'i əmlakına çevril-

mişdi (təməllok) və onların düzgün hesablanmış qiyməti (qiyməte-adele) yüz min tümən şahiye-İraqi məbləğindədir, ziraətə sərf olunmuş hissə çıxdıqdan sonra orta hesabla (tə'sire-vəsət) yeddi min tümənə yaxındır, həmçinin (məə) həmin əmlak, o cümlədən cənnətnişan [İsfahanda] inşa etdiyi ali binalar (xanate-aliyye), qeysəriyyə, İsfahanın Nəqşe-cahan meydanının ətrafındakı dörd bazar və hamamlar on dörd mə'sum əleyhüssəlama vəqf olundu. Mülkiyyətin ən aşağı hasilini müəyyənləşdirib, onları aşağıdakı təsnifatla on dörd hissəyə ayırdılar: qoy birinci hissə ikincidən, ikinci hissə üçüncüdən, üçüncü hissə dördüncüdən artıq olsun. Həmçinin on dördüncü hissəyədək bu işi davam etdirdilər ki, birinci hissə Məhəmməd peyğəmbərə – ona və sülaləsinə salam olsun – aid edildi və on dördüncü hissə isə əmr sahibi olan [imam Mehdiyə] – ona salavat olsun – şamil olundu. Həzrətlərin hər birinə tə'yin olunmuş hissə əkin xərcləri çıxarılandan sonra onlardan miras qalan yerlərə sərf olunacaqdır İmam Mehdinin zühurunadək ardıcıl olaraq vəqf olu-
**s.760** nan həmin əmlakın idarə olunma hüququ (tovliyyət) o həzrətə (Şah Abbasa – *Ş.F.*), ondan sonra yüksək irqli İran məmləkətlərinin şahlıq taxtına əyləşən hər bir padşaha ötürüləcəkdir. Yəni, bu ötürülmə böyük şəxsiyyət, alim, müctəhid *Şeyx Bəhaəddin Məhəmmədin* Qələmi ilə yazılmış mötəbər "*Vəqfnamə*"*sinin** şərtlərinə yüğün əməl olunsun, xərclərin çıxarılmasından və vəqfləri idarə edənin əmək haqqı veriləndən sonra vəqflərdən gələn gəlir həyatın və ruzigarın tələbinə uyğun olaraq, hər üç isin xərcləri[1], həmçinin xidmətçi və mücavirlərin, zəvvarların, kamal və fəzl sahiblərinin, nəqiblərin, hər yerin elm ardınca gedən tələbələrinin xərcləri mütəvəllinin imkanına görə ödənilsin və onun savabı on dörd müqəddəs mə'sumun ruhuna hədiyyə olunsun.

E'timadüddövlə Hatəm bəyin və Mirzə Rəzinin başçılığı ilə İsfahan paytaxtında on dörd mə'sumun adına on dörd

---

[1]"Hər üç iş" dedikdə İskəndər Münşi, güman ki, yuxarıda qeyd olunan ali binalar və qeysəriyyəni, İsfahan Nəqşe-cahan meydanı ətrafındakı dörd bazarı və hamamları nəzərdə tutmuşdur – *Ş.F.*

möhür hazırlandı ki, hələ onların hər ikisinin sağ olduqları vaxt əhli-beyt, islam üləmaları öz kitablarında bu haqda məlumat verilmişlər. Rəngarəng ibarələr və qiymətli sözlərlə xoş bir saatda sadir olunan və imzalanan həmin mübarək əmr Mirzə Rəziyə tapşırıldı ki, hər bir alış-veriş o cənabın mübarək möhrü ilə icra edilmiş olsun. Bütün işlərin həllində o böyük şəxsiyyət sahibinə müraciət etməyə başladılar. Sədrlikdən əlavə bu işin də ona həvalə olunması o nəslin və özünün e'tibar və iftixarının artmasına səbəb oldu. Mirzə Rəzi şahın bütün mülk və torpaqlarının hamısını vəqf dəftərinə saldı, hətta bu işdə ifrata yol verdi ki, o həzrətin dilindən dəfələrlə eşidilmişdir: "Mənim mülkiyyətimdə olan bütün əşyalar, hətta barmağımdakı iki üzük də artıq vəqf edilmişdir. Əgər Mirzə Rəzi lazım bilərsə, onları din və dövlətin yolunda sərf edə bilər".

Mötəbər (şərife) kitabxanada mövcud olan ərəb dilindəki elmi əsərləri, o cümlədən *fiqh, təfsir, hədis* və bu qəbildən olan *kitabları Əbülhəsən Əli ibn Musa Rzanın* vəqfi üçün müqəddəs astanaya (Məşhədə – *Ş.F.*) göndərdilər. Fars dilindəki kitabları-tarix, divan və əcəm müəlliflərinin əsərlərini, bütün çini məmulatı, o cümlədən fəğfuri ləngəriləri[1], mərtəbanları[2], badyaları və başqa çinixanada mövcud olan nəfis quri[3] və fəxfuri[4] qabları mübarək səfəvilər astanasına nəql etdilər. Həmçinin nəfis cəvahirlər, qiymətli daş-qaşla bəzədilmiş əşyalar, qızıl və gümüş qablar, o cümlədən heç bir padşahda olmayan əşqərnejad (yalı və quyruq tükləri qırmızı rəngdə olan at cinsi – *Ş.F.*) və paknejad

---

[1] Ləngəri-böyük sini, tabaq (Bax: Fərhənge-zəbane-taciki, Moskva, 1969, I c., s. 593). "Fəqfuri-ləngəri" ifadəsi isə "çini qab mənasındadır" (Bax: Nəyyerzaman Səqəfi. Göst. lüğət, c.II, s. 194)

[2] Mərtəban-gildən düzəldilmiş qab, yaxud kuzə. D-r Moin mərtəbanın yuxarı hissəsini "çinidəhən" ("çini ağızlı") adlandırır. (Bax: D-r Moin. Göst. lüğət, c III, s. 3989).

[3] Ğuri qab-ğur əhalisi tərəfindən düzəldilən çini qab. Belə qabların köhnəsi daha baha qiymətlə satılır. (Bax: D-r Moin. Göst. lüğət, c II, s. 2451).

[4] Fəğfuri-Fəğfur Çin imperatoru olmuşdur. "Fəğfuri-Fəğfura məxsus" deməkdir. Qiymətli çini qablar. (Bax: N. Səqəfi. Göst. lüğət, c. II, s. 194; D-r Moin. Göst. lüğət, c II, s. 2558).

rumi tazi at ilxıları*, bəyani, gürcü, hesari, bədəxşi, mavərənnəhri kimi iti surətli atlar (ələşələr), saysız-hesabsız ağlasığmaz dərə-
s.761 cədə çoxlu dəvə və başqa heyvanlar da vəqf olundu və onların
(537) hər biri üçün məsrəf ayrıldı. Ali hümayunun vəqf olunmuş bütün mülkiyyətinin qiyməti o qədər yüksək idi ki, hətta bəsirət sahibləri də onların qiymətini hesablaya bilmirdilər, yaxud heç bir aqil adamın onları hesab etməyə curəti çatmazdı. Məhz buna görə də qələmimizin dili onları hesablamayıb susdu.

Asiman işlərindən hali olan bilikli aqillər və savadlı alimlər, fələklərin gizli sirlərindən agah olanlar əgər bu uğurlu işlərə səbrlə nəzər salsalar müəyyən bir yəqinlik hasil edərlər ki, *hökmranlığın ayrılmaz xüsusiyyəti var-dövlətə sahiblənmək meylidir.* Bu qədər mülkiyyətin vəqf olunması insan
s.761 təfəkküründən olduqca uzaqdır, hərçənd ki, keçmiş zamanlarda bə'zi şahlar bir çox xeyriyyə işlərinin baniləri olmuşlar, amma məlum deyildir ki, indiyədək heç bir keçmiş şah, şəhriyar, taxt-tac sahibi belə yüksək səadətə yetişmiş olsun. Tərki-dünya olmayan və təcərrüd[1] nəş'əsinə dalmayan insanlar surəti deyil, mə'nanı qəbul edirlər, hərçənd ki, var-dövlət aləminin bə'zi zahirpərəstləri ağıldan kəm insanlardır və mə'na bazarından bəhrələnməmişlər. Onlar zəmanə işlərinə və o dövrdə yaşayanların əməllərinə nəzər salaraq mənanı ağıldan uzaq bir (mostəb'əd) məfhum sanırlar, amma ağıl və düşüncə sahibləri bilirlər ki, hümayun şahın zatı tuba[2] ağacı kimi "kökü yerdə möhkəm olub, budaqları göyə ucalan gözəl bir ağac kimi"[3] iqbal bulağından su içib yetişmişdir. Əzəli hidayət nurlarından və əbədi (ləmyəzəli) inayət səmasından (totoq) şahlıq taxtına əyləşən (məvaten) [bu hökmdarın] batininə düşən işıq belə sədaqətli kəlam ilə nurlanmışdı: "Ey qırmızı, ey bəyaz, məndən başqasını aldat"[4].

---

[1] Təcərrüd – Günəşin olmaq, tərki-dünya bir həyat tərzi keçirmək (Bax: Fərhənge-zəbane-taciki, səh. 969).

[2] Tuba ağacı-Behiştdə olan ağac (Nəyyerzaman Səqəfi. Göst. Lüğət, c. II, s. 90).

[3] İfadənin ərəbcəsi: "Kəşəcərətin təyibbətin əsluha sabitun və fər'uha fi-s-səmai".

[4] İfadənin ərəbcəsi: "Ya həmrau, ya beyzau ğurri ğeyri".

**Beyt**

*Şire-Xoda, şahe-vəlayət Əli*
*Çəkdi sığal hər cürə küfrə əli.*[1]

Həmin nurdan çıxan parıltı (ləm'e) o həzrətin doqquzuncu babası olan həzrət övliyalar və ulәmalar (mohəqqeqin) sultanı Şeyx Səfiül-həqqin – *Haqq, həqiqət və dinin səfisinin*[*] – qoy onun qəlbi nurla dolsun[2] – və İrşad sülaləsinin ardıcılları (montəzeman), müqəddəs vəhdətsaray nümayəndələri (baryaftegan), təfrid (guşənişinlik) və təcrid (tənhalıq) səhrasının (mərhələsinin) sahibləri olmuş onun ali məqama malik kəramətli övladlarının üstünə də düşmüş və faydalı (bəhrəvər) olmuşdur. Belə misalları çox göstərmək olar, *"həmd və yaxşılıq Allaha məxsusdur"*[3].

Gözəl xasiyyətli (fetrət) hümayun müqəddəs zat dərin ümmandakı şahanə (şahvar) bir gövhər və sədəfpərvər bir dürrdür ki, özünün biliyi və uzaqgörənliyi ilə dərin ruzigar bəhrindən qəvvas kimi zühur sahilinə çıxmışdır. Onun zahiri görkəmi aləmi işıqlandıran surət, nurlu batini isə məna aləminin təcəssümüdür. O, bəsirət gözü ilə təcərrüd aləminin doğru yolun (şahrahe-qəvim) və qeyb aləminin sirlərinə nəzər salmışdır, öz ata-babaları kimi süluk[4] ilə məşğuldur (yəni yaşamaqdadır – *Ş.F.*). Ə'lahəzrət təəllüq aləminə (zahiri aləm – *Ş.F.*) bağlanmamış (bitəəlloqi), səltənət meyxanəsində (xomxane) içilməsi zəruri olan bihuşluqla dolu mey [nuş etmiş] hökmranlıq aləmində (eqlim) ehtirasa (həvapərəsti) qapılmadan əlinə hüşyarlıq badəsi götürmüşdür. O, surət xərababadında (dünyasında – *Ş.F.*) məna aləmini sahmana

---

[1] Beytin farscası:
Şire-Xoda, şahe-vəlayət Əli
Seyqəliye-şerke-xəfi və cəli

[2] İfadənin ərəbcəsi: "Səfiyyül-həqqi və-t-həqiqəti və-d-dini tabə sərahu".

[3] İfadənin ərəbcəsi: "Lillahil-həmdu və-l-minnəhu".

[4] Süluk-təsəvvüf aləmində yol, təriqət, sufilərin həyat tərzi, onların dərvişanə və pərhizkəranə yaşayışı (Bax: Fərhənge-zəbane-taciki, II c., s. 272).

salmaqdadır. Möhkəm ümidvarıq (reca’-ye vaseq) belə bir xeyirli niyyətin xoş bərəkətindən (meymənət) o, bu dünyada öz ali məqsədlərinə çatacaq, onun səadətli hakimiyyət müddəti həzrət əsr və zaman sahibinin (İmam Mehdinin – *Ş.F.*) – zühuruna qədər davam edəcək. İnsanlar (aləmiyan) onun ədaləti sayəsində cah-cəlalın əzəmətindən (setvət) rahat yaşayacaq, [adamlar] asudəliyin həmişəbahar gürzarında buluddan süzülən dürr qətrələri kimi tazə-tər olacaq, [ə’lahəzrət] o biri dünyada (oqba) məşhər gününün şəfaəti və kövsər saqisinin köməyindən bəhrələnəcəkdir.

**Nəzm**

*İlahi, o ali nəsilli şahın,*
*Bizə yadigar o padşahın*
*Uzat ömrünü taxtında şah kimi,*
*Yaşat yəqinlik nuruyla daimi.*
*O zatı görmə çox şahlıq taxtına,*
*İlahi, yaraşır təxtü tac ona.*
*İlahi, zəminü zəman naminə*
*Rahatlıq üçün, insü can naminə,*
*Uzat təbii ömrün ildən-ilə*
**s.762** *Cavan saxla cahanı bəxti ilə*[1]

[1] Nəzmin farscası:
İlahi, to in şahe-valatəbar
Ke həst əz kəhan-o məhan yadegar,
Bər ovrənge-şahiş payənde dar,
Deləş-ra be nure-yəqin zənde dar.
Bədarəş bər ovrənge-fərmandehi,
Ke mizibədəş təxte-şahənşəhi.
Xodaya, be həqqe-zəminü zəman
Ke əz bəhre-asayeşe ens-o can
Be omre-təbii rəsan sale-u,
Cahan-ra cəvan dar ze eqbale-u.

## BƏZİLƏRİNİN MİN ON ALTINCI (1607/1608), BƏZİLƏRİNİNSƏ MİN ON YEDDİNCİ (1608/1609) MEYMUN İLİNDƏ BAŞ VERMƏSİ SÖYLƏNİLƏN HADİSƏLƏR-MÜQƏDDƏS ŞAH CÜLUSUNUN İYİRMİ İKİNCİ İLİNDƏ BAŞ VERƏN HADİSƏLƏR [HAQQINDA]

Mübarək [hadisələrlə] başlayan və səadətlə bitən bu qalibiyyətli ilin novruzu zilhəccə ayının üçündə pəncşənbə gününə şadyanalıqla təsadüf etdi və bahar günlərinin təravəti gülşən ruzigarına paklıq bəxş etdi. Dey ayının soyuq iqlimindən dərdə düşmüş (fesordegi) qoca dünya təzədən cavanlıq nişatına başladı. Ə'lahəzrət zillələllah şah Mazandaran vilayətində eyş-işrət, seyr və şikarla məşğul oldu. Mazandaranın havası mülayimlik dərəcəsindən (dərəceye-etedal) keçdikdə istiləşmə başladı,
s.763 (538) ə'lahəzrət seyr və şikarı İsfahanda davam etdirmək fikrinə düşdü və həmin diyar sakinlərinin üstünə öz səadət kölgəsini saldı. Oradan bütün əmir və ə'yanlarla birlikdə Kehizələng və Fəridun yaylaqlarına təşrif apardı və bir neçə gün də o yerlərdə işrət məclisi qurdu. Elə həmin günlərdə Bağdad darüssalamanından şad xəbər gəldi, hamı sevinərək Bağdadın fəth olunacağına və o cənnətmisal yerin ələ keçiriləcəyinə ümüdvar oldu, amma, kəlamda deyildiyi kimi, hər görüləsi işin öz vaxtı vardır[1]. Hələ zamanı yetişmədiyindən Bağdadın fəthi hadisəsi yubandı və baş tutmadı.

Yuxarıda həmin əhvalatın şərhi belə verilmişdi: *Uzun Əhmədin* vəfatından sonra onun oğlu *Məhəmməd Paşa* osmanlı dudmanına öz dövlətxahlığını izhar etdi. O ailənin dövlət başçıları Uzun Əhmədin oğlanlarını atalarının əsir düşməsindən sonra tərbiyətləndirməyə başlayaraq, Uzunun əvvəlki əməllərinə görə onları arxayınlaşdırdılar, Bağdad hakimliyi barədə məktub Məhəmməd paşanın, Hillə sancağı isə qardaşı *Mustafa paşanın* adına yazılıb göndərildi, bu yolla onları Ale-Osman dudmanına rəğbətləndirdilər. Məhəmməd paşa itaət yolunda dayanıb, İraqi-Ərəbin bütövlüyünü qorudu və orada müstəqil oldu, amma Bağdad ləşkərinə tam sahiblik

---

[1] İfadənin ərəbcəsi: "əl-umuru mərhunətun bi əvqatiha"

etməkdən ötrü, rumiyyə arasında "səgban" ifadəsi kimi işlənən çoxlu xüsusi mülazimi (molazeme-xasse) ətrafına topladı. Buna görə Bağdadın *ülufə* və *mərsumatından** (rüsum – *Ş.F.*) əldə olunan gəlirləri səgbanlar yığmağa başladılar. Bu səbəbdən də Bağdadın züəma** və əskərlərinin başçıları ziyana düşdülər və ləşkər böyüklərinin münasibəti Məhəmməd paşaya qarşı dəyişdi, onunla kin məqamında durdular. Səgbanların sayının çoxluğundan, paşanın elə bir qüdrəti də yox idi ki, onları dəf' edə bilsin. Onlar bir neçə nəfərlə toplaşaraq onun qətl olunması xüsusunda düşündülər, fürsət tapıb paşanı xüsusi istirahət yeri olan narınqala köşkündə öldürdülər. Züəma və ləşkər başçıları onun qardaşı Mustafa paşanın yanına yığışıb Bağdad hakimiyyətini ələ keçirdilər.

Paşa onlarla vuruşaraq, bir neçə nəfər xoşlamadığı adamı aradan götürdü və onların var-dövlətini səgbanların arasında böldü, qardaşından daha çox qüdrətə malik oldu. Bağdad
**s.763** əskərləri paşadan qorxduqları üçün aralarında vasitəçilərin köməyi ilə bir neçə gün barışıq yarandı, əskərlər istər-istəməz ona tabe oldular.

**Cığaloğlunun Bağdada gəlişi**

Bu hadisələrin baş verməsi vaxtı *Rum padşahı Sultan Əhməd xan*, babası Sultan Murad xanın hakimiyyəti vaxtı Qaraman əmirülümərası olan *Murad paşanı* yenidən Ruma göndərdi. Murad paşa *Sərdar Osman paşa* ilə Təbriz darüssəltənəsinə gəlib onlarla döyüşən mərhum şahzadə *Sultan Həmzə* ilə cəngə girmiş, qızılbaş ləşkəri tərəfindən əsir alınmış, altı il Qəhqəhə qalasında saxlanılmışdı. Hümayun şahın taxta cülus etməsi vaxtı o həzrətlə Sultan Murad arasında sülh sənədi bağlandıqda, hər iki tərəfin əsirləri bir-birləri ilə dəyişdirildi, Murad paşa yenidən Ruma qayıtdı. Bir vaxt vilayət bəylərbəyisi olmuşdu, amma ağlının çoxluğu özünün işgüzarlığı və təcrübəsinə görə onu *baş vəzir* və *sərdar* təyin etdilər. [O zaman] Osmanlı məmləkətlərindəki nizam-intizam firənglərin (firəngiyyə) istilası, cəlali təbəqəsinin üsyanı, qızılbaşlarla sərhəd toqquşmaları üzündən bərbad olmuşdu. Buna görə də, paşanı bu işlərin

yoluna qoyulmasından ötrü yola saldılar. Qələm onun o vaxt cəlalilər hərəkatını necə yatırması haqqında gələcəkdə mə'lumat verəcəkdir. Paşa Hələb yaxınlığında iqamət çadırı quraraq mülki işlərin icrası ilə məşğul olmağa başladı, Bağdadda baş verənlər və adı çəkilən Mustafa paşanın istilası xəbəri eşidiləndə, həmin vilayətin hakimliyini *Mahmud paşa Cığaloğluya* verərək Bağdad qoşununa, həmçinin İraqda və Cəzirədə yaşayan ərəb qəbillərinə məktub yazdı, Cığaloğluya həmrah olacağını və kömək edəcəyini bildirib onu rəğbətləndirdi. Mahmud paşa [buna görə də] İraqi-Ərəbə gəlib köhnə Bağdadda dayandı.

Bağdadın ağaları və əskərləri onun gəlişindən xəbər tutub, Mustafa paşaya tabe olmaqdan boyun qaçırdılar, səs-küy qaldırdılar, razılaşma qapıları tamamilə qapandı, müxalifət qapıları açıldı. Mustafa paşa vəziyyəti belə görüb, səgbanlarla narınqalanı zəbt edərək, cahanpənah şaha birləşmək fikrinə düşdü, şaha və əzəmətli sərhəd əmirlərinə ərizə və məktublar yazdı, Bağdaddakı qarışıqlıq zamanı oraya gedərək elə orada da qalan *Çolaq Hüseyn Təkəlinin oğlu Bayram xan*ı ali saraya göndərdi və belə ərz etdi: "Əgər cah-cəlallı ordu bir tərəfə hərəkət edərsə, şah qoy əzəmətli bir əmirini müzəffər döyüşçülərlə göndərsin. Mən o zaman Bağdad şəhərini və qalasını o dərgah adamlarına verərəm, özüm də o həzrətin bəndəsi olaram".

**s.764** Əlişəkər bəylərbəyisi *Həsən xan* və *Qasım Sultan İmanlı*
**(539)** *Əfşar* bir dəstə zəfərşüar əskərlə Mahidəşt çayı kənarına gedərək hümayun əmr və işarə gözləyirdilər ki, ə'lahəzrətin edəcəyi hökmə əməl etsinlər. Bayram xan və Mustafa paşanın göndərdiyi adamlar Fəridən[1] yaylaqlarında ali taxt ayağına gələrək şahla görüş səadətinə yetişdilər, şahanə nəvazişlərlə sərəfraz oldular. Ə'lahəzrət, Mustafa paşa üçün qiymətli xəl'ətlər göndərib, belə bir inayətli hökm sadir etdi: "Qoy öz işində mərdanə olsun, qalanı qorumağa çalışsın ki, tezliklə hümayun fallı şah məiyyəti qələbə və iqballa gəlib çatacaqdır". Həmin sərhədin əzəmətli əmirlərinə isə hökm

[1] Bir qədər yuxarıda bu yerin adı "Fəridun" yazılmışdı – *Ş.F.*

olundu: “Onlar qoy Bağdad yürüşünə hazırlaşsınlar (mostəed), cah-cəlal ordusu o hüduda çatana qədər onlar ordudan əvvəl getsinlər”. Bağdad döyüşçüləri və səgbanlar arasında hərb atəşi şö’lələnməkdəydi. Onların aralarında hər gün çəkişmə gedir, döyüşə cidd-cəhd başlanırdı. Uzun Əhmədin oğlunun üsyanı, səgbanların orta mövqedə dayanmaları (bie’tedali) onların səadət aşiyanlı dərgaha müraciətləri və qızılbaş ləşkərinin hərəkəti xəbərini eşidən Mahmud paşa, Bağdad ləşkərinin təklif və təhrikinə baxmayaraq irəli gəlməyə cür’ət etmirdi.

O vaxtlarda günlərin bir günü səgbanlar hücum edərək
s.764 qaladan şəhərə və məhəllərə gəldilər, qətl və qarətə başladılar. Şəhərdəki Bağdad döyüşçüləri Mahmud paşanın və ərəb qoşunun güya gəlişi xəbərini yayaraq, səgbanların yolunu kəsdilər. Aralarında bərk hərb başladı. Bağdad döyüşçüləri qələbə çaldılar, küçə və məhəllələrdə çox döyüşçü fəna qılıncına giriftar oldu, sağ qalanlarsa qalaya tərəf üz tutdular. Bu xəbərdən fəth və zəfərə ümüdvar olan Mahmud paşa böyük qoşunla onun köməyinə gələn *Mühənna Ərəbin oğlu Mir Nasirin* köməyi ilə gələrək Dəcləni keçdi və Bağdada girdi. Qüvvətlənən Bağdad əskərləri narınqalanı mühasirəyə almağa və orada mühasirə olunanlara təzyiq göstərməyə başladılar. Mahmud paşanın şəhərə gəlişi və Bağdad əskərlərinin istilasından Mustafa paşa qorxuya düşdü. Onun döyüşçülərinin çoxu öldürüldüyü üçün, qardaşının başına gələn hadisəni xatırladı, özünün başqa adamlarına qarşı e’timadını itirdi. Bərk qorxuya düşdüyündən bir neçə gün də gözlədi və elə bu vaxt ali dərgaha göndərmiş olduğu adamlar qayıdıb gəldilər, qızılbaş ləşkərinin köməyi də gəlib-çatdı. Mahmud paşanın yanına adam yollayan Mustafa paşa üzrxahlıq etdi, sülh barədə danışığa başladı, belə qərara gəldi: “Padşahın əmrinə əsasən Hillə onun sancağı olduğundan, hər iki tərəf əskərləri bir-birlərinə mane olmasınlar və o, Bağdadı paşaya verərək, öz var-dövləti, həmçinin mülazimləri ilə Hilləyə çıxıb getsin”.

Belə təklifi qənimət bilən Mahmud paşa sülhə razılıq verdi, hər iki tərəf arasında əhd-peyman başlandı. Mustafa

paşa öz adamlarıyla narınqaladan çıxdı və Hilləyə üz tutdu. Sonra isə ümüd üzünü aləmpənah dərgaha yönəltdi ki, bunun şərhi gələn ilin hadisələrində yazılacaqdır. Sözün qısası, Mahmud paşa elə həmin gün qalaya daxil olub, hakimlik etməklə məşğul oldu. Bayram xan və yoldaşlarının Həsən xanın və əmirlərinin ordusuna gəlmələri ilə eyni vaxtda (məqaren) bu xəbər onlara yetişdi. O vaxt zəfər ayəli ordu Həmədanın Ağ Ələngində idi ki, əmirlərin yazdıqları ərizələr gəldi və Bağdad həqiqətləri məlum oldu. Bağdadın istiliyi şiddətləndiyi və havanın hərarəti yüksəldiyi üçün yürüş o zaman baş tuta bilmədi. Ə'lahəzrət Həmədan və Dərczin hüdudunda bir neçə gün məmləkət işlərinin nizama salınmasına, əhali məsələlərinin həllinə, əlvar və əkrad (lur və kürd – *Ş.F.*) oğru və quldurlarının cəzalandırılmasına başlayaraq, illərlə nurlu fikrində olan Bağdad yürüşü barədə tədbirlər düşünməyə başladı. Elə bu vaxt cəlalilərin gəlmələri xəbəri yayıldı və Bağdad yürüşü tamamilə dayandırıldı.

## CƏLALİ ƏHVALATININ ZİKRİ, ONLARIN RUMİLƏRLƏ HƏRBLƏRİNİN BƏYANI VƏ O TAYFADAN BİR DƏSTƏNİN SƏADƏT NİŞANLI DƏRGAHA GƏLMƏSİNİN ZİKRİ

Huşu iti olan bilik sahiblərindən (xerədməndan) və iti huşlu (tizhuş) söz dinləyicilərindən qoy bunlar gizli qalmasın. Aləmi bəzəyən bu kitabda, xüsusən onun dibaçə hissəsində dəfələrlə yazılmışdı ki, bu kitabın yazılmasından məqsəd İran və iranlıların şərhini verməkdir, amma cümlələr arasındakı rabitənin qırılmaması və köhnə və yeni hadisələr barədə xəbərlərin verilməsi üçün əsl məqsədimiz olan hər tayfa haqqında mə'lumatın [da] nəzərə çatdırılması qaçılmazdır ki, həmin xəbər və mə'lumatlar yığcam halda İran hadisələrinin bəyanı zamanı yazılmışdır, çünki onları mütaliə edənlər qoy zəruri mətləbləri başa düşməkdən ötrü söz sarayının əvvəlki təsvirlərindən hali olsunlar. Buna görə də,
**s.765** müəllif hazırcavab qələmin köməyi ilə cəlalilərin əhvalı
**(540)** barədə sirr səhifələrini yazmağa başlayır.
1378

Rumiyyə rumiləri dövrün padşahına asi olub qarətçilik və vilayətlərin viran edilməsi ilə məşğul olan adamları "cəlali" adlandırırlar. Bizim naqis düşüncəmizə görə cəlali ifadəsinin
**s.765** mənası belədir: Təbiətlərində rəhm və əfv olmayan cəlalilər özlərinin qüdrətini, cah-cəlalını nümayiş etdirmək istəyirlər. Xülasə, Rum vilayətində bu dövrdə qarışıqlıq salan və birinci cəlali sayılan mənfur rumi yazarlarından biri olmuşdur. O, *Qara Yazıçı* adı ilə məşhur olub *Sultan Məhəmməd xan ibn Sultan Murad xanın* hakimiyyəti illərində Amasya və Toqat ərazilərində üsyana və fitnəkarlığa başlamış, bir dəstə alçaq və avara adamı qarət yolu ilə yolçulardan və tacirlərdən ələ gətirilən dirhəm və dinarla şirnikləndirib aldatmış, həmin yerlərdə öz şücaət və səxavəti ilə ad çıxarmışdı. Bir dəstə süst iradəli avara və bədbəxt ləvənd adam dirhəm və dinara tamah salıb bir neçə gündən bir vilayətlərə hücum edir və bir müddət orada qalırdılar. Qara Yazıçının əskərlərinin sayı dörd-beş min nəfərə çatdı.

**Yazıçının öz hakimiyyətini qurmaq barədə fikirləri**

Bu əsnada yuxarıda adı çəkilən Yazıçı öz təbii əcəli ilə vəfat etdi, onun *Həsən bəy* adlı qardaşı qardaşının qayimməqamı oldu. "*Yazıçı*" adı artıq Rum ölkəsində məşhurlaşdığından, o da qardaşı kimi özünə "*Yazıçı*" ləqəbini götürdü. Həsən Yazıçı həmin ölkədə öz qardaşından da çox vəlvələ və qarışıqlıq yaratdı. Padşahın dövlət başçıları və Rum məmləkətlərinin bəylərbəyiləri vəziyyətin başlanğıcında bu işə elə də böyük diqqət göstərmədilər, onun fəsadının qarşısını almağı asan güman etdilər. Cəlalilərə başçılıq etmək artıq başqa qardaşa keçmiş və onun qətiliyi, qorxmazlığı, səxavəti və şücaəti barədə qardaşından daha çox danışılmağa başlanmışdı. Hər təbəqənin ailə qurmağa meyl etməyən avaraları və hər tayfanın veyilsərgərdan üzvləri onun başına yığışıb, padşaha mülazimlik edən rum döyüşçülərini qətl edir, onların var-dövlətinə göz dikirdilər. O, qardaşının əksinə olaraq tacir və rəiyyətə az əl uzadırdı. Amma rumiyyə əskərlərinin qətl və qarət olunmasına elə sə'ylə girişmişdi ki, onun və adamlarının çənginə keçən

heç bir kəsin xilas olmaq imkanı yox idi. Həsən Yazıçı ilə tanışlıq edən karvan əhli, tacir və yolçular onunla razılaşıb öz məqsədlərinə yollanırdılar. O da onlardan azacıq peşkəş alıb, [ələ keçirdikləri] mallarına dəymirdi. Həmçinin, ona töhfə və peşkəş göndərən hər vilayətin əhalisi onun ləşkərindən amanda idi, ona boyun əyənlərin var-yoxları isə tarac süpürgəsi ilə süpürülürdü. Ətraf yerlərin hakim və paşaları gediş-gəliş yollarını bağlayırdılarsa da, qalalara sığınıb ondan müdafiə oluna bilmirdilər. Şəhər və vilayət camaatının onun fərmanına itaət etməkdən başqa çarələri qalmamışdı. Həsən Yazıçının ləşkərindəkilərin sayı on-on beş minə çatdı.

Onun hökmü Rumun Anadolu vilayətlərinin çoxunda çarı idi. Hər hansı bir diyarın əhalisi və *dəftərdarlarına* onun tərəfindən yazılan barata pul ödənilir, Həsən Yazıçı getdiyi hər yerdən *aman malı* toplayırdı. Bir dəfə əmirlər və paşalar onun fitnə-fəsadının qarşısını almaq üçün yığışdılar, amma Yazıçı bundan xəbər tutaraq bir hücumla onları dağıdıb, çoxlu qənimət ələ keçirdi. Padşahın dövlət başçıları bu hadisəni dəf’ etməyə çalışdılar. Onlar bunun üçün birinci dəfə Xosrov *paşa* adlı mötəbər bir paşanı sərdar təyin edib, paytaxt mülazimlərindən olan bir dəstə yeniçəri və qapıqulunu onun üstünə göndərdilər, amma Xosrov paşa məğlubiyyətə uğrayıb bir iş edə bilmədi və Malatiyyəyə qaçdı. Həsən Yazıçı bu paşanın əzilməsindən sonra özünə səltənət qurmaq fikrinə düşdü, belə ki, o öz adamlarından *əmirlər* və *bölükbaşılar* tə’yin etdi. İkinci dəfə Məhəmməd paşanın oğlu Həsən paşa sərdar tə’yin olundu. Onun atası Sultan Süleyman zamanında baş vəzir idi, özü isə var-dövlətinin çoxluğu, qızıl-gümüşü, yüngül və ağır varidatı ilə başqa rum əmirlərindən üstün idi, Ale-Osman xanədanı ilə qohumluq əlaqəsi vardı. O vaxtlarda Bağdad darüssalamının həşəmətli və şan-şöhrətli bəylərbəyisi idi, rəyinin düzgünlüyü, hüsni-tədbiri, şücaət və
**s.766** mərdanəliyi ilə xalq arasında məşhurdu. Ərzrumun, Ərzincanın və oraya yaxın yerlərin hakim və paşalarını təcrübəli və ağıllı İrəvan bəylərbəyi Şərif paşa ilə birlikdə Yazıçının dəf’inə yolladılar.

Həsən paşa şövkət və iqtidarla Bağdad darüssalamından çıxıb Toqata tərəf getdi, ətraf ləşkərlər də ona qoşuldular. Paşa ordunun əsas hissəsini, ağır-yüngül xəzinələrini arxada qoyub, sübay* ləşkəri ilə yola düşdü ki, onları yavaş-yavaş gətirsinlər. Yazıçı isə qüruru üzündən Həsən paşa və rum döyüşçüləri ilə olacaq döyüşün fərqinə varmayaraq, özü onunla cəngə yollanmadı, əmir və bölükbaşılarını döyüşkən
**s.767** bir qoşunla ona qarşı yolladı. Toqat yaxınlığında qarşılaşdı-
**(541)** lar və böyük bir cəng oldu. Həsən paşa qalib gəldi, cəlalilər məğlub oldular. Həmin mərəkədə cəlalilərin çoxu istiqaməti ədəm yolunu tutdu, sağ qalanları isə ətraf yerlərə dağılışdılar. Yazıçı öz adamlarının məğlubiyyətini eşidib, olan-qalan cəlali döyüşçüləri ilə Toqatdan çıxıb rumilərə tərəf yollandı.

**Yazıçının öz ləşkərinin qalıqları ilə məğlubiyyəti:**

O, elə ki, düşmən ilə qarşılaşdı, özündə o qoşuna qarşı müqavimət əlaməti görməyib, kiçik bir döyüşdən sonra fərar yolunu tutdu. Onunla həmrah olan üç-dörd min adam isə uzaq dağlara qaçdılar. Həsən paşa qalibiyyətlə Toqata gəldi, cəlaliləri təqib etməkdən əl çəkdi, onların var, yaxud yox olmalarının fərqinə varmayıb, bir daha dirçələ biləcəklərini güman etmədi.

Amma, həmin Yazıçı bir neçə gün keçilməz dağlarda qaldı və o zaman dağınıq düşmüş cəlalilərin qalıqları ona birləşdilər. O, özünü elə göstərdi ki, güya ondan və adamlarından bu ərazidə əsər-əlamət qalmamışdır, amma gizlicə olaraq bir neçə adamını Toqata göndərib, rumilərin vəziyyətindən xəbər tuturdu. Həsən paşanın özü bir neçə xüsusi mülazimi ilə qalada qalırdı, başqa döyüşçüləri isə şəhərdə evlərə girib , eyş-işrətlə məşğul idilər. Əlsiz-ayaqsız adamların əksəriyyəti özünün dolanışığı və atlarının yemlənməsi üçün ətrafa səpələnirdilər.

**Yazıçının Toqata və Həsən paşa üzərinə hücumu**

Həsən paşadan və onun qafilliyindən xəbər tutani Yazıçı hücumla Toqat şəhərinə yürüş etmək qərarına gəldi. O, belə düşünürdü ki, bir dəstə adamı qala qapılapının qorunması üçün saxlayıb, qalan döyüş-

çülərini intiqam qılıncı ilə şəhərə göndərib döyüşə başlasın. Yazıçı başına toplaşan yeddi min nəfərədək adamla bu xəyalla hərəkətə gəldi.

Əvvəlcə, iqbalı onun istiqbalına gəldi. Həsən paşa və adamlarının köçü, arxadan gələn bütün təchizatları, xəzinələri və başqa malları ilə birlikdə, təxminən min baş tüklü dəvə və min nəfər də əskər və xidmətçi onun hücumuna düçar oldular. Yazıçı qəzavü qədər dairəsi ilə onları əhatələyib bütün əskərləri intiqam qılıncından keçirdi. Bütün qadınlar, qızlar, oğlanlar, həmçinin adamların illərlə topladıqları xəzinələr, mallar, silahlar Yazıçının əlinə keçdi. Arxayın olub işıqdan və küləkdən sürət borc alaraq Toqat üzərinə getdi. Yazıçının qayıtması və baş verən hadisə xəbəri Həsən paşaya çatanda, o heyrətdən və Yazıçının belə namussuzluqla ona qələbə çalmasından süst olub məharətini unutdu, bəsirət gözü bu hadisənin qarşısını almaq üçün tədbir görmədi, çaş-baş qaldı, özündə bir yerə toplaşmaq və Yazıçı ilə döyüşmək qüvvəti tapmadı. Onun hər dəstəsi sağ qalmağı qənimət bilib ətrafa səpələndi. Həsən paşanın qalaya sığınıb, müdafiəyə başla-
**s.767** maqdan başqa çarəsi qalmadı, nizamsız halda Toqat qalasının narınqalasında qərar tutdu. Yazıçı isə şəhərə gələrək böyük qüvvə ilə qalanı mühasirəyə aldı.

**Həsən paşanın öldürülməsi və narınqalanın Yazıçı tərəfindən fəth olunması:**

Həsən paşanın həyat qədəhi təəccüb və qürur şərabı ilə dolduğundan, İlahinin təqdiri ilə atışma zamanı qala bürclərindən birinə dəyən güllə sıçrayıb ona dəydi və paşanı öldürdü. Başqa döyüşçülərsə aman istəyərək qalanı Yazıçıya təslim etdilər. Cəlali dəstələri Həsən paşa və onun adamlarının var-dövlətlərinə sahib olub kasıbçılıqdan qurtuldular. Yazıçı, ruh quşunun bədən qəfəsindən uçan Həsən paşanı qala darvazasında boğazından asdı. Qüdrət və amansızlığının Rum məmləkətlərində yayılmasından ötrü paşanın cəsədi bir neçə gün baxanlara ibrət dərsi kimi orada qaldı. Toqat qalası təzədən Yazıçının əlinə keçdi və ora onun dayaq yeri oldu.

Deyirlər ki, Həsən paşa böyük və qeyrətli adam olduğu üçün baş verən hadisədən narahat olub qeyrəti üzündən ona borc verilən həyatdan küsdü,özünü zəhərlədi, Yazıçı isə onun bədəninin çarmıxa çəkilməsinə hökm verdi. Təqdir üzündən Yazıçıya belə bir fəth qismət olandan sonra onun vəziyyəti yenidən rövnəqləndi, hələ bir müddət dövlətdən kam almağında qaldı, amma belə vəziyyətin bir müddət də davamından sonra onun əvhali-ruhiyyəsində dəyişiklik yarandı, etdiyi işlərin gələcək vəziyyətinin düşündü, əhalinin var-dövlətini qarət etdiyinə, hələ öz səltənət büsatını qura bilmədiyinə, qan tökdüyünə və fitnə törətdiyinə, məqsədinin icrası üçün görəcəyi işlərin hələ çox hissəsini görə bilmədiyinə görə peşiman oldu, özünün qəlahətli əməllərinin çarəsini Rum padşahından əfv istəmək ricasında gördü, özünün islam sərhədlərindən birinə göndərilməsini və ömrünün qalan hissəsini kafirlərlə döyüşdə keçirmək qərarına gəldi. Osmanlı səltənət taxtının ayağına bir adam göndərib, peşimançılığını izhar etdi və
**s.768** xahişini sultana bildirdi. Yazıçının fitnəsini dəf etməyi qərara
**(542)** alan dövlət başçıları bu təklifi böyük bir çıxış yolu kimi qəbul edib, onu firəng sərhədindəki Rumelinin* əyalət və mülkiyyətini qorumağa təyin etdi. Yazıçıya xələt və toppuz göndərib onu padşah mərhəmətinə ümüdvar etdilər, arxayınlaşdırdılar. Yazıçı əmrə baş əyib öz pis həyat tərzindən əl çəkdi, Rumeliyə rəvan oldu. Ləvəndlər tayfasına mənsub olan bə'zi yoldaşları onlara həmrah oldularsa da, bə'ziləri ona xilaf çıxdılar. Yazıçı məqsədinə nail olub, iki-üç il firəng kafirləri ilə döyüşdü.

Bir adam belə bir rəvayət nəql edirdi: "Dəniz yolu ilə kafirlərin üzərinə getdiyi vaxt gəmidə ona bir xəbər verdilər: Yazıçıya müxalif çıxanlardan Canpolad aldı birisi özünü cəlalilərə başçı tə'yin edib, Hələt ərazisində fitnəkarlıq törətməyə başlamışdır. Sabiq hərəkəti yenidən ifa etməyə başlayan Canpoladın yanına bir çox avara adam yığışdı. Ərzrumda *Qaraqaş* adlı bir adamın da ürəyinə bu həvəs düşdü və o da bir müddət ixtilaf meydanında əl-ayaq atdı".

Bu əsnada *Sultan Məhəmməd xan ibn Sultan Murad ibn İkinci Səlim ibn Sultan Süleyman ibn Sultan Səlim ibn Sultan*

*Bayazid ibn Sultan Məhəmməd ibn İldırım Bayazid ibn Sultan Murad ibn Urxan ibn Sultan Osman* səltənət taxtına vida etdi və osmanlı dövlətinin başına oğlu *Sultan Əhməd xan* gəldi. O, *Cığaloğlu* adı ilə məşhur olan *Sinan paşanı*, yuxarıda yazıldığı kimi baş vəzir və sərdar təyin edib onu qızılbaş
**s.768** sərhədinə göndərdi. O, Qaraqaşı nəsihətlərlə həmin çirkin əməldən çəkindirib paşaya itaət etməyə dəvət etdi və buna nail oldu. Qaraqaş Ərzrumda sərdarla görüşüb fitnəkarlıqdan əl çəkdi. Həmin səfər vaxtı o, bir neçə adamı ilə Cığaloğlunun yanında idi. Amma, Canpolad Hələb torpaqlarında böyük tərəqqiyə çatdı, o vilayətin ə'yanlarından, müsəlman və firəng tacirlərindən, yolçulardan çoxlu mal yığıb ləşkərə payladı.

Ertəsi il qızılbaş hücumundan qaçaraq, Vandan Muş səhrasına gələn Cığaloğlu Canpoladı da nəsihətlərlə itaətə gətirib, Hələb vilayətinin və əhalisinin idarə olunmasına onu namizəd etdi. O, Canpolada nəvaziş məktubları göndərib qızılbaş fitnəsinin dəf'ini ondan xahiş etdi. Canpolad bu xəbərdən şadlanıb müxalifətidən ıl çəkdi və söz verdi ki, münəzzəm bir qoşunla gəlib sərdarın qoşununa qoşulacaqdır. Cığaloğlu ilə qızılbaş qoşunu arasında Təbriz yaylağında cəng baş verən gün Canpolad üç min süvari ilə Təsuca gəlib çatmışdı. Rumiyyənin məğlubiyyətindən sonra, yuxarıda bu barədə yazıldığı kimi, fərar edən rumiyyə ləşkəri Təsuca yetişəndə Canpolad da oradan çıxıb fərar yolunu tuttdu, amma Vanda sərdarla görüşdü. Cığaloğlu, gec gəldiyinə görə, Canpoladı məzəmmət etdi və onun işarəsi ilə Van və Diyarbəkr arasında Canpolad qətl olundu. Canpoladın sonralar Cığaloğlu adı ilə məşhur olan *oğl*u müxalifət təbilini çalaraq Hələbi zəbt etdi. Onun başına toplaşan cəlali dəstələri Hələb vilaytindən və ona yaxın yerlərdən çoxlu mal ələ keçirib avaraların və ləvəndlərin arasında böldü. Canpoladın oğlunun ətrafına yığışan iyirmi minədək adam Rum padşahına qarşı müxalifət bayrağını yuxarı qaldırdı.

*Qələndəroğlu* adı ilə məşhur olan Məhəmməd paşa ali dərgahın *çavuşlar silkinə* mənsub idi. Olduqca özünü uca tutan və tərəqqiyə nail olan Məhəmməd paşa sərdar tərəfindən

Xəmis hakimi oldu. Sabiq hakimsə, nəinki onun tabeliyinə girdi, hətta ona qarşı qəsd məqamında durdu. Məhəmməd paşa bunu sərdarın hiyləsi düşünüb, üzünə müxalifət qılıncı tutdu və cəlali oldu. Cığaloğlu Diyarbəkrdə köç təbili çalıb axirət aləminə gedəndə Məhəmməd paşaya böyük tərəqqi üz verdi, vilayətin qarəti, taracı və viran edilməsinə girişdi. O, sabiq osmanlı sultanlarının paytaxtı olan Bursanın Məhmiyyə adlı yerinədək gedib çıxdı, mötəbər osmanlı sultanlarına qəhr odu vurdu, belə ki, onların gurxanəsindəki qiymətli əşyalar, məzar örtükləri, qızıl və gümüş qəndilləri və başqa zər-zivəri götürüb ləvəndlərə verdi. Ondan və onun adamlarından çox ziyan dəydi, rumiyyə isə onu dəf' etməyə qadir olmadı. Bir dəfə İstanbuldan ona bir ləşkər hücum etdisə də, bir iş görə bilmədi. Ondan əvvəl *Təvil* adlı birisi də ləvəndlərin və üsyankarların başında dayanıb Hələb və Diyarbəkr arasında göyə əzəmət bayrağı qaldırdı. Onun da çoxlu adamı vardı və yüksəliş bayrağı dalğalanmaqdaydı.

Xülasə, Bursanın Məhmiyyəsindən başlamış Ərzrumadək bütün *Anadolu vilayətləri* cəlali dəstələri atlarının ayağı altında qaldı və məmləkətlər təmamiylə viran oldu. *Xandgar Sultan Əhməd* xan və osmanlı başçıları evin içərisindəki düşməni dəf' etməyin başqa işlərdən üstün olduğunu başa düşüb, cəlaliləri əzmək fikrinə düşdülər. Barəsində yazdığı-
**s.769** mız ağıllı, tədbirli və təcrübəli adam olan *Murad paşanı* baş
**(543)** vəzir və sərdar tə'yin edib dikbaş firənglərin fitnə-fəsadlarının dəf'inə göndərdilər. O zamanın məsləhəti və vaxtın tələbinə uüğun olaraq firənglərlə barışdı, onların bə'ziləri ilə sülh danışıqları apardı, bə'zilərinəin üzərinəsə xərac yükü qoydu. *Firəng sərhədinin* işlərini aqilanə tərzdə nizama saldı və geri qayıtdı. ***Rumeli, Qapıqulu, Anadolu, Müntəşaeli, Qaraman, Trablis*** və başqa osmanlı məmləkətlərindən ağır qoşun verib cəlaliləri dəf' etməyə yollandılar. Murad paşa əvvəlcə Canpoladoğlu fitnəsini aradan qaldırmaq üçün Hələbə yürüş etdi, Canpoladın oğlu iyirmi min ləvəndlə onun qarşısına
**s.769** çıxdı.

**Murad paşanın cəlali Canpoladın oğlu ilə cəngi və cəlalilərin məğlubiyyəti:**

Ağıllı, işbilən və rüzigarın eniş-yoxuşunu mərhələ-mərhələ bilən bir adam olduğu üçün əvvəlcə hərbə başlamayıb qarşılaşmanı nəsihət verməklə tə’xirə saldı. O, və’dlər edib güya rum ləşkərinin zəif olduğunu başa salmağa çalışdı. Canpoladoğlu onun sözlərinə inandı, ehtiyatsızlıq etdi. Nəhayət, Murad paşa qoşun çəkmək və ad-sanı qorumaq fənnlərinə riayət edib, nizamlı bir qoşunla mübarizə meydanına qədəm qoydu. Canpoladoğlu da qorxa-qorxa özünü cəngə hazırlayıb, onun qarşısına çıxdı. Aralarında ağır döyüş başlandı, ləvəndlər məğlub oldular, onların çoxu meydanda öldürüldülər. Canpoladoğlu isə meydandan qaçıb, özünü Hələb şəhərinə çatdırdı, qalaya girib bürc, barı və darvazanın möhkəmləndirilməsi ilə məşğul oldu.

**Canpoladın oğlunun və onun başqa döyüşçülərinin öldürülməsi:**

Mə’rəkədən qaçanların əksəriyyəti Təvilin ordusuna gedərək onun başına toplaşdılar. Murad paşa Hələbin xaricində dayanıb qalanı tutmağa girişdi. Tədbir və hiyləgərliklə qalanı ələ gətirib, Canpoladoğlu və canpoladlardan əsər-əlamət qoymadı, o vilayətin hər tərəfini o təbəqənin hücum tikanından təmizlədi, başqa cəlaliləri dəf etməyə yollandı. O təbəqənin sərkərdəsi olan və qüvvətlənən Təvil də Allahın təqdiri ilə çarpayısını bu fani cahandan axirət sarayına apardı. Təvilin iki-üç min döyüşçüsü onun *Məhəmməd bəy adlı qardaşını* ələ alıb, Məhəmməd paşa Qələndəroğluya birləşdilər. *Çöl ərəblərindən* cəlali olan və Rum ölkəsində şücaətli adam kimi tanınan *Qara Səid* də ona birləşdi, beləliklə cəlalilərin hamısı paşanın ordusuna qoşuldu. Onlar Qələndəroğlunun dövlət bayrağını yuxarı qaldırıb hər şəhər və vilayətin qarətinə başladılar. Murad paşa həmin il o təbəqə ilə barışaraq o ətrafda qışladı, cəlalilərin dəfinə yollanmadı.

**Murad paşanın cəlalilərlə cəng etməsi və qələbəsi:**

Meymun ili olan bu il ki, min on altıncı ildir (1607/1608), Murad paşa Rum əskərlərini toplayaraq cəlalilərə tərəf hərəkətə başladı.

Qələndəroğlu da başçıları ***Qara Səid Ərəb, Təvilin qardaşı, Kürd Heydər, Ağacdan Biri, Kökəc Məhəmməd, Hüseyn bəy Əzmavut, Qara Hüseyn, Tumal İsa*** və başqaları olan əmir, sərdar və bölükbaşıları onunla birlikdə hərbə yollanıb köç-köç sərdarın ordusuna tərəf gəldilər.

Rumilərlə dəfələrdə döyüşdükləri, az adamla onların çox döyüşçüsünü məğlubiyyətə uğratdıqları üçün, bu dəfə də onlar rumilərdən bir o qədər də çəkinmədən qürurla döyüşə girdilər. Tərəflər bir-birlərinə yaxınlaşdılar. Cəlalilərin savaş və igidliklərindən qayğılanan Murad paşa bir dağ ətrafını ordunun iqamətindən ötrü seçdi, özünü dağın yüksəkliyinə çəkdi, dağ ətəyini, hər iki ləşkərin özünü arabalar və zəncirlərlə əhatələdi. O qərara almışdı ki, o dəstə ilə tədricən cəng
**s.770** etsin, onların arasına hiylə yoluyla təfriqə salsın. Amma, sərdarın hərəkətindən rumilərin zəif olduqlarını müşahidə edən Qələndəroğlu və yoldaşları cəngə tələsdilər. Onlar öz ordularının iyirmi min nəfərlik tərkibi ilə döyüş əzmiylə irəli çıxaraq, Murad paşaya hücum etdilər. Paşa da həmin yüksəklikdə cəng səflərini bəzəyib cəngə başladı, amma o öz adamlarının dağdan enişə enməyə qoymurdu, dağın ətəyinə bir-bir, iki-bir hücum edən cəlalilər isə igidlik göstərirdilər. Rum qoşununun səfinə yaxınlaşdıqları vaxt onların atları dağın eniş-yoxuşundan artıq yorulmuşdu. Topçular və yeniçərilər onların üzərinə top və güllə yağdırmağa başladılar, [cəlalilərin] toplam vəziyyətini pozdular. Bu əsnada, Murad paşa rum döyüşçülərinə hərb icazəsi verdi və rumlular (ərvam) atlara minərək asudəliklə meydana girdilər. Cəlalilər də mərdanəliklə irəli şığıdılar və aralarında ağır savaş başlandı.
**s.771** Rumilər qələbə əldə etdilər, həmin meydanda cəlalilərin çox
**(544)** adamı qətlə yetirildi. Günün sonunda cəlali sərdarları öz ləşkərlərinin zəifliyini müşahidə edərək hərbdən əl çəkdilər, öz ordularına tərəf getdilər, rumilər onları təqib etməyib ordularının yanına çəkildilər. Qələndəroğlu və cəlali sərdarları etdikləri qorxmazlıq və hücumdan peşman olub, çarə fikirləşməyə başladılar. Anladılar ki, o ləşkərlə bir də döyüşə girmək onların qüvvəsindən kənar bir məsələdir, çünki

sabahkı gün rumilər özlərinin yaralanmış ovlarından əl çəkməyəcəklər, qələbə və iqtidarla onların hamısının işini bitirəcəklər. Onlar elə həmin gecə ağrəqlərini, yüngül-ağır şeylərini atıb, *evli və subaydan* ibarət ən azı on iki min nəfər adamla Ərzruma tərəf üz tutdular və o gecə on fərsəxədək yol getdilər.

**Cəlalilərin Əkməkçioğlu ilə cəngi və onların fərar etmələri:**

Murad paşa onların fərarından ertəsi gün xəbər tutub, həmin dağ yüksəkliyindən aşağı enərək münasib bir yerdə zəfər çadırları qurdu və cəlalilərin ordusu rumilər tərəfindən tarac olundu. Paşa *Əkməkçioğlu adı ilə məşhur olan İbrahim paşanı* iyirmi min nəfərlə cəlalilər təqibinə yolladı. Əkməkçi oğlu Ərzruma çatana qədər iki yerdə onlara çatdı və tərəflər arasında cəng başlandı. Birinci dəfə cəlali tərəfi qələbə əldə etdi və rumilər bir iş görə bilmədilər, fərar yolunu tutmuş cəlalilərin atları yorulmuşdu, buna görə də onlar qaranlıq (ivar)* düşməsinə baxmayaraq bir ləhzə belə getməkdən qalmadılar. Əkməkçioğlu yenidən onlara çatdı və cəng ahəngi havalandı.

Cəlali döyüşçülərində vuruş taqəti qalmadığından, birinci həmlədə onların böyük bir dəstəsi ölüm torpağına yıxıldı, qalanları isə öz canlarının qayğısına qalıb, döyüşə-döyüşə qaçış yoluna düşdülər, özlərini qızılbaş ülkasının sərhədinə çatdırdılar. Buna görə də, rumiyyə əskərləri qədəmlərini saxlayıb daha irəli getmədilər. Cəlalilər əyinlərinə şahın iqbal astanasının ehtiramını geyinərək, İrəvana-Əmirgunə xanın yanına adam yolladılar, onu öz gəlişlərindən hali etdilər. Qələndəroğlu öz döyüşçüləri ilə ləşkərin ayağında dayandı və sərdarlar bölük-bölük İrəvana rəvan oldular, paşa da gedərək öz adamlarına birləşdi, hadisə xətərindən qurtuldu, Əmirgunə xan [isə] vəziyyəti ali dərgaha ərz etdi.

Bu zaman adı cəlali sərdarları arasında yuxarıda çəkilən Hüseyn bəy Əzmadət[1] Məhəmməd paşa Qələndəroğlu və cəlali əyanları tərəfindən cahana pənah verən dərgaha gələrək, sədaqət və şahsevənlik izharı ilə dolu olan bir məktub

[1] Bu ad bir qədər yuxarıda "Əzmavut" kimi yazılmışdır-*Ş.F.*

gətirdi. Orada yazılmışdı: "Rumiyyə ilə bizim aramızdakı ixtilaf məhz alicah şaha olan məhəbbət və dostluğumuza
s.771 görə başlamışdı". Ə'lahəzrət zilləlah şah o tayfaya qarşı dünya hökmdarlarının etdikləri kimi ədəb qaydaları ilə hərəkət etdi, onun yanına göndərilən adamları qiymətli xəl'ətlər və bol ən'amlarla nəvazişləndirərək, paşa və sərdarların adına iltifat məktubu sadir etdi. Qərara alında ki, onların ehtiram əlaməti kimi qalibiyyətli dövlətin əmir və əy'anlarından bir nəfəri göndərilsin, onlar qoy öz yerlərində dayansınlar və o adam qayıdandan sonra onunla birlikdə ali dərgaha rəvan olsunlar.

### ALİCƏNAB ETİMADÜDDÖVLƏ HATƏM BƏYİN CƏLALİLƏRİ İSTİQBAL ETMƏK ÜÇÜN TƏBRİZ DARÜSSƏLTƏNƏSİNƏ GETMƏSİ, ONLARIN SƏRDARLARININ, İSFAHAN DARÜSSƏLTƏNƏSİNƏ TƏ'ZİM ETMƏKDƏN ÖTRÜ, ZAMAN ŞAHZADƏSİNİN CAHANA PƏNAH VERƏN DƏRGAHINA GƏTİRİLMƏSİNİN ZİKRİ

Sizin söz-söhbətli qələm hekayələr şəkəristanında [gərdiş edərək] cəlalilərin gəlişini belə səsləndirir: Ə'lahəzrət, cəlalilərin gəlişindən agah olduqdan sonra onun yanına göndərilən adamlara hədiyyələr göndərdi, amma onların bəlkə də hələlik etimada layiq olmadığını düşündü. Onun aləmi bəzəyən rəyi belə oldu: "Bu il cəlalilər ləşkərinin Azərbaycan vilayətində qışlamasını müəyyənləşdirmək və Məhəmməd paşanı sərdarları ilə orduya gətirmək üçün ağıl və tədbirlə bəzənmiş, qorxmazlıq, səxavət və şücaətlə zinətlənmiş bir dərgah üzvünü
s.772 onların yanına göndərsin". Hər bir əmir, dövlət başçısı və
(545) ə'yanını diqqətlə öyrənən alicənab həzrət şah yuxarıda sadalanan cəhətləri özündə birləşdirən və bütün zahiri və mənəvi dəyərlərə malik olan *Asəf məqamlı Hatəm bəy Ordubadini* bu vəzifəni yerinə yetirməyə layiq bilib, həmin xidmətin icrasına yollandı. Burada mehman olduqları üçün cəlalilərin dolanmalarından ötrü on iki min baş qoyun və iyirmi min xarvar taxıl göndərildi. Mehrli möhürlə imzalanmış bəyaz

tumarı[1] Asəf şan-şöhrətli e'timadüddövləyə verdilər ki, onların zəruri işlərindən ötrü o cənabın rə'yi və dövlətin məsləhəti ilə imkana müvafiq hökmlər çıxarılsın. Bu sətirlərin müəllifi həmin vəzifənin əncamı üçün Hatəm bəyin xidmətinə verildi. Qərara alındı ki, e'timadüddövləyə qoşulub, onun ali ordusunda bu xidmətin icrası üçün qorçilər, qulamlar və Zəncan hakimi Ağa Sultan Müqəddəm də işə başlasınlar. Alicah etimadüddövlə Həmədanda müzəffər ordudan ayrılıb Təbriz darüssəltənəsinə yollandı.

Cəlalilər dağınıq və pərakəndə halda *İrəvana* çatdıqları vaxt Əmirgunə xan əmir və ə'yanlardan ibarət bir dəstə adamını onların istiqbalına göndərdi, *İrəvan qalasının üç fərsəxliyində yerləşən Üçkilsədə* onlara yer verdi, yemək-içmək də göndərib yüksək xidmət göstərdi. Ziyafət keçirmək məqsədiylə qala xaricində geniş bir meydanda xeymələr quruldu,
s.772 əlvan xalılar döşənildi.

**Əmirgunə xanın cəlali sərdarlarına ziyafət verməsi:**

Xan paşanı öz əmirləri, sərdarları və bölükbaşıları ilə birlikdə ziyafətə dəvət edib, həmin şadlıq məclisində onlarla görüşdü. Mizbanlara layiq ehtiram təqdim etdikdən sonra üzrxahlıqla onlara dedi: "Dövlətin əsl niyyətini qoruyan qala mühafizəçilərinin izni və padşahın rüxsəti olmadan, həqiqətdə mənim evim sayılan qaladan çıxmağım mümkün olmadığı üçün özüm sizin istiqbalınıza gələ bilməmişdim".

Xülasə cəlalilərdən iki-üç min adam o məclisdə qonaq oldu. Əmirgunə xan ziyafətin hazırlaşmasına və məliklərə xas təşkilati işlərin keçirilməsinə elə iqdam etdi ki, dillər "əhsən və afərin" dedilər. Ziyafətin sonuncu günü məclis daha təmtəraqlı oldu. Əmirgunə xan onların paşa, sərdar, bölükbaşı və xüsusi mülazimlərinə təklif etdi ki, özlərini tozlardan və hərb çirkindən çimib təmizləsinlər. Paşanı və ona məxsus xüsusi xidmətçiləri və ə'yanlarla birlikdə üç yüz adamı öz evinə apardı, hər bölükbaşını isə ağaların və əmir-

[1] Tumar-lülə şəklində bükülmüş məktub (Bax: Nəyyerzaman Səqəfi. Göst., lüğət, c.II, s. 91)

lərin birinə mehman etdi. [Hatəm bəy] öz evində böyüklərə xas ali bir məclis təşkil etdi və onlarla məliklərə xas söhbətə başladı. Ertəsi gün, hamamdan sonra, münasib paltarlar gətirildi, onlara insanpərvəranə (adamiyanə) davranıldı. Başqa mizbanlar da öz mehmanları ilə o cür rəftar etdilər və [cəlalilərin] hamısına izzət və ehtiram göstərildi.

**Cəlalilərin Təbrizə varid olmaları:**

Cəlalilər bir qayda olaraq məclislərdə vaxtın çoxunu göstərdikləri şücaət, qorxmazlıq və mərdanəliklər barədə söhbətlərlə keçirir və bir-birlərini tərifləyirdilər. Söhbətləri əsasən bu mövzuda olur və aralarında böyüklüyə, kiçikliyə bir o qədər də riayət edilmir. Məsələn, Əmirgunə xanın məclisində paşa və Qara Səid sərxoş halda həddi aşdılar, etdikləri mübarizələr xüsusində artıq-əskik sözlər danışdılar. Qara Səid ədəbsizliklə paşanı qorxaq və qəlbiqara adam kimi təhqir etdi. Onlar elə ki, Əmirgunə xanın mənzilindən çıxıb öz yerlərinə qayıtdılar, bir-birlərini döyüşə də'vət etdilər. Cəhalət badəsinin məsti olan o iki adam əldə silah dalaşmağa başladılar və paşa Qara Səidi yaraladı. Kürd Heydər və Ağacdan Biri araya girib onları bir-birlərindən ayırdılar. Cəlalilər buna görə də bir neçə dəstəyə bölündülər. Belə ki, Qara Səid və Təvilin qardaşı bir dəstədə, paşa öz mülazimləri və onun tərəfdarı olan bölükbaşılarla başqa bir dəstədə, Kürd Heydər, Ağacdan Biri və onların adamları üçüncü bir dəstədə qərar tutdular. Nəhayət Üçkilsədə yol yorğunluqlarını alandan üç gün sonra hər dəstə bir-birlərindən ayrı hərəkətə başlayıb Təbriz darüssəltənəsində toplaşdılar.

*Təbriz hakimi Pirbudaq xan* və *Azərbaycan vəziri Xacə Məhəmməd Rza* onları istiqbal edərək, hər təbəqəni münasib məkana yolladılar, ehtiyaclarını tə'min etdilər. Xan və xacənin hərəsi bir gün ziyafət verdi. Sərdarların bə'zisi öz adamları ilə birlikdə Təbrizdən çıxıb İrana üz tutdu. Elə bu vaxt şahın vacib bir fərmanı gəlib yetişdi, e'timadüddövlənin buraya gələcəyi məlum oldu. Təbrizdə qalan paşa və mötəbər sərdarlar gözləyib o cənab ilə görüşün intizarında oldular.
**s.773** E'timadüddövlənin Azərbaycana gəlişinədək cəlalilərin ehti-
**(546)** yacları lazimi şəkildə tə'min olunmaqda idi.

Xülasə, alicənab e'timadüddövlə bu xidmətə yollanarkən
s.773 özü ilə zəruri silah-sürsat, çoxlu libas, qumaş parça, ərzaq, içki və başqa layiqli şeylər apararaq öz geniş əlini bəxşiş, ehsan və ziyafətlərə açdı, bu işdə bərk canfəşanlıq etdi. Əgər bütün bunlar təfsilatla yazılarsa hekayət uzanar. Burada əvvəldən axıradək yazılan yığcam hadisələri bu *katib (yəni İskəndər bəy Münşi – Ş.F.)* öz gözü ilə müşahidə etmiş və sonra qələmə almışdır.

Xülasə, elə ki, hümayun ordunu tərk etdilər, hər gün onlarla birlikdə olan əmir, qorçi, qulam və yasovullar ali məclisə toplaşır, ehtiyaclarından çox xörək, şərab və şirniyyatdan istifadə edirdilər. Təbrizdən çıxan cəlali dəstələri yollarda topa-topa gözə dəyirdilər. *Xırdaçayda* (Xordçay) Qara Hüseyn yüz nəfərlə, Zəncan qəsəbəsində Kökəc Məhəmməd beş yüz nəfərlə, Nikpeydə Əlibəy Dünyayi üç yüz nəfərlə, Qulu bəy Kürd yüz qırx nəfərlə, Kürd Əli üç yüz nəfərlə, Miyancda bölükbaşı Əhməd Yazıçı qırx nəfərlə gəlib [Hatəm bəylə] görüşdülər. Cənab e'timadüddövlə onların hər birinə layiqli ziyafət verdi, qiymətli xəl'ətlər, cürbəcür geyimlər, o cümlədən qəba, arxalıq, ayaqqabı, çalma təqdim etdi, qışlaq yeri müəyyənləşdirdi. Şahın göndərdiyi töhfələri paylamaq və məişət işləri ilə məşğul olmaqdan ötrü qorçilər, yasovullar və mehmandarlar təyin olundu. Qərara aldılar ki, sərdarlar və bölükbaşılar novruzdan sonra öz adamlarını qışlaq yerlərində qoyaraq özləri iki-üç xidmətçiləri ilə uca dərgaha gəlib, şahın xidmətinə yetməklə şərəflənsinlər.

Hatəm bəy bir qədər məsafə qət' edərək Təbrizə yaxın kəndlərdən biri olan Fəhusfəncdə dayandığı zaman Azərbaycan vəziri Xacə Məhəmməd Rza ali ordunun istiqbalına gəldi. Ertəsi gün isə *Təbriz hakimi Budaq xan* öz nizamlı qoşunu və növbənöv ziynətlərlə gəlib çıxdı. Cəlalilər şan-şöhrət və iqtidarla əmirlər, yüzbaşılar*, qorçilər, qulamlar, yasovullar, xüsusi mülazimlər və başqa döyüşçü və xidmətçilərlə birlikdə yola rəvan oldular. Şəhərin və onun ətrafının əhalisi də pişvaza çıxdı. Təbriz xiyabanının başlanğıcında çox adam toplaşdı, belə ki, bütün xiyaban döyüşçülər və

tamaşaçılarla dolu idi. Cəlalilər xiyabanın başlanğıcından Təbrizədək olan yarım fərsəx yolu gələrkən, piyadələr və süvarilər hər iki tərəfdən səfə düzülüb onları salamlayırdılar. Cənab mirzə (mirzayi) də mehmannəvazlıq edərək, onlarla lütfkarlıq və şəfəqqətlə söhbət etdi, ə'lahəzrət zillələh şahın adından hal-əhval soruşdu və hər iki tərəf öz dostluğunu nümayiş etdirdi.

O gün tayfanın nəzərə dəyən adamlarının sayı piyadələr, tüfəngçilər və yararlı süvarilər daxil olmaqla on min nəfərə qədər idi. Onların arasında dostluqları, yaxud düşmənlikləri bilinməyənlər də vardı. Cənab e'timadüddövlə şahənşah dövlətinin iqbal gücü ilə onları xətircəmliklə şəhərə gətirdi, özü Cahanşahın evində sakin oldu. Yolda deyirdilər ki, cəlalilərin ardınca iyirmi min adamla gəlməkdə olan İbrahim paşa Əkməkçioğlu hələ sərhəddədir və hücuma keçmək niyyətindədir. Buna görə də, o gün cənab e'timadüddövlə Pirbudaq xanı Van tərəfdən xəbərdar olmaqdan ötrü Xoy və Səlmasa göndərdi, İrəvan sərhəddində vəziyyətə nəzarət etmək isə Əmirgunə xana tapşırıldı.

Bir neçə gün sonra mə'lum oldu ki, əzəmətli hökm çıxarılması və İraq qoşununun qorxusundan Əkməkçioğlu irəli gəlməyə cürət etməyərək geri qayıtmışdır. Buna görə də Pir-
s.774 budaq xan geri dönüb Təbrizə qayıtdı.

**E'timadüddövlənin bütün cəlalilərə Cahanşah bağında ziyafət verməsi:**

Əzəmət sahibi olan cənab Hatəm bəy şəhərə gəldikdən bir gün sonra ehtiramla Məhəmməd paşa, Təvilin qardaşı, Qara Səid və başqa sərdarlarla görüşə yollandı, rəsmi söhbətlər başlandı. Sonra katiblər cəlalilərin ehtiyaclarını tə'min etməkdən ötrü adlarının siyahıya alınması məqsədi ilə onların bir-bir qeydiyyatlarını apardılar. Əvvəl gəlib çatanlardan başqa on üç min altı yüz beş nəfər qələmə alındı. Cəlalilərin işə yararlı üzvləri-piyada, tüfəngçi və yaraqlı süvarilərinin sayı tam on min nəfər oldu, qalanları isə atoğlanı və
s.775 xidmətçilər idilər. O alicənab ziyafət keçirilməsi barədə əmr
(547) verdi və belə qərara alındı ki, bütün cəlalilərə bir gün ziyafət

verilsin, adı-sanı olan sərdarlara, bölükbaşılara və ağalara xəl'ətlər bağışlanılsın, ziyafət bitdikdən sonra xüsusi məclis təşkil olunsun və hər gün ayrı-ayrı sərdarlar və ə'yanlarla söhbət aparılsın.

Ümumi ziyafət əvvəlcə Cahanşah bağında verildi. Yüz iyirmi nəfər bavərçi[1] və şərbətdar* növbənöv yemək, halva, şirniyyat, müxtəlif noğullar (tənoqqolat) və çərəzlər (morəttəbat) hazırlamağa başladılar. Xəyala belə gəlməyən, amma hamıya bəs edən (vafi) yemək-içmək gətirildi. Həmin bağda iki min adamın yerləşəcəyi bir meydanı hamar etdilər, çadır və sayəbanlar qurdular, əlvan fərşlərlə bəzədilər. Altıncı gün ümumi ziyafət məclisi başlandı. Belə qərara aldılar ki, paşa, sərdarlar və bölükbaşılardan başqa hər yüz nəfərdən iyirmisinə xəl'ətlər bağışlansın. Beləliklə, on min nəfərdən iki min nəfərə xələt verildi. Məhəmməd paşanın xəl'əti zərlə tikilmiş qəbadan, qızıl işlərlə işlənmiş məxmər üst geyimindən, hər tərəfi qızılla naxışlanmış çəkmədən, daş-qaşla bəzənmiş cıqqadan[2], ali bir atdan və yəhərdən ibarət olmaqla otuz tümən məbləğində oldu. Təvilin qardaşının xələti paşanın təklifi ilə hazırlandı, amma onun qiyməti bundan az idi. Qara Səid, Kürd Heydər, Ağacdan Biri, Həsən Kədxuda, Təvilin qardaşının vəkili və başqa bölükbaşıların hər biri öz məqam və mərtəbəsinə görə mükafatlandırıldılar. Başqaları isə öz ali, ortabab və aşağı səviyyəli məqamlarına görə tövhə aldılar, ali adamlara zərlə tikilmiş qəbalar, məxmər arxalıqlar, əlvan çalmalar (məndil), ortabablara milləк (?) qəbalar, məxmər köynəklər, əmmamələr, aşağı səviyyəli cəlalilərə isə qətəni (?) qablar və çalmalar verdilər. Yuxarıda yazıldığı kimi, iki min adama xəl'ət paylandı. Beləliklə, iki min nəfər xəl'ətlərini geyinib xüsusi məclisə təşrif gətirdilər, hər biri münasib yerdə qərar tutdu. Başqaları isə bölük-bölük həmin məclisin daxilində və xaricində əyləşdilər, bağın hər guşəsində məclislər quruldu. Bu əsnada *gürcü sultanzadələrindən Ətabəy*

---

[1] Bavərçi – mə'nasını bilmədik. Güman ki, aşpazxana işçilərindəndir – *Ş.F.*

[2] Cıqqa – arxalıqdırmı? – *Ş.F.*

*xan – Meşq valisi Mənuçöhr xanın oğlu* bir neçə keşiş və aznaurla[1] şahın mülazimətinə yetmək məqsədi ilə Təbrizə varid oldu. Onlar təklif alaraq ziyafət məclisinə gəldilər. Ətabəy xana və onun adamlarına da qiymətli xəl'ətlər, yol xərci və layiqli hədiyyələr təqdim edildi.

Məclisin bir xüsusiyyəti də vardı: Yemək-içməkdən sonra qəhvəçilər qəhvə piyalələrini gərdişə gətirirdilər. Üç yüzə qədər şirniyyat (noql) süfrəsi açıldı ki, onlar qəribə tərzdə bəzənmişdi, cürbəcür meyvələrin üstünə şəkər səpmişdilər.

Bunlardan sonra hər iki nəfərə bir boşqab halva düşməklə min boşqab gətirildi, meyvə təqdim olundu. Qarpız, yemiş,
**s.775** üzüm və başqa meyvələr məclisin qarşısında qalaqlanmışdı. Məclisin xaricindəki adamlar dəstə-dəstə gəlib onlardan aparırdılar. Onlar yeyildikdən sonra xörəklər çəkildi. Cürbəcür yeməklərlə dolu min qab məclisə, min qab da məclis xaricinə gətirildi və yeyildi. Həqiqətən də böyük məclis hazırlanmışdı. Belə ki, qələmin dili həmin ziyafəti və məclisin xüsusiyyətlərini, orada sərf olunan ərzaqların çoxunu yazmaqdan aciz olduğunu e'tiraf edir.

Azərbaycan vəziri Xacə Məhəmməd Rza və həmin işrət məclisində iştirak edən mülazimlərin əksəriyyəti ədəb ayağı üstündə dayanıb xidmətçilər zümrəsinə daxil olmuşdular. Bu işi bitirdikdən sonra başqa işlərin tənzimlənməsinə başlayaraq, hökmə əməl etməklə, hər dəstəyə münasib yerlərdə qışlaq təyin etdilər, onlara [xidmət üçün] mehmandarlar tə'yin olundu. Baş vəzirin məsləhəti ilə cəlalilərin xüsusi mülazim və xidmətçilərdən beş yüzə qədərini ayırıb, qalan ləşkər üzvlərini yaylaqlara yolladılar ki, inşaallah, bahar gələndə cah-cəlal ordusunun yaylağa təşrif gətirməsi münasibətilə bir yerə toplaşıb ə'lahəzrətin görüşünə gəlsinlər. Onların bu işləri üç gün müddətində tamamlandı və hamı dəstə-dəstə təyin olunduqları yerlərə yollandı. Alicənab e'timadüddövlə onuncu gün qayıtmaq üçün şəhərdən çıxıb *Şəmsabada* gəldi,

---

[1] Aznaur – gürcü tayfasının şərafətli və böyük məqamlı adamı. Şücaətli, qorxmaz və pəhləvan qüvvətli şəxslərə də "aznaur" deyilmişdir (Bax: Dr. M.Moin. Göst. lüğət, c. I, səh. 220-221).

iki gün orada qaldıqdan sonra üçüncü gün ali dərgaha yollandı. Paşanın sərkarı və beş yüz başqa yoldaşlarının ülufə və başqa ehtiyacları *Təbrizdən İsfahanadək* nəvvab mirzənin sərkarı tərəfindən ödənilirdi. Hər gün cürbəcür təamlar və halvalar (hələviyyat) hazırlanır və cəlalilərin mənzillərinə göndərilirdi. Gündəlik olmaqla mürəbbə, halvacat, şirniyyat, mer-meyvə və başqa lazimi şeyləri (mahəzər) daşımaqdan ötrü bir qatar qatır (əstər) yol getməkdəydi. Beləliklə, zəfərşüar ordu sərhəd işlərindən xətircəm olduqdan sonra olduq-
**s.776** ları yerdən çıxıb dövlət paytaxtına yollandı. Cənab e'timad-
**(548)** üddövlə iüirmi iki köç keçib İsfahana çatdı. Bir gün Kaşanda qalıb, paşa və sərdarlar üçün yenidən hamam paltarı göndərdi.

Xülasə, əvvəldən axıra kimi mehmannəvazlıq bir dəqiqə belə unudulmadı. Bir gün *Tacabad bağında* ali bir məclis təşkil olundu və böyüklər söhbətə toplaşdılar. O zaman paşadan kiçik olan bə'zi cəlali süvariləri onun mülazimləri ilə sərxoş halda dalaşaraq bir-birlərini yaraladılar. Paşa bundan xəbər tutdu və o da məst halda intiqam məqamına çıxdı. O tayfaya xas olan şərəfsizlik və iltizamsızlıq rəsminə uyğun olaraq ortaya hər tərəfdən bir dəstə adam çıxdı və get-gedə onlar iki dəstəyə ayrıldılar, qılınclarını çıxarıb bir-birilərinin üstünə tökülüşdülər. Böyük bir qəziyyənin başlanmasına və qan tökülməsinə az qalmışdı ki, cənab e'timadüddövlə bundan xəbər tutdu, dərhal qorxmazlıqla yeddi-səkkiz mülazimi ilə birlikdə ata süvar olub o iki sərxoş dəstənin arasına girdi, bə'zilərini məzəmmət, bə'zilərini isə kötəkləmək yolu ilə cəzalandırdı. O, paşanı da bu cəhalət və sərxoşluğuna görə danladı və həmin fitnəni yatırdı.

**E'timadüddövlənin cəlalı başçıları ilə İsfahana varid olması:**

Oradan çıxıb iki köç məsafə qət' etdikdən sonra İsfahanın Dövlətabadına gəldilər. Ağakamal Dövlətabadı ona ləyaqətli xidmət etdi. Şəban ayının üçüncü günü şəhərə rəvan oldular. Fərman alan əmirlər, dövlət başçıları, saraya daxil olan adamlar və mülazimlər onları qarşılayıb izzət və ehtiramla şəhərə gətir-
**s.776** dilər. O camaat Nəqşe-cahan sarayında şaha tə'zim etmək

səadətinə yetdi. Ə'lahəzrət zilləllah şah özünün xoş və gözəl zatına uyğun olan lütfkarlıq, mərhəmət və mehmannəvazlıqla cəlairilərlə söhbətə başlayıb şahanə nəvazişlər etdi. O camaat da xoşhallıqla bu qəbuldan sonra təyin olunmuş mənzillərinə getdi. Əlahəzrət həmin qışı İsfahan darüssəltənəsində işrətlə keçirərək, şahanə söhbətlər edirdi. O, əksər vaxtlarda paşanı və cəlali əmirlərini özünün xüsusi məclislərinə çağırıb, onları iltifat nəş'əsi ilə sərməst edir, təskinlik verir, qayğılarına qalırdı. Lap elə bu [beytdə] deyildiyi kimi:

**Beyt**

*Vardır eşqin çox qəribə xistəli məclis ara,*
*Bir şərabdır eşq, amma nəş'əsi tam başqadır.*[1]

O, cəlalilərin hər biri ilə xüsusi şəkildə davranır, onların hərəsini təcrübə və imtahan məhək daşına vurur, hər fərdi bu misrada deyildiyi kimi, gizlicə öyrənirdi:

**Misra**

*Kuzədən, orda nə vardırsa, o həm çıxmalıdır.*[2]

Paşadan sədaqət və dostluq rayihəsi gəldiyindən ona yoldaşlarından daha çox ehtiram (tə'zimat və təkrimat) edirdi. Cəlalilər bahara qədər şahı mülazimət etmək səadəti ilə feyziyab oldular. Şahın xeyrxahlıq (atifət) nuru daim onların başı üstündə parlamaqda idi. Cəlalilərin sonrakı vəziyyətləri gələn il hadisələrinin şərhi zamanı yazılacaqdır.

---

[1] Beytin farscası:
Eşq dər hər məşrəbi keyfiyyəti darəd ğərib,
Yek şərabəst in və leykən nəş'e digərgun dəhəd.

[2] Misranın farscası:
Əz kuze həman borun təravəd ke dər u-st

## BU İL ƏRZİNDƏ BAŞ VERƏN MÜXTƏLİF HADİSƏLƏR

Ə'laһəzrət zilləllah şah cəlalilərin gəlişindən sonra Əkməkçioğlunun onları tə'qib edəcəyindən ehtiyatlanıb müqəddəs ordu tüfəngçilərindən min nəfərədək tüfəngçini xasseyişərifə qulamlarından *Laçın bəy* adlı bir əmirin sərkərdəliyi ilə Təbriz darüssəltənəsinə göndərdi ki, əgər hər hansı bir hadisə baş verərsə, sərhəd əmirlərinin köməyi ilə onu dəf' etsin. Amma, iqbal qoşununun gəldiyini eşidən müxaliflərin gəlişi dayandı və tüfəngçilər bu il ***Təbriz yaxınlığında*** qışla-
s.777 dılar.

**Padşah Qazi Gəray xanın vəfatı:** Bu ildə baş verən hadisələrdən biri də *Qazi Gəray xan ibn Dövlət Gəray xan Tatarın vəfatıdır. O, Cuci xan ibn Çingiz xan nəslindən olan Krım sultanlarındandır.* Ata-babaları ***Qıpçaq çölündə*** tatar ulusuna padşahlıq etmişlər və paytaxtları ***Bağçasaraydır***.

Bu əsərin birinci cildində Adil Gəray xan barədə danışılarkən həmin sülalədən olan sultanların şərhi verilmiş və onların Ale-Osman padşahlarının əmir və fərmanlarına tabe olmalarının səbəbi, *Məhəmməd Gəray, Adil Gəray və*
s.778 *Qazi Gəray* qardaşlarının Şirvana nə üçün gəlmələri, müzəf-
(549) fər döyüşçülər tərəfindən Adil Gəray və Qazi Gərayın İrəvanda niyə əsir alınmaları, xoşbəxt şəhid şahzadə Həmzə Mirzənin Ələmut qalasında məhbus olan Qazi Gəray xanı nə səbəbdən zindandan azad etməsi, onun hansı ildə Təbrizdən fərar edib rumiyyəyə birləşməsi haqda məlumatlar nəzərə çatdırılmışdır.

Xülasə, elə ki, Qazi Gəray xan Ruma gedib, rum xandgarı Sultan Murad xanın xidmətinə gəldi, Məhəmməd Gəray xanın vəfatından sonra xandgar tatar ulusunun hökmranlığını ona verdi, tatar qoşunu da əmrə tabe olub ona irsən çatan bu səltənəti qəbul etdi. Qazi Gəray xan tatarların padşahı vəzifəsinə başlayanda xandgara tabe olub, ayağını tabeçilik yolundan kənara çıxarmadı. O, *Sultan Məhəmməd xan ibn Sultan Murad xanın* hakimiyyəti zamanı onun əmri ilə bir

neçə ləşkərini ***Firəngistana*** çəkdi, firənglərlə böyük hərblər və güclü cənglər etdi, bir il sərhədin ***Sənbər*** adlı yerində qışladı, adına uyğun olaraq qaziyə çevrildi. Ə'lahəzrət zilləllah şahın cülusu vaxtı rumiyyə ilə sülh şəraitində yaşadı.

Qazi Gəray xan bu zaman bir sədaqətamiz məktub yazaraq, həmin kağızı vaxtı ilə Təbrizdə özü ilə yoldaş olan *Qaraqaş Təbrizi* vasitəsiylə şaha göndərdi, mərhum şahzadə Həmzə Mirzəyə ehtiramından və özünün bu uca xanədanın çörəyini nuş etməyindən səmimiyyətlə söz açdı, Ələmut qalasında bir gözətçi kimi ona çox yaxşılıq edən *Bayramqulu bəy Fəbəcli Ustaclını* [qonaq kimi] yanına çağırdı. Ə'lahəzrət də bir məhəbbətli namə göndərib, qala həbsindən azad olandan sonra rum əskərinin hücumu ilə əlaqədar qızılbaş ə'yanlarının lazimi səviyyədə ona hörmət göstərməməsi xüsusunda üzrxahlıq elədi, töhfə və hədiyyələr göndərdi. Həmin məhəbbətnamədə həm də yazılmışdı ki, arada olan biganə münasibət artıq təmamilə aradan getdiyindən, bizim diyardan hər nə istəsən sənə göndərməyə hazırıq.

Bayramqulu bəy tacir libası geyib Kəffəyə gedərək, oradan xanın xidmətinə yetişdi. Qazi Gəray xan həmin iltifatlı məktubun yazılması və arada ülfət və dostluğun yaranmasına görə ə'lahəzrətdən olduqca razı qaldı, Bayramqulu bəyi ehtiramla geri göndərdi, öz xətti ilə şaha məktub yazıb, ondan bə'zi şeylər xahiş etdi. Əlahəzrət bu dəfə Əbülqasım bəy Yüzbaşı Evoğlunu lütfkarlıqla dolu bir məktubla və bu diyarın Qazi Gəray xanın istədiyi nəfis mallar və başqa hədiyyələri ilə birlikdə [Krıma] yolladı. Beləliklə təkrar-təkrar elçi getgəli başlandı, dostluq sazişi imzalandı.

Ə'lahəzrət Şirvan vilayətinin fəthi ilə məşğul olduğu min on altıncı qoyun ilində (1607/1608) *Hacı Bayram* adlı e'tibarlı bir adamını, həmin hadisələrinin şərhində yazdığımız kimi, Qazi Gəray bəyin yanına göndərdi və elə o zaman *Əbülqasım bəy Evoğlu* da geri qayıdaraq sədaqətli sözlərlə dolu bir məktub gətirdi. Bu əlaqədən xəbər tutan rumilər Qazi Gəraya qarşı müxtəlif bəhanələr irəli sürüb, İstanbuldakı Dövlət Gəray övladından olan *Səlamət Gəraya* tatar

s.778 ulusunun başçılığını və'd edərək onu bu işə hazırlamağa başladılar. Ə'lahəzrət Azərbaycana qoşun çəkib oranın fəthi ilə məşğul olan vaxt osmanlı dövlətinin vəzirləri və başçıları Qazi Gəray xana Şirvana ləşkər çəkməyi, qızılbaşlarla döyüşdə paşalara kömək göstərməyi təklif etdilər. O, ə'lahəzrətlə dostluq əlaqəsi yaratdığı üçün bu təklifdən üzrxahlıqla boyun qaçırdı. Elə bu əsnada təbii əcəl gəlib onu tapdı, Qazi Gəray xan fani dünyaya vida edib, baqi cahana şığıdı. Tatar əmir və ə'yanları onun oğlu *Toxtamış xan Gərayı* qayimməqam etsələr də, osmanlı dövlət başçıları qızılbaşlarla dostluqda ittiham edib Qazi Gəray xan övladını səltənətə layiq bilmədilər, Səlamət Gərayı "xan" ləqəbi ilə Kəffəyə göndərdilər, tatar tayfasının böyüklərini müxtəlif və'dlərlə rəğbətləndirdilər. Tatar böyükləri Qazi Gəray xanın bir neçə illik hakimiyyətini "olan oldu, keçən keçdi" kimi qiymətləndirib, onun övladının səlamətliyi naminə Səlamət Gərayinin padşahlığı ilə razılaşdılar. Səlamət Gəray xan, heç bir maneçilik olmadan xan taxtına əyləşib, Qazi Gəray xan sülaləsinin tüstüsünü onların başlarından çıxardı.

Min on yeddinci meymun ili olan bu ildə o, artıq tatar ulusunun səltənət sahibi və xanıdır, xandgara itaət edir və ona tabedir. İstanbulda olarkən ***Şirvana*** ləşkər göndərəcəyi barədə xandgara söz vermiş, rumiyyə ilə həmkarlıq edib o

s.779 (550) vilayəti qızılbaşların əlindən qoparacağını və'd etmişdi, amma səltənət taxtına çatdıqda tayfa ağsaqqalları onu bu çətin fikirdən daşındırıb dedilər: "Şirvana yürüş etmək və qızılbaşlarla döyüşmək sizin xanədan üçün uğurlu olmamışdır, çünki hərbin başlanğıcında Məhəmməd Gəray Şirvana ləşkər yollayan zaman öz qardaşlarını orada saxlamış, Adil Gəray qızılbaşlar tərəfindən əsir alınmış və qətl olunmuşdur. Bu qətldən sonra Qazi Gəray xan da əsarətə düşmüş, bir neçə il həbsdə qalmışdır. Sən onların üçüncüsü olma".

Bu sözlər Səlamət Gərayın ağlına batdı, getməkdən imtina etdi, amma rumilərin sərdarına qoşulmaq üçün on min tatarı Kəbə[1] və Tiflis yolu ilə Anadoluya göndərmək və'dinə əməl

[1] Kəffə olmalıdır – *Ş.F.*

edib aldı-yeddi min döyüşçü yolladı. Onlar cəlalilərlə olan döyüşlərdə sərdar Murad paşa ilə birlikdə idilər. Sonra sərdar onları Gürcüstanın Mesq və Axəsqə yerlərinə yola saldı. O tayfanın bir hissəsi döyüşlərdə qətlə yetdi, bə'ziləri isə vətənə döndülər. İki min tatar isə Axəsqədə qalıbdır və Cil paşanı onlara hakim təyin etmişlər. Tatarların sonrakı vəziyyətlərini və Cil paşanın öldürülməsi barədəki məlumatı min on doqquzuncu it ilində (1610/1611) Murad paşanın Təbrizə gəlməsi ilə əlaqədar hadisələrin şərhi zamanı bəyan edəcəyik, inşallah.

Qazi Gəray xanın tatar ulusunda hakimiyyət müddəti beş il idi. O, qabiliyyətli, bacarıqlı, ağıllı bir adam, mücahir bir qazi idi, fars və türk dillərində münşilər kimi [məktublar] yazırdı. Onun bu dillərdə *aşiqanə şe'rləri* çoxdur. *Təxəllüsü Qəzayi idi*. Türkcə yazılan bu qit'ə onundur.

**Qit'ə**

**s.779** *Ey Qəzayi, yenə bu şe'ri-dürərbarın ilə*
*Mə'rifət mülkünü al, xosrovi-tatar ola gör.*

## TÜRKİCƏ BƏZİLƏRİNİN SƏADƏTLİ MİN ON YEDDİNCİ (1608/1609), BƏZİLƏRİNİNSƏ MİN ON SƏKKİZİNCİ (1609/1610) XORUZ İLİ KİMİ SÖYLƏDİKLƏRİ MÜQƏDDƏS HÜMAYUN ŞAH CÜLUSUNUN İYİRMİ ÜÇÜNCÜ İLİNİN BAŞLANMASI VƏ O VAXT BAŞ VERƏN HADİSƏLƏR

Fəsahət və bəlagət nigaristanının məşşatələri və mənalı sözlər şəbistanının bəzəkçiləri baş verən hadisələri müşahidə edərək sözlərə bu cür bəzək-düzək vermişlər: Hümayun fallı bu ilin qalib novruzu min on yeddinci ilin zilhiccə ayının on dördünə (20 mart, 1610) şənbə gününə təsadüf edir. Dey ordusunun hücumundan özlərini gizlədən gözəl güllər və çiçəklər cilvəgərliyə başladılar, külək (ruzigar) baharın və güllərin ətrindən ənbərləndi. İsfahanın Nəqşe-cahan bağı da gülün xoş ətri və bülbülün nəğməsi ilə təravətləndi.

Müzəffər padşah tam şadyanalıqla, əvvəllər olduğu kimi, həmin bağda ali bir məclis qurdu. Bağın ortasından bir nəhr axmaqdadır, həmçinin orada dəryaçəyə bənzər böyük bir hovuz düzəldilmişdir. Sabiq sultanlar, xüsusən yeri cənnət olan həzrət xaqan Şah İsmayıl – Allah ona rəhmət eləsin – o hovuzun kənarında və o nəhrin yuxarı hissəsində gözəl bir imarət inşa etmişdir. Həqiqətən də insana paklıq bəxş edən bu məkan, bu dünya və o dünya cənnətlərindən bir nişanədir. [Ə’lahəzrət] İsfahan darüssəltənəsinin böyükləri və ə’yan-əşrafı ilə, habelə, Xorasan əhalisi, ***Təbriz sahibkarları***, hümayun paytaxtda olan tacir və əsnaflarla birlikdə, hərəni öz qədrinə uyğun şəkildə ayıraraq, hamı üçün bir məclis bəzədi. Dəryaçənin dörd tərəfində əmirləri, vəzirləri, dövlətin başçılarını və bargahın yaxın adamlarını yerləşdirdi və gözəl məclislər təşkil olundu. Hər bir məclisin köşkləri (çəhartaq) düzəldildi, nadir nəccar və ustalar (mohəndesan) qəribə üsullarla cürbəcür heykəllər yondular və onların üst hissəsinə çıraqdanlar bərkitdilər. Gecədən başlamış səhərədək mina asimanı işıqlan-

dıran ulduzlar o çıraqlara və behiştnişan məclislərə baxmaqda idilər. Məclislər və işrətlər bəzəyi olan şəhriyar bütün gecə o ruhu oxşar şadimanlıq yerinin seyrinə çıxdı, nurlu ürəyinə yatan hər yerdə dayanıb adamlarla söhbətləşdi. Xoş ahəngli
s.780 nəgmə oxuyanlar və mahir müğənnilər ürəkaçan nəğmələrə və
(551) şirin təranələrə başladılar, lalə çöhrəli gözəllər gözəl badələrlə məclis iştirakçılarının kef-damaqlarını çağ etdilər.

Xülasə,eyş-işrət məclisləri doqquz gecə-gündüzədək davam etdi. Fərəhləndilər. Məhəmməd paşa və cəlali əmirləri
s.780 vaxtın əksər hissəsini behiştayinli məclisdə şah ilə həmsöhbət olmaqla şərəfraz oldular.

**Mustafa paşanın ali saraya gəlişi:**

Baharın və novruzun nişatla keçən bu günlərində baş verən hadisələrdən [biri] *Uzun Əhmədin oğlu Mustafa paşanın* gəlişidir. Məsələnin təfsilatı belədir: Keçən ilin hadisələrinin şərhi vaxtı yazılmışdı ki, adı çəkilən Mustafa paşa Bağdadda öz mülazimləri və adamlarına qarşı e'timadsız olmuş, Cığaloğlunun oğlu Mahmud paşa ilə sülhə gələrək Bağdad hökumətini ona verib Hilləyə getmişdi. Orada mə'lum etdi ki, rumilər onun ali şah sarayına qayıdışına görə Bağdad vilayətini bu gündən-günə böyüyən (ruzəfzun) dövlət adamlarına vermək istəyirlər, onların ona qarşı ədavətləri vardır və onu yox etməyi düşünürlər. Paşa öz yaxınlarına və məhrəm adamlarına qarşı da e'timadsız oldu, qorxuya düşdü, bu yerdən uzaqlaşmaq istədi. Şəhri-Zura tabe Kərkuyə sancağını xahiş edib Hillədən oraya köçdü. Onun vəkilləri və mülazimləri öyrənmişdilər ki, onun Kərkuyəyə gəlişindən məqsədi özünü qızılbaş ölkəsinə çatdırmaqdır. Onlar buna görə də paşaya pis münasibət bəsləməyə başladılar, paşa o camaatın məkr və hiyləsindən agah olub, can qorxusundan var-dövlətini ataraq, qaçışı qənimət sayaraq, bir neçə mülazimini də özü ilə götürərək hümayun sərhəd ərazisinə daxil oldu, onun şeylərinin əksər hissəsini vəkilləri və mülazimləri götürüb Bağdad darüssalamına getdilər. Mustafa paşa öz yüksək bəxti və xoşbəxt taleyinin köməyi ilə ali saraya yollandı və Həmədana gəldi, oradan xilafət taxtına istiqamət götürdü,

Nəqşe-cahan bağındakı bayram mərasimləri vaxtı gəlib səadət aşiyanlı astanaya çatdı, şahın görüşü ilə işıqlandı, iltifata yetişdi, faxir xə'lətlər və ən'amla-at, yəhər, daş-qaşla bəzənmiş çalma (ceyqe), xəncər kəməri və onlara bənzər başqa şeylər, habelə nəğd pul (zəre-nəğd) ilə tiyul və iqta kimi hədiyyələr almaqla şərəfləndi.

**Cəlalilərin Kürdüstana göndərilmələri:**

Baş verən başqa bir əhvalat cəlalilərin Kürdüstana tərəf yola salınmasıdır. Məsələnin şərhi belədir: Novruz bayramının söhbət və şadnanalığından sonra ə'lahəzrət cəlalilərin işlərini nizamlamaqla məşğul oldu, qərara aldı ki, bir dəstə qızılbaş əmirlərini onlara yoldaş edib Kürdüstana tərəf yollasın, çünki kürdlərin başçıları etimadsız və fitnəkar adamlardır, vaxtın və zamanın tələbinə görə onlar sərhəddə bəyənilməz işlərlə məşğul olurlar. Buna görə də, onları qəflət yuxusundan oyatmaq və yersiz əməllərdən çəkindirmək lazımdır. Bu kitabda yazıldığı kimi, cəlalilər və o ləvənd tayfası üsyankar və axırları yox (biməal) adamlardır, buna görə də, onlar əgər müxaliflərin arasında yaşayarlarsa, canlarının qorxusundan bir-biriləri ilə yola gedərlər, yox, əgər bir-birlərindən qorxarlarsa, biri-digəri ilə düşmənçilik və nifaqda olarlar.

Bilik və agahlıq təcəssümü olan ə'lahəzrət zillallah şah o tayfanı dəfələrlə barışığa, düzgünlüyə, dünmənçiliyin aradan götürülməsinə rəğbətləndirib Məhəmməd paşanı onlara əmirül-üməra təyin etdi, hamıya şəfqətli və ürəyəyatan nəsihətlər verdi və buyurdu: "Məhəmməd paşanı öz böyüyünüz və ən üstün adamınız bilin, onun dövlətin məsləhətinə uyğun gələn rəy və təkliflərinə (səvabdid) əməl edin, sözündən və məsləhətlərindən çıxmayın". [Əlahəzrət] onların qulaqlarını öz qiymətli nəsihətləri ilə doldurdu və hamısından əmrə əməl edəcəkləri xüsusunda söz aldı, cəlalilərə Azərbaycana getmək, camaatı indi qışlaqlarda olan Marağa yaylaqlarında
**s.781** dayanmaq, onlara burden gedəcək qızılbaş əmirlərinə birləşmək və məqsəd istiqamətinə rəvan olmaq buyuruldu, hamısını şahanə nəvaziş və itifat ilə sərəfraz etdi, pul və lazımi yaraqla təmin etdi, İsfahan darüssəltənəsindən yola saldı.

Cah-cəlal ordusu Qəzvin darüssəltənəsində olarkən belə bir ali hökm nafiz oldu: "Həmədan və Əlişəkər sərhədinin bəylərbəyi *Həsənxan* özünün min adamı və sərhəd əmirləri ilə, İsgəndər Sultan Mirmüqəddəm öz elinin min adamı ilə, dörd yüz adamın sahibi olan *Nemətulla Sultan Mirsufi*, pazuki boynökərlərinin miri olan *Xosrov Sultan* yeddi yüz adamla, Kavrud və Sarı Qərğan hakimi *Qəban Sultan Bigdeli* dörd yüz nəfərlə, Silsir miri *Xəlil Sultan* öz üç yüz adamıyla Marağaya gedib Məhəmməd paşa Cəlaliyə birləşsinlər, Marağa hakimi *Qubad xan Mokrini* özlərinə birləşdirib, həmin yol ilə Kürdüstan vilayətindən Diyarbəkr və hüdudlara qədər getsinlər, onlarla ellik (ili) və birlik (enqeyad) etmək istəyən kürd əmirləri öz adamları ilə onlara birləşsinlər, heç kimin onların ülkası və tayfası ilə işi olmasın, amma müxalifətdə olan və
**s.782** qızılbaşların itaətindən biş qaçıran hər kəsin, el və tayfasının
**(552)** yəğma olunmasına başlanılsın, elə adamın ülkası zəbt olunsun və cəlali əmirlərinə verilsin. Qoy həmin yol ilə Ərzruma getsinlər və Çuxur-Səd bəylərbəyisinə və o vilayətin qarətinə yollanmış əmirlərə [birləşsinlər]". *Urumi hakimi Əmir xan Bəradustun* adına [isə] belə bir hökm sadir olundu: "O, Kürdüstanın və oranın yollarının yaxşı-yaman bütün işlərindən, vəziyyətlərindən ağah olduğu üçün qoy bu ləşkərin gəçərçisi[*] olsun, ona qarşı şahanə etibar və iltifatın artması naminə dövlətxah xidmətlər etsin". Hamı ali hümayunun fərmanı ilə yola rəvan oldu. Onların buyurulan istiqamətə getmələri, Əmir xanın müxalifəti və xəbəri artıq hər yana yayılmış başqa hadisələr ənbər qələmimizlə yazılacıqdır.

### HİNDİSTANA ELÇİ GÖNDƏRİLMƏSİNİN ZİKRİ

Cəlalilərin getmələrindən sonra, artıq üç il idi ki, Hindistanın hökmdarı *Cəlaləddin Məhəmməd Əkbər* üqba aləminə yollanmış, *böyük oğlu Məhəmməd Səlim*[**] öz qiymətli atasının qayimməqamı olmuşdu. Həmişə bu iki sülalə arasında mövcud olmuş və indii də davam edən dostluq rabitəsi və məhəbbətə görə, şahın ürəyindən keçdi ki, uca qızılbaş tayfa-

sının mötəbər bir tayfa üzvünü mərhum padşahın tə'ziyəsi və onun əziz oğlunun taxta cülus etməsinin mübarəkbadlığından ötrü o diyara yollasın. Amma, Azərbaycan və Şirvan yasaqı ilə bağlı böyük işlərin mövcudluğu səbəbindən bu işə fürsət tezliklə yaranmadı.

Ə'lahəzrət gündən-günə böyüyən səltənət paytaxtında olduğu bu günlərdə isə onun işıqlı yaddaşına həmin məsələ düşdü: O, izzət məclisinin işlərindən agah, həmçinin səltənət büsatının iş bacaran hər üzvünü bir-bir xəyalından keçirdi və fikri qızılbaş tayfası mirzədələrindən olan yüksək əmir məqamlı cənab *Yadigar Əli Sultan Talışın* üzərində dayandı. Bu şəxs cənnət aşiyanlı Süleyman şanlı xaqanın dövründəki xəlifətül-xüləfanın nəvəsi idi ki, babası bir müddət Bağdad darüssalamının hakimi olmuşdu. Yadigar Əli Sultan biliyi, fəsahəti və dilli-dilavərliyi ilə hamıdan üstün idi və şah onu [Hindistana] risalət və səfarətə tə'yin etdi, möhtərəm atanın təziyəsi və hümayun cülusun təbriki münasibəti ilə məhəbbətli
**s.782** bir məktub yazıldı, cənab elçi isə ləyaqətlə bu səfərin hazırlığı işinə başladı. Hamısı bədov atlara minmiş, gözəl kəmər və yarağa sahib əlli nəfər ağa və mülazim nizamlı şəkildə və tam təmtəraqla yola düşərək Qəndəhar yolu ilə məqsəd istiqamətinə rəvan oldu.

Hədiyyə şəklində göndərilən töhfə və hədiyyələr arasında əlli baş qıvraq ərəb, gürcü və *bəyati at* vardı ki, onlar xasseyi-şərifə ilxılarında yetişdirilmişdi və heç bir ad-sanlı padşah sərkarının onlara bənzər atları ola bilməzdi. Bundan başqa zərlə işlənmiş və məxmərdən hazırlanmış çullar (çol), layiqli silahlar urus vilayətindən gətirilmiş və hər biri həştad tümən və doxsan tüməne-şahiye-İraqi dəyərində qiymətləndirilmiş qara və uzun tüklü urus kürkü (pustin) ki, nadir tapılan qara və uzun tüklü tülkü dərisindən hazırlanmışdı, həmçinin min beş yüz ədəd qızıl, gümüş saplarla tikilmiş gözəl məxmər, ipək, atlas paltarlar, Avropa (firəng) və Çin (Xətay) parçaları, Yəzd və Kaşan qumaşları, başqa layiqli, yaraşıqlı töhfə və hədiyyələr də vardı ki, əgər onlar haqqında təfsilatla yazılsa [siyahı] uzunmış olar.

## ƏBƏDİ DÖVLƏTİN İQBALI VƏ GÜCÜ İLƏ BU İL BAŞ VERƏN HADİSƏLƏRİN ZİKRİ

Həmin hadisələrdən birincisi *Zal paşa Ruminin oğlu Məhəmməd paşanın* ələ keçməsidir. O, Ərciş və Adilcovz[1] hakimi idi. Məsələ belə olmuşdur: Adı çəkilən Məhəmməd paşa özünü zəmanənin ən şücaətli igidi hesab edir, daim qürur qanadlarıyla uca göylərdə uçur və istəyirdi ki, qızılbaş sərhədində əliuzunluq edərək, özünün qüdrətini daha da yüksəklərə qaldırsın, rumiyyə arasında adı ilə iftixar etsin. Həmişə fürsət pusqusunda dayanaraq, hümayun sərhədə sədəmə yetirirdi. Bu il şah tərəfindən Məhəmməd paşanın qonşuluğundakı Çurəs ülkasına hakim tə'yin edilən *Salman Sultan Subaşı*
**s.783** *Dünbüli* onun yaramaz hərəkətləri və bəd davranışı barədə
**(553)** həmin sərhədin əmirülümərası və Təbriz hakimi olan Pirbudaq xana mə'lumat verərək paşaya qulaqburma verməsini xahiş etdi. Pirbudaq xan öz adamlarından iki yüz türkman qazisini, həmçinin bir e'tibarlı əmirin sərkərdəliyi altında o sərhəd əmirlərinin yüz mülazimini göndərdi ki, Salman Sultana qoşulub Ərçiş və Adilcovz ülkalarını qarət etsin, üsyankar və fitnəkarlar cəzalandırılsın. Salman Sultan cəmi beş yüz nəfər olan göndərilən adamlar və öz adamlarıyla birlikdə hücum edərək, Məhəmməd paşanın məskəni olan Ərcişədək getdi, iki yüz nəfəri onun qalası üzərinə göndərdi, habelə yüz nəfər adamı da onlara köməkçi tə'yin etdi ki, əgər paşa qaladan çıxıb səhra cəngi edərsə, pusqudan çıxaraq vuruşa girsinlər. Yerdə qalan iki yüz nəfərsə qarətlə məşğul oldu.

**Adilcovz hakimi Məhəmməd paşanın tutulması:**

Göndərilənlərin qırx-əlli nəfəri qalanın yaxınlığına çatdıqda paşa bundan xəbərdar oldu, özünü mərdanə bir adam təsəvvür edərək həmin az miqdarda dəstəyə nəzər saldı, yanındakı az döyüşçüylə qaladan çıxdı və özünü o dəstəyə çaparaq çatdırdı, döyüşə başladı. Qızılbaş dilavərləri də müxaliflərin vücud
**s.783** xırmanına atəş açdılar, onların arasında cəng tonqalı alov-

[1] Adilcəvaz olmalıdır – *Ş.F.*

landı. Şirlər ovlayan qazilər də arxadan çatıb mərdanəlik göstərməyə başladılar.

Qazilərin üstünlüyünü, öz ləşkərinin isə zəifliyini müşahidə edən Məhəmməd paşa özü şəxsən hərbə başladı, türkmanların biriylə tutuşdu. O şəxs tanımadan onu canüzən nizənin ucu ilə yəhərin üstündən qaldırıb, yerin üstünə atdı, özünü yetirib işini bitirmək istədi. Paşa canının qorxusundan öz adını çəkdi və bu qüvvətli dövlətin gücü ilə əsir götürüldü. Rumi[lər] məğlub olub qaçışa doğru üz tutdular, [amma] onların əksəriyyəti qala ayağına gəlib çatanadək şir ovlayan qazi qılınclarına yem oldular, o yer (nahiyə) qarət edildi, qazilər qələbəylə sağ-salamat geri qayıtdılar, Məhəmməd paşanı Pirbudaq ali saraya yolladı.

**Məhəmməd paşanın qətli:**

Bu hadisə baş verməzdən əvvəl, şahın yanında ehtiram sahibləri olan Xəndan ağanın oğlanları behişt ayinli məclisdə dəfələrlə öz tə’rif dillərini Məhəmməd paşanın tərifinə açıb, onun qabiliyyəti, şücaəti, ləyaqəti (əhliyyət) və iste’dadından çox danışmışdılar. Mərdlik (fotovvət) və səxavət (ehsan) mədəni olan ə’lahəzrət zilləllah şah öz fitri (cəbəli) xeyrxahlığı və qəbul olunmuş qaydaya görə onun vəziyyətinə mərhəmət və iltifatla yanaşdı, əmr etdi ki, paşanın xatirini bir mehman kimi əziz və möhtərəm tutsunlar. Məhəmməd paşa get-gedə behişt ayinli məclisdə şah yanında xüsusi yeri olan adamlardan birinə çevrildi. Onun varlıq badəsi şahın mərhəmət və iltifatı ilə dolu (ləbriz) olduğu üçün, beyni öz əvvəlki qürur nəşəsi kimi isindi və bu isintinin xumarı barədə heç fikirləşmədi də. O, elə əvvəlki uca pərvaz aləminə qapılaraq, məclisdə əhəmiyyətsiz (bisərfe) sözələr danışmağa başladı, aqil adamlara aid olan bu beytin məzmununa uyğun [şe’r] dedi:

**Şe’r**

*Gərək bu dünyada ağıllı kimsə*
*Əvvəlcə düşünə, sonra söz deyə.*[1]

[1] Beytin farscası:
Soxəndane-pərvərde pire-kohən
Beəndişəd angəh beguyəd soxən.

Məhəmməd paşa düşüncəsiz sözlərdən çəkinmək və dodağına sükut möhürü vurmaq əvəzinə dil açmışdı. O, şahdan xahiş etdi ki, bir adamını Ruma yollayıb fərzənd və qohumlarını özünün sağ-salamat olması barədə məlumatlandırmaq və arxayınlaşdırmaq istəyir. İcazə verildikdən sonra paşa özü ilə buraya gəlmiş xacəsəra[1] qulamını yola saldı. Qulam [isə] onun yazdığı məktubu şahın nəzərinə yetirdi. Ə'lahəzrət artıq paşanın məkrini bildiyi üçün sərhəd əmirlərinə işarə etdi ki, həmin qulam təkrar icazə gələnədək sərhəddən o yana buraxılmasın, bir qədər gözləsin, onda olan məktubları götürüb, möhürlənmiş halda şaha göndərsinlər. Sərhəd hakimləri əmrə əməl etdilər. Məktublar şahın nəzərinə yetişdikdə, paşanın qızılbaşlar haqqında yazdığı boş (latayel) sözlər və müxaliflərə verdiyi göstərişlər məlum oldu. Ondan belə bir xəyanət zahirə çıxdığı və daha e'tibarı qalmağa üçün, cah-calal ordusu Təbrizdən Qarabağa getdiyi vaxt paşanı Təbrizdə saxladılar ki, qoy Pirbulaq xanla birlikdə Təbriz qalasında qalsın. Yoxluğu varlığından üstün olduğundan paşa elə o qalada da əcəlin sə'yi ilə ədəm yoluna yollandı.

Sərhədlərdə baş verən hadisələrdən biri də Axəsqə cənci və Gürcüstanda tatarların qətli zamanı paşaların tutulmalıdır ki, bunun təfsilatı belədir: Bu kitabın birinci cildində yazıl-
**s.784** mışdı: Cənnətməkan şah və Rum padşahı Sultan Süleyman arasında sülh bağlandıqda, sərhəd xətləri müəyyənləşdirilmiş oldu. Valisi Simeon xanın damadı Mənuçöhr xanın atası olan Mesq Cürcüstanı qızılbaş sərhədi daxilində qaldı, amma Mesqə mənsub olan Axəsqə və Qəraçə Ərdəhan isə Ərzruma daxil edildi. İsgəndər şanlı nəvvabın hakimiyyəti zamanı
**s.785** Lələ paşa ***Əcəm diyarına****** ləşkər çəkib, həmin yol ilə Şirvana
**(554)** gəldi. Ounu gördüyü birinci iş Axəsqə vilayətini və oraya tabe olan yerləri zəbt etmək və qalaları möhkəmlətmək oldu.

---

[1] Xacəsəra – Hərəmxanada qulluq edən xidmətçi. Şarden ağ dərili və qara dərili xacəsəralardan bəhs edir. Onun sözünə görə ağ dərili xacəsəranın hərəmxanaya daxil olmaq hüququ yox idi və bu səlahiyyət qara dərili xacəsəraya verilmişdi (Bax: Təzkirətül-müluk, Göst. nəşr. s. 107).

Mənuçöhr xan nə qədər ki, sağ idi, Simeon xanın köməyi ilə o yerləri geriyə qaytarmaqdan ötrü çalışırdı. [Rumilər] Urmiyyədən sonra yuxarıda adı çəkilən mülkdə qərar tutdular. Mənuçöhr xanın övrəti və qeyrətli qadın olan Simeon xanın qızı kiçik oğlu və həmin sülalənin duz-çörəyi ilə dolanan bir neçə mülazimlə birlikdə özünü o vilayətin meşə və dağlarında qoruyurdu. Bütün Gücüstanatın[1] rumilərin xərac ödəyəni (xəracgozar) olduğu iyirmi beş il müddətində həmin övrət çox sə'y etdi ki, rumilər xərac ödəyən gürcü valilərinə verdikləri başqa Gürcüstanat yerləri kimi Mesq vilayətini də *Atabəy (Ətabək) adlı oğlunun* idarəsi altına versinlər və ondan xərac götürsünlər, amma rumilər [onunla] razılaşmadılarsa da, Atabəy və anası üçün bir iqta tə'yin etdilər. Qadın çətinliklə dolanırdı. Azərbaycana edilən hümayun yürüş zamanı İrəvan qalasının mühasirəsində [o qadın da] iştirak etmişdi.

Axəsqə mirzadələrindən olan və islamı qəbul edən *Şah Yusifə* Rum xandgarı tərəfindən paşalıq rütbəsi verilmiş və o, həmin vilayətin bə'zi yerlərinin hakimi olmuşdu. Bə'zi qızılbaş döyüşçülərinin Həsən xan Ustaclının sərkərdəliyi altında, həmin il hadisələrinin şərhi zamanı yazıldığı kimi, Mesq vilayətinin qarətinə getdikləri vaxt, həmçinin Cığaloqlu ilə cəngdən və onun məğlubiyyətindən sonra Əmirgunə xan və qızılbaş döyüşçüləri o yerlərdə qalıb möhkəmləndilər, Ərzrumadək bütün torpaqlar müzəffər [qızılbaş] qoşunlarının tapdağı altında, Qəraçə Ərdəhan və Axəsqə dəfələrlə qarət olundu. Belə olan halda Şah Yusif paşanın və rumilərin vəziyyətləri pisləşdi.

Atabəy xanın anası səadət aşiyanlı dərgaha yalvararaq (esteğase) bu dudmanın köməkliyi ilə əldən getmiş vilayətin geri alınmasından ötrü xahiş etdi. Ə'lahəzrət zillǝllah şah Tiflis, Zekəm, Əxəstabad və Loridəki Şəmsəddinli və Qazaq-

[1] İsgəndər bəy Münşi "Gürcüstanat" dedikdə, yuxarıda barələrində mə'lumat verdiyimiz Gürcüstan vilayətlərini məcmu halda nəzərdə tutur – *Ş.F.*

lar əmirlərini onun yardımına namizəd etdi. Cah-cəlal ordusunun min on altıncı qoyun ilində (1607/1608) Şirvana hücumu zamanı həmin qeyrətli övrət qızılbaş əmirlərinin və o cülalənin qədim mülazimləri ilə adı çəkilən məmləkətin fəthindən ötrü Şah Yusif paşanın üstünə getdi və ona qalib gəldi, paşanı yüz əlli rumi ilə birlikdə tutdu, o vilayətin ən əzəmətli qalası olan Axəsqəni ələ keçirdi və [beləliklə] o yerin əksər mahalları onun tərəfindən tutuldu.

Həmin ilin rəbiüssani ayının dördündə (30 iyul, 1607) yekşənbə günü o qadının adamları və əmirlər Şamaxıda cahanpənah dərgaha gələrək, zavalsız şah iqbalının gücü ilə baş tutan məsələni şaha ərz etdilər, qızılbaş əmirlərinin hər biri öz hökümət yerinə qayıtdı. O vaxt on altı yaşı olan Atabəy xan anası ilə həmin vilayətdə qaldı. Ərzrum bəylərbəyisi bu xəbəri o vaxt sərdar olan və cəlalilərlə döyüşən Murad paşaya bildirdi. Cəlalilərin dəf'indən sonra, yuxarıda yazıldığı kimi, Səlamət Çəray xanın qarətçi (qarətgər) tatar ləşkərinin hakimi Cil paşa sərdarın köməyinə gələrək, Mesq Gürcüstanının əmirzadələrindən Fərhad paşa Məhəmməd paşa oğlunu Axəsqəyə göndərdi. Fərhad paşa rumilərin arasında tərbiyələnmiş, padşahlıq[1] və valilik (əyalət) mərtəbəsinədək yüksəlmişdi. O, min on yeddinci (1608/1609) meymun ilinin sonlarında Axəsqəyə gəldi. Fərhad paşaya müqavimət edə bilməyən Atabəy xan və anası Kartil Gürcüstanına-dayısı oğlunun (xal) yanına gəldilər, ana öz qardaşı
**s.785** oğlunun yanında qalaraq, oğlunu cahanpənah şah dərgahına göndərdi. Atabəy hüsn və məlahətdə ayətə (ayəyə) bənzəyirdi (yəni olduqca gözəl idi – *Ş.F.*). Mərhum şahzadə Sulian Həmzə Mirzənin zamanında *Mir Şəmsəddin Məhəmməd Sədr* Xəbisinin Simeon xanın oğlu *Luvarsab üçün yazdığı* rübaisinin məzmunu Atabəyin vəsfinə uyğun gəlir:

**Rübai**

*Tərsabeçədir-kilsəni odlandıracaq,*
*Yüz hurini eşq atəşinə yandıracaq.*

[1] "Padşahlıq" əvəzinə "paşalıq" yazılmaldır – *Ş.F.*

*Atəşkədəsiyçün,daşıyıb cənnətdən*
*Tuba ağacın rizvan alovlandıracaq.*[1]

Bu ilin əvvəllərində şəmsəddinli, qazaqlar və başqa tayfa əmirləri Kartil valisi Luvarsab xanın adamlarının gürcü ləşkəri ilə birlikdə Axəsqənin qarətinə gedib çoxlu əsir gətirdilər. Cil paşa tatar qoşunundan iki min döyüşçünü, həmçinin onunla yoldaşlıq etməyə gələn Fərhad paşa və Məhəmməd paşanın oğlunu onları dəf etməyə və Kartil Gürcüstanının qarətinə yolladı, o adamlar ülkanın ortasına qədər girib bir neçə yürüş və qarətkarlıq etdikdən sonra geri qayıtdılar. Luvarsab xanın ləşkəri dar keçid və meşələrdə tatarların və rumilərin yolunu bağladı, bir yandan qızılbaş qoşunu o biri yandan isə gürcülər onları mühasirəyə aldılar. Hər iki paşa tutuldu. Həmin mülkə bələd olmayan tatar əskərləri hansı tərəfə gedirdilərsə, yolun üstünü və keçidləri bağlı görürdülər. Buna görə də, onlar qənimətdən əl çəkib meşələrə səpələndilər. "Allahım, zalımların başını zalımlarla qat"[2]. Gürcülər onların axtarışına başlayıb
**s.786** yeddi yüz nəfərədək tatarı tutdular və onları bəla qılıncına yem
**(555)** etdilər. Gürcü rəiyyətinin meşələrdə lüt-üryan etdikləri başqa tatarlar isə piyada və çılpaq halda yüz fəlakətlə özlərini Axəsqəyə çatdırdılar. Paşalar cahanpənah dərgaha göndərildi. Gürcü sultanlarının xahişi ilə Fərhad paşa əfv olundu, Məhəmməd paşanın oğlu isə öldürüldü.

## BAŞQA BİR HADİSƏ: ZÜLFÜQAR XANIN VƏ ŞİRVAN DÖYÜŞÇÜLƏRİNİN TƏBƏRSƏRANLILARLA HƏRB ETMƏLƏRİ

Şirvan vilayətində bu zavalsız dövlət övliyalarının başına gələn iqbal hadisələrinin biri Zülfiqar xanın Təbərsəran valisi

[1] Rübainin farscası:
Tərsabeçəist atəşəfruze-keneşt,
K-atəş zəde dər xərməne səd hurisereşt
Çon himekeşan bəraye atəşkədeəş
Rezvan həme şaxe-tuba arəd ze beheşt.

[2] İfadənin ərəbcəsi: "Allahummə əşğiləz-zaliminə bi-z-zalimin".

ilə cəng etməyi və o yerdə qala tikməyidir. Məsələ belə baş vermişdir: Şirvanın zəiflədiyi (fetrət) vaxt, Təbərsəran ülkasına bitişik olan *Şabran nahiyələrinin əhalisi* işğal altına alınmışdı (mötəsərref). Rumiyyənin hökmranlığı zamanı rumilər təbərsəranlılara kömək etdikləri üçün o yerlərin alınmasına baş qoşmadılar. Şirvan vilayətinin yenidən bu güclü dövlət övliyaları tərəfindən alındığı vaxtlarda Təbərsəran əhalisi xam tamaha düşərək, o nahiyəni [əvvəldə] olduğu kimi Şabran hakiminə vermirdi. Buna görə də hakimin mülazimlərinin gediş-gəlişləri təbərsəranlıların maneçilik etmələrinə görə çətinləşmişdi. Həmişə beyin güzgüsündə bu günü sabahın surəti kimi cilvələdirən şahın savablı rə'yi ehtiyatkarlıq naminə orada qala inşa etmək olduğu üçün belə bir hökm verdi: "*Şirvan bəylərbəyi Zülfiqar* xan öz tabeliyindəki əzəmətli əmirlərlə Təbərsəran hüduduna qədər gedib həmin nahiyədə möhkəm bir qala tiksin, oraya ehtiyat azuqə və silah yığsın, qazilər və tüfəngçilərdən ibarət mühafizəçilər təyin etsin ki, Dağıstan camaatının əlləri ümumən o nahiyədən üzülsün, qızılbaşlar və şirvanlılar həmin qala adamlarının köməyi ilə həmin vilayətdə asudəliklə hərəkət edə bilsinlər,
**s.786** alçaq sifətli dağıstanlıların hücumundan rahat ola bilsinlər".

**Zülfüqar xanın Təbərsəran valisi ilə cəng etməyi və onun valiyə qalib gəlməyi:**

Zülfüqar xan fərmana görə həmin işin əncamına yollandı. O, əvvəlcə Təbərsəran valisi M'əsum xanın yanına bir adam göndərib onu vəziyyətdən hali etdi, xatırlatdı ki, bu qalanın (həsar) inşasından sizə heç bir zərər dəyməyəcək, bəlkə də müxtəlif kömək yetişəcəkdir. Təbərsəran valisi bu işə razılıq versə də, batil xəyallar və boş təsəvvürlərlə maneçilik məqamında dayandı. Zülfüqar xan oraya gedərək qalanın yerini tə'yin edib işə başlayan əsnada adı çəkilən vali on min nəfərədək piyada və süvari toplayıb Zülfüqar xana tərəf yollandı. Təbərsəran valisinin həmişə cahanpənah dərgaha gediş-gəlişini, zahirdə özünü bu dərgah bəndələrindən biri kimi göstərməsini, habelə onunla hərb etmək üçün şah tərəfindən icazənin olmamasını nəzərə alan Zülfüqar xan [Mə'sumun] yanına

yenidən elçilər göndərib öz aqibətini təhlükə (vəxamət) altında qoymamaq və bu maneçiliyin pisliklə bitəcəyi barədə onu xəbərdar etdisə də bunun faydası olmadı. Mə'sum xan qızılbaş ləşkərinin bir fərsəxliyinə gəlib çatdı, ertəsi gün qoşun səfini bəzəyib, müzəffər döyüşçülərin qarşısına çıxdı. Zərurət üzündən Zülfüqar xan da məcbur olaraq cəng hazırlığına başladı döyüş səfinə tərəf addım atdı. Elə ki, hər iki tərəf cəng alətlərinə əl uzatdılar, Təbərsəran ləşkəri qalibiyyətli qoşun çərxçilərinin bir zərbəsinə belə tab gətirmədi, elə ilk həmlədə onların birlikləri pozuldu, az vaxt içərisində min nəfərədək təbərsəranlı başlarını fəna küləyinə verdilər. Qaçışı qənimət bilən Təbərsəran valisi özünü meydandan çıxardı. Qalib gələn Zülfüqar xan döyüşçülərinə təbərsəranlıları öldürməyi qadağan etdi, qaçanların təqibinə sə'y etmədi, çünki şahın əmri olmadan baş verən bu cəngə görə şəhriyarın mülayim xasiyyətinin sərtləşməsindən qorxdu.

Xülasə, [təbərsəranlıların] sağ qalanları meşələrə və əlçatmaz yerələrə qaçaraq yarımcan halda canlarını meydandan salamat çıxara bildilər. Zülfüqar xan bir neçə gün içərisində qala inşa edərək azuqə və silah hazırladı, mühafizlər təyin etdi, geriyə döndü, baş vermiş hadisəni aləmpənah dərgaha ərz etdi. Mə'sum xanın ayağını ədəb dairəsindən kənara çıxarmasına və qızılbaşlar üzərinə ləşkər çəkməsinə baxmayaraq, ə'lahəzrət onun bə'zi adamlarının səltənətə xidmət edənlər silkinə məxsus olmalarını nəzərə aldı, baş vermiş hadisədən narazılığını bildirdi, Zülfüqar xana əmr etdi ki,bir e'tibarlı adamını Mə'sum xanın yanına yollayıb ondan üzrxahlıq etsin. Zülfüqar xan əmrə əməl etdi, Təbərsəran valisi də etdiyi yersiz hərəkət, cür'ət və xəsarətdən peşiman olduğunu bildirib üzrxahlıq məqamına gəldi

s.787 (556) **FƏRMANA GÖRƏ ƏMİRGUNƏ XAN VƏ ƏMİRLƏRİN QARACƏ ƏRDƏHAN ÜZƏRİNƏ HÜCUMU VƏ O VİLAYƏT GÜRCÜLƏRİNİN QARƏT OLUNMALARININ ZİKRİ**

Yuxarıda yazılmışdı ki, Cil paşa tatar qoşunu ilə Axəsqəyə gəldi. Tatarların əliuzunluğundan ehtiyatlanan Əmirgunə xan, onların Çuxur-Sə'd sərhədi yaxınlığında yerləşən Axəsqədə yığışmalarını münasib bilmirdi. Məsələni ali saraya ərz edib dedi: "O tayfanın sərhədə hücumundan əvvəl yaxşı olar
s.787 ki, onların dəf' olunmalarına çalışaq". Buna görə də belə bir hökm sadir oldu: "Bütün Azərbaycan əmirləri keçən il Təbrizə göndərilən xüsusi tüfəngçilərlə İrəvana getsinlər. Oradan Əmirgunə xanın sərkərdəliyi ilə Axəsqə və Ərzrum hüdudlarınadək gedərək müxaliflərin dəf' olunması, o vilayətin qarəti, otlaqların və əkinlərin yandırılmasında bir dəqiqəni belə ötürməsinlər, iki min nəfər cəlali də *Qara Səidin* və *Agacdan Birinin* sərdarlığı ilə qızılbaşlara qoşulsunlar və o səfərdə həmrah olsunlar". Verilən fərmana görə *Pirbudaq Təbrizdən, Məhəmməd xan Ziyadoğlu Qaçar Qarabağdan* başqa əzəmətli əmirlər və [fərmanda] işarə olunan cəlalilər Marağadan İrəvana gəldilər və böyük bir ləşkər yarandı. Əmirgunə xan bir neçə gün əzəmətli əmirlərə və dərgah mülazimlərinə ziyafət verdi, sonra birlikdə məqsəd səmtinə yollandılar. Rumi və tatar müxalifləri özlərində o qoşunla qarşılaşma qüdrətini görməyərək, qalalara çəkildilər, ayaqlarını səlamətlik ətəyinə çəkdilər. Müzəffər döyüşçülər gürcü vilayətinə daxil olub, oraya qarət və tarac atəşi vurdular, bir çox kafər gürcü qadın və qızlarını əsir götürərək o məmləkətdən həddən çox fayda (entefa) əldə etdilər. Bir dəstə rumiyyənin Muş səhrasında toplaşaraq hücum xəyalına düşdüyünü eşidən Əmirgunə xan İrəvan ləşkəri ilə birlikdə ayrılıb o tərəfə yollandı, müxalifləri hərən-pərən saldı, zəfərlə qayıtdı, əsirlərin arasında sərkare-xacseye-şərifəyə layiq olan bir dəstə əsiri xüms* kimi *Əlixan bəy Cavanşirlə* cahanpənah dərgaha göndərdi. Beləliklə, qızılbaş döyüşçülərinin şan-şöhrət və iqtidarı Ərzrum hüdudunda və o diyarda (Qəracə

Ərdəlanda – *Ş.F.*) daha çox yayıldı, rumiyyə bəylərbəyiləri və paşalarının bircə nəfəri də özündə müzəffər qoşunla qarşılaşmaq qüdrəti görmədi, müxaliflərin qızılbaşlarla hərb etmək cürət və igidlikləri qalmadı. Əzəmətli əmirlər kama yetişərək geri qayıtdılar və onların hər biri öz səltənət paytaxtlarına döndü.

## MÜZƏFFƏR MƏİYYƏTİN AZƏRBAYCANA YÜRÜŞÜ, BİR DƏSTƏ CƏLALİNİN QALİBİYYƏTLİ ƏSGƏRLƏRLƏ BİRLİKDƏ KÜRDÜSTANA GÖNDƏRİLMƏSİ VƏ O VAXT BAŞ VERƏN HADİSƏLƏRİN ZİKİ

Əlahəzrət zillələah şah İsfahan darüssəltənəsində zəruri səltənət işləri ilə məşğul oldu, hava isinməyə başladı, yaylaqlara getmək vaxtı gəlib çatdı, Müzəffər ordu qələbə və iqbal ilə Fridun yaylağına yollandı. Bir neçə gün bu yaylaqda iqbal çadırları qurduqdan sonra əzəmətli əmirlərə və dövlət başçılarına [belə] hökm olundu. "Ali ordunun ağrəqi ilə birlikdə yaylaq yolları ilə yavaş-yavaş hərəkətə başlayaraq Sultaniyyə çəmənliyində dayansınlar". Şahın özü isə bir dəstə nədimi, yaxın adamları və xüsusi hərbiçi mülazimləri ilə İsfahana qayıtdı, fors[1] məlikləri arasında adət olan "abpaşan" bayramını Çaharbağda təşkil etdi, xalqın şadlığını artırdı. O, Kaşan yoluyla Qəzvin darülmüvəhhedininə[2] gəlib çatdı, qırx günədək həmin mübarək dövlətxanada eyş-işrətlə məşğul oldu. Ağrəq ordusu və əzəmətli əmirlər əmrə görə paklıq meydanı və iqbal münəccimi olan Sultaniyyə çəmənliyinə gəlib çatdıqda həzrət ali məiyyət də Qəzvin darülmüvəhhedinindən yetişib ağrəq ordusuna birləşdi, paklıq bxş edən həmin çəməndə çoxlu çadırlar quruldu.

Bu vaxtlarda, xandgar sülaləsinin mö'təbər çavuşlarından
s.788 *Xeyrəddin adlı bir çavuş* Rum elçiliyinə getmiş *Hüseynqulu
Xəlifə Rumlunun oğlu Məhəmməd bəylə* birlikdə elçi sifəti ilə
s.789 gələrək məşhur əmirlər vasitəsilə fələk əzəmətli dərgaha daxil
(557)

[1] Fors – qədim farslar, qədim fars dili – *Ş.F.*

[2] Movəhhed – monofeist, vahid Allaha inanan deməkdir – *Ş.F.*

olmaqla sərəfraz oldular. Osmanlı dövlətinin baş vəziri *Murad paşanın* ə'lahəzrətə və dövlət başçılarına bundan əvvəl *Semyon*[1] *xan Gürcünün* vasitəçiliyi ilə yazdıqları xeyrxahlıq və məsləhətamiz ərizə və məktublarda düşmənçilik və cəng maddəsinin dayandırılması (qət') yazılmışdı.

Səfarət [hey'əti] göndərilməsinin son məqsədi belə idi: Adı çəkilən elçi heç kimin iştirakı olmadan (bi təvəssoteğeyr) əlahəzrətlə danışmalı, sülh [bağlantısı] və hərbin necə baş tutması barədə o həzrətin şəxsi fikrini öyrənməli, şahın razı olub-olmadığını bilməli və geriyə qayıtmalıdır. [Rum tərəfi] xahiş etmişdi ki, əgər o həzrət həqiqətən də tərəflərin məsləhətini nəzərə alıb sülh istərsə, həzrət padşaha, şahın məktubu olmadan elçi gələn Məhəmməd bəydən fərqli olaraq, bu dəfə hər kəs gələrsə həzrət padşaha ülfət və dostluğu əks etdirən məhəbbətamiz bir məktub gətirsin. İndiyə kimi ali məqamlı şah tərəfindən hökmranlıq (təsəllot) və iqtidar əsəri zahir olmuş, *həzrət Sultan Əhməd xanın babası Sultan Murad xanın* fəth etdiyi hər vilayət artıq bir qərndir ki, Ale-Osman dudmanının haikmiyyəti altında olmasına baxmayaraq, onlar qəhr və qələbə ilə geri alınmış, padşahın qalalardakı topxana və silahı zəbt olunmuşdur. Həmçinin bu neçə il ərzində rum əskəri və rəiyyətinin bir neçə min nəfəri tələf olmuş, [torpaqlar] qızılbaş əskərlərinin ayaqları altında qalmışdır. Belə olan bir halda həzrət xandgar tərəfindən sülhdən danışmaq yüksək rütbəli (aliqədr) hökmranlara və səltənət məqamına münasib deyildir. Əgər tərəflər arasındakı bu vəziyyət və çəkişmə davam edərsə, islam əhalisinin təşvişinə səbəb olan düşmənçilik maddəsinin götürülməsi yubanacaq, buna görə də, həmişə islam əhli ilə dava-dalaşda olan firəng hökmdarlarının istədikləri kimi islam ordusunun şövkəti azalacaq (kəsr), əksinə xristianların (nəsari), küfr və zülm əhlinin tə'nə (şəmatət) və xoşhallıqları çoxalacaqdır. Məmləkətlər fəth edən bir çox hökmran aləmin rahatlığını və aləmdəkilərin rifahiyyətini özlərinin ali mətləblərindən üstün tutmuş, əhalinin üzünə əmin-amanlıq (afiyət) və rahətlik qapıları

[1] Mətndə Simeon, yaxud Səmayun yox, Semyon yazılmışdır – *Ş.F.*

açmışlar. Əgər ali məqamlı şah da sülh və dostluğa təkan verib özünün məktubunda sülh barədə fikrini bizə bildirərsə (əş'ar) hər ayna niqab və hicabın öz üstündən götürülməsinə səbəb olacaq, dövlətxahların danışıq yolu açılacaq, tərəflər arasındakı düşmənçilik və nifaq dostuq və həmrəyliklə (vəfaq) əvəz oluncaqdır.

Ədalət sifatlı bir zat olan ə'lahəzrət xalqların və ibadullahın vəziyyətinin yaxşılaşmasını istədiyindən, yuxarıda adı çəkilən elçiyə (rəsul) ehtiram göstərdi. Rum məmləkətləri hökmranının ünvanına məhəbbətli söhbətlər bəyanə gətirdi, yoldaşlıq və mülayimlik dili ilə qeysəriyyə dövlət başçılarına belə sözlər dedi: "O uca dövlət sülaləsinin çırağı qəza və cəhad yağı ilə yandırılmışdır. Biz hərəmeyne – mohtərəmeyni – Allah onların şərəf və məqamını uca etsin[1] – ziyarət etmək səadəti ilə şərəflənmişik, buna görə də sultanlar arasında möhtərəm və üstün sayılırıq. Şübhə yoxdur ki, bütün islam əhlinə kömək olunması zəruridir. Dəfələrlə sizə deyilmişdir ki, Sultan Murad xan fürsət tapıb nəsilbənəsil imanları dolaşdırılan və yerləri cənnət olan ataların əhd-peymanını səbəbsiz yerə (məğləte) pozaraq, bizim bə'zi irsi məmləkətlərimizi zəbt etmişdi. Hazırda isə ilahi fəzilətin [üstümüzə düşən] işığı ilə haqq öz yerini tutmuş və tutacaqdır da. Əgər həzrət xandgar bizim irsi mülkümüzdən əl çəkib ülfət və dostluq məqamına gələrsə, biz də müsəlmanların rifahından ötrü dava-dalaşdan əl çəkərək məhəbbət və birlik yolundan dönməyəcəyik. Bundan yaxşı nə ola bilər ki? Qoy islam padşahları arasında sülh və dostluq yaransın, pak dinimizin düşmənləri isə zəlil (məxzul) olsunlar. Qərara alınmışdır ki, bu xeyr-
**s.789** xah işin səbəbkarları olan baş vəzir Murad yaşa və paşqa xeyrxah düşüncəli səadətli adamların xahişi ilə bir dostluq məktubu yazılsın, sədaqət və birlik qapıları açılsın".

[Rum diyarına] məktub yazılması və elçi göndərilməsinin şərhi gələn il yazılacaqdır, inşallah.

---

[1] İfadənin ərəbcəsi: "Zadəhuməllahu şərəfən və tə'zimən".

Xülasə, səfabəxş Sultaniyyə çəməni bir neçə gün ali ordunun iqamət yeri oldu və hümayun məiyyət Azərbaycana tərəf hərəkətə gəldi, Miyancdan keçib həzrət sultanül-övliyanın və məhtərəm səfəviyyə şeyxlərinin nurlu məzarlarının ziyarəti üçün Ərdəbil darülirşadına doğru gedərək o böyük səadətə yetişdi, Ərdəbil bir neçə gün iqbal çadırlarının qurulduğu yerə çevrildi. Sonra əlahəzrət rəbbani arif və qutbəlarifin olan *Şeyx Zahid Çilaninin* türbətini ziyarət etməyə getdi, o ali məqsədinə yetişdiyindən, Qızılağacda eyş-işrət, seyr və şikarla məşğul olduqdan sonra Təbriz darüssəltənəsinə, oradan da Ordubada təşrif apardı, ***Əli Dərəsi*** yoluyla ***Qarabağa getdi***, humayun qışlaq orada oldu.

Qəribə hadisələrdən:

Bu il heyrətli və qəribə bir hadisə baş verdi. Ə'lahəzrət zilləllah şah tez-tez nişat badəsi içmək və şikardan ləzzət almaqla məşğul olduğundan, arabir yaxın adamlarıyla ova gedir və şikar ovlamaqla öz nurlu xatirini sevindirirdi. Müzəffər ordu Ərdəbil darülirşadına yollanarkən, Xalxal ülkasına çatanda qana susayan axmaq və əbləh bir adam özünü şah adlandırıb, onun özündən də ağılsız və həvəs çölünün avaralarından olan adamlarla birgə ovlaq yollarını tutdu, əhalisinin üzdən şahı tanımadığı Xalxala yaxın yerlərin birinə gedərək bir kədxudanın evində dayandı, onunla gələn əbləhlərin hər biri də özlərinə şaha yaxın adamların adlarını qoyub həmin şəxsə qızılbaşların şaha [xitab] etdikləri kimi "*Padşahım, padşahım, qurban olduğum*"[1] deməyə başladılar. O yerin sidq əqidəli sadəlövh camaatı sevinib öz iftixar başlarını göyə ucaldaraq onun yanına gəldilər. Yaxın yerlərin adamları da bu məsələdən agah olub bu səadətə qovuşmaq və təzim etmək məqsədi ilə həmin yerə yığışdılar, nəzirlər, hədiyyələr gətirdilər. O əbləhlər xəyal badəsi ilə məst olub iki-üç gün o yerdə eyş-işrətlə məşğul oldular, amma özləri-özlərindən bixəbər idilər.

---

[1] Qeyd: Bütün səfəvi şahlarına aid olan bu şüar İsgəndər bəy Münşi tərəfindən elə azərbaycanca "Padşahım, padşahım, qurban olduğum" kimi yazılmışdır – *Ş.F.*

Bu xəbər başqa yerlərə də çatdı. Xalxalda yaşayan xasseye-şərifə qulamlarından *Yusif bəy* çaşqın halda yüzbaşı və bir neçə nəfərlə o yerə yollandılar, o ağılsızların şəbədəbazlığından agah oldular, əbləhlərin əməli üzərindən pərdə götürüldü. Onların bir-iki nəfəri ata süvar olaraq özlərini dağ cığırlarına (şəəbe-cəbal) çatdırıb görünməz oldular. Qulamlar özünü şah adlandıran həmin adamı bir-iki yoldaşı ilə birlikdə tutdular. Hümayun məyyətin həmin yerə gəlib çatdığı bir neçə gün vaxtı onu şahın nəzərinə çatdırdılar. Belə xətalı bir işə ürək edən o bədəməllərin cəzalandırılmalarını başqa əbləh şəbədəbazlara ibrət dərsi olmasından ötrü onların varlıq xırmanları zaman qəhrəmanının qəhr alovu ilə yandırıldı. Sübhanallah, adam nə dərəcə qəlbinə hakim kəsilən şər nəfsə (nəfse-əmmare) məğlub ola bilər, şeytana uyub xətası qaçılmaz xətərli əməllərə qurşanaraq işin sonunu fikirləşməz? "Lə'nətlənmiş şeytandan Allaha pənah aparıram"[1]. Bu əhvalatın elə bir əhəmiyyəti olmasa da qara fikirli və ağılsız adamların
**s.790** tənbeh olunmalarından ötrü bu haqda yazmağı lazım bildik.

Müxtəlif hadisələr və [şahın] Ərdəbil darülirşadında olduğu vaxt baş verənlər bunlardır: *Şirvan bəylərbəyi Zülfüqar* xan ali saraya gəlmək üçün izn alaraq [əlahəzrədlə] görüş səadəti ilə şərəfləndi. Həzrət qütbül-arifinin ziyarəti və Qızılağacdakı ov zamanı öz qoşunu ilə şahın yanındaydı. Xan orada rüxsət alıb Şirvana getdi.

Başqa bir məsələ: Əmirlərin və cəlalilərin Kürdüstana tərəf göndərilməsi xəbəri yayıldıqda ehtiyatdan ötrü *Lar hakimi İmamqulu xan Əmirdivan öz sadiq oğlu Allahverdi xanı* qüvvətli döyüşçüləri olan bir qoşuna sərkərdə edərək Kürdüstanın yaxınlığındakı Salmasa tərəf göndərdi ki, onlardan xəbər-ətər tutsun.

Başqa bir əhvalat [isə] mö'təbər cəlali əmiri və ixtiyarında min nəfər adamı olan *Kürd Heydərin* qətlidir. Öz qol gücünə, şücaət və dilavərliyinə görə qürura qapılan Kürd Heydər Məhəmməd paşa ilə qalibanə davranır, həmişə ona kobud sözlər deyirdi. Paşa onunla hesablaşmaq fikrinə düşdü.

[1] İfadənin ərəbcəsi: "Əuzu billahi minəş-şeytanir-rəcim".

Kürdüstana yollanan Kürd Heydər kürd tayfasına mənsub olub Məhəmməd paşaya qarşı üsyan məqamındaydı. Günlərin bir günü paşanın evində bir məclis qurulmuşdu. Məclisdəkilər qürur badələrindən məst olduqları vaxt söhbət əsnasında kürd Heydər paşanın xatirinə dəyən təhdidamiz sözlər işlətdi və Məhəmməd paşanı daha da qorxuya saldı. O, həmin məclisdə olan və rumilərin "ənc oğlan və kənc oğlan" adlandırdıqları xidmətçi oğlanlara Kürd Heydərin qətli xüsusunda işarə etdi. Onlar elə o saat şəmşirlərini sıyıraraq, onu və onunla birlikdə olan iki nəfər e'tibarlı adamını öldürdülər. Kürd Heydərin öldürüldüyünü görən mülazimləri müqaviməti faydasız gördülər və Məhəmməd paşa onların hamısını özünə götürdü, Kürd Heydərin var-dövlətini onların arasında böldi, məsələni [ə'lahəzrətə] xəbər verdi və onun etdiyi hərəkət bəyənildi (estehsan).

**s.791** Başqa bir əhvalat isə *Əmir xan Bəradustun* müxalifət və
**(559)** üsyan etməsidir ki, bu xəbər [ə'lahəzrət] Ərdəbil darülirşadında olarkən ona ərz olundu. Mə'lum oldu ki, Əmir xan Bəradust Həsən xana və Məhəmməd paşaya qarşı çıxaraq qalaya sığınmış, itaət qapılarını bağlamış, müxalifət və üsyan qapılarını açmış, onların aralarında savaş baş vermişdir.

Buna görə də, cahanı bəzəyən rə'yi qeyb aləmi tərəfindən işıqlandırılan əlahəzrət bu məsələnin əncamını düyünlər açan (Hatəm bəy Ordubadiyə verilən təsbehlər – *Ş.F.*) Hatəm bəyə tapşırdı, – "parlaq səltənətə bağlılıq və ali dövlətə e'timad"[1] – onu həmin yerə yolladı ki, gündən-günə ömrü çoxalan bu dövlətin məsləhətinə uyğun olaraq məsələni öz savablı rəyi ilə bitirsin. Kirman hakimi Çəncəli xanı bir dəstə əmir, topçu və tüfəngçilərlə birlikdə o cənabın köməyinə göndərdi ki, əgər Əmir xanın işi bitirilməzsə və həmin döyüşçülərin köməyinə ehtiyac olarsa, onlar fəaliyyətə başlasınlar. İndi, sözlər yazan qələm Əmir xanın müxalifət və üsyanı hadisəsinin təsvirinə başlayır. Bu sətirlərin müəllifinə ali əmrə əsasən o cənabla (Hatəm bəy Ordubadi ilə – *Ş.F.*)

[1] İfadənin ərəbcəsi: "İ'tizadüs-səltənəti-bəhiyyəti və i'timadüd-dövlətül-əliyyəti".

birlikdə olmaq tapşırıldığı üçün, həmin səfər hadisələrini o (İsgəndər bəy Münşi – *Ş.F.*), öz gözü ilə müşahidə etməli, uzunçuluqa yol vermədən onları təhriripinə düzməlidir. Allah kömək istəniləndir[1]!

### ƏMİR XAN BƏRADUSTUN MÜXALİFƏT VƏ ÜSYANININ ZİKRİ. CƏNAB ETİMADÜD-DÖVLƏNİN URUMİ VİLAYƏTİNƏ GEDƏRƏK DƏMDƏM QALASINI MÜHASİRƏ ETMƏSİ VƏ BAŞQA HADİSƏLƏRİN BƏYANI

Əmir xan Çolaqın başına gələnlərin şərhi bütün dünya adamları üçün ibrətamizdir. Ey söz axtarışları olan adam, bir
**s.791** ləhzə danışma, sus və öz huş qulağını mənə tərəf tut, onun başına gələnləri eşit!

Əmir xan, kürd tayfasının bəradust qəbiləsindəndir. Həzrət cənnətməkan şahın hakimiyyəti vaxtı kürdlərin Qaratac adlı bir nümayəndəsi şahsevənlik iddiasına düşüb, bu dövlətin mülazimələri silkinə yazıldı. O həzrət *Tərkur və Mərkur ülkasını* Urumi və Uşni vilayətinə birləşdirib kürdlərə vermişdi. Cənnətməkan şahın vəfatından sonra rumilər Azərbaycan mülkünə tamah salanda, bu dövlətə tabe olan kürd qəbilə və tayfaları (əşirət) üz çevirib rumiyyəyə tabe oldular. Rum xandgarlığının hökmü ilə bəradust əmirzarələrindən olan *Şahməhəmməd bəy* adlı bir adam əşirət əmiri və Bəradust ülkası sancağının sahibi tə'yin edildi. Əmir xan ona itaət etmədi. O, hərçənd ki, bir müddət böyük kürd əmirlərindən birinə mülazimlik etmişdi, sonradan *Sehran hakimi* Əmir bəyin mülazimi oldu. Düşmənlərlə etdiyi cəngdə Əmir bəyin başına gələn hadisədən sonra qolunun biri kəsilən Əmir xan "*Çolaq*" ləqəbi ilə məşhur oldu.

Cahanı tutan şah ordusu Azərbaycanda olan il hümayun ordu Naxçıvanı və İrəvanı tutmağa yollananda Əmir [xan Bəradust] şahın iqbal astanasına gələrək, şahsevənlik və sədaqət izhar etdi. Ə'lahəzrət onu diqqətə layiq görüb bəradust

---

[1] İfadənin ərəbcəsi: "Vəllahül-mustəan".

qəbiləsinin əmirliyini, həmçinin Tərkur və Mərkur ülkasını ona inayət etdi, habelə onu yüksək xan ləqəbi ilə şərəfləndirdi, cənnətməkan şahın hakimiyyəti zamanı bir əzəmətli qızılbaş əmirinin ülkası olan Azərbaycana məxsus Urumi və Uşni ülkasını da əlavə olaraq ona verdi. Ali əmrə görə zərgər ustadlar qırmızı qızıldan ona bir qol da düzəltdilər və həmin qolu ləl-cəvahirlə bəzədilər. Haqq tanıyan (Həqşenas) [olması] və mərdanəliyinə görə Əmir xan böyük diqqətə layiq görüldü. O, bir gecə müddət öz təmayül əlini sədaqət sinəsi üstünə qoyub şaha xidmət etdi. Rüxsət alıb vilayətinə döndükdən sonra şahanə şəfəqqət və iltifat sayəsində gün-gündən tərəqqi etdi, öz tay-tuşlarından üstün oldu. O, Ruma tabe olan bir neçə ülka və vilayəti də kürd qəbilə əmirlərinin əllərindən çıxarıb zəbt etdi, Kürdüstan hakimləri arasında məqamının yüksəkliyi və qoşununun çoxluğu ilə məşhur oldu. Kürd qəbilələrinin və tayfa mirzadələrinin çoxu yol tapıb onun xidmətinə gəldilər. Buna görə də az vaxt ərzində qürur və təkəbbür tozu onun ağıl sarayına yol tapdı. Cığaloğlu Azərbaycan vilayətinə ləşkər çəkib Təbriz yaxınlığında vuruşarkən, Əmir xan qızılbaşların köməyinə getmədi, lakin Cığaloğlunun məğlubiyyətindən sonra müzəffər ordu qələbə ilə Səlmas vilayətində dadanarkən ali, taxt ayağına gələn Əmir xan [şah tərəfindən] nəvazişləndi.
**s.792** Əmir xanı arxayınlaşdırmaq və insan tayfalarının vəhşisifət
**(560)** məxluqu olan başqa kürd əmirlərinin ürəklərini ələ almaq məqsədi ilə şah onu ləngitmədi, öz ülkasına getməyə izn verdi. Əmir xan zahirdə özünü fədəvilər zümrəsinin üzvü kimi göstərirdisə, də batində məzhəb təəssübü, yaxud nəfsinin yanğısından o sərhədin qızılbaş əmirləri ilə yola getmirdi və istiqlal sevdasına düşmüşdü. Nəhayət, onun nifaq rə'yi qala inşa etməyə qondu və dövlət başçılarına ərz edib dedi ki, Uruminin qədim qalası dağıldığı üçün daha tə'mirə qabil deyildir və etibarsızdır, əgər hümayun izn verilərsə əhalinin təhlükəsizliyi və əhli-əyalımın mühafizəsi üçün münasib bir yerdə dörd divar ucaldaram. Ə'lahəzrət onun vəziyyətinə nəzər salıb icazə verdi. Əmir xan Urumi şəhərinin üç fərsəxliyində, Tərkura daxil olan bir dağın başında qala inşasına başladı.

**Əmir xan Bəradustun Urumidə qala tikməyi:** Kürdlər arasında danışılır ki, hələ islamın zühurundan əvvəl o yerdə "Dəmdəm" adı ilə məşhur bir qala
s.792 olmuş və illər otdükcə dağılmışdır. Hüşyar və tərcübəli bir insan olan *Təbriz əmirülümərası Pirbudaq xan*, Əmir xanın nifaqa aludə xislətində üsyan əlaməti müşahidə etdiyi üçün, ələmə pənah verən dərgaha belə ərz etdi: əmirülümərası Pirbudaq xan Əmir xanın nifaqı aludə xüslətində üsyan əlaməti müşahidə etdiyi üçün aləmə pənah verən dərgaha belə ərz etdi: "Əmir xan ayağını sədaqət yolundan kənara çıxarmışdır və onun başında üsyan havası vardır. Buna görə də, günlərin bir günündə [sığınmaq üçün] böyük bir qala tikməkdədir. Bu qulam (yəni Pirbudaq xan – *Ş.F.*) onun qala inşa etməsini əbədi dövlətə məsləhət bilmir".

Buna görə də, şahın hökmü sadir oldu: "Pirbudaq xan o sərhədin əmirülümərası olduğundan, mülkün bütün işlərinin idarəsi onun öhdəsinə qoyulmuşdur. Qoy bir adam yollayıb qalanının inşasını dayandırsın".

Pirbudaq xan buyuruğa əməl edərək e'timadlı adamını Əmir xanın yanına göndərib ona bildirdi: "O, şahın əzəmətli əmirlər silkinə mənsub olduğundan, daim sadiqlik və bəndəlik iddiasındadır. Baxmayaraq ki, aləmin pənahı olan şah onu o yerlərin e'tibarlı adamı kimi tanıyır, amma orada qala tikilməsi hərzə adamların dillərinin açılmasına səbəb ola bilər. Əgər qalanın inşasına səbəb rumiyyə müxaliflərinin hücumundan qorunmaqdırsa və əgər rumilər bu vilayətə gəlsələr belə, Təbriz və İrəvan kimi möhtəşəm qalalar olduğu halda, onlar elə kiçik qalalara diqqət yetirməzlər. Yox, əgər kürd qəbilə əmirləri tərəfindən təhlükə olarsa və ona hücum edərlərsə, sərhədi qorumağa təhkim olunan biz şah dərgahının bəndələri baş verə biləcək bütün hadisələri dəf' edərik. Buna görə də, bir neçə gün qorunmaqdan ötrü Urminin qədim qalası onun özü, bəradüst eli və qəbiləsi üçün kifayətdir.

**Pirbudaq xanın qala inşasını qadağan etməsi və Əmir xanın bununla razılaşmaması:**

Sən, yaxşısı budur ki, qala tikmək işindən vaz keçib bəd danışan dilləri öz üstünə qaldırmayasan. Sən gərək bizim dostanə məsləhətimizə, öz dövlətinə verilən zəmanət kimi, razılıqla qulaq asasan, özünü töhmət altına salmayasan, nifaq və üsyan yaratmayasan”. Həqiqətən də Pirbudaq xanın nəsihəti şəfqətamiz idi. Çünki o qalanın inşası işləri dolaşdırdı, nəticədə Əmir xanın vəziyyəti müşkülə düşdü və ona olan oldu.

Xülasə, Əmir xan bu sözlərə əhəmiyyət vermədi və kürdlər Pirbudaq xanın göndərdiyi mülazimi qətl etdilər. O, qalanı möhkəmləndirdi, orada azuqə və yaraq yığdı. Urumidən oraya köçdü.

Əmir xan qalanın möhkəmlənməsi və qala silahlarının tədarükünə günü-gündən daha artıq çalışmaqdaydı, əslində isə o, özünə qarşı çevrilən idbar hazırlıq işi görür, sədaqət və səmimiyyətə zidd bir işə iqdam edirdi. O cümlədən ə’lahəzrətə düşmən olan, cəsur əskərlərin qorxusundan öz qədim yurdunda qala bilməyən və sərgərdan həyat tərzi keçirən *Şeyx Heydərin qardaşı Xan Abdal Mokri* bu vaxt özünün iyirmi tərəfdarı ilə Əmir xana pənah gətirdi, xan ona qalada yer verərək, özünə yaxın adam etdi, onu ehtirama layiq gördü. Amma, hiyləgərlik və tülkülüklə bir adamını sədaqət məzmunlu məktubla aləmpənah dərgaha göndərib fədəviyyət və dostluğunu (yekrəngi) bildirdi.

Cəlaliçiləri Kürdüstana yollayıb onların ardınca bir dəstə döyüşçü göndərilən vaxt Pirbudaq xanı o qüvvətli qoşuna sərkərdə tə’yin etmişdilər. Bu xəbəri eşidən Əmir xan bu güclü dövlət başçılarına bildirdi: “Mənimlə Pirbudaq xan arasında düşmənçilik (neqar) tozu yüksəlmişdir və o, mənim barəmdə qərəzli sözlər ərz etməkdədir, onun sərkərdə olduğu ləşkər ilə münasibət yaratmağım çətin işdir”. Əmir xanın adına bu məzmunda bir istimalətnamə yazıldı: “Onun razı qalmasından ötrü Pirbudaq xanı kənarlaşdırdıq və onun əvəzinə İraq əmirlərindən xoş rəftarlı və qərəzsiz adam olan

s.793 Həsən xan təyin etdik. Əgər o (yəni Həsən xan – *Ş.F.*) öz zəruri işləri üzündən sizinlə yoldaşlıq edə bilməzsə, qoy [Əmir xan] öz sevimli oğlanlarından birini öz e'tibarldı adamı kimi iki-üç yüz adamı ilə Həsən xanın onun yanına göndərsin ki, kürd əmir və hakimlərinə Əmir xanın bizimlə əlbirliyi (yekcəhəti) məlum olsun və [Pirbudaq xanın kənarlaşdırılmasına başqa rəng verilməsin" Ə'lahəzrətdən
s.794 bu qədər inayət, iltifat, saziş göstərilməsəinə baxmayaraq,
(561) Əmir xan öz müxalifət və üsyanında israrlı qaldı. Sözün qısası, Həsənxan Ustaclı və əzəmətli qızılbaş əmirləri Marağada Məhəmməd paşaya və cəlalilərə birləşərək, onlara tapşırılan işin icrasına yollandılar. Onlar Əmir xana xatırlatdılar: "Sadiq olan hökmə əməl etsin, əgər özü gəlib bizə qoşularsa, səfər hazırlığına başlasın, yox, əgər özü gələ bilməzsə, bir dəstə işə yazarlı adamı yola hazırlasın, Kürdüstanın və oranın yollarının vəziyyətindən xəbərdar olan etibarlı adamlarla söhbət edərək onları müzəffər ləşkərin ağçərçisi (?) olmaqdan ötrü bizə tərəf göndərsin". Əmir xan özünün gəlməyəcəyi barədə bir neçə üzrxahlıq etdi.

Xanın üzrxahlıqlarının xülaləsi belədir: "Cəlali təbəqəsi özündən razı, kobud (bie'tedal), amalsız və e'tibarsızdır. Əzəmətli qızılbaş əmirlərinin [bizimlə] yoldaşlıq etmələrinə baxmayaraq, onlarla yeddi-səkkiz min cəlalinin həmrah olması və mənim də yola düşməyimə hövsələm çatmaz. Qoy onlar özlərinin məsləhət bildikləri yollarla rəvan olsunlar, mən isə bir dəstə adamı arxalarınca yollayaram". Əzəmətli əmirlər Əmir xanın əmrə tabe olmamağını və bu səfərdən boyun qaçırmasını bəyənməyib, belə məsləhət gördülər: "Onların yolları xanın ülkasından keçdiyi üçün, nə yolla olur-olsun, onu səfərə çıxmağa məcbur etsinlər. Əgər Əmir xan kimi bir adam şah dərgahının adamları ilə belə yersiz hərəkətə yol verirsə, bəs başqa əmirlərdən nə gözləmək və onlarla nə kimi iş görmək olar?". Buna görə də, məhəbbətamiz və dostanə sözlərlə xana belə dedilər: "Bir-iki gecə onun yanında olacağımız vaxt ərzində xan ilə məclis keçirib, onun məsləhətinə əməl edərik". Əmir xan, Həsənxan və əmirlərin

sözlərinə qətiyyən etina etmədi, öz tüğyanı və inadkarlığında qaldı. Ləşkərin ön hissəsi onun ülkasına çatdığı vaxt, bir dəstə bəradast kürdü cəng silahları ilə silahlanıb onların qarşısına çıxdı. Öndə olan bir neçə cəlali döyüşə başladı, onların iki nəfəri öldürüldü, bir neçəsi isə yaralandı. Bu məsələdən agah olan Həsən xan və əmirlər həmin irləi çıxanları geri qaytararaq, döyüşmələrini qadağan etdilər, qalanın yarım fərsəxliyinə çatıb münasib bir yerdə dayandılar. Qalaya çəkilən kürdlər isə əskərlərə tərəf top və tüfənglərdən atəş açmağa başladılar. Həsən xan ikinci dəfə onun yanına bir etibarlı adamını yollayıb xanın belə yersiz hərəkətinin səbəbini soruşdu. Bu tərəfdən razılaşma və dostluq barədə danışıq aparılmasına baxmayaraq Əmir xan məqbul olmayan səbəblər irəli sürüb, aşınalıq qapılarını bağladı. Dəstə-dəstə qaladan çıxan kürdlər özlərinə lazım olan nəyisə axtarıb tapmağa gedərkən onlara düçar olur, qətl və qarətə məruz qalırdılar. Belə vəziyyət bir neçə dəfə təkrar olundu və aralarında düşmənçilik və savaş çoxaldı, Məhəmməd paşa da cəlalilərin qanını almaqdan ötrü intiqam məqamına gəldi. Onun adamları dəstə-dəstə qala ayağına gedir, qarşı tərəfdən də kürdlər müdafiəyə çıxırdılar. Hər iki tərəfdən bir dəstə döyüşçü öldürüldü və yaralandı, iş barışıqdan keçdi, cəng daha da artdı.

Məhəmməd paşadan narazı olan bir neçə cəlali, xüsusilə Təvilin qardaşı və onun yoldaşları dəfələrlə ondan üz döndərib, Əmir xanın yanına getdilər və təxminən üç yüz, dörd yüz nəfər adam xana qoşuldu. Bu iş bir daha xanın üsyanının çoxalmasına və Məhəmməd paşanın kin-küdurətinin artmasına səbəb oldu, düşmənçilik tonqalı alovlandı. Bütün müxalif olan kürdlər barədə sadir olunmuş əmrə görə xanın ülkası və vilayəti zəbt edildi. Həsən xan məcbur olaraq həmin yerdə
**s.794** dayanıb baş vermiş vəziyyəti səltənət paytaxtına ərz etdi. Baş verən bu hadisə ölkələr bəzəyi olan ə'lahəzərət Ərdəbil darülirşadında olduğu vaxt ona bildirildi. Yuxarıda yazıldığı, kimi şah ə'lacənab etimadüddövlə Hatəm bəyi o tərəfə rəvan etdi ki, öz bəsirət gözü ilə o sərhəddin vəziyyətinə nəzər yetirsin, əgər Əmir xanın hərəkətlərindən sədaqət rayihəsi

gələrsə, qoy gün-gündən artan dövlət nəşə'sindən həzz alsın, şahın şəfqətinə layiq görülsün, onun biixtiyar baş verən hadisədən qorxuya düşmüş ürəyinə təskinlik versin, xanı hicab pərdəsi altından çıxarsın, cəlali camaatını qala ayağından uzaqlaşdırsın, keçən il olduğu kimi özünün məsləhətinə uyğun bir yerdə onlara qışlaq yeri təyin etsin, dövriyyədə olan (rayec) şahi zərindən beş min tümən nəğd qızıl [pulu] xəzinədən götürüb, cəlalilərin xərclərinə sərf etsin, yox, əgər Əmir xanın işi islaholunmaz olarsa, yaxud ondan müxalifət və üskankarlıq əlaməti görünərsə, xanın tüğyan atəşini tənbeh və cəza suyu ilə yatırıb ülkasını yaşayış məskəni kimi cəlalilərin arasında bölsün, başqa üsyankar kürdlərin də cəzalandırılmaları ilə məşğul olsun.

## E'TİMADÜDDÖVLƏNİN URMİYƏYƏ HÜCUMU, DƏMDƏM QALASININ MÜHASİRƏSİ VƏ QALA AYAQINDA BAŞ VERƏN HADİSƏLƏRİN ZİKRİ

**s.795** Kitab yazan qələm bu mə'lumat səhifələrinin dibaçəsini
**(562)** belə bədii tərzdə bəzəyir: Alicənab e'timadüddövlə [şahdan] əmr alıb Ərdəbil darül-irşadından Təbrizə gəldi, oradan Təbriz hakimi Pirbudaq xan, *Bərxurdar bəy Ənis Topçubaşı*, habelə İsfahan, Xorasan, Təbriz və Bafqi tüfəngçiləri ilə məqsədə doğru rəvan oldular. Qəracə Ərdəhan üzərinə basqından geri qayıdan iki min cəlali də onlara qoşuldu. Ə'lahəzrət tərəfindən vəzifəyə qoyulmuş *Qazi bəyin oğlu Xanəmir Kürd* – Səlmas hakimi, Kor Seyfəddinin oğlu *Övliya bəy* – Ənzəl və Sumayi hakimi də gələrək, Səlmasda onlarla həmrah oldular. Onlar şəban ayının iyirmi altısında seşənbə günü gələrək, rumi[1] ordusuna daxil oldular. Həsənxan, Məhəmməd paşa və onların yoldaşları olan əzəmətli əmirlər bu görüşdən sevindilər (fayez), münasib bir yer seçib orada dayandılar. Ertəsi gün cənab e'timadüddövlə bir etibarlı mülazimini və Əmir xan Bəradust ilə dost olan məlik *Ağaməhəmməd Təsucini* göndərib, dostanə və xeyrxah nəsihətlərindən sonra,

[1] Urimi ordusu yarılmalıdır – *Ş.F.*

qala yaxınlığında görüşmək, onun fikirini bilmək, xeyirxahlıqla onun qorxu-hürküyə düşən canını aram etmək istədi. Əmir xan bu təklifi qəbul edib qaladan endi, cənab e'timadüddövlə də bir neçə nəfərlə və'də yerinə gəldi, onlar görüşdülər, hərtərəfli söhbət etdilər.

Əmir xan məkr və hiyləgərliklə özünü başına sədaqət tacı qoyan və əyninə sadiqlik libası geyinən bir adam kimi bəzəyərək belə dedi: "Mən cəlalilərin səbatsızlıqı və yersiz hərəkətləri üzündən, həmçinin Həsənxana etibar etmədiyim üçün qorxub bu dörd divara sığındım. Məhəmməd paşa mənim ülkama tamah salıb, məni aləmpənah şahla müxalifətə vadar etdi. İndi, xahişim budur ki, qoy uca məqamlı e'timadüddövlə mənim taxsırımın əfv olunması xüsusunda şaha mə'lumat versin və bu qış mənə toxunmasınlar. Qışdan sonra mən oğlanlarımdan birini layiqli peşkəşlərlə ali dərgaha göndərib, şahın müzəffər qoşunu bahar əyyamı yaylaqlara tərəf hərəkət edəndə özüm onun əlini öpmək səadəti ilə şərəflənəcəyəm".

s.795 Cənab e'timadüddövlə, öz vədinə əməl etmək şərti ilə onun xahişini qəbul etdi. Amma Əmir xanın üsyanı və qala tikmə xəbəri artıq ətrafa yayıldığı üçün belə düşündü: "Əmir xan qoy zahiri və daxili səmimiyyətlə gələrək əzəmətli qızılbaş əmirləri ilə görüşsün, bir gün o etimadüddövlənin, başqa gün isə etimadüddövlə qalaya gəlib onun mehmanı olsun, qoy tərəflər dostlaşmağa başlasınlar və onlar arasında yaranan qarşılıqlı razılaşma xəbəri sərhədə yayılsın".

Belə də oldu, Əmir xan sabah görüşə gələcəyini bildirdi. Cənab e'timaddövlə ali bir məclis bəzəyib əzəmətli qızılbaş əmirlərini də'vət etdi, lakin cəlalilərdən və Məhəmməd paşadan qorxan Əmir xan belə bir şərt qoydu ki, onlardan bircə nəfər də qoy o məclisdə olmasın. Həmin gün çox gözlədilərsə də, onun gəlişindən əsər-əlamət görünmədi. Gözlədiklərini bildirməkdən ötrü Ağaməhəmməd Təsucini bir də göndərdildər. Ağaməhəmməd Təsuci ilə olan uzun söhbətdən sonra Əmir xan açıq şəkildə bildirdi: "Bəradust ağsaqqalları qızılbaş və cəlalilərdən arxayın deyillər, qələm əhli və tacik olan

e'timaddövlənin himayəsinə də e'timadları yoxdur, buna görə də [bu səbəblər] mənim gəlməyimə mane oldu. Yaxamı sizin əlinizə verə bilmərəm. Əgər məsləhət bilərsəm, oğlumu peşkəşlə ali dərgaha göndərəcəyəm. Yox, əgər onların könlündən başqa fikir keçirsə, mən özümə qalaya girib oranı müdafiə etməkdən qeyri çarə görmürəm".

Xülasə, onun batinindəki xəbislik zahirə çıxdı, məlum oldu ki, dedikləri yaltaqlıq və hiyləgərlikdir və xan qalanın möhkəmliyinə arxalanıb belə inadkarlıq yolunu tutmuşdur. Alicənab e'timadüddövlə Əmir xanla sonrakı hərəkət tərzi barədə əzəmətli əmirlərlə məsləhətləşdi. Onlar Əmir xan ilə bu qədər danışıq aparmağı ona məsləhət bilmədilər. Baş vəzirin və bu əbədi dövlətin ali e'timad sahibinin qala ayağına gələrək oradan məqsədə çatmadan geri qayıtmasının çox böyük çaxnaşmaya səbəb ola biləcəyini görən qızılbaşlar qalanı mühasirə etməyi və tutmağı məsləhət bildilər. Məsələ barədə ali dərgaha xəbər yollayıb mühasirə və qala tutma silah sursatı hazırlamağa başladılar. Bu hekayətin əvvəlində uzunçuluq etməmək barədə üzrxahlığımızı bildirib demişdik
**s.796** ki, bu səfər barədə şirin dilli qələm icmal şəklində mə'lumat
**(563)** verəcəkdir.

Dəmdəm qalası uca bir dağın üstündə yerləşən və evi az olan sal daşdan inşa olunmuşdur. Qalanın şimal və cənub hissələrində elə dərin bir dərə vardır ki, onun aşağısından yuxarısına ancaq xəyal nərdivanı ilə çıxmaq mümkündür. Çox hündür olduğundan divara ehtiyacı yoxdur. Qala eninə görə (ərz) şərq tərəfdən hündür bir yerdədir və meşəyə birləşir ki, oraya ali bürcü olan uca hasar çəkilmişdir ki, onun bir darvazası vardır. Torpağa yaxın olan qərb tərəfində də möhkəm hasar vardır. Cənub tərəfdəki ikinci hasarın da bir darvazası vardır ki, həmin darvazadan torpağadək yol gedir. Daşın arasındakı olduqca darısqal olan bu yol ilə hətta bir süvarinin də getməsi olduqca çətindir, oraya seybə çəkmək yalnız qərb və şərq tərəfdən mümkündür. Şərqdəki hasardan bircə daş atımı məsafəsinədək sal daşlıqdır ki, oranı qazmaq və yol çəkmək qeyri-mümkündür. Oranın sonunda (montəha)

daş üstündə, dərənin kənarında, lağım çəkilməsinə və lağımatanlara mane olmaq məqsədilə çox böyük və olduqca hündür bir bürc ucaldılmışdır ki, əslinə qalsa (fi-l-həqiqə) o da əsl qalaya bitişən kiçik bir qala timsalındadır. Əgər həmin bürc tutulmazsa, qala ayağına seydə çəkilməsi çətin məsələdir. Qala yaqış suyu ilə doldurulan böyük hovuz vasitəsilə su ilə təmin olunur, amma şimal səmtdə, dərənin ortasında bol suyu olan bir çeşmə də vardır. Əmir xan həmin çeşmənin üst
**s.796** tərəfində elə geniş bir hovuz tikmişdir ki, axşam başlayandan sübh açılana qədər su ilə dolur və qala əhalisinin bir günlük ehtiyacını təmin edir. Hovuzun üstündə bir gümbəz düzəldilmiş və gümbə’zin arxa tərəfini torpaqla doldurmuşlar ki, kənardan baxanların nəzərinə dəyməsin. Onlar bu gümbə’zi “Suluq” adlandırırlar. Hovuzxanənin və suyun mühafizəsindən ötrü qala divarının yanında bir bürc düzəldilmişdir ki, o əsl qalaya bitişikdir. Cənub tərəfdə bir *buzxanə (yəxdani)* də hazırlanmışdır ki, onu qışda buz və qarla doldururlar. Həmin buzxanənin altında başqa bir hovuz da hazırlanmışdır, yay fəslinin isti vaxtlarında həmin buzlar əriyir, su hovuza yığılır və su qıtlığı zamanı istifadə olunur. Bu buzxanəni da bir qalaçaya çevirmişlər, yuxarıda yazıldığı qayda üzrə buranı da ox və güllə atanlardan qoruyurlar. Bu qalaçaya “***Buzluq***” və “***Qarlıq***” da deyirlər. Buranın da yolu qala xaricində olan adamlardan gizli saxlanılır.

Ümumiyyətlə həmin qala beş qaladan ibarətdir. Birincisi əsl qalanın özüdür, ikincisi onun aşağı hissəsidir, üçüncüsü Suluqdur, dördüncüsü Buzluqdur, beşincisi də şərq qapısından xaricdə düzəldilən *Böyük bürcdür*.

Xülasə, cənab e’timadüddövlə əqlinin çoxluğundan, həmçinin hümayun iqbala bel bağladığından, o qalanın fəth olunmasından ötrü oraya hümmət kəməndi atdı, qalatutma işləri ilə məşğul oldu. Bu vaxt beş yüz Mazandaran tüfəngçisi *Səfərqulu bəy Yüzbaşı* və çekəni tayfası qorçiləri ilə birlikdə ali ordudan köməyə gəldilər. Təbrizdə olan *Gəncəli xan* da nizamlı qoşunla gəlib çatdı. Həsənxan və onun əmir yoldaşları, habelə başçıları *Mirfəttah olan isfahanlı tüfəngçilər*

qalanın şərq tərəfinə getdilər. Aşağı qala adlanan qərb tərəf isə Pirbudaq xanın məharətinə və bacarığına ümid olundu, Xorasan və Bafqi tüfəngçiləri gəlib orada qərar tutdular. *Muradxan Sultan Çini (Çeyəni-?)* və *Xəlil Sultan Silsüpürü Azərbaycan tüfəngçilərinin minbaşısı olan Məhəmmədtağı bəyin* başçılığı ilə qalanın cənubuna – Buzluq qalaçasının önünə yolladılar, o tərəfin darvazası isə Gəncəli bəyin öhdəsinə qoyuldu. Mazandaran tüfəngçiləri Səfərqulu bəylə birgə, həmçinin çəgəni qorçiləri Suluq qalaçasının qarşısındakı şimal tərəfə getdilər. Bərxudar bəy Ənisə topxana işçiləri ilə birlikdə iki böyük topu və bir balyeməzi işə salmağı buyurdular, *Qəban Sultan Bugqeliyə* isə top və topxana sərkarlığını tapşırdılar. Göyərçinlik (Kukərçinliq) qalasındakı kiçik topu tez ***Qara Dənizdən*** (Dəryaye-siyah) gəmi ilə gətirib qala xaricindəki bürcün qarşısında Həsənxanın seybəsində yerləşdirdilər. Bu əhvalatlar baş verən vaxt Məhəmməd paşanın ürəyi ağrıdığından o, belə işlərdən azad idisə də, bütün cəlalilərə hər bir tərəfə kömək etməyi tapşırdı. Cəlalilərin xərcini çəkməkdən ötrü gətirilən beş min tümən *Abbasın adına zərb olunmuş şahi qızılı (zəre-şahiye-Abbasi)* o təbəqə arasında hərənin məqamına görə böldülər. Hər qəbilə üçün qışlaq yeri tə’yin olundu, müzəffər əsgərlər çadırlarını qurdular, hərə öz işinin ardınca getdi. Bu işlərdən xəbər tutan Əmir xan iztiraba düşdü, yenidən adam göndərdi, onlara öz bağlılığını izhar edib mülayim sözlər və hiyləgərliklə o
**s.797** camaatın şərini özündən uzaq etmək istədi. Belə hərəkətləri
**(564)** dəfələrlə etdiyindən onun üzdəniraq sözlərinə əhəmiyyət verilmədi, əlacsız qalaraq o da qalanın müdafiəsi ilə məşğul olmağa başladı. Bir neçə bəradust əmirzadəsi özlərini qaladan aşağı ataraq şahsevən (şahı sevən) oldu. Onlar və qaladan gələn başqa adamların hamısı bir sözlə deyirdilər ki, qala camaatı su qıtlığından əzab-əziyyətdədir. Çünki bu vaxt, quraqlıq ili olduğu və yağıntının azlığı səbəbindən, su hovuzunun suyu olduqca azalmışdı, qalan azacıq su isə iyləndiyindən onunla heyvanları sulayırlar, mühasirədə qalanların ümidi isə yalnız Suluq suyunadır ki, onu da qab-qab camaata

paylayırlar. Əgər Suluq ələ keçirilərsə, aman istəməkdən və qalanı təhvil verməkdən başqa heç bir çarələri yoxdur, çünki [artıq] lağım yolu ilə bu qalanı fəth etmək asanlıqla müyəssər
s.797 ola bilər. Ağıl sahiblərinin nəzərincə [hal-hazırda] aman istəmək cəng etməkdən üstün, savaşmaq və qan tökməksə ağıldan uzaq bir əməldir. Onlar (qızılbaşlar – *Ş.F.*) bunu bilərək quyu qazan (çahxu) ustalar gətirib lağım atmağa başladılar. Həsənxan və onun yoldaşları olan əmirlər adamlara şərq səmtdən seybə və murçəllər bölüşdürdülər və o yerin torpaq hissələrini qazdılar. Daşa çatdıqda, səbədlər toxuyaraq, gecə vaxtı onları uzaq məsafədən gətirdikləri torpaq və gil ilə doldurdular, yol düzəltdilər, qaranlıqda irəliləməyə başladılar. Pirbulaq xan da qərb istiqamətdən başı aşağı əymədən getməyin mümkün olduğu üçün yuxarıda yazılan tərzdə irəliləməyə başladı. Kürdlər isə axşamdan səhərədək hər bir seybə üzərinə hücum edərək qızğın döyüşlər edirdilər, qazilərin qulaqlarına kürdlərin iti oxlarından dəmbədəm əcəl xəbəri (pəyam) yetişməkdəydi. Seybə igidlərinin başına tüfəng güllələri dolu kimi yağırdı. [Kürdlər] gündüzlər də bir neçə dəfə mürçəllər üzərinə hücuma keçərək bərk vuruşdular. Qazilər isə öz səbat ayaqlarını yerə dirəyib müdafiə olunmaqdaydılar. Hər iki tərəfdən çoxlu adam yaralandı və öldürüldü. [Kürdlər] başqa bir dəfə *Ne'mətulla Sultan Sufinin* seybəsinə hücuma keçdilər və qızğın cəngdən sonra içəriyə daxil olmaqdan ötrü seybəni dəldilər. Bu mə'rəkədə sufilər böyük igidlik və canfəşanlıq etdilər. Onların beş nəfəri həmin dəliyin ağzındaca bir-birinin ardınca kürdlərə seybəyə daxil olmaq imkanı vermədilər, amma onların hamısı öldürüldüsə də əvəzinə yeniləri vuruşa girdilər. Həmin gün seybə döyüşçülərinin hamısından mərdanəlik zahir oldu, kürdlərsə bir iş görə bilmədən qalaya qayıtdılar. Bu döyüş zamanı qazilərin yeddi-səkkiz nəfəri öldürüldü, on-on beş nəfəri isə yaralandı, kürdlərinsə iyirmi nəfərə qədəri qətl olundu, otuz-qırxa qədəri isə yara aldı. Həsənxanın seybəsində böyük təpənin (bürc) üstünə kiçik bir top yerləşdirilmişdi. Həsənxanın seybəsindən atılan top güllələri ilə iyirmi, bəlkə də otuz gündən

sonra qala bürcündə kiçik bir yarıq yarandısa da, hələ oraya keçmək mümkün olan iş deyildi və o bürc qala yolunun səddi idi. Həsənxan hövsələsizlik edib, e'timadüddövlə ilə məsləhətləşmədən özbaşına hərəkət edərək günün sonunda həmin bürcə yürüş etdi, "igid yekə cavanlar"dan on iki nəfəri bərk ciddi-cəhdlə özlərini bürcün başına çatdırdılar. Onların bir neçəsinə tüfəng gülləsi dəydi və aşağı dığırlandılar. Başqalarının isə gözləri qorxdu və daha heç birisi bürcə qalxmağa sə'y etmədi, yuxarı çıxanlar isə özlərini aşağı atdılar. Həsənxanın qala ayağına gəlib çatmış iyirmi nəfərədək qazisi elə oradaca dayanaraq divarı qazmağa başladı. Gecə yarısınadək tərəflər arasında cəng davam etməkdəydi.

O əsnada kürdlər hücum etdilər, qəflətən qazilərin arxa tərəfindən tökülüşdülər və tərəflər arasında qılınc cəngi başlandı. Bürcün və qalanın üstündən tüfəng gülləleri yağmaqdaydı. Bina görə də qazilərə heç yandan kömək gəlmirdi. Qazilərin əlləri işdən və döyüşdən soyudu, onlar geri qayıtdılar, [amma] bu yürüş zamanı bir çox igid və cavan döyüşçü öldürüldü və yaralandı, Həsən xan isə etdiyi cahilanə döyüşdən (cəladət) xəcalətli və pərişanxatır oldu. Daha iş-işdən keçdiyi üçün, alicənab [Hatəm bəy] ona təsəlli verdi, əlbəttə, qala fəthi zamanı qoşunçəkmə (sepahigəri) aləmində belə işlərsiz keçinmək olmur. Çahxuların işlədikləri vaxtdan bir neçə gün keçdikdən sonra hələ yolun altı ilə gedib çeşmə başına (sərçeşmə) çata bilmirdilər. Heyrətdə idilər ki, lağımı hansı tərəfə atsınlar. Məcbur olub irəlilədikləri hər qədəmdə bir dəlik açır, lağımın üstünə bir nişan (əlamət) qoyub, onun hansı tərəfə istiqamət götürdüyünü müəyyən etmək istəyirdilər. Buna görə də kürdlər həmin nişanları görərək, Suluq məsələsindən xəbərdar oldular. Onlar su azlığından tabtaqətsiz olaraq, balıq kimi iztirab toruna düşüb çapalamağa başladılar, hər gecə lağıma tərəf tökülüşüb Mazandaran tüfəngçiləri, çegəni qorçiləri və lağımın sərkarı və qoruyucusu olan Səfərqulu bəylə cəngə girir, böyük ciyqələşlər (?) edirdilər. Bir gecə də hərbsiz ötmür, çahxular işləməkdən ötrü fürsət tapmırdılar. Üç aya qədər-ramazan, şəvval və

ziqədə aylarınadək (28 noyabr, 1609 – 24 fevral 1610) çarpışma belə davam etdi. Təxminən min nəfər hərbiçi olmayanları, qadın və uşaqları iki-üç dəfəyə qaladan çıxardılar.

**s.798** Susuzluqdan ciyərləri yanan o adamlar halsız vəziyyətdə özlərini suya çatdırır, mühasirədə qalanlar isə həmin çeşməni dirilik suyu (abe-həyat) bilib Suluqun qorunmasından ötrü fədailər kimi çalışırdılar. Bu tərəf isə öz sə'yindən qalmırdı. Beləliklə, bu üç ayda gedib çeşmə başına çata bilmədilər. Dirilik suyunun (abe-heyvan) yeri məlum olmadığı üçün
**s.799** cənab [e'timadüddövlə] başqa bir tədbir fikirləşdi. Bu qərarar
**(565)** gəldilər ki, seybəni yerin üstü ilə Suluqun üstünə çatdırsınlar, gümbə'zi deşsinlər, orada tökülmüş böyük topu və balyeməzi irəli aparsınlar, su yolunu tutsunlar, kürdlərin Suluqa gedib-çatmalarına imkan verməsinlər, eyni zamanda yerin altı ilə lağımatma işi də əvvəlki kimi davam etdirilsin. Topçular əmrə əməl etdilər. Qərara alındı ki, əzəmətli əmirlərdən *Mir Sufi, Mir Pazuki və Mir Müqəddəm* öz seybələrindən əl çəkərək Suluqa seybə aparsınlar, Həsənxan isə e'timadlı ağaları və mülazimləri öz seybələrində saxlayıb, özü o əmirlərin sərkarlığını etsin, Pirbulaq xan öz seybəsi tərəfdən bir seybəni dərənin içərisi ilə Suluqa aparsın. Əmrə əməl edən əmirlər işə başladılar. Qalatutma işini yaxşı bilən e'timadüddövlənin adamları öz yerlərindən çıxıb topxanaya gəldilər və iyirmi bir gün orada dayandılar. Onlar sübhdən şama qədər top atır və seybələri qoruyurdular. Əmirlərin icra etdikləri hər gecənin işləri sübh müzakirə (təhqiq və təftiş) olunur, buraxılan qüsura görə təqsiqkar danlağa mə'ruz qalırdı. Kürd camaatının iztirabları isə bu vəziyyət başlayandan bəri çoxalmaqdaydı. Gecədən bir az vaxt ötəndən sonra cəld cavanlar silahlanaraq eşiyə çıxır, Suluq uğrunda cəngə başlayır, dilavərlik göstərirdilər. Bu tərəfdən məşəllər yandırılır və tüfəngçilər məşəl işığında vuruşa başlayırdılar. Hər gecə hər iki tərəfin bir dəstə adamı öldürülür və yaralanırdı. Dağın ortasında Suluqa yaxın bir mağara vardı. Kürdlər mağaraya çataraq, Suluqa tərəf çəkilən seybələrə çatmaq, qaziləri bir-birlərindən ayırmaq və onların işlərinə daim mane olmaq

üçün o mağaranın aşağı tərəfindən lağım atırdılar. Bundan xəbər tutan əzəmətli əmirlər məsləhət gördülər ki, kürdləri qabaqlayıb mağaranı [özləri] ələ keçirsinlər və Suluqun alınmasınadək əllərində saxlasınlar. Otuz nəfərədək candan keçən qızılbaş yekəcavanı və tüfənçi [lər] bu işə başladılar. Günəşin artıq yüksəldiyi birinci gün başlarını fəda etməyə hazır olan bu cavanlar seybənin ağzından mağarayadək qaçaraq özlərini mərdanəliklə mağaraya saldılar Qaladan isə çoxlu tüfəng güllələri atılırdı, amma [mağaraya] bu qaçış zamanı bir nəfərdən artıq adam öldürülmədi.

Artıq gecə düşdü və dünya abbasilərin libasına büründü. Əzəmətli əmirlər gecə yarısınadək öz seybələri başında dayanıb onları qorudular.

Gecə yarısından sonra kürdlər iki dəstə ilə qaladan çıxdılar. Dəstənin biri yuxarı tərəfdən seybə üzərinə hücuma keçdi. Mühafizlər cəngə başlayıb onları özləri ilə məşğul etdilər. İkinci dəstə isə mağaranın aşağı yolundan çıxaraq orada olanlarla hərbə başladılar. O dilavərlər özlərində güllə, kamanlarında ox qalana qədər kürdlərlə cəng edib mağaranı əldən vermədilər. On nəfərədək [qızılbaş] öldürüldü və [qazilərin] ox və gülləleri tükəndi. Az qalmışdı ki, kürdlər mağaraya girib onların bir nəfərini də sağ qoymasınlar. Mağarada sağ qalan iyirmi döyşçü əllərini qılınca apararaq, cəng edəedə əcəli yubatmaqdan və sağ-salamat seybəyə çatmaqdan ötrü özlərini kürdlərin arasına atdı. Onların səkkiz nəfəri yaralanıb aradan çıxa bildi, qalanları isə ədəmə yollandılar. [Kürdlər] biri isfahanlı o biri isə pazuki tüfəngçisi olan iki
**s.799** [qızılbaşı] tutub qalaya aparmışdılar. Əmir xan onların mərdanəliyinə təəccübləndiyindən qətl olunmalarına razılaşmayıb, müalicələri ilə məşğul oldu, həmin adamların sağalmalarından sonra hər ikisini qaladan eşiyə yolladı.

Xülasə, sübhi-sadiqin başlanmasına yaxın mağara döyüşü mə’lum oldu, öldürülənlərin cəsədlərini mağara ağzında gördülər, qazilər bir az təşvişə düşdülər. Mütəəssir olan cənab e’timadüddövlə müqəddəm, pazuki və sufi əmirlərini danlamağa başlayıb onları təhdid etdi.

Amma, o, hərbi iş aləminə qapılaraq, düşmənlərin dəf' olunması üçün yenə ötən gündən də artıq səy göstərirdi. Həmin gün Həsənxan mülazimləri olan ustaclı qazilərindən qırx nəfər adam qeyrət və mərdanəliklərinin çoxluğundan mağaranı əllərində saxlamaqdan ötrü oraya getmək fikrinə düşdü. E'timadüddivlə buna izn verməkdə tərəddüd etdi, o, keçən gecəki hadisədən qayğılanmışdı. Həsənxan israrla bildirirdi ki, bu gecə onun özü şəxsən üç yüz nəfərlə birlikdə ustaclı qazilərinin xatirinə kürdlərin fitnəsini dəf' etmək üçün gedəcəkdir. Cənab etimadüddövlə istər-istəməz razılıq verdi, Qəban Sultan Biqdelini və İmamqulu Sultan Acərkunu də öz qoşunları ilə bu gecə üçün Həsənxana köməkçi verdi. Başqa əmirlərin xahişini nəzərə alıb, onlardan on nəfərini də [əməliyyata] təyin etdi. Hamısı birlikdə əlli nəfər olan [o döyüşçülər] elə həmin ləhzə zəruri cəng ləvazimatı və bir neçə günlük ehtiyat azuqə ilə onlara yaraşan (şayəste) tərzdə yuxarı cumaraq, özlərini mağaraya çatdırdılar. Bu qorxmazlıq və igidlikdən təəccüblənən kürdlər gecə düşdükdə keçən
**s.800** gecə olduğu kimi qaladan çıxdılar və cəng başlandı, arala-
**(566)** rında böyük hərb oldu. Həsənxan, əmirlər və tüfəngçilər xaricdən, mağara igidləri isə daxildən sübh açılana qədər özlərini sınayıb döyüşə başladılar. Kürdlərin çoxlu sə'y etmələrinə baxmayayraq, heç bir iş görə bilmədən qorxaqcasına (xayef) geri qayıtdılar, mərdanə qazilər isə mağaranı əllərində saxladılar. Hər gecə səhərəcən Suluqdan su çəkən bir neçə kürd top, balyeməz və tüfəng güllələri ilə öldürülürdü. Nəhayət, seybələr Suluq hovuzuna qədər çatdırıldı və [qazilər] hovuzxananın gümbə'zini dəldilər, həmin dəlikdən su yolunu gördülər, çeşmənin yolunu tapdılar. Zilhəccə ayının on səkkizində (14 mart, 1610) əzəmətli əmirlər günorta vaxtı Suluqun dəliyindən gümbəzə çoxlu saman daşıyıb yandırdılar, hava tüstüyə büründü. Hovuzxananı qoruyan kürdlər bu tüstüdən qorxub qalaya qaçdılar, qazilər isə özlərini aşağı atıb Suluqu zəbt etdilər, on addım (payə) yuxarı qalxıb oranın yolunu kərpic və gil ilə bağladılar. O gün qala ayağında bərk döyüş oldu, kürdlər bu hadisəni dəf' etməkdən ötrü çox

çalışdılarsa da, bunun heç bir faydası olmadı. Suluqun mühafizəsi Mazandaran tüfəngçilərinin öhdəsinə qoyuldu. Əzəmətli əmirlərin hər biri öz seybələrinə qayıtdı, e'timadüddövlənin xidmətçiləri (xoddam) də adı çəkilən topxanadan çıxıb öz yerlərinə getdilər. Suluqun fəthindən sonra Əmir xan və onun yaxın adamları on-on beş günədək Buzluğun azacıq suyu, başqa adamlar isə böyük hovuzun üfunətli (mostəf'en) suyundan qənaətlə istifadə etməklə gün keçirdilər, qaladarlıqlarına davam etməyə başladılar. Suluqun fəthi qış fəslindən bahara qədər davam etdi. Bu il keçən ilin əksinə güclü yağış yaymağa başladı və hələ ağıllı adamların dərk etmədiyi ilahinin hikmətindən yağış bir ayadək ara vermədi, belə ki, mühasirədə qalanlar altı ay da sudan istifadə edə bildilər. Tədbir sahibinin (İlahinin – *Ş.F.*) köməyi ilə təqdirin (qəzavü qədərin – *Ş.F.*) dəf' olunması insan ağlından uzaq olduğundan, Suluqun fəthindən ötrü qala açanların şahın himməti ilə üç ay ərzində etdikləri sə'ylər faydasız oldu, elə buna görə də qala camaatı qaladarlıqda əvvəlkindən də artıq çalışmağa başladı. Bu hadisələr baş verən vaxt e'timadsız cəlalilər arasında ayrılıqlar zahir oldu. İndi münasibdir ki, ilin axırında baş vermiş cəlalilərin vəziyyətləri və onların aqibətləri
**s.800** barədə söz deməyi qələmin ixtiyarına verək. Qalanın fəth olunması və Əmir xanın əhvalatı isə gələn ilin hadisələrinin şərhi zamanı yazılacaqdır, inşallah.

## CƏLALİLƏRİN VƏZİYYƏTİNİN ZİKRİ VƏ MƏHƏMMƏD PAŞANIN AQİBƏTİ

Əvvəllər belə yazılmışdı: Barəsində yazılmış Murad paşa cəlali tayfası üzərində zəfər çalmış və Məhəmməd paşa öz yoldaşları ilə birlikdə aləmpənah şah dərgahına üz tutmuşdular. Cəlaliçi adamların (əfrade-cəlali) təhqiqinə başlayan Murad paşa o təbəqədən olanların ələ keçirilmələrindən ötrü hədsiz canfəşanlıq göstərdi. Belə ki, Rum vilayətlərində cəlalilərlə bircə gün də olsa gün keçirib dostluq edən adam tutularaq yoxluq mülkünün müsafirinə çevrilirdi. [Paşa] "cəlali" sözünü

bütün vilayətlərdə yoxa çıxardı, Rum padşahı tə'rəfindən də onun bu xidməti razılıq və təriflə qarşılandı.

Amma, paşanın ziddinə gedən bə'zi adamlar onun bu əməyinin (əmək!) ziddinə gedərək, cəlalilərin qızılbaşların yanına getmələrini [Rum dövləti üçün] tədbirsizlik (sui-tədbir) saydılar, padşaha xatırlatdılar ki, Murad paşa tərəfindən bu ay görülən iş Ale-Osman dövlətinin məsləhətinə müvafiq deyildi, səltənət işlərinin nizamlanmasına yönəlməmişdi. Beləliklə, Sultan Əhməd xan Murad paşaya dedi: "Üsyankarların dəf'i xüsusunda etdiyin çoxlu sə'ylərə baxmayaraq, nətiəcə etibarilə məsələ yaxşı sonluqda bitməmişdir və sən on iki min xunxar döyüşçünü qızılbaşlara birləşdirmisən. Bu məsələnin həll yolu bu idi ki, gərək sən bütün cəlalilərə qalıb gəldikdən sonra onları əfv edərək öldürülməyəcəkləri barədə arxayınlaşdıraydın. Belə olan halda, onların əzəmətli böyüklərindən yalnız bir neçəsi əfv olunacaqlarına inanmayıb [qızılbaşlar] tərəfə gedə bilərdi, amma öldürülməyəcəklərinə inanan bütün cəlali qoşunu öz vətənlərini tərk etməzdi". Sözün qısası, Murad paşanın ziddinə gedən şəxslər, xüsusən sərhəd [torpaqlarında] böyük şan-şöhrəti olan Diyarbəkr bəylərbəyisi Nəsuh paşa cəlalilərin nəvazişləndirilmələri məqamına gələrək, onların əmir və sərdarlarına istimalətnamələr yollayıb Ruma qayıtmalarını təklif etdi. Öz əməlinin aqibətinə nəzər salan və nicat ümidi tapmayan *Məhəmməd paşadan və Qara Səiddən* başqa [vətəni tərk edən] cəlalilər rumilərin bu qaibanə hiylə (dəmdəme) və əfsununa aldanıb geri qayıtmaq fikrinə düşdülər. Onlar nəfskarlıq havasına qapılıb Rum vilayətində baş alıb gedən özbaşınalıq, inadcıllıq, (xodrə'yi) və cinayətlərə (təbəhkari) adət
**s.801** etdiklərindən bu məmləkətdə (Səfəvi ölkəsində – *Ş.F.*) hüma-
**(567)** yun şah ədalətinə inanmırdılar və Ruma getməyə meyllləndilər.

Xülasə, fərar qərarına gələn cəlalilərdən ən birincisi *Ağacdan Biri* oldu ki, o öz qışlaq yeri olan *Uşni* ülkasından çıxıb beş yüz nəfərlə Bağdadın *Kərkuyə* adlı yerinə getdi. Onun fərarından sonra başqa cəlalilərdən də bədgüman olan cənab e'timadüddövlə onlar barədə Məhəmməd paşa ilə məsləhət-

ləşdi. O, dedi: “Yeddi yüz adamı olan *Kökəc Məhəmməd* fttnəkar və e’tibarsız adamdır. Əgər o öz adamlarının yanında olmazsa, mən bütün cəlalilərin yaxşı-pis işlərinə cavabdehəm və onlar tərəfindən xatircəməm”. Cənab e’timadüddövlə bu vəziyyət barədə ə’lahəzrətə mə’lumat ərz etdi. Ə’lahəzrət zillələllah şah Kökəcə bir məktub göndərib ona şahanə şəfəqqətlər edəcəyini və’d edərək orduya də’vət etdi. Kökəc də təbəələrindən ibarət bir dəstə ilə şahın fərmanına uyğun aləmpənah dərgaha gəldi. Şahın adından bütün cəlalilərə yazılan ikinci hökmün məzmunu belədir: “Onlar qərib adamdırlar, bu mələkətə gəlib bizim mehmanlarımız olmuşlar və ölkəmizdə yaşayırlar. Biz gərək onlardan öz mehmannəvazlığımızı əsirgəməyək. Əgər bu vilayətlə yaşamaq istəməsələr, məşhur zərbülməsəldə deyildiyi kimi, “mehmanın gəlməyi
**s.801** öz istəyi, getməyi isə icazə ilədir”, biz onların istəyinə qarşı çıxa bilmərik və onları incitmək bir mizban kimi bizə çayız deyildir. Buradan çıxıb getmək istəyən hər kəsin fərar arını bəyənib, qızılbaş tayfasını mehmannəvazlıqda taxsırlandırıb bədnam etmək məgər lazımdırmı? Xəbərdarlıq etməklə və sərhəd hakimlərinin müşayiəti (bədrəqe) ilə əgər sağ-salamat çıxıb getsəniz bizim tərəfimizdən sizə heç bir maneçilik olmayacaqdır”. Bu xoş məktubu alan cənab e’timadüddövlə bir yığıncaq təşkil edərək, bütün cəlali sərdarlarını oraya də’vət etdi və həmin **inayətnamənin** məzmunu ilə tanış etdi. Sərdarların hamısı bir səslə zahirən getməkdən imtina etdilər və dedilər: “Biz bu vilayətə gəlib şah mərhəmətinin kölgəsinə sığınmışıq, can qorxusundan qurtulmuşuq, aləmpənah şahın ne’mət və ehsan ümmanına qərq olmuşuq, rahatlıqla vaxt keçiririk. Getməyimizə səbəb yoxdur. Biz fərar etmiş o bədbəxtlər əvəzinə utanır və xəcabət çəkirik”. Yığıncaqda çox belə söhbətlər edildi. Sərdarlar amma batində bu diyarda qalmaqdan qorxuya düşmüşdülər və onların hər böyük və kiçiyinin qəlbində fərar fikri vardı. Məhəmməd paşa xəstəliyinin şiddətlənməsindən pərişan olmuşdu və cəlalilərlə bəd rəftar edirdi. Həmin bir neçə gün müddətində onun bölükbaşılarının bir neçəsi bir-birləri ilə danışıb iki min nəfərədək adamla

fərar yolunu önə tutdaraq Diyarbəkrə-Nəsuh paşanın yanına getdi. Onların gedişindən sonra müalicə məqsədi ilə qaladan çıxıb.

**Dəmdəm qalasının] mühasirəsi vaxtı cəlalilərin rəisi Məhəmməd paşanın vəfat etməsi:**

Urumi şəhərinə gedən Məhəmməd paşanın zəiflikdən yerimək qüvvəsi qalmamışdı. Onun min nəfərədək mülazimi [də] Səlmas yoluyla çıxıb-getdilər. Onların da gedişlərindən heç iki gün keçməmişdi ki, paşanın vəkili və ən e'tibarlı adamı olan İbrahim ağa yeddi yüz-səkkiz yüz adamla getməyə əzm etdi, paşaya xas tövləni və sərkarın atlarını mənimsəyib Səlmas tərəfdən getdi. Onların gedişindən və atları da aparmalarından xəbər tutan paşa öz zəifliyi və gücsüzlüyünə baxmayaraq, ondan heç vaxt ayrılmayan iki yüz-üç yüz mülazimi ilə fərarilərin tə'qibi üçün ata süvar oldu. Bir-birlərinə çatdıqları vaxt onlar irəli getməyib, paşanın yanına adam yollayaraq dedilər: "Sənin duz-çörəyini yediymiz üçün sənlə hərb etməyi lazım (məkruh) bilmirik. Yaxşısı budur ki, özünü və bizi incitmədən geri qayıdasan, yoxsa məcbur olub savaşa başlayacağıq". Müqavimət taqəti olmayan paşa kədərli ürək və qüssəli beyinlə (xater) [aparılan] atlardan əlini üzüb geri qayıtdı. Yol getdikləri zaman fərar etməkdə olan o dəstə tərəfindən çox bəyənilməz əməllər baş verdi. Rəiyyətdən, qızılbaşdan və yolçulardan gözlərinə dəyən hər bir adamın malını əllərindən alıb apardılar, duzu yeyib duz qabını sındırdılar. Bu hal baş verdikdən sonra e'timadüddövlənin xidmətçiləri paşanın şəhərdə qalmasını məsləhət görmədilər ki, Allah eləməmiş, məbada burada qalan cəlalilərdən və mülazimlərdən ona ziyan dəyə bilər. Buna görə də onu geri çağırıb qalaya gətirdilər. Paşanın ciyəri və mədəsi ağrıyırdı. O, təbiblərin müalicəsinə əməl etmir, həmin ağır dərdə sepərzenam (?) ilə türkəçarə (türkanə) müalicə edirdi. Belə vəziyyətdə də dünyaya bərk bağlanmışdı və ölümlə razılaşmırdı. Lakin mərəzi şiddətləndi, səfəp ayının axırlarında libasını axirət sarayına apardı (vəfat etdi – *Ş.F.*). Paşanin vəfatından sonra başqa

cəlalilərin də arasına təfriqə düşdü, onun qala ayağında olan təxminən üç yüz nəfər bölükbaşısı özlərini şahın mülazimi adlandırıb ehtirama layiq görüldü. Paşanın varisi olmadığı üçün ə'lahəzrət onun at, qatır, dəvə, daş-qaşla bəzənmiş silah, qızıl və gümüş pulunu təxminən üç min tümən məblə-
**s.802** ğindəki var-yoxunu Qara Səidə verdi və paşanın bütün müla-
**(568)** zimləri də onun xidmətinə keçirildi. O zaman bütün cəlalilərdən – istər şahın, istərsə də Qara Səidin, Kökəc Məhəmmədin və başqa bölükbaşların mülazimləri olsunlar, bu vilayətdə beş yüz nəfərdən artıq adam qalmadı.

**Müxtəlif hadisələr**: Bu il Şirvan Dərbəndini (Dərbənde-Şirvan) qoruyan Cam hakimi *Şahnəzər Sultan Təkni (?)*
**s.802** *Cığatay* yaxşı xidmətinə görə yüksək "xan" ləqəbinə layiq görülərək, müqəddəs Məşhədə hakim təyin edilməklə sərəfraz oldu.

**Ölümlər:** Başlarını torpaq (torab) niqabına çəkən məşhur və ə'yan adamlardan birincisi ülyacənab şahzadə həzrət cənnətməkan şahın (şah Təhmasibin – *Ş.F.*) qızı *Məryəm Sultan Bəyimdir*. O, Çilan valisi *Xan Əhmədin arvadı idi*, İsfahanda Allah-taalanın zəhmətinə qovuşdu. Bu möhnətli xəbər Həmədanın Ağ Ələng yaylağında ə'lahəzrətə və bu uca dudmanın hörmətli qadınlarına (moxəddərat) yetişdi, şahın və bu ali sülalə üzvlərinin məlalına səbəb oldu. Ali orduda olan müqəddəs Rezəviyyə rövzəsinin mütəvəllisi *Qazi Sultana* hökm olundu ki, dövr (əhd) Məryəminin pak nəş'ini müqəddəs rövzəyə aparsın. [Qazi] bu işə başlayıb onu müqəddəs rövzə hərimində[1] dəfn etdi.

**Aləmlər mirzəsi Mirzə Məhəmməd Şəfinin vəfatı:**

Vəfat edən başqa məşhurlardan biri *aləmlər Mirzəsi mirzə Məhəmməd Şəfidir*. Onun haqqında müxtəsər (şəmme) məlumat: [Mirzə] Nişapura mənsub Kədkən (?) şeyxzadələrindən idi. Cavanlıq (şəbab) dövründə müqəddəs Məşhəd hakiminin sərkarının katiblərindən [biri] olmuş, *Kazımqulu xan Pornaka* müla-

[1] Hərim – gizli yer, qadağan olunmuş məkan mənasındadır (Bax: Nəyyerzaman Səqəfi. Göst. Lüğət, I c., s.625).

zimlik etmişdi. Onun vəfatından sonra *İbrahim xan Türkmanın vəziri oldu.* Tale ulduzu hələ günahın (*vəbal*) ən aşağı nöqtəsində (*həziz*) olarkən İbrahim xan vəzifədən uzaqlaşdırıldı və Mirzə Şəfi ali orduda işsiz-gücsüz ömür sürməyə başladı. *Fərhad xanın* Nişapurun başçısı olduğu min birinci dovşan ilində (1592/1593) xanın xidmətinə gedən mirzə ondan mülazimlik xahişi etdi. Bu nişapurlu şəxs mülazim və xanın həmrahı olduğundan, səfər[lər]də məktublar yazmaq peşəsində çalışdı. Get-gedə onun qabiliyyət cövhəri zahir oldu, etibarlı bir adam sayıldı, inkişaf və işgüzarlıq (kardani) mərhələsinə çatdı, nəhayət vəzir mənsəbinə qədər tərəqqi etdi. İzzət və e'tibarı gün-gündən çoxalmaqdaydı. Fərhad xan ali hümayunun yanında olarkən dəfələrlə onun tə'rifləmiş, bacarığından xoş sözlər söyləmişdi.

Fərhad xanın başına gələn vaqiədən sonra mirzə şahanə iltifatlara llayiq görüləcək Gilanatın[1] baş vəziri tə'yin olundu və bu uca məqamla başıuca (sərbolənd) oldu. Bu mənsəbdə bəyənilən xidmətlər etdi, dərgaha yaxınlığa (qorb) və yüksək rütbələr (mənzelət) ləyaqətinə çatdı, *ali xitab olan "aləmlər mirzəsi" ("mirzaye-aləmiyan") adını* qazanmaqla sərəfraz oldu, özünə tay adamlar arasında bu hörmətli ləqəblə şərəfləndi. Qəzvin darüssəltənəsinin vəziri vəzifəsi də əlavə olaraq ona tapşırıldı. Min on beşinci at ilində isə onun vəzifəsinə bütün *Xorasanın yüksək qədir-qiymətli vəzir mənsəbi (vəzarəte-cəlilül-qədre-kolle-Xorasan)* də əlavə edildi, mirzə bütün mülki və *mali işlərdə idarəetmə (retq-o fetq), [hesabların] bağlanması və açılması* ilə məşğul oldu, inanılmış adamların (ommal) və kəlantərlərin işdən çıxarılmaları və işə götürülmələri onun rə'yi və məsləhəti (mənut) ilə həyata keçirildi, tam ixtiyar və iqtidara çatdı. Amma, onun qabının həcmi (zərfe-goncayeş)[2] bir o qədər də tutumlu deyildi. Yuxarıda yazıldığı kimi, o, müqəddəs Məşhəd hakimi *Mehrab xan* ilə yola gedə bilmədi və bu kobud davranış tərzindən onun beyin pozğunluğu (şureşe-dəmağı) üzə çıxdı. Buna

[1] Biyəpəs və Biyəpiş vilayətlərinin – *Ş.F.*

[2] Yəni bacarıq və qabiliyyəti – *Ş.F.*

görə də ali əmr alıb, ali dərgaha çağırıldı, Mazandaranda səadət aşiyanlı dərgaha gəlib-çatdı. Bir müddət şahın büsat məclislərindən uzaq düşdü, [ə'lahəzrət ilə] ünsiyyət (məcalesət) etmədi, həmsöhbət ola bilmədi. İsfahan yaylağında xəstələnib Qəzvinə getdi, orada xəstəliyi şiddətləndi, bu ilin əvvəllərində mülk və maldan əl üzərək bu səbatsız (napaydar) dünya vəzifələrini başqaları üçün qoyub axirət səfərinə çıxdı, – "Hər şey yox olandır, sən isə əbədisən"[1] – ifadəsi onun maddeyi-tarixi oldu. Mirzə Şəfinin vəzifəyə tə'yin etdiyi adamlardan (gomaştegan) *Behzad bəy Astra-*
**s.803** *badi – Gilan vəziri, Aslan bəy – Qəzvin vəziri*, *qohumu olan Mir Əbülqasim – Mazandaran vəziri, Xacə Kəmaləddin Hüseyn – müqəddəs Məşhəd vəziri [oldular]*.

Vəfat edən məşhurlardan başqası Mərv hakimi *Bəktaş xandır*. O, ustaclı [tayfasının] damlı oymağındandır. Xorasanda Mürşidqulu xanın *vəkili* idi, İraqda isə bu xan tərəfindən İsfahana *daruğəsi* oldu.

Bəktaş xan Mürşidqulu xanın qətlindən sonra hümayun hökm ilə bir müddət İsfahanın bə'zi bölüklərinin *mütəsəddisi* vəzifəsinə tə'yin edildi, işdən çıxarılandan sonra bir neçə vaxt pərişan-pərişan dolanmaqdaydı. Xorasanın fəthindən sonra min on altıncı it ilində (1607/1608) o, *əmarət rütbəsi* ilə sərəfraz oldu, Maruçaqa hakim tə'yin edildi, bacarıqda, qala dağıdılması və inşasında, o sərhədin qorunmasında mərdanəliklər göstərdi, e'tibarı gün-gündən artdı, qoşun və ləşkər sahibi oldu. *Nurməhəmməd xan Özbəkin* haqqını itirməsindən və habelə üsyan edərək iqtidardan düşməsindən sonra
**s.804** Şahican Mərvinin hakimliyi Bəktaş xana verildi. O, həmin
**(569)** sərhəddə dəflərlə özbəklərlə güclü cənglər etmiş, bütün mə'rəkələrdə hümayun iqbalın gücü ilə qalib gəlmiş, şöhrəti o ətraflarda yayılmışdı. Bu il artıq iki il idi ki, həmin mülkdə (Mərvdə – *Ş.F.*) hakimlik edirdi. Bu yaxınlarda təbii əcəllə həyat mülkünü ruhlar dünyası ilə əvəz etdi və o vilayət hakimliyi müqəddəs Məşhəd hakimi olan *Mehrab xan Qacara* verildi.

[1] İfadənin ərəbcəsi: "Əntəl-baqi və kullu şey'in halikun".

**Məhəmməd Zaman Sultanın vəfatı:**

Vəfat edənlərin biri *Məhəmməd Zaman Sultan Bayandurdur* ki, onlar ata-babadan türkman *bayanduriyyə mirzadələrindən* olmuşlar. Ataları vəlayət şanlı bu dudmanın əqidəli və sədaqətli ərbablarındandırlar. Məhəmməd Zaman o sülalənin məskəni olan Yəzd darülibadəsindən idi. Orduya gəlib bir müddət mərhum şahzadə Sultan Həmzə Mirzənin mülazimətində olmaqla şərəfləndi. *Türkman və təkəlilər arasında tüğyan qalxan vaxt* onun bacısı (həmşire) *Can Ağa Xanım* [şahın] *lələsi* Əliqulu xan Şamlinin zövcəsi idi.

İlahinin nuru ilə boya-başa çatmış o qadın əlahəzrət şahın yetişdirməsi olduğu üçün Məhəmməd Zaman Xorasana getdi və bir müddət Herat darüssəltənəsində qaldı. Xorasan hadisələrindən qurtulub İraqa gəldi və yenə bir müddət öz əsl vətənində yaşadı. Beytullahül-həramı ziyarət etmək uğuruna (tovfiq) yetişərək, bu səfərdən qayıdandan sonra şahın mülazimətinə getməklə sərəfraz oldu, nədimlər və xüsusi yaxın adamlar silkinə daxil edildi. Ölümünə qədər həmişə olduğu kimi (kəmahi) izzət və etibar sahibi idi. Bəzən təbiətindəki şuxluq və zarafatcıllığa görə danlanırdı. Bu il Qəzvin darüssəltənəsində şahla ünsiyyətdə və söhbətlərdə olmaqla sərəfraz oldu. İltifat və hörmət badəsinin sərməsti idi. Amma, natəvanlıq yatağına düşdü, xəstələnməsinin altıncı günü varlıq libasını fani cahandan apardı. Nədim, xoşsöhbət, şair, fəhmli, nəfsitox adamdı. Döyüşməkdə irsi şücaət sahibiydi. Şahla yaxın olduğu vaxtlarda (əyyame-təqərrob) xeyrxahlıqdan və xeyrli kəlmələr deməkdən qalmırdı. Amma beytüllahül-həramın Həcc ziyarəti səadətinə yetişdikdən sonra öz təbiətinə, yaxud vəzifə və dünyapərəstlik eşqinə görə özünü bir daha günaha (məasi) aludə etdi. Ümidvaram ki, həzrət Allah onun atəşdə yanmaq təqsirindən keçərək günahlarını bağışlayar.

**Hüseynqulu bəy Qacarın vəfatı:**

Başqa vəfat edən şəxs *Əmirgunə xanın qardaşı Hüseynqulu bəy Qacardır*. Onun xidmətçisi olan gilanlı bir oğlan bəyin əliuzunluq edəcəyindən qorxub yuxuya getdiyi

gecələrin birində ona iki-üç bıçaq zərbəsi vurdu, bəy həmin yaralardan öldü, həmin oğlan da cahilləri tərbiyələndirmək (zəbt-o nesq) və tənbeh etdiyinə görə öldürüldü.

**Hacı Ədhəm bəyin vəfatı:**

Vəfat edən məşhur adamların biri də *Hatəm bəy E'timadüddövlərin qardaşı Hacı Ədhəm bəydir*. O, Şiraz darülmülkündə yaşayırdı. Onun tə'rifi barədə yığcam məlumat min on beşinci at ilinin (1606/1607) şərhində – *Məlik*
s.804 *Bəhram və əzəmətli övladının təsviri zamanı* yazıldığından bir daha təkrara ehtiyac qalmadı. Xülasə, [Ədhəm bəy] bu il həzrət imaməl-cinn və-n-nasın nurlu məzarının təvafından qayıdıb Şiraza gəlmişdi. Natəvanlıq yatağına düşdü, nəticədə axirət səfərinə getdi. Hər şeyi ölçüb-biçən dövrün qabiliyyətli adamdarındandı. Uzun müddət dünyəvi işlərdən əl çəkib günlərini şərafətli məkanlarda və inziva[1] küncündə taət və ibadətdə keçirirdi. Bu xəbər Ərdəbil darülirşadında onun xoş əxlaqlı (fərxonde) qardaşına və məmləkətlərin inşası (məmləkət işlərinin qeydiyyatı – *Ş.F.*) ilə məşğul olan əziz oğluna gəlib çatdı. Əlahəzrət zilləllah şah öz xeyrxahlığı və bəndəpərvərliyinin çoxluğundan Hacı Ədhəmin vəfatı münasibətilə onun sağ qalan əzizlərinin hər birinə layiqli xəl'ətlər inayət etdi. Xoruz ilinin (1609/1610) qəziyyələri Allahın köməyi ilə bitdiyi üçün, indisə incə yerişli qələmi it
s.805 ilinin hadisələrini yazmaqdan ötrü cövlana gətirmək vaxtıdır. Allahın köməyi ilə.

---

[1] Rahiblik, zahidlik, tərk-dünyalıq, güşənişinlik (Bax: Nəyyerzaman Səqəfi. Göst.lüğət, c.I, s.136).

## BƏZİLƏRİNİN MİN ON SƏKKİZİNCİ (1609/1610), BƏZİLƏRİNİNSƏ MİN ON DOQQUZUNCU İT İLİ (1610/1611) KİMİ GÖSTƏRDİKLƏRİ İLDƏ-HUMAYUN CÜLUSUN İYİRMİ DÖRDÜNCÜ İLİNDƏ BAŞ VERƏN HADİSƏLƏR

Fələklərin hər tərəfinin sultanı olan aləmi işıqlandıran günəş ceddi (oğlaq bürcü – *Ş.F.*) və hut (balıqlar bürcü – *Ş.F.*) qışlaqlarında qalmaqdan kədərləndi və şərəf evinə (beytüş-şərəf) doğru meyilləndi, yəni türkicə it ili (21 mart, 1610) yaxşılıqla (fərxondegi) başlandı, cahanda novruz nağarasının səsi havalandı. Dünyanı isidən günəş hicri [tarixlə] min on səkkizinci ilin zilhiccətül-həram ayının iyirmi beşində yekşənbə günü həməl bürcünə (qoç bürcü – *Ş.F.*) qalxdı. Dey ayının (hicri-şəmsi ilinin 10-cu ayı – *Ş.F.*) soyuğundan saralıb-solan təbiətin (ruzigar) bağı baharın gəlişi ilə ətirlənməyə başladı, torpaqlar təzədən yaşıllaşmağa üz tutdu. Əzəmətli ordu Qarabağ qışlağında dayanmışdı. Kamkar şəhriyar şadlıq gətirən bahar əyyamını o vilayətin ürəkaçan yerlərində seyr və şikarla keçirdi, adamların işlərini ədalətlə həll etməklə məşğul oldu. Qışlaq yerində baş verən hadisələrin biri *şahın ona yaxın adam olan Qərçiqay bəyi* Şirvana göndərməsidir.
**s.806 (570)** Bə’zi Dağıstan hakimləri və Təbərsəranın vəhşisifət adamları, yuxarıda yazıldığı kimi, qala inşasından və Zülfüqar xanın o yerləri istila etməsindən qorxuya düşərək, özlərinin şahın əmri ilə cəzalandırılacaqlarını bildilər və fikir-xəyallara daldılar. Ə’lahəzrət Qərçiqay bəyi bir dəstə qulam və qalibiyyətli əsgərlə Şirvana yolladı ki, Zülfüqar xanı özü ilə götürüb Şabrana getsin. Ona tapşırıldı ki, Dağıstan hakimlərinə *istimalətnamələr* yollayaraq, onların təşvişini yatırsın, qoy onların hər biri dövlətxahlıq yolundan dönməyib dövlətlə əlaqəni üzməsinlər, xan isə şah ordusunun mülazimi olmaqdan ötrü onların oğlanlarını, qardaşlarını və qohumlarını özü ilə götürüb ali dərgaha gətirsin, əks mövqedə dayanan şəxsləri dərhal cəzalandırsın.

Qərçiqay bu əmrə uyğun olaraq o tərəfə gedib, Zülfüqar xan və Şirvan əmirləri ilə birlikdə Şabrana yollandı.

**Zülfüqar xanın öldürülməsi:**

Həmin səfərin ən ibrətli əhvalatı Zülfüqar xanın öldürülməsi idi ki, qəzanın hökmü ilə baş verdi. Qərçiqay bəy guya şahdan [özünə ünvanların bir] məktub aldığını və onu gizli bir yerdə açıb məzmununa əməl olunması bəhanəsi ilə Zülfüqar xanın xeyməsinə getdi və özü ilə bir neçə qulamını da apardı. Rəsmi görüş və danışıqdan sonra xeyməni xəlvətləndirən Qərçiqay bəyin qulamları sağ və soldan hücuma keçib xanı qətlə yetirdilər. Şirvan məmləkətinin idarəsi və mülkiyyəti sabiq Astrabad hakimi *Yusif xan Mirşikarbaşıya** verildi, Zülfüqar xanın qaramanlı oymağından olan müla-
**s.806** zimlərinin bə'zisi əzəmətli qorçilər silkinə daxil edildi, qalan ləşkəri isə əmr ilə Yusif xanın mülazimi oldu. Zülfüqar xandan qorxan Dağıstan hakimləri onun qətlindən rahatlaşıb, şadyanalıqla Qərçiqay bəylə görüşərək sədaqət və dövlətxahlıq izhar etdilər, adamlarını layiqli peşkəşlərlə Qərçiqay bəyə qoşub aləmpənah dərgaha göndərdilər.

Amma bütün uzaqgörən və ağıllı adamlara aydın idi ki, əzəmətli xanın qətl olunma səbəbi onun sədaqətində özünə yol tapan dəyişiklikdə, batil xəyallara və puç fikirlərə düşməsində olubdur ki, bütün bunlar qürur və təkəbbür divinin tə'siri ilə onun beynində özünə yer tutmuşdu. Zülfüqar xanda baş verən bu dəyişiklər əlahəzrətin bütün hadisələri əks etdirən təcəlla güzgüsündə əks olundu və xan sədaqətsizlik cəzasına çatdı. Ağıllı, aqibətini düşünən və uzaqgörən hər adam gərək uca mənsəb, şan-şövkət və cah-cəlaldan uzaq olub, qürur və təkəbbür badəsindən məst olmasın və onun fikir qədəmi ağıl yolundan sürüşməsin. Qərçiçay bəy Şirvan və Dağıstan işlərini nizamladıqdan sonra qalibiyyətli orduya qayıtdı.

O vaxtlarda kürdlər belə xəbər yaymışdılar ki, onlar ***İmadiyyə, Sehran*** və başqa yerlərin camatı ilə razılaşaraq, o zaman ***Diyarbəkrdə*** olan Nəsuh paşadan Urumiyə hücum edib Əmir xanı mühasirədən qurtarmağı xahiş etmişlər.

Ə'lahəzrət şah ehtiyata riayət edib Lar hakimi *İmamqulu xanı* bə'zi əmir, əsgər, qorçi və qulamlarla keçən ildəki kimi Səlmasa yolladı ki, əgər e'timaddudövlənin ehtiyacı olarsa, ona lazımi köməklik göstərsinlər, yox, əgər o xəbərlər yalan çıxarsa elə o yerdə qalıb Van sərhədindən xəbərdar olsunlar. O adamların yola düşməsindən sonra Qarabağın havası istiləşməyə başladığı üçün yaylağa gedən zaman etimadüddövlənin, aşağıda yazılacağı kimi, qala ayağında başına gələn qəziyyənin xəbəri şaha ərz olundu.

*Ə'lahəzrət şah dövranın yeganəsi və zamanın Ərəstusu olan, aqil şəxs və xeyirxah düşüncəli bir alim kimi tanınan vəzirin (Hatəm bəy Ordubadinin – Ş.F.)* vəfatından təəssüflənərək, etmadüddövlənin bu xanədana kamalla, düzgünlüklə, sədaqətlə, fədakarlıqla iyirmi ilədək xidmət göstərməsinin əvəzi olaraq sadiqlik və qabiliyyət zər-zivəri ilə bəzənən, yaşının azlığına baxmayaraq əməli işlərdə, fəzilət və kamalda hətta atasından da üstün *oğlu Mirzə Əbu Talibi* ali davanın *e'tibarlı vəzarət mənsəbi* ilə sərəfraz elədi, atanın yerini oğula verdi, qışlaq yurdundan çıxıb Təbriz tərəfdəki yaylaqlara yollandı. E'tmadüddövlənin vəfatından sonra Dəmdəm qalasının fəth olunmasında ixtilafın baş verməməsindən ötrü o həzrətə yaxın adam olan *Məhəmməd bəy Bigdeli Şamlını*
s.807 sədaqətli və etibarlı əmirlərlə birlikdə qalanın fəthinə göndərdi.
(571)

## DƏMDƏM QALASININ FƏTHİ, ƏMİR XAN VƏ TƏBƏƏLƏRİNİN QƏTLİ, HƏMÇININ ALLAHIN TƏQDİRİ İLƏ ETİMADÜDDÖVLƏNİN SAĞLIĞINDA VƏ ONUN VƏFATINDAN SONRA BAŞ VERƏN BƏZİ HADİSƏLƏRİN ŞƏRHİ

s.807 Hadisələr yazan qələm xəbərlər səhifəsini belə tərzdə bəzəyir: Suluqun fəthi, çoxlu yağıntı düşdüyündən, yuxarıda yazıldığı kimi alınmadı. Belə qərara gəldilər ki, bütün əzəmətli əmirlər seybələri irəli aparsınlar, Allahın köməyi, qol gücü, mərdanəlik və qəhrlə qalanı tutsunlar. Cənab e'timadüddövlə dayandığı yerdən çıxıb Həsənxanın seybə-

sinə tərəf getdi, Səfərqulu bəy Gegəninin seybəsini özü və şah dərgahının mülazimlərindən ötrü dayanacaq yeri etdi, həmin seybədə qaldı. O, gecə-gündüz sə'ylə tədbirlər hazırlayırdı. Səbədbaflar səbəd toxuyur, bir dəstə adam isə səbədləri doldurmaqdan ötrü uzaq yerlərdən torpaq və gil daşıyırdı. Onlar qalın (setəbr) taxtaların üstünə dəmir çəkib onları sipərə çevirərək yol boyu gedir, başqa adamlar üçün səbədləri daşımaqdan ötrü şərait yaradırdılar ki, zərbzən və tüfəng güllələrindən qoruna bilsinlər. Bu minvalla, qaranlıq gecələrdə yavaş-yavaş addımlayır, gündüzlərsə bu işi davam etdirmirdilər, çünki elə bir gecə olmurdu ki, zərbzən və tüfəng gullələrindən iki-üç nəfərə xətər toxunmasın. Əvvəlcə *Həsənxan, İlyas Xəlifə Qaradağlı və İsfahan tüfəngçilərinin minbaşısı Mirfəttah* seybəni qala xaricinə-Böyük bürcün yanına gətirdilər və onun divarına çatdırdılar. Əmir xanın vəkili *Qara bəy* bir dəstə kürd ilə həmin bürcün müdafiəsi ilə məşğul olmaqdaydı. Tüfəngçilər iki-üç gün işləyərək, divarın kərpic və gillərinin arasındakı taxtaları çıxarıb yandırdılar, qaladakıları qorxuya saldılar. Qaladakılar günortaya yaxın yeməkiçməkdən ötrü qayıdarkən bürcün dərə kənarındakı bir tərəfi titrəyib yıxıldı, qalanı qoruyanların bir dəstəsi torpaq qarışıq yuxarıdan aşağı diyirləndilər.

Bu vəziyyəti müşahidə edən cənab etimadüddövlə Həsənxana dedi: "Daha dayanmaq vaxtı deyilir, gərək bürcə yürüş edilsin": Həsənxan öz seybəsinin adamlarına yürüş əmri verdi. İlk olaraq o, bürcün üstünə çıxan və tüfəng gülləsi ilə öldürülən Qara bəyin başını kəsb gətirdi. İsfahanın *xuzani tüfəngçilərindən olan Pəhləvan Məhəmməd* adlı bir şəxs Qara bəydən sonra bürcə çıxan on-on iki nəfərdən yeddisəkkizini qətlə yetirib, onların başlarını kəsdilər. Əmir xanın gözəllikdə tay-bərabəri olmayan bacısı oğlu bürcün yuxarısından yerə yıxılmışdısa da elə bir sədəmə görməmişdi. Dərəni mühafizə edən çini (çəpəni?) tayfasının əbləh bir üzvü onunla əlbəyaxa olub dərhal başını kəsdi və e'timadüddövlənin yanına gətirdi. [Hatəm bəy] bu işdən təəssüflənib o şəxsi danladı və alacağı mükafatdan məhrum etdi.

Xülasə, bürc ələ keçirildi, onu qoruyanların əksəriyyəti qətlə yetirildi, bir neçə nəfərsə torpaq altında qalıb öldü. O, bürcün alınması qala fəthinin açarı oldu ki, qələm tezliklə bu barədə yazacaqdır. *Bu sətirlər müəllifi bu gediş-gəliş vaxtı cənab e'timaddüdövlə ilə yoldaş olduğundan bu rübai onun* (yəni İsgəndər bəyin – *Ş.F.*) *zəif şuurunda yarandı və yazıya köçürüldü*:

**Rübai**

*Fəth eyləmisən bu bürcü, ey gündən uca,*
*Çıxdın üfüqündən sən onun ardınca.*
*Ondan qısa idi göydə Keyvan bürcü,*
*Ummid əli, əlbət ətəyindən də qısa*[1]

Barəsində danışılan və qazilərin yolu üstündə bir daş olan
s.808 bürc aradan gedən kimi onların işi asanlaşdı, on gün ərzində bütün seybələri qala yaxınlığına gətirdilər. İşə başlayan topçular bir böyük topu və balyeməzi Yuxarı qalanın, başqa topu isə Aşağı qalanın-Pirbudaq xanın seybəsində yerləşdirdilər və atmağa başladılar. Əmir xan çaş-baş qaldı, kürdlər ümidlərini kəsdilər. Xanın bir dəstə yaxın adamı bu mə'rəkədə öldürüldüyü üçün başqa mühasirədə qalan döyüşçülər qorxuya düşərək çölə çıxmağa başladılar. Hər gün kürd və cəlalilərdən on-iyirmi nəfər adam özünü seybələrə ataraq, şahsevənlik izhar edirdi. Kərəm sahibi olan e'timadüddövlə də özünün dərya boyda olan əlini səxavətlə açıb qaladan çıxanlara faxir xələtlər və ənamlar paylayırdı.

Qalanın işi bitməkdə idi və iki-üç günə fəth olunmalıydı. Asimanın qəzası nəticəsində etimadüddövlənin yuxarıda yazılan qaçılmaz hadisəsi baş verdi. Məsələ belə oldu. O, bir
s.809 gün əmirlərlə birlikdə *Gəncəli xanın* mənzilindəydi. Günün
(572)

[1] Rübainin farscası:
İn borc ke yaftı be fəthəş tə'yid,
Əz mətləe-an bər amədi, çon xurşud.
Kutah bodi ze rəf'ətəş Keyvan-ra,
Əz daməne-xakrize-u dəste-omid.

sonunda evinə qayıdıb topxanaya getdi, topçulara sərkarlıq etdi. Şam ərəfəsində divanxanaya gələrək dini işlərini yerinə yetirdi. Gecənin iki dangını (gecənin 1/6 hissəsi – *Ş.F.*) həmişə olduğu kimi məclisdəkilərlə birlikdə şirin söhbətlə keçirdi, yuxusu gələn vaxt yataq otağına getdi. Bu sətirlərin müəllifi hələ öz mənzilinə gedib çatmamışdı ki, bir nəfər onu çağırdı.

Bu fəqir (yəni İskəndər bəy Münişi – *Ş.F.*) heyrətləndi: "Görəsən bu çağırışa səbəb nədir?". Başqa bir adam özünü yetirərək dedi: "Cənab e'timadüddövləyə faciə üz verdi və o, keçindi". Hamı heyrətə qərq oldu. Əzəmətli əmirlərə xəbər verdik, hamı yığışdı, baş verən hadisə şaha ərz olundu. Elə həmin gecə nə'şi qala arasından aşağı düşürüb, qüsl və təkfinə (kədərlənməyə – *Ş.F*) başladılar, günün sonunda isə Təbrizə rəvan etdilər. Əmirlər adam göndərərək Səlmasda olan İmamqulu xanı məğlubedilməz döyüşçülərlə birlikdə qalaya çağırdılar.

**Dəmdəm qalasının fəthi:**

Bu vaqiədən sonra hamıda ruh düşkünlüyü yarandı. Sona çatmağa az qalan qala fəthi tə'xirə salındı. Dəstə-dəstə qaladan çıxmada olan mühasirədəkilər öz yollarının istiqamətini dəyişərək qalada qaldılar. Sərdar tə'yin olunan Məhəmməd bəy Bigdeli Şamlı gəlib-çatdı. Əvvəlki kimi əzəmətli əmirlər və sərhəd qorçiləri işə girişdilər, az ğün ərzində yuxarı və aşağıdan ğətirilən seybələr divar və bürclərə çatdırıldı. Daş atan topların zərbələri nəticəsində bürclərdə çatlar görünməyə başladı. Yuxarı tərəfdən hücuma keçən igidlər hücumla iki-üç bürcü ələ keçirdilər. Buzluq mühacirəçiləri əmirlərin yanına adam ğöndərib aman istədilər və Buzluğu onlara verdilər. Qalanın üç möhkəm divarı əldən getdikdən sonra kürdlər müdafiə olunmaqdan və qalanı qorumaqdan aciz qaldılar, hamılıqla, evini narınqalaya çevirmiş Əmir xanın evinə gedib çarə axtarmağa başladılar. Qazilərsə qorxu bilmədən özlərini bürclərdən divanın içərisinə ataraq, Əmir xanın evindən başqa bütün bürc, barı və mənzilləri tutdular. Hər tərəfdən bəlaya düşdüyünü görən Əmir xan

kürdlərə döyüşü davam etdirməmək əmrini verdi, Məhəmməd bəyin yanına bir adam göndərib xahiş etdi: "Qoy bəy şamlı qaziləri ilə qalaya gəlib, məni Həsənxandan və aralıqda çoxlu qanlar tökən döyüşçülərdən qorusun, məni oğlanlarım və
**s.809** yaxın adamlarımla birlikdə sağ-salamat ali dərgaha aparsın".

Bu əsnada *Xan Abdal Mokri* bir gecə adamıyla qaladan çıxdı. Onu *İlyas Xəlifə Qaradağlının* evinə göndərdilər ki, nəzarət altında qalsın. Ondan sonra qalada olan Təvilin qardaşı Məhəmməd bəy cəlalilərlə birlikdə qalanı tərk etdi. Onu da yanındakı cəlalilərlə nəzarətdə saxlamaq üçün bir dəstə [qızılbaşa] tapşırdılar. Məhəmməd bəy, Əmir xanın xahişi ilə qalaya getdi. Əmir xan böyük oğlu, bəradust qəbiləsinin və başqa tayfaların yüz nəfərədək zirehli adamı ilə tüfəng və başqa cəng alətləri götürməklə evdən çıxıb, Məhəmməd bəylə görüşdü. Qalada iki yüz nəfərədək adam qalmışdı.

Məhəmməd bəy qala əhalisinin qorunmasından ötrü bir dəstə adama tapşırıq verdi ki, kürdlərin evlərinə hücum edilməsin. Əmir xana öz mənzilində yer verən Məhəməd bəy onu əlavə olaraq xeymə və çadırla tə'min etdi, gəlib Əmir xanla görüşmələrindən ötrü Həsənxanı və əmirləri yanına çağırdı, onlara tapşırdı ki, Əmir xan və onun adamlarıyla bu güclü dövlətin məsləhətinə uyğun hərəkət olunsun. Məhəmməd bəyin özü isə qardaşlarıyla birlikdə Əmir xan və onun yoldaşlarıyla həmsöhbət olur və bəy xana mizlanlıq edirdi. [Bu vaxt] Həsənxan xeymə kənarına gələrək bir adam göndərdi və Məhəmməd bəyi eşiyə çağırdı. Həsənxanın o məclisə daxil olmaması və Məhəmməd bəyin eşiyə çıxmasından şübhələnən Əmir xanda iztirab əlaməti göründü. Həsənxan [isə] Məhəmməd bəyə dedi: "Sən hansı ağılla öz canlarından əl üzən bu üsyankarlara inanıb, qardlaşlarınla birgə onların arasında oturmasın? Məsləhət budur ki, onları bir-birlərindən ayırasan, Əmir xanı oğlu və bir neçə qohumuyla öz yanında saxlayasan, bu məsələnin [şaha] ərz olunmasından sonra hökm çıxarılmasına və icrasına qədər xanın yoldaşlarını dəstə-dəstə əmirlərin nəzarəti altına verəsən. Bu təklif Məhəmməd bəyin ağlına batdı,Əmir xanın yanına

adam göndərdi və dedi: “Sənin və bu qədər adamın bir yerdə olmanız mümkün deyildir. Öz oğlun və qohumlarınla birlikdə bu evdə qalıb, istirahətlə məşğul ol”. Əmir xan onunla razılaşdı, lakin yoldaşları e’tiraz edib xana dedilər: “Sən xatircəmsən ki, əmirlər özbaşına olaraq sənin qətlinə cür’ət etməzlər, amma onlar bizim heç birimizi sağ qoymayacaqlar. Axı bizim aramızdakı qərar beləydi ki, hər nə olur-olsun birlikdə olaq. Sən isə indi iki günlük ötrü özünə qənimət bilib, bizdən ayrılırsan. Biz isə biri-birimizdən ayrılmayacaq, öldürülsək də birlikdə ölcəyik.” Bu cavabı eşikdəklərə
**s.810** də göndərdilər.
**(373)**

**İlyas Xəlifənin öldürülməsi:**

Belə gediş-gəliş əsnasında İlyas Xəlifənin evindən səs-küy qalxdı. Məlum oldu ki, Xan Abdal Mokri bu xəlifənin evinə göndərilərkən xəlifə öz seybəsindəydi. Onun mülazimləri rəsmi qonaqpərvərlik və hörmət-izzətlə şərbət gətirdilər. Bu əsnada sufi, xoşəxlaq və sadəlövh bir adam olan xəlifə üç-dörd xidmətçisi ilə gəlib çatdı. O, bir mizban kimi mehmanlara ehtiramla yanaşdı, amma mülazimlərini danlamağa başlayıb dedi: “Havanın belə isti olduğu bir vaxtda siz nə üçün mehmanlarımıza öz silahlarını əyinlərindən çıxarmağı təklif etməməsiniz ki, rahət istirahətlə məşğul olsunlar.” Bunu eşidən bir xidmətçi irəli gəlib onların silahlarını yığmaq istədikdə Xan Abdal və yoldaşları şübhəyə düşərək dərhal öz yerlərindən qalxdılar, şəmşirlərini sıyırıb çadırın ortasındaca İlyas Xəlifəyə iki-üç zərbə vurdular, xəlifənin orada bıçaq-yaraqsız olan bir neçə nəfər qohumunu və mülazimini yaraladılar. Bu hadisədən xəbər tutan *qaradağlı qaziləri* şəmşirlərini çəkərək çadıra daxil oldular, İlyas Xəlifəni iki qohumuyla öldürülmüş və bir neçə adamı isə yaralı vəziyyətdə gördülər.
**s.810** Onlar Xan Abdalın üstünə çumaraq onu yoldaşlarıyla birlikdə para-para etdilər. Bu əhvalat Həsənxanın fikrini təsdiqlədi və o tayfaya e’tibar aradan qalxdı. Qızılbaş qaziləri şəmşirlərə əl atıb, istər kürd, istərsə də cəlali olsun, bu gün Əmir xandan əvvəl buraya gələnlərin hamısını qətlə yetirdilər, həmin qəddar adamlar o vaxt imanın hökmüylə aradan götürüldülər.

**Əmir xan və adamlarının öldürülmələri.**

Xülasə, qazilərin yəməni qılıncı (tiğe-yəmani)* baş qoparmağa başladı, böyük qovğa yarandı. Bu vəziyyəti və qızılbaş ləşkərinin hücumunu müşahidə edən Əmir xan və yoldaşları da, onların xeymə və çadırlarını mühasirəyə alanlara qarşı çıxmaq üçün hərəkətə gəldilər, çadırların keçə örtüklərini dələrək onları tüfəng atəşinə tutdular. İş bu yerə çatdıqda bu tərəfdən də tüfəngçilər xeymə və çadırlara atəş açdılar. Onların iyirmi-otuz nəfərinə güllə dəydi, sağ qalanlar isə şəmşirlərini qınlardan çıxarıb döyüşə-döyüşə ədəm yoluna getdilər. Müzəffər əsgərlər qətl və qarətə o dərəcə əl atdılar ki, hətta altı ay əvvəl qaladan düşərək şahsevənlik izhar edən [kürdlərin] özlərini qətl, [evlərini] qarət etdilər, qəhr atəşi ilə yaş-quru, hər nə vardısa yandırdılar. Narınqalada olanlar da tab-taqətsiz olub, qəzanın razılığı ilə qətlə yetirilidələr.

Xülasə, bu hal qəzanın qərarı ilə ixtiyarsız baş verdi və onlar öz haramnəməklikliyinin cəzasına yetişdilər. Bə'zi kürdlərin sözlərinə görə, Əmir xan və onun yoldaşları bir yerə toplaşıb (kənqaş) demişdilər: "Bizim qızılbaş[lar]ın əlindən qurtulmağımız heç cür mümkün deyildir. Yaraqlanıb eşiyə çıxaq, bütün əmirlər o məclisə toplaşdıqları zaman şəmşirlərə əl uzadaq, eşikdiklərə xəbər çatan vaxtadək bütün əmirləri xeymədə qətlə yetirək. Əgər Allahın istəyi ilə aradlan çıxa bilsək, öz qanımızı alaraq kişi kimi öldürülərik. Elə bu cəhətdən də Xan Abdaldan elə bir cəsarət zahirə çıxdı və İlyas Xədifənin qətlinə səbəb oldu". Doğrusunu Allah bilər.

Bu vaqiədən sonra Əmir xanın kiçik oğlanlarını və başqa övladını ali orduya gətirdilər, qala əhlinin malları qazilər arasında bölüşdürüldü. Əzəmətli ordu Marağanın Gavdul adlı yerində olarkən məsələni olduğu kimi müqəddəs [şaha] ərz etdilər. Əmrə görə *Gəncəli xan* bir dəstə tüfəngçi ilə bir neçə gün qala ayağında ləngidi, başqa əzəmətli əmirlər və müzəffər əsgərlər aləmpənah dərgaha yollandılar, Qaraçuq çəmənində humayun orduya birləşdilər. Urumi ülkasının idarəsi və mülkiyyəti şaha yaxın olan Məhəmməd bəy Bigdelinin qar-

daşı *Qəban xana* verildi. Dəmdəm qalasının və Qəban xanın mülazimlərinin ehtiyaclarını ödəməkdən ötrü üç min tümən nəğd qızıl ayrıldı. Qərara alındı ki, Sar, Qərğan və Gavrud-dan tutmuş Səlmasa qədər bütün əmir və hakimlər [Gəncəli xanın] çağırışına hazır vəziyyətdə dayanaraq, onun söz və məsləhətindən çıxışmasınlar. Xan qoşunla oraya yollandı, qalanın tə'mirinə və abadlaşdırılmasına başladı. Sonra Gəncəli xan və tüfəngçilər qayıdıb müzəffər orduya qoşuldular.

## QƏLƏBƏ AYƏLİ ŞAH ORDUSUNUN MARAĞAYA TƏRƏF YÜRÜŞÜ, MOKRİ TAFYASININ QƏZƏBƏ GƏLMƏSİ VƏ MOKRİLƏRİN QƏTLİ- AM OLUNMASININ ZİKRI

Hekayətlər çəməninin bülbülü və rəvayətlər məclisinin nəğmə oxuyanı olan qələm baş verənləri belə bəzəyir: Mokri tafyası (əşirət) gün-gündən böyüyən bu dövlətə tabe olanlar silkindəndirlər. Onlar Çavdul, Marağa, Gavdul, Sulduz və
**s.811** Miyanduabında yerləşmişdilər. Həzrət cənnətəkan şahın zama-
**s.812** nında o tayfanın əmirlik məkanı (məkani-əmarət) *Əmirə bəy*
**(574)** adlı bir adama məxsus idi. O həzrətin başına gələn hadisədən (yəni Şah Təhmasibin – *Ş.F.*) sonra, habelə Rum sultanının ataların sülh sazişini pozaraq dinc aləmi çaxnaşmaya (aşub) saldığı və İskəndər şanlı nəvvab *Məhəmməd padşahın* cülusu dövründə sərhədin fitnəkar və qovğatələb adamlarının əlinə fürsət düşdü, illərlə bu dövlətin duz-çörəyini yeyən Əmir bəy haramnəməklik, üsyan və tuğyan yolunu önə tutaraq, rumilərə tərəfdarlıq etmək şüarını zahirə çıxardı, Marağanın Sulduz və Miyanduab sakinlərinin el və uluslarının qətl-qarətinə başladı. O, cənnətməkan şahın xüsusi elçisi kimi məşhur olan Qara Ciyuq (?) adlı elçinin üstünə gəlib onun adamlarının və mühafizlərinin bir neçəsini qətlə yetirdi, ilxılarını əllərindən aldı. Əmirə bəy Marağanın hakimləri olan qızılbaş əmirləri ilə həmişə dava-dalaşda idi. O, bir dəqiqə də olsun belə pozğunluq, qarət, qız-qadınların əsir götürülmələrindən əl çəkmirdi. Əmirə bəyin vəfatından sonra rumi bəylərbəylisinin köməyi ilə *Şeyx Heydər* əmirliyə çatdı və el içərisində atasından çox müstəqil oldu.

Amma, o, Sultan Məhəmməd xanın hökmranlığı dövründə Təbriz bəylərbəyi Cəfər paşa ilə inadkar mövqedən (sərkeşanə) davanırdı. Buna görə də, Şeyx Heydər bir neçə dəfə cahanpənah şah dərgahına sədaqətamiz məktublar yollayıb, öz tərəfdarlığını izhar edirdi. Cahanı tutan şah ordusu və fələyə uçalan şahənşah çətiri Azərbaycan məmləkətlərinin fəthi naminə ucalanda Şeyx Heyldər astananı öpməklə şərəfləndi, şah tərəfindən nəvazişə və tərbiyətləndirilməyə layiq görüldü və ə'lahəzrət zilləllah şah mokri tayfasının etdiyi sabiq zillətlərini əfv edərək onları bağışladı, ali qədirli bir qızılbaş əmiri tərəfindən idarə olunan Marağanı və oraya tabe olan yerləri Şeyx Heydərə verdi. Şeyx Heydər isə, yuxarıda yazıldığı kimi, İrəvan qalası ayağında rumilərlə olan cəhd zamanı qətlə yetirildi. Ə'lahəzrət haqqı unutmayıb, atasının vəzifəsini və ülkasını hələ tifil olan *Qubad xan* adlı oğluna verdi, mokri el və əşirətlərinin ağsaqqallarını şahanə inayət və iltifatlarla şərəfləndirib o oğlana tabe olmalarını tapşırdı, əmr etdi ki, oğlan böyüyənə qədər bir qızılbaş əyanının qızı olan onun ağıllı anasının söz və məsləhətindən çıxmasınlar. Qubad xanın işlərinin nizamlanmasından ötrü ə'lahəzrət Şeyx Heydərin *Əmirxan bəy* adlı bir qardaşını [mokri] qəbiləsi arasından çıxarıb Gərmrud ülkasından ona məqam və iqta verdi. Şeyx Heydərin əmirlik arzulayan başqa bir qardaşı *Xan Abdal* azyaşlı tifil olan qardaşı oğluna qarşı üsyan və tuğyan yolunu tutdu, bir dəstə mokri fitnəkarını ətrafına toplayıb öz müxalifətini zahirə çıxardı. Onun üstünə dəfələrlə ləşkər göndərən adamlarını dağıtdılar. Xan Abdal, yuxarıda yazıldığı kimi, nəhayətdə Əmir xan Bəradusta pənah aparıb onun yanında yaşamaqda idi. Şahanə tərbiyət və iltifat sayəsində bütün mokri qəbilələri Qubad xanın [tabeliyinə] verildi və o, müstəqil oldu. Amma, bu elin başçıları arasında bir sıra fitnəkar, başıboş (xənazir) və tülküsifət (səaleb) adamlar vardı ki, özbaşınalıq çöllərində böyüyərək, fərmana tabe olmaqdan uzaqlaşmışdılar. Onlar Marağada əmlakları və iqtaları olan qızılbaşlarla pis rəftar edir, tüğyana gələrək onları öz irsi torpaqlarına yaxın qoymurdular. Artıq

boya-başa çatan Qubad xan batinindəki cəlahət və xəbislik üzündən və mokri fitnəkarlarının təhriki ilə mülk barədəki hökmün əksinə olaraq, bütün Marağa vilayətinin və şah dərgahı mülazimlərinin iqtaları üstündən xətt çəkdi və qızılbaşlarla kobud davranmağa başladı.

Baxmayaraq ki, bu neçə il ərzində ondan və təbəələrindən fərmana boyun əyməmək və (başqa) xoşagəlməz hərəkətlər görünməkdə və şahın mübarək qəlbi ondan inciməkdəydi, o məhz daxilindəki anadangəlmə mərhəməti (rafəte-cəbəli) üzündən və Şeyx Heydərin haqqından keçməmək naminə həmin əməllərin üstündən keçir və əfv edirdi. Belə münasibət onların həddindən artıq pis rəftarları və fərmana tabe olmamalarına qədər davam etdi. Belə ki, keçən il Qubad xana hökm olunmuşdu ki, o, e'timadüdövlənin yanına gedərək, Dəmdəm qalasının alınmasında müzəffər əskərlərlə yoldaş olsun, onlara
**s.812** kömək etsin. Qubad xan bu işdən də boyun qaçırıb getmədi. O, qələbə ayəli ordunun baharda mokri tayfalarının yaşadıqları yerlərdə işləri nizamlamaq məqsədiylə o torpaqlardakı yaylaqlara doğru gedəcəyini bildikdə, məcburiyyət üzündən bir neçə mülazimi ilə Qarabağa yollanıb, qışlaq yurdunda şahın yanına gəldi. Həmin dikbaş (sərkeş) və e'tibarsız tayfanın üsyankar olmaları şahın işıqlı beyninə mə'lum olmuşdu və bundan sonra o fitnəkar və özbaşına adamların dəf' olunmasını ləngintmək olmazdı, çünki, onların tərbiyətlənməyə və e'timada ləyaqətləri yox idi. Buna görə də o tayfanın bərk cəzalandırılması fikri cahanı bə'ziyən şahın beynində möhkəm yer tutdu.

**Şah Abbasın əmri ilə Qubad xanın və həmrahlarının öldürülməsi:**

Amma, əməli hikmətlər və zahiri nizam naminə Qubad xana qarşı [şah tərəfindən] nəvaziş və iltifat güni-gündən çoxalırdı. Bu hal cahcəlal ordusunun yaylaqlara yollanıb, Marağaya gələn vaxta qədər davam etdi. Orada mə'lum oldu ki, Qubad xan və tayfa ağsaqqalları Qara Ciyuq ilxısını əldən verməmək xəyalına düşmüşlər. Onlar məkr və hiylə-
**s.813** gərliklə yaxşı atları uzaq yerlərə yollayıb, bir neçə bəd cinsli
**(575)** kürd yabısını öz yanlarında saxlamışlar ki, əgər ilxı söhbəti

araya düşərsə bu yabıları onlara göstərsinlər. Bu da mə'lum oldu ki, onlar həmişə Rum sərdarları və bu dövlətin müxalifləri ilə görüşmüş və rumilərə tərəfdarlıq izhar etmişlər, Marağanın aciz adamları, vəziyyəti və şiələrinə qarşı məzhəb təssçüfkeşliyinə qapılaraq zülm və sitəmkarlıqla davranmışlar, məzlumlara cəfalar etmişlər, bu adamlara olunan cövr, əzab-əziyyət və hesaba sığmaz qədldarlıq (ənif) hər yana yayılmışdır. Buna görə də mokrilərin zülm əllərini məzlumların yaxalarından uzaqlaşdırmaq zərurəti ortaya çıxdı.

Xülasə, quru addan başqa müsəlmanlığı qalmayan o bəd nəsilli və nifaq düşüncəli tayfa şərininin aradan qaldırılması şahanə hikmət və padşahanə ədavət naminə vacib bilindi, şahın nurlu beynindəki qəhr və qəzəb atəşi elə şö'ləlşndi ki, onu yalnız o bəxtsizlərin qanları və iti şəmşirlərin işlədilməsi ilə söndürmək olardı. Humayun ordu Qubad xanın məskən saldığı Gavdul qalasının yaxınlığına gəlib çatdı. Bir gün Qubad xan yüz əlli mö'təbər adamı ilə öz məskənindən çıxıb ali orduya tərəf yollandı, axşam vaxtı hümayun dövlətxanaya yetişdi, üç-dörd nəfər qohumuyla uca bargaha daxil oldu. O ali məclis otağına (sərapərdə) girdikdə çəkmələrini soyunarkən ali işarə olundu və qulamlar onu və yoldaşlarını dövrələdilər, hərəkət etmələrinə və ağız açmalarına macal vermədən iti xəncərlə bədənlərini tikə-tikə doğradılar, onların xəbis cəsədlərini həmin otağın arxasındakı küçəyə apardılar. İqbal qoşununun qulam və mülazimlərinə o bəd xəyallı adamlardan ziyan dəyməməsi üçün *Əliqulu xan Eşikağası Şamlıya* əmr olunmuşdu ki, məclis otağının qapısı önündə dayanıb, o adamları otağa bir-bir də'vət etsin, daxil olanları ali dərgah qulamları dərhal qətlə yetirsinlər, öldürülənlərin cəsədlərini arxadakı küçəyə aparsınlar ki, buraya gələnlərin nəzərlərini cəlb etməsin. Əliqulu xan və eşikağasılar buyuruğa əməl edir, gələnlərin hər birisi gedən yoldaşlarına birləşirdi. Bu qayda üzrə iyirmi-otuz nəfər öldürüldü. Eşikdə dayanan [mokrilər] bir az bədgüman oldular. Onların biri içəriyə daxil olub, yerə tökülmüş çoxlu qan gördüsə də Qubad xandan və içəri əvvəl gələnlərdən əsər – əlamət görmədi. Qışqırıb əlini

xəncərinə apardı, ali barğahda olanlardan *Möhübəli bəy Şahsevən Şamlını* yaraladı. Onun ardınca gəlməkdə olan iki-üç nəfər isə özlərini kənara çəkib eşiyə çıxmağa əzm etdilər.

Qulam və qorçilər onları dərhal oradaca öldürdülər. Eşikdə qalanlar isə məsələdən xəbərdar olaraq, atlarına tərəf qaçdılar. Onların bə'ziləri evin qarşısında, bə'ziləri isə fərar əsnasında qətlə yetirilidilər. Həmin dəhşətli (məhabətəsər) məclisə təzyiq gətirən ə'lahəzrət elə həmin ləhzədə dövlət və
s.813 iqbala bel bağlayaraq külək sürətli səmənd ata minib Gavdul qalasına yolanldı. Qıızılbaş döyüşçüləri də dəstə-dəstə mokri qəbilələrinin qətl və qarətinə getmək əmri alaraq hər tərəfə səpələndilər. Çox keçmədi ki, ali məiyyət Gavdul qalasına gəlib çatdı.

**Şah Abbasın hökmü ilə mokri kürdlərinin qətli-am edilməsi:**

Bu xəbər hələ qalaya çatmamışdı ki, iqballı əskərlər oraya daxil olub ələ keçən hər adamı ayaqdan saldılar. Əliqulu xanı yaxınlıqdakı bir qalaya yolladılar. O, oranın qırx-əlli nəfər sakinini əlləri və boyunları bağlı halda ali dərhaga gətirdi. Kinli qazilər o adamları bir göz qırpımında ədəm yoluna göndərdilər. Qazilərin gətirdikləri kürdlərin çoxunun baş və beynini beldarlar və xidmətçilər bel, çomaq və metraq (?) ilə bir-birlərinə qarışdırdılar. Mokri tayfasının qırx-əlli üzvü Şeyx Heydərin qardaşı Əmirxan bəy ilə Gərmrudda idi. Hümayun fərmana görə *İsfəndiyar bəy Ovçubaşı Ərəbgirli* onlara hücuma keçərək hərbi fənd işlətdi, həmin xəbərsizləri tutdu və hamısının vücudunu varlıq lövhəsindən sildi. Şeyx Heydərin qardaşı oğlu *Hüseyn Sultan* isə bir dəstə adamıyla Urumidəydi. Həsən xan və əmirlər oraya gedib, onları dəf' etməyə başladılar.

Ümumiyyətlə, o tayfanın qətli-am olunması onların həyat səhifələrində təqdir qələmi ilə yazılmışdı. Gavdul qalasının ayağında olduqları bir neçə gün müddətində dəstə-dəstə gətirilən adamların hamısı cəza qılıncı ilə öldürülür, qaniçən (xunaşam) Bəhram* qılınc çəkmək və qan tökməkdən bir ləhzə də əl çəkmirdi. Hətta mokrilərin arasında yaşayan bey'i* uryad və başqa oymaqların adamları da tutulub gətirilir

və öldürülürdülər, çünki onlar bu dövlətə müxalif olan bir tayfa içərisində yaşamış və rumi işğalı zamanı qızılbaşların yanına gəlməmişdilər.

Sözün qısası, mokri tayfasının tüsfüsü mokrilərin başlarından çıxdı, kişilər qılınca yem, qadın və qızlar isə əsirliyə və köləliyə giriftar olduldar, öz əməllərinin cəzasına çatdılar. Padşahın qəzəbinin söndüyü bir neçə gündən sonra mokrilərdən olan və ə'lahəzrət şah ilə sədaqət və dövlətxahlıq məqamında dayanan *Şirbəy* və ali dərgah eşikağasılarından
**s.814** olan onun qardaşı *Maqsud bəy* şahanə inayət və iltifata layiq
**(576)** görüldü və hökm olundu ki, mokrilərdən sağ qalan hər kəs onun (Şirbəyin – *Ş.F.*) əfrağına toplaşsın və qətl-qarət sarıdan arxayın olsun. Sağ qalanlardan az miqdar adam onun yanında cəmləndi. Gavdul hadisəsindən sonra [ə'lahəzrət] Qara Ciyuq çəməninə təşrif aparıb bir neçə gün öz xoş vaxtını Qara Ciyuq ilxısının atlarını sürməklə keçirdi, Marağa ilxısı *Ağa Sultan Mirmüqəddəmə* verildi.

O günlərdə baş vermiş hadisələrdən: *İskəndər Sultan Bane* həmin çəməndə cahanpənah dərgaha gəldi. O, kürd mizlələrindən və *bane* qəbiləsindəndir. Rumiyyənin hakimiyyəti zaman şahsevənlik izhar edilərək bir oğlu ilə birlikdə ali şah dərgahına gəlmiş və bir neçə il hümayun məiyyət süvarilərindən olmuşdur.

İskəndər Sultan İrəvan qalasının fəthindən sonra şəfqət və tərbiyətə layiq görülmüş və Marağaya tabe olan *Bane ülkası* ona verilmişdir. Onda da kürdlərə xas nifaq və bədcinslik (bədnihad) olduğundan üsyana qalxdı. Hümayun məiyyətdən getdikdən sonra bir daha bu tərəflərə qayıtmadı. Buna görə də, şahın mübarək qəlbi onun bəyənilməz davranışından incidi və onu cəzalandırmaq fikrinə düşdü. Şahanə qəzəbin kürdlərə qarşı şö'ləndiyi vaxtlarda İskəndər Sultan əlinə qılınc və kəfən götürüb ali saraya gəldi, şahla görüşməklə şərəfləndi. İskəndər Sultanın o hüduddakı yerlərdən dəf' olunmasının dövlətin məsləhətinə müvafiq olmasına baxmayaraq, ə'lahəzrət onun qılınc və kəfənlə gəlməyə cür'ət etdiyinə görə qüsurundan keçdi, öz gövhərlər səpən dili ilə

s.814 belə xitab etdi: "Səndən zahir olan bəyənilməz əməllərə görə sənin qətlin vacibdir və səni sağ buraxmaq böyük fitnə-fəsad törədə bilər. Amma, özün gəldiyin üçün bu dəfə səni cəzalandırmırıq. Əgər bundan sonra dövlətxanaya zidd əməlin görünərsə, öz cəzana hazır ol. Elə olan halda sənin ömür xərmənin tezliklə şahanə qəzəblə yandırılacaq və badi-fənaya sovrulacaqdır".

[Ə'lahəzrət] onu qiymətli libaslarla sərəfraz eidi və qayıtmasına izn verdi. İskəndər bəy bərk qorxu və dəhşət içində geri rəvan oldu. Bərk vahimələndiyindən, bir daha ali dərgaha gəlmək arzusunda olmadı. Amma düz-çörəyi (kofranne'mət) unutdağına görə nəhayət öz dövlətindən ləzzət [də] görmədi.

## MAVƏRƏNNƏHR VƏ TÜRKÜSTAN PADŞAHI VƏLİ MƏHƏMMƏD XANIN SƏADƏT AŞIYANLI DƏRGAHA ELÇİ GÖNDƏRMƏYİNİN ZİKRİ

Bu ilin hadisələrindən: *Turan məmləkətlərinin hökmdarı Vəli Məhəmməd xan* ülfət və dostluq qayda-qanununun möhkəmlənməsindən ötrü, Şah Məhəmməd Mirzəni – özbək xəzinəçisini (xəzanəçi) elçi sifətilə ali saraya göndərdi. Onun böyük qardaşı *Dinməhəmməd xanın* Herat darüssəltənəsində ə'lahəzrət zilləllah şahla hərbindən və yaralanaraq üqba aləminə getməyindən, habelə qardaşı Baqi xanın Mavərənnəhr və Türküstanda uca səltənət və hökmranlıq rütbəsinə çatmasından sonra o sülalə bu müqəddəs dudmanla düşmənçilik və inadkarlıq etməkdəydi. Min on birinci pələng ilində (1602/1603), yuxarıda o il hadisələrinin şərhində yazıldığı kimi, Bəlxə yürüş oldu, o vilayət başdan-başa hümayun ordunun tapdağı altında qaldı və Baqi xana bərk qulaqburması verildi.

Baqi xanın təbii ölümlə vəfatından sonra Mavərənnəhr və Türküstan səltənəti *onun kiçik qardaşı Vəli Məhəmməd xana* qismət oldu. Min on beşinci qoyun ilində (1606/1607) *Cahangir xan Yarməhəmməd xan ilə* Bəlxə hücum edəndə Yarməhəmməd Mirzənin öldürülməsinə görə Cahangir xan heç bir iş edə bilmədi, məğlubiyyətlə Öurcestana gəldi. [O

vaxt] müzəffər şah qoşunu, Şirvana tərəf hərəkətə gələrək Şamaxı qalasının fəthi ilə məşğul idi. Ayağını ədəb dairəsindən çıxaran Vəli Məhəmməd xan isə böyük bir ləşkəri Xorasanın qarətinə yolladı. Şirin sözlü qələmlə təsvir olunmuş o ilin hadisələrinin şərhində göstərildiyi kimi, özbək döyüşçüləri heç bir iş görə bilmədən xəsarətlə geri qayıtdılar. Vəli Məhəmməd xan o hərəkətindən peşiman olub, vəziyyətinin nicatını bu güclü dövlət övliyaları ilə ülfət və aşinalıq edərək [qızılbaşlarla] sədaqət və dostluqda gördü. Adamlarını Xorasan bəylərbəyllərinin yanına göndərib, aşınalıq qarpıarını açdı və ə'lahəzrət zülləllah şaha öz sədaqət və tərəfdarlığını izhar etdi. Möhtərəm əmirlər məsələni ali saraya ərz etdilər. Bu beytlərdə yazıldığı kimi

**Beyt [lər]**

*Əgər dost olmaq istəyərsə düşmən,*
*Onunla dostluğa doğru qayıt sən.*
*Məhəbbət bağçasında ol ümidvar*
*Verər dostluq nihalı mütləqa bar*[1]

ali humayın şahın dostluq təbi Vəli Məhəmməd xan ilə ülfət və birlik (ettehad) məqamına gəldi, ona məhəbbətamiz
**s.815** bir məktub yazdı və *MIrzə Əli Yüzbaşı Türkmanla* göndərdi. Şahın ülfət və şəfəqqətindən şad olan Vəli Məhəmməd xan dövlətinə yaxın adamlardan *Məhəmməd Mirzə Xəzanəçini*
**s.816** elçi kimi ali saraya göndərib onunla layiqli töhfə və hədiyyələr
**(577)** yolladı. Adı çəkilən elçi bu əbədi dövlətin qoruyucuları vasitəsilə şahla görüş səfərinə və padşahanə ülfətə yetişdi. Şahın əmriylə bütün əmirlər və dövlət başçıları Qara Ciyuq keçidində xazinəçinin şərəfinə ziyafət təşkil etdilər, ona öz

---

[1] Beytlərin farscası:

Ço doşmən dusti vərzəd ze yari
Təvəhhom çon dustan kon dustdari
Ke dər bağe-məhəbbət axere-kar
Nehaləş dustdari avərəd bar.

dostluqlarını bildirdilər. Ali dərgah adamları tərəfindən belə ziyafətlər hər gün təşkil edilirdi.

Qara Ciyuq oləngində (otlaqında – *Ş.F.*) baş verən hadisələrdən biri də Kartil Gürcüstanının valisi Səmayun xanın nəvəsi olan sultanlar xələfi (xələfüs-səlatin) Luvarsab xanın [ali saraya] gəlişidir. O, həmin il iqbal şahənşahının ziyarət ehramını* əyninə geyib, gürcü adətincə "padşah anası" xitabını ifadə edən Didifal (Didibal?) adlı anası ilə ali dərgaha rəvan oldu. Şahın əmri ilə "*Fədəvi*" ləqəbi ilə tanınan Azərbaycan vəziri *Xacə Məhəmməd Rzanın* qardaşı *Məhəmməd Əmir bəy* onun qarşılanması mərasimini yerinə yetirdi, keçib gəldiyi hər yerdə layiqli xidmətlər etdi, onu izzət-ehtiramla səltənət dərgahına çatdırdı. Elə həmin çəməndə o, astananı öpməklə səadətləndi, cürbəcür nəvaziş və mehribanlıqlarla (estenaat) qarşılandı. Gürcüstanın məşhur şəhərlərindən olan və qalası, ucalığına görə, cövzaya (ekizlər bürcü – *Ş.F.*) baş vuran, rumilərin Səmayun xanın əlindən aldığı və otuz ilədək işğalda qalan, min on birinci at ilində (1602/1603), o ilin hadisələrinin şərhində yazıldığı kimi, iqbal dövlətinin gücü ilə [rumilərdən] alınan Tiflis vilayətinin [valisi idi]. İndiyədək həmin vilayət fərmana əsasən *Məhəmməd Sultan Şəmsəddinli* tərəfindən qorunurdü.

[Tiflis] bu il Səmayun xanın hüquq və dövlətxahlığına görə onun nəvəsi Luvarsab xana verildi. O, şahın xidmətinə gəlməklə sərbübənd olan on yeddi yaşlı, gözəl qiyafəli (nikmənzər), xoş cöhrəli, mütənasib bədənli (səbihül-vəch) cavan oğlan idi. Gürcüstanın əksər sultanzadaləri, ümumiyyətlə bütün əhalisi, istər kişi olsun, istər qadın, havasının lətafətindən öz gözəlliyi (səbahət), qəşəng sifəti, hüsncamalı, xətt-xalının görünüşü baxımından başqa məkan və ölkələrin adamlarından üstündürlər. Onların bütün hurivəşləri Yusif görünüşlüdürlər (Yusifliqa), alınlarında (nasiye) Musa nuru, danışıq, hüsn və hərəkətlərindəsə İsa e'cazı aşkardır. O vilayətdə xristian məzhəbinin bərqərar olmasına və o tayfanın Haqq dininə biganəliklərinə baxmayaraq, amma özlərinin hüsn-surətləri, o məkanınsa suyu, havası, təmizliyi və yaşıl-

lığı (xorrəmi) cəhətindən onları başqa məmləkət və ölkələrdən üstün titmaq olar. Gözəllik məclisi (ənsomən) üzvlərinin dili o yerin lətafəti barədə belə söyləyir:

**Beyt:**

*Hər ləhzədə bir İsa çıxmaqdadı örtükdən,*
*Məryəmkədəsi vardır sanki hicab altında*[1]

Sözün qısası, anası Didifal və o sülalənin başqa qadınlarıyla birlikdə altı ay orduda yaşadılar. Aşağıda yazılacağı kimi, sərdar Murad paşanın qayıdışından sonra rüxsət alaraq izzət və ehtiramla [öz ölkələrinə] rəvan oldular. Bu ilin sonlarında baş vəzir və Rum sərdarı Murad paşa Azərbaycana gəldi. İndi onun gəlişindən əvvəl baş vermiş bə'zi hadisələrin yazılması lazım gəldi, sonra isə onun gəlişi və gedişi bəyan
**s.816** olunacaqdır.

### XEYRƏDDİN ÇAVUŞUN* RAZILIĞI İLƏ KOR XƏLİFƏ RUMLUNUN OĞLU MƏHƏMMƏD BƏYİN ELÇİ SIFƏTİLƏ RUMA GÖNDƏRİLMƏSİNİN ZİKRİ

Yuxarıda yazıldığı kimi, keçən il Xeyrəddin Çavuş Rum padşahının vəzirləri və dövlət başçıları tərəfindən Rum elçiliyinə getmiş *Məhəmməd bəy Rumlu* – Kor Xəhfənin oğlu ilə birlikdə sülh danışığı aparmaqdan ötrü gəldi, bu günlərdə rüxsət alıb padşahanə nəvazişlər və töhfələrlə geri qayıtdı. [Ə'lahəzrət] baş vəzir Murad paşanın xahişi ilə yüksək məqamlı Rum padşahı Həzrət Əhməd xana məhəbbətamiz [üslublu] dostanə bir məktub yazdı. Şah həmin namədə buyurdu: "Əgər o tərəf (osmanlılar – *Ş.F.*) murüvvət və dostluq yolu (məsluk) ilə gedərsə, bu tərəf də bəyənilən (mərziyye) hərəkət, həmrə'ylik (vəfaq) və hüsni-ittifaq yolundan çıxmayacaqdır". Ə'lahəzrət [dərin] düşüncəli (səncide), dilli-

---

[1] Beytin farsçası:

Hər ləhze yeki İsa əz pərde borun ari,
Məryəmkədeha dari guyi be hecab əndər.

dilavər (zəbandan) və məqsədəuyğun (səlahəndiş) adam olan və adı çəkilən Məhəmməd bəyi yenidən elçi tə'yin edib o çavuşla birlikdə yola saldı. Elçiyə buyruldu ki, [Rum tərəfi] sülh şərtlərini (qəvaid) həzrət cənnətməkan şah zamanında olduğu kimi saxlasın. Onlar Təbrizdən çıxıb Diyarləkr yoluyla məqsəd istiqamətlərinə rəvan oldular.

Diyarbəkrə çatdıqda orada sərdarın gəlişi xəbərini eşidərək, Diyarbəkr bəylərbəyi Nəsuh paşa ilə birlikdə onun ordusuna tərəf hərəkət etdilər və Ərzrum yaxınlığında onunla görüşdülər, sərdarın adına yazılan inayət üslublu məktubu tədqim etdilər. Sərdar cavabında demişdi: "Osmanlı əskərlə-
**s.817** rinin [indi] bu tərəfə gəlişlərinə səbəb Ərzrum bəylərbəyisi-
**(578)** nin davranışı (esteğase) olmuşdur. O, bizə qasidlər göndərib belə ərz etmişdi ki, qızılbaş ləşkəri [Diyarbəkr] qalasına hücum edib oranı mühasirəyə almışdır. Bizim yürüşümüz elə bu səbəbdən lazım bilindi. Hal-hazırda, biz padşahın xəzinəsini ləşkərin cer-cehizinə (yə'ni təchizatına – *Ş.F.*) gen-bol xərcləyib əsgər toplayaraq [sizin] sərhədə yaxınlaşmışıq. Səlnətətin namusunu qorumaq və dost-düşmən söhbətlərinə son qoymaqdan ötrü bu səfəri başa yetirmək lazımdır. İnşallah sizin torpaqlara yaxınlaşdığımız zaman hər iki tərəfin adamları vəziyyətə müvafiq tərzdə danışıq aparacaqlar". Sərdar adı çəkilən elçiləri özü ilə götürdü və onlar Azərbaycana rəvan oldular.

## ÇÜXÜR-SƏ'D BƏYLƏRBƏYİ ƏMİRGUNƏ XAN QACARIN SƏRDARLIĞI İLƏ ƏRZRUMA LƏŞKƏR GÖNDƏRİLMƏSİNİN VƏ QAZİLƏRLƏ HƏSƏN PAŞA VƏ O SƏRHƏD ƏSGƏRLƏRİ ARASINDAKI HƏRBİN ZİKRİ

Sür'ətlə gələn casuslar belə xəbər gətirdilər: "Sərdar Murad paşa İstanbuldan çıxaraq Əskuda səfər ləşkəri və silah hazırlamaqla məşğuldur, onun bu tərəfə yürüşü olacaqdır". Bu hərəkət sabiq söhbətlərə və Xeyrəddin Çavuşla danışıqlara zidd olduğundan, ə'lahəzrət zillətllah şah ehtiyatkarlığı olduqca vacib bildi. Onun cahanı bəzəyən rə'yi belə oldu:

"Gərək əmirlər və müzəffər əsgərlərdən ibarət bir qoşun yürüşə cəlb edilsin, Ərzrumadək gedərək, rum ləşkərinin keçəcəyi yerlərin otları yandırılsın, o vilayətin taxıl məhsul-
**s.817** ları daşınılsın, elə olsun ki, on günlük İrəvan yolunda bircə mən* də buğda-arpa, saman və ot tapılmasın". O sərhəddə igidlik və mərdanəliyi ilə tanınan Çuxur-Sə'd bəylərbəyi *Əmirgunə xan Qacarı* bu xidmətə təyin edərək, *Qarabağ bəylərbəyi Məhəmməd xan Ziyadoğlu Qacarı* və o tərəflərin əmirlərini də onunla həmrah etdilər.

Onlarla birlikdə olması və ona tapşırılan işlçri icra etməsindən ötrü *Əlixan bəy Cavanşiri* müqəddəs ordunun bir dəstə tüfəngçisi ilə yolladılar. Əzəmətli əmirlər humayun fərmana əməl edərək bir yerə toplaşaraq, nizamla məqsədə doğru üz tutdular. Rumilər onların Ərzruma yaxınlaşmalarından xəbərdar oldular. Ərzrum bəylərbəyi Həsən paşa o hüdudun əmir və paşalarını, xüsusilə *Türkcə Bilməzi, Osman paşanı*, başqa züəma və əskərləri – on min nəfərədək adamı toplayaraq, yavaş-yavaş şəhərdən çıxdı və onlar Həsən Qalası yaxınlığına gəldilər.

O mə'rəkədə iştirak edən adamlardan belə eşidilirdi: "Rumilərin gəlişindən xəbər tutan əzəmətli əmirlər hərbə hazırlaşaraq irəli getdilər. Rumiyyələr cəngi iki gün tə'xirə saldılar. Belə ki, qazilər nə qədər irəli gedirdilərsə onlar o qədər geri çəkilirdilər. İkinci gün şəhərin iki fərsəxliyində döyüş səfi bəzədilər və Həsən paşa qol cinahda qərar tutdu. Osman paşa və Türkcə Bilməzin hər ikisi öz dəstələri ilə irəli çıxdılar. Bu tərəfdənsə, qızılbaş çərxçiləri irəliləyib qarşı tərəfi çərxçiləri ilə üzbəüz oldular, aralarında böyük hərb başlandı. Hücuma keçən rum döyüşçüləri qızılbaş çərxçilərindən bir az üstün çıxıb atlarını irəli sürdülər".

Hələlik Məhəmməd xan Ziyadoğlu və Qarabağ ləşkərinin gələrək qoşunun qol cinahına birləşmədiyi vaxt, Əmirgunə xanın min nəfərdən çox döyüşçüsü yox idi. O, müxaliflərin daha da ürəklənəcəkləri qorxusundan, yanındakı o dəstə ilə döyüş meydanına qədəm atdı, özünü parlaq şimşək (bərqelame') kimi, rumilərin şücaətli döyüşçüsü olan Türkcə Bil-

məzin qoşununa vurdu və bircə sədəmə ilə onu öndən götürdü. Osman paşanın dəstəsinə çatdıqda isə elə həmin döyüş şövqü ilə döyüşə girərək mərdliklə onu da öndən uzaqlaşdırdı və böyük qola gəlib çatdı. Ləşkər sərdarının özünün şəxsən hərbdə iştirakına hökm olmasa da, Əmirgunə xan belə bir təşviş içindəydi ki, qazağ ləşkərinin gecikməsinə görə məbada bu qalibiyyətli döyüşçülərə xəsarət toxuna bilər. Buna görə də o, Qarabağdan gələnləri gözləmədən şəxsən öz igidlik qədəmini irəli atdı, qaziləri döyüşə rəğbətləndirdi, bu səbəbdən savaş daha da bərk qızışdı. Əmirgunə xan [və qazilər] zavalsız şah iqbalına arxalanaraq, atəşlər yağdıran qılınclarla özlərini [rumilərin] qəlb cinahına vurdular. [Artıq] rumilərə mə'lum idi ki, Əmirgunə xan bu dəstənin içərisindədir və mərdanəliklə irəliləyib cəng bazarını qızışdırmaqdadır.

Xülasə, Həsən paşa qazilərin sədəməsinə tab gətirməyərək, arxasını meydana çevirdi, Məhəmməd xan və Qarabağ ləşkəri də səf bəzəyərək, arxadan gəlib çatdı. Qazilər parəkəndə şəkildə hər tərəfdən hücuma keçib məğlubiyyətə uğrayan [rumiləri] qala ayağınadək tə'qib etdilər, intiqam qılıncıyla müxaliflərin damarını bədənlərindən (nehad) çıxardılar. Həsən paşa sağ qalanlarla qaçıb özünü şəhərə və qalaya çat-
**s.818** dırdı. Sözün qısası, Ərzrum ləşkəri bu mə'rəkədə qırıldı,
**(579)** qızılbaş qazilri isə zəfər əldə etdilər, qalibiyyətli qoşunun əlinə bol qənimət keçdi. Əzəmətli əmirlər elə oradaca iqamət çadırları qurub, üç gün orada onlara tapşırılan işləri yerinə yetirdilər, sonra qayıdış təbilini döyərək, qələbəylə geri qayıtdılar. Bu cəngdə bir qədər gecikdiyinə görə Əmirgunə xan Məhəmməd xanı danlayırdı, amma başqa əmirlər onun tərəfində durmadılar, həmin gecikməni hərbi işlərdən biri sandılar, dedilər ki, öndəkilərin arxasında da döyüş lazımdır
**s.818** ki, iqbal qoşunu ümumilikdə qüvvətli olsun.

## BU İL BAŞ VERMİŞ QƏHQƏHƏ QALASI MƏHBUSLARININ ÜSYANI

Bu ilin qəribə hadisələrindən biri, Rum sərdarının hücumu xəbərinin yayıldığı vaxt baş verən *Qəhqəhə qalası* məhbuslarının üsyanıdır, amma həmin fitnə tez bir zamanda şahın zavalsız iqbalının gücü və İlahının iltifat suyu ilə söndürüldü. Bu sərgüzəşt belə baş vermişdir: Möhkəm bünövrəsi olan və başı göyə dəyən Qəhqəhə qalası Qaracadağa tabe olan *Baft ülkasındadır*. Asimana ucalan bir dağın təpəsində yerləşən və bütöv sal daşdan inşa olunan bu qalanın sakinləri fələklər fələyində (fələkül-əflak)* sakin olanlarla dəmsaz, onun gözətçiləri isə gecələr həmişə oyaq olan tərpənməz (səvabet) ulduzlarla həmrazıdırlar. Həmin dağın ətəyindəki qala qapısından qalanın təpəsinədək gedən və yarım fərsəx uzunluğunda olan yol olduqca dardır və oradan bir süvarinin keçib-getməsi belə olduqca çətindir. O yolda dayanan hər hansı bir tüfəngçi böyük bir qoşunun önündə dayana bilər.

Cənnətməkan şahın hakimiyyəti zamanı bir neçə dəfə Azərbaycana gəlib həmin vilayətdə dayanan Rum xandyarının hücumları ilə əlaqədar şah xəzinələri o möhkəm qalaya aparılmışdı. İsmayıl Mirzə, Əlqas Mirzə və Sam Mirzə də övladları ilə birgə Qəhqəhə qalasında məhbus olmuşdular. Hələ heç bir şan-şövkətli padşah o uca qalanı tutmaqdan ötrü öz cəhd kəmədini onun fəth zirvəsinə atmamış, ölkələr alan sultanların heç birinin o ali əsaslı qalanı tutmaq arzusu onların xəyalına yerləşməmişdir. Qəhqəhə qalasının mübarizəsi və qaladarlığı həmişə e'tibarlı aliqədr əmirlərin birinə tapşırılmışdır.

Qala o vaxtlarda bu xanədanın sadiq əqidəli sufilərindən olan Qaracadağ hakimi *İlyas Xəlifə Qaradağlının* hökmü altında idi. Onun özü e'timadüdövlə ilə birlikdə Urumi qalasını fəth etmək üçün yollandığından, Qəhqəhə qalasında deyildi. *Qaradağlı tayfasından olan Müzəffər bəy* adlı bir e'tibarlı adam adı çəkilən xəlifənin əvəzinə qalaya *kutvallıq* edirdi. Döyüşlərdə əsir düşən bir neçə rumi və kürd, o cümlədən başçıları *Mustafa paşa, Əhməd paşa, Kor Həsən, Qazi xan*

*Kürdün iki oğlu, Şahqulu bəy, Xalid bəy, onların əmisi oğlu Qorçi bəyin oğlu Məhəmməd bəy* Qəhqəhə qalasında məhbus idilər. Onlar birləşərək, bu vilayətin beş-altı nəfər türk və tacikinin, o cümlədən Kuh-Giluyənin sabiq hakimi *Həsənxan Əfşarın* iki oğlu və qardaşını da istər-istəməz özlərinə müttəfiq etdilər. Ümumi sayları iyirmi beş nəfər olan həmin adamlar başlarını üsyan cibindən çıxararaq, qəflətən həmin kutvalın üstünə gedib onu qətl etdilər, silah, tüfəng [başqa] yaraq və adamlarını ələ keçirdilər, bir neçə mülazimini qovub darvazanı bağladılar, qalanı tutdular. İlyas Xəlifənin qohum və mülazimləri bundan xəbərdar olub, qala qapısına yığışdılar, hiylə yolu ilə bu hadisəni dəf' etmək istədilərsə də baş tutmadı. Məcbur olub məsələni şaha ərz etdilər.

Rum sərdarı və əsgərlərinin Azərbacana gəlmələri barədə səs-sorağın yayıldığı bir vaxtda baş verən bu hadisə bədnamçalıqan xali bir məsələ deyildi, hələ ehtimal ki, böyük fitnəfəsada da səbəb ola bilərdi. Bu işdə əli olan rumilər və kürdlər öz başlarını nəsihətlərə qulaq asıb, [qızılbaşların] itaət çənbərinə salmırdılar.

Hadisənin başlanğıcında onların məqsədləri bu idi ki, bir yol tapıb özlərini həbsdən xilas edə bilsinlər. Amma fərar yolunu bağlı görüb, sərdar (osmanlı sərdarı – *Ş.F.*) gəlib çatanadək qalada qaladarlıq edərək, iki ay qala və qaladakıları hifz etdilər.

Qala isə heç cür alına bilmirdi. Elə ki, sərdarın gəlişi gerçəkləşdi və gələrək o sərhədə yaxınlaşdı, ə'lahəzrət zillələllah şah qeybdən gələn bir ilhamla, əvvəllər Həsən xan Əfşarın sərkarının katiblərindən biri və Həsən xanın oğlanları və qardaşı ilə yaxından aşina olmuş, hal-hazırda isə şah mətbəxindəki ə'yan-əşrəfə xidmət göstərməklə sərəfraz olan Kuh-Giluyəli *Xacə Maqsud Əli* adlı bir şəxsi Qəhqəhə qalasına yolladı, ona üsyançıların zəlil əməllərinin və sabiq qüsurları-
**s.819** nın əfvi və onlara göstərilən şahanə iltifat barədə bir məktub
verdi. Xacə qala ayağına çataraq, xəlifənin qohumları vasitəsilə bu barədə üsyançılara gizlicə xəbər göndərdi. Daravazanın açarı rumilərin əllərində olduğundan [Xəlifənin qohum-
**s.820**
**(580)** ları] Xacə Maqsud Əlini gizli şəkildə kəndirlə yuxarı çəkdilər,

o da aman müjdəsi və iltifat xəbərini çatdıraraq, onları şirin dillə xaqanın [əfv] qərarından ümidvar elədi.

Həsən xanın qardaşı və oğlanları bu xanədanın qədim sufizadələri və ata-babadan tə'lim-tərbiyə alanları oldunqları üçün, həmin xoş məktubun məzmununu cani-dildən qəbul etdilər və səmimi-qəlbdən itaətə gəldilər, rumiləri xilas etməkdən ötrü çarə düşünməyə başladılar.

Rumiyyə camaatı isə bu məsələdən xəbərdar olub mübahisəyə başladı, aralarında qalmaqal və dalaş düşdü. Onların bə'ziləri şahsevənlik izhar etdiklərindən iki dəstəyə ayrıldılar, əllərini cəng alətlərinə uzadaraq bir müdət bir-birləri ilə döyüşdülər. Yeddi-səkkiz nəfər olan rumilər və kürdlər ölümlə razılaşıb ürəkdən vuruşurdular. Nəhayət, şahsevənlər üstün gələrək, onların hamısını layiq olduqları cəzaya çatdırdılar. Qala qalibiyyətli dövlət övliyalarının əlinə keçdi və həmin fitnə yatırıldı. Həsən xan oğlanları və qardaşı Xacə Maqsud Əli ilə birlikdə cahanpənah dərgaha gələrək əzəmətli qorçilər silkinə daxil edildilər, şəfəqqət və mərhəmətə layiq görüldülər, Xacənin xidməti bəyənildi. Ə'lahəzrət zilləllah şah Dəmdəm qalasının mühasirəsi zamanı öldürülən İlyas Xəlifənin əqidəsini və onun can-başla etdiyi xidmətləri nəzərə alaraq, öz qəzəb atəşini söndürdü, xəlifənin mülazimlərinin etdikləri böyük xəta, qəflət və etinasızlığı şahanə müruvvət və padşahanə diqqətlə bağışladı. Xəlifənin oğlu *Bürhanəddin bəyi* atasının yerinə xəlifə edərək, *Qaradağ xəlifələri silkinə* daxil elədi, onu qohumu olan Maqsud Sultanın tabeliyinə verdi. Beləliklə, mübarək Qəhqəhə qalasının mühafizə olunması və kutvallığı barədə hökm çıxarıldı və bu sadiq sülaləyə tapşırıldı. [1] İndi isə ənbər ətirli hərflər yazan qələm (qələme-ənbərin rəqəm) baş vəzir Murad paşanın gəliş-gedişi haqqında sözə başlayır. "Kömək və uğur Allahdandır"[2].

---

[1] Qəhqəhə qalası, onun o zamankı məhbusları və oradakı üsyan barədə bax: Şahin Fərzəliyev. Məhbusları ağladan Qəhqəhə qalası haqqında bə'zi qeydlər, Bakı, "Azərbaycan tarixi Muzeyi-2004" Məqalələr toplusu, s.184-191.

[2] İfadənin ərəbcəsi: "Və minəl-lahi-l-ianətu və-t-tavfiq".

## RUM SƏRDARI VƏ BAŞ VƏZİRİ MURAD PAŞANIN AZƏRBAYCANA LƏŞKƏR ÇƏKMƏSİ, TƏBRİZ DARÜSSƏLTƏNƏSİNƏ GƏLMƏSİ VƏ MƏQSƏDƏ YETİŞMƏDƏN GERİ DÖNMƏSİNİN ZİKRİ

Yuxarıda qələm belə bəyan etdi: Rum padşahı Sultan Əhməd xan Murad paşanı sərdar tə'yin edərək, qızılbaş döyüşçülərinin fitnəsinin dəf' olunmasından ötrü yürüşə yollamış, bu fəsadlı məsələdən çıxış yolunu ona həvalə etmişdi. Murad paşa ağıllı, dünyagörmüş və təcrübəli adam olduğundan, kitabın birinci səhifəsində yazdığımız kimi, əzəmətli qazılbaş tayfası ilə döyüşərək məsələnin məğzinə yaxşı bələd olmuşdu. Bilik və xeyrxahlığının çoxluğundan sülhün cəng etməkdən üstün olduğunu bilərək, sülh danışıqları barədə
s.820 söhbəti ortaya gətirdi, istədi ki, islam hövzəsinə daxil olan padşahlar arasında sülhü möhkəmləndirsin, aləm və aləmdəkilərin əmniyyət və vəziyyətlərinin yaxşılaşdırılmasına səbəb olsun, özünün bu yaxşı fəaliyyəti ruzigar [kitabının] səhifəsində yadigar qalsın.

Buna görə də, yuxarıda yazıldığı kimi, Xeyrəddin Çavuşu Məhəmməd bəylə birgə şahın razılığını almaq üçün yoladı, özü isə İstanbul yaxınlığındakı Üsküdarda (Osku) qalıb səfər hazırlığı ilə məşğul oldu, elçilərin geri qayıtmalarını gözlədi. Elə bu vaxt qızılbaşların Ərzruma hücum etmələri xəbəri gəlib ona çatdı. Murad paşa o yerin onunla yürüşə getməyə hazır olan adamlarını toplayıb, köç-köç Ərzruma rəvan oldu, yolda, yuxarıda yazıldığı kimi, elçilərlə görüşdü, onları özü ilə götürərək bu tərəfə yollandı. Ə'lahəzrət şah Marağanın Qara Ciyuq adlı yerindən öz adamları ilə Təbriz tərəfə yollandı, əzəmətli əmirlərə Miyancın Qaraçəməninə gedərək qabiliyyətli əsgərlərin rəsmi-keçidini keçirməyi tapşırdı ki, bu iş bitdikdən sonra qış düşəcəyi və rum ləşkərlərinin hücum ehtimalı olmayacağı üçün onlar qoy İraqa qayıtsınlar. Əmirlər fərmana əməl edib, rəsmi-keçid bitdikdən sonra İraqa tərəf bir köç məsafə qət etmişdilər ki, sərdarın gəlişi barədə xəbər eşidildi. Onlar ali əmr alıb geri qayıdaraq, Təbrizə gəldilər.

Oradan əmirləri və qalibiyyətli əsgərləri sərdarın hansı tərəfdən gələcəyini müəyyənləşdirmək üçün Mərəndə yolladılar. Şahın özü isə [gəlib] Təbrizdə dayandı.

Murad paşa Qars tərəfdən e'tibarlı çavuşlarından birini səmimi üslubda yazılmış bir məktubla şahın yanına göndərdi. Orada məddahlıq tərzində müxtəsər yazılırdı: "Bu yürüşün əsas məqsədi faydalı sülh barədə qərar hazırlamaqdır, həzrət xandgar sülh və cəng barədə bir fikrə gəlinməsi məsələsini bu dövlətxahın məsləhət və rə'yinə e'tibar etdiyindən, hər iki tərəfin əmniyyəti naminə gərək sülh təklifi hazırlanıb həyata keçirilsin. Biz şahın elçisini ona görə yanımızda saxlamışıq ki, sülh danışıqları barədə tərəflər arasında saziş imzalansın və bundan sonra onu sizə qaytaraq".

Murad paşa geri qayıdarkən elçini özü ilə xandgarın hüzuruna apardı. Bu tərəfdənsə, elçinin töhfə və hədiyyələrsiz göndərilməsi dostanə qayda-qanuna münasib olmadığından çavuş şah büsatına yaxın adamları vasitəsi ilə ə'lahəzrətlə görüşdürüldü, şahanə nəvazişlərlə sərəfraz oldu. Məktubun cavabı belə yazıldı. "O əzəmətli sərdar xeyrxahlıq edərək sülh danışıqları məsələsini ortaya gətirdiyi üçün biz də, Allah bəndələrinin (ibadullah) vəziyyətinin yaxşılaşmasından ötrü bu işə razılıq verib, o cənabın xahişi müqabilində sizə dostanə və sülhamiz bir namə göndərdik. Sözümüzü Məhəmməd bəy vasitəsilə sizə demişik. Əğər o tərəfdən rəhmiətlik padşahlarımız arasında mövcud olmuş inamlı sülh sazişi yenidən bağlanarsa, biz də bu tərəfdən düşmənçiliyi aradan götürüb sizinlə sülhə gələrik. Belə olmayacağı halda hər iş Allahın iradəsi altında olduğundan, məsələ qeybdə olanlar (məkmən) tərəfindən həyata keçiriləcəkdir. Töhfə göndərilməsi barədə sizin etdiyiniz işarəyə gəldikdə isə, [deyə bilərik ki,] hələ sülh sazişi bağlanmadığından və belə bir düşmənçilik və cəng zamanı töhfə göndərmək [bizə] layiq hərəkət sayılmaz. Bir halda ki, indi sizin əzəmətli rə'yiniz belə istəyir, biz istəmədik [sülh] məsələsinin əvvəlində sizin məsləhətinizi rədd edək. Buna görə də, dərhal (əcalətən) Hindistan məmləkətlərinin uca məqamlı hökmdarı *Səlim şah tərəfindən* bizə

töhfə göndərilmiş və vəzni min səkkiz yüz misqal* olan və hind zərgərlərinin nadir işi sayılan bir ənbər qoxulu qəribə bir şəmmaməni[1] yeddi min ağırlığında qırmızı qızıldan qəribə şəkildə düzəldilmiş şəbəkəli (möşəbbək) bir qaba (zərf) qoyub sizə göndəririk. Bu ağırlıqda olan və qətiyyən atəş görməyən xam əşhəb (qızıl? – *Ş.F.*) olduqca az tapılır, ondan heç bir fateh məlik və sultanların xəzinəsində yoxdur.
**s.821** Məktubun boş qaytarılmamasından ötrü biz [bu töhfəni] uca məqamlı Rum padşahına göndəririk. Əgər siz tərəfdən də bizə məhəbbət və birlik (ettehad) rayihəsi gələrsə və arada ülfət və aşınalıq qapıları açılarsa, [əlbəttə] sədaqət və dostluq yaranar. Bundan sonra göndəriləcək elçilər və başqa adamlar layiqli töhfə və hədiyyələrlə gələcəklər". Çavuşu Təbrizdən yola saldılar. Sərdar Qarsdan çıxıb İrəvan yolundan dönərək Çaldırana tərəf gəldi.

Xoy ülkasına çatdıqdan sonra o, Kəfai qaladan (?) keçib Təbriz yolu üstündə olan Səlmasa doğru hərəkət etdi. Oralara gedib-gələnlərin sözlərindən belə mə'lum oldu ki, sərdarın oraya getməsindən və həmişə hərəkət etdikləri yoldan sərfnəzər etməsindən məqsədi belə idi: O, bildirmək istəyirdi ki, qızılbaşlarla müharibə etmədən də son məqsəd olan Təbrizədək gedib çatmaq mümkündür və orada sülh danışıqları aparıb geriyə qayıtmaqla, sərdar dost-düşmənin onu işdişayəd taxsırlandırmalarının qarşısını ala bilər.

Xülasə, elə ki, sərdarın Səlmas və Təsuc yolu ilə Təbrizə gəlməsi bəlli oldu, əlahəzrət şah Mərənddəki əzəmətli əmirləri və qalibiyyətli əsgərləri çağırdı, habelə *Məhəmməd xan Ziyadoğlunu, Qarabağ əmirlərini, Əmirgunə xanı və Çüxur-Sə'd ləşgərini* də tələb etdi ki, onlar qalaları e'tibarlı və təcrübəli döyüşçülərə tapşıraraq, humayun orduya birləşsinlər. [Ə'lahəzrət] Təbriz qalasının möhkəmlənməsi, zəruri silah-sursat və ərzaqla tə'min olunmasının da qayğısına qaldı. Müzəffər ordudakı bütün türkman və təkəli qazilərinin, istər əzəmətli qorçi olsunlar, istərsə də başqa döyüşçü, Təbriz hakimi Pirbudaq xanla birlikdə qalaya

[1] Şəmmamə – yəqin ki, qiymətli daş-qaşdır – *Ş.F.*

gələrək, qaladarlığa başlamaları barədə hökm verdi. Şah ordusunun bir dəstə tüfəngçisinə də qaladarlıq barədə əmr olundu. Onların hamısı fərmana baş əyib, öz can nəqdlərini ovuclarına qoyaraq, şadimanlıqla qaladarlığa hazırladılar. *Sultan Qazan* xanın təşəbbüs me'marının saldığı və inşa etdiyi *Təbrizin Şənb-Qazan** imarəti və o mərhum padşahın dəfn olunduğu bütün dünyada məşhur olan uca gümbə'zin ətrafında çoxlu mədrəsə və xanəgah olduğundan şahın nurlu fikrinə gəldi ki, rumilərin məbadə oranı tutub Təbriz qalasını atəşə tutmaları üçün istifadə etmələrinə və oranın fəthinə asanlıqla yol verməməkdən ötrü Şənb-Qazana da top, tüfəng, azuqə, sursat yığsınlar, oranı, gözətçi və müdafiəçilərlə təmin etsinlər. Buna görə də e'tibarlı bir tüfəngçi dəstəsini oranın mühafizəsinə yolladı. Adam göndərdi ki, rumilərin gələ biləcəkləri yol üstündəki kasıb yerlərdə yaşayan rəiyyəti ləşkər gedişi-gəlişindən əziyyət çəkməməsindən, mahallarda azuqə və taxıldan əsər əlamət qalmamasından ötrü yaşadıqları yerdən köçürsünlər, taxıllarını apara bilməyən adamların bütün
**s.822** azuqələri qala anbarına daşınsın, qiymətləri isə divanın sər-
**(582)** karından alınsın.

Sərdar Təbrizin iki-üç mənzilinə gəlib çatanda şəhər əhalisi özlərini küng-bucağa çəkərək, şəhəri azuqəsiz qoydu. Şah humayun məiyyətin də Təbriz şəhərindən çıxması əmrini verdi, ***Surxab dağından*** keçərək ***Acıçayın*** kənarında dayandı ki, bu bir neçə gündə gələrək qoşunlar orada toplaşsınlar, rum ləşkərinin kəmiyyəti, keyfiyyəti, zəifliyi və qüdrəti mə'lum olduqdan sonra sərdarın fikri aşkar olunsun, vaxtıilə və güclü dövlətin məsləhətinə uyğun olaraq fəaliyyətə başlanılsın. Bu əsnada sərdarın və onun yanında olan *Rumeli bəylərbəyi Əli paşa* tərəfindən başqa bir elçi də gələrək ali saraya, habelə əmir və dövlət başçılarına ünvanlanan məktublar gətirdi. Məktubların məzmunu belə idi: "Bizim buraya gəlməyimizin əsl məqsədi şahın yanında sülh şərtlərinin necə olacağı barədə danışıq aparmaqdır. Artıq qızılbaşlarla savaş unudulmuşdur. Bunun təsdiqinə misal bu yerlərdən keçibgəldiyimiz zaman qızılbaşların əllərindəki qalalardan bizə

s.822 heç bir xəsarət yetirilməməsidir, həmçinin rum qoşunundan da heç kimə daha zərər səqəmə toxunmur. Məsləhətdir ki, Məhəmməd bəyin elçiliyi davam etdiyindən, yeni bir elçi də tə'yin edərək, onu töhfə və hədiyyələrlə rum sarayına göndərəsiniz". Həmçinin gələn rum elçisinə, qızılbaşlara çatdırmaq üçün deyilmişdi ki, biz daha cəng və dava-dalaşdan əl çəkirik, həzrət şahdan da iltimas olunur ki, o həzrət də qızılbaşların savaş etmələrini və rumilərə qarşı çıxmalarını qadağan etsin.

Həmin xüsusi məktubla tanış olduqdan sonra onlara əvvəlki məzmunda məktub yazıldı: "Söz birdir! Bizim tərəffimizdən elçi göndərilən Məhəmməd bəy qızılbaş tayfasının mötəbər şəxslərindən və şahın e'timadlı adamlarındandır. Əgər həzrət xandigar, dəfələrlə yazdıqları kimi, sülhə meyillidirsə, biz də buna razıyıq. Əks təqdirdə tərəflər arasındakı vəziyyət Allahın istədiyi kimi, olacaqdır. Qızılbaş döyüşçülərinin zəbt etdikləri yerlər və rumiyyəyə qarşı qızılbaş hücumlarının qadağan olunmasına dair təklifiniz işıqlı məsləhəti üçün şaha ərz olundu. Məşhur qızılbaş tayfalarının ixtiyarı yoxdur ki, onlar humayun əmr və işarə olmadan ələ silah götürsünlər və cəngə başlasınlar. Amma, biz aciz adamların və rəiyyətin təhlükəsizliyindən ötrü hər tərəfə əmir və əskərlər göndərmişik. Qarət və ehtiyat azuqə ələ keçirmək üçün müxtəlif yerlərə gedən sizin əskərlərlə zərurət üzündən, əlbəttə, cəng olacaqdır. Əgər siz cəng etmək istəmirsinizsə öz adamlarınızın yollara çıxmalarını və ordunu tərk etmələrini qadağan edin. Töhfə və hədiyyələrin göndərilməsi üçün etdiyiniz işarə xüsusunda deyirik ki, inşallah sülh yaranan təqdirdə, həmçinin düşmənçilik məhəbbət və dostluqla əvəz olunacağı halda hər iki tərəfə layiq olan hədiyyələr göndərilməsi həyata keçiriləcəkdir". Miyankuhun rumiyyənin sol tərəfində olan yerlərini, habelə Xosrovşah yaxınlığındakı mahalların sağ tərəfində yaşayan rəiyyəti hələ öz yerlərindən tərpətməmişdilər ki, *Hüseynxan Ustaclı*, Həmədan hakimini ciğatay, həmçinin Xorasan əskər və tüfəngçiləriylə birlikdə *Mehdiqulu bəy Əmiraxurbaşı** *Ciğatayın* sərkərdəliyi altında sol tərəfə, *Əli-*

*qulu xan Şamlını və Allahverdi xanın* oğlu İmanqulu xanı başqa qüvvətli döyüşçülərlə sağ tərəfə göndərdi. *Gəncəli xan Zəyəki isə* Kirman ləşkəri ilə şəhər yaxınlığına gətirdi ki, pusqularda dayanaraq qarətdən ötrü gələn hər adamı [dərhal] dəf etsinlər.

Sərdar şəbani-müəzzəm ayının iyirmi dördündə (22 noyabr 1609) şəhər kənarına gəlib çatdı, Acıçayın o biri tərəfində dayandı. Bu tərəfdənsə Çuxur-Sə'd, Qarabağ və başqa yerlərin əmir və qalibiyyətli əsgərləri gələrək, humayun orduya birləşdilər. Az gün (ruz) keçdikdən sonra elə bir ləşkər yığıldı ki, səhra və dağlar onların ağırlığından təngə gəldi. Hər gün qazilər və azuqə dalınca dəstə-dəstə ətrafa səpələnən rumilər arasında hərblər vaqe' olur, kəsilən başları, diri tutulanları və əxtərmələri ali dərgaha gətirirdilər. Eşiyə çıxan hər bir rumi qızıldaşlara giriftar olub öldürülür, yaxud tutulurdu. Dünyagörmüş, ağıllı və məsələnin sonunu düşünən [adam olan] Murad paşa qızılbaş qoşunlarının bir yerə toplanmasından, atlarının asudəliklə dincəlməsindən, qalanın möhkəmləndirilməsindən və azuqələrinin bolluğundan xəbər tutub, nə cəng etmək fikrinə düşür, nə də mühasirədə qalmaq istəyirdi. O, mərdanə təvazökarlıq göstərib, öz qoşununu o döyüş şirlərinin çəngindən sağ-salamat çıxarmaq barədə düşünürdü, amma bərk qorxurdu ki, birdən köç vaxtı iqbal dəstələrinin mübarizləri sülh fikrindən daşınıb cəng və
**s.823** savaşa meyl (en'etaf) edərlər. O, rumlu tayfasından olan *Əli*
**(583)** *ağa adlı bir şəxsi Əli* paşa tərəfindən elçi göndərib belə bir məktub yolladı: "Əli ağa xandgar tərəfindən bu işlərin həll olunması üçün göndərilən vəkildir. Xahişimiz budur ki, siz də usa məqamlı həzrət şah tərəfindən sülh və sərhədlərin tə'yin olunması üçün yaxşı bir vəkil tə'yin eldəsiniz ki, bu xüsusda Məhəmməd bəy tərəfindən sizə bir məktub yazılmışdır." Ə'lahəzrət zilləllah şah buyurdu: "Kişilərin sözü bir olar. Aradakı vəziyyətin nizamlanmasından ötrü verilən hökm hər iki tərəfin namus işidir. Dəfələrlə danışdıığımız və yazdığımız [şərtlər] gərək yerinə yetirilsin". Rum orlusunun
**s.823** şəhər kənarında dayandığı o bir neçə gün ərzində onlar azuqə

yoxluğu üzündən bir neçə paşa və sancaqbəyini təbil və cəng alətləri ilə yaraqlandırıb, atoğlanı tayfası ilə azuqə toplamağa göndərirdilər.

## QAZİLƏRİN RUMİLƏRLƏ ETDİKLƏRİ HƏRBLƏR, CİL PAŞANIN ÖLDÜRÜLMƏSİ VƏ SƏRDARIN GERİ QAYITMASININ ZİKRİ

Xosrovşah tərəfində, həmçinin o hüdudda toplaşan [qazilər] birinci olaraq həmin istiqamətə yollandılar. Ordudan biriki fərsəx aralandıqda, Əliqulu xan, İmamqulu xan və yoldaşları pusqu yerlərindən çıxaraq, müxaliflərə tərəf cumdular, onları pərən-pərən saldılar. Qalibiyyətli mübarizlərin sədəməsinə tab gətirə bilməyən rumiyyə əskərləri qaçışa üz tutdular. Qazilər Acıçayın kənarınadək onları təqib edib bir dəstəsini qılınca yem, başqalarını isə əsir etdilər və əllərinə çoxlu at, qatır və qənimət keçdi. İkinci dəfə isə, rumiyyə arasında öz şücaəti və igidliyi ilə məşhur olan *tatar tayfasının* sərkərdəsi *Cil paşa* bir dəstə osmanlı döyüşçüsü və çoxlu at-ulağla Miyankuha göndərildi. Paşa qorxmazlıq göstərib, qorxulu dərələrə və başqa yerlərə girdi, çoxlu azuqə ələ keçirdi, amma geri qayıdan vaxt *Həsənxan* və onun yoldaşları tüfəngçilərlə birlikdə onun ön dəstəsi ilə döyüşə girib, həmin dəstəni öndən götürdülər. *Mehdiqulu bəy Miraxuru* və tüfəngçilərini qəlbə yolladı, orada hərb atəşi şöləndi. Çil paşa qürur və şücaətlə şəxsən vuruşdu, amma onun əcəl peymanəsi dolduğu üçün bir tüfəngçi (bəndəqəndaz) tərəfindən qətlə yetirildi, rumiyyə döyüşçüləri məğlub edilib qaçdılar. Qızılbaşlar Acıçayın sahilinədək onları tə'qib etdilər, çoxunu qətlə yetirdilər, Cil paşasının və başqa öldürülənlərin başlarını, habelə əsirləri, atı, qatırı, ələ gətirilən çoxlu qənimət və silahları şaha göstərdilər.

Elə ki, Cil paşanın öldürülməsi və rum ləşkərinin məğlubiyyəti xəbəri sərdara çatdı, rum əskərləri arasında caşqınlıq yarandı. Rumiyyə böyükləri və ə'yanının ümumi rə'yi buradan çıxıb, özlərini əmin-amanlığı olan bir yerə çatdırmaq

oldu. Amma, üçüncü dəfə göndərilən *elçi Əli ağa* hələ qayıdıb gəlməmişdi ki, müxaliflər geri çəkilməyə başladılar, buraya gəldiklərinin beşinci günü dayıdış təbili çalaraq və iztiraba dalaraq [şəhər yaxınlığını] tərk etdilər. Rumilərin köç xəbəri müzəffər orduya çatdıqda bütün qızılbaş əmirləri bir yerə yığılıb şaha belə ərz etdilər: "Rum sərdarı Təbrizə gələrək məmləkəti dağıtmış, əskər və rəiyyətə cürbəcür xəsarət vurmuş, onları pərişan etmişdir. Bir halda ki, indi burada böyük ordu toplaşmışdır, gərək intiqam almaqdan ötrü onların ardınca gedək, harada məsləhət olarsa elə orada da cəng edərək onları məhv edək (estisal). Ümidvarıq ki, dəfələrlə gördüyümüz və sınaqdan keçirdiyimiz Allah lütfi və şahın iqbal gücü sayəsində düşmənə qalib gələcəyik, çünki halşazırda rumilər belə pis hala düşdüklərinə və atlarının yorğunluğuna görə müqavimət taqətinə malik deyillər. Əğər Pərvərdigarın göməyi illə o qoşun aradan götürülərsə, rumilər [hələ] iki-üç il [sonra da] bu böyüklükdə qoşun toplaya bil-
**s.824** məyəcəklər".

Ə'lahəzrət zillallah şah öz ali qədirli əcdadından ona miras qalan mürivvət və comərdliklə (fotovvət) o dövlətxah adamlara belə cavab verdi: "Rumiyyə adamları öz məkr və hiyləgərlikləri ilə məşhurdurlar. Murad paşa əvvəldən axıracan ortaya sülh danışıqları gətirib, ülfət və aşınalıqdan danışdı, guya ki, cəng və savaşdan qaçırdı. Biz də nizam-intizamın xatirinə onların batini xəbisliyinə göz yumur, sülhə razılıq verirdik. İndi, dediyimiz sözləri və yazdıqlarımızı özümüzə layiq bilmirik. Hal-hazırda müqəddəs ay olan mübarək ramazan ayı başlamışdır. Bu iki ordudan əgər hansısa cəngə başlayarsa, mə'lumdur ki, nə qədər qan töküləcəkdir. Biz istəmirik ki, cəngin qadağan olunduğu bu mübarək ayda qan tökmək günahına (vəbal) bataq". Amma, onların qayıdışı zamanı Xoy qalasına sədəmə dəyməməsindən ötrü ə'lahəzrət Xoy hakimini bir dəstə tüfəngçi ilə qalaya gön-
**s.825** dərdi, qəbələ ayəli ordu da onları bir neçə mərhələ tə'qib
**(584)** etdi, amma [şah] əskərlərə rumiyyə əsgərlərinə əl uzatmağı və onlardan qənimət götürməyi qadağan etdi. Buna baxma-

yaraq, məchul adamlar dəstə-dəstə gələrək, hər köç vaxtı özlərini ordunun arxasına çatdırır, [osmanlılardan] əsir götürülmüş adam və əxtərmələr gətirirdilər. Murad paşa isə qayıdış vaxtı ələ keçirilən bir neçə məchul adama xəl'ət verib, onları öz adamı və Məhəmməd bəyin bir mülazimi ilə birlikdə şahın yanına yolladı, ona belə yazdı: "Uca məqamlı həzrət şah qoy baş verən belə işlərdən həyəcanlanmasın, bilsin ki, belə cəsarət ruzigarın şilləsinə tuş gəlməyən və dünya işlərindən bixəbər bə'zi rum cahilləri badəsindən sərməst olan adamlar tərəfindən törədilir. İnşallah bundan sonra sülh ürək istəyincə və şahın istədiyi kimi həyata kecəcəkdir". Ə'lahəzrət də, əksəriyyəti yenicəzirlərdən ibarət olan və qayıdış zamanı qazilər tərəfindən tutulan qırx-əlli nəfər rumiyyə əsgərini azad etdi, onlara xəl'ətlər verdi, geri göndərdi. Həmin adamları aparanlar qayıdıb söylədilər: "Rumiyyə adamları bərk vahimə içərisindədirlər. Şah tərəfindən onlara toxunmazlıq (mosamehe) barədə bir neçə dəfə müraciət olunmasına baxmayaraq arxayın ola bilmirlər. Hər bir köçüb gedənin qulağında qızılbaş ləşkərinin sədası eşidilir ki, bu da bərk çaxnaşma və həyəcana səbəb olur".

**Müzəffər əskərlərin rəsm-keçidi və onların öz yerlərinə qayıtmalarına izn verilməsi:**

Xülasə, rum ləşgəri bu səfərdən olduqca pərişan qayfıtdı, çoxlu adam, at və qatır itirdi. Onlar elə ki Əlbağı keçib Vana yaxınlaşdılar, müzəffər ordu da Təsucdan və Şəbüstərdən keçib Təbriz darüssəltənəsiniə tərəf yollandı, aciz adamların və rəiyyətin vəziyyətlərini yaxşılaşdırmaqla məşğul oldu. Şəhərdən və ətraf yerlərdən köçürülənlər də qayıdıb öz yerlərində rahatlıqla qərar tutdular. Rum ləşgərlərindən ziyan çəkən rəiyyəti bu il və gələn il üçün *malcehat və divan vergilərindən* azad etdilər.

Ə'lahəzrət şah qalibiyyətlə əskərlərin rəsmi-keçidinə baxmaqdan ötrü bir neçə gün Təbriz şəhərində dayandı. İki il yasaqda olan əzəmətli sərhəd əmirləri, qorçi, qulam və başqa ordu üzvləri dəstə-dəstə şahın nəzərinə yetdilər, onların mövcud çətinlikləri yüksək səviyyədə həll olundu, özlərinin ev və iqtalarına getmələrindən ötrü hamıya izn verildi.

**s.825**

## RƏB'E-RƏŞİDİDƏ QALA İNŞASI, KÖHNƏ QALANIN DAĞIDILMASI, HABELƏ BU FAYDALI VƏ İQBALLI İLİN SONUNDA BAŞ VERƏN ƏHVALATLARIN ZİKRİ

Cahanı bəzəyən ali şahın rə'yi ilə [bu il] Təbriz şəhərində bir qala tikilməsi barədə qərar qəbul olundu. Rumilərin qala inşası və qaladarlıqla böyük məharətləri vardır. Ağıllı və işbilən (kardan) adam olan *Murad paşa* Murad xanın padşahlığı zamanı Təbrizin fəthi üçün gəldi. Bu dəftərin (kitabın-*Ş.F.*) birinci cildində yazıldığı kimi, şəhərin yerini münasib bilərək, Murad paşa orada bir qala ucaltmışdı. Ağıl və tədbir sahibləri qala inşasını elə orada [da] məsləhət görürdülər. Ə'lahəzrət də onların fikri ilə razılaşdı və orada qala tikildi. [Şah] amma həmişə belə buyururdu: "Şəhərin yüksəkliyindən axan *Mehranrud çayının suyu* bu qalanın lap yaxınlığından keçir. Əgər çayın önünə bənd (sədd) atılsa çayın suyu qalxıb qalaya tökülər. Belə olası halda, qalanın dağılması ehtimalı vardır". Şahın gövhərlər səpən dilindən bu sözlər tez-tez eşidilirdi: "Bu qalaya elə bir e'tibar yoxdur". O, [yeni] qala üçün ən münasib yerin Sorxab dağının ətəyində yerləşən Rəb'e-Rəşidi* olduğunu bildirdi.

Amma, rum ləşkərinin gəlişi xəbəri eşidildiyi üçün sabiq qalanın dağılması və yeni qalanın inşasına fürsət olmurdu. Yuxarıda yazıldığı kimi, bu il Murad paşa qayıtdı və şahda köhnə istək yenidən baş qaldırdı, cənnətməkan şahın dövründə onun qulamı olmuş işbilən və təcrübəli *Məniçöhr bəy Eşikağasını* qala tikilişinə sərkar tə'yin etdi. Qərara alındı ki, baharın əvvəlinədək Təbrizin xaraba evlərindən (emarate-monhədəme), xüsusən viran vəziyyətdə olan Şənb-Qazandan tikinti mə'mulatları Rəb'e-Rəşidiyə daşınsın, havanın isindiyi bahar vaxtı qala inşasına başlanılsın. Belə bir hökm də sadir olundu: "Bənnalar, daşyonanlar (səngtəraş), əmələ və fəhlələr İraqdan və hər tərəfdən Təbrizə gəlib, qalanın inşasını tezliklə başa çatdırsınlar".

Mənicöhr bəy Eşikağası fərmana əməl edərək, qalanın tikillişinə, orada uca bürclər və ali bir su anbarı inşasına baş-

ladı. Az vaxt içərisində elə möhkəm bir qala tikildi ki, öz ucalığı və möhkəmliyi ilə asimana ucalan qalalarla bərabərlik
**s.826** iddiasında idi. Təbriz hakimi və əhalisi "Könüllü və istəyə-
**(585)** rək" (ərəbcə)[1] bu işə yardımçı və [inşaatçılarla] həmrah oldular. Qalanın ortasında gözəl bir hamam və imarət də tikildi, Təbriz hakimi oraya köçdü, təzə qalanın hazır olmasından sonra köhnə qalanı dağıtdılar. Ə'lahəzrət zillələllah şah da ləşkərin rəsmi-keçidinə baxımdan rahat, qala inşasından arxayın olub cahanı tutan ləşkərlə İraqa tərəf hərəkət etdi, Əhər yolu ilə Ərdəbill darülirşadına yollandı.

Bu hadisələr zamanı, Sərdarın yürüşü ilə əlaqədar belinə mülazimlik kəməri bağlayaraq ali dərgaha gələn Gürcüstanın *Kaxet valisi Təhmurəs xan* şahı görmək səadəti ilə izzətləndi, nəzərdən düşən bə'zi gürcü aznaurları da məsələni olduğu kimi müqəddəs şaha ərz etdilər. Ə'lahəzrət onun və qızılbaş ordusunda olan Gürcüstanın *Kartil valisi Ləvarsabın* qayğısına qalıb, hər ikisinin dilək və iradlarını həll etdi, onları nəvazişləndirdi, geri qayıtmalarına icazə verdi. Onlar öz vilayətlərinə döndülər. Bir neçə gün Ərdləbil darülirşadında şah sultanul-övluyanın şərafətli məzarının ziyarətindən sonra, Xəlxal və Tarom yolu ilə Qəzvin darüssəltənəsinə
**s.826** təşrif aparıb, orada işrətlə məşğul oldu, sonra gediş bayrağını İsfahan darüssəltənəsinə tərəf qaldırdı, qalibiyyət və iqbal ilə bu möhkəm (əbədpeyvənd) səltənət paytaxtında dayandı, qış fəslini Nəqşi-cahan dövlətxanasında kama yetməklə keçirdi. O, dövlətindən kamyab olmuşdu.

**Rum sərdarının xandgara məktub göndərməsi:**

Sərdar Diyarbəkrə çatdıqda, yağıntı və soyuq qoşunları artıq hücuma keçmişdi. O, elə orada qışlamağı qərara aldı. E'tibarlı bir çavuşu Məhəmməd bəyə qoşub onları İstanbula yolladı. Sərdar xandgara göndərdiyi məktubda yazırdı: "Həzrət alicah şah düşmənçilikdən dönüb, məhəbbət və dostluq izhar etməkdədir, indiyədək mərhum padşahların sülh sazişi haqqında müəyyən olunmuş sərhəd xətindən bu yana keçməmişdir.

[1] İfadənin ərəbcəsi: "bi-t-tavi və-r-rəğbəti".

Osmanlı dövləti üçün də məsləhətdir ki, bu tərəf ilə düşmənçiliyi və inadı dostluğa və birliyə çevirsin, yeni sülh sazişi sabiq mərhum sultanların dövründə olduğu kimi dəyişilməz qalsın".

Məhəmməd bəy İstanbulda xandgarın görüşünə getməklə feyzləndi, şahın dostanə üslublu məktubunu qırmızı qızıldan düzəldilən ənbər əfirli şəmmamə ilə birlikdə təqdim etdi. Xandgar özünün əvvəlki məktubunda Murad paşaya yazmışdı: "Biz bu işin ixtiyarını sənə vermişik, sənin məsləhətindən kənara çıxmayacağıq. Dövlətə nə məsləhət görürsənsə, elə də et". Şahın humayun məktubu da elə o məzmunda idi. O da yazırdı ki, Murad paşanın məsləhəti bizim tərəfdən də qəbuldur.

Məhəmməd bəy İstanbuldan qayıtdıb, Diyarbəkrə-Murad paşanın yanına gəldi. Paşa xəbər çatdırmaqdan ötrü Məhəmməd bəyin bir mülazimini şahın xidmətinə göndərdi, amma Məhəmməd bəyi sərhəd xətlərinin müəyyənləşməsindən ötrü öz yanında saxladı ki, sülh şərtlərinin hazırlanmasından sonra onu [da] rəvan etsin. Şahın müzəffər orldusu faydalı Azərbaycan səfərindən İsfahan darüssəltənəsinə qayıdıb orada dincəldiyi vaxt onun yanına göndərilən adamlar gələrək sülh şərtlərini ərz etdilər. Ümidvarıq ki, Allahın inayəti və iltifatı ə'lahəzrət şaha kömək edəcək, "Vəfat etmiş şəxslər" ("Motəvəffaha") haqqında yazdıqdan sonra şadyanalıqla yazı (təhrir) meydanında qədəm atan qələm gələn il hadisələrini yazmaqdan ötrü cövlana gələcəkdir.

**Ölümlər:** Bu il "Onların əcəli gəlib çatdıqda [ondan] bircə saat belə nə geri qalar, nə də irəli keçərlər"[1] ayəsində göstərildiyi kimi, məşhur və ə'yan şəxslərdən [aşağıdakılar] qaçılmaz ölüm şərbətini dadaraq torpağın qoynuna girdilər. Onların birincisi tayı-bərabəri olmayan *vəzir Hatəm bəydir* ki, min on doqquzuncu ilin rəbiül əvvəl ayının altısında (28 may, 1610), cümə axşamı, yuxarıda yazıldığı kimi, Uruminin Dəmdəm qalasının ətəyində faciəli şəkildə vəfat etdi. Onun

[1] İfadənin ərəbcəsi: "İza caə əcəluhum la yəstəxirinə saətən və la yəstəqimunə".

cəsədini Təbrizə, oradan da müqəddəs Məşhədə aparıb, həzrət imaməl cini və-n-nasın uyuduğu və Hatəm bəyin özünün tə'mir etdiyi məzarın aşağısında dəfn etdilər. O cənabın bəyənilən vəsfi və xoşagələn davranışı haqqında bu [kitabda] yazılmışdır. Buna görə də, təkqarçılığın qüsuru barədə düşündük və qələmin dili bu barədə [bir daha] yazmayaraq susdu.

Başqa vəfat edən adam isə *Məhəmməd paşa Cəlalidir* ki, o da qala ətəyində məriz və əlil oldu, həmin ayın sonlarında həyatını ölüm qazisinə tapşırdı. Onun barəsində də bəlağət nişanlı qələm cəlalilər haqqındakı mə'lumatda tədsilatla yazmışdır.

Başqa vəfat edən şəxs isə Nişapur hakimi *Məhəmməd Sultan Bayatdır*. O, ata-babadan Xorasanın *Qarabayat ağsaqqallarındlan olan Baba İlyasın* oğludur. Ciğatay qəbilələrindəndir. Bu xanədan dövlətinin zühurundan başlayaraq adi çəkilən el qızılbaşlara xidmət edirdi. İsgəndər şanlı nəvvabın zamanında, Mürşüdqulu xanın iqtidarı əyyamında onun qar-
**s.827** daşı *Mahmud bəyə* Xorasanda həmin elin əmiri mənsəbi və
**(586)** sultan ləqəbi verildi. O, özbəklərin işğalı və iqtidar vaxtı qardaşları, qohum-əqrabaları və həmin elin bir çox üzvü ilə bir-
**s.827** likdə qətlə yetirildi. Məhəmməd Sultan bir dəstə adamla şahın xidmətinə gələrək, şəfəqqətə layiq görüldü. Canlarından keçdiklərinə görə bütün bayat elini *divan vergilərindən (cəm'– o təklife-divani)* azad və onları hərbiçilər silkinə daxil etdilər. Əvvəlki illərdə, qələmin yazdığı kimi, o, Esfərayin və Səbzvar hakimi kimi işlədi, artıq on iki il idi ki, Nişapurun müstəqil hakimi idi. Məhəmməd bəy bu ilin əvvəlində Haqqın də'vətini qəbul edib, fərmana əməl etdi, həmin elin əmirliyi və Nişapur ülkası onun qohumu *Bayraməli Sultana* verildi.

**Qulamlar vəziri Mir Feyzullanın vəfatı:**

Vəfat edən ə'yanlardan biri də *qulamlar vəziri Mir Feyzulladır*. O, müqəddəs Məşhədin əzəmətli *musəvi seyidlərinldən* idi. Atası *Mir Maqsud* zarafatcıl və xoşsöhbət adamdı. Xorasanın işğalı vaxtı Mir Feyzulla İraqa gəlib şahın mülazimətində olmaqla şərəfləndi. Yaxşı səsi vardı, *tənbur*

*çalardı*. Elə buna görə də şahın behişt ayinli məclisinə yol tapmış və şahanə diqqətə yetişmişdi. Ə'lahəzrət onun vəziyyəti ilə maraqlandı, Mir Feyzulla bütün Xorasan əhalisinin, xüsusilə seyidlərin və müqəddəs Məşhəd camaatının xüsusi hörmətinə görə *məclisnevislik xidmətinə** keçirilməklə şərəfləndi. Bir müddət bu vəzifədə çalışdı. Bu dövrdə *böyük mənsəblərdən olan qulamlar vəziri vəzifəsi* onun qohumu *Mir Əbdülqadirə* mənsub idi. O, Ciğaloğlu ilə cəng zamanı rumiyyə tərəfindən qətlə yetirildi və vəzifəsi məclisnevislik vəzifəsinə əlavə olunub Mir Feyzullaya verildi, onun izzət və e'tibari güni-gündən çoxaldı, şahanə ehtirama layiq görüldü.

Bu əhvalatlar baş verən vaxtlarda o, Qara Ciyuq çəmənində öz mənzilindən ata suvar olub humayun dövlətxanaya gedərkən, elə atın üstündə vəziyyəti pisləşdi, heç yerə düşmək imkanı belə olmadı, faciəli tərzdə keçindi. Elə o günlərdə də, onun vəzifələri (mənasib) Nətənzin [Bərzrud adlı yerinin] əzəmətli seyidlərindən və *Seyid Cəmaləddinin* nəvə-nəticələrindən (əhvad) şaha yaxın olan (moqərrəbül-Xaqani) *Əmir Əbulməali Nətənziyə* verildi. Seyid Cəmaləddin həzrət sultanül övliya və –l-mohəqqeqin Şeyx Səfiəddinin *xadimi* olmuşdur. Onlar ata-babadan başlayaraq bu dövlətdə çoxillik xidmət hüququnu qazanmışlar. Əmir Əbulməali özü gənclik vaxtından indiyəcən şahın mülazimətində olmuş, tövlə və anbar ə'yan-əşrafına xidmət göstərmişdir. Şahanə e'tibara
**s.828** layiq adam olduğu üçün həmin vəzifə ona verildi.

## BƏZİLƏRİNİN MİN İYİRMİNCİ (1611/1612), BƏZİLƏRİNİN İSƏ İYİRMİ BİRİNCİ QABAN İLİ (1612/1613) KİMİ GÖSTƏRDİKLƏRİ İLİN – ZİLLƏLLAH ŞAHIN SƏADƏT FALLI CÜLUSUNUN İYİRMİ BEŞİNCİ İLİNİN BAŞLANMASI

Bu səadətli ilin novruzu qalibiyyət və səadətlə hicri tarixlə min iyirminci ilin cah-cəlalli fərvərdin ayının birində, məhərrəmül-həram ayının isə altısında (21 mart, 1611) cümə günü başlandı, yəni ən böyük ulduz olan və aləmə sovqat (ətiyye) bəxş edən [günəş] hut xəlvətxanasından həməl şərəfgahına gəldi, ünsürlər dünyasına firavanlıq (feyz) gətirdi, novruzun nağarası hər məkana aləmin nurlanacağı barədə səs-küy saldı, gülüstanın tazə gülləri cilvələnməyə başladılar. Cahana yeni bir təravət gəldi. Əzəmətli həzrət xaqan, xoşbəxt və kamran şəhriyar, yəni İran hökmranı və zaman şəhriyarı, Allahın kölgəsi, sədaqətli qulam, mərdlərin şahı (şahe-mərdan) səlamullahi-ileyh əbulmüzəffər Şah Abbas Bahadır xan

**Beyt**

*Ki, cahan ədli ilə var olsun,*
*Dünya durduqca mədədkar olsun*[1]

Qəza qüdrətli o xosrovun diqqəti və köməyi sayəsində böyük bir şəhərə və İran mülkünün xülasəsinin xülasəsiniə çevrilən paytaxtı və cənnətdən bir nişanə olan İsfahan darüssəltənəsində zəfər və iqbal ilə iqamət etdi. Əhli-beyt[*] şiələri və mollalar (məvali) *ale-əbanin beşinci seyyidəş-şühadasına*[2] matəm tutduqları (təziyə) bu aşura günlərində[**]

---

[1] Beytin farscası:

Ke ze ədləş cəhan monəvvər bad,
Ta cəhan həst dadgostər bad.

[2] Beşinci imam Məhəmməd Bağır – h. 57-ci ildə Mədinədə doğulmuş, h.114-cü ildə elə həmin şəhərdə də şəhadətə qovuşmuşdur. – *F.Ş.*

hamını qəm-kədər bürümüşdü. O gün novruz bayramı şadlığına başlamadılar. Şairlərin sonuncu ən fəsahətlisi (əfsəhəşşüəra-əl moteaxerin) Movlana Möhtəşəm Kaşi tərəfinldən yazılan və o həzrətə həsr olunan mərsiyə kiçik və böyüyün, cavan və qocanın dilindən düşmürdü:

**Möhtəşəm[Kasinin mərsiyəsindən]**

*Ey çərx, bilirsənmi nə bidad eləyibsən?*
*Kindən nələri zülm ilə bərbad eləyibsən?*
*Öldürdün Hüseyni, Yezidi kamə yetirdin*
*Bir gör kimi məqtul, kimi dilşad eləyibsən!*[1]

Tə’ziyə və yas mərasimi bitdi, bahar fəslinin təravəti və fərvərdin günləri o cənnətnişan şəhərə tazəlik və təmizlik
s.829 bəxş etdi. Güllərin ənbər qoxusu ruzigarı bürüdü və hamının
s.829 ürəyinə şadlıq və sevinc gətirdi. Əvvəllər olduğu kimi Nəqşe-
(587) cahan bağında ali bayram keçirilməsi haqqında əmr verildi. Səltənət sarayına gələn möhtərəm əmirlər, vəzirlər, yüksək dərgahın yaxın adamları, hümayun sərhədlərin əhali və ə’yanları, həmçinin tacirlər və əsnaf təbəqəsinin üzvlərinin hər biri humayun işarə ilə münasib yerlərdə əyləşdilər və ali bir bayram mərasimi keçirildi. Zərli saplarla toxunmuş çadırlar, atlasa və Xəta ipəyinə (diba) bürünmüş yelkənlər açıldı və behiştnişan məclislər təşkil olundu. Hər məclisin qarşısında qəribə görünüşlü çahartaqlar (?) bəzədildi və hər yan çıraqban oldu, oradakı əhalinin üzünə şadyanalıq qapıları açıldı. Bu məclislərdə (məcalis) gümüşbaldır saqilər şəfəq rəngli (rəvaq) badələrlə gələrək məclis üzvlərinin fərəhinə səbəb oldular, onları bir neçə gün sevindirdilər. Bu bayram vaxtı Mərv hakimi *Mehrab xan Qacarın* yanından bir adam

---

[1] Mövlana Möhtəşəm Kaşinin mərsiyəsinin 2 beytinin farscası:
Ey çərx, ğafeli ke çe bidad kərdeyi,
Və-z kin çeha dər in setəmabad kərdeyi?
Kame-Yəzid dadeyi əz koştəne-Hoseyn,
Bengər kera beqətl, ke delşad kərdeyi.

gəlib, Mabəpənnəhr və Türküstan hökmdarı özbək padşahı *Vəli Məhəmməd xanın* buraya gəldiyini xəbər verdi. Ruzigar hadisələrinin bədliyindən Vəli Məhəmməd xanın dövlət çəməni solduğu üçün o, həmin ilin məhərrəmül-həram ayının səkkizində Çəharcou (Çarcou – *Ş.F.*) yolu ilə çıxıb, ali humayun şahla görüşməkdən ötrü Mərvə gəldi. O alicah padşahın (Vəli Məhəmməd xanın – *Ş.F.*) şaha yazdığı məhəbbətlə dolu məktubu humayun nəzərə çatdırdılar. Bu şad xəbər padşahın sevincinə səbəb olduğundan, məktuba cavab olaraq ürəkaçan sözlər, şö'lə və hərarətlə dolu bir cavab məktubu yazdı. İzzətli əmirlərə və hakimlərə belə bir hökm göndərildi ki, xan hər hansı bir vilayətə çatdıqda onu ləyaqətli peşkəşlərlə qarşılasınlar, hər mənzildə o həzrətin və mülazimlərinin ehtiyaclarını yüksək səviyyədə ödəsinlər, onları razı salsınlar, daim şərif xidmətlərində dayansınlar. Əzəmətli əmirlərdən və dərgahın e'tibarlı adamlarından şah *Əliqulu xan Eşikağasıbaşı Şamlıya* o alicah padşahı qarşılamaq tapşırığı verildi və buyruldu ki, onu Semnanda qarşılayıb hər yerdə ləyaqətli xidmətlər göstərməklə və yüksək qonaqpərvərliklə İsfahan darussəltənəsinə gətirsinlər. Həzrət şah özbək xanının gəlişinədək novruz təntənələrinin və bağça-bağ gəzintilərinin dayandırılması əmrini verdi. Hökm olundu ki, İsfahan yaxınlığındakı bütün bazarlar, qeysəriyyələr və evlər bəzədilsin. Vəli Məhəmməd xanın gəlişinin şərhi və onun əhvalının pərişanlığının səbəbi barədə tezliklə mə'lumat veriləcək və inşallah əlahiddə bir əhvalat (dastan) yazılacaqdır.

**Murad paşa tərəfdən Rum çavuşlarının gəlişi:**

Baş verən müxtəlif hadisələrdən biri də rum çavuşlarının gəlişidir. Yuxarıda yazılan əhvalatlar zamanı Murad paşanın əmri ilə Diyarbəkrdə qışlayan sərdar gələrək, şah tərəfindən qəbul olunmaq şərəfinə yetişdi. O, sülh barədə keçən il yazılan məktublar [məzmununda] ərizə və namələr (məkatib) gətirib gəlmişdi. Həmin məktublara bəhs olunan məsələlər barədə cavab yazıldı və geri göndərildi. Amma, gələn elçilər hələ qayıdıb getməmişdilər ki, asimanın qəzasından Murad paşanan təbii əcəli gəlib

çatdı, o əynindəki əməl paltarını axirət sarayında soyundu və buna görə də sülh sazişinin imzalanması sonraya saxlanıldı.

Baş verən başqa əhvalat isə belədir: Bu vaxtlarda qeybi təsirlərinin bəzək səhifəsi olan, əlahəzrətin müqəddəs fikrinə Nəhavənd qalasının təmiri və qüvvətiləndirilməsi düşdü. O, bu işin yerinə yetirilməsindən ötrü özünə yaxın adam olan *Mehdiqulu bəy Miraxurbaşı Cığatayı* yolladı və o da ali
**s.830** buyuruqa əməl edib bu işin əncamına başladı.

## ALƏMLƏR PƏRVƏRDİGARININ KÖMƏYİ İLƏ İSFAHAN DARÜSSƏLTƏNƏSİNDƏ BÖYÜK CAME'NİN BINA OLUNMASININ ZİKRİ

Yaxşılıqla (fərxonde) başlayan və xoşbəxtliklə (xocəste) bitən bu ilin əvvəllərində müzəffər və qabiliyyətli şəhriyarın xeyirli və əmniyyətli təfəkkür üstürlabı[1] buna yönəldi ki, İsfahanın Nəqşe-cahan [adlanan yerinin] yaxınlığında, İran məmləkətində və bütün cahanda bənzəri olmayan bir ali məscid binası inşa olmasın. Ə'lahəzrət İsfahan darüssəltənəsini ali imarətləri, gözəl evləri, ruh oxşayan ənbər ətirli bağları, nəhr və bostanların olmasına görə cənnətin bir nümunəsinə çevirmişdir. Nəqşe-cahan meydanının şərq və şimal tərəfində ali məscid və mədrəsə olmasına baxmayaraq, amma o binalar o həzrətin uca hümməti qarşısında alçaq görünürdü. Şahın işıqlı düşüncəsinə görə, bir halda ki, o cənnətmisal şəhərin ali imarətləri, bağları, qeysəriyyəsi, evləri və yolları başqa şəhər və yerlərin həsədinə "sütunlar sahibi irəm [cəmaətinə] – elə bir qövmə ki, məmləkətlər [arasında] onun kimisi yaradılmamışdı"[2] səbəb olur, qoy oranın möhkəm bünövrəli məscidi, mədrəsəsi, xeyriyyə məqbərə və mə'bədləri (boq'ə) də İranın bütün məscid və büqə'lərindən

---

[1] Üstürlab – bucaq ölçən alət olub astrologiya ilə məşğul olan münəccim və başqa alimlərə xas cihazdır. İsgəndər bəy Münsi əsərinin bu yerində Şah Abbasın uzaqgörənliyinə işarə etmiş və gözəl bir təşhbih işlətmişdir: Təfəkkür istürlabı! – *Ş.F*

[2] İfadənin ərəbcəsi: "İrəmə zatil-imad əlləti ləm xuxləq misluha fi-l-bilad".

öz ziynəti, gözəlliyi ilə Əqsa məscidini xatırlatsın. Nəqşe-cahan meydanının böyük xanlıq (xani) şəklinə salınmış cənub səmtini öyrəndikdən sonra şahın qərarı ilə xanın
s.831 imarəti oradan götürüldü, humayun şahın tale zicinin münəc-
(588) cimlər tərəfindən müəyyənləşdirildiyi xoş bir saatda məscidin tikilişinə başlanıldı. Həndəsi işlərdə pərgarın mərkəzi kimi tək olan mahir (hazeq) me'marlar və diqqətli (modəqqəq) mühəndislər məscidin və qəsrin (məqsurə) layihəsini (tərh) tərtib etdilər, nadir iş ustadları işə başladılar.

**İsfahan yaxınlığında mərmər mə'dəninin tapılması:**

Qəribə məsələ və nadir təsadüflərdən biri də mərmər daşının peyda olmasıdır. İsfahan yaxınlığında hələ heç kimin heç vaxt görmədiyi o mərmər daşları bu məkanda əmanət (vədiət) qalmışdır ki, bu iş [əlbəttə] əzəli qüdrətin (Allahın – *Ş.F.*) işidir. O mə'dən indiyədək məhz yeni şərafətli mə'bədin gözəlliyi və ziynəti üçün əhali nəzərindən pünhan olmuş, bu qalibiyyətli xosrovun (Şah Abbasın-*Ş.F.*) uca bəxtə və xoş niyyətə sahib olması səbəbindən məhz bu dövrdə zahirə çıxmışdır. Buna görə də, o mərmər işıqlı bir əlamət (ayət) və aydın bir niyyət tapıntısıdır. Baninin e'tiqadı və binanın qədri yeri və cahanı bəzəyən Allahın (məbd'ə) dərgahından [bizə] həvalə olunmuşdur ki, bir parçalı elə böyük və əlvan mərmər daşlarla cahanın və əhalisi çox olan (mə'mure) yerlərində təsadüf olunmur ki, həmin mərmər [məhz] gözəllikdə ikinci Kə'bə olan (Beytülmour) bu məscidin bəzədilməsinə şərf olundu:

**[Maddeyi] – tarix**

*Aldım xəbər ürəyimdən bu bina tarixin, dedi*
*Şövq ilə mənə:* "*Kə'beye-sani bena şode*" [1]

Ümidvaram ki, bu ali əsaslı bina o xeyirxah şəhriyarın istəyincə tamamlansın, bu gözəl yerin əhalisi uzun illər o kamkar

---

[1] Beytin farscası:
Tarixe-in xocəste bina xastəm ze del,
Əz şövq goft: "Kə'beye-sani bena şode"

xosrovun əbədi dövlətinin kölgəsi altında asudəliklə yaşasın, Kə'bə misallı bu mə'bəddə hamı həzrət yer və göy xaliqinə (həzrət xaligül-ərz və – s-səma) ibadət etsin. Bu işin savabı qoy tezliklə humayun şaha yetişsin, onun ömrü və gündən-günə böyüyən dövləti daha da çoxalsın, o, qoy başqa gözəl işlər görsün, xeyriyyə binaları inşa etsin, "Nəbi, vəsi və pak əhli-beytinin hörmətinə amin ey aləmlərin Rəbbi"[1]. Peyğəmbərlərin və Əhli-beytin xatirinə! Amin, ya Rəbbül-aləmin! Bu
**s.831** dəftərin başlancığında, habelə baş verən hadisələr barədə yazıldığı kimi, İran hadisələri ilə əlaqəsi olmayan bə'zi Rum dövlətinə aid məsələlər də, yeri düşdükcə, böyük şəhryarın şərafətli tarixinin qələmə alınması zamanı yazılmış oldu. İndi isə, münasib görüldü ki, susuz söz vadisini sirab etməkdən ötrü Vəli Məhəmməd xanın əhvalatı və onun fələk nişanlı dərgaha qayıdışının səbəbi haqqında qələm öz sözünü desin.

## ÖZBƏK PADŞAHI VƏLİ MƏHƏMMƏD XANIN VƏZİYYƏTİNİN PİSLƏŞMƏSİ (EXTELAL), ONUN DÖVLƏTDƏN ÜZ ÇEVİRMƏSİNİN (ENSERAF) SƏBƏBİ VƏ FƏLƏKƏZƏMƏTLİ ŞƏHRİYARIN DƏRGAHINA GƏLMƏSİ HAQQINDA SÖHBƏT

Mə'nalı bakirə sözlər otağını (hecle) və söz məclisini bəzəyənlər söz işrətgahına və mə'na evinə (darülmolke-mə'na) belə bəzək vurmuşlar: *Abdulla xanın başçısı oğlu Vəli Məhəmməd xan ibn Canıbəy Sultan* qardaşı *Baqi xanın* vəfatından sonra *Ağavayı (?)* ilə ittifaqa girib Mavərənnəbr və Türküstanın səltənət taxtında cülus etdi, ona tabe olan özbək əmir və sərdarlarının köməyi ilə səltənət və hökmdarlıqda müstəqil oldu. Bu pərişan varaqların (ovraq) müəllifi o vilayətdən gələn adamlardan bunları eşitdi: Vəli Məhəmməd xan öz qardaşları və qohumları ilə şəfəqqət və məhəbbətlə rəftar edirdi. O, Səmərqənd vilayətinin idarə olunmasını qardaşı Dinməhəmməd xanın oğlu *İmamqulu Sultana*, Bəlx, Əndxod, Şibirğan və Amu çayının bu tərəfini qardaşı *Nədr*

[1] İfadənin farscası: "Bihurmətin-nəbiyyi vəl-vəsiyyi və əhli-beytihi-t-tahirinə, amin ya rəbbəl-aləminə".

*Məhəmmədin* oğluna verərək, onların hər birinə *atalıq* tə'yin etdi. Onlar uzun müddət öz ali qədirli əmilərinin itaəti altında sabitqədəm olub, başlarını itaət boyundurduğundan (tovq) kənara çəkmədilər.

Get-gedə böyük oğlan olan və Səmərqənddə yaşayan İmamqulu Sultan nişat, qürur və cavanlıq üzündən sərməst olub, məqampərəst (cahdust) və vəzifə düşkünü olduğuna görə başına yığışmış bir neçə cahilin fitnəsinə uyaraq, öz atalığını qətlə yetirdi, [əmisinə] qarşı çıxdı. Qardaşı oğlunun cəsarət və özbaşınalığından inciyən Vəli Məhəmməd xanın məzacı İmamqulu Sultandan döndü, onu cəzalandırmaq və fitnəkar adamları ondan ayırmaq (təfriq) məqsədi ilə Səmərqəndə tərəf yürüş etdi. Orada dayanmaq tabı olmayan İmamqulu Sultan Bəlxə tərəf rəvan oldu, Amu çayını keçib kiçik qardaşı Məhəmməd Sultana birləşdi. O da böyük qardaş etdiyi kimi, bu qardaşların məsləhətçisi (naseh) olan öz atalığını qətl etdi. Hər iki qardaş biri-dligərinin köməyi ilə istiqlal xəyalına düşərək öz böyük əmilərindən üz çevirdilər. Əvvəlcə,
**s.832** əmilərinin yanına adam göndərib, mübahisəni həll etməkdən
**(589)** ötrü ədəbsizcəsinə üzr istədilər. İmamqulu Sultan belə yazdı: "Səmərqənddə cahil adamların təhrikinə və fitnəkarların şeytanlığına (səayət) uyub [əmisinə qarşı] bə'zi işlər görmüşdür. Padşah tərəfindən də iltifatsızlıq qoxusu hiss etdiyindən, Səmərqəndi tərk edib, Bəlxə gəldim. O həzrətə (Vəli Məhəmməd xana – *Ş.F.*) məlumdur ki, əziz qardaşıma inayət olunmuş Bəlx vilayətinin və oraya mənsub olan başqa yerlərin torpaqları hal-hazırda əskərlərin *ödənclərinə (mərsum)* və hər iki qardaşın xərclərinə *(exracat)* kifayət etmir". İmamqulu Sultan əmisindən xahiş etmişdi ki, o vilayəti (Səmərqəndi – *Ş.F.*) ona aid etsin, Hisari-Şadiman, Qəndərdelqelan və Bəlxə yaxın yerləri kiçik qardaşı [Məhəmməd Sultana] versin.

Qardaşı oğlanlarının hərəkətlərində xilaf mövqeyi olduğunu anlayan Vəli Məhəmməd xan istəmədi ki, İmamqulu Sultanın çoxlu var-dövləti (məknət və sərvət) olsun, buna görə də onun bu xahişi xan tərəfindən qəbul olunmadı. Vəli Məhəmməd xan həmin vilayəti (Səmərqəndi – *Ş.F.*) özünə

**s.832** sədaqətli olan *Çövhər Tahir* adlı bir özbək əmirinə verdi, buna görə də, aralarında inciklik tozu (ğobare-neqar) qalxdı, xan öz qardaşı oğlanlarına e'tibar etmədi.

Onların aralarında bir-iki il hərdən inciklik, küdurət, hərdən də dostluq və ülfət görünməkdəydi. Qardaşlardan baş vermiş yöndəmsiz və bəyənilməz əməlləri Vəli Məhəmməd xan ata-oğul münasibətləri kimi qəbul edib, onlara güzəştə (əgmaz) gedirdi. Onlar da, xüsusən İmamqulu Sultan, ürəyə yatan ürəkxahlınqla bəhanələr (təməssok) gətirərək, məsələnin üzərindən pərdəni götürmürdülər. Bu məsələ o qədər davam etdi ki, başlarında böyüklük xülyası olan və padşahın onlara münasibətindən inciyən böyük bir dəstə yekə (!) özbək cavanı yavaş-yavaş İmamqulu Sultanın yanına toplaşaraq, [padşaha qarşı] fitnəkarlıq törətdilər. Vəli Məhəmməd xanın ə'lahəzrət zilləllah şah ilə səmimiyyət və tərəfdarlıq məqamına gələrək dostluq qapılarını açdığı günlərdə bu tərəfdən (səfəvilər tərəfindən – *Ş.F.*) *türkman yüzbaşısı* elçi sifətilə xanın yanına getdi, izzət və ehtiramla geri qayıtdı. O tərəfdən də, yuxarıda yazıldığı kimi, *Şahməmməd Mirzə Xəzanəçi* sədaqət üslublu bir məktubla elçi kimi bu xilafət sarayına gəldi.

Fitnəkar adamların təhrikinə uyan İmamqulu Sultan xanın bu hərəkəti ilə bağlı kinayəli və açıq-aşkar (sərih) surətdə onunla danışığa başladı. Bir neçə nifaq əhlinin dedikləri sözlər və bədgümanlıq nəticəsində Vəli Məhəmməd xan da bə'zi əmirlərə qarşı bədgüman oldu. Bu əməl ona gətirib çıxardı ki, xan nifaq əhlini sadiq adamlardan ayırmalı oldu. Buna görə də, get-gedə çoxlu adamın padşaha münasibəti dəyişdi, ondan iltifatsıızlıq qoxusu duyan hər kəs məxfi şəkildə İmamqulu Sultanın yanına adam göndərir, onu əmisinə qarşı çıxmağa və Mavərənəhrə gəlməyə rəğbətləndirirdi. Bir dəfə nifaq əhli olan əmirlərin bir neçəsi biri-digəri ilə ittifaqa girərək İmamqulu Sultana belə məktub yazdılar: "Amu çayını keçib Buxaraya gəl ki, biz xidmət kəmərini belimizə bağlayaraq, səni irsən sənə xas olan səltənət və xanlıq taxtına çıxaraq". Onlarla həmfikir (məvazee) olanların

biri bunu padşaha bildirdi. Padşah bir adamı o adamın ardınca göndərib, əmirlərin hər birinin möhürü ilə möhürlənən o məktubu ələ gətirdi. Həmin əmirlərin bir neçəsi padşahın yanında idi, bir neçə nəfər isə Səmərqəndə gəlmişdi. Qazilərin[1] çağırışından ötrü hökm (yərlığ) göndərildi ki, əmirlər geri qayıdandan sonra onların hamısı etdikləri əmələ görə cəzalandırılsınlar.

Amma, Vəli Məhəmməd xan hövzələsizlik edərək, öz qorxusundan, orada olan həmin əmirləri iclas (kənqas) bəhanəsi ilə yanına çağırıb məsələni onlara açdı. Əmirlər bunu qəti şəkildə inkar etdilər. Bu vaxt, xan məktubu onlara göstərdi və onların hər biri öz möhürünə baxdı. Yenə də onlar bu işi inkar edərək dedilər: "Qərəzkar adamlar [saxta şəkildə] bizim möhürlərimizi təqlid etmişlər". Vəli Məhəmməd xan onların üzrlərini dinləmək istəmədi və hamısını qətlə yetirdi, [həmçinin] yanında olmayanların tutulmaları üçün öz e'tibarlı adamlarını göndərdi. Bu xəbər gedib onlara çatdı. Xana qarşı həmfikir olan hər kəs öz qohum-əqrəbaları və aşınaları ilə birlikdə can qorxusundan fərar edərək İmamqulu Sultanın yanına getdilər, ona özbəklər arasında "padşah" sözü kimi qəbul edilən "xan" sözü ilə xitab edərək "padşahım, padşahım" deməyə başladılar. İmamqulu Sultan onlara "xoşgəldin" deyib özünü alişan xan və qanuni padşah təsəvvür etdi, müxalifət nağarası çaldırdı, işin üstündən pərdəni götürdü. Beləliklə, əmir və ə'yanlardan ibarət bir çox nifaq əhli olan özbək onun yanına yığıldı və o, bu il yeddi min adamla Bəlxdən Mavərənnəhrə yürüş etdi, çayı keçib Qərşi hüdüdüna çatdı.

Onun yürüşündən xəbər tutan Vəli Məhəmməd xan da üç min nəfərə qədər əmir və ə'yanlar ilə Buxaradan çıxıb qardaşı oğlunun qarşısına yollansa da, artıq özünün əmir, ə'yan və
**s.833** yaxın adamlarına qarşı şübhəli və e'timadsız olmuşdu.

İmamqulu xanın böyük əmisinə müqavimət tabı olmadığı üçün o, münasib bir yerdə Amu çayına arxa çevirib xandaq qazmaya başladı. [Amma] əmisinin yanına öz e'tibarlı adam-

[1] Burada söhbət şəriət qazilərindən gedir – *Ş.F.*

larını yollayaraq, ortaya şikayətamiz hekayətlər və gileygüzar gətirdi. Peşələri nifaq olan əmirlər və hiyləgər fitnəkarlar [isə] məkr və hiylə qapılarını açdılar. O tərəfdən gələn adamlardan belə söhbət eşidildi: Vəli Məhəmməd xan ürəkdən istəmirdi ki, onların arasında fitnə-fəsad davam etsin. Onun fikrindən keçirdi ki, əgər etdiyi əməldən peşiman olan
**s.834** İmamqulu xan yanındakı fitnəkarları uzaqlaşdırarsa, üzrxah-
**(590)** lıq məqamına gələrsə, Bəlx hakimliyinə qane olarsa, əmisinə itaət edərsə onun üzrünü qəbul edər və Bəlx hökumətini ona verər. [Amma] fələyin qəzası və asimanın bəlası kimi bir gecə, Vəli Məhəmməd xan ordusunun kənarda qamışlıqdan iki-üç baş qaban çıxaraq ordu yaxınlığına və çəmənliyə gəldilər. Bundan xəbər tutan ordu camaatı fəryad edə-edə xeymələrindən çölə çıxıb qabanlarla cəngə başladılar. Adamların arasına hay-küy düşdü. Vəli Məhəmməd xan öz xüsusi çadırında (xərgah) yatmaqda idi. O, adamların səs-küyündən bidar olub, bu səs-küyün səbəbini soruşdu. Bə'zi ağılsız nadanlar və hərzə-hərzə danışanlar bunun İmamqulu xan ləşkərinin hücumu olduğunu xana ərz etdilər.

İnsanlar (xəlayeq) şeytani vasvasılıqla əsassız xəbərlərə (əracif) həvəslə meyl göstərdikləri üçün bu ərz bir ləhzədə orduya yayıldı. Bütün döyüşçülər bir-birinə dəydilər. Piyadalar və süvarilər silahlandılar. Əmir və ə'yanlara qarşı şübhəli olan Vəli Məhəmməd xan fikirləşdi ki, məbada onunla nifaqda olan adamlar gəlib onun çadırını əhatə etsinlər. Yanındakı bir neçə e'tibarlı şəxslərlə ata çüvar olub ehtiyatla bir kənara çəkildi, bir təpənin üstünə çıxaraq, vəziyyəti öyrənməkdən ötrü ətrafı seyr etməyə başladı. Çadırın və padşahlıq qəytulunun[1] yanında toplaşan əmir və əsgərlər padşahdan heç bir əsər-əlamət görmədilər. Bə'ziləri padşahın fərar etdiyini, bə'zilər isə xanı onunla düşmən, İmamqulu xanla dost olan adamların aradan götürdüklərini xəyal etdilər.

Xülasə, ordunun çevik üzvləri belə təsəvvürlərə qapılaraq dəstə-dəstə öz ümid üzlərini İmamqulu xan dərgahına tutub, onu padşah olması münasibətlə təbrik etdilər. Vəli

[1] Güman ki, monqol istilahı olub "çadır" mənasındadır – *Ş.F.*

Məhəmməd xan sübh açılana qədər təpə ətəyində dayandı. Özbək tayfaları isə istər-istəməz İmamqulu xanın qəytulunna getdilər, baş verən hadisənin səbəbi isə onlara mə'lum olmadı. [Bilmədilər ki,] bu məsələ asimandan fələyin hadisəsi kimi gəlmiş, yoxsa adamların fitnəkarlığı (təmhid) nəticəsində üz vermişdir. Vəli Məhəmməd xanın isə gəldiyi qənaət belə idi: "Özbək böyüklərinin əksəriyyəti ona qarşı çıxmış və İmamqulu xana padşahlıq müjdəsi verərək, onu xan üzərinə yürüşə rəğbətləndirmişlər, o da həmin adamların çağırışı ilə yürüşə cür'ət etmişdir, baş verən hadisə isə o camaatın uydurmasıdır. Xan əgər çadırdan kənara çıxmasaydı o haramzadələr onu öldürərdilər". Baş vermiş bu vəziyyətdən sonra Vəli Məhəmməd xan çox qəm-kədər və az adamla Buxaraya üz tutub, şəhərə daxil oldu.

**Özbək padşahı Vəli Məhəmməd xanın İrana gəlişi:**

Qalada yaşayan Buxara hakimi padşahın pərişanlıqla gəlişindən xəbər tutub, qala [qapılrını] bağladı, xan ilə görüşdən və söhbətdən imtina etdi, ona bildirdi ki, İmamqulu xan tezliklə Buxaraya gələcəkdir. Hazırda padşahın nə ona qarşı çıxmaq, nə də məni mühasirə etmək qüvvəsi vardır, yaxşısı budur ki, şəhərdən çıxsın, öz aqibətini düşünsün. Vəli Məhəmməd xan bu kəcrəftar fələyin şəbədəbazlığına və dünya adamlarının vəfasızlığına təəccübdə qaldı, qaladakı bə'zi qadınlarını və hərəmxana üzvlərini (əhle-hərəm) yanına tələb etdi və kutval onun
**s.834** istədtiklərini göndərdi. Xan üç gündən sonra oğlu *Rüstəm Məhəmməd xan*, bə'zi adamlar və dörd-beş yüz e'tibarlı yaxınları və mülazimləri ilə Səmərqəndə getməkdən ötrü Buxaradan çıxdı. Ə'yanların əksəriyyəti ilə nifaqda olduğundan Səmərqənd əhalisinin də ona qarşı bivəfa ola biləcəyini düşündü və oraya getməkdən sərf-nəzər etdi, İrana tərəf getməyi, uca məqamlı və böyük iqtidarlı həzrət şahdan kömək istəməyi (estemdad) qərara aldı, Çaharcu keçidindən keçib Çaharcou qalasına gəldi. Oğlu Rüstəm Məhəmməd Sultanı bir neçə e'tibarlı adamla Sərəxs biyabanından Herat darüssəltənəsinə yolladı ki, özü də onun ardınca getsin.

[Sonra] Mərv hakimi *Mehrab xanın* yanına adam göndərib ona öz macərasını danışdı.

Mehrab xan onun Mərvə Əbəst və Əliq yolu ilə gəlməsini təklif etdi və Vəli Məhəmməd xan Mərvə getməyə rəğbətləndi, adamlarını Çaharcou qalasında saxladı, qalanı e'tibarlı bir adamına tapşırdıqdan sonra böyükləri *Xacəmberdi Atalıq* olan şəxs üç yüz nəfər mülazim və yoldaşları ilə birlikdə Mərvə gəldi. Mehrab xan onu qarşılama tədbiri görüb, ləyaqət, izzət və ehtiramla şəhərə gətirdi. Elə o saat da ali saraya adam yollayıb, özbək padşahının təşrif gətirdiyini [şaha] ərz etdi, özü isə yuxarıda yazıldığı kimi, şaha şövqamiz bir məktub yazdı.

**Özbək padşahı Vəli Məhəmməd xanın Xorasandan İraq səmtinə yollanması:**

Xülasə, Vəli Məhəmməd xan bir neçə gün Mərvdə istirahət etdi və Mehrab xan bacardığı qədər ona mehribanlıq göstərdi, padşahanə riayətlərə layiq gördü, layiqli peşkəşlər verdi. Xan oradan çıxıb müqəddəs Məşhədə rəvan oldu, gəlib Məşhədin Caharbağında dayandı. Qardaşı *Şahnəzər xan Təvəkkül* tərəfindən daruğə və canişin olan *Mirzə Ərəb* o yerin əmirləri ilə
**s.835** birlikdə ona xidmətkarlıq mərasimlərinə başlayaraq, layiqli
**(591)** peşkəşlər təqdim etdi. Xan iyirmi günədək müqəddəs Məşhəddə qaldı, yol yorğunluğunu və çəkdiyi əzabı canından çıxardı. Oradan çıxıb İraq yoluna düşdü. Yol səmtindəki bütün əzəmətli əmirlər hər yerdə onun xidmətinə gəlib peşkəşlər gətirir, ziyafətlər verirdilər. Bəstam hüdüdüna çatdıqda, şah tərəfindən əmr alan *Astrabad hakimi Firidun xan* oradan Bəstama tərəf gəldi, şəhərin səkkiz fərzəxliyində yerləşən Çeşməyi Əlhakda onu qarşıladı, töhfə və hədiyyələr gətirdi, yüksək xidmət göstərdi. İraq mülkü olan Semnan və Xara qədər Firidun xanın vəkilləri [Vəli Məhəmməd xan] xidmətində oldular. Xarda, xanı qarşılamaq fərmanı alan *şamlı eşikağasıbaşısı Əliqulu bəy Can* gəlib çatdı.

Görüş və qarşılanma mərasimi bitdikdən sonra xan şahın görüşünə haçan gedəcəyi barədə soruşdu və məhəbbətli sözlər eşitdi. O gün ziyafətdən imtina etdi, amma ertəsi gün

Əliqulu bəy ziyafət mərasiminə başladı, bəyənilən təkliflər etdi, töhfə və hədiyyələr verdi, xanın yaxınlarına və mülazimlərinə də insanlıq münasibəti göstərdi. Oradan çıxıb, layiqli qarşılanma mərasimlərindən sonra ürəkaçan Kaşan ölkəsinə (xotte) gəldi. Meydanı çıraqban edən Kaşan əhalisi ona həddən artıq xidmətlər göstərirdilər. O həzrət iki-üç gün Kaşanda istirahət etdikdən sonra İsfahan darüssəltənəsinə rəvan oldu. Bütün bu yazılanlar o yerlərdən gələn adamlarının sözlərinə görə qələmə alınmışdır. Əgər bu sözlərdə ixtilaf olarsa, onları söyləyənlərin fikirlərinə dözməyi və bu bəndiəni (kəminə) yalan danışmaqda ittiham etməməyinizi
**s.835** diləyirəm. Məsuliyyət [isə] ravilərin (bunu mənə danışanların – *Ş.F.*) boynuna düşür”[1].

## VƏLİ MƏHƏMMƏD XANIN ŞAH DƏRGAHINA GƏLİŞİ, O ALİ MƏQAMLI PADŞAHIN ZAMAN QƏHRƏMANI VƏ İRAN XOSROVU İLƏ GÖRÜŞÜNÜN ZİKRİ

Hekayətlər əncümənininin dastançıları (dəstansərayan) və söz məclisinin bəzəkçiləri (pirayəbəndan) uca mərtəbəli söz qəsrini belə gözəl tərzdə (nəmət) zinyətləndirmişlər (azin): Vəli Məhəmməd xanın Kaşana gəlişi xəbəri İsfahan əhalisinə yetişdikdə, şəhər və ətraf yerlərin iyirmi minədək tüfəncisinə (bəndəqəndaz) hazır olmaları sərəncamı verilmişdi ki, onlar xanı istiqbal günü şəhərdən Dövlətabada qədərki üç fərsəxlik yolda ikiqat səf [bəzəyərək] gözləsinlər. Çahar Bazar, Nəqşe-Cahan, qeysəriyyə, evlər və qəhvəxanalara bər-bəzək vurulduğundan şəhər və bazar bəy otağındakı təzə gəlinlər kimi bəzədilmişdi. Vəli Məhəmməd xanın şəhərə gələcəyi cün Cəm məqamlı, Firidun əzəmətli saray sahibi (Freydunbargah) həzrət şah səadət və iqbal ilə xanı qarşılamaqdan ötrü ata süvar oldu, *Allahverdi xan*, *Allahqulu xan Qorçibaşı*, *Nədr xan Möhrdar kimi dövlət başçıları* və xilafət paytaxtında olan başqa əmir-ə’yanlarla şahanə mehribanlıq, mehmannəvazlıq, qanun-qaydaya uyğun tərzdə üç fərsəx yol

---

[1] İfadənin ərəbcəsi: “Vəl-uhdən ələr-ravi”.

olan Dövlətabada qədər təşrif apardı, bir neçə qədəm irəliləyib [xana] çatdı. Öz zatına xas olan ülfət, ölçülüb-biçilmiş əxlaq tərzi ilə irəli gəlib, onu da ata süvar halda gördü və onlar bir-birlərinin əlini sıxdılar (mosafehe), qucaqlaşdılar (moaneqe), şəfqətli və mehriban sözlər, dostanə sorğu-suallarla söhbətləşdilər, əzəmətli qızılbaş əmirləri də xana qarşı insanpərvərlik və ədəb-ərkan nümayiş etdirdilər.

*Ağakamal Dövlətabadı* şahdan xahiş etdi ki, o əziz mehmanı az müddətə dərvişanə daxmaya (kolbe) aparsınlar. Bu qocanın xahişi ilə onlar onun mənzilinə gəldilər. Ağakamal evindən başlamış eşiyədək hər yerə qumaş örtük, münasib ləvazimat (əcnas), payəndaz döşəyərək, layiqli ziyafət təşkil edib, xana layiq peşkəşlər verdi. Oradan səadət və iqballa çıxıb şəhərə yollandılar. Dövlətabaddan Nəqşe-Cahana qədər sərkare-xasseye-şərifənin verdiyi müxtəlif parçalar (əcnas və əqməşe) payəndaz kimi yola sərilmişdi. Yolun hər iki tərəfində tüfəngçilər səf (yəsəl) bağlayıb dayanmışdılar. Xəyala belə yerləşməyən belə əhali izdihamı və tamaşaçı axını üçün yol darlıq eləyirdi, belə ki, şahın və əskərlərin keçdiyi yol eyni yol (yeksan) idi. Buna görə də ə'lahəzrət Vəli Məhəmməd xanla danışa-danışa asta-asta gedirdi. O, bir neçə yerdə dayanıb, xanı şənləndirməkdən ötrü nişat badələrini qurtum-qurtum içir, atüstü söhbət edir, cürbəcür mehribanlıqlar göstərirdi. Şəhər darvazasına gəlib-çatdıqda şahın əmrinə görə qapıları bağladılar ki, küçə və bazardan keçə bilsinlər.

**s.836** Sözün qısası, şəhərə izzət və kamranlıqla daxil oldular,
**(592)** xan özü üçün tə'yin olunmuş gözəl mənzillərə keçdi. Əmrə görə Əliqulu xan *mehmandar* idi. O, xan sərkarının gündəlik ehtiyacını və başqa zəruri şeyləri şahın sərkare-xasseye-şərifəsindən bol-bol alırdı. Bəlağət şüarlı şairlər xanın şə'ninə
**s.836** gözəl şe'rlər və [maddeyi-] tarixlər nəzmə çəkdilər. O cümlədən Cuşqan böyüklərindən və ə'yanlarından olan, bu əyyamda isə divan işləri üzrə vəzirlər silkində xidmət göstərən, olduqca şirin kəlam və yüksək ilham sahibi *Xacə Şüeyb Cuşqani* bu [maddeyi-] tarixi dedi:

**[Maddeye-] tarix**

*Kəc fələk gərdişlərindən kükrəyib,*
*Verdi baş Buxarada bir inqilab.*
*Bir Vəlixan adlı Türküstan şahı*
*Oldu Türküstanə Şah Əfrasiyab* [1].
*Bəxti üz döndərdi ondan, tutdu üz*
*Padişah dərgahinə gəldi cənab.*
*Şahe-Abbas güc və qüdrət sahibi-*
*Kamirane-kambəxşe- kamiyab.*
*Mən qran*[2]*-sə'd tarixin yazmaq üçün*
*İstədim qüds aləmi etsin xitab.*
*Yandırıb sə'mini məclisin dedi:*
"*Mah şad mehmane – bəzme- afıtab*"[3]

Bu misradan Vəli xanın gəlişi münasibətilə [əbcəd hesabı ilə] "1019" (1610/1611) rəqəmi alınır. Onun [Şah Abbasla] görüş şərəfinə nail olduğu vaxt artıq 1020-ci ilin (21 mart, 1611) əvvəli başlanmışdı. [Yuxarıda] göstərilən rəqəm isə bir

---

[1] Əfraçsiyab – "Şahnamə" poemasında əsas sürətlərdən biri. Turan şahı olmuşdur – *Ş.F.*

[2] Sə'd qranı (qrane-sə'd)- "sə'd" ərəbcə "xoşbəxt" mənasını verir, "qran" isə farsca "ulduzların birləşməsi, yaxınlaşması" deməkdir (Bax: Nəyyirzaman Səqəfi. Göst. lüğət, c.II. s. 224). Xacə Şüeyb Cusdani Türküstan hökmdarı olan Vəli Məhəmməd xan ilə Şah Abbasın görüşünü iki ulduzun (xoşbəxt!)bir-birinə yaxınlaşması kimi göstərir – *Ş.F.*

[3] Maddeye tarixinin farscası:

Çon ze gərdeşhaye çərxe-monqəleb
Gəşt peyda dər Boxara enqelab.
Şahe – Torkestan Vəlixan – anke həst
Zibbəxşe-dövləte – Əfrasiyab.
Rəhnəmun şod dövlət u-ra ta nehad
Z-u be dərgahe-şəhe-malekreqab.
Şahe-Əbbas qədr-qədrət ke həst,
Kamiran –o kambəxş-o kamiyab.
İn qrane sə'd ra tarix cu
Gəştəm əz əndişeye –qodsi xitab
Saxt rovşən şəme-məcles-ra və qoft;
"Mah şad mehmane-bəzme-afetab".

növ üstüörtülü (tə'miye) nəzərə çatdırılmışdır. Çünki [misradan göründüyü kimi,] məclis şamının işıqlandırılması təşbehlə "əlif"ə, "əlif" isə "1" rəqəminə bərabərdir, yə'ni 1020-ci il (1611/1612) rəqəmindən əgər "1" rəqəmi çıxılarsa həmin tarix [1019] (1610/1611) alınar.

*Başda bir (maddeye) tarix:*

Bu varaqlar sahibinin (İskəndər bəyMünşinin – *Ş.F.*) hörmətli qardaşı oğlu Məhəmməd Saleh həmin tarixi min iyirminci il kimi göstərmişdir. Onun şe'rini burada veririk:

*Ehsan göyünün şahı Şah Abbas*
*Gəlcək gözəl oldu mülke-İran.*
*Gəldi qapıya sədaqət ilə,*
*Can töhfəsini gətirdi qurban.*
*Xaqane-zəman Vəli Məhəmməd-*
*Təxtgahı idi onun o Turan.*
*Tarixini sorduqda əqldən*
*Goft: "Aməde padişahe-Turan"*[1]

Ertəsi gün ə'lahəzrət Vəli Məhəmməd xanın qaldığı evə (vesaq) təşrif aparıb böyüklük və mehmannəvazlıq adəti üzrə onunla dostanə söhbətlər etdi, xanın dərdini bir qədər yüngülləşdirdi:

---

[1] Maddeyi-tarixin farscası:
Əbbas şəh-an sepehre- ehsan
K-əz pərtove-ust zibe-İran.
Aməd be dərəş ze ruye-exlas,
Bər dəst gerefte tohfeye-can.
Qaane-zəman Vəli Məhəmməd
Ovrəngneşine-molke-Turan.
Costəm ze xerəd ço sale-tarix
Goft: "Aməde-padşahe-Turan".

**Ə'lahəzrət şahın özbək padşahının şərəfinə öz xüsusi xəlvətxanasında ziyafət verməyi:**

Amma, Vəli Məhəmməd xanda bəzən bu kəcrəftar fələyin ona verdiyi küdurət və kədərdən əlamətlər görünürdü. Ə'lahəzrət onunla isti davranaraq, həmin əlamətləri unutdurur, öz mehribanlığını və ona təskinlik verməyini daha da artırırdı. Xanın yol əziyyəti və səfər məşəqqətindən bir-iki gün dincəlməsindən sonra xüsusi xəlvətxanada dövran böyüklərinə xas şahanə bir ziyafət məclisi təşkil olundu, cənab xan bir neçə mülazimi və yaxın adamları ilə o ali məclisə təşrif gətirdi. Ali hümayun nəvvabın özü o gözəl məclisin lazımi səviyyədə olmasına diqqət yetirirdi.

Həmin şənlik iştərxanasında lalə yanaqlı pəriçöhrələr rey-
**s.837** hani qədəhləri və dosta layiq içkiləri gərdişə gətirdilər, xoş ahəngli çalğıçılar (motreban) və mahir müğənnilər irəkaçan nəvalarla qəlbin qübarını yox etdilər, iraqlı və xorasanlı hürivəşlər rəqsə başlayaraq, cilvəgərlik nümayiş etdirdilər.

**Şer:**

*O gözəl məclis ki xüsusi idi,*
*Zöhrələr sevinclə rəqs eləyirdi.*
*Hər küncdə xuraman gözəllər vardı,*
*Hər yanda dilbərlər görmək olardı.*
*Oraya çəkirdi həsəd gülüstan,*
*Qulluq etmədəydi huri və qulman* [1]

Neçə-neçə huri və qılman ilə dolu (məşhun) olan bu cənnətə bənzər məclisi müşahidə edən Vəli Məhəmməd xanı heyrət bürümüş və o, olduqca şənlənmişdi. Ə'lahəzrət zilləllah şah belə tədbirlər vaxtı hamının bəyəndiyi irəkaçan

---

[1] Şerin farscası:

Dər an fərxonde bəzm-o məhfele-xas
Həmi budi ze şadi Zohrerəqqas.
Be hər guşe xoraman delsetani,
Be hər tərfi rəvan arame-cani.
Beheştasa dər an rəşke-golestan,
Be xedmət istade hur-o ğelman.

sözlər demək və mehribanlıq etməklə xanın dağınıq düşmüş fikirlərini cəmləşdirir və ona təsəlli verirdi. O, xanın əmir və yaxın adamlarına da əhdi, vəfadarlığı, yaxşılığı unutmamağı təlqin edir, onlara yaxşı və'dlər edirdi. Padşahanə sohbət səhərədək davam etdi, özbəklərə qarşı bir dəqiqə də olsa insanpərvərlik və mehmannəvazlıqdan qalmadılar. Xülasə, bu yemək-içmək (nəzl), dincəlmək və mizbanlıqdan sonra o qədər pul (noqud) verildi, libaslar, ev ləvazimatı (zəruriyyate-byutat) və başqa şeylər təqdim olundu ki, qələm onların kəmiyyət və keyfiyyətini yazmaqdan dayanası oldu. Ə'lahəzrət zilləlallah şah o günün əksər vaxtını zahiri (suri) nigazıstan və mə'nəvi baharıstan olan Nəqşe-Cahan meyldanında yaxın adamlar ilə *çovkanbazı**, *qəbəqənazi*** və mahir atəşbazlar tərəfindən qəribə tərzdə hazırlanan *atəşbazi**** oyunlarında xeyli şənləndi. Bu istək və söhbət vaxtı Vəli Məhəmməd xan son dərəcə heyrətləndi, çovkanbazi və gəbəqəndazi oyunları bitdikdən sonra isti əl-qollu atəşbazlar onlara xanın heç vaxt müşahidə etmədiyi qəribə atəşli oyunlar göstərdilər. Atəşbazlıq şeylərinin bə'zilərini padşah fillərinin ən böyüyü-
**s.838** nün belində ayaq üstə dayanıb nümayiş etdirirdilər. Atəş yan-
**(593)** dırmaq və top atmaq vaxtı həmin iri cüssəli fil yerə yıxıldı, elə qəribə hərəkətlər etdi ki, cənab xan və şah məclisinin bütün iştirakçılarının həzz almalarına səbəb oldu. Tamaşaçılar meydanın hər yerini tutaraq, tamaşa etməkdə idilər. Mərasimin bitməsindən sonra xoş əhvali-ruhiyyə ilə par-par yanan Çahar Bazara, qeysəriyyəyə və evlərə təşrif aparıb hər məkanda söhbət, hər şəbistanda**** işrət məclisləri qurulurdu. Ə'lahəzrət hər dəm, hər saat xanı məşğul edir, onu öz isti ixtilatları ilə məşğul edirdi. Elə isti söhbətlər və Nəqşe-Cahandakı məclislər ard-ardınca təşkil olundu.

Sərətan ayının əvvəli (22 iyun) əcəm əhlinin Kəsra (Xosrov – *Ş.F.*) və Cəm dövrünün adətincə "Su səpənlər" ("abpaşan") günüdür və şah xan ilə birlikdə İsfahanın Çahar Bağında su səpənlərə tamaşa etdi. Həmin gün əhali təbəqəsinin yüz min nəfərdən çox üzvü Cahar Bağ xiyabanına yığışıb bir-birlərinin üstünə su səpirdilər. Adamların və su

səpənlərin çoxluğundan Zayəndərud çayı qurudu. Doğrudan da qəribə tamaşa idi.

Sözün qısası, seyr və söhbət, habelə səfər yorğunluğu [candan] çıxandan sonra araya səltənət və mühüm dövlət işlərində baş vermiş qarışıqlıqdan (extilal) söhbət düşdü, qardaşoğlanlarının üsyanı, mülazimlərin satqınlığı, fələyin hökmü ilə ortaya düşən qarışıqlıq barədə danışıldı. Baxmayaraq ki, dünya işlərinin nizamlanması (təmşiyət) qadir Allahın ixtiyarı ilə,
**s.838** insanların gördükləri işlərsə hər bir böyük-kiçiyin iradəsi (məşiyyət) ilədir və aqil adamlar Allahın işinə qarışa bilməzlər – "Allah istədiyini edən və istədiyi hökmü də verəndir"[1], amma özünün uzaqgörən ağlı ilə şahın cahanı bəzəyən rə'yi belə oldu: "Cənab xana imdad etmək bütün qızılbaşların alicənablığı (hemmət) olduğu üçün münasibdir ki, müzəffər şah ordusu alicənab xanla birlikdə Xorasana tərəf hərəkət etsin, cənab xan isə ağır qoşunla öz diyarına getsin ki, əgər humayun yürüşə nəsə bir ehtiyac olarsa, tez-tələsik mədəd göstərilsin. Amma, [bu da məlumdur ki,] Rum sərdarı keçən il Təbrizə gəlib-qayıtdı və Diyarbəkrdə qışladı, bu il isə qarşıda rumilərlə sülh danışıqları durur və onların sözünə heç bir e'timad yoxdursa da, dövlət işlərinin tənzimi üçün Azərbaycana səfər etmək qərara alınmışdır və bu səfəri icra etməmək böyük fəsadlar törədə bilər. Yaxşısı budur ki cənab xan qoy bu evi öz evi bilsin, hökmümüz altında olan (məhrusə) hansı yeri istərsə oraya da getsin, bir müddət istirahətlə məşğul olsun, inşallah, bu il zəruri sərhəd işləri tənzimləndikdən və o tərəfdən xatircəmlik hasil olunduqdan sonra gələn il Allahın köməyi ilə xanla birlikdə qarşıdakı məqsədə doğru yürüş baş tutar və fəth bayrağını göyə qaldırarıq".

Vəli Məhəmməd xan təsldiq edib dedi: "Ürəyində qərara aldığı Azərbaycan yürüşünün ləğvi əlahəzrətin dövlətinə layiq iş olmazdı. Amma [özbək] *atalıqları və bahadırları* ilə məşvərəti vaxtı şah buyurmuşdu ki, Vəli Məhəmməd xanın ğez zamanda Mavərənəhrə qayıtması zəruridir və bu işin yubadılması münasib deyildir, çünki əksər özbək əmir və

[1] İfadənin ərəbcəsi: "Yəfəhullahu ma yaşən və yuhkumu ma yurid".

hakimləri o ölkədədirlər (vilayət) və onlar Vəli Məhəmməd xan tərəfindən iş başına gətirilən adamlardır, indiyəcən İmamqulu xanın yanına getməyib öz ehtiyac gözlərini xanın yoluna dikmişlər. O adamlar [İmamqulunun] itaətinə gəlməmişlər və [İmamqulunun] şövkət və iqtidarı sustdür. Buna görə də hadisəni qabaqlamaq gərəkdir ki, onun öz yerini dövlət taxtında möhkəmlətməsindən sonra bizim işimiz çətinləşəcəkdir. [Qızılbaş] döyüşçülərinin yoldaşlıq və həmrahlıqları özbəkləri ruha gətirir və əhali, əgər onlar oraya gedərlərsə, qorxuya düşməz. Baş vermiş hadisələrdən mə'lum olur ki, bu müqəddəs və kəramət xanədanının özbək və cığatay sultanlarının hər biri bizə bel bağlayırlar və bizi istəyirlər. Bizim bu tərəfə gəlməyimizdən məqsədimiz budur ki, sağ-salamat şah ilə görüşək, öz himmət kəmərimizi bu dövlətə bağlayaq və məqsədimizə çataq. İndi bizim xahişimiz budur ki, bizə olan zahiri və batini diqqətimizdən imtina etməyib elə həmin dost (yar) və köməkçi (mədədkar) kimi qalasınız. Ümidvarıq ki, bu yüksək dudmanın bizim ilə birliyi, ə'lahəzrətin zahiri diqqəti və batini imdad sayəsində məqsədimizə çatacaq və dövlətimizi ələ alacayıq. Yox, əgər işlər başqa cür olarsa və dostların fikirlərində olan məsələ baş tutmazsa, həmçinin qızılbaşların mədəd və köməyinə ehtiyac olarsa, bizə təkcə Xorasanın əmir və döyüşçüləri kifayət edər. Belə olan təqdirdə işarə edərsiniz ki, Xorasan bəylərbəyi qızılbaş döyüşçüləri ilə birlikdə köməyə hazır olsunlar. Əgər lazım olarsa, onlar [indi] Heratda olan əziz fərzəndim ***Rüstəm Məhəmməd*** ilə yola rəvan olarlar. Amma, əlahhəzrətin [Vəli Məhəmməd xana] belə məhəbbət və mehribanlıq göstərməsinin məqsədi belə idi: Bir halda ki, [özbəklər] bu uca dudman ilə birləşmişlər və xanın düşdüyü vəziyyət mürəkkəb bir məsələdir, gərək düzgün fikirləşsinlər, çünki, xan ilə özbəklər arasında ziddiyyət yaranmış və xanın
**s.839** elə bir e'tibarı qalmamışdır. Buna görə də bir neçə dəfə məs-
**(594)** ləhət məclisi təşkil edilmiş, xanın ağsaqqalları və e'tibarlı adamları qızılbaşların köməyi ilə tə'cili qayıtmağı düzgün saymış, bu barədə onların fikirləri artıq ifrat sərhədinə çatmışdır. Xorasan səmtindən də belə xəbərlər gəlirdi ki, özbək

döyüşçülərinin çoxu xanın gəlişinin intizarındadır. Cənab xan ilə xeyli danışdıqdan sonra yürüşə başlamağa üstünlük verdi və [özbəklər] bu işin yaxşı-pis tərəfini öz boyünlarına götür-
s.840 dülər. Ə'lahəzrət də öz razılığını bildirdi, xanın gedişi münasibətilə padşahanə diqqətini zahirə çıxardı, xanın sərkarının ehtiyacını tə'min etdi, mülazimlərinə pul, mal, at, qatır, dəvə, çadır, ev ləvazimatı və başqa şeylər yüksək dərəcədə təqdim olundu. Ə'lahəzrət zilləllah şah xoş saatda Azərbaycan yasaqı üçün *humayun pişxanəni** əvvəlcə Zayəndərud çayı kənarında, sonra isə onu şəhərə daşıdığı vaxt Vəli Məhəmməd xanı yanına çağırdı və onlar həmən gecə bir-birləri ilə xüsusi söhbət etdilər. Söhbətin çox hissəsi mülkü qorumaqla bağlı işlər, dost və dühmənlərin qəlblərini ələ almaq, döyüşçülərin biixtiyar etdikləri səhvlərin əfv olunası, günün həqiqətlərinin bəyanı və qeyb aləmindəki hadisələrlə bağlı idi, ə'lahəzrət onları öz ilham bəyanlı dilinə gətirərək fəsahətlə ifadə etdi. Xanın həmrahlarından Xacəmberdi Atalıq, xüsusilə [xana] xidmət, vəfadarlıq, dövlətxahlıq, əhd-peyman barədə söz verdi (misaq) və [şah ilə xan] bir-birləri ilə vidalaşdılar. Şamlı tayfasının mö'təbər adamlarından *Zeynalxan bəy Şamlını* o cənabı (xanı – *Ş.F.*) humayun sərhədə qədər müşayət etmək, ehtiyacını ödəmək üçün vəzifədar etdilər. Cənab xan ə'lahəzrət ilə vidalaşdıqdan iki gün sonra da şəhərdə (İsfahanda – *Ş.F.*) qaldı, üçüncü gün yola rəvan oldu. Özbək cahillərindən bə'zi günah əməllər (ə'mali-nasəvab), tərbiyəsiz və yöndəmsiz hərəkətlər (bədsüluki) də baş verdi ki, hümayun şah mehmannəvazlığa riayət edərək onları əfv etdi.

## VƏLİ MƏHƏMMƏD XANIN SƏADƏT AŞIYANLI DƏRGAHDAN XORASANA VƏ MAVƏRƏNNƏHRƏ GEDİŞİ VƏ MAVƏRƏNNƏHRDƏ TAXTA ƏYLƏŞMƏYİNİN ZİKRİ:

Yuxarıda yazıldığı kimi, Vəli Məhəmməd xan şahdan ayrılıb hərəkət cilovunu İsfahandan Xorasana döndərdi, Kaşan Siyahkuhundan çıxaraq öz məqsədinə tərəf üz tutdu. Ali qoşunla xanın xidmətində duran Zeynalxan bəy Şamlı

mənzil-mənzil yol gedərək, əmirlərə və ona verilən hökmə izzət və ehtiramla yanaşır, layiqli qulluq göstərirdi. O cənab [Vəli Məhəmməd xan] haqqında və onun gedişi-gəlişinin şərhi barədə [bu kitabda] yazıldığı üçün, bu sətirləri yazan vaqiənevis (yəni İskəndər bəy Münsi – *Ş.F.*) indi sözünü bu yerdə saxlayaraq, bir qədər də İmamqulu xandan və Mavərənnəhr hadisələrindən yazacaqdır. Onun əhvalatı belə olmuşdur: [Mavərənnəhrdən] gələn adamların sözlərindən məlum olur ki, Vəli Məhəmməd xan, yuxarıda yazıldığı kimi, Buxaradan çıxdıqdan sonra bütün döyüşçülər İmamqulu xana üz tutdular. O, İlahinin hikməti sayəsində ona nəsib olmuş dövlət və iqbala ümidvar olub, Qərşi hüdudundan çıxaraq Buxara darüssəltənəsinə tərəf hərəkət etdi, rahatlıq və kamranlıqla səltənət və hökmranlıq taxtına əyləşdi, xütbə və sikkəni öz adı ilə bəzədi. Buxara qalasının *kutvalı* ona sarı bağlılıq qədəmi ataraq, qapı və xəzinə açarlarını ona təhvil verdi. [İmamqulu xan] Bəlx vilayətini və ona tabe başqa yerləri (mozafat) qardaşı Nədr Məhəmməd Sultana tapşırdı. O, eşitdikdə ki, Vəli Məhəmməd xan öz adamlarını və kiçik bir oğlunu Çaharcu qalasında qoyub həmin qalanı fəth etmək istəyinə düşmüşdür, bir dəstə döyüşçü və e'tibarlı adamını Çaharcuya tərəf göntərdi. Qala kutvalı istər-istəməz təslim qədəmini irəli atıb qalanı təhvil verdi. Əmrə görə, Vəli Məhəmməd xanın adamlarını oradan çıxarıb Buxaraya apardılar, qala isə e'tibarlı bir şəxsə tapşırıldı. Vəli Məhəmməd xanın [əsir götürülən] adamları ilə görüşən İmamqulu xan öz böyük əmisinin *zövcələrindən Ayxanım adlı bir qadınla eşqbazlıq etmək,* onunla işrətdə və söhbətdə olmaq istədi. Amma, o iffətli qadın bu işə razılıq vermirdi. İmamqulu xan *qazi və müftidən* bir çarə görmələrini istədi. O, tərəfdən gələnlərdən
**s.840** eşidildi ki, Buxaranın bütün şəriətçiləri bu işdən yaxa çəkdilər.

Amma, Buxaranın dini bada verən və özü dünyapərəst olan qazisi İmamqulu xanı özündən razı salmaqdan ötrü belə bir fitva yazdı: “Vəli Məhəmməd xan rəfze[*] şüarına qapılaraq, imandan və müsəlmanlıqdan xaric adam olduğuna görə

zövcələri ondan təlaqdadırlar (motləqe). Həmin zövcələrin başqa adama ərə getməsi cayizdir". Qazi Ayxanıma şəriətlə təsəlli verdi və onunla İmamqulu xanın kəbinini kəsdi. Allahın və əhalinin yanında məzəmmət olunan (məzmum) bu qəbahətli işə (fe'le-şəni') bais oldu, İmamqulu xan isə öz
**s.841** əmisinin arvadını ələ gətirdi, bu bəd yolu tutanlardan oldu və
**(590)** o, etdiyi əməli millətin istəyinə müvafiq və şəriətə uyğun sandı. Doğru demişdilər ki,

**Misra**

*Eşq peyğəmbərinin başqa kitabdır kitabı*[1]

Bu hadisələr ğaş verərkən Türküstan sultanzadələri mülkə tamah salib Daşkəndi zəbt etdilər, Səmərqəndə ləşkər çəkdilər. Qazaq ləşkərinin şərinin qarşısını almaq üçün İmamqulu xan Səmərqəndə tərəf hərəkət etdi, qardaşı Nədr Məhəmməd Sultana tapşırdı ki, Bəlx əskərlərini və o hüdudda yaşayanları toplayıb Səmərqənddə onunla birləşsinlər. İmamqulu xan Səmərqəndə çatdıqda, qazaq sultanzadələri ilə dostluğa başladı, hər iki tərəfin ağsaqqalları sülh danışığına girdilər. Xan Daşkənd vilayətini və o hüdudun bə'zi qəsəbələrini həmin sultanzadələrə saxladı və tərəflərin barışığı baş tutdu.

Amma, Mavərənnəhr döyüşçüləri qazaq və Türküstan qoşununun sözlərinə inanmadıqları üçün Səmərqənddə iqamət etdilər, lakin biri-digərinə mane olmurdular. Bu əsnada İmamqulu xanın anasının xəstələnməsi xəbəri gəldi. O, öz məhbubəsi ilə eyş-işrət içərisinədydi: Əmir və döyüşçülərini Səmərqənddə saxlayıb bir neçə xüsusi və yaxın adamı ilə anasını yoluxmaqdan ötrü (əyadət) Buxaraya gəldi. O, əmisinin məhbubəsi ilə bir neçə gün işrət və şadlıq yatağında (bəstər) dincəlib, Buxarada vaxtını asudəliklə keçirməkdəydi ki, o vilayətə Vəli Məhəmməd xan qoşununun yürüşə başlaması xəbəri gəlib çatdı. Bu xəbər İmamqulu xanın əhvalını pozdu, pərişan oldu, Buxarada qalmaq imkanı qalmadı. Vəli Məhəmməd xanın

[1] Misranın farscası:

Peyğəmbəre eşqra ketabe degərəst.

gəlişindən üç gün əvvəl anasını, adamlarını və məhbubəsini götürüb Buxaradan Qərşiyə gəldi. Biz indi Vəli Məhəmməd xan əhvalının ardını yazmağa başlayırıq. Xülasə, cənab xan müqəddəs Məşhədə çatdıqda hələ də tərəddüddə idi ki, görəsən oradan Herat darüssəltənəsinə gedərək oğlunu də özü ilə götürüb qızılbaşların köməyi ilə Bəlxə getsin, yoxsa Mərvə yollanaraq Çaharcu yoluyla Buxaraya qayıtsın? Xanın ardınca Buxaradan gələn bir neçə tərəfdarı onun Mərv yoluyla getməsini üstün bilib belə deyirdilər: "[İmamqulunun] əksər döyüşçüləri Səmərqənddə olduqlarından, Buxara boşdur. Ümidvarıq ki, xan ordusu oraya çatan kimi Buxara taxtı asanlıqla ələ gələcəkdir. Əgər ali cülus yenidən dövlət paytaxtında baş tutar və padşah ordusunun gəlişi xəbəri Mavərənnəhrə yayılarsa, müxaliflər arasına çaxnaşına düşər və işlər dostların istəyincə olar." Cənab xan bu məsləhətə əməl edib müqəddəs Mərvə təşrif apardı. Mehrab xan onun qızılbaşlarsız geyməyini məsləhət görmürdu, amma özbək ağsaqqalları öz ağıllı (mə'qule) dəllilləri ilə onu arxayın etdilər. Mezrab xan [yenə də] xana öz layiqli xidmət və mizbanlığını göstərməkdəydi. Çaharcuda çoxdan yaşayan bə'zi özbək döyüşçüləri, xüsusilə, Kamal Xacə o qalanın yaxşı-pis cəhətlərindən xəbərdar idilər. Buna görə də qalaya hücum fikri ilə razılaşdılar. Vəli Məhəmməd xan onları Mehrab xanın məsləhəti ilə bir dəstə bahadırla birlikdə Çacarcu üzərinə hücuma yolladı, elə özü də onların ardınca hərəkətə başladı. Bir neçə fərsəx yol gedən Mehrab xan ali məiyyətin qızılbaş köməyindən məhrum olma-
s.841 sını istəmirdi. Buna görə də o, beş yüz nəfərədək qızılbaş qazisini və mahir atıcılarını xanın ali ordusu üçün ayırdı ki, harada olsalar xana köməklik yetirib can-başla onun xidmətində dayansınlar, xan haçan izn versə geri qayıtsınlar, irəli göndərilən döyüşçülər (pişamədha) hücuma keçidlər və bir sübh çağı Çaharcu qalasına çatdılar. Qalanın onlara mə'lum olan qala yarığından yuxarı çıxıb, qəfildən oraya daxil oldular, daravazaları açaraq, o qəsəbəni zəbt etdilər. Onların ardınca ali məiyyət də gəlib çatdı və Çaharcuda dayandı. Qalada olan hakim, xana itaətdən başqa çarə görmədi. Vəli Məhəmməd

xan Çaharcunu e'tibarlı adamlarına tapşırıb, Mehrab xanın atıcılarından da bir neçə nəfəri orada saxlayaraq, tam, sürətlə Amu çayının kənarına rəvan oldu, Kamal Xacəni irəli göndərdi. Xacə Caharcu keçidini keçib, Buxaraya doğru hücuma keçdi, padşah məiyyətinin gəlişi xəbəri o yerlərdə yayıldı və hər tərəfdən dəstə-dəstə adamlar gəlib ona birləşdilər.

**Özbək padşahı Vəli Məhəmməd xanın Buxaraya daxil olması:**

Azacıq adamı ilə Buxaraya gəlmiş İmamqulu xan isə eyş-işrətlə məşğul idi. Ali məiyyətin gəlişindən xəbər tutub, qarşılaşmağa və döyüşməyə qüvvəti olmadığından, yuxarıda yazıldığı kimi, anasını və adamlarını özü ilə götürüb Qərşiyə tərəf qaçdı. Onun fərarından xəbər tutan Vəli Məhəmməd xan Xacəmberdi Atalığı özündən əvvəl şəhərə rəvan etdi. O, cəmadüssani ayının on altısında (26 avqust, 1611) pəncşənbə günü Buxara darülmülkünə yollandı. Əhali onun istiqlalına çıxdı. Cənab xan o ayın on yeddisində (27 avqust, 1611) rahətlik və qəlb şadlığı ilə şəhərə daxil oldu və yenidən kamranlıqla dövlət paytaxtına əyləşdi, onun hökmü ilə xütbə və sikkə onun şərafətli ad və ləqəbi ilə bəzəndi. Buxaranın seyidləri, üləması, ərbabı və əhalisi ali görüş səadətinə (este'sad) yetişib ona üz sevinclərini izhar etdilər. (Amma Vəli Məhəmməd xan zövcə (Ayxanım – *Ş.F.*) əhvalatından pərişan və qəmgin olmuşdu,
**s.842** ona qismət olmuş yeni padşahlığından qətiyyən şadlanmırdı.
**(596)** O, onu küfdə (təkfir) günahlandıran və zövcəsinin kəbinini İmamqulu xanla kəsən qazini *yərğu* (mühakimə – *Ş.F.*) üçün yanına çağırdı, etdiyi bəyənilməz əməli haqda sorğu-sual (estefsar) etdi. Qazi xəcalət başını irəli uzadıb, sultani cəzadan (təəddiye-sultani) qurtarmaq üçün yerli-yersiz bəhanələr gətirirdi (təməssok). Nəvvab xan qazini cəzalandırmaq fikrinə düşdü. Onun qəzəb atəşi dəmbədəm şö'lələnirdi. Nəhayət, seyid, üləma və elm ərğbabının xahişi ilə onu cəzalandırmadı, amma xeyli xiffət çəkdi. Xan həmçinin ona qarşı nifaq etmiş özbəkləri və Buxara ə'yanını da mühakiməyə cəlb etdi, acığından və bərk incikliyindən onlarla sərt davrandı, səltənət işlərində səbr etmək və fürsət axtarmaq əql və

ehtiyat tədbiri olmasına baxmayaraq bundan yayındı, onların əksəriyyətini həbs etdi, əmlaklarını müsadirəyə, özlərini isə cəzaya mə'ruz qoydu. Onun bu hərəkəti cəzalandırılanların tayfa üzvlərinə ağır gəldi, adamlar xanın cəza və intiqam qorxusundan vahiməyə düşdülər. Özbək tayfaları hərçənd ki, zahirən xana öz sədaqət və fədəviyyələrini bildirirdilər, amma batinən əvvəlki nifaqlarında qalır, ondan özlərinə qarşı xəta gözləyir, xanın xeyir-duası və məsləhəti olmayan işlər görürdülər. Onlar nəhayət fikirlərini zahirə çıxardılar, özbəklərə xas əhd-peymanı sındırmaq və nifaq-etmək xislətini göstər-
s.842 dilər ki, gələcəkdə bu barədə yazılacaqdır.

## VƏLİ MƏHƏMMƏD XANIN BUXARA DARÜLMÜLKÜNDƏN SƏMƏRQƏNDƏ YÜRÜŞÜ, ONUN İMAMQULU XANLA HƏRBİ VƏ PADŞAHIN ƏHVALATININ SONU HAQQINDA SÖHBƏT

"Allah istədiyini edəndir"[1] deyiminə və "istəyən öz istədiyini əzizləyər"[2] deyiminə uyğun olaraq qəza və tuğra divanının katibi (münşi) və dövlət məktublarının aydın ifadəli tuğra yazanı Vəli Məhəmməd xanın dövlət fərmanını (mənşur) təqdir biçağı (gəzlek) ilə yazıb-tamamladığı üçün [bütün] sə'ylər və çalışmalar faydasız oldu, xanın heç bir tədbiri təqdirin razılığına gəlmədi, zahirən xeyir kimi görünən cəhd "ola bilsin ki, sizin istədiyiniz şey sizin narahatlığınıza səbəb olsun"[3] deyiminə müvafiq olaraq nəticə vermədi.

Xülasə, yuxarıda yazıldığı kimi, Vəli Məhəmməd xan dövlət və səltənət paytaxtında qərar tutdu, amma hadisələr və nalələr (nəvayeb) ilinin quraqlığından, xanın dövlət gülşəni solmağa başladı, sonra yenidən həmin gülşən yaşıllaşdı, xanın yaxşılığını istəyən adamlar hər tərəfdən təbrikə və mübarəkbadlığa gəldilər, səltənət taxtının dövrəsində izdiham qaynaşmağa başladı. Hələ İmanqulu xanın hansı tərəfə getdiyi mə'lum deyildi. Bir dəstə ağıldan naqis adamlar xana

[1] Ərəbcəsi: "Yəf'əlu – l – lahu mə, yəşəu"
[2] Ərəbcəsi: "Mən təşə'u va tə'uzzu mən təşə'u"
[3] Ərəbcəsi: "Asə ən təhubbu şeyən va həvşun ləkum"

"xoş gəlmisən" deyə-deyə onunla yaxınlıq yaratmağa çalışır və deyirdilər: "Bu vilayətdə İmamqulu xanın yeri yoxdur. O, kiçik qardaşının ona xilaf çıxa bilməsinin qorxusundan Bəlxə gedə bilməz, əgər başqa yana gedəsi olsa, Kabula və [oradan da] Hindistana gedə bilər. Başqa bir yerə onun gedişi ehtimal olunmur. Səmərqənddəki döyüşçülərə əgər ali məiyyətin gəlişi, İmamqulu xanın isə gedişi mə'lum olsa, onlar tezliklə öz ümid üzlərini ali dərgaha tutub, itaət və bəndəlik qayışlarını bellərinə bağlayarlar. Başqa bir ehtimal yolu isə yoxdur.

**Vəli Məhəmməd xanın Şah Abbasa namə yazması:**

Vəli Məhəmməd xan zahirdə tərəfdarlıq (dövlətxahi) şuarı söyləyən, batindəsə idbar fikirlərə düşən və "xoş gəlmisən" deyərək hərzə-hərzə danışan nifaq əhlinin sözlərinə uyub düzgün yolunu itirdi, ehtiyat və uzaqgörənlikdən uzaq düşdü, özünü mübahisəsiz (bimənaz'e) və sərbəst (motləqül-ənan) bir padşah təsəvvür etdi, ali saraya (Şah Abbasa – *Ş.F.*) öz vəziyyəti, dövlət və iqbal vaxtına əyləşməsi, istiqlalı, habelə İmamqulu xanın fərarı, özbək döyüşçülərinin itaətə gəlmələri barədə sədaqət dolu bir məktub yolladı, [yanındakı] qızılbaşların az miqdarını onların şaha mə'lumat vermələrindən ötrü yanında saxlayaraq, başqalarının geri qayıtmalarına izn verdi.

Amma, o, hövsələsizlik edərək, Buxarada hər gün adamları qətl ilə hədələyir, bütün nifaq əhlini cəzalandırırdı, buna görə də onlar ondan qorxduqlarından ona qarşı idilər.

Bu əsnada mə'lum oldu ki, İmamqulu xan Qərsi qalasına getmiş və orada qalmaqdadır. Bu xəbəri eşidən Vəli Məhəmməd xan, dözə bilmədi, ordusundakı on yeddi min döyüşçüsü ilə dövlət paytaxtından çıxıb Qərşiyə tərəf hərəkət etdi. O düşündü ki, əgər İmamqulu xan qaladan qaçmazsa, onu mühasirədə saxlayıb ələ keçirər, yox əgər qaladan fərar edərsə, o zaman özünün e'tibar dərəcəsi yoxa çıxar. Xan bir neçə mərhələ yol getdi. Məiyyətəin bütün ağsaqqal və bahadırları ona belə məsləhət gördülər: "Qoy əvvəlcə Səmərqənd
**s.843** tərəfə gedib səmərqəndlilərin ürəklərini ələ alaraq, özünə
**(596)** birləşdirsin və bundan sonra tam iqtidar və istiqlal ilə düşmən
1512

üzərinə yollansın.” Vəli Məhəmməd xan yanındakı qızılbaşlarla, xüsusilə *Budaq bəy Qacar* ilə məsləhətləşdi. Onların
s.844 hamısı bir sözlə dedilər: “İmamqulu xanın bir neçə nəfərlə
(597) Qərşidə, adamlarının isə Səmərqənddə olduqları bu məqamda yaxşısı budur ki, olduqca tez Qərşiyə çatıb onun işini bitirək. [İmamqulu] əgər qaçıb Səmərqəndə gedərsə iş çətinə düşər”.

**Özbək ağsaqqallarının Vəli Məhəmməd ilə nifaq etmələri:**

Bu fikir Vəli Məhəmməd xanın xoşuna gəldi. O, tə’cili olaraq Qərşiyə gedib, tələyə düşən ovu əldən verməmək üçün nə qədər sə’y etdisə də özbək ağsaqqalları ona mane oldular, Səmərqəndə getməsini üstün tutdular, inadkarlıq etdilər. Cənab xan da razılaşıb, onların məkr və hiylə ilə fikirləşdikləri bu səhv fikrə əməl etdi, Qərşi yolundan dönüb Səmərqəndə tərəf hərəkət etdi, qaçaq sültanzadələrinə məhəbbətamiz bir məktub yazaraq, onları öz tərəfinə çəkmək istədi, [əvəzində isə] yaxşı-yaxşı və’dlər verdi.

[İndi də] Səmərqənd əmir və əyanları barədə: Vəli Məhəmməd xanın gəlişi, onun Buxara darülmülkində taxta əyləşməyi və İmamqulu xanın fərarı haqqında xəbərdən xəbər tutan Səmərənd böyüklərinin bə’ziləri Vəli Məhəmməd xana tabe olmaq qərarına gəldilər. Amma, xana qarşı olan və ondan qorxan adamlarsa müvafiqət və müxalifət arasında tərəddüd edərək, “qorxu, ya rica” məqamında qalıb, gecə-gündüz bir qərara gələ bilmirdilər. İmamqulu xanın Qərşidə olması və Vəli Məhəmməd xanın Qərşidən Səmərqəndə-onların yanına dönməsi xəbərini eşitcək, onlar iki dəstəyə ayrıldılar. Bir dəstə Vəli Məhəmməd xanın tərəfdarfı olduqlarını, başqa dəstə isə İmamqulu xana bel bağladıqlarını izhar etdi. İmamqulu xan tərəfdarlarından bir neçə adam işıq və külək sür’əti ilə Qərşiyə cumaraq, onu vəziyyətdən hali etdi, xanı gizli yolla (qeyri-məh’ud) Səmərqəndə gətirdilər. Öz tərəfdarlarının köməyi ilə yenidən hakimiyyətə gəlmək ümidinə qapılan İmamqulu xan belinə əmisi ilə hərbə başlamaq kəmərini bağladı. Vəli Məhəmməd xan tərəfdarları isə bu səbəbdən zəiflədilər, aralarına çaxnaşma düşdü. Cənab

Vəli Məhəmməd xan bu işlərdən xəbərsiz idi. Ağsaqqallar və bahadırlar ona xatırlatmışdılar: “Səmərqəndə sür’ətlə getmək səmərqəndlilərin vəhşətinə, qorxusuna, dəhşətə gəlmələrinə və əksəriyyətinin fərarına səbəb ola bilər. Dövlət məsləhəti belədir: Özbəkləri padşahanə məhəbbətə ümidvar edərək, bu məsafəni gərək yavaş-yavaş qə’t edəsən ki, onların qorxuları canlarından çıxsın və ali məiyyətin istiqbalına gəlsinlər.” Onların məsləhətinə əməl edən xan həmin yolu asta-asta gedir, hər ləhzə [Səmərqəndlilərin] onun yanına gələcəklərini gözləyirdi. Özbəklərdən ona da keçən qəflətin çoxluğundan, özünün dövlət çəmənini düşmənlərin hücum tikanından xali təsəvvür edərək, bir nəfərin belə ona qarşı çıxacağını ehtimal etmirdi.

Bu əsnada Səmərqənddən bir dəstə adam gəlib, İmamqulu xanın gəlişindən, səmərqəndlilərin onunla qarşılıqlı razılıqlarından (mövafeqət) və Vəli Məhəmməd xana müxalif olduqlarından, habelə tərəfdarlarının pərişanlıqlarından xanı agah etdilər.

Vəli Məhəmməd xan bu xəbərlərdən mə’yus oldu və qəflət yuxusundan bir qədər ayıldı, onu Qərşiyə getməkdən saxlayan, tələyə giriftar olan ovu tutmaqdan çəkindirən adamları danlamağa başladı. Onlar yenə də öz yağlı dillərini işə salıb, qafilanə sözlərlə xana təsəlli verir və deyirdilər: “Səmərqəndlilərin azacıq adamla ürəklənərək ali məiyyətin və padşah
**s.844** əzəmətinin (şokuh) qarşısına çıxmalarının xeyri nədir? İmamqulu xanı tezliklə, ya etdiyi qusurlara görə tutub hüzura gətirərlər, ya da o qorxaqlar bir neçə nəfər adamla İmamqulunu [özləriylə] götürüb Monqolustana (Moğolustan) tərəf fərar edərlər”. Vəli Məhəmməd xan İmamqulu ləşkərinin kəmiyyət və keyfiyyətini bilmək məqsədilə təkrar-təkrar adamlar yolladı, gedənlər qayıdaraq dedilər ki, onların sayı azı-çoxu on min nəfərdən çox deyil və qabaqlarında xəndəq də qazmışlar. Əmirlərlə məclis keçirən Vəli Məhəmməd xan belə qərara gəldi: Bir halda ki, bu tərəf döyüşçülərinin sayı müxaliflərdən çoxdur, yubanmadan onlara hücum edib məsələni ürək parçalayan oxların (navək) ucu və canlar yandıran qılıncların şö’ləsi ilə başa çatdırmaq olar.

Bu əsnada, xəbər gəldi ki, iki qardaş olan qazaq sultanzadələri padşaha kömək məqsədilə beş min adamla gəlməkdədirlər. Özbək əmirləri bir ağızdan dedilər: "İmamqulu xanın və yoldaşlarının qazaq [ların] köməyindən xəbərləri vardı. Belə halda, onlar qazaq döyüşçülərinin bu tərəfə gəlişlərindən yasa və ümidsizliyə qərq olmuşlar və o dəstə bu hadisədən bərk pərişanlıq içərisindədir". Onlar belə məsləhət gördülər: "Sultanzadələrin gəlib çatmalarına qədər cəngi ləngitmək gərəkdir. Onların gəlişindən sonra isə nə məsləhət olarsa, onu da edərik". Beləliklə, onlar Səmərqənd yaxınlığına yaxınlaşdılar və tərəflərin qarşıdurması baş verdi.

Vəli Məhəmməd xan rəcəb ayının altısında (2 sentyabr, 1612) çaharşənbə günü artıq döyüşə hazır idi. Bu vaxt sultanzadələrin gəlişi xəbəri gəldi. Cənab xan onları qarşılamaqdan ötrü bir dəstə adam göndərdi. Qardaşın biri üç yüz nəfərlə əvvəl gəlib çıxdı. Ali görüş zamanı [xana] ərz etdi ki, mən öz mülazimət istəyimin şövqündən tez gəldim, qardaşım isə ləşkəri və adamlarıyla sabah sizin mülazimətinizə gələcəkdir.

**Vəli Məhəmməd xanın döyüşə hazır olması:**

Vəli Məhəmməd xan onu mehribanlıqla qucaqladı və qucaqlaşmsa (moaneqe) mərasimini yerinə yetirdi. Atalıqlar [sultanzadəyə] ərz etdilər: "Sizin padşahınız uzaq
s.845 (598) yoldan [sabah] gəlib-çatacağı üçün yorğun olacaqdır. Bu gün cəngi saxlayaq və söhbət edək. Sabah isə Allahın köməyi ilə müxalifət ərbablarının işi bitəcək". Buna görə də o gün hərbə başlamadılar və [xan] ali bir məclis üçün ziyafət hazırlığı gördü. Onun bu sultanzadə, onun yaxınları və atalıqları ilə məlikanə bir söhbəti oldu. Rəcəbin yeddisi (3 sentyabr, 1612) və pəncşənbə günü olan ertəsi gün qarovullar belə xəbər gətirdilər: "İmamqulu xan ordusunda böyük çaxnaşma və qovğa vardır. [İmamqulunun] döyüşçüləri özlərinə dəstə-dəstə döyüş libası (cobbe) və yaraq hazırlayıb, atlara suvar olurlar". Əmirlər bu sözlərin əsassız (vahi) olduğunu söyləyib [həmin çaxnaşmanı] müxalifətlərin fərar etmələri və başqa döyüşçülərin gəlişləri ilə əlaqələndirdilər. Xan isə ehti-

yat edib, ali məiyyət döyüşçülərinə də cübbə geymələrini və yaraqlanmalarını əmr etdi. Qoşunlar mükəmməl və məsəlləh olduğu vaxt xan da atlandı, ordunun meymənə cinahı və səfləri hərbə hazır oldu. İndiyəcən heç kim müxalif ləşkərin az olmasına görə araya cəng düşəcəyini ehtimal etmirdi. Vəli Məhəmməd xan da sayca çox döyşçüyə malik olması səbəbindən (vofur) onlardan böyük bir cür'ət (təhəvvor) gözləmirdi. O gün qaravolluar onların ləşkərinin çox olması və hərb niyyətində (daiye) olmaları barədə saatbasaat xəbər gətirirdilər. Xanın əhvalında həyəcan yarandı. Özbəklərin sözlərində dəfələrlə yalan zahir olduğundan, xan təcrübəli hərbiçi, sınaqdan çıxmış adam və xanın dostu olan Mehrab xanın mülazimi Budaq bəy Qacarı öz atalıqlarının birinə qoşub [irəli] göndərdi ki, [İmamqulunun] ləşkərini ehtiyat nəzəri ilə müşahidə etsin, onun keyfiyyət və kəmiyyəti haq-
**s.845** qında mə'lumat gətirsin.

Doğru danışan bir adam (səhihül-qovli) həmin Budaq bəydən eşitdiyini belə söyləyirdi: "Elə ki, atalıqla birlikdə irəli getdik bir təpə üstünə çıxdıq. Səflər bəzəyən yaraqəsləhəli iyirmi min nəfərdən çox olan və nizamla irəli gələn ordu gördük. Hər tərəfdən onların irəlilədikləri zahir olurdu. Atalıqa dedim: "Eviniz yıxılsın! Padşahın duz-çörəyi sizə haram olsun! Ona xəyanət etdiniz! Bu müddət ərzində xana bircə belə düz söz demədiniz ki, öz halının qeydinə qalıb, nəsə bir tədbir fikirləşsin".

Atalıq cavab verdi: "Elə biz özümüz də vəziyyəti belə təsəvvür etmirdik. Olan olmuşdur. Əgər həqiqəti bildirsək, ləşkərən içərisinə qorxu və təlaş düşər". Bir sözlə, biz geri qayıtdıq. Atalıq xana bir neçə dolaşıq sözlər dedi. Mənsə həqiqi vəziyyəti ərz edib dedim: "Bu adamlar sənə qarşı nifaq yolunu tutmuşlar. Kaş ki, qızılbaş ləşkərini geri qaytarmayaydın. Az olduğumuza baxmayaraq, döyüş meydanında padşahı qoruyar, əgər məğlub olsaydıq belə, Allahın köməyi ilə döyüşdən sağ-salamat qurtulardıq. İndi isə yanında olan bu az miqdar adamı zati-şərifinizi qorumaqdan ayırıb heç yerə göndərməyin". Mənim qərəzsiz sözlərimdən iztiraba

düşən xan qızılbaşlara əmr etdi ki, onun yanından uzaqlaşmasınlar. Əskərlər arasındakı məsafə azaldıqda, xan məiyyətinin sol qol cinahında xaraba bir qala nəzərə dəydi. Atalıqlar ərz etdilər: "Əgr müxalifətlər bu xarabaya daxil olub pusqu (kəmingah) qursalar, biz irəli getdiyimiz zaman onlar böyük qolun arxasından gələrək bizə hücum edəcəklər. Yaxşısı budur ki, padşah döyüşçülərindən bir dəstə adam bu xaraba qalanın mühfizəsindən ötəri tə'yin olunsun". Bu işi yerinə yetirməkdən ötrü beş yüz özbək işə başladı. Tədbirli adamlar belə məsləhət gördülər: "Qızılbaşların əksəriyyəti atıcı olduqları və qaladarlığı özbəklərdən daha yaxşı bacardıqları üçün qoy onlar da bizimlə birgə olsunlar". Xan bu istəyi qəbul etmirdi, amma ağsaqqallar sözlərində israr edərək təkliflərini ifrat həddə çatdıdılar. Cənab xan istər-istəməz razılaşdı, Budaq bəyi və təxminən iki yüz nəfər olan qızılbaşları özbəklərə qoşub həmin qalaya yolladı. Onlar atlarını qala ayağında saxlayaraq, piyada yuxarı çıxdılar. Müxalif qoşun yaxınlaşdıqda iki minədək adamı o qalaya göndərdilər. Aralarında böyük döyüş başlandı. Özbəklərin əksəriyyəti qızılbaş atıcılarının gülləlri ilə elə qala ayağındaca həlak torpağına sərildi, bircə nəfərin də qalaya daxil olmaq imkanı olmadı və onlar geri qayıtdılar.

İkinci dəfə də iki-üç min adamla gəldilər, amma heç bir iş görə bilmədilər. Bu vuruşma zamanı Vəli Məhəmməd xana dedilər: "Padşaha kömək üçün beş min nəfərlə gələn qazaq padşahzadəsinin qardaşı nəqşbəndiyyə* [təriqətinin] mürşidinin və o təbəqə sultanlarının yaxınlaşdıqları təriqət sahibi olan xacələrdən birinin tə'kidi və irşadı ilə İmamqulu xana kömək etmək qərarına gəlmiş və bu xanın döyüşçülərinə qoşulmuşdur". Cənab xan qazaq[ların] köməyindən mə'yus oldu, müxalif qoşunun hücumunu, öz ləşkərininsə dağılmasını və sədaqətsizliyini müşahidə etdi, bərk iztiraba qərq oldu, Budaq bəyi və qızılbaşları həmin qaladan geri çağırdı və onlara ondan ayrılmamağı tapşırdı. Amma [qaladakı] özbəklər onları getməyə qoymayaraq dedilər: "Əgər siz getsəniz, müxaliflər ürəklənərək bizə qalib gələcəklər". Məsələ

Budaq bəyə ərz olundu və o, qızılbaşların qalanı tərk etmələrinə mane oldu, qərara aldı ki, qızılbaşları orada saxlasın, özü isə bir neçə nəfəri götürüb [Vəli Məhəmməd xanın yanına] getsin. Budaq bəy yeddi-səkkiz nəfərlə qaladan çıxdı və özünü xana çatdırdı.

O, xanı olduqca iztirablı və qəmgin gördü. Elə bu vaxt qazaq camaatından (mərdome-qəzaq) bir süvari atını çapıb gələrək padşahzadəyə (qazaq sultanzadəsinə – *Ş.F.*) bir söz
**s.846** deyib qayıtdı. Padşahzadə irəli gəlib ərz etdi: "Qardaşım
**(599)** xəbər göndərib dedi ki, mən sizin yanınıza gələrkən, İmamqulu xan artıq yolu tutmuşdu, buna görə də, yanınıza gələ bilməyib, ixtiyarsız olaraq, onlara qoşuldum. Gəlib sizə çatacağımız vaxt qoşun səfini pozub ali məiyyətə qoşulacağam".
**s.847** [Xanın yanındakı qazaq qardaş isə] irəli getmək və müxaliflər əgər onun qardaşı ilə vuruşarsa, qardaşını müdafiə etməkdən ötrü [xandan] rüxsət istədi. Vəli Məhəmməd xan anladı ki, bu hekayət həqiqət deyil. Ağsaqqallar ilə məsləhətləşdi. O vaxt xanın varlığı və yoxluğunun (vocud və ədəməş) fərqi olmadığı üçün, xan bu qazaq sultanzadəsinin burada olmasının heç bir xeyrini görmədiyi üçün məcbur olub getməyinə izn verdi. Sultanzadə qazaq qoşunu ilə ayrıldı. O, padşah məiyyətindən azca aralanan kimi bivəfalıq edərək müxaliflərə qoşuldu. Onun bu hərəkəti qol [cinahının habelə] cəvangar və bərangarın pozulmasına səbəb oldu.

**Buxara padşahı Vəli Məhəmməd xanın öldürülməyi:**

Bu vaxt İmamqulu xan qoşunundan təxminən on-on beş min döyüşçü birdən-birə xana tərəf yürüşə başladı. Bu vəziyyəti müşahidə edən Vəli Məhəmməd xan geri çəkilməyi (həzimət) və fərar etməyi özünə ar bildi, qəhrəmanlıq qılıncını çəkdi və o qoşunun qarşısına çıxdı. Onunla birlikdə olan qol [cinah] döyüşçüləri və əksər özbək böyükləri hərbdən əl çəkdilər. Xan isə iki-üç nəfərlə özünü o xunxar ləşkərə vurdu. Tozanaqdan və döyüş meydanı süvarilərinin çoxluğundan dost və düşmən, qalib və məğlub bilinmirdi. Toz bir qədər yatdıqda İmamqulu xan adamlarının biri Vəli Məhəmməd xanı tanıdı.

O, gördü ki, xan meydanda yaralı vəziyyətdə yıxılıb qalmış və özünü müdafiə etmək qüdrətini itirmişdir. Elə o ləhzə xanı özüylə götürüb İmamqulu xanın yanına gətirdi. Xəmiriləri fitnə-fəsaddan yoğrulan özbək əmirləri onun qətlinə tələsdilər. Elə həmin dəm də o bəxti dönmüşü həlak torpağına sərdilər və xanın vücud yazısını həyat lövhəsindən sildilər. Bir-birlərinin qohumları olan xan ləşkərinin qalan hissəsi bir-birlərinə qarışdılar. Həmin döyüşdə hər iki tərəfdən iki yüz-üç yüz nəfərdən çox adam öldürülmədi. Bu vəziyyəti müşahidə edən Budaq bəy və yoldaşları qaladakı qızılbaşların həyatlarından naümüd olub, öz hallarının qeydinə qaldılar, döyüşə-döyüşə özlərini özbəklərdən xilas etdilər, günü gecəyə çevirib, libaslarını dəyişərək sübhədək yol getdilər. Onlar gündüz vaxtı gizlənirdilər və yüz təşvişlə özlərini pay-piyada halda Buxaraya çatdırdılar, orada Mərv tacirlərinə qoşulub tacir libasında Mərvə gəldilər. Qalada qalan qızılbaşların otuz-qırx nəfəri isə tədriclə iki-iki, üç-üç yola çıxıb hiylə işlədərək sağ-salamat Mərvə çatdılar. Başqalarından heç bir əsər-əlamət görünmədi. Təbriz darüssəltənəsində şahın yanına gələn Budaq bəy vəziyyəti, yuxarıda yazıldığı kimi ona danışdı. Ə'lahəzrət zilləllah şah çox təəssüfləndi, xanın Heratda olan oğlu Rüstəm Məhəmməd Sultanın yanına bir adam yollayıb, ona təskinlik verdi, gözəl və şahanə xəl'ətlər göndərərək, Xorasan bylərbəyi Hüseyn xan Şamliya əmr etdi: “Atasının vaqiəsi xüsusunda ona təsəlli ver. İnşallah onun işləri Allahın qisməti (moqəddər) və padşahın zəhməti (məysur) ilə nizamlanacaqdır. Onu yaddan çıxartmayacağıq”. Amma, son nəticədə İmamqulu xanla qazaq sultanları arasında fitnə-fəsad yarandı, bir neçə il savaşdılar, o üsyankar (taği) haramnəməklərin çoxu həmin döyüş meydanlarında (məarek) öldürülərək, öz cəzalarına çatdılar.

## QALİBİYYƏTLİ MƏİYYƏTİN AZƏRBAYCANA TƏRƏF YOLLANMASI VƏ O XOŞ GÜNLƏRDƏ BAŞ VERƏN HADİSƏLƏR

Əlahəzrət zilləllah şah bu ilin bahar fəsilinin üç ayını İsfa-
**s.847** han darüssəltənəsində işrət və şadyanalıqla keçirib, özbək padşahını yola saldıqdan sonra Azərbaycana tərəf hərəkət etdi. Fəridən və Ağ Ələng yolu ilə rəvan oldu. Şah ağır yükləri aparan ordu hissəsini Ağ Ələngdən Sultaniyyəyə göndərərək, özü bir neçə yaxın adamı və məiyyət mülazimləri ilə birlikdə Həsənxan və cığatay əmiraxurbaşısı Mehdiqulu bəyin sərkarlığı ilə tə'mir olunan Nəhavənd qalasını müşahidə etməkdən və onun əgər-əksiyini bilməkdən ötrü Nəhavəndə təşrif apardı. O, Nəhavənd, Toysərəkan və o ətrafın istirahət yerlərində bir neçə gün seyr və şikarla məşğul oldu, sonra Sultaniyyə çəməninə gəlib, müzəffər orluya birləşdi. Öz əmirləri və süvari əsgərləri ilə Allahverdi xan da həmin çəmənə gələrək onu görməklə şərəfləndi. Qalibiyyətli əsgərlərin yığışmasından sonra gələn əzəmətli ordu oradan çıxıb Təbrizin Ucanına tərəf hərəkət etdi. Ə'lahəzrət öz yaxın adamları və xidmətçiləri ilə birlikdə onlarlan ayrılıb, övliyalar sultanı və qiymətli səfəvi şeyxlərinin məzarlarını ziyarət
**s.848** etməkdən ötrü Ərdəbil darülirşadına yollandı, bu böyük səa-
**(600)** dət xoşbəxtliyinə yetdikdən sonra geri qayıdaraq Ucan yaylağında müzəffər orduya birləşdi. O, gözləyirdi ki, əməl olunmaqdan ötrü Rum sərdarı tərəfindən sülh, yaxud cəng barədə nəsə bir xəbər gələcəkdir. Bundan əvvəl yolçulardan humayun şaha Murad paşanın natəvanlıq yatağına düşərək fani aləmə vida etməsi və sərdarlığın Diyarbəkr hakimi Həcuh paşaya verilməsi, onun sərhəd işləri, habelə vəzarət və sərdarlarla məşğul olması xəbəri çatdı. Elə o vaxt rum üləmalarından təcrübəli, dilli-dilavər bir adam olan Mardin qazisi Nəsuh paşa tərəfindən ali dərgaha elçi sifətilə (resalət*) yola düşdü, Ucan yaylağında əlahəzrətlə görüş səadəti ilə sərəfraz oldu. Səltənət işləri barədə söhbətdən sonra öz elçilik xidmətini yerinə yetirməyə başladı. Onun elçilinin məqsədi

belə idi: Xandgar tərəfindən sərdarlığın və qızılbaşlarla sülh, ya cəng məsələsinin ixtiyarı Murad paşaya verilməsindən sonra həmin səlahiyyət bu xeyrxah bəndəyə (yəni Mardin qazisinə – *Ş.F.*) verildi. Sülh müqaviləsi (qərardad) bu şərtlərlə hazırlanmalıdır: Tərəflər müsəlmanların yaxşı yaşamalarından ötrü sülh işini gərək Murad paşanın sağlığında razılaşdırıldığı kimi davam etdirsinlər. Allaha şükr olsun ki, yaxşılıq etmək istəyən bu adam (yəni Mardin qazisi – *Ş.F.*) iki ali məqamlı padşah arasındakı düşmənçiliyin bitməsi və bu xeyir işin ruzigarın həyat səhifəsində yadigar qalması məqsədilə buraya gəlmişdir. Mən gərək ətəyimi çırmayıb faydalı sülh işini möhkəmlədim. Hazırda xahişim budur: Sabiq elçi Məhəmməd bəyin gedişi-gəlişi uzandığından, gərək bu məsələnin nizamlanmasından ötrü şan-şöhrətli bir qızılbaş əmiri tə'yin olunsun, habelə məhəbbət üslublu və dostanə bir məktub da yazılıb verilsin ki, elçi İstanbula getsin, sülh müamiləsini şahın istəyinə uyğun şəkildə həyata keçirə bilək.

Elmi və fəzilətinə görə həmin elçini alicənab sədr Qazi xan Sədrəlhəsənin evində yerləşdirdilər.

**Şah Abbasın Təbrizə varid olması:**

Ə'lahəzrət rəcəb ayının əvvəlində (28 avqust, 1612) Ucandan çıxaraq Təbriz darüssəltənəsinə yollandı. O diyarın bütün əhalisi müzəffər məiyyətin istiqbalına çıxıb, öz sədaqətlərini izhar etdilər. Təbrizin havası Şəbdiz atının dırnaqlarından qopan tozlar və eləcə şahın özü kimi ətirləndi, ə'lahəzrət Təbrizdə böyük və alişan seyid, xoşəxlaq, aliməqam, ali sədarət mənsəbini daşıyan və İran mülkü ruhanilərinin ən üstünü (təqəddom) olan Qazi xanı Rum resalətinə[*] tə'yin etdi. Padşahın inayəti ilə min tüməne-İraqi məbləğində nəğd qızıl pul, habelə bə'zi mallar və səfər üçün zəruri yaraqlar ona verildi. Səfər zamanı, Qazi xanla yoldaş və həmsöhbət olmalarından ötrü bu diyarın fazil adamlarından Qazi Müizz İsfahanini, ruzigar alimlərindən olan Mövlana Sultanhüseyn Nəduşəni Yəzdini, sabiq İsfahan qazisi Qazi Mömini və Ərdəbil təbibi Həkim Əbdini qiymətli hədiyyələrlə sədrə
**s.848** həmkar etdilər. Rum padşahı Sultan Əhməd xana dostanə bir

məktub da yazıldı, həmin məktubda bə'zi hikmətli və ürəkaçan sözlər və həqiqəti əks etdirən kəlamlar yazılmışdı. Layiqli hədiyyələr, [o cümlədən] qumaş və ipək parçalar, qızıl və gümüşü saplarla işlənmiş paltarlar və əcəm diyarının başqa nəfis şeylərini Qəzvinin əzəmətli Mə'rəş seyidlərindən olan Dərviş bəyə verib adı çəkilən əzəmətli sədrin xidmətinə yolladılar. Osmanlı sarayının qazilərinə və din adamlarına da bu məzmunda lütfkarlıq məktubları yazıldı: "Həzrət Allah-təala bütün islam əhlini şəriət yollarına və millətin məsləki istiqamətinə yönəltdiyi üçün, gərək islam höfzəsinin bütün padşahları öz diqqətlərini müsəlmanların vəziyyətinin yaxşılaşmasına yönəltsinlər. Qoy arada olan düşmənçilik və dava-dalaş şəriətə üyğün rəf' olsun, islam qüvvətlənsin, kədər və zülm bayraqları müsəlmanların dincliyi naminə hər iki tərəfdən dalğalansın". Cənab sədr həmin səfarətə lazımi şəkildə hazırlaşaraq, onunla birlikdə yola düşəsi olan yüz nəfər mülazim və bir dəstə *türk və tacirlə* öz məqsədləri istiqamətinə rəvan oldu. Ə'lahəzrət zülləllah şah rəcəb, şəban və ramazan aylarını (28 avqust, 27 sentyabr, 26 oktyabr, 25 noyabr, 1612) ürəkaçan Təbrizdə şad-xürrəm keçirib, zəruri dövlət işləri, əhaliyə köməklik, əsgər və rəiyyətin məqsəd və vəzifələrinin əncamı ilə məşğul oldu, boş vaxtlarını ov seyrinə, çövkan və qəbəqəndazi oyunlarına tamaşa etməyə sərf etdi, orucluq ayı (mahe-səyam) bitəndən sonra bir neçə gün müzəffər əsgərlərin rəsmi-keçidinə, ordu mülazimlərinin və yasaqa cəlb olunmuş adamların ərizəlrinə baxdı, onunla görüşə gələnlərə öz yerlərinə qayıtmaq izni verdi. Rə'bi-Rəşididə yeni salınan qalanın inşası bitdiyinə görə köhnə qalanın dağıdılmasına hökm etdi. Həmin qalanın ətrafını və
**s.849** dörd tərəfini xidmətçilər və başqa qulluqçular üçün ayırdılar,
**(601)** çox möhkəm və uca olan köhnə qalanı qazilər on gün ərzində darmadağın etdilər. Çayın suyunu qalanın ortasına gətirib çıxardılar, qədim dövlətxana binasından və bu neçə ildə tikilmiş başqa imarət, ev və mənzillərdən heç bir əsər-əlamət qalmadı. Ali divanın mənsəb sahiblərinə əmr olundu ki, mürşid İsfahan darüssəltənəsinə gedərək ülufə və ordu vergilərinin

yığımına başlasın. Ə'lahəzrətin özü isə bir neçə yaxın adamı ilə Gilan və Mazandaranqa seyr və şikarla məşğul olduqdan sonra Əhər və Təvaleş yolu ilə fərəhbəxş və ürəkaçan diyara (Mazandarana – *Ş.F.*) yollandı.

### QALİBİYYƏTLİ VƏ KƏSRA ŞÖHRƏTLİ ŞAHIN MAZANDARANA YOLLANMASI VƏ FƏRƏHABAD ŞƏHƏRİNİN ƏSASININ QOYULMASININ ZİKRİ

Yuxarıda yazıldığı kimi, ə'lahəzrət zillələllah şah o tərəfə (Mazandarana – *Ş.F.*) yollandı. Təvaleş və Çilanat mahalının (mahal) hansı yerinə (məhəl) gedirdisə həmin mənzərəli yerdə bir neçə gün dayanıb dincəlir, böyük istəklə seyr və şikarla məşğul olur, hamıya sevinc bəxş edirdi. O, mülazimətdə və şah ordusunda olanların hamısı ilə – qala adamları, yaxınlar, qohumlar, nədimlər, müsiqiçilər, qorçilər və başqa dərgah mülazimləri ilə özünün mehmanları kimi davranırdı. Baxmayaraq ki, bütün əskərlərin yemək-içməkləri (məişət) bu dudmanın dəstərxanında həmişə hazır vəziyyətdə olurdu, ə'lahəzrət məhəbbət, şəfəqqət və mərhəmətinin (rafət) çoxluğundan onların gündəlik ehtiyacları ilə məşğul olur, ümumiyyətlə, o irəkaçan vilyətdə olduğu zaman hər gün hər adamın ehtiyacını onun vəziyyətinə münasib olaraq xasseyi-
**s.849** şərifə sərkarından ödəyir, onun bütün adamları (Rofəqa) padşahın ne'məti və şahənşahın ə'namlarından (ətaya) bəhrələnirdilər. Əlahəzrət təmtəraqla irəkaçan və behiştinişan Mazandaran vilayətinə gəlib-çatdı, o vilayətin gözəl qəsəbələrini şadlıqla seyr etdi, şikarlda məşğul oldu, *Xəzər dənizi* sahilində yerləşən və bundan əvvəl adı *Tahan* olan gözəl Fərəhabad adlı yerdə dayandı, oranın cənnətə bənzər mənzillərinə və özündən əvvəl təbiət me'marının saldığı bağlara nəzər saldı və orada dayandı.

Həmin ziynətbəxş məkan şəhər yeri kimi münasib olduğundan, orada şəhər salına bilərdi, çünki ortadan Təcinərud adlanan çaylar axır, [o yer] iman büqə'sində olduğu kimi su və nəhrlər axınına qərqdir və axıntıların hamısı dəryaya tökü-

lür. Dəryanın suyu isə sakinlərin və oranı görənlərin nəzərincə zamanı və zəmini (yer – *Ş.F.*) yaradanın gözəl (bədaye) əsəridir. Xosrovanə fikir o yerin abadlaşdırılmasına və yenidən qurulmasına (tə'mir) yönəldi, Təcinərudun kənarında gözəl mənzilli ali evlər və hümayun bir dövlətxana inşa etmək barədə düşündü. [Şah] burada olduğu müddətdə həmişə hamıya öz fərəh və sevincini bildirirdi. [Ə'lahəzrət] insana rahatlıq (fərəc) bəxş edən o yeri Fərəhabad adlandırdı.

[Beləliklə,] hər il orada imarətlər, bağlar, bazargahlar, hamamlar, məscidlər, karvansaralar bina olundu və Fərəhabadın [inşası] tamamlandı. O yerdən Sariyədək dörd fərzəx məsafədir. Bu məsafə arasında [şah] bir xiyaban salınması üçün əmr verdi, yağıntının və palçığın çoxluğundan, həmçinin o vilayətin bir kənarının sərhədə yaxın (darülmərz) olması səbəbindən həmin xiyabanı daşlardan inşa etmək qərara alındı ki, qoy bu yer gil və palçıq altında qalmasın. Bütün əmirlər, dövlət başçıları və ə'yanlar o xiyabanın ətrafında və çayın kənardarında gözəl evlər (mənzil) tikdilər. Vaxt ötdükcə ətraf yerlərdən hər təbəqədən olanlar və əsnaf camaatı (peşə sahibləri-*Ş.F.*) o tərəfə ümid üzü tutaraq həmin fərəh evində (darül-sürur) yaşamağa başladılar, hər tayfa orada mənzil və məhəllələr inşa etdi, saraylar (talar) ucaltdı. [Beləliklə, indi] Təcinərud çayının suyu şəhərin ortasından axır ki, üstündə ali bir körpü salınmışdır. İqbal dibaçəsinin şirin dilli qələmlə yazıldığı bu gün hicri tarixlə min on beşinci ildir, Ali hümayun şahın ali diqqəti nəticəsində o gözəl şəhər gözəl imarətlərinin, bağlarının, bostanlarının və əhalisinin çoxluğundan bütün aləm şəhərlərinin həsədinə səbəb olmuşdur. Həmçinin, o mülkün başqa qəsəbələri, xüsusən hər biri rövzeyi-rizvandan bir nişanə olan və hər parça torpağı cənnətin qibtəsinə gələn Amil, Sari və Barforuşdehdə ürəkaçan imarətlər və bağlar inşa olunmuşdur. [Şəhər] olduqca qəşəng və ürəkaçan tərzdə salındı. Oranın hər mərhələsindəki yollarda ali məiyyətin qalıb dincəlməsindən ötrü olduqca gözəl imarətlər tikildi. Sərhədyanı şəhərlərdə həmişə yolların darısqallığı, nahamarlığı, meşə və cəngəllərin sıxlığından bu

yerlərdə dəvə[lər] get-gəl etmir, oranın adamları Allahın bədaye qüdrətindən yaranan və bu kəramətli ifadəyə uyğun olan "məgər dəvəyə baxmırlar ki, necə yaradılmışdır?"[1] həmin qəşəng xilqəti (bədiül xilqət) görməmiş[di]lər. Həmin
s.850 behiştnişan yer ə'lahəzrətin qışlaq yeri oldu. Bu yerə müzəf-
(602) fər əskərlərin, ehtiyac ərbabının (ərbabe-hacat), ticarət adamlarının, dəvə bazarı (sovq) alverçilərinin və saysız-hesabsız mal-qaranın gətirilməsi zamanı palçığın çoxluğu, fələk ucalığındakı qorxulu dağların hündürlüyü səbəbindən çox tələfat oldu, yolçulara və zəfər şüarlı əskərlərə xeyli zərər dəydi. Şəhriyar Mazandaranın ən böyük yolu olan Səvadkuhu da inşa etmək fikrinə düşərək, bu xeyrxah işi o mülkin vəziri Mizzə Təqiyə tapşırdı. Qərara alındı ki, bu yolun inşasına çoxlu adam (əmələ) cəlb olunsun və onların əmək haqqı (üsrət) həmin mülkün divanından ödənilsin. Adı çəkilən vəzir tabeliyində olan qulamlarla birlikdə işə möhkəm başla-
s.850 yaraq, aqillərin nəzərincə olduqca çətin olan bu yolun icrasına girişdi, uzaq yerlərldən daş, əhəng (ahək), kərpic və qum daşıdılar və qısa bir müddətdə həmin iş yerinə yetirildi, yollar arasında təbaşir (gəç), kərpic və əhəng qarışığından ibarət möhkəm körpülər salındı. Xoş təsadüflərdəndir ki, bu böyük işin [maddeyi-] tarixi "kar xeyr"dir ("işin xeyirli olsun" – *Ş.F.*). Şahın nurlu beynində başqa işlərin inşası da dolanmaqdaydı ki. onların həyata keçiçrilməsi barədə bütün sərhədlərdə, xüsusilə Mazandaranda iş sahiblərinə və ə'yanlara humayun hökm verildi. Bu haqda kitabın ikinci səhifəsinin dibaçəsində və belə xeyirxah işlərin tarixində yazılacaq, min otuz birinci il (1621/1622) hadisələrinin şərhində mə'lumat veriləcəkdir.

Bu il də qələm özünü saxlaya bilmədi və məqamı gəldiyinə görə görülən işlər barədə yazdı. [Belə ki,] fələyin fərmanına əsasən (həsbol-fərmane-qəza) bütün yollar genişləndi, enişyoxuşlu yerlər hamarlandı, gil və palçıqlı yollar quruduldu. Bu gün həmin yolllarla gecə-gündüz dəvələr qatar-qatar getməkdədir. O diyarın bütün əhalisi şahanə ədalət kölgəsi

[1] İfadənin ərəbcəsi: "Və iləl-keyfə xuliqət?"

altında asudə ömür sürür, [şahın] qədəmlərinin bərəkətindən faydalanırlar.

Xülasə, ə'lahəzrət qış fəslini həmin cənnətməqam şəhərdə başa çatdırdı, baharın xoş günlərinədək seyr, söhbət və şikarla məşğul oldu. Elə bu vaxt novruz bayraqlarının təntənəsi (kovkəbe) cahanı işıqlandıraraq torpağın rəngini (bəsit) dəyişdi. Başqa hadisələr və vəziyyət haqqında ənbər ətirli qələm yeni ildə məlumat yazacaqdır.

**Məşhur vəfat edəndər:** Bu il əcəl camından ləzzətsiz (naxoşgəvar) ölüm şərbəti nuş edənlərdlən [biri] əzəmətli qorçilər vəziri Məlik bəydir. Onda sidik kisəsi (məsane) xəstəliyi vardı.

**Qorçilər vəziri Məlik bəyin vəfatı:** Çox əziyyət çəkdikdən və çoxlu daş tökdükdən sonra (xoruce-əhcar) gündən-gündən zəifləyirdi. Buna baxmayaraq, elə əvvəlki təki, işləyir və xidmət borcunu yerinə yetirirdi. Təbrizdən geri dönərkən yolda onun zəifliyi artdı, ata süvar ola bilmədi. Miyanca qədər tamamilə zəiflədi, Nikpey karvansarasında (robat) üqba səfərinə yollandı. O, Həmədan qəsəbələrindən olan Əsədabad məlikzadələrindən idi. Gəncliyinin başlanğıcında Xorasana getdi, xeyli çalışdıqdan sonra ə'lahəzrətin qələm ərbabları silkində xidmətə başladı, əzəmətli qorçilər mustovfisi vəzifəsinədək yüksəldi, Mürşidqulu xanın qətlindən sonra İraqda qorçilər vəziri oldu. Xoşəxlaq adam idi. *Türki* və farsi şe'rlərinə tam əlaqəsi vardı. Bundan iki-üç il əvvəl faydalı Hicaz* səfərinə getdi və Həcc səadətinə yetdi, beytullahül-həramın və həzrət seyyidül-ənamın (xalqlar seyyidinin – *Ş.F.*) ziyarəti ilə sərəfraz oldu. Onun cəsədini müqəddəs Məşhədə aparıb mübarək (mötəbərrek) rövzədə dəfn etdilər.

**Ağa Əbülfət İsfananinin vəfatı:** Ağa Əbülfət İsfahani də qələm ərbabları silkinin ümdə adamlarından idi. Dəqiq mühasib, nəfsi tox, əli düz şəxs idi və şah sərkare-xassəsinin mustovfisi vəzifəsində çalışırdı. O, müzəffər ordu ilə Mazandarana getdi, Gilan Lahicanında xəstələndi və üqba aləminə cumdu. Onun

vəzifəsi İsfahan seyidlərindən olan Xacə Əli Əkbər İsfahaniyə verildi. Onun ata-babası (pedəran) İsfahanda xanəgah guşənişinlərindən (təcərrodgəzin) olub zəvalnuniyyə* təbəqəsinin şeyxlərindən və əhlüllahlarından olmuşlar. Xacə Əli
**s.851** Əkbər tay-tuşları arasında (beynül-əqran) bu uca rütbəyə layiq görülməyi ilə sərəfraz oldu.

Bin Fəhl, Kəbəç və Mokranın hakimi Şahverdi Sultan Kürd Mahmudi bu il Bin Fəhldən ali saraya gəlməkdəydi. İsfahan yaxınlığında xəstələnib bəqa aləminə yollandı. Qardaşı Şirazi Sultan onun yerinə Bin Fəhlin hakimi vəzifəsinə tə'yin edildi. Belə qərara alındı ki, Gəncəli xan Zeyək Kirman döyüşçüləri ilə o vilayətə ləşkər çəkərək, Bin Fəhl qala-
**s.852** sını məkrli (məkkar) mokranilərdən alıb ona versin.

s.853 (603)

## TÜRKİCƏ MİN İYİRMİ BİRİNCİ SİÇAN İLİNƏ BƏRABƏR OLAN (1612/1613) VƏ ZİLLƏLLAH HÜMAYUN ŞAHIN CÜLUSUNUN İYİRMİ ALTINCI İLİNƏ TƏSADÜF EDƏN GÖZƏL AMALLI İLİN BAŞLANMASI

Bu qalibiyyətli ilin novruzu məhərrəmül-həram ayının on altısına seşənbə gününə təsadüf etdi, yəni aləmi işıqlandıran, dünyanı nizama salan (morəttəb) və Adəm övladının zəruri ehtiyacı olan günəş İlahinin böyük hikməti sayəsində hutdan keçirilib həməl bürcünə təhvil verilidi, bahar əyyamının təravəti [bütün] cahana səfa qardaşlarının (ixvanüs-səfa) qəlbi kimi nur və ziya bəxş etdi, torpağın ağuşunda gizlənən çəmən gülləri yenidən ulduzları və fələkləri yaradan [Allahın] hökmü ilə yerin dərinliyindən (məğak) baş qaldırdı, dünya fərvərdin ayının və bahar əyyamının təravətindən, yağıntı və rütubətdən (tərəşşoh) təzə-tər oldu, gül-çiçəklər insanlara ətir səpdi. Əlahəzrət zilləlah şah, əvvəl dediyimiz kimi, behiştə bənzər Mazandaranda kamyab olmaqda idi. Sevinc artıran bahar fəsli bitdi və o diyarın havası istiləşməyə başladı, şahın mübarək ürəyinə Gilan əhalisinin bayram və şadyanalıq mərasimlərində iştirak etmək istəyi baş qaldırdı. Gilanlılar münəccimlərin hesablamaları əsasında hər il bahar fəslinin üç ayı bitdikdən sonra əcəm əhli arasında "*su səpənlər günü*" "*ruze-abpaşan*" adlandırılan və beş gün davam edən mərasimi bayram edir, böyük-kiçik, kişi-qadın dərya kənarına gələrək həmin beş günü şənliklə keçirirlər. Hamı ağır libaslarını soyunur, öz adamlarıyla birlikdə suya girir, bir-birləri ilə abbazi (su oyunu – *Ş.F.*) edir, şadlanır. Həqiqətən də maraqlı tamaşadır.

Xülasə, hümayun məiyyət Fərəhabaddan Mazandarana tərəf hərəkət etdi, gəlib Gilanın Rankuhuna tabe Rudesər qəsəbəsinə çatdı, o şadlıq məclisinə tamaşa etdi, Gilanda oranın vəziri Behzad bəy sabiqdə etdiyi bə'zi səhvlərə görə şah qəzəbinə gəlib cəzalandırıldı, onun dövründə yığılası divan

vergilərinin qalıqları (bəqaya) və yoxlanışı söhbət yasovulu Şahverdi bəy Bayburdluya və Lütfəlixan bəy Dəvamdara tapşırıldı. Ordan çıxan [şah] darülmüvəhhedin (tək Allaha inananlar evi-*Ş.F.*) olan Qəzvinin seyrinə yollandı, bədxah adamların ürəyi kimi dar bir yoldan keçərək Qəzvinə daxil oldu, oranın mübarək dövlətxanasında dayandı. Bir müddət
**s.853** həmin bərəkətli (dövlətəfza) məkanda yeni gözəl bir imarətin
**(604)** inşası ilə məşğul oldu ki, o imarət [də] şahın yüksək sə'yi ilə tikilən binalardandır. [Şah] orada çovganbazi və qəbəqəndazi oyunlarının ləzzətinə daldı.

Bu il Qəzvin darülmüvəhhedininin hakimliyi həzrət cənnətməkan şahın bacısı oğlu Şahəli Mirzə Ustaclının oğlu Salman xana-bu dudmanın əzəmətli üzvlərindən birinə verildi. Amma o, xəsis və bədəməl mülazimlərin təhriki ilə Qəzvinin bütün işlərinə müdaxilə etdi, az vaxt ərzində o vilayət əhalisi Salman xanın bədəxlaq və tamahkar əmələ və işçilərindən
**s.853** fəryada gəldilər, xan cəzaya və əmlakının müsadirə olunmasına mə'ruz qaldı, iki ilədək zəncirlənərək (səlasel) etdiyi sui-əməllərin cəzasını çəkdi. Hümayun fallı məiyyət oradan qalibiyyət və iqballa çıxıb Dəmavəndə təşrif apardı, Lar və Firuzkuh yaylaq yolu ilə mələk aşiyanlı həzrət-imaməl-cinn və-l-ünsün ziyarəti üçün müqəddəs Məşhədə tərəf hərəkət etdi.

## MÜQƏDDƏS MƏŞHƏDƏ HÜMAYUN [ŞAH] SƏFƏRİNİN ZİKRİ, MÜBARƏK RÖVZƏ SAHƏSİNİN (SƏHN) GENİŞLƏNDİRİLMƏSİ, XİYABANLARIN VƏ ALİ İMARƏTLƏRİN İNŞASI VƏ BAŞQA İŞLƏRİN İCRASININ ZİKRİ

Rza rövzəsinin sultanı uyuyan müqəddəs torpağın (torab) ziyarəti üçün ə'lahəzrət cahan-cahan ürək çırpıntısı və aləm-aləm istək və hüsni-e'tiqadla müqəddəs Məşhədə gəlib çatdı, səkkizinci imam əleyhüssəlamın uca astanasını təvaf etməklə müşərrəf oldu. Onun cahanı bəzəyən fikri, xeyirxah niyyəti torpaqların abadanlığı və xeyriyyə ocaqlarının tə'mirinə

yönəlmişdi. Buna görə də müqəddəs rövzənin əhatə etdiyi sahənin genişlənməsinə çalışdı, çünki sabiq sahə, uca rə'yə görə, darısqal və kiçik (təng-o həqr) idi. Pak rövzənin yerləşdiyi Mir Əlişir qəsri (eyvan) tutduğu sahənin cənub səmtində yerləşirdi, üzü şimala tərəf idi, bir guşəni əhatə edir və olduqcu yaraşıqsız (bədnoma) görünürdü. Bədaye' elmləri mühəndislərinin ustadı (daneşamuz) olan o həzrətin sağlam (səlim) ilhamı və müstəqil elmi bu qərara gəldi: Artıq dağın-
**s.854** tılara mə'ruz qalan və sahənin şərq tərəfində yerləşən evləri
**(605)** söküb o torpaqları rövzə sahəsinə əlavə etsinlər və elə olsun ki, adını çəkdiyimiz qəsr sahənin tam ortasında qalsın; sahənin şimalında olan və üzü cənuba yerləşən və həmçinin şərq və qərb istiqamətlərdə mövcud olan yerlərində başqa qəsrlər tikilsin; orada dörd uca qəsrdən ibarət ikinci bir yeni sahə salınsın; şəhərin qərb darvazvsından şərqə doğru elə bir xiyaban çəkilsin ki, hər tərəfdən mübarək sahəyə uzansın və qəsrlərin ortasından keçsin.

Su qıtlığından əziyyət çəkən müqəddəs Məşhəd sakinlərinin və rövzə zəvvarlarının tə'min olunmalarından ötrü həzrət buyurdu: Çaylardan qollar ayrılsın, yeni kanallar (qənəvat) çəkilsin, onlar şəhərə istiqamətləndirilsin, xiyabanlardan ayrılan yollar arasında-sahənin düz ortasında böyük bir hovuz inşa olunsun ki, həmin hövuzdan axan su xiyabanın şərqində-mübarək rövzənin aşağı tərəfində cari olsun, mühəndisme'marlar və diribaş ustalar işə başlayraq, az vaxt içərisində bütün əməlləri müqəddəs Məşhəd hakimlərinin sərkarlıqları ilə şahın istəyinə uyğun yerinə yetirsinlər, [sahənin görünüşü] olduqca gözəl və yaraşıqlı şəkil alsın. Hal-hazırda o qəşəng şəhər əvvələn, həzrət imam qəbrinin nuru, ikinci isə Rza torpağının iksirli tə'sirindən doğan ə'lahəzrət diqqəti nəticəsində canlandı, Xorasan şəhərlərinin ən abadanı və cənnətin qibtəsinə ən çox layiq görülən yer oldu. Həmçinin, şəhərin bir fərsəxliyində yerləşən möhtərəm Xacə Rəbiül-Xeysəmin (?) mübarək məzarı tə'mir olundu, qəbrin üstündə bir imarət tikildi, onun yaraşıqlı görünməsindən ötrü bərk cidd-cəhd olundu. Nişapurdakı tə'rifə ehtiyacı olmayan

Qədəmgah* binası da, şahın əmrinə görə tə'mir olundu. Belə ki, Qədəmgah dağ ətəyində yerləşdiyi üçün dağ ətəyindən axan su oraya tökülür. Şah buyurdu: Fəvvarələr tikilsin, imarətdən ümumi yola qədərki yarım fərsəxlik məsafədə xiyaban salınsın, xiyabanın hər iki tərəfindən su axsın, ağaclar əkilsin. Müqəddəs rövzə ziyarətində olarkən şah boş vax-
**s.854** tında həmin şərafətli yerə getdi. Qələmin dili o yerin gözəlliyi və yaşıllığının çoxluğunu, imarətin yaraşığını və bəzəyini vəsf etməkdən acizdir. Buna görə də bir daha bu haqda yazmırıq, onun tə'rifini oranı görənlərə həvalə edirik. Ümüdvarıq ki, [həmin iş də] o böyük hümayun şəxsin savab işlərindən biri kimi qəbul olunacaq, onun ömrünün uzaldılmasına və dövlətin imdadına səbəb olacaqdır. Amin, ya Rəbbül-aləmin!

Xülasə, o həzrət doqquz günədək müqəddəs Məşhəddə dua, ziyarət və rövzəyə başqa xidmətlər etməklə məşğul oldu, ehtiyacı olan adamların mətləb və məqsədlərinin divan adamları vasitəsiylə həll edilməsinə yardımçı oldu, onuncu gün şəhərdən çıxdı. Xorasan bəylərbəyi Hüseyn xan Şamlı bir neçə nəfərlə şahın mülazimətinə getdi. O, geri qayıdışı əsnasında böyük xacənin məzarının yanında olarkən oranın dövlət və iqbal çadırları ilə dolu olduğunu seyr etdi, onun sədaqət gözü yenidən hümayun şah qədəmləri dəydiyi torpaqla işıqlandı, bir neçə gün şah mülazimətində qaldıqdan sonra inayət və iltifatla əhatə olunaraq (məşmul) geri qayıtdı.

Bu səfərdə dövrünün böyük [şəxsiyyət] və ə'yanlarından olan Xacə Cəlaləddin Əkbər Quryani öz rəftarı, tamahının azlığı, bacarıqı və layiqli xidmətinə görə bütün Xorasanın vəziri kimi qədir-qiymətli vəzifəyə tə'min edilməklə sərbülənd oldu. [Şah] oradan geri dönmək qərarına gələrək Dəsti-Bəhryan yolu ilə seyr və şikar edə-edə Astrabad darülmömininə gəlib-çatdı, bir neçə gün o yerin (molk) ehtiyaclı adamlarının istəklərinə diqqət yetirdi, Astrabad hakimi Firidun xan [şaha] layiqli ziyarət verdi, xidmət göstərdi. [Ə'lahəzrət] oradan çıxıb Mazandaranda qışlaq etmək əzmi ilə cənnət əsaslı Fərəhabada daxil oldu.

## BEHİŞTNİŞAN MAZANDARANIN ƏŞRƏF [ADLI] ŞƏRAFƏTLİ QƏSƏBƏSİNDƏ İMARƏT İNŞASI

O il, Allah karxanəsinin bədaye' və sənaye' işləri üzrə ən tə'limli (dəstamuz) insanı olan hümayun şahın sə'y memarının köməyi ilə, Pənchezar adlanan, Astrabad darülmömininə yaxınlıqda yerləşən Mazandaran qəsəbələrindən və həqiqətən də paklıq və yaşıllığa görə şərafətli qəsəbə olan Əşrəfdə hümayun iqamət məqsədi ilə ali bir imarət tikilməsi qərara alındı, oraya hamam, evlər və ziyarət otaqlarının inşası da əlavə olundu. Həmin enişli-yoxuşlu yerdə çevik ustalar zaman hökmranının fərmanı ilə işə başladılar. Mövlana Mahmud Beheşti Çilani Əşrəf binasının [maddeyi -] tarixi kimi bu qit'əni nəzmə çəkdi:

**Qit'ə**

**s.855 (606)** *Kamə yetən xosrove-afaq odur,*
*Yaxşı pisi yaxşı görür şah gözü.*
*... Tarixini yazdı səadət əli:*
*Tarixidir "Dövləte-əşrəf" sözü*[1]

**s.855** O şərafətli məkan hər cəhətdən adına layiq olduğundan get-gedə o əşrəfin diqqəti sayəsində öz şərafətini artırdı. Oradakı cənnət ayinli bağlar, bostanlar, o cümlədən binalar və hovuzxanalar olduqca gözəl və ürəkaçan şəkildə tərtib olunmuş, uca dağdan axıb gələn sular buranı Kövsər suyunun və cənnət (İrəm) bağının gözəlinə çevirmişdi. Hər hovuzun arasından ucalan və alov (nar) şö'ləsini xatırladan fəvvarələr qəribə tərzdə və müstəsna gözəllikdə (bədiə) düzəldilmiş, atəşbazların barıtdan düzəltdikləri qırmızı gül kimi göyə ucalırdı. Mazandaranda olduğu vaxtın çox hissəsini həmin ləyaqətli qəsəbədə keçirən kamkar şəhriyar müqəddəs qoşun

---

[1] Qitə'nin farscası:
Xosrove-afaq, şəhe-kamyab
An məhəke-batene-hər xub-o zeşt
... Dəste-səadət peye-tarixe-an
Bər dare-u "Dovləte-əşrəf" neveşt.

mülazimlərindən ötrü də yaxşı evlər tikdirmişdir. İndi həmin qəsəbə böyük bir şəhərə çevrilmişdir və o həzrətin yaratdığı məşhur yerlərdəndir.

## MÜXTƏLİF HADİSƏLƏR

**Məhəmməd xan Qazaqların öldürülməsi:** Bu il baş vermiş hadisələrdən biri Lori hakimi Məhəmməd xan Qazaqların bir neçə mö'təbər ağa ilə birlikdə Luvarsab xanın adamlarından olan Kartil Gürcüstanı aznaurlarının əli ilə öldürülməsidir. Qətlin səbəbi budur: Qazaqlar tayfası [gürcülərlə] qonşu olduğundan həmişə gah açıq-aşkar, gah da gizlincə Kartil Gürcüstanını qarət edir, onların qadın və qızlarını əsir aparırdılar. Buna görə də bütün gürcülər bu tayfaya qarşı ürəklərində qədimdən bəri kin bəsləyirlər. Rumiyyənin [bu yerləri] işğal etdikləri vaxt Cəfər Paşa Təbrizdən ləşkər çəkib Gürcüstana getdi. Bu dövlətdən (qızılbaşlardan – *Ş.F.*) dönüb rumilərə birləşərək paşalıq rütbəsi alan Nəzər Sultan Məhəmməd xanın atası və o yerlərin cavanları olan onun adamları rum ləşkərinə basqın edib Səmayun xanı tutdular və onu Cəfər paşaya verdilər. Buna görə də onların arasında irsi mülklər üstündə inadkarlıq başlandı.

Məhəmməd xan elə o vaxtlarda şahın yanına getmək izzətinə yetişmiş, onun qüsurları əfv olunmuş və onlar (Məhəmməd xan və Luvarsab xan – *Ş.F.*) belə razılığa gəlmişdilər ki, bir-birləri ilə sülh bağlasınlar, bundan sonra aralarındakı razılaşma və dostluğa riayət etsinlər. Sülh danışığını ortaya gətirən Luvarsab xan ziyafət də vermək fikrinə düşdü və Məhəmməd xanı yaxınları və mö'təbər adamları ilə birlikdə [yanına] də'vət etdi, xan da də'vəti qəbul edərək, qonaqlıq məclisinə getdi. Luvarsab xan və gürcülər ona qarşı qəddarlıq edib, həmin məclisdə onların hamısını qətlə yetirdilər. Məhəmməd xan belə cəzaya layiq adam idi, çünki onun təbiəti nifaqla yoğrulmuşdu və orada sədaqət və düzgünlükdən əsər-əlamət yox idi. O şahın göstərdiyi şəfqətlərin də qədrini

bilmir, həmişə onunla rum sərdarları və [başqa] rumilər arasında dostanə yazışmalar baş verirdi. Buna görə də, bu dövlətin çörəyinə ağ olan bir adam öz əməlinin cəzasına çatdı. Amma, Luvarsab xan və gürcülər də dost və düşmənlə etdikləri gizli və açıq qəddarlığa görə cəzaya giriftar oldular.

Ə'lahəzrət zilləlah şah bu dünya hökmranlarının ən yaxşı (bəhin) rəftar tərzi olan mövcud sülalə qanunlarına və məsləhətləşməyə hörmətlə yanaşdı, Məhəmməd xanın qardaşı Mustafa bəyə xan rütbəsi verməklə onu qazaqlar tayfasının əmiri etdi, həmin tayfa üzvləri belə yaxşı mükafata sevinib şahanə şəfqətlərə ümüdvar oldular.

Baş verən başqa hadisə Saru hakimi Sarı Sultan Biqdelinin Saru, Qərqan və Kavruda-banə kürdləri üzərinə yürüşüdür. Əvvəlki hadisələrin şərhində yazılmışdı ki, İskəndər
**s.856** Banə Qara Ciyuq çəmənliyində şahdan rüxsət alıb öz ülkasına getdi, əvvəllərdə olduğu kimi banə kürdləri üsyana başladılar, o hüdudda yaramaz hərəkətlərə qurşandılar.

Sarı Sultan samlı mülazimlərinin bir dəstəsi ilə o güruhu cəzalandırmaqdan ötrü yollandı. Döyüşdən sonra banə kürdləri müqavimət göstərməkdən aciz qalaraq qaçmağa başladılar. Sarı Sultan İsgəndər qalasını tutdu, həmin qaragün (təbəhruzgar) tayfadan yeddi yüz adamı ədəm diyarına göndərdi, sağ qalanlar isə qaçıb sərgərdan oldular.

**Rüstəm Məhəmməd xanın Heratdan qaçıb Qorçestana getməsi:**

Başqa bir hadisə isə belə olmuşdur: Bu il Heratda olan [özbək] Vəli Məhəmməd xanın oğlu Rüstəm xan oranın bəylərbəyi Hüseyn xandan izn almadan özbəklərin təhriki ilə gizli şəkildə Qorçestana getdi. Onun bu gedişinin səbəbi budur: Heratda bir dəstə e'tibarsız quldur (ovbaş) özbək onun ətrafına toplaşmışdı. Özbəklərə e'timadı olmayan Hüseyn xan ehtiyat üzündən onları şəhərdən kənarda yerləşdirmişdi. Padşahzadə isə o adamlardan ayrıla bilmirdi. O, bir-iki dəfə Qorçestana getmək fikrinə düşdü. Hüseynxan özbəklərin qəddarlıq və bivəfalıqları barədə bilirdi, amma padşahzadənin onların yanına getməsinə izn vermirdi. İş o yerə çatdı ki, [özbəklər] bir gecə

padşahzadəni qəfildən özləri ilə götürüb, Qorçestana tərəf fərar etdilər, Hüseyn xan isə şahın onu, qəflət yuxusuna gedib, padşahzadəni buraxdığı üçün cəzalandıracağından
s.857 qorxuya düşdü. Padşahzadə Qorçestana çatdıqda oranın
(607) əhalisi onlara padşahzadəyə xidmət və ehtiram xüsusunda hümayun fərman göndərildiyinə görə onun qədəmini möhtərəm bildilər və itaətdə oldular, bir dəstə özbək isə onlarla razılaşmayan Bəlx valisi üzərinə hücuma keçərək oranı qarət etdilər və bol mal ələ keçirdilər, Hüseyn xan üçün də yəğma haqqı göndərərək, yenidən sədaqət izhar etdilər və şahın mərhəmətinə nail olmaq fikrini zahirə çıxardılar, o qarətkarlıq xüsusunda üzrxahlıq etdilər. Amma, özbəklərə xas "Getmək, ya getməmək?" fikrinə qapılan bir dəstə özbək bahadırı bir yerə yığışıb tərəddüd edirdi, cənab xan da onlara icazə vermirdi. Buna görə də o bahadırlar padşahzadəyə kömək etmək fikrindən daşınıb dedilər: "Tutalım ki, getdik, elə bir hadisə baş verə bilər ki, biz bu diyarda qala bilmərik və yenidən şah dərgahına üz tutarıq. Bizim tərəfimizi fəqət şahənşah dövləti saxlaya bilər". Bu işlərdən hali olan Hüseyn xan arxayın oldu və baş verənləri cahanpənah dərgaha ərz etdi. Rüstəm xanın Bəlxə yürüşü və Herata qayıdışı haqqında gələn il mə'lumat veriləcəkdir.

**Əlixan bəyin və qardaşı Mirzə Hüseyn bəyin öldürülmələri:**

Başqa hadisə [isə] Əlixan bəy Cavanşirin və onun qardaşı Mirzə Hüseyn bəyin öldürülmələridir. *Otuz iki qəbilədən ibarət olan Cavanşir eli Qarabağ tərəkəmələrindəndir (tərakəmat) və "otuz iki" adlanırdı. Cavanşirlər ata-babadan o tayfanın əmiri (mir) olmuşlar.* Rumiyyə işğalı zamanı Mirzə Hüseyn onlara itaət etdi, el və tayfası (əşirət) ilə birlikdə Qarabağda qaldı.

Bir neçə il sonra onun kiçik qardaşı Əlixan bəy cahanpənah dərgaha gəlib şaha yaxın adamlar zümrəsinə daxil oldu. O,
s.857 daim şahanə inayət və tərbiyət altındaydı. Cahanı tutan ordu Azərbaycanı tutmaq üçün yollandığı vaxt Mirzə Hüseyn bəy şahın mülazimətinə gəldi. Sabiq əməllərin saf-çürük olması zamanı hələ gəlib çatmadığından həmin elin əmirliyi ona

verildi, əmarət və böyüklük uğrunda qardaşlar arasında münaqişə yarandı, bu vəziyyət get-gedə fəsada səbəb oldu. Əlixan bəyin Gəncə qalasının tə'miri üçün sərkar təyin olunub oraya getdiyi və Gəncə hakimi Məhəmməd xan Ziyadoğlunun şəhərdə olmadığı vaxt o, qardaşına qəst etmək fikrinə düşdü. Əlixan bəy o zaman qardaşı Mirzə Hüseyn bəyin yaşadığı [Məhəmməd xan] Ziyadoğlunun evinə getdi, Mirzə Hüseyin bəy isə qorxudan özünü Məhəmməd xanın hərəmsarayına atdı. Əlixan bəy hərəmlərə hörmət etməyərək [yanındakı] adamlarla oraya soxuldu ki, qardaşını elə oradaca qətlə yetirsin. Ziyadoğlu sülaləsindən bir neçə nəfər qacar mülaziminin bu hörmətsizliyə dözməyib onu bu işdən çəkindirməyə sə'y etmələrinə baxmayaraq faydası olmadı. Həmin qazilər, xüsusiylə Saray bəy[1] onlara hücum edib altmış-yetmiş nəfər biədəb cavanşiri iti qılıncla tərbiyələndirdilər. Bunun ardınca Əlixan bəyin özünü də iti şəmşirlə ədəbləndirərək onun həyat ipini kəsdilər. Əlixan bəy həddən ziyadə böyüklük iddiasında olan (sahebroşd), xudpəsənd, olduqca məğrur və yekəxana (boləndpərvaz) adamdı, böyük qardaşı üzərində böyüklük etmək istəyindən, edəcəyi əməldən əvvəl öz mükafatını aldı, amma zəmanədən möhlət ala bilmədi.

Səhradan qayıdan Məhəmməd xan bu hadisədən xəbər tutduqda, Mirzə Hüseyn bəyin rumilərin iqtidarı vaxtı fitnəkarlıq etdiyinə görə, onun da sağ qalmasını məsləhət bilmədi və onu qətlə yetirdi. Baş verən hər iki hadisə bu güclü dövlətin məsləhətinə müvafiq olduğu üçün heç bir sorğu-suala mə'ruz qalmadı.

**Misra**

*Necə xoşdur ki, bir işlə iki iş həll oluna*[2]

---

[1] Bizə Saray bəy adının müstəqim mə'nası aydın olmadı və bilmədik ki, bu ad şəxs adıdır, yoxsa saray bəyi (hərəmsaray bəyi, başçısı) mənasındadır – *Ş.F.*

[2] Misranın farscası:

Çe xoş bovəd ke bərayəd be yek kereşme do kar

**Qacar qorçibaşı Allahqulu bəy Qacarın qəzəbə düçar olması**

Bu ilin axırlarında başqa baş verən ibrətamiz hadisə Qacar qorçibaşısı Allahqulu bəyin qəzəbə gəlməsidir. Şahın məzacı bu qorçibaşıdan döndüyü üçün Fərəhabadda onu Piri bəy adı ilə məşhur olan Qara Piri Qaramanlının əli ilə tutdular. Allahqulu bəy olduqca mö'təbər və e'timadlı adam olmuşdu. O, şahın hədsiz şəfqətinə, özünün böyük xidmətinə arxalanaraq ə'lahəzrətin hüzurunda ədəbsiz (gostaxane) sözlər danışır, hakimiyyət adamları və izzət sahiblərinin yanında yolverməz və açıq-saçıq zarafatlar edirdi. Amma bu ifadədən xəbərsiz idi ki:

**Beyt**

*Şah əgər çox danışsa da lütfən*
*Bilə öz həddini gərək bəndə.*[1]

[Allahqulu bəy] cahilanə hərəkətlər edir, ə'lahəzrət isə onun əndazəsiz zarafatlarına əhəmiyyət vermir, buna görə də qorçibaşı [get-gedə] öz həddini aşırdı.

Məsələnin dərinliyindən bixəbər olan adamlar şahın məzacının pisləşməsinin səbəbini [Allahqulunun] hərzə-hərzə danışmasında görürdülər. Amma, onun öldürülməsindən sonra [əlahəzrətin] mübarək dilindən dəfələrlə eşidilmişdi ki, bunun səbəbi [qorçibaşının] nəməkharam və xəbis (bədbateni) adam olmasındadır.

Adı çəkilən Allahqulu bəy yararlı şəxs olmasına baxmayaraq, olduqcu dünyapərəst, yığımcıl, çoxlu mülk və torpağa sahib adamdı. Belə ki, onun mülk və mallarının məbləği iyirmi min tümənə çatmışdı. O, özündən sonra övladlarının onun mal və dövlətindən ləzzət ala biləcəkləri gümanının qorxusundan batil fikirlərə düşmüş, öz mürşidi və valine'mətinə qarşı
s.859 bədgüman (bəddel) olmuşdu. Dəfələrlə yığdığı vergiləri
608 qazilər və öz [yaxın] adamları arasında bölmüşdü. Allahqulu

[1] Beytin farscası:
Şah əgər lotf biədəd ranəd,
Bənde bayəd ki, hədde-xod danəd

bəy sülaləsinin cəzalandırılması fikrinə düşən [şah] onun və oğlanlarının pis nəzərli (bədbin) gözlərini görməkdən məhrum etdi və [Allahqulu] nəhayət vergi yığanların (mohəsselin) kötəkləri atlında can verdi.

**Şer**

*İki görmək nəyisə bişəkdir,*
*Amma eşq qibləsi isə təkdir.*[1]

Mal yığmaq, mülk və torpaqları çoxaltmaqla özünə haram sərmayə toplayan adamların hər şeyləri nəticədə fəna yelinə gedir və onlar bəhrələnə bilmirlər, necə ki, [Allahqulu] yığdıqlarından xeyir görmədi.

**Beyt**

*Gər vəline'mətinə olsan ağ,*
*Enəcəksən yerə bir gün ancaq*[2]

Həmçinin yenə də bu il, uca məhəbbət rütbəsinə layiq görülmyş və yüzbaşılıq mərtəbəsindən yüksək valilik dərəcəsinə çatmış İsa xan ibn Seyid bəy ibn Mə'sum bəy Səfəvi uca qədir-qiymətli qorçibaşılıq mənsəbinə tə'yin edildi. O, həqiqətən də xoşrəftar (xəliq) bir cavandır, layiqli xüsusiyyətlə bəzənmişdir, fəhm, xasiyyət (fetrət) və gözəl əxlaqa malikdir, dövlətə layiq və böyüklüyə yaraşan bir şəxsdir.

**ÖLÜMLƏR:**

**Nurməhəmməd xan Özbəkin vəfatı:**

Bu il bəqa aləminə səfər edən adamlar: Şeyban ibn Cuci ibn Çingiz xan nəslindən olan Nurməhəmməd xan

---

[1] Şerin farscası:
Həst ayine-do bini ze həvəs,
Qebleye-eşq yeki başəd-o bəs!

[2] Beytin farscası:
Ba vəlinemət ər borun ayı,
Gər sepehri ke sərnogun ayı.

Özbək ibn Əbdülməhəmməd xan ibn Dinməhəmməd xan ibn Uluş xan. O, yuxarıda yazıldığı kimi, Şiraz darülmülkündə yaşayır və günlərini şahanə şəfqət (rafət) və məhəbbət kölgəsi altında keçirirdi. Onun hər günlük xərci üçün bir tümən İraq şahi qızılı (zəre-şahiye-İraqi) ayrılmışdı. Nurməhəmməd xan bu il fani cahana vida edib, axirət darülmülkündə yerləşdi.

**Mövlana Abdulla Şüştərinin vəfatı:**

Başqa vəfat edən şəxs fəqihlərin və müctəhidlərin ən biliklisi (əfzəlül-foqəha və – l moctəhedin) Mövlana Abdulla Şüştəridir. O, bir neçə il idi ki, Nəcəfe – Əşrəfdən əcəm diyarına gələrək darüssənədə yaşayırdı. Şahanə diqqət və iltifat nurları həmişə ona sarı yönəlmişdi və hörmətli bir adamdı. Məhərrəmül-həram ayının iyirmi dördündə cümə günü bir azacıq xəstəliyə düçar oldu. Şənbə günü aralarında ictihad məsələləri* üzrə elmi mübahisə düşən Mir Məhəmməd-bağır Damad** və şeyx Lütfulla Meysi Ameli*** onu yoluxmaq üçün yanına getdilər. Cənab mövlana o iki böyük (bozorg-var) alim ilə qucaqlaşdı (noaneqe), onlarla böyük şadlıqla (dər kəmale-şekoftegi) söhbət etdi. Ayın iyirmi altısında
s.859 yekşənbə günü isə sübhə yaxın namaz qılıb vaxtı öyrənməkdən ötrü eşiyə çıxdı, geri qayıdarkən yıxıldı, bircə söz belə deməyə vaxt tapmadan Allahın də'vətini qəbul etdi və onun can quşu bədən qəfəsindən uçdu. Cənab mövlananın nəfsi qorumaqda , təqvada, pəhrizkarlıqda və dünya ləzzətlərindən məhrum olmaqda ali dərəcəsi vardı. Yemək-içməkdə qənaətcil adamdı, günlərinin əksəriyyətində oruc tutur, ətsiz şorba (şurba) yeməklə kifayətlənirdi. Otuz iləcən Nəcəfe-əşrəfdə və Kərbəlaye-müəllada sakin oldu, vaxtını mərhum müctəhid Mövlana Əhməd Ərdəbilinin yanında ictihad öyrənməklə keçirdi, ondan fəzilətləri (fəzayel) və ictihad məsələlərini (məsayel) öyrəndi. Deyirlər ki, cümə və camaat namazını qılmağı, həmçinin ictihad məsələlərinin təlqininin**** icazəsini həmin mövlanadan almışdı. Onun vəfatı günü əhalinin nalə və əfğanı ərşə ucalmışdı. Şah və əyanlar o mərhumun cənazəsini öz əlləri ilə aparmaq sə'yində oldularsa da adamların çoxluğundan buna imkan tapılmadı. İsfahanın köhnə

(ətiq) came məscidində onun cəsədini quyu suyu ilə qüsl etdilər və Mir Məhəmmədbağır Damad və başqa üləma və fazil adamlar orada namaz qıldılar. Bir neçə gün onu İmamzadə İsmayılın nurlu imamzadasında saxladılar, sonra Kərbəlaye-müəllaya apardılar, iste'dad sahibləri mövlana haqqında [maddeyi-] tarixlər yazdılar:

**Mir Söhbəti Təfrişi**
"*Aho ah əz moqtədaye-şiəyan*"[1]

**Başqa bir şair:**
"*Heyf əz moqtədaye-İran, heyf*"[2]

**Şeyx Mahmud Ərəb Cəzayeri:**
"*Matə moctəhedoz-zəman*". [3]

**Məhəmməd bəy Biqdelinin vəfatı:**

Başqa bir vəfat edən şəxs şaha yaxın adamlardan və onun məclislərinin iştirakçısı Məhəmməd bəy Biqdeli Şamlı idi. O, Mazandaranda xəstələndi. Təbibi həkim Salman Şirazi idi. Məhəmməd bəy onun müalicəsinə əməl etmirdi. Həkim Salmanın onun yanında olmadığı vaxtlarda təbiblərin sözlərinə baxmayaraq, münasib olmayan yeməklər yeyir, pəhriz saxlamırdı. Xəstəliyi getdikcə şiddətləndi və qışın əvvəlində cavidan cahana getdi. Ə'lahəzrət xosrovanə məhəbbətlə onun nə'şini müqəddəs Məşhədə yolladı və Məhəmməd bəy mübarək rövzədə dəfn olundu. Ə'lahəzrət onun ailəsinə nəvazişlər etdi. Məhəmməd bəy var-dövlət sahibi idi, amma bütün əmlakını xeyrat vəqfi etmişdi. Oğlu olmadığı üçün onun var-yoxu şəriət qanununa əsasən hərəm
**s.860** eşikağası olan qardaşı Heydər Sultana verildi.

---

[1] Misraların azərbaycanca tərcüməsi:
"Şiələr müqtədası ölmüş, ah"
[2] "İranın müqtədası ölmüş, heyf"
[3] "Müctəhidüz-zəman vəfat etdi".

### TÜRKİCƏ MİN İYİRMİ İKİNCİ (1613/1614) ÖKÜZ İLİNƏ MÜVAFİQ OLAN VƏ BƏZİLƏRİNİN MİN İYİRMİ ÜÇÜNCÜ İL ADLANDIRDIQLARI HÜMAYUN ŞAH CÜLUSUNUN İYİRMİ YEDDİNCİ İLİNƏ TƏSADÜF EDƏN HADİSƏLƏR BARƏSİNDƏ SÖHBƏT

**s.861**
**(609)** Bu ilin səadət işıqlı novruzu min iyirmi üçüncü ilin məhərrəmül-həram ayının iyirmi yeddisinə (21 mart 1613) təsadüf etdi. Cahanı bəzəyən günəş həmin gündən doqquz saat, on dərəcə və on iki dəqiqə ötdükdən sonra öz yerini hut bürcündən izzət və şərəf bürcünə, yəni həmələ təhvil verdi və mübarək bahar [fəsli] başlandı.

**Şe'r**

*Bahar yelləriylə yer təzələndi,*
*Səmadan torpağa güllər ələndi.*
*Yenə ətirləndi gülşən, gülüstan,*
*Cənnətin bağına oxşadı hər yan.*[1]

Ə'lahəzrət zillələh şah novruzdan üç gün keçəndən sonra ayın iyirmi doqquzunda (24 mart 1613) cümə günü gözəl Fərəhabad şəhərindən çıxıb səadət və iqbal ilə İsfahan darüs-səltənəsinə [doğru] hərəkətə başladı və xoşbəxt bir saatda həmin cənnətnişan yerə gəlib çatdı. Böyüklər və bütün əhali onu qarşılamaq səadəti ilə sərəfraz oldu, onların ümid gözləri şahın əzəmətindən işıqlandı. Peşə və sənət adamları (əhle-herfət və ərbabe-sənaət), tacirlər bazara, qeysəriyyəyə, dörd-yola (çəharsovq) bəzək-düzək vurdular. Həmişəki kimi, novruz bayramı Nəqşe-Cahanda keçirildi, əhali bir neçə gün işrət və şadimanlıqla gün keçirdi. Əlahəzrət göstərdikləri xidmətlərə və onun diqqətinə gəldiklərinə görə bütün İsfahan

[1] Şe'rin farscası:
Cəhan taze gəşt əz nəsime-bəhar,
Dər-o dəşt şod sərbesər lalezar.
Ze gol gəşt golzar ənbərsereşt,
Zəmin-o zəman şod ço bağe- beheşt.

vilayətinin ərbab və rəiyyətinə üç illik mal* və onda bir (dəh-yek)** məhsul vergilərini təxminən on beş min tüməne- şahiye-İraqi məbləğində pulu əkinçilərə ən'am etdi (bağışladı – *Ş.F.*). Şahın bu böyük güzəşti başqa güzətlərə də əlavə olunaraq o diyar əhalisinin xeyir-duasına səbəb oldu.

## KƏBC VƏ MOKRAN VİLAYƏTİNİN BEN-FƏHL QALASI FƏTHİNİN ZİKRİ

Bu ilin əvvəllərində baş verən iqbal hadisələrdən biri Kəbc və Mokrana daxil olan Ben-Fəhl qalasının fəthidir. Bu işin icrasına göndərilən Kirman darüləmanının hakimi Gəncəli xan fərmana əməl edərək, Kirman ləşkəri və o vilayətin tayfa sərdarları ilə birlikdə gedib Ben-Fehl qalasını mühasirə etdi, fürsət düşən kimi qalaya yürüşə başladı. Həmin vilayətin valisi Məlik Dinarın oğlu Məlik Şəmsəddin və qalada mühasirədə
**s.861** qalan başqa adamlar aciz qaldılar, müqavimət göstərməkdən əl çəkdilər, qazilər isə qalanı ələ keçirdilər. Məlik Şəmsəddini övladları və adamlarıyla tutub etimadlı qazilərin müşaiyəti ilə uca dərgaha göndərdilər və İsfahan darülsəltənəsində şahın yanına gətirildilər. Deyilənə görə, o vilayətin bütün əhalisi şafei məzhəbindəndir.*** Məlik Şəmsəddin təmiz və pak adamlarla dostluq məqamında olduğundan ona xosrovanə mərhəmət olundu. Qərara alındı ki, Kirman darüləmanına göndərilsin, ailəsi və tabeliyindəki adamlarla asudəliklə o vilayətdə yaşasın. Amma, Kirmana çatdıqda onun əli [qalası kimi] bədən mülkünü də qorumaqdan qaldı, üqba mülkü darüləmanına getdi. Kəbc və Mokran sülalə məlikləri cahan padşahları haqqında onların adlarından başqa heç nə eşitməmişdilər. Onlar heç vaxt öz mülklərindən kənara çıxmamışdılar və zaman hadisələrinin əli onların yaxasından yapışmamışdı. [O məliklər] səfehlik və ağılsızlıqlarından elə təsəvvür edirdilər ki, bütün cahan Kəbc və Mokran vilayətindən ibarətdir. O sülalədən olan uca şanlı padşahların padşahı Şəmsəddin idi. Amma onların əcdadlarından sabiq-də bütün Kəbc və Mokran vilayətinin valisi olmuş Məlik Dinar ağıllı adamdısa da öz təkəbbürü üzündən devrildi ki, bu beyt onun həqarətə düçar olmasını ifadə edir:

**Beyt**

*İlahi, olmasaydı gər cahanda böylə çox mülkün,*
*Verən olmazdı bir dinar da parə Kəbcü Mokranə.*[1]

Yalnız sözşünas adam bilər ki, bu beyt mülkün çoxluğunu (bəstət) və valinin əzəmət və böyüklüyünü ifadə edir.

## AVROPA ELÇİ VƏ PADRELƏRİNİN (ELM VƏ DİN XADİMLƏRİNİN – *Ş.F.*) SULTANLARIN PƏNAHI OLAN DƏRGAHA (SƏFƏVİ SARAYINA – *Ş.F.*) GƏLMƏLƏRİ BARƏDƏ SÖHBƏT

**s.862 (610)** Bu il Firəngistanın ən böyük padşahlarından olan İspaniyyə (İspaniya – *Ş.F.*) padşahının xristian (nesari) alimlərindən və rahiblərindən (rohban) ibarət bir neçə firəng padresi ali saraya gəldi, İsfahanın Nəqşe-Cahanında cahan şahı ilə görüş səadəti ilə sərafraz olaraq, gətirdikləri töfhə və hədiyyələri təqdim etdilər. Onlar təbrik (təhiyyət) və bu elçiliyin (risalət) səbəbi barədə məlumat verdikdən sonra xosrovanə inayətlə sevindilər. Bütün məsihi sultanları və isəvi ölkələrin hökmranları ilə ə'lahəzrət hümayun şah arasında ülfət və dostluq (aşinayi) qapıları açıq olduğundan, tərəflərin bir-birləri ilə yazışmaları və gediş-gəlişləri vardır. Buna görə də, bir neçə vaxt bundan əvvəl dilli-dilavər adam olan rumlu yüzbaşısı Dəniz bəy (Dəngiz) elçi sifəti ilə Firəngistana tərəf göndərilmişdi.

**Dəniz bəyin öldürülməsi**

Getdiyi ierdə, Dəniz bəydə şahın xoşlamadığı tamahkarlıq, xəsislik və bə'zi çirkin əməllər zahirə çıxdığı üçün, o, geri qayıdan kimi, yuxarıda göstərilən /Firəngistan/ elçiləri ilə birlikdə şahın yanına gəldi, elə o ləhzə də qəzəbə gəldi. Üzr istəyib etdiyi səhvlərə görə bir neçə kəlmə söz demək istəyinə baxmayaraq onu danışmağa qoymadılar, cəza şəhnəsi (yəni cəllad – *Ş.F.*) qəhr qəhrəmanının (Şah Abbasın – *Ş.F.*) fərmanı ilə onu ibrət dar ağacından asdı,

[1] Beytin farscası:
Xodavənda, cəhan-ra gər nəbudi molk besyari,
Nədadi Kəbco Mokran-ra çenin ərzan be dinari

Dəniz bəy, Allah heç kimə göstərməsin, işgəncə (oqubət) və
s.862 rüsvayçılıqla ədəm yoluna yollandı.

**Dəniz bəyin cəzalanmasına səbəb olan səhvlərin bəyanı:**

Onun qəbahətli əməllərini biri budur: Dəniz bəy Kuh (?) ölkəsində olarkən, həmin ölkənin hakimi və firəng limanlarının dəniz əmiri (mire-bəhr)* olan Buzrenin (?) təklifi ilə İspaniya padşahına [Şah Abbasın] yazdığı məktubu açmış və məzmunu ilə Buzreni tanış etmişdi. Belə bir dəyanətsizlik sultanlar tərəfindən böyük səhv (xəta) sayılır, padşahların sirri ilə tanışlıq isə böyük günahdır. Dəniz bəyin başqa səhvi [isə bu iş oldu]: Qədim qaydadır ki, hər dövr sultanlarının elçiləri hər hansı ölkəyə gedərlərsə, öz ölkələrindəki dəbə yuğun libas geyinər, bütün mərasimlərdə də özlərinin adətlərincə hərəkət edərdilər. Heç vaxt cahan padşahları elçilərin adətlərini dəyişməyə cəhd etməmişlər. Dəniz bəy İspaniya paytaxtında olarkən oranın padşahının zövcəsi vəfat etmişdi, padşah və ordu adamları mələkənin tə'ziyə mərasimində özlərinin adətləri üzrə qara libas geyinmişdilər. Dəniz bəy də [İspaniya] padşahının xoşuna gəlmək istəyi və öz tamahkarlığına görə heç ona təklif olunmadan əyninə qiymətli bir qara paltar geyindi. Yox əgər onu bu işə məcbur etsəydilər belə o gərək onlara deyərdi: "Allaha həmd olsun ki, padşahımın və vəline'mətin başı sağ-salamatdır, mənim nə həddim var ki, tə'ziyə libası geyinəm?" Dəniz bəy əgər belə hərəkət etsəydi [şah tərəfindən], əlbəttə, bəyənilərdi.

Dəniz bəyin başqa səhvi isə bunda oldu: Ə'lahəzrət məsihi millətinin xəlifəsi və həzrət İsa davamçılarının canişini olan Roma papasına (Rimpapa)** bir məktub yazıb Dəniz bəylə göndərmişdi. Dəniz bəy isə bir tacirdən pul alaraq tapşırmışdı ki, qoy o tacir özünü Dəniz bəy adlandırıb, həmin məktubu Firəngistan darülxilafəsinə aparsın və bu işdən xeyir götürsün. Dəniz bəyin gördüyü bu iş də bəyənilməz idi. Yox, əgər onun həmin ölkəyə getməsi üzürlü səbəbdən olardısa və oraya daxil olmaq baş tutmasaydı, o gərək məktubu geri qaytararaq, həqiqəti [padşaha] ərz edəydi. [Tacirinsə] tə'zimnamə hüququ və vəline'mətin məktubunu aparmaq

ixtiyarı yox idi. Dəniz bəy tacirdən aldığı beh (bey) müqabilində məktubu məchul bir tacirə verməklə bu işin belə asan olacağını düşünmüşdü. Amma, onun cəzalandırılmasına səbəb olan ən böyük səhvi isə belə oldu: Dəniz bəy özü ilə apardığı mülazimlərlə elə yolverilməz hərəkətlər edir və onları elə incidirdi ki, [elçilik hey'ətinin] bir neçə üzvü tərsa dinini qəbul etməyə razı olmuş, Dənizin cövründən qurtulmaq naminə
**s.863** nəsari milləti [vətəndaşlığını] qəbul edərək Firəngistanda
**(611)** qalmışdı. Buna görə də, islam qeyrəti Dəniz bəyin cəzalandırılması qərarını verdi və o, öz cəzasına yetişdi.

**Misra**

*Layiqdi cəzaya kişi dinsiz olsa.*[1]

## QAZİ XAN SƏDRİN RUM SƏFARƏTİNDƏN QAYITMASI, SÜLH SAZİŞİ MÜNASİBƏTİYLƏ RUM XANDGARININ ELÇİSİNİN GƏLMƏSİ, QEYB VƏ ŞƏHADƏT ALƏMİNİN HİKMƏTİ İLƏ HƏMİN SAZİŞİN BAŞ TUTMAMASI

Bu ildə baş verən hadisələrdən biri də Qazi xan Sədrin Rum elçiliyindən geri dönməsi və İncili Çavuş kimi məşhur olan Mustafa paşanın [səfəvi dövlətinə] gəlməsidir. Min iyirmi birinci donuz ilində (1612/1613) baş verən hadisələrin təsviri zamanı qeyd olundu ki, baş vəzir Nəsuh paşanın xahişi
**s.863** ilə əzəmətli sədr Qazi xan əl-Hüseyni sülh sazişinin imzalanmasından ötrü Ruma göndərilmişdi. O, Diyarbəkrdə Nəsuh paşanın yanına gəldi. Görüşdən, bir-birinə göstərdikləri izzət-ehtiramdan və rəsmi danışıqlardan sonra birlikdə Qəstəntəniyyəyə yollandılar. Elə ki, osmaniyyə sülaləsinin paytaxtına gəlib çatdılar, Nəsuh paşa elçidən əvvəl şəhərə girib Rum padşahı Sultan Əhməd xanın xidmətinə yetişdi, vəziy-
**s.864** yəti ərz edərək Qazi xan barədə ətraflı mə'lumat verdi. Ertəsi
**(611)** gün rumiyyənin bütün paşaları, əmirləri, ə'yanları və şəhər əhalisi xanın istiqbalına çıxıb, onu ehtiramla şəhərə gətirdilər. Qazi xan və hey'ət üzvləri qayda-qanun üzrə baş vəzirin

[1] Misranın farscası:
Əz covr bovəd ke mərd bidin gərdəd

vasitəçiliyi ilə padşahın hüzuruna gələrək səfarət və risalət şərtlərini əda etdikdən sonra gətirdikləri töhfələri və hədiyyələri təqdim etdilər. Cənab padşah da ona əvvəlki elçilərdən daha çox ehtiram göstərdi. İstanbulda olduğu neçə müddət ərzində vəzirlər, paşalar, müftilər, üləmalar, qazilər və din xadimləri onun yanına gələrək sülh bağlanması barədə danışıq aparır, bə'zi hərbi münaqişələri həll edirdilər.

**Azərbaycan sərhədinin təyini, İran dövlətinin Rum dövləti ilə sülh sazişi**

Xeyli qiylü-qaldan sonra cənnətməkan şah və Sultan Süleyman zamanı imzalanmış sənədə uyğun olaraq sülh sazişi hazırlandı.İncili Çavuşu risalətə təyin edərək məhəbbət üslublu məktub yazdılar, layiqli töhfə, hədiyyə verib Qazi xanla birlikdə geriyə rəvan etdilər. Onlar İsfahan darülsəltənəsində ali taxt ayağına gələrək şahla görüşmək şərəfi ilə şərəfləndilər. Gətirilən töhfə və hədiyyələr şaha təqdim olundu və bəyənildi.

Xandgar Azərbaycan sərhədinin müəyyən olunmasını Van bəylərbəyi Məhəmməd paşanın, İraqi-Ərəb sərhədinin müəyyənləşməsini isə Bağdad bəylərbəyi Cığaloğlunun oğlu Mahmud paşanın öhdəsinə qoyduğundan, onlar bu tərəfin e'timadlı adamları ilə birlikdə həmin işi başa çatdırdılar. Ə'lahəzrət də öz tərəfindən Azərbaycan sərhədinin təyin olunmasını Çuxur-Səd bəylərbəyi Əmirgunə xana, Bağdad sərhədinin müəyyənləşməsini isə Cığatay miraxurbaşısı Mehdiqulu bəyə tapşırdı.

Cənnət aşiyanlı mərhum padşahların imzaladıqları [əvvəlki] sazişdən uzun müddət keçdiyi üçün, hazırlanan yeni sənəd ilə əlaqədar çoxlu ixtilaf ortaya çıxdı. Məsələn, sabiq sülh sazişinə görə bütün Gürcüstandan Mesq və Axisqə qalaları bu tərəfin sərhədi kimi tanınmasına baxmayaraq, indiyədək rumiyyənin əlində qalmaqda idi. Ərəbistan və Bağdad tərəfində də bə'zi qala və mahallar rumiyyə sərhədinə daxil olduğu halda, hal-hazırda bu tərəf adamlarının əlindədir və onların boşaldılıb bir tərəfdən başqa tərəfə verilməsi olduqca çətindir. Əvvəla, ona görə ki, sülh sazişində göstərilmişdi: İmzalanma zamanı hər iki tərəf adamlarının əlində mövcud

olan yerlər heç bir dəyişikliyə uğramadan saxlanılsın, tərəflər onlara şərik çıxmasınlar.

Buna görə də tapşırıq verilən paşa və bəylərbəyiyə söylədilər ki, bu məsələni nəzərdə tutaraq sərhəd tə'yinini elə müəyyənləşdirsinlər ki, düşmənçilik tamamilə aradan qaldırılsın, xırda-para məsələləri ümumi məsələlərə şamil etməsinlər. Hümayun fərmanı alan Əmirgunə xan dərhal Salmasa getdi və Məhəmməd paşa da oraya gəldi. Danışıqlara iki ay sərf olundu və sazişdə yazılana uyğun olaraq sərhəd xətti müəyyənləşdi, sinurnamçə[1] yazıldı, Məhəmməd bəyin, sərhəd sancaqbəyilərinin və rumiyyə əyanlarının möhrü ilə möhürləndi, Əmirgunə xana təqdim olundu. Bu sənədin bir surəti isə Əmirgunə xanın və bu tərəfin əmirlərinin möhrü ilə təsdiq olundu, Məhəmməd paşaya verildi və onlar bir-birlərindən ayrıldılar.

Amma, Mahmud paşa Bağdadda və Ərəbistanda çoxlu ixtilaf olduğu üçün həmin sinurnamçənin [şərtlərini] həyata keçirə bilmədi və [məsələ] tərəflər arasında həll olunmamış qaldı. Nəticədə fitnəkar adamların, xüsusilə gürcülərin və kürdlərin fəsad törətmələri səbəbindən sülh pozuldu və o vaxt həyata keçə bilmədi, [beləliklə] tərəflər arasında fitnə-fəsad tonqalı təzədən alovlandı ki [əhvalatı] sözlər yazan qələm gələcəkdə yazacaqdır.

## RÜSTƏM MƏHƏMMƏD XAN İBN VƏLİ MƏHƏMMƏD XANIN QORÇESTANDAN BƏLXİ FƏTH ETMƏYƏ YOLLANMASI VƏ MƏĞLUB OLUB PƏRİŞANLIQLA GERİYƏ QAYITMASI BARƏDƏ SÖHBƏT

Bu il özbək padşahı İmamqulu xan, Daşkəndi tutan və Səmərqənd məmləkətinin ətraf yerlərinə (həvaşi) də soxulan qazaq ləşkərini dəf' etməkdən ötrü Buxaradan Səmərqəndə yollandı, qardaşı Nədr Məhəmməd Sultanı Bəlxdən köməyə çağırdı. Nədr Məhəmməd ona Rüstəm Məhəmməd xanın Qorçestanda oturub, Bəlxin pusqusunda dayanaraq, fürsət gözlədiyini ərz etdi və [qardaşının köməyinə getməkdən] boyun qaçırdı.

[1] Sərhədin keçəcəyi yerlər barədə rəsmi sənəd – *Ş.F.*

İsmamqulu xan qardaşından köməyə gəlməsini ciddi surətdə tələb etdi. Buna görə də, Nədr Məhəmməd xan böyük Bəlx ləşkərini, qardaşa qardaşcasına (bəradərane) kömək etmək üçün, Bəlxdən Səmərqəndə göndərdi, elə özü də çayı keçdi.

Qorçestanda Nədr Məhəmməd Sultanın və Bəlx ləşkərinin gedişi xəbərini eşidən Rüstəm Məhəmməd xan yanına toplaşan üç min nəfərədək adamla hücumla Bəlxə yollandı. Özündə müdafiə qüdrəti və şəhəri qorumaq fürsəti görməyən Bəlx hakimi qalaya çəkildi, şəhərdən əl çəkərək, oranı Rüstəm xana saxladı, barışıq dili ilə ona xəbər göndərib dedi: "Mənim ailəm və adamlarım qalaya sığınmışlar və biganə ləşkərdən qorunmaq lazım bilinmişdir. Məmləkət sizindir və aramızda ayrılıq yoxdur". Rezəviyyə [rövzəsinin] seyyidəsi və Mirzə Əbu Taleb Rezəvi Məshədinin başçısı olan Nədr
s.865 Məhəmməd Sultanın anası [Rüstəm Məhəmməd xanın]
(612) qalanı qəhr və qəzəblə alacağı qorxusundan onun yanına ard-ardınca yağlı dilli elçilər (rəsulan) göndərib, ana-oğul mehribanlığı ərz etdi, Rüstəm xanı sultanın bacısı olan öz qızı ilə evlənməyə şirnikləndirdi, belə və'd etdi: "Qoy onunla əmirzadələri arasında sülh olsun, iki hissəyə bölünmüş məmləkət üç hissəyə ayrılsın ki, onların hər üçü bir-birləri ilə qardaşcasına davransınlar, çünki belə vəziyyət düşmənçilikdən və savaşdan yaxşıdır". Rüstəm Məhəmməd xan onların məkr (dəmdəme) və əfsununa aldanıb, asudəlik və qəlb inamı ilə Bəlxdə dayandı və günlərini qəflətdə keçirməyə başladı. Onlar isə gizlicə olaraq ətrafa adam göndərərək, bu məsələni xəbər verdilər və onların ləşkərinin gəlişini gözləməyə başladılar. Rüstəm Məhəmməd xanın adamları isə vilayətə səpələnib alış-veriş etmək və mal toplamaqla məşğul oldular. Elə bu vaxt bixəbər halda onun üstünə ləşkər töküldü, qoşun toplamağa və müdafiə olunmağa fürsət tapmayan Rüstəm Məhəmməd Sultan və adamları pərişanlıqla hərə öz qeydinə qaldı.

**Rüstəm Məhəmməd xanın Bəlxdən Herata qaçışı**

Rüstəm Məhəmməd xan təxminən iyirmi nəfərlə atlanıb Maruçaq yolunu önə tutdu. Yoldaşlarından bir neçəsi yolda xana qarşı çıxaraq onu tutub Buxaraya aparmaq istədi, amma xana etimadı olan və tərəfini saxlayan başqa neçə nəfər isə, xana qarşı çıxan adamların məkrindən agah olub, onlara qarşı çıxdı və iş cəngə səbəb oldu. Nəhayətdə nifaq əhli xana tərəfdar (vəfaq) olanlar tərəfindən məğlub edildi və onların bir neçəsi qətlə yetirildi, Məhəmməd xan baş vermiş hadisədən nicat tapdı, belə vəziyyətdə Qorçestana gedə bilməyərək Herat darüssəltənəsinə gəldi. Şəhərə çatan kimi Mavərənnəhrdən
**s.865** belə bir xəbər yetişdi ki, bəs o yerin sultanları Daşkənd hüdudunda qazaq ləşkərinə məğlub olmuş, pərişanlıqla geri qayıtmışlar. Rəbiüs-sani ayının on dördündə (3 iyun, 1613) Hüseynxanın mülazimi Heratdan İsfahan darüssəltənəsinə gələrək baş verən hadisələri ərz etdi. Amma, Allahın istəyi hələ Rüstəm Məhəmməd xanın köməyinə yönəlmədiyindən, xan özünün bu səfəri vaxtı heç bir iş edə bilmədi. Bəli, əgər İlahi qərar və əzəli istək xanın işlərinin baş tutmasına yönəlsəydi, onun bəxt və dövləti heç qılınc işlətmədən də uğur qazanardı.

**Misra**

*Bəxt və dövlət deyil çalışmaqla.*[1]

### BU İL BAŞ VERƏN MÜXTƏLİF HADİSƏLƏR

[Hadisələrin] biri Dekən Hindistanına elçilər göndərilməsidir. Böyük Dekən sultanlarının qədim vaxtlardan bu vəlayətnişan dudmana istək və sədaqətləri olmuşdur. Bir qədər bundan əvvəl, *nəstə'liq xətti* yazmaqda zəmanə xoşnevislərinin ən üstünü və dövranın yeganəsi olan Xorasan vilayətinin əzəmətli seyidlərindən olan Mir Xəlilullah Xoşnevis Allahın

[1] Misranın farscası:

Bəxt-o dovlət be kardani nist

təqdiri ilə Dekən vilayətinə gedib Bicapur valisi Adilşahın yanında qalmışdı. Çölkəndə valisi Məhəmmədqulu Qütbşah, habelə nizamsahiyyə[*] sülaləsinin sepəhdarı (qoşun başçısı – *Ş.F.*) Məlik Ənbər layiqli töhfələr və hədiyyələrlə cahanpənah dərgaha elçilər göndərib, Hindistan hökmranının fərmanı ilə onların məmləkətinə (Golkəndəyə – *Ş.F.*) soxulan cığatay ləşkərinin zülmünə qarşı [şahdan] kömək istəmişdilər.

Müqəddəs səfəviyyə və ali teymuri sülaləsinin həzrət padşahları arasında daim məhəbbət, ülfət (vedad), səmimiyyət (movəddət) və vəhdət mövcud, olduğu üçün, əlahəzrət zilləlah şah və Hindistan məmləkətlərinin əzəmətli həzrət padşahı Səlimşah öz mərhum atalarından daha artıq sədaqət, dostluq, ülfət və qardaşlıq etməkdədirlər. [Səlimşah] əvvəlcə o həzrətə məhəbbətamiz bir məktub yazarak Dekən sultanlarının cəzalandırılmasını (sefariş) xahiş etdi ki, bu xahiş o həzrət tərəfindən razılıqla qarşılandı, onlara bir-birləri ilə düşmənçiliyi tərk etməyi tapşırdı. Buna görə də bu il Hüseyn bəy Qeyçaci Təbrizini-Qütbaşın, Dərviş bəy Mə’rəşini Nizam şahın, Məlik Ənbəri və Şahqulu bəy Zəyəki-Adilşahın yanına elçi tə’yin etdi, onlara inayət üslublu məktublar yazıb, gözəl xələtlər, atlar və qiymətli hədiyyələr göndərdi.

Məhəmmədqulu Qütbşah Allahın rəhmətinə qovuşduğu üçün onun qardaşı oğlu və damadı olan Sultan Məhəmməd qütbsahilərin[**] hökmdarı olmuşdu. Ə’lahəzrət onun elçilərini hörmətlə qarşılayıb yola saldı və onlar İsfahandan mürəxxəs oldular, elçilik he’yəti Mir Xəlil ilə birlikdə yola düşdü. Dərviş bəy Şirazda vəfat etdiyindən, oğlu Məhəmmədi bəy atasının əvəzinə bu vəzifəyə təyin olundu, Hüseyn bəylə birlikdə məqsəd istiqamətinə yollandı. Amma Şahqulu bəy [bu səfərə] xoş bir saat seçmək niyyətilə bir müddət gözlədi
**s.866** və o, keçən il dərya yoluyla səfərə çıxa bilmədi. Buna görə
**(613)** də, İbrahim Adilşahın elçisi Mir Xəlil Xoşnevis Şirazdan geri qayıdıb ali saraya gəldi ki, onun qayıdışının şərhi aşa-
**s.866** ğıda bəyan olunacaqdır.

Baş verən hadisələrdən biri budur: Bu il Məhəmməd Həkim Mirzə ibn Məhəmməd Humayun padşah ibn Zəhirəd-

din Məhəmməd Baburun[1] qızı iffətli Kabuli bəyim ilə cənnət aşiyanlı cənnətməkan şahın [Şah Təhmasibin – *Ş.F.*] gözlərinə mil çəkilmiş oğlu Sultanəli Mirzə arasında kəbin kəsildi və izdivac oldu.

Məsələ belədir: O iffətli qadın Bədəxşan valisi Şah Süleyman ibn "Xan Mirzə" kimi tanınan Sultan Uveyş Mirzə ibn Sultan Mahmud Mirzə ibn Sultan Əbu Səid ibn Sultan Məhəmməd ibn Mirzə Miranşah ibn Əmir Teymur Gurəkanın nəvəsi Şahrux Mirzənin arvadı idi. Şahrux Mirzə hind diyarında vəfat etdi və həmin qadın ərinin cənazəsini götürüb şərafətli (moşərrəf) Mədinədə dəfn etmək məqsədi ilə Hicaz səfərinə çıxmaq istədi, amma səhra (badiye) ərəblərinin qorxusundan onun niyyəti həyata keçmədi, cənazəni ərəb məkkarlarına (məkkaryan) verib özü asimanın təqdiri ilə Bəsrəyə gəldi, oradan İran darülamanlar amanına yollandı, Şiraza gəldi. O qadına izzət və ehtiramla yanaşan Allahverdi xan onu İsfahana göndərdi və bir ildən artıq [Kabuli bəyim] İsfahanda yaşadı. Bu il hümayun fallı məiyyət İsfahanda olan vaxt Kabuli bəyim hərəmxana qadınları ilə görüşdü və ə'lahəzrət onu adı yuxarıda çəkilən şahzadəyə ərə verdi, amma onunla şahzadə arasında ülfət yaranmadı və onlar üzüntülü bir həyat sürməyə başladılar.

Başqa əhvalat isə Seyid Mübarək xanın oğlu Seyid Nasirin Ərəbistana, Həlov (?) xan Ərdəlanın oğlu Əhməd xanın isə öz irsi vilayəti olan Kürdüstana göndərilməsidir. Məsələnin şərhi belədir: Atası hələ çocuqluq vaxtı Seyid Nasiri ali saraya (qızılbaş sarayına – *Ş.F.*) göndərdi və o, hümayun orduda boya-başa çatdı, şahın xüsusi tərbiyə və nəvazişinə layiq görüldü. Seyid Mübarək dəfələrlə xahiş etmişdi ki, başqa fərzəndini qızılbaş sarayına göndərmək şərti ilə Seyid Naşirin Ərəbistana qaytarılması, bir neçə vaxt öz qoca atası ilə görüşməsi üçün şah ona izn versin. Amma bu məsələ indiyədək şah tərəfindən qəbul olunmamış və ləngidilmişdi. Bu il Seyid Mübarəkin böyük oğlanları Seyid Bədr və Seyid

[1] Kitabda səhvən "Məhəmməd Babur" əvəzinə "Məhəmməd Bağır" yazılmışdır – *Ş.F.*

Bərkənin vəfat etmələri xəbəri gəldi, onun bir-iki oğlu isə hələ kiçik idilər. Buna görə də, cahanı bəzəyən rə'y belə oldu: Seyid Mübarək çox qoca olduğu üçün bu güclü dövlətin məsləhətinə müvafiq olaraq Seyid Nasir oraya göndərilsin, əgər Seyid Mübarəkin başına bir iş gələrsə, Seyid Nasir Ərəbistana qarışıqlıq düşməməsindən ötrü, Allahın məsləhəti ilə, orada hazır vəziyyətdə olsun. Buna görə də onun geri qayıdışına icazə verildi.

Xan Əhməd Ərdəlan da uşaqlıq vaxtından şahın mülazimətində böyümüşdü. Xan Əhmədi boya-başa çatdıran ə'lahəzrətin qiymətli fikri onu atasının əvəzinə ölkənin taxtına əyləşdirmək və ərdəlan tayfasının başçısı tə'yin etmək idi. Buna görə də, Xan Əhmədi atasının yanına yollayıb, Həlov xana bildirdi: "O, (Ərdalan hökmdarı – *Ş.F.*) çox qoca və zəif (natəvan) olduğu üçün qəbilə və tayfalara kömək (momedd) edə bilmir. Buna görə də oğlunu göndərdim ki, sənin yanında olsun".

Müzəffər ordu gürcülərin cəzalandırılması məqsədilə hərəkət edib *Qarabağın Gəncəsinə* çatdıqda onların hər ikisi (Seyid Nasir və Xan Əhməd *Ş.F.*) Gəncədə şahdan ayrılıb məqsədə doğru üz tutdular. Onların sonrakı əhvalatı, bəxtin

**s.867** köməyi ilə, gələn il hadisələrinin şərhində yazılacaqdır.

## QƏZAVAT NİYYƏTİ İLƏ GÜRCÜSTANA HÜMAYUN YÜRÜŞÜN BAŞLANMASI, İMANSIZ GÜRCÜLƏRİN CƏZALANDIRILMALARI, BU UĞURLU VƏ SƏADƏTLI HÜCUMDA BAŞ VERƏN HADİSƏLƏRİN ZİKRİ

Bundan əvvəl vaqiələr yazan qələm belə yazmışdı: Ə'lahəzrət tərəfindən hakimiyyətə gətirilən və tərbiyə olunan Kaxet vilayətinin valisi Davud xan ibn Aleksandr xanın oğlu Təhmurəs və Gürcüstanın Kartil vilayətinin valisi Gorgin xan ibn Səmayun xanın oğlu Luarsab, it ilində Rum sərdarı Murad paşa Təbrizdə olduğu zaman, onun xidmətinə gəlmiş və ondan ayrıldıqdan sonra ə'lahəzrətə (Şah Abbasa – *Ş.F.*) belə təklif etmişdilər: "Əgər ə'lahəzrət behiştə bənzər Mazandaranda seyr və şikar etmək fikrinə düşərsə, onlar da həmin

vilayətin tə'rifini çox eşitdikləri üçün şahla birlikdə seyr və şikarda iştirak etmək arzusundadırlar. Şah qoy onlara izn versin ki, özlərini hümayun orduya çatdırıb seyrvə şikar üçün müqəddəs orduda olsunlar. Əgər şahın cahanı bəzəyən rə'yi onların da iştirakına icazə verərsə, qoy bu barədə bir namə
s.868 göndərib onları də'vət etsin ki, hər ikisi belə olan surətdə
(614) səfərə çıxıb özlərini iqbal qoşununa külək kimi çatdırsınlar". Buna görə də keçən qış cah-cəlal ordusu o tərəflərə yollananda, hər iki valinin çağırılması xüsusunda ali hökm yazıldı. Amma, onlar həmin hökm sənədini aparan Əmirqulu adlı cilovdarı bir müddət öz yanlarında saxladılar və gedişi ləngitdilər. Bir-birləri ilə görüş barədə razılığa gələ bilməyən həmin valilərin səfəri o qədər təxirə salındı ki, Mazandaranda hava istiləşməyə başladı,bahar fəsli və şikar mövsümü başa çatdı, əlahəzrət o vilayətdən çıxdı. Buna görə də [gürcü valiləri] adı çəkilən cilovdarı öz məqsədlərinə yetmədən geri göndərdilər və şah ilə birgə olmaq səadətinə yetə bilmədilər. Eyni zamanda onlar bir neçə gürcünün, o cümlədən Şirvan adlı bir nəfərin təhriki ilə bir-birləri ilə görüşüb belə qərara gəldilər: "Qoy bundan sonra atalarının etdiklərinin əksinə olaraq bir-biri ilə birləşsinlər, imkan olduqca öz yerlərini tərk etməsinlər və yaxalarını qızılbaş əlinə verməsinlər".

Amma, həqiqətdə isə o adamlar (yəni "bir neçə gürcü və Şirvan adlı bir nəfər" – *Ş.F.*) onların (yəni gürcülərin – *Ş.F.*) hakimiyyətini dağıtmağı qərara almışdılar.

Xülasə, bu məsələ ə'lahəzrətə çox ağır tə'sir etdi, onun nurlu xatirə aynası elə tozlandı ki, sədaqətdən dəm vuran sözlər və başqa kəlmələrlə cilalanıb bir daha parlaya bilməzdi. Ə'lahəzrətin rə'yi belə qərarlaşdı ki, həmin sultanzadələr cəhalət və qürur atına minmiş olduqlarından, hələ dövranın şilləsini yeməmişlər, ağıl məktəbində tərbiyələnə bilməmişlər. Ə'lahəzrət belə qərara gəldi ki, onların cəzalanmaları məqsədi ilə Qarabağa yürüş etsin, əgər orada Gürcüstan valiləri öz xahiş qədəmlərini irəli atıb onu istiqbal edərlərsə və şahın üstü tozlanmış saf güzgüsünü acizanə tərzdə və layiqli şəkildə sədaqətli adamlar kimi təmizləyərlərsə, onlarla mürüvvət və

səxavətlə davransın, yox əgər qorxaq xainlər kimi özlərini onun xidmət səadətinə yetirməzlərsə, onları qəflət yuxusundan oyadıb cəzalandırsın.

İsfahan darülmülkü havasının isti olduğu bir neçə gün müddətində ə'lahəzrət gününü Fəridən və Porciş yaylaqla-
s.868 rında keçirdi. Havalar sərinləşəndə dövlət və səltənət paytaxtına qayıdaraq, mübarək ramazan ayının ikisində (16 oktyabr, 1613) pəncşənbə günü Gürcüstana cəhad yürüşünə başlamaq məqsədiylə yola düşdü. Ali sarayda olan və hələ sərhədləri müəyyənləşdirib qurtara bilməyən Rum elçisi İncili Çavuşa İsfahanın Qarabağında qalaraq tapşırılan vəzifə ilə məşğul olmasını və e'tibarlı sərhəd sənədləri (sinornamələr) hazırlamasını tapşırdı. Ordu ahəstə-ahəstə yol gedirdi və çatdığı hər bir yrdə çoxlu döyüşçü gəlib onlara qoşulurdu. Səadət və iqballa gələrək Ərdəbil darülirşadına çatdılar, orada bir neçə gün sultanül-övliyanın və başqa əzəmətli səfəviyyə şeyxlərinin nurlu məzarlarını ziyarət etdilər.

Rumilərlə hələ cənnətməkan şahın və Sultan Süleymanın dövründə imzalanmış sülh sazişi təzələndiyindən və Gürcüstanın Mesq, Kartil və Kaxet adlı yerləri bu tərəfə- yəni qızılbaşiyyə məmləkətinə, qalan yerlərsə, o cümlədən Başıaçıq, Dadyan və Kuryal o tərəfə, yəni Ruma verildiyindən, əlahəzrətin bu yürüşünün tərəflər arasında bağlanan əhd-peymanın pozulması kimi qiymətləndirilməməsi, Gürcüstan yürüşünün sülhə zərər və zədə vurmaması, [həmçinin] arada heç bir fitnə yaranmaması və müsəlmanlara xətər dəyməməsi üçün müqəddəs ordu mülazimlərindən olan Sultan Məhəmməd bəy Talışı Ərdəbildən Nəsuh paşanın yanına-Ruma göndərdilər və Gürcüstan səfərinin səbəbini bu tərəfə tabe olan gürcülərin cəzalandırılması məqsədiylə başlandığını bildirdilər. Beləliklə, onlar Ərdəbil darülirşadından çıxaraq ov (şekar və nəxcir) edə-edə Qarabağa gəlib çatdılar.

Onların, xüsusilə uğursuz Təhmurəsin bəsirət gözü qəflət və vəhşət pərdəsi ilə örtüldüyündən o, öz müstəqim yolundan dönüb düzgün istiqamətini itirdi. [Gürcülərin] ürəklərində sədaqət olmadığı üçün onlar meşə və cəngəlliklərə arxalana-

raq əlahəzrətin yanına gəlmək səadəti ilə feyziyab olmadılar. Ə'lahəzrət zilləllah şah Təhmurəsi ov kimi ovlamaqdan ötrü Təbriz hakimi Pirbudaq xanı bu dəstə əmirlə yola saldı. Habelə Qarabağ əmirlərindən olan və Gürcustanın ətraf yerlərinə, həmçinin Kaxet ülkası tərəfində yerləşən Tiflis tərəfə bələd olan Dəli Məhəmməd Şəmsəddinlini, həmçinin Gürcüstanın qərbində yerləşən Şirvanın bəylərbəyi Yusif xanı Şirvan əmirləri ilə birlikdə yürüş üçün təyin etdi. Ali ordu müzəffər əskərlərlə Qumin ölümü[1] adlı yerdə Kür çayından keçib Gürcüstan vilayətinə daxil olaraq Qebri (Qeberri?) çayı kənarında dayandı.

Səadətli ordunun gəlişindən xəbərdar olan Təhmurəs bihuşluqdan bir qədər huşa gəldi, çaş-baş qaldı. O, piyada və
**s.869** süvarilərdən ibarət döyüşçülərini toplayıb, meşə və cəngəl-
**(615)** liklər arasında özünə çəpər düzəldərək, alacəhrə quşu kimi (sə'vəasa) ağacların arasında məqam etdi ki, bir neçə günlüyə olsa da, cəngəllikdə qanad çalan şahbazın çəngindən qoruya bilsin. O nadan cahil şahanə tərbiyə kölgəsində (yəni Şah Abbasın sarayında – *Ş.F.*) boya-başa çatdığından ə'lahəzrət heç də istəmirdi ki, özünün tərbiyələndirdiyi adamı birdənbirə öz e'tibar nəzərindən salsın. Buna görə də, o, ali dərgahda Təhmurəsə yaxın olmuş Zakir ağa Quşçini onun yanına göndərdi ki, ürəkaçan nəsihətlərlə qəflət pambığını Təhmurəsin qulağından çıxarsın, onu ə'lahəzrətin yanına getməyə rəğbətləndirərək, başqa heç bir yolu olmadığını bildirsin. Təhmurəs özünün acizlik və çarəsizliyini ərz edib dedi: "Məni qorxu və dəhşət bürümüşdür. Şahanə qəhr və qəzəbin qorxusundan mən indi ə'lahəzrətin hüzuruna gedə bilmərəm".

O anasını və iki azyşlı oğlunu bir neçə nəfər mö'təbər
**s.869** aznauru, keşiş və rahibi ilə ali dərgaha yolladı ki, onun təqsir və günahlarının əfv olunması üçün üzrxahlıq etsinlər.

---

[1] "Qoyun ölümü" deyilən yer Kür çayı üstündə mövcud olmuş məşhur keçiddir. Mətndə səhvən Qumin ("Qovmin" də oxumaq mümkündur) kimi getmişdir – *Ş.F.*

**Kaxet valisi Təhmurəsin Kartil səmtinə fərar etməsi:**

Təhmurəs onların vasitəsiylə ə'la-həzrətdən onun əfv xahişinin bu dəfə bağışlanmasına nail olandan sonra geri qayıtmalarını tapşırdı və boyun oldu ki, padşah onu əfv edən zaman dərhal arxayınlıqla iqbal yuvası olan dərgaha gedəcəkdir.

**Beyt**

*Söylədi: – Ey ana, hökmdardan sən,*
*Üzrümün əfvini xahiş edərsən.*
*De şaha "xar etdi nadanlıq onu,*
*Peşimançılıqdır nadanın sonu*[1]

Onlar gəlib Qəbərri[2] çayı sahilinə çatdılar. Təhmurəsin anası və gürcü qadınları ə'lahəzrətin əlini öpmək şərəfinə yetişib, şahanə diqqətlə qarşılandılar. O həzrət həmin qadının xahişini yerinə yetirib Təhmurəsin təqsirini əfv etdi. Lakin həmin əsnada onun tərəfindən cəhalət və nadanlıqla gürcü dilində yazılan bir məktubu şahın nəzərinə çatdırdılar. Məktub həmişə şah ordusunun mülazimi kimi xidmət edən və şaha yaxın olan adamlar zümrəsinə mənsub Kartil valisi Luvarsabın əmisi oğlu Bograt Mirzəyə yazılmışdı. Məktubda aparılan danışığın ziddinə gedən və o zaman üçün münasib olmayan bə'zi sözlər vardı. Məktubun məzmunu bəlli olan kimi qəzəb tonqalı şö'ləndi və elə ucaldı ki, onu şahın yanına üzrxahlığa gələn gürcü hey'əti heç cür söndürə bilmədi. Təhmurəsin anasını, oğlanlarını və bir dəstə xidmətçiləri e'tibarlı adamların nəzarəti altında İraqa rəvan etdilər,

---

[1] Beytin farscası :

Be madər çenin goft: K-ey nikzən,
To xahi məgər ozre-təqsire-mən.
Nədani ke anha ze nadaniəst,?
Sərəncame-nadan pəşimaniəst.

[2] Qeyd: Qəbərri-Qabırrı çayı-İori (İora) çayıdır. Gürcüstandan və qismən də Azərbaycandan axır. Uzunluğu 320 km. Mingəçevir su anbarına tökülür. Əvvəllər Qanıx çayının sağ qolu idi. (Bax: ASE,c.II, 1978.s.544.) – *Ş.F.*

aznaurları isə təcrübəli əsgərlərə tapşırıb Təhmurəsin üstünə yollandılar.

Bu xəbəri eşidən Təhmurəs dayandığı yerdə qala bilməyib, beş-altı yüzədək adamı, bir dəstə aznauru və çoxlu qohumu ilə keçilməz yollardan keçib Kartil istiqamətinə qaçdı, oradan Luvarsabın yanına gəldi. O da qalibiyyətli qoşunun qorxusundan öz vilayətində qala bilmədi və onların hər ikisi birlikdə yorğun-əzgin və pərişan halda Ruma tabe olan Başıaçıq vilayətinin valisi Gorgin xanın yanına pənah apardılar ki, onların başlarına gələnlər və Gürcüstanda baş verən hadisələr barədə yeni il hadisələrinin bəyanı zamanı ənbər ətirli qələmlə məlumat veriləcəkdir, inşallah!

**Ölümlər:** Müzəffər ordunun Fəridən və Porciş yaylaqlarında olduğu xoş bahar günlərində ömründən on iki il keçən, səltənət və iqbal gülşənin fidanı (novnehal) olan şahın şahzadə oğlu xəstələndi, cəmadüs-saniyyə ayının iyirmi doqquzunda (16 avqust, 1613) Allahın rəhmətinə qovuşdu, onun pak nə'şini İsfahanın Kəlyar məhəlləsindəki "İmamzadə İsmayıl" adlanan imamzadədə bir neçə gün saxladılar, hava soyuyan zaman (e'tedal) müqəddəs Məşhədə aparıb uca Rezəviyyə rövzəsində öz ata-babalarının yanında dəfn etdilər. Ümidvarıq ki, onun böyük atasınının ömrü və zavalsız dövlətinin davamı (bəqa) hadisələr burulğanına düşüb zavala uğramasın-Məhəmməd və sülaləsi naminə![1]

Yenə də bu il: Allahverdi xan Fars [vilayətindən] İsfahana
s.870 gəldi, ali hümayun ordu behiştnişan Mazandarandan İsfahana yetişdikdə [Allahverdi xan] ali məiyyəti qarşılamaq məqsədi ilə şahla görüşdü və sərəfraz oldu. Xanda azacıq zəiflik hiss olunurdu. Ə'lahəzrət, ona övliyalardan və mürşidlərdən miras qalan vəlayət, kəramət və irşad nuru ilə, Allahverdi xanda ölüm əlaməti gördü və bunu hamıya bildirdi.

Xülasə, bir neçə gün şahın yanında qalan Allahverdi xan rəbius-sani ayının on dördündə (3 iyun, 1613), düşənbə günü-xəstəliyinin on dördüncü günündə Allahın də'vətini qəbul edərək onun rəhmətinə qovuşdu. Xanın bütün həyatı

[1] İfadənin ərəbcəsi: "bi Muhəmmədin və alihi-l-əmcad"

vəline'məti razı salmaqla keçdiyindən, əlahəzrət zillənllah şah məhəbbət və hörmət əlaməti kimi bütün əmir və ə'yanlarla birlikdə dəfn mərasimini başa vurdu, tam ehtiramla (tovqir) onun nə'şini müqəddəs rövzədə tikdirdiyi məqbərədə (gonbəd) torpağa tapşırdı. Nadir hadisələrdəndir ki, həmin
**s.871** bir neçə gün müddətində xan o rövzənin sərkarının yanına
**(616)** gələrək, ona həmin binanın tə'mir olunub bəzədilməsini tapşırmışdı. O, *sadədil türk* Allahverdi xana demişdi: "Dəfn üçün inşa olunmuş bu ali gümbəz və qəsr artıq hazırdır və [sizin] ali qədəminizi gözləməkdədir". Məclisdəki adamlar onun bu sözlərini nadanlıq və mə'nasız danışıq (bihudəguyi) adlandırıb onu danladılar. Xan [isə] buyurdu: "Qeyb aləmindən mənə söyləyirlər ki, mənim ölümüm yaxınlaşmışdır, zavala uğramaqda və gəlib çatmaqdadır".

**Beyt**

*Bir çox fal mənasız açıldı qaldı*
*Bu fal düzgün çıxdı, canımı aldı.*[1]

Elə həmin gün Lar hakimi və əmirdivan olan möhtərəm oğlu İmamqulu xan atası Allahverdi xanın yerinə Fars darülmülkünə hakim tə'yin olundu və [bu vilayət] onun sabiq ölkəsinə əlavə edildi. [Ə'lahəzrət] dəfnin ertəsi günü onun mənzilinə təşrif aparıb ailəsinə təskinlik (delcuyi) verdi, xosrovanə mərhəmət və iltifat göstərdi.

O, (Allahverdi xan – *Ş.F.*) bu sülalənin əmir və xanlarından idi. Şan-şöhrətinin çoxluğu, məqam və həşəmətinin getdikcə artması, böyüklərə xas təmtəraqı (təcəmmolat), fərdi alış-veriş qabiliyyətinə görə [hamıdan] seçilirdi. [İnsanlara] borc verilmiş (mostəar) həyatda ali imarətlər, xeyriyyə binaları inşa etdirmişdir. [Allahverdi xan] olduqca səbirli (helm), həyalı bir şəxs, rüzigarın pakizə adamı idi.

---

1 Beytin farscası:
Bəsa fali ke əz baziçe bərxast,
Ço əxtər miqozəşt, an fal şod rast.

**Şahverdi bəyin vəfatı.**

Vəfat edənlərin başqa birisi söhbət yasovulu Şahverdi bəy Bayburdludur ki, "dərgaha yaxın adamlar" zümrəsindən olub, xidmət müddətinin uzunluğu (qədmət), hörmətinin çoxluğu, məqamının ucalığına görə e'timada layiq şəxs idi. Keçən il Gilanda xəstələndi və onu Mazandarana gətirdilər. Novruzdan sonra cah-cəlal ordusu İsfahana yollanan vaxt o, xəstəliyinin şiddətindən oraya qayıda bilmədi, Fərəhabadda qaldı. Gün-gündən zəifləyirdi. Bu ilin əvvəlində Allah-təalanın rəhmətinə qovuşdu. Sərvət və var-dövlət (məknət) sahibi idi ki, hər şeyi varislərinə qaldı.

[Şahverdi bəy] haqqında bu söhbət məşhurdur: Gilanda ağlı kəm dərvişlərin biri onun yanına gəlib, xoşagəlməz sözlər danışmış, bəy isə qürurlu olduğundan həmin dərvişi incitmişdi. O dərviş də ürək sınıqlığıyla nalə edərək bəyi Allaha həvalə etmişdi. [Şahverdi bəy] elə həmin iki gün ərzində natəvanlıq yatağına [bəstər] düşdü:

**Beyt**

*Sağ kəsin Allah əlacın etmədi,*
*Heç kimi Pərvərdigar incitmədi.*[1]

Bəyin qaçılmaz vaqiəsi gilanlıların həmin dərvişə e'tiqadlarının çoxalmasına səbəb oldu.

---

[1] Beytin farscası:

Ta del mord, xoda naməd bedərd,
Hiç qovmi-ra xoda rosva nəkərd

Qeyd: Beytin birinci misrası qüsurludur – *Ş.F.*

## HÜMAYUN ZİLLƏLLAH [ŞAH] ABBASIN TAXTA CÜLUSUNUN İYİRMİ SƏKKİZİNCİ İLİNƏ – BƏZİLƏRİNƏ GÖRƏ MİN İYİRMİ ÜÇÜNCÜ (1614-1615), BƏZİ ADAMLARA GÖRƏSƏ MİN İYİRMİ DÖRDÜNCÜ (1615/1616) PƏLƏNG İLİNƏ TƏSADÜF EDƏN HADİSƏLƏR BARƏDƏ SÖHBƏT

Qış fəsli bitdiyi üçün mübarək baharın cah-cəlalı və sabit və səyyar ulduzlar qoşununun gözə görünən ön hissəsi (münqəlay) aşikar oldu, üzgün dey qoşunu məğlubiyyətə uğradı, novruzun qalibiyyətli ordusu bütün dünyanı tutdu. [Bahar fəsli] cahan bostanının yeniyetmələrini (novxət) cana gətirdi, yəni aləmi işıqlandıran günəş min iyirmi üçüncü ilin səfər ayının onunda (1 aprel, 1614), cümə günü hut xəlvətxanasından çıxıb şərəf və iqbal xanəsi olan uca həməl qəsrinə gəldi, dünya novruz qədəminin əzəmətindən (fərr) gözəllərin çöhrələri kimi işıqlandı, baharın təravəti və yağıntının (əmtar) çoxluğu ruzigar gülşənini təzələdi:

**[Beytlər]**

*Bahar yenə gəldi, işıq çoxaldı,*
*Abana[1] və deyə[2] qələbə çaldı.*
*Novruz yetişəndə oldu həmin an*
*Cahan işrət yeri, aləm gülüstan.*
*Qızardı yer üzü yenə də gerçək*
*Mey içmiş qızların göyçək üzü tək.*
*Gül ətri havanı etdi müəttər,*
*Göydə mələklər də ətirləndilər[3]*

---

[1] Aban ayı-İran hicri şəmsi ilinin səkkizinci ayı (noyabr) – *Ş.F.*

[2] Dey ayı-İran hicri şəmsi ilinin onuncu ayı (dekabr) – *Ş.F.*

[3] Beytin farscası:

Degər bare bəhare-aləməfruz
Be abanmah-o dey gərdid firuz.
Şode əz məqdəme-novruz soltan

Cahan (keyhan) əzəmətli ordu pəncşənbə günü novruz axşamı Dəclə və Ceyhun çaylarının üçdə biri böyüklüyündə olan Qanıq* çayından keçib, gürcü Sərməranın yurdu olan Mesq ülkasında dayandı, ertəsi gün isə o gözəl məkanda novruz bayramı keçirildi, gəzinti və çal-çağır başlandı.

Yuxarıda yazıldığı kimi, iqbalsız Təhmurəs müzəffər ordunun qorxusundan fərar edib Başıaçığa** qaçmışdı. Cahan şəhriyarı (yəni, Şah Abbas – *Ş.F.*) öz hüdudsuz iltifatına görə Gürcüstanın idarəsini və var-dövlətini hələ körpəliyindən şahın xidmətinə gələn, şahanə tərbiyət kölgəsi altında boya-başa çatan və islamı qəbul etmək şərəfi ilə müşərrəf olan Təhmurəsin əmisi oğlu İsa xan Mirzə ibn Gorgin Mirzə ibn İskəndərə verdi. Ə'lahəzrət əzəmətli gürcü aznaurlarından olan Davud bəyi ona vəkil tə'yin edərək, İsa xanı gürcülərin qayda-qanununa uyğun şəkildə həmin mülkün dövlət taxtına çıxardı, ona çoxlu qızıl verdi. Qızılbaş əmirləri və ə'yanları da hümayun şahın işarəsi ilə gürcülərə yaxınlıq edib, qızıl taslara və gümüş tabaqlara çoxlu qırmızı və ağ pul (noqude-əhmər və əbyəz) dolduraraq onlara təqdim etdilər. Gürcü
**s.873** böyükləri və ə'yanları da Təhmurəslə birgə olmağı qət' edən
**(617)** ə'yanlara qoşulmayıb, İsa xanın başına toplaşdılar, itaətə gəldilər. Şahanə qüvvət, gürcüləri və onların mallarını elə qorumağa başladı ki, papaq sahibi olan heç kəs rəiyyətin xır-
**s.873** manından bir saman çöpü də apara bilməzdi. Sahibsiz qalan gürcü yerlərinə çataraq, xristianların (nəsari) evlərinə əl uzadan bir neçə nəfər cahil və talesiz adamın qarınlarını cırıb onları orduda nümayiş etdirdilər. Bu cür cəza başqalarına ibrət dərsi oldu. Qiyamət tə'sirli ləşkərin qorxusundan qaçıb meşələrdə gizlənən gürcü rəiyyəti və aciz adamları ləşkərin bu ədalətli hərəkətlərindən xəbər tutaraq öz yer-yurdlarına qayıtdılar, şahın inayətinə çatdılar. [Ordu] Mesq vilayətindən

---

Cəhan eşrətkəde, aləm golestan.
Həme ruye-zəmin əz lale-vo gol
Ço ruye-golroxan əz nəş'əte-mol
Həva əz buye-gol çon ənbəre-tər
Dəmağe-qodsiyan kərdi moəttər.

çıxıb gürcü hakim və sultanlarının iqamətgahı olan Kirəm qəsəbəsinə çatdı. O qəsəbə yam-yaşıl və Gülüstani-İrəmdən bir nümunə olan elə məkandır ki, dünya nəsarilərinin bir məskəninə çevrilmişdir. Sanki bu deyim – "Dünya mənim üçün məhbəs, kafər üçünsə cənnətdir"[1] deyimi o yer üçün yazılmışdır.

Bu qəsəbədə olduqca böyük, yaraşıqlı və zəngin bir kilsə vardı. İslamın başlanğıcından bu kilsədən oranın sakinlərinə bircə də müsəlmanın səsinin dəyib-dəyməməsi və oraya sakin olanların təkcə rahiblərdən başqa bir kəsi görüb-görmədikləri hələ mə'lum deyildir. Oranın camaatının əksəriyyəti nəsari, az hissəsi isə yəhudilərdir ki, onlar islam və müsəlman dini barədə fəqət sözdən başqa heç nə eşitməmişdilər. Dinə pənah verən (dinpənah) padşah "Allah" kəlməsinin səsləndirməkdən ötrü o kilsəyə gəldi və orda "Məhəmməd Səlləllahu-əleyhi və alihi və səlləm" səsi ucadan səsləndi. Beləcə olaraq onlar hər hansı bir kilsəyə çatdıqları zaman əzan verərək fəzanı fərəhlə dolduran gözəl "La ilahə illəllah, Məhəmmədun rəsulullah, Əliyyun vəliyy-ul-lah" kəlmələrini mələklər aləminə çatdırdılar.

Oradan çıxıb gürcü xristianlarının böyük mə'bədlərindən olan Alaverd[2] adlı kilsəyə gəlib yetişdilər. Həqiqətən də ali imarət və bənzərsiz (motəali) günbəzdir. Əzəmətli ordu həmin yerdə dayandı.

**Gürcüstanın Torağan qalasının fəthi:**

Orada, ə'lahəzrətə xəbər verdilər ki, o vilayətin şimal tərəfində Torağay[3] adlı bir qala vardır ki, bir dəstə gürcü oraya sığınmış və indiyədək İsa xana itaətə getməmişlər, Təhmurəsin bə'zi yüngül-ağır var-dövləti də həmin qaladadır. Ə'lahəzrət müzəffər əskərlərin bir dəstəsini Məhəmməd Tağı bəy Təbrizi adlı *azərbaycanlı tüfəngçilərin minbaşısının (minbaşiye-tofngçiyane-azərbaycani!!!)* sərkərdəliyi altında o qala üzərinə yolladı. Qaladakılar döyüşdən sonra

---

[1] Ərəbcəsi: "Əd-dunyə sicnu-l-mu'mini va cənnətul-kəfiri"

[2] Alaverdi-*Ş.F.*

[3] Mətndə bu bu ad "Torağay" kimi də getmişdir.

mühasirəyə dözməyib, fərar yoluna düşdülər, qala ələ keçirildi, orada tapılası hər şey zəbt olundu.

Qaladan ələ keçirilən qənimətlər arasında dürlərlə bəzədilən gümüş bir tac vardı. Onların "Alaverd" kilsəsinin başçısı adını daşıyan və "alaverdi" mənsəbinə yetən keşişi (şeyx və moqtəda) müqəddəs xristian ayinlərinin icrası zamanı başını həmin tacla bəzəyib adı çəkilən mə'bəddə xristian təriqəti başçısı kimi öz millətinin imamlığına (imamət) başlayırlar və xristianlar ona sitayiş edirlər. Cövhərşünas sərraflar (seyrəfiyan) tacın qiymətini *beş yüz tümən İraq şahisi məbləğində* olduğunu müəyyənləşdirdilər. Mülklər bəzəyən ə'lahəzrətin rə'yi belə oldu ki, həmin kilsəni qalaya çevirib, onun ətrafına möhkəm bir divar çəksinlər və qəhrli tüfəngçilərin bir dəstəsi həmin qalada yerləşərək oranı daim qorusunlar. Alaverdin hər tərəfini ordu, əmir, ə'yan və əskərlər arsında böldülər. O tərəflərdə işə yararlı daş və əhəng olmadığından, onları uzaq yerlərdən gətirdilər və həmin qalanın işləri iyirmi günün ərzində tamamlandı, İsmayıll bəy Tüfəngçibaşı iki yüz nəfər *azərbaycanlı (!!!) tüfəngçi* ilə həmin qalanın [mühafizəsinə] tə'yin olundu.

Təhmurəs və Luvarsab Başıaçıq ülkasının möhkəmliyinə, orada keçilməz meşələr olduğuna, oranın valisinin isə Rum [ölkəsinə] tabe olmasına arxalanıb, həmin yerə pənah apar-
**s.874** mışdılar. Şahanə qeyrət və xosrovanə təəssübkeşlik bunu tələb edirdi ki, hümayun yürüş haraya lazım gəlsə, oraya da edilsin, onlar ələ keçməyincə bu niyyətdən əl çəkilməsin. Buna görə də, yürüş cilovunu Başıaçığın yolu üstündə yerləşən Kartil tərəfə tutdular.

Kartilə gedən yol dar bir dərədən keçən çətin bir yoldur. Elə bir yol ki, dərinliyi yeri buynuzunda saxlayan öküzə, hündürlüyü isə ayın mənzilinədək gedib çıxır.

Gürcüstan hakimləri heç vaxt yolun darısqallığı və keçidlərin çətinliyi səbəbindən qoşunları ilə bu yerdən keçməmişlər. Ələlxüsus, buludların (səhab) gözləri yerə gecə-gündüz yağış qətrələri tökməyindən qalmırdı. Ağacların sıxlığından oraya günəş nuru illərlə gedib çatmamışdı. Gil və palçıq (lay) bol-

luğundan, dəryalar keçən iri cüssəli fillər də oradan keçə bilməzdi. Baxmayaraq ki, hamı əzəmətli ordunun və sayları ulduz qədər çox döyüşçülərin çətin, bəlkə də namümkün olan həmin yeri keçə biləcəklərinə inanmırdı, amma dövlət və səltənətin məsləhət və tədbirlərinə zamin olan şahın cahanı bəzəyən rə'yi o yolu keçmək oldu. Həşəmətli [ordu] təbəqələri dəstə-dəstə gələrək o darısqal və qaranlıq dərəni üç gün müddətində keçdilər, amma həmin qorxunc yolun aşağı və yuxarı hissələrini keçərkən müzəffər əsgərlərin dəvə
**s.875** və ulağı, həmçinin ordubazar camaatının bə'ziləri həlak
**(618)** dağından düşüb məhv oldular. Dördüncü gün böyük ordu Qanıq və Qeberri çaylarının mənbə yerinə gəlib çatdı, ordunun əzəməti günəşə və ayadək ucaldı. Ora olduqca pakizə və yaşıl yerdir. Quşların və gül-çiçəyin ətri cənnətin (firdovs) həsədinə səbəb olur, belə ki, bu hədisin məzmununa uyğun yuxarıda deyildiyi kimi "dünya mömün üçün məhbəs, kafər üçünsə cənnətdir".[1] Bu gözəl yer o imansız kafərlərin məskənidir. Kaxet vilayətinin ərzad (?) və tiyanat (?) camaatı Təhmurəslə etdikləri dostluğun cəriməsi kimi onu qeyri ə'nənəvi (ğeyre-motəaref) yoldan döndərmişdilər. Təhmurəsin getməyini bilən başqa adamlar onun yolunu kəsən müzəffər əsgərlərdən bu hərəkəti gizlətmiş və onları xəbərdar etməmişdilər. O tayfa böyükləri də inadkarlıq edib, İsa xanın yanına getməmiş, islam bəşərinə tabe olmaqdan boyun qaçırmış və itaət etməmişdilər. Bura görə də, onlar padşah qəzəbinə gəldilər, müzəffər əsgərlər həmin iki ülkanı (Kartil və Kaxeti – *Ş.F.*) qarət etmək və oradan əsir götürmək üçün rüxsət aldılar, dəstə-dəstə bölünərək meşə və cəngəlliklərə girdilər, onların əllərinə otuz min nəfərədək əsir adam və qırx min baş inək və qoyun keçdi, şahın sərkarına xas olan həmin adamların beşdə bir hissəsi islam əsgərlərinə aid edildi. Otuz min dinsiz kafərin islam şərəfinə yetişməsinə səbəb olan bu böyük işin savabı, heç şübhəsiz ki, bu dövlətin davam etməsinə, onun axirətdə bağışlanmasına və hümayun şahın etdiyi yaxşı işlərə aid ediləcəkdir. Kaxet və Kartil ara-

[1] Ərəbcəsi: "Əd-dunyə sicnu-l-mu'mini va cənnətul-kəfiri"

sında yerləşən Ərk çayı (?) bu səadətli məiyyətin iqamət yeri olduqda, cahanı bəzəyən rə'y izzət büsatının təcrübəli adamlarının birini elçi sifətilə Başıaçıq valisi Gorgin xanın yanına yollamaq oldu.

Çorgin xana göndərilən məktubun məzmunu belə idi:

"Bizim hümayun padşahımızla möhtərəm Rum padşahı arasında sülh və dostluq sazişi bağlandığından, onun şərtlərinin biri aşağıdakı kimi idi: Gərək hər iki tərəfin adamına himayədarlıq olunmasın, qaçan kəslərə qaçmaq imkanı verilməsin və onlar mühafizə olunmasınlar. Bu şərtə görə iki nadan cahil adam olan və hər ikisi bizim padşah tərəfindən böyüdülüb boya-başa çatdırılan Təhmurəs və Luarsab özlərinin zəhalət və nadanlıqları üzündən vahiməyə düşərək, sizin məkana gəlmişlər. Gərək hər iki tərəfin adamları əhd və peyman şərtlərinə əməl etsinlər, sülhün və sazişin şərtlərinə zidd olan heç bir əmələ yol verməsinlər, qoy iqbalsız həmin iki cahili öz yanlarında saxlayıb, bu tərəfə göndərsinlər ki, padşah onlarla özünə xas mərhəmət və məhəbbətlə davransın, əks təqdirdə qiyamət əsərli qızılbaş ləşkəri o iki qarabəxt adamı tutmaqdan ötrü [Başıaçıqa] gələcək. Elə etməyin ki, əməliniz peşimançılığa səbəb olsun". Bu kitabda gözəl sifətləri barədə bir qədər mə'lumat verilən Azərbaycan vəziri Xacə Məhəmməd Rza xahiş etdi ki, bu iş qoy ona həvalə olunsun. Ona icazə verildi və vəzir məqsədinə doğru yola
**s.875** düşdü, Başıaçığın valisi həmin sultanzadələrlə görüşdü. Zahirən özünü Təhmurəsə şərik edən Luarsab ürəkaçan nəsihətlər edib, çoxlu danışıqdan sonra:

**Misra**

*Gah mülayim olur, gah döyüşürlər*[1]

Öz yağlı dili, hikmətli, kərimanə məsləhətləri və aqilanə sözləri ilə həmin iki iqbalsız vəhşisifət adamı nifaq məqamından aşağı düşürdü, düzgün yola gətirdi. Gorgin xan

[1] Misranın farscası:
Gəhi dər təvazo', gəhi dər setiz

da şahın uca astanasına öz sədaqət və xidmətini izhar edib, həmin cənabla dostluqla davrandı, acizanə tərzlə üzrxahlıq edib dedi: "Onların bu tərəfə gəlmələrinə yol verməmək qohumluq və yaxınlıqdan uzaq bir məsələ olduğundan, mən onların hər ikisinin təqsirlərinin bağışlanmasını xahiş edirəm". Xacə Məhəmməd Rza isə cavabında buyurdu: "Bu iş padşahsız həll oluna bilməz, yol budur ki, gərək onların hər ikisi cahanpənah dərgaha getsinlər və qul kimi xidmətə hazır olsunlar". O iki nəfər də üzrxahlıq edib, belə buyurdular: "Əgər sağ-salamat qalmağımızdan arxayın olsaq, başımızı ayaq edib uca dərgaha gedərik".

Beləliklə, onların hər biri elçiyə öz e'tibarlı adamlarını qoşub, onları dərgaha yolladılar. Xacə Məhəmməd Rza qayıdıb Qori yaxınlığındakı bir yerdə ali orduya çatdı. Həmin sultanların göndərdikləri adamlar şah astanasını öpmə mərasiminə gəlib, hər iki valinin (vəllat) günahının əfv olunmasını xahiş etdilər.

Adı çəkilən xacənin (Məhəmməd Rzanın – *Ş.F.*) zahirən insan olan, amma özbaşnalıq meşəsində otlayan və vəhşi sifətli (səb'a) adamların yanına getməsi, fədəviyyət (fədailik – *Ş.F.*) və canı qurban etmək (cansopari) əlaməti olduğundan, o, yüksək "Fədəvi" ləqəbinə layiq görüldü, hökm olundu ki, bundan sonra bəlağətli sözlər yazan münşilər məktub və hökmlərdə Xacə Məhəmməd Rzanın adına "bu vilayətməkan dudmanın Xaceyi-Fədəvisi" sözlərini yazsınlar. [Əlahəzrət] həmin valilər barədə belə buyurdu: "Sözümüz elə Fədəvinin dediyi sözdür. Əgər onlar öz sədaqətlərini zahirə çıxarıb, ali sarayımıza (ətəbə) üz tutsalar, hər iki valinin günahı əfv olunacaqdır".

**s.876 (619)** Bu vaxt o cah-cəlal sahibinə belə ərz etdilər: "O hüdudda Us (?) adlı bir vilayət vardır ki, oranın əhalisi İsa [və] bizim peyğəmbər[1] əleyhüssəlamların mülhid adamlarındandırlar (məlahede), Başıaçığa tabe olmalarına baxmayaraq, onlar yolların keçilməz olması, yaşadıqları məkanın möhkəmliyi, üstündə yalnız xəyal quşunun uçduğu və çətin keçilən Əlbürz

[1] Ərəbcəsi: "İsa alə nəbiyyinə va aleyhi-s-sələmu"

dağına bitişik dağlarının ucalığına arxalanaraq, hətta valiyə də itaət etmirlər”. Şəriəti bəzəyən şahın rə’yi həmin azğın (zale) adamlara qarşı qəza və cəhada getməyə meylləndi, bir dəstə islam mücahidini bir neçə gürcü ilə birlikdə Fars bəylərbəyinin mülazimi kimi bu səadətli orduda xidmət edən Bəyverdi bəy Gürcünün sərkərdəliyi altında həmin gürcülərin üzərinə yollandı. Müzəffər əskərlər yolun çətinliyi və qarlı dərələrin qarşıya çıxması səbəbindən bərk əziyyət çəkdilər.

Cəng əzmi ilə onların qabaqlarına gələn hər kəs qazilərdən can qurtara bilmədilər, meşə və dağlara qaçan gürcülərinsə ev-eşikləri qarət olundu, beş yüz nəfərədək əsir və iki min baş mal və qoyun ələ keçdi, onlar isə qalibiyyətlə ali şah astanasına qayıtdılar. Kartildə [asiman] mələklərinin məslə-
**s.876** hətləri ilə şahın nurlu fikrindən [belə tədbir] keçdi: “Qoy iki qala inşa olunsun ki, onların biri Axəsqə və Başıaçığın yaxınlığında yerləşən Səvaranda, ikincisi isə Kartil sultanlarının qədim paytaxtı Qoridə olsun”. Bu fərmanı alan adamlar cahan fərmanverəninin fərmanına əməl edib, adları çəkilən hər iki məkanda az vaxt içərisində iki qala tikərək onları möhkəmləndirdilər.

## LUARSABİN BAŞIAÇIQDAN GƏLMƏSİ, HÜMAYUN MƏİYYƏTİN GÜRCÜSTAN SƏFƏRİNDƏN BEHİŞTNİŞAN MAZANDARANA QAYİTMASI VƏ O VAXTLARDA BAŞ VERƏN HADİSƏLƏRİN ZİKRİ

Luarsab və Təhmurəs, yuxvrıda yazıldığı kimi, [əlahəzrətin yanına] getməkdən çəkinib vaxtı uzatdıqlarından Başıaçıq hakimi və o yerin mülki və mali işlərinə qarışan hakimin mələkəsi Xacə Məhəmməd Rzadan belə iltimas etdilər: “O, qoy ə’lahəzrətə ərz etsin ki, Luarsab Təhmurəslə birlikdə onun tabeliyindən boyun qaçırdıqları üçün, [şah] onların sədaqət və həqiqətdən uzaq olan yalan sözlərinə inanmasın və onun oğlunu Luarsabın yerinə dərgah qulamları silkinə daxil etsin, Başıaçıq yaxınlığında yerləşən Kartil vilayətinin bə’zi yerlərini ona versin”.

Cənab Xacə Məhəmməd Rza onların xahişlərini [əlahəzrətə] ərz etdi və xahiş bəyənildi. Şaha yaxın adamlar zümrəsindən olan, *sadədil və sadiq bir türk kimi tanınan ox-kaman qorçisi Yaqubxan bəy Qaramanlını* Başıaçığa yolladılar ki, əgər Luarsab razılaşmayıb cahanpənah dərgaha getməkdən boyun qaçırarsa, Gorgin xanın oğlunu bütün Kartil vilayətinin hakimi tə'yin edib, onu uca dərgaha gətirməklə səadətə yetirsinlər. Luarsab bundan agah olduqda qəflət yuxusundan bidar və hüdudsuzluq mərtəbəsindən hüşyar oldu, iztirab hissi ilə Yaqubxan bəyə öz peşimançılığını izhar etdi. Bəy də ona hərarətli nəsihətlər verdi. Cənab Xacə Məhəmməd Rza da öz növbəsində ona məktub yazıb bildirdi ki, qoy fitnəkar adamların sözlərinə qulaq asmasın və özünü məhvə düçar etməsin.

Xülasə, Luarsab zahirdə öz görkəmini sədaqət libası ilə, batində isə həmin tayfaya xas olan xəbisliklə bəzəyib, anasını və tabeliyində olan adamları orada qoyaraq, bir neçə aznaur və Yaqubxan bəylə birlikdə iqbal yuvası olan saraya gəldi, mübarək ramazan ayının on üçündə (17 oktyabr, 1614) ə'lahəzrətin hüzurunda oldu, cürbəcür şahanə məhəbbətə və iltifata yetişdi.

O, şahın xidmətində izzətə və ehtirama layiq tərzdə yaşamaqdaydı. Qori tərəfə bir-iki yürüş edilən vaxt Luarsab sadiq adam olmadığı üçün nifaq əhlinin sözlərinə qulaq asıb, bir gecə hümayun ordunun xəbəri olmadan fərar etdi. Onunla qonşu olan və bütün işlərinə cavabdey sayılan cənab [Xacə Məhəmməd Rza] Fədəvi bundan agah olub, bir neçə nəfərlə onun arxasınca şığıdı, ordunun yaxınlığında onu tutub sübh tezdən evinə gətirdi. Luarsab özünün bu yersiz hərəkəti ilə e'tibarını itirdi, buna baxmayaraq, onun bu əməli də bağışlandı. O, öz peşimançılığını bildirib, anasını və adamlarını yanına gətirmək məqsədiylə bir adam yolladı. Amma, gizlincə onlara buyurdu: "Mən sizi də'vət etsəm də, yerinizdən tərpənməyin, çünki mən sizin buraya gəlməyinizi istəmirəm".

O tayfanın bütün kişi və qadın cinsindən olan adamları, həmçinin Kartilin böyük şəxsləri bu dərgahın xidmətçiləri ilə

qulamları zümrəsinə daxil omalarına baxmayaraq olduqca qəlbiqara [insanlar və] hiyləgərlik mə'dənidirlər. Həmin səadətsiz qulam (Luarsab – *Ş.F.*) barədə əlahəzrətə ərz etdilər,
**s.877** amma tələyə düşmüş ovu qaçırmaq istəmədiklərindən onu öz yanlarında saxladılar, öz ölkəsinə göndərmədilər. O, elə
**s.878** əvvəlki izzət və ehtiramla ali orduda qalmaqda idi. Kartil
**(620)** hökuməti isə əvvəldə olduğu kimi onun vəkilləri və adamları tərəfindən idarə olunurdu. Tiflis qalasının kutvallığını üç yüz Rüstəmdar tüfəngçisi ilə Ağasöhrab Laricaniyə verdilər. Luarsabın sonrakı əhvalatı barədə gələn il məlumat veriləcəkdir.

O əsnada belə bir xəbər yetişdi: Kaxet hakimliyinə təyin olunan İsa xan islamı qəbul etməklə şərəfləndiyindən, xaça ehtiram etməmiş və rahiblər ondan üz çevirmişlər,öz millətinə qarşı çıxdığı üçün gürcülər İsa xandan incimişlər və ondan aralanmışlar. O isə düşünürdü ki, hümayun məiyyətdən aralandığı vaxt nəsarilər ona qəsd edə bilərlər. Buna görə də, hakimliyi tərk edib Ərdəbil darülirşadına getdi. [Əlahəzrət] bunları nəzərə alaraq, türkmanların yüzbaşısı Bəktaş bəyi bir dəstə əzəmətli qorçi ilə Zəkəm qəsəbəsinə[1] yolladı ki, onlar o yerləri qorusunlar, Davud bəy Vəkil isə, əgər Təhmurəs bundan sonra sədaqət yolunu tutaraq gündən-günə böyüyən bu dövlətə xidmət etmək üçün əzəmətli dərgaha qayıdarsa, o məmləkəti idarə etməklə məşğul olsun. [Şah bundan sonra] Tiflisdən çıxıb Qarabağa yollandı.

O vilayətin havası ə'lahəzrətin külək sür'ətli atının qopardığı tozanaqdan ətirləndi. Məşhur söz ustadı Şeyx Nizami o məmləkətin vəsfində demişdir:

**Beyt**

*Turac, kəklik salıb elə qaraltı,*
*Quşlarla doluydu ağaclar altı.*[2]

---

[1] Mətndə "qəsəbə" əvəzinə "qəbzə" yazılmışdır ki, burada heç bir mə'na yoxdur. "Qəsəbə" olmalıdır! – *Ş.F.*

[2] Beytin farscası:

Ze dorrac-o tihu-yo kəbk-o tədərv
Nəbini təhi sayeye-bid-o sərv

**Şah Abbasın Gürcüstandan Rəstə qayıdışı:**

Şah bütün vaxt kəklik və turac ovlamaqla məşğul oldu, birdən-birə onun könlündən qəmərğə ovu* keçdi, müzəffər əskərlər ov heyvanlarını qovub gətirməyə yollandılar. Qəmərğəyə kök marallar (gəvəzn), Çin ahusunun belə həsədinə səbəb olan ceyranlar (ğəzal) və cürbəcür vəhşi heyvanlar yığıldı, Allahın kölgəsi olan uca məqamlı şah öz yaxın adamları ilə təmtəraqla qəmərğəyə daxil oldu, qarşıları kəsilən heyvanları ox ilə ovlamaya başladı. Cərgə düşmən ürəyi kimi daralanda ali məiyyətdəki adamlar qaçağan ahuları əl ilə tutmağa başladılar. Şikarın çoxluğundan ovlanmış heyvanları saymaq müqayisəyə gəlmirdi. Belə ki, heyvanların sayı əzəmətli ordu döyüşçülərinin sayından on dəfəyədək çox idi. Elə o nişat meydanında Gürcüstan hakimini tərk etmiş və Ərdəbilə getmiş olan İsa xan gələrək, şah ilə görüş səadətinə yetişdi, üzrxahlıq etdi. Ə'lahəzrət şəfqətlə yanaşıb, İsa xanın üzrünü qəbul edərək, onun şah ordusunun mülazimi olması haqqında hökm verdi.

**Şah Abbasın Mazandaran Fərəhabadına gəlişi**

Elə ki, Araz çayının kənarı dada çatan şəhriyarın çadırlarının qurulma yerinə çevrildi, o, orada bir neçə gün müzəffər əskərlərin rəsmi-keçidinə (sane-əsaker) baxdı, hərbiçilərin şikayətlərini dinlədi. Hərbiçilər rüxsət alıb, dəstə-dəstə öz yerlərinə getdilər. Qalibiyyət nişanlı məiyyət Mazandaran qışlağında dayanmaq məqsədiylə təmizlik və yaşıllıqda cənnətdən nişan verən dərya kənarındakı Qızılağac və Astaradan çıxıb Kəskər ülkasına çatdı, Fəriduna bənzər xosrov Kəskər hakimi Əmirə Səyavuşun oğlu Mürtəzaqulu xanın evlərində yerləşdi. Orada şahın halı (məzac) bir neçə gün pisləşdi və ona azacıq xəstəlik üz verdi, sağalmasından ötrü varlı şəxslər ehtiyacı olan adamlara nəzir və sədəqələr verdilər, şahın ədaləti sayəsində
s.878 zalimlərin əlindən qurtulmuş zəif və məzlum kəslər sidq ürəkdən (biriya) dualar oxumağa başladılar. Əlahəzrət ulduzların (əqran) köməyi ilə sağaldı, ürəkaçıan Rəşt bölgəsi Kəskərdən çıxan məiyyətin gəlişindən İrəm gülzarının qibtəsinə

gəldi, Rəşt meydanı çırağban oldu, ə'lahəzrət o gözəl şəhərdə bir neçə gün qaldı. Gilanda seyrə çıxmaq, at çapmaq, qaban ovu ilə məşğul olmaq rəvacdır. Ötən illərin şərhində şahın tamaşasına çıxdığı, rəğbətləndiyi və məşğul olduğu qaban ovu haqqında yazılmışdır. Ə'lahəzrət oradan Lahican ölkəsinə təşrif apardı və həmin yerin əhalisi xidmətkarlığa başladı. Dağ ətəyində yerləşən Cuhud Kəlayə adlanan və böyüklüyünə görə dəryaçəyə bərabər olan Estəlxdə (?) elə bağça və su yolu keçidi düzəldilmişdir ki, orada gəmi və qayıqlar üzməkdədir. Həqiqətən də təmiz (nozəh) yer, xoşagələn məkandır. Əhali oranı çıraqban etmişdi. Şəhər və ətraf yerlərdən Yusif görünüşlü, ay simalı gözəllər gəlib buraya toplaşmışdı. Onlar qayıq və gəmilərə əyləşib, həmin dəryaçədə şahın şərəfinə seyr və şadyanalıq edirdilər. Ə'lahəzrət Lahicanda bir həftəyə qədər əyləndi, oadan çıxıb behiştnişan Mazandarana yollandı, səfər ayının dördündə (16 mart, 1614) xoş bir saatda, xoşbəxt bir iqbal ilə Fərəh darüssürururuna daxil oldu, qış [fəslini] həmin cənnətə bənzər yerdə asudəlik (fərağət), seyr və ov ovlamaqla başa vurdu. İndi isə, bu il Gürcüstana səfər vaxtı və başqa vaxtda baş verən müxtəlif hadisələr və qəribə əhvalatlar, habelə yeni ilin başlanmasını bəyan səhifəsində yazmağın vaxtıdır.

s.879 (621)

## BAŞ VERMİŞ MÜXTƏLİF HADİSƏLƏR

Bu il Rum ölkəsi tərəfə elçilər göndərildi. Məsələnin şərhi belədir:

Keçən il baş vəzir Nəsuh paşanın yanında Ruma elçi gedən Məhəmməd bəy Talış Gürcüstana yürüş əsnasında geri qayıdaraq [ə'lahəzrətə] ərz etdi ki, sərhəddəki fitnəkar adamlar İncili Çavuşun həbsinin və Gürcüstana hümayun yürüşün sülh sazişinə xələl gətirəcəyini məkrlə [sultana] bildirmişlər. Habelə Gürcüstan valisi Luarsab və Təhmurəs tərəfindən da xandgara yaltaqlıqla dolu məktublar yazılmaş və onlar özlərini Ale-Osman xanədanına tabe olduqlarını bildirmişlər. Həmçinin rumilər arasında sülhün pozulmasını istəyənlər də

vardır. Buna görə də, "İman gətirdikdən sonra onu pozmayın"[1] ayəsinə uyğun olaraq şahanə himmət göstərilib, Rum elçisini həbsdən azad etdilər və bu tərəfdən elçi göndərilməsi qərara alındı ki, vəziyyəti olduğu kimi bildirsinlər və sülh sazişi qoy bu tərəfdən bədnamlıqla pozulmasın.

**Şah Abbasın Rum xandgarına naməsi.**

Buna görə də Hüseyn bəy Mehmandar Zülqədəri İsfahana göndərib, İncili Çavuşu dərgaha gətirdilər və dərhal Zakir ağa Quşçunu elçi kimi yollayıb, Rum padşahı Sultan Əhməd xana məhəbbətamiz dostluq məktubu ünvanladılar. Dostanə təvazökarlıq, yazı qaydasına uyğün, padşahanə adət və əhd-peymana müvafiq tərzdə sultana belə yazdılar: "Qəza (döyüş – *Ş.F.*) səadətinə yetmək və cəhad savabına çatmaq bizim həqiqət əsaslı beynimizə yazıldığı üçün, habelə qədim dövrlərdən başlamış indiyəcən bu xanədana tabe olan və xərac verən gürcü kafərləri başlarını üsyan və itaət cibindən çıxardıqlarından, islam bayrağını ərşə qaldırmaq və aqibəti zəlalət olan üsyankarları cəzalandırmaq məqsədi ilə onların istiqamətinə yürüş etdik və cihad səadətinə yetdik. Xristiyan kilsələr[2] və mə'bədlərin çoxu
s.879 islam və iman əhlinin məscidlərinə çevrildi. Yuxarıda yazıldığı kimi, ə'lahəzrət Torağan qalasından ələ gətirilən Gürcüstan qənimətlərindən bər-bəzəkli qızıl tacı başqa töhfə və hədiyyələrlə birlikdə [sultana] göndərdi. İncili Çavuş da az müddətdə İsfahandan Gürcüstana gəlib şah ilə görüş səadətinə yetişdi. Mazandaran sipəhsaları Qasım bəy Ruma yollanan elçi sifəti ilə İncili Çavuşa qoşuldu, ləyaqətli töhfələr və hədiyyələr tədarük olundu, onları [çavuşun] gətirdiyi cavab məktubu ilə birlikdə rəvan etdilər. Rumiyyə əsirlərindən olan Osmanlı xanədanının əməkdarlarından Rəziyyə xatunun oğlu Mustafa paşanın, həmçinin sabiq baş vəzir Məhəmməd paşanın götürülmə (solbi), padşahın isə süd qardaşı olan

---

[1] Ərəbcəsi: "Va la tənqudu əl-ima'nə bə'də təvkidihə"

[2] "Kilsə" sözünün sinonimi olan "kənise" (cəmi kənayes) mətndə səhvən "kənayeş" kimi yazılmışdır (Bax: d-r M.Moin. Göst. Lüğət, c. III, s. 3083).

Məhəmməd Əmin bəyin, həmçinin başqalarının əsirlikdən azad olmaları barədə xandgar dostanə xahiş etmişdi. Onun xahişini nəzərə alan ə'lahəzrət onları layiqli hədiyyələrlə həmin elçiyə qoşdu.

Ə'lahəzrət həmçinin bütün rum əsirlərini azad etdi. Beləliklə, sağ olan və geri qayıtmaq istəyən ordudakı və başqa yerlərdəki min nəfərədək hər bir əsir rumi elçiyə qoşulub yola rəvan oldu. Yə'ni, sülh sazişini poza bilən heç bir məsələyə yol verilmədi, tə'yin olunan sərhədləri özündə əks etdirən sərhəd sənədini (sənurnamçə) hər iki tərəfin əmir və e'timadlı adamlarının möhürü ilə möhürlədilər və onu Rum elçisinə verdilər.

Bu hadisələr baş verən vaxt belə xəbər yetişdi ki, Nəsuh paşaya zidd olan bə'zi adamlar onu bir sıra işlərdə ittiham edib qətlə yetirmiş, *Öküz Məhəmməd* adı ilə məşhur olan Misir bəylərbəyi Məhəmməd paşanı isə baş vəzir e'lan etmişlər.

Qasım bəyin [Rum diyarına] səfəri və qızılbaşlarla rumlular arasında baş verən hadisələrin şərhi bu cildin zeyl hissəsində (ardında – *Ş.F.*) veriləcəkdir.

**Məhəmməd bəyin və Yunis bəyin fərar etmələri:**

Bu il hadisələrindən [biri də] Məhəmməd bəyin və Rum mütəfərriqə ağası Xəndan ağanın oğlu Yunis bəyin fərar etmələridir. Yuxarıda mə'lumat verilmişdi ki, həmin oğlanlar döyüş meydanında müzəffər əsgərlər tərəfindən tutulmuşdular. Onlar e'tibarlı adamlar kimi ali məclisə yaxın şəxslər sayılır, onlara qarşı şahanə diqqət gün-gündən çoxalırdı. Bura görə də, onlar ə'lahəzrətlə şahanə yaxınlıq və şəfqət yaratdıqdarı üçün hamının həsədinə səbəb olmuşdular. İsfahanda onlara yaraşıqlı evlər verilmişdi. Hər ikisi evlənmiş və övlad sahibi olmuşdu. Hər ikisinə çoxlu hədiyyələr, tazı atlar, qızılla işlənmiş silahlar, qızıldan və gümüşdən düzəldilmiş qabqacaq və başqa əşyalar verilmişdi. Ali ordunun əksər başçıları onlarla dostanə rəftar edirdilər, onlar tərəfindən fərar, kin və üsyan əlamətləri gözə görsənmirdi. Gürcüstana yürüş

vaxtı Kozi[1] qəsəbəsi iqbal çadırları ilə örtülən zaman, onlar ramazan günlərinin bir günündə bir neçə e'tibarlı rumi mülazim və xidmətçi ilə seyr və şikar etmək bəhanəsiylə atlanıb, yanlarında olan var-yox və əhli-əyallarından üz döndərərək, fərar yoluna üz tutdular, özlərini Əxəcrə qalasına çatdırıb, oradan Rum diyarına rəvan oldular. Ertəsi gün bu məsələ mə'lum oldu və hamı heyrətə düşdü. Ə'lahəzrət öz lütfkarlıq və ona xas olan qərib adamlara ehtiram etmək xüsusiyyətinə malik olduğundan, buyurdu ki, onların xidmətçiləri, başqa qulluqçuları, ailə və başqa adamları orada qalsınlar, amma o
**s.880** iki e'tibarsız adamla etibarla davranın İsa xan Qorçibaşı
**(622)** onların övladlarına öz diqqətini əsirgəməsin, əgər buradan
**s.880** çıxıb getmək istəsələr onları da öz diyarlarına rəvan etsinlər.

O vaxtlarda zühur olan başqa bir hadisə isə tatar padşahı Səadət Gəray xanın oğlu Şahin Gəray xanın gəlişidir. O, rumilərin arasında yaşayırdı. Osmanlı dövlət başçıları əmisi Səlamət Gəray xanın vəfatından sonra Şahin Gərayın irsi tatar səltənətinin şahı olacağını və'd etmişdilər. Amma, Səlamət Gərayın övladı olmadığından və Canı bəy Gəray ibn Mübarək Gəray ibn İslam Gəray ibn Dövlət Gərayın anası onun arvadı olduğundan, Səlamət Gərayın ögey oğlu olan Canı bəy Gərayla Şahin Gəray arasında nifaq yaranmışdı və osmanlılar onu həbs etməyə cəhd etdilər. Şahin Gəray rumilərin hərəkətindən bunu başa düşərək, macal tapıb özünü rumiyyənin arasından kənara atdı, uzun məsafəni mərdanəliklə qət' edib, şah dərgahının mülazimi olmaq məqsədilə qaçaraq, özünü əcəm vilayətinə çatdırdı. O, Gürcüstanın Qori vilayəti yaxınlığında əzəmətli orduya çatıb, hümayun məclisə yetişmək səadətinə nail oldu, özünün sədaqət, istək və e'tiqadını bildirdi. Həzrət zilləllah şah özünə xas olan sağlam xislət və qonaqpərvərlik xasiyyətinə uyğun tərzdə Şahin Gəray xanla qardaşcasına davranıb, onu öz mehribanlıq ağuşuna çəkdi. Şahin Gəray xana tə'zimlər olundu, layiqanə xidmətlər göstərildi və o, izzət və ehtiramla şahın ordusuna daxil oldu.

[1] Qori olmalıdır – *Ş.F.*

Bu ildə baş verən başqa bir hadisə isə belədir:

Arxayınlıq dövründə *Şirvan və Qarabağ* rəiyyətlərinin böyük əksəriyyəti Gürcüstan Kaxetinə gedib, oranı özlərinə əmin-amanlıq yeri seçərək, yaşamağa başlamışdılar. Kaxet valisi Aleksandr xan həmin rəiyyətləri hifz etdiyindən, onlar indiyə qədər həmin vilayətdə yaşamaqdadırlar. Hümayun hökm verildi ki, o adamlar Gürcüstanın əsl rəiyyəti olmadıqları üçün, qoy oradakı bütün müsəlman, yəhudi və ermənilər köçüb behiştə bənzər Mazandarana getsinlər, çünki rumilərə mülazimlik etməyə başlayan, yaxud rumiyyə ilə birləşib müəyyən mənsəb sahibi olan Şirvanın, Qarabağın və o yerlərin başqa el-oymağının adamları artıq öz e'timadlarını itirdiklərindən, daha bu sərhəddə yaşaya bilməzlər və buradan köçürülüb Mazandaranın Fərəhabad adlı yerində məskunlaşsınlar. İsfəndiyar bəy Ovçubaşı Ərəbgirli şirvanlıların, Lətifxan bəy Qacar Dəvatdar isə Qarabağ əhalisinin köçürülməsinə başçı tə'yin olundu. Beləliklə, on beş minə yaxın ailə Fərəhabada getdi. Onlar həm o vilayətin abadlaşdırılmasına səbəb oldular, həm də öz nəməkharamlıqlarının mükafatını gördülər. Qarabağ uluslarından Əhmədli camaatı razı olmayıb köçü ləngitdikləri üçün şahanə qəzəbə tuş oldular, onlar qətl, ev-eşikləri qarət edildi. Amma, köçürülən adamlar həmin vilayətdə indiyədək asudəlik və rahatlıqla ömür sürməkdədirlər.

**Fərhad bəy Quşçunun qətli:**

Baş verən hadisələrdən biri Fərhad bəy Çərkəs Quşçunun qəzəbə düçar olmasıdır. O, ə'lahəzrətə yaxın adamlar zümrəsindəndi, öz izzət və e'tibarı sayəsində mire-şekar (ov əmiri – *Ş.F.*) olmuşdu. Amma, batində nəməkharamlığa yol verdi. O, ə'lahəzrətin razılığı olmadan gizlicə şahzadə Məhəmməd Bağır Mirzə ilə fitnəkar dostluğa qurşanmışdı, və onu sədaqətdən uzaq əməllərə rəğbətləndirirdi ki, bunun da sonu üsyana səbəb ola bilərdi. Fərhad bəy Quşçunun mirzə ilə gizlin görüşləri biqərəz adamların hamısına mə'lum oldu və xəbəri şaha ərz etdilər. [Quşçuya qarşı] şahın qəzəb tonqalı alovlandı, o, məclisə çağırıldı, ali işarə ilə həbs

olundu,cəzalandırılması cənab mirzəyə tapşırıldı, mirzənin mülazimləri isə onu qətlə yetirdilər və bütün var-yoxu müsadirə olundu. Fərhad bəy Quşçunun halı bu misradakı fikrə uyğun oldu:

**[Misra]**

**s.881** *Məhrəm bir nöqtə ilə dönüb mücərrəm oldu*[1]

Başqa bir hadisə isə bir neçə xəlifənin və Qaracadağ sufisinin qətlə yetirilmələridir. Məsələnin şərhi belədir: Qaracadağ vilayətinin bir dəstə adamı hələ qədim dövrlərdən səfəviyyə xanədanına sədaqətlərini izhar etmişlər və yenə də edirlər. Qəbri Allah nuru ilə dolu olan həzrət Süleyman şanlı xaqan əbülbəqa Şah İsmayıl düşmənlərin qorxusundan Gilana gedib bir neçə il Lahicanda yaşadı. Bu xanədanın sufiləri o həzrətin xidmətinə gəlib-gedir, həmçinin bir dəstə Qaracadağ sufisi də tez-tez onu yoluxurdu. Elə bu gün də o tayfa bu xanədan tərəfdarları arasında "Qədim Lahican sufiləri" adı ilə tanınır və elə bu yüksək ləqəbə görə də başqa sufilərdən fərqlənirlər. O həzrətin taxta çıxmaq üçün xüruc etməsi və bu dövlətin inkişafının başlanması zamanı adı çəkilən sufilərin çoxlu məafları[2] və soyurqalları vardı. Rumiyyənin hücumu vaxtı Cəfər paşa Təbriz darülsəltənəsində olarkən, xəlifəzadələrdən olan və o vaxtlarda Qaracadağ hakimi vəzifəsində işləyən Şahverdi xan Xəlifə Ənsaroğlu öz tayfasının üzünə e'tibarsızlıq rəngi çəkib rumilərə tərəf meyl etdi, başından on iki zolaqlı papağını (tac) yerə atıb, rumi libasını geyindi. Ə'lahəzrətə xəbər verdilər ki, Şahverdi
**s.882** xan rumiyyəyə öz itaətini izhar edən vaxt oğlunu Cəfər paşa-
**(663)** nın yanına yollamış və paşanın göndərdiyi adamlar da Qaracadağ ə'yanlarının osmanlılara bey'ət etmələrindən ötrü

---

[1] Misranın farscası:

Məhrəm be yek noqte mocərrəm şəvəd.

Qeyd: Ərəb əlifbası ilə "məhrəm" və "mocərrəm" sözləri yazıldıqda hər iki sözün fərqi təkcə bir nöqtədədir. Belə ki, nöqtə artırıldıqda "məhrəm" ifadəsi "mocərrəm"ə çevrilir – *Ş.F.*

[2] Güzəştəri – *Ş.F.*

Şahverdi xanın yanına gəlmiş, xan da əksər sufi ə'yanlarını açıq-aşkar bir yerə toplayaraq, onlara itaət təklifi etmişdi. Ə'yanların bir dəstəsi razılaşaraq, həmin yerə başlarından taclarını çıxarıb gəlmişdilər. Müridin piri olmaq adət-ənənəsinin yolu belədir: Sədaqətli adamlar gərək hər zaman öz əllərini mürşidi-kamilin[1] ətəyindən çəkməyib, hər bəlaya qarşı səbrli olsunlar və mürşidi-kamilin razılığını dünyəvi qərəzlə əvəz etməsinlər.

Bu alçaq işin baisi olan Şahverdi xan, ötən illərin hadisələrinin şərhində göstərildiyi kimi öz bəd xasiyyətliyinin cəzasını çəkdi.

Bu il hökm olundu ki, onun məsələsinin təhlilinə və aydınlaşdırılmasına başlasınlar. Əqidəli adamlar zümrəsindən olan Qaracadağ hakimi Maqsud Sultan xəlifətül-xüləfa mənsəbində olan Məhəmmədqulu Xəlifə Rumlu ilə birlikdə məsələni aydınlaşdırmağa başladı. O zaman üzüqaralıq edən və mürşidi-kamildən üz döndərən o adamların əksəriyyəti öz əməllərinin cəzasını çəkib ədəm diyarına yollanmışdı. Xəlifə və sufilərdən ibarət olan başqa dəstə isə qətl olunub cəzalarına çatdılar. Bu cəza tədbirindən məqsəd bu idi ki, bundan sonra qoy o tayfadan olan adamlar sufilik dairəsindən kənara çıxmasınlar ki, sufi və qeyri-sufi biri-digərindən seçilə bilsin.

Başqa bir hadisə belə olmuşdur: Gürcüstan səfərindən geri qayıdarkən Qarabağın Şəmkur qəsəbəsində Mustafa Sultan Qazaqlar Dəli Məhəmməd Sultan Şəmsəddinli tərəfindən qətlə yetirildi. Bu qətlin səbəbi belə idi: Mustafa Sultanın atası Nəzər Sultan qazaqlar tayfası ilə birlikdə bu dövlətdən üz döndərib rumilərə birləşmiş, ona paşa rütbəsi verilmişdi. Azərbaycanın fəthindən sonra Mustafa xanın qardaşı Məhəmməd xan iki-üç il Lori qalasını mühafizə etmiş, qızılbaşlara müxalifət, rumilərə isə tərəfdarlıq təbili döymüş olduğundan ali dərgaha qayıtmadı. O, sonradan şahanə inayətə nail oldusa da, öz sabiq əməllərindən əl çəkmədi. Onun hərəkətlərindən həmişə nifaq görünürdü. Nəhayət,

---

[1] I Şah İsmayıla və sonrakı səfəvi hökmdarlarına verilən ən yüksək sufi titulu – *Ş.F.*

yuxarıda bəhs olunduğu kimi, gürcülərin əli ilə öldürüldü, öz nəməkharamlığının mükafatını aldı. Elə buna görə Mustafa xanın da e'timadı qalmamışdı. Ehtiyat naminə qərara alındı ki, qoy bundan sonra dönük və e'tibarsız olan bütün qazaqlar tayfası həmin sərhəd yerlərində yaşamasın.

Xülasə, Mustafa xanın qətlindən sonra o elin bütün əmirliyi hələ Azərbaycana yürüşün birinci ilində,yəni hələ İrəvan qalasının alınmasından əvvəl, uca dərgaha sədaqət hissi ilə qayıdıb
s.882 gələn və e'timada layiq görülən Şəmsi xan Qazaqlara verildi. O da, fərmana əməl edib, o eli Qarabağ sərhədindən köçürüb ona iqta və tiyul kimi verilən Fars Darabcərdinə apardı.

**Mir Məhəmməd Əminin Hindistandan İrana gəlişi və onun fərar edib ikinci dəfə Hindistana qaçışı:**

Baş verən hadisələrdən biri də budur: Gürcüstan səfərindən qayıdan vaxt Araz çayı kənarında Hindistanın Dekən [vilayətindən] gələn və "Mircümlə"* ləqəbi ilə məşhur olan Mir Məhəmməd Əmin ə'lahəzrətin hüzuruna gəlmək şərəfinə yetişdi, izzət və ehtiram gördü. O, İsfahan şəhristanının əzəmətli seyidlərindən olub Mirzə Rəzi Sədrin əmisidir. Bir neçə il bundan əvvəl Dekənə gedib, Allahın təqdirinə görə Gülkəndə valisi Qütbşahın mülazimi olmuşdu. Bacarığına görə o yerin adətincə "*mircümlə*" adlanan vəzarət mərtəbəsinə çatmış, sərvət və əzəmət sahibi olmuşdu. Məhəmmədqulu Qütbşah Allah rəhmətinə gedəndə onun qardaşı oğlu və damadı olan Sultan Məhəmməd qütbşahi taxtının canişini oldu. O zaman adı çəkilən mir artıq öz əvvəlki inkişaf və uçuşunu davam etdirə bilmədi, onunla padşahın arası dəydi. Cənab mirin dilindən eşidilən söz bunlar idi: "Vətən məhəbbəti, İrana gəlmək arzusu, İsfahanlı qohumlar və zəmanə şahənşahının ayaqlarını öpmək şərəfi ürəyimə tam yerləşmiş olduğundan, hər şeyimi orada qoyub, öz istəyimlə geri qayıtmaq rüxsətini aldım, gəlib Biçapura çatanda var-yoxunu könüllü şəkildə İbrahim Adilşaha peşkəş edib oradan çıxdım". Doğrusunu Allah bilir və hər şey Onun əlindədir.[1] Xülasə, layiqli cəvahirat və başqa şeylər vedrib

[1] Ərəbcəsi: "Əl-ilmu ində-l-lahi va-l ovdətu aleyhi"

bir neçə müddət orduda yaşadı. O özünün inkişaf və uğurları barədə yerli-yersiz sözlər danışırdı ki, bunlar da yaxşı qarşılanmırdı, ali divan vəzarəti və ə'lahəzrətin vəkalətindən başqa heç bir divan mənsəbini qəbul etmirdi.

Xülasə, o zaman onun istəyi baş tutmadı. Mazandaranda izn alıb İsfahana getdi. Özünün əsl vətənində yaxşı evləri, layiqli mülkləri və bol məişət ləvazimatı olmasına baxmayaraq, onun xasiyyət quşu ali mənsəb, vəzifə və həşəmət vəzifəsi səmasında pərvaz edirdi. Buna görə də, təzədən cilayivətən olub, övladlarını və ona aid olan hər şeyi İsfahanda qoyaraq, biyaban yolu ilə Hindistan məmləkətlərinin hökmdarı həzrət Şah Səlimin yanına getmək üçün həmin diyara yollandı. Əlahəzrət isə şahanə düşüncə ilə heç də onun fərarından narazı olmadı və hal-hazırda Mir Məhəmməd Əminin övladları şahanə ədalət kölgəsi altında asudə yaşayırlar.

Bu ilin qəribə hadisələrindən biri də Gilanın Rəst qəsəbəsində baş vermişdir. O da Səfi Mirzə adı ilə tanınan Məhəmməd Bağır Mirzənin öldürülməsidir ki, [bu iş] Allahın təqdiri ilə baş verdi.

Məsələnin şərhi belədir: Çoxdandır ki, bir dəstə xoşsöhbət hərzə danışanlar və mirzə ilə yaxın olmaq istəyən hərzə danı-
**s.883** şan xoşsöhbət adamlar onunla möhtərəm atası arasında güya
**(624)** nifaq yaranması barədə ə'lahəzrətə xəbər çatdırırdılar. Onlar əlahəzrətə demişdilər: "Cənab şahzadə bir dəstə fitnəkar adamın təhriki ilə öz böyük atasından dönmüş, cəhalət və qürur üzündən onun başına boş-boş xəyallar dolmuşdur". Hövsələsinin genişliyindən ə'lahəzrət ona deyilən sözləri həqiqət sanmır, şahzadə ilə açıq söhbət etmirdi. Şah baş verənləri Allahın ixtiyarına buraxaraq, şahanəlik və qorxmazlıqla yaşamaqdaydı. Gürcüstan səfərində zahirən özlərini nəməkhalal adamlar kimi göstərən, batində isə fitnə və fəsad hazırlayan həmin xoşdanışanlar, xüsusiylə mirzənin bir-iki nəfər xidmətçisi və mülazimi, yenidən gizlicə-gizlicə şahzadənin [ona qarşı] nifrətinin düzgün olması barədə ə'lahəzrətə mə'lumat verdilər və nəticədə yuxarıda yazıldığı kimi,
**s.883** Fərhad Çərkəsin hadisəsi baş verdi.

Xülasə, ə’lahəzrət əziz oğlu barədə bütün deyilən sözlərə əhəmiyyət vermədən özünü şahanə bilməzliyə vururdu. Çərkəs qulamlarından vəline’mət padşahın həqiqi duaçısı və onun mənafeyini qoruyan Behbud bəy onun [şahzadənin-*Ş.F.*] qətlini qərara aldı və bu ilin məhərrəmül-həram ayının üçündə Rəştdə təsadüfən, yaxud qəsdən həmin əhvalat baş verdi. Mirzə ə’lahəzrətin xidmətinə gəlməkdən ötrü hümayun dövlətxanaya gələndə tənha idi. Küçədə onunla üzbəüz gələn [Behbud bəy] qəfildən ağır zərbələr endirdi və nəticədə cənab mirzə keçindi. Belə bir şücaətli əməli törətdiyinə görə Behbud bəy şah cəzasının qorxusundan bu xanədan xeyrxahlarının sığınacaq yeri olan saraya gəlib, başqa günahkar adamların etdiyi kimi şah tövləsində gizləndi. O, oradan xəbər göndərdi: Mən və’linemət şaha qarşı yayılan xəyanət avazına, nəmək-halallığa və çərkəz qulamları üstündən töhmətin götürülməsinə görə belə bir şücaətli əməli etmiş oldum.

Xülasə, o axşam ə’lahəzrətin əmri ilə Mirzə Rəzi Sədr şahzadənin kəfənlənməsi ilə məşğul oldu. Öz müqəddəs ata-babalarının yanında dəfn olunmasından ötrü şahzadənin cəsədini Ərdəbil darülirşadına yolladılar. Behbud bəy nəmək-halal adam olduğu üçün bir neçə rezəvi məsləhətlər, adamların və dünya görmüş aqillərin sözü ilə əfv olundu, təqsirləndirilmədi və arxayınlaşdı. Bu hadisənin necə baş verməsi surət aləmini zahirən seyr edənlər və məna aləmindən bixəbərlər üçün gizli qalmışdı. Amma, məsələ elə yazıldığı kimi olmuşdu və buna heç bir şəkk-şübhə yoxdur.

Belə işlərin baş verməsi vaxtı dövran alimləri və dərinliyə varan təcrübəli şəxslər ilahi hikmətdən başqa heç bir əməl xatırlamırlar. Ali hümayun və müqəddəs zat (yəni Şah Abbas – *Ş.F.*) bütün bəlalardan Həzrət Allahın yardımı ilə aman tapmışdır ki, qoy əhali onun dövlət kölgəsi və ədalət sayəsi altında asudə yaşasın. Amin ya Rəbbül-aləmin!

Xorasanda baş verən başqa bir hadisə budur: Gürcüstan səfəri uzandığından, sərhəddə qızılbaş ləşkəri ilə özbəklər arasında mübarizə başlandı. Yaləngtuş bahadır və iyirmi min özbək döyüşçüsü hər yandan yığdıqları talançılıq mallarını

da götürüb, Ceyhun [çayını] keçdilər və Mərvə gəldilər. Özbəklərin gəlişindən xəbər tutan Mərv hakimi Mehrab xan Qacar bir dəstə qazini qarovuliyə yolladı, onlar özbək qarovulları ilə rastlaşdılar və aralarında ağır döyüş baş verdi. İgidlik və mərdanəlik göstərən qazilər özbək qarovullarını məğlub etdilər. Cəng vaxtı özbəklər yenə dəstə-dəstə görünməyə başladılar, qazilərsə daha tab gətirə bilməyərək, geri qayıtdılar, qazilərin bə'ziləri şəhadət dərəcəsinə yetişdilər, sağ qalanları isə döyüşə-döyüşə özlərini Mərvə çatdırdılar. Özbək döyüşçülərinin çox olmasından xəbər tutan Mehrab xan qalanı möhkəmlətməyə çalışdı, bürc və barılara güllə yağdıran tüfəngçilər təhkim etdi, onlar qalanı qorumağa başladılar. Mərvə çatan Yaləngtuş bahadır bir neçə gün şəhər yaxınlığında dayanıb, döyüşçülərini qarətə göndərdi. Həmin qarətgərlər Mərvdən başlamış müqəddəs Məşhədin Pəsakuhuna qədər gəlib, bə'zi biçarə sima ərəb tayfalarını tərac etdilər. Bu vaxt səadətli məiyyətin qalibiyyət və iqballa Gürcüstan səfərindən qayıdışı və zəfər ayəli ordunun Mazandaran qışlağında dayanması xəbəri özbək bahadırlarının qulaqlarına çatdı, onlar qayıdış təbilini çalıb geri döndülər, Mərv rəiyyətinin bir çoxunu da özləri ilə apardılar. Amma, rəiyyətin əksəriyyəti tədriclə qayıdaraq öz yerlərinə getdilər.

**Vəfat edənlər:**

Gürcüstan səfərində bu əbədi əsaslı dövlətin şöhrətli əmirlər zümrəsindən və ağsaqqallarından olan Kirman darüləmanının hakimi
s.884 Şahrux bəy ibn Gəncəli xan Kaxet və Kartil arasındakı təhlükəli yerdən (oqbe) keçərək atdan sürüşüb dərəyə yuvar-
s.885 landı, ciyəri partladı və üqba aləminə yollandı.
(625)

**Məlik Əli bəy Carçının vəfatı:**

Başqa ölüm hadisəsi: Tacı Böyük [qəbiləsindən] Məlik Əli bəy Carçı xəstə halda ali ordunun ardınca Gürcüstana gəldi, o da həmin təhlükəli yerdə varlıq libasını axirət sarayına apardı. O əsl isfahanlı idi, zarafatcıl (həzzal), şarandil, dostcanlı bir kişiydi, heç vaxt qəlbinə qəm küdurəti yol tapmamışdı, hər kəsi qönçə sifətli adam kimi görürdü, öz zarafatları ilə hamını açılan gül kimi şadlandırırdı. O, carçı-

lıq (monadi) etdiyi vaxt kimi isə taxsırlayanda bu işi xoş sözlər və duzlu hərəkətlərlə görürdü. Əgər ona hansısa bir günahkarı qətl etmək tapşırılırdısa, həmin adamla cəza yerinə (siyasətgah) qədər elə zarafatlaşırdı ki, o cəzanı çəkmək həmin günahkara uşaq oyuncağı ilə (ləəb) oynamaq kimi asan görünürdü. Onun görkəmi də qorxunc görünüşdən (məhabət) xali deyildi. Məlik Əli bəy hərdənbir başına daş-qaşlarla bəzənmiş tacını qoyur, qulaqlarından bəzəkli sırğa asır, yalnız özlərinə xas və qeyri-adi geyimləri olan tacıböyük camaatı ilə birlikdə şahın sarayına gəlir və onlar görünən kimi adamlarda vahimə yaranırdı. Dövranın yeganəsi olan bir mülazimin vəfatından kədərlənən ə'lahəzrət olduqcv təəssüfləndi, Məlik Əli bəyin bir neçə illik xidmətini unutmadı, onun mənsməbini iste'dadlı (mostəed) bir gənc olan oğlu Səfiqulu bəyə verdi, amma,

**Misra**

*Dağ olmuş yağə tab etməz hərise.*[1]

Səfiqulu bəy nəhayət cəhaləti və özbaşınalığın qurbanı oldu ki, tezliklə bu barədə məlumat veriləcəkdir.

**Təhmasibqulu bəy Qorçinin vəfatı:**

Başqa bir vəfat edən kəs Köhnə Şəmşirqorçisi (qorçiye köhnə şəmşir) Təhmasibqulu bəy Şamlıdır. O, Gürcüstanda bir neçə gün xəstələndi və vəba aləminə getdi. Canişini olmaqdan ötrü oğlu olmadığı üçün onun mənsəbi qohumu Qaraxan bəyə verildi.

Başqa vəfat edən Şahnəzər bəy Yasaqçıbaşı* bəydir ki, Gürcüstanda bimar oldu, müalicəsinin faydası olmadı, nəti-
s.885 cədə qaçılmaz ölümün əlinə keçdi, mənsəbi qohumu Yadigar bəyə verildi.

---

[1] Misranın farscası:

Koca girəd hərise paye-rövğən?

Qeyd: Mən "hərişe" sözünün mənasını bir çox lüğət kitablarında axtardımsa da, onu yalnız "Fərhənge-zəbane-taciki"də tapdım; "Parça və döyülmüş ətdən hazırlanmış aş (duru xörək – *Ş.F.*); Həlim. (Bax: Göst. Lüğət, IIc. Səh. 733)"

## ZİLLƏLLAH ŞAHIN TAXTA CÜLUSUNUN İYİRMİ DOQQUZUNCU İLİNDƏ-BƏZİLƏRİNƏ GÖRƏ MİN İYİRMİ DÖRDÜNCÜ (1615/1616), BƏZİ ADAMLARA GÖRƏSƏ MİN İYİRMİ BEŞİNCİ (1616/1617) DOVŞAN İLİNƏ TƏSADÜF EDƏN HADİSƏLƏR BARƏDƏ SÖHBƏT

Mübarək başlanğıclı bu il bütün dünyanın sultanı olan günəşin mina rəngli (minafam) və dörd sütunlu fələk taxtına əyləşdiyi vaxtda başladı, yəni cahanı bəzəyən günəş dey ayının üzgün (əfsorde) məskənindən çıxaraq izzət və şərəf şənliyinə daldı, səfər ayının iyiyrmi birində (22 mart, 1615) şənbə gecəsi saat on birdə xeyr və zəfərlə həməl bürcünə gəlib-çatdı və aləmi işıqlandıran qalibiyyətli (firuz) novruz və şənbə gününə təsadüf etdi. Novruz könüllər bəzəyən və şadlıq artıran rüzgarın gülşənini təravətləndirdi, gözəl gül-çiçəklər (rəyahın) zöhrə sifətli qaragöz gözəllər təki naz-qəmzəyə başladılar, lalə və başqa güllər Xətay və Çin gözəlləri kimi ənbər qoxuları (nekhət) ilə dünya səthini bürüyüb onu rəngarəng ətirlərə qərq etdi, arzu qapılarını əhalinin üzünə açdılar, sevinc (neşat) badəsinin həvəskarları lalə piyalələrindən şadkamlıq qurtumları (cor'e) içdilər, ordibeheşt ayının nəsimi gül və sünbüllərin rayihəsinə qarışdı və cahan bağında əsməyə başladı.

Belə bir şadyanlıq vaxtı cahanı bəzəyən şəhriyar, yəni ə'lahəzrət Fərəhabad darüssürurunda, habelə bulud və yağışlardan (tərəşşoh) təzələnən cənnətə bənzər Mazandaranın başqa yerlərində vaxtını eyş və işrətlə keçirməkdəydi. Şah oradan çıxıb Firuzguh yaylağına təşrif apardı, yaylaq seyr və şikarından sonra İsfahana yollandı, sevinc və şadyanalıqla o cənnətmisal şəhərə daxil oldu.

Bu il isfahanlılara bəla üz vermiş, rəiyyətin və imkansız adamların (əcze) əhvalı pərişan olmuşdu. [Buna görə də,] şahanə məhəbbət rəiyyət üzərinə qondu, bu ilin divan vergi-

ləri (hoquqe-divani) onlardan alınmadı, həmçinin divan əmlakı əkinçilərinə xasseyi-şərifə məhsullarının ödənclərinin onda bir hissəsi (oşr) bağışlandı. Belə bir bəxşiş (ətiyye) və ehsan rəiyyətin vəziyyətinin düzəldilməsinə, əkinçilərin dolanışlarının yaxşılaşmasına səbəb oldu, onların düşdükləri vəziyyətin sıxıntısı (osrət) və darısqallığı rahatlıqla əvəz olundu. Məşhur İsfahan şəhəri və Nəqşi-Cahan dövlət sarayı şahın səadətli qədəmləri ilə bəzəndikdən bir qədər sonra şəbədəbaz fələk yenidən öz fitnə-fəsadına başladı, günlər
s.886 gözəllərin zülfləri kimi pərişan olu, rahatlıq və afiyət qapıları
s.887 bağlandı, rahatlıq uyqusuna dalan fitnənin gözü açıldı, sakit-
(626) ləşmiş cahan bir-birinə dəydi, təzədən vəlvələ və çaxnaşma (aşub) üz verdi, hadisələrin əlləri açıldı, sərhədlərdəki fitnəkarlar bir daha fitnə-fəsada başladılar, onların beyinlərinə puç xəyallar yol tapdı:

**Beyt[lər]**

*Günlər yar zülfütək oldu pərişan,*
*Yenə çaxnaşmaya büründü hər yan.*
*Hər tərəf dəhşətli xəbərlə doldu,*
*Rahatlıq bir müddət görünməz oldu.*[1]

**Rum sultanının sazişi pozması**

Xülasə, ləşkərlərin hərəkətə başlamalarına və möhnət (mehən) dalğalarının təlatümünə səbəb olan dəhşətli xəbərlər gəldi, Rum sultanının əhd-peyman və sülh sazişi, sel qarşısını kəsən uşaqların tikdikləri zəif evcik kimi dağılmağa başladı. Amma, baş verən hər bir hadisə hümayun iqbalın gücü və mübarək (meymun) bəxt ulduzunun köməyi ilə tezliklə aradan qaldırıldı ki, həmin hadisələrin hər biri haqqında, yeri düşdükcə, mə’lumat veriləcəkdir. Ən böyük

---

[1] Beytlərin farscası:

Pərişan şod əyyam çon zolfe-yar,
Poraşub şod ərseye-ruzigar.
Xəbərhaye-movheş ze hər su rəsid
Ke yek çənd şod xoşdeli napədid.

xəbər isə şahın İsfahanda olduğu vaxt gəlib çatdı. Rum xandgarı Sultan Əhməd ibn Sultan Məhəmməd ibn Sultan Muradla sülh sazişinin bağlanmasına səbəb tədbirli, bacarıqlı adam olan baş vəzir Nəsuh paşanın qətlindən sonra, baxmayaraq ki, hər iki tərəfin elçiləri dostluq məktubları və layiqli hədiyyələrlə Ruma gedib-gəlirdilər, sülh pozuldu. Bunun səbəbi bu tərəfdən baş vermədi. Rum xandgarı iki cahil gürcünün yalan sözlərinə və şərhi aşağıda veriləcək bu ilki Gürcüstan və Şirvanda baş verən kiçik qarışıqlığa görə özünə yaxın olan və dövlət sarayında boya-başa çatan, hələ ruzigarın şilləsinə tuş gəlməyən, fitnəkarlığın eniş-yoxuşlu yollarında ayaqları qabar tutmayan və dünyadan bixəbər olan bir neçə adamın təhriki ilə hövsələsizlik edərək, əhd-peyman sazişini pozdu, Öküz Məhəmməd adı ilə məşhur olan baş vəziri orduya sərdar tə'yin edib əcəm diyirına tərəf yollandı. Əlahəzrət isə ehtiyat naminə divanbəyi Əliqulu xan Şamlını ali dərgahdan Təbriz darüssəltənəsinə göndərdi ki, Azərbaycan əmirləri ilə orada dayanıb, bu xəbərin düzgün olub-olmadığını müəyyənləşdirsin. Əgər bu mə'lumat düzgün olarsa, dövlətin qərar çıxarmasından ötrü həqiqəti [saraya] ərz etsin.

Ə'lahəzrət möhkəmliyinə şübhə olan Gəncə qalasını dağıtmaqdan ötrü adam göndərdi. Qərara alındı ki, bəylərbəyi Məhəmməd xan Ziyadoğlu Qacar Gəncədən Tiflis qalasına köçərək, bundan sonra orada yerləşsin. Adları çəkilən əzəmətli xanlar fərmanı qəbul edib öz işlərinə başladılar. Əliqulu xan və əmirlər bir neçə vaxt Təbrizdə qaldılar. Orada mə'lum oldu ki, yuxarıda adı çəkilən sərdar Rum əskərləri ilə sərhədə çatmış, gələn il qızılbaşlar üzərinə qoşun çəkməkdən ötrü Diyarbəkirə və oraya yaxın yerlərdə qışlamağı qərara almışdır.

Amma, rum ləşkərinin yaxınlaşma xəbəri Gürcüstan və Şirvanda yayıldıqda, hər tərəfdə fitnəkarlıq başlandı, fitnə-fəsad əhli olan hər tayfa üzvlərinin başına müsəlmanların rahatlığını pozan özbaşınalıq və üsyan havası doldu ki, bu varaqların zeyl hissəsində şirin bəyanlı qələmlə mə ' lumat
**s.887** veriləcəkdir.

## GÜRCÜLƏRİN VƏ BİR DƏSTƏ ŞİRVANLININ ÜSYAN ETMƏLƏRİ VƏ HƏR TƏRƏFDƏ FİTNƏKARLIĞA SƏBƏB OLAN TƏHMURƏSIN GÜRCÜSTAN KAXETİNƏ TƏRƏF GƏLMƏYİNİN ZİKRİ

Sərhəd xəbərlərindən biri də budur: Elə ki, rum ləşkərinin gəlişi xəbəri o yerlərdə eşidildi, hər yanın və hər tayfanın itaətsiz adamları başlarını üsyan cibindən kənara çıxardılar. İsa xanın vəkalət vəzifəsini aparan Davud bəy Gürcünün də ürəyində düşmənçilik həvəsi yarandı. Kaxet gürcüləri öz qayda-qanunlarına uyğun olaraq nəsari bayramı günü namaz qılmaqdan ötrü Alaverdi kilsəsinə yığışdılar. Qalanı qoruyan tüfəngçilər qəflətə dalaraq, agahlığı əllərindən verdikləri üçün, çox miqdar gürcü kilsəyə axışıb, bayram adətini yerinə yetirdilər və sonra onlar hücum əllərini açaraq Davud bəyin və Mesq aznaurlarından və Təhmurəsin havadarlarından olan Təhmasib Mesqinin təhriki ilə qızılbaş tüfəngçilərinin üzərinə hücuma keçdilər, o biçarələrin çoxuna şəhadət şərbəti içirdilər. Davud bəy bir çaparını Təhmurəsin yanına göndərib, onu Kaxetə gəlməyə rəğbətləndirdi. Rumilərin tərəfini tutan bir dəstə şirvanlı da, xüsusən vəfalıstan (?) tərəkəmələrindən Dəli Məlik kimi tanınan və onların başçısı olan Məlik Piri başına üsyan çalması bağlayaraq, Dağıstan tərəflərini özünə əmin-amanlıq məkanına çevirdi. Şirvanın bir dəstə talesiz qaçaq-qulduru da onun başına yığılıb, məmləkətin ətraf
**s.888** yerlərinə öz zülmkarlıq əllərini uzatdılar. Buna görə də, Şir-
**(627)** van vilayətində çaxnaşma qopdu, fitnəkarlıq yarandı. Dəli Məlik Təhmurəsin yanına adam yollayıb ona öz sədaqətini ərz etdi.

O nadan və fitnəkar şəxs Davud bəy Gürcünün yanındakı bir neçə gürcü aznauru ilə birlikdə düşünmədilər ki, iri buynuzları olan maral nə qədər güclü olsa da, qızmış şir ilə pəncələşə bilməz, iki günlük hakimiyyətə aldanıb, Kaxet ölkəsinə gələrək, dövlət taxtına çıxdı, gürcülər də onun başına toplaşdılar. O, vəkili Davud bəyi Bəktaş bəy Yüzbaşının və çoxsaylı qorçilərin üzərinə göndərdi. Onlarsa döyüşə

girməyi faydasız görüb, Gürcüstandan çıxmaq məqsədi ilə yola düşərək, öz yaxalarını gürcülərin əllərinə verdilər. O imansız və zəlil dəstə isə (gürcülər – *Ş.F.*)öz əməllərinin sonunu fikirləşməyib, həmin əlil və zəif yüzbaşını bütün yoldaşları ilə birlikdə uca şəhadət dərəcəsinə qaldırdılar. Dəli Məlik də şirvanlı qiyamçılarla birlikdə İmadəddin bəy Şirvaninin nəvəsi və Ərəş hakimi Şahqulu Xəlifə Möhrdar Zülqədərin qızının oğlu olan Məhəmməd Hüseyn Sultanın üzərinə hücuma keçdi. Məhəmməd Hüseyn Sultan cəhaləti və qüruru üzündən qaladan çıxıb, öz köçü və ailəsi ilə birlikdə aradan uzaqlaşmaqda ikən, şirvanlılar qəfildən onların üstünə tökülüşdülər. O isə, yanında olan az miqdar adamı ilə birlikdə öz igidlik əllərini qorxmazlıq ətəyindən çıxarıb, onlara xas olan cidd-cəhdlə döyüşərək, mərdliklə şəhid oldu. Sultanın və qaladan kənara çıxan qazilərin bütün mal-dövləti düşmənlərin əlinə keçdi. Bu vaqiədən sonra sultanın başqa mülazimləri çıxış yolunu bağlı görüb, qalaya qayıtdılar ki, bir neçə gün düşmənlərin çəngindən qurtulsunlar, əgər mümkün olarsa, onlarla əhd-peymana gəlib, xilas olsunlar və özlərini təhlükəsiz bir yerə çatdırsınlar. Dəli Məlik öz adamları ilə birlikdə Ərəşə gələrək, qalanın qarşısında dayandı. Qalanı
**s.888** qorumaq qüvvətləri olmayan Qoroğlu Zülqədər qaziləri heyrət dəryasına düşərək, nəsə bir çarə axtarmağa başlamışdılar ki, qızılbaş qoşunu özlərini həmin düşmənlərə çatdırdılar. Dəli Məlik çaşqınlıqla oradan uzaqlaşdı və qoroğlu qaziləri o bəladan nicat tapdılar.

Qızılbaş ləşkərinin göndərilməsi belə olmuşdur: Təhmurəsin Kaxetə gelişi, qızılbaşların qətli və Şirvandakı çaxnaşma xəbəri İsfahanda cah-cəlal sahibinin (Şah Abbasın – *Ş.F.*) qulağına çatdı. Həm də aydınlaşmışdı ki, bu il Rum ləşkəri sərhəddə qışlayacaq və yürüşə başlamayacaqdır. [Buna görə də] ali həzrətə yaxın adam olan İsfəndiyar bəy Ovçubaşı Ərəbgirlini müqəddəs ordu tüfəngçilərinin bir dəstəsi ilə ali dərgahdan hadisələrin baş verdiyi yerə göndərdilər. Ali hökm verildi ki, Əliqulu xan Divanbəyibaşı Şamlı Təbriz darüssəltənəsindən Qarabağa yollansın. Bütün Azərbaycan ləşkəri,

Məhəmməd xan Ziyadoğlu və Qarabağ əmirləri ona birləşərək, Əliqulu xanın sərdarlığı ilə əmrə tabe oldular və sür'ətlə o tərəfə yollandılar. Orada Əliqulu xan və İsfəndiyar bəy bir-birləri ilə birləşib məqsəd istiqamətinə doğru rəvan oldular. Ə'lahəzrət zillələh şah Mazandaranda qışlamağ fikrinə düşərək İsfahandan çıxdı və o behişt mənzərəli diyara doğru yola düşdü.

Onlar orada günlərini şadimanlıqla keçirirdilər. Yuxarıda yfazıldığı kimi, Vəli Məhəmməd xanın oğlu Rüstəm Məhəmməd xan Bəlxdə məğlub olduqdan sonra pərişan halda Herat darüssəltənəsinə qayıdıb ali dərgaha gəlmək arzusuna düşdü. Ə'lahəzrət də onun saraya gətirilməsini məsləhət bilərək, hələ nazir [vəzifəsində olmayan], amma şaha yaxın adamlar zümrəsindən olan Zaman bəy Naziri şahzadəni gətirməkdən ötrü yolladı ki, bahar mövsümü yaxınlaşdığı, gül-çiçəklərin açıldığı, yaşıllığın çoxaldığı, xüsusilə Mazandaranın Miyankal və Gilanın Zəngul adlı yerlərində sərhəd şikarının başlandığı bir vaxtda həmin şahzadə qoy müqəddəs həzrətlə (Şah Abbasla – *Ş.F.*) birlikdə olsun, o vilayətin müxtəlif şikar növlərini görsün. Fərəhabaddan yola düşən zaman, deyilənə görə, iyirmi mərhələdən çox olan yolu yeddi günə qət edərək, Herat darüssəltənəsinə gəlib-çatdı. Ə'lahəzrət Rüstəm Məhəmməd xana ata-oğul münasibəti göstərdi və onu qiymətli hədiyyələrlə sevindirdi.

## FƏLƏKLƏR PƏRVƏRDİGARININ TƏQDİRI İLƏ BƏRADUST KÜRDLƏRİNİN DƏMDƏM QALASINI İSTİLA ETMƏLƏRİNİN ZİKRİ

Mazandaranda şaha gəlib-çatan dəhşətli xəbərlərdən [biri] bəradust kürdlərinin hiyləgərliklə Dəmdəm adı ilə məşhur olan bir Urumi qalasını tutmalarıdır. Həmin macəra belə baş vermişdir: Yuxarıda yazıldığı kimi, adı çəkilən o ülkanın idarə olunması və Dəmdəm qalasının qorunması Məhəmməd bəyin qardaşı Qaban xan Bigdeliyə tapşırılmışdı. O yerin şəxsiyyətsiz (forumaye) qadınlarından biri Əmir xan Çolaq

Bəradustun zövcələrindən biriydi, bir dəstə məchul kürd onunla birlikdə həmin qalada qalmış və qızılbaşlara xidmət
s.889 edirdi. Qaban xan gərək, xidmətçi olsalar belə, məchul kürd-
(628) lərdən heç kimi qalada qalmağa qoymayaydı, amma o, qafil olub hərdənbir ova yollanırdı. Əmir xanın qohumu olan və bayquş kimi o sərhədin viranələrində yaşayan Uluğ bəy həmin övrət və kürd qulluqçuları ilə danışığa girdi və belə qərara gəldilər ki, Qaban xanın qalada olmayacağı bir gecə
s.889 vaxtı onu xəbərdar etsinlər.

Bir gün Qaban xan şikara getmişdi. Uluğ bəy gecə kürdlərin xəbərçiliyi ilə qırx-əlli nəfər kürdlə qala ayağına gəlib çatdığını qaladakı kürdlərə bildirdi. Onlar da qalanın yaxınlığında yerləşən Suluq bürclərinin birini dəldilər, bəy və yoldaşları bir-bir həmin bürcə daxil oldular, qəflətən hücuma keçib bürcü qoruyan adamı qətlə yetirdilər, habelə yaxında olan hər kəsi ədəm yoluna yolladılar, nağaraxanaya* gedib Uluğ bəyin adına şadlıq nağaraları səsləndirdilər, qaladakı kürdlər bəyin başına toplaşdılar. Qala əhalisi heç vaxt xəyal pərdəsində belə görünməyən bir hadisəni müşahidə edərək bu vəziyyətdən çaş-baş oldular. Bu fitnəkarlığın baş verdiyi o zülmət gecə vaxtı qaladakı qızılbaşlar, istər ağa olsun, istərsə nökər, müxaliflərin kəmiyyət və keyfiyyətlərindən bixəbər idilər, buna görə də qorxudan ürəkləri yarılmış halda qaladan çıxıb qaçmağa başladılar. Sübh açılanda qalada artıq qızılbaşlardan heç kim qalmamışdı. Qalanı ələ keçirən kürdlər qızılbaşların var-yoxlarını zəbt etdilər, bu dövlətə müxalif olan və yaxınlıqda yaşayan kürdlərdən kömək xahiş etdilər.

**Uluğ bəyin fərar etməsi:**

Bu dəhşətli xəbər Qaban xana çatdıqda, o, peşimançılıq barmağını dişlədi, qalaya tərəf üz tutdu. Bu hadisədən Marağada xəbər tutan Ağasultan Müqəddəm özünü dərhal qala ayağına çatdırdı. İqbalın xoş hadisələrindəndir ki, yüz əlli nəfər kürd Uluğ bəyə kömək üçün qalaya tərəf gəldikləri vaxt Ağasultana və bir dəstə Qaban xan adamlarına düçar oldular, aralarında cəng başlandı, kürdlər məğlubiyyətə uğradılar, onların bir neçəsi qətlə yetirildi, sağ

qalanları isə fərar yoluna düşdülər. Bu əhvalatı eşidən Təbriz hakimi Budaq xan və Şəhir Sultan Mokri də pərişan olub, özlərini hücumla qalaya çatdırdılar. Qəza-qədərin təqdiri ilə bu qəziyyə baş verdikdən sonra, xəcalət çəkən Qaban xan gəlib əzəmətli əmirlərə qoşuldu. Mə'lum oldu ki, qaladakı adamlar sayca azdırlar. Onlar təzəcə yürüşə keçmək istəyirdilər ki, qeyb hadisələrindən biri baş verdi. Belə ki, tüfəngçilər barıt paylayan vaxt açılan bir atəş qığılcımı barıtçıları alovlandırdı, Uluğ bəyin isə üzünün bir tərəfi yandı, özü isə yaralanıb pis hala düşdü, ətrafdakılardan bir neçə nəfərə də yara ələmi üz verdi. Atəşin yandırdığı o adamlar pərt olub, qaladarlıq edə bilmədilər, kömək gəldiyini bildikləri halda köməyin hələ çatmamasından mə'yus oldular, çünki, qalanın hər tərəfini qızılbaş döyüşçüləri tutmuşdular. Hədsiz qorxuya düşən [kürdlər] fərardan başqa çarə tapmayıb, idbar adamların ürəkləri kimi qaranlıq olan zülmət bir gecə vaxtı, öz ağır-yüngül şeylərini atlara yüklədilər, Uluğ bəyi də bir ata bağlayaraq, qala qapısını qəfildən açdılar, qaçmağa başladılar. Bundan gec xəbər tutan əzəmətli əmirlər onların ardınca döyüşçü göndərdilərsə də, döyüşçülər onlara çata bilmədilər.

Möhkəmliyinə və ucalığına görə fələklə (çərxe-əxzər) bərabərlik iddiasında olan bu geniş qala iqbalın gücü ilə yenidən zəfərşüar əskərlərin əlinə keçdi. Qala kürdlərin əlində səkkiz-doqquz gündən çox qalmamışdı. Bu fərəhli müjdəni eşidən şahın nigaranlığı şadimanlıqla əvəz olundu. Qaban xanın qardaşı qardaşının qəflətindən bir qədər xəcalət çəkirdi, amma əlahəzrət zilləllah şah öz hövsələsinin və bəndəpərvərliyinin böyüklüyünə, həmçinin o qardaşların sədaqət və xidmətlərinə görə bu böyük xətanı bağışlayıb, onları cəzalandırmadı. Qaban xan o vilayət hakimliyindən çıxarıldı, yerinə Pirbudaq
**s.890** xan tə'yin olundu. Ağaxan Müqəddəm qaçdı, qalanın kutvallığı isə Məcnun bəy Yüzbaşının sərdarlığı ilə Xorasanin xüsusi topçu və tüfəngçilərinə tapşırıldı.

## TƏHMURƏS XAN GÜRCÜNÜN ƏLİQULU XAN VƏ QIZILBAŞ DÖYÜŞÇÜLƏRİ İLƏ HƏRBİNİN ZİKRİ VƏ BÖYÜK ALLAHIN HİKMƏTİ İLƏ QIZILBAŞLARIN MƏĞLUBİYYƏTİ

Dünya işlərinin tənzimlənməsi (təmşiyət) və bəni-Adəmin mənfəəti (məsaleh) qadir Allahın qüdrəti və iqtidarı ilə baş verir. İlahi öz böyük hikməti ilə hər bir işi etməyi bacarar, pərdə altında gizli qalan hər şeyi üzə çıxarar. Buna dair minlərlə dəlil vardır və bütün işlər "Allah-talanın istəyincə
**s.891** baş verir"[1] qəzanın iş buyuranları və qədərin iş görənləri
**(629)** tərəfindən həyata keçirilir, Allahın heç bir istəyi ruzigarın aqil adamlarının sə'yi və təcrübəli insanlarının tədbiri ilə dəyişilə bilməz. Zahiri aləm tamaşaçılarının isə baş verən hadisələrə təslim gözü və razılıqla tamaşa etməkdən başqa heç bir çarəsi qalmır. Buna misal olaraq, Təhmurəs Gürcünün iqbal döyüşçüləri ilə etdiyi hərbdir ki, o öz cəhalət və özbaşına hərəkətləri ilə cür'ət edib, o diyar (Gürcüstan – *Ş.F.*) xalqını məhv olma burulğanına saldı, özü də özbaşınalıqla (xodsər) həsrət səhrasının və nadanlıq diyarının sərgərdanı oldu ki, bu haqda öz məqamında mə'lumat veriləcəkdir.

Xülasə, yuxarıda yazıldığı kimi, Əliqulu xan və İsfəndiyar bəy Gürcüstana rəvan oldular. Onlarla birgə getməyə təhkim olunan carçı və qulamlardan ibarət Azərbaycan əskərləri dəstə-dəstə gələrək, onlara birləşirdilər. Təxminən on beş min nəfər toplaşdı. Onlar tüfəngçilərin və başqa əskərlərin gəlişlərini gözləmədən, Gürcüstanın Tiflis yolu ilə hərəkətə başladılar. Kaxet və Kartil arasından axan və Başıaçığın yolu üstündə olan Ərəkçayiyə (?) çataraq dayandılar, çünki Başıaçığa getmək istəsəydilər o çaydan keçə bilməzdilər. Şahsevənlik izhar edən gürcülər isə gəlib müzəffər əskərlərə qoşuldular. Gürcülər zahirdə [qızılbaşlarla] razılıq və xidmətkarlıq məqamında idilər, onlar yolları və çıxış yerlərini göstərirdilər. Keçid ehtimalı olan hər yola bacarıqlı mühafizlər tə'yin olundu və yolları tutmağa (ensedad) başladılar, hər bir qızılbaş tayfasının və o yerlərə bələd olan gürcülərdən

[1] Ərəbcəsi: "Zə əradə-l-lahu şey'ən heyyitən əsbabuhu"

təcrübəli qarovullar göndərdilər ki, müxaliflərin hərəkətindən hər gün və hər ləhzə xəbər tutub bu haqda xəbər çatdırsınlar.

**Təhmurəsin qızılbaş ləşkəri ilə cəngi və qızılbaşların məğlubiyyəti:**

Təhmurəs ətrafındakı ağır gürcü qoşunu ilə hərbə əzm edib, dayandığı yerdən hərəkətə başladı. Əzəmətli əmirlərsə, gürcülərin yalan sözlərinə inanaraq, onların hərəkətini fərar kimi qəbul etdilər.

Hələlik Təhmurəsin qızılbaş əskərləri üzərinə yürüşündən əsər-əlamət görünmürdü. Bir neçə gürcü qarovulları xəbər verdilər ki, Təhmurəs döyüş əzmi ilə yola düşmüş və artıq onlara yaxınlaşmışdır. Hərçənd ki, o tayfanın fikirləri e'tibarsızdır, buna baxmayaraq əzəmətli əmirlər və heybətli əskərlər öz yaraq-yasaqını nizama salıb, cəng üçün münasib yer seçməkdən ötrü ordudan ayrıldılar. Düşündülər ki, əgər bu xəbər düzgün olarsa, qoy hərbə başlasınlar, yox, yalan olarsa,
s.891 münasib olan başqa bir yer müəyyənləşdirib, oraya getsinlər. Xeyli gözlədilər. Qarovullar və yol mühafizləri gələrək, gürcülərdən hələ heç bir əsər-əlamət olmadığını bildirdilər.

Çox gözlədikdən sonra qayıtdılar və hər kəs öz yerinə getdi, döyüşçülər bir-birindən aralandılar. Qəfildən təbillərin səsi gürcülərin gəlişindən xəbər verdi və düşmən qoşunu göründü. Amma, şahsevənlik izhar edən gürcülər qızılbaşlara yalan və'dlər verib, Təhmurəsin keçib-gəldiyi yolu deyil, başqa bir yolu göstərmişdilər ki, qızılbaş qarovulları bu yoldan xəbərsiz idilər.

Bu hadisə baş verən kimi əzəmətli əmirlər və qalibiyyətli əskərlər yenidən atlara süvar olub, döyüş meydanına gəldilər. Qarabağ bəylərbəyi Məhəmməd xan Ziyadoğlu Qacar və onun itaətində olanlar çərxçi tə'yin edildilər. Qarabağ əmirlərindən Peykər Sultan İyirmi dövd və Dəli Məhəmməd Sultan Şəmsəddinli türklərin "Bukrəkçi" ("Böyrəkçi?") adlandırdıqları çərxçilərin köməyinə göndərildlər. Onlar qoşunun meymənə və meysərəsini lazimi səviyyədə xoşbəxt döyüşçülərlə bəzədilər. Buna baxmayaraq, fürsətin yoxluğu və çaşbaşlığın çoxluğundan ləşkərin düzülüşü istənilən səviyyədə ola bilmirdi. Döyüşçülərin bə'ziləri hələ orduda atlara süvar

ola bilməmişdilər ki, Təhmurəs beş-altı min nəfərədək olan qoşunu ilə gəlib çatdı, özünü çərxçi dəstəsinə vurdu. Çərxçilər onların hücumuna tab gətirməyib, məğlub oldular. Peykər Sultan, Dəli Məhəmməd və bukrəkçi əmirlərinin hər biri öz qoşunu ilə meydanı tərk etdilər. Məhəmməd xan Ziyadoğlu qacar tayfasından olan bir neçə nəfərlə birlikdə gürcülərin qılınc və oxuna tuş olaraq öldürüldü ki, bu da gürcü kafirlərinin ürəklənmələrinə, islam döyüşçülərininsə pərtliyinə səbəb oldu. Gürcülər birləşib qızılbaşların qol cinahına doğru hücuma başladılar. Məhəmməd xanın öldürülməsi və çərxçilərin məğlubiyyətindən qoşunun meymənə və meysəysi çaş-baş olmuşdusa da, tezliklə onlar kafirlərdən qorxmayaraq özlərinə gəldilər. Döyüş alətlərinə əl ata bilməyən Azərbaycan çəriki arxalarını döyüş meydanına çevirib, fərar vadisinə tərəf götürüldü. Ordunun qəlbində dayanan səadətli döyüşçülərin və Əliqulu xanın şamlı tayfasının bir dəstə mübariz döyüşçüsü xanla birlikdə, çərikin fərarından ruhdan düşdülər, müdafiə və müharibə fürsəti əldə edə bilmədilər. Gürcülərsə çatdıqları hər kəsi dərhal ayaqdan salırdılar.

Xülasə, qol qoşunu da düzülüşə macal tapa bilməyib çaxnaşmaya düşdü, döyüşçülərin hər biri öz hayına qaldı. Şücaət və dilavərlikdə hərəsi dövranın yeganə igidi olan, vuruşmaqda isə şücaətli mübarizlərin rəhbəri sayılan Əliqulu xan
**s.892** və İsfəndiyar bəy ləşkərin dağılışdığını müşahidə edərək, bir
**(630)** müddət həyaya qısılıb meydanda ləngidilər, amma onların ləngimələri faydasız olduğu üçün "Özünüz öz əlinizlə özünüzü məhv etməyin"[1] deyiminə uyğun döyüş cilovunu meydandan çəkdilər və Tiflisə tərəf yola düşdülər. Gürcü kafirləri igidlərin qanına susayıb, kin qılınclarını qından çəkdilər və islam döyüşçülərinin qanını elə tökdülər ki, bütün səadətli qızılbaşlar şəhadət dərəcəsinə yüksəldilər. Qəflət və cəhalət badəsi ilə məst olan Təhmurəs ona qismət olan qələbədən sevincək olaraq qızılbaşların ordusuna soxulub, Əliqulu xanın xeyməsi önündə dayandı. O, hər bir qızılbaş əmir və ə'yanının mənzilini gürcü ə'yanlarına verdi və islam qoşununun var-dövləti kifr və zülm kafirlərinə nəsib oldu. Amma, o

[1] Ərəbcə: "Lə təlqan bi eydikum ilə-t-təhlikəti"

bundan xəbərsizdi ki, iti dimdikli durna (koləng) nə qədər ucada uçsa da, iqbal səmasında övcə qalxan şahın [quşunun] çəngindən qurtara bilməz. Nəticə etibarilə öz cəsarəti və ədəbsizliyi üzündən zaman qəhrəmanının qəzəbinə gələn Təhmurəs öz əcdadının çoxdankı yer və məqamını viran qoydu, onun ölkə və məmləkəti əlindən çıxdı ki, bu hadisənin şərhi aşağıda veriləcəkdir. Xülasə, Əliqulu xan, İsfəndiyar bəy və başqa əmirlər dağınıq halda Tiflis qalasına çatdılar və
**s.892** ləşkərdən ayrı düşənlər də gəlib oraya toplaşdılar. Məhəmməd xan Ziyadoğlunun, Gilanın Kuhdəm hakimi Hüseynxan Gilaninin, talış yüzbaşısı Hüseynqulu bəy Yadigar Əli Sultan oğlunun əmirləri və arif şəxsləri (məaref) öldürüldü, İshaq Sultan Mir Seyfi yaralandı, öz qoşunu ilə bir tərəfdə dayanan Kəskər hakimi Mürtəzaqulu xan Kəskəri gürcü döyüşçüləri keçib-getdikdən sonra gürcülərin arxasınca hücuma keçərək, onların piyadalarının qırx-əlli nəfərini qətl etdi və əmirlərin ardınca gedib Tiflisə çatdı.

Əliqulu xan özünün Tiflisdə qalmağını məsləhət bilməyib, qalanı Məhəmməd xanın oğlu Mürşidqulu bəyə, qacar qazilərinə və tüfəngçi dəstəsinə tapşırıb Gəncəyə gəldi, qalanın viran edilmiş evlərində yerləşib, orada qışladı, vəziyyəti ə'lahəzrətə bildirdi. Bu dəhşətli xəbərdən hərçənd ki, ə'lahəzrətin qızğın təbiəti məşəl kimi yandı, dərya kimi qaynadı, amma hövsələsinin genişliyindən özünü ələ alıb Əliqulu xana və əmirlərə təskinlik məktubu göndərdi. Məktubda yazılmışdı: "Qoşun çəkmək və müharibə etmək məsələsində qədimdən bu günədək məğlubiyyətlə zəfər yanaşı olmuşdur. Qəzavü qədər nəticəsində islam döyüşçülərinə dəyən bu nəzər yarasından kədərlənməyin, mə'sud ordunun gəlişini gözləyin ki, bu yaxınlarda döyüş cilovu sizin səmtinizə çevriləcək. Allahın köməyi və islamın qüvvəsi sayəsində qılıncımı intiqam qınından çıkb o bədməzhəblərin cəzası veriləcəkdir".

Belə şahanə nəvazişdən onların pərişan ürəkləri arxayınlaşdı. Onlar Gəncə qışlağında xəcalətlə gün keçirirdilər və bu vaxt cah-cəlal ordusunun gəliş təntənəsi eşidildi, ölkələr tutmağın rəmzi olan bayraqlar asimana ucaldı ki, bu məsələnin şərhi gələn ilin başlanğıcında yazılacaqdır, inşallah.

**Xorasan hadisələrinin şərhi və o vilayətdə bu il baş verən hadisələr**

Bu il, Bəlxdə inkişafa yetişmiş özbək sərdarlarından Qara Təğmə adlı bir şəxs almançı[1] tayfasından olan bir dəstə adamı başına toplayaraq hər tərəfə hücuma keçirdi. Get-gedə dörd-beş min qarətgər və qaniçən özbək onun ətrafına yığıldı. O, birdən-birə Xorasan vilayətinə hücum edib Camı, Xafı və Baxərzi qarət etdi və çoxlu qənimət ələ keçirdi. O zamanın işlərinə uyğun olaraq, heç kim onun işinə qarışmırdı. Bu il, o [yenə də] Xorasanı tarac etmək həvəsinə düşərək, bir dəstə qəddar (şəqavətvorud) döyüşçü ilə Kərəxə tərəf gəldi, bu qalanın mühafizləri olan cəmşidi camaatı ilə özbəklərin arasında kiçik bir hərb baş verdi, hər iki tərəfdən bir neçə adam öldürüldü. Orada bir iş görə bilməyən Qara Təğmə [və özbəklər] Herata tərəf gəldilər, ətraf yerlərdən bol qənimət ələ keçirib Kohdəstana tərəf getdilər. Herat valisi Hüseyn xan yeddi-səkkiz yüz nəfərdən ibarət bir dəstə məchul adamı Bayram bəy Koşte Şamlının sərkərdəliyi altında özbəklərin üzərinə yolladı ki, fürsət düşən kimi onlarla əlbəyaxa olsunlar.

[Hüseyn xan] həmin dəstə getdikdən sonra düşündü: "Bu camaat, baxmayaraq ki, məchul adamlardan ibarətdir, amma əgər məğlub olacaqlarsa, bu iş mənim bədnamlığıma səbəb olacaqdır". [Buna görə də,] iki yüz nəfər igid və təcrübəli cavan adamı, hal-hazırda Xosrov Sultan olan Maruçaq
**s.893** hakimi Xosrov bəyin sərkərdəliyi altında onların köməyinə yolladı. Özbəklərin harada olduqlarını öyrənən Bayram bəy onlara tərəf getdi. Gecə vaxtı Kohdəstan çəmənliyində dayanan özbəklərin yanından keçərək, sübhə yaxın onların dayandıqları yer haqqında mə'lumatı olan iki-üç nəfər cəmşidi

[1] Qeyd: Bu əsərin bir neçə yerində rast gəldiyim "almançı" istilahı barədə lüğətlərdə mə'lumatlara təsadüf etmirdim. Nəhayət, d-r Məhəmməd Moinin "Fərhənge-farsi" adlanan lüğəti yenidən mənim köməyimə çatdı. Həmin lüğətdə "almançı" sözü həm "almançı", həm də "əl-amançı" şəklində yazılmışdır və "qarətgər" mə'nasındadır (Bax: D-r M.Moin. Göst. Lüğət, c. I, s. 335). Qəribədir ki, İskəndər bəy Münşi bu ifadəni yalnız özbəklərlə əlaqədar işlədir. "Almançı", yaxud "əl-amançı" orta əsrlərdə, güman ki, özbəklər tərəfindən işlədilən söz olmuşdur – *Ş.F.*

s.894 (631) camaatına çatdılar və onları ötüb keçdilər (qolavuzi), özbəklərin bə'ziləri oyaq, bə'ziləri isə yuxulu olduqları vaxt, ordularına gəlib çatdılar. Özbəklər atların kişnərtisini, silahların şaqqıltısını və dəvələrin kövşəməsini eşitdilər. Bayram bəy qızılbaş qoşununun azlığı, düşmənin isə çoxluğundan fikrə qərq oldu, düşündü ki, sübh açılanda və cahan işıqlananda, atlara süvar olan özbəklər qızılbaşların kəmiyyətindən xəbər tutarlarsa, bircə nəfər də xilas ola bilməyəcəkdir. "Allaha təvəkkül" deyən Bayram bəy [və qızılbaşlar] sübh ağaran vaxt özbəklərin üstünə hücuma keçdilər. Yeddi-səkkiz yüz özbək çaşqınlıqla atlara tərəf qaçıb, təzəcə süvar olmuşdular ki, qızılbaşlarla qarşılaşdılar və vuruşa başladılar. Elə ilk həmlədə onların bir çoxu yaralanaraq həlak oldu.

Cəngin qızışdığı vaxt Xosrov Sultan yuxarıda mə'lumat verilən iki yüz igid və təcrübəli cavan ilə döyüş meydanına gəldi, kərənay səsləndi və xan qəfil asiman bəlası kimi vaxtlı-vaxtında özünü çatdıra bildi. Kərənay səsini eşidən özbəklər Hüseyn xanın gəldiyini düşünərək, özlərini itirdilər, fərar etməyi qərara alıb, qaçış vadisinə üz tutdular. Qazilərin Yəmən qılıncları işə düşdü və onlar bol qənimət ələ keçirib geri qayıtdılar. Qara Təğmədən bir müddət səs-soraq eşidilmədi. Çoxu düşünürdü ki, o, həmin mə'rəkədə öldürülmüşdür. Bir müddətdən sonra Qara Təğmənin həmin döyüşdən sağ-salamat qurtulduğu mə'lum oldu. Şamlı qazilərinə nəsib olmuş bu böyük fəthdən sonra özbəklər ayaqlarını bədnamlıq (xəmul) ətəyi ilə bürüyərək, uzun vaxt Xorasana gəlmək arzusunu ürəklərində gizlətdilər.

Xorasan hadisələrinin başqa birisi Xorasan bəylərbəyi Hüseyn xanın oğlu, Maruçaq hakimi olan Qazaq xanın öldürülməsidir. Bu hadisə belə olmuşdur: Bir dəstə cığatay orlatları* Çəlmə Sultanla birlikdə bu vilayət aşiyanlı dudmana gələrək Ravə ülkasında və o ətraflarda yaşayırdılar. Çəlmə Sultan nifaq edərək o tayfanın bir neçə böyük adamını qətlə yetirdi. O adamların təbəələri də bu hadisədən qorxub, fərar vadisinə üz tutdular. Orlat tayfasının başqa bir neçə üzvü isə əvvəllər Maruçaqda yaşayırdılar. Çəlmə Sultanı orlat ağsaqqallarını öldürdüyünə görə danlayan Xorasan bəylərbəyi

Hüseyn xan, orlat qəbilə üzvlərinin ürəklərini ələ almaq məqsədi ilə onları nəvazişləndirdi və Çəlmə Sultan üzərinə getmələrinə mane oldu. Amma, onlar Çəlmə Sultanın inadkarlıq edib, bir də hücuma keçəcəyini bildirdilər. Hüseyn xan belə qərara aldı ki, həmin orlatlar Maruçaqa getsinlər və bundan sonra başqa qəbilə camaatı kimi oğlu Qazaq xanın mülazimətində olsunlar.

**Hüseyn xanın oğlu Qazaq xanın öldürülməsi:**

Amma, onlar Maruçaqdan çıxıb, özbəklərin yanına getdilər, onların fərar etməsindən əvvəlki orlatlar qorxuya düşdülər. Qazaq xanın yanında xidmət (pişxidmət) edən və xanın e'tibarlı adamı olan bir orlat gənci bir gecə Qazaqın çoxlu şərab içib şüurunu itirdiyi və yuxuya getdiyi vaxt, ya öz istəyi, yaxud da atasının və başqa qohumlarının tapşırığı ilə iti bıçaqla özünü yetirdi və ona bir neçə ağır zərbə endirdi. O tayfanın hamısı bu hadisədən qorxuya düşərək, ya da nifaq üzündən fərar etmək qərarına gəldilər, elə o gecə darvazanı açdılar, Meymənə yolunu önə tutdular. Bu ibrətbəxş vaqiədən heyrətlənən
s.894 və pərişan olan qala əhalisi baş vermiş bu fitnəkarlıqdan çaşıb qalmışdılar, buna görə də onlardan heç kəs həmin zülmət gecə qatilin təqibinə getmədi, amma tə'cili olaraq Herata adam yollayıb Hüseyn xanı hadisədən agah etdilər. Əziz oğlunun vaqiəsindən kədərlənən Hüseyn xan, təşviş (qeleq) və iztirab keçirməyin faydası olmadığını bildi, əlini dözüm (şəkibayi) ətəyinə uzatdı, Xosrov Sultanı bir dəstə təcrübəli adamla, sərhəddə qarışıqlıq düşməməsindən ötrü, qalaya yolladı. Özünü işıq və külək sür'əti ilə qalaya çatdıran Xosrov Sultan oranı qorumaqla məşğul oldu. Məsələ şaha çatdıqda Maruçaq hakimliyi və qalanın kutvallığı Xosrov Sultana verildi.

**Mir İmad Xoşnevisin öldürülməsi:**

Baş verən başqa hadisə isə budur: İsfahan darüssəltənəsi hümayun ordunun gəlişi münasibəti ilə cənnətin qibtəsinə gəldikdə, Mir İmad Xoşnevis Qəzvini qətlə yetirildi. O, Qəzvin darülmüvəhhedininin seyfi seyidləri adı altında məşhur olan həsəni seyidlərindən idi. Nəstə'liq xətti

ilə yazmaqda çox inkişaf etmiş və özündən əvvəlki ustadların xətləri üzərindən xətt çəkmişdi. Qələm işlətməkdə və məktub yazmaqda yədi-beyzası* (hərfi tərcüməsi – “ağ əl” deməkdir – *Ş.F.*) və ali dərəcəsi vardı. Onun xətti həqiqətən də səhvsiz, gözəl və yaraşıqlı idi.

Mir Əbdülqəni Təfərroşi bu rübaini Mir İmadın şərəfinə yazmışdır:

**Rübai**

*Xəttində sənin öylə bir e’caz görünür,*
*Mə’nasına vardıqda onun naz görünür.*
*Sən dairə çəkdikdə fələk mat qalır,*
*Ötdükcə zaman böylə yazan az görünür.*[1]

Əhali arasında sünnü (təsənnon) kiği məşhur idi. Qəzvinli ustad Maqsud Məsəlgər (?) özünün ifrat şiə olduğuna görə, yaxud o vilayət valisinin əksəriyyətinin şiə təriqətinə mənsub olması səbəbindən, ya da təsənnünün (sünniliyin – *Ş.F.*) aradan qaldırılması fikri ilə Mir İmadın qətlinə səbəb oldu.

## MÜBARƏK RAMAZAN AYI SƏDƏQƏSİNİN TƏSƏDDÜQ ZİKRİ

Xeyrli işlər icraçısı, səxavət və ehsan rəmzi (məzhəre cud və ehsan), Allahın parlaq nur şüarına qərq olan ə’lahəzrət zilləllah şah [onda olan] asimani ilham və rəbbani kömək (tovfiq) sayəsində ayların ən mübarəki olan ramazan “ramazan ayı elə bir aydır ki, onda Qu’ran nazil olmuşdur”[2] rama-

---

[1] Rübainin farscası:

Ta kelke-to dər neveştən ecaznomast,
Bər mə’ni əgər ləfz konənd naz rəvast.
Hər daireye-tora fələk həlqebeguş,
Hər mədde*-tora moddəte-əyyam bəhast.

*Qeyd: Mədd – Ərəb əlifbasında əlif hərfini uzadaraq “a” kimi oxumaq üçün bu hərfin üzərinə qoyulan diakritik işarə: (Bax: Nəyyerzaman Səqəfi. Göst. Lüğət, c. II s. 525)

[2] Ərəbcəsi: “Şəhri rəməzan əlləzi unzilə fihi-l-Qur’an”.

zan ayında... divana hər il ödənilən bir aylıq xərac, icarə və daşınmaz əmlak (mostəğellat) vergilərini İran məmləkətlərinin bütün şiələrinə sədəqə (təsəddoq) etdi ki, onlar bir aylıq divan ödənclərindən azad olsunlar, bu mübarək ay ərzində tələbkarların zülm əlləri onların tabeliyindəki adamların yaxasından uzaqlaşdırılsın, heç kəs ulduzlara dikilən gözlər kimi miskin dehqanların məhsuluna göz zilləməsin, geniş əkin sahələrinin əkinçiləri (məzarean) vergiyığanlardan (mohəsselan) arxayın olsunlar və vergiyığanlar məhsullara həsrət gözü ilə baxmasınlar, əhali qoy bu mübarək ayı başa vurub, aləmlər Pərvərdigarının taət və ibadəti ilə məşğul olsun. Bu haqda məhrusə məmləkətlərə mərhəmət təsirli məktublar göndərildi. Ən böyük bəxşişlərdən (ətaya) olan bu bəxşiş başqa sədəqə və bəxşişlərə əlavə olundu. Həmçinin, qanun üzrə ali səbt dəftərlərində qeydiyyata götürülən, baş vermiş hadisələrin istintaqına və günahkarın cəzalandırılmasına yönələn, amma ötən illər ərzində sabiq ədalətli sultanlar tərəfindən bilməyərəkdən göz yumulan və daruğələr
s.895 vasitəsilə özbaşına olaraq təkrar-təkrar yığılan şübhəli ehdas*
vergisinin yığılmasına da diqqət yetirildi. Dəftərdə yazılanlara diqqət yetirən əlahəzrət zillallah şah ona xas ali xasiyyətlə (fetrət) bu məsələyə diqqət yetirdi və divan mühasiblərinə xəbərdarlıq etdi. Onların hamısı bu tapşırığı qanuniləşdirdilər, o həzrətə dua və səna etdilər. [Beləliklə] hər iki vergi növünün götürülməsi məhrusə məmləkətlərdə və hümayun sərhədlərdə e'lan olundu, bildirildi ki, əzəmətli mustovfilər məbrusə məmləkətdə tiyuldarlar və onların vəkilləri (ommal) tərəfindən həyata keçirilən və işlənməkdə olan (rayec) təxminən otuz min tüməne-şahiye-İraqi məbləğində olan pulu dəftərlərdən pozsunlar (xelv) və həmin məbləğ e'tibardan düşmüş sayılsın, [dəftərlərdə] dəyişikliklər edilsin. Ümidvarıq ki, bu işlərin savabı dərhal hümayun şahin
s.896 xoş günlərinə aid olunacaqdır.

## HÜMAYUN ŞAH CÜLÜSÜNUN SƏADƏTLİ BİR QƏRİNƏSİNƏ BƏRABƏR OLAN TÜRKİCƏ MİN İYİRMİ BEŞİNCİ BALIQ İLİNİN (1616/1617) BAŞLANMASI, O HƏZRƏTİN GÜRCÜSTAN QƏZASINA GETMƏSİ VƏ O DİNSİZLƏRİN CƏZALANDIRILMASI

Allahın iradə və istəyi Gürcüstan Kaxetinin viran edilməsinə, oranın kafərlərinin cəzalandırılmasına, islam yolunda döyüşən qazi mücahid padşahın, yəni ə'lahəzrət zilləlah şahın qılıncı ilə o dinsizlərin yüz min nəfərdən çox qadın və qızının islama gətirilməsinə yönəlmişdi. Qaragün Təhmurəs bəxtinin dönüklüyü səbəbindən, yuxarıda yazıldığı kimi, həmin zəlil (məxzul) dəstənin qətlinə və sərgərdan düşməsinə əmr verildiyindən, səadətli qızılbaş döyüşçüləri ilə hərb etməyə cür'ət etdi. Bu xəbər elə ki, Mazandaranda [şahın] yaddaşında cilvələnməyə başladı, onun şahanə qeyrət tonqalı və padşahanə qəzəb şö'ləsi elə alovlandı ki, həmin alovun bircə qığılcımı dünyanın bütün xırmanını yandıra bilərdi. [Şah] Gürcüstana əzm etmək və müsəlmanları öldürən həmin dinsizləri öldürmək qərarına gəldi. Buna görə də, ali hökm verildi: Əzəmətli əmirlər və qalibiyyətli əskərlər tam sür'ətlə Gürcüstan yasağına yollanaraq, o diyarın kafirləriylə qəza və cihad etməyə amadə olsunlar. Bir neçə min isfahanlı tüfəngçi və İraqın başqa yerlərinin tüfəngçiləri döyüşə hazır vəziyyətə gəlib, dərhal müzəffər məiyyətə birləşsinlər. Gürcü sultanzadələri ilə yoldaşlıq etmək dövlətin məsləhəti olmamasına rəğmən hümayun məiyyət geri qayıdanadək qalmaq üçün Luvarsabı Astarabada, İsa xanı isə Damıvəndə göndərdilər ki, hakimlər onların hər ikisi üzərində göz olsunlar. Xoş bir saatda Fərəhəbad darülsürurundan hərəkətə başlayıb Gilan yolu və dərya kənarı ilə rəvan oldular. Ləşkər dəryası Əxzər bəhri kimi hər tərəfdən dalğalanmağa başladı. Ordunun keçdiyi hər yerdə müzəffər əskər dəstələri gələrək qalibiyyətli məiyyətə qoşulurdu. Mübarək bahar və onun gül-çiçək

qoşunları hər tərəfdən üzə çıxır və zəfər şüarlı şah məiyyətini qarşılayırdı.

Min iyirmi beşinci ilin rəbiül-əvvəl ayının onunda (28 mart, 1616) seşənbə günü cahanı bəzəyən günəş təntənə və cahcəlal ilə izzət və şərəf mənzilinə yüksəldi, novruz şeypuru fələyin gümbə'zinə fəth və zəfər sədası saldı.

**Şe'r**

*Cahan rövnəqləndi təzədən yenə,*
*Novruz yenə gəldi cahan səthinə.*
s.897 (633) *Yenə bağ sultanı məclis bəzədi*
*Lalərəng qədəhlər əllərdə gəzdi.*
*Yenə yaz dehqanı şövqə gələrək,*
*Cahan səhrasına səpdi gül-çiçək.*[1]

Baharın ətirli nəsimi ətrafı müşk ətrinə bürüdü, cahanın hər yerini iman əhlinin ürəyi kimi ətirləndirdi, fərvərdin ayının (mart ayının 20-dən aprelin 21-dək olan İran hicri-şəmsi ayı – *Ş.F.*) havası rayihələndi, lalə camallı və ay üzlü qızların üzlərindəki şölə kimi bütün cahana şəfa, dövrana isə ziya bəxş etdi.

Kamkar şəhriyar novruz bayramı məclisini cəng və qələbə gülşəni ilə əvəz edərək, bayram şadyanalığı keçirmədi, məqsədə doğru köç-köç yollandılar. Gəncə yaxınlığında Əliqulu xan və əmirlər zəfər bayraqlı ordunu istiqbal edərək, şahın rikabını öpmə ziyarəti ilə sərəfraz oldular. Təbriz darüssəltənəsindən gəlmiş Pirbudaq xan Pornakın və onunla həmrah olan əmirlərin Təbrizə getmələrinə və o sərhəddən xəbərdar olmalarına izn verildi.

---

[1] Şerin farscası :

Cəhan rovnəqe-ərcoməndi gereft,
Ze novruz firuzməndi gereft.
Be bəzme delaraye-soltane-bağ
Ze lale be gərdeş dəraməd əyağ.
Degər bare dehqane-ordibeheşt
Be səhraye-giti gol-o lale keşt.

Öz qoşunu ilə Təbrizə gedərək Pirbudaq xana və əmirlərə kömək etməkdən ötrü Kirman hakimi Gəncəli xanı da yola saldılar. Elə ki, Tiflisə gəlib çatdılar, cənnətməkan şahın hakimiyyəti vaxtı islamı qəbul etmək şərəfinə yetişmiş Mirzə xan ibn Davud xan ibn Luvarsabe-maziyə (əvvəlki Luvarsaba – *Ş.F.*) ehtiram edib, onu yüksək "xan" ləqəbi və "əmi" xitabı ilə şərəfləndirdilər, Kartil hakimliyini ona verdilər. Oradan çıxıb Gürcüstanın Kaxet vilayətinə gəldilər. Təhmurəs Diyarbəkrdə qışlayan Rum sərdarı və əskərlərinin [müharibə əzmi ilə gəlişinə görə] güman etmirdi ki, qızılbaş ləşkəri bu il Gürcüstana gəlmiş olar. Amma, elə ki, hümayun şahın hücumundan xəbərdar oldu, çaşbaş qalıb mə'yus halda Gürcüçtana vida edərək, az miqdar adam ilə Başıaçığa qaçdı, gürcülər "o gün adam öz qardaşından qaçacaq"[1] ifadəsinə görə qiyamət günü göründü.

## TƏNBEH OLARAQ (KEYFƏR) QIZILBAŞ LƏŞKƏRİNİN GÜRCÜLƏRİ QƏTL, QARƏT VƏ ƏSİR ETMƏLƏRİ

Ə'lahəzrət müzəffər əskərləri bir neçə dəstəyə bölüb, hər tərəfə adlı-sanlı bir əmiri sərkərdə tə'yin etdi və onların hər birini bir səmtə yolladı. Şirvan bəylərbəyi Yusif xana əmr olundu ki, o yerin əmirləri ilə birlikdə Gürcüstanın o biri tərəfindən gəlsinlər, Keyhanı tutan ordu isə basılmaz dəstələrlə başqa yandan hərəkətə başlayıb, gürcü ləşkərini dörd yandan şikar kimi əhatə eləsinlər, hansı dəstəyə çatsalar "Kişinin öz qardaşından belə qaçdığı gün"[2] onların islam əhli lə döyüşmüş hərbiçi kafirlərini qəza və cəhadın iti qılıncı ilə "bütün müşrikləri öldürün"[3] deyiminə əməl edərək öldürüb, nəfəs dərmələrinə belə imkan verməsinlər, qadınları və uşaqları əsir alıb ələ keçən var-dövləti müsəlmanların və qazilərin qəniməti etsinlər, həmin bidövlətləri nəfəs dərməyə belə qoymasınlar.

---

[1] İfadənin ərəbcəsi: "yəumə yəfiri-l-mər'u əxihi"

[2] Ərəbcə: "Yovmun yəfirru əl-mər'u min əxihi"

[3] Ərəbcə: "Uqtul-ul-muşrikkiə kəffətən"

Gürcülər özlərini hər yandan bəla tələsində görüb, balıq kimi iztirab torunda çabaladılar, dəstə-dəstə meşələrə qaçdılar, bircə yoldan savayı yolu olmayan möhkəm yerlərə gedərək, ətraflarına xandaq çəkib içərisini su ilə doldurdular, *türklərin* "*sığnaq*" *adlandırdıqları* o yerləri möhkəmləndirdilər. Əskərlər və rəiyyət öz ailə üzvləri və var-dövlətləri ilə sığnaqlara doluşub, cəng alətləri ilə özlərini qorumağa cəhd etdilər.

Sığnaqların əksəriyyəti Qanıq çayının o biri tərəfində idi və bahar fəsli yağıntı çox yağdığından, çay aşıb-daşırdı və onu keçmək gəmi və qayıqsız mümkün deyildi. Gürcülər
**s.898** bütün gəmi və qayıqları gizlətmişdilər. Buna görə də, qızılbaşlar yüklərini çayın bu tərəfində saxladılar. Hədr xan Zülqədər Möhrdarı həmçinin *ordubəyi** *və söhbət yasovulu* Kəlbəli bəy Şamlını hümayun dövlətxana mühafizəçisi tə'yin edib, savaşqan ləşkərlə özlərini Dəcləyə bənzər həmin çaya atıb, onu sağ-salamat keçdilər. Gəmi və qayıqların yoxluğu üzündən qəhrli əskərlər ağır zəhmətə düçar oldular, çoxlu qatır və dəvə su yolundan ədəm otlağına yollandı.

Xülasə, şüarları qələbə olan əskərlər qoşun-qoşun və dəstə-dəstə meşə və cəngəlliklərə girib, çatdıqları hər sığnağı dağıdır, hər gün qətl olunanların başlarını və sağ qalan gürcü əsirlərin özlərini hümayun şahın nəzərinə yetirirdilər.

Zülqədər yüzbaşısı Hüseyn bəy Şəmsəddinli qorçilər və adlı-sanlı döyüşçü dəstəsi ilə qorçibaşı tərəfindən meşəyə, nəsari gürcüləri axtarıb-tapmağa göndərilmişdi. Təxminən on min gürcünün, əskərin və hünərli adamın sığındığı sığnağa gəlib çatdılar. Qalaya bənzər o məkanın içərisi su ilə dolu bir xandağı və xandağın üstünə taxtadan qoyulmuş dar bir yolu vardı.

Hüseyn bəy Şəmsəddinli onunla gələn qorçilər, qulamlar və tüfəngçilərdən həmin nifaq əhli olan gürcülərin keyfiyyət və kəmiyyətlərini bilmədən və bu işin fəsadını düşünmədən, ehtiyatsızlıq edib, üç-dörd yüz nəfərlə atlarını çöldə qoyaraq o darısqal yolla çığnağa girdilər. Qəflət və ehtiyatsızlıq
**s.899** üzündən onların hər dəstəsi qənimət və əsir ələ gətirmək
**(634)** məqsədi ilə bir-birlərindən ayrıldı.

Bundan xəbər tutan gürcü döyüşçüləri silahlanıb irəli gəlməyə başladılar. Həmin kafərlərin bir hissəsi döyüşmək üçün Hüseyn bəyə yaxınlaşanda, o, aradan çıxmaq və kömək istəməkdə ləngidi. Dinsiz gürcülərin bir dəstəsi qazilərin arxalarından gəlib, qızılbaşların keçib-gəldikləri yolu dağıtdılar, onları əhatəyə alaraq döyüşə başladılar. Dağınıq halda olan qızılbaş qazilər və tüfəngçilər birləşə bilmədilər, ox və güllələr qalanadək vuruşdular, onlar da tükəndikdən sonra gürcülər tərəfindən məğlub edilərək qaçmağa başladılar. Yol dağıdıldığından, başqa nicat yolu olmadığından, çöldə qalanlardan heç bir kömək gəlmədiyindən və behiştin əzəl idarəsi onların aqibətini müəyyənləşdirdiyindən, əksəriyyəti şəhadət dərəcəsinə yüksəldi, fəqət yaralanmış bir neçə nəfər özlərini suya ataraq, aradan çıxa bildi.

Bu vaqiə şahın qəzəb atəşinin alovlanmasına səbəb oldu. O, əvvəlcə Hüseyn bəy Yüzbaşını çağırıb sorğu-suala tutdu, nəsihətamiz tərzlə dedi: "Sən sığnaq cənginə göndərilməmişdin. Sığnağa çatdığın vaxt gərək hərbiçi bir şəxs kimi onların az-çoxluğunu, giriş-çıxış yollarını və o sığnağın başqa xüsusiyyətlərini öyrənərək, səni bu xidmətə yollayan ağsaqqalına mə'lumat verəydin, sənə tapşırılan vəzifəni yerinə yetirəydin. Özbaşına halda, sığnağın keyfiyyət və kəmiyyətini öyrənmədən, oranın giriş-çıxış yolunu bilmədən niyə sərdarı olmayan adamları çığnağa apardın? Əgər onlar sənin icazən olmadan getsəydilər, gərək sən onların qayğısını çəkəydin, bir neçə yerdən sığnağa keçid düzəldəydin, döyüşçülərimizin müdafiəsi üçün adam ayırardın, özün isə qalan əskərlərlə birgə sığnağa daxil olub, qaziləri cəngin qayda-qanunu əsasında döyüşə rəğbətləndirəydin ki, sənə
**s.899** güvənib döyüşəydilər. Yox əgər, döyüşə məsləhət olmazdısa gərək sənin hazırladığın giriş yolu ilə sağ-salamat halda geri qayıdaydılar".

Yüzbaşı dilini açmaq istədisə də, hərbi işlərdə və ehtiyat tədbirlərində bu cür e'tirazın əhəmiyyəti olmadığından, siyasət şəhnəsi onu danışmağa qoymadı. Elə alçaqlıq və rüsvayçılığa görə, belə iş qoy heç kimin başına gəlməsin, möhkəm

cəzalandırıldı, belə halların bir də baş verməməsi üçün onun cəsədini bütün ordudakı əskərlər qabağında nümayiş etdirdilər. Onun cəzalandırılmasından sonra həzrət şaha yaxın adam olan Qərçiqay bəyi böyük bir dəstə müzəffər əskərlə həmin sığnağa göndərdilər. O, sığnağa gedərək o həzrətdən aldığı məsləhətə əməl etdi, sığnağın hər tərəfində ehtiyat tədbirləri gördü, münasib bildiyi bir neçə yerdə lağım üzərinə möhkəm ağaclar qoydu və qaziləri sığnağa yolladı.

Gürcülər bir neçə yerə çəpərdən sədd çəkib, həmin yerləri qalaya döndərdilər və cəngə başladılar. Qərçiqay bəy qazilərə çəpər cəngini qadağan etdi və ordudan top gətirildi. Topçular top güllələri ilə həmin çəpərləri bir-bir yıxdılar və qazilər özlərini müdafiəyə başladılar. Gürcülər o gün bərk cidd-cəhd etmələrinə baxmayaraq, günün sonunda aciz qalıb hərbdən əl çəkdilər, nəsə bir çarə axtarmağa başladılar. Qazilər də döyüşü saxlayaraq, bir yerə toplandılar. Minik və yük yabılarına malik olan dörd-beş yüz nəfər sığnaq adamı gecənin qaranlığında, bə'ziləri tək, bə'ziləri isə əhli-əyalı ilə birlikdə sığnağın arxa hissəsindən özlərinə yol açaraq, Dağıstan dağlarına tərəf qaçdılar. Yerdə qalan gürcülərsə, ertəsi gün özlərində müzəffər ləşkərin hücumuna qarşı qüvvət və taqət görməyərək, qaçmağa başladılarsa da, çölü, dağı, meşəni və cəngəlliyi dövrələyən qızılbaş ləşkərinə düçar oldular. Kişilərin hamısı qılıncdan keçirildi, qadın və uşaqlar əsir alındı, əskərlərin əlinə bol qənimət keçdi. Sığnaqlar olan hər yer Allahın köməyi və zavalsız şah iqbalının qüvvəti ilə islamın qüvvəli pəncəsi və müsəlmanların qol gücü sayəsində dağıdıldı, qaçqınların əksəriyyəti meşələrdə ələ keçirildi.

Xülasə, hümayun məiyyət Qanıq çayının o tərəfində daha iyirmi gün dayandı və qalibiyyətli mücahidlər dinsiz kafirlərin cəzalandırılmaları ilə məşğul oldu. Gürcüstanın şərqində yerləşən Zəkəmdən gələn Yusif xan və Şirvan əmirləri də həmin qaydaya əməl edirdilər. Onlar günlərin bir günü, çayın kənarında idilər ki, "Əhl* tayfası" adı ilə məşhur olan Zəkəm nəsariləri böyük dəstə yığaraq, cəng əzmi ilə Şirvan ləşkəri üzərinə at sürdülər. Şirvan ləşkərinin mübarizləri də dilavərlik

meydanına qədəm basdılar və arada bərk cəng baş verdi, Allahın qələbəsi islam əhlinə qismət oldu və o camaat (nəsari Zəkəmlilər – *Ş.F.*) məğlub edildi, onların çoxu cəhad qılıncına tuş gəldi. Sağ qalan azlıq isə yüz fəlakətlə hər tərəfə dağılışdı. Qazilər onların evlərini viran etdilər və Zəkəm şəhərində abadlıqdan əsər-əlamət qalmadı. Bütün Kaxet vila-
**s.900** yətində də belə edildi. Təhmurəsin üsyanı və ədəbsizliyindən
**(635)** sonra Kaxet xristianlarının başına gələn belə qətl, qarət, əsir götürülməsi, ölkə dağıdılması, evlərin viran edilməsi islamın zühurundan bu günədək hələ mə'lum deyil ki, islam diyarının şövkətli padşahlarından kiməsə müyəssər olmuş ola. Qətl olunanların sayı altmış-yetmiş mindən çox idi. Züleyxa camallı qızlar, Yusif görkəmli oğlanlar və başqa qadınların hamısı hümayun mübarək nəzər önündən keçirilirdi. Onların sayı yüz min nəfərdən çox oldu, amma bu sətirlər müəllifinin fikrincə, künc-bucaqdan tutulanların sayı otuz min nəfərdən çox idi ki, imkan olmadığından dəqiq hesablana bilmədi. Hal-hazırda bu hadisələrdən padşahın qəzəbi yatmışdır. Novruzdan üç ay ötmüş və Muş səhrasındakı Rum sərdarı ləşkər toplamaq və yaraq yığmaqla məşğul idi. Daha Gürcüstanda bundan artıq dayanmaq məsləhət görülmədi və ə'lahəzrət geri qayıtdı. Onlar Mərdanqub yoluyla Kartilə gələrək bir neçə gün Tiflisdə dayandılar, Boqrat xanın qalasındakı vəziyyəti nizamlamaqla məşğul oldular. Sonra oradan çıxaraq, Əxəstabad yolu ilə Meydancuq yaylağına, daha sonra isə Göyçə Dənizə təşrif apardılar. Rum ləşkərinin hərəkətə başlamasınadək üç ay adı çəkilən bu yaylaqlarda qalibiyyətli əskərlərin çadırları quruldu. Sərdarın gəliş-gedişinin şərhi və o vaxt baş verən hadisələrin yazılışı bəxtin köməyi ilə qələmə alınacaq [inşallah].

### SƏLMASDA QIZILBAŞ DÖYÜŞÇÜLƏRİNİN VAN BƏYLƏRBƏYİ TƏKƏLİ PAŞA VƏ KÜRD SƏNCƏQ [TAYFASI] ƏMİRLƏRİ İLƏ CƏNGİNİN BƏYANI VƏ PİRBUDAQ XANIN ÖLDÜRÜLMƏSİ

Bundan əvvəl yazılmışdı ki, [ə'lahəzrət] Pirbudaq xanı Təbriz sərhəd əmirləri ilə birlikdə Gürcüstan səfərindən ayırıb Təbrizə göndərmiş, Kirman hakimi Gəncəli xan da onun köməyinə tə'yin olunmuşdu. O sərhədin fitnəkar kürdləri, xüsusilə Şahqulu Məlilanın oğlu Qazi bəyin övladları hiyləgərliklə Qarnıyarıq qalasına soxulub, ayaqlarını ədəb dairəsindən kənara çıxarmış, Səlmas ölkəsinə əliuzunluq etmiş, sərhəddə həyəcan və vəlvələyə, Allah bəndələrinin dağınıqlıq və pərişanlığına səbəb olmuşdular.

Pirbudaq xan kürdlərin fitnəkarlıqlarını dəf' etməkdən ötrü Təbrizdən çıxaraq, o tərəfə yürüş etdi. Həmin yerlərin əmir və əskərlərindən Maqsud Sultan Kəngərli Ustaclı, Salman Sultan Subaşı Dünbüli, Azərbaycan vəziri cənab Fədəvinin qardaşı İbrahim bəy o vilayətin çəriki ilə, habelə Azərbaycan tüfəngçilərinin minbaşısı Məhəmməd Tağı bəy bir dəstə tüfəngçi ilə ona birləşdilər, onlar Qarnıyarığa tərəf hərəkət etdilər. Kürdlər Vana adam yollayıb, Təkəli paşa adı ilə tanınan Van bəylərbəyi Məhəmməd paşadan və kürd əmirlərindən kömək xahiş etdilər. Təkəli paşa rum döyüşçüləri ilə, habelə Xuşab hakimi Zeynal xan Mahmudi və başqa kürd sancaqbəyiləriylə birgə altı-yeddi min adamla qızılbaşlarla döyüşmək üçün Səlmasa gəldi.

**Rum ləşkərinin qızılbaşlarla cəngi və Pirbudaq xanın öldürülməsi:**

Pirbudaq xan və əmirlərin sayı az-çox beş min nəfərə qədər idi. Onlar müxalif qoşunun gəlişindən xəbər tutaraq, haçan Səlmasa gəlib çatacaqlarını təxmini müəyyənləşdirdilər. Mə'lumat toplamağa getmiş qarovullar və təcrübəli adamlar da qayıdıb rumilərin gəlib çatacaqları günün düzgün müəyyənləşdirildiyini təsdiq etdilər. Pirbudaq xan tə'cili olaraq Gəncəli xanın yanına adam yolladı ki, cəngin ehtimal

olunduğu gün gəlib ona birləşsin. Həqiqətən də əmirlərin
s.901 döyüşə hələ hazır olmadığı gün, yəni hesablanan vaxtdan da bir gün əvvəl Gəncəli xan Təsuca gəlib çatdı. O, Pirbudaq xandan bir mərhələ uzaqda idi ki, qarovullar gələrək müxalif ləşkərin göründüyünü bildirdilər. Əmirlər tez-tələsik atlandılar və Maqsud Sultan Kəngərli bir dəstə adamıyla çərxçi tə’yin olundu. Onlar öz səflərini və ləşkərin qəlb və cinahlarını düzəldənə qədər müxalif dəstə çərxçi [hissəsini] məğlubiyyətə uğradaraq, başqa qızılbaş hissəsinə gəlib çatdı. Maqsud Sultan və çərxçilər bir yanda qalıb, özlərini qola çatdıra bilmədilər, ləşkərin kənarındakı çərik* əskərləri də müxaliflərin hücumuna tab gətirməyib, arxalarını mə’rəkə meydanına çevirdilər, buna görə qəlb də məğlubiyyətə uğradılar. Qol, meymənə və meysərə igidləri bir yerə toplaşıb çaş-baş qaldılar, dağılışıb fərar yoluna düşdülər.

Bu vəziyyəti müşahidə edən Pirbudaq xan qeyrətinin çoxluğundan, ar edib fərar edə bilmədi, döyüş meydanında qaldı. Qoşunun məğlubiyyətindən sonra mülazimlərindən iki-üç nəfər onun atının cilovundan tutub, mə’rəkədən uzaqlaşdırmaq istədilər. Elə bu əsnada Zeynal xan Mahmudi bir dəstə kürdlə arxadan gələrək, xanı tanımadan yaraladı. Öz canından keçən qazilərin biri özünü onun yanına çatdırdısa da, kürdlər tərəfindən öldürüldü, Pirbudaq xan da həmin öldü-
s.902 rücü yaradan keçindi. Salman Sultan Subaşı və Məhəmməd
(636) Tağı bəy Minbaşı bir dəstə tüfəngçi və qazi ilə bir bağa gəlib çıxdılar və hasarın dəliklərini bağlayaraq özlərini qorumağa başladılar. Müxaliflər qələbə əldə etdilər, bağdan kənar yerlərdə ələ keçirdikləri mallara və silahlara sahibləndilər. Onlar ertəsi gün o hasara hücuma keçdilər. Hasarda olanlar tüfəng gülləri ilə onları geri qaytardı və bir neçəsini ölüm torpağına sərdi. İki-üç dəfə cəhd etdilərsə də, hər dəfə əzilib heç bir iş görə bilmədilər.

Bu əsnada müxaliflərin qulağına hümayun məiyyətin Gürcüstandan Azərbaycana tərəf yollanma xəbəri yetişdi, onların iqamət ayaqları sustaldı. Hasar cəngində bir fayda görməyərək qayıdış təbilini döyüb geri döndülər, hasarda

qalan qızılbaşlarsa həmin mə'rəkədən mərdliklə qurtulub Təbrizə gəldilər.

Gəncəli xan bu xəbəri Təsucda eşitdi, İbrahim bəy və ləşkərin məğlub əskərləri gəlib xana yetişdilər. O vaxtlarda onun Səlmasa gedərək hasarda qalanlara imdad əli uzatması imkandan uzaq bir məsələ olduğundan, xan geri qayıdıb şəhərə gəldi ki, ləşkər yığıb var gücü ilə düşmənlərin də'f olunmasına başlasın, lakin Pirbudaq xanın öldürülməsindən və müxaliflərin istilasından şəhər əhalisi bir-birinə elə dəymişdi ki, başı ayaqdan ayıra bilmirdilər. Onlar hər ləhzə müxalif ləşkərin gəlişini gözləyirdilər, amma [müxaliflərin əvəzinə] gəncəli xan gəldi, şəhər sakitləşdi.

Sonra, müxaliflərin geri qayıtmaları xəbəri eşidildi və təbrizlilər tam sakitləşdilər. Məsələnin necə baş verdiyini ə'lahəzrətə bildirdilər. Müzəffər ordu Əxəstabaddan yaylaqlara tərəf gələndə o, bunu bildi və dərhal dövlətxah adamları, xüsusiylə türkmən tayfasını nəvazişləndirdi. Ə'lahəzrət baş verən hadisələri hövsələ ilə dinlədi, Pirbudaq xanın oğlunu atasının əvəzinə Azərbaycan əmirülümərası və Təbriz hakimi vəzifəsinə tə'yin edərək, yüksək "xan" ləqəbi ilə şərəfləndirdi.

Həmin cəngdə mərdanəlik edən Salman Sultan Sübaşı də şahanə şəfqətə yetişdi və o da uca "xan" mərtəbəsinə layiq görüldü. Məhəmməd Tağı bəy Minbaşı da müxtəlif nəvazişlərə şərəfləndi.

Rum ləşkərinin hərəkət etmə xəbəri yayıldığında, ə'lahəzrət Əlişəkər bəylərbəyisi Həsənxanı nizamlı qoşunla Təbrizə
s.902 yolladı, söhbət yasovulu Kəlbəli bəy Şamlıya hökm olundu ki, həmin sərhədin əmirlərini yığıb o tərəflərdən xəbərdar olsun. Onlar da toplaşıb Səlmasa getdilər və orada dayandılar. Sərdarın Çuxur-Sə'd tərəfə gəlişi aydınlaşanda həmin əmirlər şəhərə dönüb, oradan da, hümayun fərmana görə Çuxur-Sə'də gəldilər və müzəffər orduya birləşdilər. İndi sərdarın gəlişi və məqsədə yetmədən dönüşünün şərhi qələmə alınacaqdır.

## BAŞ VƏZİR MƏHƏMMƏD PAŞANIN AZƏRBAYCANA TƏRƏF QOŞUN ÇƏKMƏYİ, İRƏVANI MÜHASİRƏ ETMƏYİ VƏ ALLAHIN MƏSLƏHƏTİ İLƏ MƏQSƏDƏ YETMƏDƏN GERİ DÖNMƏYİ

Söz meydanının qoşun bəzəyənləri qüsurdan xali olan söz səflərini belə bəlağətlə bəzəmiş, asimanı qət' edib gələn hədis və xəbər[lərə] bu cür ziynət vurmuşlar: Rum padşahı Sultan Əhməd xan sülh sazişinin bağlanmasından sonra dostluğun yaranması və elçi gediş-gəlişinin başlandığı bir vaxtda zahirən səbəbsiz yerə, açıq aşkar isə qəddarlıqla əhd-peymanı pozdu, yuxarıda yazıldığı kimi, Öküz paşa kimi tanınan baş vəzir Məhəmməd paşanı orduya sərdar tə'yin etdi və Məhəmməd paşa keçən il Diyarbəkr və oraya yaxın yerlərdə qışladı. Bu il isə fərmana əməl edən Rum məmləkətlərinin ləşkərləri, o cümlədən Urum eli, Anadolu, Müntəşa eli, Misir, Şam, Hələb, Trablis, Trabzon, Cəzirə və Ərzrum şəhərlərinin qoşunları, habelə kürd tayfalarının sancaqbəyiləri gələrək, sərdara birləşdilər, heç bir əsrdə və heç bir zaman bu böyüklükdə ordunun İranda görünmədiyi əskər izdihamı yarandı. Bütün vəzirlər, paşalar osmanlı sülaləsinin dövlət başçıları, hətta qanuna görə heç vaxt padşahın məiyyətindən aralanmayan yeniçəri ağası da orduya qoşuldu. Rumiyyə qoşunları çoxlu əskər, saysız-hesabsız ləşkər, kiçik və böyük toplar, arabalar, saysız-hesabsız zərbzənlər və badliclərlə Ərzrumdan Təbrizə tərəf hərəkət etdilər.

Müzəffər ordu Göycə Dəniz və o yerlərin yaylaqlarında olduğu zaman Rum ləşkərinin gəlişi xəbəri eşidildi.

Ə'lahəzrət zilləllah şah bu işıqlı "Hər şey Allahın əlin-
**s.903** dədir"[1] ayəyə əməl edərək, sərkərdəlik qayda-qanunu üzrə,
**(637)** İrəvan qalasının möhkəmləndirilməsinə və qaladarlıq işlərinin əncamına başladı. Əzəmətli qacar qorçiləri, şah ordusunun igid İsfahan və Xorasan tüfəngçiləri və başqa döyüşçülər müxtəlif sərdarların sərkərdəliyi ilə yığışdılar. Təcrübəli adam olan, döyüşlər görən, qalalar alan İsfəhan tüfəngçilərinin minbaşısı Mirfəttah, Əhməd Sultan Məçəkiye-Xorasani,

---

[1] Ərəbcəsi: "Kullun ələ-l-lahi"

Molla-Zadeye-Bafqi və onlara tay başqa adamlar Əmirgunə xanın köməyinə gedərək, qalanın mühafizəsi ilə məşğul oldular. Qoyunlu (?) camaatından xeyli şücaətli qızılbaş, yəni həvəsləri üzündən hərbi mərdanəlik göstərməyə hazır olan şəxslər şahanə və'dlər müqabilində qalaya rəvan oldular.

Xülasə, İrəvan qalası Allahın mühafizəsi sayəsində işbilən adamlarla, təcrübəli hərbiçilərlə və qala silahları ilə möhkəm-
s.903 ləndirildi.

**Rumilərin İrəvan qalasını mühasirə etmələri:**

Sərdar şəban ayının on üçündə (26 avqust, 1616) İrəvan qalasına gəlib çatdı. Yeniçəri ağasının və qalatutan yeniçərilərin, [həmçinin] bu sərhəddə həmişə boş söhbətlərlə məşğul olan Axəsqə hakimi Türkcə Bilməzin təhriki ilə o qalanın mühasirəsinə başladı və yüz mindən çox qalatutan adam həmin möhkəm qalanı mühasirəyə (dairə) aldı. Ə'lahəzrət zillələh şah "sultanı cəngini"[1] məsləhət görməyərək, ağır rumiyyə ordusunu dağıtmaqdan ötrü zəruri tədbirlər düşündü. O, qalibiyyətli əskərləri bir neçə dəstəyə bölüb, hər dəstəni təcrübəli və e'tibarlı adamların sərkərdəliyi ilə rumi ordusuna tərəf yolladı ki, zamanın tələbi ilə hər yandan hücumlar edərək fürsət imkan verdikcə döyüşsünlər.

Xan rütbəsinə və İran sipəhsaları vəzifəsinə layiq görülən və özünə yaxın adam olan Qərçiqay bəyi [ə'lahəzrət] qorçilər, qulamlar və şah rikabının mülazimləri ilə ordudan yola saldı, Fars bəylərbəyi İmamqulu xanı rumiyyə ordusunun şərq tərəfinə göndərdi. Söhbət yasovulu Kəlbəli bəy Şamlı ilə birlikdə Təbrizdə olan Həsənxan, Gəncəli xan və sair əmirlər hümayun fərmana itaət edərək gəlib çıxdılar və İmamqulu xana birləşdilər. Dəli Məhəmməd Şəmsəddinlini qoşun və ləşkərlə Ərzrumdan gələn rumiyyə ordusunun qərb tərəfinə yolladılar ki, arxadan ehtiyat sürsat çatdırılması üçün gediş-gəliş yolu qapanmasın.

Qərçiqay bəy bir dəstə təcrübəli adamı orduya qoşulmaq üçün Xələf bəy Süfrəçinin sərkərdəliyi ilə dağ ətəyində

---

[1] Şahın özünün müstəqim şəkildə iştirak etdiyi cəng "cəngesoltani" ("sultani cəngi") adlanırdı – *Ş.F.*

yerləşən və qalanın şimal səmtinin bir fərsəxliyində olan Kənəgir adlı yerə göndərdi ki, oranı zəbt edib nəzarət altına alsın, qaladan orduya, ordudan qalaya gedib-gələn hər kəsi fürsət olduqca, Allahın köməyi ilə, sağ-salamat öz məqsədinə çatdırsın. Qərçiqay bəyin özü isə qəhrli döyüşçülərlə birlikdə münasib bir yerdə dayanıb, görüntü yaradır, təcrübəli və hüşyar qarovulları ətrafa yollayaraq, düşmənin vəziyyətindən xəbər tuturdu. İqbal qoşununun İmanqulu xan və başqa mübariz sərdarları hər gün, bəlkə də hər ləhzə öz yerlərini dəyişib bir-birlərindən xəbərdar olurdular. Onlar heç vaxt boş hücumlar etmir, rumiyyəni bir ləhzə belə rahat qoymurdular. Buna görə də, Rum qoşununun qırx-əlli min döyüşçüsü hər gün at üsündə oturub cəng gözləyir, qızılbaş dəstələrinin hücumu qorxusundan qalanı tutmağa cəhd edə bilmirdi. Qalibiyyətli əskərlər isə fürsət tapdıqca, aşağıda şərh olunacağı kimi, müxtəlif hücumlar edirdilər.

Göycə yaylağının havası soyuduğundan, əzəmətli ordu oradan çıxıb Göycə yaxınlığındakı havası xoş olan Əlakis dərəsində çadır qurdular. Amma, rum ləşkərinin əmir və paşaları, xüsusiylə yeniçəri ağası qalanı fəth etmək kəmərini belinə bağlayaraq boş cəhdlər edirdi. O, bir neçə yerə seybə və mürcəllər gətirib, daşatan və qaladöyən toplar yerləşdirdi. Rumi və firəngi (avropalı-*Ş.F.*) topçular gecə-gürdüz top atırdılar. Əmirgunə xan, qala döyüşçülərinin sərdarları və başqa mühasirədə saxlanan adamlar üzlərinə maneçilik qalxanı tutaraq qalanı böyük cidd-cəhdlə qoruyurdular. Ə'lahəzrət zilləllah şah isə hər gün şücaətli və peşəkar adamlarını göndərib qaladan hal-əhval tuturdu, qaladakılar da o həzrətin bu zahiri və batinit qayğıkeşliyindən ürəklənib, ona ümüdvar
**s.904** olur və qala tutmaqda bütün dünyada məşhur olan o qalın rumiyyə qoşunundan müdafiə olunurdular. Bu qüvvətli dövlətin gücü sayəsində ruzigar qaladarlarına xas olan qorxu hissi qızılbaşları get-gedə tərk edir, onlar asudəliklə düşmənləri dəf' etməyə başlayırdılar.

Rumilər bir gün böyük bir dəstə ilə iki üç qala bürcünün
**s.905** top daşları, güllələri və badliclə dağıdıldığı darvazası istiqa-
**(638)** mətindən qalaya doğru hücuma keçdilər. Qarışqanı lap göz-

dən vuran və atdıqları murad oxları hədəfdən yayınmayan topçu və tüfəngçilər öz zərbzən və tüfəng güllələrini dolu kimi yağdırmağa başladılar. Qaladan xaricdəkilərin yürüşlə qala ətəyinə gəlib çatmalarına baxmayaraq, onların ümid əlləri məqsət torpaqlarına çata bilmədi və rumiyyənin böyük bir dəstəsi qalanın şücaətli döyüşçülərinin ox və tüfəng zərbələri nəticəsində ölüm torpağına sərildi, rumilər bir iş görə bilmədən kor-peşman geri qayıtdılar. Ə'lahəzrət zillələllah şah ehtiyat üzündən hümayun ordu tüfəngçilərindən min nəfərini ayıraraq, onları Süfrəçibaşı və onun adamlarının düşmən hücumundan aralı olan Gənəgir tərəflərinə göndərdi ki, fürsət pusqusunda dayanıb, macal tapan kimi, özlərini qalaya ata bilsinlər. O şir ürəkli adamlar məqsədə doğru götürülüb, Əmirgunə xanın yanına bir adam yollayaraq, ona öz məqsədləri barədə xəbər verdilər. Onlar həmin alatoranlıq sülh vaxtı Gənəgirin şimal qapısını açdılar və tüfəngçilər özlərini qalaya ildırım kimi çatdırdılar, şadlıq nağarası çaldılar. Həqiqətən də, əgər insaf gözü ilə baxılsa, min nəfər yaraqlı adamın bir neçə min qaniçən düşmən arasından keçib sağ-salamat halda qalaya daxil olması hünərli bir işdir.

Xülasə, qala xaricindəkilər bu igidlikdən xəbər tutdular və daha çox top atmağa və seybələri irəli çəkməyə başladılar. Müzəffər əskərlərin bəxtindən belə bir hadisə baş verdi: Bir gün yeniçəri ağası Türkçə Bilməz və qala tutmaqda başqalarından üstün olan bir neçə paşa topxanaya gəlib top atmağa başladılar. İlahi qəzavü qədər sayəsində rumilərin topxanasına qaladan bir top atdılar. O top yeniçəri ağasına dəyərək, əvvəlcə ondan, sonra Türkcə Bilməzdən və başqa adamlardan keçdi və bir neçə mö'təbər rumi həlak oldu. Torpaq daşıyan dəstə isə xandağı torpaqla doldurdu.

Amma qacar qaziləri və qalanı qoruyan başqa dilavərlər hirsli şirlər kimi qaladan çıxıb hücumlar edir, torpaq arxasında gizlənən və seybələrdə olan rumilərin bə'zisinin başını kəsir, bə'zilərini diri ələ keçirir, sağ qalanları yerlərindən pərakəndə salır, çoxlu tüfəng və başqa yaraqlar ələ keçirərək, qaladan üzüağ qayıdırdılar. Müxalif qüvvələr arasındakı cəng hər gün davam edir, mühasirə olunanların igidliyi, qala

xaricindəkilərinsə ümidsizliyi artırdı. İqbal qoşunu mübarizlərinin dil tutmağa gedərək tutub-gətirdikləri bir neçə rumini şahın yanına gətirdilər, onların hamısı bildirdilər ki, rumilər filan gün "cənge-sultani" etməyə qərar vermişlər və onlar bir neçə bürcün yarıqlarından keçərək, qalaya girəcəklər. Ə'lahəzrət dərhal təcrübəli və igid qazilərin bir neçəsini qalaya göndərib qala əhlini məsələdən xəbərdar etdi və onlara bildirdi ki, həmin gün qafil olmasınlar və mərdanə döyüşsünlər. Əzəmətli əmirlər də söylədilər ki, həmin gün dayandıqları yerdən hərəkət edərək gəbrəgə və nağara səslərini hər tərəfə yaysınlar.

Xülasə, qərara alınan o gün rumilər qarışqa və çəyirtkələr kimi qala ətəyinə gəlib, top atmaqla hücuma başladılar. Qaladakılar da Allah-təalaya təvəkkül edib, ox-tüfəngə əl uzatdı-
**s.906** lar. Sübhdən günorta vaxtınadək hər iki tərəf döyüşdü. Mübarizlərin zərbələrindən öldürülmüş düşmən cəsədlərini təpə kimi üst-üstə yığdılar. Rumilərin arzu çöhrələri murad aynasında cilvələnə bilmədi və məqsədə yetmədən geri qayıtdılar. Düşündülər ki, qaladakılar artıq bu müharibədən yorulub əldən düşdülər və indi istirahət edirlər, elə buna görə də, onların üzərinə bəlkə bu dəfə məqsədlərinə yetə bilmək üçün yeni, amma uğurlu hücum etmək lazımdır.

**Beyt[lər]**

*Günün nahar vaxtı yetişdiyi an,*
*Hamı vuruşmaqdan yorulan zaman,*
*Hələ də həmlələr davam edirdi,*
*Sə'yi əskərlərin səngiməyirdi.*
*İgidlər mərdanə gərərək sinə*
*Bir daha cumdular rumi üstünə.*[1]

---

[1] Beytlərin farscası:
Vəqte-pişin-o ostvaye-nəhar
Ke be can fetne xasti zenhar.
Dideye-hadesat nəğnude,
Paye-sə'ye qəza nəfərsude,
Rumiyan ba senane-atəşbar
Həmleavər şodənd digər bar.

Çoxlu hərəkətdən xeyli yorulmuş qazilər hələ öz məskənlərinə qayıtmamışdılar ki, hay-küy qopdu və rumilər hər yandan böyük hücuma keçdilər. Qazi və tüfənçilər dərhal bürc və barıların üstünə çıxıb, müdafiə alətlərinə əl atdılar. Onlar Rum ölkəsindən hücuma gələn igidləri ölüm ahəngli tüfərng gülləlləri ilə dəf' edib, bu dəfə də xeyli adam öldürdülər. Rumilər heç nəyə nail olmayıb geri döndülər.

Xülasə, qaladakılar gün-gündən cəsarətlənir, qala xaricindəkilər süstləşir, qalanın alınmasının ləngiməsindən mə'yus olurdular. Həqiqətən də, mühasirə müddətində qalanı qoruyanlar, xüsusiylə qacar qaziləri mərdanəliklə qorunur, yaxşı döyüşür, təəccüb doğuran elə igidlik göstərirdilər ki, dostun da, düşmənin də alqışına səbəb olurdular. Rumilərin bərk cidd-cəhdlərinə baxmayaraq onların səylərinin heç bir təsiri olmadı.

**s.906** Mühasirə müddəti uzandı. Ləşkərin azuqəsi tükəndi.
**(639)** Şaxta qoşunu hücuma keçdi. Rumilər arasında xəstəlik artdı. Belə ki, xəstəlikdən hər gün bir dəstə adam dünyasını dəyişirdi. Sərdar qalanı fəth etməməkdən çox mə'yus oldu. O, Xəlil ağanın başçılığı ilə tez-tez şaha elçi göndərib, sülh danışıqları aparmağa başladı. Xəcalətindən qurtulmaq üçün üzrxahlıq eləyib, xahiş etdi ki, bu tərəfin bir ağıllı və hüşyar adamı gedib, keçmiş sülh şərtləri barədə danışıq aparsın ki, dövlətin məsləhəti nə olarsa, ona da əməl etsinlər. Buna görə də, əvvəlcə Sarı bəy Begdeli, sonra isə Çıraq Sultan Kərampa Ustaclı elçi sifətiylə [sərdarın yanına] göndərildi. Bu elçi get-gəli və başqa hadisələr barədə aşağıda yazılacaqdır. Müzəffər ordunun apardığı qala [savaşları] və qaladarlıq barədə [çox] yazıldığı üçün, hazırda belə münasib görüldü ki, qələm[imiz] bu iki ləşkərin qala xaricində etdikləri qəzalar haqqında yığcam mə'lumat yazsın, baş verən vaqiəlrin ardını
**s.906** [tətəmmə] əks etdirsin, inşallah.

## MÜHASİRƏ ZAMANI QIZILBAŞ QAZİLƏRİ İLƏ RUMİLƏRİN QALA XARİCİNDƏKİ DÖYÜŞLƏRİNİN ZİKRİ

Yuxarıda yazıldı ki, saysız-hesabsız rum əskərləri İrəvana çatıb, qalanın mühasirəsinə başlayanda, ə'lahəzrət zillɘllah şah onları bir-birindən ayıraraq məhv etməkdən ötrü qələbə şüarlı döyüşçüləri bir neçə hissəyə böldü, hər hissəyə isə bir əzəmətli əmiri sərkərdə tə'yin edərək onların hərəsini bir səmtə yolladı. Məqsəd bu idi ki, vaxtın və zamanın fürsəti imkan verdikcə, pusquda dayanaraq, rumilərə lazımi hücumlar eləsinlər və onların başlarını qarışdırsınlar ki, osmanlı qoşunu bütünlüklə bir yerə yığılıb qalaya hücuma keçə bilməsin. Səadətli mübarizlər isə düşmənin qanına susayıb, onların dörd bir tərəfini əhatəyə aldılar və hər gün bir tərəfdə igidlik bayrağı qaldırıb dilavərlik etməyə başladılar. Onlar hər səmtdən hücuma keçməklə, şaha hər gün kəsik başlar, diri götürülən əsirlər və əxtərmələr yollayırdılar. Biz əgər baş verən hadisələrin hamısını təfsilata qələmə alsaq, mətləb xeyli uzanar, buna görə də bir neçə qəziyyəni yazmaqla kifayətləndik.

Baş verən hadisələrdən birincisi budur: Müxalif orduda ehtiyat yemək və sürsat yoxa çıxdığı üçün, sancaq və alay bəylərindən ibarət bir dəstə rumi atoğlanilərə (?) sərkərdə tə'yin edildilər və iki min baş at, qatır və ulağla Naxçıvan yolu səmtində yerləşən Keryi (?) nahiyyəsinə yollandılar.

Bundan xəbər tutan İmamqulu xan süvari əskərlərlə birlikdə onların üzərinə getdi. Rumilər oraya çatıb evlərdə yerləşmiş və qulluqçularını ehtiyat azuqə ardınca göndərmişdilər ki, qazilər qəfil bəla kimi vaxtlı-vaxtında onlara çatıb cəngə başladılar, iqbalın gücü ilə rumilərin böyük bir dəstəsini məğlub etdilər, min beş yüzə qədər adamı öldürdülər, əsir tutdular, iki-üç min baş at, qatır, ulaq və çoxlu əxtərmə ələ keçirdilər. Rumilərin sağ qalan hissəsi isə fərar edib, özlərini yüz təşvişlə ordularına çatdıra bildilər.

Başqa bir hadisə isə belə baş verdi: İmamqulu xan Təbrizdən çıxıb ona qoşulan Kəlbəli bəy Şamlının əmirləri,

həmçinin Həsənxan və Gəncəli xanla birlikdə Körpüçay adlı bir çay kənarında dayanmışdılar. Qırx min nəfərdən və əllərində bayraq tutan altmış-yetmiş alaydan ibarət rum qoşunu bu əmirlərlə döyüşməkdən ötrü hərəkətə başladı. Qərçiqay bəyin casusları və qarovulları rumiyyə əskərlərinin hücuma keçmə xəbərini İmamqulu xana və əmirlərə bildirdilər. Xan dərhal rumilərin hücumu barədə əzəmətli əmirlərə xəbər göndərdi. Əmirlər ehtiyatlanıb, öz ordularını dayandıqları yerdən çıxarıb bir qədər yuxarı yolladılar. Ləşkər döyüşə hazır vəziyyətdə gəlib dayandı. Rum qoşununun qaraltısı görünən vaxt qızılbaş qoşunlarının çərxçiləri, o cümlədən Kirman hakimi Gəncəli xan, İmamqulu xanın vəkili Bəyverdi bəy və başqa igidlər öz qorxmazlıq ayaqlarını mübarizə meydanına basdılar. Elə birinci həmlədə onlar rumilərin iyirmi-otuz çərxçisini öldürdülər və bir neçəsini əsir tutdular. Bu əsnada rumiyyə qolunun əskərləri toplum halda döyüş meydanına at çapdılar. Təcrübəli və çoxlu cənglərdən çıxan Gəncəli xan onlarla vuruşmaqdan fayda görməyərək, geri döndü və qola birləşdi. Xan dağ ətəyində cəng etmək üçün münasib bir yer tapıb orada qoşun bəzədi.
**s.907** Bəyverdi bəy isə öz qüruru və özbaşınalığı üzündən döyüşə girdi, lakin rumilərə müqavimət göstərə bilməyərək geri qayıtdı, məchul adamların qırx-əlli nəfərədək tüfəngçisi həmin döyüşdə öldürüldü, sağ qalanlar isə qayıdıb qola birləşdilər. Əskərlərinin çoxluğuna baxmayaraq, rumilər, irəli getməkdə sərfə görməyib elə bununla da kifayətləndilər, geri döndülər.

Başqa bir hadisə isə belə baş verdi: Xələf bəy Süfrəçibaşı
**s.908** və yoldaşları qızılbaş döyüşçülərindən ibarət dəstə ilə qala-
**(640)** nın bir fərsəxliyindəki Kənəgir adlı yerdə dayanaraq, qarovul və gözətçilər tə'yin etdi, qalanın giriş-çıxış yollarını öz nəzarəti altına aldı. Rum paşa və əmirlərindən Dilavər paşa bir dəstə rumiyyə döyüşçüsü ilə birlikdə həmin səmtdə dayanmışdı. O, qızılbaşların qalaya get-gəllərindən xəbərdar oldu və ara-sıra onunla və qızılbaş mübarizləri ilə vuruşma vaqe' olmağa başladı. Rumilər bir gün qorxmazlıq göstərib bir

qədər irəli gəldilər. Qızılbaş dəstələrinin döyüşçüləri isə cəldliklə atlarını çapıb onların arasına girdilər və cəngə başladılar. Böyük Lur əmirlərindən olan Cahangir xan Bəxtiyari özünün mənsub olduğu əlvar camaatı ilə bu səfər zamanı müqəddəs qoşunda Xələf bəyin yanında qərar tutmuşdu. O, öz azsaylı adamıyla rumiyyə döyüşçülərinə həmlə etdi, amma az qalmışdı ki, ələ keçsin. Lakin, qələbəsinin adına uyğun olaraq Cahangir bəy Bəxtiyariyə bəxti yar oldu, özünün mərdanəliyi, eləcə də qalibiyyətli qoşundakı cavan döyüşçülərin köməyi sayəsində düşmənlərin niyyətini puça çıxardı, sağ-salamat aradan çıxdı. Çoxlu mərdanəlik göstərən məğlubedilməz qızılbaş əskərləri qələbə əldə etdikdən sonra döyüşdən əl çəkərək, öz yerlərinə qayıtdılar. Rumilərə qoşun-qoşun kömək göndərilməsinə baxmayaraq, müxaliflər irəli gəlməyə cür’ət etmədilər və onlar da öz yerlərinə döndülər.

Başqa bir əhvalat isə belə baş vermişdir: Bir dəstə rumi və kürd tayfasının adamları Van və Kürdüstan tərəfdən İrəvana gəlməkdəydilər. Həmin yoldan xəbər-ətər tutması tapşırılmış Naxçıvan hakimi Maqsud Sultan Kəngərli həmin dəstə ilə qarşılaşdı. Döyüşdən sonra rumilərin əksəriyyəti iti qılınca yem oldu və müzəffər əskərlərin əlinə çoxlu var-dövlət keçdi. Həmin yolla ehtiyat azuqə gətirən sərkar Hafiz paşanın dəvələri də ələ keçirildi və qənimətlərin sayı çoxaldı.

Başqa bir hadisə isə belə baş vermişdir: Dilavər paşanın rumi döyüşçüləri, habelə Van və Diyarbəkr əskərləri öz ağrəqlərini bir dəstə rumi və kürdlə qala ayağından Van istiqamətinə göndərirdilər. Söhbət yasovulu Teymur bəy Evoğlu bir dəstə döyüşkən dilavərlə onların üstünə gedib, döyüşdən sonra zəfər qazandı və çoxlu qənimət ələ keçirdi.

Digər hadisə belə olmuşdu: Kəşfiyyatçılığa və Fars-Ərzrum yolunu zəbt etməyə təyin edilən Dəli Məhəmməd Şəmsəddinli həmin yolda dəfələrlə rumiyyə əskərləri ilə qarşılaşmış və cənglər etmişdi. Sərdara xandgardan hökm gətirən Rumdan gələn çavuşların və sərdar tərəfindən Ruma gedib-qayıdan bir dəstə adamın özləri ilə gətirdikləri ərizələr və məktublar ələ keçirildi və onları aparıb şaha təqdim etdilər.

## SƏRDARIN VƏ RUM ƏSKƏRLƏRİNİN GERİ QAYITMALARININ ŞƏRHİ VƏ SÜLH DANIŞIQLARININ BAŞLANMASI

Sərdar qalanı əldə saxlaya bilmədiyi üçün mə'yus olaraq sülh danışığı məsələsini ortaya gətirdi. O, sabiq sülh şərtlərini təzələmək məqsədi ilə Çıraq Sultana demişdi ki, Nəsuh paşa
**s.908** və Qazi xan Sədr arasında razılaşdırılmış bə'zi sülh şərtlərinə qızılbaşlar tərəfindən əməl olunmamışdır. Ə'lahəzrət cavabında buyurdu: "Bizim tərəfimizdən əhd-peymana müxalif olan heç bir iş baş verməmiş və sülh şərtlərinə əməl olunmuşdur. Rumilər isə sazişi pozaraq, tamamilə sönmüş olan fitnə atəşini [yenidən] alovlandırdılar. Bu yürüş zamanı insanların qanının axıdılmasından başqa, dünya və axirət padşahlarından bu dövlətə hansı mənfəət yetişdi? Bir halda ki, siz hal-hazırda səhvinizin islah olunması məqamına gəlmisiniz, bizim fəqət bircə sözümüz vardır. Əgər sülh barədə sizin başqa sözünüz vardırsa buyurun deyin. Nəsuh paşa həyatda yoxdursa da, Qazi xan hələ sağdır. Sizinlə birgə olan paşalarınızdan Dilavər paşa, Baqi paşa və Hafiz Əhməd paşanın bu işlərdən xəbərləri vardır. Tərəflərin etimad sahibləri olan adamları tərəfindən müəyyənləşdirilmiş və möhürlənmiş Azərbaycan sərhədlərinə aid sənəd mövcuddur. Əgər məsləhət bilsələr, biz Qazi xanı həmin paşalarla danışıq aparmaq üçün göndərərik."

**Rum sərdarı və ləşkərinin İrəvan qalasından İstanbula qayıtması:**

Ə'lahəzrətin təklifinə görə belə razılaşdırıldı ki, Qazi xan rumilərin ordusuna getsin və təzədən tərəflər arasında sülh sazişi imzalansın. Şəvval ayının iyirmi beşində (5 noyabr, 1616) hələ Qazi xan gedib onlara çatmamışdı ki, sərdar qalaya, Əmirgunə xanın yanına adam yollayaraq, ona bunu bildirdi: "Bizim və həzrət şahın arasında sülh yaranmışdır və biz artıq qayıdış təbilini döyüb Ərzruma tərəf döndük".

Qazi xan gedib yolda onlara çatdı. Sərdar və paşalar ona izzət və ehtiram göstərdilər və qızılbaş hücumunun qorxusundan Ərzrumadək onlarla birlikdə getməsini xahiş etdilər.

Ərzrumda sülh və onun şərhlərinin sabiqdə olduğu kimi saxlanması barədə danışıq keçirildi, Qazi xanı mürəxxəs etdilər, sərdarın özü isə öz adamları və ə'yanlarla birlikdə İstanbula rəvan oldu.

Bu gediş-gəliş nəticəsində rumiyyə döyüşçülərindən qırx min nəfər-istər qala ayağında, istər qala xaricindəki cənglərdə,
**s.909** istərsə də şaxta və xəstəlikdən axirətə getdi. Aclıqdan ölən at,
**(641)** qatır və dəvənin sayı isə həddən ziyadə çox idi. Qazi xan və yoldaşları danışırdılar ki, heç bir yerdə bir gün belə dayanıb dincələ bilmədilər, hər məqamda ölən xəstələrdən yaranmış qəbristanlıq gözə dəyirdi. Minik heyvanlarının (barbərdar) olmaması üzündən rumilər öz xeymə və xərgahlarını atıb gedirdilər. Sanki, bütün ordu deyil, onun yarısı, bəlkə də çox hissəsi piyada getməkdəydi.

Qala mühasirəsinin başlanğıcında və savaşların isti vaxtında zəvalnun şeyxləri nəslindən olan və hümayun sərkarın qələm əhli ə'yanlarından sayılan Xacə Əli Əkbər İsfahani yuxuda gördü ki,o, bir şəxsdən xəbər alır: "Böyük bir fitnə baş vermiş və iki ləşkər biri-digərinin qanına susamışdır. Görəsən qələbə hansı tərəfə məxsus olacaqdır?". O şəxs belə cavab verir: "Əli oğlunun (İmam Hüseynin – *Ş.F.*) fəthi elə döyüş günü özünü göstərdi". Bu sətirlərin müəllifi belə fikirləşdi: "Röya aləmində söylənilən bu cümlə, əgər nəzmlə yazılarsa, fəth tarixini ifadə edə bilərmi?" Nadir hadisələrin biridir ki, həmin sualın cavab cümləsi madde[yi-]tarixlə düz gəldi. Qafiyəsinin azlığına baxmayaraq [tərəfimizdən] belə
**s.909** bir nəzm yazıldı:

**[Maddeyi-] tarix**

*Bir gün Rum elindən savaş üçün qalxdı,*
*Sərkərdəsi məkrin şığıyıb gəldi bəri.*
*Sərkərdəni dəf' etmək üçün şahe-cahan*[1]

---

[1] Maddeyi-tarixin farscası:
Aməd ze diyare-Rum əz bəhre-setiz
Sərkərdeye əhzab ze məkr-o dəğəli
Arast ze bəhre-dəf'e-u şahe-cəhan

*Həqq ləşkrini çəkdi həmin dəm irəli ...*
*Bir bəndəsi şahın o zaman istədi ki,*
*Görsün bu savaşda o qəzaye-əzəli,*[1]
“*Qismət olacaqdır görəsən fəth kimə?*
*Gizlindi bu sirr…kim açacaqdır?*” *deyəli*
*Qeyb aləmi verdi suala böylə cavab:*
“*Fəth əz pesəre Əliyye-aliye-vəli*”*...*[2]

Xülasə, İlahi iltifatın bərəkətindən (məyamen), müqəddəs məkanların (bəvatine-qodsi) və həzrət rəsulun – ona və nəslinə salamlar olsun, – daxili aləminin (məvaten), imdadı, həmçinin mə’sum imam həzrətlərinin – onların hamısına Allahın salavatı olsun, – köməyi sayəsində zəfər və qələbə bu xanədan adamlarına nəsib oldu, qalada olan bir neçə min əhli-beyt şiələrindən olan kişi və qadın xeylağı düşmənlərdən xilas edildi, müqəddəs səfəvi dudmanı tərəfdarlarının sevincinə səbəb oldu.

Həmin xoş gün, həqiqətən də, onların bayramına çevrildi. Əhle-qələm və iste’dad əhli olan Xacə Məhəmməd Yusif Qəzvini bu [maddeyi-] tarixi dedi:

*Elə ki, sərdarı Rum ləşkərinin*
*İrəvan mülkünə rəvan oldu,*
*Qalanı dövrəyə aldı neçə ay,*
*Elə zənn etdi kamiran oldu.*
*Əlinin şiələri etdi hücum ,*
*Yarısı ruminin nihan oldu.*
*Belinə bağladı məkrin kəmərin*
*Və o sərdar oradan yan oldu…*

---

Fovci ze conude-Həqq besəd zib-o həli…
Mixast yeki ze bəndegane-dərgah
Dər vagee binəd əz qəzaye-əzəli.
Ta z-in do goruh fəth əz canebe-kişt?
K-in raze-xəfi şəvəd be u nik cəli.
Beşid ze hatefi ke migoft ze qeyb:
“Fəth əz pesəre-Əliyye-aliye-vəli”…

[1] Burada: Şah Abbas

[2] “Qəzaye-əzəli” ifadəsi Kərbəla vaqiəsinə işarə deyilmi? – *Ş.F.*

*Qələbə din şahına oldu nəsib,*
*Ruminin ləşkəri pünhan oldu.*
*Söylədi tarixini əql belə:*
"*Şiəyə bayram həmin an oldu*".[1]

Rum ləşkərinin qayıtmasından sonra ə'lahəzrət qalibiyyətli əmirlər və əskərlər tərəfindən min on beşinci at ilində (1606/1607) inşa edilən yeni İərvan qalasını görmədiyi üçün ağrəq ordusunu Bərgüşad səmtinə yolladı və özü bir dəstə yaxın adamı ilə qalaya gedərək, onun yaxşı-pis cəhətlərini öz ehtiyat gözü ilə müşahidə etdi. O, Əmirgunə xanı və qala sərdarlarını şahanə nəvazişlərlə sərəfraz elədi və xan göstərdiyi mərdanəliklərə görə "Sarı Aslan" ləqəbi ilə şərəfləndi.

Xalq arasında belə bir mə'lumat yayılmışdı ki, qala qorumağı (qələ'dari) avropalılardan (firəngiyan) öyrənən rumilər qala tutmağda da onları ötüb keçmişlər. Belə ki, onlar bir neçə mətin qalanı, o cümlədən uca Qəstəntəniyyə qalasını avropalılardan qəhr və qələbə ilə ala bilmişlər, bu iki işdə, yəni qala qorumaq və qala tikmək işində hamıdan üstün (tofuq) olmuşlar.

Zilləllah şahın əbədi əsaslı hakimiyyəti dövründə qızılbaş dəstələrinin mübarizləri qala tutmaqda rumilərdən daha da üstün olmuş və bir neçə məşhur qalanı, o cümlədən mö'təbər Ətiq qalasını, yeni İrəvan qalasını, Gəncə, Şamaxı, Dərbənd,

---

[1] "Maddeyi-tarix"-in farscası:
Çon ke sərdare-ləşkəre-rumi
Varede-molke-İrəvan gərdid,
Do-se mahi be dovre-qəl'e neşəst,
Mohreha bər bosate-ərbəde çid.
Did k-əz tige-şiəyane-Əli
Nimeye-ləşkərəş be qətl rəşid,
Kəməre-məkr bər miyan bər bəst,
Çareyi coz fərare-xiş nədid…
Dovləte-şahe-din mosaed şod,
Ləşkəre-Rum monhəzem gərdid.
Peye-tarixe-an, xerəd gofta:
"Aməd emruz şiəyan-ra id"

Tiflis və başqa qalaları ələ keçirmişlər. O qalaların hər biri təcrübəli adamlar tərəfindən qorunurdu, ehtiyat azuqə və qaladarlıq silahları ilə dolu idi. Yə'ni, bu səhifədə şərh olunduğu kimi, [qızılbaşlar] on ay yarım, ya da bundan bir qədər çox müddət ərzində [qızılbaşlar] sayı yüz min nəfərdən çox olan qala fatehləri (qələgir) ilə döyüşmüş və İrəvan qalasını qorumuşlar.

Dərvişlərin üstünü olan Baba Sultan Qələndar Qumi bu
s.910 haqda bu rübaini söyləmişdir:

**Rübai**

*Dövründə sənin, olubmu, ey hökmü rəvan,*
*Alsın ələ bir kimsə qala yadlardan?*
*Aldın sən isə iqbal ilə yüz qəl'ə,*
*Bir qəl'ə də səndən almadı rumi olan.*[1]

Ə'lahəzrət qalanın müşahidəsindən sonra atının qayıdış cilovunu Qarabağ qışlağına doğru yönəltdi, Naxçıvanda müzəffər əskərlərin rəsmi-keçidinə (san) baxdı və məmləkət ləşkərlərinin vətənlərinə dönmələrinə icazə verdi. Müqəddəs ordu mülazimləri Əli dərəsi (Dərəye-Əli) yolu ilə Bərgüşada gəlib ağrəq ordusuna birləşdilər və oradan ov edə-edə Qarabağa və Kür çayı kənarına gəldilər. Zəlil gürcülərin cəzalandırılması fikri hələ də qeyrətli hümayun şahın yadında olduğundan o, Gürcüstana giriş yolu olan Danqi səhrasını qışlaq
s.911 (642) yeri üçün münasib bildi, Kür çayını keçib Dorada qışladı. Ərzrumda sərdardan ayrılan Qazi xan Sədr Danqidə hümayun orduya çataraq ə'lahəzrətlə görüşməklə şərəfləndi. O, sülh şərtlərinin sabiqdə olduğu kimi saxlanması barədə rumilərin sərdarı və paşaları ilə etdiyi danışığı ə'lahəzrətə ərz etdi. Amma, həmin tayfanın sözünə və əməlinə e'tibar olmadığından, bu dəfə ə'lahəzrət öz ayıqlığını saxladı və ölkələr

[1] Rübainin farscası:
Dər əhde-to kəs qəl'e ze rumi nəgereft,
Nəgereft kəs əz ğərib-o bumi, nəgereft,
Eqbale-to səd qəl'e gereft əz rumi,
Yek qəl'e ze nukəre-to rumi nəgereft.

fəth edən sultanların qayda-qanunu üzrə "*sülhə-sülh, cəngə cəng*" şüarını əldə düstur tutdu. Çünki, bu hadisələr zamanı əzəmətli bir neçə rumi osmanlı dövlətinin ixtiyar sahibinə çevrildiyindən, onlar yer və rütbələrinin böyüklüyünü və vəzarət məqamının ucalığını görüb, Məhəmməd paşanı qızılbaşlarla müharibədə və qala tutmaq işində təqsirləndirdilər. Sultan Əhməd xan onu böyük vəzarət mənsəbindən və sərdarlıqdan kənarlaşdırdı, Xəlil paşa baş vəzir və sərdar tə'yin olundu. Sultan o biri il, yəni min iyirmi altıncı ilan ilində (1617) onu Diyarbəkrdə qışlaq edərək rum məmləkətləri ləşkərini toplamaqdan ötrü oraya yolladı və tapşırdı ki, min iyirmi yeddinci at ilində (1617/1618) əcəm ölkəsinə doğru hərəkətə başlasın. O, yardım üçün Rum vilayətinə gələn tatar ulusunun padşahı Canı bəy Gəray xanın da iyirmi min adamdan ibarət qoşununu Diyarbəkr qışlağında yerləşdirdi ki, gələn il olacaq qızılbaşlar üzərinə hücum zamanı sərdarla yoldaş olsun. Amma onlar "qul tədbirini görər, Allah isə təqdirini yazar"[1] kəlamından xəbərsiz olub bilmədilər ki, dünya işlərinin iradəsi və bəni-adəmin vəziyyəti rəbbani təqdir və qəzavü qədərdən asılıdır.

**Beyt**

*Tutmayacaq baş ürəyindən keçən,*
*Baş tutacaq, bil ki, xuda istəyən.*[2]

Ona görə də, bu hadisələr zamanı Allah-təalanın istəyi sayəsində Sultan Əhməd xan natəvanlıq yatağına düşdü və axirət sarayına yollandı.

**Misra**

*Getdi ki, başqa bir aləm tutsun.*[3]

[1] Kəlamın ərəbcəsi: "Və-l-əbdu yudəbbiru vəllahu yəqəddiru"

[2] Beytin farscası:

Ançe delət xast, nə an mişəvəd,
Ançe Xoda xast, çenan mişəvəd.

[3] Misranın farscası:

Rəft ta aləme-degər girəd.

Onun iki azyaşlı oğlu qaldığından, osmanlı dövlət başçıları beyin pozğunluğu səbəbindən bu vaxtadək sağ qalan qardaşı Sultan Mustafanı padşah etdilər. Onun hakimiyyətə gəl-
s.911 məsindən altı ay sonra dövlət başçıları və ağsaqqallar [bu osmanlı padşahının] səltənətindən bezərək, Sultan Əhmədin böyük oğlu on iki yaşlı Sultan Osmanın padşahlığını məsləhət bildilər və Sultan Mustafa hakimiyyətdən kənarlaşdırıldı, Sultan Osman osmanlı dövlət taxtına çıxdı.

Qərara alındığı kimi, Xəlil paşa və tatar qəbiləsinin padşahı Canı bəy Gəray min on yeddinci at ilində əcəm ölkəsinə tərəf ləşkər çəkdi və Sərab vilayətində döyüş başlandı. Amma, iqbalın qüvvəsi ilə zəfər müqəddəs səfəvi xanədanına müyəssər oldu. Xəlil paşa da, sabiq sərdar kimi sülhü zəruri bildi, kor-peşiman geri qayıtdı. Bu get-gəl zamanı tatar tayfa üzvləri Rum vilayətində bir çox pis işlərə əl atdılar, amma başqa dünya və axirət dağıntılarından (xəsran) başqa elə hücumların heç bir xeyri olmadı. Xəlil paşa və Canı bəy Gərayın yürüşü və qayıdışının şərhi və onların qızılbaşlarla cəngləri barədə, həmçinin baş verən başqa əhvalatlar haqqında, əgər ömür vəfa edərsə və İlahi köməklik göstərərsə, mə'lumat veriləcəkdir. Belə ki, kitabın əvvəlində işarə olunduğu kimi, hümayun zilləllah şahın cülusunun ikinci qərninin başlanması dövrü yazı (təhrir) ipinə düzüləcəkdir, inşallah! İndi isə qışlaq vaxtı baş verənlər bəyan səhifəsində yazılmağa başlayır.

## DANQİDƏ QIŞLAQ ZAMANI BAŞ VERƏN HADİSƏLƏRİN ZİKRİ

Nadan Təhmurəsdən və Kaxetin zəlil gürcülərindən zahir olan cəsarət və ədəbsizlik şahanə qeyrəti və padşahanə vicdanı buna istiqamətləndirdi ki, həmin vilayət kafirlərini siyasət və intiqam qılıncı ilə cəzalandırılsın, o kilsələr diyarında qəzəb şöləsi qiyamət alovu kimi ucalsın, abadlıq, sakitlik (samət) və adamlardan əsər-əlamət qalmasın. Dünyalar alan ordunun o tərəfə yürüş etdiyi birinci il oranın əhalisi

qətlə, qarətə, cəzaya, pərişanlığa və xəsarətə elə mə'ruz qaldı ki, onların vəziyyəti "orada kilsədən başqa ev qalmadı" [1] məsəlinə uyğun gəlir.

**Sağ qalan gürcülərin qətl edilməsi və əsir götürülməsinin bəyanı:**

Hələ baş verən cəng atəşindən şahın qəzəbi təskinlik tapmamışdı ki, onun cah-cəlal qulağına belə bir xəbər çatdı: Dəli Məlik Şirvani, Davud Gürcü və Təhmasib Qesqi (?)[2] Kaxet vilayətinə gəldilər və dağınıq düşən əskər və gürcü rəiyyəti hər yandan gələrək, onlara qoşulub, yerlərdə qarətgərliyə və viranlığa başladılar, pərişanlığa səbəb oldular. Əlahəzrət, buna görə də, qorçi, qulam və tüfəngçilərdən ibarət bir dəstə adamı İsa xan Qorçibaşının sərkərdəliyi ilə onların üstünə göndərdi. Müzəffər əskərlər bu bəxti dönmüşlərin olduqları yerlərə çatıb ilk növbədə Qesq (?) vilayətini onlardan təmizlədilər,
**s.912** kişilər iti qılınca yem, qadın və uşaqlar müzəffər qazilərə əsir
**(643)** oldular. Davud və yoldaşları bundan xəbərdar olub, onlara hücum etdilər. Yolun çətinliyini və qarla örtülmüş meşə və cəngəllikləri arxada qoyaraq, çətinliklə olsa da, [qızılbaşlar] o bəxti qaraların yerlərinə gəlib çatdılar. Lakin, onlar bir qədər əvvəl ləşkərin hücumundan agah olmuş və var-yoxlarını ataraq öz əhli-əyalını atlara mindirib qarlı və darısqal yollarla Dağıstana tərəf qaçmağa başlamışdılar. Onların qaraltıları hələ görünməkdə idi ki, ləşkər gəlib çıxdı, tə'qibdən əl çəkməyib keçidi bir adamlıq olan darısqal yoldan keçdi. Gürcülərin əksəriyyəti öz atlarını övrətlər ilə birlikdə irəli göndərərək, özləri döyüşə-döyüşə pay-piyada qalın qar içərisində bir-bir, iki-iki getməkdə idilər. Onları başqalarından tez tə'qib etməyə başlayan Peykər Sultanın qardaşı Həsənəli bəy İyirmidörd tüfəng gülləsindən həlak oldu. Onun ardınca Əbülqasim bəy Abdarbaşının oğlu Bəktər
**s.912** bəy Yüzbaşı Evoğlu gəlib çatdı, öz igidlik atını irəli sürdü. O, kamanına ox qoyub kafirlər tərəfə atmaqda olan vaxt sinəsinə bir güllə dəyərək, onu da yerə yıxdı. Mirfəttah Min-

[1] Ərəbcəsi: "Leysə fi-d-dari ğeyra midyar"
[2] Yəqin ki, "Mesqi" olmalıdır – *Ş.F.*

başı İsfahani arxadan gəlirdi. O, Bəktər bəyin atına minib hücuma keçsə də güllə ilə yaralandı, orduya qayıtdıqdan sonra keçindi. Kafərləri belə izləmək comərd cavanların itkisinə səbəb olduğundan və hava qaraldığı üçün [qızılbaşlar] atlarının cilovlarını geriyə döndərdilər, həmin üsyankar gürcülər bu dəfə də əcəmin caynağından qurtula bildilər.

Amma, birinci yürüş zamanı on min nəfərədək gürcü əhli özlərini hifz edərək ələ keçmədilərsə də, bu dəfə onlar yolları bağlayan qarın çoxluğundan hərəkət və fərar etmək imkanı tapmayaraq, əsir düşdülər. Müzəffər əskərlər çoxlu qənimətlərlə sağ-salamat geri döndülər, o diyarda gürcü tayfa kilsələri (dəyyar) qalmadı.

Adı çəkilən Gürcüstanın şimal səmti Dağıstana bitişik olduğundan Dağıstan camaatı oğrunca oraya gələrək, özləri ilə əsir tutub-aparırdılar. İndi də onlar gözətçi və qoruyucuları olmayan həmin diyara hərəkətə keçib, əsir tutmaq üçün adam axtarmağa başladılar. Meşə və cəngəlliklərin küncbucağında qalan azsaylı gürcülər Dağıstan ləzgilərinin qorxusundan özlərini Didad (?), Başıaçıq və Kartil vilayətlərinə atdılar. Xülasə, o vilayətdə abadlıqdan əsər-əlamət qalmadı. Təhmurəsin cəhaləti və nadanlığı üzündən hər il ərzağı və ot-ələfi bol gəlir gətirən o yer viran oldu. Zəkəm və oraya yaxın yerlərdə yaşayan enil (?) tayfası və başqa gürcülər – təxminən iki-üç minədək ailə canlarının, əsir götürülmələrinin və qarət edilmələrinin qorxusundan cilayi-vətən olaraq Mazandaran darülamanına getmək istədilər. Qəzavü-qədərin göstərişi ilə hücum axını onlardan ötüşdü və həmin tərəfə rəvan olaraq, sağ-salamat Fərəhabada çatdılar, orada yerləşdilər.

Başqa bir əhvalat: Şahın cəlal qulağına gəlib çatdı ki, Gəncə hakiminin rəiyyəti olan Danqi camaatı Təhmurəsin yürüşünə qoşularaq [qızılbaşlara qarşı] üsyana qalxmış, onların bir dəstə adamı Təhmurəsin razılığı ilə həmin qoşunda olan Gəncə hakimi Məhəmməd xan Ziyadoğlunun bir neçə mülazimini qətlə yetirmişlər. Həmin ülka müzəffər şəhriyarın (Şah Abbasın – *Ş.F.*) iqamət və qışlaq yeri olan vaxt şah o tayfa üsyankarlarını sorğu-suala (yərğu) tutdu, onların müxalifəti və günahları sübuta yetdikdən sonra məliklərini

otuz-qırx üsyankar adamı ilə qətl etdirdi, e'tibarları qalmayan başqa bir dəstəni isə həmin vilayətdən çıxardı və oradan çıxıb Fərəhabada getdi.

Başqa əhvalat isə belə olmuşdur: Şah qışlaq yerində olarkən, Dağıstan və Təbərsəran hakimləri öz adamlarını layiqli peşkəşlərlə cahana pənah verən dərgaha göndərdilər, qiymətli xələ'tlər və bol nəvazişlərlə sərəfraz oldular, o yerlərin zəruri işləri arzulanan səviyyədə yoluna qoyuldu.

[Qızılbaşlar] qışlaq yerinin qışını ürək xoşluğu ilə keçirdilər. Bu il rəzil düşmənlərin əzilmələrinə və bir neçə min dinsiz kafərin cahad meydanı mücahidlərinin intiqam qılıncları ilə əcəm yoluna göndərilmələrinə görə, yuxarıda yazıldığı kimi, saysız-hesabsız Rum ləşkəri bir iş görə bilməyib geri qayıtdı. Zəfər və qələbə bu dövlət övliyalarına nəsib olmaqdaydı ki, sanki onlara göz dəydi və Xorasanda hadisə baş verdi. Belə ki, bu ilin sonralarında min iki yüz nəfərədək xun-
s.913 xar özbək öz əmirlərindən olan Məhəmmədqulu Durmənin sərkərdəliyi altında çala-çala və oynaya-oynaya (be saz-o bazi) Sərəxs və Herat arasındakı bir yerə gəlib çatdı. Maruçaq hakimi Xosrov Sultan döyüşlərdə sınaqlardan çıxmış bir dəstə mübarizlə Maruçaqdan onların qarşısına yollandı. Sərəxs hakimi "Firuzcəng" adı ilə məşhur olan ibn Hüseyn xan ibn Mirhüseyn Sultan həmişə o hüdudda özbəklərlə vuruşub mərdanəlik göstərən cığatay tayfasının bir dəstəsi ilə gələrək, Xosrov Sultana birləşdi və onlar birlikdə gedib özbəklərə çatdılar. Silaha əl atan tərəflər arasında döyüş başlandı. Cəhaləti, qüruru və hövsələsizliyi üzündən dözməyən Xosrov Sultan münasib olmayan bir yerdə cəngə girişdi. Mərdanə cidd-cəhdinə baxmayaraq nəticədə məğlub oldu, meydandan çıxdı, amma köhnə hərbiçi, təcrübəli və cənglər görmüş ibn Hüseynxan fərar arına qısılıb özbəklərə həmlə etdi, yürüşdə Mir Sul-
s.914 tan Hüseyn adlı oğlu qətlə yetirildi. Oğlunun başına gələn
(644) hadisədən həyəcanlanan ibn Hüseynxan gözünün ağı-qarası olan oğulu bada verdiyi halda, özü sağ-salamat qalmaq istəməyərək, döyüşə elə girişdi ki, bir neçə cığatay qazisi tərəfindən əcəl kasasının şərbətini içdi, şəhid oldu. Onun öldürülməsindən sonra cığatay qaziləri döyüş meydanına

yönəldilmiş bir arxı (cuy) özlərinə xəndək və hasara çevirib günün sonunadək qorundular, həmin mə'rəkədən mərdanəliklə, sağ-salamat qurtulub qorxusuz bir yerə getdilər. Bu xəbər Vanqi (Danqi olmalıdır-*Ş.F.*) qışlağında şaha ərz olundu. Həmişə, canlarından keçən adamlarının xidmət haqqını ödəyən şahın şəhriyarlıq məhəbbəti onların sağ qalan ailə üzvlərinin halının yaxşılaşmasına yönəlmişdir ki, elə buna görə də ibn Hüseynxanın başqa oğlu Müzəffər Hüseyni xan rütbəsi ilə sərəfraz etdi, atasının ülka və iqtasını ona verdi.

**Mirzə İbrahim əl-Hüseyni əl-Həmədaninin vəfatı**

Zəmanənin əllamətül-üləması və bəyənilən (həmide) xasiyyətləri, fəzilətləri və gözəl əxlaqı olan bu alim seyid haqqında bu kitabın birinci səhifəsində "Cənnətməkan şah dövründəki seyid və üləmaların şərafətli adları" adlanan hissədə bir qədər mə'lumat verilmişdir. O, bu il fani cahanı tərk edib öz həyat kitabxanasını varlıq səhifəsindən kənara atdı. Mir Fani Kirmani bu mirzənin vəfatı haqqında yazdığı [maddeye-] tarixdə deyir:

**[Maddeye-] tarix**

*Ruh quşu uçdu Mirzə İbrahimin*
*Cənnətin bağına pərvaz etdi.*
*O, xoşəxlaqlı kəs, o pak insan*
*Yaxşı ad qoydu cahanda getdi.*
"*Dele riş*"[1] *söylədim bu tarixi mən,*
*Cənnət içrə o sidr tək bitdi.*[2]

"Dele-riş" ifadəsindən məqsəd ədədlərin hasilidir ki, əbcəd üsulu ilə hesablandıqda min iyirmi beş [inci il] tarixinə (1616/1617) bərabər olur.

[1] "Dele-riş" ifadəsinin bir neçə mənası var: qəlbi yaralı adam, hüzünlü şəxs, aşiq kəs (Bax: D-r Moin. Göst, lüğət.c.II, s. 1551)

[2] Maddeyi tarixin farscası:
Morge ruh-o rəvane-Ebrahim
Kərd pərvaz suye-bağe-nəim.
An bənisirət-o vəlifetrət
Ke ədiməş be dəhr bud ədim.
Goftəməş sale-fovt ba "dele-riş"
Sedre başrəd məqame-Ebrahim.

**Seyid Mübarək xanın vəfatı:**

Vəfat edənlərin başqa birisi bu il təbii əcəllə ölən Ərəbistan Həvizəsinin* valisi Seyid Mübarək xandır. O şiə məzhəbli, pak e'tiqadlı bir seyid idi. Cənnətməkan şahın (Şah Təhmasibin – *Ş.F.*) vəfatından sonra Həvizəni qol gücünə işğal edib, orada dövlət bayrağını dalğalandırdı. Cülusundan əvvəl onunla qızılbaş əmirləri arasında bə'zən ixtilaflar baş verirdi.

Amma [Şah Abbasın] hümayun cülusundan sonra Seyid Mübarək onun fərmanına tabe oldu və öz sədaqətini göstərməyə başladı, oğlu Seyid Nasiri çocuqluq əyyamında öz sədaqətinin timsalı kimi ali saraya göndərdi və Nasir şahanə
**s.914** tərbiyət kölgəsi (zill) altında böyüyüb boya-başa çatdı. Bu il atasının xahişi ilə ona Ərəbistana qayıdış icazəsi verildi. Atasının vəfatından sonra ali əmr əsasında atasının canişini kimi öz irsi mülkünə sahibləndi. Amma, Seyid Nasir də bu ilin axırlarında xəstələnib cavan ikən ömrə əlvida deyərək, dövlət və kamranlıqdan ləzzət çəkə bilmədi, qəbilə başçılarının xahişi ilə hakimiyyət Seyid Mübarəkin qardaşı oğlu Seyid Raşedə verildi ki, onun haqqında, inşallah, üçüncü qərn[1] hadisələrinin şərhində məlumat veriləcəkdir.

Başqa vəfat edən şəxslərdən biri də Mir Fəttah Minbaşı İsfahanidir. Yuxarıda yazıldığı kimi, o, Gürcüstanda güllə yarası ilə yaralandı, orduya gətirilən vaxt ömrünü başa çatdırdı. Şəhriyarın inayəti sayəsində Mir Fəttahın böyük oğlu atasının yerinə minbaşı vəzifəsinə təyin edildi və ona "ikinci Mir Fəttah" ("Mir Fəttahe-sani") ləqəbi verildi.

## KİTABIN[2] SONUNDAKI XİTAB

Söz gəlinlərinin saray bəzəyənləri və mənalı ismət (bekr) kəlmələrinin məşşatətləri sabiq vaxtlarda öz mə'nalı ifadələrini şövq aləminin oxucularının və zövq arzulayanların diqqətinə yetirməkdən ötrü sözün xətt-xalını yüz bir işvə

[1] Şah Abbasın hakimiyyətinin üçüncü dövrü – *Ş.F.*

[2] "Bu cildin sonundakı kitab" kimi anlaşılmalıdır – *Ş.F.*

(ğənc) və naz (delal) ilə bəzəmiş, tatar yəğmaçıları kimi söz ilə surət meydanını və mə’na cahanını qarət etmişlər.

**Şe’r**

*Deyiləsi sözü deyib getdilər,*
*Bilik öyrədənlər gözdən itdilər.*[1]

Əlelxüsus (xasse), üslub (inşa) və mə’lumat səhifələrini gözəl sözlərlə yazıb dolduran yazarlar və kəlmələri ilə keçmiş hadisələri bəzəyən tarixçilər öz ətirli söz qədəhlərini mə’na şərabı ilə doldurmuşlar, söz meydanı onlarla ətirlənmiş, həmin nadir hünərməndlərin sənaye’ və bədaye’ dəyərli qələmlə yazdıqları əsərlər iste’dad sahiblərinə mə’lumdur və onların yaratdıqları [əsərlər] cahanda yadigar qalmışdır. Mə’nalı söz demək istəyənlərin arzu əlləri o iqbal sahibinin (Şah Abbasın – *Ş.F.*) ətəklərinə çata bilmədiyinə baxmayaraq, o, öz əqli, yüksək insafı, sağlam ilhamı, müstəqim zehni qabiliyyəti ilə hikmət ayinli sözlərin sirlərindən xəbərdar və agah bir şahdır ki, bu [beytlərin] məzmunu buna sübutdur.

**[Beyt[lər]**

*Aləmdə, deyirlər, təzə söz qalmayıb indi,*
*Müdrik kəsə əsla bu fikir xoş gələ bilməz.*
*Vardır sözümüz, amma xəridar tapılmır,*
*Qeyb pərdəsi altında qalıb söz, onu gəz, gəz…*[2]

Bu qara (meşkin) rəngli xitabın müəllifi (yəni, İskəndər bəy Münşi – *Ş.F.*) hicab pərdəsindən çıxaraq deyir:

---

[1] Şe’rin farscası:

Soxən hər çe an goftəni gofteənd,
Bər-o bume-daneş həme rəfteənd

[2] Beytlərin farscası:

Guyənd begiti soxəne-taze nəmandəst,
İn nokte nə mə’qule-dele-nokteqozarəst.
Dər dəhr xəridar nəmandəst və gər ne
Dər pərdeye-ğeybəst hənuz ançe bekarəst.

İlahi feyz qapıları mə'na cəvahirlərini görmək istəyənlərin amal çöhrələrinə açıqdır və yenə də söz ümmanının sükut (lali) xəzinəsi söz cəvahirlərindən xali deyildir.

**Şe'r**

s.915

*Çıxara bilməyib cahanda heç kim*
*Lə'ldən bir mə'dən, mərcandan ümman.*[1]

Əgər söz demək ilhamı mə'lumat axtarışında öz istəyi ilə axtarışa başlayaraq, özünü əzəli nəvaziş feyzinə yetirərsə və insan ümid xiyabanının (kuy) sorğu-sual dilənçiləri (sayelan) kimi hər ali məqsəd və işıqlı (əsni) mətləbə üz tutarsa, şübhə yoxdur ki, mətləb hasil olar, məqsəd yerinə yetər.

**Şe'r**

*Feyzin, kamalın sahibi ol, basəvad ol ki,*
*Səndən nur azalmaz feyz sahibisənsə.*[2]

Sözün qısası, bu "Aləmara" kitabının müəllifi əsərin dibaçə hissəsində cəsarət qələmi ilə belə yazmışdır: Sədaqətinin çoxluğundan özünü həzrət əmirəl-möminin və imaməl-müslimin Əli ibn Əbitaleb salamullahi-ileyhin qulamı və mə'sum imamların övladı bilən, ali məqam və əzəmət sahibi, zəmanə sultanlarının sultanı, bütün cahanın ən məşhuru və hökmdarların ən ümumiləşdirilmiş şəxsi olan, əqidəsi və pak e'tiqadı üzündən özünü o həzrətin (İmam Əlinin – *Ş.F.*) mələk aşiyanlı astanasının iti sayan və bunu özünə iftixar bilən həzrət padşahın (Şah Abbasın – *Ş.F.*) əhvalatını bu müəllif gərək zəruri rəmzlər, ibarələr, sağlam sözlər və istiarələrlə qələmə alsın və bəyana gətirsin ki, yazdıqları dövranın iste'dadlı adamları (mostəedan) və bəlağətli tarixçilərindən ötrü lazımlı mə'lumata çevrilsin. Allaha həmd

---

[1] Şerin farscası:
Kəs nəpərdaxt dər cəhan hərgez
Mədən əz ləl-o bəhr əz mərcan.

[2] Şerin farscası:
To mostəede-nəzər şov kəmal-o qabele-feyz
Ke monqəte nəşəvəd feyz hərgez əz fəyyaz.

olsun ki, bu iş yerinə yetirilmiş, şahın Xorasan mülkünü işıqlandıran və bütün cahanı ziyalandıran səadətli təvəllüdündən başlamış onun İranın hökmranlıq taxtına əyləşməsinə qədərki tarixi birinci səhifədə qələmə alınmışdır. Ə'lahəzrətin cahanı bəzəyən cülus dövründən, yəni bu cülusun geniş İran məmləkətlərini və ali məkanlı əcdadının taxtını bəzədiyi vaxtdan e'tibarən hicri tarixlə bir qərn səadət bəxş etmiş min iyirmi beşinci ilə gəlib çatan bu vaxta qədərki tarixi yazılaraq, ikinci səhifənin bir cildini təşkil etdi ki, qoy zamanın sultanları və cahanın hökmranları həmin iqbal dibaçəsinə nəzər salsınlar, şahın ölçülüb-biçilmiş işlərini (karnamə) və bəyənilən qanunlarını özləri üçün fəaliyyət dəsturüləməli etsinlər, şüara çevirsinlər. Ümid edirəm ki, [bu cild] o həzrətin hümayun təb'inə müvafiq olacaq, həsədkarların və ağılsız hərzə-hərzə danışan adamların əlləri onu varaqlamayacaq, amma əksinə, yüksək təbli oxucular və tələbkarlar ondan həzz alacaq, [onu] varaqlamaqdan şad olacaqlar.

**Şe'r**

*Mə'na dövranında, bugün deyil sirr*
*Köhnə əfsanələr çox deyilmişdir.*
*Eşitdiklərinin köhnəlib çoxu,*
*Mənim qələmimdən təzə söz oxu.*[1]

İnşallah, hümayun cülusun ikinci qərni başladığından qoy bu müddət həzrət sahibül-əmr sələvatüllah ileyhin (İmam Mehdinin – *Ş.F.*) zühurunadək davam etsin, əgər ömür vəfa edərsə, əlahiddə bir cild tərtib ediləcək, kitabın əvvəlində yazıldığı kimi, onun xatimə hissəsi də ona əlavə olunacaqdır. "Allah-təali istədiyini edir və istədiyinə hökm edir".[2]

---

[1] Şerin farscası:
Mokərrər şod be dovrane-məani
Kohən əfsanehaye-bastani
Koni ta key be goftare-kohən guş?
Ze kelkəm noqtehaye-taze benyuş.

[2] Ərəbcəsi: "Xəf'əlu-l-lahu mayəşa'u və yəhkumu ma yuridu".

**Şe'r**

*İlahi, o sonsuz iltifatından*
*Hüzurunda mənə yer ver bir zaman.*
*Qaranlıq gecəmi ağ səhər eylə,*
s.916 *Qəlbimi bununla müzəffər eylə.*[1]

---

[1] Şerin farscası:

Xodavənda, ze lotfe-bikəranət
Bedeh ca dər hərime-astanət.
Şəbe-bəxte-siyahəm ruz gərdan,
Bedin məqsəd deləm firuz gərdan.

**İSGƏNDƏR BƏY MÜNŞİ TÜRKMAN**

# DÜNYANI BƏZƏYƏN ABBASIN TARİXİ

**(*Tarixe-aləmaraye-Abbasi*)**

**ÜÇÜNCÜ CİLD**

**BU CİLDƏ ŞAH ABBASIN HÖKMRANLIĞININ OTUZ BİRİNCİ İLİNDƏN BAŞLAYARAQ SONRAKI ƏHVALATLAR DAXİLDİR**

**s.919** Bismillahir-rəhmanir-rəhim!

**(647)** Göyün və yerin Yaradanına həmd və təşəkkürdən sonra bütün cahanı xəlq edənə səcdə və şükr olsun ki, aləmi yaradan [zat] onu din və ədalət şəhriyarlarının və adil hökmdarların şəxsində nizama saldı. Məmləkətlər sultanına, peyğəmbərlər dəftərinin öncülünə (sərdəftəre cərideye-ənbiya) – ona Allahın salamı olsun – həmçinin onun pak nəslinə (etrətetahireye-u), xüsusilə Mustafa nəsli və övliyaları ardıcıllarının başçısı olan şəxsə ki, peyğəmbərin dediyi kimi "Mən elmin şəhəriyəm[1], Əli isə qapısıdır, o Əli ki, mə'sum imamların – Allahın xeyir-duası və salamı olsun onlara –, böyüyüdür[2], – o insanlara ki, onlar elm cəvahirlərinin xəzinədarları, dindarların xeyirxahları, xüsusi [ruhani] məsləklərin yol göstərənləri, bilik (daniş) səhifələrini yazan və mə'nalar bəzəyən söz ustalarıdırlar.

Qoy gizli qalmasın ki, bu varaqların müəllifi (mosəvved), qulların ən acizi (əqəllol-ibad) *İsgəndər Münşi* "Tarixeələmaraye-Abbasi"nin birinci səhifəsinin (hissəsinin – *Ş.F.*) başlanğıcında belə yazmışdır: "Əgər Allah bizə yar olaraq kömək göstərərsə və bundan [Şah Abbasın] iqbalına zərər gəlməzsə, müəllif bu [tarix] kitabının ikinci səhifəsini yüksək əlamətli (səfvətneşan), səfəvi köklü (səfəvibonyan), cavanbəxt, kamkar və kamran şəhriyarın, ədalətin hökm sürdüyü ölkələrin (əqalim) hökmdarının, kəsraların (xosrovların, padşahların – *Ş.F.*) və pişdadi [şahlarının] qayda-qanunlarının davamçısının, cahandarlıq ümmanının mirvarisinin (lölö), xilafətin bənzərsiz gövhərinin, həzrət vəlayətpənah şahın (İmam Əlinin – *Ş.F.*) sədaqətli qulamının, yəni ki, ölkələr alan, fələk əzəmətli Allah kölgəsi olan xaqanın (xaqanegitisetane-gərdunbargahe-şahiye-zilləlahi), elə xaqanın ki,

---

[1] Ərəbcəsi: "Əna mədinətu-l-elmi və Əliyyun babiha"

[2] Ərəbcəsi: "Əbu-l əimməti-l-məsumin sələvatu-l-lahi və səlamuhu əleyhi və əleyhim əcməin"

onun cahandarlıq və ədalət nurlarının parıltısı günəş kimi bütün dünyanı işıqlatmışdır, bədaye sözlər yazan qələm ilə *iki məqsəddən* ibarət yazsın.

*Birinci məqsəd* – zaman hökmranının (yə’ni Şah Abbasın – *Ş.F.*) səadətli cülusdan ötən və [şahın] hökmranlıq müddətinin otuz ilini əhatə edən səadətli bir qərnlik hadisələrinin təsvirini vermək olmuşdur.

*İkinci məqsəd* – ikinci qərndən başlayaraq, – bu müddət qoy sahibüz-zamanın (İmam Mehdinin – *Ş.F.*) gəlişinə qədər uzansın, – elə birinci məqsəd kimi qoy ruzigarın qəribə hekayətlərini və təəccüblü rəvayətlərini əks etdirməkdir. Birinci məqsəd artıq yerinə yetirilmişdir və hazırda ikinci məqsədin icrasına başlanılmışdır. Ümidvaram ki, İlahinin lütfü bizim ömrümüzə imkan verəcək, yüksək sədaqətin hələ bəyan olmamış “Aləmara”nın bu nüsxəsi başa çatacaq, söz bostanının bu təzə nihalı İlahinin mənfəətli feyz bulağının təsiri ilə böyüyəcək, bizim təmənna və arzumuza uyğun şəkildə murad bəhrəsi veriləcəkdir. Mənim uğurum yalnız Allahladır[1].

---

[1] Ərəbcəsi: “Və ma tavfiqi illa billah”

## İKİNCİ QƏRİNƏNİN (QƏRN) BAŞLANMASI, TÜRKİCƏ HİCRİ MİN İYİRMİ ALTINCI (1617) İLAN İLİNDƏ, YƏNİ [ŞAH] ABBSIN [TAXTA] CÜLUSUNUN OTUZ BİRİNCİ İLİNDƏ BAŞ VERƏNLƏR

**[Beyt]**

*Dövrün təsvirini verməq qəsdilə*
*Şair söhbətinə başlayır belə*[1]

Min iyirmi beşinci (1616) ilə bərabər olan keçən il hadisələrinin bəyanında belə yazıldı ki, qışlaq həmin ilin qışında Danqidə oldu, şahın iqamətindən ötrü yaxşı mənzillər və layiqli hamam inşa olundu, dövlət başçıları və həzrət əyanların hər biri ağac və qamışlardan qübbə (rəvaq) qurdular, qış fəslini o gözəl yerdə şadimanlıqla keçirdilər. Qış günlərinin bitdiyi və
s.919 mübarək baharın ürəkaçan və aləmi bəzəyən büsata qədəm
s.920 basdığı vaxt, mübarək novruz sevinc və aləmi bəzəmək büsa-
(645) tına qədəm atdı, nişat aləmini min cür gözəlliyə qərq etdi, aləmi təravətləndirdi. Yəni, cahanı bəzəyən günəş gündən doqquz saat qırx iki dəqiqə ötdükdən sonra rəbiüləvvəl ayının on ikisində (29 mart, 1616) düşənbə günü hüt dayanacağından çıxaraq öz səadət işığını həməl bürcünə səpələdi.

**Şe'r**

*Yenə də yetişdi qəlbaçan bahar,*
*Havada nə gözəl, xoş təravət var.*
*Ürəklər sevinclə doldu həmin dəm,*
*Gözəllərin üzü göründü xürrəm.*[2]

---

[1] Beytin farscası:
Soxən pərdaze-in niku tərane
Çenin guyəd ze əhvale-zəmane.

[2] Şerin farscası:
Ağaze-bəhare-delgoşa şod,
Əyyame-lətafəte-həva şod.
Delha be neşat şod şetaban
Çon areze-delrobaye-xuban.

Novruzdan bir neçə gün keçəndən sonra Danqinin havası istiləşməyə başladı. Ordu qışlaq yerindən çıxdı və zaman şəhriyarının məğlubedilməz qoşun dəstələri Gürcüstan yaylaqlarına tərəf hərəkət etdi.

O uğurlu günlərdə baş verən iqbal hadisələrdən biri də Qırlanquç qalasının fəthidir. Bir dəstə Gürcüstan kafəri həmin möhkəm qalaya girərək qiyam qaldırdı. O ali bünövrəli qala uca bir dağın başında yerləşir və heç yandan oranı döyəcləmək mümkün deyildir. Hündürlüyü qala qapısından başlayıb, qalanı qoruyan mühafizəçilərin olduqları yerədək beş yüz altmış pilləkəndir. Əgər yağış suyu ilə doldurulan su anbarından başqa orada başqa bir çeşmə olardısa, oranı heç kim fəth edə bilməzdi. O zaman məhz ali hümayun iqbalın köməyi sayəsində imansız gürcülərin ürəklərinə bərk qorxu düşdü və onlar aman ətəyinə əl uzatdılar, Kartil valisi Boğrat xanı vasitəçi etdilər və eşiyə çıxıb qalanı təhvil verdilər. Mühasirədə qalanlar əyinlərinə şahanə iltifatla aman xalatı geyindilər, Bograt xanın mülazimi olmaq istəyənlərə Kartilə getmək icazəsi verildi, başqaları isə cənnətə misal olan Fərəhabad darüləmanına gedərək, zaman hadisələrindən asudə oldular. Şah məiyyətinin bir neçə tüfəngçisi qalanı mühafizə etməyə göndərildi.

Bu hadisə baş verən əsnada ə’lahəzrətin cəlal qulağına belə bir xəbər gəlib yetişdi ki, qazilərin qılınc və nizələrindən qorxub meşələrə qaçan gürcülərin qalıqları Qesq vilayətində toplaşaraq xilaf məqamında dayanmışlar. O dinsizlərə qarşı qəzəb məş’əli alışdığı üçün bir dəstə döyüşçünü həmin bəxtləri dönmüş və qan tutmuşların üzərinə yolladılar, onların ardınca *qulamlar yüzbaşısı* Zaman bəyi də qulamlarla birlikdə qarətə başlamaq və əsir ələ gətirmək məqsədi ilə göndərdilər. Mücahidlər zümrəsi asiman bəlası kimi qəfildən və vaxtlı-vaxtında o qan tutmuşlara çataraq, çoxsaylı kafərlər ələ keçirdilər. Mö’təbər aznaur və bəxtsiz nəsarilərin bir çoxu ya qılınca yem oldu, ya da öz arvad-uşaqları ilə birlikdə əsir düşdü. Hümayun orduya gətirilən əsirlər qanun qılıncı ilə cəzalandırıldılar, qəhrəmanlığın qəhr siyasətgahında çətinliklə can verdilər.

Elə ki, şahın xatiri Kaxet Gürcüstanının işlərindən arxayınlaşdı, cah-cəlal ordusu Tiflisə doğru hərəkətə gəldi. Kartil valisi Boqrat xan xidmət və mizbanlıq tədarükünə başlayıb həddən artıq şahanə hədiyyələr və padşahanə xəl'ətlər gətirməklə imtiyaz şərəfini əldə etdi. Qayıdış cilovu oradan Səmxuta tərəf yönəldi və bir neçə gün bu müqəddəs xanədanın sadiq tərəfdarlarından olan Məlik Mirmən Səmxutinin nəvəsi Ata bəyin mənzillərində işrətlə məşğul oldular. Yürüş bayraqları oradan Göycə dəniz yaylaqlarına tərəf dalğalandı, bir neçə gün vaxtlarını o dənizin istirahət sahillərində, suyu zülal kimi saf olan çeşmə kənarlarında və dağlarında habelə başqa
**s.920** gözəl yerlərində keçirdilər.

## İRAN SİPƏHSALARI QƏRÇİQAY XANIN SƏRDARLIĞI İLƏ ƏRZRUMA VƏ ORADANSA VAN BÖLGƏSİNƏ LƏŞKƏR GÖNDƏRİLMƏSİNİN ZİKRİ

Göycə dəniz yaylağı iqbal çadırları ilə dolduğu o vaxtlarda Rum [ölkəsi] tərəfdən ard-ardınca casuslar gəlib xəbər gətirirdilər ki, keçən il sərdar Məhəmməd paşanın vasitəçiliyi ilə imzalanmış olan sülh sazişi Rum ölkələrinin padşahı Sultan Əhməd xan tərəfindən pozulmuşdur, Məhəmməd paşanı isə fitnə-fəsad etməklə ittihamlandırıb, baş vəzir məqamından uzaqlaşdırmışlar. Keçən il hadisələrinin şərhində göstərildiyi
**s.921** kimi, baş vəzir və sərdar tə'yin olunmuş Xəlil paşa Anadolu
**(649)** qışlağına doğru getməkdədir və gələn ilin baharında tatar padşahı Canı bəy Gərayxanla birlikdə əcəm diyarına qoşun çəkəcəkdir, Xəlil paşa isə hal-hazırda ali dərgahın əskərlərindən ibarət bir dəstə qapıqulu ilə İstanbuldan çıxmışdır və qışlaq yerinə yollanmaqdadır.

Bu xəbərləri təhqiq etdikdən sonra, söz ustadalarının dediyi kimi mülk tutmaq işinin ən düzgün (sayeb) tədbirini həyata keçirdilər.

**Beyt**

*Qılıncın zərbəsiylə beş-on əskər olar zar,*
*Amma məsləhət ilə bir ləşkər qırmaq olar.*[1]

Mülkü bəzəyən məsləhət belə oldu ki, rum əskərlərinin keçid yeri olan Ərzrum və Van hüdudları elə bir hala salınsın ki, gələn il Rum ləşkəri azuqə azlığı və yem darısqallığından əziyyətə düçar olsun. Buna görə də [şah] şahanə tapşırıqların yerinə yetirməsinə, ağlının mə'lum olmasına və bacarığına görə sərdarlığa layiq olan Qərçiqay xanı yüksək sipəhsalarlıq ləqəbinə layiq gördü və müzəffər ləşkərin sərdarı, tə'yin etdi. Ə'lahəzrət bir neçə gün Göycənin Qırxbulağında zəfər nişanlı əskərlərin rəsmi-keçidinə tamaşa elədi və Qərçiqay xanı qəhrli döyüşçülərlə birlikdə vəzifəsinin icrasına yolladı. Hümayun fallı şah məiyyəti ov edə-edə adı çəklən yaylaqdan çıxıb Araz çayı kənarına gəldi, sonra çayı keçərək Kəskər yolu ilə Əhərə yollandı. O, həzrət saliklər sultanı *Şeyx Şəhabəddin Əhərinin* məzarını ziyarətdən sonra ağrəqi *Əhər qəsəbəsində* saxlayıb, həzrət sultanül-övliya və bürhanül-əsfiyaye-səfiül-millət və din olan əzəmətli və qəbirləri Allah nuru ilə dolu Səfəvi şeyxlərinin ziyarəti üçün – qəbirləri nurla dolsun, – Ərdəbil darülirşadına yollandı. Qərçiqay xan qələbə nişanlı əskərlərlə göndərildiyi xidmət yerinə rəvan olaraq, əvvəlcə Ərzruma tərəf yollandı, qala ayağına çatanadək heç yerdə dayanmadı. Mö'təbər rum vəzir və paşalarından olan Ərzrum bəylərbəyi Həsən paşa qəhrli qoşunun sədəmələrindən qorunmaq üçün şəhərə və qalaya sığınıb, müqavimət və qarşıdurma qüdrətini əldən verdi. Qorxmazlıq göstərib qarşıya çıxan bir dəstə şücaətli rumi əskəri öndə gedən qızılbaş qoşunun sədəməsinə tab etməyib, cəngdən sonra məğlub oldu və şəhərə qayıtdı. Şüarları igidlik olan qazilər qala ayağınadək at sürüb, bir neçə rumiyyə əskərini öldürdülər, onların bə'zilərini isə əsir götürdülər. O vilayətdə bir neçə gün qalan Qərçiqay xan qəhrli döyüşçü dəstələrini bölük-bölük ayırıb, taraca göndərdi və qızılbaş

[1] Beytin farscası:
Be şəmşiri yeki ta dəh təvan koşt,
Be rə'yi ləşkəri-ra beşkənəd poşt

s.921 döyüşçüləri həmin vilayəti bütünlüklə qarət edərək, böyük dağıntılar törətdilər, həmin yerdən çıxıb Van vilayətinə üz tutdular. Van bəylərbəyi olan və əhali arasında Təkəli paşa adı ilə tanınan Məhəmməd paşa Təkəli ləşkərinin əzəməti, məqamının böyüklüyü, həşəmət və cəsarətinin çoxluğu ilə başqa paşalardan fərqlənirdi. O, keçən il Səlmasda Pirbudaq xan və başqa əmirlərlə döyüşüb qalib gəldiyi üçün, qürurlanıb böyük iddialara düşmüşdü. Bə'zi tədbirli adamlar ehtiyat və uzaqgörənlik edərək, Vana hücum etməyi məsləhət görmürdülər, çünki qızılbaş döyüşçüləri fəqət Ərzrum yürüşünə çıxmışdılar və onların atları yolun uzaqlığından yorğun düşmüşdü. Təkəli paşa və Van sancaqbəyləri rahat atlar və böyük ləşkərlə fürsət gözləyir və döyüşə hazırlaşırdılar.

Müzəffər orduya bir xəsarət dəyməsin deyə əzəmətli əmirlər və ağsaqqallar yığışıb məşvərət etdikdən sonra, hər kəsin əqli və bacarığını nəzərə alıb belə qərara gəldilər: "Vanda toplanan adı çəkilən paşa və kürd tayfa əmir və döyüşçülərin sayı həmin yerlərdə olan adamların fikrinə görə on beş min nəfərdən artıq deyildir, hələ bəlkə bundan da azdır. Belə olan halda o əskərlərlə müharibədən yayınmaq qəhrli dövlətə və qızılbaşların ad-sanına, namusuna layiq bir əməl deyildir. Buna görə də, biz gərək yorğun atları olan əskərlərin hər birini Təbrizə qaytaraq və süvari, piyada və tüfəngçilər arasından bir dəstə qorxmaz adam ayırıb, Allahın iltifatı və şah qanununun iqbalı sayəsində düşmən üzərinə hücuma keçək. Ümidvarıq ki, zəfər bu dövlət adamlarına nəsib olacaqdır". Qoşun ə'yanlarının əksəriyyəti bu fikri bəyənib Van istiqamətinə yola düşdü. Bir-iki mərhələ yol getmişdlər ki, olduqca maraqlı və qəribə bir qəziyyə baş verdi,

**[Misra]**

*Nə əlin xəbər tutdu, nə oxun qana batdı*[1]

misrasına uyğun Təkəli paşa öz qürur və ədəbsiz lovğalığına cavab olaraq *Hekari kürdləri* tərəfindən qətlə yetirildi.

---

[1] Misranını farscası:

"Ni dəste-to darəd xəbər, ne tiğe-to aludegi"

## TƏKƏLİ PAŞA ADI İLƏ MƏŞHUR OLAN MƏHƏMMƏD PAŞANIN VƏ ZƏKƏRİYYA XANIN OĞLU YƏHYA BƏYİN BİRİ-DİGƏRİNİN QILINCIN VƏ DADA YETİŞƏN ALLAHIN İSTƏYİ VƏ TƏQDİRİ İLƏ QƏTLƏ YETİRİLMƏLƏRİNİN ZİKRİ

*Eşitdiyimizə görə* bu qəribə vaqiə belə baş vermişdir: Yuxarıda yazıldığı kimi, Təkəli paşa rumiyyə adamları arasında öz şücaəti, mərdanəliyi, igidliyi və dilavərliyi ilə məşhur idi. O, Osmanlı xanədanına göstərdiyi xidmətə görə uca əyalət başçısı və paşalıq rütbəsinədək inkişaf etdi və bu hadisələr baş verən vaxtlarda Van bəylərbəyi idi. Elə ki, sipəhsalar Qərçiqay xanın əzəmətli qoşun başçıları ilə Ərzruma yürüşü xəbərini eşitdi, lovğalığının çoxluğundan qızılbaşlarla döyüş xəyalı ilə kürd və başqa tayfa əmirlərini toplayıb, on-on iki min adamla Təbriz ətrafını qarət etmək məqsədiylə Vandan çıxdı. Elə ki, *Çaldıran yaxınlığındakı Xoyun Qara (!) dərə* adlı yerinə çatdı, mə'lum oldu ki, qalibiyyətli qızılbaş ləşkəri Ərzrumdan zəfərlə qayıtmış və indi Vana hücum niyyətindədir. Təkəli paşanın məqsədi o ətrafın hələ tam yığılmayan qoşunlarını, sancaq əmirlərini və
s.922 tayfa başçılarını toplamaq və qızılbaşlarla döyüşmək idi, lakin oradakı kürd əmirləri hərb etməyi məsləhət görməyib, bir-birləri lə razılaşdılar ki, onların hər biri öz yerinə qayıdıb tayfalarının qeydinə qalsın, məkan və qalalarını möhkəmləndirsin, çünki qızılbaş ləşkəri əgər o yerlərə gedib çatsa, bəla atəşi ucalacaq, tayfa arasına vəlvələ düşəcək, çaxnaşma baş verəcəkdir. Gərək paşa da Vana tərəf dönərək şəhər və qalanı qorusun, çünki əskərlər öz əhl-əyallarını, namus və var-dövlətlərini qorumaq naminə paşadan ayrılacaq və döyüşə girməyəcəklər. Bidlis hakimi Şərəf xanın oğlu Ziyaəddin xan bu niyyətlə paşadan ayrılıb, onun icazəsi olmadan Bidlisə tərəf getdi. Hekari tayfasının əmiri və sərdarı olan Zəkəriyya xanın oğlu Yəhya bəy də getmək fikrinə düşdü. Bunu eşidən paşa bəyin getməyinə mane olaraq, geri qayıtmasından ötrü, onun yanına bir çavuş göndərdi,

onu məzəmətləndirib, getməsinə mane oldu. Çavuş qayıtmaq istəməyən Yəhya bəyi kobud söyüşlərlə söydü və qılıncla hədələdi. Bəyin mülazimlərindən olan cahil bir adam çavuşun söyüşünə dözməyib, onu qılıncla yaraladı. Fitnənin əli uzun və hadisə qılıncı iti olduğundan, çavuş aldığı yaradan öldü. Bunu eşidən Təkəli paşanın qəzəb şö'ləsi zəbanə çəkdi və bəyi zorla geri gətirmək üçün bir dəstə adam göndərdi. Həmin dəstə çatarkən artıq hekari ləşkəri çıxıb getmişdi, bəyin özü də öz yaxın adamları və ə'yanları ilə birlikdə yola rəvan olmaqdaydı. Fitnədən qorxub narazılığını birbaşa bildirmədi və onlarla birlikdə paşanın ordusuna gəldi. Görüş zamanı paşa ona acıqlanaraq, əlini qılıncın dəstəyinə apardı, bəyin üstünə cumdu. Yəhya bəylə dost olan bir-iki mülazim paşanın bəyi öldürəcəyini güman edib irəli atıldılar və paşanı yaraladılar. Paşanın xidmətçiləri də Yəhya bəyi qılıncladılar. İlahinn təqdiri və şah iqbalının gücü sayəsində onların ikisi də aldıqları yaralardan öldü, tərəflərdən bir neçə nəfər də həlak oldu. Hər iki dəstə sərdarları aradan getdiyindən və qızılbaş ləşkərinin yaxınlaşma sədası anbaan eşidilməyə başladığından, [osmanlı] qoşunu arasına çaxnaşma düşdü və heç bir tərəf vuruşmaq və bir-birindən intiqam almaq fikrinə düşmədi, öz canının qayğısına qaldı. [Beləliklə,] rumilər Vana tərəf getdilər, kürd tayfalarının hər biri isə öz yerlərinə döndü, iqbalın köməyindən pərakəndəlik yarandı və iki qüvvətli düşmən belə asanlıqla dəf' edildi. Bu Yəhya bəy Zəkəriyya xanın oğludur ki, nəsilbənəsil hekari tayfasının əmirləri və öz irsi ülkalarının sahibləri olmuşlar. Onlar özlərini Abbas ibn Əli əleyhüssəlamın övladı sayır, şiə seyidlərə e'tiqad edirdilər. Şiə müxalifləri Fatimənin övladlarından başqa heç kimi seyid saymadıqları üçün, rumiyyə camaatı onların (hekarilərin-*Ş.F.*) seyidliklərini düzgün saymır və qəbul etmirlər. Buna görə də, Yəhya bəyin və ata-babalarının adlarına yazılan hökmlərdə "seyid" ifadəsi əks olunmamışdır. Zəkəriyya bəy zillələh şaha öz sədaqətini izhar etdiyindən, həmişə ona sədaqət məktubları yollayaraq, özünü qızılbaş dərgahının tərəfdarı kimi təqdim edirdi.

Zəkəriyya xan seyid və abbasi tərəfdarı olduğu üçün ə'lahəzrətin ona qarşı xüsusi şəfqəti vardı və onu yüksək xan ləqəbi ilə şərəfləndirmişdi. Yəhya bəy isə atasının bu
s.923 hərəkətini bəyənməmiş, paşaların köməyi ilə atasının ixtiya-
(651) rını əlindən almış, irsi el, tayfa və ülkanı zəbt etmiş, qızılbaşlara müxalif olduğunu bildirmişdi. Atasına qarşı ondan hörmətsizlik baş verdiyindən, nəhayət o, öz cəzasına çatmış və oyunbaz fələk onunla belə oyun oynamışdı.

**Misra**

"*Necə xoş ki, bir əməllə iki iş baş versin*".[1]

s.923 Xülasə, bu vaqiənin xəbəri Qərçiqay xana və əmirlərə çatanda öz sür'ətlərini artırıb Vana tərəf cumdular, oranı da Ərzrum kimi qarət və viran edib geri döndülər. Ə'lahəzrət Ərdəbil darülirşadından qayıtdıqda və Təbriz darüssəltənəsinin torpağı ali ordunun qopardığı tozla ətirləndikdə, onlar şahın ayağını öpməklə şərəfləndilər.

## SƏRDAR XƏLİL PAŞANIN DİYARBƏKRƏ GƏLİŞİ VƏ ƏLİŞƏKƏR SƏRHƏDİNƏ LƏŞKƏR GÖNDƏRMƏSİ, RUM PADŞAHI SULTAN ƏHMƏD XANIN HƏYAT DARÜLMÜLKÜNDƏN ÇIXIB BAŞQA ALƏMƏ YOLLANMASI, QARDAŞI SULTAN MUSTAFANIN TAXTA CÜLUSU, QƏZANIN VƏ FƏRMAN SAHİBİNİN TƏQDİRİ İLƏ BAŞ VERƏN BAŞQA HADİSƏLƏRİN ZİKRİ

Yuxarıda yazıldığı kimi, Rum sultanı Xəlil paşanı baş vəzir və sərdar tə'yin edərək çoxlu döyüşçü dəstələri ilə qızılbaş sərhədinə göndərdi ki, o, bu il sərhəddə qışlayaraq, gələn ilin baharında qızılbaş ülkasına ləşkər çəksin. Xəlil paşa Ərzruma üz verən viranlığa görə Diyarbəkr vilayətini özünə qışlaq yeri seçdi və orada iqamət elədi. Köməyə gələn tatar tayfasının padşahı Mübarək Gərayın oğlu Canı bəy Gəraya tatar döyüşçüləri ilə birlikdə münasib bir qışlaq verdi,

---

[1] Misranın farscası:

"Çe xoş bovəd ke bərayəd be yek kereşme do kar".

sonra rumi və tatar döyüşçülərini abad vəziyyətdə olan ətraf yerləri viran etməyə göndərdi və nəticədə o il rumiyyə ülkasında tatarlar tərəfindən böyük viranlıqlar baş verdi. Belə vəziyyətdən sonra aləmi bəzəyən rə'y belə oldu ki, sərdar və sipəhsalar rütbəsində olan Qərçiqay xanı Rum sərdarı Xəlil paşaya qarşı Azərbaycan sərhədində saxlasın. Buna görə də, onu böyük bir böyük bir qoşun ilə Təbriz darüssəltənəsində saxladı, Gürcüstanda etdikləri səhv hərəkətlərə görə ittiham olunan bir dəstə əskəri də Təbrizə, onun yanına göndərdi.

**DƏRGAH MÜLAZİMLƏRİNƏ MƏVACİB VƏ HƏMESALE RÜSUMLAR (MƏRSUMAT) TƏ'YİN OLUNMASI HAQQINDA**

Ə'lahəzrətin nurlu xatiri daim bu fikirdəydi ki, şah rikabı mülazimləri və müzəffər əskərlərin, hətta büyutat əmələ şagirdlərinin də ilbəil məvacib alaraq yaxşı xdmət etmələri üçün onlara müəyyən yerlərdən *həmesale məvacibi* müəyyən olunsun, onlar qoy dəftərxanaya və divana getməkdən, maaş (tənxah)* tələbindən və mərsumatdan azad edilsinlər. Şah elə bu vaxtlarda həmin işin əncamına diqqət yetirərək, əskərlərin bütün xərclərinin təmamilə mahalların pulu hesabına ödənilməsi əmrini verdi və bu işin icrasını bu iqbal səhifəsinin mələk xislətli yaxşı xüsusiyyətlərini özündə ehtiva edən (mə'nun) ali divanın vəziri alicənab e'timadüddövlə Mirzə Əbu Talibə həvalə etdi və buyurdu ki, o, gərək bu qış hümayun dəftərxananın qələm əhli ilə Təbrizə gedib, hər dəstənin və hər şəxsin xərcini onların mənsub olduqları məhəl hesabına müəyyən eləsin, məskənlərin yaxın və uzaqlığını məvacib sahibinin razılığı ilə nəzərə alsın, hər şəxsə ödəniləcək məvacibi adbaad müəyyənləşdirsin, hər adamın baratını həmesale qeydiyyatı ilə onun özünə versin.

Alicənab e'timadüddövlə və əzəmətli müstövfilər ali əmrə müvafiq olaraq, Təbrizə gəlib ilin sonunadək qalan dörd ay ərzində öhdələrinə qoyulan tapşırığı yerinə yetirdilər. Bu
s.924 sətirlərin müəllifi də hümyun darülinşanın bir neçə nəfər

katibi ilə hökmlərin (ehkam) yazılışı üçün o əzəmətli qulluq sahiblərinin xidmətində oldu, dörd ay gecə-gündüz bu böyük işə girişdi.

Xülasə, ə'lahəzrət sərhədin zəruri işlərinin əncamından sonra, səadət və iqballa, behiştə bərabər Mazandaran qışlağına getdi ki, mübarək baharda İlahinin məsləhəti və təqdirini yerinə yetirsin, qeyb aləminin gizli (məkmən) istəyi baş tutsun.

Baş vermiş iqbal hadisələrindən biri də budur: Xəlil paşanı sehran tayfasının sancaq əmiri olan Ömər bəylə birlikdə, habelə qarətkar tatar qoşunu ilə Əlişəkər sərhədini qarət etəmk məqsədiylə Kərkuyə və Şəhrizur tərəflərə göndərdilər. Onlar Kərkuyədən keçərək Əlişəkər sərhədinə
**s.925** hücuma keçdilər və o yerlərdə qarət və zülmkarlığa başlayıb
**(652)** Allah bəndələrinin pərən-pərən düşmələrinə bais oldular. Luristan hakimi Hüseynxan və adı çəkilən sərhəddə olan Qasım Sultan İmanlı Əfşar müxalif qoşunun gəlişindən agah olaraq, bir-biri ilə birləşdilər və cəng məqsədilə yola düşdülər. Mahidəşt yaxınlığında əskərlər qarşılaşdılar və onların aralarında böyük savaş oldu. Hümayun iqbalın və dövlət qüvvəsinin sayəsində müxaliflər məğlub edildilər və qalibiyyətli döyüşçülərə zəfər qismət oldu. Döyüşdə Qayış paşa qətlə yetirildi, Sehran hakimi Ömər bəy əsir alındı. Rumiyyə tatar və kürd əskərlərinin bir çoxu öldürüldü, müzəffər döyüşçülərdən isə adı-sanı olan heç kim tələf olmadı, əskərlərə elə də böyük xəsarət yetirilmədi. Bu xəbər şahın cəlal qulağına gəlib çatanda adı çəkilən əmirlər şahanə hədiyyələrlə mükafatlandırıldılar, Ömər bəyi isə, Reydə saxlanması üçün, Əliqulu xan Şamlıya tapşırdılar.

**Misra**

"*Ondan daha bir əsər görünmür*"[1]

---

[1] Misranın farscası:

"Digər xəbəri əz u nəyaməd"

Baş verən başqa bir hadisə isə bu vaqiələr zamanı Sultan Əhməd xanla bağlı olan qəziyyədir.

Bu barədə oraya gedib-gələn adamlar belə danışırlar: Rum padşahı Sultan Əhməd xana, Xəlil paşanı göndərdikdən sonra, bu ilin payız fəslində ağır xəstəlik üz verdi və təbiblərin müalicələrinin faydası olmadı. Elə həmin bir neçə gün ərzində də cavanlıq aləminin və həyat ləzzətinin nakamlığına mə'ruz qalaraq ömrə vida elədi, İstanbul istixanasından (məhmiyyə) axirətə getdi.

Allah tərəfindən pozulması qadağan və xəlayiq tərəfindən pislənən əhd-peyman sazişini pozduğuna görə sultan ömür və dövlətdən ləzzət görməyərək, özünün İstanbulda inşa etdiyi imarətdə dəfn olundu. İki azyaşlı oğlu qalmışdı. Böyük oğlu Sultan Osmanın on iki, kiçik oğlu Sultan Muradınsa beş yaşı vardı. Ale-Osman sülaləsinin ağsaqqalları, ələlxüsus şah sarayında mö'təbər və ixtiyar sahibi olan *qızlar ağası* hər iki oğulun yaşlarının az olmasına görə səltənət və padşahlıq ipini beyni pozğun və məzacı dəyişkən olan, övrətlərin daim hərəmxanada saxladıqları Sultan Əhmədin qardaşı Sultan
**s.925** Mustafaya verdi. Onun taxta cülus etmə xəbəri ətrafa yayıldı. Rum diyarına gəlib-gedənlər belə deyirlər ki, Sultan Mustafanın əcəm diyarına ləşkər göndərmək və müsəlmanlarla müharibə etmək fikri yox idi. O, qardaşının hakimiyyəti dövründə mə'lumatının çoxluğu, ya beyninin tərpənməsi, ya da təbiətinə görə, vuruşmaq barədə düşünmür və bu haqda öz fikrini bildirirdi. Elə ki, səltənət başına çıxdı, öz istəyi,yaxud qızlar ağasının və başçılarının təklifləri ilə qızılbaşlarla sülh etmək fikrinə düşdü. Mazandaran sipəhsaları Qasım bəy, yuxarıda yazıldığı kimi, iki il bundan əvvəl Rum elçisi İncili Çavuşla və Gürcüstanda tutulmuş rum əskərləri ilə birlikdə dostluq məktubu və töhfələrlə elçi kimi osmanlı sarayına göndərilmişdi. Sultan Əhməd xan inadkarlığından sülh bağlanmasına peşman olmuş, Qasım bəylə görüşməmiş və onu İstanbulun Həftqəl'ə həbsxanasında məhbus etmişdi. Sultan Mustafa elçilik qayda-qanununa əməl edərək, onu yanına çağırıb görüşdü, hədiyyələrlə geri qayıtmasına izn verdi.

Onun geri dönməsi və başqa əhvalatlar barədə gələn il məlumat veriləcəkdir.

Baş vermiş başqa hadisələrdən biri Həlu (Həlov?) xan Ərdəlanın oğlu Xan Əhməd xanın öz irsi mülkünün hakimiyyəti başına çıxmasıdır. Vaqiə belə baş vermişdir. Ə'lahəzrət zillələllah şah, yuxarıda yazıldığı kimi, keçən il şahanə tərbiyət altında böyümüş Xan Əhməd xanı atasının yanına göndərdi ki, böyüdüyü üçün daha atasının yanında yaşasın və əgər Allah qoyarsa, Rəbbani qəzavü-qədər nəticəsində, atası rəhmətə gedəndən sonra onun yerində əyləşsin.

Həlu xan elə adamlardandır ki, onlar nə qədər ki, canları var, dünyəvi məsələlərdən, o cümlədən məmləkətdən, hökmranlıqdan, mənsəb və böyüklükdən əl çəkə bilmirlər. Ata öz oğlunu, hakimiyyəti ondan alacağından qorxaraq, yanına buraxmadı. Nəhayət, bə'zi adamların məsləhəti ilə Xan Əhməd xana Şəhri-Zur və Zeləm qalasında yer verdi. Bə'zi Ərdəlan tayfaları onun başına yığışdı və fitnəkar şəxslərin fəsadı nəticəsində ata və oğul arasında vəziyyət pisləşdi, vəhşət yarandı, bir-biri üzərinə ləşkər çəkdilər, cəng başlandı. Xan Əhməd xan ataya xain çıxdığı üçün bir müddət ondan kənarda dolandı. Bu il, Həlu xan özünün əyləşdiyi Həsənabad hökümətgahından çıxıb, qüvvə yığmaqdan ötrü ətrafda olan qalalarından birinə getdiyi vaxt, Xan Əhməd xan bir neçə nəfər adamı ilə gizlincə gedərək, hiyləgərliklə özünü qala daxilinə
**s.926** sala bildi, atsının neçə illərdən bəri xəzinə və dəfinələrinin
**(653)** saxlandığı o möhkəm qalanı ələ keçirdi, ərdəlan qəbilə və tayfalarına cürbəcür ənam göndərdi, ətrafına böyük bir dəstə ə'yan və yaxın adamını topladı, onlar da xanın hakimliyini qəbul etdilər. Həlu xan vəziyyəti belə görüb razılaşmaqdan başqa bir çarə tapmadı, acizliyi, qocalığı, natəvanlığı, cismani zəifliyinə görə oğluna tabe oldu, zərurət üzündən mülk və malını ona verdi, oğlunun məsləhətinə qulaq asıb, aləmə pənah verən dərgaha (səfəvi sarayına – *Ş.F.*) getdi. Bu neçə ildə xandan üz vermiş tabesizliyə və oğlunu bu dərgah bəndəliyinə zərurət üzündən göndərməsinə baxmayaraq, ə'lahəzrət ona bu şe'rdə deyildiyi kimi güzəşt etdi:

**Beyt**

*Bu bir qaydadır ki, ağıllı kəslər,*
*Qocalmış bəndəni azad eyləyər.*[1]

Ə'lahəzrət ona bu sülaləyə sabiq vaxtlardan xidmət etdiyinə görə inayət və iltifat göstərdi, belə qərara aldı ki, o, gedib ömrünün qalan hissəsini İsfahan darüssəltənəsində başa vursun.

**Beyt**

*Cənnətə bənzər olan həmin işrətabadda*
**s.926** *Asudə yaşayaraq ömr eləsin həyatda.*[2]

[Şah buyurdu ki,] xan şahanə ədalət və mərhəmət kölgəsi altında ömür sürüb, dövran hadisələrindən və zəmanə hakimlərinə məxsus hökmlərdən kənar olsun. O vaxt Həlu xanın yaşı həştadı keçmişdi və o, doqquzuncu on illiyə qədəm basmışdı. Amma, üz-gözündən ona yetmişdən artıq yaş vermək olmazdı.

**ÖZBƏK DƏSTƏLƏRİNİN XORASANA GƏLİŞLƏRİ, MƏRV HAKİMİ MEHRAB XANIN HİSARİ-ŞADİMAN ÖZBƏKLƏRİ İLƏ CƏNG ETMƏSİ VƏ ONLARIN ÜZƏRİNDƏ QƏLƏBƏSİ**

Hadisə belə olmuşdur: Bu ilin payızının axırı, qışının əvvəllərində Mavərənnəhr valisi İmamqulu xan Özbək divanbəyibaşı Nədr Toğanın sərkərdəliyi altında Buxara əskərlərindən ibarət otuz minədək döyüşçünü Xorasanı tarac etməyə göndərdi. Onlar Amuyə çayını keçərək Mərvə yaxınlaşdılar, oradan Əbivərdə gəlib, Dərcəz (Dərcəzin?) yolundan başlayaraq Nişabura qədərki yerləri talan etdilər,

[1] Beytin farscası:
Rəsməst ke malekane-təhrir
Azad konənd bəndeye-pir

[2] Beytin farscası:
Dər an eşrətabade-minusereşt
Bər asude xakəş be xake-beheşt

keçdikləri yollardakı bayat, çəmşgəzək və başqa [tayfa] əhalisinə bərk ziyan dəydi. Özbəklər müqəddəs Məşhədin də taracına getmək istəyirdilər ki, Mehrab xanın Hisar (Hisare-Şadiman – *Ş.F.*) ləşkəri ilə hərb etməyi barədə xəbər gəlib çatdı. [Özbəklər] qorxudan orada dayana bilməyərək tam çaşqınlıq və iztirabla qayıdış yolunu üzə tutdular. Həmin müharibə belə baş vermişdi: Adı yuxarıda çəkilən divanbəyiyə qoşulmaqdan ötrü yola düşmüş Hisari-Şadiman özbəklərinin min beş yüz nəfər adlı-sanlı bahadırları ona qoşulmaq istədilər. O dəstənin sərdarları Tülək Bahadır və Dostu Mirzə idi. Onlar Mərvi keçərək, iki-üç fərsəx yol gedmişdilər ki, Mehrab xan xəbər tutdu, min nəfər işə yararlı qızılbaş və tüfəngçilərlə birlikdə qaladan çıxdı və o dəstə üzərinə hücuma keçdi. Qızılbaş ləşkərinin işartısı göründükdə, özbəklər artıq atlarından düşüb xeymə qurmuşdular. Öz ordularının qabağında çəpər çəkərək, önlərinə atlar düzdülər və piyada halda cəngə başladılar. Bu vəziyyət Mehrab xana mə'lum olduqda, öz tüfəngçilərini irəli göndərdi, əmr etdi ki, atları güllə ilə vurub öldürsünlər. Tüfənçilər əmrə əməl etdilər və onların güllələrindən çoxlu at tələf oldu, özbək bahadırlarının çoxu da ədəm yoluna yollandı, onlara zəiflik və süstlük üz verdi. Bu vəziyyət qazilərə bilindikdə hamılıqla hücuma keçdilər. Qızılbaşlara tab edə bilməyən özbəklər özlərinin sağ qalan atlarına tərəf qaçdılar ki, bəlkə atlanıb fərar edə bilsinlər. Onların bə'ziləri ata süvar ola bildilərsə də, bə'ziləri buna fürsət tapa bilmədilər, bir az piyada haldı döyüşüb, bacardıqları qədər əl-ayaq atdılar. Bərk məğlubiyyətə uğrayan özbəklərin beş yüzədək döyüşçüsü qətlə yetirildi, iki yüz əlli nəfəri əsir alındı. Tutulanlar içərisində Tülək bahadır və Dostum Mirzə də vardı. Sağ qalan başqa özbəklərsə piyada və ata süvar halında səhraya tərəf üz tutdular. Mehrab xan bir dəstə qazini fərar edən özbəklərin təqibinə göndərdi. Tülək bahadır və Dostum Mirzə yalvarmağa başlayıb, Şah Qasimin mübarək başına and içdilər, xahiş etdilər ki, Allah-təala ki, xana fəth və zəfər qismət etmişdir, şahın mübarək başının təsəddüqü olaraq sağ qalmış özbəklərin qanlarından keçsin

və onları tə’qib etməkdən əl götürsün. Bu xahişi nəzərə alan
Mehrab xan bu böyük qələbə münasibətilə qaziləri tə’qibdən
saxladı, daha qala xaricində bundan artıq qalmağı məsləhət
s.927 bilməyib geri qayıtdı, baş verən hadisəni şah dərgahına ərz
(654) etdi, ad-sanları olan on nəfər əsiri sərdarları ilə birlikdə
cahanpənah saraya göndərdi, başqa özbəklərsə qətlə yetiril-
dilər. Heratda olan Rüstəm Məhəmməd xan ibn Vəli
Məhəmməd xan şahın yanına adam yollayaraq, əmirlərin
s.927 buraxılmasına xahiş etdi. Ə’lahəzrət onun xahişini nəzərə
alıb, həmin bahadırları azad etdi, Rüstəm Məhəmməd xanın
yanına göndərdi ki, onun yanında qalsınlar. Amma, onlar
dörd-beş gündən artıq orada qalmayıb, Hisara tərəf fərar
etdilər.

Baş vermiş başqa hadisə belə olmuşdur: Bu il sədr olan Qazi xan Seyfi əl-Hüseyni vəzifəsindən kənarlaşdırıldı, onun yerinə Heydəriyyə türbətinin Musəvi seyidlərindən olan və Rəzəviyyə rövzəsi sərkarının mütəvəllisi vəzifəsini daşıyan Qazi Sultan Türbəti həmin ali rütbəyə tə’yin edildi. Sərkarın mütəvəllisi isə ə’lahəzrətlə yaxınlıq şərəfi ilə sərəfraz olan Mirzə Uluğ bəyin oğlu Mirzə Möhsün Rezəvi oldu. İlahinin təqdiri ilə, sədarət vəzifəsi ilə şərəflənən Qazi Sultan elə həmin gün də xəstələndi, mərəzi gündən-günə şiddətləndi, yedd gün natəvanlıq yatağında qaldı, səkkizinci gün Ərdəbil darülirşadında həyata əlvida edərək, Allah rəhmətinə getdi, beləliklə də, təkcə bir gün möhürlənən onun sədarət tüğrası* ikinci gün işdən qaldı. Onun vəfatından sonra sədarət mənsəbi Mirzə Rəfiəddin ibn Mir Şücaəddin Mahmud ibn “Xəlifə Sultan İsfahani” adı ilə məşhur olan Xəlifə Seyidəliyə verildi ki, onlar əsl mazandaranlı və Mazandaran valisi Mir Bozorgun nəslindəndirlər. Onların əcdadlarından Əmir Nizaməddin dövran hadisələrindən qaçaraq İsfahana gəlmiş, oranı özünə vətən seçmiş və həmin vilayətdə “Sadat Xəliəfə” adı ilə məşhur olmuş, [sonra] İsfahandan ali dərgaha gələrək, orada müstəqil sədarət mənsəbinə tə’yin olunmuşdu. Həqiqətən də fəzilət və kamalının çoxluğundan olduqca məşhurdur, onun mələk sifatlı zatı nəfs toxluğu, həqqaniyyət, xeyrxahlıqla

doludur. Oğlu Mir Şücaəddin Mahmud öz dövrünün böyük üləmalarından idi. Onun barəsində [bu kitabın] birinci səhifəsində "Cəm məqamlı həzrət cənnətməkan şahın zamanında fəaliyyətdə olan seyidlər və üləmaların əhvalı" hissəsində yazılmışdır.

### BU İL ƏCƏLƏ GİRİFTAR OLUB TORPAĞA GÖMÜLƏN MƏŞHUR ADAMLAR

**Qazi Sultan Türbətinin vəfatı:** Yuxarıda yazıldığı kimi, Qazi Sultan Xorasanın işğalından sonra İraqa gəldi, iş bacarığının çoxluğundan, şahanə tərbiyətə layiq görülərək, sonra Heydəriyyə türbəsinin başçısı və sərkarın mütəvəllisi oldu və həmin vəzifədə şah tərəfindən bəyənildiyi üçün (mərzi) iyirmi iki il fəaliyyət göstərdi.

**Seyid Nasirin vəfatı:** Bu dudmana yaxınlıqla sərəfraz olan Həvizə Ərəbistanı valisi Seyid Mübarəkin oğlu Seyid Nasir, şahın əmri ilə həmin vilayətə qayıtmış, atasının ölmündən sonra öz irsi mülkünün hökmdarı olmuşdu. Bu il ona zəmanənin gözü dəydiyindən, ağır xəstələndi, təbii əcəli ilə vəfat etdi. Bir dəstə adamın fikri ilə onu, ağılsız və cahil olduğu üçün, ərəb fitnəkarlarının təhriki ilə, Seyid Mübarəkdən oğlu olan qadınlardan biri zəhərləyibdir. Doğrusunu Allah bilir.[1] Seyid Mübarəkin oğlu hələ kiçik olduğundan həmin vilayət hakimliyi Mübarəkin qardaşı oğlu Seyid Raşedə verildi. Adı çəkilən Seyid Nasir xoşəxlaq,
s.928 təvazökar bir seyidzadə idi, camaatla yaxşı davranırdı. Məlik və hakimlərdən ötrü olduqca zəruri sayılan ifrat xoş rəftarının onda az olması səbəbindən vəzifədən uzaqlaşdırılmışdı.

**Mirzə Rəzinin vəfatı:** Mirzə Rəzi ibn Mirzə Məhəmmədtəqi İsfahan darüssəltənəsinin ə'lahəzrətə yaxınlığı ilə sərəfraz olan və ali dərəcəli "Şəhristan seyidləri" kimi tanınan seyidlərindəndir. Göycə və Meydancuqda onda mə'də xəstəliyi zahir oldu. Amma müalicə ilə az

[1] Ərəbcəsi: "əl-ilmu ind-əl-lahi"

məşğul olurdu. Şah ordusunun tərkibində Əhər qəsəbəsində Ərdəbilə getdiyi vaxt orada xəstəliyi şiddətləndi, ishala səbəb oldu, zəifliyi gün-gündən artdı. Təbriz darüssəltənəsindən çıxıb İraqa yollandıqda, onun artıq ata minmək qüvvəsi qalmamışdı. Kəcavəyə oturub Zəncan qəsəbəsinə gəldikdə, Allahın çağırışına "ləbbeyk" dedi, cəsədini Qum darülmömininə aparıb həzrət Mə'sumə əleyha və onun pak sələflərinin nurlu məzarının yanında dəfn etdilər. Ə'lahəzrət onun vəfatından çox kədərləndi, ona verilmiş sədarət mənsəbini əvvəlcə Mirzə Rəzinin oğlu, özününsə qız nəvəsi olan Mir Sədrəddin Məhəmmədə namizəd etdi, amma bu vəzifə, Mir Sədrəddin azyaşlı olduğu üçün, onun əmisi oğlu Mirzə Rəfiyə verildi. Nəhayət, müstəqil sədarət mənsəbi, habelə çəhardəh məsum (on dörd məsum) həzrətlərinə aid olan mübarək fərmanların möhrdarı olmaqla sərbülənd oldu, o cür yüksək (moəzzez) vəzifələrlə şərəfləndi.

Ali hərəmxananın eşikağasıbaşısı Heydər Sultan Bigdeli Şamlı İsfahan darüssəltənəsində öz vəzifəsi ilə məşğul idi. Bu il xəstələnib bəqa aləminə yollandı, ali hərəmxananın eşikağasıbaşı mənsəbi dərgahın etibarlı adamlarından olan Əbülqasim bəy Evoğlu Abdarbaşıya* verildi, abdarlıq (abdari) peşəsi isə qardaşı Çələbi bəyə tapşırıldı. Əbülqasim bəy şamlıların bigdeli oymağındandı. Xidmətlərinin çox olması və işə can yandırdıqlarına görə o və qardaşları e'tibar sahiblərindən oldular, varlandılar. Təxminən iki min tüməni-İraqi məbləğində olan mal və başqa vəsaitləri miras (həsbül-irs) kimi Əbülqasim bəyin düşüncəli, ləyaqətli oğlu Nurəddəhr bəyə verildi.[1]

Hindistan məmləkətlərinin hökmdarı Şah Səlimin yanına elçi sifətli getmiş Rza bəy Məşəldarbaşı** izn alıb İrana rəvan olmaq əsnasında Lahur yaxınlığında Allahın rəhmətinə getdi. O, əslən heratlı (herəvi) idi. Məhəmməd Rza bəy ə'lahəzrətin (Şah Abbas – *Ş.F.*) Herat darüssəltənəsində olduğu yeniyetməlik dövründə (əhde-səbi) onun xüsusi qoşununda (rikab) xidmət etmiş, məs'əldar olmuş, məş'əlxanə işlərini nizamla-

[1] Ərəbcə: "Həsbə-l-irsi-bi Nuriddəhr bik vələdin muşar ileyhi"

mışdır. Yaşadığı vaxt onun izzət və e’tibar çırağı yanmaqdaydı. Olduqca xoşrəftar (xəliq), xoşsöhbət, şe’r anlayan bir cavandı. Məhəmməd Rza bəy ilhamı daim özünə şüar etmiş, zəngin, lətif və şirin zarayatla dolu şe’rlər yazmışdı. Bu il onun ömür çırağı əcəl küləyi ilə söndü və adı çəkilən vəzifəsi
**s.929** övladlarına verildi.

## HÜMAYUN ZİLLƏLLAH ŞAHIN CÜLUSUNUN OTUZ İKİNCİ İLİ OLAN VƏ HÖKMRANLIĞININ İKİNCİ QƏRNİNİN İKİNCİ İLİNƏ TƏSADÜF EDƏN, YƏNİ TÜRKİCƏ MİN İYİRMİ YEDDİNCİ (1618) AT İLİNDƏ BAŞ VERƏN HADİSƏLƏR

Bu ilin novruz bayramı min iyirmi yeddici hicri ilinin rəbiül-əvvəl ayının iyirmi üçünə (20 mart, 1618), çərşənbə gününə təsadüf etdi. Ən böyük ulduz və aləmin mürəbbisi, yəni aləmi işıqlandıran günəş bu ayın caharşənbə axşamı yeddi saat doqquz dəqiqədən sonra hüt evindən çıxıb, həməl işrətgahına gəldi. Cahan bostanının gözəlliyi üzərində öz zülmkarlıq pəncəsini (tətavol) və qarətkarlıq əlini saxlamaqda olan zorən fatehlər (güman ki, şaxta və çovğun nəzərdə tutulur – *Ş.F.*) cahanı bəzəyən günəş tərəfindən əzildilər və öz yerlərinə çəkildilər. Baharın ənbər qoxulu ətri hicab niqabından çıxdı və büsat məclisinə qədəm basdı.

**Şe'r**

*Elə ki, o gözəl bahar göründü,*
*Cahan başdan-başa gülzara döndü.*
*Yel əsdi, çəmənlər sevincək oldu,*
*Torpaq da, hava da ətirlə doldu.*
*Elə ki, bülbüllər gəldi avaza,*
*Təravətli oldu çöl də, səhra da.* [1]

Ölkələr tutan ə'lahəzrət zillәllah şah baharın fərəh artıran bu günlərində cənnətə bənzər Fərəhabadın, behiştə oxşayan

[1] Şerin farscası:
Bəhare-delara nəmudar şod,
Cəhan sərbesər rəşke-golzar şod.
Səba ğəmgosar-o çəmən ğəmzəday
Cəhan ətrbiz-o həva ətrsay.
Xoruşan şode əndəlibane-bağ,
Təravətfəza gəşt səhra-vo zağ

Mazandaran və Firuzkuhun sevinc bəxş edən torpaqlarında seyr və şikarla məşğul olub dincəldi, oradan çıxıb Qəzvin darüssəltənəsinə təşrif apardı, iki ayadək mübarək dövlətxanada və Səadətabad bağında eyş-işrətlə məşğul oldu. Ali hökm verildi ki, ətraf yerlərdən gəlib toplaşan zəmətli əmirlər və müzəffər əskərlər Sultaniyyə çəmənində bir yerə yığılsınlar. Fərmanbərlər fərmana əməl etdilər və orada çoxlu adam yığıldı. Zəfər ayəli ordu hələ adı çəkilən darüssəltənədən çıxmamışdı ki, Rum diyarından gələnlər belə söylədilər: "Osmanlı xanədanının dövlət başçıları Sultan Mustafanın padşahlığından peşiman olaraq, onu vəzifədən kənarlaşdırmış və yerinə Sultan Əhmədin oğlu Sultan Osmanı taxta əyləşdirmişlər".

Məsələnin ağlabatan səbəbi isə belə olmuşdur: Sultan Əhməd vəfat edən vaxt baş vəzir olan Xəlil paşa Diyarbəkrdə idi, böyük bir xidməti yerinə yetirməklə məşğuldu. Dövlət və mülk işlərinin heç biri, osmanlı xanədanının qanunlarına görə, baş vəzirin rə'yi və məsləhəti olmadan icra oluna bilməz. Qızlar ağası və İstanbul ə'yanları baş vəzirlə məslə-
**s.930** hətləşmədən, din və dövlət böyüklərindən olan Sultan Mustafanı hakimiyyət başına gətirdiklərindən, Xəlil paşa bundan imtina edərək bildirdi: "Sultan Mustafanın başının pozğunluğu bütün ətrafa yayılmışdır və buna görə də o, dost və düşmən yanında etibarsızdır, mə'suliyyətli səltənət işinin
**s.931** öhdəsindən gələ bilməz. Azyaşlı olmasına baxmayaraq, bu
**(656)** vəzifə Sultan Osmanın olmalıdır və o, yaxın vaxtlarda inkişaf və kamal sinninə çatacaqdır". Buna görə də, Osmanlı xanədanının ə'yanları Sultan Mustafanın padşahlığından altı ay sonra ona təklif etdilər ki, özünü bu vəzifədən kənarlaşdırıb dövlət işini qardaşı oğlu Sultan Osmana versin.

Xülasə, o, istər-istəməz[1] Rum səltənəti və padşahlığından kənarlaşdırıldı və hakimiyyətə Sultan Osman gətirildi. Sultan Mustafa padşahlıqdan əl çəkərək, güşənişinliyinə və dərvişanə həyatını davam etdirməklə məşğul oldu, yenidən adət etdiyi tənhalığa qayıtdı. Sultan Osmanın taxta cülus

[1] Ərəbcə: "Tov'ən ov kərhən"

xəbəri hər yana yayıldı. O, şah [Abbasa] dibaçə, münasib epitetlər (əlqab) və rəsmi arifanə müraciətlərlə dolu uzun bir məktub yazdı. Elçi tə'yin edilən Həsən ağa adlı bir çavuş [o vaxtlarda] Ruma gələn, Sultan Mustafanın cülusu zamanı geri qayıtmaqdan ötrü ondan izn alan Mazandaran sipəhsaları Qasım bəy ilə birlikdə Xəlil paşanın yanında oldu, şahın adına yazılan məktubu Qəzvin darüssəltənəsində şaha təqdim etdi. Ale-Osman padşahlarının əzəmətləri böyüklükləri, ehtişamları və cah-calalları nəzərə çatdırılan həmən məktubda belə yazılmışdır: "Hədsiz ilahi hikmət nəticəsində mənim atam Sultan Əhməd cavan vaxtında, dövlət və kamranlığının başlanğıcında fani dünyadan əbədi saraya köçdü. Təbiətinbə guşənişinlik üstünlük təşkil edən böyük əmim əhalinin razılığına əsasən bir neçə gün səltənət və padşahlıq kimi möhtərəm vəzifəyə yüksəldi. Bu günlərdə o, yenidən təbiətindəki tərkdünyalıq səbəbindən öz razılığı ilə bu vəzifədən və hökmranlıqdan əl çəkdi, yerini bizim hümayun zatımıza verdi. İndi osmanlı dövlət taxtı və uca padşahlıq dərəcəsi bizim vücudumuzla bəzədilmişdir və dünya məlikləri öz təbrik qayda-qanunlarını yerinə yetirirlər. Bu xanədanın bütün tərfdarları və ətraf yerlərin əzəmətli insanları bizim fərmanlarımıza tabedilər. Sərdar və baş vəzir olan Xəlil paşa əziz atamın fərmanı ilə qızılbaş sərhədində nizam-intizam işləri ilə məşğul idi. Biz sülh və cəng işində ona ixtiyar vermişik ki, dövlətin tələbinə uyğun hərəkət etsin".

Adı çəkilən elçinin gəlişindən, ona göstərilən məktubun məzmunundan, həmçinin sülh sazişinin hazırlanacağından agah olan Xəlil paşanın naməsindən hali olandan sonra ə'lahəzrət zilləllah şah da Allah bəndələrinin (ibadullah) halına yanıb, baş verəcək böyük fitnə-fəsaddan çəkinərək, vəzirlərdən və qələm əhlindən biri olan Məhəmməd Hüseyn Əbhərini elçi kimi Xəlil paşanın yanına yolladı. Onun yazdığı məktubun məzmunu belə idi: "Sultan Əhmədin dövründə Nəsuh paşa və başqa xeyrxah adamların vasitəçiliyi ilə tərəflər arasında sülh yaranmışdı. Bizim tərəfimizdən böyük seyid və üləmalardan olan Qazi xan Sədr elçi sifətiylə getdi

və müfti, qazi və rum ə'yanlırının iştirakilə dostluq sazişi imzalandı. Tərəflər arasında o zaman elçi gediş-gəlişi davam etməkdəydi. Bu tərəfdən sülh əleyhinə heç bir hərəkətin olmamasına baxmayaraq Sultan Əhməd xan əhd-peymanı pozdu Öküz Məhəmməd paşanı ağır qoşunla İrəvan üzərinə yolladı. O səadət sahibinə (Sultan Osmana – *Ş.F.*) mə'lumdur ki, paşanın get-gəlindən əskər və rəiyyətə əziyyətdən başqa heç nə [hasil] olmadı. Və indi, bir halda ki, Sultan Osman sülh və cəngin ixtiyar cilovunu o cənabın (Xəlil paşanın – *Ş.F.*) əlinə tapşırmışdır, biz də əhalinin faydası və müsəlmanların vəziyyətinin yaxşılığından ötrü sülhə razılıq vermişik. Sözümüz elə əvvəlki sözdür! Əgər sülh sazişi yenidən imzalansa və Məhəmməd paşa Öküz təzədən sülhlə razılaşsa, bundan yaxşı nə ola bilər? Allah bəndələri belə olan halda
**s.931** əmin-amanlıqda olarlar əskər tapdağı altında qalmazlar, zəvvarlar və hacılar rahatlıqla ziyarətə gedib-gələ bilərlər, islam padşahlarının dövlətlərinin davam etməsi üçün dua edərlər. O zaman sülhün savabı hər iki tərəfə qismət olar. Yox əgər, buna razılıq əldə olunmazsa və cəng iddiasına düşərlərsə, biz buna da hazırıq. Qoy hər şey əzəli iradənin (Allahın – *Ş.F.*) istəyi üzrə həyata keçsin".

Elçini yola saldıqdan sonra müzəffər ordu Azərbaycana tərəf hərəkət etdi, bir neçə gün Xalxal yaylaqlarında dayandı. Əzəmətli əmirlərdən İsa xan Qorçibaşı və Əliqulu xan Şamlı bə'zi dövlət başçıları, yaxın şəxslər və izzət büsatının təşkilatçıları ilə birlikdə şahın ordusunda qaldılar, başqa müzəffər əmir və əskərlər isə sipəhsalar Qərçiqay xanla birləşmək və hərbə hazırlaşmaq məqsədiylə Təbrizə tərəf göndərildilər ki, sipəhsalarla birdikdə cəngə hazırlaşsınlar, [beləliklə] elçinin qayıdışından, həmçinin sülh, yaxud cəng məsələsinin müəyyənləşməsindən sonra bu güclü dövlətin məsləhətinə əməl olunsun.

Qalibiyyətli ordu fərman alaraq hərəkətə başladı, dəstə-dəstə və qoşun-qoşun öz məqsədləri səmtinə üz tutdu.

s.932 (657)

## SƏRDAR XƏLİL PAŞANIN VƏ RUM ƏSKƏRLƏRİNİN AZƏRBAYCAN DİYARINA GƏLMƏLƏRİNİN ZİKRİ VƏ TƏRƏFLƏR ARASINDA BAŞ VERƏN HADİSƏLƏRİN ŞƏRHİ

Bahardan bir neçə gün keçəndən sonra ləşkərlər hərəkətə başladılar. Xəlil paşa ilə birlikdə olan rum əskərləri və sərhəd sancaqbəyiləri Rum və Şam diyarlarının hər tərəfindən axışıb gəldilər və sərdarın ordusunda böyük bir izdiham yarandı. Onlar dayandıqları qışlaq yerindən hərəkət edib, Azərbaycana tərəf yürüşə keçdilər.

Yol əsnasında bu tərəfdən elçi gedən Mirzə Məhəmməd Hüseyn sərdara çatdı. Onun gəlib-çatmasından və sərdarla görüşündən sonra Mazandaran sipəhsaları Qasım bəyi-sabiq elçini dilli-dilavər bir adamla şahın yanına göndərdilər. Onun gətirdiyi məktubda yazılmışdı: "Sizə can sağlığı, uğurlar və müsəlmanlarla yaxşılıqlar izhar etməklə bildiririk: İşıqlı şəxsiyyətinizə mə'lumdur ki, hər yerdə çoxlu müxaliflər və başqalarında eyb axtaran adamlar vardır. [Həmçinini] fitnə-fəsad əhli olanlar hünərə eyb libası geyindirib, hamının yanında lovğalanırlar. Hal-hazırda İlahinin təqdiri və padşahın fərmanı ilə rum əskərlərinin bizim sərdarlığımızla sizin tərəfə yürüşü başlanmışdır. Zamanın mülkü və iqtisadi məsələlərinin həllindən ötrü Təbrizə hücum etmək qərara alınmışdır və bə'zi müxaliflərin qorxusundan, bu yürüşü saxlamaq mümkün deyildir. Amma, elə ki, biz gəlib müəyyən olunmuş yerə gəlib çatdıq, elə orada da əhalinin vəziyyəti və hər iki dövlətin mənfəəti barədə danışıq aparmalıyıq".

Sərdar [bu xəbəri göndərib] köç-köç Təbrizə rəvan oldu. Sipəhsalar Qərçiqay xan Təbrizdə idi. Sərdarın gəlişi mə'lum olanda, hələlik sülh, ya cəng məsələsi qərarlaşdırılmadığı üçün, Qərçiqay xan hümayun şahın razılığı olmadan döyüşə başlaya bilməzdi. Buna görə də, o, qoşunların keçid yerlərində
s.932 yaşayan acizlərin və rəiyyətin malına və halına sədəmə dəyməməsindən ötrü onları həmin yerlərdən köçürdü və şəhəri də boşaltdı ki, əhalinin var-yoxları hadisələr burulğa-

nında müxalif ləşkər qarətçilərinin əllərinə keçməsin və qorunmuş olsun, qoşun isə hələlik müharibə və müdafiə barədə ali hümayun işarəni gözləyib, şahın əmrlərinə əməl etsin.

Xülasə, Rum əskərləri Təbriz darülmülkünə gələrək, şəhəri ərzaqdan və başqa zəruri ehtiyac mallarından xali gördülər. Onlar beş gündən artıq orada qala bilməyərək, şəhərin bu tərəfində yerləşən Fəhusfənc kəndinə gəlib orada dayandılar. Hümayun müqəddəs məiyyət isə dayandığı Xalxaldan hərəkət edərək Ərdəbil darülirşadına tərəf hərəkətə gəldi, o gözəl yerdə dayandı, həzrət övliyalar sultanı və əzəmətli şəxslərin qəbirlərini ziyarət etməklə şərəfləndi, o böyük adamların təmiz (təyyibe) ruhlarından kömək xahiş etdi.

Orada Mazandaran siqəhsaları Qasım bəy, adı Osman ağa olan Xəlil paşa elçisi ilə [şahın] hüzurunda gəldi. Adı çəkilən elçi adlı-sanlı əmirlərlə görüşdü, elçiliyin rəsmi şərtlərini yerinə yetirdi, cürbəcür danışıqlar apardı, məsləhətamiz sözlər dedi. Ə'lahəzrət öz gövhərlər saçan dili ilə onunla danışığa girərək belə söylədi: "Biz də elə buna görə indiyədək qızılbaş əskərlərinə döyüş izni verməmişik. Amma, sizin əməlləriniz sözlərinizlə uyğun gəlmir. Buraya bu cür qorxusuz yürüşünüz bizimlə döyüş üçün gəldiyinizə dəlalət edir".

Elçi sərdarın adından üzrxahıq edərək ərz etdi: "Bizim belə irəliləməyimizə ərzaqın və başqa zəruri malların yoxluğu səbəb olmuşdur. Məhz buna görə də, bir-iki köç irəli gəldik ki, tərəflər arasındakı sülh danışıqları başlayanadək rum əskərləri azuqə darısqallığı çəkməsinlər. Əslində isə biz burada sizin bir neçə günlük mehmanlarınızıq".

Xülasə, Osman ağanı mürəxxəs edib, Qasım bəyi yenidən elçi göndərdilər və ona münasib məsləhətlər verdilər.

Ə'lahəzrət sidq ürəkdən və hüsni-etiqad üzündən arxayınlıqla inanırdı ki, İlahinin lütfü, övliyalar sultanının və əzəmətli şeyxlərin pak ruhları bu məmləkəti qoruyacaqdır, lakin ehtiyat tədbirlərinə əməl edərək Ərdəbili də boşaltdı, həmin şəraitli məkanın əhalisini bu dəfəki yürüşdən əzab-əziyyətə düçar olmamalarından ötrü müxtəlif yerlərə

**s.933** köçürdü. Elçilər Sərab mahallarından biri olan Səqən sarayda
**(658)** müzəffər orduya gəlib çatdıqda, Osman ağa Qərçiqay xanla görüşdü, ondan nəvazişlər və layiqli insanlıqlar görüb mürəxxəs oldu.

Hərbi ehtiyatkarlıq tələb edirdi ki, iqamət etdikləri yeri dəyişsinlər. Elə ki, yeni yer müyyənləşdirildi, ağrəqi oraya göndərdilər. Gecə orada qalan əskərlər sübh vaxtı getmək istəyində olarkən, qarovullar gələrək, müxaliflərin cəng etmək üçün gəlib çatmaları xəbərini gətirdilər. Əzəmətli əmirlər sipəhsaların yanında toplanıb, fikir və qayğı dəryasına daldılar, çünki onların bu xəbəri şaha ərz etmələrinə və onun tapşırıqlarını yerinə yetirmələrinə fürsət olmamışdı. Məsləhətləşmə əsnasında qarovullar ard-ardınca, gələrək rum ləşkərinin gəlib çatmaları barədə xəbər gətirməkdəydi. Elə bu vaxt ləşkərlərin qaraltısı göründü. Əzəmətli əmirlər məcbur olaraq, döyüşmək qərarına gəldilər. Qərçiqay xan cəng hazır-
**s.933** lığına başladı və döyüş səfləri döyüşçülərlə bəzəndi.

## MÜZƏFFƏR LƏŞKƏRİN RUM VƏ TATAR ORDUSU İLƏ MÜHARİBƏSİNİN ZİKRİ, QALİBİYYƏTLİ DÖYÜŞÇÜLƏRİN QƏLƏBƏSİ, SƏRDARIN GERİ QAYITMASI VƏ PƏRVƏRDİGARIN TƏQDİRİ İLƏ SÜLHÜN BAĞLANMASI

Bu müharibənin şərhi, inanılmış adamların sözlərinə görə, belədir: Qaraqorum* tatar qəbiləsinini padşahı Canı bəy Gəray və bir neçə rum əmir və paşası, həmçinin o yerin şücaətli və döyüşkən cavanları sərdarın yanına gələrək, qızılbaşlarla döyüş barədə danışığa başladılar. Səbəbi isə bu idi ki, onlar deyirdilər: "İki-üç ildir ki, əcəm yürüşü və qızılbaş ləşkəri ilə müharibə uzanmaqdadır. Eləcə də, tatar ordusu bu məsələ ilə əlaqədar rum diyarındadır. Mülkümüzə və malımıza bütün bunlardan çoxlu xəsarət dəymişdirsə də, bu gediş-gəlişdən heç bir nəticə əldə olunmamışdır. Tatar ləşkəri daha bundan artıq bu diyarda qala bilməz və müharibə istəyir. Məsləhət belədir ki, rumyyə və tatar döyüşçülərindən ibarət

ordu ilə qızılbaş sərdarının üstünə yollanaq, əgər qələbə çalsaq, çox yaxşı, hamının yanında təqsirləndirilmərik və bizə münasibət yaxşı olar".

Bu cəhd Xəlil paşanın da razılaşmadığı bir məsələ idi, lakin bir dəstə şəxs bu söhbətə qüvvət verərək, hərbi dəlillər gətirməklə, sərdarı ləşkər yollamağa rəğbətləndirdi. Səhuh məlumata görə, o zaman tatar ləşkərinin sayı on beş-iyiyrmi min nəfərdən çox deyildi. Beş min döyüşçü də Ərzrum bəylərbəyisi və vəzirlər silkinə mənsub olan Həsən paşanın sərdarlığı ilə rum adamlarından, sərhəd bəylərbəyilərindən və kürd əmirlərindən yığıldı. Beləliklə, qırx min rum döyüşçü çağırıldı və ordu əskərlərinin sayı, ilk mə'lumata görə altmış min nəfər oldu. Amma, əvvəl yazılan say daha dəqiqdir.[1]

Nəticədə, qol, yeniçəri döyüşçüləri və başqalarının da iştirak etdiyi tatar qoşunu və rum ləşkərinin ayrı-ayrı hissələri birləşərək, gecə vaxtı, Ərəştab adlı yerdən yola düşdülər və aralarında dörd fərsəx məsafə olan qızılbaşların cəmləndikləri yerə – Səqənsaraya çatdılar və sübh tezdən orada göründülər. Adlı-sanlı əmirlər bu döyüşə icazəsiz başlamalı oldular və qəhrli döyüşçüləri qoşun-qoşun yar-yarağa sarılıb döyüş meydanına gəldilər.

Döyüş meydanındakı şir ürəkli döyüşçülərin vəziyyətləri bu şe'rə uyğun idi.

**Şe'r**

*Ey düşmən ovlayan şir ürəklilər,*
*Döyüşdən qorxunuz varmıdır məgər?*
*Kinli cəng yoludur yolumuz bizim,*
*Qoy bu zülmət gecə yatmasın heç kim.*[2]

---

[1] Ərəbcəsi: "Əmmə-l-əvvəlu əsəhhu"

[2] Şerin farscası:

Ke ey şirmərdane-doşmənşekar,
Bedarid əndişe əz karzar?
Çera pa keşim əz rəhe-kine pəs?
Nəxəsbəd şəbe-kur dər xane kəs.

Qərçiqay xan, iyirmi min nəfərə yaxın olan bütün dərgah mülazimləri ilə qoşunun qəlbində qərar tutdu və şamlı qaziləri öz adamları ilə birgə sol cinahda igidlik bayrağını göylərə qaldırdılar; Əzəmətli əmirlər, meymənə və meysərə sərdarları qəbul olunmuş [hərbi] qayda üzrə onlar üçün müəyyənləşdirilən qolları bəzədilər; Çərxçilər və heravul döyüşçüləri səflənərək döyüş meydanına üz tutdular, bir fərsəxədək yol getdilər, "Pole-şekəste" ("Sınıq körpü") adlanan yerdə tərəflərin öndə dayanan dəstələri bir-biri ilə üzləşdilər.

Müxalif qoşunu da qarşı tərəfə nizamladılar, rum igidləri və tatar mülazimləri, şüarları qəhrəmanlıq olan cavanlar oxa, kamana, xəncərə, qalxana əl uzatdılar və hər iki tərəf bahadırları bir-birinə həmləyə keçdilər. Hərb atəşi elə alovlandı ki, döyüş meydanının ömür xərməni həm aşinanı, həm də biganəni yandırmağı başladı və meydanın toz-torpağı uca
**s.934** fələyə ucaldı, tüfəngdən çıxan tüstüdən havanın üstü qaraldı.

**Şe'r**

*Hər bir tüfəngin üstü qırmızı qanla dolu,*
*Əskər tutub əlində sanki firəng noğulu.*
*Tüfəngdən çıxan tüstü meydanı elə aldı,*
*Gözəllərin qaşı tək ay qapqara qaraldı*[1].

**Rum və tatar ləşkərinin qızılbaş ləşkəri ilə hərbi**

Hər tərəfdən hücuma keçən müxalif ləşkər artıq qələbə çalmaq üzrəydi ki, sağ qol adamları və şamlıların əzəmətli yüzbaşı və qorçiləri,
**s.935** habelə İmanlı tayfasının əfşar döyüşçüləri və başqaları Zey-
**(659)** nal bəy Bigdallinin sərdarlığı ilə qalibiyyətli qoşuna məbadə

---

[1] Şeirin farscası:

Tofək şod ze xun saqiye-bəzme-cəng
Ke dər astin daşt noqle-ferəng.
Ze dude-tofəng əndər an rəzmgah
Məhe-nov ço əbruye-xuban siyah.

bir xətər toxunmamasından ötrü özlərinin azlığı və düşmənlərinsə çoxluğu barədə fikirləşmədən müxalif qoşun üzərinə şığıdılar. Onlar rum və tatar döyüşçülərinin böyük qoluna çatanadək at sürdülər, dayanmadılar, onların böyük bir qismini həlak etdilər. Sol qoldan da ləşkərin mübariz və dilavərləri Fars [vilayətinin] bəylərbəyi İmamqulu xanın sərkərdəliyi ilə rumların həmlələrini döyüş meydanına ard-ardınca dəf' etməyə başladılar. Hər iki tərəf mərdanə döyüşürdü. Şücaətli həmlələrdən və mərdanə sədəmələrdən müxalif dəstələrdə səbat və qərar qalmadı, qəhrli qoşunun meymənə və meysərəsindən zəif olan o saysız-hesabsız ləşkərdə sınıqlıq müşahidə olundu, rumyyə təlaşa düşdü və onların böyük qolu nizamdan (tuzuk) düşdü.

Xülasə, o qəhrli döyüşçülərin meymənə və meysərəsindən edilən qətiyyətli hücumlar nəticəsində rumilər və tatarlar böyük məğlubiyyətə uğrayıb, fərar vadisinə üz tutdular.

Ərzrum bəylərbəyi, vəzir və rum ləşkərinin sərdarı olan Xəlil paşa Evoğlu qorçisi Şahgəldi bəy tərəfindən əsir alındı, amma ağır yaralandığı üçün onun yaşamaq ehtimalı yox idi. Buna görə də, Şahgəldi bəy onu öldürüb, başını Zeynal bəyə, bəy isə sipəhsalara göndərdi. Van bölgəsinin bəylərbəyi Məhəmməd paşa da bir eynallı qorçisi tərəfindən tutuldu. Mö'təbər paşalardan və şücaətli sərdarlardan böyük bir dəstə qılınca yem oldu, bir neçə möhtərəm yüksək dərəcəli şəxs və çavuş əsir alındı.

Gürcüstana yürüş zamanı şahın xidmətinə gələn Canı bəy Gərayın əmisi oğlu Şahın Gəray xan qızılbaş ordusunun ön cərgəsində idi və onlar biri-digərinin əleyhinə döyüşürdülər. Bu haldan tatarlar fikir-xəyala dalmışdılar. Belə deyirlər ki, tatarların bir neçə təcrübəli bahadırı və döyüşlərdə sınanmış döyüşçüsü ehtiyat naminə tatar padşahı Cani bəy Gərayı tatar bayrağının kənarından uzaqlaşdıraraq, tənha bir yerə aparmışdı. Rum ləşkərinin məğlubiyyəti zamanı o, həmin yerdə dayayna bilməyib, öz yürüş ayağını qaçış yoluna tutdu və bu hiyləgərliklə, onun ardınca pərvaz edən iqbal ucalığı şahininin əlindən sağ-salamat qurtula bildi. Amma, tatar tayfasının

başı məliki (cümlətül-məlik), sahib-ixtiyarı, olduqca mö'təbər şəxsi olan onun vəkili Mirzəbəy ağa həştad nəfər tatar mirzəsi və əmirzadəsi ilə birlikdə diri halda ələ keçdi və tatar qoşununun əksəriyyəti Canı bəyin bayrağı yanında qətlə yetirildi.

Tatar əsirlərindən Mirzəbəy ağanı iki-üç nəfərlə sağ sax-
**s.935** layıb, başqalarını ədəm yoluna göndərdilər. Rumilərin "alay" adlandırdıqları yetmiş-həştad bayraqlı dəstə, habelə qoşun və ləşkərə sahib olan hər alay sərdarı tutuldu. Müxaliflərin məğlubiyyətindən sonra Qərçiqay xan ehtiyat tədbiri gördü, türklərin "bəsu" ("bəsov"?) adlandırdıqları əlahiddə dəstənin ovuna çevrilməmələrindən ötrü bütünlüklə şah ordusu mülazimlərindən ibarət böyük qol ləşkərinə hərb icazəsi və düşmənləri təqib etmə əmri vermədi, lakin qoşunları döyüşə hazır vəziyyətdə saxladı. Bu vaqiə şahın izni olmadan baş verdiyindən, xan bundan artıq özbaşnalığa cur'ət eləmədi. Axşam düşdüyündən o, fərar edən rumilərin tə'qibinə yollanan qaziləri geri qaytarmaqdan ötrü bir neçə adam göndərdi. Lakin, ilahi qüdrət sayəsində mayaları şücaətdən yoğrulan qızılbaşların qeyrət və mərdanəlikləri məgər belə bir vaxtda heç imkan verərdimi ki, ağılla qulluq edib, əmrə itaət eləsinlər? Buna görə də, qızılbaş süvarilərinin bir neçəsi gizlincə olaraq dəstədən ayrıldı və cəng meydanından üç fərsəx aralı olan Şibli gədiyi (Gəduke-Şibli) adlanan yerədək at qovub mərdanəliklər etdilər və üzüağ geri qayıtdılar. Onlar bunu, o zaman gizli saxlamışdılarsa da, bir neçə vaxtdan sonra həmin əməl hamıya mə'lum oldu.

Xülasə, ilahi lütf, müqəddəs və pak adamların imdadı, həzrət övliya və müqəddəs məkanın diriləri olan əzəmətli şeyxlərin qoruması sayəsində fəth və zəfər nəsimi şah dərgahına mənsub olanların bayraqlarına tərəf əsdi və elə həmin ləhzə də baş verən hadisəni şahın diqqətinə çatdıran qəhrli əskərlər Kürdkəndi adlanan yerdə dayanmış ağrəqin yanına gəldilər və geri qayıtdılar. Ertəsi gün qazilərin dəstə-dəstə və qoşun-qoşun gətirdikləri başlara, əxtərmələrə və alaylara şah tərəfindən baxış keçirildi. Bu mə'rəkədə on beş min nəfər müxalifin qətlə yetirildiyi mə'lum oldu. İlahi tərəfindən hifz

olunduqlarından, qəhrli ordunun heç bir adlı-sanlı hərbçisi isə tələf olmadı. Mö'təbər qulamlar zümrəsindən olan Yusif
s.936 bəy gələrək, fəth və zəfər müjdəsi gətirdi, dostların şadiman-
(600) lığına, düşmənlərin pərişanlığına səbəb oldu. Ondan sonra *azərbaycanlı tüfəngçilərin (tüfəngçiyane-azərbaycani)* minbaşısı Məhəmməd Tağı bəy Təbrizi gələrək, cəngin necə aparılması, savaşın xüsusiyyətləri, əsir götürülənlərin adları barədə təfşilatla mə'lumat verdi. Van bəylərbəyi Məhəmməd paşa, tatar Mirzəbəy ağa və şahın yanına göndərilən bir neçə şəxs ə'lahəzrət tərəfindən mərhəmətlə qarşılandı və onun zatına xas lütfkarlıqla onların ürəkləri asudə oldu.

Müxaliflərə ağır məğlubiyyət üz verdiyindən, qoşunlarının qalan hissələri pərişan və olduqca pis vəziyyətdə sərdarın ordusuna qayıtdılar. Rumiyyəyə bərk qorxu üz vermişdi və onlara demişdilər ki, qızılbaş ordusu tezliklə onların üzərinə hücuma keçəcəkdir. Uzun müddət şahın xidmətində olan, Gürcüstana yürüş zamanı qaçan və bu hücum vaxtı sərdarın yanında qərar tutan Xəndan ağanın oğlanları qızılbaşların xasiyyətinə bələd idilər. Onlar sərdarı arxayınlaşdırıb dedilər ki, qızılbaş əmirləri şahın izni olmadan hərbə elə şücaətli qədəm ata bilməzdilər və baş verənlər vaxtın azlığı və buna icazə olmadan həyata keçirilmişdir. Onların sözlərindən tam arxayınlaşan sərdar öz hərbçilərini nümayiş etdirərək, bir-iki mərhələ irəli gəldi. O, yenidən öz e'tibarlı adamlarını sülh sazişinin təzələnməsindən ötrü şahın yanına göndərdi, əvvəlkindən də çox ülfət və aşinalığını zahirə çıxardı, buraya qoşun çəkkdiyini pərdələdi və bu əməlin tatar padşahının və sifətlərinə ruzigarın şilləsi dəyməyən bir dəstə cahil döyüşçünün
s.936 təşəbbüsü ilə baş verdiyini söylədi. Sərdar xahiş elədi ki, qızılbaş tayfalarından mötəbər bir adamı elçi tə'yin eləyib, sülh barədə əhdnaməni öz mübarək möhürü ilə möhürləsin və bu elçini Sultan Osmanın padşahlığını təbrik etməkdən ötrü [osmanlı] sarayına göndərsin. O, sonra bildirdi: "Bu xeyirxah bəndə (yəni, sərdar Xəlil paşa-*Ş.F.*) bundan sonra tərəflər arasında e'timadlı vasitəçi olacaq, sülh işi bu dəfə şahın özünün istəyincə həyata keçiriləcək, bir daha xələl və

nöqsandan xətər görməyəcəklər. Biz elçinin gəlişini və əhdnamənin çatdırılmasını bir neçə gün hümayun sərhəddə gözləyəcəyik, o həzrətin mehmanı olacağıq, dostluğa xidmət edən işi yerinə yetirəcəyik. Böyük elçinin gəlişindən sonra bizim yanımızda olan Məhəmməd Hüseyn və başqa ali rütbəli mülazimlər sizin yanınıza gələcəklər".

Ə'lahəzrət şah elə əvvəldən də sülh məsələsinin cənnətməkan şahın və mərhum Sultan Süleymanın vaxtındakı şərtlərlə imzalanmasını bildirmişdi. O, buna görə də, əcəm diyarının ali dərəcəli seyidlərində olan Qazi xan Sədri [elçi sifətilə] yuxarıda yazılan münasib şərtlərlə göndərmiş və sülh sazişi imzalanmışdı. Bu dəfə də yenidən əsassız yerə sülh şərtləri pozulmuş və əcəm diyarına ləşkər çəkilmişdir. Hər dəfə qələbə bu tərəfə aid olduğuna baxmayaraq, ə'lahəzrət ona görə sülh məsələsini ortaya gətirirdi ki, adamlar sülhün pozulmasını bu tərəfə şamil eləyə bilərlər. Buna görə də o, sülhə razılıq verdi. Bu dəfə də [rumilərin] üzrxahlığını qəbul etdi, xeyrxah və sülh istəyən adam olan Van bəylərbəyi Məhəmməd paşanı bir neçə başqa əsirlə birlikdə azad edərək, sərdarın yanına yollandı. Elçi xahişi edən sərdarın sözünə görə, şah təcrübəli şəxs olan, Hindistan elçiliyindən qayıdaraq uca "xüləfa" rütbəsinə layiq görülən Yadigar Əli Sultan Talışı Rum padşahının yanına elçi tə'yin edərək onu mübarək əhdnamə, layiqli töhfələr və dostluq məktubu ilə yola saldı.

Düşmənçiliyi dostluğa çevirən sərdar izhar eləmişdi ki, biz bundan sonra o həzrətin mehmanıyıq. Elə bu sözə görə dost və düşmənə qarşı fitri lütfkarlığı olan və mehmannəvazlıq qanun-qaydasına əməl edən şah, dünya hökmdarlarının adətlərinin əksinə olaraq, mizbanlıq etmək qərarına gəldi. Şahanə bir inayətlə sərdar və rumiyyə ə'yanları üçün beş yüz dəvə ilə un, düyü, yağ, qənd, nabat, mürəbbə, qoyun, müxtəlif çeşidli meyvələr və sair ərzaq və heyvan yemi müəyyənləşdirdi, onları münasib vaxtda sərdarın ordusuna çatdırmaqdan ötrü sipəhsaların yanına yolladı. Bu xəbər sərdara çatanda qayıdış cilovunu əlinə götürdü və geri qayıtdı.

Bu hadisələr baş verən vaxt şahın qeybdən gələn ilhamla
s.937 nurlanan xatirinə belə gəldi ki, rumiyyə camaatı hiyləgər,
(601) uzaqgörən adamlar olduqları üçün onların əməlləri sözləri ilə bir gəlmir. Allah eləməsin ki, sərdar və rumiyyə ə'yanları hiyləgər danışıqlar yolu ilə vaxt qazanmaq məqsədi daşıyalar, qızılbaşları cəngdən saxlayalar, özləri isə humayun sərhədlərdən sağ-salamat çıxıb-gedələr.

Buna görə də, sipəhsalar Qərçiçay xana, əmirlərə və zəfər şüarlı əsgərlərə əmr olundu ki, tə'qibdən əl çəkməyərək, rumi ordusunu hər mənzildə izləsinlər, çünki bizim tərəfimizdən onlara əhdnamə verilmişdir və onlar da öz növbələ-
s.937 rində bizə əhdnamə verməyə borcludurlar, gərək o tərəfdən də padşah tərəfindən göndərilən və ixtiyar sahibi olan sərdarın möhürü ilə bizə onunla birlikdə olan osmanlı dövlət başçıları, qazilər, müfti və ə'yanlar tərəfindən, tə'cili olaraq, əhdnamə yazılsın və o tərəfdə olan elçilər vasitəsilə göndərilsin.

Sipəhsalar [Qərçiqay xan] və zəfər şüarlı əsgərlər şəhriyarın fərmanına əməl edib, müxalifləri Mərəndin Çəməni-Axtaxanəsinə kimi tə'qib edərək, hər mərhələdə onların ordusuna o qədər yaxınlaşırdılar ki, artıq hər iki ordu bir-birlərinin çadırını görürüdü. Xəlil paşa əhdnamə məsələsinin yeni elçi gələnədək saxlanıldığını güman edirdi. Xəndan ağanın oğlanları osmanlı dövlətində olduqca mö'təbər olan və dövlət işlərini tənzimləyən sərdara yeniçəri ağasına və qızlar ağasına aşkar şəkildə xatırladırdılar: "Qızılbaşların belə qorxu-hürküsüz yaxın gəlmələrinin səbəbi onların öz padşahları tərəfindən hərbə rüxsət almaları ilə əlaqədardır. Biz gərək dərhal, əvvəlcə razılaşdığımız kimi hərəkət edib, sabiq qızılbaş elçisini onların tələb etdikləri və ə'lahəzrət şahın istəyincə yazılan əhdnamə ilə birlikdə göndərək və belə işlərdən müzayiqə etməyək, gərək yaxınlaşmada olan müharibəyə və böyük sultani cənginə hazırlaşaq".

Arxa cinahı tatar döyüşçüləri vasitəsilə möhkəmlənmiş olan rum əsgərləri zəifləmişdilər. Onlar öz vilayətlərinə hər mərhələ yaxınlaşdıqca ayrılır və dağılışırdılar. Rum qoşununda cəng iste'dadı görməyən sərdar sülhün möhkəmlən-

məsinə çalışdı, mübarək şah istəyincə olan və öz möhrü, qaziye-əsgər, müfti*, ləşkər başçıları, əmirlər və şah ə'yanlarının imzaları ilə hazırlanan əhdnaməni Mirzə Hüseynə verdi, onu yola saldı, özü də yola düşdü. Sipəhsaların ordusuna gəlib çatan Mirzə Hüseynin gəlişindən sonra ə'lahəzrətin rumiyyə üçün hazırladığı hədiyyələr və ərzaq yola salındı. Mirzə Hüseyn Ərdəbil darülirşadında ə'lahəzrətlə görüşdü və vəziyyəti ona ərz etdi. Yadigar Əli Sutan da yüksək səviyyədə Ərdəbildən Qəstəntəniyyəyə rəvan oldu. Sülhün baş tutmamasının, Yadigar Əli Sultanın geri dönməsinin və Sultan Osman tərəfindən mö'təbər elçinin gəlməsinin şərhi gələn ilin əhvalatlarının təsviri zamanı bəyan ediləcəkdir, "əgər ulu Tanrı istərsə".[1]

Bu hadisələrin baş verməsindən sonra sipəhsalar Qərçiqay xan Gərmrudun Türkmankəndisinə gəldi. Orada müzəffər əsgərlərin, rəsmi-keçiddən sonra, öz vətənlərinə qayıtma icazəsi barədə hökm verildi, xanın özü isə tabeliyindəki mülazimlərlə Təbriz darüssəltənəsinə qayıtdı ki, rəiyyətlərin məcburən pozulmuş həyatlarının nizama salınmasına, diyar dağınıqlığının tənzimlənməsinə başlasın. Həmin ürəkaçan yerin hakimliyi və bütün Azərbaycan əmirülüməralığı ona verildi. Saysız-hesabsız rum və tatar ləşkərinin bu gediş-gəlişi zamanı baş verən müharibədə qızılbaşların canlarını Allah hifz elədi. Bir neçə tüfəngçi müxalif qoşunun buraya yetişməsindən əvvəl (bedayət) Təbrizin Xosrovşah adlı yerində qəfildən gələn tatar dəstəsinə düçar olaraq şəhadətə yetişmişdilər. Dörd-beş nəfər orta səviyyəli qızılbaşlardan başqa heç bir ad-sanlı adamın öldürüldüyü aşkar olunmadı. Doğrusunu isə Allah bilir.[2] Şahanə mərhəmət sayəsində, müxalif ləşkərin hərəkəti zamanı azərbaycanlı (azərbaycani!) rəiyyət və biçarələrə dəyən xəsarət təhqiq və təftiş olundu, onlara ali divandan xəsarətin əvəzi ödənildi. Rəiyyət bundan şadlanaraq, dua etməyə başladı və cəlal bayraqları İraqa tərəf dalğalandı.

---

[1] Ərəbcə: "İnşə'ə-l-lahu təalə"

[2] Ərəbcə: "Əl-ilmu indəl-l-lahi"

## ƏTRAF YERLƏRDƏN GƏLƏN ELÇİLƏRİN MƏLƏKLƏRİN TƏVAF ETDİKLƏRİ (MƏLAYEKMOTAF) DƏRGAHA GƏLMƏLƏRİ

Keçən günlərdə baş verən hadisələrin şərhi zamanı qələmimiz belə yazmışdı: Hindistan məmləkətlərinin hökm-
**s.939** ranı ali məqamlı Şah Səlim o sülalənin böyük əmirlərindən
**(662)** və cığatayların bərlas qəbiləsindən olan və padşah tərəfindən "bay", yəni "qardaş" adlandırılan "Xanaləm" ləqəbli Mirzə Bərxordarı hümayunun (Şah Abbas – *Ş.F.*) elçi tə'yin etdiyi Yadigar Əli Sultan Talışla birlikdə elçiliyə göndərilmişdi və o, bir neçə vaxt Herat darüssəltənəsində qalmışdı. Mirzə Bərxordar bu il ali dərgaha yollandı. Şah rum ordusunun hücumunu dəf etmək üçün Azərbaycana tərəf getdiyindən, söhbət yasavulu Kəlbəli bəy Şamlıya tapşırdı ki, elçini qarşılayıb, hümayun ordu qayıdan zamanadək Qum darülmömininə aparacaq orada saxlasın. Mirzə Bərxordar əvvəlcə Qəzvin darüssəltənəsinə, sonra Qum darülmömininə getdi, Yadigar Əli Sultan isə ondan ayrılaraq ali dərgaha üz tutdu.

Xanaləm Qəzvinə daxil olan gün bu "Aləmara" [kitabının] müəllifi şəhərdə idi və elçinin zahiri bər-bəzəyini müşahidə elədi. Dünyagörmüş adamlar belə deyirlər ki, o xanədanın yaranmasından bu günədək Hindistan vilayətindən, hətta Rumdan da belə şövkətdə, geyim-keçimdə və həşəmətdə hələ heç kim İran vilayətinə gəlməmişdir, heç hələ bu da məlum deyildir ki, əzəmətli Kəyan şahlarının dövründə də belə bir elçini görmüşlər ya yox? Məhz bu cür gözəl və xoşbəxt bir zamanda, Allahın köməyi və ə'lahəzrət zilləllah şahın əzəmət və hökmranlığının çoxalması dövründə bu elçinin gəlişi baş verdi. Dünya sultanları və şan-şöhrətli hökmdarlar (fərmanrəva), istər müsəlman olsunlar, istərsə də qeyri-müsəlman, o həzrətlə zahiri və mə'nəvi sədaqət və münasibət qapılarını açmışlar və açmaqdadırlar. O həzrətin məhəbbəti onların ürəklərində bərk-bərk yer tutduğundun, öz elçilərini sultanların pənah yeri olan bu dərgaha göndərməklə fəxr edir və bunu özləri üçün şərəf bilirlər.

Xülasə, Xanaləm İran mülkünə ayaq basan vaxt onunla birlikdə min nəfər mö’təbər padşah mülazimi gəlmişdi. Xanaləmin özünün mülazimləri isə, əgər onun nökər və xidmətçilərini saymasaq, iki yüz quşçu və mirşikardan ibarət idi ki, onların bir hissəsini Heratdan geri qaytardılar. Xanaləm Qəzvin darüssəltənəsinə çatan gün onunla gələn padşahın və özünün mülazim, xidmətçi və cangüdənlərinin sayı yeddi yüz-səkkiz yüz nəfərdi. Qızılı taxtlar və cürbəcür yəhərlərlə bəzədilmiş on ədəd iri fil, habelə bəbir, pələng, ahu, hind quzuları, ov pələngi (yuz), kərgədan, danışan quşlar (tuti – *Ş.F.*) və sair heyvanlar da gətirmişdilər.

Cah-cəlal ordusunun qələbə ilə Azərbaycandan qayıdıb Qəzvin darüssəltənəsində dayandığı vaxt, Xanaləmin buraya gəlməsindən ötrü iltifatla bir məktub yazıldı və o, olduğu yerdən çıxıb səltənət sarayına doğru yollandı. Şəhərə çatdığı zaman onu bir dəstə əzəmətli əmir istiqbal edərək, izzət və ehtiramla şəhərə gətirdi. Xanaləm oranın Səadətabad sarayındakı ürəkaçan bir mənzildə yerləşdirildi.

Ertəsi gün, ə’lahəzrət Səadət meydanında covgan və qəbəq atma (qəbəqəndazi) oyunu ilə bərk məşğul olan vaxt Xanaləm onun səadətli görüşünə gəldi, olduqca çoxlu nəva-
**s.939** zişə, izzətə va ehtirama layiq göründü. O, öz gövhərlər səpən dili ilə şaha xitabən dedi: “Bizimlə uca məqamlı, günəş papaqlı həzrət padşah arasında qardaşlıq münasibəti yaranmışdır və bizim şah səni “bəradər” (qardaş) adlandırmışdır, bəradərdə ki, bəradərdir”. Ə’lahəzrət, bu sözlərinə görə onu qardaş kimi öz mərhəmət ağuşuna çəkdi, aşina və biganələri fərqləndirmədən hamıya göstərdiyi şahanə ehtiram və nəvazişləri onun şəxsində də həyata keçirdi.

Adı çəkilən darüssəltənə bir neçə gün ə’lahəzrətin iqamət yeri oldu və o, hər gün Səadətabad meydanındakı işrət məclislərinə Xanaləmi dəvət edirdi. Xanaləm isə istəyirdi ki, ali məqamlı padşaha gətirdiyi töhfə və hədiyyələri ona təqdim etsin, lakin bu məsələ uzanır və baş tutmurdu. Şah istəyirdi ki, Gilan yolu ilə behiştnişan Mazandarana getsin və o vilayətin Zənkul adlı yerində şikarla məşğul olsun. O, Xanaləmə

onun gətirdiyi hədiyyələrin təqdimatı üçün və'də müəyyənləşdirdi, lakin vaxtın azlığından Xanaləmin istəyinin həyata keçməsindən ötrü fürsət ələ düşmürdü. Çünki, dünyəvi bir bəzəyə baxmağın o padşahdan ötrü elə bir əhəmiyyəti yox idi və buna görə də istəmirdi ki, bir neçə günün xoş saatlarını həmin bər-bəzəyə baxmağa sərf eləsin, şikar ləzzətindən məhrum olsun. Buna görə də fərman olundu ki, gətirilən töhfə və nəfis şeylərin hərəsindən iki-üç ədədini götürüb şahın hümayun nəzərinə yetirsinlər, başqa əmtəə və mallarınsa qeydiyyatını aparıb büyutata (xəzinəyə) versinlər ki,
**s.940** şah tədriclə onlara nəzər yetirsin. Baxmayaraq ki, bu təklif
**(663)** elçinin xoşuna gəlmədi, lakin o məcburiyyət üzündən bununla razılaşaraq, gətirdiyi qəribə töhfələrinə nəfis hədiyyələrdən, o cümlədən qızıl və gümüşün, cəng alətlərinin, az tapılan töhfələrin, qumaş parçaların və başqa şeylərin üç yüz ədədini ayırıb, onları Səadətabad meydanında şahın mübarək nəzərinə yetirdi. Şahın əmri ilə Xanaləm özünə məxsus olan bütün şeyləri və çadırları şəhərdə qoyub, xüsusi şikargah olan Zənkulun tamaşasına getmək üçün müqəddəs qoşuna qoşuldu. Bu kitabda həmin şikargahla bağlı dəfələrlə yazıldığından, qələmimiz bu dəfə o barədə yazmadı.

## BU İL GƏLƏN UCA ŞAN-ŞÖVKƏTLİ RUS MƏMLƏKƏTLƏRİ PADŞAHININ ELÇİSİNİN ZİKRİ

Həmçinin bu il o uca sülalənin (Romanovlar sülaləsinin– Ş.F) əmir və knyazlarından (kənnas) ibarət böyük bir elçi hey'əti Xəzər dəryası və çöllərdən keçərək *Şirvanın Dərbəndinə* gəldi və humayun şah məiyyətinin ardınca Ərdəbildən [çıxıb] Qəzvin darüssəltənəsinə çatdı. O elçi də, Səadət meydanında şahla görüş səadətinə yetişdi və mütərcim vasitəsilə padşah tərəfindən özlərinin ehtiyac (niyazməndi) xahişini və möhkəm birlik (ettehad) istəyini ərz edərək, *türk dilində yazılmış uzun bir məktubu* şaha təqdim etdi, məktubun sədaqət məktubu olduğunu bildirdi və knyaz şahanə iltifatla sərbülənd oldu. Hindistan hökmdarının hədiyyələri şahın

nəzərinə yetirilən həmin gündə Rus və Moskva (Məska) padşahının töhfə və hədiyyələri də şahın nəzərindən keçirildi. O hədiyyələr Rus məmləkətindən başqa heç bir ölkədə olmayan ənqa quşu ovlayan bir neçə şahindən ibarət idi. Padşah qəribə töhfələr və layiqli hədiyyələr gətirən Xanaləmə bir ədəd simurq ovlayan şahin (şonğar) bağışladı və azacıq sonra [hind elçisi] rüsxət alaraq bol nəvaziş və layiqli töhfələrlə Gilan yolundan keçib, öz diyarına rəvan oldu.

## HİNDİSTANIN DEKƏN DİYARININ KOLKƏNDƏ VİLAYƏTİNİN VALİSİ QÜTBŞAHIN ELÇİSİNİN ZİKRİ

Bu il başlayanda alim və fazil adamlar zümrəsindən olan Şeyx Məhəmməd Xatun adlı [bir elçi] gəldi. Mənsub olduğu (tazi-ərəb?–*Ş.F.*) təbəqə adamları arasında "Xatun" ləqəbi daşıyan atası Şeyx Əli Xatun cənnətməkan şahın hökmranlığı zamanı Məşhədin müqəddəs mücavirlərindən idi və həzrət imamın işıqlı sərkarlığı vəzifəsini aparırdı. O, özbək yürüşü vaxtı Dekənə gedərək, taleyin məsləhətinə uyğun Qütbşahiyyə xanədanının xüsusi mülazimləri silkinə daxil oldu. Üç il bundan əvvəl ə'lahəzrət tərəfindən mərhum Məhəmmədqulu Qütbşahın tə'ziyəsi və onun qardaşı oğlu, habelə damadı olan və əmisinin vəfatından sonra Qütbşahi taxtına çıxan Sultan Məhəmmədin cülusunu təbrik etməkdən ötrü [Hindistana] getmiş Hüseyn bəy Qicaçi Təbrizi ilə birlikdə qayıdaraq, Qəzvin darüssəltənəsində şahın görüşünə gəlməklə şərəflənən Şeyx Məhəmməd Xatun əlahəzrətə Qütbşahdan dostanə bir məktub gətirdi, adı çəkilən valinin layiqli töhfə və hədiyyələrini öz [şəxsi] peşkəşləri ilə birlikdə təqdim etdi, şah tərəfindən iltifatla qarşılandı. Yuxarıda yazıldığı kimi, işlərini bitirən müzəffər ordu Mazandaran istiqamətində hərəkətə başlayıb Gilan yolu ilə rəvan oldu və hümayun şahın qışlağı cənnətmisal Fərəhabadda başladı. Ə'lahəzrət daim gününü büsatla keçirib, mehmanları və yaxın adamları ilə eyş-işrətlə məşğul olur, şadmanlıq edirdi.

Bu ilin hadisələrindən biri özbək dəstələrinin Xorasana hücumu oldu. Xorasan bəylərbəyi Hüseynxan vəfat etdiyi üçün, özbəklər qarətkarlıq tamahı ilə Yalənktuş bahadırın sərkərdəliyi altında min nəfərədək adam ilə, habelə Bəlx və Buxaranın bir neçə əzəmətli əmiriylə Xorasana çatdı və bir neçə gün Quryan yaxınlığında dayandı. Atası Hüseynxanın vəfatından sonra o məmləktin işlərini aparmağa vəkil edilən Həsən xan Heratda yaşayan şamlı ağaları və hər təbəqədən olan qızılbaş döyüşçüləri ilə birlikdə, üzbəüz döyüşü məsləhət görməyib, qala və məmləkətin müdafiəsi ilə məşğul oldu. Öz hücum əlini Herat mülkündən uzaq görən Yalənktuş Quryana tərəf getdi. O vilayətin böyüklərindən və ə'yanlarından biri olan, kamkar şəhriyarın tərbiyəsi altında böyüyən və Xorasan vəzarətini aparan Xacə Cəlaləddin Əkbər Quryani
s.941 (664) Quryan qalasını və qəsəbə küçələrini möhkəmləndirərək, özbək döyüşçülərinin hücumunu dəf' etməyə başladı. Tərəflər arasında bir neçə gün cəng atəşi alovlansa da, qarətçilərin basqınçılıq və zülmkarlıq əlləri qəsəbə əhlinə dəyə bilmədi. Özbək ağrəqi Çiçəktu və Meymənədə olan vaxt Həsənxan və bəni-imam nəsli ilə müxalifət etməyə başlayıb qəhrli dövlət övliyalarının himayə gölgəsinə sığınan və o zaman Herat şəhərindən kənarda olan Rüstəm Məhəmməd xan ibn Vəli Məhəmməd xan Özbək gözəl bir tədbirə əl atıb, şamlı döyüşçülərini və öz mülazimlərini özbək ağrəçi üzərinə – Çiçəktuya yolladı. Həmin dəstə oraya çataraq qətl-qarətə başladı, çoxlu mal-silah, qənimət və saysız-hesabsız heyvan tutub gətirdi. Bu hadisədən ağah olan Yalənktuş bahadır və yoldaşları pərişan olaraq məqsədə yetmədən Quryandan çıxıb öz diyar-
s.941 larına yollandılar, beləliklə Quryan əhalisinə elə də böyük ziyan üz vermədi.

Bu il baş verən hadisələrdən bir başqası asiman əlamətlərinin zahir olması və gözə görünməsidir. Əvvəlcə, məşriqdə qılınca oxşayan parlaq bir zolağ peyda oldu. Həmin zolaq demək olar ki, hər sübh görünürdü. Zolağın son hissəsi cənuba doğru uzanırdı. Münəccimlər onu "dəhrə" adlandırır-

dılar. Bir neçə gündən sonra şərqdən şimala doğru uzanan və şüaları yuxarıya doğru bərq vuran başqa bir atəşli ulduz göründü. Deyirlər ki, həmin ulduz zuzənabe[1] ulduzudur. Bir ay, bəlkə də qırx gün onun şüası bərk parıldamaqda idi, amma get-gedə azalmağa başladısa da, iki-üç ay müddətində gözə görsənməkdəydi. Dövrün ulduzşünasları və bu diyarın münəccimləri onun tə'siri nəticəsində xəstəliklərin artacağını, əhalinin qırılacağını, hücumlar olacağını və qanlar axacağını bildirirdilər, deyirdilər ki, onun ən böyük tə'siri məşriq, şimal və cənub istiqamətlərində peyda olacaq, yer kürəsinin dörddə bir hissəsində yerləşən (rəb'e-məskun) İran vilayətində isə az baş verəcəkdir. Buna baxmayaraq, zuzənabe ulduzunun çox böyük tə'siri zahir oldu və əksər məmləkətlərdə fitnə-fəsad və yürüşlər baş verdi, Rum, Avropa (firəng), Mavərənnəhr, Türküstan və bir çox yerlərdə müharibələr oldu, cürbəcür xəstəliklər çoxaldı, sərhəd yerlərində (darülmərz), Mazandaranda və şimal tərəfdə yerləşən yerlərdə çox adam ədəm yoluna qədəm qoydu, müharibə olacağı barədə söz-söhbət çoxaldı.

Baş verən hadisələrdən biri də budur: Ali divanın vəziri Mirzə Əbu Taleb və müstövfiəl-məmaluk Qəvama Məhəmməd İsfahani arasında mübahisə başlandı və onlar bir-birini cürbəcür qüsurlarda, divan malının azalmasında (təzyi') və başqa işlərdə təqsirləndirərək, bunu ə'lahəzrətə ərz etdilər. Belə qərara alındı ki, əzəmətli sədrlər söhbət yasavulu Kəlbəli bəy Şamlının başçılığı ilə hər iki tərəfi dinləsin və məsələnin həqiqətini şaha ərz etsin. Ali əmrə görə o, Fərəhabadda divan çağırdı. Müstovfiəl-məmalikin hər sahədə təfsilatla dediyi sözlərin cavabını ali divanın vəziri sübut-dəlillə verdisə də, ə'lahəzrət özünün fərasət nuru ilə bildirdi ki, onların arasında baş verən bu əhvalat qərəzlidir. Buna görə də, söhbətin üstü pərdələndi, məsələ padşahanə ayıqlıqla qabarılmadı və bir daha bu barədə soruşulmadı. Onların hər ikisi peşiman olub, dillərinə bir söz belə gətirmədilər.

[1] Zuzənəb, zuzənabe – kometa, quyruqlu ulduz – *Ş.F.*

**Vəfat edən məşhur adamlar:**

Bu il, əlahəzrətin qədim mülazimlərindən Hüseyn xan Şamlı Bəylərbəyi xəstələnib, təbii əcəli ilə vəfat etdi, bəqa darülmülkünə yollandı. O, layiqli xidmətinə və xidmətinin uzunömürlülüyünə görə bərk inkişaf etmişdi. Artıq iyirmi il idi ki, tam iqtidar və müstəqilliklə əmr əsasında Herat valisi və Xorasan bəylərbəyi idi, hökm və fərmanlarda adı “qədim qoca qulam” kimi yazılırdı. Humayun təbiətində haqşünaslıq olan o həzrətin (Şah Abbasın – *Ş.F.*) əmri ilə “Allahın salavatı və salamı olmuş o müqəddəs bəndə”[1] Rezəvi rövzəsində dəfn edildi. Sədaqətli oğlu Həsənxan atasının yerinə tə’yin olundu, ona ülka, qoşun və qədir-qiymətli Xorasan əmirülüməralığı mənsəbi verildi və işə başladı.

E’tibarlı mülazimlərdən, şah məclislərinə yaxın adamlardan, habelə rə’y və məşvərət sahiblərindən olan Mehdiqulu bəy Miraxurbaşı Cığatay təmtaraqlı ordu Mazandaran qışlağından Azərbaycana tərəf gedərək Qəzvin darüssəltənəsinə gəldikdə, xəstələndi, xəstəliyi gündən-günə çoxaldı, min iyirmi yeddinci ilin şəban ayının əvvəllərində (iyulun sonları 1618) fani aləmlə vidalışıb, əbədi cahana getdi. Onun cəsədini də müqəddəs Məşhədə aparıb pak rövzədə dəfn etdilər. Fərzəndləri azyaşlı olduqları üçün onlardan miraxur olmazdı, buna görə də Mehdiqulu bəyin vəzifəsi qədim mülazimlərdən “Əlibalı” adı ilə məşhur olan Əli bəy İsgəndərə verildi.

Müqəddəs Məşhədin hakimi olan Şahnəzər xan Cığataya
**s.942** bu il xəstəlik üz verdi, fani cahanla vidalışdı. O, şücaətli və
**s.943** qorxmaz adam idi, calışqanlığı və xidmətkarlığı nəticəsində
**(665)** nökərlikdən başlayıb əyalət [hakimi] və xan olmaq mərtəbəsinədək yüksəldi, [şahın] inayətinə yetişdi.

Şahnəzər xan əvvəlcə Cam vilayətinin hakimi oldu, sonra isə Müqəddəs Məşhədi idarə etdi. Onun vəfatından sonra təvəkküli elinin əmirliyi onun qardaşı oğlu Qələndər Sultana
**s.943** verildi, Cam vilayəti ona tapşırıldı.

---

[1] Ərəbcə: Ələ muşrifihə-s-səlavatu və-t-təhəyyətu”

## ABBASIN HÜMAYUN CÜLUSUNUN İKİNCİ QƏRNİNDƏ VƏ HAKİMİYYƏTİNİN OTUZ ÜÇÜNCÜ İLİNDƏ, YƏNİ MİN İYİRMİ SƏKKİZİNCİ (1618/1619) QOYUN İLİNDƏ BAŞ VERƏN HADİSƏLƏR BARƏDƏ SÖHBƏT

Bu mübarək ilin səadətlə işıqlanan novruzu min iyirmi səkkizinci ilin rəbiüs-sani ayının dördünə (18 fevral, 1619), pəncşənbə gününə təsadüf etdi, yəni ən böyük ulduz olan, bütün aləmi işıqlandıran və dörd ünsürü və əxşicanı* yaradan parlaq günəş həmin pəncşənbə gecəsi doqquz saatdan bir neçə dəqiqə ötdükdən sonra hut aramgahından çıxıb, həməl işrətgahına gəldi, özü ilə baharı gətirdi, gülüstanları (hədayeq və əzhar) rövnəqləndirdi. Fərvərdin nigarıstanının gülləri buludun rütubəti və havanın lətafəti sayəsində açılmağa başladı, reyhanların ətrindən təbiət ətirləndi. Ruhdan düşmüş ürək sahibləri ürəkləndilər, bağ bülbülləri kimi şadyanalığa və yenidən oxumağa başladılar. Məlala qərq olan adamdar vüsal gününə yetib rahat olan aşiqlər kimi sevindilər, hər yerdə məclis bəzədilər. Ruzigar sultanlarının ən seçilmişi (nəqavə), yeddi və dörd [rəqəmlərinin] nəticəsi olan şəhriyar, yəni əlahəzrət zillələllah şah şərafətli Mazandaran qəsəbələrindən olan və özü tərəfindən inşa edilən gözəl Əşrəf qəsəbəsində xoşhallıq, kamiranlıq və qalibiyyət ilə ali novruz bayramı qurdu, izzət büsatının iştirakçısı olan [şaha] yaxın adamlar və səltənət sarayındakı şəxslər şahı növruz münasibətilə təbrik etdilər.

**Şe'r**

*Hər yana yayılsın şöhrətin sənin,*
*Daim təzələnsin ömür gülşənin.*
*Dünyada hər kama yet, ey hökmdar,*
*Cahan qoy adınla etsin iftixar*[1].

---

[1] Şerin farscası:

Şəha, aləm əz to por avaze bad,
Golestane-ömrət tər-o taze bad.
Bər ayəd ze giti həme kame-to,
Cahan-ra boləndi dəhəd name-to.

Şadlıq gətirən (behcətfəza) məslisləri bitirdikdən və zəruri dövlət işlərini həyata keçirdikdən sonra padşahın xatirindən Miyankalda şikarla məşğul olmaq keçdi, belə əmr olundu ki, cənnətə bənzər Mazandaranın hər yerindən çoxlu adam toplanılsın və onlar ətraf yerlərdəki ov heyvanlarını qovub Miyankala gətirsinlər. Miyankal elə bir yerdir ki, onun iki, yaxud üç tərəfi su ilə hüdudlanmış, bir tərəfi isə quruya birləşmişdir. Miyankalın uzunluğu təxminən üç fərsəx, eni isə quru səmtdən bir fərsəxin dörddə biri nisbətindədir ki, getdikcə daralaraq dəryaya birləşir. Ov heyvanlarının ətraf yerlərdən Miyankala gəldikləri vaxt adamlar quru səmti dövrəyə
**s.944** alaraq onların yolunu çadırlarla bağlayırlar və heyvanlar üçün keçid yolu tamamilə kəsilir. [Bu vaxt] ovçular həmin yerə gəlib ovları iti oxlar və odlu tüfənglərlə ayaqdan salırlar.

[Beləliklə,] iti qaçan ahular, pələnglər, ceyranlar və başqa dağ və çöl heyvanları gəlib Miyankalada toplaşırlar. Ahu gözlü vəhşi heyvanlar, yəni dağ keçiləri (gavhaye-kuhi) hürkərək nakamlıq içərisində qalır, tüfəng səsləri, ovçular və tüfəngçilərin qışqırığından çaşbaş qalır, qorxularından özlərini dəryaya atır, yarım fərsəx məsafəyədək suda üzürlər, yorulduqda suda çabalaya-çabalaya çarəsizlikdən özlərini sahilə çatdırırlar. Heyvanların bə’zisi isə özlərini fəna bəhrində görərək, boğulacaqlarını bilib, bir ləhzəlik həyatı qənimət sanır və bu misrada deyildiyi kimi geri qayıdırdılar:

**Misra**

*Əcəli çatsa əgər ov qaçacaq ovçu tərəf*[1]

Həqəqətən də, maraqlı tamaşa və müstəsna (bədi’) ov üsuludur. Ə’lahəzrət şahın me’marlıq məharəti həmin həzz meydanındakı üç yerdə (talar) yaxşı dayanacaq yerləri təşkil etdi, o öz adamları və yaxınları ilə birlikdə orada şənlik məclisləri quraraq, söhbətlə məşğul olur. Şahın yüksək istəyi atlanmağa və ov etməyə meylləndikdə, yaxud şikarla məşğul

[1] Misranın farscası:

Seyd-ra çon əcəl ayəd suye-səyyad rəvəd.

olmaqdan yorulduqdasa, o, həmin talarlarda nədimlər və başqa yaxınları ilə söhbət edir.

Xülasə, əlahəzrət hər yandan gələn aşina və biganə əmir-
s.945 lərə, dövlət başçılarına, əyanlara və mehmanlara şikara çıx-
(666) mağı təklif etdi və həmin nişat və şənlik meydanına getdi, yuxarıda yazıldığı kimi, yeddi günədək özünün mübarək vaxtını söhbət etmək və şikarla məşğul olmaqla keçirdi, hər iki gündə hər meydanda bir dəfə olmaqla eyş-işrətə başladı. Bir həftə ötdükdən sonra [heyvanları şikara yığan adamlar] rüxsət alıb getdilər, şah qoşununun mülazimləri və ə'yanlar cənnətəbənzər Fərəhabada qayıtdılar, gözəl Əşrəf adlı fərəh yeri dindar və ədalətli xosrovu iqamət və işrət məkanı oldu. O vilayət havasının bir qədər istiləşdiyi üçüncü ay qayıdış cilovu İsfahan darülmülkünə tərəf istiqamətləndi, cahanın bilikli adamlarının, Nisfe-Cahan adlandırdıqları behiştə bənzər həmin şəhər [şahın] səadətli qədəmlərindən Gülistane-İrəmə döndü.

**Şe'r**

*İsfahan Nisfe-cahandır ki, görənlər söylər*
*Ki, cahanda o təhər şəhri-münəzzəm yoxdur*[1]

Hadisələrdən biri də budur: Rum tərəfdən sərhədlərdən belə bir xəbər gəldi ki, Rum sərdarı Xəlil paşa Qəstəntəniyyəyə qayıtdı və özünün xahişi ilə Rum elçiliyinə tə'yin olunmuş Yadigar Əli Sultan Xüləfanı da böyük izzət və ehtiramla özü ilə apardı. Amma, sipəhsalar Qərçiçay xanın qızılbaş ordusunun sərdarı kimi Azərbaycanda qalması səbəbindən rumiyyə ə'yanları sülhə arxayın deyildilər. Cahanı bəzəyən rə'y belə oldu ki, adı çəkilən bu sipəhsaları rumilərin arxayın olmaları
s.945 üçün sərhəddən geri çağırsın. Uca Məşhəd hakimliyi ona məxsus olduğu üçün xan o tərəfə göndərildi və ürəkaçan Təbriz ölkəsi sabiqdə olduğu kimi Şahbəndə xan Pornaka verildi.

---

[1] Şerin farscası:

Esfəhan Nisfe-Cəhan comle məqərrənd bedan,
Ke dər afaq çenan şəhre-monəzzəm nəbovəd.

Bu ilin əvvəllərində baş vermiş qəribə hadisələrdən biri də budur: Söyləyirlər ki, zuzənabənin və asimandakı əlamətlərin təsirinin guya qan tökülmələrinə və digər bəlalara səbəb olmayacağı barədə münəccimlərin dedikləri düz çıxmadı. Məsələn, ə'lahəzrət şah şərafətli Əşrəf qəsəbəsinə təşrif aparan vaxt gürcü aznaurzadələrindən olan və iki qardaşı ilə birlikdə dərgah qulamları silkində tə'lim-tərbiyə alan Hücnə bəy gürcü şahsevənlərindən Remaz adlı bir cavanı ona qarşı inadkarlığına görə qətl etdi. Şah buna görə də hökm elədi ki, ali divanın vəziri Mirzə Əbu Taleb, o vaxtlarda divanbəyi olan söhbət yasovulu Kəlbəli bəy Şamlı və Qaracadağ daruğəsi Ümmət bəy Siyahmənsur gürcü Remazın qətlinin səbəbinin açılması üçün və belə xətaya ürəklənib yol verdiyinə görə Hücnə bəyi istintaq etsinlər, məsələ barədə mə'lumat versinlər. Onlar mübarək Fərəhabad dövlətxanasında toplaşıb, Hücnə bəyi oraya gətirdilər, baş vermiş əhvalatı ondan soruşdular. Hücnə və iki qardaşı gəldilər. Hücnə bəy qürurla e'tiraf etdi ki, onu mən və qardaşım öldürmüşük. Divanda bu qətli e'tiraf elədiyinə görə qatillərin həbs olmaları xüsusunda təklif irəli sürən Kəlbəli bəyin sözlərindən sonra ali divanın vəziri elə bu məqsədlə də əlini Hücnənin belinə doğru apardı. Qatillərdə cəhalət, divanəlik və qürur qələbə çaldığından, Hücnənin qardaşları qılınclarını qından sıyırıb Kəlbəli bəyə bir neçə zərbə vurdular, Mirzə Əbu Talebə də qılınc uzatdılar. Orada olan adamlar çaxnaşmaya düşdülər və qılınc qığılcımlarından həyəcanlandılar. Gözlərini qan tutan o gürcülər isə özlərini dövlətxananın içərisinə (əndəruna) atdılar. İrəli gedən Ümmət Darüğə və daha bir neçə nəfər də yaralandılar, gürcülər başqa iki nəfəri də öldürdülər. Onlar bəst yeri və günahkar adamların sığındıqları məşhur olan mübarək dövlətxanaya hörmət etmədiklərinə görə bu cür pis hərəkətə cür'ət etdikləri üçün, hökmən qisasa mə'ruz qalmaları idilər. Ümmət və bir neçə sadiq adam hücuma keçdi, dövlətxananın bağçasında igidliklə döyüşüb gözlərini qan tutan həmin gürcüləri ox və gülləyə tutdular. Nəticədə gürcülərin üç-dörd nəfəri qətl olundu və onlar öz əməllərinin cəzasına çatdılar.

1682

Asiman əlaməti ilə əlaqədar başqa bir hadisə: Görus kürdləri qəbiləsindən və xüsusi cilovtutanlar silkindən olan Əmirqulu adlı bir nəfər uzun müddət xidmətkarlıq etdiyinə və bacarıqlı şəxs olduğuna görə, Görusun qəbilə başçısı rütbəsinə və "sultan" ləqəbinə layiq görülmüşdü. O, cah-cəlal ordusu İsfahan yaylağında olan zaman, Görus qəbiləsindən olan Teymur xan adlı başqa bir cilovdar öz qəbiləsinin üç-dörd ağıllı və uzaqgörən adamı ilə Əmirqulunun evinə getdilər və yaxşı da qarşılandılar.

Ziyafətdən sonra evdən çıxan vaxt öz cəhaləti, həsədi və nəfskarlığı üzündən əql yolundan çıxan Teymur xan, şahın günah iş görən adamlara pis əməllərə görə dəfələrlə xəbərdarlıq etməsinə baxmayaraq, onları yola salmağa çıxan Əmirqulu Sultana qılınc çəkdi və möhkəm bir zərbə ilə onun işini bitirdi, lakin qılıncı sındı. Əmirqulu Sultanın xidmətçilərin-
**s.946** dən olan bir fərraş dərhal həmin sınıq qılıncı görürüb, elə
**(667)** həmin qılınc parçası ilə Teymur xana elə bir zərbə vurdu ki, o, bir daha hərəkət edə bilmədi. Xasseyi-şərifə atminənlərindən (mətndə elə belə də yazılıb: Atminən!) Əlvənd adlı bir şəxs oğlu ilə birlikdə sultanın qətli ilə əlaqədar özünün ittiham oluna biləcəyi qorxusundan fərar etdisə də, lakin onların hər ikisi tutulub, şahanə qəzəb cəzaxanasında (siyasətgah) öz həyat iplərini itirdilər. Həmçinin Əmirqulu Sultanın əleyhinə olan o qəbilənin bütün üzvləri qəzəbə gəldilər, dövrün qəhr qəhrəmanı tərəfindən cəzalandılar. Görusun əmirliyi Əmirqulu Sultanın oğlu Nəfəsqulu Sultana verildi.

Başqa bir hadisə: Novruzdan qırx gün sonra, rəbiül-əvvəl ayının ortasında (fevralın sonu, 1619) İsfahanda bir divar uçdu və qırx-əlli adam toppaq altında qaldı. Hadisədən iki-üç gün keçməsinə baxmayaraq hələ də onların cəsədlərini çıxarıb dəfn edirdilər.

Asiman əlamətləri və zuzənabənin tə'siri ilə baş verən başqa bir hadisə isə belə oldu:

Bu il Zavə vilayətinin bə'zi yerlərində və Xorasan torpaqlarında zəlzələ baş verdi, amma o vilayətin abad qəryəsi olan Duğabadda elə bir zəlzələ oldu ki, heç bir vaxt elə dağıdıcı

zəlzələ görünməmişdi. Düzdanışan adamlardan eşitdik ki, evlər bir-birinin üstünə elə uçmuşdu ki, o abad qəsəbə böyük bir torpaq qalağına çevrilmiş, oradakı evlərdən əsər-əlamət qalmamışdı. Duğabadın əksər əhalisi məhsul yığmaqdan ötrü çölə getdikləri üçün cəmi yeddi-səkkiz yüz sakin torpağın altında qalaraq, ölüm yatağında yatdı. Bir nəfərin evində toy məclisi keçirilirdi. O məclisin yetmiş qadın xeylağı torpaq altında qaldı və ilahinin hikməti sayəsində həmin şadyanalıq tə'ziyəyə çevrildi. Nadir hadisə və qəribə hallardandır ki, gəlin qorxudan özünü qapı ilə pəncərənin arasına atdığından sağ-salamat qalmışdı ki, bununla da "sizin istədiyiniz şey ola bilməz"[1] kəramətli [ayəsinin] sirri açıldı.

**Bu ilin məşhur mərhumları:**

Gürcüstanın Kartil vilayətinin valisi Davud xan ibn Luvarsab xanın oğlu Bograt xan Gürcü, əsərin birinci səhifəsində cənnətməkan şah zamanı baş vermiş hadisələrin təsvirində yazıldığı kimi, üsyan etdiyi üçün Qarabağ qoşunu tərəfindən qətl olundu, amma oğlu Davud xan cənnətməkan şahın xidmətinə gəlib, islam səadətinə yetişdi (yəni müsəlman oldu – *Ş.F.*), adı divanın fəth olunmuş yerləri siyahısına düşən Kartil darülmülkü olan Tiflisin hakimliyi ona verildi. O, yuxarıda adı çəkilən oğlu Bogratı hələ kiçik ikən cənnətməkan şahın xidmətinə yolladı və Bograt qızılbaşlar arasında böyüdü. Hikmət elmlərindən agah adam idi və bütün Kartil Gürcüstanının əyalət və mülkiyyəti onun ixtiyarına verilmişdi. O, bu il Tiflis şəhərində xəstələnib vəfat etdi. Sədaqətli adamların və xidmət göstərənlərin hüquqlarına diqqət yetirən və ali dərəcədə lütfkarlıq göstərən əlahəzrət şah onun az yaşlı oğlu Səmayunu atasının əvəzinə o vilayətin hakimliyi ilə sərəfraz elədi, islamı özünə şüar edən və mö'təbər gürcü dövlətxahlarından biri olan Murad bəyi ona vəkil və atalıq tə'yin elədi.

Əli Paşa Rumi. O, böyük rumiyyə əmirlərindəndi və Təbriz bəylərbəyisi idi. Təbrizin fəthi zamanı baş vermiş qəziyyələrin şərhində yazılmışdı ki, Əli paşa Sufiyan cən-

[1] Ərəbcə: "Mə təşəunə illə in yəşə'u-l-lahu"

gində əsir alınmış və əfv olunma səadətinə yetişmişdi. O, bir neçə müddət şahın rikabında əziz tutuldu və şahın cənnətmisal məclislərində iştirak elədi. Keçən il sərdar və rum əsgərləri buraya gələrkən, o, təcrübəli və gələcəyi düşünən adam olduğundan, bir kənara çəkilməyi qərara alıb müqəddəs Məşhədə getdi. Ona hər il üçün nəğd üç yüz İraq tüməni və beş yüz xarvar məhsul müəyyən olunmuşdu. Bu il fəna evindən üqba sarayına göçdü və müqəddəs rövzə kənarında dəfn olundu. Əcəm diyarında şə'ri varisi olmadığından, bütün var-yoxunu bir yerə yığıb belə qərara gəldilər: Övladı olmadığı üçün paşanın şeylərini bir rum elçisi vətəninə aparsın, həmin mallar qazi və şəriət adamlarının məsləhəti ilə şə'ri varisi hesab
**s.947** edilən qohumlarından birinə verilsin ki, haqqı sahibinə çatsın.

## [ŞAH] ABBASIN UĞURLU CÜLUSUNUN İKİNCİ QƏRNİNİN TÜRKİCƏ DÖRDÜNCÜ İLİNDƏ, YƏNİ MİN İYİRMİ DOQQUZUNCU MEYMUN İLİNDƏ (1619/1620) BAŞ VERƏN HADİSƏLƏR HAQQINDA SÖHBƏT

**s.948**
**(668)**

Xoşluq və şadyanalıqla cilvələnən bu mübarək ilin ürəkaçan baharı insanların şənliyini artırmağa başladı, uğurlu novruz hicri [tarixlə] iyirmi doqquzuncu ilin rəbiüssani ayının on beşinə, (15 mart, 1620) cümə gününə təsadüf etdi. Səyyarələr sultanı, yəni aləmi işıqlandıran günəş həmin günün bitməsindən beş saat sonra hut nihanxanasından çıxıb həməl taxtgahında əyləşdi, dünya başdaş-başa güllərin ətrindən baharın tazə gəlinlərinin otağı kimi ətirləndi, baharın şərəfli qədəimlərindən təbiətin xoşluğu təzədən başlandı.

**Şe'r**

*Zəminü zəman kamiranlıq etdi,*
*Zəmanə yenidən cavanlıq etdi.*
*O dəm ki, özünü göstərdi bahar,*
*Onun lütfüylə dəyişdi ruzigar*[1]

İsfahan darüssəltənəsi humayun, kamkar, kamran xosrovun qədəmlərinin əzəmətindən tez-tez rəngini dəyişən asimana (sepehr) dönmüşdü.

Tale (eqbal) hadisələrindən biri[də] Rum elçisinin gəlişidir. Ale-Osman sülaləsinin mö'təbər adamlarından olan düşüncəli (səncide), xoşsöhbət (soxəndan) İbrahim ağa

---

[1] Şerin farscası:

Zəmino-zəman kamirani gereft,
Zəmane xəvase-cəvani gereft.
Ço bare-degər celvegər şod bəhar,
Ze lotfe-həva taze şod ruzigar.

[bizim elçi] Yadigar Əli Xülafə ilə gələrək, qeysər məmləkətlərinin hökmdarı Sultan Osman ibn Sultan Əhməddən məhəbbət məzmunlu bir məktub gətirdi, sədaqətin, dostluğun, sülhün möhkəmlənməsi və birlik (ittifaq) danışıqlarının bir daha bərqərar olmasını izhar etdi, səadət ölkəsi dərgahının yaxın adamları ilə görüşdü, şah inayəti və padşah iltifatı ilə iftixarlandı, rum sultanı adından gətirdiyi töhfə və hədiyyələri ə'lahəzrətin nəzərinə yetirdi. Bu tərəfdən də rəğbətlə dolu bir cavab məktubu yazıldı və keçən il İsfahan daruğəsi olmuş Taxta bəy Yüzbaşı Ustaclı rum elçiliyinə tə'yin edilib, adı çəkilən rum ağası ilə birlikdə layiqli töhfə və hədiyyələrlə yola rəvan oldu.

Sülh (mosalehe) tərəflər arasında belə qərarlaşdı: Cənnətməkan Şah Təhmasib əleyhurrəhmə və Rum sultanlarının ən ağıllısı və ən ədalətlisi olan Sultan Süleyman arasındakı sazişə yenidən riayət olunsun. Tərəflərin münaqişəsinə səbəb olmuş sonrakı dəyişiklik indi aşağıdakı kimi razılaşdırılsın: Hazırda qızılbaşların sərhədi daxilindəki Mesq Gürcüstanının Axəsqə vilayəti bu sazişin şərtinə əsasən rumilərin nəzarəti altına keçsin; humayun sərhədlə İraqi-Ərəb arasında
**s.948** mövcud olan Dərtəng ülkasının Zəncir qalası, o vaxtlar rumiyyə sərhədi daxilində olmasına baxmayaraq, indi bu dövlətin ixtiyarına verilsin. Beləliklə qərara alındı ki, tərəflər bu dəyişikliklə razılaşsınlar və münaqişə aradan götürülsün, sazişin başqa şərtləri isə o mərhum padşahların dövründə olduğu kimi dəyişilməz qalsın – hərçənd ki, əlahəzrət Axəsqə barədəki maddə ilə razılaşmırdı.

Beləliklə, bu siziş Xəlil paşanın və tərəflərin xeyirxah adamlarının iltiması ilə razılaşdırıldı və yuxarıda yazılan şərtlərlə qüvvəyə mindi. Elçi İbrahim ağa bu sazişin hökmləri barədə sərhəd hakimləri və valilərinə göstəriş verərək geri qayıtdı və [saziş] zəif və asılı sərhədlərin adamlarının asudə həyat sürmələrinə səbəb oldu.

Amma, dəstəksiz dayanan asiman və qəddar ruzigar məgər qoyarmı ki, [asudəlik] davam etsin? Tezliklə

**Şe'r**

*Etdi fələk şəbədəbazlıq yenə,*
*Çəkdi cızıq razılığın üstünə.*[1]

Müsəlmanların xeyrinə və rahatlığına səbəb olan hər sazişin davamdar olmasına ümidvarıq.

## HÜMAYUN ŞAHIN SƏ'Yİ, YER VƏ GÖY XALİQİNİN KÖMƏYİ İLƏ KƏRƏNG[2] ÇAYININ İSFAHANA GƏTİRİLMƏSİ

Kurəng çayı iki çaydan (çeşmə) ibarətdir ki, birinin adına Kurəng, ikincisinin adına isə "Çeşmeye-Mahmudi" söyləyirlər. Bu çay İsfahan sərhəddindəki Raruməzuc vilayətinin dağlarından cənuba tərəf axır, çökük nəhrdən (nəhre-moqəər) Kuh-Giluyəyə və Xuzistana çatır və Səttül-Ərəbə* birləşir. "Nüzhətül-qülub", "Sovərəl-əqalim", "Məsalikəl-məmalik" və bu qəbildən olan başqa kitablarda bir sıra çay və nəhrlərdən söhbət açılmasına baxmayaraq Kurəng və onun yerləşdiyi yer haqda mə'lumat yoxdur. Bu dövrdə isə deyirlər ki, hər iki çay yuxarıdan aşağıya tökülərək, bir-birinə birləşir və İsfahanın Zayənderud çayına bərabər olur. Bu çayın hər iki sahili onun mənbəyindən başlayıb, Səttül-Ərəbədək yüksək torpaqla əhatələndiyi üçün heç yeri suvarılmayır və o yerlərin əkinlərinə mənfəət verə bilməyir.

Həzrət cənnətməkan şah həmin çayı İsfahan darüssəltənəsinə gətirmək və Zayəndərud çayına birləşdirmək istəmişdi ki, o yerin əhalisi quraqlıq zamanı su çatışmazlığından əziyyət çəkməsin, inşaatın, tarlaların və bağçılığın atrılılmasında yardımçı olsun. Bu iş o yerin vəziri olan Mir Feyzulla Şəhristaniyə tapşırıldı. Amma, arada böyük bir dağ vardı ki,

[1] Beytin farscası:

Baz fələk şə'bədeyi baxte,
K-in həme əhval təbah şaxte.

[2] Sərlövhədə bu çayın adının "Kərəng" yazılmasına baxmayaraq, mətndə hər yerdə "Kurəng" yazzılmışdır – *Ş.F.*

**s.949** onu qazıb aradan götürmədən suyun çəkilməsi mümkün ola
**(669)** bilməzdi. Mir Feyzulla o dağın altına lağımlar atdı, nəqqablar və dağçapanlar bir neçə vaxt orada iş gördülər. İş elə yerə gəlib çatdı ki, daha oranı qazmaq mümkün olmadı və Mir Feyzulla mə'yus olub, bu işdən əl götürdü. Bir neçə il idi ki, bu işi təkrarlamaq ə'lahəzrət zilləllah şahın nurlu xatirində özünə yer tutmuşdu. O, yenidən həmin yerə me'mar və mühəndislər göndərdi, amma bir neçə ağlı gödək adam bunun mümkün olmayacağını söyləyirdilər, buna görə də bu layiqli iş təxirə salınırdı. Bir-iki il bundan əvvəl [şah] İsfahan xasseyi-şərifəsinin tikinti (emarat) üzrə sərkarı olan qulamlar
**s.949** lələsi Mühübəli bəyi bir neçə işbilən mühəndis və düzgün adamla oraya yollandı ki, gedib vəziyyəti yenidən öyrənsinlər. Onlar vəziyyəti belə təsdiqlədilər: Əgər çayın qarşısında həştad zər'[1] hündürlüyündə bir bənd çəkilərsə, su bir qədər yuxarı qalxar, habelə [oranı] İsfahan yolu üstündəki az-çox yüz əlli zər' dərinliyində və üç min zər' uzunluğunda qazarlarsa, çayın aşağı axması mümkündür. Adı çəkilən Lələ bəy bu işi dörd-beş ilə bitirməyi öhdəsinə götürdü və ali əmr alıb işə başladı. Böyük bir iş olduğundan, şah inana bilmirdi ki, özünün köməyi, İlahinin iltifatı və qeyb aləmindən olan imdad sayəsində bu iş başa çata bilər, özünün sağlığında İsfahana axar, dünyada ad çıxarar, üqbada savab ilə şöhrətlənər. Şah Lələ bəyin bu öhdəliyi yerinə yetirə biləcəyinə arxayın deyildi.

[Buna görə də,] bu il şah Fars bəylərbəyi İmamqulu xanı həmin dağın qazılması işinə sərkar tə'yin etdi, o hüdudda yaşayan Luristan hakimi və bəxtiyarilərin əmiri (mir) Hüseyn xanın xana kömək etməsini tapşırdı, Cahangir xana bəndçəkmə işinə sərkarlıq etməsini əmr etdi ki, onlar bu il xərclərin hesablanması ilə məşğul olsunlar, gələn il bənd işinə başlasınlar, ətraf yerlərin bənna və daşyonanlarını bu işə cəlb etsinlər. [Həmçinin] hökm olundu ki, bütün Fars, İsfahan və o hüduddakı lurlar həmin dağın qazılmasında işləyərək əmək

[1] Zər' – bir arşın uzunluğunda (104 sm) olan ölçüdür. (Bax: N. Şəqəfi. Göst.lüğət, c. I, s. 794)

haqqı (ocrət) alsınlar. Yuxarıda adları çəkilən əzəmətli əmirlər zaman fərmanverəninin fərmanını can-başla qəbul edib, çaya yollandıldar və onlara tapşırılan işin icrasına başladılar, İlahinin sonsuz kəramınə ümidvar oldular ki, qoy bu xeyirli niyyət onlara tapşırılan tərzdə həyata keçsin, İsfahan mülkündəki əmələlərin əkinlərinin suvarılması (abyari) o həzrətin saf niyyətinə uyğun şəkildə yerinə yetirilsin.

Bir neçə bədniyyət adam isə düşünürdü ki, o çayın İsfahana çəkilməsi mümkün olmayacaqdır, çünki İsfahan yolu üstündə sədd olan o dağda elə daşlar qarşıya çıxacaqdır ki, onların kəsilib-parçalanması daşyaranların qüvvəsindən xaric olacaqdır. [Onlar buna əsaslanırdılar ki,] o vilayət soyuq iqlimlidir, havası olduqca sərtdir, buna görə də bir ildə [cəmi] dörd, yaxud beş ay işləmək mümkün olacaq və beş il üçün nəzərdə tutulan iş iyirmi ilə yerinə yetiriləcəkdir. [Onlar deyirdilər ki,] çayın çəkilməsi vaxtı başqa zəruri işlər, məsələn harayasa hücum etmək, düşmənləri dəf' etmək və s. də üz verə bilər ki, belə olası surətdə həmin ali iddianın baş tutması və niyyətin həyata keçməsi olduqca çətin olar. Amma, cahanı bəzəyən rə'y belə oldu ki, hamı bu işlə məşğul olsun, bu xeyirli iş uğurla nəticələnsin, ona görə ki, bir sıra fitnəkar adamların dediklərinin əksinə olaraq bir çox müşkül iş İlahinin köməyi, hümayun şahın iqbal və azacıq diqqəti sayəsində yüksək şəkildə həyata keçmiş, niyyət gerçəkləşmişdir. [İndi də] Allah-taalanın köməyi ilə bu ali məqsəd baş tutacaq, bu xeyirli iş başqa çətin işlər kimi uğurla bitəcək, məramımıza uyğun tərzdə icra olunacaq, onun savabı isə tezliklə humayun şahın adına yazılacaqdır.

## HİND, RUM VƏ DEKƏN SULTANLARINA ELÇİLƏR GÖNDƏRİLMƏSİNİN ZİKRİ

Bu ilin əvvəllərində Hindistan mülkünün həşəmətli hökmranı Şah Səlim tərəfindən elçi gəlmiş Xanaləm ə'lahəzrətdən geri qayıtmaq üçün rüsxət aldı. Ali sarayın xüsusi adamlarından olan tuşmalbaşı* Zeynal bəy Bigdeli Şamlı isə hind

s.950 elçiliyinə təyin olundu və Xanaləmlə birlikdə gözəl xəl'ətlər və nəqd pul, zərif qumaşlar, tazı atlar kimi bol ən'amlarla yola düşdü. Onun apardığı pul on beş min tüməni – İraqi məbləğində idi. Əmirlərin, yaxın adamların, ali ordu ə'yan-
s.951 larının, Xorasan hakimlərinin uca məqamlı padşah üçün
670 göndərdikləri töhfə və hədiyyələrdən başqa qiymətli daş-qaşlarla bəzədilmiş alətlər, [o cümlədən] rum, firəng, rus, İran şəhərləri və başqa yerlərin nadir bəxşişləri, saysız-hesabsız tazı atlar da yola salındı. Qəşəng və qiymətli hədiyyələrdən bahalı daşlar və yaqutlarla işlənmiş nadir bir zəncir, heç bir padşahın xəzinəsində bənzəri olmayan və cövhərşünasların yeddi min tümən, hətta bəlkə ondan çox qiymətləndirdikləri bir ədəd gözəl lə'l də vardı ki, üzərində Mirzə Uluq ibn Şahrux ibn Əmir Teymur Gurganın adı nəqş olunmuşdu. Həmin lə'l Süleyman şanlı həzrət xaqan Şah İsmayıl əleyhirrəhmə zamanı sultanların xəzinələrindən ələ keçirilərək, xəzaneyi-amerədə saxlanılırdı. Bu il, Rum elçisinin [şaha] gətirdiyi töhfə və hədiyyələrin bir hissəsi də yüksək məqamlı padşaha göndərildi. Məhəbbətamiz sözlərlə yazılan və özündə insanpərvəranə hissləri, qardaşlıq, birlik əks etdirən bir məktub da qələmə alındı. Həmçinin ali saraya gəlmiş Dekən sultanlarının elçiləri ə'lahəzrətdən rüxsət alaraq bol ən'am və töhfələrlə nəvazişləndirildi. Taleb bəy Evoğlunu Bicapur valisi İbrahim Adilşahın elçisi Mirxəlil Xoşnevislə birlikdə Bicanura göndərdilər. Mazandaran sipəhsaları Qasım bəy Kolkəndə valisi Sultan Məhəmməd Qütbşahın elçisi Şeyx Məhəmməd Xatunla birlikdə o diyara getməkdən ötrü elçi tə'yin olundu və onlar yola rəvan oldular. Sultanların hər biri üçün onlara yaraşan padşahanə qiymətli xəl'ətlər və şahanə hədiyyələr göndərildi. Qəzvin Marağası seyidlərindən və şamlı tayfa üzvləri ilə birgə şah rikabının mülazimlərindən olan Dərviş bəyi Dekən Əhmədənkərinin[1] valisi Nizamşaha elçi yolladılar, lakin o, Şirazda vəfat etdi və əvəzində oğlu Məhəmmədi bəy göstərilən vəzifənin əncamına yollandı.

[1] "Əhmədnegar" yazılmalıdar – *Ş.F.*

## DURƏQ VİLAYƏTİNİN FƏTHİ VƏ BU İL DÖVLƏT ÖVLİYALARININ İXTİYARINA KEÇƏN DURƏQ QALASININ ƏLƏ KEÇİRİLMƏSİNİN ZİKRİ

Həzrət cənnətməkan şahın hakimiyyəti zamanı Durəq vilayəti [baçşıları] Kuh-Giluyə hakimləri olan qızılbaş əmirlərinin ixtiyarında idi. O həzrətin vəfatından sonra İran məmləkətlərinin nizamı pozuldu və hər guşədə bir fırıldaqçı (motəqəlleb) baş qaldırdı, Seyid Mübarək Həvizə Ərəbistanı hövzəsini tutdu, oranı əfşar tayfasının əlindən çıxardı. Onun atası Seyid Mətləb illərlə o mülkün hökmranı idi. Seyid Mübarək qızılbaşların tabeliyində olan vaxtlarda Durəq vilayətini ona və atası Seyid Mətləbə verilmişdi və həmin vilayət indiyədək o sülalənin əlində qalmaqdaydı. Aşağıda yazıldığı kimi, Həvizə valisi Seyid Raşed öldürülən əsnada Seyid Sələmə adlı birisi oranı zəbt edib qalanı möhkəmləndirdi. Bu il isə Fars bəylərbəyi İmamqulu xan qəzavü-qədərin fərmanı ilə oranı ələ keçirməyə göndərildi və Durəq vilayətinə
**s.951** ləşkər yolladı. Gedənlər qalını mühasirəyə aldılar. Adı çəkilən Seyid Sələmə bu zəruri fərmandan xəbər tutdu və onun qalanı təhvil verməkdən qeyri çarəsi qalmadı və qaladan əl çəkərək Həvizəyə yollandı. Nəticədə həmin vilayət qəhrli dövlət övliyalarının əlinə keçdi və Həvizə valilərinin əlləri oradan uzaqlaşdırılıdı.

Bu ilin hadisələrindən [biri] Seyid Raşedin öldürülməsidir. O, yuxarıda yazıldığı kimi, Seyid Mübarəkin oğlu Seyid Naserin vəfatından sonra şahanə tərbiyətlə şərəflənib həmin vilayətin (Həvizənin – *Ş.F.*) valisi olmuşdu. Hadisə belə baş verdi: Bəsrə hakimi Əfrasiyab paşa Həsən ibn Maziçi adı ilə məşhur olan və Seyid Raşedin ülkasının yaxınlığında yaşayan düşmənlərindən biri üzərinə ləşkər çəkərək, Seyid Raşeddən kömək xahiş etmişdi. Seyid Raşed onun xahişini yerinə yetirərək, bir neçə ərəb qəbiləsi ilə onun köməyinə yollanmışdı. Bu xəbəri eşidən Bəsrə ləşkəri onun gəlişini eşidib geri qayıtdı.

Ale-Fəzil adlı Həvizə ərəblərinin bir dəstəsi Seyid Mübarəkin vəfatından sonra Bəsrəyə gedərək, Əfrasiyab paşanın mülazimi olmuşdu. Bu vaxtlarda Seyid Raşed o adamları geri çağırdı. Onlar evlərinə qayıdıb, Bəsrədən Raşedin yanına getmək qərarına gəldilər, amma o, buna razı olmadı, tələbində bərk israr etdi, öz qüruru, tədbirsizliyi və fikrinin dayazlığı üzündən onların üzərinə hücuma keçdi. Həvizə ərəbləri isə daha onunla görüşməkdən imtina etdilər. Seyid Raşed ağır qoşun ilə onların üzərinə yürüdü. Onlar da Raşedin bu tələbindən inciyərək, hərb əzmiylə irəli şığıdılar,
**s.952** döyüş vaxtı fürsət əldə edən Ale-Fəzil camaatı Seyid Raşidi
**(671)** qətlə yetirdi, amma bilinmədi ki, görəsən bu qətli törədən Ale-Fəzil ərəbləri olmuşlar, yaxud onunla Bəsrəyə gedən onun öz camaatının adamları?

Bə'ziləri deyirlər ki, həmin əməl onların qohum-əqrəbalarının və qəbilələrinin razılığı ilə "kiminsə təqdirinə qarşı çıxmaqla"[1] öz yoldaşları tərəfindən baş vermişdir. [Seyid Raşedin] qətlindən sonra ərəblər üç dəstəyə bölündülər. Bir dəstə dövlətxah şahsevən bu xanədanının tərəfdarı olan Abdulla Loğmanın ətrafına yığışılıb, Məşkuk və Kiçik Həvizə qalasını möhkəmlətdilər, orada qalaraq məsələni aləmə pənah verən dərgaha ərz etdilər.

Bu ilin qəribə hadisələrindən biri də Gilanın bir neçə fırıldaqçı şeyxinin boş xəyala düşmələridir. Hərçənd ki, insanın təbiəti onu şeytani vasvasılığa qapadıb aldadır, daim boş xəyallara və sevdaya salır, amma gilanlılar başqalarına nisbətən daha çox vasvasalığa başlayaraq, düzgün və rahət yollarından çıxırlar, etdikləri əməlin sonunu fikirləşmirlər, ləyaqətsiz işlərə, xətərli əməllərə cür'ət edirlər, öz aqibətlərini və gələcək vəziyyətlərini düşünmürlər.

Misal olaraq bunu söyləmək olar: Bu il bir neçə fırıldaqçı şeyx həşişin (bəng) tə'sirindən puç xəyala və mə'nasız istəyə düşdü. Adı Seyid Məhəmməd olan o şeyxlərin birisi özünü elçi (rəsul) və həzrət sahibəz-zəman sələvatullahi-əleyhin[2]

---

[1] Ərəbcə: "Bi iştidadi ələ eyyi-t-təqdirinə"

[2] İmam Mehdinin – *Ş.F.*

elçisi və müavini (nayib) adlandırdı, daha iki-üç nəfəri özünün xüləfaları və duaçıları (daiyan) kimi qələmə verdi. Məsələnin başlanğıcında və bu işin əvvəlində o, iki nəfəri həzrət zilləllah şahın yanına yollayaraq, ona bu zühur barədə müjdə göndərdi, öz tərəfindən belə məzmunda mövizə və nəsihətlərlə dolu bir məktub da yazdı: "Mən həzrət sahibüləmrin[1] elçisiyəm, filan-filan xəlifələr də mənim adamlarımdır (vədai)". Seyid Məhəmməd, sultanlar etdikləri kimi, öz möhrünü də həmin məktubun üstünə vurdu və Mazandarana göndərdi. [Seyidin] yolladığı adamlar şahın yanına gəldilər, hamı heyrətə düşdü. Ali məclisin nədimləri və zarafatcıl adamlarının əlinə zarafat və istehza hədəfi düşdü. Seyidin yanına bir adam yollayıb, ona ehtiram göstərdilər. O, fikrində inad (moserr) etdi, onları özünün səfehliyi, ağılsızlığı və beyninin pozuqluğu üzündən cəzalandırdı. Cəzalanma zamanı seyid yalan danışdığını, etiraf etsə də, dünya və mülk işlərinin xeyrinə və belə aqibətsiz səfehlərin cəzalandırılmasının vacib olmasına görə, onların qətlini tə'xirə salmadılar və onlar öz savabsız əməllərinin cəzasına çatdılar.

**s.952** Başqa bir hadisə isə belə baş verdi: Bu il ulduzlar aləminin tə'sirindən. Ütaridin (Merkuri – *Ş.F.*) alovlanmasından və Müştərinin (Yupiter – *Ş.F.*) [öz yerinə] qayıdışından sonra həmin hər iki planetə mənsub olan qələm sahibləri və vəzirlər arasında söhbət başlandı və onlar bir-birilərinə acı sözlər dedilər. Mustovfiül-məmalik Qəvama Məhəmmədaye-Kofrani İsfahani on il Azərbaycan və Şirvanın divan işlərinin vəziri və ameli* olan Xacə Məhəmmədrza Fədəvi ilə mühasibat əməliyyatlarının yenidən baxılmasına görə münaqişəyə başladı, xacənin divana borclu qaldığı məbləğin miqdarını bildirdi, amma xacə bununla razılaşmadı. Yeni divan çağırılmasından və tərəflər arasındakı bu münaqişənin şaha ərz olunmasından sonra, çatışmayan külli miqdar məğləğ üzə çıxdı. Fədəvi iddia edirdi ki, mən divan malını xərcləməmişəm, çatışmayan məbləğ isə mənim ayrı-ayrı mahallarda işləyən mühasibat işçilərim tərəfindən bircə-bircə təsdiqlənmişdir. Humayun təbiəti hesabdarlıq və həqiqətin me'yarı olan şahın

[1] İmam Mehdinin – *Ş.F.*

əmri belə oldu: Divan işçiləri bu məbləği (vocuh) Fədəvinin xəzinədə çatışmayan pulu kimi həvalə etmişlər. Əgər bu barədə hər kimin başqa fikri varsa, yaxud həmin məbləğ pula görə Fədəvinin vəkilləri bu işdə təqsirləndirilərsə, qoy onlar hesablarını bir-birləri ilə ayırd etsinlər.

[Beləliklə] tərəflərin münaqişəsinə son qoyuldusa da, amma həmin mustovfiəl-məmaliklə və Fədəvi şahın məclisində gedən söhbət əsnasında yenə bir-birlərinə kobud sözlər dedilər. Fədəvi onu və hümayun dəftərxanasının başqa katiblərini xəyanətdə ittiham etdi. Bu danışıqların baş verməsinə görə ə'lahəzrət dəftərxana katiblərinə qarşı e'tibarını bir qədər itirdi, bir neçə nəfəri həbs və təhdid elədi. O cümlədən, Xorasan əvareçənevici və tiryəkçəkən adam olan Ağa Əziz İsfahanini söhbət yasavulu Teymur bəy Evoğluya həbs etdirdi və gövhər saçan dili ilə dedi ki, onun cəzası budur ki, ona daha tiryək verilməsin.

Ertəsi gün Teymur bəy Ağa Əzizə qarşı insanpərvərlik göstərib, əvvəlki kimi istifadə etməsindən ötrü, ona tiryək gətirdi. Amma Ağa Əziz onu çəkməkdən imtina edərək dedi: "Bizim mürşid və vəline'mətimiz olan şah öz mübarək dili ilə buyurdu ki, tiryəki adamın cəzası ona tiryəkin verilməməsidir. Sizin mənə etdiyiniz təklif isə və'linemətin əmrinə xilafdır. Əgər şah bu yolla məni cəzalandırarsa, mən onun fikrinə əks gedə bilmərəm. Yox, əgər şəxsən onun özü mənə rəhm edərsə, çox yaxşı, əgər etməzsə, yenə də qoy onun mübarək başı salamat olsun".

**Şer**

*Şah öz qərarında düzgünsə əgər,*
*Hamı fərmanına əməl eləyər.*[1]

**s.953** Teymur bəy şahın xidmətinə gedərək, bu söhbəti danışdı,
**(672)** onun hümayun ayaq tozuna and içib söylədi: "Hərçənd ona

[1] Şerin farscası:
Təne-şah bayəd ke, başəd dorost,
Mən-o comle-ra k-u şəvəd pay sost.

dedim ki, həzrət şahın o əmri onun tiryək çəkən adamlardan incikliyi üzündən olmuşdur və buna görə də razı deyildir ki, tiryəkdən sizə zərər dəysin. İndi tiryək çəkmədiyi üçün Ağa Əzimin bütün bədəni əsir, buna baxmyaraq tiryəkdən imtina edir". Ə'lahəzrət onun halına rəhm edib, tiryəkdən istifadəsi üçün icazə verdi. Belə qərara alındı: Vəziyyətlərinə rəğmən qoy hər tiryəkçi adam vergiyığanlara (mühəssilan) rəsme-tərcüman vergisi ödəsin. Qoy Fədəvinin vəkilləri hümayun dəftərxanaya gedərək, baş vermiş qüsur və xəyanətə görə qanun əsasında aydınlıq işi aparsın və bunu mənə ərz eləsinlər".

**Misra**

*Üzü qara olsun yalançı kəsin*[1]

Əmrə müvafiq olaraq, Fədəvi tərəfindən Azərbaycanın mustovfisi olan və mühasibatı yaxşı bilən Xacə Məhəmməd Mə'sum mustovfiəl-məmalikə qarşı inadkarlıq edən Xacə Məlik Əhməd İsfahani ilə birgə dəftərxaya gedib, hər bir sərkar üçün bir katib tə'yin elədi və mühasibat işlərini ilbəil təhqiq etməyə başladı. Onlar altı ay dəftərxanada ixtiyar sahibi oldular.

Elə bu vaxt Qəvama Məhəmmədaye-Mustovfi xəstələnib
s.953 təbii əcəllə vəfat etdi və başlanmış iş yarımçıq qaldı.

## ŞAHIN SAĞLAM VÜCUDUNA XƏSTƏLİK ÜZ VERMƏSİ VƏ ONUN ALLAH-TAALANIN İNAYƏTİ VƏ LÜTFÜ İLƏ SAĞALMASININ[2] ZİKRİ

Keçən il vaqe olan zuzənabə ulduzunun görünməsi və asiman əlamətlərinin zahir olması hadisələrindən, münəccimlərin sözlərinə görə, əksər şəhərlərdə xəstəlik peyda olacağı, amma şimal yerlərdə xəstəliklərin daha da çox baş verəcəyi bildirilirdi. Ə'lahəzrət qələm sahiblərinin divanından sonra

[1] Misranın farscası:

Ta siyəhruy şəvəd hər ke dər u ğəş başəd.

[2] Ərəbcə: "İltaf həkim ələ-l-itlaqi və maliki-l-mülki bi-l-istehqaqi"

behiştmisal Mazandarana yollandı. Orada havanın üfunəti, istiliyin artması, fələk və ulduzların tə'sirindən xəsətəliklər olduqca çoxalmışdı. Bu şərait şahın mübarək vücuduna da sirayət elədi və qızdırmaya düşdü. Zəifliyin və qızdırmanın çoxluğundan o, Fərəhabaddan çıxıb Firuzkuh və Dəmavənd yaylaqlarına təşrif apardı. Orduda da xəstəlik artdı və xeyli adam natəvanlıq yatağına düşdü. Ümumiyyətlə salamat adam az idi.

Adi adamların və yaxın şəxslərin çoxu ədəm yoluna yollandı. Aqibət sarayına gedən bir neçə məşhur adam barəsində aşağıda mə'lumat veriləcəkdir. Sadiq kəslər mübarək zatın sağalmasından ötrü kasıb adamlara nəzir və sədəqə verirdilər.

**Misra**

*Dua əli asimana, baş isə torpaq tərəfə*[1]

Əhali şahın sələmət olmasını həzrət çarə verəndən (Allah-təaladan – *Ş.F.*) diləyirdi. Nəhayət, duaçıların duaları qəbul olundu, Allahın və mö'minlərin şəfaxanasından yetişən şəfa nəticəsində xəstəlik sağalmağa başladı, zəiflik gün-gündən zəiflədi, cismani qüvvət isə qüvvətləndi. Ə'lahəzrət Dəmavənddən çıxıb İmam Rza rövzəsi sultanının – o əzəmət sahibinə salam və səna olsun[2] – ziyarəti üçün Semnan və Damğan hüdudlarınadək təşrif apardı, lakin bə'zi mülki işlər və digər idarəçilik tədbirlərinin icrası üçün ziyarətini saxlayaraq, Astrabad yolu ilə Fərəhabad adlı fərəh evinə (darüssürur) qayıtdı, hümayun qışlaq bu il behiştnişan Mazandaranda oldu.

O günlərin bir hadisəsi də belə baş verdi: Ə'lahəzrətin nurlu istəyi və cahanı işıqlandıran nuru buna meylləndi ki, Kaxet Gürcüstanına təşrif aparsın. Çünki o diyar dövrün hadisələri nəticəsində viran olmuş və zaman şahənşahının qəzəbindən boşalmışdı. Ə'lahəzrət oranı abadlaşdırmaq və bir neçə oymağın adamlarını oraya göndərmək fikrinə düşdü

---

[1] Misranın farscası:

Dəste-doa bər asiman, ruye-niyaz bər zəmin.

[2] Ərəbcə: "Vacibu-l-əzəməti əleyhi təhiyyətu və-s-sənai"

ki, qoy o yerlərdə məskunlaşıb əkin-biçin (ziraət) və tikinti
s.954 işləri (emarət) ilə məşğul olsunlar, dağlara pənah aparanlar, ya da Gürcüstanda cilayi-vətən olan şəxslər geri qayıtsınlar, şahın qəzəb atəşi artıq söndüyü üçün hətta öz cəhaləti və qüruru üzündən ölkəsinə təpik atan və ad-sansız halda sərgərdan həyat tərzi keçirən Təhmurəsə də aman verilsin.

Ə'lahəzrət buna görə də, həmin əyalət işlərinin və mülkiyyət məsələlərinin yoluna qoyulmasından ötrü Peykər Sultan İyirmidördü yüksək xan ləqəbi ilə şəfəfləndirib o tərəfə göndərdi. Ali hökm sadir oldu ki, Peykər xan öz əhl-əyalı və oymaqları ilə birlikdə Qarabağdan çıxıb Kaxetə getsin, Qırlanquç qalası ətrafındakı yerlərdə iqamət eləsin. Şah o mülkdə yaşamağı münasib bilinən hər təbəqə və tayfadan olan adamları müəyyənləşdirdi, Peykər xan fərmana baş əyib
s.955 həmin vilayətə üz tutdu. Gürciyyə pərakəndələrinə əfv olunma
(673) və bağışlanma səadəti nəsib oldu, onlar öz vətənlərinə qayıtdılar, abadlıqla məşğul olmağa və şahanə ədalətlə işləməyə başladılar.

**Vəfat edən şəxslər:**
***Şahzadə Əbu Taleb Mirzə***

Ə'lahəzrətin doğma qardaşı olun Əbu Taleb Mirzə Ələmut qalasında yaşayır, şahın nuru və mərhəməti sayəsində günlərini asudə keçirirdi. O, bu il xəstələndi və axirət mənzilinə yollandı.

**Dəli Məhəmməd Sultan Şəmsəddinli**

O, Qarabağ əmirləri silkindən və şah məclisinin yaxın adamları zümrəsindən idi. İsfahanda xəstələndi. Müalicə olunmağa çalışmadığı və münasib olmayan xörək və içkilərdən əl çəkə bilmədiyi üçün xəstəliyi şiddətləndi, Fərəhabadda ömrünə və dövlətinə vida edib, üqba aləminə getdi. Şəmsəddinli elinin əmirliyi qardaşı Səlim bəyə verildi.

***Mürtəzaqulu xan Kəskəri***

***Mürtəzaqulu xan Kəskəri*** – Gənclik illərindən ali hümayunun tərbiyət kölgəsi altında boya-başa çatan və ali məclisə yaxın şəxslərdən olan Kəskər hakimi Əmirə Səyavuşun oğlu Mürtəzaqulu xan Kəskəri Fərəhabadda və Firuzkuhda xəstələndi, təbiblərin dava-dərmanının heç bir

faydası olmadı. Havasını və suyunu dəyişməkdən ötrü onu Dəmavənddən Tehrana gətirdilər. Elə orada da ölüm təbilini çalaraq bəqa aləmində özünə yer tutdu.

Oğlanları kiçik olduqları üçün Kəskər hakimliyi əvvəlcə Behbud xan Çərkəsə, sonra isə xasseyi-şərifə qulamı Yusif Sultana verildi.

***Həkim İnayətulla Yəzdi***: Xasseyi-şərifə təbibləri silkindən olan, yaxşı müalicə həkimi İnayətulla Yəzdi. Onun arvadı Yəzd həkimi Mövlana Zeynəddinin qızı idi. Onun da (arvadının – *Ş.F.*) fitri (zehni) təbiblik qabiliyyəti vardı, hərəmxanadakı qadınların həkiməsi idi. İnayətulla Yəzdi başqa təbiblərdən daha çox şahın xidmətində durardı və ona yaxınlığı və məhrəmiyyəti vardı, həmişə şahla söhbətləşmək imtizarına malik adam kimi şahanə e'tibara yetişmişdi. Firuzkuhda xəstələndi, bir neçə vaxt müddətinə borc aldığı bu həyatı mübarək şahın başına sədəqə (təsəddoq) etdi və həyatı ölüm (məmat) ilə
**s.955** dəyişdirib baqi cahana yollandı.

***Qəvama Məhəmmədaye-Mustovfi*** O, İsfahanın Kofran adlanan yerindəndir, o mülkün böyük adamları nəslindən və İranın mustovfiəlməmaliki idi. Mübarək ramazan ayının onunda (9 avqust, 1620), düşənbə günü heç bir xəstəliyi yox ikən dəftərxanada yazı-pozu işləri ilə məşğul olduğu vaxt huşdan və danışıqdan qaldı, gündüzdən axşama və axşamdan səhərədək özünə gəlmədi, İsfahanın təbibləri onun vəziyyətinə əlac edə bilmədilər. Bə'ziləri onda güclü bayılma (ğəşşe-qəni), bə'ziləri mədəsində fəsadlı qarışma (exlate-fasede*), bə'ziləri isə qanında zəhərlənmə baş verdiyini söylədilər. İkinci günün sübh çağı qanalma (fəsd) tədbirinə başlandı, həştad misqala[1] qədər qan gbtürdülər. Qanalmadan sonra olduqca zəiflədi və ruhu bədənindən ayrıldı. Bə'zi adamlar dedilər ki, onun vəziyyəti zəhərlənməsinə dəlalət edir və [mustovfini] zəhərləyiblər. Doğrusunu Allah bilir.[2]

[1] Təxminən 400 qr. – *Ş.F.*

[2] Ərəbcəsi: "əl-elmu ində-llahi"

Xülasə, onun cəsədini bir neçə vaxt evinin yanında tikdirdiyi mədrəsədə saxladılar, oradan Kərbəla torpağına apardılar və seyyidəş-şühədanın (İmam Hüseynin – *Ş.F.*) rövzəsinin yanında dəfn olundu. Həqiqətən də əliaçıq, xeyirxah və camaatın yaxşılığını istəyən adam idi. İstedad sahibləri onun haqqında gözəl [maddeyi-tarixlər] yazmışlar. O cümlədən [tərəfimizdən] bu maddeyi-tarix səbt olundu:

**Qit'ə**

*Təəssüf ki, o yaxşı mustovfidən*
*Yaxşı addan başqa heç nə qalmadı.*
*... Ölüm tarixi söylənildi belə:*
"*Qəvama öldü, qaldı yaxşı adı*".[1]

Onun vəzifəsi (mənsəb) dəyanətli və az tamahlı adam olan cənnətməkan şahın müstovfisi Xacə Qasımın nəvəsi Mirzə Səidə verildi.

---

[1] Maddeye-tarixin farscası:
Dəriğa ze mustovfiye-nikray
Ke coz name-niki begiti nəmand.
... Be del goft tarixe-fovtəş begu:
"Qəvama ço şod name-nikəş bemand".

## ABBASIN GÜNDƏN-GÜNƏ ÇOXALAN HAKİMİYYƏTİNİN İKİNCİ QƏRNİNİN BEŞİNCİ İLİNDƏ, YƏNİ HİCRİ [TARİXLƏ] MİN OTUZUNCU XORUZ İLİNDƏ (1620/1621) BAŞ VERƏN HADİSƏLƏRİN ZİKRİ

**Ləraqemə**[*]

*Təzələndi yenə çöl, mövsime-bostan gəldi,*
*Çıxdı xədvətxanadan laləvü reyhan, gəldi.*
*Gizli qalmışdı nəzərlərdən üzüm dildarı,*
*Xoşlanıb çıxdı üzə, qalmadı pünhan, gəldi.*
*Müjdə verdi yenə güllərlə bizə fəsle-bahar,*
*Darıxan bülbülə hey naləvü əfğan gəldi.*
**s.957** *Saqi meydən qızarıb lalə kimi allandı,*
**(674)** *Gəldi şad olmaq üçün xosrove-İran, gəldi.*[1]

Bu il, cahanı yaradan və nizama salan Allahın (dadar) hökmü ilə ən böyük ulduz (günəş – *Ş.F.*) rəbiüs-sani ayının iyirmi beşində 19 mart, 1621), şənbə günündən doqquz saat on bir dəqiqə keçəndən sonra, hut mənzilgahından çıxıb pak həməlin təmizlik güşəsinə (nozhətgah) gəldi, Allahın nuru ilə dey [ayının] zülməti əridi, şərəf və iqbal bargahının bəzənməsinə, çəmən qoşununun (yəni gül-çisəyin – *Ş.F.*) bəzənib-düzənməsinə səbəb oldu.

---

[1] Şerin farscası:

Şod çəmən taze degər movseme-bostan aməd,
Gol ze- xəlvətkədeye-xod be golestan aməd.
Doxtəre-rəz ke, be səd pərde nehan bud ze-ğeyr,
Xoşhərifane-degər həmdeme-dəstan aməd.
Mojde əz məqdəme-gol dad degər fəsle-bəhar,
Bolbole-del şode əz nale-vo əfğan aməd,
**s.957** Lalesan saqiye-golçehre rox əfruxt ze mey,
**(674)** Qabele-bəzmgəhe-xosrove-İran aməd.

**Ləraqemə**

*Elə tazələndi düzən, çöl, çəmən*
*Cahan müşkə döndü yazın ətrindən.*
*Çəmənlər güllənib xalı oldu ki,*
*Külək ətirlidir, hava ətirli.*[1]

Ə'lahəzrət zilləlah şah cənnətnişan Mazandaranda baharın nişat artıran günlərini şadimanlıqla keçirib, seyr və şikarla məşğul oldu. Ürəkaçan novruzdan iki ay və bir neçə gün gün keçdi, bahar mövsümü və şadyanalıq dövrü arxada qaldı, o diyarın havası istiləşməyə başladı, yaylağın ətirli vaxtı yetişdi. Şah öz fikir və düşüncəsinin xoşagələn nurəngiz cilovunu İsfahan darüssəltənəsinə yönəltdi və ora onun səba yerişli atının dırnaqlarından qalxan tozlardan irəm yüksəkliyinin (emad) həsədinə gəldi. O cənnətəbənzər diyar bir müddət ədalət və din şəhriyarının işrətgahına çevrildi.

## BU İLİN ƏVVƏLLƏRİNDƏ BAŞ VERƏN MÜXTƏLİF VAQİƏLƏR VƏ İQBAL HADİSƏLƏRİ

Rum elçiliyinə gedən Taxta bəy Yüzbaşı Ustaclı qayıtdı və özü ilə birgə gələn rum elçisi ilə cahanpənah dərgaha
s.957 gəldi. O, Rum padşahı Sultan Osmandan səhifələri vəzirlər və dövlət başçıları tərəfindən məhəbbətamiz və dostluq üslubunda yazılmış bir məktub gətirdi, onu şahın nurlu nəzərinə yetirdi, sülhün və dostluğun möhkəmlənməsinə dair fiikirlərini söyləyib, izzət və ehtiramla qarşılandı.

Başqa bir hadisə isə Kəbç və Mokran valisi Məlik Mirzənin gəlişi oldu. O, bu günlərdə ali saraya gedib, şahla görüş səadətinə yetdi. Adı çəkilən vilayət Hindistanın tabeliyindədir, Təbh və Sind ölkələrinə bitişik bir yerdir və bu yerlərdə hind ölkəsinin hökmranlarına itaət olunur. Agrənin Hindistanının

[1] Şe'rin farscası:
Befərxondegi taze şod ruzegar,
Cəhan moşkbu şod ze buye-bəhar.
Çəmən əz gol-o lale şod canfəzay,
Səba ətrbiz-o həva ətrsay.

darülmülkü Dehlidən məsafə uzaqlığına görə onlardan az miqdarda hədiyyə alınmaqla kifayətlənilir, Hindistan ölkələri padşahlarının hücum və iqtidar əlləri o vilayət valilərinə doğru yönəlmir. Hindistanın Əqsi vilayəti əlahəzrətin dövlət sərhədləri olan Kirman, Sistan və Hörmüzə yaxın olduğu üçün ə'lahəzrət zilləllah şah o vilayəti tutmaq istədi. Keçən il hadisələrinin təsvirində göstərildiyi kimi, Kirman darülamanının hakimi Gəncəli xan o mülkün məliklərindən Məlik Şəmsəddinin vilayəti və hökumətgahı olan ibn Fəhl adlı yerə göndərildi və oranın qalasını zorla tutdu, adı çəkilən məliki ali saraya gətirdi. Şah o vilayətin valisinə məzəmmətli sözlərlə dolu bir məktub verib, onu Sistan məlikzadələrindən olan Məlik Hüseynlə birlikdə geri göndərdi. Mokran vilayətinin və məliklərinin ən böyük iqtidar sahibi olan Mokran valisi Məlik Mirzə ə'lahəzrətin fatehliyindən və heybətindən xəbərdar olub, bərk qorxdusa da, görüş üçün başı ərşə ucalan saraya yollandı, ümid üzünü dərgaha tutdu, bir neçə nəfərlə səadətli İsfahan darüssəltənəsinə gəlib çatdı, acizlik və miskinlik dili ilə belə dedi:

**Ləraqemə**

*Sən ey şahlar şahı cahan mülkünə,*
*Kəyan taxtı, tacı layiqdir sənə.*
*Gəlmişəm yanına sədaqətlə mən,*
*Durmuşam önündə xəcalətlə mən.*[1]

Ə'lahəzrət bu məlikə sədaqətinə və mü'tiliyinə görə, mərhəmət etdi, onu şahanə nəvazişlər və padşahanə təşrifatla şərəfləndirdi, tac, kəmər, at, yəhər və sair hədiyyələr təqdim etdi, irsi mülkünü yenidən onun özünə qaytardı, geri dönmək üçün rüxsət verdi və məlik şadiman halda öz diyarına döndü.

---

[1] Şerin farscası:

Ke, ey xosrove-xosrovane-cəhan,
Səzavare-deyhim-o Təxte-Kəyan.
Be exlase-şəh ra yeki bəndeəm,
Be dərgahe cahət sərəfkəndeəm.

Baş verən başqa bir hadisə Buxarada cuybari seyidləri adı ilə məşhur olan və o diyarın qiymətli adamlarından sayılan cənab dini xadim Əbdülrəhim ibn Xacə Kəlan Buxarinin gəlişidir. Özbək sultanlarının hökmranlığı dövründə izzətli və ehtiramlı adam kimi sultanlara yaxınlığı, məqamı, cah-cəlalı və var-dövlətinə (məknət) görə başqa Mavərənnəhr xacələrindən üstün idi. Həcci və beytullahi ziyarət etmək niyyəti ilə Buxaradan Mərvə, oradansa İsfahana gəldi ki,
**s.958** şahla görüşün və o həzrətdən bü səfəri üçün xeyir-dua alsın.
**(675)** Şahın əmriylə əzəmətli sədrlər, seyidlər, qiymətli üləmalar onu qarşılamağa getdilər, şəban ayının iyirmi üçü (13 iyul, 1621), çəharşənbə günü izzət və ehtiramla şəhərə gətirdilər, gözəl mənzillərdə yerləşdirdilər. Ə'lahəzrət xacəyə ehtiram əlaməti olaraq özü onun yanına təşrif apardı və görüşdü, xacə şahanə ehtiram və xosrovanə hörmətlə (təkrim) şərəfləndi,
**s.958** ona layiqli hədiyyələr təqdim olundu.

Bu əsnada onda xəstəlik əlaməti müşahidə olundu, vəziyyəti ağırlaşdı, təbiblər onun müalicəsinə başladılar. Ali humayun [şah] hər gün ondan hal-əhval tutur, nəvaziş göstərirdi. Get-gedə xəstəliyi sağalmağa doğru üz tutdu, səhhəti yaxşılaşdı. Mübarək səfərə getmək müddəti keçdiyi üçün onun bu ali mətləbi və parlaq (əsni) məqsədi tə'xirə salındı, Allah-təalanın hikməti ilə [ziyarət] bu il müyəssər olmadı.

## ALİ HÜMAYUN [ŞAHIN] KURƏNG ÇAYININ SEYRİNƏ (TƏFƏRROC) YOLLANMASI

Kurəng çayının İsfahan darülmülkünə çəkilməsi şahın diqqət mərkəzində olmasına və həmin işin artıq son həddə çatdırılmasına görə o, şəxsən oraya gedib, suyun keyfiyyət və kəmiyyətini və işin gedişini müşahidə etmək istədi. Buna görə də, yürüş cilovunu səltənət paytaxtından həmin səmtə yönəltdi, bir neçə gün o yerlərin yaylaqlarında dayandı, vəziyyətlərinə göz yetirdi, tapşırılan işləri yerinə yetirdiklərinə görə əzəmətli əmirlərə öz qayğısını əsirgəmədi.

Fars [vilayətinin] bəylərbəyi, Luristan hakimi Hüseyn xan, həmçinin Cahangir xan Bəxtiyari, Həmədan hakimi Səfiqulu xan və bu işin icrası üçün təhkim olunan Fars və İsfahan ə'yanlarının hər biri onlara tapşırılan işlərə Fərhad kimi olduqca mə'suliyyətlə yanaşmaqdaydılar. Ümid edirik ki, [şahın] dərya böyüklükdə olan bu çoxdanki istəyi (məknune-xatere-dəryanəval) ürək istəyincə yerinə yetirilmiş olsun.

## HƏVİZƏ ƏRƏBİSTANI ƏYALƏTİNİN SEYİD MƏNSURA VERİLMƏSİ

Yuxarıda yazıldığı kimi, Ərəbistanın vəziyyəti Seyid Raşedin qətli səbəbindən nizamsız bir hala düşmüşdü. Ərəb sərdarlaının hər birinin başında bir sevda yaranmışdı. Bir neçə vaxt bundan əvvəl ali saraya gələn Seyid Mənsur ərəb fitnəsinin aradan götürülməsindən, habelə Seyid Raşeddən sonrakı məsələləri həll etməkdən ötrü əmrə görə gedib Astrabadda yaşayırdı. Elə bu vaxt o, ə'lahəzrətin yanına çağırıldı. Görüşdən sonra Seyid Mənsura şahanə iltifat olundu, ona yüksək xan ləqəbi verildi və Ərəbistan mülkinə [hakim] tə'yin olundu, Luristan hakimi Hüseynxan və Şüştər hakimi Əli Sultan Cığatay Seyid Mənsurun xidmətinə (müavinət) yollandılar. Onlar ağır qoşunla Ərəbistana gedərək onu o vilayətin hakimi [e'lan] etdilər. Kiçik Həvizədə (Həvizeye-kuçek) olan Abdulla Loğman fərmana itaət edib, Məşkuk qalası və oranın əhalisini onun ixtiyarına verdi. Seyid Mənsurla ixtilafda olan Seyid Təhmasib də itaətdən başqa çarə görmədi, əlindəki qalalardan və məmləkətdən əl çəkdi. Yuxarıda adları çəkilən əzəmətli əmirlərin hər biri Seyid Mənsurdan xatircəm oldu və hərə öz hökumətgahına qayıtdı.

## HÖRMÜZDƏKİ PORTUQAL FİRƏNGLƏRİ ÜZƏRİNƏ LƏŞKƏR GÖNDƏRİLMƏSİ

Corun adasında yaşayan portuqal firənglərindən dəfələrlə
**s.959** hiyləgərlik əlamətləri zahir olmuş, onlar ayaqlarını ədəb dairəsindən çıxarmışdılar. Portuqallar Corun adasınlakı

müsəlman valilərlə əvvəllər bağladıqları əhd-peymana əməl etməyərək, özbaşına olaraq, Corun çayının başlanğıcındakı adada Qeys Qəl'ə adlanan bir qala inşa etmiş, oraya gözətçilər qoymuş və oradakı tikililərin sayının artmasına çalışmaqdaydılar. Bundan xəbər tutan Fars bəylərbəyi İmamqulu xan bir dəstə döyüşçüsünü o qalanın tutulub viran edilməsinə yolladı və məsələni [ali saraya] ərz etdi. Oradakı vəziyyət, İmamqulu xanın o tərəfə hücumu, Corun adasının fəthi və portuqal
**s.960** firənglərinin həmin mülkdən çıxarılmaları haqqında gələn il
**(676)** hadisələrinin şərhində yazılacaqdır, inşallah.

## BİR DƏSTƏ XRİSTİANIN (NƏSARİ) İSLAM DİNİNƏ DƏ'VƏT OLUNMASI

Bu il aləmi bəzəyən hümayun rə'y belə oldu: Bir halda ki, din və dövlət bünövrəsinin tənzimlənməsi mülk və millətin dayağıdır, gərək əmrə əsasən bəxtiyarilərin məskənlərinə yaxın sərhəddə yaşayan və [torpaq] əkib-becərməklə məşğul olan erməni və başqa xristianları islam dininə də'vət eləsin. Dünya hadisələr ocağı və yorğunluq evi olduğu üçün, ə'lahəzrət, mərhəmətinin və qayğıkeşliyinin çoxluğu üzündən, belə fikirləşdi: Allah eləməsin ki, hər hansı bir hadisənin törənməsi, yaxud o tayfadan olanların yaşadıqları yerin yaxınlığındakı mülk işlərinin pozulması nəticəsində, islama tabe olan həmin adamlara (əhle-zemme) qarşı hücum baş verə və onların qadın və qızları əsir tutula. Onların o təbəqədən olan adamları bu hümayun də'vəti istər-istəməz özlərinin istək qədəmi ilə qarşıladılar, fərmana tabe oldular. Amma, bu məsələnin əsl səbəbi bunda idi: Onların yaşadıqları yerdə inşa elədikləri mə'bəd artıq məscid kimi tanınırdı. Belə olan halda qoy həmin mə'bəddən azançı (müəzzin) tərəfindən müsəlmanlığın şüarı olan sözlər qulaqlara çatdırılsın və nəhayət vəziyyətləri xoşagələn səviyyəyə çatmış olsun.

Nəsilbənəsil bu xanədanın qədim mülazimlərindən olan, körpəliyindən şahın tərbiyəsi altında böyüyən, ucalmaq şərəfinə yetişən, e'tibarına və yaxınlığına görə kafərlərdən

fərqlənən hümayun divan mə’muru (məclesnevis) Əmir Əbülməali Seyid Nətənziyə bu səadətli xidmət həvalə olundu. O, ali əmrə əməl edib bu xeyirli işin əncamına başlamaqdan ötrü o camaatın yanına getdi və onların bə’zilərini hidayət yoluna gətirə bildi. Amma, öz keşişlərinin qorxusundan xristian (məsih) millətini tərk etməkdə çətinlik çəkən və xristianlıqdan dönməyi məqbul bilməyən bə’zi adamlar öz rəhbərlərini azacıq təhdid etməklə fikirlərindən döndərdilər və həmin adamlar da başqa bir çarə görməyərək ikrah hissi ilə müsəlmanlıq dairəsinə daxil oldular. Onların qadın və qızlarının əksəriyyəti həvəsə (şövq və şəəf) gəlib, vaxt taparaq bir-birilərinə tövhid kəlməsi deməyə, xristian millətini tərk etmək və əsl din (mobin) olan islam dinini və şəriəti qəbul etmək barədə düşünməyə başladılar.

Adı çəkilən seyid şahanə iltifat xoşbəxtliyinə yetişərək, onları bu böyük səadətə yetirdi, beş minədək xristianı müsəlman olmaqla zinətləndirdi və o adamlar müsəlmanlıq şüarları söyləməyə başladılar. Gözəl şəhadət (kəlmeyi-şəhadət) sözlərini dilə gətirən hər bir xristian dəstəsi incil və başqa o qəbildən olan kitabları[1] keşişlərin əlindən alıb, belə qərara gəlmişdilər ki, qoy müsəlman müəllimləri onlara Qur’anı və şəriət hökmlərini (ehkam) öyrətsinlər. Həmçinin Mazandarana köçürülən bütün erməni xristianlarına müsəlmanlıq təklifi edildi və onlar da islam dininə də’vət olundular. Bunun icrasından ötrü Mövlana Məhəmməd Əli Təbrizi onların yanına göndərildi və o tayfanın əksəriyyəti islam padşahının də’vətini qəbul edərək, sədaqət və yəqinliklə islam əhli zümrəsinə daxil olundular. Ümidvarıq ki, həzrət Pərvərdigar bu xeyirli işin savabını tezliklə hümayun şahın xoş əməlinə aid eləsin və o, ömür və dövlətdən həzz alsın.

---

[1] Ərəbcəsi: “və mə yəkunu min həzə-l-qəbil”

## MÜLKİ MƏSƏLƏLƏRİN HƏLLİ ÜÇÜN ALİ HÜMAYUN [ŞAHIN] XORASANA YOLLANMASI VƏ BU MÜDDƏTDƏ BAŞ VERƏN BƏZİ HADİSƏLƏRİN ZİKRİ

Bu sülalənin irsi mülkü olan Qəndəharın zəbt olunması barədə tez-tez sözlər eşidilirdi. Bu kitabın [Şah Abbasın hakimiyyətinin] birinci qərnində baş vermiş məsələlərə həsr edilən səhifəsində – Bəhram Mirzənin övladdarı olan Qəndəhar mirzələrinin vəziyyətinin şərhində buna işarə olunmuşdu ki, Qəndəhar Hindistan hökmranı tərəfindən ələ keçirilərək, Hindistanın ixtiyarına verilmişdi, amma bundan aradakı dostluq və sədaqət əlaqələri zərər çəkməmiş, [həmin mirzələr] o tərəfin (Hindistanın – *Ş.F.*) təbəəliyini qəbul etmişlərsə də, onların bu əməli dost, ya düşmən hərzəkar adamlar tərəfindən həqarətli tə ’nə ilə qarşılanmışdı. Keçən il bu məsələ Hindistan elçisi Xanaləmə aşkar şəkildə izhar olundu.

Bu əsnada, Hindistandan gələn adamlardan və [bu dövlətə] sadiq olanların dediklərindən belə xəbər eşidildi: Bir neçə fitnəkar şəxs xoşa gəlməkdən ötrü ali məqamlı həzrət padşah Məhəmməd Səlim tərəfindən Qəndəharın geri qaytarılmasına mane olmuşlar və olmaqdadırlar. Buna görə də, şahanə istək və padşahanə kömək bunu tələb etdi ki, yürüş cilovunu Xora-
**s.961** sana tərəf yönəltsin, İlahinin yardımı ilə Qəndəharın işləri
**(677)** tərəflər arasında layiqli şəkildə dostluq və məhəbbətə zərər gətirilmədən həll olunsun. Həmçinin, o vaxtlarda Azərbaycanda və Gürcüstanda bir sıra ədəbsiz hərəkətlər və əliuzunluqlar baş verdyindən, ali kömək düşmənlərin dəf’ olumalarından ötrü o tərəflərə yönəlmişdi, çünki özbək tayfaları, keçən illər hadisələrinin şərhində yazıldığı kimi, bir neçə dəfə Xorasana ləşkər yollamışdılar və buna görə də onlar cəzalandırılmalı idilər. Xüsusilə, bu il Bəlx özbəkləri bir neçə fitnəkar və cəmşidi oymaqının münafiqləri ilə fürsəti qənimət bilib, bir gecə qəflətən Balamürğab qalasına hücuma keçmiş, oğrular kimi oraya daxil olmuş, qalanı qoruyan bir dəstə qızılbaşı qətlə yetirmiş, şamlı [tayfasının] mö’təbər adamlarından olan qala kutvalını tutub Bəlxə aparmış, qalanı isə tşğal etmişdilər. Onlar Badğisə

də gedib bir neçə şamlı tayfa üzvünü əsir tutmuş və qətlə yetirmişdilər.

Özbək Vəli Məhəmməd xanın oğlu Rüstəm Məhəmməd xan o zaman qızılbaşların köməyi ilə Bəlx və Xorasanın arasındaydı və Bəlxi tutmaq fikrinə düşmüşdü. Keçən il o, başına toplaşan iki-üç min özbəklə Əndxod və Şibirğana hücuma keçərək, çoxlu viranlıq törətmişdi. Buna görə də, özbəklər ondan intiqam almaq məqsədi ilə Rüstəm Mirzənin üzərinə – Ədbə (?) və Şafelan ülkalarına böyük ləşkər göndərdilər. Bundan xəbər tutan Rüstəm Məhəmməd xan Herata, ədbə və şafelan camaatı isə öz qalalarına qayıtdılar.

Amma, özbəklər adları çəkilən bu iki ülkada çoxlu viranlıq törədərək geri döndülər. Keçən illərdə Xorasana gəlib bərk məğlubiyyətə uğrayan, döyüşdən qaçaraq bu neçə ildə izi-tozu görünməyən özbək yertavul (?) sərdarlarından olan Qara Boqmə adlı bir şəxs bu il pusquda dayanıb, Rüstəm Məhəmməd xanı ələ keçirtmək məqsədiylə Ğorcestanın Çeqçeran adlı yerinə gələrək, bir qala tikmiş və orada da yaşa-
**s.961** maqdaydı. Yuxarıda yazıldığı kimi, şahın ilhamlı beyninə Xorasana səfər etmək fikri düşdüyündən, belə bir hökm verildi: Uca qızılbaş tayfaları və şah qoşununun mülazimləri qoy hər tərəfdən hərəkətə başlayıb, Xorasana tərəf gəlsinlər.

Bu hadisələr baş verən vaxtlarda müqəddəs zat ə'lahəzrət zilləllah şah xəstələndi və bir neçə gün bu vəziyyətdə qaldı. Məsiha nəfəsli təbiblər müalicəyə başladılar, sadiq adamlar ehtiyacı olanlara nəzir və sədəqələr payladılar, əqidə sahibləri dua oxuya-oxuya gündüz-gecə o zatın sağalmasını Allahtəalanın dərgahından xahiş etdilər. Xəstəlik sağlamlığa doğru üz tutdu və [tamamilə] sağaldı.[1]

[Şah] zəiflədiyi üçün Xorasan yürüşü bir neçə günlüyə tə'xirə salındı. Qərara alındı ki, əzəmətli qorçilərin sərkərdəsi İsa xan Qorçibaşı, dərgahın ağa və mülazimlərinin rəhbəri Əliqulu xan Divanbəyibaşı, qulamların və tüfəngçilərin başçısı Qərçiqay xan Sipəhsaların oğlu qulamlar yüzbaşısı Mənuçöhr bəy qoy Xorasana getsinlər, Nişapurda qışlasınlar

[1] Ərəbcəsi: "Həkim alı-l-itlaq"

ki, cah-cəlal ordusu gəlib çatan vaxt hümayun məiyyətə qoşulsunlar. Fərmanaparanlar fərmana əməl etdilər. Əzəmətli əmirlər və qüvvətli qoşun dəstələri hər yandan Xorasana üz tutdular, qiymətli fərmana əsasən gələrək Nişapur vilayətində dayandılar, müzəffər ordunun gəlişini gözlədilər. Qalibiyyətli məiyyətin Xorasana yürüşü və o faydalı səfər vaxtı baş vermiş hadisələrin şərhi həzrət Allah-taalanın köməyi ilə gələn il əhvalatlarının təsvirində yazılacaqdır.

## ÖZBƏK SULTANLARININ SÜLH XAHİŞİ İLƏ SULTANLAR PƏNAHI OLAN DƏRGAHA ELÇİ GÖNDƏRMƏLƏRİ VƏ ÖZBƏKLƏRİN [BAŞINA GƏLƏN] BİR NEÇƏ HADİSƏNİN ZİKRİ

Elə ki, Xorasana tərəf hümayun yürüş və qızılbaş ləşkərinin Xorasana hücum xəbəri sərhədlərdə və Mavərənnəhrdə eşidilməyə başladı, özbəklər və cığataylar arasına vəldvələ və qarışıqlıq saldı. Özbək sultanları etmiş olduqları yersiz hərəkətlər, cəsarət və ədəbsizliklərdən peşiman oldular, yalvarış məqamına gəldilər. Mavərənnəhr padşahı İmamqulu xanın qardaşı Nədr Məhəmməd xan ya özünün rə'yi, yaxud da iqtidarda olan qardaşının məsləhəti ilə, əgər özbəklərin təbiri ilə desək "qorçıbaşı" mənasını verən "çurəağası"*
**s.962 (678)** Payəndə Mirzəni yalvarış üslubunda və sədaqət tərzində yazılmış gözəl bir məktubla ali saraya yolladı, sadiqlik, ülfət və aşinalıqdan danışdı. Onun (Nədr Məhəmməd xanın – *Ş.F.*) anası müqəddəs Məşhədin əzəmətli rezəvi seyidlərindən birinin qızı və Mirzə Əbdülqasimin oğlu Mirzə Əbu Talibin bacası idi ki, Abdulla xan və onun oğlu Əbdülmömin xanın müqəddəs Məşhədi tutduğu dövrdə qəzavü-qədərin təqdiri ilə Tələyyüm xan həmin qadını özünə almışdı.

Nədr xan şaha yazdığı sədaqət ayinli təktubda bəndəliyini və duasını ərz etdikdən sonra özünün də varislik hüququndan söhbət açaraq belə xahiş etmişdi: "Əgər [şah tərəfindən] öz əmisi oğlu Rüstəm Məhəmməd xanla etdiyi kobudluq və dalaşa görə əziz fərzəndinin təqsirləri üzərindən əfv qələmi

çəkilərsə və arada ülfət məqamı yaranarsa, mən bütün ömrüm boyu dostluq, sədaqət yolundan dönmərəm”. [Özbəklər
s.962 saraya] müxtəlif layiqli peşkəşlər [də] göndərmişdilər. Buraya gələnlərin sözlərinə görə Mavərənnəhrin və özbək sultanlarının vəziyyətləri belə idi: Mavərrənnəhr valisi İmamqulu xan Daşkənddə və oranın ətraf yerlərində yaşayan və Səmərqənd tacirlərinə də soyğunçuluq əllərini uzadan qazax (qəzaq) sultanlarının başqınçılıq əməllərini dəf’ etməkdən ötrü onların üzərinə ləşkər çəkmiş, onunla qazax sultanzadələri arasında ehtiyatsızlıqla keçdiyi Şahruxiyyə çayının o biri tərəfində bərk hərb baş vermişdi. Nəticədə, İmamqulu xan məğlubiyyətə uğramış, bə’zi mə’lumata görə, Mavərənnəhr ordusunun iyirmi min döyüşçüsü ya öldürülmüş, ya da çayda boğularaq fəna girdabında qərq olmuşdular. Məğlubiyyətlə pis vəziyyətdə Buxaraya qayıdan İmamqulu xan Bəlxə – qardaşı Nədr Məhəmməd xanın yanına bir adam göndərib söyləmişdi: “Qoy həmin hüdudun ləşkərləri ilə gəlib ona birləşsinlər və onlar yenidən qazax ləşkəri ilə müharibəyə yollansınlar”. Rüstəm Məhəmməd xanın yaxında olmasından və onun Bəlxə hücum edəcəyi qorxusundan [qardaşından] üzr istəyən Nədr Məhəmməd eyni zamanda qardaşından da şübhələnirdi (bədməzənnə). Qardaşının ona cavabı ilə kifayətlənməyən İmamqulu xan az miqdar adamla Bəlxə gəldi, qardaşı ilə görüşdü, Yaləngtuş ilə məsləhət və kənqaşdan*, sonra qardaşını Bəlx və o yerin başqa qala döyüşçüləri ilə götürüb yola çıxdı. İmamqulu xan qazax ləşkəri tərəfindən məşğul edilməsinə baxmayaraq, intiqam xəyalı ilə yenidən ləşkər topladı və onu Yaləngtuş bahadırın sərkərdəliyi altında Səmərqəndə göndərdi, elə özü də onun ardınca yollandı, qazaxlarla onun arasında növbəti dəfə böyük hərb baş verdi.

Məğlubiyyət bu dəfə də Buxara və Bəlx ləşkərinə üz verdi, döyüşçülərin böyük hissəsi qətlə yetirildi, Yaləngtuş pərişan halda geri qayıtdı. İrşad sahibi olan cənab Haşim Xacə barışıq (mosalehe) meydanına qədəm atdı, İmamqulu xan və qazax sultanları arasında, xüsusilə Tursun Məhəmməd xan arasında cənab irşad sahibinin vasitəçiliyi ilə sülh bağlandı, onlar barışdılar və hər biri öz paytaxtına qayıtdı.

Xülasə, yuxarıda adı çəkilən Payəndə Məhəmməd Nəqşe-Cahandakı mübarək dövlətxanada saraya yaxın adamlarla görüşdükdən, elçilik vəzifəsini yerinə yetirdikdən və gətirdiyi töhfələri təqdim etdikdən sonra Nədr Məhəmməd xanın adından sədaqət və dostluq izhar etdi. Onun gətirdiyi hədiyyələr arasında bu atlar da vardı: qırx beş baş hisari qərqəzmi (?) və bədəxşi ələşə atları. Ağıllı və dilli dilavər adam olan Payəndə Məhəmməd öz elçilik fəaliyyətinə yüksək səviyyədə başlayaraq, şahanə iltifat və nəvazişə layiq görüldü. Cənab hidayətməab (yol göstərən – *Ş.F.*) Əbdülrəhim Xacə də İmamqulu xanın adından dostanə danışığa başlayaraq belə xahiş etdi: “Bizim ata-babalarımız və tayfalarımız ilə o əzəmətli sultanlar arasında həmişə qarşılıqlı anlaşma (elteyam) olmuş, fitnə atəşi nəsihət zülalı ilə söndürülmüş, xəlqullahın asudəliyinə səbəb olan sülh bağlanmışdır. Hal-hazırda da ittifaq və asimani təqdir nəticəsində bu xeyirxah [bəndə] gəlib şah ilə görüş səadətinə yetişdi. Amma, üz vermiş xəstəlik nəticəsində mənim Məkkeye-moəzzəməyə səfər etməyim və Beytullahül-həram səadətinə yetişməyim mümkün olmadığı üçün, Mavərənnəhrə qayıtmaq istərdim. Əgər Allahın istəyi olarsa və bəxt yardım edərsə, müvəffəq olaram, “hər işin öz vaxtı var” [1] misalına uyğun olaraq niyyətim başqa bir vaxt həyata keçər. Mənim o ə’lahəzrətin tə’rifi və bəyənilən sədaqəti barədə eşitdiklərim [gördüklərimin] mində biridir ki, özüm öz gözlərimlə müşahidə etmişəm. Hər iki aləmin rəhmətini qazanmaqdan və ibadullahın asudəliyini bərqərar etməkdən başqa o həzrətin hərəkətlərində qeyri bir iş yoxdur. Sizdən xahişim budur: Ülfət və dostluq yolçusu olan Nədr Məhəmməd xan öz sədaqətini izhar etmiş və etməkdədir. Ə’lahəzrət zilləllah şah “olan olmuş, keçən keçmişdir” misalının tələbinə uyğun olaraq,[2] sabiq əmllərinə görə qoy özbəklərə güzəştə getsin. Elə İmamqulu xan da öz etdiyindən peşimandır. Ə’lahəzrət hər iki qardaşın naqis əmlləri üzərindən
s.963 qoy əfv qələmi çəksin və məhəbbət məqamındı olsun. Bu

[1] Ərəbcəsi: “Əl-ümur marra haunətun bi ovqatiha”

[2] Ərəbcə: “Mada mə mada”

xeyirxah dost (mohebb) söz verir: Mən aramızdakı sülhü və
s.964 dostluğu elə möhkəmləndirəcəyəm ki, bundan sonra hər iki
(679) tərəfin əhalisi asudə olsunlar, o əbədi dövlətin (əbədqərin) davamı üçün dua etsinlər. Bu yürüş zamanı Mavərənnəhrin zəif və miskin adamları bu xeyirxah duaçının (İmamqulu xanın – *Ş.F.*) xahişi nəzərə alındığı üçün qiyamət tə'sirli qızılbaş ləşkərindən zərərə düçar olmadılar ki, bu hal bu dövlətxah bəndənin göstərdiyi yaxşılığın nəticəsidir. Bu yürüşdən mə'lum oldu ki, sultanlar arasındakı düşmənçilik əhali qanının axıdılması, qarətkarlıq, müsəlmanların əsir götürülməsi, aciz və miskin adamların əzilməsi ilə nəticələnmir. Beytullah Həccinin ziyarət səadəti mənə (Əbdülrəhim Xacəyə – *Ş.F.*) qismət olmadısa da, şahın mərhəməti sayəsində xeyirxahlıq edə bildim. [Qoy hamı] xəlqullahın sonsuz rahətliyi və dostluğunun məkanı böyük Həccin savabından bəhrələnsin".

Öz gövhərlər səpən dili ilə ə'lahəzrət belə buyurdu: "Biz bu bir neçə il ərzində Azərbaycanda və Gürcüstanda bərk məşğul olduğumuzdan, sizin təbəqəniz (yəni özbəklər – *Ş.F.*) fürsət tapıb [bizə qarşı] əliuzunluq və olmazın əməllər etdi ki, bunun qarşısını almaq üçün şahanə qeyrət və sə'y göstərmək vacib və zərurətdir. Hal-hazırda [tərəfimizdən] qərara alınmışdır ki, xeyirli Xorasan səfərinə hərtərəfli və birdəflik başlamaq lazımdır. Nədr Məhəmməd xan elçi yollayaraq öz sədaqətini izhar etmiş, üzrxahlıq məqamına gəlmişdir. Dostlara güzəştə getmək (rafət) bizim fitri (cəbəli) və saf ayinimizdir. [Nədr Məhəmmədin] iffətli anasının bizim mənsub olduğumuz sülaləyə aidiyyəti vardır və o, bu diyarın əhalisindəndir, buna görə də, gərək biz də elçi göndərib, dostlarla birlik və dostluq məqamında olaq. Əgər İmamqulu xan da dostluq məqamında olarsa, bundan yaxşı nə ola bilər ki ? [O zaman] müsəlmanlar bu hümayun dövlətin və bu əbədi səltənətin dövründə rahətlik və dostluqda olarlar, inşallah. Vaxtın tələbinə görə Xorasanda vəziyyət yaxşılaşar, dövlət ləyaqətli olar və səltənət namusu qorunar".

Xülasə, [şah] Payəndə Mirzəni şahanə iltifatla nəvazişləndirdi, sabiq Şirvan vəziri Məhəmməd Saleh bəyi Bəlxə elçi tə'yin etdi, dostanə və xosrovanə məktublar yazdı, Bəndər Məhəmməd xanı və anasını (yəqin ki, Nədr Məhəmməd xanın anası nəzərdə tutulur – *Ş.F.*) Payəndə Mirzə ilə birlikdə yola rəvan etdi. Geri qayıtmaq qərarına gəlmiş cənab Əbdülrəhim Xacəni də şahanə diqqət, ən'am və hədiyyələrə layiq gördü, xoşhallıqla yola saldı.

Onlar getdikdən sonra qalibiyyətli qoşun rəbiüssani ayının üçündə (25 fevral, 1621) İsfahandan çıxıb Xorasana tərəf hərəkətə gəldi, Biyabanək və Təbəs Çiləki yoluyla rəvan oldu. Bu səfərin şərhi, Məhəmməd Saleh bəyin əhvalatı və o vaxtlarda baş verən hadisələr gələn il bəyan olunacaqdır inşallah.

Dekən Hindistanının Əhmədnegər vilayətinin valisi Nizamşah tərəfindən Həbəş xanın göndərilməsi haqqında [məlumat]: Nizamşahiyyə sülaləsinin əmirlərindən və həbəş oğlu [həbəşizadə] olan Məlik Əkbər Sipəhdar həmin sülalə işlərini tənzimləyən bir şəxsdir. O, elçi kimi əhalinin pənahı olan bu dərgaha gəldi. Düşüncəli, ağıllı, dilli-dilavər bir adamdır, [bu] xanədanı sevənləndəndir, kəramətlidir, elmi məsələlərdən agahdır və fars şe'rini tam mənimsəyən şəxsdir. Məlik Əkbər cənnətmisal Mazandaranda şahla görüş sədadətinə yetişdi, Nizamşahın adından irsi (mourusi) sədaqət izhar etdi, layiqli peşkəşlər verdi. İsfahanda olarkən həzrət "ona zamin olan"[1] səkkizinci imam əleyhir-rəhmənin müqəddəs rövzəsinin ziyarəti üçün izn olaraq müqəddəs Məşhədə yol-
s.964 landı, həmin səadətə yetdikdən sonra İsfahana qayıtdı. Aşağıda yazılacaq xeyirli Xorasan və Qəndəhar səfəri zamanı şahın ordusunda o da vardı.

**Müxtəlif vaqiələr və qəribə hadisələr:**

Bu il baş verən qəziyyələrdən biri də nadan şahzadə Sultan Məhəmməd Mirzənin qəzavü-qədər tərəfindən həyata keçirilən kor edilməsidir. Dövranın ağıllı adamlarından gizli deyildir ki, dövlət sahiblərinin, o cümlədən pak

[1] Ərəbcə: "sə'min damin əleyhi-t-təhiyyə və-s-səna"

tinətli və xoş xasiyyətli şahzadələrin hallarına layiq olan budur: Onlar gördükləri hər işin başlanğıcında onun sonunu, yaxşılığını və pisliyini fikirləşsinlər, bütün məsələlərdə ağıllı söz və əməllərini rəhbər tutsunlar, nəfslərinə uyaraq peşimançılıqdan başqa heç bir nəticəsi və hasili olmayan hərəkətlərə diqqətsizliklə girişməsinlər.

**Şe'r**

*Elə edə bilməz düşmən düşmənə*
*Nəinki ağılsız edər özünə.*
*Quyu, yol, görən göz günəş də görər*
*Ayağı altına baxarsa əgər.*[1]

Buna misal olaraq ağılsız və nadan mirzənin əşvalatını göstərmək olar. O, məcazi Xuda və həqiqi Pərvərdigarın kölgəsi olan öz böy ük atası ilə sədaqət və səmimiyyət məqamında idi və ədəb qaydalarına riayət eləyirdi. Şahanə iltifat nurları və atalıq (pedəranə) şəfəqinin şüaları həmişə onun üzərində parlıyırdı.

**s.965 (680)** Amma, bu günlərdə əqlinin kəmliyindən eləyəcəyi işin aqibətini fikirləşmədən müstəqim yolundan çıxdı, cahil və nadan adamların təhriki ilə ədəb və sədaqətə zidd olan əməllərə qurşandı. Xüsusən yuxarıda yazıldığı kimi, Firuzkuhda müqəddəs zata xəstəlik üz verən vaxt cənab şahzadə eyş-işrətə qurşanaraq, tezliklə hakimiyyətə gələcəyini düşünməkdəydi. Amma onun bundan xəbəri yoxdu ki, səltənət və hökmranlıq ipi bu kəramətli ayədə deyildiyi kimi "hər şeyə ixtiyarı olan Xaliqin istək və təqdir" əlindədir:[2]

---

[1] Şe'rin farscası:

Doşmən be doşmən an nəpəsəndəd ke, bixerəd
Ba nəfse – xod konəd be həvaye-morade-xiş.
Çahəst-o rah-o dideye-bina-vo afitab
Ta adəmi negah konəd pişe-paye-xiş.

Qeyd: Şe'rin 2-ci misrası naqisdir və 4-cü misra ilə qafiyələnmir – *Ş.F.*

2 Ərəbcə: "və rabbukə mə yəşə'u və yəxtəru".

**Şe’r**

*Bayraq tuta bilər fəqət o insan*
*Ki, dini eləsin hifz hər zaman*[1].

Xülasə, cənab mirzənin hərəkətləri saf, e’tibarlı xoşxah adamlar tərəfindən müqəddəs zata ərz olundu və adı çəkilən mirzə ifşa edildi. O, etibarını itirdiyindən qəza aləmi başçılarının təhriki ilə etdiyi yersiz əməlin aqibətini öz gözü ilə gördü, amma xudbinliyindən aləmi yaradanı müşahidə edə bilməyərək, kama yetməyin (kamyabi) üzünü görmədi. Kor edilməsinə baxmayaraq, ondan da nadan olan bir neçə cahil və nadan adamın təhriki ilə qaçmaq istədi, lakin sui-qəsdçilərdən agah olan Məhəmməd Hüseyn bəy Tuşmalın oğlu Abbasqulu buna dözməyərək məsələni şaha ərz etdi. Mirzə qüsurünü e’tiraf eləyib, ürəyəyatmaz üzrxahlığa başladı. Ə’lahəzrət isə özünün anadangəlmə ülfət və mehribanlığından onun gözlərinin çıxarılması ilə kifayətləndi, amma şahzadəni qaçmağa təhrik edən şəxslər qətl olundular və cənab mirzənin həyatı özünə layiq olan şəkildə başa çatdı.

Hadisələrdən başqa birisi budur: Bu il şahın mübarək üzü Mirzə Əbu Taleb ibn mərhum etimadüddövlə Hatəm bəydən
**s.965** döndü. Hatəm bəy ali divanın vəziri mənsəbi ilə sərəfraz olmuşdu. O, bu uca məqam və hörmətli rütbəsi ilə bütün ali vəzifəli şəxslərdən seçilirdi. Şahın Mirzə Əbu Talebdən dönməsinin səbəbi cavanlığın nə’şəsi olan nəfskarlıq əlamətinin mirzədə görünməsi idi. Nəticədə o, həmin ali mənsəbdən çıxarıldı ki, bir qədər dövlətin qüdrətini anlasın, bu ali vəzifənin qədrini bilsin, həyat təcrübəsindən ibrət dərsi öyrənsin. Vəzarət vəzifəsi bu xanədana xidmət etməklə sərəfraz olmuş Abdulla xanın nəvəsi Salman xan ibn Şah Əli Mirzəyə verildi. Salman xan hesab elmini bilən (hesabdan) və bütün mə’lum elmlərdən xəbərdar bir adamdır.

Ədalət ayinli başqa bir əhvalat isə budur: Bu il Qumdan olan bir dəstə quldur və zavallı adam həmin vilayətdə üsyan

---

[1] Beytin farscası:

Kəsi-ra rəsəd rayət əfraştən,
Ke din-ra təvanəd negəhdaştən.

və fitnəkarlığa qurşandı və o diyar əhalisinə əziyyət verməyə başladı. Elə şər adamlırn dəf' olunmaları mülkün və xəlqullahın xeyrinə yönələn bir tədbir olduğu üçün onlar İsfahanda öz cəzalarına çatdılar. Şamlı tayfasının mö'təbər adamlarından olan Şahqulu bəy ə'lahəzrətin hüzurunda onların əfv olunmalarından ötrü dil açdı, zamin oldu ki, bundan sonra onlar bir daha belə günah işlər görməzlər. Şahqulu bəy də o adamlarla aşinalıq etdiyinə görə şahanə qəzəbə gəldi və cəzalandırılanlarla birlikdə qətl olundu:

*Ş'er*

*Pislərə hər kəs ki, gedib yar olur,*
*Lap özü də qətlə giriftar olar*[1].

Qum darülmömininin əhalisi bu əhvalatdan sevindilər və müsəlmanlar o adamların şərindən xilas oldular.

**Vəfat edən şəxslər**: Bu il ömürləri ilə vidalaşıb torpağa tapşırılan məşhur və ə'yan adamların bir neçəsi bunlardır:

Qazi xan – sabiq sədr. O keçən ilin sonlarında Reyin Toroşt adlı yerində məriz və əlil oldu, ilin əvvəllərində isə axirət aləminə yollandı, cəsədini müqəddəs Məşhədə apardılar. O, uca qədrli seyfi – hüseyni seyidlərindəndi. Onlar atababadan Qəzvin darüssəltənəsində və oraya yaxın yerdərdə yüksək qaziül-qüzzat (qazilər qazisi – *Ş.F.*)* mənsəbi ilə şərəfləndirilmişdilər. Qazi xan alişan seyid, zatı təmiz, gözə əxlaqlı adam olub, nəfsani fəzilət və kamalla bəzənmişdi. Hümayun dövlətin zamanında müzəffər əskər qazisi mənsəbində işləmiş və bir neçə il bu maraqlı və gözəl vəzifədə çalışmışdı. Bu işlə üzülüşdükdən sonra beytüllahül-həram Həccinə getdi. [Türkicə] at ili olan min iyirmi beşinci ildə (1516) müstəqil şəkildə qazilik işinə başladı, elm öyrənmək istəyən və buna özlərində ehtiyac duyan şəxslər onun

---

[1] Beytin farscası:

Hər ke bədi kərd be bəd yar şod,
Həm be bəde-xiş gereftar şod.

biliyindən bəhrəvər oldular. Elmlə məşğul olan on yeddi yaşlı bir oğlu da vardı. Atasının vəfatından sonra, İlahinin hikmətindən İsfahan darüssəltənəsində çiçək (able) xəstəliyindən öldü, cavanlıq aləmindən cavidanlıq (ölməzlik) mənzilinə getdi.

Astrabad hakimi Fəridun xan Savər (?) yaylağında bimar oldu və onu şəhərə gətirdilər. Xəstəliyi gün-gündən şiddətləndiyi üçün təbiblərin müalicəsinin faydası olmadı, vücüdunun valisi onun əlini öz bədən mülkünə hakimlik etməsindən uzaqlaşdırdı, yönəldib bəqa aləminə çatdırdı, cəsədini Məşhədin müqqədəs Rezəvi rövzəsinə apardılar. O, *çərkəs* qəbiləsindəndi, hümayun ali nəvvabın yanındakı Übeyd adamları zümrəsinə mənsub idi. [Ə'lahəzrət] onda tərəqqi və
**s.966** birlik cövhəri müşahidə edib tərbiyəsi ilə məşğul olmaq
**(681)** məqamına gəldi. Daim şahanə diqqət altındaydı, nəcicədə Astrabad darülmömininin hakimi olmaqla şərəfləndi, bu vəzifədə on səkkiz il işlədi, həmin diyar əhalisi ilə yaxşı davrandı, xalq arasında nəfsinin toxluğu ilə məşhur, ədaləti və
**s.966** xeyirxahlığı ilə şöhrətli oldu. Fəridun xanın hakimiyyəti müddətində Astrabad hüdudunda tüğyanla məşğul olan və *türkman* adı altında tanınan sayinxani elinin düşmən tayfaları həmişə ara qarışdırmaqla məşğul olurdular. Xan ilə onların arasında böyük savaşlar baş verdi, amma hümayun iqbalın qüvvəti və özünün şücaəti sayəsində həmişə qələbə qazandı. Belə ki, həmin düşmən tayfalardan *köklən və oxlu* tayfaları xüsusi canfəşanlıq edir, müxalif olmaları ilə başqalarından daha çox fərqlənirdilər. Xan onlardan heç kimi sağ qoymadı. Ondan sonra o vilayətin idarəsi Behbud xana tapşırıldı. Amma, onun davranış tərzi o diyar əhalisini narazı saldı. Buna görə də vəzifədən götürüldü, vəzifəsi dərgah qulamları silkinə mənsub olan və iş görməyi bacaran Xosrov xana verildi.

## İLAHİMAARİFİNİNARİFİ,GİZLİNVƏAŞKARELMLƏRİN VAQİFİ ŞEYX BƏHAƏDDİN MƏHƏMMƏD AMELİ

**Şeyx Bəhaəddin Amelinin vəfatı:**

O ləyaqətli adamın kamalının vəsfi və fəzilətinin tərifi barədə bu dəftərin birinci səhifəsində yazılmışdır. Bilik və elminin çoxluğu ilə bəzənən, ali ictihadı (müstəhidliyi –*Ş.F.*) və bəyinilən əxlaqı ilə seçilən gözəl şəxsdir, feyzlə dolu batini fəqirliyi və dərvişliyi ilə zəngindir, davranışı arifliyindən xəbər verirdi, əhlüllah ilə yaxınlıq edirdi. Bu ilin bir günündə o, "arifi-rəbbani Baba Rüknəddin İsfahani" türbəsi kimi tanınan bir məqbərədə salavat etməklə məşğul idi. Bu zaman bir qəbirdən şeyxin qulağına bir səs gəldi, qəbir əhli və torpaq nihanxanəsinin bir asudə adamı onunla danışmağa başlayıb belə dedi: "Nə üçün belə qəflət içindəsən? İndi təyəqqoz (oyanma, huşsuz olma – *Ş.F.*) və ağahlıq əyyamıdır". Həmin ölü adam şeyxə öz adını və əsli-nəslini də söylədi, gizli sirlərdən bir neçə söz də dilinə gətirdisə də, şeyx buna əhəmiyyət vermədi, qəflət, ağahlıq və oyanış (entebah) barədəki sözləri eşitməklə kifayətləndi. O həzrətin (Şeyx Bəhaəddin – *Ş.F.*) başına gələn bu əhvalatdan sonra onun sirrlərinə mərhəm olan adamlardan birisi [həmin söhbət] barədə bir neçə kəlmə danışası oldu.

Xülasə, bu qəribə əhvalat şeyxi fikir aləminə (təfəkkir) qərq etdi, bir neçə gün dostlarla görüşdən və [elmi] mübahisələrdən kənarlaşdı, axirət səfərinə hazırlaşdı, bu məlal evindən köçməyin (motərəssed) intizarını çəkdi. Şəvval ayı idi. Şeyx bir ləhzə də dinclik tapa bilmirdi. Hər gün ondan feyz olan tələbələrindən biri şeyxə belə söylədi: "Qoy batində Allahla olsun, zahirdəsə tələbələrə elm öyrətməyindən qalmasın ki, bunun savabı onun itaət və ibadətinə əlavə edilsin". Çox belə söhbətlərdən sonra şeyx tamamilə sakitləşdi getgedə xəlqullahla əvvəlki kimi davranmağa başladı, amma zahirən üç ayadək elmi mübahisə və tələbə hazırlamaqla (təlmiz) məşğul oldu, "Cameye-Abbasi" adlı şərafətli [kitab] nüsxəsini tamamlamağa girişdi, batində isə ruhlar aləmində asudə olan ölülərlə həmkar, kölgələr və görüntülər (əşhab)

aləminin ruhaniləri ilə dəmsaz olmaqdaydı. Bu ilin şəvval ayının dördündə (22 avqust, 1621) xəstələndi, başını yeddi gün natəvanlıq yastığına qoydu. Şəvval ayının on ikisində (30 avqust, 1621) seşənbə günü xəstəliyinin səkkizinci günündə şeyxin şərafətli ruh quşu bədən darısqallığından uçdu, müqəddəs aləmə pərvaz etdi. Həzrət zillələllah şah [o zaman] yaylaqdaydı. Şəhərdə qalmış bir neçə əyan basdırmağa aparılan cənazənin önündə və axırında addımlamağa başladılar. Hamı cənazə altına girmək üçün bir-birinə mane olurdu. O qədər izdaham vardı ki, Nəqşe-Cahan meydanının geniş olmasına baxmayaraq adamlar bir-birilərinin altında qalırdılar. Belə vəziyyətdə cənazənin aparılması olduqca çətin idi. Şeyx Ətiq adlı came məsciddə onu quyu suyu ilə qüsl etdilər. Üləmalar və fazil adamlar cənazəyə Allahın rəhməti üçün namaz oxuyurdular Ali qədirli iki imamzadənin dəfn olunduğu həzrət imaməl-sacedin (səcdə edənlərin imamı – *Ş.F.*) və qiblətül-arifin (ariflərin qibləsi – *Ş.F.*) İmam
**s.967** Zeynalabdinin şərafətli büq'əsində cənazəni yerə qoydular, oradansa müqəddəs Məşhədin Rezəviyyə rövzəsinə apardılar, şeyxin öz vəsiyyətinə görə, müqəddəs Məşhəddə yaşadığı vaxt müdərris olduğu imamın müqəddəs ayağı altında dəfn etdilər. Allah rəhmət etsin. İstedad sahibləri şeyxin "maddeyi-tarixi" xüsusunda gözəl şe'rlər yazmışlar. O cümlədən cənab etimadüddövlə Mirzə Əbu Talebin (etimadüddövlə Hatəm bəy Ordubadinin oğlu – *Ş.F.*) ilham bağçasından bu [maddeyi-] tarix baş qaldırdı:

*Qit'ə*

*Şeyx bu fani cahanı tərk etdi*
*Və onun məskəni oldu mə'vay.*[1]
*Xəbər aldı bir adam tarixini,*
*Söylədim: "Şeyx Bəhaəddin vay!"*[2]

[1] Mə'va, yaxud məvay – son mənzil, pənah yeri, üqba aləmi – *Ş.F.*
[2] Qit'ənin farscası:
Rəft çon şeyx ze dare-fani,
Gəst eyvane-cinanəş mə'vay.
Dusti cost ze mən tarixəş,
Goftəməş: "Şeyx Bəhaəddin vay!"

Bu kitab müəllifinin qardaşı oğlu Məhəmməd Saleh isə bu maddeyi-tarixi söylədi:

"*Əfsus ze moqtedaye – dovran*"[1]

Başqa bir neçə nəfər də müxtəlif [maddeyi-]tarixlər yazmışlar, amma sözün uzadılmasını istəməyib, uxarıdakı iki
s.968 tarix ilə kifayətləndik.

---

[1] Misranın azərbaycancası:

Əfsus, elə moqtədayə, əfsus.

Qeyd: bu misradakı "moqtəda" sözünün mə'nası: "İmam-camaatın arxasında dayanıb namaz qılan ruhani" (Bax: M. Moin. Göst. Lüğət. IV, s. 4288).

## ZİLLƏLLAH ŞAHIN HÜMAYUN CÜLUSUNUN İKİNCİ QƏRNİNİN ALTINCI İLİNİN, YƏNİ TURKİCƏ MİN OTUZ BİRİNCİ (1621/1622) İT İLİNİN BAŞLANMASI.

İşıqlı baharın təntənə bayraqları təzədən dünya meydanına gələrək, adamlara bir daha fəth və qalibiyyət müjdəsi verdi. Ən böyük ulduz olan və bütün aləmi nurlandıran günəş cah-cəlal və şadimanlıqla qədəmini şərəf büsatına basdı, cahanın hər yerini işıqlandırmaqla ona tazə bir parıltı və hüdudsuz təravət bəxş etdi. Bu mübarək və şərafətli ilin novruzu min otuz birinci ilin cəmadül-əvvəl ayının səkkizinə (21mart, 1622), düşənbə gününə təsadüf etdi, yer üzünün bər-bəzəkli təzə gəlinləri (yəni gül-çiçəklər – *Ş.F.*) başlarını torpağın dərinliyindən (məğak) çıxarıb təbiəti bəzəyən dünya çəməninin büsat məclislərində cilvələndilər, gül-çiçək qoşunları yüz cür gözəlliklə cahan meydanında səf bəzədilər, bülbüllər cəh-cəh ilə kamkar və kamran şəhriyarın tə'rifinə başladılar.

*Bahar gəldi və aləm tazələndi.*
*Şahın məclislərindən nur ələndi.*
*Gözəllik müjdəsi bəxş etdi xəlqə,*
*Adamlar tazədən asudələndi*[1].

Keçən il yazıldığı kimi, hümayun zilləllah şahın işıqlı xatirində Xorasan yürüşü yer tutduğu üçün müzəffər ə'yanlar qalibiyyət və iqballa Xorasana tərəf hərəkətə başladılar, gələrək Təbəs Giləki qəsəbəsində dayandılar, o ürəkaçan yerdə əzəmət və iqbal pərdəsini (şadrəvan) şah çadırının

---

[1] Şerin farscası:

Bəhar aməd degər aləm novi yaft,
Foruğ əz bəzmgahe-xosrovi yaft.
Cəhan-ra mojdeye-fərxondegi dad,
Xəlayeq-ra ze nov asudegi dad.

üstünə tutdular. Novruz mərasimini başa vurduqdan, aciz və miskin adamların mətləb və məqsədlərini yerinə yetirdikdən sonra külək rəftarlı atların cilovunu Hirmənd çayı sahillərində seyr və şikar etməyə yönəltdilər, Xorasanın zəruri işlərinin nizamlanması üçün yollanaraq Turan və Dəşte-bəyaz yoluyla hərəkətə gəldilər. Belə bir fərman verildi: "Vilayətlərdə qışlayan bütün əmirlər və müzəffər əskərlər Fərah vilayətinə gəlsinlər və orada ali məiyyət qoşununa birləşsinlər". Buna görə də, zəfərli döyüşçülər dəstə-dəstə və qoşun-qoşun Fəraha üz tütdülər. Hümayun məiyyət gəlib Fəraha yetişdiyi vaxt ərəb və əcəm diyarı hökmranın gözünə çoxlu döyüşçü və xidmətçi dəydi, [şah] qəbul olunmuş qayda üzrə meydana təşrif gətirdi, adamlar kamkar və kamran şəhriyara dua və səna etdilər. Bu faydalı səfər hadisələri və qazanılan qələbələr
s.969 haqqında aşağıda məlumat veriləcəkdir.

## ƏDALƏTLİ OLAN VƏ KÖMƏYƏ YETİŞƏN İLAHİNİN YARDIMI İLƏ GÖZƏL QƏNDƏHAR VƏ ZƏMİNDAVAR MƏMLƏKƏTLƏRİNİN FƏTH OLUNMASI BARƏDƏ SÖHBƏT

Surət aləminin işindən agah və mə'na məclislərindən xəbərdar olan hüşyar adamlardan gizli deyildir ki, "Aləmara" kitabının (dəftər) birinci və ikinci səhifələrində Qəndəhar vilayətinin vəziyyəti, o yerin bu dudman adamlarının əlindən necə çıxması və oranın Gurəkaniyyə sülaləsinin iqbalı altına keçməsi haqqında öz məqamında mə'lumat verilmişdir. Bu hadisələrin yazılışı vaxtı belə münasib görüldü ki, təkrarçılıqdan çəkinməyərək sabiqdə və hal-hazırda baş verən hadisələrdən bir daha əvvəldən axıradək iki dilli qələm vasitəsilə məlumat verilsin, qoy xəbərlər vadisinin təşnə adamları xəbərdar olsunlar, döyüşçülər və əhali [Qəndəhara edilən] hümayun yürüşün səbəbini dostluq əlaqələrinin qırılması zənn etməsinlər.

Birinci səhifədə cənnətməkan şahın dövründəki hadisələrdən belə yazılmışdı: Qəndəhar məmləkəti birinci və axırıncı

dəfə olmaq e'tibarilə əzəmətli qızılbaş əmirlərinin sə'yi (məsai) ilə bu əbədi dövlətin əlinə keçmiş, oranın idarəsi və bütün mülkiyyəti Bəhram Mirzənin oğlu Sultan Hüseyn Mirzəyə verilmişdi. Mirzə bir neçə il öz böyük əmisinin fərmanı ilə həmin vilayətin müstəqil hakimi oldu. Onun ömür yolu ali qədrli əmisinin hakimiyyəti dövründə bitdikdə Qəndəhar İskəndər məqamlı nəvvab Sultan Məhəmməd padşahın fərmanına əsasən [Sultan Hüseyn Mirzənin] böyük oğlu Müzəffər Hüseyn Mirzəyə, Zəmindavər isə kiçik oğlu Rüstəm Mirzəyə tapşırıldı. Özbəklərin tüğyan etdikləri vaxt, bu kitabın ikinci səhifəsindəki "Mirzələrin əhvalatı" adlanan hissədə qələm belə yazmışdı: Adları çəkilən mirzələr ağıllarının dayazlığından Hindistana tərəf üz tutaraq, [Qəndəhar məmləkətini] Hindistan ölkələrinin məhrum padşahı Cəlaləddin Məhəmməd Əkbər ibn Hümayun Mirzə ibn Mirzə Babura verdilər. [*Türkicə*] min birinci ilə bərabər olan it ilində (1592/1593) Xorasanda özbək tüğyanı ali nəsilli kamkar şəhriyarın, yəni həzzər zilləllah şahın iti qılıncı ilə yatırılanda, irsi Xorasan mülki yenidən bütünlüklə bu əbədi dövlət övliyalarının əlinə keçdi. Bu iki ali sülalə arasında qədimdən mövcud olan nifrət və dostluq əlaqələrinə görə, baş vermiş qələbə xəbərini xudəbəndəli qorçisi Mirzə Əli bəy vasitəsilə uca məqamlı həzrət padşaha (Cəlaləddin Məhəmməd Əkbərə – *Ş.F.*) çatdırdılar. O həzrətə göndərilən məkəbbət ayinli məktubda Qəndəhar barədə aşağıdakı sözlər yazılmışdı: "İlahinin iltifatı və ata pənahlı (əbuvvətpənahi) o həzrətin batini diqqəti ilə, müxaliflərin əlinə keçən bütün Xorsasan məmləkəti – o həzrət adamlarının əlində olan Qəndəhardan başqa artıqlaması ilə tərəfimizdən geri alındı və hazırda oradan qeyri heç bir mülkümüz biganələrin əlində deyildir. Qədim dostluq və aradakı yeni ata-oğul münasibəti bunu tələb edirdi ki, o həzrət bizim rəftarımızı və dostanə xahişimizi nəzərə alaraq, Qəndəharın bizə qaytarılmasını həyata keçirsin və [beləliklə] dostluq münasibətimizi yenidən qüvvətləndirsin".

Mərhum hərzər padşah bu xahişi nəzərə almadısa da, əhahəzrət zilləllah şah hövsələsinin çoxluğu üzündən oğul-

**s.970** ata yolunu tərk etmədi, sədaqət və birlik əlaqəsini o ali məqamlı padşıhın rəhmətə qovuşmasına qədər saxladı. [Cəlaləddin Məhəmməd Əkbərin] böyük oğlu, hümayun barğahlı padşah Nurəddin Məhəmməd Səlim öz ali qiymətli atasının taxtına əyləşdi. O, cülusun başlanğıcında, səltənət iddiasında olan böyük oğlu Sultan Xosrov ilə vuruşmaqdaydı. Sərhədə yaxın yerlərdəki bə'zi əmirlər, xüsusilə Fərah və Sistan hakimləri Heratın müzəffər döyüşçülərinin bir hissəsi ilə o diyara tərəf yürüşə keçib oranı tutdular, qalanı [Qəndəhar qalasını – *Ş.F.*] isə əhatəyə aldılar. Cah-cəlal ordusu Azərbaycanda olarkən məsələ gəlib şaha çatdı. Baxmayaraq ki, mülk tutmaq kimi vacib bir işdə zəruri olan kiçik bir hücum və işarə ilə həmin qala asanlıqla alına bilərdi, lakin bu tərəf [o tərəfə] hələ dostluq (vedad) tələbinə uyğun olaraq Cəlaləddin Məhəmməd Əkbərin [vəfatı] münasibətilə öz başsağlığını bildirməmişdi. Buna görə də [şah] kəmfürsət adamlara xas olan həmin əməlin (qalanın mühasirəyə alınmasını – *Ş.F.*) insanlıqdan uzaq bir məsələ olduğunu düşündü, bunu əzəmətli əmirlərə qadağan etdi, həmin ali sülalə tərəfindən Qəndəhar hakimi olan və qalada mühasirədə qalan Şahibəy xan Cığataya dostanə və nəvazişli bir məktub və fərman yazaraq, şamlıların *xudabəndə* tayfasından olan Hüseyn bəy adlı bir şəxslə göndərdi: [Məktubda yazmışdı:] "Bizimlə o ali məqamlı həzrət padşah arasında məhəbbət və qardaşlıq əlaqəsi mövcud olduğu üçün həmin ülka və məmləkətlərdən keçirik. Qoy o (Şahıbəy xan Cığatay – *Ş.F.*), arxayınlıqla həmin mülki idarə etməklə məşğul olsun". Amma, gözləyirdilər ki, (motərəssed) bu mö'təbər elçinin göndərilməsindən və qala hakiminin xatircəm edilməsindən sonra həzrət şah sabiq və hazırkı sədaqət, dostluq və insanlıq qayda-qanununa rəğmən Qəndəhar qalasının yenidən onların ixtiyarına qalması ilə razılışmayacaqdır. Yuxarıda yazıldığı kimi, uca qızılbaş tayfasından olan bacarıqlı və ağıllı Yadigar Əli Sultan Talışın elçi sifətilə gedərək, dostanə və mehriban səfərinin başa çatdırılmasından sonra, oraya (Hindistana – *Ş.F.*) bir-birilərinin ardınca gedən başqa elçilər də gurəkaniyyə sülaləsinin

vəkillərinə və həmin sülalənin tərəfdarları olanlara kinayəli yaxud müstəqim işarələrlə Qəndəhar barəsində öz fikirlərini bildirmişdilər. Qarşı tərəfə isə bu söhbətlər tə'sir etmir və elçilərin sözləri nəzərə alınmırdı. Amma, Qəndəharı qəhr və zor gücü ilə geri almaq isə ülfət və dostluğun ziddinə olan bir əməl hesab olunurdu. Yuxarıda yazıldığı kimi, elə buna görə də o vilayət uzun müddət o sülaləyə mənsub adamların əlində qaldı. Nəhayət o sülalənin böyük üləmalarından olan və ali məqamlı padşah [Şah Abbas] tərəfindən ali "qardaş" ləqəbi ilə şərəflənən və Xanaləm kimi tanınan Mirzə Bərxurdar elçi sifətilə gəldi. Ə'lahəzrət təkbətək söhbət zamanı öz məhəbbət və qardaşcasına dostluğunun izharından sonra Qəndəhar məsələsini ortaya gətirmiş, bu müddət ərzində aradakı ülfətin qorunmasından ötrü özünün müstəqim və qarşı tərəfinsə güzəştə getməmək barədəki fikri xüsusunda Xanaləmlə danışıq aparmışdı. O, birbaşa olaraq belə buyurmuşdu: "Bizimlə, o uca məqamlı həzrət padşah arasındakı yaxınlıq və birlik hər şeydən artıq bununla əlamətdardır ki, biz bir-birimizə ülkə və məmləkəti də müzayiqə etməyi bacarmalıyıq. Amma,
**s.971** Qəndəhar Xorasanın daxilindədir və bizim irsi mülkümüz-
**(684)** dür. Baş verən zahiri ən'ənəvi məsələləri yaxın və uzaq adamlar görməkdədirlər. Müxtəlif məclislərdə nəyəsə nəsə bir mə'na vermək aləmində olanlar dilə mə'nasız sözlər gətirir və bu məsələyə başqa rəng verirlər. [İndi] məhəbbətə layiq olan və tərəflərarası münasibətləri tənzimləyəcək yol budur: O kamkar qardaş (yəni Məhəmməd Səlim – *Ş.F.*) düşmənlərin tə'nələrinə cavab olaraq qoy Hindistan vilayətindən olduqca uzaq olan və aramızdakı məhəbbətə maneçiləik edən o mülkü (yəni Qəndəharı – *Ş.F.*) bu məhəbbət arzulayan qardaşa geri qaytarsın ki, həm səbəblər aləmini zahirən seyr edən və hərzə-hərzə bihudə sözlər danışanların dilləri qısalsın, həm də bütün aləmdə öz birlikləri ilə məşhur olan bu iki sülalə arasında ülfət və ədalət yenidən möhkəmlənsin, qonşuluğumuzdakı sultanlara, xüsusilə bizə maneçi-
**s.971** lik edən özbək tayfalarına cığatay və qızılbaşların bir-biriləri ilə müttəfiq olmaları zahir olsun bu məsələnin faydalı olması

görünsün. Yox, əgər Qəndəharın geri qaytarılması o həzrətin şərafətli təbinə çox çətin gələrsə, biz onun razılaşmamağının səbəbini ali dünyəvi məsələlərlə məşğul olması kimi başa düşərik. Belə olan halda seyr və şikar məqsədi ilə biz bir neçə günlüyə o həzrətin adamları ilə birlikdə o vilayətin şikargahlarında seyrə və şikara qurşanmaqdan ötrü siz tərəfə gələcəyik və sonra geri qayıdacağıq. Qoy o həzrət öz mizbanlığına başlasın. Qoy hamıya mə'lum olsun ki, o mülkdən geri qayıtmaq məhz bizim birliyimizin sayəsindədir, aramızda ögeylik və ayrılıq yoxdur". Yuxarıda yazıldığı kimi, bu müqəddəs saraya xidmət edən və məhrəm adamlardan olan Zeynal bəy Begdeli Tuşmalbaşı Xanaləmlə birlikdə ülfət qayda-qanununu təzələməkdən ötrü [Hindistana] elçi getdi və orada bu fikirləri söylədi. Şeytana aldanan və padşahın xoşuna gəlməyə çalışan bir dəstə fitnəkar adam bu istəyə qarşı çıxdı və öz hərəkətlərinə dövlətxahlıq adı verdi.

Amma, uzaqgörən, işdən xəbərdar və ayıq xeyrxah şəxslər yaxışı bilirdilər ki, dövlətxahlıq – düşmənləri dost etmək, dostları isə dostluğu artırmağa meylləndirməkdir, əgər belə olarsa vəziyyət dövlətin ömrünün uzanmasına səbəb olar, birlik və sultanlar arasındakı dostluq isə zahirən məqam və həşəmətin çoxalmasına, batinən isə səltənət köklərinin möhkəmlənməsinə gətirib çıxarar ki, bu haqda əgər biz bir qədər də çox danışsaq söz çox uzanar.

Xülasə, ə'lahəzrət bu ilin mübarək baharının əvvəllərində Xanaləmə etdiyi və'də görə, yuxarıda yazıldığı kimi, seyr və şikar istəyi ilə Hirmənd və Ərğəndab [çaylarının] sahiliylə o diyara tərəf yola düşdü, Fərahdan Qəndəhar hakimi Əbdüləzizə və oradakı cığatay əmir və ə'yanlarına bu dərgahın e'tibarlı şəxslərindən olan Vüsal bəy Evoğlu ilə məktub göndərdi. Orada belə yazılmışdı: "Bə'zi mülki işləri yoluna qoymaqdan ötrü xeyirli Xorasan səfəri başlandı və biz indi Fərahı keçib o hüdudda seyr və şikar etməyə yollanırıq. Siz gərək hümayun qoşunun sizə tərəf gəlişinin məhz seyr və şikar məqsədi daşıdığını biləsiniz, bizi səmimiyyətlə qarşılayasınız, bizimlə görüş səadətinə yetəsiniz ki, burada olacağımız bir

neçə gün müddətində sizlər də şahın məiyyətində olasınız, bizə qardaşlıq münasibəti bildirəsiniz, mizbanlıq edəsiniz. Arxayın olun ki, bizim o uca məqamlı həzrət padşahın mülazimlərinə izzət, ehtiram və qardaş münasibət ərz etməkdən başqa bir işimiz yoxdur. Bu yürüşə çıxmağımızın əsil məqsədi, Xanaləmə dediyimiz kimi, belədir: Qoy hər iki tərəfin sərhədində yaşayan insanlara, xüsusilə bizə müxalif olan özbəklərə mə'lum olsun ki, bizim və sizin məmləkətiniz vahiddir, birdir, aramızda heç bir ayrı-seçkilik yoxdur, qoy bu sözlərdə başqa mə'na axtarmasınlar". Vüsal bəyi yola saldıqdan sonra seyr və şikar edə-edə Fərahdan rəvan oldular. Hirmənd çayının sahili iqbal çadırları ilə dolduqda, Kereşk hakimi Mirzəqulu Sultan Siyahmənsur, elə bu vaxtlarda Əbdüləziz xanın Bənde-Teymur qalasını qorumaqdan ötrü göndərdiyi, amma Mirzəqulunun hücumla ələ keçirdiyi bir neçə cığatayla birlikdə gələrək, onları şahın nəzərinə yetirdi.

Ə'lahəzrət onu danlamağa başladı: "Uca məqamlı və əzəmətli həzrət padşahın mülazimləri elə bizim özümüzün mülazimləridir. Sizin belə özbaşına hərəkətinizin səbəbi nədir?" Şah həmin əsirlərə iftixar xəl'ətləri inayət etdi, öz işlərinin və onlara tapşırılan xidmətin icrası üçün getmələrinə izn verdi. Amma, şahın göndərdiyi dostluq və iltifat məktubunun məzmunu ilə tanışlıqdan sonra Əbdüləziz xan və
**s.972** cığatay ə'yanları sevindilər, uca məqamlı padşahın mülazimlərindən olan Mirzə Baqi Kabulini zahirən sədaqətli sözlərlə yazılan, amma hiyləgərliklə dolu olan bir məktubla şaha yolladılar: Məktubda yazılmışdı: "Həzrət şah qoy bu fikrindən daşınıb, elə oradan da geriyə qayıtsın. Əks təqdirdə [padşahımıza] xidmət (nukəri) baxımından bizim sizə qarşı müxalmfət etməkdən, qaladarlıq və savaşa başlamaqdan başqa çarəmiz qalmayacaqdır". Bu nifaqlı məktubdan heç kim sədaqət
**s.973** qoxusu duymadı. O vilayətin hər tərəfi isə cah-cəlal çadırları
**(685)** ilə dolmuşdu. Buna görə də onların (hind cığataylarının, yəni moğolların – *Ş.F.*) tələb və xahişlərini yerinə yetirmək bu dövlətə layiqli iş deyildi. Həmin dar düşüncəli adamlardan görünən elə ədəbsiz hərəkət artıq birlik [şüarının] üstündən

müxalif və biganəlik xətti çəkirdi ki, bu da şahın saf ayininin ziddinə olan bir e'tiraz idi. Əlahəzrətin fikri dəyişdi, dərhal hücuma başlamağa meyilləndi, Xosrov Sultan Mirzə Pazukini bir dəstə qəhrli döyüşçü ilə Şah Kəlan tərəfindən qorunan Zəmindavər qalası üzərinə yollandı. Rəcəb ayının səkkizinci (19 may, 1622) çəharşənbə günü isə Qəndəhar xaricdən iqbal çadırları ilə doldu.

Əbdüləziz xan və onun yoldaşları, məktubda yazdıqları kimi, anlamazlıqları üzündən zahirdə ə'lahəzrətlə aşinalıq, batində biganəlik məqamında dayandılar, yaramaz üzrxahlıq etmələrinə baxmayaraq qaladarlıq etməyə girişdilər, ali orduya tərəf top atdılar, hərbə başladılar. Ə'lahəzrət zillələllah şah bir neçə gün bu işə şahanə səhlənkarlıqla (təğafol) yanaşdı, döyüşməyi iqbal döyüşçülərinə qadağan etdi, onları düz yola gətirməyə çalışdı, dəfələrlə razılıq və birliyə də'vət etdi, faydalı nəsihətlərə başladı: "Qoy uzaqgörən əqlin gücü ilə tərslik (lecac) və inadkarlıqdan əl çəksinlər, əminlik və səlamətlik yolunu tutsunlar". Amma, bunun heç bir xeyri olmadı, qaladarlıq və inadkarlıqlarında israr etdilər, beləliklə də, cahandarlıq qayda-qanununa əsasən həmin mülkün qəhrlə tutulması kimi şahanə qərara gəldilər ki, çünki belə etməmək daha dərya qədər hövsələyə sığmaz, belə səhlənkarlıq şahanə himmət və qeyrətə ar gələrdi. Şahın qiyamət alovlu qəzəbinin şö'ləsi zəbanə çəkdi və müzəffər əskərlər mühasirəyə və qala tutmağa göndərildi. Baxmayaraq ki, qala tutmaqdan ötrü vacib olan qala silahları, xüsusilə top, badlic, topxana işçiləri (əmələ) və beldarlar yox idi, ali ordunun bahadırları və qalalar tutan igidlər qalanın hər yanını əhatələdilər, seybələri irəli gətirdilər. Dəmir pəncəli qəhrəmanlar həyəcanlı meşə aslanları (huyəbr) kimi dırnaqları ilə barı və bürcləri cırmaqlayıb, on yeddi gün ərzində qalanın bünövrəsini laxlatdılar, lağımlar ataraq qalanın dibini arı evi və hörümçək toru kimi zəiflətdilər. O qarabəxtlərin dövlət binası kimi hər gün bir neçə möhkəm bürc uçurulur, o nadanların başlarına idbar və bəxtiqaralıq tozları yağırdı. Ə'lahəzrət zillələllah şah, bütün adamlara xas olan mərhəmətinin çoxlu-

ğundan qəhrli döyüşçülərə yürüşə başlamaq əmri vermirdi ki, məbadə əskərlərin səhvi üzündən biçarə rəiyyət ayaq altında qalıb tələfata uğrasın.

Xülasə, qaladakılar bürc və barıların titrəyişini və qalanın əsməyə başlamasını, qaladarların qorxuya düşdüklərini görüb, acizliklərini müşahidə etdilər, qəflət və nadanlıq yuxusundan bir qədər oyandılar, özlərinin hər tərəfdən bədbəxtlik (ezterar) bataqlığında qərq olduqlarını anladılar, aman istəmək məqamına gəldilər.

Ə'lahəzrət onlardan çoxlu ədəbsizlik baş verməsinə baxmayaraq, əvvəlki dostluq əlaqəsini nəzərə aldı, nübüvvət* və vəlayət xanədanının üzvlərinə xas olan ən'ənəvi mürüvvət və fütüvvət** ilə bütün qaladakılara aman verdi, onlar pəri-
**s.973** şanlıqdan aman tapdılar. Şəban ayının on birinci (21 iyun, 1622) seşənbə günü Əbdüləziz xan başqa əmir və ə'yanlarla o cümlədən Şəmşir xan, Əliqulu Durmən, "Məxdumzadə" adı ilə tanınan Mirzə Fazil, Xacə Aftab, "Xane-Dovran" ləqəbli sabiq hakim Şahməhəmməd ibn Şahibəy xan, Tulə xan və başqaları qaladan çıxıb istədilər ki, günahkarların etdikləri kimi boyunlarından oxqabı (tərkeş) asaraq şahın yanına gəlsinlər.

Surət aləminin zahirini bəzəyən və mə'nəvi əlaqələri hərəkətə gətirən (silsiləcünban) adamlara qayda-qanun öyrədən ə'lahəzrət onların bir neçə gün davam edən həyəcanlarına e'tina etməyərək öz razılığını vermədi, onlar isə xəcalətlə boyunlarını əyib, bu sülalənin qayda və adəti üzrə öz intizarlarını bildirdilər. Ə'lahəzrət onlarla mərhəmətlə davrandı, hamısına faxir xəl'ətlər və layiqli peşkeşlər verdi, cürbəcür nəvazişlərlə həmin şəxslərin vahiməyə düşən ürəklərini aldı və hamısına yenidən qalaya qayıtmaq icazəsi verdi, hərə öz mənzilinə qayıtdı.

Üç gündən sonra, mülazim və xidmətkarlardan başqa üç-dörd min nəfər cığatay və başqa döyüşçülər qaladan çıxdılar, ali ordunun yanında çadır qurdular. Onların hamısı onlara edilən şahanə iltifat və mərhəmət altında tam həyəcan aə çaşqınlıqla günlərini başa vururdu. Əbdüləziz və cığatay-

ların qalanı təhvil verib buraya gəlmələrindən sonra həmin ayın on dördündə (24 iyun, 1622) cümə günü əzəmətli sədrlər və dərgaha yaxın şəxslər şəhərə girib, minbəri iyirmi beş il cığatay təcavüzündə qalan və on iki imam salavatullah
s.974 həzrətlərinin adları səslənməyən came məscidinə gedərək
(686) Allahın köməyi və cavanbəxt şəhriyarın iqbal qüvvəsi ilə namaz qıldılar, məscidin iftixar mərtəbəsi uca ərşin doqquzuncu mərtəbəsinədək ucaldı, [bu müqəddəs məkan] hümayun şahın şan-şöhrətli adı ilə təzədən bəzədilmiş oldu. Əbdüləziz və cığataylar isə tam peşmançılıq hissi ilə hind diyarına getmək istəyib xahiş etdilər ki, male-əmani* təqdim etmək və canlarının bağışlanmasına təşəkkür (şokraneyecanbəxşi) əlaməti kimi layiqli hədiyyələr verməklə şahdan icazə alsınlar. Xosrovanə xasiyyət bəhrinin himməti əsla bunu qəbul etmədi, [şah onların] gətirdikləri qiymətli daş-qaşa və başqa şeylərə nəzər yetirmədi, onların parçalanmış ürəklərini ələ almaq məqsədilə gətirdikləri şeylərdən imtina etdi, peşkəşlərini özlərinə bağışladı, onlara yol azuqələri, ehtiyacları miqdarında İraq irqindən olan minik atları verdi, hamısını mal, silah və əhli-əyalları ilə birlikdə sağ-salamət yola saldı, hind diyarının həzrət padşahına və cah-cəlallı hökmranınıa məhəbbətamiz bir məktub da yazdı, onu Heydər bəy Yüzbaşı Qaradağlı, Əbdüləziz xan və yoldaşları ilə göndərdi. Ə'lahəzrət öz məktbunda asimanın təqdiri və qəzanın məsləhəti (iqtiza) ilə baş vermiş yürüş münasibətilə öz üzrxahlığını bildirdi, sədaqət və birlik qapılarının açarı ola biləcək iki qızıl açar hazırladıb o həzrətə göndərdi ki, onların birinin üstündə "Qəndəhar", ikincisindəsə İran məmləkətinin adları nəqş olunmuşdu. [Şah] məhəbbət və qardaşlıq dili ilə padşaha belə xəbər göndərdi: "O həzrətin adamlarının ağıllarının dayazlığı və qafillikləri üzündən bizim aramızda ayrılıq və biganəlik yarandı, illərlə açıq olan aşinalıq və birlik qapıları qapandı ki, bütün bunlar [Allahın] təqdiri ilə baş verdi. İndi ixtiyar ali mülazimlərə verilmişdir. Allahın evindən bu qardaşa verilmiş bütün İran vilayətlərini bir qala şəklində təsəvvür edərək, onların ixtiyar açarının özünüzün

iqtidarı altında olduğunu güman edin, bü sözləri rəsmi təklif və təvazökarlıq saymayın. Sübhanallah, ülfət və birlik (elteyam) necə də uca mərtəbədir ki, şan-şöhrətli hökmdarlar özlərinin hökmdarlıq etmələrinə (təsəllot) və iqtidarlı olmalarına rəğmən səbəblər aləmində hər biri cahanı qarışdıra biləcək vəhşət yaratmaları üzündən (movəccəbat) on iki imam həzrətlərinin köməyi[1] və ədalətli padşahların kamil sifatlarının zatında olan əzəli vəhdət tələbi (moqtəza), həmçinin bilik sultanı və ağıl hökmranının hökmü ilə öz şan-
s.974 şöhrətlərini əldən vermirlər".

Xülasə, o camaat yola düşdükdə Zəmindavər hakiminin yanına bir adam yollayıb baş verən əhvalatı ona bildirdilər: "[Biz] qalanı əzəmətli şahın əmirlərinə verdik. Əgər kimsə hind diyarına getmək istərsə gəlib bizə qoşulsun ki, birlikdə yola rəvan olaq". Amma, o camaatdan elə səfehlik, ağılsızlıq və yersiz vahimə göründü ki, bu olduqca gözlənilməz bir əməl idi və onlar səbəbsiz yerə özlərini ölümün qucağına atdılar.

Hadisənin şərhi belədir: Yuxarıda yazıldığı kimi, Xosrov Sultan bir dəstə qəhrli döyüşçü ilə Zəmindavər qalasının ayağına gəlib çatdıqda Şah Kəlan və qala qoruyucuları Əbdüləziz xan və yoldaşlarının əmri ilə müxalifət yolunu tutaraq dikbaşlıq məqamına gəldilər və qaladarlıq etməyə başladılar, iyirmi günədək faydasız cəhd etdilər. Qəndəhar qalasının fəth olunma xəbəri onlara çatdıqdan sonra öz qaladarlıqlarından mə'yus olaraq bərk qəmləndilər, ümidsizliklə qaladan çıxdılar. Amma, aralarında baş vermiş müxalifət və cəngdən bərk qorxmuşdular və düşünürdülər ki, qızılbaş qoşunu məbadə onlardan intiqam almaq istəyir. Buna görə də, belə qərara almışdılar ki, əgər qızılbaşlarla döyüş baş verərsə, fürsət tapıb Kabula tərəf getsinlər.

Bir gün Xosrov Sultan nigaranlıqlarını aradan qaldırmaqdan ötrü, böyük adamların qayda-qanunun üzrə, onlara dostanə aşinalıq təklifi ilə bir ziyafət qurdu, Şah Kəlanı öz yaxınları və o təbəqənin ə'yanları ilə birlikdə də'vət etdi, məliklərə layiq

[1] Ərəbcəsi: "Hadarat ə'immətu isna aşara əleyhim salavatu-l-lahi əl məliki-l-əkbəri"

bir məclis qurdu. Amma, hələ qızılbaş əmir və ə'yanları gəlib çatmamışdılar ki, Şah Kəlan başqa mehmanlarla birlikdə onları qabaqladı (sebqət), sultanın bir neçə adamını vahiməyə salaraq irəli keçib məclisdə əyləşdi. Onların hamısı hind silahları (bukdə və cəmdər) ilə silahlanmışdılar. Xosrov Sultan o adamların qorxularını azaltmaq və onları nigaran etməməkdən ötrü insanlıq qayda-qanunu və mizbanlıq ayini üzrə onlarla mehriban davrandı. O, bütün dünyadakı məclis sahiblərinin qədim adəti olan silah və yaraqların çıxarılmasına tələsmədi və bu vaxt onların silah-yaraqlı başqa bir dəstəsi də göründü.
**s.975** Xosrov Sultan yoldaşcasına mülayimliklə Şah Kəlana belə
**(687)** müraciət etdi: "Belə isti havada yaraqlanıb oturmaq nəyə lazımdır? Əgər öz yol-yoldaşınıza silahlarını çıxarıb arxayınlıqla əyləşmələrini söyləsəniz bu dostcasına bir hərəkət olar, rahatlıq və asudəliklə istirahət edə bilərsiniz". Bir neçə xidmətçinin adət üzrə irəli gəlib silahların çıxarılmasını xahiş etdikləri vaxt o camaat bu təklifə razılıq vermədi.

Bütün ədəb anlayanların vəzifəsinə uyğun xidmətlərini icra edən xidmətçilərlə tutuşma (keşakeş) vaxtı o camaatın bir-iki cahil və nadan adamı öz cəhalət və nadanları üzündən silahlara əl atıb onları xidmətçilərə tuşladı. Belə vəziyyəti müşahidə edən Xosrov Sultan ona da sədəmə dəyəcəyi qorxusundan, ya da başqa xəyal ucbatından ehtiyatla məclisdən çölə çıxmaq istərkən o camaat səhv təsəvvürə və batil fikrə düşərək çaxnaşmaya düşdü, əksəriyyəti silaha əl uzadıb Xosrov Sultanı hədəfə aldı, bir neçə xidmətçi yaralandı. Yarala-
**s.975** nanları cəngə həris və o silahlıların savaşa hazırlaşdıqlarını görən qışılbaşlar qılınclarını çəkərək, hər yandan onların üzərinə tökülüşdülər. Bərk qovğa qalxdı. Hamı hücuma keçdiyindən heç kim bu fitnə alovunu yatırmağa yönəlmədi. Şah Kəlanla aralarında olan düşmənçilik üzündən Xacə Moğol Zəmindavəri bu qovğada fürsət taparaq əl uzatdı və onu şəmşirlə ayaqdan saldı.

Şah Kəlanın öldürülməsindən sonra cəng axtaran və fitnə gəzən döyüşçülər o camaatın üstünə tökülüşüb, asimanın təqdiri ilə fitnəkarlıq əllərini irəli uzatdılar. Fərəh məclisi

cəng meydanına çevrildi, göz önündəcə onların əksəriyyəti şəmşirə yem, oxa hədəf oldu, ixtiyarsız olaraq belə bir böyük vaqiə və iri hadisə baş verdi. Sübhanallah, bu necə qəribə bir işdir ki, təqdir nihanxanəsindən çıxıb cilvələnir, adamlar fərəh məclisindən uzaqlaşır, ülfət və birliyə son qoyurlar. [Bu neçə bir əməldir ki,] qəza sirrinin üstündən pərdəni götürənlər və qədəri müəyyənləşdirənlər başqa-başqa fikirlərə qapılır, vəhşət törətmək vasitəsi (məsaleh) hazırlayırlar, zühur aləminin tamaşaçılarınınsa bu hadisələrə təslim və razılıq gözü ilə baxmaqdan qeyri və [Allahın] "oldu, olmadı" istəyi ilə[1] heç bir çarələri qalmır və "Allah təala istədiyini edir və istədiyi kimi hökm edir"[2].

Xülasə, o qarabəxtlilər və qaragünlülər bəxtlərinin dönüklüyündən və idbarlıqları üzündən bu hadisəyə giriftar oldular. Bu dəhşətli xəbər gəlib ali orduya çatdıqda ə'lahəzrət zillǝllah şah bərk təəccübləndi, Əbdüləziz xan və yoldaşlarının sakitləşmələrindən ötrü Xosrov xanı qaibanə danlamağa başladı. Bu danlaq o qədər davam etdi ki, nəhayət bir neçə adam mə'lumat verib söylədilər ki, bu ədəbsizlik Xosrov Sultan tərəfindən deyildir, o nadan camaat bü mə'rəkəyə səbəb olmuşdur.

Sözün qısası, ə'lahəzrət şah o dəstənin hər bir üzünə qarşı hər gün təzə iltifat və əndazəsiz inayət göstərməkdəydi. Onlara aydın oldu ki, bu vaqiə məhz o nadan camaatın boş vahiməsi və batil fikri üzündən baş vermiş, bir neçə fitnəkarın cəhaləti nəticəsində yaranmışdır, bütün bu yersiz hərəkətlərə səbəb şeytanın hiyləgərliyidir. [Şah] o camaatın qız-qadınlarına və başqa üzvlərinə təskinlik verdi, ürəklərini aldı (təfəqqod), onları Əbdüləziz xan və yoldaşlarına tapşırdı ki, hamısını sağ-salamat aparıb öz yerlərinə çatdırsın.

Xoş hadisələrdən biri Qəndəharda iqamət vaxtı baş verdi ki, o da Zahid bəy adlı bir elçinin gəlişidir. O, yüksək qədrli və mübarək qiymətli şahzadə Mirzə Xürrəm ibn uca məqamlı, əzəmətli Məhəmməd Səlim padşah tərəfindən göndərilmişdi.

[1] Ərəbcəsi: "Bi vuddi kənə ləm yəkun"

[2] Ərəbcəsi: "Yəf'alu-l-lahu mə yəşəu və yəhkumu mə yuridu"

Elçi müqəddəs Məşhədə gəlib, zəfər ayəli ordunun Xorasana tərəf gəldiyini eşitdi və Rezəviyyə rövzəsində dayanıb gözlədi, sonra hümayun şahın ali işarəsi ilə Qəndəhara gəldi, onunla görüşməklə şərəfləndi, şahzadənin fəpzəndanə salamlarını təzim qaydası üzrə təqdim etdi, gətirdiyi nəfis töhfə və peşkəşləri nəzərə yetirdi, şahın hədsiz ehtiramı ilə izzətləndi. O, cahanı tutan məiyyət və ali orduda olduğu bir neçə gün müddətində daim cənnətə bənzər şah məclislərində və xüsusi yerlərdə olurdu. Ə'lahəzrət zilləllah şah kamkar hind şahzadəsinə özünün xosrovanə dostluğunu və ata-oğul mehribanlığını tez-tez dilə gətirməkdəydi. Şahzadəyə ləyaqətli bir cavab məktubu da yazıldı. Elçi şaha ərz etdi: "Həzrət
s.976 şahzadəyə adlı-sanlı ali atası tərəfindən bütün qardaşları arasında "Alişahe-Cahani"[1] deyə xitab olunur və o, başqalarından uca tutulur. Şahzadə [sizdən] xahiş edir ki, o, qoy ali zilləllah şah tərəfindən də belə adlandırılaraq izzətlənsin və əzizlənsin". Elə həmin lətafətli məktubda da Mirzə Məlik Məşriqinin yazdığı bu beyt qələmə alınmışdı:

**Beyt**

*Oldu xürrəmliyi üçün fələyin bəxti cavan,*
*Günəşin gözlərinin nuri bugün Şahe-Cahan*[2]

Elçi elə o günlərdə də qayıdış rüxsəti alaraq, ən'am və ehsanlarla Hindistan diyarına rəvan oldu.

Başqa bir əhvalat Xarəzm valisi Ərəb Məhəmməd xanın oğlu İsfəndiyar xanın başı fələyə ucalan dərgaha gəlişidir. Xarəzm sultanları, xüsusilə Ərəb Məhəmməd xanın atası Hacı Məhəmməd xan bu uca dərgaha tez-tez gəlirdi. Günləri yaxşı keçən vaxt (rəxa') da Xarəzm sultanları gediş-gəlişə əməl etmiş (mər'i), bir hadisə üz verəndə də bu dərgaha pənah gətirmiş, bu dövlət adamlarının köməyi ilə öz mətləb-

---

[1] Cahanın ali şahı – *Ş.F.*

[2] Beytin farscası:

Ze xorrəmi şod əz an bəxte-ruzigar cəvan
Ke nure-dideye-xorşid gəşt şahe-cahan.

lərinə yetişmişdilər. Belə ki, Hacı Məhəmməd xanın və övladlarının Abdulla xan Özbəkin və oğlunun [Xarəzmi] işğal etdikləri vaxt bu dərgaha üz tutmaları, onların hümayun şahın imdadı ilə [yenidən] o diyarın səltənət taxtına əyləşmə hadisələri o zamanda baş verən hadisələrin şərhində [tərəfimizdən] yazılmışdır. Bu günlərdə İsfəndiyar xanın qardaşları atalarına qarşı çıxaraq birləşdilər və atanı tutub səlahiyyətsiz etdilər. İsfəndiyar xan qardaşlarının yersiz əməllərinə qoşulmadığından və atası ilə birlikdə onlara qarşı mübarizə etdiyindən, qardaşlar atanın gözlərinə mil çəkib onu kor etdilər, İsfəndiyar xanı tutmaq istədilər. Üç qardaşın ona qarşı itiifaq bağladığı üçün İsfəndiyar xan onlara müqavimət göstərə bilməyib aradan çıxdı, Astrabad hüduduna gələrək, ali dərgaha yollandı, Qəndəhar səfərində müzəffər məiyyətlə birləşdi, şahanə diqqətə yetişdi.

Həmin xeyirli səfərdən qayıdandan sonra İsfəndiyar xan haqqında sayinxani əmirlərinə və tayfa başçılarına hökmlər göndərildi, Astrabad darülmömininin hakimi və o hüdudun əmirləri onun köməyinə təyin olundular. Sayinxani el və oymaqının arasına gedən İsfəndiyar xan orada bir qoşun yığdı, Astrabad və hüdud ləşkərlərinin köməyi ilə qardaşlarına qarşı cəngə başlayaraq qələbə çaldı. Qardaşlarından biri olan Əbülğazi Sultan ona tərəf meylləndi, İsfəndiyar xan onun məsləhəti ilə qardaşlarla razılığa gəldi, müxalifət edənlərləsə döyüşüb onları dəf’ etdi, müstəqil sultan oldu. Hazırda onların aralarında zahiri razılaşma vardır. Əbülğazi İsfəndiyar xana itaət etməkdədir. Xalqlara pənah verən dərgaha həmişə İsfəndiyar xan tərəfindən elçilər gəlir, öz sədaqətlərini ərz edir və nəvazişlənərək geri qayıdırdılar.

## HÜMAYUN MƏİYYƏTİN GERİ QAYIDIŞI VƏ DƏYİŞKƏN FƏLƏK HADİSƏLƏRİNİN ZİKRİ

Yuxarıda yazıldığı kimi, Qəndəhar məmləkəti məhrusə məmləkətlərə əlavə olunduqdan sonra əlahəzrət o yerin [dövlət] işlərini nizamlamaqla məşğul oldu. Vilayətin və onun
s.977 mülkiyyətinin idarə olunmasını bu əbədi dövlətin böyük və qədim əmirlərindən olan şücaətli, qorxmaz, mərdanə və hüşyar Gəncəli xan Zeyəkə tapşırdı. O, uzun müddətdir ki, Kirman darüləmanının əyalət və mülkiyyətiniə başçılıq edir. [Şah] Qəndaharın nizama salınmasını onun fərasət (dəyarət) ixtiyarına verdi, müqəddəs ordudakı bütün kürd tayfaları xanın köməyinə yollanıb Qəndəharda yaşamağa başladılar. Tərşiz hakimi Əhməd Sultan Məçəki qalanın tənziminə təyin edildi. [Şah] Qəndəhar vilayətinin işlərini tənzimlədikdən sonra şəban ayının iyirmi dördündə (3 iyul, 1622) çaharşənbə günü geriyə döndü, Qəndəhardan çıxıb Baba Həsən Abdalın məzarının yanında dayandı.

Burada olarkən Bəlx hüdudunda yaşayan Yaləngtuş bahadır Özbəkdən məktublar gəlib çatdı. O, sabiq əməllərinin əfvini xahiş edir, şaha Əbdülrəhim Xacənin adından özbək əyanlarına göstərdiyi ehtirama görə təşəkkürünü bildirir, əlahəzrətin Bəlx valisi Nədr Məhəmməd xanın çurə ağası Payəndə Mirzənin şadmanlığını çatdırırdı. [Yaləgtuş bahadır həmçinin], müqəddəs şah məclisinin yaxcın adamlarından olan İsfəndiyar bəy Ovçubaşı Ərəbgirliyə [də] təkrar-təkrar öz qulluğunu izhar edir, etdiyi günahların əfvini istəyirdi. Onlara dostluq və əfv məktubları yazıldı. Asiman ordusunun sultanı, yəni aləmi qızdıran günəş sərətan bürcünü[1] keçib əsəd bürcünə[2] tərəf yollandı. Havanın istiliyindən yerin balığı fələyin tavasında qızarır, qaynar suyun hərarətindənsə xərçəng "yandım, yandım" deyərək qum üzərində çabalayırdı.

---

[1] Xərçəng bürcü – *Ş.F.*

[2] Şir bürcü – *Ş.F.*

**Ləraqemə**

s.978 *Elə istiydi hava isti su altda sərətan*
(689) *Özünü saldı qumun üstünə, oldu büryan.*[1]

Əzəmətli ordunun qayıdışı Gərimsir və Fərah yoluyla istiliyin şiddəti və suyun (miyah) azlığından mümkün deyildi. Buna görə də, yaylaq yeri olan Qur yolu ilə getmək qərara alındı, mübarək ramazan ayının on ikisində, (21 iyul, 1622) yuxarıda göstərilən məzarın yanından göstərilən yol istiqamətinə yollandılar. [Şair] Ənvərinin* dediyi kimi Qur vilayəti

**Beyt**

*Bir baxın, məmləkəte – Qur kiçikdirsə də gər,*
*Yerləşib, amma ki, orda belə saysız ləşkər.*[2]

o qədər də kiçik deyildir. Dağlarının ucalığı, yollarının darlığı və torpağının bərkliyinə görə dünyada məşhurdur. Bütün yolları isə:

**Şe'r**

*Enişli, yoxuşlu, daşlı yolu var,*
*Quşlar da qorxudan orda az uçar.*[3]

Əksər yolları elə darısqaldır ki, oradan bir süvarinin keçməsi belə müşkil işdir. Buna görə də, Qur məlikləri yerin möhkəmliyi və torpağın bərkliyi səbəbindən bu məkanda neçə illər hikmət bayrağı qaldırmış, dövran hadisələri baş verən vaxtlarda bu möhkəm yerlərdə daldalanmışlar. Həmin

---

[1] Beytin farscası:
Bud z-angune həva gərm ke dər abe-rəvan
Sine bər rig nehadi ze hərarət sərətan.

[2] Beytin farscası:
Ərseye- məmləkəte- Qur çe naməhdudəst
Ke dər an ərse çenan ləşkəre-namə'dudəst.

[3] Şerin farscası:
Sənglaxist por neşib-o fəraz,
Tayere- vəhm kəm konəd pərvaz.

yerlərdə böyüyüb boya-başa çatmış məliklərdən və onların təbəələrindən başqa qədim zamanlardan indiyədək dünyanın
**s.978** heç bir padşahı yolunun çətinliyi və dağlarının sərtliyinə görə bu yerlərdən çoxlu ləşkərlə keçə bilməmişdir. Ə'lahəzrət isə böyük ordusunu bir neçə dəstəyə ayırdı, hər dəstə bir-birinin ardınca düzülərək tədriclə o yerlərdən keçə bildi.

Xülasə, sayı ulduz qədər olan böyük bir ordu iqbalın gücü ilə həmin çöl və dağlardan sağ-salamat adladı. Belə ki, çoxsaylı atların hərəkəti, yükdaşıyan (barbərdar) heyvanların ağırlığı (seql), habelə saysız-hesabsız (ehsa) döyüşçüləri olan böyük ordunun irəliləməsinin çətinliyinə baxmayaraq, onlar fələk ucalıqda (gərdunmesal) olan dağları biri-digərinin ardınca keçdilər. Sanki, onlardan ötrü bu yerlər düzəngah (dəşt-o hamum) kimiydi. Yol əsnasında Xələf bəy Süfrəçibaşının sərkərdəliyi ilə Qur yoluyla yuxarı səmtə gedən müzəffər əskərlərin bir hissəsi öz məkanlarının möhkəmliyinə güvənən və hərdənbir bu güclü dövlətin müxalifləri ilə birləşən Firuzkuhlu düşmənlərlə üz-üzə gəlirdi. Firuzkuhlular elə indi də bir kənarda dayanıb o müqəddəs məiyyəti qarşılamağa çıxmamışdılar. Xələf bəy Süfrəçibaşı onlarla qarşılaşdı və həmin dikbaşları məğlubiyyətə uğratdı, Tərdi Məhəmməd adlı bir başçılarının və o tayfanın bir çox üzvünün ömür xırmanlarını qəzəb atəşiylə yandırdı. Cahanı tutan ləşkər həmin yeri iyirmi altı köçdə keçib qurtardı, iyirmi yeddinci gün isə Herat darüssəltənəsinə daxil olub o ürəkaçan yerdə iqamət etdi, əskərlər yol yorğunluğu və at sürmək əziyyətindən qurtulub bir neçə gün istirahət etdilər.

Herat darüssəltənəsində iqamət vaxtı olmuş hadisələr bu il baş verən Hörmüz fəthinin şərhindən sonra bəyan olunacaqdır.

## FARS [VİLAYƏTİNİN] BƏYLƏRBƏYİ İMAMQULU XANIN VƏ SAYSIZ-HESABSIZ QAZİLƏRİN SƏ'Yİ İLƏ HÖRMÜZÜN FƏTH OLUNMASININ ZİKRİ

Bu ildə, yəni min otuz birinci ilə bərabər [türkicə] it ilində (1621/1622) bu zavalsız dövələt övliyalarının iqbal gücü ilə fəth olunan yerlərdən biri də Hörmüz adlı məkandır ki, Fars əmirülümərası İmamqulu xanın sə'yi ilə baş verdi. Keçən il işarə olunmuşdu ki, Hörmüzdə yaşayan portuqal firənglərindən üz vermiş ədəbsizliklər üzündən adı çəkilən əmirülümərа onları cəzalandırmaqdan ötrü ləşkər göndərdi, elə özü də ləşkərin arxasınca getdi. "*Tarixe-cəhanara*" [kitabında] yazılmışdır: Hörmüz adasını Luristan və Şulestanın solğəri atabəyləri nəslindən olan Şəhabəddin Əyar adlı bir şəxs Qeys məliklərindən alaraq, orada imarət tikməyə başladı. Sonradan həmin yerdə böyük bir şəhər yarandı və Şəhabəddin oranın müstəqil hakimi oldu. Onun vəfatından sonra Hörmüz və ətraf verlərin hakimliyi Məlik Kərdanşah adlı bir adamın əlinə keçdi. O, ata tərəfdən peyğəmbər əleh-hüssəlamın, ana tərəfdənsə əcəm məliklərindən olan Gostəhəm ibn Əşkərin nəslindən olduğunu söyləyirdi. Kərdanşahın övladları ondan sonra nəsilbənəsil həmin yerdə hakim və hökmran olmuşlar.

O cümlədən Solğərşah ibn Şəhabəddin ibn Turanşah çətir və bayraq (ləva) sahibi oldu (yəni hakimiyyətə gəldi – *Ş.F.*). olduqca aliməqam və səxavətli bir şəxs idi. Belə ki, şairlərin biri onun mədhində belə demişdir:

**Beyt**

*Bəhri bənzətməsin heç kimsənə şey'-allahə*[1]
*Bir gədadır, uzadıbdır əli Solğərşahə*[*]

---

[1] Sey'-allah – Allahın yaratdığı nəsə bir varlıq (şey, əşya) – Bax: M. Moin. Göst. lüğət. c. II, s. 2101

[*] Beytin farscası:

Bəhr ba kaseye-çubin nə be şey'-allahəst,
Kəfbəravərde gədaye-dəre-Solğərşahəst.

Doqquz yüz iyirmi üçüncü ildə (1517) mərhum həzrət Süleyman şanlı xaqan Şah İsmayılın, eləcə də İkinci Solğərşah ibn Turanşahın hakimiyyətləri dövründə Portuqal firəngləri hiyləgərliklə Hörmüz adasını istila etdilər, dərya kənarında üstündə qala olan hündür bir torpaq qalağı (kut) ucaltdılar, bəndərlərdən gəlib oradan keçən tacir və başqa yolçulardan pul alaraq onun az hissəsini Hörmüzün hakim və valisinə verməyə başladılar. Tədriclə oraya çox miqdar portuqaliyalı
**s.980** gəlib toplaşdı. Hər üç ildən bir Portuqaliya padşahı tərəfindən
**(690)** bir kapitan (kəpitan) oraya baş çəkirdi. Firəngiyyənin adəti üzrə kapitan onların ağsaqqalı və o bəndərin (burada Hörmüzün – *Ş.F.*) ixtiyar sahibi sayılırdı. Portuqallar vaxt ötdükcə o vilayətin bütün mədaxil və məxaricinə şərik oldular. Solğərşahiyyə xanədanının hakimiyyəti Fərruxşah ibn Turanşaha, sonra isə oğlu Firuzşaha çatdığı vaxt firənglər əvvəlkitndən daha çox iqtidara və ixtiyara sahibləndilər. Artıq Hörmüzün bütün böyük-kiçik işləri kapitanın rə'yi ilə firənglər tərəfindən aparılırdı. Belə ki, müsəlman valisinin təkcə adı qalmışdı. Hümayun şahın (Şah Abbasın – *Ş.F.*) gündən-günə artan dövlət və hökmranlığı dövründə firəng sultanları şah adamları ilə dostluq qapıları açdıqlarından, həmişə elçilərin gediş-gəlişləri vasitəsilə ona hədiyyələr göndərir, məhəbbət və dostluq qayda-qanununu möhkəmlədirdilər. Ali hümayun şah o camaatın (hörmüzlüləri – *Ş.F.*) işlərinə mədaxilə etmirdi. Amma, Bəhreyn və başqa yerlərin müsəlman hakiminə aid olduğuna baxmayaraq, firənglər ona rahatlıq vermirdilər. [Buna görə də,] hökm olundu ki, Fars əmirülümərası mərhum Allahverdi xan oranı ələ keçirsin. Yuxarıda yazıldığı kimi, adı çəkilən xan həmin yerləri tutdu. Hörmüz adası isə yenə də portuqal firənglərinin ixtiyarındaydı. Onlar Mahmudşah ibn Fərruxşahın dövründə adanın mədaxil və məxaricindən bu hakimə gündəlik xərc tə'yin etmişdilər. Amma, firənglər tez-tez tüğyan edir, gərəksiz hərəkətlərə yol verir, müsəlman yolçuları ilə pis davranırdılar. Portuqallar məkr və hiyləgərliklə bu dövlətin (səfəvilərin – *Ş.F.*) adamlarına qarşı da çıxdılar. Onlar bir-iki dəfə toplarla dolu olan hərbi gəmilərini dəniz yoluyla Bəhreynə yolladılarsa da heç nə edə bilmədilər.

[Portuqallar] bir neçə vaxt bundan əvvəl Hörmüzdən kənarda Çərmov bəndəri adlanan dərya kənarı bir yerdə, hümayun cülusun başlanğıcında, cənnətməkan şah dövründəki qayda-qanunun ziddinə olaraq bir qala inşa etmiş və oraya qoruyucular təhkim etmişdilər. O zaman Lar valisi də özbaşına və ali hümayun şahın izni olmadan qala tikmişdi ki, buna görə çoxlu fəsad törənmiş oldu. Portuqalların bu hərəkəti şahın məzacına uyğun olmadı, Allahverdi xanı həmin qalanı dağıtmağa yolladı. Allahverdi xanın oğlu İmamqulu xan fərmana uyğun olaraq qalanı zorla onlardan aldı ki, bu gün o yer "Bəndəre-Abbasi" adı ilə məşhurdur. Son neçə ildə [portuqallarla] barışıq şəraitində idilər. Dekən Hindistanından gəlib-qayıdan gəmilərin hərəkəti, dəniz yolunun əhəmiyyəti, alış-veriş mənfəəti baxımından tacir və yolçular özlərini onlardan qoruya bilmirdilər. Elə bu vaxtlarda portuqallar yenə məkr və hiylə işlədib özbaşına olaraq, "Uzun ada" ("Cəzireye-deraz") adlanan şirin su mənbəyi olan və həmin suyun gəmilərlə şəhərə çatdırılmasına imkan verən Qeşm adasında qala tikmək istadilər, aşkar-gizlin şəkildə həmin imarətin ləvazimatını hazırlayaraq həmin su mənbəyində bir qala ucaltdılar. Bu iş o kafərlərin üsyan və tüğyanı kimi baş verdiyi üçün onların cəzalandırılması vacib bilindi. Mərhum sədaqətli xanın oğlu olan və fərmanla Fars məmləkətlərinin əmirülümərası tə'yin edilən şücaətli İmamqulu xan firənglərin cəzalandırılmasına və qalanın dağıdılmasına təhkim olundu. Xan əmrə uyğun olaraq Bəyverdi bəy Eşikağasının sərkərdəliyi ilə bir dəstə qəhrli döyüşçünü yolladı ki, onlara qala tikmək qadağan olunsun, tikilən qala isə viran edilsin. Rəzil portuqallar ona qulaq asmayaraq, qala inşasının bitməsinə sə'ylərini artırdılar, elə həmin qalaya
**s.980** sığınıb qazilərlə döyüşməyə başladılar. Hərbə başlayan Büsat bəy də həmin məsələni xana çatdırdı, xan başqa bir dəstəni köməyə yolladı, sonra özü də həmin səmtə hərəkət etdi. Fars [məmləkətinin] döyüşçüləri qalanın fəthindən ötrü çox sə'y etdilər, ard-ardınca həmləyə keçdilər. Mühasirə müddəti və qalanın fəthi zamanı döyüşçülərin bir neçəsinin şəhid olma-

sına baxmayaraq, nəticədə islamın qüvvəti və bu dövlətin gücü sayəsində fəth və qələbə din mücahidlərinə qismət oldu və həmin qala alındı, qaladakılar cəzaya məruz qaldılar. Şirin su mənbəyi olan qalaya gözətçilər tə'yin edildi. Hörmüz kafərləri və portuqallar tərəfindən yersiz əməl baş verdiyindən və onlar şüarları zəfər olan qızılbaşlara hücuma keçdiklərindən şücaətli xan islam qeyrətinin çoxluğu üzündən bütün Hörmüz adasının fəthini və firənglərin cəzalandırılmalarını özünə lazım bilib, əhvalatı [şaha] çatdırdı və bu işi yerinə yetirməkdən ötrü izn aldı. Əhali arasında belə danışırlar: Əgər portuqal firəngləri Hörmüzə dəxalət etməsəydilər, şərq gəmilərinin gəliş-gedişinə və mallarının daşınmasına maneçilik göstərməsəydilər, tacirlərin hərəkəti kəsilməsəydi,
**s.981** həmin yer viran edilməzdi, onlar tərəfindən yenə də bac
**(691)** verilər, Hörmüzə hücum olunmaz və [tərəflər] arasında barışıq şərti saxlanılardı.

Bundan əvvəl ingilis valisi tərəfindən bir dəstə ingilis firəngi xalqlara pənah verən dərgaha (burada səfəvi sarayına – *Ş.F.*) gələrək sədaqət və xidmətkarlıq izhar etmişdi. İngilislərlə portuqallar arasında dava-dalaş olmasına baxmayaraq, onlar həm də aralarındakı xristian (nesarı) fərqinə görə də ixtilaf içərisində idilər. İngilislərə şah tərəfindən söz verilmişdi ki, əgər şahın Hörmüzü fəth etmək istəyi olarsa, onlar zəfər nişanlı əskərlərlə razılaşıb, qələbədən sonra, ingilislərin əlindəki bir bəndərə mal göndərsinlər və portuqalların buna mane olmasına yol verməsinlər. Firənglər (portuqallar nəzərdə tutulur – *Ş.F.*) ayağı ədəb dairəsindən çıxarıb, yuxarıda yazıldığı kimi, [yersiz] hərəkətlər etməsəydilər, onların dəf' edilməsi fikri şahın heç yadına düşməzdi də.

**Beyt**

*Gər pak deyilsə də nəsrani quyu,*
*Ölü cuhud yuyur bundan nə qorxu?*[1]

---

[1] Beytin farscası:
Gər abe-çahe-nəsrani nə pakəst,
Cohude-morde mişuyəd, çe bakəst?

Bu beytin məzmununa uyğun olaraq şah bu barədə ingilislərlə danışdı və onlar və'd etdikləri kimi bu işə hazırlaşdılar. Xülasə, şücaətli xan Fars [vilayətinin] döyüşçüləri ilə o tərəfə yollandı, gəlib, bu gün "Bəndəre-Abbasi" adlanan Gəmrov bəndərində iqamət etdi. Qəhrli əskər dəstələri gəmi və qayıqlarla dəryanı keçib Hörmüz adasına daxil oldular. Firəng kapitanı, həmçinin müsəlmanların valisi Mahmudşah qalaya sığındılar. O yerin möhtərəm tacirlərindən və sənətkarlardan ibarət olan sakinləri də istər-istəməz qalaya sığındılar, həm xristianlar, həm də müsəlmanlar qaladarlıq ləvazimatı hazırlığına başladılar. Bu tərəfin qəhrli döyüşçüləri mühasirəyə başlayaraq mürçəllər hazırladılar. Bir dəstə ingilis də dərya yolu ilə gəlib su kənarındakı qalanın bir tərəfində dayandı. Tərəflər arasında hər gün cəng baş verirdi. Cəngə girişən dilavərlərin bə'zisi döyüşür, bə'zisi isə şəhadət şərbəti nuş edirdi. Bu vəziyyət o qədər davam etdi ki, cənab xan dəryanı keçib şəhərə gəldi. Qazilər əvvəlkindən də çox qalatutma işinə səy etdilər, mərdanəlik göstərdilər. Belə ki, az bir vaxtda onlar seybələri irəli apararaq bürc ayağına çatdılar,
**s.981** bürclərin altını qazmağa başladılar.

Düzgün danışan adamlardan belə eşidildi: Firənglərin tikdikləri Hörmüz qalasının eni otuz zərdən artıqdır[1] ki, daşdan və əhəngdən inşa olunmuşdur. Əzəmətli qazilər bürclərin ikisinin altını boşaldıb oraya barıt doldurdular və odladılar. Partlayış bürcü dağıdıb hissələrini havaya qaldıdı, özünü isə yıxdı. Amma bürcün iki dangi (altıda bir hissəsi – *Ş.F.*) hələ öz yerində qalmışdı. Qazilər bürcdən açılan kiçik yarıqdan keçərək yürüşə başladılar. Qaladakılar bacardıqları qədər müdafiə olunmağa başlayıb qaladarlıqla məşğul oldular. Nəhayət onların vəziyyəti pisləşdi və daha müqavimət göstərə bilmədilər. Firənglər arasındakı xristianlıq (nəsraniyyət) məslək (həmkişi) birliyi səbəbindən ingilislərə birləşdilər, qaladarlıqdan əl çəkdilər, öz ağır-yüngül var-yoxlarını ingilis gəmisinə daşıyıb onlarla əlbir oldular. Amma bundan əvvəl İmamqulu xan və ingilis böyükləri belə qərara

[1] Otuz zər-təxminən 40 metrə yaxındır – *Ş.F.*

gəlmişdilər ki, qalanın fəthindən sonra xristianların qənimət və malları özlərində qalacaq, müsəlmanların var-yoxları isə qızılbaş döyüşçülərinə çatacaqdır.

Məqsəd qala və şəhərin fəthindən getdiyi üçün cənab xan əhd-peymana sadiq qaldı, onlara maneçilik göstərmədi, firəngləri ingilislərin ixtiyarına verdi ki, necə məsləhət bilsələr onlarla eləcə də rəftar etsinlər.

Xülasə, mühasirə və döyüş günlərinin davavm etməsindən iki ay və bir neçə gün keçdikdən sonra, bu uca dudmana həmişə yardımçı olan bu dövlətin gücü və iqbalın qüvvəti ilə bütün cahanda öz möhkəmliyi ilə məşhur olan və firənglərin nadir tikililərindən sayılan böyük Hörmüz qalası bu əbədi dövlət övliyaları tərəfindən fəth olundu, Hörmüz valisi Mahmudşah və yoldaşları ələ keçdi, qalaya sığınan, kafərlərlə razılaşan, onlara kömək edən və vuruşan əhalinin bir hissəsi öz cəzasına çatdı, amma qızılbaş ləşkərinin gəlişi vaxtı şəhərdə olan və kafərlərə ikrah edər rəiyyət və kasıb adamlar nicat tapıb sağ-salamat öz evlərində rahat yaşamağa başladılar. Cənab xan oraya hakim tə'yin etdi, rəiyyət arxayınlaşıb onun ədalət kölgəsi altına sığındı. Qalada qənimət kimi götürülən qala silahlarından bir neçə böyük top və hər birisi mahir ustadlar və misilsiz firəng topçularının qəribə üsullarla düzəltdikləri kiçik və böyük badliclər və başqa gözəl əşyalar vardı. Onlardan şah nəzərinə ləyaqəti olan silah və başqa qənimətləri ayırıb sərkare-xasseye-şərifəyə verilmək üçün saxladılar, qalanlarını isə müzəffər döyüşçülər arasında böldülər. Zəruri işləri nizamladıqdan, əskər və rəiyyətin vəziyyətini tənzim etdikdən sonra xan köç təbillərini çalaraq Şiraz darülmülkünə qayıtdı, bu uğurlu əhvalatı ali saraya ərz etdi. İzzət və cəlal ordusu Qəndəharda dayanıb müzəffər əskərlər qalanı tutmaqdan ötrü çalışdıqları vaxt, Hörmüzün
**s.982** fəthi xəbəri gəlib çatdı, cənab xan şah və ordunun alqışı ilə
**(692)** şərəfləndi, bu gözəl xəbər hümayun ordunun qalatutan mübarizlərinə yaxşı tə'sir bağışladı, iki-üç gün ərzində Qəndəhar qalası da, yuxarıda yazıldığı kimi, Allahın köməyi ilə fəth olundu.

**Şer**

*Hər yana ki, baxırsan, gözün qələbə görür,*
*Qulaqsa hər tərəfdən eşidir zəfər səsi.*[1]

## HERAT DARÜSSƏLTƏNƏSİNDƏ OLARKƏN BAŞ VERƏN MÜXTƏLİF VAQİƏ VƏ HADİSƏLƏR

Qələmim yuxarıda yazdığı kimi, Qəndəhar səfərindən qayıdan [şah] gələrək Herat darüssəltənisində dayandı, iki ay
s.982 yarımadək o gözəl məkanda iqamət etdi, əhalinin, ehtiyacı olanların, Xorasanın müxtəlif işlərinin, adamların mətləb və istəklərinin həlli ilə məşğul oldu. Bu darüssəltənədə qaldığı vaxt baş vermiş hadisələrdən [bə'ziləri aşağıdakılardır ]:

Birincisi, Bəlxin mö'təbər seyidləri və xacəzadələrindən olan və oranın valisi Nədr Məhəmməd xan Özbək tərəfindən elçi sifətilə göndərilən İbrahim Xacənin gəlişidir. O, keçən il Şirvanın sabiq vəziri Məhəmməd Saleh bəylə və həmçinin Bəlx elçisi Payəndə Mirzə və cənab Əbdülrəhim Mirzə Buxari ilə birlikdə Bəlx və Buxara sultanlarının yanına elçi kimi getmişdi ki, onun gediş-gəlişinin şərhi belə olmuşdur: Payəndə Mirzə ilə birlikdə Bəlxə çatan Məhəmməd Saleh bəy, Nədr Məhəmməd xanla görüşdü, inayət üslubunda yazılmış şah məktubunu ona çatdırdı. Bu məhəbbətli məktubun məzmunundan xoşlanan xan elçiyə olduqca hörmətlə yanaşdı, yol yorğunluğundan dincələn bu elçini Mavərənnəhrə yolladı. Məhəmməd Saleh bəy Səmərqənddə Mavərənnəhrin valisi İmamqulu xanla görüşdü. Ona göndərilən məktubun məzmunu ilə tanışlıqdan sonra İmamqulu xan arxayınlaşdı, çünki sabiqdə baş vermiş əməllərinə görə o diyarın əhalisi şahdan qorxur, bu yaxınlarda Xorasanda baş verən hadisələrdən, o cümlədən Qəndəharın fəthindən bərk narahatlıq hissi keçirirdi. İmamqulu xan şahın həmin inayətnaməsini oxuyub, onu aman sənədi (herz) kimi başa düşdü, tamam

[1] Şerin farscası:
Əz hər tərəf ke çeşm goşayi neşane-fəth
V-əz hər tərəf ke guş nehi mojdeye-zəfər.

sakitləşdi, Məhəmməd Saleh bəyi izzət və ehtiramla geri göndərdi. Nədr Məhəmməd xan o yerin mö'təbərlərindən biri və əmir və əyanların dostu kimi tanınan İbrahim Xacəni [tərəflər arasındakı] sədaqət hissini artırmaqdan ötrü [səfəvi] sarayına göndərmiş və ondan belə xahiş etmişdi: "Baxmayaraq ki, iranlılar və turanlılar arasındakı düşmənçilik qədimdən mövcuddur, amma o (Nədr Məhəmməd xan – *Ş.F.*) və böyük qardaşı İmamqulu xan ə'lahəzrətlə sədaqət, birlik, iradət və e'tiqad məqamındadırlar. Fitnə yaranan vaxt ə'lahəzrət bildirmişdi ki, qurd və qoyun bir-birləri ilə mehribanlıqla (ülfət) davranmalıdır. Sabiqdəki dövrlərdən fərqli olaraq, gərək bundan sonra tərəflər arasında sədaqət və dostluq bərqərar olsun".

Onun ardınca Buxaranın cuybari xacələri tərəfindən də e'tibarlı adamlar gələrək həmin təklifi etmişdilər. Mavərənnəhr sultanları, xüsusilə Nədr Məhəmməd xan belə xahiş etmişdi: "[Səfəvi dövləti] o həzrətə pənah aparmış Rüstəm Məhəmməd xan ibn Vəli Məhəmməd xana bu sərhədlərdə yer vermişlər. Rüstəm Məhəmməd xanun bu hüdudda olması fitnə-fəsada səbəb ola bilər ki, bunun dəf' olunmasından ötrü kürdlərin onunla birlikdə İraqa göndərilməsi biz sadiq bəndələrin ümidvar olmalarına, sülh və dosluğun möhkəmlənməsinə səbəb olar, çünki, onunla imamlar nəsli arasında düşmənçilik və inadkarlıq vardır. Fitnəkar və üsyankar (aşubtələb) olan qarətkar özbəklərin bir dəstə quldurų onun başına yığışmışlar, daim qarətkarlıq və mal oğurluğu üçün bu məmləkətə əl uzatmaqdadırlar. Rüstəm Məhəmməd xanın məsələsi bitirilməsə, aciz adamlar və rəiyyət təşviş içində qalar, məmləkət viran olar. Əgər onun cəzalandırılmasından ötrü biz yollansaq, Rüstəm Məhəmməd xan hümayun şah dövlətinin ərazisində yaşadığı üçün ləşkərlərimizin hücumundan şah məmləkətinin rəiyyətinə zərər dəyə bilər, əhd-peyman pozular, bu hərəkət şahın xoşuna gəlməz. Buna görə də, belə qərara gəldik ki, Rüstəm Məhəmməd xan ali hümayun [şahın] qoşunu ilə İraqa getsin, bundan sonra o və onun mülazimləri orada yaşasınlar, bir yerə toplaşmış e'tibarsız və qarətgər olan bir dəstə [özbək] isə bir-birindən ayrılsınlar, çünki onların dost və düşmən olmaları bilinmir və e'tibarsızdırlar".

Xülasə, şahın diqqət və mərhəməti ibadullahın vəziyyətinin qaydaya salınması, sərhəddə əmniyyət və nizamlanmaya yönəldiyindən o həmin xahişi qəbul etdi. İraqa yürüş vaxtı Rüstəm Məhəmməd xan artıq hümayun qoşunun tərkibində idi. Adı çəkilən elçilərin Mazandarandan, bə'zi elçilərinsə İsfahan darüssəltənəsindən göndərilməsinin şərhi aşağıda veriləcəkdir.

Heratda iqamət vaxtı olan vaqiələrdən biri də budur: Hər iki tərəfin xeyrxah düşüncəli adamlarının vasitəçiliyi ilə ali hümayun və Rum diyarının hökmranı arasında sülh və dostluq möhkəmləndi, yuxarıda yazıldığı kimi mö'təbər elçilərin gediş-gəlişləri başlandı. Şahın qulağına çatdı ki, Sultan
**s.983** Osman bütün ordusunu yığıb İslam [ölkələrinin] sərhədlərinə
**(693)** hücuma keçən firəng sultanlarını dəf' etmək məqsədilə yola düşmüşdür. Şah bir çapar yollayaraq, vəziyyəti və islam qoşununun əldə etdiyi fəthlər haqqında bir xəbər öyrənmək, həmçinin [sultana] Qəndəharın fəthi və Hörmüzdəki portuqaliyalı kafirlərin məğlub edilmələri xüsusunda mə'lumat vermək fikrinə düşdü. Buna görə də, Çələbi bəy Qorçiye-Qacarı məhəbbət ayinli bir dostluq məktubu ilə yola saldı. Məktubda islam qoşununun fəth və qələbəsi haqqında mə'lumat verilirdi. Adı çəkilən elçi tez-tələsik getdikdən sonra və hələ də hümayun fallı məiyyət Herat darüssəltənəsində olarkən, rum ləşkəri arasında yaranan iğtişaş, o diyardakı inqilab, fələyin gərdişi nəticəsində Sultan Osmanın öldürülməsi barədəki xəbərlər gəlib çatdı.

## RUMDA İĞTİŞAŞ VƏ İNQİLAB XƏBƏRLƏRİNİN VƏ O DİYARIN HÖKMRANI SULTAN OSMANIN ÖLDÜRÜLMƏSİNİN ZİKRİ

Bu vaqiə belə baş vermişdir: Vardindən elə bir xəbər eşidildi və o xəbərdən sonra gələn rum elçisi də gələrək bildirdi: "Sultan Osmanın bu il firəng səfərindən zəfər və qələbə ilə qayıtmışdır; Söyləyirlər ki, o, elə bu il Hicaza və Ərəb İraqına yürüşə başlayacaq və Hələbdə qışlayacaqdır, həmçinin

deyirlər ki, sultan əcəm və ərəb diyarlarının səxavətli şəhriyarı olan ə'lahəzrət zillələllah şah ilə bağladıqları əhd-peymanı pozmaq niyyətindədir, amma rum ordusunun ən böyük hissəsi olan yeniçəri tayfası ona belə ərz etmişdir: Cürbəcür fəsadlara, habelə ərəb və qızılbaş sərhədlərindəki fitnəkarlığa səbəb ola biləcək bu yürüş dövlətimizə yaraşan iş deyil, ona görə ki, osmanlı qanunlarında bir ildə iki səfər yazılmamışdır, çünki firəng səfərindən qayıdan rum əskərləri hələ öz mənzil və vətənlərində rahatlana bilməmişlər, buna görə də bu ilin yürüşü dayandırılsın, amma gələn il dövlətin və xalqın məsləhəti olarsa səfər başlana bilər".

Sultan Osman qüruru, cəhaləti, cavanlığı və mö'təbər osmanlı qanunlarından xəbərsizliyinə görə, həmçinin yaxın vaxtlarda baş vəzir olmuş Dilavər paşanın təhriki və yeniçərilərin bu iddiasını səhv sayan bir neçə nəfərlə Hələb qışlağına yollandı. Dilavər paşanın yeniçəri ağasına qarşı inadı vardı və istəyirdi ki, yeniçəri tayfasının iqtidar və ixtiyarı azalsın. Buna görə də yeniçərilərin tərəfdarı olan bir neçə iddialı adamı təqsirləndirdi, Hələb qışlağına yolladı.

Yeniçəri ağası o tayfanın bütün əzəmətli adamları ilə üsyana qalxıb, Dilavər paşanın və o zaman dövlət işlərində rə'y və məşvərət sahibi olan bir neçə mö'təbər adamın qətlini vacib saydı, onları özünə birləşdirdi və paşanın yanına adam yollayaraq ona bildirdi: "Diləvar paşa və ona qoşulanlar heç də dövlətxah adamlar deyillər və onların dövlətin işlərinə dəxalət etmələri səltənətin əsasını laxladacaqdır. Biz onların bu hərəkətindən narazıyıq. Xahiş edirik ki,həzrət padşah cəzalandırmaqdan ötrü onları yeniçərilərin əlinə tapşırsın".

Sonra sultana belə ərz etdilər: "Ale-Osman sülaləsinin qanunuda dövlətin mənafei naminə yeniçəri tayfasının etdiyi işləri sizin atalarınız razılıqla qarşılamış və onların təkliflərinə əməl etmişlər. İndi də iltimas belədir ki, bizim təklifimizə əməl olunsun".

Sultan Osman bu sözlərlə qətiyyən razılaşmayaraq o tayfa ə'yanlarını bərk təqdid etdi. Yeniçərilər tügyana qalxaraq paşa və adamlarının dəf' edilmələrindən ötrü ayağa qalxdı-

lar. Dilavər paşa və yoldaşları qorxularından özlərini padşah sarayına atdılar. Onlar xidmətkarlar, saray əmələləri və sepahi oğlanlarından ibarət böyük bir qoşun toplayıb o tayfanın şərini dəf' etmək üçün hücuma keçdilər. Tərəflər arasında cəng başlandı və orada çox adam qırıldı. Yeniçərilər qalib gəlib padşah sarayının əndərun hissəsinə tökülüşdülər və
**s.984** dedilər: "Bizim padşahımız Sultan Əhmədin qardaşı Sultan Mustafadır, çünki biz Sultan Əhmədin vəfatından sonra ona be'yət edərək padşah olmasına qərar vermişdik. Sultan Mustafanın hakimiyyətdən uzaqlaşdırılmasına yeniçərilər razılıq verməmişlər və bizim be'yət hüququmuz yalnız onadır".

Sultan Osman bu vaqiədən qorxuya düşərək, bu işin çarəsini arayanların məsləhəti ilə yeniçəri ağasının yanına bir adam göndərdi və dedi: "Mən yaşımın azlığından ata-babalarımın qanunlarından xəbərdar olmamışam. İndi, bu hərəkətimdən peşiman olmuşam, sizin dediyinizə əməl edəcəyəm".

Tədbirli adamların bə'ziləri belə məsləhət gördülər: "Daha iş-işdən keçdiyi və yeniçərilər ayağa qalxdıqları üçün əlac bundadır ki, padşah gərək yeniçəri ağasının evinə (ocaq) getsin və onlarla birləşsin, belə olan halda, ola bilsin ki, onlar vicdanın səsinə qulaq asıb Sultan Mustafanın padşah olması fikrindən əl çəkərlər".

Sultan Osman həmin yaxşılıq istəyənlərin məsləhəti ilə fürsət taparaq səltənət sarayından çıxdı, məcbur olub tez-tələsik yeniçəri ağasının evinə getdi.

Amma, yeniçərilər sarayın əndərununda baş vəzir Dildavər paşanı, onun yoldaşları olan ikinci vəzir Hüseyn paşanı,
**s.985** qızlar ağasını, sipahi oğlanı tayfasının mötəbər üzvlərindən
**(694)** Hacı Subaşını, çavuşbaşını, sarayın ixtiyar sahibi (sahibi-ixtiyar) Bostançıbaşını və başqa onlar kimi vəzifəli şəxsləri tutub qılınc və ayaqdın saldılar, sonra Sultan Mustafanın evinə gedib onu oradan çıxardılar və padşah kimi təbrik etdilər.

Bu əsnada Sultan Osmanın yeniçəri ağasının evinə gəlməyi mə'lum oldu. Padşahın buraya təşrif gətirdiyindən xəbər tutan yeniçəri ağası onun yanına gələrək üzrxahlıq elədi, onu himayə etmək fikrinə düşüb yeniçərilərin başçıları

ilə danışıq apardı və onlara dedi: "Padşah sizin ocağınıza gəldiyi üçün mə'lumdur ki, etdiyi hərəkətlərdən peşiman olmuşdur. Əvvəla, gəlin mürrəvət naminə və bədnamlığın olmamasından ötrü onu özümüzə tərəf rəğbətləndirək, elə ki, mətləbimizə yetişdik və onun inadkar düşmənlərini aradan götürdük, bundan sonra gərək padşahla yaxşı münasibətdə olaq".

Yeniçərilər bu məsələnin yeniçəri ağası tərəfindən yoluna qoyulmasından sonra cahil bir cavan olan padşahın kin üzündən onlardan intiqam ala biləcəyini qorxusundan yeniçəri ağasını aradan götürmək qərarına gəldilər, dərhal ona hücum edib qətlə yetirdilər. Onlar Sultan Osmanı onun evindən çıxarıb Qəstəntəniyyə yaxınlığındakı Yeddi Qala adlı məşhur qalaya göndərdilər. Lakin, bununla da kifayətlənməyərək onun bir daha padşah ola biləcəyi qorxusundan Yeddi Qalaya getdilər və onu aradan götürdülər. Ertəsi gün yeniçərilərin bütün təbəqələri və başqa adamlar yas paltarı geyinib

**[*Misra*]**

*Həm Hafizi öldürdün, yas tutmadasan həm də*[1]

padşahın nə'şini təzim ilə Yeddi Qaladan götürüb şəhərə gətirdilər, kəfənləyib "Sultan Əhməd məqbərəsi"ndə elə atasının qəbri yanında dəfn etdilər.

Xülasə, səltənət və padşahlıq adı ikinci dəfə Sultan Mustafanın adına yazıldı və yeniçərilər əvvəlkindən də artıq dövlət işlərində ixtiyar sahibi oldular, baş vəzir və başqa mənsəb sahibləri onların məsləhəti ilə vəzifələrə tə'yin edildilər. Sultan Mustafada çılğın xislət və beyin pozğunlu olduğundan vəzirlərin məsləhəti ilə dövlət işlərinin tənzimlənməsi ilə onun anası məşğul olurdu. Sultanın imzası ilə ə'lahəzrət zillələllah şaha qəzavü-qədərin tələbi ilə baş verən
**s.985** son hadisələ barədə məhəbbətamiz bir məktub yazıldı. Sülh və dostluq müqaviləsinin yenidən qüvvəyə minməsi yazılan həmin məktubu dilli-dilavər bir elçi ilə göndərdilər. O elçi

[1] Misranın farscası:

Xod koşteyi Hafiz-ra xod tə'ziye midari

[Hafiz Şirazi]

Herat darüssəltənəsində ali saraya gələrək məktubu şahın nurlu nəzərinə çatdırdı və baş verən hal barədə şifahi mə'lumat da verib dedi: "Öz padşahına qəsd edən yeniçəri tayfası ona görə bu işi elədi ki, Sultan Osman onların işlərinə dəxalət edirdi və o, Ale-Osmanın dövlətxahları arasında tə'nələnmişdir (mətun). İndi xeyirxah adamların fikri belədir: Sultan Mustafada beyin pozğunluğu olduğundan onun səltənət zamanı etimal ki, dövlət işlərində qarma-qarışıqlıq baş verəcək. Yeniçəri tayfası qorxur ki, Sultan Osmanın azyaşlı qardaşı Sultan Murad hakimiyyətə gələr və o da Sultan Osman kimi olar. Buna görə də yeniçərilər Sultan Muradı istəmirlər və artıq belə söz-söhbət yayılmış, hətta başqa məmləkətlərə də siyarət etmişdir. Hər küncdə bir yalançı öz fitnə-fəsad başını qaldırmışdır və hər başda hakimiyyət sevdası vardır".

Bu vaxt Hüseynxanın mülazimi bir çavuşla Bağdaddan gələrək İraqi-Ərəbdə baş verən çaxnaşmalar və aşağıda m'əlumat verəcəyimiz Bağdad darüsalamının başçıları arasındakı dava-dalaş barədə xəbər gətirdi.

## BAĞDAD DARÜSSALAMINDA BAŞ VERƏN HADİSƏLƏR VƏ İRAQİ-ƏRƏBİN SAKİTLƏŞDİRİLMƏSİ (FOTUR) ŞƏRHİ

Bağdad darüssalamındakı hadisələrin yığcam şərhi belədir: Uzun müddətdir ki, Bağdad qoşununun ağaları və yüksək məqamlı adamları özbaşınalığa başlayaraq o mülkün bütün mədaxil və məxaricini öz əllərinə almaşdılar. Onlar rum sultanı tərəfindən gələn hakim və paşaların bu işlərə qarışmalarına imkan vermirdilər. Əgər təsadüfən (ehyanən) onların bə'ziləri itaət edərdilərsə həmin paşaya hakimlərin sarayında yer verir və məişətinin qayğısına qalırdılar. Hər paşa bu vəziyyətə dözə bilmir, təngə gəlib geri qayıdırdı, qayıtmayan isə dözərək gününü [bir təhər] keçirirdi.

Bu dövrdə Bağdad yeniçərilərinin ağası Məhəmməd Qənbər və mö'təbər ağalardan olan Bəkr Subaşı bir-birləri

ilə birləşdilər və onların hərəsi rumilər arasında “səgban” adlanan xüsusi mülazimlərini öz ətrafına toplayaraq hakimlik və müstəqillik istəyi ilə üsyan və tüğyan başlarını qaldırdılar, heç bir paşaya və hakimə itaət etmədilər. Getdikcə Bəkr Subaşının ixtiyarı çoxaldı, elə buna görə də onların arala-
s.986 rında vəhşət yarandı, Məhəmməd Qənbər Bəkr Subaşının
(695) dəf’ etmək qərarına gəldi. Bəkr Subaşı Bağdad qoşunu və öz səgbanları ilə Hillə qiyamçılarından (motəmərredan) vergi toplamaq üçün getdiyi vaxt Məhəmməd Qənbər Hilləyə adam göndərib ona itaət etmələrini tapşırdı. Məhəmməd Qənbər də öz təbəələri ilə birlikdə Bəkr Subaşının mallarını qarət etmək məqsədi ilə onun evinə yollandı, amma bir dəstə adam Məhəmməd Qənbərə mane oldu. Tərəflərarası hərb başlandı. Bu hadisədən yolda xəbər tutan Bəkr Subaşı yanındakı döyüşçüləri ə’namlar və yüksək və’dlərlə şirnikləndirib özünə tərəf çəkdi və onlar şəhərə qayıtdılar.

Xülasə, Bağdad döyüşçüləri iki dəstəyə bölündülər.

Birinci dəstə Məhəmməd Qənbərlə narınqalada, ikinci dəstə isə Bəkr Subaşı ilə şəhərdə dayandı, aralarında cəng baş verdi. Nəticədə Bəkr Subaşı qala əhalisini aldadıb öz tərəfinə çəkdi. Onların hər biri Məhəmməd Qənbərdən dönərək özünü qaladan şəhərə çatdırmağa başladı.

Sözün qısası, Bəkr Subaşı qalanı tutdu, Məhəmməd Qənbəri ələ keçirdi, özünə qarşı çıxan bir neçə nəfərlə birlikdə aradan götürdü, bol qənimət və silah topladı, onları öz səglanlarına və döyüşçülərinə verdi, Məhəmməd Qənbərlə müttəfiq olan bir neçə şeyxi bir gəmiyə yığıb gəmiyə atəş vurdu və onların evlərini qarət etdi. Hətta məzarın da bə’zi əşyaları qarət olundu, İraqi-Ərəb hakimliyi Bəkr Subaşının əlinə keçdi. Onun üsyan və tüğyan xəbəri Rum xandgarının sarayına çatdıqda dövlət başçıları Bağdad əyalətinə Hafiz Əhməd paşanı namizəd etdilər, onu oraya yolladılar ki, işləri [Rum] dövlətinin məsləhətinə uyğün tərzdə qursun, qiyamçıları cəzalandırsın. Amma, İraqi-Ərəb hakimiyyətində gözü olan Bəkr Subaşı artıq tam müstəqillik əldə etmişdi. O, paşanın gəlişindən qorxuya düşərək qızılbaş sərhəd hakimləri ilə dostluq etmək fikrinə düşdü, Luristan hakimi Hüseynxanın

yanına bir adam yollayıb ona [bunları] bildirdi: “Bütün bu işlər aləmpənah şaha sədaqətim üzündən baş vermişdir. Mən bundan sonra öz istək əlimi o astanənin xidmətinə uzadıram və o dərgah adamlarının himayəsinə ümidvaram. O həzrətin (Şah Abbasın – *Ş.F.*) irsi mülki olan Bağdadı o həzrətdən ötrü qoruyuram”. Hüseynxan onun göndərdiyi adama bir mülazim də qoşub onları cahanpənah dərgaha yolladı, baş verənləri, yuxarıda yazıldığı kimi, ərz etdi. Elə ki, Əhməd paşa Bağdad darüssalamı hüduduna gəlib çatdı, Bəkr Subaşı Bağdadın bütün döyüşçülərini özünə müttəfiq etdi və paşaya itaətə gəlmədi. Əhməd paşa Bağdad döyüşçülərinin itaətsizliyindən mə’yus oldu, “Əhməd, qayıt”[1] nidası edib geri döndü, məsələni Diyarbəkrdən padşah dərgahına bildirdi. Padşahın dərgahından Əli paşa Kəmankeş adı ilə məşhur olan Əli paşa adlı bir şəxs Mustafa paşa (Sultan Mustafa olmalıdır – *Ş.F.*) tərəfindən Bağdad əyalətinə göndərildi. O, oraya çatdıqda bu dəfə Bəkr Subaşı itaətə gələrək onun qalaya getməsinə yol verdi, bir neçə gün onunla yaxşı rəftar etdi. Əli paşa belə naqis hakimliklə razılaşıb öz gününü keçirirdi. Paşanın bu laqeyidliyi (mosamehe) və yalnız özünü düşünməyi (xiştəndari) Sultan Mustafanın dövlət başçıları tərəfindən bəyənilmədi və onu işdən kənar etdilər, əvəzinə Yusif paşanı qoydular. Bağdada gələn paşa müstəqil iqtidara malik olmaq istəyi ilə qiyamçıları aradan götürmək qərarına gəldi. Birinci görüş vaxtı paşa ilə yaxşı tərzdə davranan Bəkr Subaşı daha onu tanımaq istəmədi, əvvəlki kimi üsyana qalxdı, bir dəstə adamla üstünə yürüş edərək paşanı tutdu, var-dövlətinə tamah salıb aradan götürdü.

Bəkr Subaşı [yenə də] müxalifət nağarası çalmaqdaydı. Yusif paşadan sonra bu vəzifəyə Mosul hakimi Kor Həsən tə’yin olundu və Bağdad əyalətinə getdi. O da [Bəkr Subaşının] işlərinə dəxalət edə bilməyib geri qayıtdı, Subaşı tam iqtidar və istiqlala yetişdi. Bağdadda baş verən sonrakı hadisələr hümayun məiyyətin oraya yürüşü və o vilayətin zəbt olunması barədəki hadisələrin şərhi zamanı gələn il hadisələr yazan qələm vasitəsilə yazılacaqdır.

[1] Ərəbcəsi: “əl oud Əhməd”

## ZƏFƏRNİŞANLI MƏİYYƏTİN GERİ QAYITMASI, QƏHRLİ QOŞUNLARIN XORASANDA QIŞLAMASI, HÜMAYUN ŞAHIN VƏ DÖYÜŞÇÜLƏRİN MAZANDARANA TƏRƏF GEDİŞİNİN ZİKRİ

Əzəmətli ordunun Herat darüssəltənəsində dayanması iki ay yarım çəkdiyi üçün Xorasanın zəruri işlərinə əncam olundu, [şah] köç haqqında qərara gəldi, gediş cilovu müqəddəs Rezəviyə Məşhədinə tərəf istiqamətləndi. Rüstəm Məhəmməd xan ibn Vəli Məhəmməd xanı, Mavərənnəhrin xahişini nəzərə alaraq, bir dəstə e'timadlı mülazimlə birlikdə müqəddəs məiyyətə daxil etdilər. Quryan hüdudunda Xorasan vəziri Xacə Cəlaləddin Əkbər Quryani layiqli peşkeşlər gətirdi, ən yüksək xidmət etdi, [qiymətli] bəxşiş verdi və ona orada iqamət şəraiti yaratdı, onun xidmətləri bəyənildi.
**s.987** Müqəddəs Məşhəddə dayandıqları vaxt, həmin bir neçə gün ərzində həmin mələklər yuvasında [şah] dua və ziyarətlə
**s.988** məşğul oldu.

**(696)** Bu il feyzli sərkarın mütəvəlliliyi vəzifəsi Mirzə Əbu Taleb Rezəviyə verildi. Bu güclü dövlətin məsləhəti Qəndəhar işlərinin möhkəmlənməsi, həmçinin əvvəllər yazıldığı kimi, Xarəzm valisi İsfəndiyar xanın vəziyyətinin düzəldilməsi və onun Xarəzmə qaytarılması, habelə bir sıra mülki işlərin nizamlanması olduğundan müzəffər əskərlərin Xorasanda qışlamaları qərara alındı. Ehtiyatkarlıq bunu tələb edirdi ki, bütün əskərlərin bir yerdə iqamət etmələri aclığa, məişət darısqallığına və ərzaq çətinliyinə səbəb ola biləcəyi üçün bütün döyüşçüləri bir neçə dəstəyə ayırdılar, hər dəstənin münasib yerlərdə qışlamaları tə'min olundu və hər dəsdə müqəddəs Məşhəddən çıxıb müəyyən edilmiş yerə getdi.

Bu işləri yerinə yetirən ə'lahəzrət müqəddəs qoşunun bir neçə mülazimi və ali məclisə yaxın adamlarla behiştnişan Mazandarana tərəf hərəkət etdi. O, Dərczin qəsəbəsini Rüstəm Məhəmməd xana inayət etdi və onu həmin yerə göndərdi. Nədr Məhəmməd xanın elçisi İbrahim Xacə və Buxara xacələrinin elçiləri müzəffər məiyyətin tərkibində Mazanda-

rana yollandılar. Buxara elçiləri orada [şahdan] rüxsət alaraq ə'nam və ehsanlarla geri qayıtdılar. İbrahim Xacə [isə] hələ bir neçə vaxt da müqəddəs məiyyətdə qalaraq şahın izzət və şəfqət nəzəri altında yaşadı, gələn il isə İsfahanda rüxsət alıb ləyaqətlə öz diyarına rəvan edildi.

## BAŞQA BİR HADİSƏ: ƏN SEÇKİN FƏZL VƏ KAMAL SAHİBİ OLAN MİRZƏ FƏSİHİ HERƏVİNİN GƏTİRİLMƏSİ

Hümayun şahın zatı, həmçinin o həzrətin hünərpərvər təb'i qədrşünaslıq mizanı və sözə qiymət vermək me'yarı olduğu üçün onun bilikli fəzilət əhlinin və bəlağətli söz ustadlarının söhbətlərinə böyük rəğbəti vardı. Cahan hökmdarlarının cahandarlıq işləri ilə məşğul olmaları səbəbindən boş vaxtları olmamasına, habelə onların fazil və bəlağətli şair və söz sahibləri ilə söhbətlərinə az vaxt ayırmalarına baxmayaraq, onlar həmişə meyl edirlər ki, müqəddəs ünsiyyət məclisləri o şəxslərin iştirakı ilə işıqlansın, elə əziz adamlar qiymətli gövhər kimi zahiri və mənəvi bəzəyə malik olduqlarından onlarla söhbət qənimət və iksir təsiri bağışlasın. Buna görə də, Herat darüssəltənəsində iqamət etdiyi bu vaxtlarda o, söhbətcil adam, fəzl, hünər, bəlağət sahiblərinin ən üstünü, mə'nalı fikirlər nazimi və fərasətli şəxslərin məliki olan Mirzə Fəsihi Herəviyə məclislərində iştirak etməsini təklif etdi. Mirzə Məsihi Herəvi o vilayətin seyidləri və ə'yanları zümrəsindən idi, ənsariyyə* sülaləsindən çıxmışdı, fəzilət və kamal zivəri, söz söyləmək bacarığı ilə bəzənmiş olduğundan şahın nurlu fikri buna yönəldi ki, qoy həmişə müqəddəs məclis onun qiymətli vücudu ilə ziynətlənsin, feyzli söhbəti ilə büsatlansın və [eşidənlər] onun sehirli tə'bindən xoşlansınlar. Əmr verildi və o, zəruri olan hər şeylə tə'min olundu. Mirzə Fəsihi Herəvi sədaqətinin çoxluğundan bu hümayun əmri qəbul etdi. Baxmayaraq ki, o gözəl məkan
s.988 bu bilik və fəzilət dəryasının gövhərindən xali qaldı, amma behişt ayinli məclisə, hümayun zata və müqəddəs məiyyətə sonsuz sevinc bəxş etdi. O, hazırda müqəddəs yaxın adamlar

zümrəsinə mənsubdur və müqəddəs məclis həmsöhbətlərindəndir.

Xülasə, məiyyət qalibiyyət və iqbal ilə behiştnişan Mazandarana gəlib-çatdı, şah həmin pak məkanda inşa etdiyi gözəl Əşrəf qəsəbəsində və cənnət ayinli mənzillərdə iqamət etdi. O, hərdənbir Fərhədabad darüssüruruna təşrif aparır, o ürəkaçan rövzədə və oranın fərəh artıran bağ-bostanlarında [günlərini] xürrəmlik və kamyablıqla keçirir və ruzigarın gözəlliyini artırırdı.

Əyyam hadisələrindən biri də, şahın Mazandaranda olduğu vaxt Şirvan bəylərbəyi Yusif xanın və başqa Şirvan əmir və ə'yanlarının mülazimət məqsədi və görüş niyyəti ilə gəlmələri və şah ilə böyük görüş səadəti ilə sərəfraz olmalarıdır. Mazandaranda yenqidən İrəm məclisləri təşkil edildi. Şahın diqqət işığı günəş ziyaları kimi Yusif xanın və onun əmir yoldaşlarının başı üzərində parladığından onların izzət və iftixar payələri fələyin ovcunədək övcünə qədər ucaldı. [Şirvandan gələnlər] özləri ilə gətirdikləri qılmansifət və Yusif çöhrəli qulamları, Züleyxasurət və xoşsima hurivəşləri, yüyrək atları, dağ kimi yük götürən dəvələri, nəğd pul, hər
**s.989** ölkənin nəfis qulamlarını, samur dərilərindən tikilmiş kürk-
**(697)** ləri, çərkəs vilayətinin nadir hədiyyələrini, qiymətli tüfəngləri və çoxlu başqa bahalı peşkeşləri ə'lahəzrətin nəzərinə yerirdilər. Onların hər birisinin dili bu şerin məzmununa uyğun belə deyirdi:

**Şer**

*Mən sənin lütfünlə oldum sahibi var-dövlətin,*
*Hər şeyim olsun sənin, ey şah, canım həm üstəlik.*[1]

Xülasə, Yusif xan ruzigar adamların gördükləri adi şeylərdən başqa elə peşkəşlər gətirdi ki, nəzər ərbablarının və canlarını belə şaha fəda edənlərin dilləri onlara "əhsən" və

---

[1] Şerin farscası:

Ançe mən əz pərtove-lotfe-to darəm, mikonəm
Comle isari-qodumət nəqde-canəm bər səri.

"afərin" dedi. Onlar hər gün və hər saat xüsusi iltifatla izzətlənir, cürbəcür şəfqətlərlə iftixarlanırdılar. Yusif xan bir neçə gün müqəddəs rikabda Mazandaranı seyr etmək və ovçuluqla məşğul oldu. O, daim xüsusi məclislərin iştirakçısı idi və izzət xeyirxahlığına qərq olmuşdu. Qayıdış vaxtı şahın qiymətləri xələtləri ilə sərəfraz olub öz ülka və vilayətinə döndü. Müqəddəş Məşhədin hakimi olan İran sipəhsaları Qərçiqay xan hələ uşaqlıq və gənclik dövründən Yusif xanla qardaşlıq edirdi. Onlar uzun müddət idi ki, bir-birləri ilə görüşə bilmirdilər. Bu günlərdə Yusif xan ali saraya gəlib yuxarıda yazıldığı kimi, görüş səadəti ilə şərəfləndi. Ə'lahəzrət yaxşı münasibət bəslədiyinə görə Qərçiqay xanı Məşhəddən çağırdı və o, qışın şiddətli vaxtı müqəddəs Məşhəddən Mazandarana gəldi, qardaşlar arasındakı görüş təzələndi. Onlar beləliklə bir müddət biri-digərinin söhbəti ilə şənləndilər. Yusif xan rüxsət alıb qayıtdı, Qərçiqay xan isə şahın ordusunda qaldı.

## MAZANDARAN YOLLARININ GENİŞLƏNDİRİLMƏSİNİN ZİKRİ

Zirək və fərasətli adamlardan (əzkiya) gizlin deyildir ki, bütün sərhəd boyundakı yerlərdə, xüsusiylə behiştnişan Mazandaranda yolların darısqallığı və çətinliyi vardır. Hündürlükdən başı asimanadək ucalan dağ keçidlərinin keçil-
**s.989** məzliyfi baxımından elə yerlər vardır ki, oradan bir süvari çətinliklə keçə bilir. [Əlbəttə] , onlar çarəsiz qalıb [atlardan] yerə düşməyə məcbur olur, dəvələrini olduqca yavaş-yavaş aparırdılar. Baxmayaraq ki, o diyarın əhalisi hətta yuxuda da dəvə görməmişdilər, indi dəvə görən kimi "sən onu necə yaratdın?" söyləyərək[1] dəvənin iri bədəninə baxıb təəccüblərini gizlədə bilmirdilər. Ə'lahəzrət o pak və fərəh artıran diyarın tə'mirinə öz iltifat işıqlı nəzərini saldıqda, yuxarıda yazıldığı kimi, fərəh artıran Fərəhabad şəhərini və şərafətli qəsəbə olan Əşrəfi cah-cəlal mərkəzinə döndərdi, [bundan başqa], həmin ürəkaçan vilayətin seyrangahları şahın hüma-

[1] Ərəbcəsi: "və ibə-l-ibli keyfə xələqtə"

yun təb'inə uyğun olduğundan, öz əksər günlərini o diyarın qışlağında keçirir, oranın bənzərsiz ovlaqlarında ov ovlamaqdan böyük həzz duyurdu. Şah ordusunun mülazimləri və əzəmətli ordunun başqa adamları yolun darısqallığından, keçidlərin çətinliyindən, dağların qorxulu olmasından, yağıntı üzündən çox yerlərdə yaranan gil və palçığın çoxluğundan olduqca əzab – əziyyətə düçar olur, müzəffər əskərlərə və həmin diyarın adamlarına saysız-hesabsız ziyan dəyirdi.

Bu il cahanı bəzəyən rə'y belə oldu: Yolların ygenişləndirilməsi və hamvar olunmasına elə diqqət yetirilsin ki, dəvə qatarları asanlıqla, təhlükəsiz şəkildə keçib getsinlər, yolçulara heyvanların hərəkətindən sədəmə toxunmasın.

Əhali nəzərində olduqca çətin görünən belə ali fikir şahın beynində özünə möhkəm yer etdi, o, Təbəristan vəziri Mirzə Təqini bu işin yerinə yetirilməsinə göndərdi. Belə qərara alındı ki, Mazandaranın əhalisi bu xeyirli işin icrasına kömək etsinlər və işçilərə maaş (öcrət) xasseyi-şərifə pulundan ödənsin. Mirzə Təqi fərmanı qəbul edərək, Allahın inayəti və şah iqbalının qüvvəti ilə bu işin əncamına başladı, bu təəccüblü (şegerf) məsələsinin həllinə girişdi. Ən böyük yol Xar, Helrud və Firuzkuhdan Mazandarana gedən dağ yoludur ki, ali ordu həmin yoldan hərəkət edir. Fərəhabada qədər səkkiz-doqquz mərhələ yoldur və hər mərhələnin uzunluğu beş fərsəx, bəlkə daha da çoxdur.

Xülasə, daşyonan (xaratəraş) diribaş ustaları, baltaçıları, bənnaları və fəhlələri (əmələ) hər tərəfdən topladılar, iş ləvazimatı hazırladılar, yol üstündəki çayların üzərində hər çayın uzunluğunu və coşğunluğuna görə (tuğyan) daş kərpic və əhəngdən körpülər inşa etdilər, yağıntı vaxtı dağlardan axan böyük sellərin qarşısını almaqdan ötrü axıntının miqdarını nəzərə alaraq yolların və çayların altından lağımlar atdılar, böyük yolların (xiyaban) hamarlanmasından ötrü baltaçılar onları meşə ağaclarından xali etdilər, uzaq yerlərdən qum gətirərək suyun axarlılığının qarşısını almaqdan ötrü bəndlər (mahipoşt) düzəltdilər və mahipoştun hər iki yanından quyular qazdılar ki, yolların yağış suları həmin quyulara dolduq-

s.990 dan sonra çaylara axıdılsın, yolçuların keçdikləri yerlər təmiz
(698) qalsın. Dağ keçidlərini olduqca genişləndirdilər, onların bə'zi yerlərinə böyük tir ağacları döşədilər, qranit daşlı (səngexara) yollarsa daşyonanlar tərəfindən qəşəng görünüşlü keçidlərə çevirildi, Fərhadın işinə bənzər ağılasığmaz işlər gördülər, bu xeyirli fəaliyyət uca Allahın köməyi və iqbalın gücü ilə, şahın və hamının xoşladığı tərzdə əncama yetdi. Hazırda yüklü dəvələr bir-birinin yanınca o yerlərdən asanlıqla qatar-qatar keçirlər. Həmçinin Mazandaranın bütün yol-
s.990 ları başqa məmləkət yolları kimi genişləndirildi, yolçular heyvanların qorxusundan qurtuldular. Bu xeyrli işin gözəl əncamına görə onun [maddeye-] tarixi "xeyrəncam"dır. Bu işin savabı şübhəsiz ki, ali hümayun şaha aid ediləcəkdir.

**Vəfat edən məşhur adamlar:**

Azərbaycan vəziri olan "Sarı Xacə" ləqəbli Xacə Məhəmməd Rza şahın Gürcüstan səfərində "Fədəvi" ləqəbinə layiq görüldü. İki-üç il idi ki, ə'lahəzrətin xidmətində (mülazimət) olmaqla müqəddəs büsatın yaxın iştirakçılarından və müqəddəs məclisin (bəzm) məhrəm adamlarından idi. Onun barəsində sabiq əhvalatların şərhində yazılmış və yenə yazılacaqdır. O, Qəzvinin Cüveyn adlı yerində doğulmuşdu, Zülfüqar xan Qaramanlının vəzirliyindən şahın mülazimi vəzifəsinədək yüksəldi, Azərbaycanın müstəqil vəziri oldu. Çalışqan və divan mallarını (əmvale-divani) bir-birindən fərqləndirməyi bacaran bir şəxs kimi gündən-günə ali inkişafa nail oldu. Rə'y və məsləhət sahibi idi. Ş'er və şairliyə də əlaqəsi böyükdü. Zarafatcıllıqda və şirin sözlər deməkdə hümayun məclislərin ən layiqli üzvü idi.

Bu il ona mə'də zəifliyi üz verdi. Müalicə ilə olduqca az məşğul olurdu. Qəndəhar səfəri zamanı ağrısı çoxaldı, Xorasanda şahın qoşunundan ayrılmaq məcburiyyətində qaldı. Böyük imamzadə olan İmamzadə Məhəmmədin dəfn olunduğu yerdə Allah rəhmətinə qovuşdu və müqəddəs Məşhəddə dəfn olundu. Mərdlik və alicənablıqdan xali adam deyildi. Aşinalarının və möhtac insanların vəziyyət və güzəranlarının yaxşılaşmasına çalışırdı.

**Beyt**

*Qurtulardım mən libasımdan külək tək büsbütün,*
*Ey Rzanın ömrü, çatsaydım əgər bir dəm sənə*[1]

*Məhəmməd Saleh bəy Şirvanın sabiq vəziridir* ki, Mavərənnəhr elçiliyindən gəlib, bir neçə gün Mazandaranda şah qoşununun mülazimi oldu, vəzirlikdə və böyüklükdə (kalantəri) Qum darülmöminində sərəfraz oldu. Bu yaxın vaxtlarda xəstələndi, xəstə və üzgün halda adı çəkilən darülmömininə getdi. Yolda mərəzi daha da şiddətləndi, Qumun iki mənzillik məsafəsində vəfat etdi. Qarşılamaq üçün Qum əhalisi onun nə'şini istiqbal edib, cənazəni pak Mə'sumə rövzəsinə gətirdi.

**Beyt**

*Necə də soyuqdur bu dünya yeri*
*Yerini isitcək deyir ki,* "*Yeri!*"[2]

[Məhəmməd Saleh bəyə] burada yerini isitməyə möhlət vermədilər.

**Beyt**

*Bir ləhzə kam olmağa bu qəlbi*
*Qoymaz bu sitəm verən zəmanə.*[3]

O, əsl Təbrizli idi. Fərhad xanın xidmətində böyüyüb inkişaf etdi. Xandan sonra şahın mülazimliyi ilə sərəfraz oldu. Bir müddət divan mənsəblərinin birində çalışmışdı,
**s.991** olduqca xoşrəftar, əliaçıq və nəfsitox adam idi, xalqla yaxşı davranırdı.

---

[1] Beytin farscası:
Minehadəm rəxte-rehlət duş bər duşe-səba,
Suyət, ey ömre Reza, gər dəstrəs midaştəm.

[2] Beytin farscası:
Əcəb sərd aməd in kaxe-delaviz,
Ke çon ca gərm kərdi guyədət "Xız"!

[3] Beytin farscası:
Yek ləhze be kame-xış del-ra
Nəgozaşt zəmaneye-setəmkar

## ABBASIN GÜNDƏN-GÜNƏ ÇOXALAN HAKİMİYYƏTİNİN İKİNCİ QƏRNİNİN MÜBARƏK YEDDİNCİ İLİNDƏ (1622/1623), YƏNİ MİN OTUZ İKİNCİ DONUZ İLİNDƏ BAŞ VERƏN HADİSƏLƏR

*Şadlıqla yetişdi fərvərdin ayı,*
*Yenə nişat etdi şahın sarayı.*
*Yazın gəlişiylə yer tazələnsin,*
*Təravət çoxalsın, avazələnsin.*[1]

Ürəkaçan bahar bir daha minlərlə nəva ilə başlandı. Ruzigarın dörd möhkəm dayağını (ərkan) idarə edən, dörd fəslin mürəbbisi və dördüncü göyün hökmranı olan cahanı bəzəyən günəş cəmadül-əvvəl ayının on doqquzunda (21 mart, 1623) düşənbə gecəsindən səkkiz saat və bir neçə dəqiqə keçəndən sonra təntənə və cah-cəlal ilə tayı-bərabəri olmayan (bihemal) bir şah (xosrov) kimi şərəf və iqbal darülmülkünün taxtı üzərində əyləşib, yeddi səmanın dörd sütününün həmin tax-
s.992 (699) tını öz feyzli vücudu ilə işıqlandırdı, torpağın içində qalmış otları yenidən torpağın üstünə qaldırdı, bahar məşşatəsi üzüm qızını işrət məclisinə başlayan aşiqlər üçün yüz gözəlliklə bəzəyərək onu kamyablıq və kamranlıq məclisində cilvələndirdi. Bağ və bostanın nəğməkar bülbülləri fərəhlə gah güllərin açılma müjdəsindən oxumağa başlayır, gah da gecələr əsən və güllərin ləçəklərini pərişan edərək badifənaya verən səba yelinin zülmündən nalə və əfğana düşür, öz göz fəvvarələrindən qan çeşməsi axıdırdılar. Bəli,

---

[1] Şe'rin farscası:

Degər rəh mahe-fərvərdin beşadi
Xəbər dad əz neşate-Keyqobadi.
Cəhan-ra əz qoduməş tazəgi bad,
Təravət-ra boləndavazegi bad.

**Beyt**

*Bu dünya evinin belədir işi,*
*Gah həzzi görünür, gah da təşvişi.*[1]

Nişat və xürrəmliyin təzə gəlini yüz şirinlik və sevinclə (delara) dövr xosrovunun ağuşuna girdiyindən, həmiçnin gözəllik və şadkamlıq yavrusu zaman şəhriyarının yanında olduğundan, ə'lahəzrət cənnətnişan Mazandaranda novruz şənliyinə başladı. Bu gözəl büsatda iştirak edən şaha yaxın adamlar və cahanı bəzəyən bü dövlətin başçıları (ərkan) yüz dilli zanbaq (susən) gülü kimi kambəxş, kamran və şirindil şəhriyara dua etməkdə idilər. Onlar vəziyyətə uyğun bu şe'ri oxuyurdular.

**Beyt**

*Bəxtin və dövlətin sənə yar olsun,*
*Allah daim sənə nigəhdar olsun.*
*Adın cahan içrə qalsın daimi,*
**s.992** *Yaşa bu dünyada kamiran kimi*[2]

Xülasə, novruz bayramı bitdikdən sonra şah o o diyarın behişt kimi gözəl olan yerlərində seyr və şikar nişatına başladı.

**Beyt**

*Hamı şəhriyardan ləzzət alırdı,*
*Dövrün igidinə nəzər salırdı.*[3]

---

[1] Beytin farscası:
Çeninəst rəsme-səraye-sepənc,
Gəhi başəd asudegi, gah rənc.

[2] Beytin farscası:
Şəha, bəxt-o dovlət tora yar bad,
Həmişe Xodayət negəhdar bad.
Bovəd ta əbəd dər cəhan name-to,
Bərayəd ze giti həme kame-to.

[3] Beytin farscası:
Ləzzət əz şəhriyar mibordənd,
Gord əz ruzigar mibordənd.

Bu bahar əyyamı baş verən müxtəlif hadisələrdən biri də xaqana yaxın (müqərrəbəl-xəqani) bir şəxs və Hindistan elçiliyinə gedən bir elçi olan Zeynal bəy Tuşmalbaşının, həmçinin Qəndəharın fəthindən sonra o diyara gedən Heydər bəy Yüzbaşı Qaradağlının və Mirvəli bəyin geri qayıtmalarıdır.

Zeynal bəyin gedib-qayıtmağının şərhi belədir: O tərəfdən elçi təriqilə gələn Xanaləm hind silsiləsinin böyük əmirlərindən idi. Yuxarıda yazıldığı kimi Xanaləm müxtəlif mallar, yaraqlar və daş-qaşlarla İrana gəlmişdi. Ə'lahəzrət şah da bu dövlətin əmirləri, yaxınları və mö'təbər adamlarına nəzər saldıqdan sonra zatən ləyaqətli, düşüncəli, himmətli, ədəbli, xoş rəftarlı, e'tibarlı, məhrəm, həmçinin şərəf və mənliyi başqalarından üstün olan Zeynal bəyi elçiliyə layiq və bu xidmətə yararlı bilərək, yuxarıda yazıldığı kimi, onu Xanaləmlə Hindistana rəvan etdi. Bu işə başlayan Zeynal bəy öz vəzifəsinə sədaqətli, e'tiqadlı mürşidi və vəline'mətinin (Şah Abbasın – *Ş.F.*) yolunda baş, can və malından keçən sufi kimi qoşulmağı və dost-düşmən tərəfindən bəyənilən adam olmağı qarşısına məqsəd qoydu. Buna görə də, vəline'mətin himmətinə, qeyrətinə, adına və namusuna ehtiramla həmin səfərə hazırlaşdı, şahanə şövkət, əzəmət, bər-bəzək, zər-zivər, külək sürətli tazı atlar, əskərlərin ən yaxşı bəzəyi olan qiymətli daş-qaş, qızıl və gümüşlə bəzənmiş yəhərlər, növbənöv alətlər və saysız-hesabsız əşya və ziynətlər, çoxlu mülazim, xidmətçi və əmələ ilə şahın xidmətindən ayrılıb Xanaləmlə birlikdə rəvan oldu. Hindistana qədəm basanda getdiyi hər bir məkan, vilayət və qəsəbələrdə onu istiqbal şərtlərinə uyğun olaraq izzət və ehtiramla qarşılayırdılar. Lahura çatdıqda Hindistan məmləkətlərinin hökmranı olan uca məqamlı həzrət padşahın (Məhəmməd Əkbərin – *Ş.F.*) yanına təşrif apardı. Geri qayıtmaq vaxtı Zeynal bəy aldığı əmrin müqabilində Lahurda qaldı, Xanaləm isə irəli getdi. Padşahın Lahura gəlişindən sonra Zeynal bəy onun xidmətinə yetişib salamlaşdı və tə'zim ədəb-ərkanını yerinə yetirdi. Hümayun ə'lahəzrətin (Şah Abbasın-*Ş.F.*) adından onu dostanə sorğu-suala tutdu, qardaşyana (bəradəranə) nəyəsə bir ehtiyacının olum-olma-

dığını soruşdu, xaqanın hümayun fallı məktubunu töhfə və hədiyyələrlə birlikdə padşaha təqdim etdi. O elçilik ədəb-ərkanını və səfarət qayda-qanununu tərəflərin məhəbbət və dostluğuna layiq tərzdə yerinə yetirdi. Uca məqamlı həzrət padşahın ölkəsində belə bir qayda vardır ki, hər il onun təvəllüd günü doğulduğu Dehli darülmülkündə bayram kimi qeyd olunur, əhali öz hökmdarını və'd etdikləri müxtəlif nəzirlərlə təbrik edir. İndi həmin gün yaxınlaşdığı üçün o həzrət Lahurda ləngiməyib Dehliyə rəvan oldu. Xanaləmin məsləhəti ilə Zeynal bəy Qəndəhar məsələsini olduğu kimi padşahın dövlət başçılarına və ə'yanlarına ərz elədi, amma arxayın olmaq naminə eşitmək istədiyi cavabı onlardan ala bilmədi. Buna görə də elə oradan geri qayıtmaq və daha irəli getməmək fikrinə düşdü. Elə bu əsnada gurəkaniyyə nəslin-
s.993 dən olan həzrət padşah üçün müəyyən olunan və üzərində
s.994 mərhum padşah Mirzə Uluğ bəy ibn Mirzə Şahrux ibn Əmir
(700) Teymur Gurəkanın adı yazılmış böyük bir lə'l gətirdilər, çünki Zeynal bəy elçiliyə yollanarkən həmin lə'li hələ hazırlayıb qurtara bilməmişdilər. Həmçinin Rum padşahının bə'zi hədiyyə və töhfələrindən ə'lahəzrətin hind padşahı üçün qardaşcasına seçib-ayırdığı şeylər və onların göndərildiyi barədə Zeynal bəyə yazılan kağız da gəlib yetişdi. Buna görə də, bəy məcbur olaraq, Dehliyə yollandı. Adı çəkilən təvəllüd bayramı keçiriləndən və yuxarıda adları qeyd olunan töhfələr təqdim olunandan sonra uca məqamlı padşah Agrə darüssəltənəsinə getdi.

Zeynal bəyə daim ehtiram göstərilirdisə də, onun dövlət başçıları və başqa adamlarla Qəndəhar barədə aparılan danışıqlarına qənaətbəxş bir cavab verilmirdi. Bəy də məktub yazaraq bu məsələni olduğu kimi öz vəline'mətinə ərz etdi.

Yuxarıda barəsində yazılan Qəndəhar hadisəsinin xəbəri Hindistana çatanda, Zeynal bəyi bu məsələdə təqsirkar bilib, bir neçə gün həmin məsələ xüsusunda onunla söhbət etdilər. Nəhayət Heydər bəy Yüzbaşı Qaradağlı və Mirvəli bəy Daruğə bir-birinin ardınca gələrək şahın məhəbbət dolu sözlərini və məktubda yazılan Qəndəhar barədəki ürəkaçan

üzrxahlığını ərz etdilər. Yazılanlar üzürlü sayıldı, şadyanalıq başlandı. Tərəflər arasındakı sədaqət və dostluq qanun-qaydasının möhkəmlənməsi xüsusunda yenidən danışıq aparıldı. Uca məqamlı padşah Kəşmir vilayətinə getdiyindən, onun şəhərdə olmadığı vaxt Zeynal bəy və adları çəkilən elçilər gəlib, dostanə izahatlar və misilsiz nəzakətlər əks olunmuş məktub təqdim etdilər. Orada yazılmışdı: "Biz o padşahlıq tacını ziynətləndirən padşahla aramızda olan məhəbbət və dostluğu dünyadan üstün sanırıq və bunu heç bir hədiyyə ilə bərabərləşdirə bilmərik".

Beləliklə, Zeynal bəyə və adları çəkilən elçilərə rüxsət verib yola saldılar.

Əkbər sülaləsinin qanununa əsasən xüsusi tə'zim etmə və [rəsmi] görüş vaxtı belə qayda mövcuddur: Ən'am və bəxşişlər təqdim olunarkən onlara layiq görülən şəxslər dayanıb onu gözləyirdilər. Zeynal bəydən ayrılmaq vaxtı çatdıqda uca məqamlı padşah elçiyə veriləcək peşkəşlərin adlarını sadaladı. Zeynal bəyin nəzərincə bu hərəkətdə ləyaqətsizlik vardı. Buna görə də Zeynal bəy bu astanaya (səfəvilərə – *Ş.F.*) hörmət və qürurunun çoxluğundan o peşkəşlərə əhəmiyyət vermədi. Hər iki tərəfin yaxşılığını istəyən adamların tə'kid etmələrinə baxmayaraq o, həmin peşkəşlərdən imtina edib dedi: "Bu qayda bizim vəline'mətimizin qayda-qanununa uyğun deyfil. Əgər padşahın bizə qarşı fəxr edəcəyimiz xüsusi inayəti olsaydı, biz həmin inayətlə kifayətlənərdik. Dünya malı nə olan şeydir ki? Bizdən ötrü xüsusi şəfəqqət hər cür ləyaqətsizlikdən üstündür və biz həmin şəfəqqətlə kifayətlənərdik". Zeynal bəyə qarşı ürəklərində onun qayda-qanunu barədə dediklərinə qəzəbi olan bə'zi dövlət adamları öz və'linemətlərinin tərəfini tutaraq həmin peşkəşlərin verilməsindən vaz keçdilər, Zeynal bəy də bu barədə söhbət açmayaraq yola rəvan oldu.

Bu ilin əvvəllərində həmin elçilər dərgaha gələrək behiştnişan Mazandaranda şahla görüşməka səadəti ilə şərəfləndilər, Zeynal bəyin xidmətləri bəyənildi. O, xosrovanə diqqətə mə'ruz qaldı, qədri və məqamı ucaldı.

Baş verən başqa hadisə isə budur: Şah Qəndəhar işlərindən və qalanın möhkəmləndirilməsindən xatircəm oldu.

Bundan sonra özbək sultanları ardıcıl olaraq elçilər göndərdilər, pak niyyət və səmimiyyətlərini izhar etdilər. Onlar keçən il Bala Mürğab qalasını tutub onun kutvalını Bəlxə aparmış və qalanı zəbt etmişdilər. bu il isə onu geri qaytarıb qalanı yenidən dərgah mülazimlərinə verdilər, Xarəzmdə olan İsfəndiyar xanın işləri də onun öz istəyinə müvafiq olaraq həyata keçdi. Daha fədəvi əskərlərin Xorasanda qalmalarına ehtiyac qalmadı. Buna görə də qiymətli
**s.994** hökm verildi ki, İsa xan Qorçibaşı və Əliqulu xan Eşikağasıbaşı müzəffər ləşkərin rəsmi-keçidini keçirsinlər və qazilərin öz vətənlərinə qayıtmalarına izn versinlər. Onlar əmrə əməl etdilər və əskərlər öz məskənlərinə qayıtdılar. İzzət və cahcalal sahibinin müzəffər qoşunu isə kamranlıq və iqballa behiştnişan Mazandarandan səltənət paytaxtına yola düşüb, xoş bir saatda İsfahan darüssəltənəsinə daxil oldu , [şah] mübarək Nəqşi-Cahan dövlətxanasına təşrif gətirdi. O,altı ayadək bu darüssəltənədə qaldı və zəruri işlərin nizamlanması ilə məşğul oldu. Bəlx elçisi İbrahim Xacə rüxsət alaraq dostluq naməsi və şahanə nəvaziş və iltifat, habelə sədaqətlə bəzənmiş layiqli hədiyyələrlə öz diyarına yollandı.

Bu vaxt İraqi-Ərəb tərəfdən bə’zi xəbərlər gəlib çatdı. Hümayun məiyyət tez-tələsik oraya gedəsi oldu ki, Bağdad darüssalamına olan bu səfərin şərhi aşağıda yazılacaqdır.

s.995
(701)

## BAĞDAD DARÜSSALAMINDAKI BƏZİ HADİSƏLƏRİN ŞƏRHİ, HAFİZ ƏHMƏD PAŞANIN BİRİNCİ DƏFƏ RUM ƏSKƏRLƏRİ İLƏ ORAYA GƏLİŞİ

Düşüncə və həqiqət görən rə'y sahiblərindən gizlin deyildir ki, Bağdad darüssəltənəsi dünyanın məşhur şəhərlərindəndir və İraqi-Ərəbin darülmülküdür. Bu şəhər beş yüz ildən çox əzəmətli ərəb, əcəm, türk və başqa hökmranların iqamət yeri olmuşdur. Bağdad əkin yerlərinin çoxluğu, öz abadanlığı, əhalisinin və tikililərinin çox olması ilə məşhurdur ki, bunun şərhi heç bir bəyana sığmaz. Səfəvi mənşəli *ələvi padşahlarının** zühuru vaxtı, "Aləmara"nın birinci cildindəki Cəm məqamlı ə'lahəzrət cənnətməkan [şahın] dövründəki hadisələrdən bəhs olunduğu zaman o vilayətin idarə olunması və mülkiyyəti Məhəmməd xan Şərəfəddinoğlu Təkəliyə verilmişdi.

Doqquz yüz qırxıncı ildə (1533/1534) böyük təkəli əmirlərindən Üləma Sultan və Qazi xan Möhrdar bu dövlətdən üz çevirib Rum xandgarı Sultan Süleymanın yanına getdilər və sultan onların təhriki ilə əcəm diyarına ləşkər çəkdi. Haramnəməklik etən təkəli tayfası əqidəli və dövlətxah sufi olan Məhəmməd xanı aradan götürdü və həmin vilayəti Sultan Süleymanın işğalı altına verdi.

Bu bir neçə il ərzində İrəm timsallı o şəhər, həmçinin bütün İraqi-Ərəb rumilərin ixtiyarında qalmışdı. Hazırda iyirmi beş ildən çoxdur ki, bu darüssalamda o quldurların (ovbaş) tüğyanı nəticəsində nizam-intizamsızlıq yaranmış, vaxtaşırı olaraq qoşun başçılarının hansı birisə hakimlik etmək və özbaşınalıq havası ilə üsyan bayrağı qaldırmışdır. Rum padşahı tərəfindən oraya hakimlər və paşalar təyin olunmaqdaydı. Yuxarıda yazıldığı kimi, Mahmud paşaya, Hafiz Əhməd paşaya və başqa paşalara orada qalmaq imkanı verilmir, onlarla dəfələrlə cəng baş verir, əskərlər fəna qılın-

cına mə’ruz qalırdılar. Müstəqil hakimin olmaması, quldurların və avara şəxslərin hakimiyyətə yiyələnmələri (təsəllot) üzündən rəiyyət hadisələrin güdarına gedir [Kərbəla Nəcəf və Bağdadda yerləşən] imamların məzarlarına (ətəbate-aliyyat)[*] xidmət edənlər və o yerlərdə yaşayan əhali bir gecə də olsa rahatlıq yatağına baş qoymurdular.

Xülasə, qəzavü-qədər nəticəsində o diyar xalqının vəziyyəti olduqca pisləşmiş, xüsusilə bu iki-üç ildə Məhəmməd Qənbər və Bəkr Subaşı arasında dava-dalaş yaranmış, yuxarıda yazıldığı kimi, Məhəmməd Qənbər qətlə yetirilmiş, Bəkr Subaşı iqtidar əldə etmişdi. O öz zülm əlini açmış, varlı
**s.995** adamların malları müsadirəyə mə’ruz qalmışdı. Bəkr Subaşı hərbiçilərin qəlblərini ələ almaq məqsədi ilə onlara mane olmur, onlar da öz hesabsız əməllərindən, bu beytdə deyildiyi kimi əl çəkmirdilər:

**Beyt**

*Bir yumurtayə görə zülm eləsə sultan əgər,*
*Çəkəcək min toyuğu şişlərə ləşkərdəkilər.*[1]

Zər sahibləri onun zülmündən cana doyub, əkin-biçindən və müxtəlif inşaat işlərindən əl çəkir, əhali dənli bitkilər (hobubat) çatışmazlığından olduqca çətinlik çəkirdi. İlahinin sonsuz hikməti ilə bu qarışıqlıq zamanı mərhəmət göyündən yağış da yağmadı, quraqlıq başqa məhrumiyyətlərə əlavə olundu, o mülkdə məhsul qəhətliyi yarandı, əhali əzab-əziyyətə düçar oldu. Bir azca ərzağı qalan adamlar da onu qənaətlə sərf edir, kasıblıqla güzəran keçirirdilər. Başqa yerlərə üz tutmaq imkanı olanların əksəriyyəti [ölkəni] tərk etməyə məcbur oldu. Belə ki, yüz min nəfər kişi-qadın, qız-gəlin öz yerlərindən çıxıb əcəm diyarına səpələndilər, onların bə’ziləri isə Bəsrəyə və Həvizə Ərəbistanına getdilər.

---

[1] Beytin farscası:

Be nim beyze ke sultan setəm rəva darəd,
Zənənd ləşəriyanəş hezar morğ be six.

Xülasə, adamlar harada bir tikə çörək xəbəri eşidirdilərsə oraya da üz tuturdular. Əhl-əyalı olan çox adam öz oğlan və qızlarını satmağa (bey) məcbur olur, öz ciyərguşələrindən ayrı düşürdü. *Bu sətirlərin müəllifi də* İsfahandan çıxaraq müzəffər ordunun ardınca Bağdada yollandı, heç bir yerdə dayanmadı, elə bir kənd görmədi ki, orada İraqi-Ərəbin imkanlı adamını görsün. Nə qalmaq, nə də getmək imkanları olmayan kasıblar və dərvişlər çörək tapa bilməyərək zəifликdən yollarda can verirdilər.

Belə bir vəziyyət vaxtı Diyarbəkrdə olan Hafiz Əhməd paşa Rum sultanı tərəfindən sərdar tə'yin edildi, üsyançıların dəf' olunmaları və düşmənlərin tənbeh edilmələri üçün yola düşdü. Bağdad mülkünün nizamlanması artıq ona tapşırıl-
**s.996** mışdı, amma Süleyman paşanın da ona qoşub Bağdad darüs-
**(702)** salamının idarəçiliyinə göndərmişdilər ki, üsyançılar dəf' olunduqdan sonra o, həmin vilayətin hakimi kimi orada qalsın. Hafiz Əhməd paşa Diyarbəkr əskərlərindən, sərhəd paşalarından və kürd sancaqbəyilərindən ibarət otuz min nəfərlik bir qoşunla Bağdad üzərinə getdi. Darüssalam hüdudu onun iqamət yeri olan vaxt orada toplaşan bir dəstə quldur başını tutub aradan çıxdı, orada qalan və dəfələrlə üsyana qalxan döyüşçülər isə barışıq qapılarını bağlayıb Bəkr Subaşının tərəfini tutdular, əvvəlkindən daha çox xilaf məqamında durdular, qaladarlıq ləvazimatı hazırlığına başladılar. O mülkün dikbaş adamlarını dəf' etmək və Bağdadı onlardan almaq məqsədi ilə Hafiz Əhməd paşa irəli getdi. Qala yaxınlığına gəlib çatdıqda, beş min nəfərədək adam cəng əzmi ilə qaladan çıxaraq, öz cahillikləri və qürurları üzündən həmin çoxmiqdarlı qoşun önündə döyüş səfi bəzədilər. Əllər silaha uzandı, onların arasında qızğın cəng başlandı.

Bağdadlılardan iki dəfədən də çox olan (ə'zafe-mozaef) sərdar ləşkəri qalib, Bağdad əskərləri isə məğlub oldular. Bu mə'rəkədə Bağdad döyüşçülərinin təxminən min beş yüz nəfəri öldürüldü, sağ qalanlarsa pis vəziyyətdə qalaya qayıtdı. Bəkr Subaşinin canına lərzə düşdü, qorxudan Həmədan,

Luristan və o hüduddakı qızıldaş əmirlərinin yanına ard-ardınca qasidlər yollayıb yalvarır (esteğase), onlara bildi-rirdi: "Mən bundan sonra insanların pənahı (məlca) olan
s.996 şahın fələyə ucalan dərgahına sığınacağam, mənim o aləmpənahdan başqa pənahım yoxdur, o həzrətin irsi mülkü olan bu vilayət o dərgahındır, əgər o cah-cəlal sahibi buraya təşrif gətirərsə, bu dövlətxah bəndədən itaətdən qeyri bir əməl görməyəcəkdir".

Həmədan sərhədinin bəylərbəyi Səfiqulu xan və o hüdud sərhədlərinin hakimləri məsələni o cəlal sahibinə ərz etdilər, şahın əmrinə əsasən [qızılbaşlar] sərhədlərin qorunması və sərdarın qarətgər döyüşçülərin dəf' olunmasından ötrü Zəncir qalasına qədər tez-tələsik yola düşdülər ki, məbada sərdarın azğın dəstələri bu hümayun məmləkətin adamlarına (həvaşi) əl uzadar. Həmçinin elə də ola bilər ki, qızılbaş ləşkərinin hərəkəti nəticəsində o diyarda həyatın pərişan etdiyi biçarə adamlara nicat bəxş olunar. [Buna görə də], Bəkr Subaşinin davamlı yalvarışını, həmçinin hər iki tərəf əskərlərinin, yəni sərdarın və bağdadlıların tapdağı altında qalan və hər gün qarət olunub heyranlıq səhrasında sərgərdan həyat keçirən o mülkün aciz və biçarə adamlarının vəziyyətini nəzərə alan şah məktub yazıb onu *xudabəndəli şamlı qazilərinin* etibarlı bir adamı ilə Hafiz Əhməd paşaya göndərdi.

Məktubun qısa məzmunu belədir: "Bizimlə sərhəd yaxın-lığı olan İraqi- Ərəbin vəziyyəti haqqında mənə mə'lumdur ki, öz malikindən ayrı düşən o mülkün aciz bəndələrinin və rəiyyətinin halı qəhətlik üzündən və bu iki ildə baş vermiş dövran hadisələri səbəbindən bərk pozulmuş, onların əksəriy-yəti cilayi-vətən olmuşdur. O mülkdə pis əməllər törədilmiş, ruzigarın pərişan etdiyi sağ qalanlar isə əskərlər və başqa adamlar tərəfindən iztiraba giriftar olaraq qorxuya düşmüş və Kamyab hümayun şahın ədalət kölgəsi altına pənah gətirmişlər. Biz hazırda o biçarələrin halının yaxşılaşması və heyranlıq səhrasında vurnuxub qalan o kəslərin xilas olması naminə bu hüduda gəlib çıxmışıq. Əgər onlar (yəni rumilər – *Ş.F.*) döyüşü

tərk edib, o diyar əhalisinin aclıqdan xilası naminə geri qayıdarlarsa, biz də ən yaxın (əqrəb) adamların məsləhəti ilə, əhalinin və Allah bəndələrinin vəziyyətinin yaxşılaşmasından ötrü [geri çəkilməyi] münasib bilərik".

Əmirlərin yazışması və [qızılbaşların] buraya gəlib yaxınlaşması xəbərini eşidən Hafiz Əhməd paşa, baxmayaraq ki, onun otuz min nəfər döyüşçüsü vardı, əksinə qızılbaş əskərlərinin sayı isə yeddi min nəfərdən çox deyildi, qızılbaş ləşkəri ilə döyüşməyib, ertəsi gün geriyə üz tutdu, amma qayıdış əsnasında Bəkr Subaşının yanına-onun olduğu qalaya e'tibarlı bir adamını göndərib belə yazdı: "Bu mülk işlərinin nizamlanması xandgar tərəfindən bizə tapşırılmışdırsa da, biz Bağdad hakimliyini sizə tapşırırıq. Sənin bizə verdiyin peşkəşlərdən və *tərcümani** [vergisindən] də keçirik. Gərək məmləkəti özün zəbt edəsən, əgər qızılbaşlar gələrlərsə onların şəhərə və qalaya girmələrinə yol verməyəsən ".

Hafiz Əhməd paşanın bu gəliş-gedişi vaxtı Bağdad yaxınlığındakı bütün yerlər və şəhərin özü qarət olunmuş, o diyarda çoxlu dağıntı baş vermişdi. Aciz adamlar və rəiyyət hadisələrin qurbanı olmuşdular. Hafiz Əhməd paşanın qayıdışından sonra Səfiqulu xan və əmirlər irəli getdilər. Rəiyyət qızılbaş ləşkərinin gəlişindən arxayınlaşdı, öz məskənlərində qalıb sakitləşdi. Əzəmətli əmirlər özlərinin darüssalam hüduduna
**s.997** yollanmaları, Hafiz Əhməd paşanın geri qayıtması və Bəkr
**(703)** Subaşinin tabeçilik izhar etməsi barədəki mə'lumatı ali saraya yazdılar və İsfahan darüssəltənəsində həmin xəbərlər şaha çatdırıldı. Buna görə də qeybdən gələn ilham və Allahın köməyi ilə o tərəfə humayun yürüş başlandı, zəfər nişanlı
**s.997** ordu hərəkətə gəldi.

## İRAQİ-ƏRƏB İSTİQAMƏTİNƏ BAŞLANAN CAHANI TUTAN (CƏHANQOŞA) YÜRÜŞÜN ZİKRİ, MƏ'SUM İMAM ƏLEYHÜSSALAMLARIN PAK RÖVZƏLƏRİNİN ZİYARƏTİ VƏ ALLAHIN KÖMƏYİ İLƏ O VİLAYƏTİN FƏTH OLUNMASI

Hümayun zilləllah şahın ləyaqətli (həmide) zati onun vilayət taxtının sultanı olması və imamət taxt-tacını bəzəməsi ilə əlamətdar olduğu üçün o, iradəsinin, sədaqətinin və səmimiyyətlə (xolus) Allaha pərəstiş (bəndegi) etməsinin bolluğu (vofur) baxımından özünü izzət və şərəf astanasının iti (kəlb), yəni Nəcəf məkanının sultanı sayır, həmişə müqəddəs rövzənin və pak məzarın süpürgəçisi (xakrub) olmaq, habelə mübarək on iki şərafətli imamın qəbirləri ziyarət etmək – onların hamısına Allahın salamı olsun[1] – istəyirdi və o həzrətin sədaqətlə işıqlanmış ürəyində bu istək özünə möhkəm yer tutmuşdu. Amma, müxtəlif maneçiliklər və həyati məşğuliyyətlər üzündən, həmçinin o həzrətlə rumlular arasında bağlanmış sülh sazişinə görə [o diyara getməsinin] əhdpeymanın pozulması kimi qiymətləndiriləbiləcəyi səbəbindən onun bu işi indiyədək təxirə salınırdı, belə ki, "hər iş vaxtı gəlib çatdığı vaxt həll olunar"[2].

Qurani-Kərimin "Bismillahir-rəhmanir-rəhim" ifadəsi xalq arasında səfərin uğurlu olmasına yönəlmiş ifadə olduğundan [şah] həmin sözləri deyərək tə'yin olunmuş xoş bir saatda uğurlar rəhbərinin (yəni Allahın – *Ş.F.*)göstərişi ilə müqəddəs ordudakı az miqdar qəhrli qoşunla, həmçinin cahan-cahan şövq və aləm-aləm fərəhlə bu məqsəd yoluna öz təvəkkül qədəmini atdı. Gözəl təsadüflərdəndir ki, Ziya Məhəmməd Yusefayi-Qəzvininin* qələmindən çıxan "Təvəkkəltu-Əliullah"[3] ifadəsi bu xeyrli səfərin maddeyi-tarixi oldu ki, onun yazdığı
**s.998** qit'ədə belə bəyan olunmuşdur:

---

[1] Ərəbcəsi: "Ə'immə kiram salamu-l-lahi əleyhim əcməinə"

[2] Ərəbcəsi: "Həsbə-l-ümuri mərrə hannətun bi ovqatihə"

[3] Əliyullaha təvəkkül (ərəb dilindəki ifadənin tərcüməsi) – *Ş.F.*

**Qitə**

*Çoxdandı Nəcəf səmtinə getmək diləyirdi,*
*Agah ürəyində bunu gizlərdi fəqət şah.*

*Bir gün səfər hazırlığı yetdikdə təmamə,*
*Dərhal bu yürüş səmtinə yollandı şəhənşah.*

*Yollandı "Təvəkkəltu Ələllah" deyərək o,*
*Tarix bu işə oldu "Təvəkkəltu-Ələllah".*[1]

Ziyarət vaxt [şah] hamıya dedi: "Bu ali mətləbi arzu edən hər kəs gəlib bizim sədaqətli məiyyətimizə qoşula bilər". [O həzrət] Bəkr Subaşıya məktub yazıb onun hakim və xan olması haqqında fərman sadir etdi, hümayun yürüş barədə m'əlumat verdi. Bir neçə gün bundan əvvəl gəlib [şaha] özlərinin yürüşə hazır olduqlarını bildirən Səfiqulu xan və əzəmətli əmirlər gedib darüssəlamın yanında dayandılar. Onlar Bəkr Subaşının adına sadir olan hümayun hökmü ona yollayaraq gözləyirdilər ki, o, söz verdiyi gözəl və'dlərə əməl edərək ləyaqətlə mizbanlığa başlayacaqdır. Qızılbaş döyüşçülərinin köməyi ilə mühasirə darısqallığından çıxmış olan Bəkr Subaşı [osmanlı] sərdarı tərəfindən Bağdadın ona verilməsi xəbərini eşitdikdən sonra artıq qızılbaş döyüşçüləri ilə ləyaqətsiz tərzdə davranaraq hiyləgərlik və nifaqa başlamışdı. Buna görə də, ondan qızılbaşların gözlədikləri insanlıq davranışı gözlənilmədi. O, bir neçə gün barışıq yolu tutur, gah müqəddəs ordunun gəlişi münasibətilə qızılbaşlara görüş
**s.999** və dostluq və'd edir, gah da başqa qeyri-məqbul üzrxahlıqlar
**(704)** edərək onları arxayınlaşdırmağa çalışırdı. Beləliklə, Bəkr Subaşı bir neçə gün keçdikdən sonra dostluq qapılarını

[1] Qit'ənin farscası:
Dirist ke, əzme-Nəcəfe-şahe-vəlayət
Midaşt şəhənşahe-cəhan dər dele-agah.
Əsbabe-əzimət həme çon gəşt mohəyya,
Gərdid ze sərkərde qədəm azeme-an rah.
Çon qoft "Təvəkkəltu-Əlillah"-rəvan şod,
Tarix həman şod "Təvəkkultu-Əliəllah".

tamamilə qapadı, şəhər və qala qapılarının önünü torpaqla doldurub əmirlərə tərəf top və badlic gülləlıəri yağdırmağa başladı. Əzəmətli əmirlər dayandıqları yerdən hərəkət edərək top və badlic güllələrinin gəlib-çatmadığı yerə keçdilər, Bəkr Subaşının hiylə (ğədr) və nifaqı barədə şaha xəbər çatdırdılar. Onlar müzəffər məiyyətin gəlişini gözləyirdilər. Kəngavər adlanan yerdə (yurd) əmirlərin məktubu ali dərgaha gəlib yetişdi və vəziyyət [şaha] mə'lum oldu.

Bu xeyirli səfərin başlanmasının əsl səbəbi müqəddəs məzarların təvafı və ziyarəti olduğundan [şah] tərəfindən Bəkr Subaşının adına yeni bir məktub yazıldı və Subaşıya şahanə nəvazişlər olundu. Həmin iqbal məktubunda bu sözlər yazılmışdı: "Əgər dəfələrlə ərz etdiyin bizə sədaqət və həmrə'yliyində sabitqədəm və möhkəmsənsə (rasex) Bağdad hakimliyi [bizim əmrimizlə] sənindir və bizim ziyarət səadətindən başqa bir fikrimiz yoxdur". *Dəvəçilərin daruğəsi* Mirvəli bəy həmin inayətnamə məktubunu götürüb yola düşdü. Onun gedib-qayıtması hələ bir qədər vaxt aparacaqdır (tə'ni). Məktubu aparan [bu adam] Bağdada çatdıqda bir neçə nəfər təəssübkeşinin (motəəsseban) maneçiliyi səbəbindən Bəkr Subaşı onunla görüşmədi və həmin dövlət məktubunu (səhifeye-dövlət) götürmədi, hətta bə'zi cahil və taleysiz şəxslər dəvəçibaşı daruğəsini qətlə yetirmək və onu da dara çəkmək istədilər, amma Əbdülrəman adlı onların bir adamı gələcəyi götür-qoy edib Subaşını bu alçaq əməldən çəkindirdi, Mirvəli bəy özünü o aqibətsiz adamların əlindən qurtarıb geri qayıtdı, şahın yanına gəldi, Bəkr Subaşı və Bağdad döyüşçülərinin müxalifət və qaladarlıqlarını şaha ərz etdi. Şahanə qəzəb bəhri təlatüimə gəldi, [şah] Bağdad vilayətinin fəthi, həmçinin bu neçə il müddətində özbaşnalıq edən və fitnəkarlıqla məşğul olan rumilər və qızılbaşlarla hiylə və yalançılıq yoluyla davranan o qəddar adamları cəzalandırmaq fikrinə düşdü, *İsa xan Səfəvi Qorçibaşını* və Hindistan elçiliyindən qayıdan, şahanə iltifat və tərbiyətə layiq görülən müqərrəbül-həzrətə, yəni həzrət şaha yaxın olan
**s.999** *şamlı tuşmalbaşısı* Zeynal bəy Bigdelini qəhrli döyüşçülərlə

birlikdə Dərtəng qalasına doğru irəli yolladı və bildirdi ki, əgər Bəkr Subaşı əvvəlki kimi müxalifət nağarası çalaraq öz qaladarlığını davam etdirərsə, Bağdada gedən əzəmətli əmirlər qoy şəhər və qalanın vəziyyətinə ehtiyat gözü ilə nəzər yetirsinlər, rumilərin çıxış-giriş yollarını bağlayaraq mühasirə vəsaiti tədarükünə başlasınlar. Həmin sərdarlar fərmana baş əyib oradan yola düşdülər.

## ALİ HÜMAYUN MƏİYYƏTİN [BAĞDADA] GEDİB ÇATMASINDAN ƏVVƏL İQBAL DÖYÜŞÇÜLƏRİNİN QÜVVƏSİ İLƏ BAŞ VERMİŞ FÜTUHATIN ZİKRİ

Bu mübarək səfər zamanı baş verən səfərlərdən biri Bağdad tabeliyindəki sancaq bəyilərin ixtiyarında olan Məhəmməd Lək qalasının ələ keçirilməsidir. Bu əhvalatın qısa şərhi belədir: Adı çəkiln Məhəmməd hümayun dövlətin kara gəlməz (batele) Ləkabad tayfasından idi. Qarışıqlıq düşən əyyamda o, bir dəstə aqibətsiz adamı öz başına toplayaraq yol kəsmək və qarətkarlıq etməklə məşğul idi. Məhəmməd Lək qızılbaş əmirlərinin qorxusundan Dərtəng qala hüdudundakı Zəhab qalasını möhkəmləndirdi. O həmçinin Bağdada tabe bə’zi mahalları da tutaraq rumilərə dövlətxahlıq edirdi. O, Bağdad paşaları tərəfindən sancaqbəyi (sancəqi) mərtəbəsinə ucalıb Allah bəndələrinə daim zərər yetirirdi.

Adı çəkilən Məhəmməd bu il vəfat etdi, oğlu və qardaşı qalada yerləşdilər. Onlar müqəddəs məiyyətin yürüşündən xəbər tutub bir adamı əzəmətli əmirlərin yanına göndərdilər, şahsevənlik izhar etdilər. Əmirlər Qasım Sultan, imanlı tayfasından olan Cahangir bəyi qazilərin beş yüz nəfər əskəri ilə oraya yolladı ki, əgər Məhəmməd Ləkin oğlu və qardaşı öz sözlərinə sadiqdirlərsə, qoy qalanı ona versinlər və hər ikisi hümayun məiyyəti qarşılamağa getsin. Cahangir bəy və qazilər gedib qala ayağına çatdılar.

Adı çəkilən Məhəmmədin oğlu və qardaşı əvvəlcə hiyləgərliklə itaətdə olduqlarını bildirdilər, amma fürsət düşən kimi “şahın yanına gedirik” bəhanəsi ilə qızılbaşlar-

dan qorxan bir neçə adamı da özlərinə qoşub qaladan çıxdılar, Kərkuyə və Şəhrizura yollandılar. Bunu bilən Cahangir bəy bir dəstə qazini onların tə'qibinə göndərdi, onlar da tutduqları hər kəsi qətlə yetirdilər. Təxminən altmış-yetmiş adam öldürüldü, sağ qalanlar öz var-yoxlarını yerə atıb ara-
**s.1000** dan çıxdılar, qazilərsə sağ-salamat geri qayıtdılar və qala bu
**(705)** qüvvətli dövlət övliyalarının əlinə keçdi. Bu xəbər cah-cəlallı şahın admlarına çatdıqda onlar, iqbal ordusu oradan gəlib keçəcəyi üçün həmin qalanı Cahangir bəyə verdilər.

## ƏZƏMƏTLİ ƏMİRLƏRİN ALÇAQ (ƏŞRAR) BAĞDAD KÜTLƏSİ İLƏ HƏRB ETMƏLƏRİ VƏ ONLARIN CAHANI VƏ İNSANLARI YARADAN XUDANIN KÖMƏYİ İLƏ ZƏFƏR ÇALMALAR

Hadisə belə olmuşdur: İsa xan Qorçibaşı və Zeynal bəy Tuşmalbaşı gəlib Bağdada çatğdıqları gün Bəkr Subaşı qala-
**s.1000** darlığa başlayaraq cəng qapılarını açdı. [Şah] ertəsi gün Səfi xan və yoldaşlarına buyurdu ki, Dəclə [çayını] keçsinlər, Köhnə Bağdad tərəfə getsinlər, orada dayansınlar ki, rumilərin körpünü (cəsr) keçib-getmə yolları bağlansın. Əzəmətli əmirlər bir-iki gəmi ələ keçirərək buyuruğa əməl etdilər, müqəddəs Kazımeyn rövzəsinin* yanından çayı keçmək istədilər. [Qızılbaş] ləşkərinin yürüşündən Bəkr Subaşı və qala əhalisi xəbər tutdular. Bəkr Subaşı böyük və mö'təbər adamlardan öz qardaşı Həmzə ağanın, Ömər Kədxuda Vəkilin və Hərir ağanın sərkərdəliyi altında min nəfərədək bacarıqlı cavanı qızılbaşlara mane olmaqdan ötrü irəli yolladı. Hələ heç yüz adamdan və altmış-yetmiş baş atdan artıq [kütlə] çayı keçməmişdi ki, müxalif qoşun göründü və döyüş səfi bəzəndi.

Qeyrət və mərdanəliklərin, həmçinin hümayun iqbal qüvvəsinin çoxluğundan əzəmətli əmirlər özlərinin kəmiyyət və keyfiyyətləri hələ müxaliflərə məlum olmazdan əvvəl onların qarşılarına at sürüb vuruşmağa başladılar. Bu cəsarətli həmlədən müxaliflər məğlub olub qaçmağa başladılar, onların hər üç sərkərdəsi isə ələ keçirildi. Ömər Kədxuda Luris-

tan hakimi Hüseynxanın süfrəçisi Süheyl tərəfindən tutuldu, amma bu sətirlər müəllifinə başqa iki sərkərdənin kim tərəfindən tutulması mə'lum olmadı.

Xülasə, qazilər qaçmaqda olan müxalifləri körpünün başınadək təqib etdilər, üç yüz nəfərədək adamı qətlə yetirdilər, onlara böyük məğlubiyyət üz verdi, qalib qoşun dilavərlərinə isə fəth və zəfər qismət oldu.

Bu döyüş vaxtı Səfiqulu xan, Hüseyn xan və başqa əmirlər mərdanəliklə vuruşdular. Belə ki, onların hər biri şəxsən cəngə girdilər, yeddi-səkkiz müxalifi nizə və ox ilə atlarından yerə saldılar. Nəticədə dövlət övliyalarına dünyada məşhur olmuş belə bir fəth nəsib oldu. Əgər hər şeyə yaxşı nəzər yetirən ağıllı adamlar və yəqinlik aləminin uzaqgörənləri bu hadisəyə düşüncə və dərinliklə baxsalar, min nəfər müxalifin altmış-yetmiş nəfər sursat-alətsiz və döyüşə hazırlıqsız döyüşçü tərəfindən məğlubiyyətinin fəqət Allahın inayəti və hümayun şah iqbalının qüvvəti ilə baş verdiyini görərlər.

Sözün qısası, bu böyük fəth xəbəri şaha ərz olundu,məşhur əmirlər alqışlandılar. Qızılbaşların bu mərdanə vuruşu o aqibətsiz kütlə arasında yayıldı və onlar başlarını qalaya saldılar, amma qürur badəsindən elə sərməst və bişüur olmuşdular ki, qəflət yuxusundan ayılmadılar, bürc və barıları möhkəmləndirməyə başladılar, özlərini fənaya uğratdılar.

**BAŞQA BİR İQBAL HADİSƏSİ: QAZANC ƏLDƏ ETMƏK TAMAHI İLƏ TACİRLƏRƏ HÜCUM EDƏN BİR DƏSTƏ CİNAYƏTKARIN (ƏŞRAR) QƏTL OLUNMASI.**

Bir dəstə sövdəgər və tacir Hələbdən İraqi-Ərəbə gəlməkdəydi. Darüssalama çatdıqda Bəkr Subaşı onların gəlişindən xəbər tutdu, mallarına tamah salaraq bir dəstə Bağdad döyüşçüsünü o karvanın qarşısına göndərdi ki, tacirləri malları ilə birlikdə tez-tələsik qalaya gətirsinlər və mallar qızılbaş əskər-
**s.1001** lərinə qismət olmasın. O tamahkarlar həmin karvanı taparaq biçarə tacirlərin mal-dövlətinə (bəzaət) göz dikdilər. Karvandakılar bu işə mat-məəttəl qalıb mallarından və canlarından

əl üzdülər, fəqət qeybdən gələsi elə bir hadisənin baş verməsini gözləməyə başladılar ki, əgər malları getsə də, canları qoy aman tapa bilsin. O biçarələr yüz qəm-kədərlə həmin dəstə əlində giriftar olmuşdular.

Darüssalama yaxınlaşan tacirlər bu diyara qızılbaş qoşununun gəlişindən xəbər tutdular, məxfi və gizlicə (puşide və ponhan) onların yanına bir qasid yolladılar, dedilər ki, əgər doğurdan da qızılbaşlar buraya gəlmişlərsə, qoy karvan üzvlərinin çarəsizlikləri və tacirlərin bəlaya giriftar olmaları barədə ləşkər sərdarına xəbər versinlər. Qasid oraya çatdıqda artıq Dəcləni keçən əzəmətli əmrlər bir dəstə qazini həmin qarətgər kütlənin üstünə yolladılar. Qazilər onları bir səhrada tapdılar, bağdadlıları şikar kimi mühasirəyə aldılar və o düşmənlərin hamısı qazi qılınclarına yem oldular, mallar qızılbaşlara
s.1002 nəsib oldu. Bəladan nicat tapan və heyrətlənən karvan üzvləri
(706) Allahın iltifatına həmd və bu İlahi mərhəmətə (məvaheb) şükür etdilər. Darüssalamda əzəmətli xosrovun çadırı açılan vaxt o karvan tacirlərinin hamısı sağ-salamat əzəmətli orduya gəldilər, cahan Pərvərdigarının amanında və zaman Nuşirəvanının* ədalət kölgəsi altında asudəhal oldular.

## ZƏFƏR BAYRAQLARININ MÜQƏDDƏS DARÜSSALAM TORPAĞINDA DALĞALANMASİNİN ZİKRİ, QALANIN MÜHASİRƏSİ VƏ ALLAHIN İLTİFATI İLƏ FƏTH OLUNMASI

Əzəli istək belə bir məqsədə doğru yönəlmişdi ki, İraqi-Ərəb məmləkəti özbaşınalıq edən quldurların oranı tutması səbəbindən nizamdan düşdüyündən və fitnəkarlıq ocağına döndüyündən gərək ədalət və inşa zivəri ilə bəzədilsin, orada əmin-amanlıq bərqərar olsun. Bunun əncamı isə qəzanın köməyi və qədərin hökmü ilə baş tuta bilərdi. Heç bir şübhə yeri yoxdur ki, əgər Bəkr Subaşı və yoldaşlarının zülmü o mülkdə həddini aşmasaydı, zalımların cəzalandırılması [Allahın] dərgahı tərəfindən müəyyənləşərək miskin adamların tüğyan cövründən qurtulması ə'lahəzrətə həvalə olunma-

saydı, Bəkr Subaşı əhdə vəfa edərək itaətə gəlsəydi, zərurət üzündən o mülk yenə də onun ixtiyarına verilə bilərdi. Həqiqətən də, (həmana) ürəklərini zülm və əziyyət (ədvan) pası tutmuş o şəxslərin qəlblərini daha əhd-peyman sığalı ilə cilalamaq mümkün deyildi. Müxaliflər əyri yola meylləndikləri üçün, şah tərəfindən barışıq yaratmaq, ürəklərini ələ almaq niyyətinin olmasına baxmayaraq onlar ixtilaf yolundan dönmədilər, buna görə də öz əməllərinin mükafatlarını aldılar.

Xülasə, qorçibaşının və Zeynal bəyin göndərilməsindən sonra müzəffər hümayun məiyyət Məhəmməd Lək qalasının yaxınlığındakı Dərtəngin Zəhab adlı yerindən yola çıxdı, rəbiüləvvəl ayının birinci günü (ğorre) Bağdadın xaricinə çatdı, Əbu Hənifənin* məzarı yanında dayandı, əzəmət və iqbal çadırları quruldu. [Şah] inadkarlığı aradan qaldırmaq üçün Bəkr Subaşı, əmirlər və qala böyüklərinin yanına adam yollayaraq, onları itaətə və [Subaşını] verdiyi və'də əməl etməyə çağırdı, üç gün möhlət verdi ki, qoy yaxşı düşünsünlər,
**s.1002** əmin-amanlıq yolunu tutsunlar, yox, əgər üç günədək itaətə gəlməzlərsə döyüşə hazır olsunlar, həzrət zülcəlalın** köməyi sayəsində qala alındıqdan sonra daha əfv və aman xahişi etməsinlər.

O aqibətsiz adamlar itaətə gəlməyərək top atmağa başladılar, şahın göndərdiyi adamı qəbul etməyərək onu ölümlə hədələdilər. Şüarları zəfər olan əskərlər şəhər və qalanı mühasirə etməyə göndərildilər, o möhkəm qalanı əhatəyə aldılar, qalatutma ləvazimatı hazırlığına başladılar.

Bu vaxt [şah] eşitdi ki, *Mosul hakimi Həsən paşa* Bəkr Subaşının iştirakı və Hafiz Əhməd paşanın əmri ilə beş yüzədək yararsız(batel) adamla Bağad qalasının köməyinə gəlməkdədir, qalaya çatdmaqdan ötrü onların bol hərbi ləvazimatları vardır. Qəhrli döyüşçülərin bir dəstəsi və şah qoşununun tüfəngçiləri şahın e'tibar etdiyi *büyutat naziri* Zaman bəyin sərkərdəliyi altında sərdar tə'yin edildi. Qalatutan mübarizlər qalanın hər tərəfində murçəllər və seybələr hazırladılar, mühasirədə qalanların təhlükəsizliyindən ötrü (təzmin) çox cidd-cəhd etdilər. Beləliklə, şəhərin qərb

hissəsində, Bəkr Subaşının oğlu Dərviş Məhəmməd bəy tərəfindən mühafizəsi tapşırılan narınqala qorçibaşı və əzəmətli qorçilər tərəfindən tutuldu. [Qızılbaşlar] seybələri irəli apararaq, az gün ərzində bürclərə çatdılar, bürc və barıların altını qazmağa başladılar. İyirmi gün keçəndən sonra mühasirədəkilərin işi elə çətinləşdi ki, narınqala qoruyucularının bir neçəsinin, o cümlədən yuxarıda adı çəkilən Dərviş Məhəmməd bəyin aman istəməkdən başqa çarələri qalmadı və onlar "əl-aman" deyə-deyə fəryad etdilər. Həmin ayın iyirmi birində (23 yanvar, 1623), gecə vaxtı əzəmətli qorçilərin bir dəstəsi qorçibaşının fərmanı ilə Narınqaladan hücuma başlayaraq, qolrçibaşının seybəsi tərəfindəki qapıdan keçdilər, şücaətlə yuxarı qalxdılar və narınqalaya daxil oldular. Həmin gecə üç yüz nəfərədək adam yuxarı dırmaşıb oraya girdi, beləliklə qorçibaşının özü də daxil oldu. Narınqalada kərənay çalındı, fəth və zəfər sədaları şəhərə gedib çatdı. Qalatutan igidlər şəhərə tərəf üz tutdular.

Bəkr Subaşı və o tayfanın şəhərdə qalan başqa əzəmətli
**s.1003** adamları kərənayın ildırım səsinə bənzər gurultusu və qala-
**(707)** tutan mübarizlərin vəlvələ və həyacanlı səslərindən xəbərdar oldular, bir qədər qəflət yuxusundan ayıldılar. Narınqala əldən getdiyi və qızılbaş döyüşçüləri şəhərə daxil olduqları üçün müqavimət göstərməyin faydasızlığını gördülər. Yuxarıda adı çəkiln Dərviş Məhəmməd bəy, o tayfanın ağa və böyükləri bir-bir böyük peşimançılıq və xəcalətlə qorçibaşının yanına gələrək canlarının qorxusundan şahanə mürüvvətə bel bağladılar.

Xülasə, rəbiül-əvvəl ayının iyirmi üçündə (25 yanvar, 1623), yekşənbə günü, bir neçə il bu dudman üzvlərinin əlindən çıxrılan və səfəvi sülaləsinin heç bir padşahı tərəfindən geri qaytarıla bilməyən möhtəşəm [Bağdad] darüssəlamı Allahın qüvvəti və ə'lahəzrət xaqanın hakimiyyət və iqbalının gücü ilə bu müqtədir dövlət övliyalarının əlinə keçdi. Böyük Allahın kəraminə ümüdvar olub deyirik ki, qoy [darüssalam] zamanlar ötdükcə daim bu səfəvi xanədanı üzvlərinin iqtidar əlində qalsın, möhkəmlənsin, xilaf əhlinin

zülm əli bu qalanın ətəyinə çata bilməsin, düzgün niyyət və hüsni-etiqad sayəsində hümayun müqəddəs zat olan həzrətə (yəni Şah Abbasa – *Ş.F.*) Məhəmməd peyğəmbərə və onun sülaləsinə Allahın salavatı olsun[1], Məhəmməd sülaləsinin hər yerdə möhkəmlənməsindən ötrü Allah-təala yardımçı olsun, qoy bu müqəddəs ölkədəki pak rövzələrə kəramətlər bəxş etsin.

Sözün qısası, qalanın fəthindən sonra Bəkrin oğlu Dərviş Məhəmməd, Əbdürrəhman Çələbi və sədaqətlə gəlib təslim olan bir neçə adam qiyamət alovlu qəzəb bəhrindən nicat sahilinə çatdılar, şahanə bəxşişlərə və iltifata layiq görüldülər. Başqaları haqqında da mə'lumat toplanıldı, belə ki, şiə məzhəbindən olan hər kəs müxalifət və inadkarlığa qurşanıb
**s.1003** qəhrli [qızılbaş] döyüşçülərinə qarşı vuruşduğu üçün cəzaya layiq olsa da ona toxunmadılar, o adamlar pak əhli-beyt üzvləri naminə aman tapdılar, başqa zalimlər və üsyankar isə öz qeyri-savab əməllərinin cəzasına mübtəla oldular. Rəiyyət və biçarə kəslər ədalət kölgəsi altında rahətləşdilər, darüssalamın hər yeri əmin-amanlıq yerinə çevrildi. [Bu vaxta qədər] şəhər və qaladakı ac-yalavacların gözləri ülkər (pərvin) ulduzunə zillənmişdisə də, fəqət onlar çörək yerinə ay və günəşin dairəsindən başqa heç nə tapa bilmirdilər.

Bir sözlə, hamı aclıq və qəhətlikdən xilas oldu, minlərlə qadın, qız, dərviş və [başqa] binəva möhtac adam "çörək" deyə-deyə hümayun orduya üz tutdu və ordu əhli də onların qayğısına qaldı. Ali məiyyətin gəlişi və ordunun orada olması nəticəsində həmin mülkün məişətində dəyişiklik yarandı, aclıq və darısqallıq gen-bolluqla (bisər o fəraxi) əvəz olundu. Bu sətirlər müəllifin nəzərincə bütün bunlar Allahın böyük hikməti sayəsində və yuxarıda deyildiyi kimi yürüşdən əvvəl falabaxma vaxtı gələn "Bismillahir-rəhmanir-rəhim" ifadəsinə görə baş tutdu, o diyar bu müzəffər qoşunun gəlişi nəticəsində aclıqdan qurtuldu. Abbasi xəlifəsi Müstənsirbillahın* zamanında inşa edilən bu haqda kitabədə yazılmışdar. Adı

[1] Ərəbcəsi: "Məhəmməd sallə-l-lahu aleyhi və alihi"

çəkilən ayın iyrmi səkkizində, cümə günü, Qədim came məscidində hümayun şahın şərafətli adına on iki imam əleyhüssəlam xütbəsi oxundu. Bu mübarək xütbədən bir neçə il məhrum olan minbərlər İlahinin təriflənməsi (həmd), Məhəmməd peyğəmbərin alqışlanması[1] və işnaəsəri imamlarının-Allahın onlara salamı və salavatı olsun[2] adlarının zikr olunması ilə bəzəndi. O vilayətin idarəçiliyi (əyalət) Həmədan hakimi və o sərhədlərin əmirülümərası olan Səfiqulu xana tapşırıldı, onun sabiq ülkasına əlavə olundu. [Şah] bir ay o vilayət işlərinin nizamlanmasından ötrü orada qaldı. O, Kazımeyn məzarlarının ziyarəti səadəti ilə işıqlandı, həmin behişt ayinli rövzə xidmətçilərinə, ehtiyaclı adamlara (mostəheqin) bütün işçi və mücavirlərinə sədəqələr payladı, əlvan xalılar, bər-bəzəkli sənduqə örtükləri və başqa ziynətlər bəxş etdi. Bağdadın zəruri məsələlərini həll etdikdən sonra [şah] Nəcəfe-Əşrəf torpağına qədəm basdı, yeri mələklər yuvası olan vilayət taxtının sultanı, xilafət ölkəsinin şahənşahı, məşriq və məğrib imamətinin sahibi, əsədillahil-qalib, əmirəlmöminin Əli ibn Əbi Taleb əleyhüssəlamın uyuduğu yerin bir mənzilliyindən başlayaraq cahan-cahan şövq və aləm-aləm sədaqətlə piyada getdi, tam zövq və bol şövq ilə çataraq o yüksək məzarın ziyarəti ilə şərəfləndi, on gün orada dua və ziyarətlə məşğul oldu, həmin gözəl rövzənin süpürgəçisi oldu, oranın sərkarının işlərini tənzimlədi, hümayun babası əbülbəqa mərhum Şah İsmayıl nurullahın Fərat çayının Nəcəfədək çəkmək istədiyi, lakin dövrün münasib olmaması və müxaliflərin istilasına görə su nəhrində başlanın işin yarımçıq qalan hissəsini ehya etdi və bütün müzəffər əskərlər bunun əncama yetirilməsinə yollandılar, çayı Kufə məscidinədək gətirdilər. Bu ali sülalənin dövlətxah adamları bu haqda belə deyirdilər:

---

[1] Ərəbcəsi: "Məhəmmədun sallə-l-lahu aleyhi və alihi"

[2] Ərəbcəsi: "Məfaxir isnə aşara aleyhim salavatu-l-lahi əl məliki-l-əkbəri".

**Beyt**

*Yelbeyin atəşpərəst hər düşmənə get söylə ki,*
*Qaytarıldı yoxlaşan su bir bir daha öz arxına* [1]

**s.1004** Kufədən müqəddəs Nəcəfədək torpaq çox yüksək olduğu
**(708)** üçün şahın fikri belə oldu. İnşaallah, Kufədən yerin altı ilə qənat* çəkmə üsulu ilə quyular qazılsın və suyu müqəddəs rövzədən keçirib Nəcəf dəryasına birləşdirsinlər, o şərafətli yerdə çalahovuz (bərke) və dərin quyular (payab) hazırlansın ki, pilləkənlə düşüb oradan su götürmək mümkün olsun. Qoy bundan sonra acı və şor quyu suyunu qənaətlə işlədən sakinlər
**s.1004** və mücavirlər aclıqdan (təlxkami) xilas olsunlar. Həzrət Allahın ətalar bəxş edən dərgahından bu işə kömək xahiş edək ki, onun bu işə yönələn səxavəti (fəyyaz) sayəsində bu məsələ yüksək səviyyədə yerinə yetirilsin, insanlara son dərəcə qiymətli (şegerf) olan bu su çəkilişi başa çatdıqda-onların Allahı onların susuzluğunun qarşısını aldı sözləri ilə[2] kəramətlə deyildiyi kimi qoy hamı saqinin əlindən Kövsər** kimi şirin su içib bəhrələnsinlər.

Xülasə, [şah] Nəcəfdə olduğu on gün müddətində o pak torpağa olduqca sidq ürəkdən (xozu' və xoşu') sədaqət izhar etdi, müqəddəs rövzənin bütün xidmətçilərini, mücavirlərini, möhtacları, [dul] qadınları, naçar adamları imkanı olduqca nəzirlər və sədəqələrlə sevindirdi, oradan Kərbəla torpağına qədəm basdı, belinə ehram bağlayıb həzrət peyğəmbər (5 ale-əba, yəni Peygəmbər, Əli, Həsən, Hüseyn və Fatimə – *Ş.F.*) nəslindən olan üçüncü şəhid imamın[3] (İmam Hüseynin – *Ş.F.*) məzarını ziyarət və mələklər aşiyanı olan rövzəni təvaf etdi.

İl sona çatdığı və bu ali yürüş baş vermiş bə'zi hadisələr [tərəfimizdən] hələ yazılmadığı üçün onları yazmağı və mübarək səfərin başqa əhvalatlarını qələmə almağı gələn ilə saxladıq ki, yazılacaqdır, inşallah.

---

[1] Beytin farscası:
Doşməne-atəşpərəste-badpeymara begu:
Xak bər sər kon ke, abe-rəfte baz ayəd becu

[2] Ərəbcəsi: "va saqyuhum rabbihim şərabən"

[3] Ərəbcəsi: "Şəhidən səlisi əimmətin"

## MOSUL LƏŞKƏRİNİN BAĞDADIN KÖMƏYİNƏ GƏLMƏSİNİN ZİKRİ, QƏHRLİ QOŞUNUN BİR DƏSTƏ DÖYÜŞÇÜSÜNÜN O ADAMLARA HÜCÜMÜ VƏ ALLAHIN TƏQDİRİ İLƏ ONLARIN QARŞILAŞMALARI

Yuxarıda belə yazıldı ki, Mosul hakimi Kor Həsən paşa beş yüzə yaxın piyada, süvari və çoxlu [silah] ehtiyatı ilə Bağdad qalasının köməyinə yollanmış, iqbal qoşununun bir dəstə döyüşçüsü Zaman bəy Nazirin sərkərdəliyi altında o döyüşçülərə sərdar tə'yin edilmişdi. Bir neçə mərhələ yol gedən Həsən paşa ali hümayun şah məiyyətinin və qızılbaş döyüşçülərinin gəlişlərindən xəbər tutdu.

O təbəqəyə (osmanlılara – *Ş.F.*) tabesizlik üz verdiyindən onların əksəriyyətinin həyat ipi artıq təqdir qılıncı ilə kəsilmişdi. Həsən paşa o vaxt gərək geri qayıdaydı, lakin o, bunu fikirləşmədən qürur hissinə qapıldı, yol üstündəki köhnə bir rübatı* əmin-amanlıq yeri güman edərək həmin zəif yerə doluşdular, Mosula bir adam yollayıb, oraya tabe olan kürd və başqa tayfalarından kömək istədilər. Bu tərəfdənsə müzəffər qızılbaş qoşunu o rübatın yanına gəlib çatdı, o bəxtidönükləri mühasirəyə aldı. Şüarları zəfər olan qazilərin sərkərdəsi Zaman bəy Nazir, Həsən paşanın və onların üləmalarının yanına adam göndərib, onları müxalifəti tərk etməyə, rübatdan çıxmağa və şah dərgahını tanımağa dəvət etdi, aqibətlərinin təhlükəsiz olacağını bildirdi.

Həsən paşa və aqibətsiz o kütlə bu mübarək (afiyət) məsləhəti bir kənara qoydular, cəngə başladılar, bir nçə gün özlərini qoruyub Mosuldan kömək gələcəyi intizarında oldular. Bu tərəfdən də qəhrli döyüşçülər onların təzyiqinə girişdilər və tərəflər arasında ox və tüfəng elçisi get-gəl etməyə başladı. Darüssalam qalasının fəthi xəbəri o aqibətsiz kütləyə gəlib çatdıqda onlar gözlədikləri kömək intizarını çəkməkdən mə'yus oldular.

Çarəsiz qalan Həsən paşa daha özündə müdafiə qüdrəti görmədi, qızılbaş döyüşçülərinə məğlub oldu və qazilər rübatı tutdular, ələ keçən paşanı və onun döyüşçülərinin əksəriyyətin qılıncdan keçirdilər, yanlarındakı mallar və qalaya apardıq-

ları ehtiyat silah və başqa şeylər şüarları zəfər olan qızılbaş qoşununa çatdı. Zaman bəy və yoldaşları qələbə ilə əzəmətli orduya qayıdıb şah ilə görüşdülər və onların zəhmətləri dəyərləndirildi.

## İRAN ORDU BAŞÇISI (SEPƏHSALAR) QƏRÇİQAY XANIN MOSUL, KƏPKÜK VƏ ƏTRAF YERLƏRİN FƏTHİNƏ YOLLANMASININ ZİKRİ, XALİQİN TƏQDİRİ İLƏ BU XEYİRLİ SƏFƏR ZAMANI BAŞ VERƏN HADİSƏLƏRİN [ŞƏRHİ]

**s.1006** Bağdad qalasının fəthindən və Həsən paşanın qətlindən
**(709)** sonra Mosul, Kərkük və Şəhrizur əhalisi arasında qarışıqlıq düşdü, onlar qızılbaş qoşununun qorxusundan dağılışmağa başladılar. Salamat qalmaq istəyən əskərlərin əksəriyyəti başını götürüb hər tərəfə səpələndi, biçarə rəiyyət isə günlərini iztirabla keçirmək məcburiyyətində qaldı. Ə'lahəzrət zilləllah şah məhz rəiyyətin halına qaldığından İran sipəhsaları Qərçiqay xanı qəhri qoşunun bir dəstə əskəri, həmçinin əmirlər, qorçilər, qulamlar, tüfəngçilər və başqalarından ibarət müzəffər ləşkər hissələri ilə Mosul istiqamətinə o vilayətin fəthinə yollandı. [Şah] habelə Xanəhməd xan Ərdəlan Ərdəlan ülkasına yaxın olan Kərkuyə və Şəhrizur ülkalarına göndərdi. Kərkuyə qalasının əskərləri orada qala bilməyib Diyarbəkrə tərəf götürüldülər və qala Xanəhməd xanın və Ərdəlan tayfasının əlinə keçdi, onlar rəiyyəti özlərinə tərəf çəkib ülkanın zəbtinə və rəiyyətin qorunmasına başladılar.

Amma, aqibətsiz və qaragün bir kütlə ərzaq ehtiyatının və qaladarlıq silahlarının çoxluğuna aldanıb Mosul qalasında qaldı, qalanı müdafiə ləvəzimatı hazırlamağa başladı, oraya gələn zəfər şüarlı əskərlərlə döyüşə girdi.

Cənab sipəhsalar [Qərçiqay xan] Qasım Sultan İmanlı Əfşarı qəhrli qoşunun bir dəstə əskəri ilə Mosul qalasının mühafizəsinə yolladı, özü isə qalan qoşunla Diyarbəkr hüduduna qədər gedib o vilayəti qarət süpürgəsi ilə süpürdü, bol qənmətlə qayıtdı və qala üzərinə hücuma keçdi. Mühasirə darısqallığında qalmış qaladakılar özlərində acizlik və

müqavimətsizlik görərək, müxalif olmaları və qaladarlıq etmələrindən peşiman oldular. Bu tərəfdənsə qızılbaş qaziləri seybələri irəli aparıb mühasirədəkilərin işini çətinləşdirdilər, Müşərrəf qalası fəth olunmaqdaydı ki, sipəhsalar gəlib çatdı, iqbal döyüşçüləri daha qətiyyətlə qalanın fəthinə girişdilər, hər tərəfdən hücuma keçdilər. Mühasirədə qalanlar isə "əl-aman" fəryadı çəkərək yas hökmünə bərabər olan tabeçilik izharına başladılar.

Amma, qazilər qəhrlə qalanı tutdular, döyüşməkdən ötrü irəli çıxan adamların hamısını qəhr qılıncından keçirdilər. Əcəlləri tə'xirə düşən bə'zi yararsız adamlar isə aman tapdılar, onların malları və silahları qazilərin qəniməti oldu. Sipəhsalar
s.1006 Qərçiqay xan qələbə ilə o diyardan qayıtdı. Ə'lahəzrət zilləllah xaqan yenidən mübarək rəcəb ayında (may 1623) ziyarət məqsədi ilə Nəcəfi-əşrəfə və Kərbəlaye-müəllaya getdiyindən [Qərçiqay xan] onun yanına çatıb görüş şərəfinə yetişdi. Səfərə çıxan və hələ o yerləri ziyarət etmək səadətinə yetməyən bir dəstə xoşbəxt döyüşçü də hümayun müzəffər ordunun tərkibində gedərək, öz ali mətləblərinə çatdılar. Qasım bəy İmanlı yüksək "xan" rütbəsi ilə sərəfraz oldu, Mosul əyaləti ona verildi, əzəmətli yüzbaşılar və müzəffər əfşar qorçiləri onun köməyinə tə'yin olununb, həmin səmtə rəvan oldular. Qasım xan Mosul qalasını möhkəmlədərək qalanın və ülkanın əmlakını mühafizə etməyə başladı.

Pir Qeyb xan Ustaclının oğlu Əbülqasım Sultan əmarət rütbəsi və xan ləqəbi ilə sərəfraz oldü, Cəvazər ülkası və oranın bütün əmlakı ona verildi.

### ƏMİRGUNƏ XANIN ZƏMANƏ FƏRMANDARININ FƏRMANI İLƏ AXƏSQƏ QALASI ÜZƏRİNƏ YÜRÜŞÜ, QALANIN FƏTHİ VƏ HƏMİN VİLAYƏTİN SƏLİM XAN ŞƏMSƏDDİNLİYƏ VERİLMƏSİNİN ZİKRİ

Bu il Çuxur-Sə'd bəylərbəyi Əmirgunə xan Qacar Axəsqənin fəthinə tə'yin olunub bir dəstə əmir və müzəffər əskərlə o tərəfə şığıdı. Əvvəlki hadisələrin təsvirində göstərilmişdi ki, Axəsqə Mesq Gürcüstanına daxildir. Cənnətməkan

şah ilə Rum xandgarı mərhum padşah Sultan Süleyman arasında sülh bağlanan vaxt Gürcüstanın üçdə bir hissəsi bu tərəfə aid edilib qızılbaş sərhədinə daxil olundu və o yerin valisi bu müqəddəs xanədanın tabeliyində qalaraq xərac verməyə başladı. O dövr hadisələrinin təsvirində deyildiyi kimi, Axəsqə cənnətməkan şahın vəfatından sonra rumiyyə tərəfindən zəbt edildi. Ə'lahəzrət xaqan və Rum sultanları arasına bir-iki dəfə sülh danışıqları (solhgunə) aparlımasına baxmayaraq, rumilər Mesqin qızılbaşlara verilməsinə imtina etdiyindən həmin vilayət çəkhaçək arasında qalmaşdı. Bu il Bağdad mülkü fəth olunduqda belə ali hökm sadir oldu ki, Əmirgunə xan bə'zi əmirlər və əskərlərlə yürüş edib Axəsqə
**s.1007** qalasını və Mesqə tabe olan başqa yerləri zəbt eləsin. Adı
**(710)** çəkilən xan şahın hökmünə əsasən o tərəfə ləşkər çəkdi, qəhli döyüşçülərlə rumi və gürcülər arasında müharibə yenidən başlandı. Fəth və zəfər gün-gündən genişlənməkdə olan bu dövlət döyüşçülərinə qismət oldu. Şücaət şüarlı xan Mesqin əzəmətli qalalarından biri olan və hal-hazırda rumiyyə hakimlərinin əyləşdikləri Axəsqə qalasını fəth etdi. Ali dərgah o vilayətin idarəsini Lori hakimi Səlim xan Şəmsəddinliyə verdi, Əmingunə xan və müzəffər əmir və əskərlər qalanı ona tapşırıb öz yerlərinə qayıtdılar. Səlim xan hal-hazırda qalanın müdafiəsinə və özünün köməyinə göndərilən şah ordusunun minədək tüfəngçisi belə şəmsəddinli qaziləri və qoşunu ilə qalaya daxil olmuşdu, o yerin başqa qala və ülkalarında nizam-intizam yaratmaqla məşğuldur.

**Bu il fani aləmlə xudahafizləşib torpağa tapşırılan məşhur adamların vəfatı:**

*Cəbəlameli ərəblərindən olan Şeyx Lütfulla Meysi* dünyanın fazili və dövrün fəqihi idi. Onun barəsində bu kitabın birinci səhifəsində cənnətməkan şahın zamanındakı üləma və şeyxlər hissəsində bəyan olün-
**s.1007** müşdür. O, bu ilin əvvəllərində Bağdad darüssalamına yürüşdən əvvəl hələ təntənəli ordu Fruzkuh yaylaqlarında olarkən İsfahanda xəstələnib bəqa aləminə yollandı. Mübarək Nəqşi-Cahan dövlətxanasının qarşısında [şah tərəfindən] inşa olun-

muş məscidin pişnamazlığ* (pişnəmazi) vəzifəsi ona verilmişdi. [Şeyx Lütfulla] məscidin hərimində** yaşayır, dini elimləri şərh (efade), dəqiq (yəqiniyyə)*** məsələləri izah (tənqih) edir, məscidin pişnəmazlığını aparırdı. Dini məsələlərdə onun fikri e'tibarlı sayılırdı. Bu kitabın yazılışı zamanı onun vəfatının [maddeyi] tarixi belə qələmə alındı:

**Qit'ə**

*Cahanı tərk elədi Lütfulla ,*
*Sonu çatdı onun həyatının…*
*İki "la" hərfi adından düşsə,*[1]
*Olacaq tarixi vəfatının*[2]

Onun böyük oğlu Şeyx Cəfər atası kimi dindar (motəvərre) olmaqla yanaşı elmi məsələlərdə atasından irəlidir. Şeyx Lütfullanın övladları müxtəlif vəzifələrə tə'yin olunmuşlar və şahanə diqqət altındadırlar.

*Mehrab xan Qacar*. O, Şahican Mərvinin hakimi idi. Bu ilin əvvəllərində Mərvdə bimar oldu. Təbiblərin əlləri onun müalicəsini tə'sirli edə bilmədi və Allahın çağırışına "ləbbeyk" dedi. Nə'şini müqəddəs Məşhədə aparıb Rezəviyyə rövzəsində dəfn etdilər.

Mehrab xan hümayun zilləllah şahın cavanlığının başlanğıcı və hümayun cülusu vaxtı Qarabağdan İraqa gələrək dərgah mülazimləri silkinə daxil oldu. İlk vaxtlarda dəvatdarlıq**** vəzifəsinə layiq görüldü. Xidmət ləyaqəti və ədəbərkanına görə [sonra] şah məclislərinin yaxın adamları zümrəsinə daxil edildi. Özbək yürüşləri vaxtı əməllərində bacarıq əlamətləri və mərdanə ləyaqət zahir olan Mehrab

---

[1] İskəndər bəy Münşinin özünün yazdığı bu qitədəki "Lütfülla" adında iki "l" ("la, yaxud lam, ləm") hərfləri vardır ki,onları pozduqda Şeyx Lütfullanın vəfatı tarixi-miladi tarixlə 1624-cü il alınır – *Ş.F.*

[2] Qit'ənin farscası:

Şeyx Lütfullah rəft əz dare-dəhr,
Rəxt bər bəst əz cəhani nimdar…
Çon do "la" əz name-u saqet koni
Sale-tarixe-vəfatəş z-an şomar

xanın dəvatdarlıq mənsəbi qardaşı Lətif xana verildi, özü isə əmirlik rütbəsinədək inkişaf etdi, Təbəs və Giləki vilayətlərinin idarəçiliyi ona tapşırıldı. O, həmin sərhədi bir neçə il özbəklərin şərindən yaxşı mühafizə etdi, özbəklərin əhatəsində olmasına baxmayaraq bir neçə il ərzində bir neçə Xorasan vilayətinin hakimi olmaqla şərəfləndi.

O, müqəddəs Məşhədin hakimi olduğu vaxt Mərv hakimi Bəktaş bəy Ustaclı vəfat etdi və Mehrab xan Mərvi idarə etməyə başladı. Mərvin hakimi olduğu müddətdə onunla özbək döyüşçüləri arasında böyük müharibələr baş verdi və o, həmin sərhədlərdə qəhrəmanlıqlar göstərdi. Vəfatına kimi hümayun diqqət və mərhəmət altında idi.

Onun vəfatından sonra [Mərv] əyaləti Aşur xan Çegəniyə verildi.

*İsfahan mustovfisi Xacə Əli Əkbər*: O, behiştnişan Mazandaranda xəstələndi, Kəlarədəşt yaylağında orduda olan vaxt öz həyat dəftərini mələklər aləmi dəftərxanasının rühanilərinə verdi.

Xacə Əli Əkbər İsfahanın Marbin Əndamanı şeyxlərindən idi. Onlar özlərini rəbani alim Şeyx Zəvalnun Misrinin xələfləri sayırdılar. Xacə Əli olduqca sədaqətli, nəfsitox və
**s.1008** dindar adamdı. Cavanlıq vaxtı düzgünlüyü və fərasətinə (dərayət) görə hümayun dəftərxananın sabetnevisi[*] oldu. Xasse (saray – *Ş.F.*) mustovfisi Ağa Əbülfəth isfahaninin vəfatından sonra [Xacə Əli] bir neçə il həmin vəzifədə işlədi. Həmişə şahanə nəzər altındaydı. Onun vəzifəsi dəftərxana mühərriri İsfahanlı Ağa Hüseynə tapşırıldı. Onun da həyat ipi elə həmin bir neçə gün ərzində əcəl qayçısı ilə kəsildi və o torpağın baş küçəsində özünə yer aldı. Xassə mustovfilik mənsəbi ali divanın tovcih sahibi (sahebe-tovcih)[**] vəzifəsini daşıyan Mirzə Bağıra verildi.

*İffətli Can Ağa xanım*. Murad bəy Bayandur Türkmanın qızı və Durmuş xanın nəvəsi mərhum Əliqulu xan Şamlının zövcəsi olan Can Ağa xanım körpəlik çağlarından yə'ni əlahəzrətin Herat darüssəltənəsində lələsi və atalığı olmaqla şərəflənən Əliqulu xanın fəaliyyəti dövründən başlayaraq bu

günlərədək səltənət bostanının çiçəyi kimi şahın qayğısı alında olmuşdur. O, izzət hərəmxanasının sair qadınlarından fərqlənərək, onların hamısından daha çox xidmət göstərmiş, uca *nənəlik* (nənəgi), yəni analıq (madəri) rütbəsi ilə sərəfraz olmuşdur, möhtərəm hərəmxananın böyük xanımı (kədbanu) kimi xüsusi etibara layiq görülmüşdür.

Can Ağa xanım bu il Mazandaran qışlağından çıxan zaman fəna dayanacağında dayanaraq axirət səfərinə yollandı. Mərhumun uzun müddət xidmətini nəzərə alan ə'lahəzrət onun nə'şini yüksək (müəlla) Kərbəlaya göndərdi və Can Ağa xanım o müqəddəs torpaqda dəfn olundu.

*Mir Əbdül-Məali Nətənzi*: Qulamlar vəziri və hümayun məclisnevis* idi. Nəcəfe-Əşrəfə gediş vaxtı o, şah ordusundaydı. Helliyə (?) çatdıqda onda xəstəlik əlaməti yox idi. Orada olduqları axırıncı gün, köçdən əvvəl hamama getdi, çimdikdən sonra öz qaldığı alaçığa (yurt) gəlib bir az istirahət etdi. Mülazimlər köç avadanlığını hazırladılar və yola düşmək vaxtı, miri yuxudan oyatmaq istədilər, amma o artıq axirət səfərinə yollanmışdı. [Təbiblər] ondan qan aldılarsa (fəsd) da xeyri olmadı, yalnız bir neçə qətrə qan çıxdı. Mirin nə'şini qədir-qiymətlə (moəlla) Kərbəlaya çatdırdılar, son neçə gün ərzində özü üçün qazdığı qəbirdə dəfn etdilər. [Şah] elə bir qədim və sadiq nökərinin (çakər) vəfatından təəssüfləndi, nəslinin xidmətinin davamı üçün mirin vəzifəsini iste'dad və qabiliyyətdə atasından da üstün olan böyük oğlu Mirzə Məhəmmədrzaya verdi.

Mir Əbül-Məali Nətənzi Bərzənd seyidlərindəndir. O seyidlər özlərini məşhur zahid (salek) Seyid Cəmaləddin İsfahaninin övladlarından sayırlar ki, Seyid Cəmaləddin həzrət sültanül-övliya və bürhanül-ətqiya müqəddəs Şeyx Səfiəddin İshaqın yaxşı xidmətçilərdən ən yaxşısı idi, sədaqət və işindəki ləyaqətinə görə o, həzrətin (Şeyx Səfiəddinin – *Ş.F.*) böyük diqqətinə yetişmişdi. Belə ki, şeyxin öz vəsiyyətinə görə Mir Əbül-Məali onun qüsl edilməsi və dəfnini şəxsən icra etdi. Həqiqətən də o seyid nəfsitox, təvazökar və xoşəxlaq adam idi, gənclik illərindən başlayaraq bu günədək

o həzrətin (Şah Abbasın – *Ş.F.*) xidmətində dayanıb inkişafa nail olmuşdu, yüksək çalışqanlığı (məsai) və xidmət qabiliyyətinə görə öz ata-babalarından da üstün idi, səltənətə yaxın və məhrəm şəxs idi.

*Mir Cəmaləddin Kaşi*: Dünyanın fazil adamlarından, dövranın mö'min (mottəqi) şəxslərindən olmuşdu. Keçən il İsfahanın mübarək "Cameye-cədide-Abbasi" ("Abbasın təzə camesi") məscidinin pişnamazlığı ona verilmişdi. Bu xeyirli
**s.1009** səfər vaxtı ali məiyyətin mülazimi idi. [Bağdadın] fəthindən sonra müqəddəs Kazimeyn məscidində Bağdad və Nəcəfe-Əşrəf məscidlərində hümayun şah adına isnaəşəri xütbəsi oxuyan Mir Cəmaləddin əzəmətli Kərbəlada xəstələndi, elə orada da Allahın rəhmətinə qovuşdu, həmin müqəddəs torpaqda dəfn olunma səadətinə çatdı.

*Həkim Nurəddin Əli Tehrani*: Həkim Xeyrati adı ilə tanınırdı. Müqəddəs məzarların ziyarəti zamanı hümayun məiyyət üzvləri arasındaydı. O da Kərbəlada xəstələnib əhlibeyt dostlarının (mohebban) vətəni olan həmin müqəddəs torpaqda dəfn olunmaq səadəti ilə feyziyab oldu.

*Mirzə İnayətulla İsfahani*: Xacə Nemətulla Malmirinin nəvəsi idi. İllərlə möhür vəziri olmuşdu. Bu il darülibadə vəziri oldu.[1] Bu xeyirli səfərdə o da [şah ilə] həmrah idi. Kərbəla və Nəcəfdən qayıtdıqdan sonra Bağdadda xəstələnib üqba aləminə yollandı. Nə'şini Kərbəlaya aparıb o müqəddəs məkanda dəfn etdilər.

İndi ənbər ətirli qələmin təzə ildə baş verən hadisələri bəyan etmək vaxtı yetişdi ki, xeyir amallı Bağdad yürüşünün
**s.1010** əhvalatları yazılacaqdır.

---

[1] Qeyd: "Darül-ibadə" ifadəsinin hərfi tərcüməsi "İbadət sarayı" deməkdir. Ehtimal ki, Mirzə İnayətulla İsfahani məscid və dini idarələr vəziri vəzifəsində işləmişdir-*Ş.F.*

## ABBASIN HÜMAYUN CÜLUSUNUN İKİNCİ QƏRNİNİN SƏKKİZİNCİ İLİNDƏ, YƏNİ TÜRKİCƏ MİN OTUZ ÜÇÜNCÜ SİÇAN İLİNDƏ (1623/1624) BAŞ VERƏN HADİSƏLƏR

Öncül bahar ləşkəri yenə də ruzigar meydanını bəzəyərək [qəməri] il aylarının axırıncı günündə, yəni cəmadüssani ayının otuzunda (19 aprel, 1624), çərşənbə günü, günün başlanmasından iki saat qırx səkkiz dəqiqə keçdikdən sonra suyun və torpağın mürəbbisi, dörd ünsurun ən üstünü (axşican), dünyanın ən böyük və parlaq ulduzu olan günəş cahanı bəzəməyə başladı, həməl sarayının gülşəninə hümayun şah qədəmlərinin əzəmətindən doğaraq, paklıq və təzəlik bəxş etdi. Dey ayının şaxtası nəticəsində çəmənin saralıb-solan və niqab altında gizlənən təzə gəlinləri (yəni gül-çiçək – *Ş.F.*) nəğmə oxuyan bülbüllərlə (həzaran) cilvələnməyə başladılar, lalələr baharın gəlişi, dağ və çöllərin yaşıllaşmasına görə piyalə kimi açıldılar.

**s.1011**
**(712)**

**Ləraqemə**

*Cənnət həsədinə gəldi gül-çiçək,*
*Ürək çəmən təki, çəmən ürək tək.*
*Açan çətirini sərv tək hanı?*
*Yaz etdi təzə-tər can və cahanı.*
*Şadlıq çəmənində gözəllər vardı,*
*Qəmsizlik meyindən üzlər qızardı.*[1]

Cavanbəxt şəhriyar cahanı işıqlandıran baharı əzəmətli Kərbəlanın müqəddəs torpağında keçirdi, beş ale-əbanın

[1] Laraqemə – müəllifi na'məlum olan bu şe'rin farscası:
Gəşt çəmən rəşke-behşete-bərin,
Del çəmənara-vo çəmən delneşin.
Sərv bexubi ələm əfraxte,
Can-o cəhan taze-vo tər saxte.
Laleroxane-çəməne-xorrəmi
Çehre foruzan ze meye-bigəmi.

həzrət seyidəş-şühədasının (İmam Hüseynin – *Ş.F.*) pak rövzəsini ziyarət etməklə şərəfləndi. O, müqəddəs şəhidlər uyuyan yerlərə qızılı saplarla tikilmiş ipək (diba) sənduqpuşlar, zərli əlvan fərşlər və başqa şeylər verilməsini əmr etdi, o gözəl yerin bütün müqəddəs rövzələrinin xidmətçilərini və ehtiyacı olan kişi və qadınlarını ə'namlar və sədəqələrlə (təsəddoqat) sevindirdi, müqəddəs Kərbəladan çıxıb imamət və xilafət meydanının şahsüvarını (İmam Əlini-*Ş.F.*) ikinci dəfə ziyarət etmək, öz etiqadını bildirmək və müqəddəs torpağını öpmək məqsədiylə Nəcəfe-Əşrəfə yollandı, yenidən o əzəmətli (ozma) səadətlə işıqlanıb Kərbəlaya qayıtdı, sabiq sufizadələr zümrəsindən olan xaqana yaxın Zeynal bəy Tuşmalbaşının qardaşı Sarı Sultan Biqdelini işgüzarlığının çoxluğu, iste'dadı və rəiyyətpərvərliyinə görə müqəddəs imam əleyhüssalamlar rövzələrində mütəvəlli olmağa və xidmətkarlıq etməyə layiq bildi, Hellənin müqəddəs məscidlərinin
**s.1012** tovliyyətini və şərafətli Hellənin hakimliyini ona verdi, əqidəli qızılbaş tayfa üzvlərindən beş yüzədək döyüşçünü Nəcəfə qorçi tə'yin edib, həmin qorçilərin qorçibaşılığını da ona (Sarı Sultan Bigdeliyə – *Ş.F.*) həvalə etdi, bütün alış-veriş, tənzimləmə (zəbto-rəbt), qayda-qanun, sərkarlığın əkib-becərmə (zeraət) işlərini də ona tapşırdı.

[Şah] o yerlərin zəruri işlərindən arxayın olduqdan sonra gediş cilovunu darüssalama tərəf yönəldib yenidən Kazımeynin müqəddəs məzarlarını ziyarət etməklə şərəfləndi, həmin rövzəyə qızılı ipək saplarla tikilmiş sənduqpuşlar və gözəl fərslər verilməsi üçün sərəncam verdi. Cəmadüşsani ayının ikinci ongünlüyü bitdi və həzrət seyidəş-şühəda Əbi Abdullahəl-Hüseyn əleyhüssalamın müqəddəs rövzəsinə vəqflər vermək əyyamı olan mübarək rəcəb ayı (aprel-may 1624) artıq yaxınlaşmaqdaydı. O imam əleyhüssalamın (imam Hüseynin – Ş.F) nurlu məzarının bu vəqf əyyamı vaxtı ziyarət olunması, bu işin böyük faydası xüsusunda düzgün söylənilən hədislər (əhades) varid olmuşdur. Ə'lahəzrət bu əyyamın şərafəti barədə mə'lumatlandıqdan sonra ona nəsib olmuş bu böyük səadəti idrak etdi, belə bir mübarək qisməti

(ətiyye) e’tiqada sədaqətin və sidq niyyətin (təviyyət) səfası olduğunu [özünə] qənimət bildi, böyük bir ordunu Bağdadda saxlayıb, müqəddəs məiyyətin az miqdar mülazimi olan və bu ali ziyarəti dərk edən və “qayıt və yenə qayıt”[1] deyən hər bir kəs ilə sidq ürəklə o şərafətli məkana qayıtdı, həmin əyyamın ziyarətini etdi, adı çəkilən vəqf işlərini həyata keçirməyə müvəffəq oldu, ondan uzaq (əqsi) olan bu məqsədə yetişdikdən və bu ali mətləbə qovuşduqdan sonra darüssalama qayıtdı, bir neçə gün Bağdadda hələ həll olunmamış zəruri işləri ilə məşğul oldu, sonra isə oradan geri dönmək əmirini verdi, əhali arasında Samirə adlanan mübarək Sərmənzaya üz tutdu, böyük zənginlik və ehtiyacla (meknət və niyaz), heç şübhəsiz ki, Allah-təalanın feyzi və rəhməti düşən (məhbet) yer, dua edənlərinsə dualarının qəbul məhəli olan Əskərinin,[2] həzrət sahibəz-zaman xəlifətür-rəhmanın – ale Məhəmməd səlləllahi əleyhi və alihinin qayimməqamının ziyarəti səadətinə yetişməklə feyzyab oldu, sonra o müqəddəs məkanın bütün sakinlərini, qadın və kişilərini, hətta südəmər uşaqları da siyahıya aldırdı, onların hər birinə müəyyən məbləğ sədəqələr verdi. O vaxt baş vermiş qəribə əhvalatlardan biri budur: Hamilə qadınlardan birisi [o vaxt] dünyaya bir uşaq gətirdi, ertəsi gün o uşağın atası gəlib bu çocuğa da ona çatası məbləğin iddiasını etdi, başqa uşaqları kimi onun da süd pulunu (rəzi’) aldı. Şah oradan qayıdıb bir neçə gün Vəstanda dayandı və müzəffər əskərlərin rəsm-keçidi ilə məşğul oldu. Sonra isə qazilərə öz məskən və vətənlərinə qayıdış rüxsəti verdi. Müzəffər məiyyət İsfahan darüssəltənəsinə tərəf hərəkətə başladı, ramazan ayının on yeddisində (3 iyul, 1624), pəncşənbə günü səltənət və xilafət paytaxtına gəlib yetişdi.

İsfahandakı iqamət vaxtı baş vermiş müxtəlif əhvalatlardan biri qulamlar mustovfisi Ağaməhəmmədin səfir sifətilə (be rəsme-rəsalət) Hindistana göndərilməsidir. Ə’lahəzrət zilləllah şah və o mülkün hökmranı uca məqamlı Şah Səlim arasındakı məhəbbət, qardaşlıq və birlik bu iki uca xanədanın

---

[1] Ərəbcəsi: “əl ovd summə-l-ovd”

[2] On ikinci imam Əbülqasim Məhəmməd ibn Həsən Əskəri – *Ş.F.*

köhnə əlaqələri olduğu üçün yenidən möhkəmlənmişdi və bu iki dövlət bir-birinə mövcud vəziyyətləri barədə mə’lumat
**s.1012** verirdilər.

**(713)** Bu il baş vermiş darüssalamın fəthi münasibəti ilə o həzrətə (Şah Səlimə – *Ş.F.*) bu məsələ haqqında mə’lumat verilməli idi. Buna görə də, ülfət, qardaşlıq, sədaqət və birliyin sabitləşməsinə dair məhəbbətli bir məktub yazıldı, orada bu xeyirli səfər və darüssalamın fəthindən bəhs olundu, Bağdadda ələ keçirilmiş qənimətlərdən və bu diyarın (İranın – *Ş.F.*) nəfis mə’mulatlarından ibarət töhfə və hədiyyələr ləyaqətlə oraya göndərildi.

Başqa bir hadisə Həvizə Ərəbistanın valiliyinin Seyid
**s.1012** Mübarəkin oğlu Seyid Məhəmməd xanla əvəz olunmasıdır. Əhvalat belə olmuşdur: Yuxarıda yazılmışdı ki, [şah] Seyid Mübarəkin qardaşı Seyid Mənsuru [hakimiyyətə] hazırlamış (tərbiyət) və o vilayəti idarə etməkdən ötrü yollamışdı. Seyid Mənsur oraya getdi və ərəf qəbilə və tayfaları (əşirət) itaət edib onun hakimliyini qəbul etdilər, [bu seyid] riyasət və hökümətdə müstəqil adam oldu. Bağdadda yürüşün başlanğıcında belə bir hümayun hökm sadir oldu: Seyid Mənsur İraqe-Ərəbə yollanıb həmin xeyirli səfərdə qoşunun tərkibində olsun, bəyənilən xidmətlərə başlasın. Amma, o seyid bu işdə yardımçı (tovfiq) olmadı, orduya qayıdılmağı haqda məqbul olmayan üzrxahlıqlar etdi, bir növ üsyana başladı, hətta onu itaətə dəvət edənlərlə, xüsusiylə Şeyx Abdulla Ne’man ilə savaşa başladı. Belə hərəkət şahın mübarək xatirinin incikliyinə səbəb oldu, mübarək səfərdən qayıtdıqdan sonra yuxarıda adı çəkilən Seyid Mübarəkin oğlu Seyid Məhəmmədi həmin vəzifəyə hazırlaşdıraraq, ona uca xan ləqəbi verdi və o vilayətin idarəçiliyini verməklə onu sərbülənd etdi, Şeyx Abdulla Loğmanı da bu seyidə qoşaraq Ərəbistana göndərdi, Fars [vilayətinin] bəylərbəyi İmamqulu xana* onun köməyinə getmək tapşırıldı. Seyid Məhəmməd xan Həvizəyə çatdıqda Seyid Mənsur tabeliyindəki adamlarla qalaya girib xilaf məqamında dayandı. Fərman alan

İmamqulu xan da çataraq qalanı mühasirəyə aldı. Seyid Mənsurun işi çətinləşdiyi üçün o, özünü qaladan çölə atıb fərar etdi, Seyid Məhəmməd xan qalaya daxil oldu. Ale-fozul camaatına qoşulan Seyid Mənsur onlarla birləşdi, qalanı möhkəmlədərək orada qaldı. Hazırda bu kitabın yazıldığı min otuz üçüncü ildir (1623/1624) və Seyid Mənsur həmin qalada yaşayır və tezliklə öz əməlinin cəzasını alacaqdır.

Baş verən müxtəlif əhvalatlardan biri də ali divan vəzarətinin Mirzə Rəfiəddin Məhəmməd Sədrin oğlu olan üləmalar sultanı (sultanül-üləma) Xəlifə Sultanla əvəz olunmasıdır. “Sadat Xüləfa” kimi tanınan Mir Rəfiəddin Məhəmməd Sədr, Mir Şücaəddin Mahmudun oğludur ki, onlar Mazandaran valisi Mir Bozorgun nəvə-nəticələridir (əhfad). Mir Şücaəddin Mahmud və onun fəzilət və kamalı barədə bu kitabın birinci cildindəki cənnətməkanq şah dövründə fəaliyyət göstərmiş şərafətli seyidlər və üləmalar hissəsində yazılmışdı. Hazırda Mir Rəfiəddin Məhəmməd ali rütbəli sədarət rütbəsini aparmaqla sərəfraz olmuşdur. Onun möhtərəm oğlu [Xəlifə Sultan] isə fəzl və kamal zivəri ilə bəzənmiş, əxlaqının təmizliyi, nəfsinin toxluğu ilə yaraşıq tapmışdır. Elm pillələrində inkişaf etmiş Xəlifə Sultan forui-din, üsuli-din və bütün (came) əqli və başqa elmləri bilir, ə’lahəzrətin rəğbətinə yetişməklə sərəfraz olmuşdur.

Bu il ali divanın vəziri Salman xan ibn Şahəli Mirzə mütləq olan təbii əcəllə vəfat etdi. Ə’lahəzrət iste’dadlı və ləyaqətli adamlara diqqətlə nəzər (əm’an) yetirdi, ali adamlar arasında zatının cövhərinə, ləyaqətinə (əhliyyət), iste’dadına, əsl-nəsəbinə görə üstünlük təşkil edən [Salman xanın] bu ali mənsəbini yüksək qədr-qiymətli iş saydı, [Xəlifə Sultanın] qədrini və məqamını qiymətləndirdi və o, bu uca mənsəbə layiq görüldü, bəlkə də əksinə, bu uca mənsəb [Xəlifə Sultanın] möhtərəm vücudu ilə fəzilət nəzərinə çevrildi, hörməti daha da artdı. İste’dad sahibləri bu haqda gözəl [maddeyi-]tarixlər yazmışlar, o cümlədən qeyb aləmindən gələn ilhamla belə deyilmişdir:

**Maddeyi-tarix**

"*Zibəndeyi-əfsəri-vəzarət*"[1]

Həmçinin, bu kitab müəllifinin qardaşı oğlu Məhəmməd Saleh bu [maddeyi-]tarixi nəzmə çəkmişdi:

"*Vəzire-şah şod Sultan Damad*"[2]

Yenə bu il qərara alındı ki, hümayun dəftərxana vəziri və bəqaya (məqbərə, sərdabə və başqa yerlər – *Ş.F.*) mustovfisi olan Xacə Məhəmməd Mə'sum bəqaya dəftərindəndəki alış-veriş hökmlərini məmləkət müstovfilərinin yerinə yoxladı, [və tapşırdı ki,] əzəmətli bəqaya müstovfiləri həmin hökümlərə ilin sonuna qədər nəzər yetirib, [sənədlərin] hamısını
**s.1013** ona təhvil versinlər.

**YAZILMASI MƏQSƏDƏUYĞUN VƏ ZƏRURİ OLAN RUM HADİSƏLƏRİNİN ZİKRİ**

Bundan əvvəl belə mə'lumat verildi ki, Rumda yeniçərilər öz padşahları Sultan Osman ibn Sultan Əhməd xana qarşı üsyan qaldırıb, onu tutaraq İstanbulun Yeddi Qala adlı qalasında həbs, taxtdan devrilən əmisi Sultan Mustafanı isə padşah etdilər. Onlar sonra quldur və fitnəkarların qorxusundan
**s.1014** və özlərinin xatircəm olmalarından ötrü Sultan Osmanın qətli
**(714)** qərarına gəlib onu aradan götürdülər, Sultan Mustafa ikinci dəfə osmanlı səltənətində qərar tutdu. Bu xəbər Rum şəhərində yayıldıqda, əhali arasında Əbazə paşa kimi tanınan Ərzrum bəylərbəyi Məhəmməd paşa yeniçəri tayfasının düşmənçilik etdiyinə görə, onlardan ələ keçirdiyi adamları harada olursa-olsunlar çəkinmədən qətl etməyə başladı, onların var-yoxlarını isə özünə götürdü. O, cəlalilər kimi rəftar edərək, bir dəstə avara ləvəndi öz başına topladı, hal-hazırda əhali

[1] Misranın tərcüməsi.
"Vəzarət tacını bəzəyən adam" – *Ş.F.*

[2] Misranın tərcüməsi
"Vəzir oldu şaha Sultan Damad"

arasında Ərzrum adlanan *Ərzərrum vilayətini* özbaşına zəbt etdi. Sonra İstanbula gedib Sultan Osmanın qardaşı Sultan Muradı səltənət taxtına əyləşdirmək və yeniçəri tayfasından intiqam almaq üçün böyük qoşunla İstanbul yaxınlığındakı Üsküdara kimi getdi. Hər yeri talan və qarət edərək, bircə yeniçərini belə cəzasız qoymadı. Deyilənə görə, o, iki min yeniçərini intiqam qılıncından keçirdi. Əbazə paşa çoxlu var-dövlət toplayıb, onu ləvəndlərə paylayırdı. Ale-Osman xanədanının böyükləri, ağsaqqalları və tərəfdarları Əbazə paşanın əməllərinə qarşı çıxıb ona belə füzulluğu qadağan edən qərar çıxardılar. Onlar paşanın yersiz hərəkətini və dövləti dağıdacağını bilib onu dəf' etmək fikrinə düşdülər. Ali dərgahın böyük adamları və ə'yanları ona qarşı çıxdıqları üçün Əbazə paşa Ərzruma qayıtdı. Bu təəccüblü tale yazısında isə belə yazıldı ki, gərək başdanxarab kimi tanınan Sultan Mustafa devrilsin və səltənətə Sultan Osman[1] gətirilsin.

Deyirlər ki, yenidən səltənət taxtına çıxan Sultan Mustafanın başı daha çox yelləndi və onda əql dairəsindən kənar əməllər və namünasib hərəkətlər görünməyə başladı. Buna görə də əzəmətli adamlar və Ale-Osman xanədanı ağsaqqalları dövlət işlərində nizamsızlıq yaranacağından qorxaraq qərara aldılar ki, onu səltənətdən uzaqlaşdırıb azyaşlı uşaq olan Sultan Osmanın qardaşı Sultan Muradı səltənət taxtına əyləşdirsinlər. Amma yeniçərilər onlardan Sultan Osmanın qisasının alınacağı qorxusundan Sultan Muradın hakimiyyətə gəlməsini istəmirdilər. Sultan Muradın anası yeniçərilərin böyükləri qarşısında çox yalvar-yaxar elədi, özünü əksiltdi, ləşkərin mö'təbər adamlarını yeniçərilərlə əhd-peyman bağlamağa sövq etdi və bildirdi ki, bundan sonra Sultan Osmanın vaqiəsi barədə əsla danışılmayacaq, onun qisası heç kəsdən alınmayacaq və qanun üzrə əllərindəki iqtidar və ixtiyar bundan sonra da yeniçərilərdə qalacaqdır.

Əhd-peyman bağlanışından, yeniçərilərə toxunulmayacağı barədəki razılıqdan, xeyirxah adamların məsləhətindən və müftilərlə sorğu-sualdan sonra, Sultan Murad taxta cülus

[1] Sultan Osman deyil, Sultan Murad yazılmalıdır – *Ş.F.*

etdi, Sultan Mustafa isə yenidən hakimiyyətdən devrildi. Bu hadisələr baş verən vaxtlarda Bağdad darüssalamındakı hadisələr və oranın, yuxarıda yazıldığı kimi qızılbaşların əlinə keçirilməsi barədəki söhbətlər osmanlı sarayına gəlib çatdı.

Bu vaxtlarda səltənət işlərinin nizamlanmasına cavabdeh olan bir neçə ixtiyar sahibi Bağdad mülkünün geri alınması fikrinə düşdülər. Danışıqlar və məşvərətdən sonra, başqalarından öz qabiliyyəti və bacarığına görə fərqlənən və Bağdad
s.1014 hadisələrindən xəbərdar olan Hafiz Əhməd paşanı baş vəzir və sərdar tə'yin edib qızılbaş sərhədlərindəki vəziyyətin tənzimlənməsini ona tapşırdılar. Sultan Osmanın qəziyyəsi zamanı öldürülən sabiq yeniçəri ağasının əvəzinə başqasını tə'yin edib, bütün yeniçərilər ilə belə qərara gəldilər ki, sərhədə gedib yeniçəriləri qətli-am etməyə cürət edən və üsyana qalxan Əbazə paşanı dəf etsinlər, sonra Bağdad mülkünü tutmağa yollansınlar. Qapıqulu adlanan bütün İstanbul qoşunu (sepah) səfər tədarükü ilə məşğul olub, xəzinə, topxana və Bağdad üzərinə yürüş yaraq-yasaqı ilə Diyarbəkrə yollandılar ki, Hafiz Əhməd paşaya birləşib, onlara tapşırılan işin əncamına başlasınlar. Baş vəzir və sərdar olmaq sərəncamı olan Hafiz Əhməd paşa bütün Rum diyarı, Misir, Şam, Hələb, Urum eli, Anadolu və başqa yerlərin paşa və əskərlərinin çağırılması barədə o yerlərə hökmlər göndərdi, Diyarbəkr vilayətinin idarə olunmasını Murad adlı bir paşaya tapşırdı.

Onlar gələn il sərhəd işlərinin tənzimlənməsinə başlamaqdan ötrü bu il Diyarbəkrdə qışladılar. Bu sərdarın İraqi-Ərəbə ləşkər çəkməsi və məqsədinə yetmədən yüz təşvişlə geri dönməsi barədə gələn ilin hadisələrinin şərhində mə'lumat veriləcəkdir, inşallah.

## UCA DƏRGAHA ELSİLƏRİN GƏLMƏLƏRİ VƏ BU İL BAŞ VERƏN BƏZİ HADİSƏLƏRİN ŞƏRHİ

Bağdad yürüşündən qayıtdıqdan sonra İsfahan darüs-
s.1015 səltənəsi bir müddət qalibiyyətli məiyyətin qədəmlərindən
(715) cənnət bağçasına dönmüşdü, vaxt isə ədalətin rövnəqi, ehti-

yaclı kəslərin mətləblərinin yerinə yetirilməsi ilə keçir, işrət və şadyanalıq görünməkdə idi. Şahın mübarək məzacına bir az xəstəlik üz verdi, amma az müddətdə sağaldı, səltənət paytaxtından behiştnişan Mazandaran qışlağına təşrif apardı. Yolu şikar edə-edə başa vurub, Fərəhabad darülmülkünü və onun bir parçası olan Əşrəf qəsəbəsini özünün şadyanalıq qədəmləri ilə ətirləndirdi və hava paklandı. Hər tərəfdən xoşxəbər elçilər səadətli saraya gələrək şahla görüşür, onun behişt ayinli məclislərində iştirak edir, öz səfarət və elçilik vəzifələrini bitirdikdən və ə'namlara layiq görüldükdən sonra rüxsət alıb öz diyarlarına rəvan olurldular.

Səfir və elçilərdən biri Bəlx elçisi Nədr Mirzəbaşı Özbək idi və o Bəlx valisi Nədr Məhəmməd xan tərəfindən İsfahan darüssəltənəsinə gəldi. İqbal məiyyətinin zərif yerişli atı (cəvade-xoşxoram) Mazandarana tərəf yollandığı üçün İsfahanın hakimi, vəziri və əhalisi Nədr Mirzəbaşını qarşılamağa çıxdı və onu izzət-ehtiramla cənnətə bənzər Nəqşe-Cəhan bağının Sərvistan imarətinə gətirdi. İsfahanda qaldığı bir neçə gün ərzində ona mizbanlıq olundu.

Bir neçə gün canından yol yorğunluğunu çıxarandan sonra Nədr Mirzəbaşı behiştnişan Mazandarana yollandı, gözəl Əşrəf [qəsəbəsində] şahla görüş səadətinə yetişdi, gətirdiyi sədaqət ayinli məktubu o diyarın [hədiyyələri ilə birlikdə] müqəddəş şah nəzərinə çatdırdı, iki ayadək orada qaldı. O, daim müxtəlif şahanə nəvaziş və iltifatla sərəfraz olurdu. İki aydan sonra rüxsət alaraq şahın məhəbbət ayinli məktubu ilə yola rəvan oldu.

Gələn elçilərin başqa biri xoş xəbərli, kama yetən cavan-
**s.1015** bəxt, səadətli, yüksək məqamlı, əzəmətli, Hindistan məmləkətlərinin fərmanrəvası şahzadə Şah Səlimin elçisi Xacə Hacı idi. O, şərafətli Əşrəf qəsəbəsinə gələrək, ə'lahəzrətlə görüş şərəfi ilə sərəfraz oldu. Şah Səlimdən gətirdiyi sədaqət məktubunda fitnəkar adamların fəsadı nəticəsində atasının adamları ilə onun arasında didişmələrdən, həmçinin böyük atasının ona qarşı diqqətsizliyi və iltifatsızlığından onun üzərinə qoşun çəkməyindən cümlələr vardı. Ə'lahəzrət Xacə

Hacıya şahanə nəvazişlər etdi. O cahanı işıqlandıran novruz gələnə qədər sarayda qaldı, sonra izn alıb geri qayıtdı. Şah [Abbasın] cavab məktubunda ata-oğul münasibəti tərzində nəsihətamiz cümlələr vardı.

Şah həmin məsləhətamiz gözəl (sami) məktubunda [Şah Səlimə] yazırdı: "Valideynə itaət etmək cahanı və zamanı yaradanın fərmanı ilə olan vacib məsələdir və fərzəndlər tərəfindən hökmən yerinə yetirilməlidir. Gərək o səadətli fərzənd də (Şah Səlim – *Ş.F.*) öz böyük atasının razılığı il yaşasın və o həzrətə ədəblə xidmət edərək, onun razılığına nail olsun, o həzrətin şərif məzacının rəva görmədiyi işlərdən çəkinsin ki, bu əməl Allah və əhali tərəfindən bəyənilsin, belə olan halda o fərzəndin hörməti və e'tibarı artacaq, səadət ona yar olacaqdır. Qoy o fərzənd öz düşmənləri və ixtiyar sahibləri olan adamlarla barışsın, qiymətli taca ehtiram etsin". Əlahəzrət adı çəkilən elsiyə xosrovanə xeyrxahlıq göstərib, bir neçə gündən sonra onu layiqli töhfələrlə yola rəvan etdi.

Başqa bir hadisə isə tatar şahzadəsi Şahin Gəray xanın elçisinin gəlişidir. Yuxarıda zikr olunduğu kimi, Şahın Gəray xan dövran hadisələrinin tə'siri və rumilərin köməyi ilə tatar tayfasının padşahı olan əmisi oğlu Canı bəy Gərayla ədavətə girdiyindən, hümayun şahın iqbal çətirinin kölgəsi altında bir müddət səaətli orduda izzət və kamranlıqla ömür sürdü. O, Şirvanın Dərbəndində iqamət edib öz irsi səltənətinin pusqusunda dayanmışdı. Əlahəzrət onun mətləbinin yeriə yetirilməsindən ötrü himmət göstərib, geri qayıtmasına maddi və mə'nəvi yardım göstərdi.

Bu il qeyb qoşununun köməyi və Allahın yardımı ilə lövhiməhfuzda (alın yazısı – *Ş.F.*) yazılana uyğun olaraq məsələ müsbət nəticələndi, tatar tayfasının səltənəti və o məmləkət xanədanının fərmanfərması olmaq şərəfi Şahin Gəray xanın böyük qardaşı Məhəmməd Gəray xana qismət oldu. Tatarların əzəmətli adamları özlərinin [tatarca] "qolğay"* adlandırdıqları onun padşahlığını və qardaşı Şahin Gərayın vəliəhdliyini qəbul etdilər, şahzadəni geri çağırdılar. Şahzadə şahdan himmət diləyib öz vilayətinə rəvan oldu, hər şey onun

istəyincə nəticələndi, tatar ə'yanlarının hamısı Məhəmməd Gərayın səltənətini və Şahın Gərayın vəliəhdliyini qəbul etdi. Elçinin sözlərindən və gəlib-gedənin dediklərindən belə mə'lum oldu ki, Rum xandgarı tərəfindən Şahın Gəraya nəğd pul və çoxlu qiymətli hədiyyə təklif olunmuş, o, osmanlı dövlət adamları və ale-osman xanədanı ilə itaət və bağlılığa, qızılbaşlarla isə düşmənçiliyə də'vət olunmuşdusa da, sədaqətinin çoxluğu və istəyinə rəğmən onların niyyət sinələrinə rədd əli qoyub, özünü ə'lahəzrətin sadiq tərəfdarı saydı. Belə ki, şaha yazdığı sədaqət üslublu məktubundakı üzük möhründə "Şah Abbasın qulamı Şahın Gəray" sözləri nəqş olun-
**s.1016** muşdur. O, osmanlıların köməyi ilə üzərinə hücuma keçən
**(716)** Canı bəy Gərayla Kəffədə döyüşərək qalib gəldi. İqbalın gücü, o həzrətin (Şah Abbasın – *Ş.F.*) zahiri və batini köməyi və Şahin Gərayın bu uca sülaləyə sədaqəti müqəddəs zatın diqqətinə yetirildi, bu neçə ildə bu şahzadəyə qarşı edildən iltifatlı şükür və şahanə kömək uğurla nəticələndi.

Ə'lahəzrət öz diqqət və məhəbbət şəfəqlərinitn çoxluğu üzündən elçiyə şahanə nəvazişlər edib, geri dönməsinə rüxsət verdi, inayət üslublu bir məktub yazaraq, ona davranış tərzi və
**s.1016** dost-düşmənlə rəftar barədə qiymətli nəsihətlər və mürşüdanə öyüdlər verdi, bahalı xəl'ətlər və bol hədiyyələrlə yola saldı.

Başqa elçi isə Məhəmməd paşa Əbazənin "Əmir Əfəndi" adı ilə tanınan elçisi Seyid Əzim idi. Rumilər ümumiyyətlə seyidləri tə'zim əlaməti olaraq "Əmir Əfəndi" adlandırırlar. Əbazənin [şaha] elçi göndərməsinin səbəbi beləydi: O, Ərzurum bəylərbəyi olduğu vaxt, yaşadıqları yerin yaxınlığına görə Çuxur-Sə'd bəylərbəyi Əmirgunə xanla ülfət və aşinalıq yarada bilmişdi və onunla sülh təriqi ilə davranırdı. Sultan Osman vaqiəsindən və öz üsyanından sonra Əbazə paşa bu üsyanın intiqamının alınacağından mə'yus olub, rumiyyə başçılarının, yuxarıda yazıldığı kimi, bir-birləri ilə etdikləri razılaşmadan ehtiyatlanaraq, Əmirgunə xanın vasitəsilə uca dövlətdən kömək diləyərək özünün e'tibarlı adamı olan yuxarıda adı çəkilən elçisini bu səltənət sarayına göndərdi, özünü şah dərgahının tərəfdarlarından və mənsublarından

biri kimi təqdim etdi. Ə'lahəzrət [şah] Əbazənin sözlərindən sədaqət qoxusu duymadı, amma paşanın həqiqi məqsədi öz sədaqətini izhar etmək idi, çünki paşa etdiyi əməlləri müqabilində rumların onula düşmənçilik edəcəkləri təqdirdə ona hər hansı bir hadisə üz verərdisə özünə qorxusuz bir məkan və sığınacaq yeri tapmaq istəyirdi.

Baş verən hadisələrə diqqət yetirmək o həzrətin xoşagələn rəftarı və əxlaqına uyğun xasiyyət olduğundan o, biganələrə aşinalardan daha çox diqqət yetirirdi. Buna görə də, Əmir Əfəndini iltifata layiq gördü, Əbazənin adının sonunda hörmətli "xan" sözünü yazaraq onu şah inayətinə layiq bildi. Şah elçiyə şahanə tövhə və hədiyyələr verib Novruz bəy adlı ustaclı qorçisini də ona qoşaraq Əbazənin yanına göndərdi. Əbazə həmin iqbal məktubunun gəlməyindən iftixar duydu, qorçiyə izzət və ehtiram göstərdi, beləliklə ondan məsələyə iki cür yanaşma, həmiçnin məkr və hiyləgərlik zahir oldu, sonradan yazılacağı kimi, bu dərgah adamlarına qarşı onun hiyləgər əməlləri üzə çıxdı.

*İkilik gər həvəsdə zahirdir,*
*Sevginin qibləsi isə birdir*[1]

## BU İL BAŞ VERƏN MÜXTƏLİF VAQİƏLƏR.

Rum [ölkəsində] baş verənlər, Hafiz Əhməd paşanın sərdarlığı, Diyarbəkrdə ləşkər toplanışı, yuxarıda yazıldığı kimi, elə ki xəbər gətirən şəxslər və casuslar tərəfindən şah [Abbasın] izzət və cəlal qulağına çatdı, həmin ləşkərin Azərbaycana gəlməməsindən ötrü ehtiyat tədbirləri gördü. Əmr etdi ki, Rum ləşkərinin keçəcəyi yerləri azuqə və başqa zəruri şeylərdən təmizləsinlər. Rumilərin Azərbaycana gediş-gəlişləri iki yol ilə mümkündür: Biri Ərzrum yolu, o biri isə Van yolu. Əbazə paşanın üsyanına görə Ərzrumda çaxnaşma olduğun-

---

[1] Beytin farscası:
Həşt ayine-dobini ze həvəs
Qebleye-eşq yeki başəd-o bəs!

dan ləşkərin Diyarbəkr-Van yolu ilə gəlməsi daha münasibdir. [Buna görə də, ə'lahəzrət] izzət büsatının yaxın adamlarından olan söhbət yasovulu Rüstəm bəyi Təbriz darüssəltənəsinə göndərdi ki, *Azərbaycan bəylərbəyi Şahbəndə xanla* birlikdə o yerlərin əmir və əskərlərini toplayaraq Van istiqamətinə getsinlər, rumilərin keçə biləcəyi bütün yerləri tarac etsinlər, o diyarda azuqə və sair mallardan əsər-əlamət qoymasınlar.

Rüstəm bəy fərmana uyğun olaraq Təbrizə gəlib əmir və
**s.1017** əskərlərin bir yerə toplanması əmrini verdi. Müzəffər ordu toplaşanda öz ölkəsinə, dininə və dövlətinə yardımçı olan hər kəs qoşun və ləşkərini bəylərbəyinin və Rüstəm bəyin nəzərinə yetirdi, onlar nizam-intizam, təntənə və iqtidarla Van istiqamətinə yola düşdülər, həmin yerləri azuqə və adamlardan təmizləyib geri qayıtdılar. O sərhədin rumiyyə döyüşçülərindən, paşalarından və kürdlərindən bir nəfəri belə müzəffər qızılbaş ləşkəri qarşısına çıxmağa cür'ət etmədi. Rüstəm bəy Mazandaranda şahın yanına gedərək vəziyyət barədə mə'lumat ərz etdi, iltifat və ehsana layiq görüldü.

### QASIM XANIN VƏ ƏFŞAR QORÇİLƏRİNİN MOSULDA BAŞ VERƏN BAŞQA HƏRBİ BARƏDƏ MƏLUMAT

**s.1018** Əhvalat belə olmuşdur: Qasım Xan İmanlı, yüzbaşılar və
**(717)** əfşar qorçiləri, yuxarıda yazıldığı kimi, Mosula gələrək qalanın zəbti və o sərhəd işlərinin nizama salınmasına başladılar.

Bu il o yerlərin bir dəstə rumi döyüşçüsü, habelə Hafiz paşanın sərdarlığı ilə kürdlər, ərəblər və Diyarbəkr adamları döyüşə hazırlaşaraq və inamla yeddi yüz nəfəri tüfəngçi olan üç minədək adamla birlikdə rumi əmirlərindən Həsən paşanın, həmçinin Bağdad yaxınlığında əsir alınaraq öldürülən Kor Hüseyn paşanın qardaşının sərkərdəliyi altında Mosula gəldilər. O vaxt Qasım xanın yanında üç yüz nəfərdən çox mülazim yox idi və onun əfşar yüzbaşıları, qorçiləri ilə birlikdə cəmi yeddi-səkkiz yüz adamı vardı. Onlar dövlətin gücünə və himmət kəmərinin möhkəmliyinə arxalanıb

düşmənlərin dəf' olunmaları naminə zirəkləndilər, hərbə əzm etdilər. Tərəflər səf bəzədilər. Əfşar tayfalarından olan ərəşli dəstəsinin üzvləri öz igidlik qədəmlərini irəli ataraq müxalif qoşun səfinə at sürdülər. Başqa əfşar yüzbaşıları və qorçiləri də onlara köməyə getdilər. Cəng istiləşən vaxt Qasım xan və onun adamları da cilovdan yapışıb meydana girdilər, tərəflərin arasında hərb atəşi şöləl决endi, qalibiyyətli igidlərin həmlələri nəticəsində müxaliflər məğlub olub cəngdən əl çəkərək öz qaçış ayaqlarını açdılar. Qəhrli döyüşçülər o çox-saylı döyüşçüyə qalib gəldilər, düşmənlərinsə min, bəlkə də mindən çox döyüşçüsü qələ yetirildi, [qızılbaş] qoşununun əlinə böyük qənimət keçdi, qarşı tərəf dağılışdı. Sərhəddən daha arxayınlaşan yüzbaşılar və qorçilər Qasım xanla vidala-şaraq kəsilən başlar və ələ keçirdikləri əxtərmələrlə birlikdə ali saraya gəldilr, cənnətəbənzər Fərəhəbaddan götürdükləri qənimətləri hümayun nəzərə çatdırdılar.

Bu vaqiənin şərhi o hərbdə iştirak etmiş bir neçə qorçinin söhbəti əsasında qələmə alındı.

### ZEYNAL BƏY BİQDELİ ŞAMLININ İRAQİ-ƏRƏB İŞLƏRİNİNTƏNZİMLƏNMƏSİÜÇÜNGÖNDƏRİLMƏSİNİN ZİKRİ, ONUN MOSULDA DÖVLƏT DÜŞMƏNLƏRİ İLƏ HƏRB ETMƏSİ VƏ ZƏFƏR ÇALMASINI ŞƏRHİ

Bu vaqiədən sonra mə'lum oldu ki, Mosul hüdudundakı
**s.1018** müxaliflər Rum sərdarı və döyüşçülərinə bel bağlayaraq (eztezhar) öz qarət əllərini açmışlar. [Şahın] qulağına çatdı ki, ərəblər də, xüsusiylə Nasir Mühənnanın oğlu Taleb nifaq məqamına gələrək Hillə və Nəcəfə tərəf hərəkətə başlamış-dır, o diyarın əhalisinə inciklik və zərər üz verməkdədir. Əfşar tayfası Mosulda tüğyan edən vəba səbəbindən ləşkərin tələf olunacağından qorxub istədiyi qədər adam toplaya bilməmiş, Qasım az miqdar əskərlə Mosul qalasında qalmış, vilayət isə üsyan və inqilab məkanına çevrilmiş ki, buna görə də bu qüvvətli dövlət adamlarına orada qalmamaq əhvali-ruhiyyəsi üz vermişdir.

Cahanı bəzəyən rə'y belə oldu: İzzət büsatının iş bacaran adamlarının biri və qeyrətli, mərdanə, fədai olan, din və dövlət yolunda vuruşmağı bacaran dərgah üzvləri qoy ali dərgahdan çıxıb o tərəfə rəvan olsunlar ki, Əlişəkər və o hüdudun əskərlərini toplayaraq, düşmənlərin dəf' olunmasından ötrü bellərinə himmət kəməri bağlasınlar, əgər sərhədləri qoruyan adamlara hücum olarsa köməyə yetişsinlər, hər müşkil işi bu qəhrli dövlətn məsləhəti ilə əncama yetirsinlər.

[Şah] sadiq tərəfdarlar zümrəsindən olan müsbət xasiyyətli Zeynal bəy Tuşmalbaşı Şamlıya bu məsələnin yerinə yetirilməsini tapşırdı, onu müzəffər əskərlər, İsfahan tüfəngçilərinin minbaşısı Mir Fəttah və şah qoşununun daha bir dəstə tüfəngçisi ilə Mosula tərəf yolladı. Müqəddəs qoşundan ayrılan Zeynal bəy elə ki o tərəfə gedib sərhədə yaxınlaşdı, ona məlum oldu: Rumiyyə döyüşçülərindən və Mosul hüdudunun başıpozuq adamlarından ibarət bir dəstə adam qalanı tutmaqdan ötrü hərəkətə gəlmişlər, Qasım xan isə iki-üç yüz əfşar qazisi ilə Mosul qalasında qalıb azuqəsizlik və hər gün bir çox adamı ədəm yoluna yollayan vəba xəstəliyi səbəbindən qalada dayanmayaraq hələ müxaliflərin oraya çatmalarından əvvəl qalanı tərk etmiş və müxaliflər oranı ələ keçirmişlər. Qorxu bundadır ki, Xan Əhməd xan Ərdəlan da Kərkük qalasından əl çəkə və o qala da düşmənlərin əlinə keçə. Zeynal bəy həm də eşitdi ki, müqəddəs rövzələrin mütəvəllisi və Nəcəfe-Əşrəf qorçilərinin qorçibaşçısı olan Sarı Sultan Bigdeli ilə artıq Kərbəla və Nəcəfə gəlib çatan mühənna ərəbləri arasında döyüş başlanmışdır.

Bu xəbərləri eşidən Zeynal bəy hərəkəti sür'ətləndirdi. Dərtəng yaxınlığına çatdıqda Luristan hakimi Həsən xan bir dəstə adamla gələrək ona birləşdi, mə'lum oldu ki, sərdar bir dəstə rumi döyüşçüsünü Həsən paşa Çərkəsin sərkərdəliyi altında Mosulun, Kərkükün və o yerlərin qalalarının zəb-
**s.1019** tindən ötrü yığmış, beş-altı min nəfərə yaxın rumi, kürd və
**(718)** ərəb onun ətrafınan toplaşmış və o tərəfə yollanmışlar. Bundan əlavə, onlar iki-üç minədək rəiyyət ailəsini (xanəvar) Lək qalası adı ilə tanınan Zəhab qalasından və hüduddakı

yerlərdən köçürmüşlər ki, onları çaydan keçirib o tərəfə aparsınlar. Bu xəbərləri eşitdikdən sonra Zeynal bəy o vaxt yanında olan zəfər şüarlı əskərlərin sayını müəyyənləşdirdi, cəmi üç min yaraqlı əskər və tüfəncçi saya alındı. Orada çıxaraq həmin uzaq məsafəni iki günə keçdilər və üçüncü gün gəlib müxaliflərə çatdılar, amma sür'ətlə yol getdikləri üçün [bəyin] iki min nəfərdən artıq döyüşçüsü yox idi. Qarşı tərəfdənsə qızılbaş ləşkərinin gəlişi sədasını eşidən müxaliflər qorxdular, kürd və ərəblərin bir dəstəsi dağılışdı, buna baxmayaraq onların üç-dörd minədək adamı döyüşə çıxmaqdan ötrü irəli gəldi, tərəflər öz səflərini cəngə hazırladılar, savaş sınağından çıxmış igidlər əllərini silahlara apardılar və hərb atəşi şö'ləlİndi. Az vaxt içərisində müxalif qoşunda səbat və qərar qalmadı, düşmənlər məğlub oldular, qızılbaş döyüşçüləri dövlət və iqbalın gücü ilə o tayfaların üzərində zəfər çaldılar, altı yeddi yüzədək müxalif qılınca yem oldusa da, qızılbaşlardan bir elə də çox adam tələf olmadı. Həsən paşa və onun başqa döyüşçüləri əzilərək özlərini qalaya çatdırdılar, onların ordusu isə qazi və tüfəngçilərin qarətinə mə'ruz qaldı. Şəhərdə və qalada tüğyan edən bərk vəba [xəstəliyi] səbəbindən hər gün bir dəstə döyüşçü tələf olurdu. [Buna görə də,] Zeynal bəylə Həsən paşa arasında elçi gediş-gəlişi başlandı, belə qərara gəldilər ki, qalada vəba olduğu üçün hər iki ləşkər oradan çıxıb getsin, şəhər və qalada bircə adam da
**s.1019** qalmasın, vəba xəstəliyi sovuşandan sonra, tərəflərin məsləhəti necə olarsa elə də hərəkət etsinlər. Öz qoşununu qorumaq məqsədi ilə Zeynal bəy razılaşdı, apardıqları el və ülusu köçürüb, zəfərlə geriyə döndü. O, şahın əmrinə əsasən, bəylərbəyi ilə birlikdə qalanı qorumaqdan ötrü Mir Fəttahı tüfəngçiləri ilə Bağdad qalasına göndərdi, özü isə geri qayıdaraq, qalibiyyətli ordunun Gürcüstan səfəri məqsədilə yola çıxıb Sultaniyyədə dayandığı vaxt şahın yanına getməklə şərəfraz oldu.

Beləliklə, həmin hərbin şərhi və Zeynal bəyin həmin döyüşdə iştirakı olan iki-üç nəfər döyüşçünün sözü ilə [oxuculara] məlumat verildi.

## BU İL BAŞ VERƏN HADİSƏLƏRDƏN İRAN SİPƏHSALARI QƏRÇİQAY XANIN GÜRCÜSTANA GETMƏSİ, MOURAVİ* VƏ BAŞQALARININ ÜSYANI

Surət aləminin hüşyar, məna cahanının ağıllı adamlarına aşkardır ki, Allahın hökmü ilə baş verən hər bir iş lövhi-məhfuzda səbt olunmuşdur və onun istəyi ilə heç bir səhvə yol vermədən həyata keçməkdədir. Dünyanın aqil və rüzgarın müdrik adamlarının heç bir tədbiri qəza qılıncına və qədər oxuna mane ola bilməz. "Bəndə dağıdır və onun bu hərəkətinin cəzasını Allah verir".[1] Məhz buna görə də, yuxarıda yazıldığı kimi, qarşıdakı ildə fələyin razılığı və asiman hadisələri nəticəsində bə'zi fitnə-fəsad, hüzn-kədər baş verdi ki, onların yaranmaqları və fitnəsiz zəmanənin zaman xalqlarının üzünə möhnət qapılarını açması labüd bir hal oldu və bütün bunlar Allahın istəyindən[2] və qeyb aləmi xidmətkarlarının köməyi nəticəsində həyata keçdi. Belə bir hala misal İran sipəhsaları Qərçiqay xanın Gürcüstana göndərilməsidir ki, həmin yürüş bir neçə böyük qəziyyənin yaranmasına, cürbəcür fitnə-fəsadın törənməsinə, qan axıdılmasına, bəla və fitnəkarlığın baş verməsinə səbəb oldu.

Məsələnin şərhi belədir: Sabiq əhvalatların təsviri zamanı yazılmışdı ki, Kaxet vilayəti cahil və naqan Təhmurəsin ədəbsizliyi və üsyanına görə şahın qəzəbinə tuş olmuş, oranın idarəsi Peykər xan İyirmi dörd Qacara tapşırılmış və o, bə'zi oymaqlarla birlikdə oraya göndərilmişdi. Peykər xan Qırlanquç qalasının daxilində iqamət edərək, şəhər salmağa başlamış, yaraşıqlı evlər və hamamlar inşa etdirmiş, oradakı gürcüləri əfv etmişdi. Qətl ediləcəkləri və əsir götürüləcəkləri qorxusundan ətraf yerlərə dağılışıb künc-bucaqda gizlənən avaraların bə'ziləri də "vətəni sevmək imandandır"[3] məsəlinə uyğun hərəkət edərək oraya gəlmiş, abadlıq işləri ilə məşğul olmağa başlamışdı. Onlardan qorxan bə'zi aznaurlar
**s.1020** və hərbiçilər də öz dədə-baba yurdularına qayıtmışdılar.

---

[1] Ərəbcəsi: "əl-əbd yudəbbiru və-l-lahu yuqəddiru"

[2] Ərəbcəsi: "izə əradə-l-lahu şey'ən"

[3] Ərəbcəsi: "əl-vətənu min əl-iməni"

**s.1021** Bu il Peykər xanın adamları və hümayun şahın xidmətində
**(719)** olan gürcülər şaha dəfələrlə belə ərz etdilər: "Oraya qayıdan gürcü aznaur və hərbiçiləri ilə Təhmurəsin əlaqəsi və məktublaşmağı vardır. Ehtimal olunur ki, onlar rəiyyətə zülm yetirəcəklər və yaxın vaxtlarda fitnəkarlıq törədəcəklər". Aləmi bəzəyən rə'y belə oldu: Qoy Gürcüstan həqiqətlərini, fitnəkarların dəf olunma yollarını və o mülk işlərinin bu dövlətin məsləhəti ilə nizamlanma üsullarını öyrənmək məqsədi ilə oraya fərasətli və ağıllı bir adam göndərilsin. Buna görə də, bu iş o zaman Mazandaranda səltənət sarayında olan Peykər xana tapşırıldı və o, göstərilən məkana göndərildi. Ə'lahəzrət həmçinin Kartil Gürcüstanının valisi Simeon xanın vəkili vəzifəsini daşıyan, amma on ildən çox islamı qəbul edərək, öz oğlanları və ailəsi ilə şahın xidmətində dayanan möhtərəm bir şəxs, tiyul və ülka sahibi və şah məclislərinin yaxın adamı olan Mouravi bəy Gürcünü sipəhsalara yoldaş etdi, çünki o, Gürcüstanın yaxşı və pis cəhətlərindən xəbərdar idi və öz sədaqətinə, mü'tiliyinə və xidmətkarlığına görə şahanə e'tibara layiq görülmüşdü. Belə olan halda Mouravi bəyin dövlətxahlığı üzündən həmin vilayətin nizamlanması məsələlərində köməyi dəyə bilərdi. Habelə ə'lahəzrətin qız nəvəsi, İsa xan Qorçibaşının qızı və Simeon xanın nişanlısı olan şahzadə xanımı da həmin e'tibarlı adamlarla birlikdə yola saldı. Hökm olundu ki, Qarabağ və Şirvan əmirləri də birlikdə sipəhsaların yanına gələrək bütün məsələlər xüsusunda ona həmrahlıq eləsinlər.

Qərçiqay xan və Mouravi bəy Gürcüstana çataraq, Şirvan və Qarabağ əmirlərini məsələlərdən hali etdilər. Ortada Simeon xanın toyu və damad olması məsələsi olduğundan Şirvan bəylərbəyi Yusif xan, Qarabağ bəylərbəyi Məhəmmədqulu xan Ziyadoğlu, başqa əzəmətli əmirlər və islam əskərləri bər-bəzəkli halda gələrək onlara qoşuldular.

Əvvəlcə toy şadyanalığı başlandı. Toydan sonra, hələ Kaxet gürcülərinin bəxt ulduzu bəla bədbəxtliyi örtüyündən kənara çıxmadığı üçün Allah-təalanın istəyi onların başqa bir dəs-

təsinin də qətlini müəyyənləşdirdi. Vəziyyəti öyrənmək, o tayfa hərbiçilərinin və bütün rəiyyətin məqsədlərini bilmək və birgə olmaqdan ötrü məşhur Başıaçıq gürcülərinin üzərinə yürüş niyyəti ilə həmin tayfanı öz yanlarına də'vət etdilər. Hamısı yaraq-yasaqla silahlanmış on min nəfərədək adam yığışıb gəldi, amma onların sir-sifətlərində nifaq və fəsad əlamətləri görünməkdəydi. Mouravinin vasitəsilə o dəstə quldurlarını dəf' etmək qərarına gələn Qərçiqay xan onlara belə bir təklif etdi: Başıaçığa gediş-gəliş o camaatın razılığı ilə həmişəlik sizin üçün çətinləşmişdir. Siz gərək öz hərb alətlərinizi bizim qazilərə verib, Başıaçıq səfərinə bizimlə getməyəsiniz.

Silahları yığıldıqdan sonra o kafirlərin hamısını ov kimi dövrəyə aldılar, bir göz qırpımında həyat damarlarını kəsərək, qəhr qılıncı ilə fərqə varmadan bir-bir qisas qılıncına yem etdilər.

Bu hadisə baş verdikdən sonra Mouravi bəyin içərisində olan xəbislik və tərəddüd zahirə çıxdı, özündə olan qeyrətin gücü, yaxud Kartil hökmdarı və böyüyü olmaq həvəsi ilə həmin tayfa aznaurları və başçıları ilə sipəhsaların və bə'zi əmirlərin qətli xüsusunda danışıq apardı, ondan cürbəcür fitnə-fəsad və qan axıtmaq kimi hallar təzahür etdi ki, həmin vəziyyət, o bədbəxtin üsyanı barədə gələn il əhvalatlarının şərhi zamanı mə'lumat veriləcəkdir.

Bu il fələk hadisələrinin tə'siri və Allahın təqdiri ilə Azərbaycanın bə'zi yerlərində vəba və taun xəstəliyi şiddətləndi. Onun vüs'əti Ərdəbil darülirşadında Nişapur müsibəti qədər oldu və şəhərdə iyirmi min adam qırılıdı, oraya yaxın yerlərdə, xüsusiylə Meşkin, Sərab, Rezək, Gərmrud və Xalxalda isə həştad min nəfər, ümumən isə yüz min nəfərdən çox adam ədəm yoluna getdi. Dünyagörmüş qocalardan eşi-
**s.1021** dildi ki, bu xəstəlik o diyarda belə çox adam qırmadı, amma Ərdəbilə yaxın olduqlarına görə Tarom və Qəzvinin bə'zi mahal və kəndlərində bütün əhali tələf oldu.

**Ölümlər: Bu il fani cahanı tərk edib bəqa aləminə gedənlər [bunlardır:]**

**İsfəndiyar bəy Ərəbgirli:** Şah məclisinin yaxın adamları zümrəsinə və dərgahın e'tibarlı şəxsləri sırasına daxil idi. Faydalı Bağdad səfərindən qayıdan vaxt, Nəhavənd yaxınlığında, bir neçə nəfər yoldaşı ilə atlara süvar olub yol gedən İsfəndiyar bəyin vəziyyəti pisləşdi və yoldan qaldı. Bu xəbər ə'lahəzrətə çatanda, o həzrət bəyə ehtiram əlaməti olaraq məhəffə* və təxti-rəvan göndərdi. O, məhəffədə oturdu və bir neçə qədəm irəli getdi, lakin taqətsiz olub yenidən ata minmək istədi. Buna da tab etməyib bitaqət oldu. Onu atdan düşürdülər ki, yolda bir az istirahət eləsin. Həyat qədəhi dolduğu üçün ömür əmanətini əcələ tapşırıb axirət səfərinə yollandı.

O, ata-babadan bu xanədanın saf sufilərindən və vəzifəsi ovçubaşlıq olan Kamal bəyin oğludur. Kamal bəy ömrünün sonunda e'tibarının çoxluğundan ali hərəmxananın eşikağa-
**s.1022** sıbaşısı vəzifəsinə tə'yin olundu.
**(720)** Atası [Kamal bəy] öləndən sonra o nəslin irsi vəzifəsi olan ovçubaşılıq İsfəndiyar bəyə verildi. Ləyaqət və ədəb-ərkanına görə get-gedə yüksəldi, qədr-qiyməti gündən-günə çoxaldı, şahın xüsusi yaxınları və məclisin iştirakçıları zümrəsinə daxil edildi. Rə'y və məşvərət sahibi idi. Oğlu kiçik olduğundan onun irsi mənsəbi hələlik o nəsildən heç kimə verilmədi. Oğlunun böyüməyini gözlədilər ki, əgər qabiliyyəti olarsa həmin xidmətə layiq görülsün.

**Şahəli Mirzənin oğlu Salman xan:** Ali divanın vəziri və e'timadüddövlə idi. Bağdad yürüşündən sonra İsfahan darüssəltənəsində xəstələndi, onun bədənində xərçəng (sərətan) xəstəliyinin əlamətləri zahir oldu, o biri aləmə yollandı. Təkrar-təkrar qan aldılar (fəsd) və yarasını soyutdular (təbrid), amma heç bir xeyri olmadı, xəstəliyi get-gedə artdı, təbiblərin müalicəsi və cərrahların dəxaləti baş verən qəzanı dəf edə bilmədi, xan axırda öz əməl paltarını əcəl mənzilinə apardı.

Atası Şah Əli Mirzə cənnətməkan şahın bacısı oğlu idi ki, o nəsil həmişə bu xanədana xidmət etməklə müşərrəf

olmuşdu. Salman xan da bu uca rütbəyə iki dəfə layiq görülmüşdü. Sonsuz (məqtuül-əqəb) adam idi və onun fərzəndi olmadı. Hələ sağ-salamat ikən bütün var-yoxunu ə'lahəzrətə vəsiyyət (hobbe) etmişdi, belə ki, bu kitabın müəllifi bu barədə onun özündən bunu dəfələrlə eşitmişdir. Həmçinin, male-divan akudeli (?)idi, buna görə də var-dövləti divanın xeyrinə zəbt olundu. Yuxarıda yazıldığı kimi, ali divanın [vəziri] mənsəbi üləmalar divanı olan Mir Rəfiəddin
**s.1022** Məhəmməd Sədrin oğlu Xəlifə Sultana verildi.

## ABBASIN HÜMAYUN SƏLTƏNƏTİNİN İKİNCİ QƏRNİNİN DOQQUZUNCU İLİNDƏ YƏNİ TÜRKİCƏ MİN OTUZ DÖRDÜNCÜ ÖKÜZ İLİNDƏ (1624/1625) BAŞ VERƏN VAQİƏLƏRİN ZİKRİ

Baharın ənbər qoxulu nəsimi təzədən əsib dünyanı ətirləndirdi. Bütün cahana tüğyandan dəm vüran dey [ayının] ləşkəri səadətli novruzun gəlişi ilə darmadağın oldu, qaçıb üzüntülü zaviyələrdə gizləndi (motəvari). Aləmi bəzəyən günəş min bir əzəmətlə (şokuh) izzət və şərəf meydanında cilvələnməyə başlayıb, cahanı qorumaq (cəhanbani) bayrağını dikəltdi. Dey ayı öz yerini cəmadüssani ayının ikisində (12 mart, 1625) pəncşənbə günü, gündüzdən on saat və on yeddi dəqiqə keçəndən sonra həməl bürcünə təhvil verdi. Havanın iltifatı sayəsində nərgizin gözü açıldı, ruzigarın razılığı ilə fitnəyə başladı. Azadlıq nişavnəsi olan susən gülü qönçənin zirehini (cövşən) cırmaq məqsədi ilə xəncərini itilədi, zərrin gülləri qarət etməkdən ötrü pusquda dayandı. Ürək açan çəmən bahar məclisinin gənclərindən ötrü öz yaşıl xalısını açaraq öz gözəl rüxsarını gül-çiçəklə bəzədi

**Beyt**

*Bir də bahar yelləri ətr ilə dolmuş yenə,*
*Xoş gəlişindən çəmən tazə-tər olmuş yenə.*
*Məclisə ziynət verir bir də nəsime-bahar,*
*Öylə ətirləndi ki, yasəmənə döndü yar.*[1]

Ə’lahəzrət zillələh şah behiştə bənzər Mazandaran qəsəbəsində günlərini şad-xürrəm keçirməkdə idi. Cənnətin həsədini, rövzeyi-rizvanın isə ziynətini artıran o şərafətli

[1] Beytin farscası:

Baz nəsime-bəhar ğaliyesa şod məgər,
K-əz hərəkatəş çəmən taze və tər şod degər.
Lotfe-həvaye-bəhar əncomənaray gəşt,
Çon xəte-meşkine-yar baz səmənsay gəşt.

məkanın xəlvətxanalarına toplaşan bu qüvvətli dövlətin başında duranlar, xilafətin ə'yanları, sultanların elçiləri və hər təbəqədən olan şəxslər cahanı bəzəyən novruz məclisində iştirak edərək, sədaqət bəyanlı dilləri ilə yeni ili və mübarək novruzu təbrik edir, o kamlı şəhriyara öz xeyir-dualarını çatdırırdılar. Dünyanın qədim adət və qəddar ruzigarın xisləti belədir ki, bəla bəhrinin dalğaları daim rahatlıq və asudəliyi döyəcləyir, gah rahət və istirahət gəmilərini fəna girdabında qərq edir, gah da dinclik və asayiş qapılarını bağlayaraq, əhalinin üzünə əzab-əziyyət qapılarını açır. Aləm fitnə-fəsad və bəlalardan xali deyildir.

Bu il ruzigarın gərdişi, fələyin tələbi və göyün gəcrəftarlığından rahatlıq və dinclik xalqdaq kənar oldu və yatmış fitnələr oyandı, hər yanda ləşkərlər hərəkətə gəldi, böyük
**s.1023** vaqiələr baş verdi.

**Şe'r**

*Fitnəkarlıq edən ruzigar yenə*
*Dağladı qəlbləri şadlıq yerinə.*
*Könül qapısını qapadı dövran,*
*Ürəyi bürüdü kədər, qəm, fəğan.*[1]

Hər cür hadisənin olmasına və hər yerdə fitnə-fəsad görünməsinə baxmayaraq, nəticədə Allahın lütfü, şahın sağ-salamat olması, iqbalın gücü və o həzrətin düzgün düşünülmüş sə'y və tədbiri sayəsində hər şey yaxşılığa doğru üz
**s.1024** tutdu, fitnəkarlıq aradan götürüldü.
**(721)**

**Şe'r**

*Şahın olsun gərək qaməti dürüst*
*Olsa da hər kəsin ayaqları süst.*[2]

---

[1] Şerin farscası:
Səre-fetne darəd degər ruzigar
Ke gərdid delha ze möhnət fekar.
Zəmane dəre-afiyət baz bəst,
Dele-xorrəmi-ra ze ənduh xəst.

[2] Şerin farscası:
Təne-şah bayəd ke başəd dorost,
Mən-o comle-ra gər şəvəd pay sost.

Amma, zəmanə xalqın başına çoxlu fəsad tozu yağdırdı, qanlar tökdü. Birinci hadisə Mouravi Gürcünün nəmək-haramlığından və üsyanından yaranan çaxnaşmadır ki, onun nəticəsi çox pis oldu. İbadullah xalqına xeyli zərər dəydi, aşağıda yazıldığı kimi hələ dəyəcəkdir də.

### QARABƏXT VƏ BƏDƏXLAQ MAURAVİ GÜRCÜNÜN MÜRTƏDLİYİ (ERTEDAD), ÜSYAN VƏ TÜĞYANI, O NİFAQ VƏ FİTNƏ-FƏSADLI QOŞUN BAŞÇISININ YERSİZ ƏMƏLLƏRİNİN ZİKRİ

Bu böyük vaqiə (vaqieye-ozma) və nəhəng əməlin (dahi-yeye-kobra) şərhi belədir: Yuxarıda yazıldığı kimi, Kaxet Gürcüstanının kafərlərinin bir dəstəsi elə ki, öz fitnəkarlıq niyyətlərinin mükafatını və bəd xislətlərinin cəzasını aldılar, nəhs taleli Mouravi, vaxtın İslam şüarını məsləhət bilərək, amma [yenə də] öz xristian millət və əqidəsindən əl çəkməyə-rək, bu uca xanədanın (səfəvi xanədanının – *Ş.F.*) dövlətxah-ları olub, sədaqət və itaət yolunu tutan, böyük şahanə diqqətə və iltifata layiq görulən Kartil gürcülərini yalan sözlər və həqiqətdən uzaq kəlmələrlə sədaqət yolundan döndərərək, şahın gövhərlər səpən dilindən o nadanlara xoşagəlməz və vahimə doğuran fikirlər xatırlatdı.

Mouravi bəyin ali sarayda e'tibarı və mərhəmliyi oldu-ğundan onun böhtançılıqlarının [möftəriyyət] sədaqət və savabdan irəli gəldiyini düşünürdülər, lakin Mouravinin müzəffər ləşkərdən qorxusu gündən-günə artırdı. Qarabağ bəylərbəyi Məhəmmədqulu xan Ziyadoğlu, Peykər xan İyirmi dörd və əmirlərin əksəriyyəti Mouravinin məsləhəti ilə kafər sığınacaqları üzərinə yürüş etdikləri əsnada, o, üsyan
**s.1024** etməyi və sipəhsaları (Qərçiqay xanı – *Ş.F.*) qətlə yetirməyi qərara aldı, sübh çağı mükəmməl yaraqlandı, öz xeyməsindən çıxaraq, Qərçiqay xanın yaşadığı evin qapısına yaxınlaşdı, güya dövlətxahlıqla dedi: "Bütün Kartil gürcüləri yağı olub-lar, qarşı çıxmağa və cəng etməyə hazırdırlar. Gərək yuban-madan atlanaraq, qızılbaşlardan şübhəyə düşən və vahimə

sultanına məğlub olan o yol azmışların üzərinə hücum edəsiniz ki, qızılbaşlara xəsarət toxunmasın və gürcülər xoşagəlməz cəsarət və hünər göstərə bilməsinlər".

Qərçiqay xan və əmirlər şahın xdmətində olan o bədbəxtin şaha yaxınlığını və məqamını, həmçinin əlahəzrətin ona olan iltifatını dəfələrlə müşahidə eləmişdilər. Onun bir oğlu da öz köç-külfəti və xidmətçiləri ilə birlikdə bu vilayətdə şəfqət və mərhəmət görüb şad-xürrəm yaşamaqdaydı. Xan və əmirlər ehtimal etmirdilər ki, Mouravidən dövlətxahlığa zidd əməl görünə bilər.

Xülasə, Qərçiqay xan Mouravinin məsləhəti ilə ata süvar oldu. Elə bu vaxt, hələ xanın mülazimləri gəlib çatmamış o bəd niyyətli qəddar adam nizəsini ona elə vurdu ki, ucu o biri tərəfdən çıxdı. Mouravi sonra Şirvan əmirülümərası Yusif xanın xeyməsinə daxil olub həmin əməli hiyləgərliklə onun da başına gətirdi.

Gürcülər bu iki əzəmətli sərdarın qətlindən sonra qızılbaş ordusuna gələrək, əllərinə keçən hər adama, o cümlədən Qərçiqay xanın oğlu İmamverdi bəyə şəhadət balı dadızdırdılar. Ordu əhli bu vəziyyəti müşahidə edərək çaşqınlıq içində özlərini çölə atıb qaçmağa başladılar.

Bütün qızılbaş ordusu talan olundu və gürcülərin əlinə çoxlu var-dövlət, silah-sürsat keçdi. Bu xəbərin ətrafa yayılmasından sonra qızılbaşlara elə kədər və çaşqınlıq üz verdi ki, Qarabağ və Şirvan əmir və əskərləri öz edəcəkləri xidmətdən yayındılar, geriyə qayıtmaq və bir yerə toplaşmaq fürsəti tapmadan nicat yolunu aradan çıxmaqda gördülər.

Kartil valisi Simeon xan öz dövlətinin paytaxt və mərkəzi olan Tiflis qalasına gəlmək imkanı tapmayaraq, Qarabağ bəylərbəyi Məhəmmədqulu xanla birlikdə Axçəqalaya girib oraya sığındılar. Mouravi isə əmirlərin öldürülməsi və qızılbaşların mal və silahlarının qarət edilməsindən sonra bir dəstə kafərlə Qırlanquç qalasını fəth etmək, oradakı Peykər xanı tutmaq, habelə iyirmi dörd oymaqlarını və başqa tayfaları qətl və qarət etmək məqsədi ilə o tərəfə yollandı.

Peykər xan baş vermiş bu hadisədən narahat oldu, əhli-əyali özləri ilə birlikdə olan el və oymaq adamlarının zəifliklərini nəzərə alıb, onları və var-yoxlarını qaladan çıxarmaq qərarına gəldi. Kür çayına çatan, onların bə'ziləri
s.1025 keçdilər, bə'ziləri isə keçməkdə idilər ki, Mouravi öz gür-
(722) ciyyə döyüşçüləri ilə gəlib çatdı, gürcülər onlardan çoxlu var-dövlət, heyvan və sair qənimətlər ələ keçirdilər, xeyli müsəlman qız-qadınını isə əsir götürüb apardılar. Peykər xan və yanındakı adamlarsa çayı sağ-salamat keçərək özlərinə müdafiə tədbirləri gördülər.

Qırlanquç qalası, habelə qalada olan əlli xarvar ipək gürcülərin əlinə keçdi. Mouravi oradan çıxıb Tiflis qalasının ətəyinə çatdı ki, Kartil valilərinin hökümətgahı olan həmin qalanı hiyləgərliklə ələ keçirsin. Qala kutvalları və qoruyucuları olan tüfəngçilərdən Nuri və onların Şatırşahi adlı sərkərdəsi baş verən hadisələrdən xəbərdar oldular. Onların Tiflis xristianlarına e'tibarı olmadığından Simeon xanın adamlarını şəhərdən narınqalaya apardılar. Azuqə ehtiyyatları və qalanı müdafiə etmək iste'dadları olmadığı halda oranı qorumağı qərara alıb, şübhələndikləri məsihilərin hər birini qala-
s.1025 dan çıxardılar. Müxalif çıxan məsihilərin bir dəstəsi isə qılınc və oxla silahlanaraq müdafiə olunmaq məqsədiylə savaşa başladı və tərəflərin bir neçə nəfəri qətl olundu.

Tüfəngçilər qətl olunanların və başqa xristianların azuqələrindən iki aylıq ərzaq toplayıb qalanı qətiyyətlə qoruyurdular. Qaragün Mouravi bir dəstə kafəri qala üstündə saxlayıb, özü isə gürciyyə döyüşçüləri ilə Qarabağa yollandı, bəylərbəyisinin qacar tayfa ə'yanlarının məskəni olan həmin şəhəri qarət etdi, xeyli mal və silah ələ keçirdi, bir çox müsəlman qadın və uşaqlarını əsir götürdü. Qarabağın bütün el və ülusu öz yurd-yuvalarından qaçıb Araz çayının Xudafərin körpüsünədək heç yerdə dayanmadılar. Bəxti dönük Mouravi Gəncə və oranın ətraf yerlərini var-yoxdan və inscinsdən təmizləyəndən sonra Tiflis qalasını tutmaq niyyəti ilə o tərəfə cumdu. O, öz məqsədinə çatmaqdan ötrü Şatırşahiyə məktublar göndərərək hiyləgərlik və şirindilliliklə bol

və'dlər etsə də, bunun faydası olmadı. Tüfəngçilər öz himmət ətəklərini bellərinə bağlayıb qalanı mərdliklə müdafiə etdilər, Mouravinin məktublarının cavabı isə ox və güllə səfirinin onun üstünə yönəlməsindən başqa heç nə olmadı.

Xülasə, əmirlər və tüfəngçilər tərəfindən dövlət sarayına çaparlar yollandı, yuxarıda yazılanları şaha ərz edib bunları nəzərə çatdırdı: "Qarabəxt Mouravi bu yersiz əməllərini yerinə yetirdikdən sonra Rum sultanına öz dövlətxahlığını izhar etmiş, qətl edilən qızılbaşların başlarını bir e'tibarlı gürcü vasitəsiylə sərdarın yanına Diyarbəkrə göndərmiş, həmçinin ələ keçirdiyi qiymətli töhfə və hədiyyələri də ona yollamış, sərdarı Gürcüstan və Şirvana gəlməyə rəğbətləndirmiş, sərdar isə bu işləri öz gələcək zəfərinin müqəddiməsi sanmış, Kartil əyalətinin Mouravinin, Kaxetin isə Təhmurəsin adına yazılması barədə fərman göndərmiş, Təhmurəs gələrək Mouraviyə birləşmiş, onların hər biri hökumət taxtına əyləşmişlər və hal-hazırda öz vəziyyətlərini tənzimləmək və məmləkət işlərini istiqamətləndirməklə məşğuldular, Tiflis qalasını fəth etməyə bol sə'ylər göstərirlər".

Ə'lahəzrət bu əhvalatları eşidib İsa xan Qorçibaşını şüarı zəfər olan ləşkərə sərdar edib, Mouravinin fitnəkarlığını dəf' etməyə və Gürcüstan işlərini nizamlamağa göndərdi, Gilan Lahicanının daruğəsi Qazaq xan Çərkəsi isə Yusif xanın yerinə Şirvan əmirülümərası tə'yin edib, tə'cili halda oraya yolladı ki, o yerin əmir və əskərləriylə birlikdə gedib qorçibayıya birləşsin.

Çuxur-Sə'd bəylərbəyi Əmirgunə xan və Azərbaycan bəylərbəyi Şahbəndə xan da o yerlərin adamları və əskərləriylə qorçubaşının fərmanına tabe olub sür'ətlə o tərəfə üz tutdular. Qələbə ayəli şah ordusu da behiştnişan Mazandarandan onların ardınca hərəkət edərək, Qəzvin darüssəltənəsinə gəldi. Müzəffər şəhriyar bir neçə gün o darüssəltənədə dayandıqdan sonra Sultaniyyə yaylağına yollandı. Rum ləşkərinin hərəkəti barədə ardı-ardınca xəbərlər gəldiyindən, iqbal çadırları bir neçə gün sultaniyyədə quruldu ki, hümayun məiyyətin hərəkəti müəyyənləşdirilən vaxt ordu həmin

yerə hücuma keçsin. Fars bəylərbəyi İmamqulu xan o yerin əskərləri ilə Çəməni-Sultaniyyədə müzəffər orduya birləşdi. Hökm olundu ki, qəhrli əskərlər hamısı gedib Gürcüstana çatmayanadək müzəffər şah qoşunundan kənara çıxmasınlar.

Gürcüstan hadisələrindən və bu əhvalatlar baş verən zaman olmuş hadisələrin zikrindən sonra İraqi-Ərəbə hüma-
s.1026 yun yürüşün şərhi yazılacaqdır, tnşallah.

## MÜZƏFFƏR DÖYÜŞÇÜLƏRLƏ İMANSIZ GÜRCÜLƏR ARASINDA BAŞ VERMİŞ MÜHARİBƏNİN ZİKRİ VƏ ZƏFƏRLİ ƏSKƏRLƏRİN QƏLƏBƏSİ

s.1027 Sehrbaz qələmin yuxarıda yazdığı kimi, qorçibaşı Gür-
(723) cüstana rəvan olduqda, hümayun fərmanla onun yanına göndərilən İraq, Azərbaycan və Şirvanın əzəmətli qorçi və qulamları, xasseyi-şərifə sərkarının tüfəngçiləri, əmirlər və əskərlər qoşun-qoşun gələrək hər yerdə ona qoşulurdular. Beləliklə, qorçibaşının ordusunda çoxsaylı ləşkərlər toplandı. O biri tərəfdən də, Mouravi öz qoşunu ilə, həmçinin hər ikisi qızılbaşların qorxusundan Gürcüstan torpaqlarında Ruma tabe olan və hərəsi bir küncə sıxınan Təhmurəslə Mesq valisi Mənuçöhrün oğlu Atabəy xan gələcək sərdara kömək və Mouravini döyüşə rəğbətləndirməkdən ötrü ona birləşdilər. Onlar Kartil Gürcütanının əzəmətli adamları və ə’yanları, habelə Kaxetin yerdə qalan qoşun dəstələri ilə birlikdə təxminən iyirmi min piyada və süvari toplayıb döyüşə hazır vəziyyətdə dayandılar.

Ramazan ayının iyirmi dördündə (30 iyun, 1625), düşənbə günü, Tiflisin *Algetçay (!)* adlı yerinə daxil olan *Gümüşlü* adlı bir məkanda tərəflər üzbəüz dayanıb öz səflərini bəzəyərək hərbə hazır vəziyyətdə dayandılar. Şahbəndə xan və Azərbaycan ləşkəri orduya ertəsi gün gəlib-çatacağı üçün qızılbaşlar cəngi onun gəlmə müddətinədək yubatdılar və gecə yetişdi, tərəflər arasında döyüş baş vermədi, gürcülər də o yerdə dayandılar və tərəflər gözləməyə başladılar.

O mübarək ayın iyirmi beşində (1 iyul, 1625), seşənbə günü qalibiyyətl döyüş səfəri quruldu və qorçibaşı ordunun qol cinahında qərar tutdu. Əmirgunə xan çərxçibaşı tə'yin olundu, iqbal qoşununun meymənə və meysərə hissələri isə döyüş meydanın mübarizələri ilə möhkəmləndirildi. Gürcülər də gəlib çatdılar və tərəflər qarşılaşdılar, böyük bir cəng başlandı. Əvvəlcə kafərlər hamılıqla irəli çıxaraq qızılbaş çərxçilərinə hücum etdilər. Çərxçilər onların həmləsinə tab gətirməyib bir-birlərindən aralandılar, Əmirgunə xan ağır yaralandı.

Münasib bir yerdə yığışmalarına baxmayaraq, qızılbaş dəstələrinin meymənə və meysərəsinin yardımı olmadığı üçün qacar tayfa üzvləri yaralı Əmirgunə xanı meydandan kənara çıxardılar. Gürcülərsə döyüşün ən qızğın çağında tüfngçilərin arasına girdilər və onların zərbələri nəticəsində tüfənçi səfləri də pozulmağa başladı, zəfər gəlişli döyüşçülərin böyük qismi, xüsusən tüfəngçilərin çoxu şəhadət şərbəti içərək, qana bulanmış haldı cənnət meydanına doğru üz tutdular. Kafərlər qürurlanıb qarşı tərəfin müqavimətini görmədikləri üçün qızılbaş ordusunun içərisinə daxil oldular, ordubazar əhli, qalaçılar, habelə əğrəqi qorumaqdan ötrü orduda qalan şagirdpeşə adamlar (şagirdpişegan) bir-birlərinə dəydilər, böyük çaxnaşma başlandı. Elə ordunun özündəki əlsiz-ayaqsız adamlar və quldur kasıb-kusub bir-birlərinin mallarına doğru qarət əli uzadıb sonra qaçmağa başladılar, sahibsiz qalan ordunun şüarı zəfər olan əskərlərinə çoxlu xəsarət dəydi
**s.1027** və cəngin getdiyi yerin münasib olmadığı mə'lum oldu.

Elə bu vaxt künc-bucaqda qalan və sağa-sola səpələnən döyüşçülər böyük qol yarana bilmədiyi üçün kafərlərin, Allah eləməmiş, islam ləşkərini məğlubiyyətə uğratdığını zənn edərək süstləşdilər, onların bə'zisi qorxaqlıqdan, bə'zisi isə acgözlükdən öz mallarını qorumaq məqsədi ilə meydandan qaçdılar. Belə bir qarışıqlıq qol ləşkərinə də sirayət elədi, döyüşçülər arasında dağınıqlıq düşdü. Amma, qorçibaşı qeyrət və şücaətinin çoxluğundan və canını namusuna qurban edən bir dəstə dilavərlə bu vəziyyətin müşahidəsi zamanı qorxuya düşmədiyindən, öz səbat və qərar ayağını yerə

möhkəm basdı, meydanı tərk etmədi. Qorçibaşının səbr və səbatını müşahidə edən bir dəstə qəhrli döyüşçü ürəklənib, islamın gücünə və şəhriyarın iqbal qüvvəsinə arxalandı, şəhadət balını dadmaq arzusu ilə alnı açıqlıqla kafərlərə tərəf hücuma keçdi, gözlərini o qan tutmuşların qanları ilə döyüş meydanını gülgün elədi.

Bunlar baş verən vaxt Şahbəndə xan da arxadan gəlməkdə idi. Qoşunun irəlidə gedənlər hissəsi ilə yol tozundan keçib cəng meydanına çatdı. İdbar vadisinə qaçan fərarilər də qayıdıb meydana üz tutdular. Yamanlıq qılıncı kəsib-doğramağa başladı, bir anda tiyələrindən qığılcımlar çıxan xəncərlər o quldur kafərlərin on min nəfərini həlak torpağına sərdi, onların həyat damarını üzdü. Qarabəxt Mouravi, Təhmurəs və Atabəy öz küfr və azğınlıq qoşunlarını tarmar, özlərini isə idbar vadisinin sərkərdəsi görüb, meydana arxa çevirdilər, fərar etdilər. İslamın himayədarları isə Allahın istəyinə görə qalib gəldilər və o qaragün gürcülər Tiflisə tərəf götürüldülər. Onlar oraya çatıb Kür çayından keçdilər, taxtadan düzəldilmiş olan körpünü yandırdılar, özlərini meşələrə verdilər. Gürcü qoşununun başçılarından Təhmurəs, Əmir Mehran, Ağaten-
**s.1028** giz, İqbal bəy, Bicən bəy və Söhrab bəyin cəsədləri də öldürü-
**(724)** lənlərin arasındaydı. Qalibiyyətli əskərlərdənsə bir neçə nəfər qorçi, yüzbaşısı, habelə qulam və tüfəngçi həmlə zamanı qətl olundu, orta təbəqəyə xas adamlardansa, əksəri tüfəngçi olan minə qədər adam şəhadət şərbəti içdi.

Qələbədən sonra qorçibaşı və əmirlər qayıdıb orduya gəldikdə xeymələri bom-boş gördülər. At, qatır və dəvədən əsər-əlamət yox idi. Amma, nizamsızlığa düçar olan ləşkər döyüşçüləri get-gedə yayılan qələbə xəbərini eşidib tədriclə orduya qayıtdılar. Gətirilən mal-qara, əşya və əmlaka yenidən öz sahibləri sahib oldu. Onlar vəziyyətlərinin yaxşılaşmasından ötrü çalışaraq nizam-intizamı bərpa etdilər, oradan çıxıb Tiflisə çatdılar, mühasirədə qalan adamlar isə mühasirə darısqallığından və azuqə azlığından qurtuldular.

Kafərlərin bir dəstəsi Başıaçığa tərəf gedib oraya sığınmışdı. Şahbəndə xan və Qazaq xan qəhrli qoşunla onların

üstünə gedib, çoxlu qənimət və qatır ələ keçirdilər, qalibiyyətlə geri qayıtdılar. Hümayun məiyyət Qəzvin darüssəltənəsindən hərəkət edib şəhər xaricində olduğu vaxt carçılar gəlib fəth və zəfər müjdəsini ə'lahəzrətə ərz etdilər.

## QƏHRLİ DƏSTƏLƏRDƏN BİRİSİNİN QAZAQ XANA HÜCUMUNUN ZİKRİ VƏ ŞAHBƏNDƏ XANIN ÖLDÜRÜLMƏSİ

Sonu xeyirlə bitən, lakin bu səfər zamanı ruzigarın bəd gözünün tə'siri ilə islam əskərlərinə yetişən başqa hadisə Şahbəndə xanın öldürülməsi və Qara Qalxan yolunda Qazaq xanın ələ keçirilməsidir.

Hadisənin şərhi belədir: Əbdülqafar xan islamı qəbul etmək səaətinə yetən gürcü mö'təbərlərindəndir. O, şahın xidmətində olduqca əziz və möhtərəmdi. Bacısı səltənət hərəmxanasında izzətlə nazlanan hərəmlərdən, özü isə Fars bəylərbəyi İmamqulu xanın damadı idi. Bu hadisələr baş verən vaxt Gürcüstandaydı. Gürcülər üsyandan sonra onu göz kimi qoruyurdular. Ə'lahəzrətin fikri beləydi ki, qalibiyyətli əskərlər gedib onu və adamlarını, harda olurlarsa-olsunlar, ələ keçirsinlər.

Yuxarıda söylənilən müharibədən sonra mə'lum oldu ki, Əbülqafar xanın adamları Qara Qalxan qalasındadırlar. Bu qala Gürcüstanın tabeliyindədir, çətin keçilən yolu vardır. Qalanın bir qalaçası da vardır ki, ora yol əziyyətindən sonra gürcülərin sığınıb dincəldikləri yerdir. Qorçibaşı Azərbaycan bəylərbəyi Şahbəndə xanın , Şirvan bəylərbəyi Qazaq xanın, Xosrov Mirzənin və Bograt Gürcünün qardaşının sərkərdəlikləri ilə qalibiyyətli əmirlər və əskərlər dəstəsini bu əmri yerinə yetirməkdən ötrü Qara Qalxan üzərinə yollatı. Əzəmətli xanlar və müzəffər əskərlər çətin keçilən yolla öz məqsədlərinə doğru irəlilədilər, qalaya çatıb onu mühasirə etdilər. Adsız-sansız bir dəstə qala əhli qalanı Əbdülqafar xanın adamlarına verməyə razı oldu, bu şərtlə ki, qalibiyyətli əskərlər ger qayıtsınlar və bir daha onlara hücum eləməsinlər.

Əzəmətli əmirlər də orada qalmağı məsləhət bilməyərək, onun əşya və adamlarını götürüb geri qayıtdılar.

Bu hadisədən xəbər tutan bir dəstə gürcü və düşmən təbəqəsi bir nesə darısqal yerə tüfəngçi və kamandarlar qoyub, ləşkərin gələcəkləri yolu bağladılar ki, qayıdan zaman onlara hücum eləsinlər.

İqbalın köməyi nəticəsində təqdir gücü əzəmətli əmirlərin cilovunu o yoldan döndərdi və onlar başqa yolla hərəkət etdilər, ləşkərin önünü və arxasını bacarıqlı adamlarla möhkəmlədib, tam ehtiyyatla irəliləməyə başladılar. Müxaliflər bir xeyli gözlədikdən sonra qızılbaş qoşununun başqa yolla getdiyindən xəbərdar oldular və bir dəstə gürcünü onların üzərinə göndərdilər. Əskərlərin əksəriyyəti oradan çıxıb öz mənzillərinə doğru getdikləri bir gün Şahbəndə xan və Qazaq xan az miqdar adamla ləşkərin ardınca ehtiyatla getməkdə ikən, yolun bir səmtindəki meşədən tüfəng səsi eşidildi. Mə'lum oldu ki, bu üç tərəfdən cəngə hazır olan gürcü tüfəngçilərinin səsidir. Adı çəkilən əmirlər və gürcülər arasında ağır bir döyüş baş verdi, türkman ağaları, Şahbəndə xanın mülazimləri və bacarıqlı cavanların bir neçəsi tələf oldu.

Qazaq xanın əksər əskərləri orada qalmayıb, xəbərsiz yol axtarmağa başladılar, xanın özü isə şücaət və cəhalətinin çoxluğundan orada dayandı. Şahbəndə xanın orada qalmağı və gürcülərlə döyüşməyi məsləhət görmədiyinə baxmayaraq Qazaq xan ona qulaq asmadı. Yol səmtindəki bir çaydan keçib müxaliflərə hücum etdi ki, onların az-çoxluğundan xəbər tutub buna uyğun hərəkət eləsin.

Həmin darısqal yerdə onu bir neçə nəfərlə azlıqda görən gürcülər hücuma keçdilər.

Onu çətinlikdə qoyub özünün xilas olmağını yoldaşlıq
**s.1029** şərtinə və qeyrətinə sığışdırmayan Şahbəndə xan da həmin
**(725)** çayı keçdi.

Elə bu vaxt bir neçə gürcü meşədən çıxıb onlara hücuma
**s.1029** keçdi və cəng başlandı. Qazaq xan əsir alındı, Şahbəndə xan isə nə qədər vuruşdusa da, fəqət bir neçə türkman qazisi ilə ali şəhadət dərəcəsinə yetişdilər.

Vuruşma zamanı yolun çətinliyindən bu qalibiyyətli əskərlərin geri qayıtmaları, yaxud onlara köməkçi qüvvə gəlməsi mümkün deyildi, buna görə də orada qalmağın faydasızlığını görən bir neçə əskər çaydan keçib geri qayıtdılar. [Gürcülərsə] Qazaq xanın qazilərini əsir apardılar. Ali dərgahda Qazaq xanla çörək kəsmiş Təhmurəs, Mouravi və Söhrab bəy onu öldürməyib əzizləməyə başladılar. Qazaq xan bir neçə vaxtdan sonra özünün bir-iki mühafizini şirnikləşdirib, onların köməyi ilə xilas oldu, qızılbaşların yanına qayıtdı. Hal-hazırda o, Şirvan bəylərbəyidir.

Baş verənlər şaha ərz olunduqda o, bütün vəfat edənlərin övladlarına qəlbində olan məhəbbətinin bolluğundan Şahbəndə xanın üç yaşlı uşaq olan oğlunu uca "xan" ləqəbi ilə şərəfləndirib, Azərbaycan bəylərbəyi tə'yin elədi, qohumlarından birinə, vəzifə işlərini nizamlamaqdan ötrü, bu uşağa vəkil və naiblik səlahiyyəti verdi. O silsilənin qadınları bu mərhəmət müjdəsindən sevindilər və matəmləri şənliyə çevrildi. Bunu görən dərgah mülazimlərinin taxt-tacının yüksəkliyi fələyə ucalan padşahın (padşahe-gərdunbargah) mərhəmət və iltifatına olan ümidləri daha da çoxaldı və o həzrətin haqqı itirməməsi və həqiqəti qiymətləndirməsinin sədası üfiqlərədək ucaldı. Hamı bu əhvalatın tə'siri ilə belə misraları oxumağa başladı:

**Beyt**

*Xəstənin dərdinə bir gör necə əncam olunur,*
*Hamımız, yaxşı təbib var deyə qoy xəstələnək.*[1]

Keçmiş zamanlarda kamkar sultanlar və ədalətşüar padşahlar arasında canlarını fəda eyləyən insanlara qarşı belə bir diqqət göstərilməmiş, yəni üç yaşlı uşağa uca əyalət və əmirülüməralıq rütbəsi verilməsi və çocuğun imtiyaz və iftixar xəl'ətinə layiq görülməsi kimi hala olduqca az təsadüf

[1] Beytin farscası:
Gər bedin san qəme-bimar boxahəd xordən,
Xoş təbibist, biya [ke] həme bimar şəvim.

olunmuşdur. Ümidvarıq ki, o həzrət ömür və dövlətdən kam alacaq və hər zaman səxavətli Haqq dərgahından bəxşiş və hədiyyələr görəcəkdir.

## MÜXTƏLİF VAQİƏLƏR VƏ BU İL ALLAHIN TƏQDİRİ İLƏ CAH-CƏLAL ORDUSUNUN BAĞDADA YÜRÜŞÜNDƏN QABAQ BAŞ VERMİŞ HADİSƏLƏR BARƏDƏ SÖHBƏT

Yuxarıda yazıldığı kimi, adı çəkilən Mouravinin əməlləri baş verən vaxtlarda sərhədlərdəki qorxulu xəbərlər və söz-söv hər tərəfə yayılmağa başladı, hər yerdə fitnələr zahir oldu. Ağılsız kəmfürsət adamlar belə əməllərin baş verməsində dövlətin zəif olduğunu düşündülər, [buna görə də,] fürsət gözləyən düşmənlər artıq fürsətin yetişdiyini güman etdilər, özlərini tərəfdar kimi (vəfaq) göstərənlər isə nifaq yaratmağa başladılar.

Sədaqət və həmrə'yliydən dəm vuran Əbazə paşa sazişi və əhd-peymanı unudaraq, e'tibarlı bir adamını Diyarbəkrə, Hafiz Əhməd paşanın yanına göndərib ona öz tabeliyini bildirdi, ə'lahəzrət tərəfindən onun yanına göndərilən qorçi Novruz bəy Ustaclını həbs etdi. Sonra özünə xas hiyləgərlik və riyakarlıqla onun qətlinə fərman verərək, elçini yoldaşlarından da bir neçəsinin başını kəsib sərdarın hüzuruna göndərdi.

Rumiyyə əmirlərindən olan və Əbazə paşa tərəfindən Axəsqə yaxınlığındakı Qaraca Ərdahana göndərilən Mürtəza
**s.1030** paşa adlı bir adam, ya onun təhriki, ya da öz iradəsi ilə Axəsqə qalasını utmaq istəyərək, o tərəfə hərəkətə başladı. Axəsqə hakimi Səlim xan Şəmsəddinli və qalanı mühafizə edən tüfəngçilər o vaxt daim hər tərəfdən eşidilən Gürcüstan vaqiələrindən və qorxunc xəbərlərdən qorxdular, qalada qala bilmədilər, oradan çıxıb qorçibaşının ordusuna birləşdilər, Mürtəza paşa isə gəlib asanlıqla və döyüşmədən qalanı zəbt etdi. Əbazə paşa Rum vilayətindən çoxlu mal ilə qayıdan əcəm tacirlərini tutub, tamahkarlığı üzündən o biçarələrin bütün mallarına sahibləndi.

Başqa bir hadisə isə belə baş vermişdir: Əmirgunə xan Çuxur-Sə'd ləşkəri ilə İrəvandan çıxıb qorçibaşının ordusuna birləşərkən, bir dəstə kürd fürsət tapıb Şərur ülkasını qarət etməyə gələrək rəiyyətə zülm etdi. Bir dəstə qacar qazisi, həmçinin başqa adamlarla qala və ülkanın mühafizəsinə qalmış Əmirgunə xanın övladları onların üzərinə gedib cəngə başladılar, bir dəstə kürd qətlə yetirildi.

Başqa hadisə isə belədir: Sehran və Bəradust kürdlərindən bir dəstə adam Səlmasda toplaşıb Şahqulu Bülbülanın[1] nəvəsi
**s.1031** Qazi bəyin ülkasını tarac etməyə yollandı. Qazi bəy qardaş-
**(726)** larına qarşı çıxmış və bu müqəddəs xanədanın tərəfdarı olmuşdu. O, Curəs[2] və Səlmas hakimi Salman xan Subaşıya xəbər göndərib, onu o dəstənin yürüşündən xəbərdar elədi. O da, öz növbəsində Marağa hakimi Ağa Sultan Mir Müqədəmə xəbər yolladı və onlar birlikdə kürdlərin üzərinə hücuma keçdilər. Cəng başlandı və tərəflərdən bir neçə adam həlak torpağına düşdü.

O günlərin hadisələrindən biri mokri tayfasının əmiri Şirbəyin üsyanı və fitnəkarlığıdır. Qubad xanın qətlindən və mokri tayfa düşmənlərinin cəzalandırılmalarından sonra ə'lahəzrət şah Şirbəyi öz yanında böyüdüb, nökərlikdən əmirlik rütbəsinə qaldırmış, onu öz tayfasının böyüyü etmişdi. [Şah] məhz onun xatirinə həmin tayfadan olan başqa müxaliflərin təqsirindən keçmiş və o vaxdan bu vaxta qədərki on beş il müddətində Şirbəy və qardaşı Maqsud bəy bir neçə övlad və qohumları ilə şahanə iltifat və tabeçilik kölgəsi altında asudə, dövlətli, izzətli və firəvan olmuşdular. Şahın şəfəqqət və tərbiyə şəfəqinin işığı gün-gündən Şirbəyin üstündə parlayır və onun məqamı get-gedə daha da ucalırdı. Bu il o, yersiz olaraq həmin tayfanın bir neçə quldur və fitnəkarlarının təhriki, xüsusən naxələf və cahil oğlunun tə'siri ilə başını itaət və sədaqət paltarının yaxasından çıxarıb üsyana başladı, quldurlardan ibarət ağır qoşunla Marağa gələrək müsəlmanlar üzərinə qətl və qarət əlini açdı, əskər və

[1] "Bəlilan" olmalıdır – *Ş.F.*

[2] "Çurəs" olmalıdır – *Ş.F.*

rəiyyətin bir neçəsini bəla xəncərinə yem etdi. Üsyançılar müsəlmanların bir çox qadın və qızını tutub apardılar, mallarını tarac, oğul-uşaqlarını əsir etdilər.

Bu qəmgin xəbər şaha çatdıqda Şirbəyin yersiz hərəkəti onun təəccübünə səbəb oldu. Şücaət mə'dəni və hövsələ dəryası olan ə'lahəzrət zillətlah şah bu hadisəyə görə heç yerə getmədi, ilahi lütfükarlığa, müqəddəs imdada arxalandı, dərgahın e'tibarlı adamlarından evlər naziri (nazere-biyutat) Zaman bəyi dərgah mülazimləri, şah qoşunununn tüfəngçiləri, İmamqulu xanın süvariləri və başqalarından ibarət beş min nəfərlik qoşunla Şirbəyin fitnəkarlığının aradan qaldırılmasına yolladı. Şah əvvəlcə hümayun süfrə çörəyindən (çurək!) bir tikəsini sədaqətli bir işçisi ilə Şirbəyə göndərdi, bu onun hərəkətinə bir işarə idi, yəni səni biz böyüdüb tərbiyələn-
**s.1031** dirmişik, sən Əli ibn Əbu Taleb əleyhüssalamın ailəsinə mənsub olan bu sülalənin duz-çörəyini yemisən. Səbəbsiz yerə bu çörəyi ayaqladın. Mən səni bu çörəyin sahibinə tapşırıram.

Şirbəy zahiri və batini qəhr və cəza xəmirindən bişirilən bir tikə çörəyi görən kimi, özünün və el-əşirətinin sərgardarlığına səbəb ola biləcək bəlanın yetişəcəyini bildi, xeyli xəcalət və peşimançılıq çəkdi, qalibiyyətli ləşkərin gəlib-çatdığını görüb möhkəm qorunan yerlərə pənah apardı. Onun el-əşirəti də avaralıq səhrasına üz tutdu, Şirbəyin cəmiyyət evinin şüşələrinə ayrılıq daşı dəydi və o, öz rahətlik xərmənini səbəbsiz yerə yelə verdi. Zaman bəy və qəhrli əskərlər onun məskəni olan Gavdula qədər gedib, o yerləri qarət etdilər və geri döndülər.

**Ş'er**

*Dinimizin ayini pislik deyil,*
*Yaxşılıq etmək sənə cayızmıdır?*[1]

---

[1] Şe 'rin farscası:
Bədnəməki nist ze ayine-din,
Həqnəməki ta çe konəd bəd əz in?

## QƏLƏBƏ AYƏLİ BAYRAQLARIN BAĞDAD DARÜSSALAMINA TƏRƏF DALĞALANMASI VƏ ALLAHIN KÖMƏYİ İLƏ [QIZILBAŞLARIN] QALİBİYYƏTİNİN ZİKRİ

Yuxarıda yazıldığı kimi, qələbə ayəli bayraqlara və cahcəlala sahib olan [şah] bir neçə vaxt Sultaniyyədə olarkən xaqana yaxın adam (möqərrəbül-xaqani) olan və Bağdad sərhədinə gedən Zeynal bəy Tuşmalbaşı qayıbıb ali saraya gəldi, şah ilə görüş səadəti zamanı, baş vermiş əhvalatları ərz etdi. Həmçinin, ard-ardınca gələn carçı və casuslar (cəvasis) vasitəsiylə Rum sərdarə və əskərlərinin Bağdada yürüş etməsi məsələsi gerçəkləşdi, [Buna görə də,] hümayun məiyyətin oraya hücumu qərarlaşdı. [Şah] döyüşkən müqəddəs ordunun münqəlayı olması, əzəmətli əmirlər və hakimlərlə birlikdə Bağdad vilayətini din və dövlət düşmənlərindən dəf etməsi, qoruması, dövlətin məsləhət bildiyi məsələləri yerinə yetirməsi üçün Zeynal bəyi bütün müzəffər əskərlərə sərdar və sipəhsalar* tə'yin etdi. Hökm olundu ki, o hüduddakı əskərlərin hamısı bu sipəhsaların yanında yığışıb onun məs-
**s.1032** ləhətindən çıxmasınlar. [Şah] müzəffər ordudan üç min
**(727)** təcrübəli döyüşçü, topçu, sınaqdan çıxmış tüfəngçibaşı, qalaya mərmi yığdıran tüfəngçi ayırarıq, onları İraqi-Ərəb bəylərbəyi Səfiqulu xan, İsfahan minbaşısı Mir Fəttah və sabiq vaxtlarda qalada yaşamız mübarizlərlə birlikdə qaladarlıq etmək məqsədi ilə mübarək Bağdad darüssalamı üzərinə göndərdi, onların ardınca isə sipəhsalar Zeynal bəy bir dəstə qəhrli mübarizi köməyinə yolladı və hamısı Zeynal bəyin qardaşı oğlu Nurəddəhr bəyin sərkərdəliyi altında rəvan oldular. Sultaniyyədən çıxan şah həzrətül-övliyanın və əzəmətli və müqəddəs şeyxlərin "Allah onların sirlərini qorusun"[1] məzarlarının ziyarəti şərəfinə çatmaq məqsədi ilə ziyarətgaha gəlib çatdı, dini mərasimləri qayda-qanunla yerinə yetirdi, dualara layiq feyz və rəhmət məkanı olan nurlu qəbirlərin təvafından sonra Allah dərgahının o seçilmiş

[1] Ərəbcəsi: "Qəddəsə-l-lahu əsrarəhum"

adamlarının pak ruhlarından fəth və qələbə arzusu ilə öz xahişini edərək [yenidən] Sultaniyyəyə tərəf qayıtdı, qorçibaşının adına belə hökm yazıldı: O, qoy bu il Qarabağda qışlasın, Mouravinin və başqa üsyankar gürcülərin dəf edilməsi
**s.1032** ilə məşğul olsun, öz yanında lazımi miqdar əskər saxlayaraq başqa döyüşçüləri qayıdıb müzəffər orduya qoşulmaqdan ötrü mürəxxəs etsin. Şah sonra səfər ayının ikisində (14 noyabr, 1624) Sultaniyyədən yola düşmək əmri verdi, sabiq rica və niyyətlə bu yerdən çıxıb məqsədinə doğru üz tutdu.

## SƏRDAR HAFİZ ƏHMƏD PAŞANIN SAYSIZ-HESABSIZ RUM ƏSKƏRLƏRİ İLƏ İRAQİ-ƏRƏBİN FƏTİNƏ LƏŞKƏR ÇƏKMƏYİ VƏ BAĞDAD DARÜSSALAMI QALASINI MÜHASİRƏ ETMƏYİNİN ZİKRİ

Yuxarıda yazıldığı kimi, Hafiz Əhməd paşa baş vəzir və sərdar olduqdan sonra Bağdad qalasının fəthinə yollandı. O, Diyarbəkrdə olduğu iki il müddətində Rum diyarının hər tərəfindən ordusuna saysız əskər və çoxlu adam topladı, kifayət qədər topxana sürsatı, qalatutan silah və ləşkər ləvazimatı yığaraq yürüşə hazır oldu. Yuxarıda mə'lumat verildiyi kimi Mouravi Gürcünün üsyanı, Gürcüstan hadisələrinin başlanması, Qərçiqay xanın və Yusif xanın qətlə yetirilmələri xəbəri ətrafa yayıldı. Habelə Şirbəy Mokrinin müxalifət etməsi və üsyana başlaması da illətə səbəb oldu. Əhali arasında belə söz-söhbət yayıldı ki, qızılbaş ləşkəri Gürcüstanda məğlubiyyətə uğramış və qızılbaşların padşahı Gürcüstan fitnəsini yatırmaqdın ötrü o səmtə yola düşmüşdür, hazırda isə Ərdəbildədir. Rum böyükləri sərdarının fikri belə oldu: "Bağdad tərəfi boş olduğundan, gərək fürsəti qənimət bilib, oraya rəvan olsunlar. Əcəm padşahı Qarabağ və Gürcüstan işləri ilə məşğul olduğu üçün [Bağdada] kömək edə bilməyəcəkdir. Bağdaddakı qızılbaş əmirləri şah köməyindən mə'yusdular və onlar saysız-hesabsız rum əskərlərinə tab edə bilməyərək məmləkəti qorumaqdan əl çəkəcəklər və Bağdad qalası asanlıqla ələ keçəcəkdir".

Bu barədə o hüduddakı ərəb qoşun başçılarından Nasir Mühənnanın oğlu Əbu Talebə mə'lumat verildi. Buna görə də, sərdarın İraqi-Ərəbə yürüşü qərara alındı və sərdar öz adamlarının [və ərəblərin] təhriki ilə gedişi sürətləndirib, köç-köç yola rəvan oldu. Diyarbəkr bəylərbəyisi olan və özünü rum şücaətlilərinin şücaətlisi sayan Murad paşanı qoşunun münqəlayı vəzifəsinə təyin edən sərdar özündən əvvəl Bağdada yollandı ki, ərəb qoşun başçılarının köməyi ilə o məmləkəti zəbt edib orada bayraq qaldırsın.

Yazıldığı kimi, keçən il Qasım xan Əfşar Mosulda baş verən azuqə qıtlığından və tüğyan edən vəba səbəbindən orada qalmağı məsləhət bilmədi və o tərəflər qızılbaş əskərlərindən xali oldu. Ərəb tayfalarının də'vəti ilə Murad paşa İraqi-Ərəb darülmülkünə qədəm basdı və Əbu Taleb Mühənna onun köməyinə bel (kəmər) bağladı. Paşa Hacı bəy Ləki-Zəhab qalasına, Mustafa paşa Cəstanini-Məndəli qalasına göndərdi, başqa yerlərdəki qızılbaş ləşkəri isə Səfiqulu xanın məsləhəti ilə öz yerlərindən çıxıb Bağdad qalasında toplaşdılar. Əsassız (əracif) xəbərlər və yalan sözlərə görə, güya qızılbaş dəstələri tam vahiməyə düşərək, hərbi ehtiyatkarlıq naminə özlərinin bə'zi mallarını və ağır-yüngül şey-
**s.1032** lərini kənara göndərmişlər, yalnız özləri subay[1] və heç kəssiz
**(728)** qalada qalmaqdadırlar. Belə sözlər Murad paşanın ürəklənməsinə səbəb oldu, irəli gedib müqəddəs Kərbəlanı və Hilləni istila etdi, Hası bəy Lək Zəhabı, Mustafa paşa Cəstanı isə Məndəli qalasını zəbt etdi. Nəcəfi-Əşrəfi qorumağa təhkim olunan təxminən yüz əlli isfahanlı və nəcəfli tüfəngçi isə Nəcəf şahənşahının (İmam Əlinin – *Ş.F.*) müqəddəs ruhuna and içərək o pak rövzəni qorumaqa başladılar. Onlar isfahanlı tüfəngçi *Pəhləvan Möhsün Aşeqabadinin* sərkərdəliyi
**s.1033** ilə Nəcəfi-Əşrəf qalasında dayandılar, mərdanəliklə qalanı qorumağa girişdilər, Murad paşa isə bir dəstə rum əskəriylə oranı fəth etməyə yollandı, mühasirədəki qızılbaşları mühasirə halqası içərisinə saldı.

[1] Subay-burada, güman ki, təkcə, ailəsiz qalan adamlar mənasındadır – *Ş.F.*

Bu başlanğıc işi özünün fəth və zəfərinin müqəddiməsi olduğunu zənn edən Hafiz Əhməd paşanın dəstələri ardı-ardınca köç-köç rəvan oldular. Səfər ayınının doqquzunda (21 noyabr, 1624) paşa fəth və zəfər naminə darüssalam qalasına gəlib çatdı, orada ayaq saxladı. Hər tərəfdən dəstə-dəstə gələn rumilər qalanı hər yandan mühasirəyə alaraq, oranı üç səmtdən dövrələdilər.

Səfiqulu xan və qızılbaş mübarizləri bellərinə mərdanəlik kəmərini möhkəm bağlayıb qalanı qorumaq üçün qorxu (sovlət) və məğrurluqla (setvət) rumilərlə vuruşmağa başladılar.

Rumi döyüşçülərinin qalanın hər tərəfinə səpələndikləri birinci gün Səfqulu xan təcrübəli mübarizləri və cəngaxtanan igid cavanların bir dəstəsini müxaliflərin ömür və var-dövlət xırmanlarına ildırım kimi atəş vurmaqdan ötrü və rumilərlə vuruşub dərhal qalaya qayıtmaları üçün göndərdi. Cəng meydanının həmin igidləri Əbu Hənifənin dəfn olunduğu məzarən yanında eşiyə çıxıb özlərini şimşək kimi rumiyyə döyüşçüləriə vurdular və aralarında qızğın hərb başlandı. Qoşun gəlib çatanadək bir göz qırpımında üç yüz nəfərə yaxın [ruminin] bə’zisini öldürdülər, bə’zilərini isə tutaraq, öldürülənlərin kəsilən başları, at, qatır və dəvədən ibrət heyvanları özləri ilə götürüb qalaya qayıtdılar. Baş vermiş bu həmlədən öz hesablarını bildilər, mühasirə başlanan vaxt qalada olanların əvvəlki qorxuları qalmadı, qorxmazlıqla öz qaladarlıqlarını davam etdirdilər. Saysız-hesabsız müxalif döyüşçülər isə qalanın üç tərəfini şimal səmtdən-Dəclənin kənarı və Əbu Hənifənin məzarı əhatə olunmaqla cənubda yerləşən və Dəcləyə birləşən Qara Qapı dərvazəsinə qədər bir fərsəxdən, bəlkə də daha uzun məsafədən mühasirə etdilər, adı çəkilən məzarın yaxınlığında, Dəclə üzərində körpü bağladılar, çox miqdar əskəri qüvvəni çayın o biri tərəfinə göndərdilər, qalanın qərbində yerləşən və Quş Qalası adlı qalaçası olan Köhnə Bağdadı möhkəmləndirdilər.

Məhsulların əkin vaxtı yetişdiyindən keçən il əhali Hillənin bütün mahallarında əkin-biçinlə çox məşğul olduqları

üçün, çoxlu da ərzaq ehtiyatı qalmışdı, amma bütün məhsullar rumilərin əlinə keçmiş və onlar arxayınlıqla Hillədə ləngər salmışdılar, qala ləvazimatı toplamağla məşğul idilər. Hümayun məiyyət Həmədan hüduduna yaxınlaşdıqda rumiyyənin gəlişi və onların mürtədliklə (ertedad) şəhər və qala sakinlərini mühasirəyə almaları barədə şaha xəbər ərz etdilər.

Amma ləşkər əskərlərindən ibarət bir dəstə adam qalada olanlara kömək etmək üçün rumilərdən əvvəl oraya çatmış və qalanı əldən verməməkdən ötrü mərdanəliklə cidd-cəhd edirdilər.

## MÜZƏFFƏR ŞAH QOŞUNUNUN YÜRÜŞÜ VAXTI YOLDA BAŞ VERƏN HADİSƏLƏRİN ZİKRİ, LƏK VƏ MƏNDƏLİ QALALARININ FƏTHİ

Müzəffər şah bayraqları İraqi-Ərəbə doğru dalğalandı və
**s.1034** iqbal döyüşçüləri hərəkətə başladılar. Zəfərpənah ordu üzvlərinin çoxluğundan yol yavaş-yavaş qət’ olunur, hər gün əzəmətli orduya döyüşçü dəstələri qoşulur, hümayun məiyyətə birləşirdilər. [Şah] bə’zi adamları münqəlay qoşununun sərdarı Zeynal bəyə qoşulmalarından ötrü irəli göndərdi. Nəhayət Dərtəngə və Bağdad hüduduna yaxın olan Mahidəştin Harunabad adlanan yeri Cəm qədr-qiymətli, Firudin əzəmətli xosrovun düşərgə yerinə çevrildi.

Bu zaman cahanı bəzəyən rə’y belə oldu: Qaladarlıq işlərində təcrübəli döyüşçülərin min nəfərdən ibarət başqa bir dəstəsi qoy qalaya göndərilsin, mühasirə müddətinin uzana biləcəyi, habelə qurğuşun (sorb) və barıtın azala biləcəyi ehtimalını nəzərə alıb qaladakı bu hərbi ləvazimatın miqdarı dəqiq müəyyən edilsin.

Qala mühasirəyə alındığı üçün bu iş çətin və icradan uzaq sayılırdı. Bütün bunların icra olunmasından ötrü şücaətli və igid adamların bir dəstəsi, həmçinin ölümdən qorxmayan
**s.1035** sədaqətli cavanlar, xüsusilə imanlı tayfası ilə birlikdə Mosul
**(729)** qalasına daxil olmaq işində səhlənkarlıq (mosamehe) etmiş Kəlbəli bəy ibn Qasım xan İmanlı şah qarşısında təqsirkar olduğu üçün, onlar qalaya girmək fikrinə düşdülər.

Onlardan başqa, Hüseyn xan Firuzcəng Cığatayın oğlu Firidun Hüseyn Mirzə, Bərxurdar bəy Ənis Topçubaşının oğlu Mürtəzaqulu bəy, Mirzəxan bəy Qacar, Mirzə Mə'sum Ərəbğəlizi Xorasani, Bərxurdar bəy Zülqədər, o tayfa mirzadələrindən olan İmamqulu xanın mülazimləri və başqa min nəfərədək təcrübəli dilavər də xidmətin icrasına boyun olub izn aldılar, hümayun şahın zavalsız iqbalına inanaraq "Allaha təvəkkül"[1] dedilər, ali məiyyətdən və hümayun şahın düşərgəsindən ayrıldılar, özləri ilə qurğuşun və barıt götürüb yola rəvan oldular, münqəlay qoşunun sərdarı Zeynal bəyin ordusuna gəlib çatdılar, oradan çıxıb yollarını davam etdirmək istədilər. Zeynal bəy ehtiyatkarlığının çoxluğu və hərbi uzaqgörənliyi üzündən bir dəstə müzəffər əskərlə birlikdə onlara kömək məqsədilə ata süvar oldu və bir qədər yol getdi, sonra təcrübəli iki-üç min adamı qardaşı oğlu Nurəddəhrlə birlikdə onlara yoldaş etdi. Onlar şəhərin iki fərzəxliyinədək gedərək gecə vaxtı səhrada dayandılar, sübh rumilərdən xəsarət çəkməmələrindən ötrü cəng hazırlığına başladılar, qalaya bir adam göndərib öz gəlişləri barədə xəbər çatdırdılar, gecənin qaranlığında sel kimi axışıb, Əbu Hənifə məzarı darvazasının yanından keçdilər, qalaya üz tutdular.

O dəstədən Bərxurdar bəy Zülqədər, Mirzə Mə'sum Qəlizi və daha bir neçə adam qaranlıq gecə vaxtı (dicur) öz yoldaşlarından ayrı düşüb rumi hücumuna düçar oldular, çox döyüşdükdən sonra onların hər ikisi ələ keçdi, adamlarından bir neçəsi qətlə yetirildi, bə'ziləri isə yoxa çıxdı, amma qoşunun qalan adamları özlərini bir-birinin ardınca ildırım kimi darvazaya çatdırıb sağ-salamat şəhərə və qalaya daxil oldular, üç min mən* qurğuşun və barıt çatdırdılar. O tərəflərdəki rumilərin onlara nəsə bir zərər yetirmə fürsəti olmadı, qaladan isə şadimanlıq nağarasının səsi və sevinc sədaları göylərin övcünədək yüksəldi. Ertəsi gün o dəstərin qalaya çatdıqları xəbəri Nurəddəhr bəyə və qazilərə çatdı, onlar geri qayıdaraq münqəlay düşərgəsinə birləşdilər.

---

[1] Ərəbcəsi: "Mütəvəkkilən əla-l-lahi"

Bu hadisə olduqca açıq-aşkar baş vermiş bir əməliyyat idi ki, heç dövürdə onun bənzəri olmayıbdır. Belə ki, bu vaqiə yüz min müxalifin əhatəyə aldığı bir qalanın şüarları sədaqət olan və can nəqdini ovcuna qoyub sidq-niyyətlə atlanaraq çoxlu rumi arasından keçən və özlərini sağ-salamat qalaya çatdıran şücaətli min nəfər qazi tərəfindən belə bir mübarək zamanda
**s.1035** həyata keçirilmişdi. Əgər padşah əmrinin tə'siri və əskərlərinin canfəşanlıqları belə davam edərsə, müxaliflərin başlarına gələcəkdə nə iş gələcəyi mə'lumdur. Harunabad və Dərtəngdə yerləşən Lək qalası adı ilə məşhur olan Zəhab qalası, həmçinin Məndəli adlanan qala müxaliflər tərəfindən zəbt edildiyi üçün bundan artıq irəli getmək bu dövlətə layiq olan iş deyildi, çünki gediş-gəliş vaxtı ali ordu üzvlərinə rumilərdən zərər toxuna bilərdi. Amma, döyüşə hazır olan və ali düşərgəyə yollanan Luristan hakimi Həsənxanın yolu Məndəlidən keçməliydi. [Şah] bu işi ona həvalə etdi. Ona şah qoşununun tüfəngçilərindən, beldarlardan və başqalarından ibarət köməkçi qüvvəsi də verib irəli yolladılar, Kəskər hakimi Yusif Sultanı isə cığatay və xorasanlı tüfəngçilərlə Lək qalası üzərinə göndərdilər. Əzəmətli ordu Harunabadda dayandı və qalaların fəthinə yollandılar. [Yusif Sultan və Həsən xan] fərman alaraq bu işin icrasına yollandılar, seybələri irəli aparmağa girişdilər, qalanı tutma mərasimini yerinə yetirməkdən ötrü çalışdılar, mühasirədə qalan adamların vəziyyəti ağırlaşdı. Cəngavər qızılbaş qoşunu yol başını kəsdiyindən rum sərdarı tərəfindən qalaya heç bir kömək yetirilə bilməzdi.

Əvvəlcə, Məndəli qalasının hakimi Mustafa paşa Cəstani aman kəmərinə əl atdı, vəlayətpənah həzrət şaha qulamlıq, dostluq və səadət izhar etdi, sərdarın qalada olan qapıçıbaşısı* Məhəmməd ağanı da istər-istəməz aman istəməyə meyilləndirdi. Onların ikisi də eşiyə çıxdılar və qala ələ keçirildi, qaladakılar isə Mustafa paşanın sayəsində nicat tapdılar.

Mustafa paşa Cəstaninin alın lövhəsində (lövheye-pişani) sədaqət, habelə imamət və vəlayət xanədanına yaxınlıq və məhəbbət (vəla) zahir olduğu üçün sultanlıq rütbəsi ilə sərəfraz oldu, " Abdal Əli" ləqəbini aldı. Göstərdiyi xidmətə

görə adı çəkilən ülka Hüseyn xana hədiyyə və bəxşiş kimi verildi. Göstərdiyi ülfət və canfədalığına görə Hacı bəy Lək və Zəhab qalasının mühasirədə olan adamları əvf olunmağa və aman almağa ümüdvar olub qaladan eşiyə çıxdılar. Onlar da səltənət sarayına gələrək “aman” libası geyinib şahın mərhəmət nəzərinə yetişdilər, Zəhabın hakimliyi mənsəbi Nəfəs Sultan Gorusa verildi. [Şah] bu qalaların fəthindən
**s.1036** xatircəm olduqdan sonra Harunabaddan köç əmri verib
**(730)** məqsəd istiqamətinə rəvan oldu. Çayın tüğyanı vaxtı yaxınlaşdığından onun suyu gün-gündən çoxalmaqda idi, yol isə ləşkərin keçid yeri üstündəydi. Rumlu oymaqlarının birindən olan Heydər Sultan Qəvilə Hasarlıya körpü hazırlamaq tapşırıldı və o bu işin ləvazimatının və iş əməllərinin hazırlığı ilə məşğul oldu. Şüarı zəfər olan Zeynal bəy əmr alıb, onun başına toplaşan başqa məşhur əmirlər və qalibiyyətli əskərlərlə birlikdə mənzil-mənzil irəliləyərək Bəhriz çayı kənarında dayandı. O, körpü işinin tamamlanmasının və bundan sonrakı əmri gözləyirdi ki, ona əməl etsin. Qələbə ayəli qoşun da Dərtəngdə bir neçə gün iqamət etdi, qış həmin yurdda sona çatdı. Qızılbaş döyüşçülərinin canfədaları tərəfindən hər gün qalaya qasidlər gedib-qayıdır, onlar mühasirədəkilər və qala xaricində olanların gündəlik vəziyyətlərindən xəbərdar olurdular. Qala əhli iqbal döyüşçülərinə güvənib
**s.1036** (poştgərmi) müxalif ləşkərin sədəmələrini mərdanəliklə dəf’ edir, qaladarlıqla məşğul olurdu.

## MÜZƏFFƏR LƏŞKƏRİN SİPƏHDARI ZEYNAL BƏYİN BAŞINA GƏLƏN HADİSƏLƏRİN ŞƏRHİ, ZƏFƏRLİ ƏSKƏRLƏRİN MURAD PAŞA İLƏ HƏRB ETMƏLƏRİ, ZEYNAL BƏYLƏ MÜXALİFLƏR ARASINDA BAŞ VERƏN İŞLƏR

Müşk ətirli qələm bu ildə baş vermiş sonrakı hadisələr barəsində bunları yazmağa başlayır: Qələbə nişanlı münqəlay əskərlərin sipəhdarı Zeynal bəy Bəhruz çayı kənarında dayanarkən onun və zəfərli əskərləri tərəfindən igidliklər baş vermişdi. O cümlədən, körpü hazırlanmasında çoxlu qır və

qətranın tələb olunması, amma onlarınsa o yerlərdə tapılmaması idi. Xəbər gətirənlərin məlumatına görə rumilər Bəkr Subaşının müvəqqəti hakimiyyəti və düşmənçiliyi günlərində körpü çəkilişindən ötrü çoxlu qır gətirmişdilər və istifadəsiz qalmışdı, indi isə həmin qır Əbu Hənifə məzarının iki fərsəxlik məsafəsində idi. O qırın gətirilməsinə cəhd edən Zeynal bəy bu işlə məşğul olub min nəfərdən ibarət qoşuna həmin işə başlamağı təklif etdi, onlar da ürəklə məqsədə doğru yollandılar, müxalif ordu məş'əllərinin göründüyü bir yerdə mətləbləri hasil oldu. Onların bə'ziləri qırı torpaqdan çıxarmaqla, bə'ziləri isə qarovulda (pas) dayanmaqla ehtiyc qədərincə qır çıxarıb onu qüsursuz tərzdə və arxayınlıqla orduya çatdırdılar.

Başqa bir əhvalat isə belə olmuşdur: Körpü işlərinin tamamlanması zamanı bir neçə gün Bəhruz çayı kənarında dayandılar, elə o vaxtlarda hümayun məiyyət oraya gəlib çatdı. Rumilərsə arxayınlıqla gecə-gündüz qalatutma ləvazimatı hazırlamaqla məşğul idilər. Zeynal bəy və əmirlər körpü işlərinin bitməsini gözləməyərək, cəng əmri, həmçinin düşmənlərin arxayınlıqlarını pozmaq niyyəti ilə iyirmi beş min nəfərədək öndəki qalibiyyətli döyüşçülərlə sal və gəmilər vasitəsiylə çayı keçərək altı-yeddi fərsəx yol getdilər və müxalif ordunun yaxınlığında döyüş səfi bəzədilər. Ordularının hər tərəfindən xəndəq qazmış rumilərsə, qarşı gəlmədilər və qızılbaş döyüşçüləri ilə hərbə girmədilər. Gün başa çatdı, cəng əzmi ilə buraya gəlmiş qalibiyyətli qoşun gecəni səhrada keçirməli oldu, sonra zərurət üzündən geri qayıdaraq, öz iqamət yerlərində dayandı. Qalibiyyətli əskərlər bu gediş və qayıdışdan daha da ürəkləndilər, yuxarıda yazıldığı kimi, şəhər və qalanı əhatə edərək böyük təmkin, qürur, əzəmət, xatircəmlik və bol sürsat ehtiyatı ilə qalatutma işlərini həyata keçirməklə məşğul oldular, gecə-gündüz işə qurşandılar, seybələri irəli apardılar, bir neçə yerdə torpaqdan dağlar ucaltdılar, özlərini xəndəqə çatdırdılar, qala döyəcləyən topları qalaya doğru tuşlayaraq bürc və barıları titrətdilər, yerin altıyla qalaya lağımlar atdılar.

Səfiqulu xan qalatutan ad-sanlı igidlər, tüfəngçilər və tüfəngçibaşlarla birlikdə bellərindəki mərdanəlik kəmərlərini bərkitdilər və mərdanə səs-səda (ceyqələşha) qaldırdılar, bir-iki dəfə seybələrdən çıxaraq [rumilərlə] tutuşdular, bol qənimətlərlə geri qayıtdılar, bərk ehtiyatkarlığa qurşandılar. Rumilərin topxanası Qara Qapı darvazası səmtində olduğu üçün o tərəfdən qala fəthinin həyata keçmə ehtimalı daha böyük idi. Qızılbaşlar ehtiyat məqsədiylə qala daxilində başqa bir qala da ucaltdılar, bürc və barıları möhkəmləndirdilər. Rumiyyə paşaları və sərdarları, xüsusən yeniçəri ağası qızılbaş döyüşçülərinin qorxmazlığı, həmçinin hümayun məiyyətin yaxınlaşmasından qayğılanaraq yürüşə başlamaq qəra-
s.1037 rına gəldilər.

İki ay müddətində Nəcəfe-Əşrəf qalasını mühasirə etməklə məşğul olan və həzrət [Əlinin] rövzəsinə top-tüfəng gülləlləri
s.1038 yağdıran Murad paşa qeyb döyüşçülərinin, habelə o həzrətin,
(731) bu kitabın zeyl hissəsində yazılacağı kimi xariqül'adə və pak ruhun kəraməti sayəsində heç bir iş görə bilməyərək və öz murad və məqsədinə yetişməyərək geri qayıtdı, gəlib sərdara qoşuldu, yürüşə başlamağı məsləhət bildi. Qara Qapı səmtindəki böyük bürcün altını boşaldıb barıtla doldurdular, qəflətən atəş açdılar, barıtın sədəməsi və atəşin şiddətindən bürcün torpağı havaya sovruldu, dağıntı və yarıqlar yarandı, qala divarına nərdivan qaldırıldı. Bigdeli sufilərinin biri bu yürüşdən xəbər tutub qaladarları bundan agah etdi. Bürclərin hər birini mühafizə edən başqa sərdarlar özlərinin bürc və barılarını mərdanəliklə qoruyaraq ölüm avazlı tüfəng güllələri yağdırmaq və can üzən oxlar atmaqla o adamların səf və sədəmələrini dəf etdilər.

Amma, atəş və barıtın partlayışı nəticəsində dağılan böyük bürcün altından çoxlu adam qalaya daxil olub dilavərliklə döyüşməyə başladı, bir bayraq gətirərək bürcün başına sancdılar.

Səfiqulu xan və Mir Fəttah Minbaşı bir dəstə işini bitirən adam və qala qoruyan tüfəngçilərlə o dəstəyə qarşı gəldilər, rum bayraqdarı qazilərdən birinin qılınc zərbəsi ilə öldürüldü,

onların cah-cəlal bayrağı isə yerə endirildi, o rəzillərin çoxu bir göz qırpımında hər tərəfdə həlak torpağına sərildi. Qalaya daxil olmuş bir dəstə adam qala daxilində başqa bir qalanın inşa olunduğunu görüb, qala fəthindən mə'yus olaraq xilas və nicat yolu axtarmağa başladı. Müxaliflərin əksəriyyəti geri qayıdarkən fəna diyarına yollandı. Doğru danışan xəbərçilərin dilindən eşidildi ki, bu yürüş zamanı müxaliflərin beş minədək adamı həlak torpağına sərildi və ədəm diyarına yollandı, dağılan bürc tə'mir olundu, rumilərsə bədnamlıqla öz seybələrinə qayıtdılar, bu yürüşdən heç nə əldə edə bilmədilər.

Səhih xəbərlər gətirən kəslərin və düzgün mülahizə yürüdən casusların sözlərindən qalanın xaricində və daxilində baş verənlərdən başqa gündəlik mə'lumat alan ə'lahəzrət zillləllah şah [rumilərin] yürüşə başlamaq qərarını eşitdikdə narahat oldu. Ali sarayın münəccimlərinin başçısı, bu fənndə kamil bacarığı olan Mövlana Müzəffər Cünabadi tale falına baxaraq söylədi ki, rumilər bu yürüşdə heç nə əldə edə bilməyəcəklər. Xüsusi münəccimlər silkindən olan və bu elm sahəsində mahir sayılan Mövlana Məhəmməd Tahir Yəzdi başqa münəccimlərdən daha çox İraqi-Ərəbdə Rum istilasının puça çıxacağı barədəki fikrində israr edir, vəziyyətin başlanbıcında (bədayət) belə söyləyirdi: "Ulduzların müşahidəsi və nücum [elminin] sübutları belə deməyə əsas verir ki, rumilər bu yürüşləri zamanı Bağdad qalasını tutub zəfər çalacaqlar". O, öz iddiasının təsdiqi üçün mühasirə vaxtında özünün qalaya getməsini və başqa mühasirədə olanlarla orada yaşamasını istədi, onun bu istəyinin icrasına izn verildi. Amma, müzəffər ləşkərin sərdarı Zeynal bəy buna mane olub onu öz yanında saxladı və mövlana münqəlay qoşununda qalası oldu. Allah dərgahının kömək istəyən (niyazmənd) və o həzrətə (Allaha – *Ş.F.*) tez-tez müraciət edən (mo'tad), onun dərgahına inanan (vaseq) ə'lahəzrət mühasirəyə alınanların salamatlıqları və onların pərişanlıqlarının rəf' olunmasından ötrü Allah dərgahından xahişlər edirdi. Nəhayət carçılar gələrək qalanın vəçziyyəti və qalanı qoruyan adamların qalib gəlmələri xəbərini zəfərnişan orduya gətirdilər. [Şah]

Allahın bu yaxşılığı (məhamed) və iltifatına şükürlər edərək, Səfiqulu xana və qalanı qoruyan mübarizlərə, həmçinin bütün qaladakılara təşəkkür etdi və onlar şahanə nəvazişlərlə
s.1038 sərəfraz oldular.

Körpü ləvazimatı və silahlanma hazırlığı bitdikdən sonra, hümayun şahın fərmanı ilə Cəm və Kəsra məmləkətinin əcəm ləşkəri fərmanrəvası olan Zeynal bəy düşmən ilə hərb hazırlığına başladı, yolun uzunluğunu nəzərə alaraq, Bəhriz çayı üstündən həmin körpunun çəkilişini məsələhət görmədi, onu ehtiyatda saxladı, altı fərsəx yol getməklə Bağdada üç fərsəx yoldan çox qalmadığını nəzərə aldı, gəmiləri və körpü ləvazimatını oraya nəql etdi və körpü bağlamağa başladı, ordunun ön hissəsini müzəffər əskərləri Bəhrizdən çıxıb oraya gəldilər.

Bundan rumilər agah oldular. Öz şücaəti və dilavərliyi ilə məşhur olan, başqalarından seçilən Murad paşa, o tayfanın igidlərindən ibarət on beş min adamla və bir neçə top və zərbzənlə onlara qarşı çıxmaq üçün çayın kənarına gəldi, amma onların gəlişinədək körpü artıq bağlanmışdı. Münqəlay qoşunun süfrəbaşısı olan Xələf bəy bir dəstə adamla çayı keçməyə başladılar.

Keçid vaxtı körpüdə nasazlıq oldu, Zeynal bəy dərhal o nasazlığı islah etməyə başladı. Hələ körpünü heç dörd mindən çox adam keçməmişdi ki, müxalif qoşun gəlib çatdı, tərəflərin arasında cəng başlandı. Zəfərli qoşunun dilavərləri az vaxt içərisində dilavərlik göstərdilər. Xələf bəy çərxçi
s.1039 döyüşçüləri ilə birlikdə atları müxaliflərə tərəf sürdü, cəng
(732) meydanının tozanağını göyə qaldırdı, mə'rəkə meydanını müxaliflərin qanı ilə gülgun etdi. Müzəffər qoşun igidlərinin sədəmələrinə tab gətirməyən rumiyyə döyüşçüləri bir-birlərinə dəydilər, onların səbat ayaqları sustaldı, arxalarını meydana çevirdilər və Murad paşa məğlubiyyətə uğradı.

Müzəffər əskərlər onları tə'qibə başlayaraq, müxalif tərəfin beş yüz döyüşçüsünü iti xəncər və qanlar tökən oxlarla həlak torpağına yıxdılar, rumi böyüklərindən bir neçə sancaqbəyini və kürdü əsir etdilər. Murad paşa isə yaralanaraq,

yüz hiylə ilə cəngin çəngindən qurtulub aradan çıxdı, qaranlıq bir gecədə başıaçıq halda gəlib rumiyyə ordusuna çatdı. Yer üstü abbasi libaslarının rəngini aldı, gecə hər yanı zülmətə qərq etdi, müzəffər döyüşçülər zəfərlə geri döndülər, bu aşkar (mobin) fəthin düzgün mə'lumatını padşah taxtgahına ərz etdilər. Əzəmətli ordu bir neçə mərhələ irəli gedib, Bəhriz çayı adı ilə məşhur və Diyalə dəryasının nəhrlərindən biri olan Biladrud nəhri kənarına çatdıqda, həmin yerdə artıq [şah] çadırları qurulmuşdu və baş vermiş bu döyüş haqqında mə'lumat şaha ərz olundu. Baharın gəlişi müjdəsi və novruzun yetişməsi xəbəri bir-birinə qarışdı. Yürüşün başlanğıcında həyata keçən bu məşhuro qələbəni xeyrxah adamlar [gələcəyin] böyük fəthlərindən biri sandılar, fal açdılar və müzəffər döyüşçülər əhsən və afərinə layiq görüldülər.

İlin sonu yetişdiyindən və [bu] "Aləmara" kitabında hər il ərzində baş vermiş hadisələr, [o cümlədən] həyatı tərk edib üqba aləminə yollanan məşhur şəxslərin vəfatı barədə hər il mə'lumat verildiyindən, indi bu qalibiyyətli səfərdə baş vermiş başqa vaqiələr haqqında yazacağımız "Ölümlər" bəhsindən sonra bəhs olunacaqdır, İnşallah.

**Ölümlər:**

Bu kədərli ildə ruzigarın gərdişi və davakar çərxi-fələyin adəti üzrə bə'zi şəxslər döyüş meydanında, yaxud bu duracaqsız dünyada ləzzətli (xoşgəvar) şəhadət şərbəti içib vəfat etdilər, bə'ziləri isə əcəl saqisinin əlindən ölüm balı nuş edərək torpağa baş vurdular ki, indi onlardan bəhs olunacaqdır.

**Qərçiqay xan**: Yuxarıda yazıldığı kimi, o Gürcüstanda
**s.1039** haramnəmək Mouravinin cəfa qılıncı ilə öldürüldü, şəhadət dərəcəsinə çatdı.

O, İrəvanın məsihiyyə təbəqəsinə mənsub idi. Uşaqlıq çağı o vilayətə hücum zamanı əsir götürülmüşdü. Bəxti uğurlu olduğundan, xasseyi-şərifə qulamları silkinə daxil edilmək səadətinə çatmışdı. Zatındakı cövhərin bərəkəti sayəsində şahın xidmətində tərbiyələnmiş və gün-gündən ali dərəcələrə yetişmişdi. Yaxşı xidmətlərinə görə dərzi (qıcaçi)[*] mənsəbinə çatmış, təcrübəsi artdıqdan sonra topxana əmiri

və tüfəngçilərin sərdarı oldu. Ləyaqətinin çoxluğundan müqəddəs şah məclislərinin iştirakçıları zümrəsinə daxil edildi, müzəffər ordu sərdarı vəzifəsinə yetişdi. Bu vəzifədə işləyərkən o, həzrət şahın məsləhəti ilə şah yürüşlərində iştirak etmiş, göndərildiyi hər işi üz ağlığı ilə yerinə yetirmişdi. Nəhayət yüksək əyalət və uca "xan" ləqəbi ilə sərəfraz oldu. Sonra, tədbiri, şücaətinin çoxluğu, ehtiyatkarlığı, uzaqgörənliyi, ağıllı rə'yi və döyüşlərdə əzminə görə bütün İran ləşkərinin sipəhsaları olmaqla şərəfləndi. Bir müddət Azərbaycan əmirülümərası oldu. Son vaxtlarda müqəddəs Məşhədin hakimi idi və Xorasan mahallarının əskər mülkiyyəti ona verilmişdi. Başına gələn vaqiələrdən sonra böyük oğlu Mənuçöhr xan o vilayətin hakimi oldu və hal-hazırda da müqəddəs Məşhədin hakimidir.

**Yusif xan**: O da Gürcüstanda o nəmәkharamın (Mouravinin – *Ş.F.*) qəddarlıq qılıncı ilə şəhid oldu. O da Qərçiqay xanla bir təbəqədəndir. Hər ikisi bu dövlətin qulamı olmaq şərəfinə yetişib, həmişə bir-birinin dostu və qardaşı olmuşlar. Yusif xan gənclik çağında *quşçu vəzifəsinə*[*] təyin olunaraq vəhşi quşları əhliləşdirib qorumaqla məşğul oldu, bu sahədə mükəmməl məharət göstərdi. Get-gedə inkişaf edib *mirşikar*[**] vəzifəsi ilə sərəfraz oldu. Astarabad darülmömininin əyalət və mülkiyyəti bir müddət ona tapşırıldı. Yaxşı rəftarı və rəiyyətpərvərliyi vardı. Son vaxtlarda artıq on iki il idi ki, Şirvan vilayətinin bəylərbəyi vəzifəsində çalışırdı, vilayətin rəiyyəti və aşağı təbəqəli adamlarla yaxşı davranırdı. Oğlanları azyaşlı olduğundan və o vilayətin idarə olunmasına kamil və işbilən adam münasib bilindiyindən, yuxarıda barəsində mə'lumat verilən Gilan daruğəsi Qazaq bəy Çərkəs [Yusifxanın] əvəzinə tə'yfin olundu və ona xan rütbəsi verildi.

**Əliqulu xan**. Eşikağasıbaşı və divanbəyi idi. O, şamlı tayfasının kəramili olmağındaydı. Ə'lahəzrət şahın qədim mülazimlərindən olan Əliqulu xan [azyaşlı olduğu vaxt] Herat darüssəltənəsində yaşayan o həzrətin körpəlik çağlarından ona xidmət etmiş, qədir-qiyməti gün-gündən artmışdı. Biliyi, əqli, hüşyarlığı və bacarığının çoxluğundan böyük

əmirlər və dövlət başçıları silkinə daxil edildi, ona eşikağası-başı və divanbəyi mənsəbləri verilməklə sərəfraz oldu. Öz rə'yi və məsləhəti olan şəxs idi. Bu ilin əvvəllərində iqtası olan Tehranrey şəhərində bimar oldu, xəstəliyi gün-gündən şiddətləndi, təbiblərin müalicələri əcəlin gəlişinə müqavimət
s.1040 göstərə bilmədi, Allah rəhmətinə qovuşdu. Vəzifəsi [Əliqulu
(733) xana] elə o il verilmişdi. Oğlanları kiçik olduğu üçün, gələn ilin hadisələrinin şərhində yazılacağı kimi, onun mənsəbi tuşmalbaşı Zeynal bəy Bigdeliyə inayət olundu.

**Mir Rəfiəddin Məhəmməd Sədr Xəlifə**. O, İsfahanın qədir-qiymətli seyidlərindəndi. Yuxarıda yazıldığı kimi, əhali arasında "Sadat Xəlifə" kimi şöhrətlənmişdi. Nejadı e'tibarilə əsl mazandaranlı idi. Təbəristan valisi Əmir Qəvaməddinin nəslindəndir. Bilik və fəzilətli şəxs olan atası Mir Şücaəddin Mahmud ali qəhrli üləma zümrəsindən idi. Ata-babadan onlar İsfahan darülmülkündə əmlak sahibləri olmuşlar. Ruzigara münasib ömür sürürdü. Bu mir də fazil, nəfsi tox, malik xislətli, mə'qul və mənqul[*] elmlərdən xəbərdar adam idi. Yuxarıda yazıldığı kimi, Qazi Cahan Seyfi Qəzvininin işdən çıxarılmasından sonra sədarət rütbəsinə yetməklə
s.1040 feyzyab oldu. Vəzifədə olduğu müddət ərzində dindar (diyanət), tamahsız, haqpərəst və pəhrizkar adam kimi tanınmışdı. Həqiqətən də sədarət vəzifəsinin ziynətini belə yaxşı sifətləri ilə artırdı.

Bu ilin əvvəllərində şah qoşunu Fərəhabaddan çıxıb yasaqdan (qoşun toplanışı – *Ş.F.*) ötrü yollandığı vaxt, mir Firuzkuhda xəstələndi, onu məhəffəyə qoyub ehram əlaməti olaraq[1] şərafətli həzrət imamzadəyə mənsub olan Əbdüləzim İmamzadəsinə "ona və əcdadına olsun"[2] gətirdilər orada xəstəliyi daha da şiddətləndi, Allah rəhmətinə qovuşdu. Zəmanə şahənşahının (Şah Abbasın – *Ş.F.*) tərbiyəsi altında ali divanın vəziri rütbəsi ilə sərəfraz olan möhtərəm oğlu olan üəlamalar sultanı Xəlifə Sultan atasının nə'şini uca Kərbəlaya aparıb Ale-əbanin beşinci seyidəş-şühədasının müqəddəs

[1] Ərəbcəsi: "Vacibu-t-təscil va-t-tə'zim"
[2] Ərəbcəsi: "Əleyhi və ə'baihi-t-təhiyyətu"

rövzəsində dəfn etdi. Sədarət vəzifəsi isə müstəqil olaraq ə'lahəzrətin damadı (mosaherət) olan Mirzə Rəfi Şəhristaniyə verildi.

**Gəncəli xan-Qəndəhar bəylərbəyi:** O kürd əşirətlərindən olan Zəyək tayfasındandır. Gəncəli xan da əlahəzrətin qədim mülazimlərindən idi və [şahın] körpəliyi vaxtından başlayaraq Herat darüssəltənəsində iqamət etdiyi zamana qədər ona xidmət etmişdi. Hümayun cülus günlərində, habelə Xorasan özbəklərinin qarmaqarışıqlıq törətdikləri vaxtlarda və onlarla döyüşlərdə göstərdiyi xidmətlərə və mərdanəliyə görə uca xanlıq (xani) mərtəbəsinə yetişdi və mötəbər babayi[1*], yəni pedəri[2] ləqəbinə layiq görüldü, təxminən otuz ilədək Kirman darülamanının müstəqil hakimi və fərmandarı oldu. Onda ədalət və rəiyyətpərvəlik xüsusiyyəti vardı. Son vaxtlarda Qəndəhar darülqranının[**] hakimi idi. Bu il, bir gecə Qəndəharın Ərk qalasının eyvanında məhəccərə birləşmiş taxtda yatarkən, məhəccər ağırlığa dözmədi, Gəncəli xan yarıyuxulu vəziyyətdə taxtdan yerə yıxıldı, ömür əmanətini (vədiyət) canlar alan mələkə (qabezol-ərvah), (yəni, Əzrayıla – *Ş.F.*) tapşırdı.

Çox vaxt keçəndən sonra xidmsətçilər bundan xəbərdar oldular. Oğlu Əlimərdan bəy atasının nə'şini Qəndəhardan müqəddəs Məşhədə aparıb müqəddəs Rezəviyyə rövzəsində dəfn etdi. Xanın vəfatı xəbəri [şaha] çatdıqda, adı çəkilən Əlimərdan bəy atasının sabiq xidmətlərinin əvəzi kimi xanlıq rütbəsinə layiq görüldü, atasının yerinə Qəndəhar hakimi vəzifəsi ilə sərəfraz oldu, ona "babaye-sani" ("ikinci baba") ləqəbi verildi.

**Əmirgunə xan Sarı Aslan.** İrəvan bəylərbəyi. O, Ağcaqoyunlu qacar elindəndir. Atası Gülabi bəy mərhum cənnətməkan şahın hakimiyyəti vaxtı qorçilər silkinə mənsub idi. Bir neçə müddət hərəm eşikağası və mübarək Qəzvin dövlətxanasının qoruyucusu (hares), həmçinin oranın daruğəsi olmuşdur. Əqlinin və işgüzarlığının çoxluğu və ləyaqətli

[1] Babayi-babalıq – *Ş.F.*

[2] Pedəri-atalıq – *Ş.F.*

xidmətlərinə görə əyalət və xanlıq mərtəbəsinə çatdı, Çuxur-Sə'd əmirülüməras oldu. Yuxarıda yazıldığı kimi, o, həmin sərhəddə rumilərlə sərt döyüşlər apardı və şöhrətləndi. Sərhəddəki mərdanəliklərinə görə də "Sarı Aslan" ("Saru Aslani") ləqəbi ilə izzətləndi.

Bu il, [Əmirgunə xan] Gürcüstan cəngində müzəffər ləşkərin çərxçisi idi. Yaralandı və bir müddət İrəvanda müalicə olundu. Bu ilin sonunda yarası şiddətləndi və o vəfat etdi, gürcü kafərləri ilə olan döyüşdə yaralandığı üçün Əmirgunə xan da gedib həmin döyüşün başqa şəhidlərinə qovuşdu. Ə'lahəzrət onun böyük və fərasətli oğlu Təhmasibqulu bəyin gələcəyini nəzərə alıb Çuxur-Sə'də yollamışdı. Atasının vəfatından sonra uca "xan" rütbəsi ilə Çuxur-Sə'din əmirülüməras oldu. Elə indi də o vilayətin işləri ilə məşğuldur.

**Şahbəndə xan.** Şahbudaq xan Pornak Türkmanın oğludur. Atasından sonra Təbriz darüssəltənəsinin idarə olunması ilə məşğul olurdu, Azərbaycan əmirülüməras tə'yin edildi.
s.1041 Bu il Gürcüstan səfərinə göndərildi və yuxarıda yazıldığı kimi Qara Qalxan yolunda, din və dövlət uğrunda kafərlərin əli ilə qətlə yetirildi, şəhadət dərəcəsinə yetdi. Ağıllı, ədalətli, rəiyyətpərvər, tamahı az, toxluğu çox bir cavandı. Canfədalığına görə və pornakiyyə silsiləsinin xidmət haqqı kimi onun üç yaşlı oğlunu atasının yerinə Azərbaycan əmirülüməras mənsəbi ilə sərəfraz etdilər, ona vəkil və naib müəyyənləşdirildi, "İkinci Pirbudaq" ("Pirbudaqe-sani") ləqəbinə layiq
s.1042 görüldü. Şahın etdiyi bu iş hər vaxt başqa din və dövlət can-
(734) fədalarının ümidvarlığına səbəb oldu.

**Həsən xan Ustaclı**. Ustaclı oymağındandır. Xorasanda ləyaqətlə xidmət edən qədim mülazimlərdən idi. Hümayun şahın taxta mübarək cülusundan və İran hökmdarı olmasından sonra [şah] tərbiyəti ilə əzizləndi, ox və kaman qorçisi oldu, bu xanədanın (dudman) damadı olmaqla şərəfləndi. Həmədanən əyalət və mülkiyyəti ona tapşırıldı, Əlişəkər sərhədinin əmirülüməras tə'yin edildi. İyirmi beş ilədək həmin mülkün fərməndarı oldu. Ədalətli və insaflı, rəiyyətpərvər bir şəxs idi. Bir-iki il idi ki, daha əyalət və hərbi işlərlə

məşğul olmurdu və arvadı olan mərhum Sultan Heydər Mirzənin qızının Savədəki mülkində yaşayırdı. Bu il xəstələndi və axirət səfərinə yollandı.

Şah rikabı mülazimlərindən bu bir neçə nəfər də şəhadət dərəcəsinə yetdilər: Zülqədər yüzbaşısı Bayram bəy, ustaclı yüzbaşısı Əli bəy Qızıllı, Larican tüfəngçilərinin yüzbaşısı qabiliyyətli, işgüzar, şer yazmaq məharəti olan Ağa Qəvaməddin Laricani. Onların hamısının övladları şahanə nəvazişlərlə sərəfraz oldular. O mə'rəkələrdə şəhid olmuş başqa adamlar haqqında müfəssəl məlumat verməyin mə'nası yoxdur. Allah onların hamısına rəhmət etsin. İndi isə sözün ucundan yapışıb qara dilli qələmin varaq üzərində gəzişi ilə yeni il hadisələrinin gizli (mozmar, mozmer) qalan məqamlarını izləyərək darüssalama olan xeyirli səfərin başqa vaqiələrini
**s.1042** bəyan edək.

## HÜMAYUN [ŞAH] ABBAS CÜLUSUNUN İKİNCİ QƏRNİNİ ONUNCU İLİNİN, YƏNİ TÜRKİ TARİXLƏ MİN OTUZ BEŞİNCİ İLƏ (1625/1626) BƏRABƏR OLAN SƏADƏT FALLI PƏLƏNG İLİNİN BAŞLANMASI

**Ləraqemə**

*Əzəmətli novruz yenə göründü,*
*Qaranlıq gecələr gündüzə döndü.*
*Yeri salmır daha şaxta müşkilə,*
*Dünya təzələndi gəlişi ilə.*[1]

Asimanın dördüncü iqlimini işıqlandıran və səyyarələrin şahı olan fələk əzəməli günəş aləmi işıqlandırması səbəbindən novruzu rövnəqləndirdi, min otuz beşinci ilin cəmadüs-sani ayının iyirmi ikisində, seşənbə gecəsinin iki saat yeddi dəqiqəsində hut məqamından hərəkətə başlayıb həmişəbahar həməl gülşənini öz qalibiyyətli gəlişi ilə yaşıllaşdırdı. Bahar məşşatələri dövlət və kamranlıq gəlinini ruzigarın hicləsinə[*] gətirib kamkar padşahla həmağuş etdilər.

**Ləraqemə**

*Çəmən gəlinləri ğazələndilər,*
*Güllərlə bəzənib tazaləndilər.*
*Üz verdi gülzara yeni təmtaraq,*
*İnsanlar kədərdən oldular uzaq.*[2]

---

[1] Şe’rin farscası:
Degər rəh məqdəme-novruze-firuz
Şəbestane-cəhan ra kərd çon ruz.
Zəman z-asibe-vey gərdid azad,
Be giti əz səre-nov tazegi dad.

[2] Şe’rin farscası:
Əruzane-çəmən ra ğaze[*] bəstənd,
Ze gol pirayehaye-taze bəstənd.
Novayin gəşt golzare-zəmane,
Degər bare gəzid əz ğəm kərane.

[*] **Qeyd:** Qaze bəstən “Ənniklənmək, bəzənmək” deməkdir – *Ş.F.*

Ordu bəzəyən şəhriyar, yəni hümayun ə'lahəzrət Bəhriz nəhri qollarından biri olan Biladrudda dövlət və kamranlıq çadırları qurmuş, fəth və qələbə çətirləri (şamyane) dikəltmişdi. O gecənin mübarək səhəri novruzun birinci günü idi. Elə o vaxt Murad paşanın cəngi və bu qəhrli döyüşçülərin, yuxarıda yazılan qələbə xəbəri gəlib yetişdi. Qəzavü-qədər aləminin buyuruqçusu (yəni, Allah – *Ş.F.*) bu ali sülalənin bütün dövlətxahlarına bu fərəhli xəbər münasibətilə novruz xəl'əti göndərdi, qeyb mələyi (soruş) isə müxtəlif fəth və qələbə müjdəsi yolladı.

Ə'lahəzrət din və dövlət, mülk və millət müxaliflərinin dəfinə səy göstərib, bu böyük işin başa çatdırılmasından ötrü təsəvvürə gəlməz canfəşanlıq edirdi. Səadətli hümayun şahın ordusunda şüarları zəfər olan ləşkərin seçilmiş, şücaətli və adlı-sanlı mübariz adamları olduğundan, şah əvvəlcə yüzbaşı Taxta bəy Ustaclının sərkərdəliyi ilə qızılbaş ordu ə'yanları, qulamlar və başqa ləşkər təbəqələrindən beş min nəfər ayırdı, ikinci dəfə isə büyutat ağaları, dərgaha yaxın və başqa şəxslərdən cilovdarbaşı Məhəmmədqulu bəy Cığatayın sərkərdəliyi ilə iki min adam seçib irəli yolladı ki, onlar münqəlay qoşununa birləşərək müzəffər ləşkərin sipəhdarı Zeynal bəyin məsləhətindən kənara çıxmasınlar. Həmçinin
**s.1043** qoşunun xərci üçün xəzinə sandıqlarından çoxlu qızıl pul ayıraraq o sipəhdara göndərdi ki, öz məsləhəti ilə ləşkərin ayrı-ayrı təbəqələri arasında bölüşdürsün. Zeynal bəy öz yerində (yurt) dayanıb, həmin saysız-hesabsız qızıl sikkələri yüksək qədir-qiymətli qoşun onların tutduqları mərtəbəyə əsasən[1] adamlarına payladı və əzəmətli şah məiyyəti ahəstə-ahəstə yol getməyə başladı.

[1] Ərəbcəsi: "Alə qadri məratibihim"

## HÜMAYUN MƏİYYƏTİN BAĞDAD DARÜSSALAMINA ÇATMASINDAN ƏVVƏL MÜZƏFFƏR QIZILBAŞ QOŞUNLARI İLƏ MÜXALİFLƏR ARASINDA BAŞ VERƏN ƏHVALATLARIN ZİKRİ BARƏDƏ SÖHBƏT

**s.1044** Yuxarıda işarə olunduğu kimi, rumilər Bağdad qalasının
**(735)** ətrafını əhatə edərək, oranı tutmaqdan ötrü çox səy etdilər, yürüşlərə başladılar, amma məqsədlərinə çata bilmədilər, əskərlərindən çox adamı ölümə verib heç nə bacarmadılar.

Vaxt ötdükcə yaxınlaşmaqda olan qalibiyyətli şah qoşununun xəbərini eşidən Hafiz Əhməd paşa qüruru üzündən bir qədər süstləşsə də ordunun qorunmasına çalışdı, ləşkərlər üçün qazdığı xandağı qala kimi möhkəmlətdi, hər bir neçə addımdan sonra bir bürc ucaltdı və onların mühafizəsindən ötrü topçular və qoruyucular yerləşdirdi, qızılbaşlarla qətiyyən döyüşə girməyərək o qala timsallı xandaqda özünü qorumaq qərarına gəldi. Qala ayağında o qədər qalmaq istədi ki, mühasirədə qalanlar azuqə azlığı və məişət çətinliyindən əzaba mübtəla olub aman istəməkdən başqa çarə tapmasınlar. Bəzən özü də çarə axtararaq gah qala mühafizəçiləri ilə və’d və vəid (hədə-qorxu) yolu ilə danışığa girir, gah da Zeynal bəylə hərbçilərə xas tərzdə məktublaşır, danışıq aparırdı ki, bəlkə də hiyləgərliklə naqis tədbirlərə başlayıb öz işini irəli apara bilsin. Azərbaycanla sabiq döyüşlərdə bigdeli tayfasına əsir düşən, bir müddət Zeynal bəyin qardaşları ilə yaxınlıq edən və onların vasitəsilə qızılbaşlardan xilas olan Əli bəy adlı bir kürd sancaqbəyi sabiq tanışlığı və yediyi duz-çörək haqqını unutmadığını bildirərək, bir nəfər rumi çavuşu ilə birlikdə Zeynal bəyin yanına gəldi, xeyrxah sözlər danışıb şahla görüşmək üçün ali dərgaha göndərilməyini xahiş etdi.

İcazə aldıqdan sonra hümayun orduya yollandı, yuxarıda xatırlanan çavuşla birlikdə cənnət ayinli məclisdə görüş izzəti ilə sərəfraz oldu. Aparılan söhbət və vəziyyətin təhqiqi zamanı [şaha] ərz etdi: “Səadət sahibi cənab sərdar xandgar tərəfindən ağır rum ordusu ilə Bağdad mülkünün geri qaytarılmasından ötrü gəlmiş, səfər xərcləri və ləşkər təchizatına

xeyli xəzinə pulu sərf etmişdir. İndi, rum qoşununun məqsədə yetişmədən bu yerlərdən qayıtması düşmənlərin (əzdad) tənə qorxusu üzündən müyəssər deyildir. Biz bilirik ki, həzrət şah da bu hadisəni dəf' etməkdən ötrü buraya şəxsən yürüş etmişdir. Ətrafdakı dost və düşmən padşahların gözləri dikilən səltənət namusunu qorumaq məsələsinə e'tinasızlıqla (mosamehe) yanaşılmasının dava-dalaş etməkdən başqa çarəsi yoxdur". [Əli bəy və çavuş] belə xahiş etdilər: "Altı aya yaxındır ki, hər iki tərəfin əskərləri günlərini təşviş və yorğunluq (təəb) içərisində keçirməkdədir. Çoxlu qan axıdılmışdır. Hazırda hava isinməkdədir. Bundan sonra Bağdadın isti havasında qalmaq mümkün deyildir. Kərəm və mərhəmət xanədanından olan həzrət şah qoy izn versin ki, üz-üzə dayanıb hər iki tərəfin fəsadının aradan qaldırılmasından ötrü özünün bir e'tibarlı adamını bu bəndələrlə (yəni, Əli bəy və
s.1044 çavuşla – *Ş.F.*) birlikdə sərdarın yanına göndərsin. Sərdar xeyrxah, məsləhətcil adam, müsəlmanların afiyətini istəyən şəxsdir. Ola bilsin ki, hər iki dövlətə layiq, həmçinin hər iki tərəfin səlamətliyinə və dostluğuna yaraşan bir iş baş versin".

Ə'lahəzrət gövhər səpən dili ilə cavabında belə dedi: "Zeynal bəyin [mənim yanıma] adam göndərməyinə e'tirazım yoxdur, amma Bağdad bizim irsi mülkümüzdür. Biz oranı Ale-Osman sülaləsi ilə düşmənlik edən bə'zi saxtakar adamların işğal əllərindən çıxardıq və həmin üsyankarları dəf' etdik. Yaxşı olardı ki, Ale-Osmanın yaxşılığını istəyən bu kəslər bu xanədanın irsi mülkünü bizə də qaytarsınlar, bizimlə münaqişəyə yol verməsinlər ki, aramızda olan sülh və dostluq yenidən möhkəmlənsin, bu tərəfdən də keçmişdə olduğu kimi (kəmakan) ülfət və dostluq zahirə çıxsın, xademül-hərəmeyin olan həzrət xandgar Bağdadın ata-babadan bizim olmuş böyük (keram) imamlarının müqəddəs rövzələrini bizimki bilib bizə də qaytarsın. Münaqişə və müharibə məqamında olduqları üçün biz də Bağdadın qorunmasına çalışaraq bu işdə xalqların xeyrinə yönələn həddən-ziyadə cidd-cəhd edəcəyik ki, təqdir pərdəsi altından gözəllik parlasın".

Zeynal bəy bacarıqlı və diribaş adam olan Canı bəy Şamlını Əli bəy və həmin çavuşla sərdarın yanına yolladı, onunla rumiyyə sərdarı, əmirləri və paşaları arsında xeyli hərbi söhbət başlandı. Sərdar öz iddiasında israrlı idi. Onun sözlərindən vəhşət yağırdı. Bu tərəfdən də eləcə (kəzalek) bu gediş-gəlişdən heç bir fayda olmadı. Canı bəyin geri dönməyindən sonra Zeynal bəy və əzəmətli əmirlər hərbə başlamağı məsləhət görüb, anladılar ki, rum qoşununun hücumunun
**s.1045** qarşısının alınması və qalada mühasirədə qalanların xilas
**(736)** edilməsi iti qılınc və qanlar tökən xəncər işlədilmədən müyəssər ola bilməyəcək. Buna görə də, onlar nizamlanmış ləşkərlər... həmçinin nizələri və gülgün bayraqları ilə çöl və səhranı qızardan zireh geyimli və döyüşkən əskərlər, ildırım sür'əti ilə səhralar (hamun) keçən tazı atlar, cövlan etməkdə səhər yeli (bade-səhər) ilə döş-döşə gələn dəvələrlə (kuhpeykəran) körpüdən keçərək cəng əzmi ilə sərdar ordusu üzərinə yollandılar. Döyüşlərdə sınanmış otuz minədək cavanlar, şüarları igidlik olan itigöz tüfəngçilər saysız-hesabsız rumilərin qoşunu önündə döyüş səfləri bəzədilər. Həravol* və çərxçi tə'yin edilən Xələf bəy Süfrəçibaşı irəli şığıdı. Müzəffər qoşunun meymənə və meysərə cinahları bacarıqlı comərdlər və cəng meydanının dilavərləri ilə möhkəmləndirildi. Onlar iqbal döyüşçiləriylə birlikdə mərhələ-mərhələ irəliləməkdə idilər. Nəhayət uzaq məsafə yaxınlaşdı, tərəflərin əskərləri arasında bir fərsəxdən çox məsafə qalmadı, amma rumilər tərəfindən qarşıya çıxmaqdan qətiyyən əsər-əlamət görünmədi.

Zeynal bəy və əzəmətli əmirlər elə oradaca atlarından düşdülər, mərdanəliklərinin çoxluğundan çadır qurub, cəng meydanında şənlik məclisi bəzədilər. Zeynal bəy Hafiz Əhməd paşaya bu məzmunda bir namə yazıb göndərdi: "Biz ağır bir qoşunla sizinlə qarşılaşmaq əzmi ilə gəlib-çatmışıq, sizin yanınızdayıq. [Belə olan halda] siz kimi bir səadət sahibi öz ləşkər və əskərinin çoxluğuna baxmayıb, dilavərlikdən dəm vuraraq, boş-boş sözlər danışa-danışa qəhrli qızılbaş dəstələrindən birisi ilə döyüşdən yayınasınız, irəli çıxmaya-

sınız, ale-Osman sülaləsinin bədnamlığına səbəb olarsınız". Namə göndərdikdən sonra atlara minib irəli getdilər. aralarındakı məsafə çox olmayan bir vaxtda çərxçi qoşununun cəngavər igidləri xandağın yanınadək at sürdülər və orada bir neçə rumi döyüşçüsünü ələ keçirdilər.

Zeynal bəy gəlib_çatdığı yerdə bir də atdan düşdü, çadırlar qurdu, təzə bir məclis bəzəyib namənin cavabını gözləməyə başladı. Rumi əskərləri isə xandaq kənarında cərgələnib, qaladarlar kimi öz ordularını qorumağa hazırlaşdılar, amma
**s.1045** oradan çıxmağa cür'ətləri olmadı. Sərdar namənin cavabında irəli çıxmamaları barədə süst sözlər yazıb bəyənilməz üzrxahlıqlar etdi. Mə'lum oldu ki, rumilərn səhra döyüşü[1] etməyə cür'ətləri yoxdur. Gun artıq başa yetmişdi. Hümayun şahın icazəsi olmadan özbaşına olaraq xandaq cənginə başlamayan döyüşçülər öz ordularına qayıtdılar, məsələni cahcalal sahibinə bildirdilər ki, yuxarıda işarə olunan xandaq hərbinə başlasınlar.

Bu xəbərin parıltısı [şahın] nurlu beynində işıqlandığından, iqamət etdiyi yerdən çıxıb, bir neçə mərhələ yol getdi və Bəhriz çayının kənarına gəldi, hər iki ordu hissələri birbirlərinə birləşdi, möhtəşəm şah çadırları (bargah) quruldu. Zeynal bəy, adlı-sanlı əmirlər və zəfərşüar ləşkər böyükləri şahın mülazimi olmaqla feyzləndilər, onunla görüşməklə səadətləndilər.

## HÜMAYUN ORDUNUN BAĞDAD DARÜSSALAMINA GƏLMƏYİ, MÜNQƏLAY QOŞUNUN QƏLƏBƏ TƏBİƏTLİ (FİRUZİNEHAD) ƏSKƏRLƏRƏ BİRLƏŞMƏYİ VƏ O ZAMAN BAŞ VERƏN HADİSƏLƏRİN ZİKRİ

Allahın inayəti həmişə bu müqəddəs nişanəli dudman tərəfdarlarının vəziyyətinin yaxşılaşmasına, əmin-amanlığına doğru yönəldiyindən, bu xeyir amallı yürüşdə üz verəcək hadisələrin qarşısını almaq və ə'lahəzrətin mətləbini gerçək-

[1] Səhra döyüşü (cənge-səhra)-padşahın şəxsən döyüşdüyü meydan cənginə deyilirdi – *Ş.F.*

ləşdirmək qəzavü qədərə müvafiq oldu, düşüncə kamanından çıxan hər ox murad hədəfinə çataraq işə yaradı. [Belə ki,] fəth və qalibiyyət əlaməti qeyb qoşunu tərəfindən həyata keçirilir, müxaliflərdən qızılbaş döyüşçülərinə zərər və sədəmə dəymirdi ki, nəticədə [ə'lahəzrət] düşmənlərə qalib gələrək zəfər çaldı.

Xülasə, hümayun fallı və cah-calallı məiyyət Bəhriz çayının kənarında dayandı və orada təkrar-təkrar məsləhət (kəngaş) məclisləri təşkil olundu, götür-qoy etdilər ki, düşmənlər hansı yolla dəf' olunsun, altı-yeddi aydan bəri mühasirə əziyyətinə düçar olan, qaladarlıq və məşəqqətə dözən, qeyrət gözü yuxuya getməyən və istirahət yatağına baş qoymayan bir neçə min əskər və rəiyyəti nə cür mühasirə darısqallığından xilas etsinlər. Müxaliflər isə ordunun dövrəsində xandaq qazaraq arxalarını araba və top-tüfənglə möhkəmləndirib qaladarlıqla məşğul idilər. Belə olan halda, əlbəttə, xandaq cəngi bu ləşkərin ziyanına səbəb ola bilər və o cəng sərfəli olmazdı. Savablı rə'y belə oldu: Müxalifləri yem ehtiyatından məhrum etməyə çalışsınlar, onların su və quru yollarını bağlasınlar ki, onlara heç yerdən azuqə gəlib-çatmasın, ərzaq və heyvan yeminin azlığından məşəqqətə düçar edilsinlər, ləşkərləri dağınıqlığa mə'ruz qalsın, Allah-taalanın köməyi ilə bu tədbirlər düşmənlərin vəziyyətini pis hala salmış olsun. [Əlahəzrət] Bəhriz çayının kənarından yola düşərək, o çayla Dəclənin qovuşduğu və şəhərə yaxın olan Qara Qapı yaxınlığında dayandı.

**s.1046** Xəlil Sultan Mosul və Diyarbəkr yolu üstündə olan və
**(737)** rumi düşərgəsinə gəmilərlə azuqə gətirən sil-süpürçüləri[1] bir dəstə dilavərlə Samirə tərəfə göndərdi ki, gəmiçilərin yolunu bağlasınlar. O, ehtiyatı da əldən verməyərək, şaha yaxın adamlar zümrəsindən olan ayıq-sayıq və bacarıqlı söhbət yasovulu Rüstəm bəyə çoxlu döyüşçülərlə bu işin icrasını

---

[1] Yuxarıda yazdığımız kimi, sil-süpürçülər cəlali döyüşçülərinə verilmiş ad idi ki, onlar Rum dövlətinə qarşı çıxaraq qızılbaşlara qoşulmuşdular. Həmin kütlə qarşılarına çıxan hər yeri qarət məqsədilə silib-süpürdükləri üçün belə adlandırılmışdı – *Ş.F.*

həvalə etdi və bəy Xəlil Sultanın ardınca o tərəfə yola düşdü,bir qədər yuxarıda qurulmuş körpünü həmin yerdən gətirərək, hümayun ordunun dayandığı məkanda münasib bir
**s.1046** yerdə quraşdırdılar. Zəfərli ləşkərin sərdarı və sipəhdarı olan Zeynal bəy və çərxçi olan Xələf bəy Süfrəçibaşı döyüşkən döyüşçülərlə körpüdən keçərək əskərlər arasında bir fərsəxdən çox olmayan Diyalə çayının qarşı tərəfində atlardan yerə endilər. Onlar ehtiyatkarlığı əldən verməyib öz ordularının önündə xandaq qazdılar, oraya top yerləşdirdilər və qorunmaqdan ötrü tüfəngçilər tə’yin etdilər.

Fars bəylərbəyi İmamqulu xan istədi ki, öz əskərləriylə sal və gəmilərə əyləşib Dəcləni keçsinlər və çayın o biri tərəfində lövbər atsınlar, beləliklə də rumilərin Hillə və Bəsrədən gələn yolunu bağlasınlar, amma, ə’lahəzrət Köhnə Bağdaddan xan üzərinə çoxlu əskər gələcəyini, bu tərəfdənsə çayın tüğyan edəcəyi səbəbindən köməyin gedib çatmayacağını düşünərək, xanın qarşı tərəfə getməsinə izn vermədi. Nəhayət, [şah] İmamqulu xanın eşikağası olan çevik və bacarıqlı İmamqulu bəyi Fars ləşkərinə sərkərdə qoyaraq, qızılbaş qoşununun tüfəngçi və dilavərlərindən ibarət bir dəstə döyüşçüsü ilə sal və gəmilər vasitəsilə çaydan keçirib qarşı tərəfə göndərdi ki, qoy gedib hümayun ordunun qarşısında dayansınlar.

Onlar qarşı tərəf ləşkərinin gəlişinə maneçilik etməkdən ötrü Zeynal bəyin və Xələf bəyin izni ilə döyüşçülərdən ibarət sədd yaratdılar və oranı tüfəngçilərlə möhkəmləndirdilər. Buna görə də, rumilərin Köhnə Bağdad səmtindən qazilərə sədəmə yetirmələrinə cür’ətləri olmadı.

Qoşunu irəli göndərən və orada möhkəmlədən İmamqulu bəy qüvvətli döyüşçü dəstələrinin biri ilə, Əlvəndoğlu adı ilə tanınan Arslan paşanın dayandığı Hillə şəhərinə həmlə etdi. Arslan paşa da öz qoşunu və [qızılbaşlarla] müxalif olan ərəblərlə bu qüvvətli qoşunun qarşısına çıxdı, onların arasında hərb başlandı. Əlvəndoğlu məğlub oldu, müxalif döyüşçülərin min nəfərədək adamı qılınca yem edildi, Arslan paşa isə sağ qalanlarla birlikdə qaçıb, Hilləyə gedən Fəllucə yolunu önə tutdu, rum ordusuna Cəvazər, Bəsrə və o tərəf-

lərdən gətirilən çoxlu qənimət və bol ərzaq isə müzəffər əskərlərin əlinə keçdi. [Şaha] çayın bu tərəfində olan rum atlarının ot-ələf qıtlığından çayın o biri sahilinə otlamağa göndərildiyi xəbəri çatdıqda, o, Luristan hakimi Hüseyn xanın lur tayfasından ibarət olan adamlarını və Xanəhməd xan Ərdəlanı o tərəfə yolladı. Onlar bir gecədə altı-yeddi fərsəx yol gedib heyvanların otladıqları yerə çatdılar və rumilərin bir neçə baş at və qatırını qovub gətirdilər.

Yaxşı hadsələrdən biri də budur: Hələbdən və Fəllurə yolundan rum ordusuna gətirilməkdə olan və hər cür ərzaq daşıyan azuqə karvanı qazilər tərəfindən qarət olundu və onlar sağ-salamat qayıdıb ali orduya çatdılar. [Bu vaxt] şaha belə bir xəbər verildi: Hələb tərəfdən Fəllurcə yoluyla rum ordusuna çoxlu xəzinə, ərzaq və saysız-hesabsız başqa şeylər gətirilməkdədir. O, büyutat naziri Zaman bəyi bir dəstə mübariz döyüşçü ilə həmin istiqamətə göndərdi. Çayın artıq o biri tərəfinə keçib Hillə və Kərbəlanı tutan qızılbaş ləşkərinin gəlişi xəbəri çayın bu tərəfində qalanlara gəlib çatdıqda onlara bərk qorxu üz verdi, gəlməkdə olan adamların əksəriyyəti qayıdış təbilini çalaraq geri qayıtdı. Gəmilərə əyləşib Fərat yoluyla gəlmək istəyənlərin bə’ziləri isə Zaman bəyin və müzəffər ləşkərin əlinə keçdi, [qızılbaşlar] bol pul və qənimətlə geri qayıdıb əzəmətli orduya birləşdilər. [Beləliklə də] rum atlarının gediş-gəliş yolları o tərəfdən də
s.1047 tamamilə bağlandı, Fəllucə yolu ilə hərəkət dayandırıldı.

## MÜBARƏKƏ QALASINA HÜMAYUN ORDUDAN AZUQƏ GÖNDƏRİLMƏSİNİN ZİKRİ, QÜVVƏTLİ QIZILBAŞ DÖYÜŞÇÜLƏRİ İLƏ RUMİLƏR ARASINDAKI HƏRBİN ŞƏRHİ VƏ MÜXALİFLƏRİN AQİBƏTİ

Qalada əskər və tüfəngçilərdən ibarət çox miqdar mə’lumatlı cavan və yaşlı kəs (cə’mi-ğəfir), habelə iki min başdan çox at olduğu üçün onların yemək-içməklərindən ötrü olduqca çox taxıl, iaşə məhsulları və heyvan yemi işlənməkdəydi. Mühasirə müddəti uzandığından azuqə tükəndi. Buna görə də,

köməksiz adamlar var-yoxlarını qalada qoyub, hər gün oradan qaçırdılar.

Bihudə danışan adamların sözlərinə uyan rumilər qaladakı aclıqdan agah olub günlərini qala fəthinin intizarı ilə
**s.1048** keçirməkdəydilər. Mübarək ramazan ayı gəlib-çatdı. Bağda-
**(738)** dın rəiyyət və başqa sakinlərinin ərzaqı olunmasına baxmayaraq, onlar həmin ərzaqı hərbiçilərin qorxusundan gizlədir və üzə çıxarmırdılar. Buna görə də yemək məhsullarının qıyməti yuxarı qalxdı, [taxılın] alqı-satqısı şəhərdə və bazarlarda olduqca azaldı. Bu vəziyyəti ərz etmək məqsədi ilə Səfiqulu xan inandığı doğruçu və düzgün adamları şahın yanına göndərərək həqiqəti ona bilirdi. Ə'lahəzrət zilləllah şah qeybdən ona gələn ilhamla söylədi ki, orduda olan ərzaqdan xeyli ayıraraq çay yoluyla gəmilərə yükləsinlər, onu xosrovun (Şah Abbasın – *Ş.F.*) dayandığı Köhnə Bağdadın qərb darvazası istiqamətindən qalaya çatdırsınlar ki, bu iş döyüşçülərin və şəhər əhalisinin alqı-satqıya olan ümidlərini, həm də müxaliflərin ümidsizliyini artırsın, [beləliklə də] sərdarın son naqis tədbiri olan əlacsızlığı başlasın. Şahın qərara aldığı bu böyük iş çoxlarının fikrincə olduqca çətin və ağıldan uzaq bir iş tə'siri bağışlayırdı, çünki Köhnə Bağdadın qarşısındakı qərb darvazasının yaxınlığında hər iki tərəfin yarım fərsəx uzaqlığında Dəclə çayı rumi əskərlərinin əlindəydi və buna görə də yüklə dolu gəmiləri axşamdan sübhədək öz arzu nəzərlərini ulduzlara dikən hər iki müxalif qüvvələrin arasından keçirmək və qalaya çatdırmaq ruzigarın çətin işlərindəndir və ötən əyyamlarda belə iş görünməmişdi. Ə'lahəzrət zilləllah şahın xosrovanə himməti bu çətin işin yerinə yetirilməsinə yönəldiyindən o, e'tibarlı bir adamı qalaya yollayıb, qalanın gizli yerində saxlanılan qayıqları onlardan tələb etdi. Səfiqulu xan on ədəd qayığı bir dəstə igid əskər və çevik tüfəngçilərlə gecə qaranlığında Dəclə çayından keçirib onları hümayun ordunun dayandığı yerə çatdırdı. Ali orduda olan bol ərzaq növlərini, [o cümlədən] şirniyyat, mürəbbə, içki, qənd, nabat daxil olmaqla un, arpa, buğda, düyü, yağ, toyuq, qoyun və başqa şeyləri toplayıb, həmin

qayıqlarla bir neçə dəfə çaydan keçirdilər. İqbal qoşununu çərxçisi olan Xələf bəy Süfrəçibaşıya bir dəstə dilavərlə bu işi icra etmək tapşırımışldı, o da belinə mərdanəlik kəməri bağlayıb, qayıqları həmin mallarla doldurdu və gəmiçilər yola düşdülər. O miqdar şeyləri qayıqlarla daşımaq imkanı olmadığından, beş yüz xərvaradək ərzaqı dəvə və ulaqlara yükləyib şahın hümayun zavalsız iqbalına güvənərək çay kənarı ilə yolladılar ki, o yüklər darvazanın yaxınlığına çatdırılsın və ordansa qayıqlara nəql olunsun. köhnə Bağdaddakı rumilər isə çay kənarındakı bir neçə yerdə çəpərlər bağ-
**s.1048** layıb xandaqlar qazdılar. Yeniçəri tüfəngçiləri möhkəm dayanaraq keçid yolunu bağlamışdılar.

**Bağdad darüssalamında qızılbaşların rum əskərləri ilə hərb etmələri:**

Adı çəkilən azuqəni apanların önündə gedən Xələf bəy və başqa müzəffər döyüşçülər oraya çatdıqda hər iki dəstə arasında güclü hərb başlandı. Bu fitnənin yatırılmasında iqbal dəstəsi zəfər çaldı, yeniçərilərin böyük hissəsi qılınca yem oldu, sağ qalanlar isə köhnə şəhərə və divarların o biri tərəfinə qaçaraq daldalandılar. Müzəffər əskərlər yolu darvazaya qədər boşaltdılar və yuxarıda göstərilən bol ərzaqın hamısını qalaya gətirib-çıxardılar. Çay kənarından bu tərəfə vuruşa nəzarət edən müxaliflər isə öz adamlarına heç bir kömək etməyə fürsət tapmadılar. Mühasirədə qalanların şadimanlıq səsləri asimana ucaldı. Qalaya daxil olan Xələf bəy Səfiqulu xan ilə görüşüb bu xidməti uğurla yerinə yetirdi, sağ-salamat qayıdaraq hümayun orduya birləşdi, şah və ordu tərəfindən alqışlandı.

Hümayun ordunun çay kənarında qalmasından (moxəllət) bir neçə gün keçdi. Diyalə çayından keçib müxaliflərin qarşısında dayanan müzəffər döyüşçülərin sərdarı və sipəhdarı olan Zeynal bəy fəaliyyətsizlikdən təngə gələrək yenidən hərbə həvəsləndi, məsləhət və məşvərət məclisi çağırıldı. Zeynal bəy və başqa müzəffər əskərlərin hərbə getmələrinə izn verildi. Ona tapşırıldı ki, igid cavanların tələf olmamasından ötrü əskərlər yersiz igidliklərə və hərəkətlərə yol verm-

sinlər. Hümayun izn aldıqdan sonra Zeynal bəy və əzəmətli əmirlər döyüş səflərini bəzəyərək, müxalif orduya tərəf yollandılar. Tapşırığa əsasən Xələf bəy çərxçi kimi qoşunun ön hissəsində gedirdi.

[Rum] sərdarı isə bu dəfə, azuqə göndərilməsi, qaladarların qalanı tutmaq uğrunda sə'yləri və məqsədə yetmələrinə görə mə'yus olmuşdu. O, rumi böyükləri ilə müzəffər qoşuna qarşı yollanmaq qərarına gəldi, qazıb qurtardıqları xandaqın qarşısında döyüş səfi bəzədi, araba və topxananı gətirərərək igidlik qədəmlərini bir az irəli atdılar. Bu tərəfdən həravul* və çərxçi olan müzəffər əskərlər atlarını mərdanəliklə irəli sürdülər, tərəflərin meymənə və meysərə hissələri bir-birləri ilə qarşılaşdılar, hərb başlandı. Müxalif dəstənin bir neçə
**s.1049** döyüşçüsü müqabil tərəfin qızılbaşlarına güc gələrək onları
**(739)** məğlub etdilər (çizegi). Bu tərəfdənsə Zeynal bəy və Xələf bəy atları irəli sürüb cəng meydanına girdilər. Müzəffər döyüşçülər sur'ətli həmlə ilə özlərini müxalif qoşuna çatdırdılar və az vaxt ərzində rumilərin min nəfərədək döyüşçüsünü həlak torpağına sərdilər, onları qazdıqları xandağa qədər qovdular.

Bu əsnada bərk külək əsdi. Elə şiddətlə əsdi ki, göyə qalxan qalın tozlardan cəng meydanı görünməz oldu, gözlərsə qaraldı, dost düşməndən seçilmədi. Buna görə də Zeynal bəy və müzəffər əskərlər döyüşdən əl çəkərək zəfərlə geri döndülər, müxaliflər də dağınıq halda özlərini xandağa çatdıra bildilər. Piyada olan yeniçərilərin çoxu at ayaqları altında qaldı, onların bə'zisi isə tozanaqdan xandaqın yolunu itirib çöllərdə və səhralarda itkin düşdü.

Bu vuruşmada ə'yanlardan Mühübəli bəy Şahsevəndən başqa adlı-sanlı müzəffər əskərlərdən heç kim öldürülmədi. Bu hadisədən sonra, yollar hər tərəfdən bağlandı, rumilərin hərəkəti dayandırıldı, bir müddət onlara heç bir azuqə yetiş-
**s.1049** mədi, ordudakı yem çatışmazlığı həddən keçdi, elə çaxnaşma düşdü ki, sərdarlar onu yatırmaqdan aciz oldular, ləşkər arasında müxtəlif xəstəliklər artdı. Belə ki, içərisində iki-üç xəstə olmayan xeymə yox idi. Hər gün bir neçə nəfər can verirdi.

Xülasə, rumilərin vəziyyəti pisləşib elə bir həddə çatdı ki, onlar sağ-salamat geri qayıtmağı münasib bildilər, amma gücləri və imkanları qalmamışdı, çünki rum əskərlərinin çoxu artıq yox olmuş, bə’ziləri cəng meyanlarında və qala yürüşlərində qətlə yetirilmiş, bə’ziləri isə xəstəlikdən təbii ölümlə axirət aləminə yollanmışdılar. Onların ulaqlarının çox hissəsi ya qızılbaşlar tərəfindən qənimət götürülmüş, ya da yemsizlikdən tələf olmuşdu. Əskərlərin əksəriyyəti piyada qalmışdı. Onlarda nə yük daşımaq üçün ulaqları, nə də süvar olmaqdan ötrü yabıları qalmışdı. Hafiz Əhməd paşa və rumiyyə böyükləri düşünüb-daşınaraq Mustafa ağa adlı bir e’tibarlı adamı [qızılbaşların yanına] yollayaraq xahiş e’tdilər ki, etimad etdikləri dilli-dilavər bir şəxsi danışığa göndərsinlər və onunla söhbət olunsun.

Ə’lahəzrət bu xahişə görə Töhfə[1] bəy Yüzbaşı Ustaclını Mustafa ağa ilə birlikdə yolladı və tərəflərarası hərbi danışıqlar başlandı. Amma, hər biri öz iddiasını irəli sürən rum hərbçiləri və sərdar arasında dava-dalaş baş verdi. Qeylü qaldan sonra onların hamısı bir sözə gələrək belə xahiş etdilər: “Nübüvvət (peyğəmbərlik – *Ş.F.*) və kəramət xanədanına mənsub olan nəvvab [şah] tərəflərin düşmənçiliyi zamanı baş verən əməlləri öz kəraməti ilə bizə güzəşt (əğmaz) etsin. Bundan sonra rumilər qoy qızılbaş qoşunundan təşvişə düşməsinlər ki, qəlb arxayınlığı ilə öz köçlərini apara bilsinlər”. Taxta bəy rumilərin xahiş məktubunu [şaha] ərz etdi. [Bu zaman] Məhəmmədağa adlı e’timadlı bir adam rumilər tərəfindən gələrək, şah astanasını öpmək səadətinə yetişdi. Fitri mürüvvəti olan [şah] onların məsələlərini ulduzların birləşməsi (əqtəran) kimi qəbul etdi, rumilər mərhəmət və aman müjdəsinə layiq görüldülər. Lakin, hələ Taxta bəy rumi ordusunda, Məhəmməd ağa isə hümayun orduda olduqları vaxt və hələ tərəflərarası sülh şərtləri bağlanmadığı bir zamanda rum əskərləri özbaşına olaraq çaxnaşmaya düşdülər, qayıdış yolunu önə tutdular və onların hər biri öz hayına qaldı. Sərdar da başqa rumi böyükləriylə ixtiyarsız olaraq

[1] Taxta bəy olmalıdır – *Ş.F.*

məcburiyyət üzündən və çaşqınlıqla şəvval ayının doqquzunda (4 iyul, 1626) köç təbilini döyərək yola düşdü. Sultan Süleymandan qalmış bir-iki topu aparmaq üçün lazım olan bir neçə ulaq tapa bilmədilər. Padşah sərkarının cəbbəxanəsindəki* topxana və yaraqların bə'zisini elə dayandıqları yerdə, bə'zisini isə yolun birinci mərhələsində yerə atıb getdilər. İmamqulu xanın mülazimi olan Bərxurdar bəy Zülqədər və gecə qala yaxınlığında tutduqları Mirzə Mə'sum Ərəb Qəlizi Xorasani Taxta bəy tərəfindən azad olundu və ali orduya qayıtdılar. Əskərlərin bir dəstəsi, Səfiqulu xan və qalanı qoruyanlar rumilərin təqibinə yollandı və onlarla döyüşdü. Ə'lahəzrət bu özbaşına hərəkətdən razı qalmadı və Zeynal bəyə əmr etdi ki, qoy rumiləri bir-iki mərhələ irəli buraxsınlar və onlara hücum etmək əskərlərə qadağan olunsun. Əmrə əməl edən Zeynal bəy rumi tə'qibindən əl çəkib geri qayıtdı".

Rum sərdarları Əcəm diyarına dəfələrlə gəlmiş və bir iş görə bilmədən pərişanlıqla geri qayıtmışlar. Amma, onlar heç vaxt belə pis vəziyyətdə və rüsvayçılıqla geri dönməmişdilər. İki-üç min rumi, bəlkə də daha çox, qala dövrəsində bimar və natəvan halda çətinliklə can verirdi. Ə'lahəzrət zilləllah şah bütün Allah bəndələrinə olan mərhəmətinin çoxluğundan adam göndərərək bimarpərəstlik etdi və xəstələrdən hal-əhval tutdu. Amma, onların çoxu ədəm yoluna yollandı. Sahiblərinin öz hallarına qaldıqları bir zamanda olduqca çox silah-sursat qazilərə və qala tüfəngçilərinə qaldı. Rumilər Mosul hüduduna çatanadək ərəblər və kürdlər dəstə-dəstə
**s.1050** onları tə'qib etməyə başladılar, bir-birlərindən ayrılıqda gedən-
**s.1051** ləri tutur, onların mallarını özlərinə götürür, çılpaq halda
**(740)** buraxırdılar. Dəstə-dəstə bimar rumi yolun hər mərhələsində ədəm yoluna yollanmaqdaydı.

Sözün müxtəsəri, İraqı-Ərəb diyarı dəfələrlə düşmənlərin hücum tikanından təmizlənmiş, bu müzəffər dövlət övliyalarının əlində qərar tutmuşdu. [Bu dəfə də] sərhədlərin hər yerinə fəthnamələr göndərildi. Havanın isti olmasına görə təbiblər burada qalmağı məsləhət görmədilər. [Buna görə də]

Kərbəla və Nəcəf sakinlərinə – onların hər ikisinin müşriflərinə salam və salavat olsun[1] – və möhtac adamlara nəzirlər və sədəqələr göndərildi, Kazimeyn rövzəsinin mübarək qəbirlərinin ziyarətindən sonra qayıdış yoluna düşdülər. Müzəffər ali ordu zəfər və iqbal ilə havası mülayimliyə yaxın olan Məndəli yoluyla rəvan oldu.

Bəlağətli şairlər müqəddəs və pak ruhlar tərəfindən nəsib olmuş ruzigarın bu ən böyük fəthi münasibətilə [maddeyi] tarixlər nəzmə çəkdilər. Təbrizli şairlərin biri belə yazmışdı:

**Qit'ə**

*Qəza şahənşəhi Əli Abbasına təşəkkürlər!*
*Ki, lütfüylə onu din şahı etdi düşmənə qalib.*
*Soruşduqda bu fəthin tarixin göydən səda gəldi:*
*Ki, "Rumi-ra fəna kərde Əli ibni-Əbi Talib".*[2]

Söz bu yerə gəlib çatdıqda lazım bilindi ki, Nəcəfe-əşrəfin mühasirəsi zamanı baş verən və əhali arasında məşhur olan qəribə işlər, habelə qeyri-adi adətlər haqqında bu "Aləmara" kitabında mə'lumat verilsin.

## QEYRİ-ADİ ADƏTLƏR VƏ NƏCƏFE-ƏŞRƏFİN MÜHASİRƏSİ ZAMANI HƏMİN VİLAYƏT BÖLGƏSİ ŞAHƏNŞAHININ (İMAM ƏLİNİN – *Ş.F.*) İŞIQLI MÜQƏDDƏS RUHU VASİTƏSİLƏ BAŞ VERƏN KƏRAMƏTLƏRİN ZİKRİ

Hərçənd ki, həmin vəlayət və kəramət taxt-tacının sultanının (İmam Əlinin – *Ş.F.*) yaşadığı ali məkan haqqında mə'lumat mövcuddur və baş verən qəribə işlər o əhvalatlar sahibinin təəccüblü (estecab) yeri (məhəl) haqqındadır, buna görə də

[1] Ərəbcəsi: "əla-muşrifihimə-s-sələvatu və-t-təhiyyətu"

[2] Qit'ənin farscası:

Behəmdollah ke, Əbbase-Əli şahənşəhe-qazi
Ze lotfe-şahe- din gərdid bər ə'da degər ğaleb.
Ço cəstəm əz xerəd tarixe-fəthəş, hatefi qofta
Ke, "Rumi-ra fəna kərde Əli ibni-Əbi Taleb".

**Qeyd:** Bu qit'ənin son misrasının fars dilindən tərcüməsi: "Ki, rumini fəna etdi Əli ibni-Əbi Taleb"

əhli-beytin hami (movla) və tərəfdarlarının iftixar etmələrindən ötrü bu sətirlər müəllifi düzgün və inandırıcı (səqqe) sözlər danışan adamlardan eşitdiklərini belə qələmə almışdır:

Bu kitab sahibinin həzrət şahe-vəlayətpənahın (İmam Əlinin – *Ş.F.*) müqəddəs rövzəsi [nin kəraməti] haqqında Mövlana Mahmud Kiliddardan eşitdiyi birinci əhvalat budur ki, o, deyirdi: Murad paşanın gəlib Nəcəfe-Əşrəfi mühasirəyə aldığı vaxt, paşa seybələri irəli çəkmiş və oranı fəth etməyə çalışmaqdaydı ki, onun tüfəngçilərindən (bəndəqəndaz) bir nəfər seybənin çəkildiyi bürcün yanına gələrək, gah məzhəb ixtilafı barədə təəssübkeşlik və inad mövqeyində dayanır, bihudə fikirlər söyləyir, uca səslə mənasız (latayel) sözlər danışır, gah da öz mərhəmətini izhar edərək belə deyirdi: **s.1051** "Mən ata-babadan əcəm diyarındanam. Mənim sizə rəhmim gəlir, ona görə ki, tezliklə bu davamsız qala qəhr və qələbə ilə fəth olunacaq, sizin adamlarınız qılınca yem, qadın və qızlarınız əsir olacaq, var dövlətiniz taraca gedəcəkdir". O, bu sözləri söyləməklə [hamını] qalanı təhvil verməyə rəğbətləndirirdi. Onun belə hədyanları mühasirəyə alınanların qorxuya, zəif adamların və mühafizəçilərin vahiməyə düşmələrinə səbəb olurdu. Günlərin bir günü, ömründə əlinə tüfəng götürməyən və atəş açmağı bacarmayan azyaşlı uşaqların biri o bədbəxti öldürmək üçün tüfəng götürdü, Nəcəf şahının (İmam Əlinin – *Ş.F.*) müqəddəs ruhundan kömək xahiş etdi və bürcə qalxdı. Həmin hərzə-hərzə danışan adama güllə açdı, güllə murad hədəfinə dəyərək onun beynini dağıtdı.

Baş verən ikinci hadisə isə belə olmuşdur: Təəssübkeş bir tüfəngçi uca bir yerdə tüfəngçilər cərgəsində özünə yer tutub, hər gün oradan güllə yağdırmaqda və hərzə-hərzə danışmaqdaydı, qala mühafizlərinin gülləleri gedib ona çatmır, amma onlar o adamdan çoxlu sədəmə görürdülər. O, bir gün əvvəlki kimi həmin uca yerə çıxıb hərzəliklə danışmağa başladı, hətta dilindən mübarək zərihə də biədəb sözlər çıxmağa başladı. O, əlinə tüfəng götürüb atmağa başlayan vaxt, qeyb döyüşçülərinin imdadı ilə fitilin ucu odlandı, yanmağa başlayan tüfəng çatladı və onun bir qəlpəsi onun başına elə dəydi ki, beyni dağıldı və dili qiyamətəcən danışmaqdan qaldı.

Üçüncü hadisə belə oldu: Mühasirə günlərində böyük cüssəli bir şir qala yaxınlığında rumilərə göründü. Həmin şir çox vaxt qalanın dövrəsində gərdiş edirdi. Fərat çayı sahillərində şir və başqa heyvanlar (seba') çoxlu ziyankarlıq etdiklərindən rumilər ehtiyatlandılar və düşündülər ki, vəhşi heyvanlar tamahkarlıqdan (aclıqdan – *Ş.F.*) ordunun yaxınlığına ayaq açmışlar. [Buna görə də] rumilər seybəni irəli aparıb qalatuma işlərinə hazırlıq gördükləri vaxt şirin qorxusundan artıq orada dayana bilmirdilər. Bu sətirlərin müəllifi bu hadisəni Pəhləvan Möhsün Aşıqabadidən eşitdi.

Dördüncü hekayət isə çıraq yağınının saxlandığı küp haqqındadır ki, bir neçə izzətli və e'tibarlı (səqqe) adam bu hekayəti Nəcəfe-Əşrəf sakini Mir Feyzullanın damadı Mir Bəhaəddinin dilindən eşitmişdir, bu həqir bəndə (yəni, İskən-
**s.1052** dər bəy Münşi – *Ş.F.*) də onu mömin (ətqiya) və saleh (soləha)
**(741)** şəxslərdən olan o seyiddən eşitdi. O deyirdi: "Mühasirə vaxtı sərkare-feyzasarın küplərindəki çıraq yağı bürclərin işıqlandırılmasına görə qurtarmışdı. Belə ki, gecələr evlərdən azacıq piy (pih, piy) yığaraq məş'ələri yandırdılarsa, bu da kifayət etmirdi. Köhnə və nimdaş paltarları sərkare-feyzasarın küpxanasına (xomxane) aparıb yağlayaraq istifadə etməyə başladılar. Küplərdəki yağlar təmamilə işlənib qurtardı, məş'əllər yandırılmadı. Məş'əldarlar küpxanaya gələrək, çıraqları yandırmaq üçün azacıq yağ istəyəndə çox tutumlu və böyük bir küp gördülər. Baxdıqda o küpün yağ ilə dolu olduğu müşahidə olundu. Onlar bir-birinə müjdə verdilər və bu möcüzə və kəramət mühasirədə olanların ümidlərinin artmasına səbəb oldu".

Beşinci [kəramət] isə nurun görünməsi və [tərəflərin] bir-birlərini lənətləmə (mobahele) hadisəsidir ki, Pəhləvan Möhsün tərəfindən qala xaricində olanlarla baş vermişdir. Bu sətirlər müəllifi elmli seyidlərdən olan (seyidəl-mohəqqeqin) Mir Məhəmmədbağır Damadın dərs dediyi məktəbdə (hovzeyedərs) Pəhləvan Möhsünün o həzrətə dediyi sözləri eşitdi. O deyirdi: "Bir gecə yağın olmaması səbəbindən məş'əllər yandırılmamışdı. Bir bürcdə yandırdığımız məş'əllər isə

bütün qalanı işıqlandırmaqdaydı. O məş'əldən elə güclü nur ucalırdı ki, hər yanı daxildən və xaricdən işıqlandırırdı. Müxaliflər elə bilirdilər ki, bütün bürc və barılarda məş'əllər yandırılmışdır və biz hər tərəfi çıraqban etmişik. Eşikdəki səfeh və cahil adamlar istehza ilə deyirdilər: "Sizə hələ çoxlu yağ lazımdır. Bəs nə üçün mə'nasız yerə bu qədər çıraq yandırmısınız?". Biz onlara dedik: "Heç bir çıraq yandırmamışıq! Bu işıq isə Həzrət Nəcəf şahının (İmam Əlinin – *Ş.F.*) vəlayət və kəramətinin nurudur". Onlar istehza etməkdə davam edirdilər. Mən onlara dedim: "Bu məsələ xüsusunda mən sizi lə'nətləyirəm. Bizim həmin nur barədə söylədiyimiz
**s.1052** təmamiylə düzgündür ki, onun tə'sirini elə bu günlərdə görəcəksiniz". Bu danışıqdan sonrakı iki-üç gün ərzində [rumilər] böyük topu qalaya tuşlayıb atəş açmaqda idilər. Bu zaman bürc zədələndi (enhedam) və top çatladı. Bürcün tə'mir olunmasınadək topxananın işi dayandırıldı. Murad paşa Hafiz Əhməd paşanın yanına adam yollayıb ondan başqa bir böyük top, həmçinin kömək istədi.

Hafiz Əhməd paşa isə başqa top göndərmədi və dedi: "Ötən iki-üç ayda işimiz irəliləmədi. Qoy oradan çıxıb Bağdada gəlsinlər. Bağdad qalası ələ keçirilərsə, [Nəcəf] qalası Bağdada tabe olan qalalardan biridir. Belə olan halda Nəcəf qalasının tutulmasının nə faydası var"? Murad paşa oradan çıxaraq Bağdada getdi, qala mühasirəsində olan adamlar o həzrətin (İmam Əlinin – *Ş.F.*) müqəddəs ruhu sayəsində nicat tapdılar.

## BU İL BAĞDAD QALASININ AYAĞINDA OLAN RUMİYYƏ VƏ QIZILBAŞLARIN YIĞCAM ŞƏKİLDƏ VƏZİYYƏTİNİN ZİKRİ, [ŞAH] NƏZƏRİNƏ YETƏN MƏKTUBUN MƏZMUNU (FƏHVA), YAZILMIŞ, LAKİN BU CİLDƏ DÜŞMƏMİŞ [BAŞQA] MƏKTUBLAR (MƏQALAT) HAQQINDA

Beyni işıqlı ağıl sahiblərinə (ülüvvəlbab) mə'lum olsun ki, bu faydalı səfər, habelə gediş-gəliş vaxtında qızılbaş və rumyyə qoşunları arasındakı vəziyyət barədə mə'lumat verildi. Bu sətirlər müəllifinin özünün də baş vermiş əhvalatlardan xəbəri vardı, çünki olmuş əhvalatları ya özü şəxsən müşahidə etmiş, ya da baş verənlər haqda dəqiq mə'lumat

toplayaraq onları yığcamlıqla bəyan səifəsinə köçürmüşdür, amma uzunçuluğa yol verilməsin deyə hər bir əhvalat və hadisəni qələmə almamışdır, ona görə ki, hərzə-hərzə danışan adamlar bə'zi hadisələrdə uzun zaman[1] yalan axtararlar, oxucular bə'zi hadisələri isə ədəbgözləmə (təkəllofat) söhbəti və münşiyanə ibarə gözəlliyi kimi qəbul edə bilər, onlara yalan kimi yanaşarlar.

Sərdarın ordusundan ayrılıb İstanbula gedən rumi çavuşlarının biri özü ilə əmir və ə'yanların ərizə və məktublarını aparırdı. O, yolda şüarları zəfər olan əskərlər tərəfindən tutuldu. Onun gətirdiyi məktubları şahın nəzərinə yetirdilər. Məktubları göndərən şəxslərin hər biri bə'zi vaqi əvə əhvalatları öz tərzi ilə qələmə almışdı. Belə ki, paşalar, əmirlər, ə'yanlar və dövlət adamları özlərinin sə'y, xidmət, möhnət və məşəqqətlərini bildirib, onları öz istəklərinə uyğün şəkildə yazmışdılar ki, həmin yazılar dünyəvi qərəzkarlıqdan xali deyildi. O cümlədən, amma böyük adamların biri tərəfindən Müsəlla Çələbi adlı dostuna *türki dilində yazılan məktubda* həqiqi vəziyyət qərəzsiz şəkildə yazılmışdı ki, həmin məktub bu həqir bəndə tərəfindən oxundu və eyniylə bu cilddə səbt olundu. Çünki, qoy oxucular tərəflər arasındakı həqiqi vəziyyətdən tam xəbərdar olsunlar, bu sətirlər müəllifini tə'rifləməkdən ötrü öz bildiyi kimi (molazemət) yazmaqda təqsirləndirməsinlər, onu öz fayda və ziyanını düşünən, doğru və yalan danışan bazar adamlarından biri saymasınlar. Əgər fars və türk sözlərinin yazılışında səhv və uyğunsuzluq görərlərsə, [həmin məktub] sətri köçürmə olduğundan qoy iste'dad sahibləri o xətaları bu sətirlər müəllifinin xətası sanmasınlar. Elə məqamlar olarsa, üzr istəyirik.

***Rumiyyə məktubunun surəti:*** Cənab izzətməab ruhəm parfotuhəm Müsəlla Çələbiye-kamyab həzrətlərinə dorəre-dəvate-safiyane-məhəbbətayat və ğorəre-təslimate-valiyyate-mohəbbətğayat ethafindən sonrə e'lame-mohobbane nudur ki[2] "Allahın köməyi ilə"[3] əgər lotf edüb bu dailəri tərəfindən

**s.1053**

[1] Ərəbcəsi: "Muzəbzəbinə min – Zəlikə"

[2] Zənnimizcə "budur" olmalıdır – *Ş.F.*

[3] Ərəbcəsi: "Behəmdil-lahi"

**s.1054** zərre və şəmmeye-suale-şərif təcviz buyurulur isə behəmdul-
**(742)** lah və-l minnət "Allahın kömək və sənası ilə"[1] hala vocude-nabudimiz səhhət dairəsində mövcud olub, leyl və nəhar doaye-dəvame-dovlətinizə modavim və didare-şərifinizə moştaqe-əzim olduğumuza eştebah buyurulmaya. Haman cənabe-mosəbbəbol-əsbabdən rica olunur ki, bir daxçe didare-şərifiniz ilə moşərrəf olməq moyəssər qeble[2]. Amin behorməte seyidol-morsəlin. "Peyğəmbərlər ağasının hörməti xatirinə"[3].

Sonra[4], bu səfəre-nədamətəsər və Bağdade-bidade-mohnətabad həvadisin estefsar buyursəniz nə dilim boylə səfər düşmatımızad lənlərə[5] nəsib olmasın. Toquz aydur ki, qəl'ə mohasere olalı bir daşinə rəxnə verilməyub.

Əvvəle-mühasirəmizdə "dərə xəlvət tülkün tək"[6] misalində qızılbaşe-bədməaşın əsəri əsla zahir olməmiş ikən mətrəslər (?) qurilub və nəqblər sürilub, həvalələr qalqub nəncəh (əlli – *Ş.F.*) dəf'ə yureşlər olub, hər yureşdə nencəh bin (min – *Ş.F.*) nofuse-qapuquli və sərdən keçdeydən[7] həlak olub, gündən-günə qəl'ədə olən məl'unlər qaleb və ləşkəre-eslam məğlub olməqdən qeyri nesbət başarməyub. Bu əsnadə şahe-əcəm tərəfindən sərdar olən Zeynal xan deməklə mə'ruf bir fitnəəngiz galebən qırq bin miqdari qezelbaşe-bədməaşe-hiyləkare-nabekar ilə peyda olub, əvvəl Diyalə sovbində (məntəqəsində – *Ş.F.*) [çaydan] obur bulub bizum tərəfimizə keçüb, nəncəh dəf'ə əlaylər yağləyub qaraltı göstərikən üzrə ikən şahe-əcəm kəndidəva ilə u kən (?) ləşkəre-xunriz ilə ayaq-bayaq gəlub, hiç bizum tərəfimizə moltəfit olməyub, bir meqdar ləşkəre-qəleye-Məndəli üzərinə tə'yin edüb, sahebe-səadət həzrətlərinin qapuçibaşını Məhəmmədağa və

[1] Ərəbcəsi: "Behəmdil-lahi və-l-minnəti"
[2] "Moyəssər qıla" olmalıdır – *Ş.F.*
[3] Ərəbcəsi: "Amin bi-hormәti-seyiddi-l-morsəlinə"
[4] Ərəbcəsi: "fima bə'du"
[5] "Duşmanımız olanlara" olmalıdır – *Ş.F.*
[6] "Dərə xəlvət tülkü bəy" olmalıdır.
[7] "Sərdən keçib" yəni "başdan keçib" olmalıdır – *Ş.F.*

Cestanlu Mustafa paşa və sayeri birlikdə olan (olən)[1] ləşkəre-islami qovvəte-bazu ilə qəl'eye-məzkurdən cıqərdub, kimin məhbus, kimin tə'meye-şəmşir və kimin kəndusi kibi qezel-başe-bidin eylədi. Bə'də Lək qəl'əsi diməklə məşhur bir qəl'ə dəxi içində olan əhle-eslam təsxir edincə, bu əxbarlərdən ləşkəre-eslam üzərinə mohomme əzim məstuli olub aba ciqub "müqabelə olməğə olamidur?" deyib (deyev) tədbir üz rah ikən bu məhəl şahe-əcəm xedəm və həşəmi ilə bizum tərəfimizə təvəccohe-tam edincə, sərdari olan nabekare-məz-kur sebəqe-xedmət[2] üçün pişrovlik edub Diyalə suyi üzrə cəsr qurməq şüruində ikən sahebe-səadət mən' (qadağan – *Ş.F.*) və dəf'inə Diyarbəkr biglərbigi Murad paşa ilə on beş bin miqdarı qocaq və yekitlər (igidlər – *Ş.F.*) biş əlahi parə tup (top – *Ş.F.*) ilə kuməzrub qəzayən (?).

Ol məl'une-hiyləkar bizdən çost və bir tub cəsri qurub üç-dörd (dorut) bin meqdarı qezelbaş və ləfamə (?) nüzul etmiş ikən, bu tərəfdən Murad paşa tişub[3] tub və tüfəng ilə mövcud bulunan qızılbaşın üzərinə hücum edincə onlar (anlər) dəxi bi-l-zərurə cəngə şüru edib, mabeyndə bir-iki həmlə kecdi. Hikməte-ilahi rəcalül-ğeybe-qezelbaşdən yeka (?) olub xak və bad və tiğe-borran birlə ləşkəre-eslamın yüzin döndərub. Əl-hasil enhezamə elləte-mosteqelə olməğin. Cənge-məzkurdə Diyarbəkr və Qəraman və Hələb və Ənatoli (Ana-dolu – *Ş.F.*) səncaqlərindən xəndə bir gozide yigit var isə şəhadət şərbəti nuş edib, mabəqisi tiğe-zəhraludə piş olub gicə arayə girməklə Murad paşa bir niçə təvabeilə yaralu-yaralu orduyə can qurtarub gəldi. Andən sonra padşahe-əcəm gəlüb Diyalə suyi ilə şat[4] (?) qadışan yerdə cəsr qurub. Ləş-kərin bir miqdari bizum tərəfimizə və bir miqdari Köhnə Bağdad tərəfə keçirub ətrafimizə qurd adını salub, gah bu tərəfdə, gah o tərəfdə bas (səs – *Ş.F.*) göstərub.

---

[1] Ərəbcəsi: "məən"

[2] Onları qabaqlamaq (sebəq) – *Ş.F.*

[3] "Yetişub" olmalıdır – *Ş.F.*

[4] Şətt (çay – *Ş.F.*) olmalıdır.

Əl-hasil, biz Bağdadı və qezelbaş bizi mühasirə edüb, yəni tupə dutulmuş meymunə döndük. Qəl'ə ilə cəng eyləsək bu yanımızdan qızılbaş hovlər (?) və qızılbaş ilə cəng eyləsək ənkəsəmizdən qəl'ə xəlqi ümitmizi kəsər. Axirol-əmr laəlac ətrafimizə xəndəq kəsub tapur (səf – *Ş.F.*) eylədüq. Tapurə
**s.1054** dəxi mültəfit olməyub pəncəh dəf'ə tapurimuz üzərinə gəlüb, alaylər bəğlayub, mahe-şəbanın yigirmi yeddinci günü (24 iyun, 1626) tapurmuz üzərinə yürüş (yüreş) etmək niyyətiylə gəldukdə sahebe-səadət dəxi ləşkəre-islam arasında nida salub səqir və kəbir atlu və piyadəsi, ümumən nəfire-am üslubi yeniçəridən ğeyri ki, mətrəslərdə qəl'əyə müqabil durmuşlər idi, qarşu ciqub müqabil olduq. Quşluqdən eykənduyə dekən top və tüfəng altında cəng olunub. Sərdarləri olan Zeynal xan şiddət edub həman tub altində sayəban qurdiğdə məlaine-məzkurlər bu işarədən bəşarət nəqarələrini döğüb səğir və kəbiri göz qəraldub. Biz-zat tub və tüfəngə moqəyyed olməyub, bir həmlə zərb eylədilər ki, əgər kuhe-Əlborz (Əlborz dağı – *Ş.F.*) olsə önlərində tarimar olurdu. Mohəssəl (xülasə – *Ş.F.*) bu həmlə ilə ləşkəre-eslamın qəlbini qulə urub. Mədəklu (?) səkbanımız tapurdən dişru çıkdinsə, əksəri at ayağı altində paymal olub. Sepahi (ispahi) tayifəsi meydanı dar gördükdə sahebe-səadət alayındə dəxi durməyub qərar-
**s.1055** larını fərarə təbdil və başlərimlə (?) səhra və biyabanə düşüb
**(743)** tapur yolin azub, əksəri əvvəl gündən biruna peyda olub, filancəmiz (?) mənkub və mə'kus pərvaneye-bipər kibi tapurə pənah gətirüb, qorunməğ qərar verdik. Bu mə'rəkədən sonra sahebe-səadət üməraye-üzzam və kobəra zülqədr-və-l-ehteram ilə müşavirə edub qərar verdilər ki, bi-z-zat bir dəxi tapurdən dişrə cıqməğə sərfəmiz yoqdur. Həman qəl'ə mühasirəsinə bərk yapuşub, "sayəd ki, qəl'ə bin qəhətluq ilə töküldüb əmanə gətirəyüz" deyiv, bu ümid ilə qələnin dört yanını əhatə endərüb. Şahe-əcəm bu tədbirimizə vaqif oluncə bipərva ötə gicə Köhnə Bağdad tərəfinə on beş bin miqdarı qezelbaş keçirub, üç bin yük, bəlkə artuq zəxirə, dəvə (divə) və qatır ilə Quş qələsi civarinə yetirüb ləşkəre-eslam qərşulərinə ğilov etdiküncə, dövlətimiz yar olmayıb. Andə

dəxi xeyli səkbanımızı şat suyinə töküb və pəncəsi tə'meyi-şəmşir olub. Mohəssəl, qovuşluq vəqti idi ki, dideyi-bəsirimiz ilə müşahide edirdük bu əzim zəxirə və qoyun, tayağ və tavuğə (?) dəkin gəmilər ilə qələyə qondi. Ol əcəldən ləşkəre-eslamın beli bükülüb, biz ağurdə qəl'ədən naümid olduq, "ilahi, kəndu halimizə motəhəyyer ola" deyiv bu əfsorde fikirlərdə ikən, şahe-əcəm bu həvadisdən xatercəm hasil edüb, "qızılbaş dört yanımızın yolların kəsüb" deyiv bi-z-zat Şat və Fəratdən həqqa ke, bərr-o bəhrdən quş uçurmuyub zalem qezelbaşın atı ayağı altı şat və Fərat kibi sulər ki, hər biri Tunə suyi tüğyanundadur, bir çay kimi görünməyüb. Hillə və Kərbəla və Fillucə və məsib tərəflərinə afətun salub, məhəle-məzkurlərdə ləşkəre-islamın sək (?) və paşa mamində (?) at və atoğlanı naminda olən cümlə yeksan görünüb. Hillədə olən Aslan paşa və qapıqulu və ərəbi bir təriqlə təsxir eylədilər ki, təqridindən veyləkər (?) qaser və qələmlər kaserdür. Mohəssəl (sözün qısası – *Ş.F.*), müddətlərdür ke, orduye-hümayunə bir vəqiyyə[1] zəxirə gəlməyüb. Hər kim əvvəldən bir zəxirə çoq tədarük etdisə, hala kəmin tutub kəsən (?) satur. Ordumuzun ucuzluğu bu minval üzrə olubdur ki, zikr edərüz. Bir vəqiyyə un bir quruşa, bir vəqiyyə yağ iki quruşa, bir vəqiyyə xurma bir quruşa, bir kilə arpa səkkiz quruşa, ətməkin üç dirhəmi bir aqçə və attın (?) bir vəqyəsi qırq ağcə satılur. Ol naziktəb canlar ki, be ğəlvayi[2] (?) nəzakət ilə yerlərdi (bəlkə yeyirlərdi – *Ş.F.*), şimdi at atın (ətinə) görəndə sələvat gətirüz oldular və ol zərif canlar misri kətan bezrandən (?) köynək geyməkdən ar edərlərdi, şimdi əski çadır bezindən dizə enməz köynəklər ilə fərəh kəsb edər oldilər. Ol xud-pəsənd dilavərlər ki, qəhvəxanələrdə qezelbaş ilə məsrəyə (?) düzülər idi, şimdi ədəni (?) səni üç mil yoldə müşahidə edəndə Rüstəm-Zala təşbih edər oldular. Və ol qoçaq igitlər ki, qezelbaşdan doymaq (bəlkə oymaq – ?) almaq ümidiylə

---

[1] Bir vəqiyyə 7,5 misqala bərabərdir (Bax: D-r M. Moin. Göst. lüğət, I cild, s. 404).

[2] Ğəlve – "həddindən artıq" mə'nasını verir (Bax: D-r M. Moin. Göst. lüğət, II cild, s. 2433).

gəlürlər idi, şimdi kəndu çadır və əsbablarını qoyub, ancaq canların fovr tameg (?) minnət bilur oldular. Ol varlı (mon'əm) əkabirlər ki, gümüş rəxtlü atlərə minüb fovci (qoşunu – Ş.F) ilə həmmamə gidərlərdi, şimdi səmərlü eşşək
s.1055 görəndə təhəssor (həsrət – *Ş.F.*) çəkər oldilər. Ol əcəldən ki, ordumuzun dört hissədən bir hissəsi ancaq atludur, mabəgiye-ləşkəre-islam yabaq (?) və pərişan qalıbdır. Əgər bir nədvir (?) ilə köçməlü olən yeniçərinin ur nasayesxanəsini (?) götürür və ardinə cəbbəxanə və topxanəmizin bir fərdinə öyəliq (?) edən və əz həmin bu fikrə qalmışuz ki, "Sultan Süleyman dövründən Birəcəkdə (?) və Bəsrədə intiqal edən balyeməz (kiçik top – *Ş.F.*) və səngəndaz topları qəl'ədə kömək üçün götürmüşlər idi, böylə yurtda qoymaqdan Ale-Osmana namenəngdür" deyiv sahibe-səadət bu əndişə ilə həlak olubdur, neçə dəfə yardum və xəzinə üçün müstəqillən adəmlər göndərilmişdir, birinin əsəri olmadı bilmənüz, qezelbaş əlinə giriftar oldular, yoxsa səadətlər[1] xandgar həzrətləri bi-z-zat ləşkəre-islamin tumarı bir yüzətdən götürülmək istər, həman mənidür ki, türkilərdə söylənir ki.

**Şer**

*Nə Bağdaddan nə Bəsrədən gəlür var,*
*Nə keydi-Osmanludən bizə yardum var.*[2]

Hələ bu ayədək xəzinə və yardum gəlsə ola şeycəğ (?) ehtimal var, amdi fama bundan böylə xandgar həzrətləri bi-z-zat (şəxsən özü – *Ş.F.*) gəlsə imdadımıza yetməz, neçün ki, qəziyyə bu məzmun üzrədür. Bir yanımız Dilayə suyi, bir yanımız şat-e əmkəne (ziyarətgah – *Ş.F.*) fərre-Şah Abbas ükməz (?), Bağdad məgər bizə Xudadən ola imdad mohəssələkəlamudur. Adəmdən bərü ləvənd ümmətlü girdabə kimsə düşmüş degildür ki, bizim bu əhvalimizə mətlə' olə. Həm,

[1] "Səadətli" olmalıdır – *Ş.F.*

[2] Şe'r qüsurludur və qafiyəsizdir

"Keyd" sözü ərəbcə fırıldaq, hoqqa, kələk, yalan, xəyanət və satqınlaq mənasını verir ki, bu sətrə yuğun olmur – *Ş.F.*

ruhəm, böylə fəhm edərüz ki, şahe-əcəm hər tədbir ki, eylədisə təqdir və müvafiq gəldü ke, məhzən həzrət Əli Kərəmullah vəchə kəraməti əsərindən olduğu şübhə yoxdur bilmənüz. İmame-ə'zəm həzrətləri bizim cəhətimizdən himməti süst oldüğinə səbəbdəndür, yoxsə ancəq kəndü mərqede-
**s.1056** şərifi və ruhe-lətifi üçün ol həzrətin dərgahinə pənah təvəccoh
**(744)** edibdir. Mənim ruhəm, bu noqtə zarə yetdükdə bu əcəb kələmatı cəhrən oqumayub, həman şiveye-sərablə ki, mabeyinizdə məxfidür, güzaridəsiz ki, xudbinlər rüsvasindən sələmət olasız, "amin ey köməkçi![1]. Məxfi buyurulsə ki, ordumuzdə bir xəstəliq məstulidir ki, bu vilayətin ab və havası qezelbaşın əgri qılıcı kibi kəsməqdədür. İç ağrısı və estesqa (bədən boşluğuna su yığılması, vodyanka – *Ş.F.*) rəhməti və nəzlə (soyuqdəymə, zökəm – *Ş.F.*) və mərge-məfaca və badesəmum böylə dərdü bəlalərdən kibi səadətli baş gərəkdür kim, bir daxçə ol canibə çiqə həman yarane-baçəfayə salamimizi yetirib halallıq diləyəsiz, axirəte-xəfi halal etsünlər əl-hökmüllah əl-vahid əl-qəhhar. "Hökm həmişə qalib olan tək Allaha məxsusdur"[2]. Həman bunə şükrümüz vardır ki, bəqiyyeye-ömrümüzi imami-əzəm türabində sərf eylədük, yarane-basəfayə dəxi ba sər həm məktublər yazub göndərmisüz, qüsur birlərinə nəzər etməsinlər, ancəq oldu, zira bir sətir yazincə "düşmən gəldi" deyiv üç-dörd dəf'ə ur gündəliq vaqe olur. Zalim qezelbaşın isə gözü ləşkəre-islami şöylə olubdur qurd qoyinə səkərdür kibi tapurumuz üzərinə səkərdüb ta xəndəqimizin ətrafində kəsə-kəsdür, çe gecələr oğrisi və çe gündüzlər doğrisi müddətlərdir ki, gecələr fanuslər ilə ordumizin arasını kəsüb. Ruzigarımız böylə keçir. Nə bilməzün qurşağımızı çəzə (?) bilürüz nə əlümizdən yəraqmizi. İki əlimiz bir başə qalubdur. Halımız Allahdan qeyri kimsə bilməz Məşruhən təhrir olunsa yüz böylə məktubdə siğməz. Həqqa ki, müsibəte-ruze-məhşər bu günlərimizin pərsəngi
**s.1056** olməz dəxi səni buna qiyas edəsiz. Bəssəlam.

---

[1] Ərəbcədən tərcüməsi: "Amin ya moinu"
[2] Ərəbcədən tərcüməsi: "əl-hökmu-l-lahi-l-vahidi-əl-qahiri"

## HÜMAYUN MƏİYYƏTİN İRAQİ-ƏRƏBDƏN GERİ QAYITMASI VƏ [ŞAHIN] BEHİŞTNİŞAN MAZANDARANDA QIŞLAMASININ ZİKRİ

Yuxarıda yazıldığı kimi, zəfər ayəli cah-cəlal ordusu xeyirli darüssalam səfərindən (İraqe-Əcəmə – *Ş.F.*) hərəkət edərək, əzəmət və kamranlıqla Həmədan hüduduna gəlib çatdı, [şah] bir neçə gün o yerin yaylaqlarından olan Mim (Məyəm ? – *Ş.F.*) yaylaqında dayandı. Elə oradaca Bağdad işlərinin nizamlanması ilə məşğul olaraq müqəddəs şəhidlər uyuyan yerlərin mütəvəlliliyində və pak rövzələrə xidmətdə dəyişiklik yaratdı, Sarı Sultanı Səfiqulu xanla əvəz etdi, Bağdadın qorunmasında göstərdiyi mərdanəliklərə görə ona Şire-Əli (Əlinin şiri – *Ş.F.*) ləqəbini verdi.

İsfahan daruğəsi Xosrov Mirzə Gürcünü inşaat sərkarı (sərkare-emarət) tə'yin edib onu qalanın təmiri, ali bürclərin inşası və qala ətrafında xəndəq qazılmasından ötrü o tərəyə yolladı, bunun üçün me'marlar, bənnalar, beldarlar və fəhlələr də göndərdi. Mühasirədə qalıb qalanı qorumaqda məşəqqətlər çəkmiş bir dəstə əskər və tüfəngçini vəzifələrindən azad edərək, onların yerinə başqa bir dəstəni tə'yin etdi.

Bu işlərdən xatircəm olandan sonra hərəkət cilovunu Sultaniyyəyə çevirdi və o şəhər bir neçə vaxt müzəffər padşahın iqamətgahı oldu. Orada zəfər nişanlı əskərlərin rəsmikeçidinə tamaşa edib, Gürcüstan cəngi və Bağdad meydanlarında mərdanəlik göstərənləri müxtəlif hədiyyələr, nəvazişlər və töhfələrlə sərəfraz etdi.

Bu yasaq zamanı qeyrət və şərəflə əziyyətlərə sinə gərmiş bir neçə sadiq adamı qorçilər və dərgah mülazimləri silkinə layiq gördü, Zaman bəyi üç min tüfəngçiyə sərdar tə'yin edib Azərbaycana tərəf göndərdi ki, qorçibaşıya və oradakı əskərlərə birləşərək din və övlət məsləhətinə müvafiq sərhəd işlərinin tənzimlənməsi ilə məşğul olsun. Onun gediş-gəlişi və orada baş verənlər barədə gələn ilin hadisələrinin şərhinə yazılacaqdır.

Bağdadda sərdar Əhməd Hafiz paşa məsləhət görmüşdü ki, ə’lahəzrət şah Sultan Osmanın vəfatının tə’ziyəsi və Sultan Muradın cülusunun təbrikindən ötrü dostanə bir məktub, həmçinin bu xanədanın qədim ocağı və irsi mülkü olan Bağdad mülkü haqqında mə’lumat yazıb göndərsin. Şah buna görə, də hələ Sultan Osmanın sağ-salamat olduğu vaxt gələn Məhəmməd ağa adlı elçini, habelə sərdar tərəfindən Bağdada gəlmiş Mustafa ağa adlı başqa bir elçini bir-birinə qoşub, daim çalışdığı tərəflərarası narahatlığın dəf’ olunması, həmçinin əhalinin və Allah bəndələrinin əmin-amanlığının təmin edilməsindən ötrü yola saldı, habelə Təhmasibqulu Şirədənlini Rum elçiliyinə tə’yin edərək, məhəbbət üslubunda yazdığı məktubu həmin elçiylə birlikdə göndərdi.

Onun əhvalatının şərhi də gələn il yürüşlərinin şərhində şirin dilli qələm vasitəsiylə yazılacaqdır.

Sultaniyyədə bütün ordu əskərləri rüxsət alıb öz vətənlərinə, hümayun məiyyət isə şah ordusunun mülazimləri ilə Qəzvin darüssəltənəsinə getdi və şah mübarək dövlətxanaya gəldi. O zaman Qəzvində olan *urus padşahının elçiləri*, həmçinin Bəlx valisinin elçisi Nədr Məhəmməd xan Özbək sədaqət və dostluq qayda-qanununun tənzimlənməsindən
**s.1057** ötrü ali saraya gəlib şahla görüşmək səadəti ilə şərəfləndilər,
**(745)** gətirdikləri məktub, töhfə və hədiyyələri təqdim edib izzət və
**s.1057** ehtiramla geri qayıtdılar.

Şah oradan behiştnişan Mazandaran qışlağına yollandı, qışı Fərəhabad fərəh evində, gözəl Əşrəf şəhərində və oranın başqa İrəm timsallı yelərində kamranlıq, iqbal, at minmək və ov etməklə keçirdi.

**Bu ilin vəfat edən məşhur adamları haqqında:**

**Təhmasibqulu xan Tərxan Türkman.** O, izzət büsatının yaxın adamları zümrəsinə daxil idi. Keçən il ona xanlıq rütbəsi və hakimlik verilmişdi, bu il Kirman darüləmanının hakimi vəzifəsi ilə şərəfləndi. Xeyirli Bağdad səfərində mə’də zəifliyinə mübtəla oldu. İfrat yemək və namünasib içməklə həmin zəiflik daha da gücləndi. O, müalicəyə az fikir verirdi, təbiblərin sözlərinə

inanmırdı, nəticədə isə xəstəliyi gün-gündən şiddətlənirdi. Ə'lahəzrət, xana olan ehtiramına görə onu bir təbiblə Gərimsir yaylağına yolladı. Xan oraya çatıb Kərən yaylağında dayandı. Amma, yenə də təbibin müalicəsinə baş qoşmur, öz bildiyi kimi hərəkət edirdi.

Sözün qısası, xan hər gündə bir dəfə öz ölmünü qarşılayırdı. Bu vəziyyət o vaxta qədər davam etdi ki, nəhayət ölüm gəlib ona çatdı və yaxaladı. Kirman əyaləti isə möhrdarlıq vəzifəsindən əlavə [həm də] böyük zülqədər əmirlərindən olan Əmir xan Mürəbbi Sugələnə verildi.

Müqəddəs Məşhədin ali dərəcəli seyidlərindən, həmçinin nurlu və ətirli Rza rövzəsinin mütəvəllisi olan **Mirzə Əbutalıb Rezəvi** xeyirli Bağdad səfərində şah ordusunun mülazimi idi. O, rumiyyənin məğlubiyyətindən sonra pak Kazimeyn, Kərbəla və Nəcəf rövzələrini ziyarət etməklə şərəfləndi. Bu sətirlərin müəllifi də o ali qədirli seyid ilə ünsiyyət bağlamış və müqəddəs şəhidlərin ziyarəti zamanı onunla yoldaşlıq etmiş, həmsöhbət olmuşdu. Mirzə Əbutalıb, şahın xidmətindən qayıdan vaxt rüxsət alaraq Qəzvindən müqəddəs Məşhədə yollandı. Tehran şəhərində bir gün müxtəlif meyvələri və xörəkləri (əkl) ifrat yedikdən sonra güclü qulunca mübtəla oldu, onu sağaltmaqdan ötrü aparılan müalicəin xeyri olmadı və gedib bəqa aləminə qovuşdu, cəsədi müqəddəs Məşhədə aparıldı, böyük cəddinin müqəd-
**s.1058** dəs rövzəsində dəfn olundu.

## ƏLAHƏZRƏT ŞAH HAKİMİYYƏTİNİN İKİNCİ QƏRNİNİN ON BİRİNCİ DOVŞAN İLİNİN – TÜRKİ TARİXİLƏ MİN OTUZ ALTINCI (1626/1627) İLİN BAŞLANMASI

*Yenə dünyadə novruz başlanan dəm*
*Cavanlaşdı zəmanə, oldu xürrəm.*
*Bahar açdı ayaq, gəldi xuraman,*
*Bəzəndi gül-çiçəklər ilə hər yan.*
*Gülün şövqüylə bülbül cuşə gəldi,*
*Cahan cənnət kimi göyçək-gözəldi.*[1]

Qoca dünya bar daha öz cavanlığına başladı. Ürəkaçan novruzun qədəmləri bahar məclislərinin nişat və sevincini artırdı. Cahana ziynət bəxş edən və dövran məclislərini nurlandıran [günəş], yəni asimanın dördüncü iqliminin hökmranı öz kamranlıq taxtının (ovrəng) şərəf oturacağında göründü, rəcəb ayının ikisində, yekşənbə günündə, gecədən səkkiz saat on yeddi dəqiqə keçdiyi vaxt hut mənzilinin axırından həməl sarayının əvvəlinə keçdi, dünya meydanında aləmi bəzəyən büsat məclisi qurdu, cahan bağ-bağatını canlandırdı, gözəl gül-çiçək bərk bəzənərək (hərhəft*) təbiətin qoynuna cumdular, gülüstandakı sərv ağacı canlanmağa başlayaraq baharın feyzindən yenə də təravətləndi. Xoş avazlı bülbül gülün şövqü ilə gah başqa bülbüllərlə nəğmə oxumağa başladı, gah da gülü qucaqlayan səba yeli ilə bivəfa yardan ötrü pərişan söhbət, nalə və fəğan etdi.

---

[1] Beytlərin farscası:

Degər rəh ba neşat-o kamrani
Zəmane yaft asare-cəvani.
Bəhare-delgoşa aməd xoraman,
Por əz golhaye-şadi ceyb-o daman.
Həzar əz şovqe-qol nəğmesəra gəşt,
Cahan əz fərroxi cənnətsəra gəşt.

**Beyt**

*Çox kimsələrə yar idi hər gül,*
*Nalə eləyirdi amma bülbül.*[1]

Hümayun şah isə şadlıq ilə

**Misra**

*Əşrəf kimi qəlb açan məkanda*[2]

kama yetmək və məclis qurmaqla vaxt keçirirdi. O, hərdənbir şikarla məşğul olur, ucalara uçan həvəs qartalını kamranlığın ən yüksək zirvəsində pərvaz etdirir, öz şövq və xürrəmlik aləmini tənzimləyirdi. Orada Hindistan elçiliyində olan və Bağdad səfərində göstərdiyi xidmətlərə və mərdanəliklərə görə şahın iltifatına layiq görülən Zeynal bəy Bigdeli uca
**s.1059** əyalət rütbəsi və yüksək eşikağasıbaşı mənsəbi ilə şərəfləndi və onun qədir-qiyməti çoxaldı, Əliqulu xan Şamlının iqtası olan Rey ülkası Zeynal bəyə verildi. Bahar mövsümü başa çatdığı və hava isinməyə başladığı üçün qalibiyyətli məiyyət Mazandaran qışlağından hərəkətə gəldi. Rum ləşkərinin də hərəkətə başlaması xəbəri eşidildiyindən, şah Qəzvin darüssəltənəsinə doğru yollanıb fəslin ən yaxşı çağında
**s.1060** dövlətxanaya çatdı. Sonra Qəzvindən çıxaraq Azərbaycan və
**(746)** Gürcüstan sərhədlərindəki vəziyyəti tənzimləmək məqsədi ilə öz cahantutan bayrağını o tərəfə dalğalandırdı, Sultaniyyə şəhəri izzət və iqbal çadırlarının məskəni oldu. [Şah] öz ləyaqət və bacarığına görə [başqalarından] seçilən və divanbaşılıq mənsəbi ilə sərəfraz olan söhbət yasovulu Rüstəm bəyi Təbriz darüssəltənəsinə göndərdi ki, Təbriz hakimi və o yerin əmirləri ilə birləşib Van sərhədindən xəbər tutsunlar, o sərhədin rumiyyə və kürdlərinin fitnə-fəsadının dəf’ olunması üçün birlikdə öz sə’ylərini əsirgəməsinlər.

Bu il, sonu xeyirlə bitən hadisələrdən biri Şirvan bəylərbəyi Qazaq xan Çərkəsin Mouravi və gürcü üsyankarlarının

[1] Beytin farscası:
Gol ba həme kəs ənis-o dəmsaz,
Bolbol ze fəraq nalepərdaz.

[2] Misranın farscası: “Dər xotteye-delpəzire-əşrəf”.

əsirliyindən qurtulmasıdır. Bu barədə yazıldığı kimi, Qazaq xan Gürcüstanın Qara Qalxan yolunda gürcülərə giriftar olub uzun vaxt həbs edildi. Mouravinin işləri Gürcüstanda ürəkaçan vəziyyətdə olmadığı üçün, xanı qoruyan bir neçə mübariz tamahlanaraq, fürsət tapıb onu Gürcüsmtandan çıxardılar, sağ-salamat qorçibaşının ordusuna gətirdilər. Bu məsələ ə'lahəzrətə ərz olundu. Onun icazəsindən sonra xan Şirvana yollanıb oradakı vəkil, naib və adamları ilə birləşdi. Qazaq xan indi də fərman ilə Şirvan bəylərbəyidir.

### İQBAL HADİSƏLƏRİNİN BAŞQA BİRİSİ QORÇİBAŞININ AXƏSQƏ QALASINA YÜRÜŞÜ VƏ O QALANIN ƏBƏDİ DÖVLƏTİN QÜVVƏSİ İLƏ ƏLƏ KEÇİRİLMƏSİDİR

Əvvəllər yazıldı ki, Mesq Gürcüstanının Axəsqə hökuməti Səlim xan Şəmsəddinliyə, o yerlərin qalaların mühafizə olunması isə ona və bir dəstə tüfəngçiyə tapşırıldı.

Keçən il Gürcüstan və sərhədlərdə baş qaldıran cürbəcür fitnəkarlıq zamanı Rum qoşununun da gəlişi xəbər eşidilməkdəydi. O vilayətə qonşu Ərzrumun hakimi Əbazə paşadan da sədaqətsizlik və hiyləgərlik hərəkətləri zahir oldu. Oranın ən əzəmətli qalası olan Axəsqənin mübarizləri vahiməyə düşərək, qalanın mühasirəyə düşmə və ələ keçirilməsi qorxusundan orada qalmaqdan qorxdular. Qalanın tə'mir işi hələ bitməmiş və qala hələ möhkəmlənməmişdi. Səlim xan buna görə də qalada qalmağı məsləhət bilmədi və oradan çıxaraq qorçibaşıya birləşdi. Oranın yaxınlığında Qaraca Ərdəlan qalasının rumi əmirlərindən olan Mürtəza paşa adlı bir əmir, ya özünün istəyi, ya da Əbazənin tapşırığı ilə qala və məmləkəti xali görüb o tərəfə yollandı və qalanı zəbt etdi. Bə'zi əmirlərlə Qarabağda qışlayan qorçibaşı qışlaq yerlərindən hərəkət edərək İrəvana yaxınlaşdı və həmin qalanı fəth etmək ona tapşırıldı. Keçən il bir dəstə tüfəngçi və tüfəngçibaşılarla Azərbaycana getmiş Zeynal bəy Nazir əmr alaraq qorçibaşıya birləşdi və onlar birlikdə Axəsqə üzərinə yürüş edib, qalanı mühasirəyə aldılar. Onlar seybələri qalanın ətrafına

gətirib, onun bir-iki hasarını tutdular və irəliləməyə başladılar. Rumilər bir müddət, qalanın fəthi yaxınlaşdığından, anladılar ki, tezliklə alınacaqdır. Heç yandan onlara kömək yox idi. Mürtəza paşa sülh təklifi ilə qalanın müdafiəsini dayan-
s.1060 dırdı. O, şərt qoydu ki, rumiyyə əskəri qızılbaşlardan xilas olub, istədikləri səmtə gedəcək və əgər qızılbaş diyarında qalmaq istəyən olarsa ona maneçilik göstərilməyəcəkdir. Mürtəza paşa əhd-peymandan sonra qalanı təslim etdi və özü qorçibaşının yanına gəldi. Bə'zi rumilər onunla qaldılar, bə'ziləri isə öz diyarlarına getdilər, qala qəhrli dövlət övliyalarının əlinə keçdi.

Qalanı özbaşına tərk etdiyi və mühasirə olunmadan oradan çıxdığı üçün təqsirkar olan Səlim xanın əvəzinə qala hakimiyyəti Şəmsi xan Qazaqlara verildi və o, həmin yerlərə bələd olan qazaqlar tayfası ilə qalaya daxil olub onun mühafizəsinə başladı.

## BAŞVERƏNİQBALHADİSƏLƏRDƏNBİRİSİDƏMOURAVİ VƏTƏHMURƏSİNMÜXALİFƏTİ,BİR-BİRLƏRİİLƏCƏNG ETMƏLƏRİ VƏ MOURAVİNİN MƏĞLUBİYYƏTİDİR

Hadisənin şərhi belədir: Qalibiyyətli əskərlər Mouravi, Təhmurəs və gürcülərlə etdikləri müharibədə Kartil Gürcüstanının b'əzi böyükləri öldürüldü. O fitnənin səbəbkarı olan Mouravi Kartil məmləkətində hakim və fərmanrəva olmaq istəyirdi. Böyük adamların bə'ziləri isə Mouravinin hakimiyyətinə zidd idilər. Kaxet şahzadəsi və valisi olan Təhmurəs öz vilayəti viran olduğdan, Kartilin sabiq valisi Simlon xanınsa kişi övladı olmadığından, habelə onun oğulları Simeon xanın qız nəvələri kimi dünyaya gəldiklərindən və Kartil gürcüləri sabiq Simeonun qardaşı oğlu Simeon xan ibn Boqrat xana qarşı çıxdıqlarından, istəyirdilər ki, Kartil böyükləri onun oğlanlarına meyl eləsinlər, bir oğlunu Kartil hakiminin qız nəvəsi kimi Kartilə hakim etsin, özü o məmləkətdə fərmanrəva və iqtidar sahibi olsun.

Bə'zi Kartil gürcüləri bu məsələdə onunla dilbir olub, Mouravidən uzaqlaşdılar. Buna görə də Mouravi ilə Təhmurəs arasında bir-brinə qarşı yaranan qorxu fəsadla nəticələndi. Təhmurəs ondan ehtiyatlanırdı. Mouravi öz tayfalarından ibarət bir ləşkər toplayaraq qəfildən onun üstünə getdi. Təhmurəsin adamları onu bu məsələdən agah etdilər. O zaman Təhmurəsin müqabilə və müafiə imkanı yox idi, buna görə də öz yerindən qalxıb başqa tərəfə cumdu, fürsət gözləyib topladığı adamlarla birlikdə Mouravinin üstünə yürüdü. Hər iki dəstə arasında möhkəm cəng oldu, Təhmurəs qalib gəldi, məğlub edilən Mouravinin e'tibar şərabı fikir badəsindən xali qaldı. O, Gürcüstanda qala bilməyib Rum diyarına getmək əzmi ilə o tərəfə yollandı, Əbazənin üstünə Ərzruma getməkdə olan sərdara birləşdi və oradan İstanbula getdi. Mouravi o vaxtdan bəri rumilər arasındadır. Təhmurəs isə, öz xilasını bu dərgaha müraciət etməkdə gördü. Buna görə də, o, döyüşdən sonra qorçibaşının məsləhətilə bir dəstə adamı və tüfəngçilərlə Tiflisə getdi, arada ülfət və dostluq yarandı, yazışma aparıldı, gediş-gəliş başlandı. Keçən il onun tərəfindən cahana pənah verən dərgaha itaətkarlıq məktubu göndərildi ki, bu barədə aşağıda mə'lumat veriləcəkdir. Bu il isə
**s.1061** onların arasında görüş oldu.

## ALLAHVERDİ XANIN OĞLU DAVUD XAN VASİTƏSİYLƏ TƏHMURƏS XANIN CAHANA PƏNAH VERƏN DƏRGAHA PƏNAH GƏTİRMƏSİ VƏ ONUN ŞAH İLƏ GÖRÜŞÜ

Təhmurəslə Mouravi arasında yaranan vəhşət onların bir-biri ilə müvafiqətini müxalifətə çevirdi. Mouravi rumiyyəyə birləşib, Rum diyarına getdi. Təhmurəs isə qəflət yuxusundan ayılıb, öz keçmiş tərəfdarlarından və baş verən hadisələrdən peşiman oldu. O, təzədən öz vəsl əl ilə bu dövlətin ətəyindən tutdu, Davud xanla ülfət və dostluq yaratdı, əvvəlki qayda ilə bu astananın qulamı olacağını bildirərək, Davud xan vasitəsiylə özünün əfv olunmasını və qüsurlarının bağışlanmasını xahiş etdi. Davud xan vəziyyətin həqiqətini və

Təhmurəsin xahişini şaha ərz etdi. Müəzəffər cah-cəlal ordusu qələbə və iqballa xeyirli Bağdad səfərindən döyüb İraqa tərəf hərəkət edən vaxt Davud xanın ərzi və Təhmurəsin xahişnaməsi şahın hümayun nəzərinə yetirildi. Təhmurəs şaha belə yazmışdı: "Bu neçə ildə məndən bir neçə xəta üz vermişdir. Zərurət üzündən başlayan müharibələrdə qızılbaşlar ümumiyyətlə öz zəhərli qılınclarını mənə qarşı yönəltmişlər. Buna görə də ali saraya gəlməyə cur'ət etmirəm. Kərəm xanədanına mənsub olan həzrət şah bu günahkar bəndənin təqsirləri üzərinə əfv qələmi çəkib mənim keçmiş günahlarımı bağışlayarsa, mən yenidən qulağıma qulamlıq sırğası bağlayıb, bundan sonra bəndəlik yolundan dönməyəcəyəm. Bu qulamdan bir neçə nöqsan baş verdikdən sonra mən necə canfəşanlıq eyləyim ki, adamlar tərəfindən bəyənilmiş olsun, mən də buna əsaslanıb mülazimət səadətinə yetişmiş olum? İndi, etdiyim ədəbsizliklərin qorxusundan, ümidvaram ki, məni mülazimət təklifindən azad edəcəksiniz və öz xarabamda yaşayacağam".

Davud xan Təhmurəsin aman tapmasından ötrü şaha bir istimalətnamə də göndərmişdi. Ə'lahəzrət şah Davud xanın iltimasını qəbul edərək, ona şahanə inayət və Təhmurəsin əfvi xüsusunda bir məktub yolladı. Amma, belə bir xəbərdarlıq etdi: "Təhmurəs gənclik çağlarından bizim hümayun kölgəmiz altında tərbiyə almış və boya-başa çatmışdır. O, məni çox yaxşı tanıyır, müqəddəs məzacımın yaxşılığı və pisliyi barədə mə'lumatı vardır. Mən hal-hazırda onun üzrxahlıq, peşimançılıq və müt'illiyini qəbul edirəm. Amma qoy bunu bilsin ki, əgər öz meyl və sədaqət çöhrəsini bizim dərgaha gətirməzsə və günahkar adamların etdikləri kimi boynundan xəncər asıb bizim hümayun gözümüzə görsənməzsə, onun bizim tərəfimizdən əfvi olmayacaqdır. Əgər belə etməsə, deməli onun sözləri doğru deyildir və hiyləgərlikdir. Qoy çalışıb özünün üsyankarlığa bulaşan ətəyini xidmətkarlıq və düzgünlük suyu ilə yusun, özünü bizim hüsurumuza gəlmək səadətinə layiq bilsin".

Davud xan bu fərmanı alandan sonra şah ilə görüşməyi qəti qərara aldı, bir neçə xidmətkar mülazimi ilə o müqəddəs (əqdəs) vücudun və hümayun müqəddəs ünsürün (yə'ni, Şah
**s.1062** Abbasın – *Ş.F.*) görüşünə yollandı və onların arasında dostanə
**(748)** görüş oldu. Davud xan şahın əfvinə zamin olub, onun sözlərini bütün təfərrüatı ilə Təhmurəsə xatırlatdı. Əvvəlcə, rumiyyənin hökmranlığı zaman geydiyi osmanlı libasını soyunub qızılbaş libası geyməsini təklif elədi. Təhmurəs və bütün adamları təğyire-libas oldular. Bəyan etdi ki, ona qarşı əgər şahın lütfü və inayəti olarsa, o, bütün ömrü boyu mü'tilik yolundan kənara çıxmayacaqdır.

Bu əhd-peymandan sonra qayıdıb Tiflisə tərəf getdi, görüş barədə ə'lahəzrətə xəbər çatdırdı və bildirdi ki, Təhmurəs
**s.1062** itaət və şaha bağlalaq yolundadır.

## ƏBAZƏ PAŞANIN BİR DAHA DÜNYAYA PƏNAH VERƏN DƏRGAHA PƏNAH GƏTİRMƏSİ

Hadisə belə olmuşdur: Qələbə ayəli hümayun ordu zəfər və iqballa xeyirli Bağdad səfərindən geri qayıdanda bu qələbənin və rum ləşkərinin məğlubiyyəti xəbəri sərhədlərdə yayıldı. Əbazə paşa bir daha sədaqət və səmimiyyət izhar edib, keçən il tutub həbs etdiyi və barəsində qətl fərmanı verdiyi qorçibaşı Novruz bəy Ustaclını geri göndərdi, özünün keçmiş əməlləri, yersiz hərəkətləri və tacirlərin mallarını zəbt etməsi xüsusunda üzrxahlıq elədi. Rumilərin sərdarı Xəlil paşa onun dəf'inə yollandığınqdan Əbazə bu dövlətdən kömək almaq niyyətindəydi, amma onun davranışından ikiüzlülük, məkr və hiylə zahir olunduğundan, rum ləşkəri ona hücum edən vaxt ona kömək barədə qət'i bir diqqət olmadı. Amma qərara alındı ki, qorçibaşı öz müzəffər ləşkəri ilə İrəvanda dayansın ki, hümayun sərhədlərə nəsə bir əliuzunluq edilməsin. Sərdar Xəlil paşa Ərzruma yaxınlaşandan sonra *Dişlər Hüseyn paşa* adlı bir adamını bir neçə paşa və yeniçəri döyüşçüləri ilə Axəsqə qalasını geri almaq üçün Ərzruma yolladı, e'tibarlı adamlardan olan Bostan paşa və İsa bəyi

elçi sifətiylə Əbazənin yanına göndərdi ki, onu rəğbənləndirərək [Dişlər ilə] birlikdə gedib Axəsqəni tutsunlar. Dostları isə ona xəbərdarlıq edib dedilər: "Qafil olma, sərdarın göndərdiyi bu şəxslər Axəsqəni yox, səni tutmaqdan ötrü gəliblər". Əbazə Bostan paşanı və İsa bəyi tutub saxladı, Ərzrum ləşkəri ilə, Çuxur-Sə'd sərhədindəki qəhrli qızılbaş əskərlərinə arxalanaraq, canının qorxusundan qaladan çıxdı, qəfildən qoşunun önündə olan əmir, paşa və yeniçərilərə hücum elədi, Hüseyn paşa Dişlər də olmaqla bir neçə ləşkər başçısını ələ keçirdi, çoxlu rumiyyə və yeniçərini qələ yetirdi. Yaralı Hüseyn paşanı qalaya gətirdi və o, orada öldü. Bu xəbər sərdara çatdıqda bütün qoşunla onun üstünə gələrək, Ərzrum qalasını mühasirəyə aldı. Əbazə dörd ay mühasirədə qalıb, qalanı qorumağa başladı. Elə o vaxtlarda cah-cəlal ordusu ehtiyat naminə Sultaniyyədə dayanmaqdaydı. Qış çatdığından rumilər Ərzrumda bundan artıq qala bilməyərək, bir iş görmədən geri döndülər. Əbazə isə vəziyyəti şahın ərzinə yetirdi".

Ə'lahəzrət onun göndərdiyi adamlara [fikrini] açıq-aşkar izhar edib dedi: "Əbazənin işi sözü ilə bir olmadığından ona bir daha inanmır. Əgər öz sözünə sadiqdirsə, qoy cəng vaxtı, yaxud başqa yerdə tutduğu rumi əskərlərini ali şah sarayına göndərsin və şah onları görsün, beləliklə mə'lum olsun ki, o, bu işləri bu xanədana qarşı dövlətxah olduğuna görə etmişdir"

**Misra**

*Ya zəngisi ol Zəngin, ya rumisi Rumin.*[1]

**s.1063** kimi məşhur misalın məzmununa uyğun gələn bu hadisənin ardı gələn il yazılacaqdır

[1] Şe'rin farscası:
Ya zəngiye Zəng baş-o, ya rumiye – Rum.
**Qeyd:** Misradakı "Zəng" ifadəsi zəncilər məkanına işarədir – *Ş.F.*

## YAZILMASI ZƏRURİ OLAN MÜXTƏLİF HADİSƏLƏR

Ağıllı adamlara mə'lumdur ki, aləm sultanları və dünya padşahları arasında elçilər barədə belə bir qanun vardır: *Elçilərin istər dostluq, birlik, istərsə də düşmənçilik və ixtilaf vaxtlarında göndərilmələrindən asılı olmayaraq incidilmələri və zərər görmələri "Allah və əhali tərəfindən"*[1] *yol verilməyən və bəyənilməyən hadisədir. Elçilərin canlarına və mallarına Allah və insanlar tərəfindən pislənilən və məzəmmət olunan (məzmum) [yolverilməz hərəkətlər] heç vəch ilə elçilərə qarşı yönəlməməlidir, çünki elə adamlar onları göndərən şəxslərin buyruq adamlarıdır, elçilərin vəziyyətləri elçilik xidmətlərini yerinə yetirmək, məktub və xəbər çatdırmaqdır*

**Şe'r**

*Bütün padşahların qanunudur ki,*
*Elçiyə dəyməsin sədəmə, itki.*

Yuxarıda yazıldığı kimi, bu il cahan sultanlarının qayda-qanununa əsasən bəlağətli söz və ifadələrlə yazılmış bir neçə məktub elçilər vasitəsiylə Rum padşahına iki dəfə göndərilmişdi. Qorçi Çələbi bəy Qacara Bağdad hadisələrindən əvvəl, Təhmasibqulu Sultan Şirədəmliyə isə ale-Osman süla-
**s.1064** ləsinin dövlət başçıları tərəfindən yolverilməz hərəkətə yol
**(749)** verilmişdi. Geri qayıdıb Qara Həmidə çatmış Çələbi bəyi oranın hakimi aradan götürdü, Təhmasibqulu Sultanı isə bir-birləri ilə yola getməyən və onun qayıtmasını öz mənafelərinə uyğun görməyən rum böyükləri elə yoldaca öldürərək var-yoxunu mənimsədilər, ölümünün səbəbini isə əcəmin boynuna ataraq, bu qəbahətli əməlin üstünü örtmək məqsədiylə onun bə'zi əşyalarını mülazimlərinə verdilər. Tərəflər arasındakı sülh və dostluq vaxtı Hələbə göndərilən malları aparan Ağa Cəlal Kərkərati adlı elçi oradakı bə'zi xidmətlərin icrası

[1] "İndə-l-Xaliqi və-l-xəlayiqi"

ilə məşğul olduğu vaxt Hələb hakimi onun az mal gətirdiyini söyləyərək, bu elçini öldürmüş, bütün mal və əşyalarını özünə götürmüşdü. Əgər belə işlər səltənət başçıları tərəfindən həyata keçirilirsə elə hal olduqca kəmfürsətlik və alçaq xislətə dəlalət edir, yox əgər hakim və paşalar tərəfindən özbaşına əncam tapırsa padşahların iqtidarsızlığını, ölkə adamlarının özbaşınalığını, dövlətin zəifliyini göstərir.

Gözəl xasiyyəti bütün aləm tərəfindən bəyənilən, ölçülüb-biçilən davranışı isə böyük qanun olan və cahan sultanları üçün dəsturüləmələ çevrilən Allah-taalanın ali həzrəti (yəni Şah Abbas – *Ş.F.*) daim elə hərəkətlərin əksinə hərəkət edir. O, Bağdad hadisələrindən əvvəl cahana pənah verən dərgaha gələn rum sülaləsinin mö'təbər elçilərindən Məhəmməd ağanı Qəzvin darüssəltənəsində izzət və ehtiramla saxlamış, ondan sonra gələn Mustafa ağaya isə, keçən il hadisələrinin şərhində yazıldığı kimi, şahanə diqqət yetirmiş, onu nəvazişləndirib öz diyarına rəvan etmişdi. Əcəm məmləkətində olan o diyarın tacirləri isə əmin-amanlıq beşiklərində asudə gün keçirməkdəydilər. Onlar öz istəkləri ilə əziyyətsiz və sağ-salamat geri qayıtdılar.

### İMAMQULU MİRZƏNİN KOR EDİLMƏ VAQİƏSİ

Bu il mədarsız (bimədar) fələyin izni və vüqarsız şahzadə
**s.1064** İmamqulu Mirzənin ağılsız hərəkətlərinə görə nöqsan neştəri onun göz nuruna zərər yetirdi. Şüarları bəlağət olan qədim kitab (bastaninamə) müəllifləri öz təhqiq və təsdiq qələmləri ilə yazmışlar ki, ədalət ayinli sultanlar və imkan sahibi hökmranlar, xalqın vəziyyət və istiqamətini, istər əsgər olsun, istər rəiyyət, ali dünya mətləblərindən və ata-oğul münasibətlərindən üstün tutmuş, həmişə Allah bəndələrinin razılığı və rifahına çalışmışlar. Məsələn, rum padşahlarının ən ağıllısı (ə'əql) olan Sultan Süleyman öz böyük oğlu Sultan Mustafanı üsyan etdiyinə və yumşaq xasiyyətli (bi e'teteli) oldu-

ğuna görə, başqa oğlu Sultan Bayazidi isə dörd oğlu ilə birlikdə-bu barədə bu kitabın birinci səhifəsində, cənnətməkan həzrət şahın əhvalatlarının şərhində yazılmışdır, – yuxarıda söylədiyimizin sübutuna uyğun olaraq öldürmüşdür. Bu qəbildən olan hadisələr bir çox keçmiş sultanlar tərəfindən baş vermişdir ki, elə məsələlərin zikr olunması söhbəti çox uzadır.

Adı çəkilən şahzadə öz cəhaləti, qüruru, nadanlığı və cavanlığı üzündən böyük atası tərəfindən əsla bəyənilməyən hərəkətlər edirdi. Onun əməllərində mötədillik, zatının cövhərindən elmsizlik və çox olmayan məhəbbətsizlik (bimehri) müşahidə olunurdu. Buna görə də bu şahzadənin görən gözünün nursuz qalması məsləhət bilindi. Şahzadə, hərçənd ki, təqdiririn fərmanı ilə bu müsibətə (bəliyye) giriftar oldu, amma bu misrada deyildiyi kimi:

*"Hər tədbiri səndən daha yaxşı bilir Allah"*[1]

Xalqın və təqdirin "yaranış və təqdir karxanəsində" ali heysiyyətli (mənzelət) şahzadələrdən ötrü səbəblər aləmində (aləme-əsbab) qərara alınan bir neçə cəzanın ən kiçiyi gözün çıxarılmasıdır. [Şahzadə] ölümdən nicat taparaq, şahanə mərhəmət kölgəsi altında asudəliklə gün keçirməkdədir.

## HÜMAYUN ORDUNUN SULTANİYYƏDƏN MAZANDARAN QIŞLAĞINA QAYIDIŞININ ZİKRİ

Sultaniyyə şəhəri bir müddət şah əskərlərinin dayanacaq yerinə çevirildi. Sərhədə gəlib Ərzrum qalasının mühasirəsi ilə məşğul olan Rum sərdarı məqsədinə yetmədən geri qayıtdığına görə şah hümayun sərhəddən, rumilərin sərhəd ətrafına hücumundan, xüsusilə Axəsqə qalasından xatircəm oldu, buna görə də qayıdış yüyənini geri döndərib əskərlərə vətənə və məskənlərinə qayıtma icazəsi verdi, müzəffər qoşun

[1] Misranın farscası:
"K-u məsləhəte-to əz to behtər danəd".

mülazimləri ilə birlikdə Sultaniyyədən Mazandaran qışlağına doğru üz tutdu, şadimanlıqla gəlib şərəfli Əşrəf qəsəbəsində iqamət elədi. Şah gözəl Əşrəfin fərəhlər məskəni olan Fərəhabadın və o diyarın başqa inşa etdiyi cənnətəbənzər torpaqlarında seyr və şikara çıxaraq, qışı şadyanalıq və kama yetməklə keçirdi.

İki il Azərbaycanda qışlayan qorçibaşı hümayun fərman alıb ali saraya gəldi və Mazandaranda şahla görüş səadətinə yetişdi. Zaman bəy Nazir də Azərbaycandan qayıtdı, onun və qorçibaşının yanında olan tüfəngçi və əskərlər də vətənlərinə getdilər.

Baş vermiş hadisələrin biri də budur: Qarabağ bəylərbəyi Məhəmmədqulu xan Ziyadoğlu Mouravinin fitnəkarlığı başlayan vaxt səhlənkarlıq və güzəştə yol verib döyüşsüz qaçdığına görə Gəncə və onun ətraf yerləri Mouravinin basqın və qarətinə mə'ruz qalmış, əskər və rəiyyətə xeyli ziyan dəy-
**s.1065** mişdi. Buna görə də, xan əmirülüməralıqdan uzaqlaşdırıldı və yüksək rütbə Tiflisin və Gürcüstan sərhədinin nizam-inti-
**s.1066** zamı ilə məşğul olan Allahverdi xanın oğlu Davud xana verildi.
**(750)** Ə'lahəzrət zilləllah şah və Hindistan məmləkətlərinin uca məqamlı padşahı Şah Səlim arasında dostluq, qardaşlıq və ürək birliyi olduğundan, onlar elçi gediş-gəlişləri vasitəsilə bir-birlərindən xəbər tuturdular. Hal-hazırda "xan" rütbəsi alıb "Zeynal xan" olan şahın e'timadlı adamı Zeynal bəy Bigdelinin Hindistandan qayıdışından bu günədək tərəflər arasında elçilik əlaqələri kəsilmişdi. Bu günlərdə şahın cəlal qulağına belə bir xəbər çatdı ki, padşahın vəliəhdi və böyük oğlu şahzadə Pərviz qəzanın zərurəti və əcəlin gəlib çatması səbəbindən axirət səfərinə yollandı. Sədaqət və qardaşlıq hissinin çoxluğundan onun hüzuruna adam göndərib təskinlik vermək və əhvalından xəbər tutmaq qərara alındı. Buna görə də, dərgahın mö'təbər adamlarından olan dilli-dilavər, təcrübəli və işbilən Taxta bəy Yüzbaşı Ustaclını elçi tə'yin edərək çoxlu layiqli töhfə və bir çox hədiyyələr, o cümlədən hər diyarın nəfis qumaş parçaları, külək sur'ətli atlar verib, məhəbbətli sözlərlə dolu dostluq və mehriban qardaşlıq məktubu ilə yola saldılar. Taxta bəy bu ximətin icrasına baş-

layıb, Yəzd və Kirman yolu ilə Qəndəhara getməkdən ötrü İsfahana gəldi. O, hələ İsfahanda idi ki, uca məqamlı o padşahın [Şah Səlimin – *Ş.F.*] da qaçılmaz vəfatı və Hindistanda yaranan qarışıqlaq barədə xəbərlər İrana gəlib çatdı, Taxta bəyin səfəri təxirə salındı.

Cənətməkan şahın zamaında da Hindistanda belə bir hadisə baş vermiş və bir ildə üç padşah vəfat etmişdi. Birinci hadisə Şirzad Əfqanın oğlu – Dehli, Agrə, Lahur və Bengalə kimi Hindistan məmləkətlərinin fərmanrəvası olan Səlim şah, ikincisi Gəcəratın padşahı Sultan Mahmud, üçüncüsü Dekənin Əhmədənkər ("Əhmədnegar" olmalıdır – *Ş.F.*) vilayətinin valisi Nizamşah. Movlana Qasım Kahi o xosrovların zəvalı haqqında [maddeyi-]tarix taparaq onu [bu cür] nəzmə çəkmişdi:

*Qit'ə*

*Bir ildə üç şahın qurtardı ömrü*
*Və Hindin yaxşı dövrüydü o tarix.*
*Hər üç xosrov ölən vaxtı soruş, bil,*
*"Zəvale xosrovan bud" oldu tarix.*[1]

Bu ildə Hindistanda üç padşah ömrə və dövlətə vida etdi. Bu hadisələrin İrana dəxli olmasa da, qədimdən bəri bu xanədanla olan sədaqət və gediş-gəliş əlaqələri baxımından onların qələmə alınması münasib göründü.

**Ölümlər**: Nurəddin Məhəmməd Səlim padşah ibn Cəlaləddin Məhəmməd Əkbər ibn Məhəmməd Hümayun ibn Məhəmməd Babur ibn Ömər Şeyx ibn Sultan Əbu Səid ibn Mirzə Sultan Məhəmməd ibn Mirzə Miranşah ibn Əmirekəbir Sahibqran Əmir Teymur Gurəkan. O, Kəşmir vilayətinin seyrindən sonra hələ qayıdıb Lahura çatmamışdı ki, yolda xəstələndi və axirət dünyasına yollandı. Hakimiyyət müddəti

---

[1] Qit'ənin farscası:

Se xosrov-ra qeran aməd be yeksal
Ke Hend əz ədleşan darüləman bud.
Ze mən tarixe-fovte-in se xosrov
Çe miporsi, "Zəvale-xosrovan bud".

22 il idi. Oğlu Şahzadə Pərvizdən sonra fitnəkar adamların fitnəsi nəticəsində vəfat edən ən böyük oğlu olan Sultan Xürrəmlə padşah arasında yaranan kəskin münasibətə görə oğul atanın qəzəbinə düçar olmuş və padşahlıq vilayətini tərk edib, açınacaqlı halda Dekən diyarında yaşamaqdaydı. O zaman
**s.1066** səltənət sarayında fəaliyyətdə olan dövlət adamları deyirlər ki, elə o vaxtlarda da şahzadə Pərviz dünyadan köçdü, padşah isə Kor Sultan Xosrovun "Sultan Bəlaği" ləqəbi ilə məşhur olan Rənceş adlı oğlunu özünə vəliəhd etdi. Onu padşahlığı qaldırıb xütbə və sikkəni onnu adı ilə bəzədilər. O zaman sağ olan başqa şahzadələr də Sultan Bəlağini təbrik edib, ona Şirşah ləqəbi verdilər. Amma, padşahın ata bir ana ayrı ən kiçik oğlu olan şahzadə Şəhriyar dövlət başçıları ilə müxalifətə girib özünü Lahura çatdırdı, oradakı qalanı, filxanəni zəngin xəzinə və cəbbəxanaları zəbt elədi, Lahurda xübə onun adına oxundu, adına kəsilən sikkədə isə bu misra nəqş olundu:

*Şəhriyar şahlar şahı kəsdirdi sikkə aləmə.*[1]

Onun padşah olması barədə xəbər hər yana yayıldı və oradakı əzəmətli əmirlər, xacələr, ə'yanlar istər-istəməz onun hakimiyyətini qəbul etdilər, bellərinə xidmət kəməri bağladılar. Şəhriyar böyük bir ləşkər hazırlayaraq, onu Lahura yaxınlaşmaqda olan Şirşah, şahzadələr və əzəmətli xanlara yürüş edən Şah Səlim və dövlət başçıları ordusunun üzərinə yolladı, özü isə Lahurda qaldı ki, əgər ona qarşı gələn bu ordu qalb gəlib Sultan Bəlağini ondan üstün tutarsa döyüşə qatılsın. Ən əzəmətli başçıları Asəf xan olan dövlət başçıları ordunun gəlib çatmasından agah oldular, qarşıdan gələn ləşkərlə döyüşə başladılar. Padşahın vəsiyyətinə əsasən vəliəhd elan edilən və taxta cülus edən Şirşah adlı Sultan Bəlaği başqa şahzadələr və əzəmətli xanlarla gəlib çatdı. Ordular qarşılaşan gün hər iki tərəfin sərdar və xacələri bir-
**s.1067** birləri ilə danışıqlar aparıb cəng etməməyi məsləhət gördülər.
**(751)** Sultan Şəhriyarın əskərləri dağılışmağa başladılar, onların bir çoxu geri qayıtdı. Onları izləyən Sultan Bəlağinin qoşunu

[1] Misranın farscası:
Sekke zəd bər dovre-aləm şahe-şahan Şəhriyar.

Lahura çatar-çatmaz Sultan Şəhriyar ordunu bir yerə yığmaq və qarşı çıxmaq imkanı tapa bilməyərək, Lahur qalasına sığındı. Sultan Bəlağinin məiyyətində olan əzəmətli ordu, Asəf xan və əmirlər Lahura daxil olaraq, qala ayağına gəlib çatdılar. Bir nəfər belə qalanın müdafiəsinə qalxmadı. Onlar qalaya asanlıqla girib, Sultan Şəhriyarı ələ keçirdilər, dünyanı görən gözlərinə mil çəkib kor etdilər, onun on günlük hakimiyyəti başa çatdı, dövlətdən kam ala bilmədi. Belə ki, Xacə Hafiz Şirazi Şeyx Əbu İshaq İncunun dövlət zavalı haqqında belə demişdi:

**Beyt**

*Parlayardı ulduzu par-par Əbu İshaqın,*
*Cilvəsi parlaqdı, amma dövləti ani idi.*[1]

Amma, Sultan Xürrəmin əhvalatı belə oldu: O, möhtərəm atasının yanında olduqca izzətli, əziz və mö'təbər idi. Xalq arasında danışırdılar ki, onun e'tibarı böyük qardaşı Sultan Pərvizdən daha çox idi. O, padşah tərəfindən Şah Cahan ləqəbinə layiq görmüşdü. Atası onu Dekənə hakim tə'yin etdikdən sonra şahzadə Borhanpura getdiyi vaxt atasından belə bir xahiş etdi: Böyük qardaşı olan kor Sultan Xosrov da qoy onunla getsin, onu öz yanında saxlasın. Xahiş yerinə yetirildi və qaraşı ilə oraya getdi. Sultan Xürrəm isə atasının razılığı olmadan özünün böyük qardaşı kor Sultan Xosrovu qətlə yetirməyə cür'ət etdi. O, həmin səfəri vaxtı padşahanə hərəkətlər edir, padşah ailəsinə məxsus olan işlər görürdü. Buna görə də ata-oğul arasında vəhşət yarandı. Onun padşah yanında söz danışmaq ixtiyarı olan bir neçə düşmənləri (əzdad) şahzadəni tüğyan və üsyankarlıqda ittiham etdilər.
**s.1067** Sultan Xürrəm Borhanpurdan qayıdıb padşahın sarayına gəlmək istədiyi vaxt onun gəlişi qadağan edildi. O isə bunula kifayətlənməyib, tam qələbə və izdihamla gəlməkdəydi. Lahurda olan padşah fitnə-fəsadlı adamların sözü ilə oğluna qarşı şübhələndi, şahzadəyə e'timad göstərmədi. [Buna görə

[1] Beytin farscası:
Rasti, kovkəbe-firuzeye-Əbu Eshaq
Xoş dərəxşid, vəli dovləte-mostəcel bud.

də] şah ağır qoşunla Lahurdan çıxaraq, onun qarşısına yollandı. Agrə və Lahur arasında tərəflər bir-birlərinə yaxınlaşdılar. Əmirlərin və mö'təbər adamların bə'ziləri şahzadədən dönüb padşah ordusuna qoşuldular.

Sultan Xürrəm qorxaraq (xayef) təşvişlə gəldiyi yolla da Borhanpura tərəf geri qayıtdı, oradan Dekənə yollandı. O, Qütbşahi* vilayətindən keçərək Bəngaləni ələ keçirmək məqsədi ilə o tərəfə üz tutdu. Orada, padşahın böyük əmirlərindən və Asəfxanın qohumu olan İbrahimxan Bəngalə ilə döyüşdü, ona qalib gəldi, Bəngaləni fəth etdi, çoxlu fil (filxanə) və xəzinə ələ keçirdi, oradan Alhapasa getdi. Baş verən bu hadisələr [padşahın] qorxusuna səbəb oldu və Şah Səlim şahzadə Pərvizi Kabul hakimi və məşhur dövlət əmirlərindən biri Məhabət xan ilə birlikdə böyük ləşkərlə onun cəzalandırılmasına yolladı. Alhapas hüdudunda onların arasında bərk vuruşma oldu, Sultan Xürrəm məğlubiyyətə uğradı. O, buraya gəldiyi Bəngalə yoluyla da geri qayıdaraq Dekənə gəldi, amma bu dəfə Qütbşahın vilayətində dayanaraq Nizamşahın** vilayətinə üz tutdu. Bir neçə vaxt orada qaldı. Dekən sultanlarının hamısı qayıdışdan sonra onun xidmətində durdular. Orada qalmaqdan bezən şahzadə həzrət şahdan kömək almaqdan ötrü İrana gəlmək niyyətində oldu. Tətəh (?) vilayətinə gəlib çatdıqda Tətəh qalasını alaraq, İrana yaxın məsafədə yerləşən Sind vilayətini tutmaq məqsədini qarşıya qoydu. Tətəh hakimi qalanı qapayıb qaladarlıq etməyə başladı, amma Tətəh qalası alındısa da, onun əzəmətli adamları İrana gedişinə mane oldular.

Məcbur olub qayıtdı və Nizamşah vilayətinə getdi. Belə gediş-gəlişlər vaxtı onun admları dağılışmağa başladılar, o isə daha bir neçə gün az miqdar adamıyla həmin vilayətdə (mülk) dayandı. Çaş-baş halda vaxt keçirirdi. Padşahdan qorxan Nizamşah şahzadənin yanına gələrək, onun o vilayətdən çıxıb getməyini xahiş etməli oldu.

Bu əsnada şahzadə Pərvizin vəfatı hadisəsi baş verdi və bu xəbər gəlib Sultan Xürrəmə yetişdi. Padşah sarayında Məhabət xan və Asəfxan arasında dava-dalaş başlandı. Bir sıra adamlar Asəfxana və onun iqtidarına yaxın olduqlarına baxmayaraq, həmçinin xanın padşahın möhtərəm hərəmi ilə

əlaqəsinə, habelə özlərinin göstərdikləri xidmətlər müqabilində inayətə layiq görülmədiklərinə görə Məhabət xana bel bağladılar və Asəfxanın tərəfini tutmadılar, padşahdan inciyərək ondan ayrıldılar və Məhabət xana birləşdilər. Məhabət xanın gəlişindən Sultan Xürrəm şad və fərəhnak oldu.

Baş verən bu iki hadisədən sonra şahzadənin dövlətinə yeni ruh gəldi. O, həmin mülkdən (Nizamşah mülkündən – *Ş.F.*) çıxıb yola düşmək fikrindəydi ki, padşahın qaçılmaz ölüm vaqiəsi xəbəri eşidildi. [Şahzadə] Agrəyə getməkdən ötrü oradan bir qədər adamla yola rəvan oldu. Dekən sultanları nəzakət (mərdomi) yolu tutmuşdular, ətraf yerlərin cığatay, moğol, əfqan və rəcput döyüşçüləri şahzadəyə meyilləndilər, şahzadənin getdiyi hər mərhələ yolda gəlib ona birləşdilər. Onun ordusunda çoxlu adam toplaşdı. Sultan Xürrəmin gəlişi xəbəri Sultan Bəlağənin səltənət kökünə vəlvələ saldı. Onun dövlət başçıları və dünyəvi məsələlərdə dərindən düşünüb götür-qoy edən (ğur) ləşkər aqilləri iddia sahibi olan böyük oğlunun möhkəm adam olmasına baxmayaraq, nəvəsinin (pesərzade) əməllərini ağlasığmaz sandılar. Aralarında olan tərəddüd günü-gündən artırdı. Sultan Xürrəm Lahurdan çıxaraq o dudmanın səltənət paytaxtı olan Agrə darüssəltənəsinə
**s.1068** yollandı. Böyük ordunun döyüşçü və ayrı-ayrı təbəqədən
**(752)** olan qoşun dəstələridə yola düşüb Sultan Xürrəmə qoşulur, onun mülazimi olmaq və onunla görüşməkdən ötrü mövqe nümayiş etdirirdilər. Belə ki, Agrə hüdudunda ə'yan və ləşkər təbəqələrinin əksəriyyəti Sultan Xürrəmin başına toplaşdı.

Asəf xan və saraya yaxın olan bə'zi adamlar da ona tabe olmağı məsləhət bilib dilli-dilavər qasidlər göndərərək öz dövlətxahlığını izhar etdilər. Sultan Xürrəm böyük izdihamla
**s.1069** sevincək və xürrəm halda Agrə darüssəltənəsinə çataraq səltənət bayrağını göyə qaldırdı.

Asəf xan və yoldaşları Sultan Bəlağini də özlərinə qoşaraq Sultan Xürrəmin yanına yollandılar. Onlar Agrə yaxınlığında, ali işarəyə müvafiq olaraq, beş şahzadəyə ölüm şərbəti içirib hümayun görüşə tələsdilər. Öldürülən şahzadələrin biri kor Sultan Şəhriyar idi. İkincisi, [padşahın] yazısı ilə (nəhcəməstur) səltənətə layiq görülən və Sultan Xosrovun oğlu olan

Şirşah ləqəbli Sultan Bəlaği idi ki, yazıldığı kimi artıq sultanlığa çatmışdı. Başqası isə Sultan Bəlağinin qardaşıydı. Sonrakı iki nəfərsə Şah Səlimin hələ sağlığında vəfat edən şahzadə Danyalın oğlanları idilər. Atası tərəfindən cahan şahı (Şah Cəhani) adı verilən Sultan Xürrəm özünü Şah Cahan və sahibqran adlandıraraq Asəf xanı səltənət işlərinin (karxanə) icrasından ötrü əsas yardımçı (mədarəleyh) etdi, Məhabət xana ləşkərin sipəhdarı və sahib-ixtiarı vəzifəsin verərək, onu “əziz qardaş”, “vəfalı yar”, “mübarizəddin sipəhsalar” və “xanlar xanı” ləqəbini verdi, Asəf xan ilə Məhabət xan ali işarəyə tabe olub, bir-birləri ilə etdikləri sabiq dava-dalaşı zahiri dostluqla əvəz etdilər. Elə hazırda da dövlət işlərinin tənzimlənməsi ilə məşğuldurlar. Baş verən bu hadisələr Hind diyarında olmuş bir neçə tacirin söylədiklərinə əsasən yazılmışdır. “Günah bu haqda danışanların boynuna”[1].

**Beçapur və Dabel valisi İbrahim Adilşah** öz ülka və məmləkətini böyüklüyünə, səltənətinin uzun müddətli olmasına, xəzinə vəz ər-zivərinin çoxluğuna görə başqa Dekən sultanlarından üstün idi. Bədəninin aşağı hissəsində (əsafil) çirkin sifilis (kufti) xəstəliyi olduğu üçün ata minə bilmirdi, hərəkətdən qalmışdı, həmişə enli taxta (kət) söykənib otururdu. Ağlının, tədbirinin və işgüzarlığının çoxluğundan neçə-neçə llər səltənət işlərini idarə etdi. O, dövlət kamına çatmış bir sultan idi.

Zəmanə şairlərindən və dövr söz ustadlarından olan Mövlana Məlik Qumi və Mövlana Zühur: başqalarından üstün (momtaz) olub, İbrahim Abdulşahın tərbiyyət kölgəsi altında ömür sürürdülər. Onların heç biri dörd yüz əlli beytdən ibarət “Ketabe-novrəs” (“Təzə kitab”) adlı [bir nəzm yazıb] Adilşaha həsr etdilər, doqquz yüz tüməne-İraqi məbləğinə bərabər olan doqquz yüz rupiyyə pul ilə mükafatlandılar. Mövlana Məlik Qumi ədvar, musiqi və ifaçılıq (saz) elmləri [sahəsində] özünü ustad sayırdı. O, bu il bəqa aləminə yollandı. Məlik Quminin iyirmi iki yaşlı böyük oğlu camaatın səʼyi ilə atasının qayimməqamı və canişini oldu, Abdulşah tərəfindən rütbəyə (rotbeye-Adilşahi) layiq görüldü.[2]

[1] İfadənin ərəbcəsi: “əl-ohdətu ələ-r-ruvati”.

2 Bax: İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi (bizim tərcüməmiz), Bakı, 2010, səh. 340.

**Məhəmmədqulu Qütbşahın qardaşı oğlu və damadı Məhəmməd Əmir Mirzənin oğlu olan Sultan Məhəmməd Qütbşah** səltənət taxtında az əyləşdi, ömrü və dövləti ilə tez vidalaşdı. Onun oğlu və Məhəmmədqulu Qütbşahın nəvəsi olan Sultan Abdullah Qütbşahın qızının oğlu olması səbəbindən bə'zi qərəzkar adamlar bu sultanın səltənətə gəlməsinə razı deyildilər. Kiçik oğlunun anasının təhriki ilə onlar onu hərəmxanaya aparıb üstünə tökülüşdülər və gözlərinə mil çəkdilər, Əli adlı yeddi yaşlı kiçik oğlunu "İbrahim Adilşah" adlandıraraq dövlət başçılarının məsləhəti ilə taxta canişin etdilər və o Qütbşahi mərtəbəsinə yetdi. Onlar zilləllah şah adamlarına əvvəlki sultanlardan daha çox sədaqət və dövlətxahlıq izhar edib, qütbşahilərin böyük əmirlərindən olan Heyran xanı elçi kimi layiqli töhfə və hədiyyələrlə şahın yanına göndərdilər.

Heyran xanın İrana gəlişinin şərhi öz vaxtında bəyan olunacaqdır.

**Bu il vəfat edib bəqa aləminə yollanan dərgah mülazimlərindən biri Ağa bəy Divanbəyidir**. O, Divanbəyi Əliqulu xan Şamlının mülazimlərindəndir. İşgüzarlığı və bacarığına görə dərgah mülazimləri silkinə daxil edilmişdir. Ağa bəy Divanbəyi Əliqulu xanın iş başında olmadığı vaxtlarda onu əvəz edirdi, qəhrli əskərlərin qorçibaşının sərkərdəliyi ilə Gürcüstan üzərinə yürüşü və gürcü üsyanının yatırılma-
**s.1069** sına yollandıqları öküz ilində (od yil) Əliqulu xan vəfat etdiyi üçün o, əmrə əsasən Əliqulu xan qoşununun sərkərdəsi oldu və Gürcüstan yasaqına yollandı. Bu ilin əvvəllərində geri qayıdarkən xəstələnib dünyadan köçdü.

**Seyid Hüseyn Kəmunə**. Ata-babadan bu dudmanın dövlətxahlarından olan Seyid Hüseyn Nəcəfe-Əşrəf nəqiblərinin kiçik (kəmunə) seyidlərindən idi. O seyidlər həmişə yüksək rütbə (cah) və həşəmət sahibləri olmuşlar. O da, rumilərin iqtidarı vaxtı Nəcəfe-Əşrəfdə cah-cəlal, həşəmət və iqtidar sahibiydi. İraqi-Ərəbin fəth olunduğu il mülazimət səadəti nə yetişdi. Ləyaqət (əhliyyət) və ilhamlı bir şəxs kimi hümayun şahın nüfuzlu nəzərini cəlb etdi, şah ordusunun mülazimi oldu. Həmişə şah məclislərinin həmsöhbətlərindəndi. Bu ilə

ona xəstəlik üz verdi, fəna evindən köçdü. Oğlu Seyid Nasir fərmanla dərgah mülazimləri silkinə qulluq edir.

**Yutəm Sultan Gürcü**. O, xasseyi-şərifə qulamlarından və həzrət şahın yetişdirdiyi adamlardandı, Dərbənd Babül-Əbvabının hakimiydi. Bu il cavankən Babül-Əbvabda axirətə
**s.1070** getdi, o vilayətin idarə olunması rüstəmdarı tüfəngçilərinin
**(753)** sərdarı və xasseyi-şərifə qulamlarından olan Fərrux Sultana tapşırıldı.

**Həlov xan Ərdəlan** cənnətməkan şah dövrünün əmirlərindəndir. Yuxarıda yazıldığı kimi, irsi məmləkət onun oğlu Xanəhməd xana verildi. O, (Həlov xan – *Ş.F.*) əmrə görə İsfahanda yaşayırdı. Yaşı doxsanı keçmişdi. Bu il xəstələnmədən faciyəli şəkildə keçindi. Hazırda onun oğlu Xanəhməd xan Ərdəlanın şəriksiz hakimi, irsi mülkün sahibi və məşhur bəylərbəyidir.

**Yadigar Əli Sultan Xüləfa.** Talış qəbiləsindəndir. Süleyman şanlı xaqan mərhum Şah İsmayılın dövründə Bağdad darüssalamının hakimi idi və "xəlifətül-xüləfa" ləqəbini almışdı. O, əzəmətli əmirlər silkidəndi və xüləfa mənsəbi ilə şərəflənmişdi. Bu il, Gürcüstan səfərindən qayıdarkən Ərdəbil darülirşadına gəlib çatdı, xilafət taxtından düşüb üqba aləminə yollandı. Xeyirxahdı və Allahdan agah bir adamdı. Sağlığında çox yaxşılıqlar etmişdi. Onun inşa etdiyi çoxlu məscid, mədrəsə və başqa xeyriyyə tikililəri mövcuddur. Onun xüləfa mənsəbi Şahqulu Xəlifəyə verildi.

**Həkim Seyfəddin Müzəffər Kaşi**. Xasseyi-şərifə sərkarının təbiblərindən idi, şahın xidmətində yaxınlığı və məqamı ucaydı. Qocalıq sinninə çatmışdı. Dərgah mülazimlərinin müalicəsi onun öhdəsindəydi. Xəstələnən ə'yanların əksəriyyəti [Müzəffər Kaşinin] bacarıqlı, təcrübəli (həzaqət) və çalışqan (momar) olduğuna görə onun müəyyənləşdirdiyi müalicəyə əməl edirdi. Ömrünün sonlarında qocalıq və yol yerimək çətinliyindən müalicə ilə az məşğul olurdu. Fəzilət və kamalla ziynətlənmiş oğlu darüş-şəfanın həkimi idi, ali orduda müxtəlif xəstəliklərin müalicəsi ilə məşğuldu.

Həkim Seyfəddin bu il Sultaniyyədə iqamət vaxtı məriz oldu. Zəmanə təbiblərinin müalicəsi əcəl hərifinə müqavimət

göstərə bilmədi və nəticədə əcəl təbibi onun dərdinə əlac etdi. Oğlu Şəmsa Məhəmməd hələ gəncliyinin başlanğıcında o dövr qocalarının təcrübələrini öyrənməklə məşğul olmuşdu. O, atasının tapşırığıyla xasseyi-şərifə təbibləri silkinə daxil edilmişdi və hal-hazırda hümayun orduda xəstəliklərin müalicəsi ilə məşğuldur.

**Şahrux bəy**. Dizmar qorçilərinin vəziri idi, qaradağlı
s.1070 camaatındandı. İstedad əhli idi. Nəstə'liq xəttinə yaxşı bələd idi. Ə'lahəzrət bu ailənin sədaqət və dövlətxahlığına görə onların iki qardaşına böyük şəfəqqət göstərirdi.

Qardaşı Heydər bəy hazırda qaradağlı qorçilərinin yüzbaşısıdır. O, əvvəllər quşxanə müşrifi olan, sonradan Əbivərd qalası yanındakı seybədə tüfəng gülləsi ilə öldürülən qardaşı Bayandur bəyin əvəzinə quşxanə müşrifi oldu, hazırda əzəmətli qorçilər mustovfisidir. Yuxarıda yazıldığı kimi, qorçi[lər] vəziri Məlik bəyin vəfatından sonra onun mənsəbinə yetişməklə sərəfraz oldu. Bu il xəstələnib Sultaniyyədə iqamət zamanı dünyadan köçdü. Qabiliyyətli bir oğlu vardı, amma bu vəzifə ona tapşırıla (motəməşi) bilməzdi. Buna görə də, əzəmətli qorçilərin vəziri vəzifəsi Mir Əbülməalinin qohumlarından olan Əmir Əbu Əliyə verildi.

Məşhur vəfat edənlər barədəki mə'lumat artıq yazıldığı üçün indi gələn ilin böyük hadisələrini yazmaq vaxtı gəlib çatmışdır.

*İndi vaxtıdır ki, bu kəs tələssin,*
*Gələcək işlərin şərhini versin.*
*Baxmayıb bu yolun əziyyətinə,*
s.1071 *Yazsın əvvəlkitək şərhləri yenə.*[1]

---

[1] Şerin farscası:

Konun vəqte-an şod şetabənde ra,
Ke sazəd rəqəm şərhe-ayənde ra.
Negarəd dər in ərseye-pormələl,
Be ayine-pişin dəhəd şərhe-hal.

## ABBASIN FƏRMANFƏRMALIĞININ İKİNCİ QƏDRİNİN ON İKİNCİ İLİNİN, YƏNİ TÜRKİCƏ NƏHƏNG İLİ OLAN MİN OTUZ YEDDİNCİ (1627-1628) QƏM-QÜSSƏLİ İLİN BAŞLANMASI

Bu ilin ürəkbəzəyən baharının bu fəsil üçün zəruri olan paklıq və təravətindən burunlara gözəllik və şadimanlıq rayihəsi dəymirdi, güllərində pəjmürdəlik və solğunluq görünürdü. Cahan rüzigarının rəngi-rufu qalmamışdı. Yaxud, alçaq fələyin tez-tez rəngdən-rəngə düşən yalançı (tərrari) və şəbədəbaz asimanının qeyb pərdəsi ilə örtülü olan ən böyük vaqiəsindən zəmanə xəbərdar olmuşdu. Həmişə ürək xoşluğu və kamranllıqla keçən hər ilin cahanı bəzəyən novruzunun xürrəmiliyi və şadmanlığından əsər-əlamət qalmamışdı.

**Beyt**

*Bu il açılmadı bir gül də könül xoşluğuna,*
*Hamı ah-vayla oturdu gələn bəharə kimi.*[1]

Xülasə, min otuz yeddinci ilin rəcəb ayının on üçündə (21 mart, 1628), düşənbə günü gündüzdən iki saat və iyirmi dəqiqə keçmiş hut ayından cana doyan ən böyük ulduz (yəni günəş – *Ş.F.*) həməl şərəfgahına doğru yollandı. Ə'lahəzrət zilləllah şah hamıdan ayrılıqda büsat qurmaqdan ötrü behiştnişan Mazandaranın bu il ürəkaçmaz və bəzəkdən əsər-əlaməti qalmayan Əşrəf qəsəbəsində, xüsusən sevincdən xali
**s.1072** olan Abbasabadın sevindirici bağ və imarətlərində novruz
**(754)** bayramını qeyd etdi, ən müqəddəs büsat məclisinin yaxın adamldarı, xüsusiylə Azərbaycanın ona tapşırılan işlərini nizamlayan, Axəsqə qalasını alan, sərhədi möhkəmləndirən və o günlərdə səltənət taxt-tacının ayağına gələn, həmişə

[1] Beytin farscası:
Dər in bəhar goli bər morade-kəs nəşokoft,
Bəhaye-hay neşəstənd ta bəhare-degər.

şahın müqəddəs hüzurunda həmsöhbət olmaq imtiyazına malik olan qorçibaşı ilə şadyanlıqla seyr və şikara başladı, baharın hər üç ayını Mazandaranda keçirdi. Oranın havası istiləşməyə başlayanda Rum tərəfdən ardı-ardınca belə xəbərlər gəlməyə başladı. Bu il Xosrov paşa adlı bir şəxs vəzir və sərdar tə'yin olunmuşdur və çoxlu ləşkərlə Ərzruma tərəf hərəkət etməkdədir, Ruma qaçan qarabəxt və nəmək-haram Mouravi gürcü də həmin sərdarla birgədir. Hümayun məiyyət şəvval ayında Mazandaran qışlağından hərəkətə gəldi, o bəxti dönmüşün (Mouravinin – *Ş.F.*) fitnəkarlıq təhriki və rumiyyənin köməyi ilə Gürcüstan sərhədində fitnəkarlıq yaranmamasından ötrü yürüş yüyənini Qəzvin darüssəltənəsinə tərəf çevirdi, qələbə və iqballa oranın mübarək dövlətxanasına gəlib çatdı. Hökm olundu ki, şüarları qalibiyyət olan əskərlər Sultaniyyə çəmənində toplaşaraq, İsa Xan Qorçibaşının sərdarlığı altında lazımi yerə yürüş etməyə hazırlıq
**s.1072** məqsədinə hazır vəziyyətdə dayansınlar. Mazandaran havasının ifunəti və istisindən ə'lahəzrətin mübarək səhhəti bir qədər pozulmuşdu. Qəzvin darüssəltənəsində olarkən onun müqəddəs məzacı təbii vəziyyətdən kənar oldu. Şahın hümayun vücudunu gah qızdırma bürüyür, gah da o, bir kənara çəkilərək namünasib yemək-içməkdən imtina edirdi. Bir gün yarım (ğəb və şətrol-ğəb) keçəndən sonra qızdırma azaldı. Buna baxmayaraq, şah dövlət məsələlərindən, səltənət və mülk tədbirlərindən qafil olmur, öz xoşbəxt saatlarını din və dövlət işlərinin nizamlanmasına sərf edirdi.

Baş verən hadisələrdən biri Axəsqə hakimi Şəmsi xan Qazaqların əsir götürülməsidir. Məsələnin şərhi belədir: Oraya yaxın yerlərdəki rumiyyə əskərlərinin bir dəstəsi qarət məqsədilə Axəsqə ölkasına gəldilər. Onların sayının min beş yüz nəfərdən, bəlkə də iki min nəfərdən çox olmasına baxmayaraq, qalanın möhkəmliyi və qalanı qoruyan tüfəngçilərin əzmi nəticəsində onlar qalanı ala bilmədilər, lakin qarətkarlığa əl uzadıb geri qayıtdılar. Mərdanə və cəsur adam olan Şəmsi xan qeyrətinin çoxluğu, qürur və şücaətinin böyüklüyü, [amma] rumiyyənin sayından xəbərsizliyi üzündən, tayfa

ağsaqqallarının razılıq və məsləhəti olmadan üç yüz nəfər qazaqlar tayfa üzvi ilə rumiləri tə'qib etməyə başladı, üç-dörd fərsəx yol getdikdən sonra onlara çatdı. Bahar əyyamı olduğu, ot-ələfin çoxluğu, qazilərin əksəriyyətinin hələ arxada qaldığı, atlarınsa ot yeyib tərpənə bilmədikləri belə bir gündə Şəmsi xan gəlib rumiyyə əskərlərinə yetişdi. O vaxt bir dəstə rumi yol üstsndə atdan enmiş, bir-iki dəstə isə gözə görünmədən dərə ətrafında dincəlməkdə idi. Şəmsi xanın isə yüz əskəri vardı. Qazaqlar tayfasının bə'zi təcrübəli qazilərinin rumiyyə əskərlərinə hücuma keçməmək barədə məsləhəti Şəmsi xan tərəfindən qəbul olunmadı və o döyüşə başladı. Yol səmtindəki rumilər bundan xəbərdar olub təlaşa düşdülər. Onlar atlarına süvar olaraq fərar yolu axtardıqları vaxt bu xəbər başqa rumilərə də çatdı, birləşib Şəmsi xanın arxa tərəfində göründülər, Şəmsi xanı çoxlu əskərlə mühasirəyə aldılar. Qazilər var gücləri ilə vuruşdularsa da atlarının taqətsizliyinə görə məğlub edildilər, Şəmsi xan isə əsir alındı. Onun qazilərinin əksəriyyəti həlak oldu və rumilər xanı özləri götürüb sərdarın ordusuna birləşdilər.

İqbal hadisələrindən başqa birisi **Kiçik Əbazənin** (Əbazə paşanın kiçik qardaşı İbrahim bəyin – *Ş.F.*) xəlayiqə pənah verən dərgaha gəlişi və Əbazə paşanın yenidən şahla görüşüdür. Məsələ belə olmuşdur: Keçən il öz sədaqət məktubunu şaha yollayıb tabeliyini ərz edən və kömək istəyən Əbazə paşaya, yuxarıda yazıldığı kimi, ə'lahəzrət e'tibar etməmiş və demişdi ki, əgər Əbazə öz sözlərinə sadiq və bu dərgahın adamları ilə müvafiq olsaydı, gərək keçən il rumiyyə ilə müharibədə əsir götürülənləri ali dərgaha göndərəydi. Sözə əməl olunmadığına görə də paşaya bu tərəfdən heç bir imdad və yardım göstərilmədi.

Sərdar Xosrov paşanın hücum etdiyi bu il isə o, (yəni Əbazə paşa – *Ş.F.*) öz adamlarının bə'zisini İrəvana göndərdi ki, bu dərgah adamlarının himayə kölgəsi altında olsunlar. Paşa həmçinin əsir tutulmuş Bostan paşa və İsa bəyi də şahın mülazimətinə göndərdi. O, səmim qəlb ilə öz sədaqət və şaha bağlılığını izhar etdi, çünki, onunla düşmən olan yeniçərilərin qorxusundan bu dərgaha sığınmaqdan başqa heç bir çarəsi

qalmamışdı. “Kiçik Əbazə” ləqəbi ilə məşhur olan öz kiçik qardaşı İbrahim bəyi bir dəstə e’tibarlı adamı ilə yolladı və onlar Qəzvin darüssəltənəsində şahla görüş səadətinə yetdilər. Görüş zamanı ali bir məclis quruldu, Kiçik Əbazəyə və onun yüz əlli nəfər yoldaş və mülazimlərinə şahanə nəvazişlər
**s.1073** olundu. [Şah] Əbazə paşaya bu dəfə imdad olunmamasını mürüvvətdən uzaq bilərək, şahanə nəvazişlə bir neçə iqtidar sahibi olan əmiri, o cümlədən Məhəmmədqulu xan Ziyadoğlunu, Peykər xan İyirmidördün Kəskər hakiminin iki yüz sul-
**s.1074** tanını bir dəstə əskərlə Ərzruma tərəf yolladı ki, qalaya daxil
**(755)** olub Əbaşə paşa ilə birlikdə qaladarlıq etməyə başlasınlar. Qorçibaşı da qalibiyyət nişanlı əskərlərlə Sultaniyyədən Azərbaycana tərəf yola düşüb, onlara lazimi köməkliyi yerinə yetirdi. Amma, adı çəkilən əmirlər gedib çatanadək Xosrov paşa gəlib Ərzrum qalasına yaxınlaşdı, Əbazəni mühasirə etdi. Qorçibaşı və müzəffər əskərlər Təbriz darüssəltənəsinədək getdilər. Xosrov paşa Əbazə ilə sülh danışığına başlayaraq onu arxayınlaşdırdı, Rum padşahının yanına də’vət etdi, and içərək bildirdi ki, onu yeniçərilərdən qoruyacaqdır və canına onlardan heç bir sədəmə toxunmayacaqdır. Əbazə də sülhə rəğbətlənib qaladan çıxdı və sərdarla görüşü. Xosrov paşa onun barəsində yeniçəri ağası ilə söhbət edərək, Əbazəni öz himayəsi altına aldı, İstanbula tərəf qayıtdı, bu tərəflə heç bir münaqişəyə başlamadı. Buna görə də əzəmətli əmirlərdən Yusif Sultan Axəsqə qalasını qorumağa göndərilərək, tüfəngçilərin sərdarı vəzifəsinə tə’yin edildi, başqa əmirlər də öz vəzifə yerlərinə qayıtdılar. Qorçibaşı və müzəffər əskərlər Təbriz darüssəltənəsinə qayıtdılar, sonra isə qorçibaşı şahın mülazimətinə, başqa əmir və əskərlər isə öz mənzil və vətənlərinə getdilər.

**İmamqulu xanın Bəsrə vilayətini tutmağa yollanması:**

İraqi-Ərəbin qəhrli övliyalar (qızılbaşlar – *Ş.F.*) tərəfindən fəthindən sonra, Bağdadın tabeliyi altında olan və bir tərəfdən Xuzistan və Fars ilə hümayun sərhəddə yerləşən Bəsrə vilayətinin ələ keçirilməsi həmişə ə’lahəzrəti düşündürürdü.

Bu il həmin yürüşə başlamaq yenidən şahın nurlu xatirinə düşdü. Fars bəylərbəyi İmamqulu xan həmin vilayətin fəthinə yollanaraq, Dəclə çayı sahilindən öz məqsədinə yetməkdən ötrü Bağdad darüssalamına rəvan oldu. Bağdaddakı şah rikabının bir dəstə tüfəngçisi Luristan, Gürcüstan və o hüduddakı əmirlər və hakimlər onunla həmrah oldular. Adı çəkilən xan çoxsaylı döyüşçü ilə əzəmət və şövkətlə öz məqsədinə doğru rəvan oldu. O yerlərin ərəbləri itaət göstərərək, ona layiqli xidmət göstərdilər. Cənab xan bu işin yerinə yetirilməsi naminə saysız-hesabsız ə'nam, xələt və hər diyarın töhfə və hədiyyələrini sərf elədi. O, elə ki, Bəsrə vilayətinə gəlib çatdı, həmin vilayətin əksər əhalisi itaətə gəldi, rumi əskərləri isə qalaya sığınaraq, aman istəməkdə idilər ki, asimanın qəzavü qədəri ilə dünyalar fəth edən şahın qaçılmaz vaqiyəsi (vəfati – *Ş.F.*) xəbəri gəlib onlara çatdı. Bu hadisədən təşvişə düşən qızılbaşlar da orada qalmağı məsləhət bilməyərək, o vilayətin fəthi bu vaxtlarda təqdir qələmi ilə yazıldığından, cənab xanla birlikdə geri qayıtdılar və bu iş təxirə salındı.

Başqa hadisələrdən biri də budur: Puşənək (?) və Qəndəhar hüdudunun hakimi olan Şirxan Əfqan bir neçə müddət şahla görüşmək və ona mülazimlik etmək məqsədiylə uca dərgahda qaldı. Ona Qəzvin darüssəltənəsində lazimi səviyyədə ehtiram olundu, müxtəlif şəfqətlər və çoxlu nəvazişlər göstərildi, qiymətli xəl'ət və bol ən'amlar verildi, şahdan rüxsət alıb öz diyarına rəvan oldu. [Şirxan Əfqan] Hindistan yolunun əmniyyəti, tacir və başqa gediş-gəliş edənlərin təhlükəsizliyi yolunda bol sə'ylər göstərməyə başladı.

Qızdırmasının və halsızlığının çoxalmasından sonra şahın vəziyyəti bir qədər yaxşılaşməş, sonra yenidən xarablaşmağa başlamışdı. Onun səhhəti gah bir neçə günlüyə dəyişir, gah da namünasib işlərdən və yemək-içməyinin təzadlı olması səbəbindən zəifləyirdi (nəqahət). O, Mazandaran qışlağına getməyə
**s.1074** əzm etdi. Oranın havasının, rütubətli olduğu üçün bunu şaha məsləhət görməyən təbiblər fala baxdılar, Qurani-Kərimi açdılar. Cavab yaxşı alınmadı. O həzrət o yerin şikarını seyr etməyə çox meyilli olduğundan [təbiblər] bir neçə gün də məslə-

hətləşdilər. Fal bu dəfə pis çıxmadı və buna görə də yola düşmək qərarına gəldilər. Şahın zəifliyi və süstlüyünə görə on iki mərhələ yolu iyirmi dörd günə getmək qərara alındı. Amma, Qəzvindən çıxdıqdan sonra, həmin vilayəti şövq ilə seyr edə-edə bu ürəkaçan yerdə dayana-dayana on iki mərhələlik yolu külək sür'ətli atlara süvar olaraq səkkiz-doqquz günə qət etdilər, onuncu gün gözəl Əşrəf şəhərinə daxil oldular. Bir neçə gün səlamətlik və ürək xoşluğu ilə keçdi. Bə'zi günlərdə şahın məzacı pozulur, bədənində hərarət hiss olunurdusa da o, həmişə olduğu kimi, dövlətin mühüm işləri ilə məşğul olur, seyr və şikara çıxırdı. O günlərdə o həzrət öz gövhər səpən
**s.1075** diliylə alçaq dünyanın bivəfalığı və ruzigarın səbatsızlığı
**(756)** barədə sözlər deyir və rö'yalar görürdü. Ə'lahəzrət gördüyü rö'yaları elə özü tə'bir edir və bunu özünün fani aləmdən bəqa sarayına yollanması kimi yozurdu.

## ALƏM ŞAHZADƏSİ ƏBUNƏSR SAM MİRZƏNİN HAZIRLAŞDIRILARAQ (TƏRBİYƏT) DİQQƏTƏ GƏTİRİLMƏSİ BARƏDƏ ŞAHIN FİKRİ VƏ VƏLİƏHDLİYİN O ALİMƏKAN ŞAHZADƏ İLƏ ƏVƏZ OLUNMASI

O günlərdə [şahın] vəlayət və irşad nuru ilə işıqlanan ürəyinə (zəmir) dammışdı ki, tezliklə fani dünyanı və vəhşətli məkanı tərk edəcəkdir. Ətirli fikri ona yönəldi ki, dövlət bağının tazə ağacı və səltənət çəmənini bəzəyən pöhrə (nehal) olan cavanbəxt şahzadə, mərhum şahzadə [Səfi Mirzənin] yadigarı*, bu günki cahanın ulduzu, əzəmət və bəxtiyarlıq asimanının nurlu ayı (bədr), padşahlıq (kəyani) tacının bəzəyi və xosrovluq tacının münasib (berazende) adamı, səfəvi dudmanının xələfi, ələvi xanədanının övladı, ilahi (yəzdani) inayətlərin istiqamətləndiyi şəxs, Allahın (Sobhani) göstərişlərinə (təyidat) əməl edən bəndə, yeri cənnət olan mərhum şahzadənin əziz xələfi Səfi Mirzənin-qoy [atasının] ömrü əbədiyyətə qovuşsun-yaşından on səkkiz mərhələ ötmüşdür, o, inkişaf (roşt) etməyə və bilik mənimsəməyə başlamışdır. [Şahzadə] İsfahan darüssəltənəsində boya-başa çatmışdı. O xoşxislət şahzadənin xidmətində duran və onu böyüdən

kişi və qadından ibarət bir neçə e'timadlı adama əmr olundu ki, onu [şahın] hüzuruna gətirsinlər ki, bundan sonra şahanə tərbiyət və şəfəqqət kölgəsi altında yaşasın, vəliəhdlik rütbəsi ilə izzətlənsin.

O həzrətin gözəl xasiyyəti və şüarı beləydi ki, lap kiçik işlərin əncamında belə Rəbbin kəlami-məcidinə (Qurani-Kərimə – *Ş.F.*) baxıb fal açsın, ilahi məsləhət və fərman almadan heç bir işə başlamasın. Din və dövlətin ən böyük işlərindən biri olan bu mübarək işdə də [şah] məşvərəti lazım bildi, fal açmaqdan ötrü xasseyi-şərifə münnəcimləri zümrəsindən e'tibarlı şəxs olan Movlana Müzəffər Münəccim Cünabadinin oğlu Movlana Məhəmməd Təqini Mazandaran diyarının fazil və əməlisaleh (ətqiya) şəxslərindən sayılan Movlana Murad Mazandaraninin yanına məşvərətə yolladı.

Həmin Movlana fal açdı və fal bu kəramətli ayə üzərinə düşdü: "Rəbbinizin üç min mələk endirərək imdadınıza yetişməsi sizə kifayət etməzmi? Bəli, əgər səbr edib [Allahdan] qorxsanız onlar [Məkkə müşikləri] qəzəblə üstünüzə gəldikləri zaman Rəbbiniz artıq beş min nişan əli mələklə sizə yardım edər"[1]. Həmin kəramətli ayədən zahir oldu ki, şahın istəyi olduqca mübarəkdir, lakin şahzadənin İsfahandan gətirilməsi xüsusunda bu ayədə səbr və sükunət işarəsi
s.1075 vardır və həzrət Allah (həzrət əlaməl-ğuyub).

**Misra**

*Hər məsləhəti yaxşı bilir Rəbb səndən.*[2]

cahan işlərinin mənfəətini və cahanda olanların vəziyyətini bilən və görəndir.

Buna görə də, kəramətli ayəyə əməl olundu, dövlət bağının o cavan ağacının gətirilməsi bir neçə gün təxirə salındı.

---

[1] Ayələrin ərəbcəsi "Əl-ən yəkfiyəkum ən yumiddəkum Rəbbikum-bu-səlasəti alafin-minəl-məlaikəti munzəlin. Bəla. İn təsbiru və təttəqu və yə'tukum-min-fəvrihim haza yumdidkum Rəbbukum-bi-xəmsəti alafin-minəl-məlaikəti musəvvimim (Ale-İmran surəsi, 124-cü və 125-ci ayələr".

[2] Misranın farscası:

K-u məsləhəte-to əz to beh midanəd.

Sonra, aşağıda yazılacağı kimi, az vaxt içində o səltənət nişanlı şahzadənin Mazandarana gətirilməsinin ilahinin minlərlə yüksək hikmətindən biri olduğu aşkar olundu.

## UCA MƏQAMLI HƏZRƏT ŞAHIN DÜNYA TORPAĞINDAN (XAKDAN) YÜKSƏK CƏNNƏTƏ KÖÇMƏSİ VƏ ONUN PAK RUHUNUN YUXARI ALƏM RÜHANİLƏRİNƏ BİRLƏŞMƏSİNİN ZİKRİ

Mədarsız çərxin gərdişindən və kəcrəftar fələyin inadkar əməllərindən (setizekari) ah və yüz dəfələrlə ah! Heç bir pöhrə iqbal dəryaçəsindən ayrılıb fələyə ucala bilməz, murad və kamranlıq meyvəsi ilə yüklənməz, çünki günlərin bir günü əcəl küləyi onu ayaqdan salar. Cah-cəlal üfüqündə hələ elə bir parlaq ulduz parlamayıbdır ki, fəna burulğanında yox olmasın. Bu kəramətli ayə: “hər şey fanidir”[1] deyiminə dəlalət edir.

**Beyt**

*Təkcə Xudadır dəyişilmaz olan,*
*Təkcə Xudadır ki, qalır cavidan.*[2]

Yaranışdan bəri həyatdakı hər bir canlının alnına ölüm kəlməsi yazılmışdır. Dövr ötdükcə cahanın bütün şahları və şəhriyarları nəticə etibariylə qaçılmaz ölüm şərbətini dadmışlar.

*Şe’r*

*Əvvəlki kəsləri gətirin yada,*
*Nə kiçik, nə böyük qalır dünyada.*
*İlahidən əvvəl olmayıb heç kəs,*
*Allahdan sonra da olmayacaq! Bəs!!!*[3]

---

[1] Ayənin ərəbcəsi: “Kulli mən əleyha fan”

[2] Beytin farscası:

Anke təğəyyor nəpəzirəd Xodast,
V-anke nəmordəst-o nəmirəd Xodast.

[3] Şe’rin farscası:

Nəzər kon bər əhvale-pişiniyan
Ke rəftənd yek-yek kehan-o mehan
Nəbod hiç, əz ağaz u bud-o bəs,
Nəmanəd becoz vey degər hiç kəs!

Qara paltarlı qələm (xameye-siyahcame) yaralı sinəsi ilə (sinəçak) bu dərdli (dərdnak) vaqiəni belə bəyan edir.

O həzrət bir gün seyr və şikar əzmi ilə atlandı. Şikargahda təam yeməkdə elə ifrat etdi ki, geriyə qayıdış vaxtı, mədəsinin ağırlığından onun hümayun zatına qızdırma gəldi, naxoşluğuna əvvəlki güclü zəifləmə də əlavə olundu. Qızdırması üç-dörd gündən sonra o həzrəti yorğan-döşəyə saldı, mə'də pozğunluğu (heyze) və ishal baş verdi, hərəkətdən qaldı, onun hümayun rüxsarı həyacandan (təhəyyoc) öz rəngini dəyişdi.

Xülasə, əcəl yetişdi, şahın zəifliyi və halsızlığı olduqca
**s.1076** qüvvətləndi. Təbiblərin müalicəsi tə'sirsiz qaldı, zəifliyi
**(757)** gündən-günə çoxaldı. Bu halı müşahidə edənlər iztiraba düşdülər, heyrət girdabına (locce) qərq oldular.

**Cənnətməkan şah Şah Abbasın – "onun ehtiramı bol olsun"[1] – dünyadan köçməsi**

Bu hadisənin vahiməsinə düşən iqbal hərəmxanəsinin əzəmətli xatunlarının və iqbal bargahının pərdəneşin qadınlarının nalə və əfqanları dayanmaq bilmirdi. Dövlət başçıları və izzət məclisinin yaxın adamlarının ağlı bu dəhşətli müsibətdən çaş-baş olmuş, onlar heyrət səhrasında sərgərdan qalmış və bu canüzücü qaziyyənin təsəvvüründən bərk qorxuya düşmüşdülər. Cəmadül-əvvəl ayının iyirmi dördündə, pəncşənbə günü o həzrətin vəziyyəti dəyişdi, hümayun bədənində ölüm əlaməti zahir oldu, sübh vaxtı Allahın əmrinə "ləbbeyk" dedi, qalibiyyətli ruhu bədən qəfəsindən pərvaz etdi, müqəddəs aləmə yollandı. O an onun yanında olanların vəziyyətləri barədə daha sizə nə deyim? Cəlal hərəmxanasının qadınları dağım-dağım olmuş sinələri və qəmli gözləri ilə nalələr edir, öz qara libaslarının üzlərinə torpağ yağdırırdılar. Matəm ahəngi hər yeri bürümüşdü. Əhaliyə saysız-hesabsız kədər üz vermişdi, təbiət öz istiqamətini dəyişmişdi. Axı, necə də belə olmaya bilər? Şah aləmi qızdıran elə bir günəş idi ki, adamlar onun ədalət kölgəsi altında asudə idilər. İndisə günəş tutulmuş və zavala uğramışdı. Şah elə bir parlaq və nürani ulduz idi ki, aləmə əmniyyət və rahətlik şüarı saçırdı. İndi həmin

[1] Ərəbcəsi: "Tabə sərahu"

ulduz da kamal ucalığından vəbal nöqtəsinə (həziz) endi. Şahın muradınca dövran edən asimanın bu müsibətdən hər sübh sinəsi dağılırdı. Onun hakimyyəti dövründə xoşluq və şadyanalıqla ötən hər bir ay və il indi qara bir pərdəyə bürünüb qəm-qüssə içərisində qalmışdı.

Aqil adamlar bu müsibətdən çıxmaq yolunu səbr etməkdə və dözümdə gördülər, əllərini açaraq "Allaha həmd olsun. Minnət ona məxsusdur" [dedilər][1]. Dövlət başçılarından o həzrətə yaxın olmaqla şərəflənən İsa xan Qorçibaşı və Xəlifə Sultan Etimadüddövlə, habelə Zeynal xan Eşikağasıbaşı Şamlı və başqa ə'yanlar sarayda dövlət işlərinin əncamına başlayaraq, hamını aləm şahzadəsinin vəliəhdliyi barədə agah etdilər. Bu vəlayətnişan xanədanın sarayda olan bütün xüləfa, sufi və müridləri mürşide-kamilin fərmanını can-başla qəbul edərək, sədaqət və bağlılıq qədəmi atdılar, bunun xoş müjdənin işarəsi olduğunu söyləyib, səltənət və padşahlığı o iqbal bostanının cavan ağacına tapşırdılar. İsa xan, Zeynal xan və səfəviyyə sülaləsinin e'tibarlı müridləri olan bütün ə'yanları bu zərurəti e'tiraf etdilər (əz'an). Bu haqda yazılmış sənədi möhürləyərək onu bu dərgahın e'tibarlı adamlarından "Əkə" ləqəbi ilə məşhur olan Mühübəli bəyə verdilər və İsfahan darüssəltənəsində şaha və cahan şahzadəsinə yolladılar, üz vermiş bu böyük müsibət münasibətilə öz göz və ürəklərinə bu məşhur beyt ilə təsəlli verdilər.

**Beyt**

*Padşahın novruzu getsə də bada,*
*Güllənsin qızılgül yenə dünyada.*[2]

Allaha həmd olsun[3] ki, [şah] özündən sonra elə bir xələf yadigar qoydu ki, cahandarlıq ayini onun hümayun zahiri

---

[1] Ərəbcəsi: "Lillahil-həmd və-l-minnə"

[2] Beytin farscası:

Ke gər novruze-soltani rəft bər bad,
Gole-sədbərge-suri-ra bəqa bad.

[3] Ərəbcəsi: "Lil-lahi-l həmdu və-l-mənhu"

görünüşündən (təl’ət) görünür, cahanbanlıq əsəri isə iqbal
s.1077 çöhrəsindən aşkardır.

Xülasə, o sənədi aparan şəxs o uzaq məsafəni ildırım və külək sür’əti ilə qət’ edib səkkiz gündən sonra yeni şahla görüş səadətinə yetdi, ona böyük babasının qaçılmaz vaqşiəsi xəbərini verdi, həmin lətafətli kağızı onun nurlu nəzərinə çatdırdı. Bu vəhşətli xəbərdən İsfahan darüssəltənəsindəki şahzadələrin və hərəmxananın möhtərəm qadınlarının nalə və əfğanları asimana ucaldı. Bu xanədanın orada xidmətdə olan bir neçə ağsaqqalı, o cümlədən saf e’tiqadlı sufilərdən və hərəmxananın eşikağasıbaşısı olan Əbülqasım bəy Evoğlu, İsfahan darüssəltənəsinin hakimi Gürcüstan valisi Boqrat xanın qardaşı Xosrov Mirzə ilə birlikdə, müxtəlif təbəqələr və tayfalarla dolu olan o şəhərdə yeni şahın hümayun cülusunu matəm və tə’ziyə saxlamaqdan daha üstün bilərək, dərhal o cavan şahzadəni səfəvi sülalə sufilərinə aid olan qayda üzrə cənnətməqam şahın əcdadından miras qalan tərzdə səltənət taxtına və irşad xalçasına əyləşdirdilər, onun ayağını öpmək şərəfinə çatdılar, bu hümayun cülus xəbərini məmləkətlərin sərhədlərinədək yaydılar.

Aləmin fazilləri və şəhərin münəccimləri belə mülahizə yürütdülər ki, təsadüfən (bər həsbe ettefaq) taxta cülus üçün seçilən vaxt olduqca xoş və mübarək saatda [baş verdi]. Nücum elminin qəribəliyidir (məab, məayeb) ki, xoşbəxt (mə’sude) ulduzlar şərəf bürcündə düzgün düzülmüş tale sahibinin əhvalatından xoşhal olmuşdular və ona nəzarət edirdilər. Baxmayaraq ki, bu ilin zic, təqvim və hasil olunan (mostəxrecat) mə’lumatlarına görə buna bir qədər ehtiyatla yanaşdılar, amma altı ay keçdikdən sonra da padşahlığın cülusu və şahlığın başlanmasından ötrü həmin xoşluqda saat
s.1078 tapılmadı. Aləmin aqilləri və zəka sahiblərinə aşkardır ki, bu
(758) qəribə məsələ o həzrətin iqbalının nəticəsidir, sabit dəlillərdəndir və onun ömür və dövlətinin davamlı olacağının əlamətidir. İsfahandakı şahzadələrdən mərhum şahın gözlərinə mil çəkilən doğma oğlu İsmayılqulu Mirzə gözünün artıq gördüyünü bildirib şahlığa iddialı oldu. Baş verə biləcək

kütlənin hücumunu və fitnə-fəsadın qarşısını almaqdan ötrü dərhal o nadan şahzadənin bəbəklərini çıxararaq baş verəcək hadisəni qarşısını aldılar və sakitləşdilər. Yuxarıda misal gətirilən kəramətli ayədə buyrulduğu kimi, əgər fal açılan vaxt o həzrət şahın hüzurunda olsaydı, məsələ başqa cür ola bilərdi, [yaxud] padşahın o dəhşətli ölüm xəbəri yayıldığı zaman, dövlət taxtını bəzəyən [Səfi Mirzə] səltənət və xilafətin paytaxtı, həmçinin silahlı və fitnəkar qoşun təbəqələrinin cəmləşdiyi İsfahan darüssəltənəsində olmasaydı, ola bilərdi ki, o böyük şəhərdə fitnəkarlıq zahir olar, bəla qapıları əhalinin üzünə açılar, aciz və aşağı rütbəli adamlar (zirdəstan) zalimlərin ayaqları altında qalardılar. Xülasə, Mazandaranda olan müzəffər dövlət başçıları və cənnətməkan şahın möhtərəm qızı – o hicablı günəş və aləmin namusu, yeri cənnət olan mərhum padşahın əzəmətli bibisi (əmmə), yə’ni dünyanın o ağıllı (aqele) qadını və səltənətin başqa qadınları [artıq] şahın xəzinə və evlərinə nəzarəti öz əllərinə ala bilərdilər. Bu xanədana sadiq sufilər cənazəni öz sədaqət çiyinlərinə götürüb İsfahana üz tutdular. Kaşan darülmömininə çatdıqda o diyar əhalisi giryan göz, nalan ürək, qara libas və pərişan əhval ilə onları qarşıladı. Onlar elə ki, müqəddəs nə’şi gördülər, sinələrini açıb nalə və əfğan etməyə və başlarına torpaq səpməyə başladılar. Əmirlər, ə’yanlar və şah ordusunun mülazimləri paltarlarını cırıb tökdülər, həmin müsibətin kədəri ürəklərdə bir daha təzələndi. Nə’şin yan-yörəsi izdihamla elə
**s.1078** dolmuşdu ki, əmrlər və ə’yanlar yaxın düşə bilmirdilər.

Xülasə, cənazəni Məşhədin arxa tərəfində, Kaşandan kənarda Həbib ibn Musanın dəfn olunduğu ali bir imamzadədə əmanət qoydular ki, inşallah onu sonradan şərafətli bir məkana nəql eləsinlər. Oraya on iki nəfər xoş avazlı Qur’an hafizləri tə’yin olundu ki, gecə-gündüz növbə ilə Allahın kəlami-məcidini tilavət eləsinlər, şahın qəbri bir gün də tilavətsiz qalmasın, axşamdan-səhərədək şamdanlar yandırılsın. Nurlu məzarın mühafizəçilərinə, xidmətçilərinə, fəqir-füqəraya növbənöv təamlar müəyyən olundu. Ziyadoğlu Qacar tayfasının əmirzadələrindən və bu xanədanın sufilərindən və

sufizadələrindən olan Məhəmməd xan Ziyadoğlunun oğlu Mehdiqulu bəy bir neçə nəfərlə o müqəddəs türbət işlərinin əncamına tə'yin olundu. Bunlar yerinə yetirildikdən sonna oradan çıxıb, cəmadüs-sani ayının iyirmi üçündə (29 fevral, 1628) şəhərə daxil oldular. Qızılbaş qaydası üzrə bütün dövlət başçıları, ə'yanlar, saray adamları və dərgah mülazimlərinin hər biri öz rütbə və məqamlarına uyğun olaraq Nəqşe-Cahan dövlətxanasına gələrək, [yeni] şahın ayağını öpmək şərəfinə yetişdilər. Ali məqamlı xanlar və yüksək rütbəli böyük şəxslər şahanə nəvazişlərə layiq görüldülər, şahın cahanı bəzəyən camalını müşahidə edərək, ürəklərindəki kədər və məlal tozunu təmizlədilər, dövlətxahların ürəkləri şadyanalıqandan gül-gül açılmağa başladı, o həzrətin yüksək Sam adını "Şah Səfi" adlandırdılar.

Şüarları bəlağət olan şairlər və hər bir diyarın iste'dadlı Şe'r həvəskarları bəlağətli, xoşagələn [maddeyi-]tarixlər qələmə aldılar, on nəfərdən çox söz əhli qeybdən gələn ilhamla öz məharətlərini göstərdilər. Bu ona dəlalət edirdi ki,
**s.1078** o həzrətin dövlət kölgəsi hamının sevincinə səbəb olacaq (məbsut), insanlar onun mərhəmət (rayət) kölgəsi altında asudə ömür sürəcəklər. [Maddeyi-]tarixlərin biri belədir:

*"Səfi pa bər ovrənge-şahi nehad"*[1]

Mövlana Şərmi Qəzvini bu [maddeyi-tarixi] qeybdən gələn ilhamla tapmışdır. Hümayun cülus xəbəri ətrafa yayıldı, ölkənin əmniyyətinə və varlanmasına (esteanət), əhalinin asayişinə səbəb oldu.

---

[1] Tərcüməsi:
"Səfi ayaq basdi şahliq taxtina".

## O HƏZRƏTİN TƏ’RİFƏ SIĞMAZ YÜKSƏK XASİYYƏTİ VƏ ALLAHIN MƏRHƏMƏTİ SAYƏSİNDƏ ONUN ƏNDAZƏSİZ MƏQAM VƏ HƏŞƏMƏTİ – ALLAH TƏALA ONU İZZƏTLİ ETSİN – BARƏDƏ BİR NEÇƏ SÖZ

Mərhum həzrət şahın (Şah Abbasın – *Ş.F.*) bəyənilmiş
tə’rifi (ovsaf) hədd-hüduddan çoxdur, layiqli xisləti təsəv-
vürdən artıqdır, tə’rifli xasiyyətinin təsviri isə sultanlar üçün
**s.1079** düsturüləməl, ruzigar aqilləri üçün qanundur. Onun böyük
**(759)** işləri haqda bu dəftərin birinci səhifəsinin əvvəllərində on iki
məqalənin yazılışı zamanı düzgün bəyanlı qələmlə mə’lumat
verilmişdir. Xülasə, o, zatının çövhəri bənzərsiz, yumşaq
fikirləri xəyal aynası olan bir padşah idi. Onda bol ədalət və
rəiyyətpərvərlik vardı. Aləm adamları onun bayrağının köl-
gəsi altında asudə idilər. Onun heybət və siyasəti nəticəsində
qurd və qoyun bir yerdə yatırdı. Vəqfləri, xeyratı və sədəqələri
çoxdur. İran şəhərlərində xeyli işləri görmüşdü ki, onlara
misal olaraq rəiyyət vəziyyətinin yüngülləşdirilməsini, ima-
rətlərin inşasını, bostan və bağların salınmasını, mə’bəd və
məqbərələrin tikilməsini və sayçsız-hesabsız xeyriyyə işlə-
rinin görülməsini göstərmək olar. İti qılıncı həmişə düşmən-
ləri qanlarına qəltan edər, canlar üzən nizəsinin ucu isə
müxalif sinələri yaralayardı. Onun böyüklüyü, əzəməti və
cəlalı hamıdan çox idi. Padşahlığının bər-bəzəyi heç bir pad-
şahın xəyal meydanında görünməmişdi. Hüsni-etiqad, risalət
**s.1079** və vilayət dudmanında kamal dərəcəsinə gəlib yetişmişdi.

Buna görə də, onun vəfat tarixi cənnətməkan şahın qızı-nın əri Şah Ne’mətullahın nəslindən olan Səncər Mirzə tərəfindən belə yazılmışdır.

*“Həşrəş be Əli ibn Əbitaleb bad”.*[1]

İstər müsəlman, istərsə də qeyri müsəlman dünya ölkələrinin padşahları, o cümlədən Firəngistan (Avropa), Urus

---

[1] Misranın tərcüməsi:
“Məhşər günü də olsun şah həzrət Əli ilə”

(Rusiya), Kaşğər, Tibet və Hindistan şahları o həzrətlə ülfət və aşinalıq etmişlər. Təbiətinin yaxşılığından onun fələyə yüksələn dərgahına daim elçilər gəlir, dostluq izhar edir, hər diyardan bol-bol töhfə və hədiyyələr gətirirdilər. Xristian padşahları və həzrət İsa – bizim peyğəmbərimizə və ona salam olsun[1] – millətindən olan firəng sultanları, xristian padşahları, nemsələr, fransızlar, ingilislər, voləndislər (?), portuqallar, ispaniyalılar, papalar ölkələri arasındakı dərya və ümmanların çoxluğuna baxmayaraq, onun ədalətinin ətrafa yayılması və insanlarla bəyənilən rəftarına görə o həzrətlə münasibət yaradırdılar. Ali sarayı dilli-dilavər elçilər və hər ölkənin hədiyyələri ilə dolu olardı.

Sözümüzün doğrusu bu il Mabu adlı qüdrətli xristian papasının göndərdiyi məktubdan da mə'lum olur.

Xristianların arasında həzrət Məsihin (İsanın) xilafət və canişinliyi mərtəbəsinə yüksələn hər bir şəxsə "pap" deyirlər. Onların əqidəsincə, həzrət Məsihin xilafət etdiyi məkanın adı yunan torpağı olan Böyük Romadır (Ruməye-kobra) ki, bu məsələ olduğu kimi bu səhifədə həmin məktubun əvvəlində yazılmışdır. Qoy peşələri həsədkarlıq etmək olan alçaq şəxslər (bolfozul) bu sətirlər müəllifini boş-boş sözlər yazan və kimlərinsə xoşuna gəlməkdən ötrü qələm işlədən adam güman etməsinlər, onu kimdənsə eşitdiyi yalan sözləri (mostear) münşiyanə tərz ilə yazmaqdan uzaq bilsinlər.

Məktubun surəti belədir: "Ey ə'lahəzrət, izzətli dövlət nəvvabı, uca məqamlı padşah! Bizim tərəfimizdən sizə – üzərinə İlahinin son dərəcə böyük inayət işığı düşən insana, bütün aləmin pənahgahına, bəni-Adəm övladının ən mükəmməl şəxsinə və bəndələrinizə təbrik və salam olsun! Elə bir padşaha ki, bütün aləmdəkilərin rəhbəri və düzgün yol göstərənidir, xüsusən Böyük Roma əhlinin bizim xudavəndimiz həzrət İsanın canişininin (Roma papasının – *Ş.F.*) nəzərində böyük qüdrət sahibidir, yəni şan-şöhrətli padşahlar özlərinin böyüklükləri və ləyaqətlərinə baxmayaraq ona pənah gətiririlər. Siz öz böyüklüyünüz, əzəmətiniz, ilahi

[1] Ərəbcəsi: "Əla nəbiyyina və əleyhi-s-səlam"

qüdrət və böyüklüyünüzə görə üstünsünüz. Buna görə də, hər bəni-Adəm üçün vacibdir ki, sizin qüvvətli dövlətinizin davamı üçün dua etsin. Xüsusən, bizim dua oxuyanlarımıza tapşırdım ki, öz kilsələrində siz nəvvabın ömrünün uzun olması üçün dua oxusunlar. Ümidvaram ki, ilahinin inayət kölgəsi sənin başın üzərindən əskik olmayacaqdır, çünki onun öz bəndələrinə şəfqəti olduqca çoxdur. Bu hüdudlara təşrif gətirən sizin bə'zi adamlarınızın İsəvilərin yanında asiman ululları kimi izzət və hörmətləri vardır. Sizin üləmalarınızın sabiq vaxtlarda elm, hikmət və insaniyyət müəllimləri olan Yunanıstanın hikmət sahibləri kimi elmləri də böyükdür. Həmin hikmət sahibləri forus (farslar – *Ş.F.*) padşahı Xosrovun böyüklüyü və ədalətnümalığı barəsində gedən söz-söhbəti aradan götürdülər. Siz fars padşahı Xosrovun qanun kitabına istinad edirsiniz. Xülasə, anayanlara (?) məxsus yer olan Böyük Romada hamı sizin əql və fikirlərinizə əsaslanır və biz həmişə o alicənabın (Şah Abbasın – *Ş.F.*) böyüklüyü barədəki xəbəri can-başla qəbul etmişik ki, bununla da xoşhal və şadimanıq, bizim sizin böyüklüyünüzə heç bir şəkkimiz yoxdur. Qədim zamanlardan bəri bütün avropalılar da bu fikirdədirlər. Çünki, siz artıq uzun müddətdir ki, nadir firəng (Avropa) üləmalarından ibarət olanlara torpağlarınızda yer vermiş, onlara olmazın izzət və hörmət göstərmisiniz. Roma papaları olan (rumpapa) bütün Böyük Roma imamlarının (burada: ruhanilərinin – *Ş.F.*) və həzrət İsa canişinlərinin də, bizə əzəmətli, qiymətli, ehtiramlı və xoşxəbər elçilər göndərdiyinizə görə, sizə məhəbbətləri çoxdur, çünki bütün bunlar aramızdakı birlikdən xəbər verir. Sizin paytaxtınıza Kərmilu (?) dağlarından gəlib çıxan ayaqyalın rahib və padrelər xoşhal və şaddırlar, onlar həmişə bizə
**s.1080** Sizin böyüklük və ucalığınızdan danışırlar, çünki onlar haqqı itirməyən adamlardır, unutqan deyillər. Buna görə də, siz fəth etdiyiniz bütün şəhər və ölkələr barədə qılıncla deyil, təntənəylə və ürəkdolusu danışırsınız. Siz Kərmilu dağlarının padrelərinə yol vermisiniz və onlar kilsəldərdə maneəsiz şəkildə öz təriqətlərinə uyğun ibadət edirlər. Buna görə də,

biz həzrət İsanın canişinləri, öz batini gözlərimizlə dövlətli padşahlar padşahına gördüyü işlərin mükafatını, fəth və qələbə arzu edirik. Sizin dövlətinizin işığı bədirlənmiş ay kimi bütün aləmi işıqlandırdığından ilahi ehkamlarla möhkəmləndirilmişdir. Siz bizim xudavəndimiz olan həzrət İsa kimi həmişə səltənətdə qalın, niyyətiniz həmişə hasilə yetsin. Məhəbbət və dostluq nişanəsinin zahir olmasından ötrü Böyük Romaya, İsəvilərin yanına məktublar və elçilər göndərmək barədə mülazimlərinizə əmr edin. Beləliklə, həzrət İsanın ümmət və xidmətçiləri sədaqət və can-başla sizdən ötrü dua edirlər. Kuh Kərmilu padrelərinə göstərdiyiniz məhəbbət və nəvazişlərinizə görə onlar dünyanın ən seçkin (momtaz) insanlarıdır. Onlar sizi uca tutulduqları üçün həzrət *İsanın paytaxtı olan Böyük Romada* sizin böyüklüyünüz barədə xəbər yaymaqdadırlar. Bizim sizə meyl və məhəbbətimiz qədim vaxtlardan başlanmışdır.

Siz alicənaba zəfər arzulayan Roma papasının məhəbbəti ilə! Ümidvaram ki, İlahinin həqiqət günəşi siz alicənabın başı üstündə qalsın və parlasın".

Firəng əlifbası ilə yazılan bu möhürlənmiş məktubu burada açdılar və onu İsfahandakı avropalılar tərcümə etdilər. Məktubun cümlələrindən onu göndərən şəxsin papa olması bəllidir. Bu xüsusda avropalılardan soruşuldu. Belə cavab verdilər: "Bizimlə təvazökarlıq və ədəb şərtlərindədir ki, böyük adamların məktublarına məktub sahibi öz adını yazmır və başqa şəxsin dili ilə danışır. Buna görə də, papa ədəb şərtinə əməl edərək öz mətləbini qeyb dili ilə bəyan etmişdir. Firəngiyyə qayda-qanununda belə yazı tərzi cayizdir. Sözün qısası o həzrətin böyüklüyü, əzəməti və şöhrəti xalq arasında şəksiz ki, mə'lum olduğundan daha çoxdur".

Qələmin dili bu bitib-tükənməz söhbətləri yazmaqdan dayandı. Onun (Şah Abbasın – *Ş.F.*) şərafətli yaşı altımış idi. O, on səkkiz yaşından İran hökmranı kimi uca mərtəbəyə yetişdi və İranda onun hakimiyyəti qırx iki il oldu. Cülusunun ikinci ilindən başlayaraq bütün ömrü boyu qırx il cahangirlik yürüşlərində fəaliyyət göstərdi. Şiə və isnaəşəri fitlətli,

pak e’tiqadlı bir şəxs idi. [Hakimiyyətinin] ikinci qərninin on ikinci ildində Allah rəhmətinə qovuşdu.

**Beyt[lər]**

*Ey şah, sənin gücünlə dövr etdi cahan,*
*Qırx il döyüşübsən neçə düşmənlə haman.*
*Tərk eyləməyin bizləri qəzadandır,*
*Daim yaşayır, bəlli ki, təkcə Yaradan.*[1]

Ona və onun əzəmətli əcdadına Allahın rəhməti olsun[2].

**Bu il vəfat edən saray mülazimləri və başqa şəxslər:**

**Yusif Sultan**. O, ölkələr fəth edən, yeri cənnət olan həzrət şahın tərbiyələndirdiyi qulamlardandır. Yusif Sultan əmirlik rütbəsi və “sultan” ləqəbi ilə şərəflənmiş Kəskərin hakimi və ceyni (?) qazilərinin əmiri olmuşdur. Keçən il xidməti təqsirinə görə ittiham olunaraq hakimlikdən kənar edildi və onun əvəzinə şah tərəfindən tərbiyələndirilən qulamlardan Gorgin xan tə’yin olundu. Günahını yumaqdan ötrü Yusif Sultanın Ərzruma göndərilməsi və Əbazə ilə birlikdə qaladarlıq etməsi qərara alınmışdı.
**s.1081** Yuxarıda yazıldığı kimi, həmin xidməti səfər baş tutmadı və Əxəsqə qalası tüfəngçilərinin sərdarlığı ona tapşırıldı, elə həmin xidməti vaxtı da dünyadan köçdü. Olduqca ağıllı, ləyaqətli və böyük adamdı. Oğlanları şahın əmriylə qulamlar silkində fəaliyyət göstərirdilər.

**Dəvab (cəng və minik heyvanları – *Ş.F.*) naziri Əlixan bəy. O, nazire-dəvab [olmuş] İlahi bəyin oğlu idi.**

Allahverdi xanın sağlığında [İlahi] bəy xan sərkarının naziri idi, amma bacarığının çoxluğundan xasseyi-şərifənin sərkarı oldu. Onun vəfatından sonra bu vəzifə oğlu Əlixan bəyə verildi, Xorasan mühasibatının daruğəsi olub müqəddəs

---

[1] Beytlərin tərcüməsi:

Şaha, ze sənane-to cəhani şod rast,
Tiğe-to çehel sal ze ə’da kin xast.
Gər çeşm bədət rəsid an həm ze qəzast,
An kəs ke beyekhal bemandəst Xodast.

[2] Ərəbcəsi: “Bəhmətu-l-lahi əleyhi və əla ə’bəihi-l-izami”

Məşhədə getdi, orada [həyatdan köçməyə] tələsdi (məsru') və vəfat etdi. Hazırda onun vəzifəsi qardaşı Yadigar bəyə verilmişdir.

**Mir Məhəmməd Rza-qulamlar vəziri (vəzire-ğolaman)**. O, Mir Əbüləmalı Nəzərinin oğludur. Atasının vəzifəsini davam etdirərək qulamlar və tüfəngçilər vəziri olmuşdu. Bu il Qəzvində xəstələndi, Mazandarana gələrkən xəstəliyi şiddətləndi, həyatını əcələ tapşırdı. Onun vəzifəsinə şamlı divandəyisi Əliqulu xanın vəziri Haşim bəy Ərdestaninin oğlu Həsən bəy namizəd tə'yin edildi, amma, adətən həmin sülalə üzvlərinə tapşırılan bu mənsəbin icrasına başlamışdı ki, o həzrətin (Şah Abbasın – *Ş.F.*) dəhşətli ölüm hadisəsi baş verdi.

**Söz ustadı (həkime-soxənvər) Hakim Şəfai Sefahani**. O, İsfahan darüssəltənəsinin təbibzadələrindən idi. Özünü tanıma (təməyyoz, təmyiz) və gənclik illərinin əvvəlində mövcud elmləri öyrənməyə başlayaraq öz kamalını artırdı, tibb elmi və təbabət qanunlarını öyrənməkdə çox mahir oldu. Lotu xislətli (ləvəndməşrəb) və şux təbiətli bir adamdı. Şe'r və şairlik zövqü onun təbiətinə qalib gəldi, bu yolda uca
**s.1082** mərətəbəyə yetişdi, ustad və bəlağətli şairlərdən oldu, aləmdə
**(761)** məşhurlaşdı. Onun qəsidə, qəzəl, məsnəvi, qit'ə (müqəttəat) və rübayyatlardan ibarət gözəl şe'rləri çox, zəngin incəliklərlə yazılan mə'nalı fikirləri zəngin, şirin ifadələri saysız-hesabsızdır. Təbiətinə uyğun rişğəndi (gəzəndegi) sözlər də deyərdi. Hövsələsinin azlığından azacıq da kobudluğa dözməzdi. Xasiyyəti zarafatçıl olduğu üçün tez-tez davakar adamların ona qarşı dil açmalarına mə'ruz qalardı. Həcv yazmağın (heca') qadağan olunmasına baxmayaraq o, o tərzdə bədii şe'rlərdə də rəngin mə'nalar və şirin zarafatlar deməkdən qalmır, fikirlərini incəliklə söyləyirdi. Dünyanı fəth edən cənnətməkan həzrət şaha yaxınlığı vardı, amma lotuyana xislət sahibi olduğundan şah məyyətinin yanında az olardı. Şah ona İranın məliküs-şüərası və ən seçkin adamı ləqəbi vermişdi. O, həcv şeirlərinə görə bə'zən məzəmmətlənərdi. Həyatının axırlarında həcv yazmaqdan tövbə etdi, bir üzr-
**s.1082** xahlıq qit'əsi yazdı ki, həmin qitə budur:

**Qit'ə**

*Mən and içirəm Rəbbə ki, əqlin o həzrətin*
*Yüksəkliyi önündə qəti eştebahı yox...*
*Yoxdur qərəzim almağa düşməndən intiqam,*
*Ollam günahkar ki, bu şəxsin günahı yox.*
*Amma, aşarsa həddi ədəbsizlik, eylərəm*
*Şər'ən zülm o düşmənə, bir başqa rahı yox...*
*Olmazsa şairin əgər alsın qisasını,*
*Kəskin sözündən özgə onun bir pənahı yox...*[1]

[Həkim Şəfai Sefahani] bu il İsfahan darüssəltənəsində xəstələnib ömür divanının varaqlarını ölüm küləyinə verdi, öz təbibanə qəbul otağından (mətəbb) çıxdı. Cənnətməkan şahın [hakimiyyəti] vaxtında (Şah Təhmasib nəzərdə tutulur – *Ş.F.*) Həkim Nurəddin Kaşinin vəfatı münasibətilə Mövlana Möhtəşəm Kaşi onun [maddeyi-] tarixi xüsusunda bir qit'ə demişdi. Onun yazdığı beytlər [bu] vaxta münasib olduğuna görə, tarix yazmağı kənara qoyaraq o qit'ənin bir neçə beyti [burada] səbt olundu:

**Qit'ə**

*Ey dil, bu hörmətsiz fələyə bax ki,*
*Nə qədər sitəmin oldu maili...*
*Elə həkimdi ki, qaldı əlacsız,*
*Həyatda qalmaqdan üzüldü əli*[2].

---

[1] Şe'irin farscası:
Sovgənd mixorəm be xodayi ke, əql-ra
Dər kebriyaye-həzrəte-u nist eştebah.
Pərvaye-enteqame-ə'adi nəmikonəm,
Bər ruyhəm nehənd gər əfzun ze səd gonah.
Amma ço rəft biədəbiha ze hədd borun,
Tə'dibe-xesm vacebe-şər'ist gah-gah...
Dəstəş be enteqame-degər çon nəmirəsəd
Şaer be tiğe-tize-zəban mibərəd pənah...
**Qeyd:** Qit'ə ixtisarla tərcümə olundu – *Ş.F.*

[2] Qit'ənin farscası:
Dela, bengər in biməhaba fələk-ra
Ke, şod ta çe ğayət bidad mayel...
Həkimi ke, sədde-mətin əlacəş
Miyane-həyato əcəl bud hayel...
**Qeyd:** Qit'ə ixtisarla tərcümə olundu – *Ş.F.*

Həkim Şəfainin gözəl və mənalı şe'rləri elə çoxdur ki, hətta bu cildə (səhifə) sığmaz. Yuxarıda yazıldığı kimi, həcv yazdığı üçün onun üzrxahlıq qitə'sindən şairliyi və ustadlıq mərtəbəsi mə'lumdur. Bu sətirlər müəllifini fikrincə onun həmin qit'əsi və bu iki-üç beyti olduqca alidir və burada onları verməklə kifayətlənmədik:

*Şe'r*

*Səni yaratdılar can şirəsindən*
*Ehtiyac odundan yaranmışam mən.*
*Baş səcdə eyləyir cahana müdam,*
*Cahan ayağının tozu olmuşam.*
*Məni etməz idi aləm qəmi zar,*
*Pərişan bir zülfə oldum giriftar.*[1]

**s.1083**

### MƏNSƏB SAHİBLƏRİ

Yuxarıda yazılan müxtəlif hadisəlin şərhi və ölkələr alan həzrət şahın qəmgin vaqiəsindən sonra bu kitabın zeylində vacib görüldü ki, o həzrətin hakimiyyəti zamanı dövlət işlərini tənzimləyən adlı-sanlı əmirlər, aliqədr sədrlər, iqtidarlı vəzirlər kimi hörmətli ali mənsəb sahibləri haqqında mə'lumat verilsin. Onlar şanlı əmirlər, rəy və tədbir sahibləri, qılınc-xəncər gəzdirənlər və hökmranlığın aparıcıları olduğundan, həmçini onların arasında yüksək qədir-qiymətli, şan-şöhrtli xanlar, böyük və kiçik sultanlar olduğundan həmin ağıl sahiblərinin hamısı barədə söz demək vacib bilindi.

**Ölkələr alan nəvvab şahın zamanındakı əzəmətli əmirlərin zikri:**

Bu yüksək təbəqənin çox hörmətli və yüksək əmirlərinin əksəriyyəti, kitabın "Ölümlər" bəhslərində yazıldığı kimi, həzrət şahın zamanında

---

[1] Şerin farscası:

To-ra əz şireye-can afəridənd,
Mə-ra əz dağe-herman afəridənd.
Sərəm k-əz səcde delgiri nədanəd,
Ze xake-paye-canan afəridənd.
Ğəme-aləm pərişanəm nəmikərd,
Səre-zolfe-pərişan afəridənd.

bə’ziləri təbii əcəllə, bə’ziləri isə döyüş vaxtı fani cahana əlvida deyib, bəqa aləminə qovuşduqları üçün, habelə onların doxsan iki nəfər olan bə’ziləri həzrət şahın vəfatı zamanı hələ sağ olduqlarına görə barələrində iki dəfə mə’lumat veriləcəkdir.

**Birinci mə’lumat**: Bu dəfə yüksək qızılbaş tayfaları və onların əllərindəki oymaqlar barədə mə’lumat verilir ki, böyüklü-kiçikli yetmiş iki nəfərdir. Onların biri Şeyxavənd[*] təbəqəsindən olan İsa xandır. O cənnətməkan şahın vəkilüs-səltənəsi Mə’sum bəyin oğlu Seyid bəy Səfəvinin oğludur. Bu dövlətin ali mənsəblərindən olan qorçibaşı vəzifəsindədir.
**s.1084** Buna görə də həzrət şahın yaxın adamı olmaqla şərəflənmişdir
**(762)** və oymaq əmirləri arasında, istisnasız olaraq, ən üstünüdür. Başqa qızılbaş oymaqları:

### Şamlı

Qızılbaş oymaqlarının ən məşhuru (sərdəftər) şamlı oymağıdır ki, bu vaxtlar onların yeddi nəfərinin əmirlik rütbəsi olmuşdur.

**Zeynal xan Bigdeli** – O, Əliqulu xan Kəramilunun yerinə eşikağasıbaşı olmuş, Reydə hakimlik etmiş, həzrət şahın tə’lim-tərbiyəsi altında ləyaqətlə xidmət göstərmişdir. Olduqca izzətli, hörmətli və hamıdan möhtərəm idi.

**Hüseyn xanın oğlu Həsən xan** – Şamlı tayfasının Əbdəli (Əbdəlli – ?) oymağındandır. Adlı-sanlı əmirlərindəndir. Atasının yerinə Xorasan bəylərbəyidir.

**Məhəmməd Zaman Sultan** – Qur və bə’zi Xorasan mahallarının hakimidir.

**Fəzl Əli Sultan** – Bala Morğab hakimi idi.

**Haqverdi Sultan Ərəbgirli** – Azərbaycan əmirlərindəndir. Hal-hazırda ərəbgirlilər şamlı tayfasına daxildirlər.

**Nəqdi Sultan Nəlqas** – Şamlı tayfasına daxil olan Nəlqas
**s.1084** elinin əmiridir.

**Gündoğmuş Sultan Bigdeli** – O, öz qoşunuyla Kərkükün Tovuq adlı yerində xidmət edirdi. Birinci Bağdad səfəri zamanı *şahsevən* olub şahın xidmətinə gəlmiş və sultanlıq

rürbəsinə layiq görüldü. Onun Azərbaycan torpaqlarında müxtəlif tiyulları vardır.

**Ustaclı.**

Onlardan üç nəfərinin əmirlik rütbəsi vardır:

**Bəktaş xanın oğlu Mühübəli Sultan** – Xorasanın Nisa mahalının hakimi idi.

**Maqsud Sultan Kəngərli** – Naxçıvan hakimi.

**Pir Qeyb xan Şərəflinin oğlu Əbülqasım Sultan** – İraqi-Ərəbin Hillə mahalının hakimi.

**Uca Zülqədər tayfasından:**

**Rüstəm Sultan Sugələnin oğlu Əmir xan Möhrdar** – Kirman darülamanının hakimi.

**İbrahim Sultan Qoroğlu** – Xorasan Sərəxsinin hakimi.

**Dərgahqulu Sultan Qoroğlu** – Nədr xan Möhrdarın qızının oğlu və bə’zi Fars mahallarının hakimi olmuş Şahqulu Xəlifə Möhrdarın nəvəsi.

**Səlim xan Şəmsəddinli** – Əvvəllər Qarabağ əmirlərindən idi, sonralar Axəsqə qalasının hakimi olmuşdu.

**Kəlbəli Sultan Eymurun oğlu Xəlil Sultan** – Qarabağ əmirlərindəndir.

**Müstədam Sultan Hacılar** – Astrabad Kəbudcaməsinin hakimi.

**Qacar tayfasından iki nəfər:**

**Əmirgunə xanın oğlu Təhmasibqulu xan** – Atasının əvəzinə Çuxur-Sə’d bəylərbəyidir. Böyük əmirlərdəndir.

**Peykər xan İyirmi dörd** – Qarabağ əmirlərindəndir və Bərdə hakimidir.

**Əfşar [tayfasından] üç nəfər:**

**Qasım xan İmanlının oğlu Kəlbəli Sultan** – Urumi hakimi.

Ərdoğdu xan Alplı-Xorasanın Fərah və Əsfzar mahallarının hakimi.

**İmamqulu Sultan Ovsalı** – Gavrud hakimi.

**Türman elindən iki nəfər:**

**Şahbəndə xanın oğlu Pirbudaq xan Pornak** – Atasının yerinə Təbriz darüssəltənəsinin hakimi və Azərbaycan bəylərbəyidir.

**Həsən Sultan Ördəkli** – Qəpanat hakimi.

**Əspərəhli:**

**Şikari Sultan** – Ərdəbil və Sərab hakimi

**Rumlu:**

s.1085 **Heydər Sultan Qoylə Hasarlı** – Gilan Tənkabonunun hakimi.

**Qaradağlı:**

**İlyas Xəlifənin oğlu Bürhanəddin Xəlifə** – Qaracadağ hakimi.

**Bayat:**

**Yarəli Sultan** – Bayazid qalasının hakimi.

**Gəda Əli Sultan** – Maku hakimi.

**Bədr Sultan** – O, Çuxur-Sə'din bə'zi mahallarının hakimi idi.

**Talış [tayfasından] üç nəfər:**

**Bayandur xanın nəbirəsi Sarı xan** – Astara hakimi.

**Bədrxan Sultan** – Xüləfalıq mənsəbi ilə şərəflənən və Təvalişin bə'zi mahallarının hakimi olan Yadigar Əli Sultanın əvəzinə tə'yin edilmişdi.

**Əlpavut:**

Mənsur Sultan-Şirvanda ülkası vardır.

**Cagirli:**

**Məhəmməd Sultan** – Bir nəfərdir. Şəki hakimidir.

**Qazaqlar:**

**Şəmsi xan** – Bir nəfərdir. Darabcərd hakimi idi, Axəsqə hakimi oldu.

**Bayburdlu:**

**Muradxan Sultan** – Arasbar hakimidir.

**Əlvar və Əkrad tayfa[lar]ından:**

Onlar bu dövrdə hakim (əyalət), xan və sultan rütbəsinə layiq görülmüşdülər. On yeddi nəfərdirlər.

**Hüseyn xan Abbasi Lərfili** – Luristan bəylərbəyi. Şah tərəfindən şəfəqqətlənən şəxslərdən idi.

**Xan Əhməd xan Ərdəlan** – Şəhşərə və Zur bəylərbəyi Həlu xanın oğlu. Böyük əmirlərdəndir.

**Cahangir xanın oğlu Xəlil xan** – Lur Bəxtiyarı hakimidir.

**Aşur xan Çekəni** – Şahican Mərvinin hakimi və mö'təbər əmirlərdəndir.

**Cami Sultanın oğlu Əhməd Sultan Çekəni** – Səbzvar darülmömininin hakimidir.

**Salman xan Subaşı Dünbüli** – Çurəs və Səlmas hakimidir.

**İmamqulu Sultan Siyahmənsur** – Xorasan Əsfərayinin hakimidir.

**Bayraməli Sultan Sufi** – Kürd qəbilələrindən ibarət Gilan Dilmanının hakimidir.

**Gəncəli xan Zəyəkin oğlu Əlimərdan xan** – böyük
**s.1086** əmirlərdəndir və atasının əvəzinə Qəndəhar vilayətinin bəy-
**(763)** lərbəyidir.

**Maqsud Sultan Dünbüli** – Bərgüşad hakimidir.

**Əlican Sultan Şəqaqi** – Şəqaq elinin əmirlərindəndir.

**s.1086** **Şücaəddin Sultan Sevərləh** – Şirvan əmirlərindəndir.

**Nəfəs Sultan Gorus** – Bağdad və Dərtəngə tabe Lək qalasının hakimidir.

**Gədayi Sultan Kulani** – Zəncan hakimi[dir].

**Qələndər Sultan Kiləgir** – Bu elin miri və Azərbaycan əmirlərindəndir.

**Mustafa Sultan Cəstani** – Ləqəbi "Abdal Əli" olan bu əmir Bağdadın tabeliyindəki Cəstanın hakimidir.

## [O CÜMLƏDƏN] MÜXTƏLİF TAYFALAR

### Cığatay:

Xorasanın yəqə, türkman, sayinxani və cığataya daxil olan oymaqlarının əmirləri on iki nəfərdir:

**Bayraməli Sultan Qarabayat** – Nişapur hakimidir, Baba İlyas övladlarındandır.

**Əlyar xan Gəraylı** – Böyük əmirlərdəndir. Xorasanın Astrabad hüduduna daxil olan gəraylı elinin əmiridir.

**Əhməd Sultan Məçəki** – Xorasanın Təbriz [mahalının] hakimi[dir].

**Hüseynxan Firuzcəngin nəvəsi Firudin Hüseyn Sultan** – Xorasanın Heydəriyyə türbəsinin (türbət) hakimi[dir].

**Qələndər Sultan Təvəkkoli** – Cam vilayətinin hakimi[dir].

**Məhəmməd Sultan Qarabayatın oğlu Təhmasibqulu Sultan** – Xuzistanın Şüştər və Dizful [mahallarının] hakimi[dir].

**Şahvəli Sultan Cəlayir**-Müqəddəs Məşhədin Pəsaguh [mahalının] hakimi[dir].

**Şahqulu Sultan Qumru** – Xorasanın Cahan Ərğəban mahalının hakimidir.

**Uğurlu Sultan Cəlayir, Rəhmanqulu Sultan Qarabaş, Mir Şadi Sultanın oğlu Mir Məhəmməd Sultan Ğuri-Herat** darüssəltənəsinə tabe olan oymaq mirlərindən[dir].

**Mir Heydər Sultan Cəmşidi –** Herat Kərəxinin hakimidir.

### Qızılbaş oymaqlarından olmayan başqa qəbilə əmirləri:

Onlar əzəmətli əmirlər silkindən olmaqla Azərbaycanda səkkiz nəfərdirlər:

**Ağa xan Mir Müqəddəm** – Qarabağın Otuz iki elindəndir və Marağa hakimidir.

**Sarıxan Sultan Səlmasi** – Səlmasın Lək camaatının miri[dir].

**Kəlbe-Rza Sultan Zünuzi** – Azərbaycan əmirlərindəndir.

**Silsüpür camaatından bir nəfər**

**Xəlil Sultan.** Bu camaat Rum vilayətində qarətlə məşğul olmuş müxtəlif oymaqlardandır. Onlar özlərini "silsüpür" (yəni "pakrub") adlandırmışlar. Azərbaycanın fəth edilməsi hadisələri dövründə onlardan iki min ev əhalisi bu dərgaha istək (iradət) və sədaqətlə üz tutmuşdular. Onların bir dəstəsi əzəmətli qorçilər silkinə daxil olmuş, qalanları isə yuxarıda adı çəkilən Xəlil Sultanın mülazimliyinə göndərilmişlər.

**Nurəddin Sultan Paydar** – Şirvanın tərəkəmə (tərakəmat) tayfalarındandır. Həmişə Tiflis hakimi nə tabe olmuş və indi də bu vəzifədə qalmaqdadır.

**Məlik Mahmudun oğlu Məlik Cəlaləddin** – Xorasanda Sistan hakimidir, səffariyyə* məlikləri nəslindəndir.

**Şirxan Əfqan** – Qəndəhara tabe olan Pəşəng [mahalının] hakimi[dir].

**s.1087** **Maqsud Sultan Əfqan** – Qəndəhara tabedir.

## XAN VƏ SULTAN RÜTBƏLƏRİNƏ LAYİQ GÖRÜLMÜŞ DƏRGAH QULAMLARININ ƏZƏMƏTLİ ƏMİRLƏRİ HAQQINDA İKİNCİ MƏ'LUMAT

Ölkələr alan həzrət şahın hökmranlıq dövründə bu təbəqədən olan çox adam islamın köməyinə bel bağlayıb bu dərgahın qulamı olmaq səadətinə yetişdi. Onların əksəriyyəti hələ kiçik yaşlarından o həzrətin tərbiyət kölgəsi altında böyürdülər, şahın gözəl və bəyənilmiş hərəkətlərinə göz qoyub əmirlik iste'dadı əxs etdilər, əmirliyə (əmarət), xan mənsəbinə və sultan mərtəbəsinə yetişdilər. Fani cahandan əbədi köçən bə'zi qızılbaş əmirləri və məmləkət hakimlərinin əvəzinə onların mənsub olduqları həmin oymaqlardan həmin şəxsləri ali əmir vəzifəsində əvəz edə biləcək heç kəs qalmadığı üçün, vəline'mətin yolunda başqalarından üstün olan və ədalət, bacarıq, şücaət, igidlik və e'tibarlarına görə seçilən xasseyi-şərifə qulamları el, qoşun ləşkər əmirliyinə və dövlət işlərinə tə'yin edildilər. Həzrət şahın vəfatı zamanı həmin

adamlardan iyirmi bir nəfər hakim, xan, əmir və sultan rütbəsi ilə şərəflənmişdir.

O cümlədən Fars [vilayətinin] bəylərbəyi **Allahverdi xanın oğlu İmamqulu** xan – öz atasının yerinə, Kuh – Giluyə, Lar, Bəhreyn, Cərun kimi yerlərin hakimi oldu və ona tebe edilən əmirlərlə birgə hökümətdə vəzifə tutdu. Tabeliyindəki əmir və hakimlərin vəzifəyə tə'yin edilmələri və işdən çıxarılmaları bəylərbəyiyə aid olduğundan onların adları sənədlərdə əks edilmişdir. **İmamqulu xanın oğlu Səfiqulu Sultan** – Lar valisi İbrahim xanın əvəzinə o diyarın hakimi vəzifəsinə layiq görüldü və hal-hazırda böyük əmirlərdəndir.

**İmamqulu xanın qardaşı Davud xan** – O, Mouravi Gürcü ilə bağlı əhvalatda təqsiri olan və Qarabağ əmirülüməralığından çıxarılan Məhəmmədqulu xan Qacarın əvəzinə həmin vilayətin bəylərbəyi oldu. Hazırda qacar el və oymağının əmiridir.

"Şirəli" ləqəbli **Səfiqulu xan Gürcü** – O, İraqi-Ərəbin bəylərbəyi, qorçibaşısı, müqəddəs rövzələrin və ali şəxslərin
**s.1088** məzarlarının mütəvəllisisdir. Hafiz Əhməd paşanın Bağdada
**(764)** gəliş-gedişinin şərhində yazıldığı kimi, Səfiqulu xandan igidliklər zahir oldu, həqiqətən də yüksək vəzifəyə layiq idi.

**Xosrov xan** – Astrabad darülmömininin bəylərbəyi və o yerin qoşun və ləşkərinin sərdarıdır.

Mərhum sipəhsalar **Qərçiqay xanın oğlu Mənuçöhr xan** – Atasının əvəzinə Müqəddəs Məşhədin hakimidir.

**Qazaq xan Çərkəs** – Zülfüqar xan və Yusif xanın yerinə Şirvan bəylərbəyi oldu. O, qaramanlı, çavuşlu və başqa yerlərin ləşkər və qazilərinin miridir.

**Fərrux Sultan –** Yutəm Sultanın əvəzinə Şirvana [tabe] Dərbənd və Şabranın hakimi, bayat, rumlu və başqa qazilərin ləşkərlərinin miridir.

**Gorgin Sultan** – Mir Conbinin əvəzinə Gilanın Kəskər mahalının hakimi və coni (conbi – ?) qazilərinin rəhbəridir.

**Yusif Sultan** – Kürd Çəşimgəzəkinin miri və Xorasan Xəbuşanının hakimidir.

**Cəmşid Sultan Gürcü** – Eydəlu əfşar oymağının miri və Xorasan Əbivərdinin hakimidir.

"**Dəstkeş**" **ləqəbli Uğurlu Sultan** – Xorasanın Dərun
s.1088 vilayətinin hakimidir.

**Otar Sultan** – Pazuki elinin miri və Xar, Semnan, Dəmavənd və Firuzguh hakimidir.

**Novruz Sultan** – Otuz iki cavanşir elinin miridir. Qarabağ əmirlərindəndir.

**Xosrov Sultan** – Marucaq və Morğab hakimi və bir dəstə şamlı qazilərinin miridir.

### ÖLKƏLƏR ALAN NƏVVAB ŞAH ZAMANINDAKI ALİŞAN SƏDRLƏRİN, ƏZƏMƏTLİ VƏZİRLƏRİN VƏ QƏLƏM SAHİBİ OLAN MÜSTOVFİLƏRİN ZİKRİ

Hər il hadisələrinin şərhi və vəzifə dəyişiklikləri ilə bağlı məsələlərin yazılışı vaxtı, hərçənd ki, bü şəxslərin adları yazılmışdır, bunun indi də yenidən yazılması qərara alındı, amma barələrində müfəssəl danışılması münasib görülmədi. Buna görə də, onların [yığcam] mə'lumatına başlayırıq.

Beləliklə, həzrət şahın əzəmətli seyidləri yeddi nəfərdir:

Hümayun cülus zamanı sədr **Əmir Əbülvəli Əncu Şirazi** idi. Onun barəsində bu kitabın birinci səhifəsinin başlanğıcındakı "Cənnətməkan şah zamanının əzəmətli seyidləri haqqında mə'lumat" hissəsində yazılmışdır. O, İskəndər şanlı nəvvabın və Əbu Talib Mirzə tərəfdarlarının hakimiyyəti dövründə zəfərli qaziye-əskər vəzifəsindən sədarət rütbəsinə ucaldı, lakin hümayun şahın cülusundan sonra başqa seyidlər kimi onun da adının üstünən işdən kənarlaşdırılması xüsusunda qələm çəkildi. Çox keçmədən o, bu vəzifəyə başqa seyidlərdən və zəmanənin fazil adamlarından üstünlük imtiyazına malik olduğu üçün yenidən bu mənsəblə sərəfraz oldu. Əmir Əbülvənli Əncu iyirmi il bu vəzifəni şəriksiz idarə etmişdi.

Ondan sonra **Seyfi Hüseyni Qəzvini** seyidlərindən olan və vəzir **Qazi Cahana** qohumluğu çatan Mirzə Bürhanın oğlu **Qazi xan** [sədr oldu].

Sonra şəhristan seyidlərindən olan və Mir Fəzullah və Seyid Fazilə qohumluğu çatan **Mir Cəlaləddin Səlayi** öz qabiliyyətinə görə sədarət rütbəsinə çatdı. Adı çəkilən bu Mir Cəlaləddin Həsən Şirvanın Şamaxı qalasının fəthi zamanı vəfat etdi.

Onun qardaşı oğlu **Mirzə Rəzi** əmisinin əvəzinə bu hörmətli rütbəyə yüksəldi və məşhurlaşdı. Qabiliyyətinin çoxluğuna görə ə'lahəzrətin diqqətini özünə cəlb elədi, bacarığı sayəsində inkişaf edb, şah tərəfindən on iki mə'sum əleyhüssalamlara vəqf olunan şah sərkare-xassə vəqflərinin mütəvəllisi oldu, onun sədarət mənsəbinə şahın mübarək sənədlərini imzalamaqdan ötrü möhrdar vəzifəsi də əlavə edildi. Mirzə Rəzi Azərbaycan səfəri zamanı xəstələndi və min iyirmi altıncı (1626/1627) ildə[1] bəqa aləminə qovuşdu. **Qazi xan** isə vəqf işlərində (ovqaf) pul mənimsədiyinə və mübarək şahın ehtiramına layiq olmadığına görə vəzifədən çıxarıldı.

Mirzə Rəzinin mənsəbi onun oğlu və ə'lahəzrətin nəvəsi olan südəmər cocuğ **Sədrəddin Məhəmmədə** verildi.

Onun əmisi oğlu Mirzə Rəfi ali əmrə əsasən sədarəti öz əmisi oğlunun naibi kimi idarə etməyə başladı, Qazi xanın mənsəbi isə rezəviyyə rövzəsi sərkarının mütəvəllisi **Qazi Sultan Türbəti əl-Musəvi** ilə əvəzləndi, lakin o, Ərdəbil darülirşadına gedib ali sədarət mənsəbinin idarəsinə başladığı bir neçə gün içində bimar oldu, əcəlin gəlişini salamladı
**s.1089** və onun sədarət vəzifəsi xətm möhrü ilə möhürləndi.

Onun vəfatından sonra "Mazandaranlı seyidlər" adlanan nəsildən törəyən, bu kitabın səhifəsində ağıllı, kamallı, böyük, qədir-qiymətli şəxs kimi təsvir olunan mərhum **Mir Şücaəddin Mahmud İsfahaninin oğlu Mir Rəfiəddin Məhəmməd Xəlifə** sədr oldu.

Adı çəkilən Mirzə Rəfi bu şərəfə layiq görüldükdən sonra naiblik (nəyabət) mərtədəsindən daha yüksək mərtəbəyə qalxdı, Mirzə Rəzinin etdiyi kimi tuğra və başqa sənədləri, habelə hökmləri öz fəxarətli ismi ilə ziynətləndirdi. Min otuz dördüncü ildə (1624/1625) Mir Rəfiəddin Məhəmməd Xəlifə

[1] Kitabda səhvən "min iki yüz altıncı il" göstərilmişdir.

Allahın rəhmətinə qovuşdu. Mirzə Rəziyə isə bütün məmləkətlərin ali sədarət mənsəbi, həmçinin ali həzərata mənsub olan mütəvəlli və möhrdarlıq vəzifələri şəriksiz olaraq tapşırıldı. O, hal-hazırda bu uca mərtəbə və yüksək mənsəb ilə sərəfrazdır.

**Əzəmətli vəzirlərin şəfaqəltli adları:** Həzrət şahın hakimiyyəti zamanı fəaliyyətdə olan əzəmətli vəzirlərin də sayı seyidlərin sayı kimi yeddi nəfərdir.

Birinci vəzir: Humayun cülus vaxtı **Mirzə Şahvəli** ilk vəzir oldu. Onun babası **Mirzə Ətaulla** cənnətməkan şahın
**s.1090** hakimiyyəti zamanı "Məmləkətlərin vəzirləri" hissəsində
**(765)** barəsində yazılan şəxsdir. Onun oğlu **Mirzə Əhməd** bənzəri olmayan məktubyazan (tə'liqənevis) idi və inşa elmində böyük məharəti vardı. İskəndər şanlı nəvvab şahın dövründə Mirzə Əhməd və Mirzə Salman Vəzir arasındakı dava-dalaş nəticəsində vəzirliyi öz əlinə keçirən **Mürşidqulu xan** Xorasana getdi, orada Abbasilik hərəkatını (həyacan) qaldırdı. İskəndər şanlı nəvvab İraq əskərləriylə o həyacanı yatırtmaq üçün getdiyi il, yuxarıda yazıldığı kimi, Mürşidqulu "Heydəriyyə türbəsi" qalasını mühasirəyə aldı. Mirzə Əhmədin Bəxtəm bəy adlı qardaşı oğlu, Mirzə Salmanın təhriki ilə qalaya girdi fürsət taparaq əmisini zindandan çıxardı. Bu xidmət və canfəşanlığa görə Mürşidqulu xan hələ yaşı az olan onun oğlu **Mirzə Şahvəlini** atasının əvəzinə öz vəziri etdi. Ə'lahəzrət İraqa gəlib səltənət taxtına əyləşən vaxt Mirzə Şahvəli Mürşidqulu xanın xidmətindəydi və ali mənsəbi ləyaqətlə idarə edirdi. Mürşidqulu xanın məsləhəti ilə o, baş vəzir rütbəsi ilə sərəfraz oldu.

İkinci vəzir: Mirzə Məhəmməd Kirmani. O, anası tərəfdən Təbrizin Keçəçi seyidlərindən və Mirzə Kebriyanın qohumlarından idi. Sultan Həmzə Mirzənin şəhid olmasından sonra əmirlərin məsləhətiylə Əbu Talib Mirzənin vəziri və e'timadüddövləsi oldu, onun hakimiyyətinin nizamlanması üçün sə'y etdi. Ali hümayun cülusdan (Şah Abbasın cülusundan sonra – *Ş.F.*) sonra o, Xorasan səfəri zamanı ali ordudaydı və Mürşidqulunun qətlində onun qatilləriylə həmfikirdi.

O, həmin vaxtlarda gizlicə olaraq ə'lahəzrətlə dilbir idi, onunla yaxınlıq edirdi, o həzrətdən vəzarət mənsəbi və'dini almışdı. Mürşidqulunun qətlindən sonra ə'lahəzrət öz və'inə vəfa edib, onu yüksək qədir-qiymətli baş vəzir rütbəsi ilə sərəfraz etdi. Amma, özündəki özündən razılığ və özbaşınalığına, həmçinin bir müddət Əbu Talib Mirzə tərəfindən tərbiyət olunduğuna görə Zavənin Duğabad adlı yerində əzəmətli əmirlərin təhrikiylə tutuldu və həmin bir neçə gün içində qətl olundu. Onun vəzirlik dövrü altı aydan çox çəkmədi.

Üçüncü vəzir: **Mirzə Lütfulla Şirazi.** Mərhum şahzadə Sultan Həmzə Mirzənin vəziriydi. Şahzadənin şəhadətindən sonra vəzirlikdən kənar edildi və yazıldığı kimi, **Mirzə Məhəmməd** vəzir oldu. Xorasan səfərində Mirzə Lütfulla da ə'lahazrətlə birlikdəydi. Mürşidqulunun qətlindən sonra o, nəvvabın vəziri oldu, Mirzə Məhəmmədin öldürülməsindən sonasa ə'lahəzrət tərəfindən baş vəzir və etimadüddövlə vəzifəsinə keçirildi, vəzarəti hakim vəzifəsi ilə birlikdə qəbul edib qoşun, ləşkər, təbil və bayraq sahibi oldu və iki ay sər-
**s.1090** bəst şəkildə vəzarət vəzifəsini icra etdi. Sonrakı vaxt isə oğlu **Mirzə Məhəmməd Zaman** etdiyi cəhalət və cavanlıq havası üzündən şahın mübarək xislətinə uyğun gəlməyən yersiz hərəkətlərə yol verdi, vəzifədən kənar olundu.

Dördüncü vəzir: **Bəhram Ordubadinin oğlu Hatəm bəy.** Onun barəsində bu kitabda mə'lumat verilmişdir. Xidməti işlərdə təcrübəli, yolagedən və fədakar adam idi. Abdulla xanın Heratı mühsirə etməsi zamanı Hatəm bəyin bir qardaşı Əbu Talib bəy Əliqulu xan Şamlı tərəfindən elçi göndərilmiş və [özbəklər tərəfindən] topun lüləsinə qoyulub qalaya tərəf atılmışdı.

Hatəm bəy bir müddət Əliqulu xanın yanında çalışmış, məmləkətlərin yoxlanması (estifa') ilə sərəfraz olmuşdu. Mirzə Lütfinin vəzarətdən çıxarılmasından sonra baş vəzir vəzifəsini tutmaqla sərbülənd oldu, iyrmi il iqtidar və istiqlalla (müstəqil – *Ş.F.*) vəzir və e'timadüddövlə oldu. Dövr hadisələrinin təsviri zamanı mə'lumat verdiyimiz kimi, Urumi qalası yaxınlığında vəfat etdi.

Beşinci vəzir: **Hatəm bəyin əziz oğlu (xələf) Mirzə Əbu Talib.** Onun kamalının vəsfi bu kitabın birinci səhifəsinin başlanğıcında verilmişdir. O, cavanlığının və yetkinliyinin başlanğıcında atasının yerinə həmin ali vəzifəyə təyin edilmiş, on il müddətində vəzarət işini aparmışdır. Cavanlığa xas olan bə'zi işlərə qurşanması və vəzifə qüruru üzündən bu yüksək işdən aralandı, bir müddət zəmanənin yaxşı və pis üzünü gördü, ruzigarın eniş-yoxuşuna mübtəla oldu.

Altıncı vəzir: **Şahəli Mirzə ibn Abdulla xan Ustaclının oğlu Salman xan.** Tam qabiliyyət və iste'dada malik adam idi. Vəzir rütbəsinədək yüksəldi və beş il ali divan vəzarətində çalışdı, İsfahanda xəstələnərək bəqa aləminə yollandı.

Yeddinci vəzir: **Əlahəzrətin yanında çalışan Mirzə Rəfiəddin Məhəmməd Sədrin oğlu Xəlifə Sultan**. O, üləmaların sultanı və vəzirlərin iftixarıdır. Yuxarıda yazdığımız kimi, böyük atasının tə'siri ilə bu böyük rütbəyə yetişib izzətləndi və sərbülənd oldu, hər cəhətdən şahanə tərbiyətə, nəvazişə və iltifata layiq görüldü, müstəqil şəkildə vəzarət işinə başladı. O, hal-hazırda alişan bir seyid, fazil və xoşəxlaq bir alimdir. Cavanlıqdan başlayaraq bu böyük mənsəbi tutanadək öz qiymətli həyatını mütaliəyə və mübahisəyə sərf edərək, bütün elmlər sahəsində ruzigarın öncülü oldu. Az vaxt ərzində ali ağıl və fitrətə, habelə hesabdarlıqda kamil məharətə çatdı. Gözəl məsləhəti və iti fikrinə görə vəzarət xidmətində çox inkişaf etdi. O, bu ali mənsəbin işlərini elə icra edir ki, hesab elmi sahəsində dedikləri qanun, bütün yazdıqları isə xətadan xalidir. Sifatının mükəmməl zatı onun
**s.1091** fəzilətindən, mənəvi istedadından, bu uca rütbəyə ləyaqətin-
**(766)** dən və bu ali mənsəbə tam yararlı olmağından bəllidir.

Əgər onun gözəl vəsfindən geniş yazılsa, gördüyü böyük işlərin ən kiçiyini də əhatə eləmək mümkün olmaz. Qələm sahibidir, gövhərlər yağdıran qələmindən fəziləti və kamalı mə'lum olan bir adamdır, iste'dadına uyğun olaraq bu böyük vəzifəni müstəqil (enferad) idarə edir. Əgər onun xasiyyətinin gözəlliyi (hosne-xolq) və vəsfi haqqında çox danışılsa (xovz) bu – çoxdan az danışmaq kimi bir məsələ olar. Qələm

ərbablarının, fəzilət və kamal sahiblərinin amal bağı (riyaz) onun gövhərlər səpən qələminin tə'sirindən təravətlənmişdir. Qabiliyyət və iste'dad sahibləri o həzrətin mərhəmət (rafət) və diqqət bayrağı altında şad və kamyabdırlar.

*Vücudundan vəzarət tazələndi,*
*Onun ismi ilə avazələndi.*[1]

Hal-hazırda vəzarət masası onun şərafətli vücudu ilə
s.1091 bəzənmiş, dövlət taxtı isə nəfsinin toxluğu, özünün çalışqanlığı və xeyrxahlığı ilə ziynətlənmişdir. Ümidvarıq ki, o öz ömründən və dövlətindən həzz alacaq və faydalanacaqdır.

### MƏMLƏKƏTLƏR MUSTOVFİLƏRİNİN ŞƏRAFƏTLİ ADLARININ ZİKRİ

O həzrətin xoşbəxt zamanındakı əzəmətli mustovfilər də sədrlər və baş vəzirlər kimi yeddi nəfər olmuşlar:

**Xacə Şükürulla Dənyani İsfahani**: Xorasanda o həzrətin (Şah Abbasın – *Ş.F.*) xidmətində çalışırdı. Müqəddəs ordu ilə İraqi-Ərəbə gəlib üç il orada müstövfiəl-məmalik vəzifəsində işlədi. Dərvişxislət və nəfsitox adamdı, işbilən mühasibdi. Ov növlərindən *tazı ovu* daha çox xoşuna gəlirdi. Mininci pələng ilinin (1591/1592) altıncı ayında vəzifəsindən çıxarıldı, onun yerinə Bəktaş xanın vəziri olan **Hatəm bəy Ordubadi müstovfil-məmalik oldu** və altı ay o vəzifədə işlədi. Min birinci (1592/1593) dovşan ilinin birinci yarısında, vəzirlərin adlarının şərhində yazıldığı kimi, şahanə tərbiyyətlə şərəfləndi və baş vəzir ali mənsəbinə ucaldı.

**Ağa Şahəli Dövlətabadi İsfahani:** Uca müstövfiəl-məmalik rütbəsi ilə sərbülənd oldu. O zamanlar qayda-qanuna görə müstövfilərə verilməyən daş-qaşlarla bəzəkli olan mürəkkəb qabı və qızıl qələm ona verildi. Hesab elmində (siyaqət) və

[1] Beytin farscası:
Bə-z u rəsme-vəzarət taze gərdid,
Ze name-u bolənd avaze gərdid.

yazı yazmaqda mühasiblərin ustadı (ustadül-mühasibin) idi. Bacarıqla adamdı. Nəfsi tox və xeyirxahdı. Həmin vəzifəni altı ay müstəqil idarə etdi, min altıncı ildə (1597/1598) təbii əcəllə vəfat etdi. Sülaləsinə göstərilən şahanə şəfəqqətə görə onun vəzifəsi qardaşı **Ağa Mirzə Əliyə** verildi, Daş-qaşlarla bəzəkli mürəkkəb qabı və qızıl qələm ona çatdı. O da xoşrəftar, pərhizgar və tamahı az adam idi. *Hatəm bəy Ordubadi tərəfindən hazırlanan və bu gün hümayun dəftərxananın qanunu olan* şaha tabe məmləkətlərin gəliri və çıxarı barədəki kitab Ağa Mirzə Əlinin işlədiyi dövr ərzində tam dürüstləşdirildi. O, beş il müstövfiəl-məmalik vəzifəsində işlədi. Dərvis xislətli olduğuna və onda inkişaf və müstəqilliyin olmadığına görə ərizəçilərin və ona zidd olanların e'tirazına əsasən vəzifədən çıxarıldı.

**Müəzza İbrahima Şirazi**: Ağa Mirzə Əliyə e'tiraz edilənlərdən idi və bu rütbə ilə sərbülənd oldu. Müstəqil şəkildə və ruh yüksəkliyi ilə çalışırdı. Canfəşanlığının çoxluğu və rəftarının kobudluğu üzündən onunla işləyən qələm sahibləri üz çevirərək onu tənqidə başladılar. E'tinasızlığı və şüursuzluğuna, habelə bu faydalı vəzifədə etdiyi səhvlərinə görə Gilan mühasibatında böyük məbləğdə pul nəzərə alınmamışdı. Özü hesabı yaxşı bilən "*Aləmlər mirzəsi*" *[Mirzə Məhəmməd Şəfi]* bundan xəbər tutaraq, məsələni müqəddəs zata bildirdi və buna görə də onun vəzifə səhifəsinə işdən çıxarılmaq qələmi çəkildi. Vəzifə müddəti bir il yarım olmuşdu.

İlan ilinin başlanğıcında Xorasan əmirülümərası Hüseyn xan Şamlının vəziri vəzifəsində işləyən, siyaq və yazı işlərində Ağa Şah Əlinin atasının şagirdi olan Mirzə Həsən Küfrani İsfahaninin oğlu **Mirzə Qəvaməddin Məhəmməd** bu mənsəbə çatdı. Xoşqılıq, nəfsitox adamdı. Müstəqil, öz qədrini bilən, dərvişxislət, xeyirxah və himmət sahibiydi. Kasıblar, dərvişlər, zöhd və təqva əhli ondan faydalanırdılar. O, on beş il müstövfiəl-məmalik oldu, min on altıncı ildə Allahın də'vətini qəbul edib, bəqa evinə yollandı. Onun vəfatından sonra Xacə Qasımın nəvəsi **Mirzə Səid** bu uca rütbə ilə
**s.1092** sərəfraz oldu. Ölkələr alan şahın vəfatı zamanı irsi və hüquqi müstövfiəl-məmalik idi və elə indi də bu vəzifədədir.

O həzrətin dövründəki vəzirlərdən bir neçə şan-şöhrət və e'tibarlı şəxs də vardır. Məsələn, "Aləmlər mirzəsi" ləqəbli sərhəd, Mazandaran və Xorasan valisi **Mirzə Məhəmməd Şəfi**, yaxud ləqəbi "Fədəvi" olan Azərbaycan vəziri **Xacə Məhəmməd Rza**. İsfahanın, Kaşanın və başqa yerlərin vəzirləri artıq bəqa aləmindəydilər. Ə'lahəzrət vəfat edərkən divan işlərinin başında olan vəzirlərdən aşağıdakı iki nəfər məqam, izzət, sərvət və var-dövlət sahibləri idi.

**Sarı Tağı ləqəbi ilə məşhur olan Mirzə Tağı:** O, cənnətməkan şahın hakimiyyəti zamanı Həsən bəy Yüzbaşının vəziri olmuş Xacə İnayətin nəvəsidir. Min iyirmi beşinci ildə, hümayun qışlaq Danqidə olarkən Mirzə Tağı Qarabağ bəylərbəyinin vəziri vəzifəsində çalışırdı, şahın xidmətinə gəldi. Ölkələr alan nəvvab onda inkişaf və bacarıq xüsusiyyətləri görüb, onun təlim-tərbiyəti ilə məşğul oldu. Mirzə Tağı o zaman Mazandaran və Rüstəmdardan ibarət olan bütün Təbəristan vilayətinin vəziri məqamı ilə sərbülənd oldu və oraya yollandı. Tapşırılan bütün işlərdə, xüsusən imarətlərin inşasında, məmləkət işlərinin nizamlanmasında, yolların çəkilməsində və başqa qulluğlarda sə'yinə və bacarığına görə şahın diqqətini özünün cəlb etdi, gün-gündən özünə savad və bacarığını artırdı. İzzət və e'tibarının çoxlu-
**s.1093** ğundan həsəd və qibtəyə səbəb oldu, şah məclisindəki bütün
**(767)** yaxın şəxslərdən ucada dayandı. O həzrətin vəfatınadək bu vəzifədə qaldı və xidmətləri həmişə şah tərəfindən bəyənildi.

**Xorasan vəziri Xacə Cəlaləddin Əkbər Quryani:** O, Herat vilayətinin Qüryan mahalı ə'yanlarındandır. Özbəkiyyənin işğalı zamanı qızılbaşların dövlətxahı olmaqla ittihamlandırılaraq, çoxlu əzab-əziyyətə düçar olmuşdu. Xorasanın şah tərəfindən fəthindən sonra göstərdiyi dövlətxahlığının müqabilində şəfəqqət və tərbiyətə layiq görüldüyü o yerin divan xidmətinə göndərildi. Layiqli işlərinə görə nəvazişləndirilərək bütün Xorasan məmləkətlərinin vəziri vəzifəsinə yüksəldi. Çoxlu mülk sahibi idi. Asimanın qəzavü-qədəri nəticəsində görmə qabiliyyəti zəiflədi, gözləri tamamilə kor oldu, amma ə'lahəzrət onun xidmətlərini nəzərə alaraq, kor-

luğuna əhəmiyyət vermədi və öz şahanə inayətini göstərdi. Görmədiyinə baxmayaraq o, yenə də vəzarət işlərinin nizamlanması ilə məşğul oldu, tutduğu vəzifə şahın diqqət və iltifatından əlindən alınmadı. O, kor ola-ola on iki il bütün Xorasanın vəzirliyini apardı. Bununla da qədim vaxtlardan bu günədək hələ buna oxşar hadisə baş verməmişdi ki, o haqqı tapdamayan, bəndə sevən şəhriyarın dövründə zahir oldu.

Başqa məmləkət vəzirlərinin zikrinin elə bir əhəmiyyəti
s.1093 yoxdur.

### KİTABIN XƏTMİNDƏ BİR NEÇƏ SÖZ (FƏQƏRƏ)

Allaha şükür olsun ki, ikinci səhifədən başlayaraq müzəffər xosrovun (Şah Abbasın – *Ş.F.*) əhvalatından və tayı-bərabəri olmayan (bihəmal) mərhum Şah Abbasın hakimiyyəti dövründəki hadisələrdən bəhs edən "Aləmara" kitabının bu nüsxəsi yazılıb sona yetdi. Təbii ki, məqsədə dəxli olmayan bə'zi gərəksiz məsələlər bu kitabda yazılmadı, ona görə ki, alçaq xasiyyətli adamların e'tirazlarına səbəb ola bilərdi.

İndi bunun vaxtı gəlib çatmışdır ki, söz düzən qələm hərzə-hərzə yazmaqdan bezərək və öz düzgün bəyan dilini ən xoş kəlamlarla bəzəyərək, [bu misrada deyildiyi kimi]:

*"Gül suyu, həm də ki müşk ətiriylə"*[1]

sözlərini yazaraq bu dövlətin davamı və islam padşahı səltənətinin möhkəmlənməsi, əhalinin ümidgahı (kəhf) olan cahanı işıqlandıran ayını ədalət asimanını, aləmi işıqladan məmləkət günəşini, uca qədir-qiymətə, əzəmətə və hökmranlığa malik imkanlı və qadir xaqanı, qələbə iqballı dövlət taxtının layiqli sahibini, bütün cahan hökmdarlarının xülasəsi olan aləmi bürüyən şah bayraqlarının bayraqdarını, şahənşahlıq taxtının bəzəyini, vücud dəryasının gövhərini, qüdrətli sultanı, hünərpərvər şəhriyarı, miskinlərin pənahını, mərhəmət və səxavəti ilə yaraşıq tapan, rəhm və birlik şüarı ilə bəzənən [padşahı] ehtiyaclı adamların suallarının cavablarını verərkən

[1] Misranın farscası:
"Be buye-moşke-moəttər,be abe-gol mərşuş"

**Beyt**

*Dili "yox" kəlməsini bircə dəfə bildirdi*
*Dedi ki, "Əşhədə ən lailahə illəllah"*[1]

[deyən Şah Səfini] riyasız dualarla yazıya aldı.

[Pərvərdigar] sultan oğlu sultan oğlu sultan və xaqan oğlu xaqan oğlu xaqan, Allahın kömək etdiyi və qoruduğu[2] Şah Səfi Bahadır xan Əbu Müzəffər Əbu Mənsur əs-Səfəvi əl-Musəvi Bahadır xanın canını sağ-salamat etsin, onun böyük dövlətinin parıltısını qiyamət və mizan gününədək tazə və tər saxlasın[3] [bu kitabın] birinci səhifəsinin əvvəlində yazıldığı kimi bu varaqları onun yüksək adı ilə zinətləndirsin, bizi şadiman etsin. Ey Xudavənd, bu şəhriyarlıq bostanının yeniyetməsini və padşahlıq gülşəninin təzə nihalını əzəli lütf və pozulmaz, gözəl alın yazısı ilə hüsni-təqdiri ilə öz ali ata-babasının hökmranlıq taxtında bərqərar et, onu uzun illər bu günki kimi hakimiyyətdə saxla, əhalini onun mərhəmət və məhəbbəti (atefət) altında asudə et, yeri cənnət olan, ölkələr alan ulu əcdadının yadigarı kimi ona öz təbii ömrünü əta et, rahət yaşamasını tə'min et, onu din və dövlət düşmənləri
**s.1094** üzərində müzəffər və qalibiyyətli et.

**Beyt**

*Elə et, yoxsulun qeydinə qalsın,*
*Din düşmənlərinə qələbə çalsın.*[4]

---

[1] Beytin farscası:

Nərəfte "la" be zəbane-mobarəkəş hərgez
Məgər dər "Əşhədə ən lailahə-illəllah".

**Qeyd:** Bu beytin müəllifi padşahın dilindən heç kimə "yox" sözü çıxmadığını, onun fəqət bir ifadədə – "Əşhədə ən la-ilahə-illəllah"da la-yəni "yox" kəlməsi işlətdiyini bədii şəkildə belə ifadə etmişdir – *Ş.F.*

[2] Ərəbcəsi: "əl-moəyyed min indi-l-lahi əl-məliku-l-mustəan"

[3] Ərəbcəsi: "Cələdə təlalə dovlətil – ozma ila yovmil – həşri və – l mizani"

[4] Beytin farscası:

To tovfiqe-meskin nəvaziyəş deh,
Bər ə'daye-din sərfəraziyəş deh.

İzzət sarayının etibarlı (əmin) adamları, [şah] məclisinə yaxın yüksək rütbəli şəxslər, əhalinin bütün təbəqələri o səadətli, sədaqətli, ehtiramlı, qədir-qiymətli və aliməqam xosrovun ömür və dövlətinin çoxalmasını, bu yüksək qədir-qiymətli [padşahın] cah-cəlalının və həşəmətinin artmasını (təsaof) arzulayırlar. Qoy onun dövləti davamlı olsun. [Ey Xudavənd] ona həyat ləzzəti (təmətto) və firavanlıq (bərxordarı) bəxş et, amin, ya Rəbbül-aləmin.

Bu kitabın birinci səhifəsinin əvvəlində belə yazılmışdı: Bu "Tarixe-aləmara"nın yazılmasından sonra əgər ömür vəfa edərsə və dolanışıq xatirinə bütün insanların şərafətli vaxtlarını əllərindən alan fürsət ələ düşərsə, qədimdə və son vaxt-
**s.1095** larda yaşayan fazil adamların bəyan səhifəsinə yazdıqları
**(767)** nadir hekayətlərdən və qəribə rəvayətlərdən ibarət "Kitabe-İfadət", "Entesabe-cameəl-hekayat", "Əcayebül-məxluqat", "Heyvətül-həyavan", "Kitabe-fərəc bə'dəl-şeddət", "Gülüstan", "Nigaristan", "Əxlaqe-Nasiri", həmçinin Mohseni və Cəlali və onlar kimi başqa [ustadların] hər birinin bir xəzinə olan kitablarından istifadə edib, bu kitabın tamamlanması vaxtı, yaşımın yetmişə çatdığı bir zamanda, bəsirət gözü ilə gördüklərimi və dünya görmüş qoca adamlardan eşitdiklərimi bir yerə toplayıb, iste'dad sahiblərinin hər məhsulundan bir salxım (xuşe) və hər fazil kəsin nemət süfrəsindən (mayede) bir çimdik bəhrə götürüb, öz binəvalıq ətəyimi dolduraram, yığcam bir yazı (məcmue) yazıb onu bu səhifəyə əlavə edərəm (enzeman), bu pərişan (aşofte) məqalələr nəhayət o ali qədirli, dostpərvər, sadiq adamları qiymətləndirən şahın diqqəti sayəsində başa çatar, həmin zaman şəhriyarının, geniş ürəkli (dəryadel) qaanın və bu əbədi dövlətin e'tibarlı adamlarının izzəti ilə hümayun kitabxanaya təhvil verilər, iste'dad səhrasında sərgəran olan bu "imkansız adamdan"[1] "mənim əvəzimə"[2] yadigar qalar. Bu vaxta qədər o, (İskəndər Münşi – *Ş.F.*) bu qiymətli kitabın yazılması ilə məşğul olduğu üçün həmin işi görməyə fürsət tapa bilmədi, çünki kitab yazan şəxs gərək bütün işlərdən azad, ürəyi rahat və cismani həvəs-

[1] Ərəbcəsi: "qəlilu-l-bəzaəti"

[2] Ərəbcəsi: "niəmu-l-bədli"

lərdən asudə halda [baş verən hadisələri] bir yerə toplayıb kitabını başa çatdırsın, o həzrətin zamanındakı bütün ustad şairlər və bəlağətli söz sahiblərindən istifadə etməklə yazı yazsın və kitabın xatimə hissəsini onlarla bəzəsin.

Bu "Aləmara" kitabının tamamlanması vaxtı elə məsələlərə aid mə'lumatlar (yəni Şah Səfiyə aid mə'lumatlar – *Ş.F.*) hələ toplanmadığı üçün bu işi başqa bir vaxta həvalə etdim. Əgər bu gündən sonra bivəfa ömür vəfa edərsə və İlahinin köməyi yar və mədədkar olub, yuxarıda işarə olunduğu kimi, ürəyim istəyən fürsət ələ düşərsə, xatircəmliklə "arzu etdiyim"[1] o kitabın (nüsxə) tərtibinə başlayaram. Yoxsa, [boş yerə] mə'lumat toplamaqdan nə çıxar, [yaxud] sınıq şüşədən nə alınar? Ağıl (fetnət) və zəka sahiblərindən üzr istəyirəm.

**Misra**

*Puç olan arzularımdan heyfa!*[2]

s.1095 Bu mətlə' də bu həqir bəndənin vəziyyətinə münasibdir.

**Beyt**

*Yüz və'də verib etmədi yarım vəfa mənə,*
*Yoxdur zülm ki, etməsin o bivəfa mənə.*[3]

Ümid olunur ki, bu qəribə və qeyri-adi iqbal kitabı (şegərfnameye-eqbal) kinli (heqd) və həçsədkar füzul adamların e'tirazından uzaq olsun. Əgər səhv və qüsur olarsa islah etsinlər və eyb görən gözlərini ondan yumsunlar.

*Yaxşı qəbul et bu bitən naməni,*
s.1096 *Eyb görüb başlama həngaməni.*[4]

---

[1] Ərəbcəsi: "fə huvə-l-mətlubu"

[2] Misranın farscası:
Ey bəsa arizu ke xak şode

[3] Beytin farscası:
Səd vəde kərd yar-o yeki-ra vəfa nəkərd,
Bər mən çe covr bud ke an bivəfa kekərd.

[4] Beytin farscası:
Pəzirayi xubi şov in name-ra,
Məkon gərm dər eyb-həngame-ra.

## ŞƏRHLƏR[1]

* s.3 *Bismillahir-rəhmanir-rəhim.* Bismillah insanın bütün hərəkətlərində, sözlərində Allahla əlaqəsini təmsil edərək, ona hər bir işini Rəbbin adı ilə başlamağı aşılayır ki, həyatın bütün sahələrində insan əməli Allaha olan inamla əhatə olunsun.

*"Allah"* kəlməsi ərəb dilində *"əl-ilah"* – sözündən götürülmüşdür. Bu sözün mənası *"ibadət olunan"*, yaxud *"dərk olunmayan"* deməkdir. Yəni, Allah-təala insan ağlını heyrətdə qoyaraq dərk edilməyən bir varlıqdır. O müqəddəs *zatı* heç təsəvvür belə etmək mümkün deyildir. *Çünki Allah-təalanın zatı haqqında* hətta ən dəqiq təsəvvürlər də həqiqətdən uzaq olması ilə yanaşı, əslində bizim təxəyyülümüzün məhsuludur və *Yaradana* heç bir aidiyyəti yoxdur. Məhz buna görə də, insanlara yalnız *Onun adlarını* zikr etmək, amma müqəddəs zat haqqında düşünməmək tövsiyyə olunmuşdur. *İmam Cəfər Sadiq* (ə) buyurmuşdur: "Allahın zatı haqqında deyil, yaratdıqları haqqında düşünün". İnsan yalnız Allahın təcəlla etdiyi məxluqlar haqqında düşünməklə Rəbbin qüdrət, elm, hikmət və s. kamil sifətlərini, adlarını müşahidə edib Onu tanıya bilər.

*Rəhman və Rəhim sifətləri.*

Rəhman və Rəhim *Allah-təalanın rəhmətinə* işarə edən adlarıdır. *Bismillah* kəlməsində Allah-təalanın *məhz Rəhman və Rəhim* adlarının digər gözəl adlarından fərqli olaraq önə çəkilməsi bütün aləmlərin *İlahi rəhmətdən* yarandığına işarədir. Yaradılış aləmi bütövlükdə öz varlığını O müqəddəs zatın rəhmətindən almış, hər bir varlıqda *Onun rəhmət imzası* özünü göstərməkdədir.

---

[1] "Tarixi-aləmarayi-Abbasi" əsərinin Tehran çapının sonunda dr. İrəc Əfşar tərəfindən nədənsə şərhlər yazılmamışdır. "Göstəricilər" ilə kifayətlənən alim, əlbəttə, faydalı bu işi səbr və diqqətlə yerinə yetirmişdir. Biz isə bu kitaba şərh yazmağı vacib bildik, böyük zəhmətə qail və bunun öhdəsindən gəlməyə nail olduq. – *Ş.F.*

Rəhman və Rəhim kəlmələrinin hər ikisi ərəb dilində "rəhmət" sözündən yaranmasına baxmayaraq onlar müəyyən qədər bir-birindən fərqli məfhumlardır. Təfsirçilərin rə'yinə əsasən *Rəhman sözü* Allah-təalanın *ümumi rəhmətinə* işarə etdiyi halda *Rəhim sözü* Allahın *xüsusi rəhmətini* bildirir. Yəni Allah-təalanın ümumi olan *"rəhmətür-rəhmaniyyə"* və xüsusi olan *"rəhmətür-rəhimiyyə"* olaraq *iki növ* rəhməti vardı. Allah-təala bütün varlıq aləmini birinci növ rəhmətilə yaratmış və bu dünyada Ona itaət edənlərə də, ona qarşı çıxanlara da rəhm edər. Məhz buna görə də bu növ rəhmət ümumi rəhmət adlanır. İkinci növ rəhmət isə *həm bu dünyada, həm də axirətdə* yalnız Ona itaət edən bəndələrinə aiddir. Allah-təala buyurub: "De: Kim zəlalət içindədirsə, qoy Rəhman ona uzun möhlət versin…" (Məryəm surəsi, ayə 75). "Sizi zülmətdən nura çıxarmaq üçün mələklərlə birlikdə sizə mərhəmət bəxş edən Odur. Allah mö'minlərə rəhm edəndir!" (Əhzab surəsi, ayə 43).[1]

*Xacə Abdullah Ənsari*[2] "Bismillahir-rəhmanir-rəhim" ifadəsinin [Allah] bəndələrinin sərmayə bəsti (*mayeye-bəst*) olduğunu bildirir və yazır: "Təriqət sahibləri[3] (xodavəndane-təriqət) söyləmişlər: "Bismillahir-rəhmanir-rəhim"in mə'nası belədir: "Ey mənim qullarım (*rəhi*), mənim bəndələrim, mənim adımı eşitcək şad olun, halımın dəyişkənliyi (*qeyre-hal*) sizi [dərdə] giriftar etməsin. Mənim adımla aram olun. Mənim sizə zamin olduğuma *(zəmman)* arxalanın. Məni

---

[1] Bu şərh Mir Cəlal Zəki tərəfindən yazılmış və bu sətirlər müəllifinə təqdim olunmuşdur.

[2] Xacə Abdullah Ənsari Herəvi (1006-1088)-Böyük alim və ariflərdən sayılır. Hədis elminin mükəmməl bilicisi olmuşdur. Əsasən Heratda yaşamış, onlarla dini, tarixi, fəlsəfi və ədəbi əsər yazmışdır.

Bu sətirlər müəllifi Əfqanıstanda işlədiyi müxtəlif illərdə onun və başqa məşhurların (Cami, Nəvai, Hatifi və b.) məzarlarını ziyarət etmişdir.

Xacə Abdullah Ənsarı Heratın "Qazərgah" adlanan məzar kompleksinin ən yuxarısındakı qəbir içrə uyumaqdadır.

[3] Xodavənd və Xodavəndgar istilahları təkcə Allaha deyil, padşaha, sahibə və malikə də aid olmuşdur (Bax: M.Moin. Fərhənge-farsi, I cild, Tehran, hicri 1378, səh.1401).

xatırlayıb sakitləşin, mənim haqqımı ürəyinizdən çıxarmayın, mənim əhd-peymanımı canınızda saxlayın. Ey mənim bəndəm, düzgünlüyün (*rasti*) olduğu hər yer bizim namimizə mövcuddur. Hər yandakı şadlıq *(şadi)* bizim danışığımız *(söhbət)* sayəsindədir. Hər tərəfdəki eyş-işrət bizim xatirimzdəndir. Hər yerdəki [can] yanğısı (*suz*) bizim yanğımızın zikridir. Bu günün mülkü bizim xətir-hörmətimizə görə mövcuddur. Sabahın mülkü isə bizimlə görüşünüz və bizi tapmağınızdır. Nə gözəl səadət və nə qəşəng əzəmətdir (*cəlalət*) ki, bəndə heç bir bəhanə və illət olmadan bizim yanımıza gəlsin. Ey insaniyyətin gözəgörünməz nöqtəsi (*nöqteye-ensaniyyət*), ey bəşəriyyətin şifatı, öz pənahının təqvasından [bərk] yapış. Bəndələrin həyatının asılı olduğu Onun xidmətçisi (*molazem*) ol, bəndələrin nicatı (*rəstgari*) Ondandır! **(Bax: Dr. Seyid Cə'fər Səccadi. Fərhənge-estelahat və tə'birate-erfani, Tehran, h. 1370, səh. 195 (Fars dilində).**

Bismillahir-rəhmanir-rəhim!

İslamdan sonrakı bütün dəyərli kitablar, divanlar, hökmlər, fərmanlar bu üç sözlə başlayıb. Ulu Nizami Gəncəvi "Məxzənül-əsrar"ın birinci beytinin ikinci misrasını, əlbəttə, bu üç sözlə deyib:

*"Bismillahir-rəhmanir-rəhim*
*Həst kelide-dəre-gənce həkim"*[1]*

*Ustad Nizamidən* sonra gələn bir sıra böyük (hətta kiçik) şairlər də "Bismillahir-rəhmanir-rəhim" deməyə ehtiyac duymuşlar. Məsələn:

*"Bismillahir-rəhmanir-rəhim*
*Xotbeye Qodsəst be molke-qədim"[2]*

(Əmir Xosrov Dehləvi)

---

1 *Beytlərin ikinci misralarının dilimizə tərcüməsi:
Layiq olur ki, açə gənci-həkim.

2 Qüdsi-hədisdir bau cahanda qədim.

*“Bismillahir-rəhmanir-rəhim*
*Həst səlaye-sәre-xane-kərim”*[1]
(Əbdürrəhman Cami)

*“Bismillahir-rəhmanir-rəhim*
*Herze-əmanəst ze dive-rəcim”*[2]
(Əbdi bəy Şirazi)

*“Bismillahir-rəhmanir-rəhim*
*Dad məra dövləte-təb'e-səlim”*[3]
(Şahin Fazil)

*“Bismillahir-rəhmanir-rəhim*
*Nam-o neşanəst ze helme-həlim””*[4]
(Əlihəsən Müxlis)

*“Bismillahir-rəhmanir-rəhim*
*Ne'məte-amməst ze xane-nəim”*[5]
(Gülbala Fənai)

*“Bismillahir-rəhmanir-rəhim*
*Gövhəre-fərdəst ze gənce-əzim”*[6]
(Mir Cəlal Zəki)

** s.3 *Səmədiyyət* – “Səməd” sözündəndir və mə'nası *“ehtiyacsız*”, yaxud *“var olan”, “qəni”* deməkdir. Səmədin başqa anlamı “başqalarının” Ona (Allaha-*Ş.F.*) ehtiyacları olduğunu vurğulamaqdır. *Səməd sözü həm də Allah-taalanın adlarından biridir* (Bax: dr. Məhəmməd Moin. Göst.lüğət, II cild, Tehran, səh. 2162).

1 Süfrəyə də'vətdir, edibdir kərim.
2 Hifz qılar, şeytanı eylər rəcim.
3 Verdi mənə lütf ilə təb'e – səlim.
4 Helmdir, etdi onu tə'lim həlim.
5 Süfrədir, açmış hamı üçün nəim.
6 Dürrdü, vermiş bizə gənce-əzim.
(Bu misralar Mir Cəlal Zəki tərəfindən dilimizə tərcümə edilmişdir).

1939

* *İsgəndər Münşi* haqqında müxtəsər mə'lumat: "Səfəvi
s.4 tarixçisi, şair və xəttat. Gəncliyində *Məhəmməd Xudabəndənin* (1578-1587) divan katibi, sonralar *I Şah Abbasın* (1587-1529) "böyük katibləri"ndən və saray tarixçisi olmuşdur. İsgəndər bəy *I Şah Abbasın sarayında* maliyyə işlərinə də baxırdı. O, vəzifəsi ilə əlaqədar I Şah Abbasın hərbi yürüş və səfərlərində iştirak etmiş, fars dilində *"Tarixi-aləmarayi-Abbasi" ("Dünyanı bəzəyən Abbasın tarixi")* əsərini yazmışdır. Əsərdə müəllif *Azərbaycanın tarixinə* (qızılbaş tayfaları, I Şah İsmayıl tərəfindən Gülüstan qalasının mühasirəsi (1500), Səfəvilərin hakimiyyətə keçmələri, Cəlalilər hərəkatı, Şirvan (1537, 1547-48), Təbriz (1571-73), Qəzvin (1576), Talış (1580-81), Urmiya (1610), Salmas (1616), Gürcüstan və Kürdüstandakı üsyanlar, I Şah Abbasın hərbi islahatları, Səfəvilər dövlətinin daxili və xarici siyasəti,Azərbaycanın iqtisadi-siyasi həyatı, Səfəvi-osmanlı müharibələri, Krım tatarlarının Azərbaycana yürüşləri, İrəvan, Culfa, Naxçıvan və s. şəhərlərdən əhalinin köçürülməsi, Azərbaycanda feodal-torpaq sahibliyi, Səfəvilər dövründə Azərbaycan dilinin rolu və s.) *xüsusi yer vermişdir.*

M.F.Axundov *"Aldanmış kəvakib"* hekayəsini İsgəndər Münşinin əsərinin motivləri əsasında yazmışdır. "Tarixi-aləmarayi-Abbasi" əsəri Azərbaycanın XVI-XVII əsrlərdə ictimai, iqtisadi, siyasi və mədəni həyatı haqqında ilk mənbə kimi qiymətlidir. İsgəndər bəy Münşi tarixi hadisələri hakim sinfin mövqeyindən işıqlandırmış, xalq çıxışlarına mənfi münasibət bəsləmişdir (Bax: Azərbaycan Sovet Ensiklopediyası /ASE/, IV cild, Bakı, 1980, səh. 541).

** *Siyaq* – Hesab fənni, yazıda xüsusi işarələr tərzi yaratmaq
s.4 qabiliyyəti.

* *Həzrət Məhəmməd* – Ləqəbi Əmin, künyəsi Əbülqasim,
s.5 atasının adı Abdullah, anasının adı Aminə olan Məhəmməd peyğəmbər Məkkədə doğulmuş (miladi 570), Mədinədə vəfat etmişdir. Onun iştirakı ilə Bədr, Uhud (Ühüd), Xəndək, Xeybər, Mutə, Huneyn, Təbuk müharibələri baş vermişdir. Peyğəmbər miladi 633-cü ildə vəfat etmişdir (Bax: Seyid Həsən Musəvi. Din tə'limləri, Bakı, 2006, səh. 70-98).

**
**s.5** *On iki imam* – 1. *İmam Əli* – ləqəbi Əmirəl-möminin, künyəsi Əbülhəsən olan İmam Əli hicrətdən 23 il əvvəl doğulmuş (m. 598), siyasi fəaliyyətdə olmuş, hicri 40-cı ildə xaricilərdən olan İbn Mülcəm adlı bir şəxs tərəfindən qətlə yetirilmişdir (m. 661). Həmin kitab, səh. 103.

2. *İmam Həsən* – Ləqəbi Müctəba, künyəsi Əbu Məhəmməd, babası peyğəmbər, atası imam Əli olan İmam Həsənin ömrü 48 il olmuş, hicri 3-cü ildə (m.624) doğulan İmam hicri 50-ci ildə (m. 669) zəhərləndirilib vəfat etmişdir (Həmin kitab, səh. 128).

3. *İmam Hüseyn* – Ləqəbi Seyyidüş-şühəda, künyəsi Əbu Abdullah, babası peyğəmbər, atası İmam Əli olan İmam Hüseyn hicri 4-cü ildə (m.626) doğulmuş, 57 il yaşamış, hicri 61-ci ildə xəlifə Yezidin əmri ilə şəhid edilmişdir (Həmin kitab. səh. 139).

4. *İmam Səccad* – Adı Əli, ləqəbi Səccad və Zeynül-Abidin, atası İmam Hüseyn olan İmam Səccad hicri 95-ci ildə (m.713) Hişam ibn Əbdülməlikin əmri ilə zəhərləndirilmişdir (Həmin kitab. səh. 152)

5. *İmam Məhəmməd Baqir* – Ləqəbi Baqir, künyəsi Əbu Cə'fər, atası Həzrət Səccad olan imam 59 il yaşamışdır. O, hicri 58-ci ildə (m. 676) doğulmuş, hicri 114-cü ildə (m.743) Hişamın əmri ilə zəhərləndirilib şəhid olmuşdur (Həmin kitab. səh. 163, 171).

6. *İmam Cə'fər Sadiq* – künyəsi Əli Abdullah, atası Məhəmməd Baqir olan imam h. 80-ci ildə (m. 704) doğulmuş, h. 148-ci ildə (m. 774) Abbasi xəlifəsi Mənsurun əmri ilə zəhərləndirilmişdir (Həmin kitab, səh. 173).

7. *İmam Musa Kazim* – künyəsi Əbülhəsən, atası İmam Sadiq olan imam h. 128-ci ildə (m. 745) doğulmuş, h. 182-ci ildə (m. 799) Abbasi Xəlifəsi Harunun əmri ilə zəhərləndirilmişdir (Bax: Həmin kitab. səh. 184).

8. *İmam Rza* – adı Əli, ləqəbi Rza, künyəsi Əbülhəsən, atası İmam Musa Kazim olan imam 21 il imamlıq etdikdən sonra 55 yaşında ikən h. 203-cü ildə (m. 818) Abbasi xəlifəsi Mə'mun tərəfindən Məşhəd şəhərində zəhərləndirilmişdir (Həmin kitab. səh. 197).

9. *İmam Məhəmməd Təqi* – ləqəbi Təqi və Cavad, künyəsi Əbu Cə'fər, atası İmam Rza olan imam 25 yaşında ikən h. 220-ci ildə (m. 835) xəlifə Mö'təsimin əmri ilə zəhərləndirilmişdir (Həmin kitab. səh. 211).

10. *İmam Əliyyən Nəqi* – Adı Əli, ləqəbi Hadi və Nəqi, künyəsi Əbülhəsən, atası İmam Məhəmməd Təqi olan imam h. 214-cü ildə (m. 829) doğulmuş. H. 254-cü ildə (m. 868) şəhid olmuşdur (Həmin kitab. səh. 220).

11. *İmam Həsən Əsgəri* – künyəsi Əbu Məhəmməd olan imam h. 232-cxi ildə (m. 847) doğulmuş, h. 260-cı ildə (m. 874) xəlifə Mö'təmid tərəfindən şəhid edilmişdir (Həmin kitab. səh. 229).

12. *İmam Mehdi* – Adı Məhəmməd, ləqəbi Hadi, Mehdi və Qaim, atası İmam Həsən Əsgəri olan imam h. 256-cı ildə (m. 870) doğulmuş, 5 yaşında ikən qeyb olmuşdur (I qeybət). Həmin kitab. səh. 238.

*** **s.5** *Həzrət Heydər* – İmam Əlinin ləqəblərindən biridir.

**** **s.5** *Əhli-beyt* – Məhəmməd peyğəmbər, qızı Fatimə və on iki imam.

***** **s.5** *Nəcəf – yaxud "Nəcəfe-əşrəf".* İraqe-Ərəbin mö'təbər və mühüm şəhərlərindən biri. Bu şəhərin şöhrəti və əhəmiyyəti birinci imam olan *həzrət Əlinin* qəbrinin orada yerləşməsi ilə əlaqədardır. Məhz buna görə də, Nəcəf şəhəri uzun əsrlərdir ki, *dini elmlərin və şiə fiqhinin mərkəzidir.* Kərbəladan 75 km. aralı olan Nəcəfdə çoxsaylı mədrəsələr vardır (Bax: dr. Məhəmməd Moin. Göst. lüğət, VI cild, səh. 2108).

* **s.6** *Musəvi və Hüseyni nəsilli, Heydər nəsəbli* – a) Musəvi-ümumiyyətlə *Musa peyğəmbər* nəslinə mənsub adamlara "musəvi" demişlər və yəhudi dini "musəviyyət" adlanmışdır. Burada gətirilən "musəvi" ifadəsində isə *yeddinci imam Musa ibn Cə'fər* nəzərdə tutulmuşdur (Bax: dr. M.Moin. Göst. lüğət. IV cild, səh. 4434);

b) *Hüseyni*-Hüseyn nəslinə mənsub şəxs (burada I Şah Abbas nəzərdə tutulur – *Ş.F.*). *Hüseyn ibn Əlinin* tə'ziyəsində mərsiyə oxunan təkyə "hüseyniyyə" adlanır (Bax: dr. M. Moin. Göst. lüğət, I cild, səh. 1357; c) Heydər nəsəbli –

"Heydər" sözünün mə'nası farsca *"şir",* ərəbcə *"əsəd"dir.* Burada isə Əli ibn Əbi Talebin ləqəbinə işarədir (Bax: dr. Məhəmməd Moin. Göst. lüğət. I cild, səh. 1380).

**
**s.6** *Mortəza Abbas* – "Mortəza" sözünün mə'nalarından biri *"bəyənilən"* deməkdir və İmam Əlinin ləqəblərindən biridir. Bəyənilən və qəbul olunan məşhur seyidlərə *"mortəzəvi"* və *"mostəfəvi"* deyilmişdir (Bax: dr. M.Moin. Göst. lüğət, III cild, səh. 3992).

*
**s.7** *İbarə və istiarə* – a) *İbarə, yaxud ibarət* – Yuxu yozumu, şərh etmək, söyləmək, bəyan etmək, inşa mə'nalarında işlənir; b) *İstiarə* – Məcaz (metafora) növlərindən biridir (Bax: Nəyyirzaman Səqəfi. Farsca-azərbaycanca lüğət, I cild, Tehran, 1999, səh. 64; M.Moin. Göst. lüğət, I cild, səh. 251).

*
**s.8** *Dəbistan* – "dəb", yaxud "pəb" – yazı yazmaq deməkdir. Yazıb-oxumaq öyrədilən yer isə "dəbistan" ("məktəb") adlanır. Bu söz ibtidai mədrəsə mə'nasını özündə ehtiva edir (Bax: dr. M.Moin. Göst. lüğət, II cild. səh. 1496).

**
**s.8** *Əbcədxan* – *"Əbcəd oxuyan tələbə"* deməkdir. Əbcəd-hər birisi müəyyən rəqəmi göstərən *ərəb əlifbasıdır.* Əbcəd hesabının hərfləri və onların rəqəmləri bunlardır:

(*əbcəd*) sözünün hərfləri – əlif = 1; b =2; c = 3; d = 4.

(*həvvəz*) sözünün hərfləri – h (həvvəz) = 5; v = 6; z = 7;

(*hotti*) sözünün hərfləri – h (hotti) = 8; t (ta) = 9; i = 10.

(*kələmən*) sözünün hərfləri – k = 20; l = 30; m = 40; n = 50.

(*səfəs*) sözünün hərfləri – s (sin) = 60; ə (əyn) = 70; f = 80; s (sad) = 90.

(*qərəşət*) sözünün hərfləri – q = 100; r = 200; ş = 300; t (te) = 400.

(səxxez) sözünün hərfləri – s (se) = 500; x = 600; z (zal) = 700

(zəzzeğ) sözünün hərfləri – z (zad) = 800; t (ta) = 900; ğ = 1000.

(Bax: Nəyyerzaman Səqəfi. Göst. lüğət, I cild, səh. 6).

***
**s.8** *Təkyəgah* – "Təkyə", ümumiyyətlə, *nəyəsə söykənmək, arxalanmaq, yoxsulların sığındıqları* yer mə'nalarını verir, "təkyəgah" isə həmin yerə gələrək, tə'ziyə, ya başqa məra-

simlər icra olunan *məkanda olmaq mə'nasındadır* (Bax: dr. M.Moin. Göst. lüğət, I cild, səh. 1129).

* s.10 *Gəncəli arif* – İsgəndər bəy Münşi burada "Gəncə arifi" ifadəsi altında *Nizami Gəncəvini* görür.

*Arif* – elə insandır ki, Allah onu öz "zatı"nın (vahid varlığının) şahidi (şühud) məqamına gətirib çıxarmışdır və *həmin məqam elm və mə'rifət yolu ilə mümkündür.* Bə'zi fikrə görə, *arif-fənanı (yoxluğu) Həqqdə (Allahda) tapan*, lakin hələ *bəqabillah (ən ali mərtəbədən Allahı seyr etmək) məqamına gəlib-çatmayan insandır.* Arif – öz varlığını bu dünyada məhvə və fənaya uğratmış şəxsdir. *Həqiqi arif ən kamil insandır.*

Allahı seyr etmək isə irfanda *"sifat"* (sifətlər) adlanır ki, *me'racda olan Məhəmməd peyğəmbər ən böyük arifdir* (Bax: D-r Seyid Cəfər Səccadi. Fərhənge-estelahat və təbirate-erfani, səkkizinci çapı, Tehran, 1386, səh. 199, 565-566).

* s.12 *Səhifə* – bu söz bizim hal – hazırda başa düşdüyümüz "səhifə" mənasında anlaşılmamalıdır. Orta əsr salnamələrində, o cümlədən İsgəndər bəyin əsərində səhifə *"hissə"* mə'nasındadır, məsələn "Taixe-aləmaraye-Abbasi" əsəri *iki "səhifə"dən* ibarətdir. *Dr. M.Moin* "səhifə" sözünü belə açıqlayır: Namə, kitab, varaq, kağız, yerin səthi, aldadıcı sübhün (söbhe-kazib) işartısı, aləmi aydınladan günəş, solğun yarpaq, aşiqin rüxsarı (Bax: dr. M.Moin, Göst. əsər, II cild, səh. 2135). Göründüyü kimi, dr. M.Moin "səhifə" sözünün hissə, yaxud cild mə'nasını *verməmişdir.*

** s.12 *Cəm məqamlı padşah* – İsgəndər bəy Münşi bu yüksək ifadə altında Səfəvi dövlətinin ikinci hökmdarı *I Şah Təhmasibi* nəzərdə tutmuşdur.

*** s.12 *İsmayıl Mirzə* – I Şah Təhmasibin taxtına əyləşən II Şah İsmayıldır.

**** s.12 *Sultan* – hökmdar, hökmran, padşah, dövlət, qüdrət və qüvvət sahibi, qoşun başçısı və s. (Bax: M.Moin, Göst. lüğət, II cild, səh. 1911). Sultan ləqəbi vaxtilə Bağdad və Şam valilərinə aid olunurdu. Bə'zən də *xəlifələrə* sultan deyərdilər. Sultan ifadəsi "səltənət" sözündən götürülmüşdür. Sultan

rəsmi rütbə olaraq *Mahmud Qəznəvi bin Səbüktəkinin* hakimiyyəti zamanı tanınmışdır. Hicri dördüncü əsrin sonlarından işlənməyə başlayan bu titul sonralar *Səlcüqilər, Eyyubilər, Osmanlılar* və sairədən *türk, kürd, çərkəs* və s. hökmdarlara məxsus olmuşdur (Bax: M.Z.Pakalın. Osmanlı tarix deyimləri və terminləri sözlüyü, İstanbul, üç cilddə, III cild, 1954-1956, səh.264). Azərbaycanda monqol dövrü də daxil olmaqla bu titul *XVIII əsrədək* qüvvədə qalmışdır. XV-XVI əsrlərdə Azərbaycan hökmdarlarının "şah", "padşah" ifadələri ilə birlikdə "sultan" titulu daşımasına baxmayaraq, bu titul *şahzadə və bəzi əmirlərə* də aid edilmişdir. Maraqlıdır ki, bə'zi *şahzadə xanımların adların da* "sultan" sözü əlavə edilmişdir. Həsən bəy Rumlu göstərir ki, şirvanşah *Fərrux Yəsarın Gövhər Sultan adlı* qızı Yaqub Ağqoyunlunun arvadı idi.

Səfəvilər dövründə bu titulun mə'nasını əmirlərin titulu kimi izah edən H.H.Zərinəzadə doğru deyirsə də, lakin məsələni bir qədər qəlizləşdirir, sultanı xanın və ya "ağa"nın tabeliyində olan şəxs hesab edərək yazır: "Səfəvilər dövründə el başçılarına *xan* və onun əlaltısına *sultan və ya ağa* deyilirmiş" (H.H.Zərinazadə. Fars dilində Azərbaycan sözləri, Bakı, 1962, səh. 290). Bu fikirlə qətiyyən razılaşmaq olmaz. Dövr tarixinin ilkin və əsas mənbələrinin heç birində bunu təsdiq edən dəlil yoxdur. Sultan və xan titulu daşıyan əmirlər icra etdikləri vəzifəyə görə biri – digərindən asılı olmamışlar.

Bütün sultanlar məqam və vəzifə cəhətdən bir-birinə bərabər deyildilər. İsgəndər bəy Münşi onları iki hissəyə ayırır: *böyük və kiçik sultanlar* (Bax: Göst. kitab, bizim tərcümə).

Beləliklə, Səfəvi dövlətində bə'zi hökmdar, şahzadə və sülalə üzvlərinə aid edilən sultan titulu bütün XVI əsr boyu dövriyyədə olmuş, sonralar öz əvvəlki əhəmiyyətini itirmişdir (Bax: *Ş.F.*Fərzəliyev. XV-XVI əsrlərdə Azərbaycanda işlədilən bəzi ad, ləqəb və titulların etimologiyası haqqında, Azərb. SSR EA-nın Xəbərləri, Tarix, Fəlsəfə və Hüquq seriyası, № 3, 1977, səh. 81-82).

1945

*Osmanlı dövlətində* isə "sultan" titulunun mə'na açımının hökmdara şamil olunduğunu görürük, Səfəvilər dövlətində *əmirlərə* də aid edilən həmin titul osmanlılarda *"paşa"* və *"bəy"* istilahları ilə işlənmişdir.

Osmanlı padşahlarından ilk dəfə sultan ifadəsi *Çələbi Sultan Mehmetə* aid edilmişdir. Şairlər öz hökmdarlarının sultan adlandırılmaları ilə fəxr edir, bundan iftixar və qürur duyurdular. Məsələn, *İldırım Bayazid* dövrünün məşhur şairlərindən *Şeyxoğlu* "Nüsrətnamə" adlı bir məsnəvisində yazır:

*"Hə sultan ibni sultan ibni sultan,*
*Şəhənşəh Bayəzid ibni Murad xan,*
*Ki, bünyad olalı Tanrı cəhanə*
*Anın kibi yigit yokdur yeganə.*
*Kılıcından kuşanır düşməni kan,*
*Kılıcından bağışlar canlara can…"*

(Bax: M.Z.Pakalın. Göst. əsər, III cild, səh. 264-265).

Qeyd olunmalıdır ki, əvvəllər *"şeyx"* titulunu qəbul edən və hələ siyasi hakimiyyətə çata bilməyən səfəvi şeyxləri *Cüneyddən* başlayaraq özlərini *sultan* adlandırmış (Sultan Cüneyd, Sultan Heydər) və həmin titulu fəxarətlə qəbul etmişlər. Əlbəttə, sultan adlanmaq hər qüdrət sahibinə müyəssər deyildi. Hətta, şeyxin oğlu olan Şah İsmayıla məktub göndərən *Sultan Səlim Yavuz* onu şah adlandırmayıb, "əmir" titulu ilə kifayətlənmiş, amma özünün sultan olduğunu nəzərə çatdırmışdır: "Bu şərafətli xitab (yə'ni məktub-*Ş.F.*) xilafət sahibi olan, din düşmənlərini qılıncdan keçirən… ali nəjadlı Sultan Səlim ibn Sultan Məhəmməd (Sultan Məhəmməd Fateh daha çox məşhur olduğu üçün Yavuz atası *Bayazidin* adını bu məktubunda çəkmir-*Ş.F.*) tərəfindən sənəəcəm hökmdarına… adlı-sanlı *əmir İsmayıla* göndərildi" (Bax: Şahin Fazil Fərzəlibəyli. Çaldırana aparan məktublar, "Arzu" ədəbi elmi-ictimai jurnalı, № 3, Bakı, 1998, səh. 39).

***** *Sultan Məhəmməd padşah* – II Şah İsmayılın böyük qar-
**s.12** daşı *Məhəmməd Xudabəndədir.*
1946

* s.13 *Özbəkiyyə* – Özbək tayfasına mənsub adamlar.

** s.13 *Rumiyyə* – Rum dövlətinə, yaxud İtaliyanın paytaxtı *Roma şəhərinə* mənsub adamlar; Kiçik Asiyada yaşayan əhali; Osmanlılar tərəfindən İrana hücumla gələn döyüşçülər (Bax: dr. M.Moin. Göst. əsər, II cild, səh. 1694).

*** s.13 *Nəvvabe-İsgəndərşan* – İsgəndər bəy Münşi öz əsərində I Şah Abbasın atası Məhəmməd Xudabəndəni *Makedoniyalı İsgəndərə* bənzədərək onu *"İsgəndər şöhrətli nəvvab"* adlandırmışdır. *"Nəvvab"* sözünün mə'nası isə İranda şahzadələrə, bə'zən də şahlara aid olunan *təşbehdir (*əsasən səfəvilər və qacarlar dövründə). Hindistanda *əmirlərə və racələrə* də "nəvvab" deyilmişdir (Bax: dr. M.Moin. Göst. lüğət, IV cild, səh. 4827).

**** s.13 *Şahe-cənnətməkan* – Müəllif I Şah Təhmasibi "məkanı cənnət olan şah" sözləri ilə xatırlamaqla, ona olan ehtiramını ifadə etmişdir.

***** s.13 *Xaqane-Süleymanşan* – Süleyman şanlı hökmdar mə'nasını verən bu ifadə *Səfəvilər dövlətinin banisi I Şah İsmayıl Xətaiyə* aiddir. Tarixdə bir çox məşhur Süleymanlar mövcud olmuşlar: səlcuqilərdə – *3 nəfər,* monqol elxanilərində – *1 nəfər,* osmanlılarda – *2 nəfər,* səfəvilərdə – *2 nəfər,* yəhudilərdə – *1 nəfər* (Süleyman ibn Davud), əməvilərdə – *1 nəfər* və s. şəxslər bu adın daşıyıcıları olmuşdur (Bax: dr. M.Moin. Göst. lüğət, V cild, səh. 795-797).

****** s.13 *Nəvvab Sultan Həmzə Mirzə* – I Şah Abbasın qardaşı.

* s.15 *Məşayex* – "Şeyx" sözünün cəm şəkli olan bu ifadənin mənası belədir: *qoca adamlar, böyük şəxslər, alim və bilikli üləmalar* (Bax: dr. M.Moin. Göst. əsər, II cild, səh. 2102).

Yuxarıda adı çəkilən dr. S.C.Səccadi isə yazır: *Şeyx* – rəhbər, öncül, qövm (xalq, tayfa, qohum) başçısı, pir. Aqillərə görə "şeyx" elə şəxsdir ki, sufizm və irfanda şəriət, təriqət, mərifət və həqiqətdə *"mürşid"* ("yol göstərən, hidayət edən") olmaq səlahiyyəti qazanmışdır. Şeyx peyğəmbərin naibidir (köməkçisidir) – (Bax: D-r Seyid Cəfər Cəccadi. Göst. əsər., səh. 517).

** s.15 *Məqalə* – Bu ifadə heç də müasir dövrdə yazılan və bir neçə səhifəni əhatə edən *məqalə xüsusiyyəti daşımır.*

Sonradan görəcəyimiz kimi, İsgəndər bəy Münşinin əsəri 12 məqalədən ibarət (demək olar ki, min səhifədən çox) böyük həcmli məşhur kitabdır.

*** s.15 *Sahibqranlıq* – "Sahib" və "qran" sözlərindən yaranan istilahdır. "Sahib"in mə'nası aydın olsa da, "qran"ın nə demək olduğunu izah etmək lazım gəlir: yaxınlaşma və birləşməyə *"qran"* deyilir. Məsələn, iki ulduzun bir-birinə birləşmələri, yaxud günəşdən başda yeddi səyyarənin (planetin) bir dərəcə, ya bir dəqiqədə bir bürc altına yığılması. *"Mətləüs-sə'deyn və məsməül-bəhreyn"* (Əbdürrəzaq Səmərqəndi) əsərinin adında olan *"sə'deyn"* ifadəsi *"iki xoşbəxt ulduz",* yaxud *"iki xoşbəxt səyyarə"* deməkdir ki, onlar müəyyən bir vaxtda Müştəri və Zöhrə (Yupiter və Venera planetləri – *Ş.F.*) səyyarələri kimi bir bürc altında birləşirlər. Həmçinin *"nəhseyn"* (iki nəhs səyyarə – *Ş.F.*) ifadəsi də vardır ki, *iki nəhs planet* (Saturn və Mars – *Ş.F.*) də iki xoşbəxt planetdə olduğu kimi bu bürc altında birləşirlər.

"Sahibqranlıq" (sahibqrani) ifadəsinin izahı isə belədir: İki nütfənin birləşməsi vaxtı, yaxud doğuş vaxtı iki səyyarə arasında yaxınlaşma və birləşmə başlayır. Bu birləşmə *"tale birləşməsi"* adlanır. Sahibqranlıq şahlara, vəzirlərə, şairlərə və başqa qeyri-adi bacarığı olan şəxslərə də qismət olur (Bax: dr. M.Moin. Göst lüğət, II cild, səh. 2122, 2654).

* s.16 *Fütüvvət* – ərəbcə mə'nası comərdlik, iffət, şəfqət, təvazö və təqvadır. *Mir Seyid Əli bin Şəhabəddinül Həmədani* (1385-ci ildə ölüb) "Risaleye-Fütüvvətiyyə" əsərində yazır: "Fütüvvət-saliklərin məqamlarından bir məqam, fəqrü fənadan bir cüz', vəlayətdən bir qismdir". *Həsən Bəsri* isə buyurur: "Fütüvvət-hər kəsə qarşı insaf göstərmək, kimsədən insaf istəməməkdir (Bax: M.Z.Pakalın. Göst. lüğət, I cild, səh. 651). M.M. Möinə və S.C.Səccadiyə görə bu ifadənin mə'nası cavanlıq *cavanmərdlik* (səxavət, kərəm comərdlik, əliaçıqlıq, mərdanəlik, alicənablıq) deməkdir. Bu söz həmçinin "nəfsi özünə tabe etmək" kimi anlayışı *(isar)* özündə əks etdirir, yə'ni fütüvvətin ali dərəcəsi məhz *"isar"*

ifadəsidir. Fütüvvətli insan hamı ilə insafla davranır. Fütüvvətli şəxs yalnız yaxşı əməllər sahibi olur.

*[Şair] Səlmi* yazır: *"İsar"* odur ki, özünü kiçik, başqalarını isə böyük sanasan, kiməsə təmənnasız hörmət edəsən, sənə qarşı olan səhv hərəkətləri, xətaları bağışlayasan, əhali ilə xoş davranasan, incidiyin adamların günahını əfv edəsən, adamların müsbət cəhətlərini, özününsə eybini müşahidə etməyi bacarasan:

*"Sındırıb öz bütünü sən zəlil et*
*Və fütüvvətlə səni sən Xəlil*[1] *et*

---

[1] Xəlil, Xəlilullah – İbrahim Xəlil peyğəmbərin ləqəblərindəndir, "Allahın dostu" deməkdir. Dini əsatirə görə qurban bayramının əsasını o qoymuşdur. Bizim böyük şairimiz M.Ə.Sabir şe'rlərinin birində özünü "Əsrin Xəlilullahı"na, atasını isə Azərə (yə'ni, dini rəvayətə görə, peyğəmbərlik iddiasına düşən oğlunun ən kəskin əleyhdarlarından birinə) bənzətmişdir. Sabirin fars dilində yazdığı şe'rində oxuyuruq:

"Mən Xəlilullahe – əsrəm, pedərəm con Azər,
Səfər əz Babile – Şirvan konəm inşallah.
Çərçe u dəftəre-əş'are-məra pare nəmud,
Vəsl ba təb' dorəfşan konəm inşallah"

M.Ə.Sabirin bu şe'ri Əbülfəz Hüseyni (Həsrət) tərəfindən belə tərcümə olunmuşdur:

"Xəlilullahe – əsrəm mən, atam yurdumda Azərdir,
Çıxam Babillə Şirvandan gərək cür'ətlə inşallah.
Əgərçi şe'rimi yırtıb, qəzəblə odda yandırdı,
Bu gövhərlər saçan təb'im tikər qüdrətlə inşallah".

Əbülfəz Hüseyninin tərcüməsi bu şe'rin orijinalının yazıldığı bəhrdən (rəməl) kənara çıxıb həzəc bəhrində olduğundan, habelə Sabir şe'rinin tərcüməsində bir qədər sərbəstliyə yol verildiyindən biz onu yenidən tərcümə etməyə məcbur olduq:

"Mən Xəlilullahe – əsrəm və atam Azərdir,
Şirvanın Babilini tərk edərəm inşallah.
Şe'rlər dəftərimi gərçi atam parələdi,
Onu bərpa eləyib dürr səpərəm inşallah"

Qeyd olunmalıdır ki, M.Ə.Sabirin bu şe'rində tarixi bir əfsanə nəzərədə tutulmuşdur. Dini əsatirə görə, Babil şəhərinin əsasını qoyan və hökmranlıq edən Nəmrud bütpərəst imiş. Guya İbrahim Xəlil peyğəmbər bütpərəstlik əleyhinə təbliğat apardığı üçün Nəmrud onu oda atıb yandırmaq istəmişdir (Bax: M.Ə.Sabir. Hophopnamə, üçüncü cild. Bakı, 1965, səh. 235).

*Dəyməsin qoy kiməsə azarın,*
*Hamının eylə qəbul isarın.*

*Hər nə versən kimə "qaytar" demə,*
*Verdiyin şeydə "gözüm var" demə.*

Fütüvvətin *3 dərəcəsi* vardır: *düşmənçiliyin tərki* (tərke-xosumət); *başqalarına zülm etməmək; pislik qarşısında yaxşılıq (ehsan) etmək qabiliyyəti.*

Fütüvvət sahibi *Allahdan başqa* heç kimi görmür, gördüyü işlərin mükafatını gözləmir, *haqqa tam itaət edir* (Bax: dr. M. Moin, II cild, səh. 2486; dr. S.C.Səccadi. Göst. əsər, səh. 618).

** s.16 *Mürüvvət* – mərdlik, mərdanəlik. *Nizamül-mülkün* "Siyasətnamə"sindən: *"Səboktəqin* mübarizlikdə, mürüvvətdə, səxavətdə, xoşxasiyyətli olmaqda və Allahdan qorxmaqda... hamıdan üstündür" (Bax: dr. M.Moin. Göst. lüğət, III cild, səh. 4049).

* s.17 *Hümayun* – xoş iqballı (bəxtli) adam. Orta Şərq ölkələrinin hökmdarlarına adətən *xoşbəxt* deyilir, onlara göndərilən məktublar "mübarək fallı" kimi ifadələrlə nəzərə yetirilirdi.

* s.18 *Hənəfi* – Əbu Hənifə *firqəsinə* mənsub olan şəxslərə *"hənəfi"* demişlər. Hənəfiyyə təriqəti sünnilərin (əhlesonnət) mühüm təriqətlərindən biridir. Təriqətin adı *"hənəfiyyə"* adlanır (Bax: Dr. M.Moin. Göst. lüğət. V cild, səh. 468).

*Əbu Hənifə* (Ne'man ibn Sabit) islamın böyük davamçılarından və öncüllərindən olmuşdur. Ələvilərə meylli bir şəxs idi. *Əbu Yusif* onun məşhur şagirdlərindən olmuşdur. Əbu Hənifə hədislərin bə'zilərini qəbul etmirdi. O, 17 hədisi isə ümumiyyətlə inkar etdi (Bax: Həmin lüğət, V cild, səh. 92).

* s.19 *Tərbiyə (tərbiyət)* – Böyütmək, yetişdirmək, hazırlamaq. Hikmət elminin istilahlarındandır. İslam mədəniyyəti tarixində *"tərbiyə"* mühüm məsələ hesab olunurdu. Bu istilahın əsasında islam tərbiyəti və islam əxlaqı durur (Bax: Dr. S.C. Səccadi. Göst. əsər, səh. 232).

** s.19 *Kə'bə* – Beytülhəram, Beytülətiq, Allahın evi (xaneye-Xoda). Kub şəkillidir. Kə'bənin dövrəsində təvaf olunur. *Kə'bəni həzrət İbrahim bina etmiş* və ona *"Allahın evi"* adı vermişdir. İslamdan əvvəl Kə'bə müxtəlif ərəb qəbilələrinin *bütxanəsi* olmuş, onun içərisində *lat, əzi, həbəl, vəd kimi böyük bütlər* mövcud olmuşdur. İslamın zühurundan sonra *Həzrət Məhəmməd peyğəmbər Kə'bəni* müsəlmanların qibləgahı və ziyarətgahı etmiş və oranın ziyarətini müsəlmanlara *vacib buyurmuşdur.* Hazırda zilhiccə ayının 10-da Kə'bənin dövrəsində təvaf (Həcc) mərasimi keçirilir. Kə'bənin divarında *"Həcərül-əsvəd"* ("Qara daş") adlanan müqəddəs daş yerləşdirilmişdir (Bax: Dr. M.Moin. Göst. lüğət, VI cild, səh. 1582-1583).

* s.20 *Zəmzəm* – a) Məkkədə, Kə'bə yaxınlığında *quyu və çeşmənin* adıdır. b) Zərdüştilərin "Zend-Avesta" kitabının 4-cü fəsli də "Zəmzəm" adlanır. İsgəndər bəyin işlətdiyi "Zəmzəm" ifadəsi, əlbəttə, Zəmzəm *quyusuna aiddir* (Bax: Fərhənge-zəbani-taciki, "Sovetskaə Gnüiklopediə" Nəşriyyatı, I cild, Moskva, 1969, səh. 433).

** s.20 *"Rövzətüs-səfa"* – "Mirxand" kimi tanınan məşhur tarixçi *Məhəmməd ibn Xandşah ibn Mahmudun "Rövzətüs-səfa fi sirətəl-ənbiya və-l-mülk və-l-xüləfa"* əsəridir. Buxarada yaşayan seyidlər nəslindən olan Mirxandın *Bürhanəddin Xandşah* adı ilə tanınan atası Bəlxə köçmüş və orada da vəfat etmişdir. Mirxand 837/1433-cü ildə doğulmuş, həyatının çox hissəsini Heratda keçirtmiş, məşhur şair və vəzir *Mir Əlişir Nəvai* tərəfindən himayə olunmuş və 903/1498-ci ildə dünyasını dəyişmişdir. Onun "Rövzətüs-səfa" əsəri müqəddimədən, 7 cilddən (yaxud qism) ibarətdir (Bax: Ç.A.Stori. Persidskaə literatura, Bio-biblioqrafiçeskiy obzor, Pererabotal i dopolnil Ö.G. Bereqelğ, Moskva, 1972, I hissə, səh. 361)

*** s.20 *"Xülasətül-əxbar"* – Xandəmir kimi tanınan *Qiyasəddin ibn Hümaməddin Məhəmmədin "Xülasətül-əxbar fi bəyan əhval əl-əxyar"* əsəridir. Bu tarixçi anası tərəfindən *Mirxandın* nəvəsidir. Güman ki, Heratda doğulmuşdur (880/1475). *Mir Əlişir Nəvai* özünün şəxsi kitabxanasındakı tarixi əsərləri

onun ixtiyarına vermiş, Xandəmirin tarixçi kimi yetişməsində müstəsna kömək etmişdir. O, sonralar *Sultan Hüseyn Bayqaranın* böyük oğlu *Bədiüz-Zaman Mirzənin* sarayında xidmət etmişdir. Herat *Məhəmməd xan Şeybani və I Şah İsmayıl* tərəfindən tutulanda (1507 və 1510-cu illərdə) tarixçi Heratda idi. Xandəmir 1528-ci ildə Hindistana getmiş və *Böyük Moğollar imperiyasının* əsasını qoyan *Zəhirəddin Babura* Aqra şəhərində təqdim olunmuş (1528), Baburun *Benqal yürüşüdə* onu müşayiət etmişdir (1529). O, *Baburun oğlu Məhəmməd Hümayunun* Qucərat yürüşündə də iştirak etmiş, güman ki, elə bu yürüşdən geri qayıdarkən ölmüşdür (1535/36). Öz məqamına görə Dehlidə məşhur din xadimi Nizaməddin Övliya və şair *Əmir Xovrov Dehləvinin* məzarlarının yanında torpağa tapşırılmışdır.

Xandəmir Mirxandın "Rövzətüs-səfa" əsrinin yeddinci cildini yazmış, "Məkariməl-əxlaq", "Dəsturül-vüzəra", "Hümayunnamə", "İnşayi-Qiyasəddin" və "Məasirəl-müluk" əsərlərinin də müəllifi olmuşdur. Onun tarixçi kimi ən məşhur kitabılarından biri, əlbəttə, "Xülasətül-əxbar"dır. Əsər 1499-1500-cü illərdə (hicri tarixlə 905-ci il) bitmiş və Mir Əlişir Nəvaiyə ithaf olunmuşdur. Ümumi tarix əsəridir, müqəddimədən və 10 məqalədən ibarətdir. Əsərdəki hadisələr 1470/71-ci ilədək davam edir (Bax. Ç.A.Stori. Göst. əsəri, I cild, səh. 379-380). Xandəmirin ondan da məşhur tarixi əsəri isə *"Həbibüs-siyər"*dir.

******** *Fidyə* – canı hifz etmək üçün ödənilən [müəyyən məbləğ]
**s.20** pul, yaxud qurbanlıq [heyvan]. (Bax: Nəyyer-zaman Səqəfi, Göst. lüğət, II cild, səh. 167).

*Fidyə* həmçinin bir adamın əsirlikdən, yaxud başına gələn bəladan qurtulması üçün özü, yaxud başqası tərəfindən verilən *puldur.* Fidyəyə "nicat fidyəsi" də deyilir. Şair *Mehmet Akif* yazır:

> *"Nə qaldı verədigin bir çürük həyatin üçün?*
> *Sayılsa, ah gedən fidyələr nicatin üçün"*

(Bax: M.Z.Pakalın. Göst. lüğət, I cild, səh. 627)

* s.21 *Vəhbin qızı Aminə* – Üç nəfərin tarixi *"Aminə"* adı kitablara düşmüşdür: 1.Əbu Süfyanın qızı-*Peyğəmbərin zövcəsi*; 2.Əbdülmütəllibin qızı-*Peyğəmbərin bibisi* (əmmə); 3. *Vəhb bin Əbdmanafın qızı.* O, Abdullah bin Əbdülmütəllibin *zövcəsi* və peyğəmbərin *anasıdır.*Hicrətdən 48 il əvvəl yə'ni peyğəmbrin 9 yaşı olarkən (miladi 577) həyata əlvida etdi (Bax: M.Moin. Göst. lüğət, V cild, səh. 60).

** s.21 *Mədinə* – Səudiyyə Ərəbistanının ümdə şəhərlərindən biri, böyüklüyünə və müqəddəsliyinə görə *Məkkənin* şimal-şərqində, Hicaz nahiyəsində yerləşən ikinci islam şəhəridir. Bu şəhərin əsl adı *Yəsrib* olmuşdur, lakin peyğəmbərin hicrətindən sonra Yəsrib şəhərinin adına Mədinətün-nəbi, Mədinətün-təyyibə, Mədineye-mönəvvərə, yaxud ixtisarla Mədinə deyilmişdir. *Həzrət peyğəmbərin qəbri buradadır.* Rəsulun əhli-beytinin bir neçəsi və islamın ilk üç xəlifəsi (Əbübəkr, Ömər, Osman) bu şəhərdə dəfn olunmuşlar. İslam peyğəmbərinin hicrətindən sonra Mədinə hicri tarixlə 35-ci ilədək xilafət mərkəzinə çevrilmişdir (Bax: Dr. M.Moin. Göst. lüğət, VI cild, səh. 1942).

*** s.21 *Əbu Talib* – Məhəmməd peyğəmbərin *əmisi,* İmam Əlinin *atası* olmuşdur.

**** s.21 *Xədiceye – Kübra* – Xəviləd (?) ibn Əsəd ibn Əbdülizzinin qızı, Məhəmməd peyğəmbərin birinci arvadı, Fatimeye-Zəhranın *anasıdır* (Bax: Dr. M.Moin. Göst. lüğət, V cild, s. 475).

*s.22 *İmam Həsən və İmam Hüseyn həzrət Əlinin oğlanlarıdır.*

** s.22 *Həzrət Mehdi* – ləqəbi İmamzaman, Hüccətül-qayim, İmame-qayim və Qayime-ale-Məhəmməddir. *12 İmamiyyə şiəsi* imamlarının sonuncusudur. O, hicri-qəməri tarixlə 255-ci ildə *Samərra şəhərində* doğulmuşdur. 5 yaşında ikən atası *İmam Həsən əskəri* vəfat etdi və o həzrət (İmam Mehdi – *Ş.F.*) nəzərlərdən *qeyb oldu* (qeybəte-soğra) (Bax: Dr. M. Moin. Göst. lüğət, VI cild, səh. 2055).

*** s.22 *Museye-Kazim* – Əl-Kazim ləqəbli *Musa ibn Cəfər* şiə imamlarının yeddincisidir. Onun qəbri Kazımeyndə, Qüreyş məqbərəsindədir (Bax: Dr. M.Moin. Göst. lüğət, VI cild, səh. 2045).

* s.23 *İbn Bəzzaz* – Ç.A.Stori tərəfindən özü və əsəri barədə mə’lumat verilməyən, lakin xatırladılan İbn-əl-Bəzzaz təxəllüslü *Təvəkkül ibn İsmayıl əl-Ərdəbilinin* əsəri haqqında geniş mə’lumat 2006-cı ilə Bakıda çap olunan *“Şeyx Səfi təzkirəsi”* (“Səfvətüs-səfa”nın XVI əsr türk tərcüməsi) adlı kitabında verilmişdir. Tərtibçilər (Möhsün Nağısoylu, Sevər Cabbarlı və Rauf Şeyxzamanlı) tərəfindən belə bir əsərin çapı təqdirəlayiqdir. *Prof. Möhsün Nağısoylu* yazır: “Şeyx Səfi təzkirə”sində XII-XIV əsrlərdə Azərbaycanda baş verən ayrı-ayrı hadisələr, dövrün ictimai-siyasi durumunun ümumi mənzərəsi və bir sıra səciyyəvi cəhətləri…öz əksini tapmışdır. İbn Bəzzarın *fars dilində yazdığı* “Səfvətüs-səfa” əsərini “Xaqanül-övliya və mühəqqiqin Şeyx Səfi əl-həqq vəl-millət vəd-din İshaq (qüddisə ruhəhu) əl-Əzizin təzkirsi” adlandıran mütərcim Nişati (XVI əsr) bu kitabın osmanlı dilində tərcümə zərurətini belə bildirmişdir: “Həzrəti – şeyxin… təzkirəsi farsi dili ilən yazılmış idi. Bu təzkirənin təsnifinə məşğul oldum” (Bax: Şeyx Səfi təzkirəsi, Bakı 2006, səh.5).

** s.23 *Firuzşah Zərrinkolah* – Bu şəxs haqqında ətraflı mə’lumat elə İsgəndər bəyin özü tərəfindən verilmişdir (Bax: Dünyanı bəzəyən Abbasın tarixi, I cild, səh. 23).

* s.24 *Cövza bürcü* – Ekizlər bürcüdür, 22 maydan 21 iyuna qədərki günləri əhatə edir (Bax: N.Şəfəqi. Göst. lüğət, I cild, səh. 578).

** s.24 *Əmir Qütbəddin* – Firuzşah Zərrinkülahın *4-cü oğludur.* Prof. *O.Əfəndiyev* onun adının Əmir Qütbəddin Əhməd olduğunu yazır (Bax: Oktay Gfendiev. Azerbaydjanskoe qosudarstvo Sefevidov v XVI veke, Bakı, 1981, s. 286).

* s.25 *Seyid Saleh* – O.Əfəndiyevin kitabında bu ad “*Şeyx Saleh*” kimi göstərilir (Bax: O.Əfəndiyev. Göst. əsəri, s.286).

** s.25 *Seyid Cəbrayıl* – O.Əfəndiyev onun adını “*Əminəddin Cəbrayıl*” yazır (Bax: O. Əfəndiyev. Göst. Əsəri, s.286).

* s.26 *Seyid Məhyəddin və Sultan Sədrəddin – Sədrəddin Əbu Səid (1305-1392)* Əminəddin Cəbrayılın *oğlanlarıdır* (Bax: O.Əfəndiyev, Göst. əsəri, s.286). Sədrəddin Şeyx Musa ibn Şeyx Səfiəddin məşhur ariflərdən olmuşdur (h.q. 704-h.q.

794). O, 31 yaşında ikən atasının canişini olub, 50 ilədək müridlərə doğru yol göstərməklə məşğul oldu. Bu şeyxin Ərdəbildə nüfuz dairəsini artdığını görən Məlik Əşrəf onu Təbrizə apardı, üç ay orada [həbsdə] saxladıqdan sonra onu sərbəst buraxdı (Bax: Dr. M.Moin. Göst. lüğət, V cild, səh. 992).

**** *Şeyx Səfiəddin* – 1252-ci ildə Ərdəbil şəhəri yaxınlığın-
**s.26** dakı Kəlxoran kəndində doğulan Səfiəddin uşaqlıqdan qeyri-adi keyfiyyətləri ilə başqalarından seçilmiş və onu düşündürən, qəlbinə rahatlıq verməyən dini və irfani suallara cavab axtarışında olmuşdur. Ömrünün gənclik illərində kamil bir mürşid soraqlayan Səfiəddin bu niyyətlə *Şiraz* şəhərinə gedərək məşhur sufi şeyxi, görkəmli Azərbaycan alimi Sührəvərdinin (1145-1234) şagirdi olan *Şeyx Nəcibəddin Bozğuşu* (Bozeğş olmalıdır – *Ş.F.*) – *o da Azərbaycan türküdür* – görmək istəmiş, lakin ora çatan zaman şeyxin ölüm xəbərini eşidərək çox mə'yus olmuşdur. Maraqlıdır ki, İbn Bəzzazın yazdığına görə, Səfiəddin Şiraz şəhərində olarkən məşhur fars şairi *Sə'di Şirazi* ilə görüşür və onunla söhbət edir. Səfiəddini *"türk piri"* adlandıran Sə'di Şirazi şe'rlər divanının öz əli ilə yazdığı bir nüsxəsini ona bağışlamaq istəyir, ancaq Səfiəddin həmin kitabı qəbul etməyərək bildirir ki, ona İlahinin divanı gərəkdir (ibn Bəzzazın bu mə'lumatı İsgəndər bəy Münşidə yoxdur – *Ş.F.*).

Şirazın məşhur sufi şeyxləri Səfiəddinin söhbətlərini dinlədikdən sonra bu qeyri-adi gəncə məsləhət bilirlər ki, *Şeyx Zahid Gilaninin* yanına getsin. Səfiəddin 25 yaşında olarkən *Həlyəkərana* (Lənkəran şəhəri yaxınlığındadır) gedərək, Şeyx Zahid Gilani ilə görüşür və onun müridi olaraq, mürşidindən bilik, mərifət öyrənir və irfanın incəliklərinə, gizli sirlərinə yetərincə bələd olur. Səfiəddin ömrünün 25 ilini Şeyx Zahid Gilaninin xidmətində keçirərək mürşidin qızı *Bibi Fatimə ilə* evlənir və burada, gilək dilini də öyrənir. Hələ Şeyx Zahid Gilaninin sağlığında onun canişini təyin edilən Şeyx Səfiəddin, çox keçmir ki, *Ərdəbilə* qayıdır və burada 35 il ərzində *"Darül-irşad"* adlı xanəgaha rəhbərlik

edir, Səfəviyyə təriqətinin qurucusu, başçısı kimi fəaliyyət göstərərək çoxlu sayda *irfan əhli* tərbiyə edib yetişdirir. Ömrünün sonlarında 1334-cü ildə Şeyx Səfiəddin Ərdəbili *Həcc ziyarətinə* gedir və *Məkkədən qayıdandan* 12 gün sonra Ərdəbildə dünyasını dəyişərək burada dəfn edilir. Maraqlıdır ki, şeyxin vəfatından cəmi 7 gün keçir və ömür-gün yoldaşı *Bibi Fatimə* də dünyasını dəyişir. Şeyxin vəfatından sonra Ərdəbil şəhərində onun məzarı üzərində məşhur *Şeyx Səfi məqbərə kompleksi* ucaldılmışdır (Bax: Şeyx Səfi təzkirəsi, "Səfvətüs-səfa"nın XVI əsr türk tərcüməsi, ön sözdəki "Ana dilimizin dəyərli yazılı abidəsi" məqaləsi" Bakı, 2006, səh. 10-11). Məqalənin müəllifi filologiya elmləri doktoru Möhsün Nağısoyludur.

***** *İrşad*-Təriqətdə Həqq yolunu göstərənə *"mürşid",* yaxud
**s.27** *"sahibe-irşad"* deyilir. Ərəbcə mə'nası *doğru yol göstərmək*dir. *Üsküdarlı Salim Süleyman* deyir:

*"Şeyximiz kəndisini bilmədə qalmış aciz,*
*Nərədə qaldı ki, keyfiyyəte-irşadı billə".*

XVI əsr şairlərindən *Ruhi Bağdadi* isə irşad sahibini yüksək dərəcəli təriqət başçısı kimi belə tə'rifləyir:

*"Gör zahidi kim, sahibe-irşad olayım der,*
*Dün məktəbə getdi, bu gün ustad olayım der"*

(M.Z.Pakalın. Göst. əsər, III cild, səh. 32)

****** *Mürşid* – Yol göstərən mə'nasındadır. Sufilərin yetiş-
**s.27** məsində xüsusi rolu olan təriqət başçısına deyilirdi. *Kamil mürşid isə* (mürşide-kamil)-özü kamal dərəcəsinə çatan və tələbələrini də elə dərəcəyə çatdırmağa hazırlayan *sufi təriqət rəhbəri* olmuşdur. Orta əsrlərdə (səfəvilər dövründə) səfəvi xanədanından olan padşahlar *"mürşide-kamil"* adlanmışlar (Bax: D-r M. Moin. Göst. lüğət, III cild, s. 4016).

******* *Bozeğş* – tayfa adıdır.
**s.27**

1956

****
s.27

*Şeyx Müslihəddin Sə'di* – Dr. Moin onun ad və təxəllüsünü belə verir: *Sə'di Müşrifəddin Mübləh İbn Abdulla Şirazi – böyük yazıçı və şair*. Onun əcdadı din alimlərindəndi. Hələ cavankən atasını itirdi, *Şirazda elm öyrənməyə başladı,* sonra *Bağdada* gedib *"Nizamiyyə"* mədrəsəsində oxudu. Sakitcə oturub bir yerdə qalan adam deyildi, dünyanı görməyə və adamlarla tanış olmağa meylli idi. Elə buna görə də uzunmuddətli səfərlərə çıxdı, *Bağdad, Şam və Hicazdan Afrikanın şimalınadək səyahət etdi* və müxtəlif adamlarla həmsöhbət oldu. Bu səfərlərdən bir dünya təcrübə və elm öyrənib Şiraza qayıtdı. O vaxtlarda *Atabəy Əbubəkr bin Sə'd bin Zəngi* Fars [vilayətində] hakim idi və orada əmniyyət bərqərar idi. Sə'di rahatlanıb özünün böyük əsərlərini yazmağa başladı… Hicri-qəməri tarixiylə 655-ci ildə *"Sə'dinamə",* yaxud *"Bustan"* əsərini yazdı, bir il sonra *"Gülüstan"ı* qələmə aldı. Bunlardan başqa onun qəsidələri, tərcubəndləri, rübailəri, məqalələri və *ərəbcə qəsidələri* də vardır ki, onların hamısı onun *"Külliyyat"*ında bir yerə toplanmışdır (Bax: Dr. M. Moin. Göst. lüğət, V c., s.763-764).

ASE-də isə bütün dünyada məşhur bu klassik şair və mütəfəkkir haqqında daha ətraflı mə'lumat vardır: *"Sə'di* təxəllüsüdür. Əsl adı Müslihəddin Əbu Məhəmməd Əbdullah ibn Müşrifəddin (1203-10-cu illər arasında -1292). Fars şairi, mütəfəkkir. *Fars atabəyləri* sarayına yaxın dindar ailəsində doğulmuşdur. "Nizamiyyə" mədrəsəsində təhsil almış, bütün fənləri ə'la öyrəndiyinə görə dövlət təqaüdünə layiq görülmüşdü. Tələbəlik illərindən şe'r yazmış, şairlik şöhrəti Şirazdan çox uzaqlara yayılmış, "Sə'di *("xoş bəxtli")* təxəllüsünü də məhz bu dövrdə qəbul etmişdir. 30-cu illərdə Məkkəyə ziyarətə getmiş, bundan sonra *dərviş libasında* təqribən 30 il bir sıra Yaxın və Orta Şərq ölkələrini gəzib dolaşmış, *Azərbaycanda da olmuşdur.* Bu müddət ərzində Sə'di müxtəlif ölkələrin və xalqların həyatını, müharibələrin, təbii fəlakətlərin törətdiyi dəhşətləri, cəmiyyətdə hökm sürən sosial təzadları, ictimai bərabərsizlik və ədalətsizliyi dərindən müşahidə etmişdir. Sə'dinin səyahət illərində qazandığı

böyük həyat təcrübəsi yaradıcılığının zirvəsi olan məşhur "Bustan" (ilk adı "Sə'dinamə", 1257) və "Gülüstan (1258) əsərlərində yüksək bədii in'ikasını tapmışdır. Ədəbi irsi zəngindir. O, klassik fars poeziyasının, demək olar ki, bütün əsas formalarında (qəzəl, qəsidə, rübai, qit'ə, tərcibənd və s.) şe'rlər yazmış, qəzəl və qəsidə ustadı kimi tanınmışdır. Lakin Sə'di didaktik və mütəfəkkir şair kimi *"Bustan"* və *"Gülüstan"* əsərləri ilə şöhrət qazanmışdır. "Bustan" tamamilə mənzumdur. "Gülüstan" isə həm şe'r, həm də nəsrlə yazılmışdır… Məzmunca bir-birini tamamlayan hər iki əsərdə tərbiyə və mə'nəvi-əxlaqi məsələlər əsas yer tutur. Dövrünün sufi və məddah şairlərindən fərqli olaraq, hümanist şair şahları ədalətə çağırmış, sülh və ittifaq ideyalarını, sadə əmək adamlarının sevinc və kədərini, xeyirxahlıq, ədəb, nəzakət kimi nəcib insani sifətləri tərənnüm etmişdir. Yaradıcılığına *Nizami Gəncəvi* irsinin, xüsusilə *"Sirlər xəzinəsi"* poemasının əhəmiyyətli tə'siri olmuşdur. Əsərləri *Azərbaycanda* da böyük şöhrət tapmış, "Bustan" və "Gülüstan" inqilabdan əvvəl məktəb və mədrəsələrdə uzun müddət tədris edilmişdir. Yaradıcılığı farsdilli ədəbiyyatının, ümumiyyətlə didaktik Şərq, o cümlədən *Azərbaycan şe'rinin inkişafına* güclü tə'sir göstərmişdir. Şirazın mənzərəli bir yerində tikilmiş məqbərəsi ziyarətgah hesab olunur (Bax: ASE, XVIII cild, 1984, səh. 369).

***** *Riyazət və mocahede* – Nəfsin tərbiyətləndirilməsində
**s.27** (təkzib) əsas şərtlərdən olan çətinliyə dözmək və irfanı seyr və müşahidədə mətanətli olmaq *riyazət* deməkdir. *Əbdürrəzzaq Kaşani* yazır: "Riyazət nəfsin tə'lim olunması (*təmrin*) və nəfsi çətinliyə alışdırmaq, Allah yolunda *cihada* hazırlamaq, orta [və kasıb yaşayış tərzi keçirən adamların] *halına yanmaq* və *nəfsin paklanmasıdır* (təzkiye)".

Riyazətin *üç* dərəcəsi vardır: *Birincisi,* şər'i elmlərə əsaslanan *ümumi riyazət* (riyazəte-a'mmə). Riyazət əhli bu dərəcəyə əməl etməklə islam qanununun (şare') əmrlərinə uyğun olaraq hər bir riyadan uzaq olmalıdır; *İkincisi*, *xüsusi riyazət* dərəcəsidir, yə'ni bizi *Allaha tərəf* aparmaqdır.

Riyazət əhli gərək bu məqamda *həm zat*, həm də *sifat* cəhətdən *guşənişin* (möhtəcəb) olmasın, fikirlərini gizlətməsin (ehtecab), kamal qapısı onların üzünə qapanmasın; *Üçüncüsü*, *ən xüsusi riyazətdir* (riyazəte-xasül-xas), yə'ni həzrət (Allahı ?) və onun vahidliyini seyr etsin. Bu işə baş vuran şəxs (salik) gərək bu mərhələdə *zatın şühudu* (görünməsi) məqamına (şohide-Həqq) hazır olsun, bilsin ki, fani *əzəli fani*, baqi *əzəli baqidir* (faniye-əzəli, baqiye-əzəli).

Riyazətin əsası *aclıq məqamına tab gətirməkdir.* Mücahidə etmək, lakin aclıq çəkməmək istəyən şəxs heç nəyə çata bilməz.

*Mücahidə* isə, çətinliklərə dözmək və mənəvi məqamlara nail olmaqla *Haqqın yolunu tapmaqdır*. Nəfs ilə mücahidə etmək, meydanda düşmənlə *cəhad etməkdən* çətindir (Bax: Dr. S.C.Səccadi. Göst. əsər, səh. 437-438; 697).

***** *Şeyx Zahid Gilani* – Dövrünün bu arif şəxsiyyəti haqqında
**s.28** Şeyx Səfi təzkirəsində ("Səffətüs-səfa") əsərində yazılır: "Onun adı Şeyx Tacəddin İbrahim bin Şeyx Rövşən Əmir bin Şeyx Babil bin Şeyx Pəndar əl – Kürdi Səncanidir və yeddi dədəyədəkin şeyx oğlu şeyxdirlər… Şeyx İbrahim Zahid Gilanda vücuda gəldi:

**Beyt**

*Ol günəşdə iki aləm zərrəcə,*
*Ol dənizdə yeddi dərya qətrəcə*

…Şeyx İbrahim Zahid uşaqlıqda ibadətedici bir *müctəhid* idi… Seyid Cəmaləddin Əlidən… Gilan ölkəsində *tövbə və təlqin* aldı… Çün Seyid Cəmaləddin fəna mənzilindən bəqa yurduna varurdu, Seyid Zahidə dedi: "Zahid, mənim həyatımdan sonra iyirmi yıl gərək kim, tərbiyət və irşada məşğul olmyasan və *döşəyə girməyib uyumayasan və arxan ilə qaburğanı yerə yetirməyəsən*. Andan sonra bir bulağ kimi olursan" …Və çün Seyid Cəmaləddin bəqa aləminə vardı. Şeyx Zahid iyirmi yıl Seyyidin buyruğu ilən *qaburğayı yerə dəgdürmədi* və tərbiyət ilə irşada məşğul olmadı və heç

kimsə ilən söyləşmədi, ol həddə kim, bir şəriki var imiş kim, əkin-biçində ortaq idilər… Şeyx Səfiəddin Ərdəbildə anı istəyib, hər yandan xəbərin sorar idi və irşad ilə tərbiyətə məşğul olduğu işi ol idi ki, ol vəqtdə Seyid Cəmaləddin Əlinin sifəti Şeyx Zahidə görünüb dedi kim, Tanrı-təala səni onun üçün durğuzubdur ki, xəlqin tərbiyət və irşadına məşğul olasan və səni bu işə göndərübdür. Pəs, Şeyx Zahid xəlayiqün tərbiyət və irşadı qılmağa sabit oldı. Və çün Şeyx Səfiəddin anın hüzuruna vardı və nuri-Tanrı sübhanəh və təala aydınlığ qapusını xəlayiqin yüzinə açdurub günbəgün həqiqət yolu zahirrək olur idi və ol zəman bid'ət qaranqulığı aləmi qarar-mış idi və xəlayiq doğru yolu tanımazdılar. Şeyx Zahidin tərbiyət və irşad günəşi dənbədəm ucalur idi…" (Bax: Yuxa-rıda adı çəkilən Şeyx Səfi təzkirəsi, Məhəmməd bin Hüseyn Katib Nişati tərcüməsi, səh. 139…).

** s.28 *Təzkiyə* – Hikmət elminə görə (*hikməte-əməli*) insanın öz daxilini rəzil əməllərdən təmizləməsidir. Təzkiyənin əsas mə'nası "*pak etmək*" olub, *təhzibe-nəfs,* yə'ni, daxilin təmiz-lənməsindən başqa qəbahətli əxlaqdan (*əxlaqe-zəmimə*) və bəyənilməz adətlərdən (*adate-napəsənd*) əl çəkməsidir.

*Təhzib* Allaha xidmət etməkdir; təhzib-məqsədəuyğun mə'rifətdir (*moqtəziye-mə'rifət*); təhzib-niyyəti saflaşdır-maq, Haqq yolundan sapmamaqdır (Bax: Dr. S.C.Səccadi. Göst. əsər, səh. 236, 274).

* s.29 *Yəməni (Yəmini) Herəvi* – İsgəndər bəy bu tarixçinin düz-gün adını, əlbəttə, bilmişdir. Lakin əsərin Tehran çapında (İrəc Əfşar) bu müəllifin adı *"Yəmini" deyil, "Yəməni" kimi* getmişdir (Bax: I cild, səh. 13). Bizim tərcüməmizdə də, təəssüf ki, bu tarixçinin əsərinin adı ("Fotuhat") düşmüşdür (Bax: Dünyanı bəzəyən Abbasın tarixi, I kitab, səh. 29). Mən bir çox lüğət və kitablara baxdımsa da, hələlik tarixçi Yəməni Herəvi haqqında mə'lumata təsadüf etmədim. Prof. O.Ə.Əfəndiyevin məşhur kitabının I fəslindəki "Mənbə və ədəbiyyatın icmalı" siyahısında *Sədrəddin Soltan İbrahim əl-Əmini* adlı bir tarixçi haqqında geniş mə'lumat verilmiş-dir. Onun yazdığına görə, əl-Əmini I Şah İsmayılın

yürüşlərinə dair *"Fütühati-şahi"* adlı ilk narrativ mənbənin müəllifidir və bir çox tarixçilər, o cümlədən Qiyasəddin Xandəmir, Qazi Əhməd Qumi, İsgəndər Münşi öz əsərlərində "Fütuhati şahi"dən bəhrələnmişlər. "Tarixe-aləmaraye-Abbasi" əsərinə bir daha göz yetirirəm. Həqiqətən də, mənbənin 13, 14, 18 və 20-ci səhifələrində "Fütühat" əsərinin və onun müəllifinin adı çəkilirsə də, orada müəllifin adı *Yəməni kimi* qeyd olunmuşdur.

Qarşıma bir sual çıxdı: *Yəməni, yoxsa Sədrəddin əl-Əmini? "Fütühati-şahi", yoxsa "Fütuhat?* Axı, O.Əfəndiyev İsgəndər Münşiyə əsaslanaraq "Yəməni" təxəllüslü müəllifin adını *əl-Əmini* kimi vermişdir (Bax: O.Ə.Əfəndiyev, Göst. əsər, səh. 9). Yenə o, başqa mənbə əsasında *("Xülasətət-təvarix")* həmin tarixçinin adının "Əmir Soltan İbrahim Əmini Herəvi" olduğunu yazır. Deməl, *Əmini Herəvi*! Dr. Məhəmməd Moinin lüğətində Sultan Hüseyn Bayqara dövründə (1469-1506) yaşamış Seyid İbrahim Məşhədi adlı bir şəxsin adı çəkilir (Bax: Dr. M.Moin. Göst. lüğət, V cild, səh. 988). Heratlı hər məşhur alim və tarixçinin təxəllüsü *"Herəvi"* olmuşdur. Məgər M.Moinin "Herəvi" deyil "Məşhədi" adlandırdığı Seyid İbrahim "Herəvi" adlandırıla bilərmi? Axı Herat da Məşhəd kimi Xorasandadır! İsgəndər Münşinin əsərinin sonunda dr. İrəc Əfşar tərəfindən hazırlanmış "Göstəricilər"ə nəzər salıram. Burada "Fütuhat" kitabı müəllifinin adı *"Yəməni Herəvi"* şəklindədir (Bax: Tarixe-aləmaraye-Abbasi. İrəc Əfşar nəşri, səh. 1234). *Deməli, şübhə yeri qalmır ki, Sədrəddin Soltan İbrahim əl-Əmini elə Yəməni Herəvidir!*

****** *Xanəgah* – Dərvişlərin toplaşdıqları və Allaha zikr (zikre-
**s.29** Xoda) etdikləri yerdir (məsələn məscidlər). Xanəgah haqqında çox fikirlər söylənilmişdir. Kaşani deyir: "Xanəgah, hərçənd ki, sufilərin *(motəsəvvəfe)* məskənidir, amma elə peyğəmbərin dövründə də *səhabələr* xanəgahlarda toplaşmışlar, yə'ni Mədinə şəhərindəki xanəgah rəsulun kasıb əshablarının bir yerə yığışdıqları məkan olmuşdur. Heç şübhəsiz ki, xanəgah islam millətinin ziynətləri arasında bir ziynətdir. Xanəgahlarda, axşam düşməzdən əvvəl sufilər top-

laşaraq iki rükət namaz qılır, sonra bir-birləri ilə söhbətə başlayırlar.

*"Xanəgah"* və *"xanə"* sözlərindən aşağıdakı söz birləşmələri yaranmışdır: Xanəgahe-təkvin, xanəgahe-mələkut, xaneye-xommar, xaneye-bəqa, xaneye-del (Bax: Dr. S.C.Səccali, Göst. əsər, səh. 338-341).

* *Sədrəddin Musa* – Səfiəddinin Şeyx Zahidin qızı Bibi
**s.30** Fatimədən doğulan oğlu (Bax: Dünyanı bəzəyən Abbasın tarixi, səh. 26).

* *Sultan Sədrəddin Musa* – "Fütuhate-Yəməni" əsərində
**s.32** adı böyük ehtiramla çəkilən Səfəvi şeyxi Sədrəddin Musa.

* *"Nəfəhatül-üns"* – Böyük şair, alim, irfan sahibi olmuş
**s.33** *Nurəddin Əbdürrəhman ibn Əhməd Caminin* (1414-1492) məşhur sufilərin tərcümeyi-halına həsr olunmuş əsərinin adıdır (Bax: Ç.A. Stori. Persidskaə literatura, Bio-biblioqrafiçeskiy obzor, Pererabotal i dopolnil Ö.G.Breqelğ, Moskva, 1972, tom I, str. 561).

Cami məşhur fars şairlərindən olmuşdur. Onu klassik fars poeziyasının *son şairi* adlandırmışlar *(xatəmüş-şüəra)*. Nüfuzlu ruhani ailəsində doğulmuş, Herat və Səmərqənddə təhsil almışdır. Vaxtı ilə saray mühitindən ayrılmış və *nəqşbəndilik* təriqətinə qoşulmuşdur. Ə.Nəvai Caminin tələbəsi, dostu və himayədarı olmuşdur. *Cami üç şe'r divanının müəllifidir*: "Fatihətüş-şəbab" ("Gəncliyin ilk fəsli"); "Vasitətül-əqd" ("Boyunbağının orta gövhəri"); "Xitamətül-həyat" ("Həyatın sonu"). *Nizami Gəncəvinin* "Xəmsə"sinə nəzirə olaraq "Həft övrəng" ("Yeddi ərş") əsərini yazmışdır. M.Füzuli Caminin "Hədisi-ərbəin" adlı əsərini Azərbaycan dilinə mənzum tərcümə etmişdir. Caminin yaradıcılığı Yaxın və Orta Şərq xalqlarının ədəbiyyatına güclü təsir göstərmişdir (Bax: Azərbaycan Sovet Ensiklopediyası, X cild, səh. 396).

** *Kaşef* – "Kəşf" sözündəndir (kəşf-pərdəni açmaq, soyun-
**s.33** durmaq, sirri aşkara çıxarmaq mə'nasındadır). Kəşflərə *"mokaşefat",* onları açanlara isə *"kaşef"* demişlər. Kəşfin aşağıdakı növləri vardır: Kəşfe-xəvater, kəşfe-əyani, kəşfe-mocərrəd, kəşfe-mə'nəvi, kəşfe-nəzəri, kəşfe-nuri (bu kəşfə

"kəşfe-moxəyyel" də deyirlər). Mən əgər kəşf, kaşef və kəşflərin növləri haqında geniş mə'lumat yazsam, böyük bir məqalə alınar (Bax: Dr. S.C.Səccadi, Göst. əsər, səh. 657-664).

*** s.33 *Seyid Qasim Ənvar (yaxud Şah Qasim Ənvar)* – 1356-1434-cü illərdə yaşamış *Azərbaycan şairi və mütəfəkkiridir*. Əsərlərini fars və azərbaycan dillərində yazmışdır. O, Ərdəbildə təhsil almış, dövrünün görkəmli alimi və təriqət başçısı *Sədrəddin Ərdəbilinin* (Sədrəddin Musanın) şagirdi olmuşdur. Yaradıcılığına *İmadəddin Nəsiminin və Cəlaləddin Ruminin* böyük təsiri vardır. "Divan", habelə "Ənisül-arifeyn", "Məqamətül-arifeyn" adlı məsnəviləri vardır. Dünyagörüşü sufiliyin, hürufiliyin və Şərq peripatetizminin tə'siri altında formalaşmışdır. Şah Qasim Ənvara görə, insanla kainat *"Allah"* məfhumu altında vəhdət təşkil edirdi (Bax: ASE, III cild, Bakı, 1979, s.79).

* s.34 *Xacə Əli, yaxud Sultan Xacə Əli* (1392-1427) – Bu şeyx haqqında O.Ə.Əfəndiyev mənbəyə əsaslanaraq yazır: "Teymur Kiçik Asiya yürüşündən qayıtdıqda Ərdəbildən keçməli olur. O, şeyx Xacə Əlinin xahişi ilə Kiçik Asiyadan gətirdiyi əsirləri azad edərək, onları səfəvi şeyxlərinə xidmət etmələrindən ötrü Ərdəbil ətrafında yerləşdirir" (O.Ə.Əfəndiyev. Göst. əsər, səh. 42).

** s.34 *Saf sufilər (sufiyyeye-safiyye)* – "Sufi" sözü "sufə" kəlməsindən yaranmışdır. "Sufə" bəzi məlumata görə, bir neçə ehtimal ilə əlaqədardır:

1. Bu söz Həcc və Kə'bə rəhbərlərinə xidmət edən (xademan) *"Bəni-sufə"* adlı qəbilənin adından götürülmüşdür;
2. Bu söz cahiliyyət dövründə Kə'bə xidmətçisi və Həcc rəhbəri olmuş *Sufə Qövs ibn Mərin* adı olmuşdur;
3. Sufə, yaxud suf sözünün bir mə'nası da *"uzun və pərişan saçlı adam"*dır;
4. Bir nəsil və bir kökdən olmayan müxtəlif qəbilə və tayfaların bir yerə toplaşaraq əlbir olmaların ada *"sufə"* deyilmişdir;

5. “Sufə və “sufi” kəlmələri, həmçinin *“təsəvvüf”* ifadəsi “səfa və səfvət” (“pak və ən yüksək”) sözlərini ifadə edir (Bax: S.C.Səccadi. Göst. əsər, səh. 538-541).

*“Sufi”* istilahı uzun illərdir ki, geniş təhlil və tədqiqat obyektinə çevrilmişdir. Sufizmə diqqət yetirən tədqiqatçı Könül Bünyadzadə yazır:

“Sufi” – Təsəvvüf təriqətinin (sufi ifadəsinin lüğəti mə’naları: “əs-səfa”-saflıq, “əs-səff”-namaz qılanların birinci cərgəsi, “əs-sufanə”-çöl, “əs-suffa”-məsciddə daş çıxıntı, yunanca “sofiya”-hikmət, “əs-suf”-yun və s.) ağ yun paltar geyinməklə başqalarından fərqlənən üzvüdür. Yuxarıda sadalananlardan sufilərin geyindikləri ağ yun paltara görə bu adı aldıqları fikri həqiqətə daha uyğun sayılır. Sufizm tarixinin əvəzsiz mənbəyi sayılan *“Lumə”* (“Qısa şərh”) əsərinin müəllifi *Şeyx Əbu Həsr Sərrac Tusi* öz kitabında yazır: *“Ağ paltar onların niyyətini bildirir”.* Sufizm islam dininin əsasları üzərində qurulmuş mürəkkəb bir *dini – mistik təcrübədir.* O, Quran və hədislərə əsaslanın, insanın mistik (irfani – *Ş.F.*) istiqamətinə və könül tərbiyəsinə işarə edən *əxlaq və təfəkkür sistemidir*. Peyğəmbərlərin, xüsusiylə *Məhəmməd peyğəmbərin* həyatı və kəlamları da sufizmin mənbəyi sayılır. Görkəmli sufi şeyxi *Cüneyd Bağdadinin* belə fikri nəql edilir: “Təsəvvüf – bu 8 hiss üzərində qurulub: təmizlik, razılıq, səbr, işarət, qürbət, yun paltar geyinmə, səyahət, fəqirlik. *Təmizlik* İbrahimə, *razılıq* İshaqa, *səbr* Əyyuba, *işarət* Zəkəriyyaya, *qürbət* Yəhyaya, *yun paltar* Musaya, *səyahət* İsaya, *fəqirlik* (ehtiyac, bir Allaha ehtiyacı olmaq) Məhəmməd (c.) peyğəmbərlərə məxsusdur”. K. Bünyadzadə sözünə davam edir:

Sufizmin bir mənbəyi də *İnsandır.*

Sufizmin bir mənbəyi, son nöqtəsi *Kamil İnsan* olmaqdır;

Sufi öz haqqına qovuşub *Kamil İnsan mərtəbəsinə* çatır.

Sufizmin son qayəsi, müəyən zaman kəsiyində yaradılmaqla, məhrum olduğu əsl *bəqa* (bəqabillah-Haqla var olmaq) halına dönüşünə hazırlıq olaraq *fəna* (fənafillah-

insaniliyin Haqq nurunda yox olması, ruhun maddilikdən azad olması) halına çatmaqdır" (Şeyx Cüneyd Bağdadi).

Beləliklə, deyilənlərdən sufizmin mahiyyətini qısa olaraq belə ifadə etmək olar: Yer üzünün əşrəfi sayılan İnsan öz içində yatan şeytana-nəfsinə qalib gəlməli, heyvani ruhunu susdurub özünün həqiqi mahiyyətini anlamalı, o dərəcədə kamilləşməli, ülviləşməli, tənzimlənməlidir ki, ona baxan Allah onda öz əksini görə bilsin" (Bax: Könül Bünyadzadə. Haqqa gedən yol (Sufizm haqqında qeydlər), "Çıraq" jurnalı, №2, Bakı, 2000, səh.50-53).

Məşhur alim d-r Seyid Cəfər Səccadi *"sufi"* istilahinin məzmunu barədə öz əsərində 7 səhifədən ibarət mə'lumat vermişdir. O, yazır: "Bu söz və onun mə'naları barədə çox yazmışdır: suf-yun, yun paltar, birinci "səf"də dayanan adam və "səfa" sözünün mə'nalarından biridir… *Əbu Reyhan Biruni* bu sözün ərəbcə olmadığını yazır və onun kökünün yunanca *"sufya"* sözündən götürüldüyünü bildirir. Onun fikrincə, "sufya" hikmət və bilik mənasını verir".

Başqa fikrə görə, bəzi alimlər "sufi" istilahının *"əhli-səfe",* yəni "füqəra, zahid və abidlər əhli" mə'nasını daşıdığını bildirirlər (Bax: Dr. S.C.Səccadi, Göst. əsər, səh. 537-538).

*** *Əmir Teymur* (1336-1405) – Orta Asiya dövlət xadimi,
s.34 sərkərdə, əmir, Teymurilər imperiyasının banisi. *Türkləşmiş bərlas tayfasındandır*. 1361-ci ildə Toğluq Teymurun yanında xidmətə girmiş və *Qaşqadərya* vilayətini idarə etmişdir. Sağ dizindən və çiynindən aldığı yaradan ayağı qatlanmadığına görə ona *"Teymurləng"* ("Topal Teymur") ləqəbi verilmişdi. Səmərqənd və Bəlx hakimi Hüseynlə ittifaq bağlayıb, uzun müddət *Toğluq Teymura və onun oğlu İlyas Xocaya* qarşı mübarizə aparmışdır. 1366-cı ildə Teymur və Hüseyn Səmərqənddə *sərbədarilər üsyanını* yatırdılar. Hakimiyyət uğrunda mübarizədə 1370-ci ildə Hüseynə qalib gələn Teymur *"əmir"* titulu qəbul edərək, *Çingiz xanın nəsli adından* Mavərənnəhri tək idarə etməyə başladı. Teymur hakimiyyətini möhkəmləndirməkdə köçəri ə'yanlara, oturaq feodallara, xüsusilə müsəlman ruhanilərinə arxalanırdı. 1380-ci ildən

Teymurun işğalçılıq yürüşləri daha da genişləndi. 1386-cı ildə o, *Sultaniyyəni tutub, Təbrizə, Naxçıvana, Qarsa, Tiflisə, Şəkiyə, Qəbələyə, Qarabağa hücum* etmiş, 1387-ci ildə *Salmas, Urmiyə və Marağadan* keçib Gilana, oradan isə Səmərqəndə qayıtmışdı. Teymur sonralar *"beşillik"* (1392-ci ildən) və "yeddi illik" (1399-cu ildən) yürüşlər zamanı da Azərbaycana hücum etmişdi. Uzun mübarizədən sonra Qızıl Orda xanı *Toxtamışa* qalib gəlib, xanlığın paytaxtı Saray Bərkəni və s. şəhərləri talamış, 1398-ci ildə Hindistana hücum edərək Dehlini tutmuşdu. 1400-01-ci illərdə Sivas, Dəməşq və Bağdadı işğal etmiş, Ankara vuruşmasında (1402) Türkiyə sultanı İldırım Bayazidə qalib gəlmişdi (Şirvanşah I İbrahim və Şəki hakimi Sidi (Seydi – *Ş.F.*) Əhmədin hərbi dəstələri də Teymurun tərəfində vuruşurdu). 1404-cü ildə Teymur Səmərqəndə qayıtmış, *Çinə hücum ərəfəsində xəstələnib ölmüşdür* (Bax: Azərbaycan Sovet Ensiklopediyası, IX cild, 1986, səh. 187-188).

Əmir Teymur alimləri, şeyxləri, şairləri himayə edər, tez-tez onların məclislərində iştirak edər, hətta mübahisələrə də girərdi. O, xristian dünyasına qarşı sanki "*Şərqin müdafiəsinə*" qalxaraq, Avropaya hökmlü məktublar yazıb göndərirdi. "Bütün aləm ancaq tacirlərin əməyi sayəsində gülşən olur. Tacirlərin sıxışdırılması yolverilməzdir. Mən istərdim ki, biz bu yerlərdə firəng tacirlərini necə himayə ediriksə, bizim tacirlərimizə də o yerlərdə eyni cür münasibət bəslənilsin" (Bax: German Vamberi. "Əmir Teymur" kitabı, *Yaqub Mahmudovun* "Böyük türk sərkərdəsi Əmir Teymur" adlı məqaləsi, Bakı, 1992, səh. 6).

Teymur həm də *"Tüzukate-Teymuri"* adlı kitabın müəllifidir. Əsər 1991-ci ildə Bakıda azərbaycanca nəşr olunmuşdur /özbəkcədən çevirəni Məti Osmanoğlu/.

***s.35** *Ceyhun çayı* – Amu-Dərya çayının ərəbcə adıdır.

**** s.35** *Qüdsi-Xəlil*-Mən əsərin bu yerini tərcümə edərkən "*Qüdsi-Xəlil*" ifadəsinin mə'nasını başa düşməmişdim (Bax: Tarixe-aləmaraye Abbasi, c. I, səh.15), amma bir səhifədən

sonra yenə həmin ifadəni gördüm və onun *Beytülmüqəddəs* şəhərinə aid olduğunu bildim – *Ş.F.*

***
s.35 *Xirqə*-Sufilərin geyindikləri paltardır. *Həcvizinin* yazdığına görə, sufilər vəcd vəziyyətində olduqları vaxt özlərindən xəbərsiz dövrə vururlar və xirqə geyinirlər. *Xirqənin mə'nası* "vəlayətin kölgəsi olmaq" mə'nasındadır (Vəlayət-Haqqa qul kimi xidmət göstərən şəxslərə deyilmişdir – *Ş.F.*). Xirqə geyinmək *şeyxi tanımaqdır, Haqqı qəbul etməkdir.* Xirqə bir neçə cür olmuşdur: *Xirqeye-təvəccoh; xirqeye-iradət, xirqeyl-təbərrük; xirqeye-nüsrət.*

*Kaşani* isə deyir: "Xirqə iki növdür: *Xirqeye-iradət* və *xirqeye-təbərrük. İradət xirqəsi*-şeyxin öz müridinə bəsirət nuru ilə baxaraq onun batini əhvalını gördükdən sonra müridə geydirdiyi xirqədir; *təbərrük xirqəsi* isə, şeyxlərin xirqəsinə təbərrük niyyəti ilə nəzər saldıqdan sonra inayət olunan xirqədir.

S.C.Səccadiyə görə *vəlayət xirqəsi*-şeyxin öz müridində vəlayət tə'sirini gördükdən və onun artıq kamillik çatdıqdan sonra ona təqdim etdiyi xirqədir.

*Səma'* sahiblərinin (sufinin öz varlığını belə unudaraq sufiyanə rəqs etməsi – *Ş.F.*) xirqəsi də iki növdür: *Xirqeye-səhihə* və *xirqeye-moməzzeqə*. Bunlardan başqa *xirqeye-moləvvən* və *xirqeye-adət* də vardır. Biz bütün bu istilahların açılışını versək, mətləb çox uzanar (Bax: S.C.Səccadi. Göst. əsər, səh. 445-491).

****
s.35 *Mə'na və surət – Mə'na* məqsəd və muradı ifadə edir. Mə'na həmçinin kəlamın və sözün dərk edilməsidir. Mə'nanın *"həqiqət"* mə'nası da vardır. Batini mə'na-batin və həqiqət yoludur.

*Şeyx Əttarın "Məntiqüt-teyr" əsərində* belə bir beyt vardır ki, mə'na sözünün bir mahiyyətini açıqlayır:

*"Söylədi: Əxlaqı yox bir qövmdür*
*Yə'ni mə'nada nə erkək, nə dişi"*[1]

[1] Beytin farscası:

*"Çoft: İn qovmənd əz tərdamənan,*
*Dər rəhe-mə'ni nə mərdan, nə zənan"*

Ali dərəcəli mə’na yaradan ustadlara *“mə’ni-afərin”* demişlər, mə’nalı sözlər danışana “mə’nidar” söyləmişlər (Bax: Dr. M.Moin, Göst. lüğət, IV cild, səh. 4245).

*Surət haqqında* isə dr. S.C.Səccadi belə məlumat verir: *İlkin əqlə surət demişlər.* İzzəddin Nəsəqiyə görə *“İlkin əql”* məfhumu altında *peyğəmbər* başa düşülür. İlkin əql-varlığın ilki və məxluqatın *Adəmidir.* Tanrı adamları Adəm surətində yaratmışdır. Dil-insan əqlinin, Adəm isə ilkin əqlin surətidir. Surət təkcə Adəmə aid istilah deyildir, bütün peyğəmbərlər ilkin əqlin surətləridirlər (Bax: Dr. S.C.Səccadi. Göst. əsər., səh. 535-536).

***** *Bəst*-İnsanların qorxu və ittiham səbəbindən pənah
**s.36** gətirdikləri yer. Bəst yeri elə bir məkandır ki, həbs olunmaqdan qorxan şəxslərə orada hücum olunmur, çünki, bəstə sığınan adamlar yalnız müqəddəs yerlərdə, məsələn, üləma və böyük şəxsiyyətlərin saraylarında yerlşib özlərinə *sığınacaq tapırlar* (Bax: Dr. M.Moin. Göst. lüğət, I cild, səh. 528).

****** *Sultan Şeyx İbrahim* – Sultan Xacə Əlinin oğludur (1427-
**s.36** 1447). Onun Əbu Səid, Əhməd, Bayazid, Xacəcan Mirzə, İbrahim Xacəgi və Cüneyd adlı oğlanları olmuşdur.

******* *Hicaz*-Ərəbistan yarımadasının qərb sahilində
**s.36** yerləşmişdir (Bu günkü Səudiyyə Ərəbistanı). Hicazın ən mühüm və qədim şəhərləri Məkkə və Mədinədir (Bax: Dr. M.Moin. Göst. lüğət, V cild, səh. 455).

***** *Sultan Cüneyd* – Cüneydə qədər ilk səfəvi şeyxləri *şiə*
**s.38** *deyil, sünni olmuşlar. Səfəvilərin şiə təriqətinə qoşulması* XV əsrin ortalarına təsadüf edir və bu, onların siyasi mübarizə meydanına çıxması ilə əlaqədardır. Səfəvilər başa düşürdülər ki, onların Azərbaycanda hakimiyyətə gəlmək niyyətləri hərbi qüvvə olmadan mümkün deyildir. Buna görə də onlar Azərbaycanda, qonşu ölkələrdə yaşayan yarımköçəri tayfaları öz tərəflərinə çəkmək və onların hərbi qüvvə kimi istifadə etmək qərarına gəldilər.

Səfəvilər Azərbaycanda *siyasi hakimiyyət uğrunda mübarizəyə* Şeyx Cüneydin (1447-1460) və Şeyx Heydərin (1460-1488) təriqət rəhbərliyi dövründə başlamışlar. O vaxt-

lar Ərdəbil rəsmən əvvəlcə *Qaraqoyunlu*, sonra isə *Ağqoyunlu* dövlətinin tərkibində olsa da, Səfəvi şeyxləri artıq Ərdəbildə hakimiyyəti ələ keçirmişdilər.

1449-cu ildə Şeyx Cüneydin nüfuzunun artmasından ehtiyatlanan *Cahanşah Qaraqoyunlu* onu Ərdəbildən çıxmağa məcbur etdi. Cüneyd 7 il ərzində Kiçik Asiyada və Suriyada varsaq və zülqədər tayfaları hesabına öz müridlərinin sayını artırdı. O, 1456-cı ildə 20 min müridlə Diyarbəkr hakimi *Uzun Həsənin* yanına gəldi. Cahanşahla mübarizəyə hazırlaşan Uzun Həsən səfəvilərlə ittifaqa girməyi münasib bildi və bu məqsədlə *bacısı Xədicə bəyimi* Şeyx Cüneydə ərə verdi.

Ərdəbildə Səfəvi təriqətinin rəhbərliyinə Cahanşahın köməyi ilə əmisi *Şeyx Cə'fər* (Xacə Əlinin oğlu – *Ş.F.*) keçdi (1449-1470). 1459-cu ildə Şeyx Cüneyd Ərdəbilə qayıtmaq istədi, lakin əmisi buna icazə vermədi. O, bir dəstə müridlə "çərkəz diyarı"na qəzavat yürüşü təşkil etdi və sonra qışlamaq üçün Qarabağa qayıtdı. 1460-cı ildə Cüneyd bir daha *Dərbənddən şimala* hərbi səfərə çıxdı. Səfərlər vaxtı müridlər hər dəfə *Şirvandan* keçməli olurdular, bu isə *Şirvanşah Fərrux Yəsarı* narahat etməyə bilməzdi. Bu dəfə Şirvan qoşunları Cüneydin yolunu kəsdilər. Martın 4-də Samur çayı sahilində baş vermiş döyüşdə Şeyx Cüneyd həlak oldu (Bax: Azərbaycan tarixi (Yeddi cilddə), Üçüncü cild, Bakı, 1999, səh.98-99).

***** *Qəza* – ölmək, keçinmək mə'nasını verən *ərəb sözüdür*.
**s.39** Qəzaya başlayan dəstələrin yürüşü "*qəzavət*" adlanırdı (Bax: Dr. M.Moin. Göst. lüğət, II cild, səh.2685).

Əzəliyyətdən əbədiyyətə qədər baş verən əhvalatlara da "qəza" deyilir.

*Nə yaxşı, ya nə pis iş verirsə baş-qəzadır,*
*Qəzanı yerdə şamil Rəbbə etmək xətadır*[1]

---

[1] Beytin farscası:

*Hər nik-o bədi ke, mişəvəd çon ze qəzast,*
*Danestəne-an ze Həqq eyni xətast.*

*Nəsəfi* deyir: "Xudanın hökmü başqadır və qəza başqadır. Əzəli elm Onun (Allahın – *Ş.F.*) hökmüdür. Bu aləmdə baş verən hər şeyi O edir… Ey dərviş! *Onun elmi Onun hökmüdür*. Bu aləmdəki *bütün səbəblər* (əsbab) yalnız onun qəzasıdır. Sən yəqinliklə bilirsən ki, bu aləmdə baş verən [hər hadisənin] səbəbi yalnız Odur" (Bax: Dr. S.C.Səccadi. Göst. əsər, səh. 640-641).

M.Z.Pakalın isə qəzanı "*kafirlərlə döyüşə yollanmaq adlandırır*". Qəzaya "cihad" da deyilir. Şair Nəf'i yazır:

*"Tiğinə nöla yəmin eylərsə ruhe-Mörtəza,*
*Bir qəza etdin ki, xoşnud eylədin peyğəmbəri".*

(Bax: M.Z.Pakalın. Göst.lüğət, I cild, səh.651).

Qazi – din uğrunda döyüşən müsəlmanlara aid istilahdır. Bu yolda ölən qazilərə *"şəhid"* deyilir. "Dönərsəm qazi, ölərsəm şəhid" zərbülməsəli məşhurdur (Bax: M.Z.Pakalın, Göst.lüğət, I cild, səh.654).

** *Cahad (cihad)*– Kafərlə cəng etmək deməkdir, əlbəttə
s.39 islamı yaymaq məqsədi ilə! Qazilərin cahadı din düşmənlərinə qarşı qılıncla aparılır, amma *arifin cahadı* isə öz nəfsini yox etmək məqsədi ilə onun öz-özü ilə apardığı cahaddır.

*Xacə Abdulah [Ənsari]*deyir: "Cahad 3 növdür: 1) *nəfs cahadı;* 2) *Ürək cahadı;* 3) *mal cahadı*.

Cahad ya zahiri olur, ya batini. Zahiri cahad qılıncla kafərə olan cahaddır, batini cahad isə qəhrlə nəfsə qarşı cahaddır".

*Şah Ne'mətullah* [Vəli] deyir: Cahad iki qismdir: *kiçik cahad* (cəhade-əsğər), *böyük cahad* (cəhade-əkbər). Böyük cahaddan məqsəd *nəfs ilə cahaddır*.

"*Mövləvi* (Cəlaləddin Rumi – *Ş.F.*) deyir:

*"Cahadlar əkbərlə, əsğərlə olur,*
*Hər biri Rüstəmlə, Heydərlə olur".*[1]

(Bax: Dr. S.C.Səccadi, Göst. əsər, səh.295-296).

---

[1] Beytin tərcüməsi:
*İn-cəhade – əkbərəst, an əsğərəst,*
*Hər do kare-Rostəməst-o Heydərəst.*

***
s.39 *Mirzə Cahanşah* – Cahanşah Qaraqoyunlu, dövlət başçısı Qara Yusifin oğlu, *Qara İsgəndərdən* sonra (qardaşı –*Ş.F.*) Qaraqoyunlu dövlətinin hökmdarı (1435-1467). *Teymuru Şahruxun* ölümündən sonra (1447) tamamilə müstəqil siyasət yürüdən Cahanşah *oturaq feodallara arxalanır*, mərkəzi hakimiyyətə tabe olmaq istəməyən *köçəri əmirlərə qarşı* mübarizə aparırdı. Dövrünün geniş mə'lumatlı adamı, bacarıqlı dövlət xadimi olan Cahanşahın hakimiyyət illəri Qaraqoyunlu dövlətinin *ən qüvvətli dövrü* idi. Hakimiyyətini möhkəmləndirən və güclü ordu yaradan Cahanşah sonralar işğalçılıq siyasəti yeridir və Qaraqoyunlu dövlətinin ərazisini genişləndirməyə çalışırdı. İranın şimal torpaqlarını tutmaq üçün Cahanşah keçmiş müttəfiqi teymurilərə qarşı mübarizəyə başladı. 1457-ci ildə Cürcan yaxınlığındakı vuruşmada Qaraqoyunlu qoşunları teymuri sərkərdəsi *İbrahim Mirzəni* məğlub edib *Xorasan vilayətinə* daxil oldu. Cahanşah 1458-ci ilin iyulunda teymurilərin mərkəzi *Herat şəhərini tutdu*. Cahanşah əsas qoşunu ilə hərbi səfərdə olduğu zaman köçəri feodallar *Cahanşahın oğlanları Həsənəlinin* (Azərbaycanda), Pirbudağın (Bağdadda) ətrafında birləşib qiyam qaldırdılar. Bu xəbəri eşidən Cahanşah 1459-cu ilin yanvarında *teymuri Əbu Səidin* barışıq haqqında təklifini qəbul edib Herat şəhərində müqavilə bağladı və teymurilərdən böyük təzminat alıb geri qayıtdı. Cahanşah hərbi səfərdən qayıtdıqdan sonra uzun müddət feodal qiyamlarını yatırmaqla məşğul oldu. Lakin onun mərkəzi hakimiyyəti qüvvətləndirmək sə'yləri nəticəsiz qaldı. Xalq kütlələrinin son dərəcə ağır vəziyyətdə yaşaması ilə əlaqədar sinfi ziddiyyətlərin kəskinləşməsi, feodal çəkişmələri və s. Qaraqoyunlu dövlətinin getdikcə zəifləməsinə səbəb oldu və *Ağqoyunlu Uzun Həsənin* qaraqoyunlular üzərində qələbə çalması üçün əlverişli şərait yaratdı. Qaraqoyunlularla ağqoyunlular arasında gedən mübarizə XV əsrin 60-cı illərində daha da kəskinləşdi. 1467-ci ilin mayında Muş yaxınlığında baş vermiş vuruşmada *Uzun Həsən qaraqoyunlulara qalib gəldi, Cahanşah öldürüldü* (Bax: ASE, III cild, 1979, səh. 54).

1971

Cahanşah da öz sələfləri kimi dövrə müvafiq olaraq *istila siyasəti* yeridirdi. Ərdəbilin Səfəvi şeyxlərindən olan *Cüneydə qarşı* Cahanşahın münasibəti yaxşı olmamışdır. Həmin şeyxin *şiə təbliğatından qorxuya düşən* Cahanşah 1459-cu ildə onun Ərdəbildən çıxarılması əmrini vermişdi. Tarixçi *Həsən bəy Rumlu* öz "Əhsənüt-təvarix" əsərində bildirir ki, Cüneyd Ərdəbili tərk edib Diyarbəkrə gələndən sonra qaraqoyunlularla düşmənçilik edən Uzun Həsən Ağqoyunlu ona məktub yazaraq "öz məhəbbət və e'timadını bildirmişdi". Ağqoyunluların dövlət hüdudlarının genişləndiyini görən Cahanşah *Uzun Həsənlə* döyüşmək barədə düşünürdü. Döyüşə yürüş başlansa da, nəticə ağqoyunluların xeyrinə oldu və Cahanşah qətlə yetirildi (Bax: Şahin Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə (Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" əsəri üzrə), Bakı, 1983, səh. 98-102.

**** *Hisn-Keyf* – Şərqi Anadoluda XV əsrdə ağqoyunluların
**s.39** böyük şəhərlərindən biri.

***** *Həsən bəy Ağqoyunlu* (1423-1478)- Görkəmli bəy,
**s.39** sərkərdə, hökmdar və diplomat. 1453-cü ildən başlayaraq Diyarbəkrdə Ağqoyunlu tayfa ittifaqına *başçılıq etmişdi*. O, Cahanşah Qaraqoyunlunun hakimiyyətinə son qoydu (1467), Teymuri Əbu Səidi məğlub etdi (1469), işğalçılıq müharibələrinə başladı. *Mərkəzi Təbriz olmaqla Ağqoyunlu dövlətinin əsasını qoyan Uzun Həsən* mərkəzləşdirmə siyasəti yürüdürdü. *Bacısını* Şeyx Cüneyd Səfəviyə, *qızını* isə Şeyx Heydərə ərə vermişdi. Özü isə *Trabzon* imperatorunun *qızını almış*, bu dövlətlə münasibət qurmuşdu. *Venesiya* ilə saziş bağlayan Uzun Həsən osmanlılara qarşı hərbi ittifaq da yaratdı, lakin sonralar məğlubiyyətə uğradı (1473). Onun hakimiyyəti dövründə Ərəb İraqı, Azərbaycanın cənubu, Azərbaycanın şimalının bir hissəsi (Kür çayına qədər), həmçinin bütün Qərbi İran (Əcəm İraqı, Xuzistan, Fars və Kirman) Ağqoyunlu dövlətinin tərkibində olmuşdur. (Bax: M.Abidova. Qosudarstvo Ak Koyönlu v İrane vo vtoroy polovine XV veka, Avtoreferat, Leninqrad, 1953, s.6; Şahin Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə, s. 105-107).

Uzun Həsənin hakimiyyəti dövründə Ağqoyunlu dövləti həqiqətən də möhtəşəm bir *imperiyaya* çevrilmiş, Yaxın və Orta Şərqdə güclü dövlət kimi *böyük şöhrət qazanmışdı*. O, fəth etdiyi ölkələrdə məhsuldar qüvvələri inkişaf etdirmək və oturaq əhalinin e'timadını qazanmaq məqsədi ilə xüsusi "*Qanunnamə*" hazırlatmışdı.

Uzun Həsən, mənbələrin mə'lumatına görə, öz *"Qanunnaməsi"* əsasında, rəiyyətdən vergi yığılarkən feodal və dövlət mə'murları tərəfindən həyata keçirilən sui-istifadə hallarının qarşısını ala bilmişdi. Uzun Həsənin qanunları Şərqi Anadoluda *"Həsən padşah qanunu"* adı ilə məşhur olmuş, oranı ələ keçirən osmanlılar çox-çox sonralar da həmin qanunları öz torpaqlarında tətbiq etmişlər. "Uzun Həsənə aid olan Şərqi Anadolu vilayətlərinin osmanlı qanunları" ünvanı altında 16 qanun dəftərinin *rus dilinə tərcüməsi* verilmiş (Bax: Ş.M.Mustafaev. Vostoçnaə Anatoliə ot Ak-Koönlu k Osmanskoy imperii, Moskva, 1994, s.149, 152-159,162) və göstərilmişdi ki, Mardin, Xərput, Ərzincan, Kəmax, Bayburt və s. şəhərlərdən toplanan vergilər "Həsən padşah qanunlarına" əsasən tənzimlənirdi.

Uzun Həsən Cahanşaha qalib gəldikdən və Azərbaycana yürüş edən Teymuri hökmdarı *Əbu Səidi* məğlub etdikdən sonra (1468-1469) əsasən *istilaçı siyasət* yeridirdi. XV əsrin 60-70-ci illərində Ağqoyunlu dövlətinin Osmanlı imperiyası ilə münasibətləri son dərəcə kəskinləşdi.

Uzun Həsən *Osmanlı dövləti əleyhinə* Avropa və Asiyanın bir çox dövləti ilə diplomatik danışıqlar aparmışdır. Osmanlı dövlətinin əsas rəqibi sayılan Ağqoyunlu dövləti ilə *Böyük Moskva knyazlığı, Polşa, Macarıstan, Almaniya, Venesiya, Böyük Orda* və s. dövlətlər diplomatik əlaqələr saxlamışlar. Ağqoyunluların xarici ölkələrlə danışıqlarında *Uzun Həsənin anası Saray xatun* böyük rol oynamışdır. O zaman *Venesiya respublikası* ilə daha sıx əlaqələr yaranmışdı. Osmanlı imperiyası əleyhinə danışıq aparmaq üçün *Katerino Zeno*, *İosofat Barbaro, Ambrocco Kontarini* Uzun Həsənin sarayına gəldilər, bu ağqoyunlu padşahının elçiləri *Hacı Məhəmməd,*

*Murad bəy* və b.-ları isə Venesiya, Neapol və Romada Türkiyəyə qarşı müzakirələr apardılar.

Beləliklə, 1472 və 1473-cü illərdə ağqoyunlu-osmanlı savaşları başlandı, ağqoyunlu süvariləri *Bursaya* qədər irəlilədilər. Avropa dövlətləri isə osmanlılara qarşı eyni zamanda hərbə başlaya bilmədilər, onların ağqoyunlu qoşunlarını odlu silah ilə tə'min etmək və'dləri də baş tutmadı. *Otluqbeli* (Tərcan, Üçağızlı) vuruşmasında (1473) ağqoyunlular məğlubiyyətə uğradı.

Ağqoyunlu dövlətinin güclənməsini istəməyən *gürcü knyazları* da Osmanlı dövlətinə qarşı Uzun Həsənlə əlbir hərəkət etməkdən boyun qaçırtdılar. Uzun Həsənin ölümündən (1478) sonra Ağqoyunlu dövlətində tayfalararası mübarizə gücləndi (Bax: ASE, I cild, səh.104).

Böyük padşah və sərkərdə olan Uzun Həsənin ölümü ilə Venesiya Respublikası və başqa Qərb dövlətlərinin Osmanlı imperiysını əsasən Ağqoyunlu dövlətinin əli ilə məğlub etmək planı qəti olaraq boşa çıxdı (Bax: Yaqub Mahmudlu. Azərbaycan diplomatiyası, Bakı, 1996, səh.123).

* s.40 *Çərkəz* – Qafqaz sıra dağlarının ətəyində yerləşən, Terek və Kuban çaylarının vadisində qərar tutan *Qafqaz tayfalarından* biridir. Qara dəniz sahilindədir. Çərkəz (Çərkəzistan) diyarının qədim tarixi və onların əsl-nəsilləri haqqında mə'lumat azdır (Bax: Dr. M.Moin. Göstərilən lüğət, cild V, s.411).

* s.41 *Şəhadət, şəhid* – şəhadət "şəhid olmaq", "şəhid" isə din yolunda ölən şəxs deməkdir. M.Z.Paklın yazır: "Allah yolunda yapılan bir müharibədə … ölən adam həm dünya, həm də axirət hökmləri e'tibarilə şəhid sayıldığından ona "*şəhide-həqiqi*" deyilir. Bir də "*şəhide-hökmi*" vardır ki, o da qərq (suda boğulma), həriq (yanğında yanmaq), qərib (kimsəsiz), yaxud zəlzələlə nəticəsində bina və ya torpaq altında qalaraq ölən mö'mindir. Elm yolunda ölən də "*hökmi-şəhid*" ("şəhide-hökmi" sayılır. Midhət Camal Kuntaj yazır:

*"Bayrağın bir yalanmıdır? Tutuyor*
*Hər karanlıkda bir şəhidin əli"*

(Bax: M.Z.Pakalın. Göst.əsər, səh.318).

** s.41 *Sultan Heydər, yaxud Şeyx Heydər* (I Şah İsmayılın *atası*, Uzun Həsən Ağqoyunlunun *bacısı Xədicə bəyimin əri*) – Şeyx Cüneydin *oğlu* olan Şeyx Heydər atasının siyasətini inamla davam etdirirdi. O, Uzun Həsənin qızı *Aləmşah bəyimlə* evlənərək (Aləm şahbəyimin əsl adı Marta olmuşdursa da o, mənbələrdə Aləmşah bəyim, ələmşah bəyim kimi də təqdim olunmuşdur – *Ş.F.*) öz hökmdar dayısı ilə ittifaqı daha da möhkəmləndirdi, Cahanşah və Teymuri Əbu Səidlə mübarizədə Uzun Həsənə kömək etdi. Ağqoyunlu hökmdarı 1470-ci ildə Şeyx Heydəri Ərdəbilə gətirdi və onu təriqət rəhbərliyinə qaytardı.

Şeyx Heydər döyüşçülərinə *12 şiə imamı şərəfinə* 12 qırmızı zolaqlı papaq geydirdi. Bundan sonra Ərdəbil şeyxinin bütün tərəfdarlarını *"qızılbaş"* adlandırmağa başladılar. Qızılbaşlar Azərbaycan dilində *"Qurban olduğum, sadağa olduğum, pirim, mürşidim"* – çağırışı ilə döyüşə girirdilər.

Dağıstana, *"kafirlərə"* qarşı *cahad yürüşləri* davam edirdi. Zəngin qənimət ələ keçirmiş Ərdəbil şeyxləri daha da qüvvətləndilər. 1488-ci ildə Şeyx Heydərin *Dağıstana* növbəti yürüşü zamanı Şirvanşah Fərrux Yəsar Ağqoyunlu *Sultan Yaqubdan* kömək istədi. *Tabasaranda, Şahdağın kənarında* Ağqoyunlu sərkərdəsi Süleyman bəy Biçənoğlunun qoşunu ilə toqquşmada qızılbaşlar məğlub oldular, Şeyx Heydər isə öldürüldü (Bax: Azərbaycan tarixi, III cild, səh. 99).

* s.42 *Ələmşah bəyim (Aləmşah bəyim)* – Həsən bəy Ruslu "Əhsənüt-təvarix" əsərində yazır ki, Sultan Heydərin ölümündən sonra Ərdəbil sufiləri onun böyük oğlu *Sultanəlini* hakimiyyətə çıxardılar, lakin qızılbaşların nüfuzunun getgedə artdığını görən Yaqub şah səfəvi qardaşları *Sultanəli*, İsmayıl və İbrahimi anaları *Aləmşah bəyimlə* birlikdə Ərdəbildən çıxarıb həbs etdi (Bax: Şahin Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə, Bakı, 1983, səh. 109).

** s.42 *Zöhrə (Venera)* – Bu səyyarə *Merkuri (Ütarüd)* planetindən sonra günəşə ən yaxın səyyarədir. Bu səyyarəni Yerin bacısı da adlandırmaq olar, çünki ölçü cəhətdən Yerə yaxındır, həmçinin Yerə ən yaxın planetdir. Zöhrənin günəş ətrafına

hərəkəti 225 gündür, elə buna görə də, onun bir ili 7 ay yarım müddəti əhatə edir. (Bax: Dr.M. Moin. Göst. lüğət,V cild, səh.661).

*******
**s.42** *Müştəri (Yupiter)* – Günəş sisteminin ən böyük səyyarələrindəndir. *Müştəri ilə günəş arasında* 778 milyon kilometr məsafə vardır. Onun dövrəvi hərəkəti 11 il və 315 gündür. Bu səyyarə Yerdən 1316 dəfə böyükdür. Bu iki planet arasındakı məsafə 626 milyon kilometrdir. Müştəri səthinin hərarəti $20^0$-dən $270^0$ dərəcə santiqraddır (Bax: Dr. M.Moin. Göst. lüğət, VI cild, səh. 1980-1981).

********
**s.42** *Qızılbaş* – Sultan Heydər Səfəvi və xüsusilə onun oğlu Şah İsmayıl vasitəsilə *şiə məzhəbinin genişlənməsi* və *Qızılbaş dövlətinin* yaranmasında rol oynayan müxtəlif *türk tayfalarına* verilmiş ad. Bu türk tayfaları başlarına qoyduqları qırmızı papağa görə məşhur olmuşlar. *Qırmızı papağı*, yaxud "qızılbaş tacı"nı ilk olaraq Sultan Heydər o vaxtadək türkmanların başa qoyduqları *türkman taqiyəsi* (papağı) əvəzinə baş geyimi dövriyyəsinə gətirdi. Şah İsmayılın hakimiyyətinin başlanğıcında Səfəvi xanədanının müridləri onun başına yağışaraq səltənətə gəlmək və ölkələr tutmaq işində, həmçinin şiəliyin yayılmasında gənc hökmdara kömək etdilər. Həmin adamlar 9 qəbilə üzvlərindən ibarət idilər: *rumlu, şamlı, ustaclı, təkəli, zülqədər, əfşar, qacar, vərsaq və Qarabağ sufiləri.* Bu qəbilələrin başçıları bəlkə də Səfəvi xanədanının böyük mürşidi Şeyx Səfiəddinin dövründə bu ailəyə baş çəkmiş, onların saf sufiləri və fədakar müridləri olmuşlar. Belə ki, Şah İsmayılın babası və atası Şeyx Cüneyd və Sultan Heydər səfəvi şeyxlərinin fədakarları kimi kafərlərə qarşı çıxaraq fəthlər etmək və hakimiyyətə gəlmək naminə *"qəza"* və *"cəhad"* adı altında fəaliyyətə başladılar. Onlar elə buna görə də siyasi və hərbi qüdrət göstəricisi olan "sultan" istilahını mənəvi və ruhani kəlmə olan "şeyx" sözünə əlavə etdilər. *Şah İsmayıl bütün İranı fəth etdikdən sonra* onun müvəffəqiyyətləri həmin tayfa başçılarının köməyi nəticəsində baş verdiyi üçün onlar *"mürşide-kamil"* yolunda fədakarcasına "əmirülüməra, bəylərbəyi, həmçinin xan, sultan və bəy adları

altında müstəqil hakimiyyətə yiyələndilər, geniş ərazilərə və əmlaka sahib oldular. Şah İsmayıl hər bir vilayəti tutduqdan sonra həmin yerlərin ələ keçirdiyi qənimətlərini, əsirlərini və torpaqlarını qızılbaş sərdarları arasında bölürdü. Beləliklə, *bütün İranda türk nəsilli və türk dilli tayfalar* hökmran oldular. Ölkədə elə qüdrət sahibləri peyda oldular ki, ölkənin və ordunun bütün böyük məqam və mənsəbləri onların əllərində cəmləşmişdi. Şah İsmayılın vəfatından sonra onun vəliəhdi olan *Təhmasib* hələ azyaşlı olduğundan, qızılbaş əmirlərinin qüdrət və nüfuzu şah sarayında və müxtəlif vilayətlərdə çoxaldı, onların hər biri özlərinin vilayət sərhədləri çərçivəsində tam özbaşına və zülmkarlıqla hakimiyyət sürməyə başladılar. Beləliklə, ölkə ərazisində *şiə məzhəbi* geniş yayıldı, siyasi hakimiyyət ruhani qüdrətə çevrildi, şahənşahlıq əzəməti qələbə çaldı, mə'nəvi nüfuz qazandı. Şeyx Heydər də Şah İsmayıl dövründə başa qoyulan qırmızı rəngli papaqları zərlə bəzənmiş ipək çalmalar, ciqqələr, rəngarəng lələklərlə (pərha) əvəz etdi. Amma, Şah Təhmasib hakimiyyətinin əvvəlindən başlayaraq qızılbaş əmirləri zahirdə "mürşide-kamil"ə iradət, vəfadarlıq və itaət edirdilərsə, lakin əvvəlki ruhani iman və sədaqət yavaş-yavaş zavala uğrayırdı. Belə ki, Şah Təhmasib cavan olduğu vaxt tayfa başçıları arasında səltənətə naiblik və böyük mənsəblərə çatmaq uğrunda mübarizə başlandı, hətta şahın hakimiyyətə gəlişinin yeddinci ilində səltənətdə nəyabət (naiblik) və vəkalət etməkdən ötrü təkəlu tayfasının *Ulamə adlı bir başçısı* mürşide-kamillə cəngə başladı, lakin məğlubiyyətə uğrayıb *Rum padşahı Sultan Süleymanın sarayına getdi*. Şah Təhmasibin vəfatı zamanı qızılbaş başçılarının müxalifət və nüfuzları artdı. II Şah İsmayılın fərmanı ilə *Məhəmməd Xudabəndə və onun üç fərzəndindən başqa* bütün səfəvi şahzadələri ya öldürüldülər, yaxud da kor edildilər. Başqa bir dəstə isə Xorasanda *Abbas Mirzəni* şahlığa qaldırdı. Sonra, II Şah İsmayılı hakimiyyətə gətirənlərin elə özləri də onu şahlıqdan saldılar, *mürşide-kamilin arvadını* onlara müxalif olduğu üçün həyasızlıqla ərinin qucağından çəkib boğdular. Bundan

sonra cavan vəliəhd Həmzə Mirzəni *dəlləkin əli* ilə öldürdülər, qızılbaşlar arasında özbaşınalıq, ixtilaf və hərc-mərclik elə çoxaldı ki, xarci düşmənlər sərhəd vilayətlərinə hücumlar etməyə başladılar. Şah Abbas bütün bunların qarşısını almaqan ötrü qızılbaşların irsi qüdrət və müstəqilliklərini məhdudlaşdırdı, onları hərbi cəhətdən zəiflətməkdən ötrü gürcü, çərkəs və erməni qulamlarından və qeyri müsəlmanlardan ibarət iki münəzzəm qoşun dəstəsi yaratdı. Şah Abbas tüfəng və başqa yeni silahlardan istifadəni ənə'nəvi silahlardan üstün sayaraq *ordunu yenidən təchiz etdi*, gürcü, çərkəs və erməni qulamlarına (qullar) e'timad etdiyindən onları böyük hərbi vəzifələrə tə'yin etdi və icazə verdi ki, onlar da başlarına qızılbaş tacı (tace-qızılbaş) qoysunlar. Beləliklə, *"yeni qızılbaşlar" adlanan hərbçilər meydana çıxdı*. (Bax: Lr.M.Moin. Göstərilən lügət. (VI cild. səh. 1459-1461).

********* **s.42** *Tuba ağacı* – Behişt ağacının adı, yaxud xeyir, səadət və xoşbəxtlik ağacı (Bax: Nəyyerzaman Səqəfi. Göst.lüğət, II c., Tehran 1999, s. 90).

********** **s.42** *Mövlana Əbubəkr Tihrani* – XV əsr Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi üçün qiymətli mənbə olan *"Kitabe-Diyarbəkriyyə"* əsərinin müəllifidir. *Teymuri Şahrux* vəfat edərkən (13 mart, 1447) o, Reydə bu hökmdarın məiyyətində idi. Sonra İsfahana qayıtmış, bu şəhərin Cahanşah Qaraqoyunlu tərəfindən fəthindən sonra (1452) Məhəmmədi Mirzənin (Cahanşahın oğlu) sarayında işləmiş, bu mirzənin Damğana (1457), Cahanşahın Xorasana (1458) yürüşlərinin iştirakçısı olmuşdur. Elə həmin vaxtlarda Əbubəkr Tihrani bu qaraqoyunlu padşahının hökmranlıq illərinin tarixini yazmaqla məşğul olmuşdur. Cahanşahın ölümündən sonra (1467) bir müddət Qəzvində yaşamış, Uzun Həsən Ağqoyunlunun də'vəti ilə (aprel-may, 1469) Ərdəbildə onun xidmətinə gəlmiş, bu ağqoyunlu hökmdarına yaxın şəxslərdən biri olmuşdur. Onun xətti ilə yazılan bir neçə sənəd indiyədək qalmaqdadır.

Əbubəkr Tihrani *İsfahanın Tihran kəndində* doğulmuşdur (Bax: Əbubəkr Tihrani. Kitabe-Diyarbəkriyyə (Ağqoyunlu-

lar tarixi), çapa hazırlayanlar Nicati Luğal və Faruk Sümer, I-II cildlər, Ankara 1962-1964, "Müqəddimə", s. VII; Şahin Fazil Fərzəlibəyli. Azərbaycan və Osmanlı imperiyası (XV-XVI əsrlər), Bakı, 1999, s. 10-11).

* s.43 *Sultan Xəlil* – Uzun Həsən Ayqoyunlunun vəliəhdi. Döyüşkən şahzadə idi. Həsən bəy Rumlunun mə'lumatına görə, Caşanşah Qaraqoyunlunun öldürülməsi ilə araya düşən qarışıqlarldan istifadə edən Uzun Həsən dərhal böyük oğlu Sultan Xəlili **Təbrizə** yollamış, beləliklə də, **Azərbaycan taxtına sahiblənmişdir**. Ancaq, elə o vaxt da Sultan Əbu Səidin Azərbaycana hücumu baş verdi və Uzun Həsən oğluna Təbrizdən çıxmağı əmr etdi (Bax: Şahin Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə, səh.103).

**Sultan Xəlil** ağqoyunluların bir sıra hücumlarında fəal iştirak etmişdir. Yenə tarixçi Həsən bəy Rumlunun mə'lumatına görə, Uğurlu Məhəmmədin (Uzun Həsənin böyük oğlu) ölümündən bir neçə gün sonra (5 yanvar 1478) Uzun Həsən də vəfat etdi. Onun ölümü ilə əlaqədar olaraq dövlət daxilində bir-birinə əks olan qüvvələrin qruplaşması başlandı, lakin əmir və dövlət başçılarının köməyi sayəsində səltənət taxtına şahın *böyük oğlu* Sultan Xəlil çıxdı. O, Diyarbəkri qardaşı *Yaquba* verib, həbsdə olan digər qardaşı Maqsud *bəyi (Dəspinə Xatundan doğulan şahzadəni – Ş.F.)* qətl etdikdən sonra Türkiyə ilə münasibətləri yaxşılaşdırmaq məqsədi ilə oraya elçi hey'əti göndərmişdi. Lakin, *bayanduri xanədanının* bir sıra üzvləri onun hakimiyyəti ilə razılaşmaq istəmirdilər. Sultan Xəlilə qarşı *əmisi oğlanları Murad bəy və İbrahim bəyin* üsyanları baş vermiş və onların hər ikisi qətl edilmişdi. Sultan Xəlilin hakimiyyətə gəlişindən bir neçə ay sonra qardaşı Yaqub bəy Diyarbəkr əmirləriylə Təbrizə hücum edərək öz şah qardaşını məğlub etdi və onu öldürüb taxta əyləşdi (Bax: Yenə orada, səh.107).

** s.43 *Sultan Yaqub* – Uzun Həsənin hakimiyyətə çıxmağa hazır olan beş oğlu vardı. *Böyük oğlu Sultan Xəlil* şahlığa ilk namizəd, *ikincisi Maqsud*, üçüncüsü və bir sıra tarixçilərin yazdıqlarına görə *ən layiqlisi Yaqub* idi. Dördüncü və beşinci

şahzadələrin adları Yusif və Məcih (Dəspinə xatunun oğlu – *Ş.F.*) idi. Fəzlullah ibn Ruzbehan Xuncinin mə'lumatına görə, ölüm yatağında olan Uzun Həsən Şirazdan gələn böyük oğlu Sultan Xəlilə taxta əyləşməyi məsləhət bilməmiş, bu yüksək vəzifəni Yaquba vəsiyyət etmişdi. Amma, Uzun Həsən vəfat edən kimi *Təbriz taxtına məhz Sultan Xəlil əyləşmiş*, Uzun Həsənin ölümünü və özünün Ağqoyunlu taxtına əyləşmə xəbərini rəsmən bildirmək üçün elçi Qazi Əlaəddin Beyhəqini İstanbula – II Qazi Məhəmməd Ruminin (Sultan Məhəmməd Fatehin – *Ş.F.*) yanına yollamışdı.

Amma hadisələr Yaqubun xeyrinə cərəyan etməkdə idi. Çünki, şahzadələrin bəziləri (Yusif, Murad ibn Cahangir, İbrahim ibn Cahangir) və ən əsası isə əlində böyük imkan və qüdrəti olan məlikülümərа Süleyman bəy ibn Bicən Sultan Xəlilə qarşı idilər. Uzun Həsənin vəfatından sonra, yenə də *Fəzlullah Xuncinin* mə'lumatına görə, şahzadə və əmirlər hakimiyyətin Sultan Yaquba veriləcəyini gözləyir və Xəlilə e'timad etmirdilər. Lakin bu belə deyildi.

Uzun Həsənin vəfatı ilə əlaqədar dövlət daxilində bir-birinə əks olan qüvvələrin qruplaşması başlandı, amma özünə tərəfdar olan əmirlərin və dövlət başçılarının fəal köməyi sayəsində səltənət taxtına böyük şahzadə Sultan Xəlil əyləşdi.

15 iyul 1478-ci ildə *Mərənd yaxınlığında* iki şahzadə qardaş arasında həlledici döyüş baş verdi və öldürülən *Sultan Xəlilin əvəzinə Sultan Yaqub ağqoyunlu taxt-tacının sahibi oldu.*

Sultan Yaqubun *12 illik hakimiyyəti dövründə* osmanlılarla düşmənçilik etmək meyli aradan çıxmış, Yaqub və Fateh arasında yazışmalar və elçi get-gəli normal vəziyyətə düşmüşdür.

Yeni Rum sultanı *II Bayazid* ilə Sultan Yaqub arasında bir neçə il yazışma davam etmiş, onlar bir-birlərinə əldə etdikləri qələbələr barədə vaxtaşırı mə'lumat vermişlər.

1485-ci ildə ağqoyunlu əmiri Bayandur xan Sultan Yaquba qarşı üsyan etdi. Tezliklə İsfahan daruğəsi Hacı bəy Əlpavut və Qum daruğəsi Mənsur bəy Zöhrab da ona qoşuldular.

Savə yaxınlığında baş verən döyüşdə üsyançılar məğlub edlmiş, Bayandur bəy öldürülmüşdü (Bax: Şahin Fazil Fərzəlibəyli. Azərbaycan və Osmanlı imperiyası (XV-XVI əsrlər), Təkmilləşdirilmiş II nəşri, Bakı, 1999, səh.89-91).

Sultan Yaqubun hərtərəfli düşünülmüş siyasəti nəticəsində Türkiyə ilə yanaşı Misir də Ağqoyunlu dövlətinə qarşı mübarizəni zəiflətməyə məcbur oldu. Urfa şəhəri yaxınlığındakı vuruşmada (1488) Ağqoyunlu ordusu Misir və Suriya sultanı *Seyfəddin Qayıtbəyin* (1468-96) qoşunlarını məğlub etdi.

Onun *Gürcüstan səfərləri* (1486,1487, 1489) nəticəsində Ağqoyunlu dövlətinin Gürcüstan üzərində hakimiyyəti bərpa olundu (Bax: ASE, cild 1, Bakı, 1976, səh.104).

Gürcüstanın fəth olunması xəbərini Rum sultanına bildirən Sultan Yaqub bu yürüşü *"cahad"* adlandırıb, gürcülərin ona qarşı müxalifətdə olduqlarını xüsusilə qeyd edir.

Sultan Yaqub yalnız II Bayazidlə deyil, onun oğlanlarından ən döyüşkəni Səlimlə də əlaqə saxlayır, onunla məktublaşırdı.

1490-cı ilin dekabr ayının 24-də 12 il Ağqoyunlu dövlətinə başçılıq edən Sultan Yaqub *gözlənilmədən öldü*. Onun vəfatını təfərrüatı ilə təsvir edən Fəzlullah Xunci bu gözlənilməz ölümün səbəbini qızdırma xəstəliyində görür. Lakin ondan sonrakı tarixçilər (Həsən bəy Rumlu, Müslihiddin Lari, Xoca Sə'dəddin, Təbrizli Arakel və başqaları) Sultan Yaqubun sui-qəsd nəticəsində zəhərlənərək öldüyünü yazırlar. Həsən bəy Rumlu bu ölümü belə təsvir edir: "Yaqubun anası *Səlcuqşah bəyim* ögey oğlu *Məsih Mirzəni* zəhərləmək istəmiş, təsadüfən zəhər Yaqubun və qardaşı Yusif bəyin nəsibi olmuş, vəziyyəti belə görən ananın özü də intihar etmişdir (Bax: Şahin Fazil Fərzəlibəyli. Azərbaycan və Osmanlı imperiyası, səh. 92-93).

******* *Sultan Xəlil* – Burada "Sultan Xəlil" əvəzinə Fərrux Yasar
**s.43** yazılmalı idi, çünki, Şeyx Heydərlə Şirvan şahı arasındakı vuruşma 1488-ci ildə Təbərsəranda (Tabasaran) olmuşdu və o zaman Şirvanın padşahı Fərrux Yasar idi.

* s.46 "*Həbibüs-siyər*" – Tam adı "Həbibüs-siyər fi əxbar əfrad əl-bəşər" olan bu əsərin müəllifi Qiyasəddin Xandəmir haqqında yuxarıda yığcam mə'lumat vermişdik. Tarixçinin üçüncü kitabı olan "Həbibüs-siyər" (bir neçə redaksiyada) 1520-1529-cu illər arasında yazılmışdır. *"İftitah"* və üç *"mucəlləd"dən* (cild) ibarət olan və onların hər biri dörd cüzə ayrılan "Həbibüs-siyər" aşağıdakıları əhatə edir: a) Peyğəmbərlər və aqil adamlar, b) İran və Ərəbistanın islama qədərki padşahları, c) Dörd xəlifə, d) On iki imam, e) Əməvilər, ə) Abbasilər, f) Abbasilərlə müasir olan sülalələr, s) Türküstan xanları; Cingiz xan və onun nəsli, ş) Misir məmlükləri, Kirman qarakitayları, Müzəffərilər, Luristan atabəyləri, Rüstəmdar və Mazandaran hökmdarları, sərbədarları, h) Teymur və onun nəsli (Sultan Hüseynin oğlanlarınadək), x) Şah İsmayıl Səfəvi (Bax: Ç.A.Stori. Göst.əsəri, I c., səh. 383-384).

** s.46 "*Tarixe-cəhanara*" – Qazi Əhməd ibn Məhəmməd ibn Nəcməddin Əbdüqəffar əl-Cəfəri əl-Qəffari əl-Qəzvininin həm də "Nüsəxe-cəhanara" adlanan kitabıdır. Tarixçi 1515-ci ildə Tehranda doğulmuşdur. Onun atası Reydə qazi olmuş, Sam Mirzənin (I Şah İsmayılın oğlunun) *"Töhfeyi-Sami"* təzkirəsində göstərildiyinə görə o, Həcc ziyarətindən geri qayıdarkən Sinddə (Daybul şəhərində) ölmüşdür.

"*Nüsəxe-cəhanara*" kitabı ümumtarix əsəridir və hadisələrin təsviri 1564-65-ci ilədək davam edir. Kitab I Şah Təhmasibə ithaf olunmuşdur. Əsər "ünvan" (dünyanın yaşı və peyğəmbərlik haqqında) və üç "nüsxə"dən (I nüsxə peyğəmbərlər və 12 imam, II nüsxə islama qədərki və islam dövrü padşahları, III nüsxə Səfəvilər haqqındadır) ibarət olub, *20 "səhifə"ni* ehtiva edir. "Səhifə"lərdə Əməvilərdən Səfəvilərə qədər fəaliyyətdə olmuş müxtəlif sülalə hökmdarları haqqında məlumat verilir (Bax: Ç.A.Stori. Göst.əsəri, I c., səh. 410-411).

*** s.46 *Bey'ət* – Bey'ətin, N.Səqəfiyə görə, 2 mə'nası vardır; 1) *ittifaq*; 2) *bir əqidəyə, inama, təriqətə and içmək* (Bax: Cöst. lüğət, I cild, səh.289). Dr. S.C.Səccadi isə yazır: "Bey'ət – *müridin kamil şeyxə tabe olmasıdır*, yə'ni müridin şeyxin

qayda-qanunlarını (dəstirat) mükəmməl şəkildə (be tovrekamil) icra etməsidir”. Hədise-şərifdə buyurulmuşdur: *Həzrət rəsula* 7 dəfə bey’ət etmişlər, onların 5-i taətdən ötrü, 2-si isə məhəbbətdən ötrü olmuşdur. Bu 7 bey’ət qəlbin 7 xüsusiyyətinin üzbəsurət (əza ’) yerinə yetirilməsidir (Bax: Dr. S.C.Səccadi. Göst.əsəri, səh.207-208).

* “*Xold-bərin*” ifadəsindəki hərflər burada əbcəd üsulu ilə
**s.47** hesablandıqda “səkkiz yüz doxsan altıncı il” alınır.

** *Neysan* – 1) Rum təqvimi ilə aprel ayına uyğun gələn ay;
**s.47** 2) Həmin ayda (yazda) yağan yağış (Bax: Nəyyer-zaman Səqəfi. Göst.lüğət, II c., səh. 781-782).

* *Ələnciq (Əlincə)* – Azərbaycanda qala. Naxçıvan
**s.48** MSSR-in Culfa rayonunda, *Əlincə çayının* sağ sahilində, sıldırım dağ zirvəsindədir. Əlincənin adı, ehtimal ki, *“Alancik”* (meydança, kiçik meydan, alan-qədim türk dilində düzənlik, meydan) sözündəndir. Bu, qalanın yerləşdiyi sahənin kiçik meydançaya bənzəməsi ilə əlaqədardır. Qalanın tikilmə tarixi müəyyənləşdirilməmişdir. Bə’zi tədqiqatçılar bu qalanın erkən orta əsrlərə aid olduğunu ehtimal edirlər. “Kitabi-Dədə Qorqud” dastanında Əlincə möhkəm istehkam kimi təsvir olunur. Əlincə haqqında tarixçilərdən Acoğik (928-1019), Stepanos Orbelian (1258-1304), Nəcəvi (XIII əsr), Şərəfəddin Əli Yəzdi (XV əsri), İspaniya səfiri Klavixo (XV əsr), türk səyyahı Övliya Çələbi (XVII əsr) və b. mə’lumat vermişlər. Qaladakı arxeoloji qazıntılar zamanı çoxlu saxsı qab parçası, sikkə və s. tapılmışdır. Orada qala rəislərinin və feodalların yaşadığı bişmiş kərpicdən tikilmiş binaların xarabalığı qalır. “Şahtaxtı” adlanan bu sahədə 600 süvarini yerləşdirmək mümkün idi. Qalada 7-dək hovuz qazılmış və onları yağış suyu ilə doldurmaq üçün xüsusi arxlar (şırımlar) çəkilmişdi.

*Eldəgəzlər dövründə* mühüm hərbi istehkam olan qala hökmlar ailəsinin sığınacaq yeri kimi istifadə olunurdu. *Naxçıvan hakimi Zahidə xatunun iqamətgahı* və *Eldəgəzlərin xəzinəsi Əlincədə yerləşirdi.* 1125-ci ildə Xarəzmşah Cəlaləddinin Azərbaycana hücumu zamanı Eldəgəz hökmdarı *Özbək* Əlincəyə sığınmış və burada döyüşlərin birində öldü-

rülmüşdür. Əlincə XIII əsrdə elxanilərin, XIV əsrdə isə cəlairilərin hakimiyyəti altında olmuşdur. 1386-cı ildə Teymur Əlincəyə hücum etmişdi. Qala ətrafında teymurilərlə cəlairilər arasında şiddətli vuruşmalar baş vermişdi. Qalanın mühasirəsi Teymurun oğlu Miranşaha tapşırılmışdı. Qalanın müdafiəsinə Cəlairi əmiri Altun başçılıq edirdi. *Cəlairilər dövlətinin xəzinəsi də Əlincədə gizlədilmişdi*. Azərbaycanın və Gürcüstanın bə'zi feodal hakimləri də Əlincə müdafiəçilərinə kömək edirdilər. 1399-cu ildə teymurilər üçüncü dəfə Əlincəyə hücum etdilər. Teymurun hücumu ərəfəsində aralarında olan ixtilafa görə Cəlairi sultanı Əhmədin oğlu Tahir növbəti hərbi səfərdən qayıdan Altunu qalaya buraxmadı. Bə'zi əmirlər və döyüşçülər Tahirdən üz döndərib qalanı tərk etdilər. Vəziyyətin ağırlığını görən Tahir xəzinəni yığışdırıb Bağdada qaçdı. Belə bir şəraitdə müqavimətə rast gəlməyən Teymurun qoşunları Əlincəyə daxil oldu. Teymurun ölümündən (1405) sonra Əlincə yenidən cəlairilərin, sonralar isə qaraqoyunluların hakimiyyətinə keçdi. Qardaşı Cahanşahla hakimiyyət uğrunda mübarizə aparan qaraqoyunlu hökmdarı İsgəndər Əlincəyə sığınmışdı. İsgəndərin, oğlu Qubad Mirzə tərəfindən öldürüldükdən sonra, Cahanşah Əlincəni ələ keçirdi. Bir müddət ağqoyunluların, sonralar isə səfəvilərin hakimiyyətində olan Əlincə feodal çəkişmələri və müharibələr nəticəsində dağıldı (Bax: ASE, IV cild, Bakı, 1980, səh.182).

** *Kutval* – Tarixi mənbələrdə inzibati cəhətcə tutuduqları
**s.48** yerə görə hakimlər bu dərəcələrə bölünmüşlər: vilayət, şəhər və qala hakimləri. Axırıncılara "kutval"da deyilirdi (Bax: Şahin Fazil Fərzəlibəyli. XV əsr Azərbaycan dövlətlərinin quruluşu, şəh. 43).

Dr. M.Moin *"Kut"* sözünün hind dilində *"qala"* olduğunu yazır (Bax: Fərhənge-farsi, III cild, səh. 3110). Kutval isə, təbii ki, qala başçısının daşıdığı vəzifənin adıdır. Bə'zi vaxtlarda kutvala "qalabəyi" də deyilmişdir. Yenə M.Moinin lüğətinə müraciət edək: "Kutval-şəhərin daxili hissəsinin hakimi; qoşun sahibi (fovcdar); qala qoruyucusu, qalabəyi;

1984

qaladar; dejban". (Bax: Dr.M.Moin. Göst.lüğət, III cild, səh. 3112).

*** *Əbih Sultan* – (Uzun Həsənin əmisi Dana Xəlilin oğlu).
s.48 Bu ad bə'zi tarixi mənbələrdə "Eybə Sultan" (məsələn "Əhsənüt-təvarix əsərində")" kimi gedir. Əbih Sultan *bir müddət Kirman valisi olmuş* (Baysunqur Ağqoyunlunun qısa müddətli hakimiyyəti dövründə (1490-1492), Rüstəm Ağqoyunlu hakimiyyətin sonunda isə *Çödək Əhməd Ağqoyunluya* (1497) tərəfdar çıxmışdır. Əbih Sultan *intriqaçı* bir şəxs idi. O, hələ azyaşlı Baysunqur Mirzənin şahlığı vaxtı hakimiyyətin Ağqoyunlu əmirül-ümərası Süleyman bəy Bicənoğlu tərəfindən idarə olunmasına öz e'tirazını bildirmiş, nəticədə Əlincə qalasında dustaq olan Rüstəm bəyi qaladan çıxarıb hakimiyyət başına gətirilməsinə böyük yardım etmişdi. Lakin, *Rüstəmin padşahlığı da Əbih Sultanı* qane edə bilmədi, o, bu şaha da müxalif oldu. Osmanlı dövləti tərəfindən Ağqoyunlu taxt-tacının varisi kimi Azərbaycana hücumla gələn *Əhməd bəyi* (Uzun Həsənin və III Sultan Bayazidin nəvəsi, Uğurlu Məhəmmədin oğlu Çödək Əhməd – *Ş.F.*) müdafiə etdi, nəticədə Araz çayı kənarında baş verən döyüşdə Rüstəm Ağqoyunlu öldürüldü. Həsən bəy Rumlunun mə'lumatına görə, Əbih Sultan təzəcə tərəfdarı olduğu yeni Ağqoyunlu hökmdarı *Əhməd bəyin əleyhdarına çevrildi,* 1497-ci ildə Şiraz valisi Qasım bəy Poznak ilə ittifaqa girərək Şirvanda yaşayan *Sultan Murad Ağqoyunlunu* (Sultan Yaqubun oğlunu – *Ş.F.*) taxta çıxarmaq fikrinə düşdü, Əhməd bəy devrildi. Ancaq, Sultan Muradın hökmranlığı ilə də kifayətlənməyən Əbih Sultan onunla vuruşaraq qalib gəlmiş və Uzun Həsənin başqa nəvəsi *Əlvənd bəyi* (Yusif bəyin oğlunu – *Ş.F.*) Təbriz taxtına əyləşdirmişdi.

Lakin, Əbih Sultanın sərgüzəştləri çox davam etmədi. Həsən bəy Rumluya görə, qardaşı Məhəmmədi Mirzənin ona müxalif olduğunu görən Əlvənd bəy qardaşını dəf' etmək üçün Əbih Sultanla birlikdə Reyə yollanmış, döyüşdə *Əbih həlak olmuş*, Əlvənd bəy Diyarbəkrə qaçmışdı (Bax: Şahin Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə, səh.50, 110-112).

1985

**** s.48 *Ərəş* – Azərbaycanın orta əsr şəhəri. Xarabalığı indiki *Yevlax rayonunun Xaldan kəndi* yaxınlığındadır. Salındığı tarix mə ' lum deyil. Ərəş haqqında Övliya Çələbi, Şərəf xan Billisi, İsgəndər Münşi, Antoni Cenkinson, Korneli de – Bruin, A.Bakıxanov və b. mə ' lumat vermişlər. Karvan yolu üzərində yerləşən və XVI əsrdə mühüm ticarət mərkəzinə çevrilən Ərəş öz ipəyi ilə Yaxın Şərqdə məşhur idi. Ərəşə Türkiyə, İran, Rusiya, İngiltərə və s. yerlərdən tacirlər gəlirdi. Övliya Çələbinin mə ' lumatına görə XVII əsrin əvvəllərində Ərəşdə 10 min ev, 800 dükan var idi. Səfəvi-Osmanlı müharibələri dövründə Ərəş dəfələrlə əldən-ələ keçmişdi. Osmanlılar Ərəşdə 20-30 min döyüşçü yerləşən qala və istehkam tikmişdilər. 1615-1616-cı illərdə Dəli Məlikin rəhbərliyi ilə Şirvanda Səfəvilər əleyhinə başlanmış üsyan Ərəş sultanlığını da bürüdü. Ərəşdəki səfəvi qarnizonunu məğlub edən üsyançılar şəhəri ələ keçirdilər. Lakin üsyan tezliklə amansızca yatırıldı. Müharibələr və tranzit ticarətininin zəifləməsi nəticəsində Ərəş tənəzzülə uğradı, XVIII əsrin sonlarında isə kiçik yaşayış məntəqəsinə çevrildi

Səfəvilər dövründə Ərəş sultanlığının ərazisi Şirvan bəylərbəyinin tabeliyində idi. Ərəş sultanlığını "sultan" titulu daşıyın nəsli hakimlər idarə edirdilər, onlar qonşu xanlıqlarda baş verən fevral araçəkişmələrində yaxından iştirak edirdilər. Ərəşin sonuncu sultanı Şəhabəddin Sultan olmuşdur (Bax: ASE, IV cild, səh.220).

***** s.48 *Qarovuli* – kəşfiyyat mənasındadır. Döyüş başlamazdan əvvəl ordunun "qarovul" adlanan müəyyən dəstəsi kəşfiyyata çıxır və bu dəstəyə məşhur əmirlər rəhbərlik edirdilər. Qarovulun vəzifəsi düşmənin hərbi qüdrət və vəziyyətini öyrənmək və mümkün olduqda əsir ələ keçirib geri qayıtmaq idi ki, bu əməliyyat mənbələrdə "zəbangiri" ("dil tutmaq") adlanmışdır. (Bax: Şahin Fazil Fərzəlibəyli. XV əsr Azərbaycan dövlətlərinin quruluşu, Bakı, 2003, səh. 61).

"Qarovuli" istilahı, əlbəttə, "qarovul" ismindən yaranmışdır. Qarovul – şəhər ətrafı bürcləri, barıları, həmçinin yolları nəzarət altında saxlayan gözətçidir. Qarovul –

müəyyən bir yerdə keşikdə duran və oranı qoruyan əsgərdir. Qarovul öndə gedən qoşun dəstəsidir.

*“Qarovulxanə”* sözü də “qarovuli” kimi “qarovul” sözündən yaranan və şəhərdən bir fərsəng (təxminən 6 km – *Ş.F.*) aralıda xüsusi əsgərlərin keşik çəkdikləri məntəqədir. *Qarovulxanə sərbazları* gəlməkdə olan düşmən qoşunlarını uzaqdan gördükdə, şəhər əhalisini bundan xəbərdar etməkdən ötrü dərhal göyə atəş açırlar. Şair Möhsün Tə ’ sir yazır:

*Çatılmış qaşları məkr ilə rəngdir,*
*“Qarovulxanaye – şəhre firəngdir”.*[1]

(Bax: Dr. M.Moin, Göstr.lüğət, II cild, səh.2654-2655).

* *Şirvanşah Fərrux Yasar* Baysunqur Mirzə Ağqoyunlunun
s.49 dayısı, həm də qaynatası olmuşdur.

** *Bayanduri* – Oğuz-türkman əhalisinin bayandur qolu qay-
s.49 naqlarda *XI əsrin ortalarından* etibarən xatırlanmağa başlayır. Fəzlullah Rəşidəddin bayandurların X əsrdə Sır-Dərya sərhədlərində yerləşmiş oğuz səltənətlərində önəmli rol oynadıqlarını bildirir, *Qəznəli tarixçi Gərdizi* isə Qərbi Sibirdəki 7 tayfadan ibarət Kimak konfederasiyasında “bayandur”, ya da “balandur” tayfasından söz açır. *Mahmud Qaşgarinin* “Divani-lüğatüt-türk” əsərində oğuz-türkman tayfaları *24 hissəyə* ayrılır. Bayandurlar sonralar osmanlı xanədanının əsasını qoyan “kayi”lardan sonra 3-cü sırada dururlar. *Hacı Bəktaş Vəlinin* “Vilayətnamə”sində Bayandur xanın Orta Asiyadan çıxdığı qeyd olunur. Bayandur xan padşahlığının Orta Asiyadakı sərkərdəsi *Salur Qazanın* və onun alimi (danışman, danişmənd) *Qorqud Ata Bayat*, ya da Dədə Qorqudun fəaliyyətləri *Bayandur xanın nəvəsi Uzun Həsən Ağqoyunlunun* 1470-ci ildə Osmanlı vəliəhdi Bayazidə yazdığı məktubda da öz əksini tapmışdır: “Bayandur xanın … uzun illər Manqışlaq, Xarəzm və Türküstan sərhədlərində

---

[1] Beytin farscası:
*“Miyane-əbruş por riv-o rəngəst,*
*Qarovulxaneye – şəhre-firəngəst”.*

yerləşmiş əşirəti (tayfa – *Ş.F.*) və əhalisi olan bayat və oğuz ulusu xoş taleli dövlətimizin toxunulmaz mə'bədinə sığındı" (Bax: John Woods (Con Vuds) Akkoyunlular (aşiret, konfederasyon, İmperatorluk – 15 Yüzyil Türk-İran Siyaseti Üzerine Bir İnceleme (Türkceye Çevireni Sibel Özbudun, İstanbul, 1993, səh. 67-69).

*Bayandurlar* haqqında daha geniş mə'lumata tarixçilər Əbubəkr Tihraninin "Kitabe-Diyarbəkriyyə" və Fəzlulllah ibn Ruzbehan Xuncinin "Tarixe-aləmaraye-Əmini" qaynaqlarında rast gəlirik. Ə.Tihrani Uzun Həsənin *əlli ikinci babası "padşah Bayandur xan"* haqqında yazır: "O, öz padşahlığı dövründə bütün İran, Turan, Rum, Şam, Misir, Əfrənc, Xətay, Dəsti-Qibçağı təmamilə fəth etmişdi. *Becənaq* onun kiçik qardaşı idi və onu Sayramda öz canişini təyin etdi, özü isə Qarabağ qışlağına və Göycə dəniz yaylağına yollandı. Böyük qurultay çağırdı, çoxlu camaat yığdı və əzəmətli məclis qurdu… Məmləkətini öz övladları arasında onların qabiliyyətlərinə görə böldü. Bir neçə gündən sonra Allahın də'vətini qəbul etdi". (Bax: Əbubəkr Tihrani. Kitabi-Diyarbəkriyyə, (Fars dilindən tərcümə edən, ön söz, şərhlər və göstəricilərin müəllifi Rahilə Şükürova, Bakı, 1998, s.46).

Bayandurların ə'yanlıqları, həmçinin şan-şöhrətləri barədə söz açan F.Xunci belə mə'lumat verir: "Bayandurların mənşə etibarilə əyan olmaları 6 maddədə sübut olunur". (Müəllif həmin 6 maddəni bir-bir izah etdikdən sonra, onların şan-şöhrətləri barədə daha 7 maddədə öz fikrini bildirir). Sonrasa yazır: "*Çingiz xanın* basqınından sonra *Oğuz xanın övladları* müxtəlif ölkələrə səpələnir". (Bax: Фазуллах ибн Рузбихан Хунджи. Тарих-и алам-ара-йи- Амини, Перевод с персидского на английский, введение, приложениə и комментарии В.Ф.Минорского, перевод с английского на руссий Т.А.Минорской, редакторы З.М.Буниятов, О.А.Эфендиев, Баку, 1987, стр.39-40).

******* *Əbih Sultan* – Bu məşhur şəxs haqqında azacıq yuxarıda

**s.49** (Bax: *** səh.48) ətraflı mə'lumat verilmişdir.

1988

* *Əmirzadə Rüstəm* – Ağqoyunlu padşahı Rüstəmə, görü-
s.51 nür ki, tarixçinin “şah” demək istəyi olmamışdır.

** *Mirzə Əbih Sultan* – Mə’lum olduğu kimi, Əbih Sultan
s.51 məşhur Uzun Həsənin doğma əmisi *Dana Xəlilin* oğlu olmuş, Ağqoyunlu xanədanının yaxın uzun olduğu üçün İsgəndər bəy Münşi tərəfindən “*Mirzə*” titulu ilə adlandırılmışdır.

*** *Mürtəzəvi* – Mürtəza Əliyə mənsub olan tərəfdarlar belə
s.51 adlanmışlar (Bax: Dr.Moin. Göst.lüğət, III cild, səh.3992).

* *Kəyan* – “key”- padşah, “kəyan” isə onun cəm şəkilçisidir.
s.52 Bu sözün “böyüklər”, “sərvərlər” mənaları da vardır. (Bax: D-r Moin. Göst.lüğət, c.III, səh. 3148). *Sasani padşahlarının* adlarının əvvəlinə, “key” sözü artırılırdı, məsələn Keyqubad, Keykavus və s. Ə.Firdovsinin “Şahnamə”sində “Təxte-Keyan”- “Padşahlar taxtı” ifadəsi çox işlənmişdir.

** *Xəlifətül-xüləfa* – Bu dini vəzifə haqqında (səfəvilər
s.52 dövrü) sözə başlamazdan əvvəl bir qədər *“xəlifə”* istilahı barədə danışmaq lazımdır. ASE-də oxuyuruq: “*Xəlifə* ərəb sözü olub, müavin, canişin, varis, xələf mə’nalarını özündə əks etdirir. Məhəmmədin ölümündən sonra müsəlman icması və teokratik müsəlman dövlətinin (xilafət) dini və dünyəvi başçısı. Xəlifələr əvvəllər Məhəmməd peyğəmbərin, əməvilər dövründən isə Allahın yer üzündə canişini (müavini) hesab edilirdilər. *Abbasilər xilafətinin* süqutundan sonra (XIII əsr) bütün müsəlmanlar üzərində dini hakimiyyət iddiasında olan bə’zi müsəlman dövlətlərinin hökmdarları (məsələn Türkiyə sultanları) xəlifə titulu qəbul etmişdilər (Bax: ASE, X cild, səh.76-77).

Tərcümədə “xəlifələr xəlifəsi” mə’nasını verən *xəlifətül-xüləfa* vəzifəsi haqqında mənbə və ədəbiyyatda mə’lumat çoxdur. V.F.Minorski, İ.P.Petruşevski, dr. Vilyam Flor, O.Ə.Əfəndiyev və başqaları bu vəzifəni daşıyan şəxsin böyük səlahiyyətləri barədə yazmışlar. O.Ə.Əfəndiyevin kitabına müraciət edək: “Xəlifətül-xüləfa” Ərdəbil səfəvi təriqətinin (ordeninin) əsas simalarından biri olmuş, səfəvi təriqətinin bütün fəaliyyətinə nəzarət etmişdir. Səfəvilər məhz xəlifətül-xüləfaların yaxşı təşkil etdikləri xidmət

1989

nəticəsində geniş ərazidə, o cümlədən Azərbaycanda mövcud olan qızılbaş tayfalarını öz tərəflərinə cəlb etmişdilər. *Səfəviyyə təriqətinin* əsası Şeyx Səfiəddin tərəfindən qoyulmuşdur (Bax: O.Ə.Əfəndiyev. Göst.əsər, səh.265).

V.F.Minorski yazır: "Səfəvilər təriqəti Şeyx Səfiəddinin xələflərini *Allah məqamında* görürdülər. Bu məsələ Şah İsmayılın siyasətini gerçəkləşdirdi. Səfəvilər hakimiyyət başına gəldikləri zaman özlərini iki təşkilat başında gördülər: hökmranlıq baxımından onlar özlərindən əvvəlki (xüsusilə Ağqoyunlu xanədanı) hökmranlıq təşkilatının rəhbəri kimi, irşad baxımından isə sufiyyə təşkilatının mürşidi kimi fəaliyyətə başladılar. Onlar müridlərindən kor-koranə itaət istəyirdilər. Xalifətül-xüləfa vəzifəsi sufiyyə məsələsinin icraçısı olmaqdan ötrü yaranmışdı. "Təzkirətü-müluk"a görə, xəlifətül-xüləfa şahın nayib və ustadı kimi əyalətlərə öz nümayəndələrini yollayırdılar (Bax: Təzkirətül-müluk, dr. Seyid Məhəmməd Dəbirsəyaqi nəşri, səh. 103-104).

*V.Flora* görə, səfəvilərin dini (məzhəbi) vəzifə kimi ortaya gətirdikləri vəzifələr xəlifətül-xüləfa və mollabaşı mənsəbləri olmuşdur. Xəlifətül-xüləfanın şəxsində mənəvi bir vəzifə yaradılmışdı. Əlbəttə, xəlifətül-xüləfa vəzifəsinin əsas aparıcısı şahın özü idi. Şah səfəvi təriqətinin mürşide-kamili idi. İllər ötdükdən sonra bu vəzifə mollabaşı ilə əvəz olundu. *Mollabaşı* mənsəbinin yaradıcısı *Məhəmməd Bağır Məclisi* olmuşdur. Şah Sultan Hüseynin müəllimi olan bu şəxsin təklifi ilə mollabaşı institutu h.1124 (m.1712)-ci ildə tə ' sis olunldu. Səfəvilərin süqutundan sonra bu institut ləğv olundu (Bax: Dr. Vilyam Flor. Səfəvi dövründə qəza işlərinin quruluşu. Fars dilində, Tehran, 1385, səh.119-120).

* *Biyəpəs* – Gilan vilayəti uzun illər boyu iki hissədən ibarət
**s.53** olmuşdur: mərkəzi Lahican olan *Biyəpiş* və mərkəzi Rəşt olan *Biyəpəs* (Bax: Şahin Fazil Fərzəlibəyli. Azərbaycan və Osmanlı imperiyası (XV-XVI əsrlər), ikinci nəşr, Bakı, 1999, səh. 187).

* *Türkman Ağqoyunlu sultanları* – Ağqoyunlu sülaləsinin
**s.54** (1370-1503) banisi *Pəhləvan bəy* olmuşdur. Türkdilli tayfa
1990

birləşmələrindən biri də ağqoyunlular idilər. Onlar haqqında C.Vuds "Ağqoyunlular – əşirət, konfederasiya, imperatorluq" adlı bir kitab yazmışdır (Bax: İstanbul, 1993, türkcəyə çevirən Sibel Özbudun).

*Ağqoyunlu sultanları*: Pəhləvan bəy (1370-1388), Əlaəddin Turəli (1388-1392), Fəxrəddin (1392-1394), Qara Yuluq Osman (1394-1434), Əli bəy (1434-1453), Uzun Həsən (1453-1478), Sultan Xəlil (1478), Sultan Yaqub (1478-1490), Baysunqur Mirzə (1490-1492), Rüstəm (1492-1497), Gödək Əhməd (1497), Məhəmməd Mirzə (1499), Əlvənd Mirzə (1499-1501), Sultan Murad (1499-1503). Ağqoyunlu hökmdarları qaraqoyunlularla, teymurilərlə, Gürcüstan, Türkiyə və Misirlə müharibələr aparmışlar. Onlar bir sıra Avropa ölkələri ilə ticarət edir və diplomatik əlaqələr saxlayırdılar. Səfəvilərin hakimiyyətə gəlməsi Ağqoyunluların hökmranlığına son qoydu (Bax: ASE, I cild, səh.104).

***** *Fərsəx* – 6 km-ə bərabər məsafə ölçüsüdür (Bax: Nəy-
**s.55** yezəman Səqəfi. Farsca-azərbaycanca lüğət, c.II, səh.176).

****** *Sultanül-övliya* (Övliyalar sultanı) – *Şeyx Səfiəddin İsha-*
**s.55** *qın* tituludur.

***** Azərbaycanın *Rumlu* qəbiləsindən olan və sonralar bu
**s.56** qəbilənin adı ilə tanınan *Həsən bəy Rumlu* (1530/31-?) Qum şəhərində doğulmuşdur. Cavanlığında I Şah Təhmasibin *qorçisi* (şah qvardiyasının əskəri) olmuş, bir sıra hərbi yürüşlərdə iştirak etmişdir. Səfəvi hökmdarının Gürcüstan və Kürdüstan yürüşlərində döyüşən Həsən bəy tezliklə öz çoxcildli *"Əhsənüt-təvarix" ("Tarixlərin ən yaxşısı")* salnaməsini yazmağa başlayır. Onun əsərini yüksək qiymətləndirən İsgəndər bəy Türkman Münşi "Əhsənüt-təvarix"dən geniş istifadə etmiş və Həsən bəyə böyük qiymət vermişdir. Şah Təhmasibin vəfatına qədər sarayda yaşayıb öz əsərini yazmaqla məşğul olan müəllif, səfəvi şahları tarixində *ən qəddar bir şahın*-II Şah İsmayılın hökmranlığı zamanı (1576-1577) baş verən hadisələri kənardan izləmiş, salnamənin davamı üçün mə'lumat toplamış və II Şah İsmayılın öldürülməsindən bir qədər əvvəl 1577-ci il hadisələrini də qələmə almışdır.

1991

*Həsən bəy Rumlu "Əhsənüt-iəvarix"in sonuncu cildini İsmayıl Mirzəyə (II Şah İsmayıla) ithaf etmişdir*. Tarixçinin nə qədər yaşaması və salnaməsini hansı səbəbdən tamamlaya bilməməsi barədə hələlik heç bir məlumat yoxdur (Ətraflı məlumat üçün bax: Şahin Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə…, səh. 7-18).

** *Mir Yəhya ibn Əbdüllətif əl-Hüseyni əs-Seyfi əl-Qəzvini*
s.56 1481-ci ildə doğulmuş, 1552-ci ildə *Qəzvin sünnilərinin* başçısı olmaq ittihamı ilə İsfahanda həbsxanaya salınmış, 1555-ci ildə vəfat etmişdir. Onun *"Lübbət-təvarix"* əsərindəki hadisələr 1542-ci ilədək davam etdirilir. Şah İsmayılın oğlu *Bəhram Mirzəyə* ithaf olunmuş bu kitab 4 "qism"ə bölünür: 1) Məhəmməd peyğəmbər və imamlar (bu qism iki fəsildən ibarətdir); 2) İslama qədərki şahlar (4 fəsil); 3) müsəlman hökmdarlar (3 məqalədən ibarətdir: a)Xəlifələr, b) Əməvilər, c) Abbasilər; bu məqalələrdən sonra 6 "bab" gəlir): a) Abbasilərin müasiri olan İran və başqa ölkə hökmdarları, b) monqollar, c) İranda hülakulardan sonrakı yerli sülalələr, ç) Teymur və teymurilər, d) Qaraqoyunlular və Ağqoyunlular; e) Şeybanilər Mavərənnəhrdə; 4) Səfəvilər (Yalnız I Şah İsmayıl təfərrüatla verilmişdir). Bax: Ç.A Stori. Göst., əsər c.I, səh. 399-400).

*** *Sultanhüseyn Barani* – Cahanşah Qaraqoyunlunun nəslin-
s.56 dəndir. Baranilər qaraqoyunluların özəyini təşkil edən oğuz tayfalarından olmuşlar.

**** *Göycə Təngiz (Göyçə Dəniz)* – Hazırda Ermənistanın
s.56 işğalı altında olan və adı *erməniləşdirilən* Sevan gölüdür. Bu gölün suyunu artırmaq məqsədilə Arpaçaydan tunel çəkilmişdir (uzunluğu 48,6 km). Qafqazda ən böyük göldür (Bax: ASE, VIII cild, səh.320).

* *Sərkar* – Səfəvilər dövründə dövlətin gəliri, xərci, pul
s.57 əməliyyatları və xəzinə işləri ilə məşğul olan idari aparat (Bax: Dr. M. Moin. Göst.əsər, c.II, səh. 1869); "Təzkirətülmülük" əsərində *"sərkare-xales"* adlı bir vəzifə sahibinə işarə olmuşdur. Bu vəzifəni icra edən şəxs dövlətin xərcləri (məxaric) ilə məşğul olan idarələrə nəzarət edirdi (Bax:

Təzkirətül-müluk, D-r Seyid Məhəmməd Dəbirsəyaqi nəşri, səh. 99). V.F.Minorski tərəfindən geniş şərh olunan bu kitabın *“Büdcə”* adlanan III məqaləsində oxuyuruq: “Vilayətlərdən yığılan məbləğlər sərkarın e’tibarına verilir və onun xüsusi hesabında qeyd olunurdu”. V.Minorskiyə görə səfəvilər dövründə vilayət sərkarları, xassə (xüsusi – *Ş.F.*) sərkar, mədənlərin sərkarları kimi istilahlar da vardı (Bax: Göst. əsər, s. 211).

****s.57** *Keyvan* – Saturn planetidir.

***** s.57** *Əmirzadə Əlvənd* – Uzun Həsənin oğlu *Yusif Mirzənin oğludur.* Əlvənd Mirzə 1497-ci ildə Gödək Əhmədin öldürülməsindən sonra özünü hökmdar e’lan etmişdi. O, lakin *Əzizkənd* yaxınlığında qardaşı *Məhəmməd Mirzə* tərəfindən məğlubiyyətə uğradı. Hakimiyyət sonuncuya qismət oldu. 1499-cu ilin sonlarında Məhəmməd Mirzə öz əmisi oğlu Murad tərəfindən öldürüldü. Ağqoyunlu taxt-tacının iddiaçısı olan Əlvənd Mirzə və Murad arasında 1500-cü ildə *Əbhərdə bağlanan sazişə əsasən* Ağqoyunlu dövləti iki hissəyə bölündü. *Qızılüzən çayı* sərhəd olmaqla İraqe-Əcəm, İraqe-Ərəb, Fars və Kirman-Muradın, Azərbaycanın *Kürdən* cənubdakı vilayətləri və ermənilər yaşayan torpaqların bir hissəsi isə Əlvənd Mirzənin hakimiyyəti altına keçdi. Qızılbaşlara qarşı döyüşə hazırlaşan Əlvənd Mirzə 1501-ci ilin yazında *Naxçıvan yaxınlığındakı (Şərur) vuruşmada* I İsmayıl Səfəvi tərəfindən məğlub edildi. I Şah İsmayılın Təbrizdə olmamasından istifadə edən Əlvənd Mirzəin 1502-ci ildə hakimiyyətini bərpa etmək təşəbbüsü baş tutmadı. Diyarbəkrə dönən Əlvənd Mirzə yerli hakim *Qasım bəyi* məğlub edərək hakimiyyəti ələ keçirdi (Bax: ASE, IV cild, səh.161-162).

*** s.58** *İmamiyyə xütbəsi* – “İmamiyyə”nin izahından əvvəl *“xətib”* və *“xütbə”* sözlərinə diqqət yetirməliyik. Xətib-xütbə oxuyan *(xütbəxan)*, natiq, vaiz şəxslərə deyilir, “xütbə” isə əhaliyə nəsihət vermək, və’z, mov’izə etməkdir (Bax: Dr. M.Moin. Göst.lüğət, I cild, səh.1429-1430). “İmamiyyə” – sözün özündən də göründüyü kimi, imamlara həsr olunan xütbə mə’nasında işlədilir, *“imam”* isə, hərfi mə’nada

məzhəbi rəhbər (pişva) mə'nasını ifadə edir. İmamın yüksəldiyi məqam – *"imamət"dir* (Bax: Dr. S.C.Səccadi. Göst. əsər, səh.128). "İmamiyyə" təriyəti şiələrin əsas firqəsini təşkil edir. İmamiyyənin bu əsas şöbələri vardır: *İsmaliyyə*, *keysaniyyə*, *isnaəşəriyyə* və s. (Bax: Dr.M.Moin. Göst. lüğət, V cild, səh.178).

*****
**s.59** *Ucan* – İndiki Bostanabad qəsəbəsidir. Qaraqoyunlu Qara Yusif teymuri Şahçuxa hücum zamanı (1420) Ucanda vəfat etmişdir. Həsən bəy Rumlu yazır: Qara Yusif Ucan yaxınlığına çatarkən "əcəl bəyi də gəlib ona çatdı və o, *şahlıq taxtından çıxıb tabut taxtasına girdi*" (Bax: Şahin Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə…, səh.95).

******
**s.59** *Sultan Murad* – (?-1503). Ağqoyunlu hökmdarı (1499-1503). Gödək Əhmməddən sonra hakimiyyət uğrunda qardaş və qohumları olan başqa şahzadələrlə mübarizə aparmış, 1500-cü ildə Əlvənd Mirzə ilə aralarında bağlanmış sazişə əsasən İraqi-Əcəm, İraqi-Ərəb, Fars-Kirman Sultan Muradın hakimiyyəti altına keçdi. 1503-cü ildə Həmədan yaxınlığında I Şah İsmayıl tərəfindən məğlub edilən Sultan Muradın ərazisi Səfəvilər dövlətinə qatıldı (Bax: ASE, XI cild, səh.69).

*******
**s.59** *Fəthnamə* – Qələbə xəbərini başqa hökmdarlara bildirməkdən ötrü göndərilən rəsmi məktub (Bax: *Ş.F.*Fərzəlibəyli. XV əsr Azərbaycan dövlətlərinin …, s. 59).

M.Z.Pakalında "fəthnamə məktubu" belə açıqlanır: Əldə edilən zəfər nəticəsində zəbt olunan məmləkətlər münasibətilə qonşu hökmdarlara, xanlara, şahzadə və valilərə göndərilən *namələrin* adıdır. Hər dövlətdə, xüsusilə Şərq dövlətlərində fəthnamə göndərilməsi adət idi (Bax: M.Z.Pakalın. Göst. lüğət, I cild, səh.14).

*****
**s.60** "*Elçi*" – Bu istilah yalnız tarixçilərin deyil, həmçinin dilçi alimlərin də diqqətini özünə cəlb etmişdir. *H.Zərinəzadənin* məlumatına görə "xəbər" və "mə'lumat" mənasını verən *"əlik" "alıq"* sözü *"elçi"* istilahının əsasını təşkil edir. Bu müəllif bildirir ki, "elçi" bəzi türk dillərində "əlçi" ("əlci") kimi də işlənmişdir. Fikrimizcə, H.Zərinəzadənin bu fikri həqiqətdən uzaqdır. Əgər onun dediyi kimi olsaydı, bu söz

qaynaqlarda "elçi" şəklində yox *"əlikçi"*, *"alıqçı"* kimi yazılardı. Bizə elə gəlir ki, "elçi" istilahının mə'na açımını "xalq, camaat" ifadəsini özündə əks etdirən *"el"* sözü ilə əlaqələndirmək daha doğru olar. Elçi – yəni elin adından göndərilən şəxs, el nümayəndəsi..

Elçi göndərilməsinin səbəbləri: taxta cülus edən hökmdarların təbriki, vəfat edən hökmdarların adına aparılan tə'ziyətnamənin (baş sağlığı məktubunun – *Ş.F.*) təqdim olunması; hədiyyə verilməsi, sülh müqaviləsinin imzalanması, fəthnamə aparılması və s. (Bu haqda geniş məlumat üçün bax: *Ş.F.*Fərzəlibəyli. Azərbaycan və Osmanlı imperiyası… s.196-208).

** *Münhi* – Xəbər verən, agah edən şəxs. Padşah və dövlət
s.60 tərəfindən xəbər toplamaqdan ötrü e'zam olunan adam, başqa sözəl "casus" (Bax: Dr.M.Moin. Göst.lüğət, IV cild, səh. 4411).

*** *Sultan Qansu* – Misir və Suriya (Şam) məmlüklərinin
s.60 *burcilər* (1382-1517) qolundandır və bu sülalənin 24-cü hökmdarı olmuşdur (Bax: K.G.Bosvort. Musulğmanskie dinastii, Moskva, 1971, səh. 100).

* *İlyas bəy Ayqutoğlu Xunuşlu* – (Bax: O.Ə.Əfəndiyev,
s.61 Azərbaycan Səfəvilər dövləti…, səh.46).

* *Ərk* – qala, böyük qalanın içərisində tikilmiş qala
s.63 mə'nasını da ehtiva edir. Dr. M.Moin *"ərk"* sözünü *"ərq"* şəklində yazaraq bu kəlməni belə mə'nalandırır: *"Kiçik qala. Qala içində qala (dej dər dej). Böyük qala içindəki kiçik qala"* (Bax: Dr. M.Moin. Göst.lüğət, I cild, səh.205).

** *Şəhnə* – darğa, polis məmuru. *D-r Qədir Çolkaryan* bu
s.63 sözün *monqolca* olduğunu bildirir və onu "gecə mühafizi, zabitə mə'muru və gecə polisi" kimi təqdim edir (Bax: Doktor Qədir Golkaryan. Fərhənqe-dosəviyyəye – əxtər – (Farsiye-İstanbuli və İstanbuliye – Farsi, Nəşre – Əxtər, Təbriz, h. 1385, s. 282).

*** *Sultan Hüseyn Mirzə (1470-1506)* – Hüseyn ibn Mənsur
s.63 ibn Bayqara *"Əbülqazi"* ləqəbi ilə məşhur idi. Teymuri sultanlarındandır. Gürganda, Mazandaranda (h.863-864) və

Xorasanda (h.878-912) hökmran olmuşdur. O, elm və fəzilət sahiblərinə himayədarlıq etmişdir (Bax: Dr.M.Moin. Göst. lüğət, V cild, səh.462). *Böyük özbək şairi Əlişir Nəvai* onun vəziri idi. *Şair Kişvəri* bir şerində belə demişdir:

> *"Kişvəri şe'ri Nəvai şe'ridən əskik iməs,*
> *Bəxtinə düşsəydi bir Sultan Hüseyni-Bayqəra".*

**** *Cığatay* – Özbəkistanda yaşayan tayfa adı. Tarixi şəxsiyyət
**s.63** *Cığatay Çingiz xanın ikinci oğlu* olmuşdur. O, İrana həmlə vaxtı monqol sərkərdələrindən biri idi və *"çingizi hökmlərin"* yerinə yetirilməsində icraçılardan da biriydi. Çingiz xan *Qaraxitayilərin* və Mavərənnəhrin sabiq məmləkətlərinin idarəçiliyini Cığataya vermişdi (Bax: Dr.M.Moin. Göst. lüğət, V cild, səh.429). Şərqi türk dillərinin biri "cığatay dili" adlanır.

Çingiz xanın vəfatından sonra Cığatay monqol yasasını (yasa – tayfa hüququ) mükəmməl bilən və həyata keçirən qardaşları arasında ən böyüyü idi. O, islamın amansız əleydarı idi, müsəlman qanunların (şəriə) əks olan *yasa qanunlarını* həyata keçirirdi. *Tyan-şan dağının* hər iki tərəfindən torpaqları *(yurt)* başlayan Cığatay xanlığı yalnız onun ölümündən sonra yarandı. Cığatayın oğul və nəvə-nəticəsi Xarəzmi, qərbi Türküstanı və Əfqanıstanı işğal etdilər. *Cığatay nəslindən* islamı qəbul edən *Mübarək* oldu (1266-cı il). Əmir Teymurun Mavərənnəhrdə hakimiyyəti vaxtı cığataylar arasına parçalanma düşdü. Teymurun vəfatından sonra Mavərənnəhr taxt-tacı yenə cığatayların əlinə keçdi. Daha sonra *Ugedeyin* nəsli hakimiyyətdə oldu, nəhayət son teymurilərin amansız düşməni olan *II Esen Buğa* (1429-1462) Teymur taxtını ələ keçirdi. Sonra isə Mavərənnəhrin cığatay əraziləri *şeybanilərə* qismət oldu. Cığataylar ümumiyyətlə XVII əsrin sonunadək hakimiyyətdə qalmışlar (Bax: K.E.Bosvort. Göst.əsər, səh.197-199).

* *Urmiya (Urumi)* – Urmiya Cənubi Azərbaycanda tarixi
**s.64** şəhərdir. Qərbi Azərbaycan ostanının mərkəzidir. "Urmiya"
1996

sözünün etimologiyası dəqiq müəyyənləşdirilməmişdir. Aşşur mənbələrində Manna qalaları arasında *Armand (Urmeyati) qalasının da* adı çəkilir. Tədqiqatçıların fikrincə Armand-Urmeyati Urmiya şəhərinin qədim adıdır. Bə'zi mənbələrə görə Zərdüşt Urmiyada doğulmuşdur. Urmiya atəşpərəslərin dini, mədəni və elmi mərkəzlərindən olmuşdur. *İran-Bizans müharibələri vaxtı* 623-cü ildə Bizans imperatoru *II İrakli (1610-1641)* Urmiyanı dağıtdı. IX əsrdə Urmiya yerli feodal hakimliyinin mərkəzinə çevrildi. XI əsrdə Urmiyanı *səlcuqlar*, XIII əsrin əvvəllərində isə *monqollar* işğal etdilər. XV əsrdən *qaraqoyunluların*, sonralar isə *ağqoyunluların* hakimiyyətinə keçən Urmiya *səfəvilər* dövründə iri ticarət və sənətkarlıq mərkəzlərindən biri idi. Səfəvi-Osmanlı müharibələri dövründə dəfələrlə əldən-ələ keçən Urmiya əvvəlki əhəmiyyətini itirdi. I Şah Abbasın dövründə müdafiə məqsədilə şəhərin cənub-şərqində *Dümdüm* (Dəmdəm?) qalası salındı və əfşar tayfalarından 20 min nəfər buraya köçürüldü. 1731-ci ildə *Urmiyanı* osmanlılar işğal etdilər. Şəhəri osmanlılardan təmizləyən *Nadir şah* 1745-ci ildə onun idarəsini sərkərdəsi *Fətəli xan Əfşara* tapşırdı. XVIII əsrin ortalarında Azərbaycanda yaranmış xanlıqlardan biri də *Urmiya xanlığı* idi. XIX əsrin sonlarında Urmiya *qacarların* tabeliyinə keçdi. Həmin dövrdə Urmiyada təqribən 50 min nəfər yaşayırdı. 1828-ci il *Türkmançay sülh müqaviləsinə əsasən* Urmiya İranın tərkibində qaldı. Azərbaycanlılara qarşı qəddar şovinist siyasəti yürüdən *Rza şahın* dövründə (1925-1941) Urmiyanın adı dəyişdirilərək onun şərəfinə *"Rzaiyyə"* adlandırıldı (Bax: ASE, IX cild, səh.462).

Urmiyanın tarixi ilə bağlı mən dr. M.Moinin lüğətinə də baxdım. Nədənsə, alim Urmiya şəhərinin tarixini verməmiş, amma Urmiya gölündən bəhs etmişdir. Dr. M.Moin yazır: *"Rzaiyyə dəryaçəsi"* adlandırılan *Urumiyyə dəryaçəsinin* sahəsi 35 min kvadrat kilometrdir" (Bax: Dr. M.Moin. Göst. lüğət, V cild, səh.127). Mən bu yaxınlarda Urmiyada oldum və Urmiya gölündən keçdim. Göl, təəssüf ki, *qurumuşdur*. Səbəbi isə hələ mə'lum deyil – *Ş.F.*

1997

** *Tərcüman* – Vergi növü, etdiyi günahın bağışlanmasından
s.64 ötrü hökmdara göndərilən hədiyyə, pul. Mənbələrdə bu istilah barədə mə’lumat, demək olar ki, yoxdur.

*** *Qorçibaşı* – Xüsusi şah alayının üzvləri olan *qorçi*
s.64 *dəstələrinin başçısı* belə adlanmışdır. XV əsrdə bu məfhumun işlənməsinə dair hələlik məlumat yoxdur, lakin XVI əsrdən e’tibarən qorçi dəstələrinin sayca çoxalıb dövlətin siyasi-hərbi həyatında mühüm rol oynaması ilə əlaqədar qorçibaşı vəzifəsi də müəyyən edilmiş, bu vəzifə sahibi dövlətin ən etibarlı şəxslərindən olmuşdur.

Mənbələrə əsasən müəyyən etmək olan ki, dövlətin *baş qorçibaşısından* başqa ayrı-ayrı vilayətlərin, habelə hər bir qorçi dəstəsinin də öz qorçibaşısı varmış. Məsələn I Şah İsmayıl hakimiyyətinin ilk illərində onun qorçilərinə rəhbərliyi *Durmuş xan Şamlı və Dədə bəy Zülqədər* etmişlər. Sonralar isə səfəvi qorçibaşısının *Sarı Pirə* adlı bir əmir olduğu mə’lumdur.

Qorçibaşısının qorçilər üzərində böyük ixtiyar və səlahiyyəti vardı.

Qorçibaşı hərbi yürüşlər vaxtı, təbii ki, öz qorçiləri ilə birlikdə şahı müşayiət etməliydi.

*Şirvanşah Şahruxun* qorçibaşısı *Padar* adlı bir şəxs idi ki, Həsən bəy Rumluya görə, o, vilayətin bütün “mədaxil və məxariclərindən” (yəni “ölkənin bütün daxili və xarici yollarından) xəbərdar idi.

*Şirvanın qorçibaşısı Əhməd bəy Ustaclı* Şirvanın müstəqilliynə son qoyulandan sonra (1538) orada hakim olan şahzadə *Əlqas Mirzənin* qorçilərinə rəhbərlik etmişdir.

Qorçibaşı vəzifəsinin əhəmiyyəti I Şah Təhmasib zamanında xüsusilə artmışdı. Qorçibaşılıq (qorçibaşıgəri) XVIII əsrədək ən yüksək hərbi vəzifə kimi mövcud olmuşdur. *Mirzə Səmianın “Təzkirətül-müluk”* əsərində əmirlərdən bəhs olunarkən, ən əvvəl qorçibaşının adı səkilmiş və bu vəzifənin sahibi “əzəmətli dövlət adamlarının ən ümdə əmiri” adlanmışdır.

“Təzkirətül-müluk”un “Şərhlər” hissəsində *V.F.Minorski* yazır: “Qorçibaşı özünün məqamı və nüfuzuna görə bu böyük

1998

vəzifədən (vəzire-əzim) sonra gəlir və “Təzkirətül-müluk”da o, dövlət sütunlarının (rükn) *ən ümdə əmiri* adlandırılmışdır. Amma, *həqiqətdə* isə dövlət rüknlərinin ən ümdə əmiri *baş vəzir* idi. Sabiq zamanlarda İranda daimi qoşun mövcud olmayan vaxtlarda qorçibaşı *“cəng vəziri”* rütbəsini daşımışdır. *Karmelit ordeninin* yazarlarına görə 1664-cü ildə qorçibaşı *bütün çərik qoşunlarının əmiri idi* (Bax: “Təzkirətül-müluk”, səh. 85).

V.F.Minorski qorçibaşı vəzifəsini *əmirül-ümərа* ilə eyniləşdirir. Onun bu fikrini XVI əsrin ikinci yarısına aid etmək olar, çünki, Səfəvi dövləti yaranmağa başlarkən hər qorçibaşı, həm də əmirül-ümərа vəzifələri ayrı-ayrılıqda mövcud olmuşdur (Bax: Şahin Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə…, s. 63-65).

**** *Hümayun* – “hüma” və “yun” ifadələrindən düzəldilmişdir.
**s.64** Hüma *quş adıdır* və bu quş kimin başına qonarsa, o kəs şərəf və iqbala nail olar. Xalq ilində *“Hümay”* kimi də işlənən bu sözə türkcə *“umay”* deyirdilər və Umay *Oğuz Xaqanın* arvadı olmuşdur.

Hüma quşu incidilməz, ovlanmazdı və onun əti yeyilməzdi. İpək qumaş da *hüma* adlanır (Bax: M.Z.Pakalın. Göst.lüğət, I cild, səh.866-867).

*Padşah yürüşləri* də (səfəvilərdə) *“hümayun”* adlanırdı – *Ş.F.*

* “*Qorçi*” sözünün Azərbaycan mənşəli *“qorumaq”*
**s.65** felindən yarandığını söyləyən tədqiqatçıları haqlı hesab etmək olar. *Əbdülhüseyn Nəvai* isə (İran tədqiqatçısı – *Ş.F.*) “qorçi” istilahının fars dilində silah mə’nasını verən “qur” sözündən düzəldiyini göstərir. Əgər “qorçi” doğrudan da “qur” sözündən yaranmışsa, gərək bütün döyüşçülər “qorçi” adlandırılaydı, çünki “döyüşçü” dedikdə dərhal *silahlı hərbçi* təsəvvürə gəlir. Bu da mə’lumdur ki, “qorçi” adı altında ordunun bütün döyüşçüləri yox, yalnız şahı qoruyan alayın üzvləri başa düşülürdü.

*Alman tədqiqatçısı K.M.Röhrborn* “qorçi” istilahın yalnız səfəvilərin hakimiyyətə gəlməsindən sonra işləndiyini bildirir. Bu fikirlə razılaşmaq olmaz. XV-XVI əsrlərin bir sıra tarixi mənbələrdə, o cümlədən “Əhsənüt-təvarix”də XV

əsrin əvvəllərində işlədilən bu istilaha rast gəlirik. Məs., Həsən bəy Rumlu Sultan Əhməd Cəlayirinin 1410-cu ildə Təbrizə hücumu zamanı qorçilərin zərli paltar geyinərək, əllərində müxtəlif silahlar tutduqlarını göstərir.

Qorçi dəstələrinin üzvləri əsasən *əmirzadələrdən* seçilirdi (Məsələn, elə Həsən bəy Rumlunun özü də bir neçə il Şah Təhmasibin qorçisi olmuşdu).

Qorçi dəstələrində bir neçə min döyüşçü olmuşdur. Tez-tez baş verən tayfa ixtilaflarının baş verməməsindən ötrü hər qorçi dəstəsi üzvlərinin tərkibi *yalnız bir tayfa nümayəndələrindən* ibarət olur, qorçilər mənsub olduqları yer və tayfanın adı ilə adlandırırdılar: *Naxçıvan qorçiləri, şamlı qorçiləri* və s.

Hərb vaxtı qorçilər çox vaxt ehtiyatda (tərh) qalır, yalnız ən çətin anlarda vuruşa çıxarılırdılar.

Qorçilərin aşağıdakı qrupları mə'lumdur:

1) *Ox və kaman qorçisi* (qorçiye-tiro-kəman). Bu vəzifə sahibləri qorçi dəstələrinin vacib üzvləri olmuşlar. Onlar, istilahın adından da görüldüyü kimi ox və kaman üzərində məsul idilər.

2) *Qılınc qorçisi* (qorçiye-şəmşir). Məhəmməd Sədr Haşemi bu istilahın türkcə "qılınc qorçisi" adlandığını bildirir.

3) *Hərəm qorçisi* (qorçiye-hərəm). Hərəmxananı qoruyan qorçilərə verilən ad olmuşdur.

4) *Şah rikabdarlarının* (minik heyvanlarına nəzarət edənlər – *Ş.F.*) qorçisi (qorçiye-zerəkan). *Məhəmməd Sədr Haşemi* bu qorçini isə "şah rikabdarlarının rəisi" adlandırır.

Bu dörd qrupdan əlavə, İsgəndər bəy Münşi *"daş qorçilərinin"* (qorçiyane-daş) də olduğunu bildirir ki, biz bu istilaha başqa mənbələrdə təsafüf etmədik.

Qorçilər yalnız qızılbaş tayfaları nümayəndələrindən tə'yin edilirdi. Onların fəaliyyət dairəsi təkcə taxt-tac sahiblərini qorumaqla məhdudlaşmırdı, onlar eyni zamanda fəal döyüşçü olmuşlar.

Qorçilərə divan tərəfindən illik məvacib təyin edilirdi (Bax: Şahin Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə…, s.65-67)

2000

V.F.Minorskinin *Petros Bedikə* əsasən qorçilər barədə verdiyi müfəssəl mə'lumatda aşağıdakı qorçilər də sadalanır: *Məndil qorçisi*, yaxud qorçiye- dəstar (yəni əmmamə), *çalma qorçisi*; *qılınc qorçisi*, qorçiye-şəmşir (şəmşirdar); *xəncər qorçisi*, qorçiye-xəncər (xəncərdar); *kaman qorçsi*, qorçiye-kəman (kamandar); *nizə qorçisi*, qorçiye nize (nizedar); *sədəq (ox) qorçisi*, qorçiye-tərkeş (tərkeşdar); *qalxan qorçisi*, qorçiye sipər (sepərdar); *geyim qorçisi*, qorçiye-zireh (zirehdar); *pəhlə (əlcək) qorçisi*, qorçiye-dəstkeş (pəhlədar); *çəkmə qorçisi*, qorçiye-çəkme; *başmaq qorçisi*, qorçiye-kəfş (payəfzardar), *cam qorçisi*, qorçiye-cam (piyaledar); hazir (V.F.Minorskiyə görə "məhmiz, yaxud üzəngi) qorçisi, qorçiye-bərağ (rekabdar); *cilov qorçisi*, qorçiye dəhane yaxud cilov (cilovdar).

*Şardenin* səfərnaməsində *"qorçiye-əcərlu"* vəzifəsi də olmuşdur ki, V.F.Minorski onu jandarm vəzifəsi ilə eyniləşdirir (Bax: Təzkirətül-müluk, s. 86-87).

***** *Elm* barədə doktor Seyid Cəfər Səccadi belə mə'lumat
**s.66** verir: "Elm-bilik və bilmək deməkdir. *İzzəddin Kaşani* deyir: Elm mömin bəndənin qəlbinə düşən nurdur ki, o, həmin nur vasitəsilə Allahdan, onun işindən və hökmündən ağah olur. Bu elm yalnız insana xasdır və insanın hissi və əqli idrakı ondan xaricdir. *Əqlin və elmin arasındakı fərq belədir:* Əql fitri nurdur ki, həmin nur sayəsində insan xeyr və şərdən ayrılmış olur. Həmin nur mö'min və kafər arasında müştərək olsa da, elm düzgün mö'minlərə xasdır. Mö'min və kafər arasında müştərək olan elm dünyəvi işlərdəki xeyri və faydanı ayıran əqldir ki, həmin əql mö'mündə də ola bilər, kafərdə də. Amma, axirət məsələlərindəki xeyr və faydanı bir-birindən ayıran əql fəqət mö'minlərə xasdır. Elə əqlin gözü hidayət nuru ilə işıqlanmışdır. *Əql öz zatı e'tibarilə vahiddir*, amma onun iki şəkli (növü) vardır: 1. *Əql-xaliqdə*; 2. *Əql-xəlqdə* (insanda).

Elm isə üçdür: 1. *Tövhid elmi*; 2. *Mərifət elmi;* 3. *Şəriət ehkamının elmi*. Bunlar aşağıdakı elmləri əhatə edir: *Elmi-batin* (Batini elm); *Elmi-hal* (Bəndə ilə xudavənd arasındakı

elm); *Elmi-həqayeq* (Həqq elmi); *Elmi-həqiqət* (İlahi elm); *Elmi-dərasət* (Dərs elmi, kitab oxuma elmi) – Bu elmi oxumadan və bilmədən ona əməl etmək mümkün deyil); *Elmi – vərasət* (Vərəsə elmi, irsi elm) – Əgər dərasət elminə əməl olunmazsa, vərasət elmini bilmək mümkün deyildir. Elmi-dərasət *müqəddimə*, elmi-vərasət *nəticədir*; *Elmi-dünyəvi* (Dünya elmi); *Elmi-üxrəvi* (axirət elmi); *Elmi-rüsum* (elmi-halın müqabilindəki rəsmi elm); *Elmi-rəvayət* (Şəriət elmi); *Elmi-seət* (Mələklər aləminə aparan elm); *Elmi -şəriət* (Şəriətin zahiri ehkamları elmi); *Elmi-zarr* (Ziyankar elm, yəni təkəbbür, qürur və dünyatələb elm); *Elmi-zərurət* (insan bu elmdən uzaqlaşa bilməz, çünki zəruri elmdir); *Elmi-zahir* (Elmi-batinin əksidir); *Elmi-fərizə* (Vacib elm, yəni bütün müsəlmanlar üçün zəruri elm); *Elmi-qiyam* (sufilərə görə insan özünün bütün hərəkət və davranışında özünü Haqqa bağlayır, Allahı özünün nəzarətçisi bilir); *Elmi-lədəni* (dərs oxumaqla öyənilməsi mümkün olmayan elm, yəni *peyğəmbərlərin və övliyaların elmi*)… (Bax: Doktor Seyid Səfər Səccadi. Göst. əsər, s. 586-596).

*** s.68** *Xandgar, xudavəndgar, xunkar, xünkar*- malik, sahib, padşah mə'nasında işlənmişdir. Şahlığa *"xudavəndi"* də deyilmişdir (M.Moin, I cild, səh.1401).

Padşahlara *"hünkar"* da demişlər. Xudavəndgar da bu sözün sininimidir. *"Bəxtli", "səadətli"* ifadələri də padşahlara aiddir. Osmanlı padşahlarına məxsus *ali bir ünvandır*. Hammer almanca *"shonme"*, ya *"koenig"* sözü ilə *"xandgar"* arsında bir yaxınlıq olduğunu yazır. M.Z.Pakalına görə, osmanlı sultanlarından başqa heç bir padşaha "hünkar" deyilməmişdir.

*Hüseyn Hüsaməddin Əfəndiyə* görə, hünkir uyğur türkcəsində mövcud olan "*unkar*" sözünün oğuzasıdır.

Şeyx Süleyman Əfəndi Buxari "Lüğətnamə"sində yazır: *Ünkmaq* – böyümək, Müvəffəq olmaq, əl tutmaq mənasındadır. Bursa şəhərinə "*Hünkar eli*" də deyilmişdir. Hünkar ifadəsi şairlərdən *Mövlana Cəlaləddin Rumiyə* ehtiramını "*Molla hünkar*" şəklində təsbeh olunmuşdur.

Badımcandan hazırlanan bir xörək adı “hünkar bəyəndi” olmuşdur.

Sarayı mühafizə edən, də’vət və təbliğ işlərində çalışan adamlar *hünkar çavuşu* adlanırdı.

Saraydakı kişi və qadınların adları yazılan dəftərə “*hünkar dəftəri*” demişlər. Həmin dəftərlərdə hər adamın adı və vəzifəsi ilə bərabər məmləkətləri və saraya daxil olma tarixini də qeyd olunurdu.

Padşahlar namaz qılarkən onlara imamlıq edənlər “*hünkar imamı*” adlanırdı (M.Z.Pakalın. Cöst.əsər I c., s.867-869).

**

**s.68** Səfəvilərin hakimiyyəti dövründə əmir və döyüşçülərə onların göstərdikləri xidmət müqabilində şahlar tərəfindən *ləqəb* verilirdi.

*Ləqəbləndirilmə* vaxtı ləqəbləndirilən şəxsin iki əsas xüsusiyyəti nəzərə alınırdı: *şəxsin zahiri əlaməti (görünüşü) və xüsusi keyfiyyəti*, hökmdarlar əmirlərə ləqəb verməklə, onlarabir növ özlərinin xüsusi diqqətlərini nümayiş etdirirdilər. Alman tədqiqatçısı K.M.Rohrbornun göstərdiyinə görə “bütün səfəvi şahları özlrinin xüsusi mərhəmət əlaməti kimi əmirlərə ləqəb verməkdə maraqlı idilər”.

Mənbələrdə bu və ya digər şəxsin öz əsil adı ilə deyil, zahiri əlamətinə görə adlandırılmasına dair qeydlər çoxdur. “*Bığlı Çavuş* kimi tanınan *Mustafa adlı türkmanı* Diyarbəkrə yolladı (*Qazi Əhməd Qəffari*. “Tarixe-cəhanara”), yaxud, qızılbaş əmiri İlyas bəy Zülqədərin ləqəqəbi *“Keçəl bəy”* idi (Əbdi bəy Şirazi. Təkmilətül-əxbar).

Şəxsin başqa bir keyfiyyəti, məsələn, onun qabiliyyət və bacarığına görə ləqəbləndirilməsinə dair də yazılmışdır. Həsən bəy Rumlunun və İsgəndər bəy Münşinin verdikləri mə’lumat bu baxımdan səciyyəvidir. 1514-cü ildə Sultan Murad Ağqoyunlu qızılbaşlarla olan döyüşdə əmir *Qaraca Sultan Qacar* tərəfindən öldürülür. “Nəhayət *Ağca Sultan* üstün gəlib Namuradı (Sultan Muradı – *Ş.F.*) öldürdü, onun başını üzüyü ilə birlikdə xoşbəxt şahın sarayına yolladı. Səkkiz yüz süvari ilə səkkiz min nəfəri məğlub etdiyinə görə, Ağca Sultana *“Qudurmuş Sultan”* ləqəbi verildi (Həsən bəy Rumlu).

2003

I Şah ismayılın *üç əmirinin* ləqəblərinə diqqət yetirək: *Əmirül-üməra Məhəmməd bəy Süfrəçi Ustaclının ləqəbi Çayan Sultan* idi (çayan – türk sözü olub "əqrəb" deməkdir – *Ş.F.*); *Əli bəy Rumlu* "*Div Sultan*" ləqəbinə layiq görülmüşdü; *Mustafa Sultan* isə sərt xüsusiyyətinə görə "*Köpək Sultan*" adlandırılmışdı (Bax: *Ş.F.*Fərzəliyev. XV-XVI əsrlərdə Azərbaycanda işlədilən bə'zi ad, ləqəb və titulların etimologiyası haqqında, Azərb. SSR EA-nın xəbərləri, Tarix, Fəlsəfə, hüquq seriyası, №3, 1977, səh.78-79).

*** s.69** *Tac, kəmər, qılınc, at* və sair qiymətli hədiyyələrin göndərilməsi bir hökmdarın qarşı hökmdar tərəfindən rəsmən tanınmasının rəmzi olmuşdur.

**** s.69** *Münqəlay* (mənqəlay – yaxud pişdar)-qoşunun ön hissəsi. Münqəlayda minlərlə döyüşçü vuruşurdu, çünki ordunun bu hissə hücumunun döyüşün sonrakı gedişi üçün böyük əhəmiyyəti vardı (Bax: Şahin Fazil Fərzəlibəyli.XV əsr Azərbaycan dövlətlərinin quruluşu…, s. 59).

***** s.69** *Mənzil* – gullənin qət etdiyi məsafə uzunluğuna deyilirdi (Bax: Nəyyerzəman Səqəfi. Göst.lüğət, III c., səh. 650).

****** s.69** *Şahsevən* – Qızılbaş tayfalarına mənsub olmayan, lakin şahın itaətinə gələn şəxslər belə adlanırdı. Elə indi də İranda ənənəvi şahsevənlər tayfası mövcuddur.

***s.70** *Pirbudağın* (Cahanşahın oğlu) Bağdadda saldığı bağ.

**** s.70** *Təvaf* – şər'i istilahdır. Xüsusi şərtlərlə Kə'bə evi ətrafında fırlanmaq deməkdir. Ariflər ona "heyrət (təhəyyor) məqamı" deyirlər. (Bax: Doktor Seyid Cəfər Səccadi. Göstər. əsər, s. 555).

***** s.70** *Ehram* – "hərəm" sözündən götürülmüşdür, "hərəm" isə "özünü unutmaq" ("bixodi") məqsədi daşıyır. *Xacə Abdullah Ənsariyə* görə hərəm iki cürdür: *Zahiri və batini*. Zahiri hərəm – möminlərin qibləsi olan Kə'bədir, batini hərəm isə Allahın nəzərindən bir nişanədir. *Zahiri hərəm* düşmən və kafərlərdən, *batini hərəm* isə əğyarın gözündən və fikrindən aralıdır.

*Ehram* isə hərəmə daxil olmaqdır. Allah evinin zəvvarları *miqat* (Məkkədə ehram bağlayan yer) adlanan müəyyən bir

yerdə Həcc *fərizəsini* (vacib əməlləri) yerinə yetirməkdən ötrü əyinlərinə xüsusi libas geyinirlər. *Şah Ne'mətullah* deyir: "*Zahiri ehram* mə'lumdur, amma *batini ehram* nəfsani sifətdən təcrid olunmaq, qəhahətli şeytani əməllərdən qurtulmaq, batini əxlaqi rəzilliklərdən təmizlənmək, qəlbi qəzəb və şəhvani hisslərdən paklaşdırmaqdır (Bax: Doktor Səccadi. Göst.əsər, səh. 315, 60).

***** *Müşə'şə* – "parlaq" mə'nasını verir ("şüa" sözündəndir).
**s.71** Təriqətin adıdır. *Seyid Məhəmmədin* başçılıq etdiyi *müşəşəçilər hərəkatı* "ifrat" şiəçilər olmuşlar. Seyid Məhəmməd özünü qeyb olmuş *İmam Mehdinin* sələfi (bəzən də Mehdinin özü) kimi qələmə verirdi. O, öz tə'limini *"Kəlaməl-Mehdi"* kitabında şərh etmişdir. 1440/41-ci ildə İraqın cənubunda ərəb tayfalarının üsyanına başçılıq etmiş Seyid Məhəmməd 1442-ci ildə *Qaraqoyunlu hökmdarı İsgəndər* tərəfindən məğlub edilmişdir. Onun 1457-ci ildə Xuzistanda yaratdığı *kiçik şiə dövləti* sonralar feodal dövlətinə (Səfəvilərin vassalı kimi 18-ci əsrin 30-cu illərinə qədər mövcud olmuşdur) çevrilmişdi (Bax: ASE, cild VII, Bakı, 1983, s. 140).

***s.75** Bu gün də Əfqanıstanda yaşayan *həzarə* tayfası.

***** *Bəy* – farsdilli mənbələrdə türk sözü olan bəy "*big*" və
**s.77** "*bik*" şəklində yazılmışdır. Mən "*bəy*" ifadəsinə yalnız Həsən bəy Rumlunun və İsgəndər bəy Münşi Türkmanın əsərlərində təsadüf etdim.

***** *Sağərçi* – mey məclisinin təşkilatçısı (sağər – ərəbcə
**s.78** qədəh, piyalə deməkdir).

*Yasovul* – Şahı müşayiət edən ali mühafizə dəstəsi, yaxud o dəstənin başçısı. "Təzkirətül-müluk" əsərində "*qur yasovulları*" ("yəsavulane-qur") ifadəsi vardır. V.F.Minorskiyə görə "bu adı daşıyanların nə kimi vəzifə sahibi olmaları dolaşıqdır". "*Qur*" sözünün mə'nalarından biri "mühümmat"dır və buna görə də, güman etmək olar ki, qur yasovulları cəbbəxana ilə əlaqədar olmuşlar. *Sansona görə*, onların sayı 2000 nəfərə qədər idi ki, onlar qorçibaşıya tabe olmuşlar və süvari idilər. Gecə sarayı qoruyan yasovullar saraydan çıxan, yaxud geri qayıdan şahı qoruyaraq, onu kənar adamlardan

mühafizə edirdilər. *Divanbəyinin* məhkəmə otağında sükutu qoruyur, e'dam fərmanını icra edir, malların zəbti ilə məşğul olur, xanları həbs edirdilər. *Adam Oleariyə* görə qur yasovulu şah qoşununun önündə gedir və qoşuna yol açırdı. *V.F.Minorski* yazır: *"Yasovul" sözü* monqolların "qanun, fərman" mənasını verən "*yasa*" sözündən düzəlmişdir. Onlar əmr və fərmanları şahın hüzurunda icra edən mə'murlar olmuşlar. Səfəvilərin hakimiyyəti zamanı *"söhbət yasovulları"* ("yasavulane-söhbət") vəzifəsi də olmuşdur ki, V.F.Minorski onların bu günki *dequstatorlar* (acudan) oduqlarını bildirir. "Aləmara"ya (yəqin ki, "Tarix-aləmaraye-Abbasi"yə) əsaslanan bu tarixçi söhbət yasovullarının bə'zən xətərli səfərlərə göndərildiklərini və şahın tam e'tibarlı adamları olduqlarını bildirir. *Sarden* (V c., 161-ci səhifə) onları "müsahib xidmətkar", yaxud "xüsusi xadim" adlandırıb yazır ki, yasovullar mərasimlər vaxtı əllərində zərli əsalar tutub şahın xidmətində dururdular. Söhbət yasovulları nəcabətli əmir övladları arasından seçilirdilər.

*"Məclis yasovulları"* adlanan yasovul dəstəsi də mövcud olmuşdur ki, hər iki dəstə üzvləri *eşikağasıbaşının* tabelində fəaliyyət göstərmişlər. Şahın fərman və hökmlərini divan məclisinin üzvlərinə çatdırmaq da məclis yasovullarının vəzifəsi idi (Bax: "Təzkirətül-müluk", səh. 87-88, 120-121).

*** s.79** *Gilanat* – "Gilanlar", yaxud İranda "iki Gilan" deməkdir, çünki orta əsrlərdə Gilan vilayəti iki hissədən ibarət olmuşdur. İran tarixçisi *Əbdülhüseyn Nəvai* yazır: "Gilan bir şəxsin hakimiyyəti altında olmamış və qədimdən *Biyəpəs* və *Biyəpiş* adlanan iki hissəyə bölünmüşdü. Onların arasında *Sefidrud çayı* vardı. Biyəpəs çayın sol tərəfində olub, Rəşt, Fumənat və Kəskərdən ibarət idi. Biyəpiş isə çayın sağ tərəfində yerləşirdi, *mərkəzi Lahican idi*" (Bax: Əbdülhüseyn Nəvai. Şah İsmayıl Səfəvi (fars dilində, Tehran, h.1347, səh.308). Gilan hakimləri *monqol hakimiyyətinin süqutundan sonra* da öz ölkələrini müstəqil idarə etmiş, teymurilərin tam asılılığında olmamış, osmanlılarla yaxşı münasibət yarada bilmişdilər. Gilan feodal dövlətləri Qaraqoyunlu və Ağqo-

2006

yunlu dövlətlərinin hakimiyyət sürdükləri dövrdə də öz hakimləri tərəfindən müstəqil idarə olunmuş, Qara Yusif, Cahanşah, Uzun Həsən, Sultan Yaqub kimi hökmdarların yalnız nominal asılılığında olmuşlar. Onların səfəvilərlə yaxın münasibətləri hələ XIII əsrdən, Şeyx Səfiəddinin fəaliyyətdə olduğu vaxtdan başlanmışdı. Şah İsmayıl Təbrizdə taxta çıxdıqdan sonra hər iki Gilan hakimləri ilə dost münasibət qurdu. Lakin, *Əbdülfəttah Fuməninin* yazdığına görə, Şah İsmayıl İraq, Azərbaycan, Fars, Ərəbistan və Kürdüstanın bə ' zi vilayətlərini ələ keçirdikdən sonra dövlət başçıları Gilanın da ona tabe etdirilməsinin zəruri olduğunu bildirmiş, beləliklə Səfəvi hökmdarı Biyəpəs üzərinə hücuma keçmişdi. Lakin, Biyəpəs Gilanının hakimi Əmirə Dübac Şah İsmayılla dil tapa bildi və onların münasibətləri bir müddət dostcasına davam etdi, Şah İsmayıl hətta bacısı *Xeyransanı* ona ərə verdi. Şah Təhmasib taxta çıxdıqdan sonra Biyəpəs hakimində yenidən tam müstəqil olmaq meyli çoxaldı və qarşılıqlı münaisbətlər yenidən pisləşdi. Tezliklə, bütün Gilanatda hakimiyyət başına son Gilan hakimi *Xan Əhməd xan* keçdi, lakin o, səfəvi əmirləri tərəfindən məğlub və həbs edilərək səfəvi sarayına gətirildi. Xan Əhməd xan azadlığa çxdıqdan sonra osmanlı sultanları Süleyman, II Sultan Səlim, III Sultan Murad və III Sultan Məhəmmədlə uzun müddət yaxşı münasibətdə olur, lakin nəhayət Şah Abbasın hakimiyyəti dövründə səfəvi-gilək münasibətləri olduqca kəskinləşir və Xan Əhməd xan Osmanlı dövlətinə üz tutur. Gilanat öz müsiəqilliyini əldən verir (Bax: Şahin Fazil Fərzəlibəyli. XVI əsr Azərbaycan-Türkiyə münaisbətlərində Gilanın rolu, “Tarix və onun problemləri” jurnaılı №1, Bakı, 1999, səh.54-59; həmçinin yenə onun “Azərbaycan və Osmanlı imperiyası” kitabı, səh. 187-192).

*** s.80** *Zəhirüs-səltənə* – Burada Mavərənnəhr hakimi *Məhəmməd Babur Mirzənin* adına – (Zəhirəddin) işarədir.

**** s.80** *Məhəmməd Babur Mirzə* – XVI əçrlə Şimali Hindistan ərazisində yaranan *Böyük Moğollar İmperiyasının* banisi. Babur Mavərənnəhrin padşahı özbək *Məhəmməd Şeybani*

*xan* tərəfindən məğlub edildikdən sonra Türküstan və Səmərqənddən əl çəkdi, *Əfqanıstana* getdi, 1504-cü ilədək *Kabulu* və başqa yerləri əlinə keçirdi, 1525-ci ilədə Kabul-dan *Hindistana* getdi, Dehli sultanı olan *Ludi Məhəmməd Əfqanı* məğlubiyyətə uğratdı, bütün *Şimali Hindistanı* – Agranı və Dehlini özünə tabe edərək, hind moğolları kimi məşhur olan imperiyanı yaratdı (Bax: Dr. Xanbaba Bəyani. Səfəviyyə dövrünün cəngləri (fars dilində), Tehran, 1379, səh.582). Babur böyük əmir Teymurun oğlu *Miranşahın nəvəsi olmuşdur* (Bax: Pənahi Semnani. Qızılbaşların mür-şidi Şah İsmayıl Səfəvi (fars dilində), Tehran, 1376, səh.172).

*** s.30 *Bayram xan Qaramanlı* – XVI əsrin əvvəllərində Bəlx hakimi olmuşdur. Zəhirəddin Babur düşməni olan Ubeyd xan və başqa özbək əmirlərinin əzilmələrindən ötrü I Şah İsmayıldan kömək xahiş edir. Qızılbaş hökmdarı tezliklə o zaman öz hərbi qüvvələrinin sərkərdəsi olan Əmir Nəcme-sanini və Bayram xan Qaramanlını Baburun köməyinə yolla-yır, lakin hicri 918-ci ilin ramazan ayının 3-də /12 noyabr 1512/ Qəcduvan adlı yerdə baş vermiş döyüşdə Babur bir neçə qızılbaş əmiri ilə birlikdə meydanı tərk edir. Nəticədə Übeyd xanın hücumuna davam gətirməyən qızılbaş döyüş-çülərinə ağır məğlubiyyət üz verir, Bayram xan Qaramanlı və Nəcme-sani həlak olurlar /Bax: Dr. Mənuçöhr Parsadust. I Şah Təhmasib Səfəvi, Tehran 1377, səh. 406-407/.

*s.81 *Amuyə* – Amu dərya çayı.

** s.81 *Qan bahası* (Xunbəha) – Döyüş vaxtı çoxlu hərbi qüv-vəsini itirən hökmdarın məğlubiyyətə uğratdığı yerdən (şə-hər, qəsəbə, qala, kənd) tələb etdiyi təzminat. Qan bahası əsirlərin bağışlanmasından ötrü də ödənilən böyük məbləğ pul olmuşdur (Bax: Şahin Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə…, s. 84).

Məşhur *Otluqbeli döyüşündə* Uzun Həsənin qoşununda vuruşub osmanlılara əsir düşən üç teymuri şahzadəsinin xilası üçün Sultan Məhəmməd Fateh onların azad olunmaları müqabilində böyük məbləğ pul tələb etmiş, şahzadələrin anaları *Ruqiyyə xatunun* (Əmir Teymurun oğlu Miranşahın

gəlini – *Ş.F.*) bu haqda osmanlı sarayına göndərdiyi ərizənin cavabında Sultan Məhəmməd hər şahzadənin buraxılmasından ötrü “20 dəfə 100 min Təbriz ağçası, üç şahzadənin (Zeynal Mirzə, Yusif bəy, Ömər bəy) hamısının xilası üçünsə müvafiq olaraq, 60 dəfə 100 min Təbriz ağçası” pul ödənilməsini tələb etmişdi (Bax: Şahin Fazil Fərzəlibəyli. Azərbaycan və Osmanlı imperiyası…, s. 88).

*** *Əliq* – yük daşıyan heyvanlar üçün yem (Bax: Nəy-
s.81 yerzaman Səqəfi (Farsca-Azərbaycanca lüğət, c. 2, səh. 126).

**** *Çərxçi* – döyüş zamanı meydana öncə çıxarılan dəstə
s.81 olmuşdur. Qaraqoyunlu və Ağqoyunlu qoşunlarında, güman ki, işlənməyən bu istilahın mənbələrə əsasən səfəvilər dövründə yarandığını müəyyənləşdirmək olur. Orduda çərxçi döyüşçülərinin sayı min nəfərdən çox olurdu. Onlar döyüşün ilk anlarında meydana çıxarılırdılar. Çərxçilərə rəhbərlik edən şəxs *çərxçibaşı* adlanırdı.

Dilçi alim *H.H.Zərinəzadəyə* görə, çərxçilər, “çərx” adlı “maşınlarla” (?) təchiz edilir və mühasirəyə aldıqları şəhərə çərxlərdən od yağrırarmışlar. Lakin bizə məlumdur ki, çərxçi dəstələrinin əsas fəaliyyəti mühasirə zamanı yox, *hücüm vaxtı,* özü də şəhər ətrafında yox, *döyüş meydanında* olmuşdur. Çərxçilərin döyuş meydanına çıxarılması müharibənin başlanması demək idi. *“Aləmaraye-Səfəvi”* kitabında yazılır: “Elə ki, çərxçilər hər iki tərəfdən meydana gəldilər, döyüş başlandı”.

Güman ki, çərxçi dəstəsinə kimin rəhbərlik edəcəyi döyüşə yollanma ərəfəsində müəyyən edilmişdir.

Çərxçilərin silahları *tüfənglərdən* ibarət olmuşdur. “Aləmaraye-Səfəvi” əsərində *çərxçilik (çərxçigəri)* vəzifəsinin məzmunu barədə maraqlı bir fakt da vardır. Orada göstərilir ki, Rum sultanından top və əsgəri qüvvə ilə kömək alan *Sultan Murad Ağqoyunlu* qızılbaşlara qarşı çıxır. Şah İsmayıl vəziyyəti belə görüb öz adamları ilə məsləhətləşdikdən sonra onlara deyir: “Elə bir adam istəyirəm ki, rum qoşununun həşəmətindən qorxmasın və bizim *pişxanəmizi* (qoşunun daşıdığı cəng vəsaitini – *Ş.F.*) rum qoşununun iki fərsəxliyinə aparıb yer-

ləşdirsin”. *İlyas bəy Halvaçıoğlu* ona cavab verir: “Mən zəfərli qızılbaş qoşununun çərxçisi olduğum üçün bu, mənim işimdir”. Demək, çərxçinin fəaliyyət dairəsinə döyüş sursatının daşınması və yerləşdirilməsi də daxil idi (Bax: Şahin Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə, səh. 72; Yenə onun “XV əsr Azərbaycan dövlətlərinin quruluşu, səh. 54-56; Yenə onun “Çərxçi”, ASE, X cild, 1987, səh. 160).

* *Yeniçəri* – Anadolu səlcuqiləri ilə Misir məmlükləri döv-
s.83 lətlərində mövcud olmuş bu qoşun növü osmanlılar üçün örnək olmuş və həmin təşkilat Osmanlı dövlətində əvvəlki dövlətlərdən müqayisə olunmaz dərəcədə təkamül etmişdi. Osmanlıların uğurlarında mühüm bir amil olan *yeniçəri ocağının qurulması* I Murad zamanına təsadüf edir. İ.H.Uzunçarşılıya görə, yeniçəri ocağının hansı tarixdə yaradılması haqqında hələlik mə’lumat yoxdur. “Ocağın mühüm qanununun nə zaman yazıldığını bilmirik” yazan tədqiqatçı öz araşdırmasını davam etdirir, *“Qəvanine-yeniçəriyan”* (“Yeniçərilər qanunları”) adlı XVII əsrin başlanğıcında yazılan əsərdən mühüm mə’lumatlar əxz edir.

Mənbələrdən mə’lumdur ki, yeniçəri qoşunları *Avropalı cavan adamlardan* təşkil olunmuş və *islamı qəbul etmiş* hərbiçi qüvvələrdən təşkilatlanmışdı. Yeniçəri olmağa təhkim olunmuş Avropalılar onların əskərlik müddəti daimi olduğu üçün *evlənə bilməzdilər.* Onların yaşamalarından ötrü xüsusi evlər *(qışlalar)* inşa olunmuşdu. İlk yeniçəri odaları *Ədirnədə* qurulmuşdu və həmin odalar *İstanbulun paytaxt olduğu zamana qədər* Ədirnədə saxlanıldı.

Yeniçəri ocağının *böyük zabitləri* bunlar idilər:

1. Yeniçəri ağası;
2. Sekbanbaşı;
3. Qul kətxudası, yaxud kətxuda bəy;
4. Samsunçubaşı;
5. Zaqarçıbaşı;
6. Turnaçıbaşı;
7. Muhzır ağa;

8. Böyük və kiçik xacəkilər;

9. Baş çavuş;

10. Ketxuda yeri;

11. Yeniçəri Əfəndisi.

*Yeniçərilərin əsas vəzifələri:* Komandan və zabitlərin əmrlərinə itaət etmək; hamısının bir vücud kimi müttəfiq olması, qışla və qərargahlarda birlikdə yaşamaları; dəbdəbə və təntənə kimi əsgərlik və mərdliyə yaraşmayan işlərə qarışmamaları; islam fərzlərini (qayda-qanunlarını) yerinə yetirmələri; yeniçərilərin öz zabitlərindən başqa heç kim tərəfindən cəzalandırılmaması və təqdir olunmamaları; saqqal saxlamamaları; evlənməmələri; qışlalardan ayrılmamaları; başqa bir sənətlə məşğul olmamaları; tə'limlə vaxt keçirmələri.

Yeniçərilərə etdikləri *qəbahətə* görə döyülməkdən e'dama qədər cəza verilərdi.

Yeniçəri ocağı 1826-cı ildə *II Mahmud tərəfindən* ləğv edildi (Bax: M.Z.Pakalın. Göst. əsər, III cild, səh. 617-624).

* **s.84** *Ərradə* – araba. Döyüş gedən vaxt "döyüş qaydasına görə ön və arxa cinahları *ərrradələrlə* və *zəncirlərlə* çəpərləyirdilər" ki, döyüşçülər meydandan qaça bilməsinlər (Bax: Dünyanı bəzəyən Abbasın tarixi, bizim nəşr, səh. 84; həmçinin bax: Dr. M.Moin. Göst. lüğət, I cild, səh. 187).

*"Sam və İsfəndiyar dastanı"* – Sam (Nuh peyğəmbərin böyük oğlu) adlı oğlana "sami nejadı" mənsub edilir. O, öz zövcəsi ilə Nuhun gəmisinə minir və tufandan xilas olur (Bax: Dr. M.Moin. Göst. lüğət, I cild, səh. 714).

İsfəndiyar isə, rəvayətə görə *Kəyani hökmdarı Çəstaspın* oğlu idi. Rüstəmlə etdiyi döyüş zamanı öldürülmüşdür (Bax: Dr. M.Moin, I cild, səh. 142).

Yəqin ki, adı çəkilən dastan Samın və İsfəndiyarın qəhrəmanlıqlarına həsr olunmuşdur.

* **s.86** *Zərbzən* – Bu çəng vəsaitinin nə olduğunu hələlik müəyyənləşdirə bilmişik.

****** Kərrənay – Hücum vaxtı kərənay (uzun zurna), qələbə
**s.86** çalınanda isə nağara səsləndirilərdi (Bax: Şahin Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə, səh. 68-69).

******* *Əlləng* – Keçid deməkdir; *aləng* isə "otlaq yer"
**s.86** mə'nasındadır.

***** *Cahad* (cihad) – Bir qədər yuxarıdakı şərhdə bu istilah
**s.88** haqqında geniş mə'lumat verilmişdir. Cahad (yaxud cihad) – *müqəddəs müharibə, inam yolunda müharibə* deməkdir (Bax: Nəyyerzaman Səqəfi. Göst. lüğət, I cild, səh. 851).

****** *Lələ* – O, şah tərəfindən rəsmən tə'yin edilir və şahzadənin
**s.88** *bütün hərbi, mülki və maliyyə işlərini* (ratiq-o fatiqe mohemmat) idarə edirdi. Məsələn, *Cahanşah Qaraqoyunlu* İsfahan əyalətini oğlu *Məhəmmədi Mirzəyə* verərkən *"şahzadə həddi-büluğa çatmadığı üçün"* əyalətin bütün işləri *Lələ Məhəmmədə* tapşırılmışdı. Bu lələnin vəfatından sonra bu şahzadənin lələsi sabiq lələnin qardaşı *Lələ Səfərşah* oldu.

Lələ adlı-sanlı əmirlərdən təyin edilirdi. Ağqoyunlu dövlətində böyük rol oynamış *Əmir Sufi Xəlil* bir müddət *şahzadə Baysunqurun* (1490-1492) lələsi və "mürəbbisi" olmuşdu.

Əmirin lələliyə keçirilməsi üçün *xüsusi fərman* verilir və bu təyinat lələ tərəfindən böyük hadisə kimi qiymətləndirilirdi, çünki azyaşlı şahzadəyə lələ tə'yin edilən əmirin böyük səlahiyyətləri olurdu. Şahzadə lələdən ötrü gəlir vasitəsi idi.

Qaraqoyunlu dövlətinin ilk illərinin təvsirini verən tarixçi Həsən bəy Rumlu "lələ" istilahını "atabəy" kimi də işlətmiş və Qara Yusif Qaraqoyunlunun oğlu Pirbudağın *Əmir Qara* adlı atabəyinin adını çəkmişdir (Bax: Ş.F.Fərzəlibəyli. XV əsr Azərbaycan dövlətlərinin quruluşu…, s. 28-29).

******* *Sam Mirzə* – I Şah İsmayılın 4 oğlundan biri olan *Sam*
**s.88** *Mirzə* (1517-1567) atasının sarayında görkəmli alim və şairlərdən tə'lim və tərbiyə almış, *qəzəllər yazmışdır*. O, XV əsrin sonu-XVI əsrin ortalarında yaşamış Azərbaycan və fars şairləri haqqında qısa mə'lumat verən məşhur *"Töhfeye-Sami"* təzkirəsinin müəllifidir (Bax: Azərbaycan Sovet Ensiklopediyası, VIII cild, səh. 276).

4 şahzadə qardaşdan Təhmasib Mirzə və Bəhram Mirzə türkman mosullu əmirlərindən birinin qızından, Əlqas Mirz əvə Sam Mirzə isə müxtəlif xatunlardan doğulmuşdular. Şah Təhmasibin Sam Mirzədən xoşu gəlmirdi və bu münasibət *Samın öldürülməsi ilə nəticələndi* (İsgəndər bəy Münşi. Göst. əsər) bizim tərcümə (səh. 89, 136). "Xülasətüt-təvarix" (Qazi Əhməd Qumi) əsərinin mə'lumatına görə Sam Mirzə iki oğlu ilə birlikdə *Qəhqəhə qalasına* göndərilir. O, həmin vaxt qalada həbsda olan əmisi oğlu İsmayıl Mirzəyə *bir qəsidə* yazıb göndərir. Qəsidədə xahiş edilirdi ki, əgər hakimiyyət sənə çatsa, məni bir yerdə hakim tə'yin edərsən… Qəhqəhənin qalabəyi *Həbib bəy Ustaclı* həmin qəsidəni başqa kağızlarla İsmayıl Mirzədən alıb *Şah Təhmasibə göndərir.* Şah Təhmasib qəsidəni görüb, Sam Mirzədən bədgüman olur, *Məhəmməd bəy Qoyunçuoğlunu* 30 nəfər qərçi ilə gizlicə çağırtdırıb deyir ki, mənim qalada 5 düşmənim vardır… Həbib bəyə hökm yazır ki, Məhəmməd bəyin sözü bizim sözümüzdür, əməl edin. Məhəmməd bəy qalaya çatıb deyir: Əlqas Mirzənin oğlanlarını, Sam Mirzəni və onun oğlanlarını bir yerdə cəm edir… *Məhəmməd bəy onların yeməklərinə zəhər qatıb göndərir*, lakin onlar işi başa düşüb yemirlər və öz mənzillərində olan yeməklərlə dolanırlar. Məhəmməd bəy belə qərara gəlir ki, onları gecə yuxuda olduqları vaxt boğub öldürsünlər. Əvvəl Sam Mirzənin oğlundan başlayırlar. Birini yuxuda ikən boğurlar. Digəri isə ayılıb istəyir ki, özünü arxadan atasına çatdırsın, onun da işini bitirirlər. Sam Mirzəni öldürmək istədikdə *əsasını götürüb onları* vurur. Qorçilər ipi onun boğazına salıb boğurlar… 5 nəfəri qalada dəfn edib, məsələni şah Təhmasibə xəbər verirlər. Şah Təhmasib divanxanaya gəlib deyir ki, Sam Mirzə, övladları və Əlqas Mirzənin də oğlanları qalada bir mənzildə olarkən zəlzələ qopub, tavan onların üstünə uçub və onlar ölüblər… Bir müddətdən sonra Şah Təhmasib onların cəsədlərini qaladan gətirtdirib ata-babalarının məqbərələri olan *Kəlxuran kəndində* dəfn etdirir… Sam Mİrzə öldürülərkən 51 yaşı olmuşdur (Bax: Ə.H.Rəhimov. Sam Mirzənin öldürülmə tarixi, 2013

öldürülməsinin səbəbi və qatili, “Elm və həyat” jurnalı, 1989, № 4, səh. 15-17).

* s.90 *Cəm=Cəmşid* – Pişdadilər sülaləsinin dördüncü şahı olan əfsanəvi bir şəxs (Bax: Nəyyərzamən Səqəfi. Göst. lüğət, 2 c., s. 572).

** s.90 *Kəsra* – Sasani padşahlarından Xosrov Pərvizin (Xosrov Ənuşirəvanın – *Ş.F.*) ləqəbidir.

*Ənuşirəvan* = *Nuşirəvan* (ölməz ruh sahibi – *Ş.F.*) – iyirmi birinci *Sasani padşahı Qubadın oğlu I Xosrovdur.* Onun anası bir əkinçinin qızı idi ki, Qudab Bizansdan fərar edib Nişapura gələrkən onu özünə zövcə etmişdi. *Məhəmməd peyğəmbər* bu padşahın dövründə dünyaya göz etmişdir (Bax: Doktor M.Moin. Göst.lüğət, c. IV, s. 191).

*** s.90 *Zilhəccə (zilhiccə)* – hicri qəməri təqviminin 12-ci ayı (Bax: Neyyərzəman Səqəfi, Göst.lüğət, c.I, s. 796; Doktor Qədir Golkaryan. Göst.lüğət, s. 214).

**** s.90 *Üstürlab* – bucaq ölçən alət (Bax: Nəyyerəman Səqəfi. Göst.lüğət, c. 1, s. 64).

Üstürlab (astrolabos) *yunan sözüdür*, ulduzların hündürlük məsafəsini və başqa səyyarələrin yerləşmə mövqeyini ölçən alət olmuşdur. *Üstürlabdan* – ulduzları üstürlab aləti ilə izləyən mütəxəssisdir (Bax: Doktor Moin. Göst.lüğət, c.I, s. 266).

***** s.90 *Zic* – astronomik təqvim; astronomik cədvəl

****** s.90 *Qeyb [aləmi]* – ruhlar aləmi, şəhadət aləmidir. Qeyb aləmindən xəbərdar olan peyğəmbərlər və övliyalar qeyb və şəhadət aləmindən xəbər vermişlər (Bax: Doktor Seyid Cəfər Səccadi. Göst.əsər, s.610).

* s.91 *Rəcəb* – hicri qəməri ilin yeddinci ayı (Bax: Neyyərzəman Səqəfi. Göst. lüğət, c. I, s. 808).

** s.91 *Nəcəf* – İraqi – Ərəbin mö’təbər və mühüm şəhərlərindəndir. Bu şəhərin şöhrət və əhəmiyyətinə səbəb birinci İmam Əmirəl-möminin Əlinin oradakı məzarıdır. Nəcəfdən Kərbəlaya 75 km. məsafə vardır (Bax: Doktor Moin. Göst.lüğət, c. VI, s. 2108).

Bu sətirlərin müəllifi *1999 və 2000-ci illərdə Nəcəf və Kərbəla şəhərlərində olmuş* və həmin səfərlərə həsr etdiyi *“Xurma kimi şirin Bağdad”* və *“Bağdad kimi şirin xurma”* adlı səfərnamələr yazıb çap etdirmişdir (Bax: “Xurma kmi şirin Bağdad”, “Say” qəzeti, 19 yanvar, 20-27 mart, 28 aprel 2000-ci il; “Say” qəzeti 28 dekabr 2000-ci il; həmçinin “İraqda şer festivalı”, “Respublika” qəzeti, 22 dekabr 1999; “Məcnunun qəbini axtardım İraqda, yox idi”, “Alternativ” qəzeti, 12-28 dekabr 1999).

******* *Bidayət* – başlamaq, başlanğıc, əvvəl və s. kimi mənaları
**s.91** özündə əks etdirir.

***** *Hikmət* – Ariflərin və zövq əhlinin muradı İlahinin yarat-
**s.92** dıqlarına diqqət yetirmək və İlahi ne’mətlərin mövcudluğunda təfəkkür və düşüncə görməklə öz irfani götüntülərinin (şohud) kamilləşməsidir. Onlar “həkim” (hikmət sahibi – *Ş.F.*) adını Haqqın zatına layiq bilirlər, çünki hər şeyi göründüyü kimi aləmə əta edən *Odur*. Onun gördüyü işlər möhkəmdir. Hikmət elə bir nurdur ki, sənə onun şüaları gəlib yetişir, dilin savab işləri zikr edir, ürəyində isə daim savab fikirlər yaranır.

*Əbdürrəzzaq Kaşani “Şəhre-mənazelüs-sayerin”* kitabında üç hikmətdən danışır: *hikməte-camee* (Allah-taalanın hikməti); *hikməte-məchule* (örtülü həqiqətlər); *hikməte-məskut* innəha (rəsmi elmlərlə öyrənilməsi mümkün olmayan həqiqətlərin sirləri): Bax: Doktor Seyid Cəfər Səccadi. Göst.əsər, s. 326-327).

****** *Ərəstu* (e.ə. 384 – e.ə. 322) – Aristotelin müsəlman
**s.92** Şərqində yayılmış adı. Qədim yunan filosofu və mütəfəkkiri. Platonun şagirdi olmuş və 20 il *Platon Akademiyasında* iştirak etmişdir. E.ə. 343-335-ci illərdə *Makedoniyalı İsgəndərin* tərbiyəçisi olmuşdu. E.ə. 335-ci ildə Afinaya qayıtmış və öz məktəbini (Peripatetik məktəb) yaratmışdır. Dinə qarşı cinayətdə təqsirləndirilən Aristotel tə’qibdən qurtarmaq üçün Evbey adasına qaçmışdı. Geniş və çoxcəhətli yaradıcılığa malik olan Aristotel məntiq, psixologiya, təbiətşünaslıq, etika, siyasət, tarix, poeziya və ritorikaya aid əsərlər yazmış-

dır. *Materializm ilə idealizm arasında* tərəddüd edən Aristotel fəlsəfəsində *Platonun* "ideyalar" tə'liminin tənqidi mühüm yer tutur.

*Aristotel Quldarlıq dövlətinin ideoloqu idi.*

VIII-IX əsrlərdən başlayaraq Aristotelin əsərləri ərəb dilinə tərcümə edilmişdir. IX əsrdə Bağdadda onun əsərlərini tərcümə edən və üzünü köçürən xüsusi qrup yaradılmışdı. *Kindi, Farabi, ibn Sina* Şərqin görkəmli aristotelçi filosofları olmuş, fəlsəfənin öyrənilməsini Aristotelin adı ilə bağlamışlar. XI-XIV əsrlərdə Azərbaycanda aristotelçilik daha geniş yayılmışdı. *Bəhmənyar, Nizami, Nəcməddin Naxçıvani, Nəsirəddin Tusi, Siracəddin Urməvi, Mahmud Şəbüstəri* və b. görkəmli filosoflar *aristotelçiliyi* təbliğ etməklə kifayətlənməmiş, onun təlimini inkişaf etdirmiş, hətta bir çox məsələdə ona tənqidi yanaşmışlar. *N.Naxçıvani və N.Tusi* məşhur Aristotelçi ibn Sinanın əsərlərinə şərhlər yazmış, onu dini təhriflərdən müdafiə etmişlər. *M.Şəbüstəri* "Miratül-müəqqiqin" və "Gülşəni-raz" əsərlərini Aristotel ideyalarının tə'siri ilə yazmışdır. Aristotelin *"Poetika"* əsəri Azərbaycan dilinə tərcümə olunmuşdur (Bax: ASE, I cild, səh. 389-390).

*******
**s.92**

*İsgəndər* (E.ə.-356-323) – Qədim dünyanın ən görkəmli sərkərdəsi və dövlət xadimi. Makedoniya padşahı (336-cı ildən). Aristotelin (Ərəstunun) şagirdi. O, taxta çıxdıqdan sonra Yunanıstan, Frakiya və İlliriyada Makedoniya əleyhinə baş vermiş üsyanları yatırmış və Makedoniyada hakimiyyət uğrunda mübarizəyə son qoymuşdu. İsgəndər e.ə. 334-cü ildə *Kiçik Asiyaya* – Əhəmənilərin hakimiyyəti altında olan əraziyə hücum etdi və qələbə qazandı. Bir ildən sonra artıq bütün Kiçik Asiya ona tabe edildi. Daha bir il sonra İcc yaxınlığındakı növbəti döyüşdə III Daranın ordusunu məğlubiyyətə uğratdı. Bu qələbədən sonra Aralıq dənizi sahili şəhərləri İsgəndər hakimiyyətini tanıdılar. 332-331-ci ilin qışında *Misiri* döyüşsüz ələ keçirmiş, *İsgəndəriyyə şəhərinin əsasını qoymuşdu.* E.ə. 331-ci ilin yazında İsgəndərin işğalçılıq yürüşünün ikinci mərhələsi başlandı. *Qavqamela vuruşması* III Daranın böyük ordusunun (bu

2016

orduya *Atropatın* başçılığı altında alban, sakasen, kaspi və b. qədim *Azərbaycan tayfalarının* döyüşçü dəstələri də daxil idi) məğlubiyyəti ilə qurtardı. III Dara Midiyaya qaçdı, İsgəndər hərəkət edib Babil, Suz və s. şəhərləri tutdu. *Əhəmənilər dövlətinin paytaxtı Persepol* müqavimətsiz təslim oldu. Baktriya canişini *Bess* III Daranı öldürüb özünü Əhəməni padşahı e'lan etdi, lakin tezliklə İsgəndər Bessi tutaraq onu e'dam etdi. O, *Orta Asiyaya* (e.ə. 329) və *Hindistana* (e.ə. 327) hərbi yürüşlər təşkil etmiş və qələbələr qazanmışdı. E.ə. 326-cı ildə İsgəndərin 10 ilə yaxın olan *Şərq yürüşü* başa çatdı, çox böyük bir dövlət yaratdı. Lakin onun yaratdığı yeni dövlət *Əhəmənilər* dövlətinə nisbətən mütərəqqi idi. İsgəndərin ölümündən sonra onun yaratdığı dövlətin ərazisində bir sıra *ellin dövlətlər* yarandı.

**** *Vəkalət* – Azərbaycan feodal dövlətlərinin idarə olunma-
**s.92** sında *vəkilin* daşıdığı vəkalət vəzifəsinin xüsusi rolu olmuşdur. Vəkil şah adından çıxış edir, bə'zi hallarda şahın əvəzcisi kimi səfərlərə çıxırdı. Qaraqoyunlular 1411-ci ildə *Ərzincana* hücum edən vaxt *Qara Yusif* bu hərbi yürüşün çox uzandığını görərək, oranı ələ keçirməyi vəkilinin öhdəsinə qoymuş və özü geri qayıtmışdı. Ağqoyunlu dövlətinə 12 il vəkillik etmiş (Sultan Yaqub dövrü: 1478-1490) *Şeyx Nəciməddin Mə'sud* XVI əsrin əvvəllərində yenicə yaranan Səfəvilər dövlətinin də vəkili olmuşdur.

"Əhsənüt-təvarix"ə görə ağqoyunlularda *vəkalət mənsəbi* hətta bə'zən *əmirül-üməradan* da üstün olmuşdur. Tarixi faktdır ki, Yaqub Ağqoyunlunun öldürülməsindən sonra hakimiyyəti *Əmir Sufi Xəlilin* köməyi ilə şahzadə *Baysunqur Mirzə* ələ almış və dövlətin əmirül-ümərası vəzifəsinə *Fərrux bəy* tə'yin edilmişdi. Azyaşlı şahın adından dövləti vəkil kimi idarə etməyi əmirül-ümərа olmaqdan üstün tutan Sufi Xəlil o zaman *məhz vəkaləti* öz əlinə keçirmişdi.

Əbubəkr Tihraninin "Kitabi-Diyarbəkriyyə"sində vəkilin bə'zən *divan işlərinə* başçılıq etməsi də göstərilir (Bax: Şahin Fazil Fərzəlibəyli. XV əsr Azərbaycan dövlətlərinin quruluşu, s. 34-36).

2017

***** *Həqiqət* – Bu istilahın fəlsəfədə, irfanda və əhli-zövgün
s.92 yanında müxtəlif mə’naları vardır. *Həcvəriyə* görə həqiqətə düzəliş etmək mümkün deyildir.

Həqiqətin son mərtəbəsi *fənabillahdır,* ondan sonra isə *bəqabillah* gəlir.

Aşağıdakı həqiqətlər vardır: *İnsan həqiqəti* (həqiqəte-ensan) – bu həqiqət həqiqi insanda və kamil insanda olur; *Mükəmməl həqiqət* (həqiqəte-cameə)-kamil insanda olur; *İlk həqiqət* (həqiqəte-əvvəl)- əqlə işarədir; *Həqiqətlər həqiqəti* (həqiqətül-həqayeq)- Allah-təalanın zatıdır (Bax: D-r Seyid Cəfər Səccadi, Göst.əsər, s. 323-324).

* *Tiyul – Bu* şərti torpaq mülkiyyəti növünün məhz hansı
s.95 əsrdə bərqərar olması barədə müxtəlif fikirlər vardır. *İ.P.Petruşevskiyə* istinad edən *O.Ə.Əfəndiyev* tiyulun XVI əsrdə *soyurqalı* (şərti feodal mülkiyyətinin əsas növlərindən biridir ki, bu institut barədə aşağıda mə’lumat veriləcəkdir – *Ş.F.*) əvəz etdiyini bildirmişdir. Lakin, V.F.Minorski teymurilər dövründə tiyul istilahının işlədilməsi ilə əlaqədar olaraq *iqta mülkiyyətinin* (bu torpaq mülkiyyəti barədə də mə’lumat veriləcəkdir-*Ş.F.*) aradan çıxdığını söyləmişdir. Tiyul barədə ingilis alimi K.S.Ləmbtonun da *bir-birinə zidd iki fikri* vardır. O, gah tiyulun Səfəvilər hakimiyyəti zamanı iqtani əvəz etdiyini, gah da elxanilər dövründə iqtanın tiyul ilə əvəz olunmağa başladığını qeyd etmişdir. Amma, məlum olduğu kimi iqtanı əvəz edən torpaq institutu tiyul yox, soyurqal olmuşdur.

Tiyul müəyyən bir yerin müvəqqəti istifadədən ötrü şahın dövlət torpaqları hesabına xüsusi şəxslərə verdiyi sahəyə deyilirdi. Tiyul sahibi *(tiyuldar)* həmin torpaqdan alınan gəlirin hamısını, yaxud böyük bir hissəsini mənimsəyir, dövlətə hər il müəyyən məbləğ pul ödəyirdi *(rüsum).* Tiyul soyurqaldan fərqli olaraq, əmir, şahzadə və başqa şəxslərə irsən verilə bilməzdi, çünki bu torpaq mülkiyyəti növü məhz tiyula layiq görülən hökümət məmurunun etdiyi xüsusi xidmət müqabilində *maaş* kimi verilirdi.

Xidməti böyük olan şəxsin tiyulu da böyük olurdu. 1406-cı ildə Qara Yusif Bəstam Cagirə əmirül-ümərа vəzifəsini verdiyi vaxt Sultaniyyə, Ərdəbil və Muğan da *tiyul kimi* həmin əmirə xas idi. Dövlət başçısı müharibəyə yollanın vaxt *tiyuldarlar* da onunla həmrah olmalı, öz qoşunları ilə köməklik göstərməliydilər.

* s.96 *Münqəlay* (yaxud mənqəlay). Bu hərbi dəstəyə *pişdar* (ordunun ön hissəsi) deyilirdi. Münqəlayın da *cəvanğarı* (yaxud meysərə, sol qol) və *bərənğarı* (meymənə, yaxud sağ ol) olurdu. Münqəlayda *minlərlə döyüşçü* vuruşurdu, çünki münqəlay hücumunun döyüşün sonrakı gedişi üçün böyük əhəmiyyəti vardı (Bax: Şahin Fazil Fərzəlibəyli. XV əsr Azərbaycan dövətlərinin quruluşu, s. 59).

*s.97 *Sam* – “Sahnamə” əsərinin qəhrəmanlarındandır.

**s.97 *Teyp* – hərbi briqadadır.

*s.104 *Damğan* – Əfqanıstan şəhərlərindəndir.

**s.104 *Səbzvar* – Əfqanıstandadır.

*s.107 Almançi (ələmanci)-qarətgər (Bax: M.Moin. Göst. lüğət, I cild, səh. 335).

** s.107 *Xurcinlu* – güman ki, bugünkü ifadə ilə “xurcunlu” deməkdir, yəni süvari əsgərlərin yüklərini daşıyan adamlar.

*** s.107 *Tasuva günü* – məhərrəm ayının 9-cu günü – imam Hüseynlə Yezid ibn Müaviyə arasındakı *Kərbəla döyüşü* (Bax: Həsən Ənvəri. Fərhənge-bozarge-soxən, III s., Tehran, 1381, s.1578).

* s.108 *Kəvkərə, nəfir, kərrənay* – nəfəsli alətlər (zurna və qısa-uzun şeypurlar).

** s.108 *Surən* – şeypur.

* s.109 *İranlılar və turanlılar* – Amu-dərya çayının (Ceyhun) qarşı tərəfi *“Turan”* adlanırdı. Xarəzmdən başlayaraq Aral gölünədək (şərqdə) uzanırdı. *“İranlılar və turanlılar”* arasındakı cənglər milli İran dastanlarının mühüm hissələrindəndir. Turan padşahı Əfrasiyab pişdadi və kəyanilərlə daim vuruşmada idi. Həmin cənglər *“Avesta”da* da xatırlanmışdır. *Yunanlı Bətləmyus* Xarəzm nahiyəsini *“Tur”* adlandırmışdır.

*Xarəzmi* (adlı tarixçi) "Məfatihül-ülum" əsərində yazır: "Turanın sərhədini iranlılar adətən Ceyhun (çayı) hüdudundakı məmləkətlər kimi göstərirlər". *"Şahnamə"də* isə Turan *"Türklərin və çinlilərin məmləkətləri"* kimi qələmə verilir, deyilir ki, həmin məmləkətləri Ceyhun (çayı) İrandan ayırır. Orta əsrlərin fars və ərəb kitablarında Turan *"Mavərənnəhr ölkəsi"* adlandırılır. Şərqşünasların fikrincə turanlılar hazırkı Rusiyanın çöllərində mövcud olan və Rusiya müstəmləkəsinə çevrilən *Asiya torpaqlarıdır,* yaxud onlar yazırlar ki, turanlılar *Qafqaz dənizindən* (?) Ceyhun (Sır-Dərya) çayınadək uzanan yerlərdəki çadırlarda yaşayan pərakəndə tayfalar olmuşlar. "Avesta" və pəhləvi dini kitabları və dastanlarından, həmçinin qədim tarixçilərin əsərlərindən məlum olur ki, iranlılar və turanlılar *bir nəsildən* (nejad) törəmişlər. Fərqi bundadır ki, iranlılar daha tez *şəhərneşin və mədəni* oldular, turanlılar isə əvvəldə olduğu kimi *biyabanlarda gün keçirən və çadırlarda yaşayan tayfalar* kimi qaldılar. Bu haqda yazılan son kitablarda türk, xəzər, Çin, Maçin, Tibet Şərq xalqları Tur torpağı və rum, rus, alan məğrib istisna olunmaqla Sərm, yaxud Səlm adlanmışdır (Bax: Dr. M.Moin. Göst. Lüğət, I cild, səh. 399).

*** s.111** *Cuci xan nejadlı* – Çingiz xanın oğlu *Cuci xanın* nəslindən olanlar – *Ş.F.*

*** s.112** *Sürəyya ulduzları* (Bənatən-nə's) – astronomik pleyadalar. Onlara "*Yeddi qardaş*", yaxud "*Ülkər*" də deyirlər (Bax: Nəyyerzaman Səqəfi. Göst.əsəri. lüğət, c. I, s. 547).

*** s.113** Qələbə xəbərini qonşu dövlətlərə bildirməkdən ötrü "*fəthnamə*" ("fəth məktubu") yollanırdı (Bax: Şahin Fazil Fərzəlibəyli. XV əsr Azərbaycan dövlətlərinin quruluşu, səh. 59).

***s.114** *Fərah* – Müasir Əfqanıstanda vilayətdir.

*** s.115** *Rəfz* (rafezi) – Ərəbcə "tərk etmək, qovmaq, rədd etmək" mə'nasında işlənən bu ifadə səfəvilər dövründə qeyri-sünnilərə, əsasən şiələrə ünvanlanmışdır. Osmanlılar şiələrin əməllərini "rəfz", özlərini isə "rafezi" adlandırmışlar; *Zeyd ibn Əli ibn Hüseynin* ardınca gedənlər (Bax: Dr. M.Moin, Göst. lüğət, II cild. səh. 1625, 1664).

***s.116** *Atalıq* – Özbəklərdə ağsaqqal kimi işlənən ifadə – *Ş.F.*

***** *Əğrəq* – Qoşunun ardınca gedən və müxtəlif ləvazimat
**s.117** daşıyan hissə, yaxud ailə üzvləri – *Ş.F.*

***** *Canəqi* (canqi, çanqi, cənqi) – məsləhətləşmək, bir yerə
**s.122** toplaşmaq (kəngaş) – Bax: Əbdülhüseyn Nəvai, "Əhsənüt-təvarix"in Şərhlər hissəsi, səh.833.

***** *Hümayun padşah* – Nəsirəddin Məhəmməd Hümayun
**s.124** "Böyük Moğollar imperiyası"nın təsisçisi və hökmdarı olmuş *Zəhirəddin Məhəmməd Baburun* oğludur. Atasının vəfatından *dörd gün sonra* (vəsiyyətə əsasən) Hindistanın palşahı kimi taxta əyləşən Hümayunun o zaman 14 yaşı vardı. "Tarixi – aləmarayi-Abbasi"də adı çəkilən *Kamran Mirzədən* başqa onun daha iki qardaşı da vardı (*Əskəri Mirzə və Hindal Mirzə*).

Məhəmməd Hümayun *Benqal hakimi Şirxan Suri Əfqani* ilə ixtilafa başladı. Aralarındakı *Qənuç döyüşündən* sonra (26 yanvar, 1539) öz hakimiyyətindən məhrum olan Hümayun əvvəlcə *Agraya,* sonra *Dehliyə, Lahura, Sində, Umrikata* getdi, daha sonrasa gələrək *Səfəvilərə* sığındı. Hümayunu olduqca isti qarşılayan Şah Təhmasib *sünni məzhəbinin hənəfi qoluna mənsub* olan bu fərari moğol hökmdarını şiə olmağa dəvət edərək buna nail olur, çünki bu səfəvi hökmdarı Hindistanda ideoloji dəyişiklik yaratmaq və orada şiəçilik bayrağı qaldırmaq niyyətindəydi. Bundan başqa, Məhəmməd Hümayunu yenidən Hindistanda imperator görmək istəyən Şah Təhmasib onunla belə bir şərtnamə hazırlayır:

1.Hümayun şah şiə məzhəbini qəbul edir;

2. Hindistan taxt-tacına yiyələndikdən sonra xütbəsini şiə imamlarının adına oxutdurur.

3. Qəndəharı alıb Şah Təhmasibə təhvil verir.

Səfəvi qoşununun köməyi ilə bu şərtləri yerinə yetirən Hümayun 1555-ci ildən e'tibarən yenidən *Dehlidə* hakimiyyət taxtına əyləşir və altı ay hökmdar olur. 1556-cı ilin yanvar ayının 20-də öz kitabxanasının damından yıxılıb 4 gündən sonra vəfat edir.

Hümayun şah alim, ədib və incəsənətə olduqca meyilli bir bir padşah olmuşdur. Səxavətli və mürrüvətli adamdı. Hənəfi fiqh elimini gözəl bilirdi. Namazını ötürməzdi. Hər cümə günü oruc tuturdu. Musiqi, şer, inşa və imla elmlərində onun tayı-bərabəri yox idi (Bax: D-r Mənuçöhr Parsadust. Göst. əsər, səh. 463-483).

*** s.125** *Xaf* – bu şəhərin adı Xəvaf kimi də çəkilir. Məşhur fars tarixçisi (XIV-XV əsrin I yarısı) *Fəsih Xəvafi* bu şəhərdəndir.

*** s.130** *Dəlv bürcü* – Dolça bürcüdür (21 yanvar-18 fevral). Bax: Nəyyerzaman Səqəfi. Göst. lüğət, c. 1, s.761.

*** s.131** *Hirmənd çayı* – Hal-hazırda bu çay Hermənd adlanır və Əfqanıstanın eyni adlı vilayətindən axır.

*** s.133** *İbrahim paşa* – (Sultan Süleymanın baş vəziri) – XVI əsrin ikinci rübündə yaşamış və fəaliyyət göstərmişdir. Fars və osmanlı kitablarında bu məşhur paşa haqqında mə'lumat az deyildir. İbrahim paşa haqqında M.Z.Pakalın yazır: "Qanuni Sultan Süleymanın Sultan Əhməddə mövcud olan (İstanbul) sarayı *"İbrahim paşa sarayı"* adlanırdı. Sonralar *"At meydan"ı* adlanan bu saray Sultan Süleyman tərəfindən paşanın onun bacısı (Xədicə Sultan) ilə evlənməsi münasibətilə ona verilmişdi. Bu saray son vaxtlarda *həbsxana* olmuşdu. Saray İbrahim paşanın öldürülməsindən sonra, Ədirnə və Qalatasarayda olduğu kimi, *məktəb* olmuşdu (Bax: M.Z.Pakalın. Göst. lüğət, I cild, səh.13).

Son vaxtlarda Türkiyədə çəkilən çoxseriyalı "*Möhtəşəm yüzil*" filmində İbrahim paşanın fəaliyyəti geniş işıqlandırılmışdır – *Ş.F.*

***s.134** *Yasaq* – əskər çağırışı.

*** s.135** *Əqrəb* – Hicri-şəmsi ilinin 24 oktyabr-22 noyabradək olan ayıdır.

*** s.138** *Sancaqbəyi* – Prof. İsmayıl Haqqı Uzunçarşılı yazır: "Digər türk dövlətlərində olduğu kimi dövlət sultan ailəsinin müştərək malı idi. Osman bəy öz idarəsi altındakı yerləri qardaşı, oğul və silah arkadaşı olan *aşirət bəylərinə* vermişdi. Məsələn, böyük qardaşı Gündüz bəyə Qarahisarı və Sultan Önünü (Eskişehir), Aykut, Alpa-İnönünün, Həsən Alpa-Yar-

hisarı, Turqut Alpa İnegöl məntəqələrini vermişdi… İldırım Bayazid vaxtı oğullarından Ərtoğrul, Süleyman, İsa və Mehmet Çələbilərdən hər birinə Anadolu bəyliyindən zəbt edilən yerlərdə sancaqbəyliyi vəzifəsi verilmişdi…*Yavuz Sultan Səlim atasının əlindən səltənəti aldığı zaman* onun Süleymandan başqa oğlu yox idi. Süleyman öz sanqcağı olan *Manisada valilik* etmişdir. Qanuni Sultan Süleymanın oğlanlarından Mehmet Qaraman, sonra Kutahyada, Sarı Səlim isə əvvəl Manisada, sonra isə kutahyada sancaqbəyi olmuşdur… Sancaq bəylərinə *"üməra"* deyilirdi. Onlar sancaqlarındakı mübahisələri dinləyər, sonra *"icraye-əhkame-şəriət"* edərdilər (Bax: M.Z.Pakalın. Göst. əsər, III cild, səh. 116-120).

***s.140** *Kəffə* – Feodosiya (Krım).

*** s.144** *Ağrəq* (ağruq, əqrəq, əqrəğ, uğruq) Bu istilah haqqında yeni məlumat: yük, var-yox, ağır ləvazimatın və arvad-uşağın saxlandığı xeymə (Bax: Əbdülhüseyn Nəvai. "Əhsənüttəvarix"in "Şərhlər" hissəsi, s. 820).

*** s.145** *Axtərmə* – "Axtarmaq" fe'lindən düzələn isimdir: axtarıb-tapılan şeylər, ələ keçən vəsait və ləvazimat mə'nasını verir.

**** s.145** *Qapıqulu* – Yeniçəri ocağını təşkil edən adamlara ümumilikdə verilən addır. Qapıqulu deyilən dövlət əsgərlərinin *piyadəsi* yeniçəri olduğu kimi *süvarisi də* qoşun və silahlar ilə dörd bölükdən ibarət olmuşdur. Qapıqullarının 7 qismə bölündükləri haqqında mə'lumat vardır: *Yeniçəri, əcəmi oğlanlar, topçu, cəbəçi, top arabaçısı, qumbaraçı, saka* (Cövdət paşa).

II Sultan Mahmud dövründə (1825-ci il) qapıqulu dəstələri *ləğv olundu* (M.Z.Pakalın. Göst. əsər, III cild, səh. 175).

***s.147** *Mortəzəvi* – İmam Əli tərəfdarı, seyid.

**** s.148** *Qəhqəhə qalası* – XVI-XVII əsrlərin məşhur tarixçiləri *Xandəmir, Həsən bəy Rumlu, Qazi Əhməd Qumi, İsgəndər bəy Münşi* və başqaları Qəhqəhə qalası və orada saxlananlar haqqında mə'lumat vermiş, həmin qalanı orta əsirlərin ən möhkəm qalası kimi təsvir etmişlər.

Mə'lumdur ki, ikinci səfəvi hökmdarı *Şah Təhmasibin qardaşları Əlqas Mirzə və Sam Mirzə* şah və dövlət qarşısındakı "xəyanət və e'tibarsızlıqlarına görə" öz şah qardaşları-

nın hökmü ilə Qəhqəhə qalasına salınmış və elə orada da ölmüş, yaxud öldürülmüşlər.

Qəhqəhə qalası – dövlət xəzinələrinin saxlandığı məkan, şahların sığındıqları istinadgah, əsir alınan məşhur hərbçilərin məhbəsi olan ən e’tibarlı yer, məhbusları ağladan qala olmuşdur.

Öz atası Şah Təhmasib tərəfindən 20 ilə yaxın bir müddətdə *İsmayıl Mirzə də* (sonrakı II Şah İsmayıl – *Ş.F.*) Qəhqəhə məhbusuna çevrilmişdi.

Tarixçi *Şərəf xan Biddisinin* mə’lumatına görə hicri 959 (1571/72)-cu ildə Qəhqəhə qalasından qızıl və gümüş külçələr yoxa çıxmışdı. Qala rəisi *Həbib bəy Ustaclı* külçələrin yox olmasında şahzadəni (İsmayıl Mirzəni – *Ş.F.*) günahlandırdı. Mirzə isə bu işdə *Həbib bəyin qızının* təqsirkar olduğunu söyləyirdi. İşi yerindəcə təhqiq etmək üçün şah bir dəstə qızılbaş əmirini qalaya göndərdi. *Hüseynqulu Xəlifə Rumlu* və Qum hakimi *Vəli Xəlifə Şamlı* şahzadənin tərəfini saxladıdar. Buna baxmayaraq, ustaclı tayfasının nümayəndəsi *Piri Məhəmməd xan* və *Qaradağ hakimi Xəlifə Ənsar* qalabəyi Həbib bəyin tərəfində durub, onun ittihamını müdafiə etdilər. Onlar Qəzvinə qayıtdıqdan sonra şahın qarşısında bir-birinin üzərinə hücuma keçdilər. Şərəf xan yazır: “Elə həmin gündən qızılbaş tayfaları arasında düşmənçilik başlandı”. Deməli, Qəhqəhə həm də münasibətlərin kəskinləşdiyi bir məkan olmuşdur.

*Karkiya sülaləsinin* (Gilan) son hökmdar nümayəndəsi *Xan Əhməd xan* da Qəhqəhənin məşhur məhbuslarından biri idi.

Şah Məhəmməd Xudabəndənin hakimiyyəti dövründə (1578-1587) şah tərəfindən cəzaya mə’ruz qalan məşhur *Azərbaycan əmirülümərası Əmir xan* da məhz Qəhqəhə qalasında həbsə məhkum edilmişdi.

Növbəti səfəvi-osmanlı döyüşləri zamanı şahzadə *Həmzə Mirzə* tərəfindən (Şah Məhəmməd Xodabəndənin oğlu – *Ş.F.*) *Təbriz döyüşündə* əsir tutlan *osmanlı generalı Murad paşa* da bir neçə mö’təbər sərkərdə ilə birlikdə Qəhqəhəyə aparılmışdı.

Şah Abbasın taxta cülusunun 21-ci ilində, osmanlılarla döyüşdə əsir götürülən türk *generalı Əhməd paşa* da Qəhqəhəyə salınmış və o, bir neçə vaxtdan sonra elə Qəhqəhədə də öz dünyasını dəyişmişdi.

1611-ci ildə Qəhqəhə qalasında baş vermiş böyük bir üsyan (kürdlərin və osmanlıların üsyanı – *Ş.F.*) barədə mə'lumat verən İsgəndər bəy Münşi Qəhqəhə yazır:

"Möhkəm bünövrəsi olan və başı göyə dəyən Qəhqəhə qalası *Qarabağa tabe olan Baft ülkasındadır.* Asimana ucalan bir dağın təpəsində yerləşən və bütün sal daşlardan inşa olunan bu qalanın sakinləri fələklər fələyində (fələkül-əflak, yəni emprey – *Ş.F.*) sakin olanlarla dəmsaz, onun gözətçiləri isə gecələr həmişə oyaq olan tərpənməz ulduzlarla həmrazdırlar. O dağın ətəyindəki qala qapısından qalanın təpəsinədək gedən və yarım fərsəx (bir fərsəx 6 km-ə bərabərdir – *Ş.F.*) uzunluğunda olan yol olduqca dardır və oradan bir süvarinin belə keçib-getməsi olduqca çətindir. *O yolda dayanan hər hansı bir tüfəngçi böyük bir qoşunun önünü saxlaya bilər"* (Bax: Şahin Fərzəlibəyli. Məhbusları ağladan Qəhqəhə qalası haqqında bə'zi qeydlər, Azərbaycan tarixi muzeyi – 2004" məqalələr toplusu, Bakı, 2004, s. 184-191).

***s.152** *Mahmudi* – kürd tayfalarının biri olmuşdur.

***** *Əmir-divan* (sahib-divan, divanbəyi) – Uzun Həsən Ağqo-
**s.153** yunlunun hakimiyyəti zamanı dövlətin idari təşkilatının mərkəzi böyük divan idi. Divan rəisi *əmir-divan*, *sahib-divan*, yaxud *divanbəyi* adlanırdı. Böyük divanın nəzdində *kiçik divanlar* da fəaliyyət göstərirdilər, məsələn *təftiş divanı*, *tuqra və ya nişan* (şah sənədlərinin qeydiyyatdan keçirilib möhürlənməsi) *divanı, maliyyə divanı, ədl və ərz* (məhkəmə və hərbi işlər) *divanı* (bu divana "ərzi" də deyilirdi). Divan üzvləri adətən səltənət xanədanına mənsub və ya bəy rəisləri olan *böyük bəylərdən* olurdu. Bu divanların ümumi nəzarəti *əmir-divan* tərəfindən həyata keçirilirdi.

Prof. O.Ə.Əfəndiyev Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin mülki təşkilatına nəzər yetirib, həmin dövlətlərdə fəaliyyət göstərən divanlar içərisində *5 divanın* adını çəkir:

*divane-əmarət, divane-vəzarət, divane-təvaçi, divane-pərvanəçi, divane-ləşkər* (Bax: "Yeni Türkiyə" elmi araşdırmalar jurnalı, 8-ci il, 45-ci say, Ankara, 2002, səh. 73). Təbii ki, bu divanların hamısının ümumi nəzarəti divanbəyi tərəfindən icra edilirdi.

Teymurilər dövlətində *vəzirlər divanbəyiyə tabe idilər.* Əmir Teymur yazır: "Bu yeddi vəzir divanbəyiyə tabe olmalı və onunla birlikdə mühüm maliyyə işlərini həll edərək mənə mə'lumat verməli idilər" (Bax: Əmir Teymurun vəsiyyətləri, Bakı, 1991, s. 82). Əgər divanbəinin icazəsi olmasaydı əmirül-ümərа və əmirlər xəzinədən öz maaşlarını ala bilməzdilər. Dövlət tərəfindən ödənilən maaşların hesabatını, divanbəyi hökmdara təqdim edirdi (Bax: Əmir Teymurun vəsiyyətləri, s. 65).

Mənbələrdə əmir-divanın daşıdığı vəzifənin məzmunu barədə hələlik müəyyən bir mə'lumatın olmadığını bildirən V.F.Minorski onun *xüsusi divanı* olduğunu bildirmişdir. Doğrudan da heç bir mənbədə, əmir-divan vəzifəsinin müstəqim funksiyası göstərilməmişdir, lakin bu vəzifə daşıyıcısının digər əmirlərdən yüksəkdə duraraq böyük ixtiyara malik olması mə'lumdur.

Bəzi hallarda əmir-divan vəzifəsi irsi xarakter daşımışdır. Məsələn, Qaraqoyunlu dövlətinin əmir-divanı olan *Əmir Bayandurun* vəfatından sonra bu vəzifə onun *qardaşı Əbülfət bəyə* verilmişdi.

"Təzkirətül-müluk" əsərinə geniş şərhlər yazan V.F.Minorski XVIII əsrdə divanbəyinin *"ədalət rəisi"* ("rəise-ədalət") olduğunu bildirərək onun 4 vəzifəsi olduğunu göstərir: 1. Cərimələrin müəyyənləşdirilib yığılması; 2. Bütün şəri məhkəmələrin nəzarət altında saxlanması; 3. Həftədə iki gün öz evində əhalinin məhkəmə işlərinin öyrənilməsi və həlli; 4. Bütün ölkə ərazisindəki şikayətlərə baxılması (Bax: Təzkirətül-müluk, doktor Seyid Məhəmməd Dəbirsəyaqi nəşri, Tehran 1378, s. 92-93).

Bə'zi dövrlərdə bir dövlətin bir yox, *iki əmir-divanı* olur və bu vəzifə *şərikli icra* edilirdi (Ətraflı məlumat üçün bax:

*Ş.F.*Fərzəlibəyli. XV əsr Azərbaycan dövlətlərinin quruluşu, s. 33-34).

* s.156 *Mənuçöhr* – İsgəndər bəy Münşinin Mənuçöhr adlandırdığı bu şirvanşah *III Mənuçöhrdür* (Mənuçöhr ibn Əfridun). Azərbaycan Sovet Ensiklopediyasında oxuyuruq: "I Əfridunun oğlu olan III Mənuçöhr gürcü çarı *IV Davidin qızı Tamarla* evlənsə də, bu şirvanşahın dövründə gürcü feodalları bir neçə dəfə Şirvana hücum etmişdilər. Yalnız IV Davidin ölümündən sonra Şirvan və Gürcüstan arasında sülh və dostluq əlaqələri gücləndi. III Mənuçöhr dağıdılmış şəhər və qalaları bərpa etdirmiş, yeni yaşayış məntəqələri saldırmış, *Kür çayı kənar*ında bənd çəkdirmiş, müxtəlif abadlıq işləri aparmışdı. Özündən sonra hakimiyyətə Tamardan olan oğlu *I Axsitan* keçdi. *Əbül-üla Gəncəvi, Fələki Şirvani, Xaqani* III Mənuçöhrə bir neçə qəsidə həsr etmişlər" (Bax: Azərbaycan Sovet Ensiklopediyası, IV cild, səh. 513; həmçinin bax: Sara xanım Aşurbəyli. Şirvanşahlar dövləti, Bakı, 2006, səh. 120-127).

** s.156 *Xaqani* – Əfzələddin İbrahim ibn Əli Nəccar Şirvani (1126-1119). Nizami Gəncəvinin yaşca böyük müasiri olan Xaqani Şirvani Azərbaycan ədəbiyyatının ən görkəmli simalarındandır. *Anası sonralar islmaı qəbul etmiş nəsturi (xristian) qızı idi.* 8 yaşından atasını itirən Xaqani dövrünün məşhur alimi və həkimi olan əmisi *Kafiəddin Ömər ibn Osmanın* himayə və tərbiyəsində böyümüş, ondan elmin bir çox sahələrinə aid bilik almışdır. Xaqani *şair Sənaninin* "Hədiqətül-həqiqət" adlı əsərinin tə'siri ilə "Həqayiqi" təxəllüslü şe'rlər yazmış, 25 yaşında ikən şirvanşahların məliküşşüarası *Əbül-lüla Gəncəvinin* də'vəti ilə saraya gəlmiş, onun qızı ilə evlənmiş, Əbül-ülanın ona verdiyi *"Xaqani"* təxəllüsü ilə şe'rlər yazmışdır.

Xaqani Şirvani klassik Şərq poeziyasının bütün janrlarında yüksək sənətkarlıq nümunələri yaratmışdır. Lakin tezliklə riyakar saray mühitindən uzaqlaşan şair 1156-cı ildə Məkkəyə ziyarət bəhanəsi ilə Şirvanı tərk edir. Qayıdandan sonra yenidən saraydan tamamilə üzülüşmək qərarına gələn

şairin yeni səfər xahişi rədd edilir və o, şirvanşah *I Axsitanın* (1160-1196) əmri ilə həbs olunub *Şabran qalasına* salınır (1170). 7 aylıq həbsdən çıxan şair Şirvanı tərk edərək *Təbrizə* köçür (1173), ömrünün axırınadək orada qalır.

Xaqani Şirvani "Məqbərətüş-şüəra" adlandırılan *Sürxab qəbirstanlığında* Təbrizdə dəfn olunmuşdur.

Yaxın və Orta Şərqin bir sıra böyük şairləri Xaqani Şirvanini özlərinin ustadı adlandırmış, əsərlərinə nəzirələr yazmışlar (Bax: ASE, X cild, səh. 20).

*** s.158** *Yə'cuc – Mə'cuc.* Rəvayətə görə, Yafəsin nəslindən olan (Nuh peyğəmbərin oğludur ki, rəvayətə görə Avropa sahillərində, Kiçik Asiyada və Aralıq dənizi adalarında yaşayan əhali Yafəs nəslindən törənmişlər) *iki tayfanın* adıdır. Bu tayfa adamları bəstəboy və döyüşkən olmuşlar. Ehtimala görə Çin səddi onların hücumunun qarşısını almaq üçün çəkilmişdir. Bə'zi tarixçilər bunların *monqol və tatarlar* olduqlarını iddia edirlər.

Yə'cuc və Mə'cuc adları *Tövrat və Qurani-Kərimdə* də çəkilir.

Yə'cucların sayı yeddi yüz min nəfərdən çox olmuşdur. Onlar Çini tutmuşdular və Çin hökmdarları yə'cucların dövründə onların hökmü ilə taxta çıxarılır, yaxud taxt-tacdan məhrum edilirdilər (Bax: D-r Məhəmməd Moin. Göst. lüğət, cild I, səh.2324-2327, ASE, cild V, səh. 146).

***s.160** *Qolhan* – Qubanın sabiq adlarından biri.

***s.161** *İstimalətnamə* – nəvaziş məktubu.

*** s.163** *Sığnaq – türk sözüdür* və "möhkəmləndirilmiş yer", "sığınma məkanı", "qala tipli müdafiə istehkamı" kimi mə'nalar daşıyır. Bu söz hətta *gürcü dilinə* də keçmişdir. XVIII əsrdə sabiq istehkam yerində salınan Siqnaxi (Kaxet) şəhərinin adı "sığnaq" sözündəndir (Bax: Г.Г.Берадзе и Л.П.Симирнова. Материалы по истории Ирано-грузинских взоимоотношений в начале XVII века, Тбилиси, 1988, с.83).

****s.163** *Badlic* – qaladağından silah.

* *Cizyə* – müsəlman olmayan əhali tərəfindən dövlət xəzinə-
s.165 sinə ödənilən pul. Cizyə mal şəklində də ödənilirdi (Bax: dr. M.Moin. Göst. lüğət, I cild, səh. 1227).

* *Cedi (Ceddi)* bürcü – Oğlaq bürcüdür və 20 dekabrdan-
s.167 20 yanvaradək davam edir (Bax: Nəyyerzaman Səqəfi, Göst lüğət, Ic., səh. 562).

* *Müşrik* – bu söz ərəbcə özünü Allaha şərik tutan adamlara
s.169 verilən *epitetdir.* Zənnimizcə, İsgəndər Münşi gürcüləri "müşrik" adlandırmaqla onların günahkar olmalarına işarə etmişdir.

**s.169 *Çərxi – Əxzər* – "Yaşıl göy qübbəsi" deməkdir.

*** *Qəleyi-Xeybər* – Mədinə şəhərinin yaxınlığında olmuş bir
s.169 qaladır ki, onun sakinləri *yəhudilər* olmuşlar. İslamın əvvəllərində (hicri-qəməri 7-ci ildə) *Əli ibn Əbi-Taleb* tərəfindən fəth olundu (Bax: D-r Moin. Göst. lüğət, c.V, s. 491).

**** *Nəsari* – xristian əhali.
s.169

***** Soffe-kilsə otağı
s.169

* *Mən* – batman. Təbriz batmanı 3 kiloya, şah batmanı isə 6
s.170 kiloya bərabər olmuşdur (Bax: Nəyyerzaman Səqəfi, Göst lüğət, IIc., s. 643).

**s.170 *Xəzaneye – amere*-dövlət xəzinəsi.

* *Xüms* – gəlirin beşdə bir hissəsi, xeyriyyə məqsədiylə
s.173 ödənilən vergi. Xüms ticarətdən başqa qənimətdən də ödənilirdi (Bax: Dr. M.Moin. Göst. lüğət, I cild, səh. 1440).

* *İncil (Yevangeliya)* – Göydən nazil olan 4 müqəddəs
s.174 kitabdan biri. Hərfi mə'nası şad xəbər, müjdə (bəşarət) deməkdir (Bax: Dr. M.Moin. Göst. lüğət, I cild, səh. 369; Nəyyerzaman Səqəfi. Göst. lüğət, I cild, səh. 233). ASE-də oxuyuruq: İncil *yunanca* müjdə, xeyir xəbər deməkdir. *Bibliyanın* xristianlığa aid hissəsi. İncildə əsasən İsa peyğəmbər və onun möcüzələrinə aid erkən xristianlıq əfsanələri toplanmışdır. İlk dövlərdə 30-a qədər İncil kitabı olmuşdur. Sonralar kilsənin müqəddəsləşdirdiyi və ancaq İsanın şagirdlərindən *Matfey, Mark, Luka və İonannın* yazdığı dörd kitab "Əhdi-

Cədid"ə salınmışdır. Həmin kitablar Allahın öz kəlamları yə'ni müqəddəs ruh vasitəsilə göndərilən vəhylərdir. Ehtimal ki, İncili təqribən I əsrin sonu-II əsrin əvvəllərində ayrı-ayrı müəlliflər yaratmışlar. İncilin harada tərtib olunması məsələsi mübahisəlidir. Matfey, Mark və Lukanın İncil kitablarında müəyən yaxınlıq olsa da, İoannın kitabı onlardan həm məzmunca, həm də üslubca xeyli fərqlənir. Bu kitabla Kumran tapıntılarının mətnləri arasında böyük oxşarlıq var. İncil kitablarında iztirab çəkmək, şərə müqavimət göstərməmək, səbirlilik və mütilik, axirət dünyasındakı xoşbəxtliyə qovuşmaq xətrinə hər cür işgəncə və çətinliyə dözümlülük və s. təbliğ olunur (ASE, IV cild, səh. 484).

*** s.180** *Sind* – hal-hazırda əhalisinin sayı beş milyon olan və Pakistanın qərbində yerləşən əyalətdir. Pakistanın sabiq mühüm paytaxt şəhəri olan *Kəraçi* Sind əyalətindədir və suyunu Sind çayından alır (Bax: D-r Məhəmməd Moin. Göst. lüğət, V cild, s. 808).

*** s.181** *Cəlaləddin Məhəmməd Əkbər şah* – Atası Məhəmməd Hümayunun vəfatından sonra, yuxarıda adı çəkiln *Bayram xan Qaramanlının (Baharlı)* köməyi sayəsində 14 yaşlı Əkbər Böyük Moğollar İmperiyasının növbəti padşahı oldu (1542-1605). Əkbərin şahlığa çatmasından iki il sonra Şah Təhmasib Səfəvi Qəndəharı onun əlindən aldı.

Bir neçə il ötdükdən sonra xeyli qüvvətlənən Əkbər şah öz dövlətini yüksək inkişaf səviyyəsinə çatdıraraq *Kəşmir, Qucarat, Benqaliya* və *Hindistan* ərazisindəki digər dövlətləri özünə tabe etdi. Hindistanda moğolların hakimiyyətini möhkəmləndirmək üçün Hind cəmiyyətinin yuxarı təbəqəsi ilə yaxınlaşmağa sə'y göstərən Əkbər şah *əvvəlki müsəlman hakimlərindən fərqli olaraq* hinduistləri də mühüm dövlət vəzifələrinə irəli çəkirdi. O, "dine-İlahi" deyilən yeni din (əsasən islam, hinduizm, parsizm və caynizm dini etiqad ənənələrinin eklektik qatışığından ibarət idi) tətbiq etmişdir (Bax: ASE, X cild, səh. 239; IV cild, səh. 154).

Dr. Mənuçöhr Parsadust yazır: "Əkbər şah özünün yeni məzhəbini e'lan etdikdən sonra müsəlmanlarla pis davran-

mağa başlamışdı. (Bax: Dr. Mənuçöhr Parsadusi. Göst. əsər, səh. 736-737).

* **s.182** *Ğorcistan* (Ğorçestan, Ğorşestan, Ğorçe) – qədim Xorasanda (indiki Əfqanıstanda) dağlıq bir vilayət olmuşdur. Şərqdən Ğur, qərbdən Herat, şimaldan Mərvəlruz, cənubdan Qəznə ilə sərhədlənirdi. Hərirud çayının böyük bir qolu Ğorcistandan keçir. Ğorçistanlılar öz şahlarına "şar" demişlər (Bax: D-r Moin. Göst. lüğət, c. VI, s. 1245).

* **s.184** *Əndxod və Şibirğan* – müasir Əfqanıstanda şəhərlərdir. (Əndxodun adı hal-hazırda Əndxoydur). Bu sətirlərin müəllifi 1963-1966-cı illərdə Sibirğan vilayətində mütərcim vəzifəsində işləmişdir.

* **s.185** *Sultan Quri – əl-Əşrəf Qansuh-əl Quri* (1501-1517) *burcilər nəslindən olan məmluk sultandır* (Bax: K.G.Bosvort. Göst. əsər, s. 100).

* **s.186** *Sərətan bürcü* – Xərçəng bürcüdür (22 iyun- 22 iyul). Bax: Nəyyerzaman Səfəqi. Göst. lüğət, I c., s. 915.

* **s.188** *Vəlayət* – bu söz "vilayət" sözü ilə qarışdırılmamalıdır. Vəlayət, yəni *böyüklük, hökümət sürmək* və s. (Bax: D-r Moin. Göst. lüğət, cild IV, s. 5054). D-r Seyid Cəfər Səccadiyə görə vəlayət *iki qismdir:*

1) bütün mö'minlər arasında müştərək böyüklük hüququ qazanmış *"ümumi vəlayət";* 2) Haqqa qovuşan və diri qalan *"xüsusi vəlayət"* (Bax: S.C.Səccadi. Göst.lüğət, s. 791).

** **s.188** *Kəramət* – Ənbiyalar və övliyalar tərəfindən sadir olan *xariqül'adə işlər*. Bə'zi şəxslər güman edirlər ki, kəramətin bəşər övladı tərəfindən sadir olması olduqca çətin və mümkünsüzdür. Rö'ya və qeybi işlər haqda *Əbu Əli Sina, İmam Fəxre-Razi, Əbülbərəkat Bağdadi, Şəhabəddin Sührəverdi* (o, Şeyx Əsraq və Şeyx Məqtul adları ilə də məşhurdur) kimi müəlliflər mə'lumat vermişlər. Onların hamısının fikri belədir ki, insanın canı ən ali əsaslardan asılıdır və insan ən mükəmməl məxluqdur… İnsanın canı ən nəhayətdə özünə qayıdır və öz əslini tapır. Hikmət sahibləri bu dünyada baş verən bütün hadisələrin nürani aləmin hökmü ilə olduğunu söyləyirlər (Bax: Dr. Seyid Cəfər Səccadi. Göst. əsər, s. 653-656).

* s.189 *Qanq (Gəng)* – Hindistanda çaydır. Uzunluğu 3090 km-dir. Məcrasi *Himalay* dağından başlayır, Allahabadda *Cəmna çayı* ona birləşir. Qanq *Benaris* və *Pətnə* şəhərlərini də su ilə təchiz edərək, *Benqal körfəzinə* tökülür (Bax: D-r Moin. Göst., lüğət c. VI, s. 1725).

** s.189 *Agrə* – Hindistanda şəhər. Cəmna çayının kənarında yerləşir. Məşhur *“Tac Məhəl”* oradadır (Bax: D-r. Moin. Göst., lüğət, c. V, s. 46).

*** s.189 *Lahur (Lavhur, Ləhavur)* – Pakistanda şəhər. *Şərqi Pəncabın* mərkəzi. Əhalisi iki milyondan çoxdur. Qədim şəhər olan Lahur İranın tarixi *Nəcd şəhəri* vasitəsiylə Hindistana birləşir. Hindistanı fəth etmək məqsədiylə hücuma keçən döyüşçülər dəfələrlə Lahurdan keçib getmişlər. Qərnəvilərin hakimiyyəti zamanı bu dövlətin mərkəzlərindən biri olmuşdur. (Bax: D-r. Moin., Göst., lüğət, c. VI, s. 1798).

* s.194 *Cərgə ovu* – şikar etmək istədikləri heyvanları qovaraq bir yerə toplayır, sonra isə şah və adamları irəli çıxıb onları ovlayırdılar.

**s.194 *Toy* – təmtəraqlı ziyafət və şadyanalıq məclisləri.

*** s.194 *Sayəban* – Günəş şüalarının qarşısına alan böyük çətir.

**** s.194 *Xane-xanan* – “xanlar xanı” titulu.

* s.196 *Hümayun* – “xoşbəxt, uğurlu, mübarək” mə’nalarını ifadə edən sözdür (Bax: Nəyyerzaman Səfəqi. Göst., lüğət, c. II, s.834).

** s.196 *Sancaq (səncəq)* – Müstəqim mə’nası *bayraq* olan “sancaq” ifadəsi bə’zən “yer, məkan” anlamı da verir. “Tarixe-aləmaraye-Abbasi”də Bağdada yaxun olan bir yer *Səncəqqala* adını daşıyır (Bax: I kitab, səh. 992-bizim tərcüməmiz). *“Mirsəncaq”* (“əmire-səncəq”) istilahı da mövcud idi: “Rumilərin mirsəncəqi və bu qalanın hakimi olan yuxarıda adı çəkilən Şahrux…” (Bax: Yenə orada, səh.993).

“Sancaq” sözü orduların, təmsil etdikləri dövlətin əlaməti olaraq daşıdıqları *bayrağın* adıdır. Ərəblər sancaq və bayraq istilahlarına müqabil olaraq “liva və “rayət” kəlmələrini işlətmişlər (Bax: M.Z.Pakalın. Göst. əsər, III cild, səh. 116).

Elə İsgəndər Münşi də, əsərinin 100-cü səhifəsində (Tehran nəşri) “liva” sözünü gətirmişdir.

Sancaqların müharibələrdə tutduğu mövqe çox böyükdür, çünki xalqa müharibələrdə ancaq bayraqların kölgəsi altında toplanır, amma *bayraqlar yıxılan vaxt elə özləri də dağılışırlar.* İslamiyyətin ilk dövrlərində əvvəlcə ağ və qara sancaqlar hazırlanmışdı.

Osmanlı dövlətinin son əsrlərində “sancaq” ifadəsi əsasən *ərazi* kimi başa düşülür. Məsələn, Övliya çələbi “Səyahətnamə”də əyalət sancaqlarının adlarını bir-bir göstərir: “Rumeli əyalətinin iyirmi dörd, Anadolu əyalətinin isə on dörd sancağı vardı (Bax: M.Z.Pakalın. Göst. əsər, səh. 116, 119).

Dr.Məhəmməd Moin də sancağını bayraq mə’nasından başqa Osmanlı dövlətində əyalətlərdə *inzibati vahid*, hətta *vilayət olduğunu* qeyd edir (Bax: Göst. lüğət, II cild, səh. 1928).

* s.199 *Xansalar* – süfrəçi, aşçı (Bax: D-r Qədir Çolkaygan. Göst. lüğət, s. 169).

* s.201 *Osman sülaləsi* – (ale-Osman) Osmanlı imperiyasının əsasını qoyan, *1299-cu ildən 1922-ci illədək hakimiyyətdə qalan* Osman oğuzları (türk sultanları sülaləsi) belə adlanmışdır. Əslində 1924-cü ilədək davam edən Osmanlı dövlətinin görkəmli nümayəndələri bunlar olmuşlar:

Osman bəy (I Osman) ibn Ərtoğrul (1281-1324);
Orxan bəy (1324-1360);
Murad bəy (I Murad)-1360-1389;
Bayazid (I Bayazid)-1389-1402;
Məhəmməd (I Məhəmməd Çələbi)-1402-1403;
Süleyman (I Süleyman)-(1403-1421);
II Murad (1421-1444);
II Məhəmməd (Fateh)-1444-1481;
II Bayazid (1481-1512);
I Səlim (Yavuz)- (1512-1520);
II Süleyman (Qanuni) -1520-1566;
III Murad (1574-1595);
III Məhəmməd (1595-1603);

I Əhməd (1603-1617);
I Mustafa (1617-1618);
II Osman (1618-1622);
I Mustafa (ikinci dəfə) – 1622-1623;
IV Murad (1623-1640);
İbrahim (1640-1648);
IV Məhəmməd (1648-1687);
III Süleyman (1687-1691);
II Əhməd (1691-1695);
II Mustafa (1695-1703);
III Əhməd (1703-1730);
I Mahmud (1730-1754);
III Osman (1754-1757);
III Mustafa (1757-1774);
I Əbdülhəmid (1774-1789);
III Səlim (1789-1807);
IV Mustafa (1807-1808);
II Mahmud (1808-1839);
I Əbdülməcid (1839-1861);
Əbdüləziz (1861-1876);
V Murad (1876-1876);
II Əbdülhəmid (1876-1909);
V Məhəmməd (Rəşad)-1909-1918;
VI Məhəmməd (Vəhidəddin)-1918-1922;
II Əbdülməcild (xəlifə adı altında)-(1922-1924).

(Bax: Mehmet Zeki Pakalın. Tarix deyimləri və terminləri sözlüyü (türk dilində), İstanbul, 1951, səh. 738-740; К.Э.Босворт. Мусульманские династии, Москва, 1971, səh. 185-186); Azərbaycan Sovet Ensiklopediyası, VII cild, Bakı, 1983, səh. 387-388.

**** s.201** *İqta* – bu şərti torpaq mülkiyyəti növü böyük inkişaf mərhələsi keçmişdir. Əvvəllər o, ayrı-ayrı şəxslərə fəqət torpaqdan xərac alıb yaşaması üçün verilərdi. XI-XII əsrlərdə isə iqta *hərbiçilərə* əta olunmağa başladı. *İqtadar* (iqta sahibi)

həmin torpaqlarda yaşayan kəndlilər üzərində tam hakimiyyətə malik idi. *Azərbaycanda* bu torpaq mülkiyyəti növü artıq *monqol hakimiyyəti zamanı* (XIII-XIV əsrlər) irsi idi. XV əsrdə də iqta hərbi torpaq mülkiyyəti növü kimi qalmaqdaydı, amma bəzi şahzadələrə də yaşayış yerləri iqta kimi verilirdi. Məsələn, Diyarbəkr şəhəri ağqoyunlu şahzadəsi *Yaqub bəyə* iqta şəklində əta olunmuşdu. Əsrin sonunda iqta öz yerini tədricən *soyurqal institutuna* vermişdisə də, sonrakı əsrlərdə də öz mövcudluğunu saxlamışdı. (Bax: И.П.Петрушевский. Очерки по истории феодалъных отношений в Азербайджане и Армении в XVI – начале XIX в.в., Ленинград, 1949, с.153-154; Ş.Fərzəliyev, Azərbaycan XV-XVI əsrlərdə.., s. 74-75; Yenə onun. XV əsr Azərbaycan dövlətlərinin quruluşu, s. 79).

* *Miraxur (Əmiraxur)* – At işlərinə baxan mə'murlardır.
**s.202** Türk dövlətlərinin təşəkkül tapmasından əvvəl də bu vəzifə var idi.

"Fateh Qanunnaməsi"ndə sultan məclisində əyləşmək izni olan mənsəb sahibləri belə sadalanır: "Əvvəla *vüzəra* (vəzirlər), onlardan sonra *qazəskərlər,* ondan sonra *yeniçəri ağası, üzəngi ağaları, mire-ələm, qapıçıbaşı* və *miraxur* oturur".

Üzəngi ağalarının təfsilatı da həmin qanunnamədə vardır: "Ağalardan *yeniçəri ağası* şair ağaların böyüyüdür. [Əvvəl] baş yeniçəri ağası, sonra *mire-ələm,* sonra *qapıçıbaşı,* sonra *miraxur* [əyləşir]".

Miraxurlar iki nəfər olurdular: *böyük və kiçik miraxur*, yə'ni *"miraxure-əvvəl"* və *miraxure-sani"*. Padşahın (yə'ni Sultan Məhəmməd Fatehin-*Ş.F.*) mövcud min qatar dəvəsi, iki yüz qatar qatırı, dəvəçilər və qatırçılar, həmçinin sarban böyük miraxurun idarəsi altında idilər. Böyük miraxur *qapıçılar kəndxudalığının* üst dərəcəsi idi.

Kiçik miraxur isə *axur əmələlərinə* və *arabaçılara* rəhbərlik edirdi. Padşahın arabalarını mühafizə etmək də ona tapşırılmışdı.

Şair Nəf'i deyir:

*"Biri dərbanı olurdu, biri miraxuri*
*Gəlsələr aləmə dövründə Pəşəngü Dara".*[1]

** s.224 *Çaşniqirbaşı* – "Çaşniqir" – *dequstator* mənasını verir ki, çaşniqirbaşı vəzifəsinin şahın məişətində məsul vəzifələrdən biri olduğu anlaşılır.

* s.228 *Mehdəviyyət* – Şiələrin 12-ci şiə imamı Mehdinin intizarını çəkən şəxslərin onun gəlişinə intizarda olmalarıdır. İslamın müxtəlif dövrlərində böyük xalq kütlələri mehdəviyyət arzusu ilə yaşamış və yaşamaqdadır (Bax: Dr. Moin. Göst. lüğət, IV cild, səh. 4441-4442).

*s.237 *Qurxanə* – silah anbarı.

** s.237 *Paybus* – şaha itaət ərz etmə. Hərfi mənası "ayaqöpmə"dirsə də əslində əlöpmə ən'ənəsidir.

* s.239 *Sərkare-xasseye-şərifə.* Bu istilahın mə'na açımı bir qədər mürəkkəbdir. Səfəvilər dövlətində hər vilayətin müxtəlif adlarla təqdim olunan öz sərkarı olmuşdur. Dövlət xəzinəsi üçün toplanan bütün pul vəsaiti və başqa xüsusi (xassə) gəlirlər sərkarın nəzarəti altındaydı və buna görə də sərkar ən e'tibarlı dövlət mə'muru hesab olunurdu.

B.F.Minorski "Təzkirətül-müluk" əsərində *"sərkare-xales"* istilahına nəzər yetirib yazır: "Sərkare-xales"dən başqa Avropa səyyyahları *"sərkare-xalese"* adlı istilah da işlətmişlər. Bu istilahlar, ola bilsin ki, müxtəlif olmuşlar, amma biz onların arasındakı fərqi araşdıra bilmədik.

Həmin müəllif sonra *"sərkare-feyzasar"* istilahından da bəhs edərək, onun müstəqim mə'nasının "Təzkirətül-müluk"da göstərilmədiyini bildirir. O, yazır ki, amma mə'lum olduğu kimi, sədre-xassəyə tabe olan sərkare-feyzasar məs'ul

---

[1] Qeyd:

1. Pəşəng Firidunun nəvəsi, Əfrasiyab Turanlının atası olmuşdur (rəvayət);

2. Pəşəng-böyük Lur atabəylərindən Nurəddin ibn Süleymanşahın damadı idi. O, hicri tarixlə 792-ci ilədək atabay olmuşdur (bax: M.Moin Göst. lüğət. V cild, səh. 347-348).

işçi olmuş və Məşhəddəki *İmam Rza rövzəsinin* sərkarı məhz "sərkare-feyzasar" adlanmışdır.

Vəqflərdən yığılan gəlirlər də sərkare-feyzasarın idarəsində toplanırdı (Bax: Təzkirətül-müluk. Səh. 147, 99-100, 211).

** s.239 *Təmğa vergisi* – Çingiz xanın hakimiyyətindən başlayaraq şəhərdəki sənətkarlıq sahələrindən və ticarətdən yığılan *ağır vergi növü* olmuşdur. *İki növ* təmğa mövcud idi. *Böyük təmğa, kiçik təmğa*. Birinci növ təmğa səhər qapılarının yanında həyata keçirilir, gətirilən mallar böyük tərəzilərdə (qapan) çəkilir və vəznə müvafiq təmğa pulu alınırdı. Kiçik təmğanı isə bazarlarda malların satışı üçün yığırdılar.

*Pəşiddədinə* görə, təmğa *elxanilər xəzinəsinin* ən sabit gəlir vergisi idi.

Təmğa yığan mə'mur *təmğaçı* adlanırdı. (Bax: M.X.Qeydarov. Soüinalcno-gkonomiçeskie otnoşeniə i remeslennıe orqanizaüii v qorodax Azerbaydjane v XIII-XVII v.v. Baku, 1987, s. 106-109).

Təmğa vergisini xüsusi araşdıran və elmi məqalə yazan *prof. Süleyman Məmmədov* yazır: "Qaynaqların mə'lumatına görə, tamğanın yığılma üsulu və həcmi müxtəlif idi. Ayrı-ayrı hallarda bu və ya digər tədbirlərin keçirilməsi məqsədilə tamğanın alınması müvəqqəti olaraq dayandırılırdı. Şəriətlə əsası qoyulmamış vergilərin ölümdən və ya hər hansı bir təhlükəli iş görməyə başlamazdan əvvəl ləğv edilməsi vacib hesab edilirdi.

Dövrün bütün mənbələri *tamğanın I Şah Təhmasib tərəfindən ləğv edildiyini* göstərir. Həsən bəy Rumlu yazır ki, hicri 972 /m. 1565/-ci ildə verilmiş fərmana görə Səfəvi dövləti sərhədlərində tamğa ləğv edildi. Halbuki, dövlət bu vergidən ildə 30000 tümən gəlir götürürdü. Fərmanın mətnindən göründüyü kimi, Təhmasibin qeyri-təbii yuxusu vaxtı "İmam Mehdi ona deyibdir ki, tamğanı bağışlayıbsan, lap yaxşı edibsən, ölkədə qüvvədə qalan yarım tamğanı da bağışla" (Şah Təhmasib tamğanın əvvəlcə yarı hissəsini bağışlamışdı-*Ş.F.*). S.Məmmədov sözünə davam edərək yazır: "Təhmasib də "Müqəddəsin" sözlərinə isnad edərək

deyir: Əmr Sizindir, ölkənin qalan tamğasını da lə'nətləyərək bağışladım".

S.Məmmədovun bu məqaləsinin davamında oxuyuruq: "Bu sətirlər O.Əfəndiyev və Ş.Fərzəliyevə bu fərmandan əvvəlcə başqa bir fərmanın olduğunu və ona əsasən tamğanın yarısının ləğv edildiyini deməyə əsas vermişdir. Deməli, burada sözbət qalan yarımın ləğvindən gedir ki, müəlliflər təəssüflə əlavə edirlər ki, ilk söz deyişməsinin vaxtı barədə heç bir mə'lumat yoxdur. Buna bənzər fikir, şübhəsiz, məntiqdən uzaq deyil. Lakin bu barədə yazılı göstəriş olmamışdır".

Tamğa vergisinin ləğvi, əlbəttə, səbəbsiz deyildi. "1555-ci il *Amasya sülhündən* sonra I Təhmasib ölkənin dağılmış vəziyyətini bərpa etməyə cəhd edir, ticarət və sənətkarlığın inkişafına diqqəti artırır. Lakin, bu səbəbdən alınan ağır tamğa vergisi buna mane olurdu. Azərbaycan şəhərlərində təxminən 30-a qədər müxtəlif cür sənətkarlıq sahələri var idi: *duzdöyən, gümüş ustası, zərgər, dulusçu, dabbaq, çəkməçi, papaqçı, bıçaqçı, dəmirçi, dərzi, kətançı, dülgər, nalbənd, toxucu, daşyonan və s."* (Bax: Süleyman Məmmədov. Bir daha XVI əsrdə Səfəvi dövlətində ticarət-sənətkarlıq vergisi "tamğa" və onun ləğvi haqqında, Tarix və onun problemləri, № 1, Bakı, 1999, səh. 61-66).

***** s.239** *Male-möhtərefə* –bazarlarda olan sənətkarlıq təşkilatlar birliyinə deyilirdi. Male-möhtərefə üzərinə möhtərefə vergisi qoyulan vergi növü olmuşdur. (Bax: M.H.Heydərov, Göst., əsər, səh. 112, 114, 119, 120-122).

****** s.239** *Məvaşi* – mal-qaradan yığılan vergi.

******* s.239** *Mərai* – otlaq yerlərindən yığılan vergi.

***s.240** *Müstənsirbillah* – Abbasi xəlifəsi (1226-1261).

***s.246** *Ütarüd* – Günəşə ən yaxın olan Merkuri planeti.

*** s.248** *Riyazət* – çətinliyə tab gətirmək ürfanda nəfs gözəlliyinin şərtlərindən biridir. *Əbdürrəzzaq Kaşani* yazır: "Gərək hər salik (arif, yol gedən, izləyən adam-*Ş.F.*) riyazətdən dönməsin

və onun uğrunda döyüşsun”. Deməli, riyazət *nəfs imtahanıdır, Allah yolunda çətinliyə və cəhada tab gətirməkdir.*

Riyazətdə üç dərəcə var:

*Ümumi riyazət (riyazəte-amme)* – bu riyazət şə’ri elmlərə əsaslanır, riyazət əhli gərək şəriət qanunlarına əməl edərək hər cür riyadan uzaq olsun.

*Xüsusi riyazət (riyazəte-xasse)* – yəni, bizi Allaha tərəf aparan yoldur, əvvəlki məqamdan uzaqlaşmaq və bu məqamın tələblərinə əməl etməkdir.

*Ən xüsusi riyazət (riyazəte-xasül-xas)* – yəni həzrət Allahı seyr etmək, *əhədiyyətin vahidliyinə inanmaqdır*. Salik bu mərhələdə zatı görən şahid məqamında (məqame-sühude-zat) olur. Salik artıq bilir ki, *fani* əzəli fanidir, *baqi* isə əzəli baqidir.

Riyazətin əsası – *aclıqdır*. Aclıq çəkməyi bacarmayan adamdan *riyazət əhli* olmaz.

*Riyazətin məqsədi üçdür*: 1) Həqqə yetmək yolunda maneələri rəf etmək; 2) Heyvani nəfsi əqli nəfsə ram etməklə kamal tələbinə yetmək; 3) İnsani nəfsi lazımi səviyyədə saxlamaqla Allahıq feyzini, bacardıqca özündə qorumaq (Bax: Doktor Seyid Cəfər Səccadi. Göst.lüğət, s. 437-438).

**** *İradət (yaxud iradə)* – Ariflərin və zövq əhlinin fikrincə
**s.248** iradət qədim sifətlərdən biridir.

İradət – *təriqət yoludur*. İradət hər işin müqəddiməsidir. Nəyəsə iradət etməyən adam onu reallaşdıra bilməz. Demək, *təriqətin əsası iradətdir* (Bax: Doktor Seyid Cəfər Səccadi. Göst.lüğət, s. 74-77).

***** *Seyid Zəhirəddin Mər’əşi* – 1412-ci ildə doğulmuşdur.
**s.248** *Gilanın Barəzgah adlı yerində* onun mülkü olmuşdur. O, Karkiya Mirzə Əli üçün (1476-1504) *“Tarixe-Təbəristan”* və *“Tarixe-Gilan və Deyləmistan”* adlı kitablar yazmışdır (Bax: Ç.A.Stori. Persidskaə literatura, Pererabotal i dopolnil, Ö.G.Breqelğ, t. II, M. 1972, s. 1073).

*** *Xadimbaşı* – “Xadim” sözünün mə’naları çoxdur. Osman-
**s.258** lılarda erkəkliyi yox edilmiş adamlara *“xadim”* deyilmişdir. Osmanlı dövründə biçarə xadimlər zənci kişilərdən ibarət

idi. Xadimlərin başçısı *“xadimbaşı”*, yaxud *“təvaşi”* adlanırdı.

Orta əsr dövlətlərində “xadim” sözünün “xidmətçi” mə’nası da olmuşdur. Xadim-saraylarda müsafirlərə süfrə xidməti göstərən adamlara deyilibdir.

Bə’zi şeyxlərə *“xadimül-füqəra”* söyləmişlər. Müqəddəs rövzələrdə xidmət göstərən mə’mur *“xadimül-hərəmeynüş-şərifeyn”* adlanmışdır (Bax: M.Z.Pakalın. Göst. lüğət, I cild, səh. 701-703).

Səfəvilərdə isə yalnız müqəddəs yer və məscidlərdə xidmət göstərənlər “xadim”, “xadimbaşı” adlanmış, onların vəzifələrinə isə “xadimbaşıgəri” deyilmişdir (Bax: Dr.M.Moin. Göst. lüğət, I cild, səh. 1384).

*Xadimbaşı* – V.F.Minorskiyə görə, xadimbaşı tövhidxanə (məscid, rövzə – *Ş.F.*) xidmətçilərinin (əmələ) *rəisidir* (Bax: Təzkirətül-mülik., s. 105).

* *Ovqaf* – vəqflər, vəqf mülkiyyətləri. *Vəqf* – islam dini
**s.272** müəssisələrinin çox gəlirli torpaq mülkiyyəti olmuşdur. Bu torpaqlarda rəiyyət ruhanilərdən asılı idi. Vəqfdən götürülən gəlirin bir hissəsi məscid, mədrəsə və başqa dini idarələrin inşa olunmasına xərclənir, onun böyük hissəsini isə ruhanilər mənimsəyirdilər. Dini müəssisələrin ixtiyarında böyük torpaq sahələrindən başqa vəqf olunmuş evlər, bazar, emalatxana, karvansara, dəyirman, bağ, suvarma kanalları və mədənlər də vardı.

Vəqf torpaqlarının gəliri vəqfi verən şəxsin vəsiyyətinə əsasən məsrəf edilə bilərdi, çünki vəqf olunan əmlak *vəqfnaməyə* müvafiq surətdə idarə edilməli idi. Bu torpaqlardan hökumət üçün vergi yığılmır, vəqf əmlakı toxunulmaz sayılırdı. Məhz buna görə də feodallar bəzən öz torpaqlarını dini müəssisələrə vəqf edir, beləliklə də xəzinəyə vergi verməkdən can qurtarırdılar.

*Vəqf əmlakı satıla və bağışlana bilməzdi*. (Bax: Şahin Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə, s. 74-76).

* *Sədarət, sədr, sədrə’zəm*. İsgəndər bəy Münşinin fəaliyyət
**s.273** göstərdiyi vaxtlarda sədrin dövlətdə rolu artıq *xeyli azalmışdı*.

Elə buna görə də, müəllif sədarət vəzifəsi və sədrin (sədrə'cəmin) səlahiyyətləri haqqında dolğun mə'lumat vermir. XV əsr Qaraqoyunlu və Ağqoyunlu dövlətlərində sədarət mənsəbini daşıyan şəxsin rolu bir əsr sonrakı sədrin əhəmiyyətli rolundan fərqlənirdi. Mənbələrdə XV əsr Azərbaycan feodal dövlətlərində vəkil və vəzirin tutduğu mövqeyin sədrə nisbətən daha üstün olduğu aşkar nəzərə çarpır və sədrin fəaliyyəti, əsasən, göstərilmir (Bax: Şahin Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə, səh.47).

Tarixçilərin əksəriyyəti sədarət vəzifəsini "*yüksək vəzifə*" adlandırmışlar. Ümumiyyətlə, Həsən bəy Rumlu və başqalarının əsərlərində Qaraqoyunlu dövlətində sədrin oynadığı rol az işıqlandırılmışdırsa da, lakin Ağqoyunlu dövlət aparatında sədrin icra etdiyi vəzifənin ön plana çəkildiyinə işarə edilmişdir. Həsən bəy Rumlu ağqoyunlu sədri *Qazi İsanı* "sədarət mənsəbi və dini işlər vəzifəsinin sahibi" adlandırır, lakin bir müddət sədrlik edən bu şəxsin *vəkil Sufi Xəlilin* fərmanı ilə öldürülməsi sədarət vəzifəsinin XV əsrdə hələ o qədər də möhkəm mövqe tutmadığını göstərir.

Mə'lumdur ki, səfəvi hökmdarı dindən "böyük bir dövlət yaratmaq üçün *ideoloji bir silah* kimi istifadə edirdilər" (Bax: O.A.Gfendiev. Obrazovanie azerbaydjanskoqo qosudarstva Safevidov v naçale XVI veka, Bakı, 1961, səh.96). Buna görə də, XVI əsr səfəvi dövlət aparatında şiə təriqəti adından çıxış edib hökumətə böyük köməklik göstərən *sədarət mənsəbi görkəmli yer tuturdu.* İsgəndər bəyin əsərinə istinad edən prof. O.Ə.Əfəndiyev ilk səfəvi hökmdarları vaxtında sədrin seyidlərə və əmmamə sahiblərinə *(ərbabe-əmayem)* himayədarlıq etməli olduqlarını, onların maraqlarının müdafiəsini, *vəqflərin işləri ilə məşğul olmalarını* və şəriətin maariflənməsi xatirinə "*vergi yığmalarını*" sədrlərə verilən tapşırıq kimi nəzərə çatdırır (Bax: Oqtay Əfəndiyev, Azərbaycan Səfəvilər dövləti, səh. 359).

I Şah İsmayıl taxta cülus edən kimi sədarət vəzifəsini müəllimi olmuş *Şəmsəddin Lahici Gilaniyə* vermişdi. Lakin sədrlər həmişə şahın e'timadını doğrultmurdular. Həsən bəy

Rumlu bildirir ki, 905 (m.1509-10)-ci ildə vəzifəsindən istifadə edib "nahaq qanlar tökən" *sədr Qazi Məhəmməd Kaşi* Şah İsmayılın əmri ilə öldürülmüş və o vaxtdan başlayaraq, həmin vəzif əyüksək dərəcəli seyidlərdən başqa heç kəsə verilməmişdi (Bax: O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, səh.259; Ş.Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə, səh.49).

Şiə məzhəbinin başqa üzvləri kimi sədrlər də müharibələrdə iştirak edirdilər. *Rocer Seyveri* (ingilis alimi – *Ş.F.*) yazır: "Çaldıran döyüşündə" (1514) *sədr Seyid Şərif Şirazi və sədr Əmir Əbdülbaqi* döyüş meydanında öldürürdülər. Sədr 1548-ci ilə qədər hərbi əməliyyatlarda iştirak edirdi (Bax: R.Seyvori. Iran tarixinin səfəvi dövrünə dair təhqiqatlar (fars dilində), tehran, 1382, səh.126).

Hələ Səfəvi hakimiyyətinin ilk illərində sədarət mənsəbi *şərikli* aparılmağa başlandı. Bu, şah və dövlət torpaqlarına (xassə və məmalik) sədarət funksiyasının genişləndirilməsi ilə izah olunur. Mə'lumdur ki, *sədrlərin hər ikisi din adından hərəkət edirdi.* Mənbələrin mə'lumatına görə, Səfəvi dövləti qüvvətləndikdən sonra müxtəlif vilayətlər şər'i baxımdan *iki sədr arasında* bölüşdürülmüşdü. Belə ki, İraq, Fars və Xuzistan sədarətini *Mir Şəmsəddin Məhəmməd Yusif*, Xorasan, Azərbaycan və Şirvan sədrliyini isə *Mir Zeynəddin Seyid Əli* (1562-63) icra edirdilər (Bax: O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, səh.259; Ş.F.Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə, səh.49).

Osmanlı imperiyasında da sədarət və sədrə'zəmlik yüksək əhəmiyyətə malik olmuşdur. Orada sədarət *"ən irəli"*, *"ən yuxarı"*, *"üst baş"* kimi fəaliyyət göstərmişdir. Sədarət başçısı olan ən yüksək dövlət mə'murlarından biri sayılan sədrə'zəm, M.Z.Pakalın yazdığı kimi "*sədre-ə'zəm*" yazılır, amma *"sədrə'zəm"* kimi tələffüz olunurdu.

Sədrə'zəmin idarəsində hərbiçilərdən ibarət *bir divan*, yə'ni "*hərb məclisi*" də fəaliyyətdə idi. Belə ki, bu məclis sədrə'zəmin rəhbərliyi altında müəyyən günlərdə toplanır, orada müxtəlif müzakirələr aparılır, müharibə işləri haqqında

qərar çıxarılırdı. sədrə'zəmin bir vəzifəsi də onun nəzarəti altına verilən *vəqflərə baxmaqdı* (Bax: M.Z.Paklın. Göst. əsər, səh.77,81).

*** s.274** *Seyid Məhəmməd Nurbəxş ibn Məhəmməd ibn Abdulla Musəvi Xorasani* (h.795-869) – hicri tarixlə IX əsrin böyük ariflərindən və Nurbəxşiyyə təriqətinin yaradıcısıdır. O, *Ibn Fəhd Əlinin* şagirdlərindən olmuş və bütün ömrü boyu onun şeyxlərinin geyindikləri kimi *qara libas* geymişdir. Təxəllüsü babası *Ləhcanın* şərəfinə *Ləhcəvi* idi və qəzəllərini hərdən həmin təxəllüslə deyirdi, amma ən əsas ləqəbi (təxəllüsü) *Nurbəxş* idi. Seyid Məhəmməd təriqətdə *Əlaüd-dövlə Semnaninin* və *Xacə İshaq Xətlaninin* müridi olmuş və elə həmin xacə ona Nurbəxş təxəllüsünü vermiş, xirqəni də ona xacənin özü geyindirmişdir (böyük sufi xirqəsi geyinmək yalnız şeyxlərə nəsib olan fəxarət idi – *Ş.F.*). Seyid Məhəmməd Xorasanda irşad məclisi (büsat) açmışdı, lakin fitnə-fəsad əhli olan bə'zi adamlar *Şahrux Mirzə Teymurini* onun barəsində qətl hökmü verməsinə vadar etdilər, lakin Seyid Məhəmməd fərar edib Rey vilayətinə getdi və orada yerləşdi. O, *Sultan* qəryəsində vəfat etmişdir. *"İnsannamə"* və *"Şəcəreyi-məşayex"* onun kitablarındandır (Bax: dr. M.Moin. Göstər.lüğət, IV cild, səh.2152).

**** s.274** *Nurbəxşiyyə təriqəti* – Seyyidül-ürəfa Məhəmməd Nurbəxşin *(Qara geyimli Seyid)* yaratdığı *təriqətdir*. Bu sufi təriqətinin məzmununu açmaq bizə müyəssər olmadı, hərçənd ki, çox lüğət və kitaba müraciət etdim. Dr. M.Moin də sufilər silsiləsinin e'tiqad bəslədikləri həmin təriqət barədə heç nə deməmişdir (Bax: Göstər.lüğət, IV cild, səh.2152).

*** s.276** *Qaziye-əsgər (qaziye-məəskər)* – Lüğəvi mə'nası "əskər qazisi", "ordu qazisi" deməkdir. Köhnə mənsəblərdəndir. *Abbasilərdə* görünən bu vəzifə *Hərcəmşahlarda, Anadolu Səlcuqilərində, Əyyubilərdə, Məlüklərdə, hətta Qaramanilərdə* mövcud idi.

Osmanlı dövlətində qaziəskər mənsəbə I Sultan Murad tərəfindən tə'sis olunmuşdu. Bu Sultanın ilk qaziəskəri Çandarlı Qara Xəlil idi. 1481-ci ilədək qaziəskər dövlətdə bir

nəfərdən ibarət idi. Fatehin baş vəziri Mehmet paşa Qaramani sultana dövlətdə 4 vəzir olduğu kimi, qaziəskərin də sayının artırılmasını məsləhət görmüşdü. Beləliklə, biri Rumeli, digəri isə Anadolu qaziəskərliyi yaradıldı. Sultan Səlim Yavuzun dövrünədək dövlətin cəmi 2 qaziəskəri olduğu halda, 1514-cü ildə Diyarbəkrdə, sonrakı Hələbdə *"Ərəb və Əcəm qaziəskərliyi"* adı ilə 3-cü qaziəskərlik yazıldı və bu vəzifəyə tarixçi *İdris Bidlisi* tə'yin edildi. Ondan sonra Diyarbəkr *qazisi Müəyyedzadə Əbdülhəyy Çələbi* adlı şəxs "Ərəb və Əcəm qaziəskərliyinə" gətirilməsi, 1517-ci ildə hər 3 qaziəskərlik vaxtilə İstanbul qazisi olmuş *Mehmetşah Fənariyə* verilmişdi. Sonra *Piri Mehmet paşa*, daha sonra *Qədri Əfəndi* dövlətdə 3-cü sədrəzəmliyin başında durdular, amma *Piri paşa* sədr tə'yin olundu və qaziəskərlik bir müddət ləğv edildi.

Qaziəskərlər *divanın üzvlərindən idilər* Divanın dini işləri qaziəskər tərəfindən həll olunurdu. Qaziəskər divanda *vəzirdən sonra* əyləşirdi.

Padşahların səfərləri vaxtı qaziəskərlərin də'vət olunmadan padşahın yanına gəlmək icazəsi vardı.

Qaziəskər "*divani-hümayun"a* gəldikdə o, *çavuşbaşı* və *qapıçı kəxudabaşı* tərəfindən qarşılanırdı.

Qaziəskərlik Osmanlı səltənətinin sonunadək davam etmiş və Osmanlı dövləti ilə birlikdə tarixə qovuşmuşdur (Bax: Pakalın. II c., səh.229-239).

*Səfəvilər, qacarlar və pəhləvilər dövründə* də qaziəskər əskərlərin şər'i işlərini həll edir və *ləşkər qazisi*, *yaxud əskər qazisi* adlanırdı (M.Moin, II cild, s.2615).

****** *Üsul və rical elmi* – Bu elmlərin dəqiq mə'na və məzmun-
**s.276** ları mənə mə'lum olmadı və bir neçə lüğətə müraciət etdim:

a) Üsul elmi metodologiyaya aid elmdir (Bax: H.Səqəfi. Göst.lüğət, I cild, səh.83);

b) Rical isə M.Moin tərəfindən belə mə'nalandırılır: bir dəstə allah adamına *("ricale-xoda")* aid edilən istilahdır, dünya adamlarından göz yummuşlar və cahan onların sayəsində yaşamaqdadır (Bax: M.Moin. Göst.lüğət, II cild, səh.1639).

* *Mir Məhəmməd Bağır Damad* – Mir Damad kimi tanı-
s.277 nırdı. Səfəvi dövrünün məşhur filosof və alimlərindən idi və Şah Abbasın xüsusi diqqət və nəzəri altındaydı. Astrabadda doğulmuş, Məşhəddə təhsil almış, ömrünün çox hissəsini İsfahanda keçirmişdir. O, Şeyx Hüseyn Amelinin, Şeyx Əbdülalinin və başqa böyük simaların şagirdlərindən (təlameze) olmuşdur. Molla Sədraye-Şirazi isə onun şagirdlərindən idi. Fiqh və hikmət haqqında çoxlu əsəri vardır. O, həm də şair etmiş, "Əşraq" təxəllüsü ilə şe'rlər yazmışdır (M.Moin. Göst.lüğət, VI cild, səh.2069).

* *Rezəviyyə* – Burada Məşhəddə rövzə (İmam Rza rövzəsi
s.280 – *Ş.F.*) işlərinə rəhbərlik edən mə'mur – *Ş.F.*

** *Mütəvəlli* – Müqəddəs islam dininin şəriət ehkamı üzrə
s.280 tərtib edilmiş vəqfnamə adlı müvafiq sənəd əsasında müəyyən vəqf əmlakını idarə etməyə vəzifədar olan *yüksək məqamlı şəxs* olmuşdur. Vəqf İnstitutunun meydanına çıxmasından sonra bütün tarixi dövrlərdə, demək olar ki, mütəvəllilər vəqf əmlakının gəlirinə hər cür sərəncam vermək hüququndan daim istifadə etmişlər. Bundan başqa, onlar şəriət ekranına müvafiq olaraq həmin əmlakın gəlirinin onda bir hissəsini *(üşr)* tovliyyat haqqı (həqqət-tovliyyə) adı ilə mənimsəmiş, bu əmlakı bir qayda olaraq istədikləri vaxt 99 il müddətinə icarəyə vermiş və ya şəxsən özləri icarə etmiş, lazım gəldikdə şəriət qanununun "daha yaxşısı ilə dəyişmək" (təbdil be əhsən) maddəsindən istifadə edərək *vəqf əmlakını dəyişmiş* və ya onu satıb *yeni mülk* də almışlar.

Tarix boyu vəqf institutundan həmişə xüsusi mülkiyyətin qorunması vasitəsi kimi istifadə olunduğuna görə vəqfnamələrdə mütəvəllilik vəzifəsinin də, şahlar və ruhanilərdən tutmuş adi mülkədarlaradək, müxtəlif adamlara tapşırıldığını görürük. İstər səfəvilər sülaləsinin hakimiyyəti dövründə, istərsə də ondan əvvəlki dövrlərdə ən iri vəqf torpaqlarının, o cümlədən Qum, *Məşhəd* və s. şəhərlərdəki *"boqaye-motəbərrike"*, *"rövzeye-motəbərrike"* ("Müqəddəs məscid – *Ş.F.*") adlanan məqbərələrə vəqf olunmuş əmlakın gəlirinə bir çox hallarda dövrün padşahı *(sultane-əsr)* nəzarət etmiş və sərəncam vermişdir.

Hökümət aparatında vəqf məsələlərinə baxan idarənin, habelə baş mütəvəlli sayılan şahın rəyi əsasında ayrı-ayrı məqbərə, məscid, mədrəsə və s.dini ocaqların vəqf əmlakı üçün mütəvillilər, vəqf mübaşirləri və digər qulluqçular təyin edilmişdir (Bax: T.M.Musəvi. Bakı tarixinə dair orta əsr sənədləri, Bakı, 1967, s.45).

* **s.283** *Möhtəsib* – İslamın qədim vəzifələrindəndir. Bu əməl sahibi barədə çoxlu dəsturüləməllər mövcuddur. "Təzkirətül-mülik" əsərində yazılır ki, möhtəsibin vəzifəsi *xasseyi-şərifədən ötrü və bazara nəzarət etmək üçün* cədvəllərin hazırlanması, orada cari və gündəlik rəqəmlərin əks olunmasıdır. (Bax: Təzkirətül-mülik., səh. 154). Vilayətlər və ölkələr möhtəsibi *"mohtəsibül-məmalek"* adlanırdı – *Ş.F.*

** **s.283** *Kəlantər* – "Təzkirətül-mülik" əsərində kəlantar vəzifəsi barədə də yazılmışdır. Kəlantər *kəxudaları tə'yin edir*, vergi məbləğinin bölüşdürülməsi və əsnaflar arasında əvarizdən (vergilərdən-*Ş.F.*) yayınma hallarına *nəzarət edir*, əsnafların gəlir vergilərini (maliyyat) nəzarət altında saxlayır, onların *vergilərinin məbləğini təxmini hesablayır* (bəravord), rəiyyəti (əkinçiləri və başqa kasıb kütləni) *öz himayəsi altına alır*. (Bax: "Təzkirətül-mülik", s. 151-152).

* **s.284** *Xətib* – xütbə (muvaizə, nəsihət) oxuyan adam, (Bax: Dr. M.Moin. Göst lüğət, c.I, s. 1430).

** **s.284** *Xitabət* – xütbə oxumaq, vəsf etmək. Qədim vaxtlarda məntiq elminin bəhslərindən biri olmuşdur. (Bax: Dr. M.Moin. Göst. lüğət, c.I., s.1428).

*** **s.284** *Əmre-mə'ruf və nəhye-monkər* – Şəriət əmrlərinə aid istilahlardandır. Əmre-mə'ruf, yə'ni *şər'ən vacib əmr, göstəriş*, əmre-monkər isə *şər'i vacibatın inkar olunması* deməkdir (Bax: Dr. M.Moin. Göst.lüğət, III cild, səh.4230; I cild, səh.351).

* **s.285** *Ziyarət və təvaf* – böyük və möhtərəm şəxsləri yad edib onların dəfn olunduqları yerlərə getmək; rövzə və büq'ələrdə imamlar, imamzadələr və övliyaların şərəfinə *dualar oxumaq ziyarət* adlanır. *Təvaf* barədəsə yuxarıdakı şərhlərdə yazılmışdır (Bax: Dr.M.Moin. Göst.lüğət, II cild, səh.1767).

* **s.286** *Nəqib* – Kəlantərin müavini, yaxud *naibi* olmuşdur. Ehtimala görə, kəlantər və nəqib məhəllə ağsaqqalları tərəfindən seçilirdilər (Bax: "Təzkirətül-mülik", s. 152).

* **s.289** *Mütəsəddi* – vəzirlər tərəfindən təyin edilən *dövlət sər'i mə'muru*. Mütəsəddi vəqf (movqufat) işlərinə nəzarət edir və sədrin nəzarəti altında işləyirdi. (Bax: Təzkirətül-müluk, s. 40-41).

* **s.291** *Elme – mə'qul və mənqul* (mə'qul və mənqul elmlər) – Mən mə'qul və mənqul elmələr barədə mə'lumat əldə etməkdən ötrü mərhum alim d-r Seyid Cəfər Səccadinin məşhur "Fərhənge-estelahat və *təbirate erfani*" kitabının "Elm" bəhsinə nəzər yetirdim. Orada müxtəlif el sahələrindən (*elme-batin*, *elme-hal*, *elme-həqayeq*, *elme-xas*, *elme-xəvater*, *elme-dorost*, *elme-donyəvi*, *elme-rəvayət*, *elme-rosum*, *elme-seət*, *elme-şəriət, elme-zarr, elme-zərurət, elme-zaher, elme-fərize, elme-lədonni, elme-qiyam, elme-mohit, elme-yəqin, ülume-afat, ülume-əhval, ülume-zövqi, ülume-sufiye, ülume-modəvvəne* (Bax: Dr. Seyid Cəfər Səccadi. Göst. lüğət, s.586-597) haqqında geniş bəhs edildiyi halda *elme-mə'qul* və *elme-mənqul* barədə söz yoxdur. Axtarışımız davam edəcək, inşaallah!

** **s.291** *Üsul və foru' (yaxud əsl və fər')* – Üsul *tovhid*, foru' isə *taətdir*. (tovhid vəhdət, foru' isə ibadətdir – *Ş.F.*): Bax: D-r S.C.Səccadi., Göst.lüğət, s. 109).

* **s.292** *Şafiilik* – İslamda *sünniliyin* əsas qollarından (məzhəb) və müsəlman hüququ (fiqh) məktəblərindən biri. Əsasını əş-Şafii qoymuşdur. Şafiilik orta əsrlərdə *Azərbaycan, Xorasan, İraq, Misir* və *Suriyada* geniş yayılmış və uzun müddət hənəfiliklə münaqişədə olmuşdur. 15-ci əsrdən sonra Azərbaycanda zəifləməyə başlamışdır. Şafiiliyin təkamül, inkişaf və yayılmasına *Həcai* (9-cu əsrin sonu – 10-cu əsrin əvvəli), *Əş'əri* (?-935), *Mavərdi* (11-ci əsr), *Şirazi* (II əsr) (?-1111) və *Nəvəvinin* (13-cü əsr) böyük xidmətləri olmuşdur. Şafiiliyin yüksəlməsi *Səlcuqilərin vəzmrm Nizamülmülkün* adı ilə bağlıdır. Şafiiliyin ideya və hüquq baxışlarının təkmilləşdirilməsində *azərbaycanlılardan Rafii Qəzvini*

*(?-1226) və Cəmaləddin Ərdəbilinin (?-1397)* xidməti olub. Şafiiliyin orta əsr Azərbaycan hüquqşünaslığının formalaşmasında mühüm yeri var (Bax: ASE, X cild, səh.471).

****** **s.292** *Hənəfəlik* – sünnilikdə məzhəb və 4 əsas hüquq (fiqh) məktəblərindən birincisi. Banisi *Əbu Hənifənin* (Human ibn Sabit ibn Tavus) adından götürülmüşdür. Hənəfiliyə görə müsəlman hüququnda (şəriət) ilk dəfə olaraq fəqihlərə, tutuşdurma (qiyas) əsasında, şəxsi rə'y çıxarmağa icazə verilmiş, fiqh bölmələrə və fəsillərə ayrılmışdır. Hənəfiliyin inkişaf və təkamülündə *Əbu Yusif Yə'qub* (?-785), Məhəmməd Şeybani (?-805), *Əbu Leys Səsərqəndi* (?-986), *Sığnaqi* (7-1300), *Nəcəfi* (7-1310) *I Sədr-əş-Şəriə*, *II Sədr əş-Şəriə* və b. əsas rol oynamışlar (Bax: ASE, X cild, səh.201).

M.Z.Pakalın yazır: "Hənəfilik islamda sayları çox olan məzhəblərdən ən çox tərəfdar toplayan 4 məzhəbdən birincisidir. Hənəfi məzhəbi *İraqda* meydana gəlmiş, *Abbasilər dövründə* dövlətin əsas məzhəbi olmuşdur. *Azərbaycan və Dağıstan türkləri ilə Qafqazdakı çərkəzlərin* mühüm qismi hənəfi məzhəbindədir. *Çin, Mancuriya və Yaponiya* müsəlmanlarının hamısı hənəfidir. *Hind, Siyam, Qazan, İrtiş, Sibir, qırğız və Qazazıstan türkləri* bütünlükdə bu məzhəblidirlər. *Hicazın* (Səudiyyə Ərəbistanı *Ş.F.*) bir qismində, *Yəmən və Ədən* çövrəsində də hənəfilik vardır. *Fələstində* də hənəfilik mövcuddur. Hənəfi məzhəbinin belə geniş yayılmasının səbəbi hənəfiliyin başqa məzhəblərlə müqayisədə daha mülayim və elastik hökmləri ehtiva etməsidir (Bax: Göst.əsər, I cild, səh.727-728)".

***** **s.293** İsgəndər bəy Münşinin (s.s.293, 742) əsərində iki dəfə adı çəkilən "Erməniyyə" (Erməniyyeye-soğra) sözünə münasibət bildirmək lazımdır: "Elmdə hakim olan rəyə görə, *Ermənistan 387-ci il müqaviləsi ilə İran və Roma arasında bölüşdürülmüşdü*" (Bax: Azərbaycan tarixi, İkinci cild (məsul redaktor Nailə Vəlixanlı), 1998, s.22). *387-ci ildən XX əsrədək Ermənistan (Erməniyyə) adlı dövlətdən söhbət gedə bilməz! Bəzi erməni tarixçilərinin (məsələn S.T.Yeremyanın) məqsədi Albaniya dövləti, Albaniya tarixi hesabına Ermənistanın və*

*Ermənistan dövlətinin tərifini göylərə qaldırıb şişirtməkdən ibarətdir.* S.T.Yeremyan Albaniyaya "Böyük Ermənistan"ın ayrılmaz hissəsi kimi baxır. Mənbələrə görə "Böyük Ermənistan" ifadəsi (eləcə də "Kiçik Ermənistan" ifadəsi –*Ş.F.*) iki mə'nada işlənir: *coğrafi və siyasi* mənalarda. Həmin ifadə coğrafi mə'nada e.ə. 220-ci ildə ortaya çıxmışdır. *Kiçik Ermənistandan* savayı bütün erməni vilayətləri *Selevkilərə* tabe edilmişdi. *"Böyük Ermənistan"* ifadəsi e.ə. II-I əsrlər üçün xarakterikdir və coğrafi-siyasi anlayış kimi özünü doğruldur. Ancaq *II Tiqran imperiyasının süqutundan sonra,* yə'ni e.ə. 65-ci ildə *Böyük Ermənistan da ömrünü başa vurdu* və Ermənistan ərazicə yalnız *Ermənistan yaylası* hüdudlarında qaldı, amma coğrafi mə'nada "Böyük Ermənistan" ifadəsi isə o vaxtdan ta erkən orta əsrlərədək (eləcə də tarixçi İsgəndər Münşinin yaşadığı dövrdə də – *Ş.F.*) işlədildi. Mövcud olduğu dövrdə bə'zən Fərat çayından şərqə doğru ermənilərin yaşadıqları torpaqlara *"Böyük Ermənistan"*, Fəratdan qərbdə ermənilərin yayıldığı əraziyə isə "*Kiçik Ermənistan"* deyilirdi. *Alban və erməni gerçəkliklərinin öyrənilməsi təsdiq edir ki, həm siyasi, həm də coğrafi mə'nada "Böyük Ermənistan" ifadəsinin Albaniyanın (Şimali Azərbaycanın – Ş.F.) taleyi ilə heç bir yaxınlığı və əlaqəsi yoxdur* (Bax: Fəridə Məmmədova. Azərbaycanın siyasi tarixi və tarixi coğrafiyası . B., 1993, s.48-49).

*** s.297** *Fiqh elmi* – fəqahət (bilik) öyrənən alimlərə "fəqih" deyilmişdir. Fəqihlər şəri ehkamları gözəl bildirdilər. Fiqh elmi isə şər'i əməllərin və şəriət ehkamlarının əməli tətbiq üsullarını öyrədən elmdir (Bax: Doktor Moin. Göst.lüğət, c.2, səh. 2559, 2560).

**** s.297** *Xadimlik mənsəbi* – Tovhidxanə (tovhid evində, yəni Allahın vahidliyinə inam evində – *Ş.F.*) əyləşən *əmələ, xadim*. Xadimlərin başçısı "xadimbaşı" adlanırdı (Bax: Təzkirətülmüluk, s. 105, 120; Doktor Moin. Göst.lüğət, c. II, s. 1162).

***** s.297** *İmamət etmək* – rəhbərlik etmək, pişnamaz olmaq (Bax: Doktor Moin. Göst.lüğət. c. I, s. 347)

****** s.297** *İqamə* – Namazın keçirilməsindən ötrü təkbir, yəni “Allahu-əkbər” söyləmək, şühud (müşahidə) etmək (Bax: Doktor Moin, Göst.lüğət, c.I, s.321).

******* s.297** *Fərizə* – vacib, lazım mənalarını ifadə edir. *Allahın insanlara vacib bildiyi* namaz qılmaq, oruc tutmaq, Həccə getmək, xüms və zəkat vermək də fərizə (fərz) sayılır (Bax: Doktor Moin. Göst.lüğət, c.II, s. 2542).

***s.298** *Sərkeşik* – Baş keşikçi, baş nəzarətçi.

**** s.298** *Zərih* – müqədəs məzar (burada İmam Rzanın məzarı nəzərdə tutulur – *Ş.F.*).

*** s.302** *Möhrdar* – Görkəmli saray əmirləri nümayəndədərindən biri olan möhrdarın da yüksək fəaliyyəti olmuşdur, lakin mənbələrdə qaraqoyunlu və ağqoyunlu möhrdarları haqqında olduqca az mə’lumat vardır.

Möhrdar şahın xüsusi möhürünü qoruyan şəxsə deyilirdi. Onun sənədlərə vurduğu möhür *şahın imzası* demək idi. Zərurət olduqda, möhrdar hərbi səfərlərdə də iştirak edir, şəxsən döyüşürdü. Bu vəzifə çox şərəfli və mə’suliyyətli hesab edilirdi. Həsən bəy Rumlu yazır ki, 912 (1506/07)-ci ildə I Şah İsmayılın möhrdarı Sarı Əli kürdlərlə döyüşdə öldürülmüş və bu vəzifə bir müddət heç kimə e’tibar olunmamışdı. 913 (1507/08)-cü ildə I Şah İsmayıl *Əlaüddövlə Zülqədərlə* döyüşən vaxt ayqoyunlu sultanları tərəfindən illərlə Diyarbəkrdə vali olmuş *Əmir bəy Mosullu* qızılbaş şahının yanına gələrək, hörmətə layiq görülmüş və *bir il boş qalan möhrdar vəzifəsi* ona verilmişdi.

Həsən bəy Rumlu möhrdarın möhürünü *“böyük möhür”* adlandırır (Bax: Ş.Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə, səh. 62-63).

*** s.305** *Əlaqəbənd seyidləri* – Bu seyidlərin nə üçün “əlaqəbənd” adlandırılmaları məni düşündürdü. Dr. M.Moinin lüğətinə müraciət etdim: “Əlaqəbənd – ipək toxuyan adam; ipək sap, ya ip hazırlayan səxs” (Bax: Dr. M.Moin, Göst.lüğət, II cild, səh.2332). Bəlkə, İsgəndər bəy Münşinin adını çəkdiyi İsfahan seyidlərindən olan *Mirşah Qazi İsfahani* ixtisas və peşə baxımından ipəklə əlaqədar imiş? Deyə bilmərəm!

* s.306 *Nazir* – nəzarətçilik funksiyasını icra edən rəsmi dövlət məmuru. O, hətta baş *vəzirin və mustovfiəl-məmalikin də* idari sənədlərini yoxlamağa *səlahiyyətdar* edilmişdi.

“Təzkirətül-müluk”da bir-iki nazir vəzifəsi ilə rastlaşırıq: *Nazire-dəftəre-hümayun və mustovfiəl-məmalük*, həmçinin nazire-büyütat.

Nazire-dəftəre hümayun haqda *Şarden* yazır ki, baş vəzirin yoxlayıcısı vardır ki, o, *nazir adlanır*. Nazir sultan tərəfindən bu vəzifəyə təyin olunur. Ali hümayun dəftərxanasının rəisi elə nazirin özüdür.

Nazire-büyutat (evlər, binalar, idarələr naziri) *“kargahların mübaşiri* (müdiri – *Ş.F.*)” də adlanırdı. Nazire-büyutat *bütün dövlət idarələrinin (dəstgah) naziri* idi. Sarden onu *“sultanın birinci naziri”* adlandıraraq yazır: “O, *vəzirin* bütün mali işlərinə, dövlət aparatının xərclərinə, şahın gəlirlərinə, şahın tərpənər və tərpənməz mallarına, xəzinənin mədaxil və məxaricinə” *nəzarət edirdi*. Nazir xüsusi rəis sayılırdı (Bax: Təzkirətül-müluk, s. 83, 84, 90, 99…).

* s.308 *Ləşkərnevis – Eşikağasıbaşı aparatının vəziridir*. Hakimlərin bütün xüsusi sənədləri ona təhvil verilərdi. *Sarden və Kempfer* ləşkərnevisin vəzifəsini *“divanın üçüncü şöbəsi”* adlandırırlar (Bax: Təzkirətül-müluk, s. 138-139).

** s.308 *Əvarecənevis* – Əvarecə (əvarec, əvare) istilahı hələ **sasanilər dövründən** işlədilməkdə olan *hesabdarlıq istilahıdır*. *Məhəmməd ibn Əhməd ibn Yusif Xarəzmi* “Məfatihül-ülum” (“Elmlərin açarları”) əsərində yazır: “Ərəblərdə *“əvare”* adlanan *“əvarec”* sözü farsca *“mənqul”* (tərpənməz əmlak, mal – *Ş.F.*) mənasını ifadə edir. *Xarəzmi* sözünə davam edib yazır: “Əvare” elə kəlmədir ki, maliyyə sənədlərinin axırında, yaxud sadirat və varidat dəftərlərinin sonunda səbt olunur”. *V.F.Minorskiyə* görə, Xarəzminin fikirləri dolaşıqdır və onlarda aydınlıq yoxdur, amma bu alimin sözlərindən ehtimal etmək olar ki, “əvarec” elə bir dəftər, yaxud sənəddir ki, orada şəxslərin fərdi maliyyə ödənişləri səbt olunur.

Ərəblər əvarecə dəftərlərinə *“səbt dəftəri”*, ya *“gəlir dəftəri”* anlamını vermişlər, farslar isə həmin dəftərlərə

*"pərakəndə hesabdarlıq dəftəri"*, yaxud *"gəlir, ya məxaric (həzine) dəftəri"* demişlər.

Əvazecənevislər *müstovfiül-məmalikin* əli altında işləmişlər. "Təzkirətül-müluk"də dörd ləşkərin (*İraq, Azərbaycan, Fars, Xorasan*) və bir nəfər də "məaden" ("mədənlər") əvarecənevisinin adı çəkilir, sonra isə Gilan və İsfahan əvarecevislərindən bəhs oluur (Bax: Təzkirətül-müluk, səh. 142-145).

* s.309 *Zabetenevis* – "Təzkirətül-müluk"da "əvarecevıs" və "zabetenevis" ifadələri çox vaxt yanaşı işlədilmişdir. Belə mə'lum olur ki, bu iki vəzifənin hər ikisi *"divane-məmalük"in ayrı-ayrı hissələridir*. Amma, zəbetenevislər məvafiq sənədləri divan malları ilə bağlı bütün maddə və dərəcələri üzrə işlədildikləri halda, əvarecenevislər ölkələrin torpaq gəlirləri səbt olunan sənədlər üzərində işləmişlər.

Zabetenevislər də müstovfiəl-məmalikin fərmanları əsasında işləyən mə'murlar olmuşlar. Onların ixtiyarında çoxlu *mühasiblər* olmuşdur ki, bu da orta maaş sahibi olan zəbetenevis məqamının əhəmiyyətindən və işindən xəbər verir. V.F.Minorskiyə görə, "zabete" sözünün lüğəti mə'nası *"gəlirlərin cəmləşdirilməsi"*dir (Bax: Təzkirətül-müluk, s. 139, 145, 214).

** s.309 *Mofridənevis* – Bu istilah təxmiən *zabetenevis* istilahı ilə eynidir. Onların hər ikisi müstovfiəl-məmalikin *hesabdarlıq işçiləri* olmuşlar (Bax: Təzkirətül-müluk, səh. 139).

*** s.309 *Siyaq* – Nəqdi və cinsi hesabların zəbt olunmasından ötrü xüsusi əlamət qoyulmaqla dəftərdarlıq və mühasibatdakı qayda-qanun siyaq adlanır (Bax: Dr. Həsən Ənvəri. Fərhəngebəzərge-səxən (Böyür söz lüğəti), V cild, Tehran, h.1381, səh.4349);

Siyaq – *üslub, tərz, söz demək qaydası; qədim tərzlə mühasibat yazı tərzi; Sözləri ixtisarla yazmaq ən'ənəsi* (Bax: Dr. M.Moin, Göstr.lüğət, II cild, səh.1967).

**** s.309 *Təhvildarlar ərbabı (ərbabe-təhavel)* – Rikabxanə (minik heyvanları) işçilərindən olmuşdur. Onun daşıdığı vəzifə bəzi mənbələrdə "sahibcəm" kimi də göstərilir. Ərəblər təhvildara

*“ərbabüt-təhavil”* söyləmişlər (Bax: Təzkirətül-müluk, səh. 122-123).

***** *Moməyyez* – araşdırıcı (Bax: D-r Qədir Çolkaryan. Göst.
**s.309** əsər, s.408).

* *Dəvatdar* – münşi və dəbir (Bax: Dr.M.Moin. Göst.lüğət,
**s.310** I cild, səh.1564).

* *Müşrif* – təhvildarın, yaxud sahib-cəmin işçisi olmuşdur,
**s.312** *yoxlayıcı (bazrəs)* deməkdir. Onun vəzifələrindən biri büdcənin hesablanması ilə məşğul olmaqdı. Müşrif nazere-büyutat qarşısında hesabat verirdi. V.F.Minorski onu *“büyutat nazirinin müavini”* kimi göstərir (Bax: Təzkirətül-müluk, səh. 92, 122, 125).

İsgəndər bəy Münşinin əsərində *“xəzinə müşrifi”* və *“tövlə müşrifi”* kimi vəzifələr də göstərilmişdir (Bax: Tarixe-aləmaraye Abbasi, c. I, səh. 166).

** *Pişkeşnevis – V.F.Minorskiyə* görə, bu vəzifənin daşıyıcısı
**s.312** saraya göndərilən bütün peşkəşləri *yığmaq*, onları xüsusi dəftərdə *səbt etmək*, dəyərlərini *müəyyənləşirmək* və həmin peşkəşləri gətirən şəxsləri şah hüzuruna gətirmək olmuşdur (Təzkirətül-müluk, səh. 170).

* *Boqrat-Hippokrat* (Xioslu). Məşhur yunan mühəndisi.
**s.314** *“Riyazi məzmunlar (məbani)”* adlı kitab yazdı (“Elements of mathematics”). (Bax: Dr. M.Moin. Göst.lüğət, V cild, səh. 273).

** *Əflatun (e.ə. 428-348)* – qədim yunan idealist filosofu.
**s.314** Sokratın tələbəsi. Platona görə, *ideyalar* ilkindir, mühümdür, materiya isə törəmədir, qeyri-mühümdür. *Materiyanın* heç bir forması və digər xarakteristikası yoxdur, o yalnız ideyanın daşıyıcısı, təcəssümüdür. Platonun idrak nəzəriyyəsinin əsasında da *ideya* durur.

Siyasi görüşlərinə görə Platon Afina aristokratiyasının nümayəndəsi idi. O, cəmiyyət haqqındakı tə’limində *ideal aristokratik* dövləti təsvir etmişdir. Həmin dövlətin ilkin şərti *qul əməyidir* (“Qanunlar”). Dövləti filosoflar idarə etməlidirlər; onu mühafizə dəstələri, yaxud döyüşçülər qorumalıdır. Həmin azad vətəndaşlardan aşağıda sənətkarlar durur.

Müsəlman şərqində Platon Əflatun kimi tanınmışdır (Bax: ASE, VII cild, səh.557).

* s.322 *Tə'liq (tə'liqe)* – Ali rütbəli mə'murlar (baş vəzir, nazir, divanbəyi, xəlifə və b.) tərəfindən sadir olan sənədlər (mədarek) "tə'liqə" adlanırdı. Təliqələri yazanlara isə *"təliqenevis",* yaxud *"bəyazi"* deyilirdi (Bax: Təzkirətül-müluk, səh. 271).

* s.324 *Behzad* – Teymuri dövrünün sonu – Səfəvi dövrünün əvvəllərində yaşamış rəssam olmuşdur. Ləqəbi *"Kəmaləddin"* olan Behzad Heratlı idi və *Pir Seyid Əhməd Təbrizinin* şagirdiydi. Behzad əvvəllər Sultan *Hüseyn Bayqaranın* sarayında xidmət edirdi, *Əlişir Nəvai* isə onun hamisi olmuşdu, sonralarsa *Şah İsmayıl Səfəvi* onu Heratdan *Təbrizə* apardı. Behzad Şah Təhmasibin padşahlığının əvvəllərində sağ idi və şah ondan *nəqqaşlıq* öyrənirdi. Onun miniatürlərinin çoxu dövrümüzədək gəlib çatmamışdır (Bax: Dr.M.Moin. Göst. lüğət, V cild, səh. 304).

** s.324 *Sultan Məhəmməd* – Nəqqaş və rəssam. O, Sultan Hüseyn Bayqara, I Şah İsmayıl və I Şah Təhmasiblə həmmüasir olmuşdur. Habelə Şah Təhmasibin *nəqqaşlıqda* ustadı idi. Sultan Məhəmməd öz sənətində təzə yol yaradan (möbtəkər) və qəribə təxəyyülə malik olan şəxs idi. Deyilənə görə, o, *Əlişir Nəvai üçün elə bir saat düzəltmişdi* ki, hər saatdanbir oradan bir (heykəl) çıxırmış. Həmin adam ötən hər saatın tamamında düzəltdiyi saatın yuxarısına bərkidilən nağaranı əlində tutuduğu çubuqlarla döyəcləyərmiş (Bax: Dr.M.Moin. Göst.lüğət, V cild, səh.787).

* s.326 *Qələndərlər zümrəsi* (qələndəriyyə) – *"Qələndər"* istilahı haqqında çox yazılmışdır. Qələndər ərəb sözü olan *"kələndər"in* təhrif olunmuş şəklidir və mə'nası "Yonulmamış ağac", "cod adam" yaxud "yonulmamış adam"dır. Bə'zi kəslər isə qələndər sözünün yaranma səbəbini *Şeyx Qərəndil firqəsinin* adından götürülməsi ilə əlaqələndirirlər. *Frans Babtnger* Qələndər adlı bir şəxsin *"qələndəriyyə"* adlı bir təriqət yaratdığını söyləyir. *İvanov* özünün "Əhlül-həqq" kitabında yazır: "Son qırx ildə çox çalışdım ki, qələndər sözünün kökünü müəyyənləşdirim. Bundan ötrü müxtəlif

dilləri bilən bir çox mütəxəssisilə söhbət etdimsə də, heç bir nəticə alınmadı. Ərəb, türk, sanskrit, erməni, gürcü və başqa dillər bu məsələni aydınlaşdıra bilmir. Mən ( yə'ni M.Moin – *Ş.F.*) isə belə düşünürəm: Ola bilsin ki, bu söz yunan kəlməsi olan "kaletor" istilahıdır ki, mə'nası *çağırmaq, də'vət etmək* deməkdir.

Qələndəriyyə sufilərə məxsus bir cərəyandır ki, onlar öz fikir və əqidələrinə görə *"məlamətiyyə"* cərəyanına çox yaxındırlar. Bu firqə tərəfdarlarının *sabit* adət və qayda-qanunları yoxdur. Onlar tamamilə dini hökmlərdən və ictimai adətlərdən uzaq adamlardır. Bu firqə camaatı ola bilsin ki, hind əqidəli *Mərkəzi Asiya* adamlarındandırlar. Qələndəriyyə cərəyanını yaradan bir çox adamın adını çəkirlər, o cümlədən ərəb və ispan nəsilli *Yusif adlı bir şəxsin* adı hallanır. Həmçinin bu firqənin (qələndəriyyənin əsasını qoyan iranlı *Cəmaləddin Savəyi* adlı adamdan bəhs olunmaqdadır (Bax: Dr.M.Moin. Göstr.əsər, IV cild, səh.1476).

* *Mövlana Möhtəşəm Kaşi (Şəmsüş-şüəraye – Kaşani*) –
**s.331** Səfəvi dövrünün əvvəllərində yaşamış şairdir (1578-ci ildə vəfat etmişdir). O, əsasən əhli-beyt üzvlərinə mədhiyyə və mərciyə yazmaqla məşğul olmuşdur. Möhtəşəmin ən möhtəşəm mərsiyəsi Kərbəla şəhidlərinə həsr etdiyi 12 bənddən ibarət tərkibbənddir. Orta səviyyəli bir qəsidələr və onun qəzəllər divanı da mövcuddur (Bax: Dr.M.Moin. Göst. lüğət, VI cild, səh.1909).

Qeyd: Mən Mötəşəm Kaşi haqqında şərhimi bitirdikdə birdən-birə *mütərcim və şair dostum Mir Cəlal Zəki Məştəğayini* xatırladım. O, Nizami Gəncəvinin "Xəmsə"sini əsərin yazıldığı vəzn və vəhcdə tərcümə edən yeganə şəxsdir. Mir Cəlal həm də bir çox farsdilli şairlərin, o cümlədən Möhtəşəm Kaşinin bir sıra şe'rlərini dilimizə çevirmişdir. Onun tərcümələri içərisində tarixçi İsgəndər bəy Münşinin ehtiramla adını çəkdiyi şair Möhtəşəm Kaşinin yuxarıda dr. M.Moin tərəfindən xatırlanan alimin dediyi kimi Kərbəla şəhidlərinə həsr etdiyi 12 bənddən ibarət bir tərkibbənd də vardır. Əruz

vəzninin müzare'bəhrində yazılan həmin tərkibbəndin bir bəndini burada misal gətirmək istəyirəm:

*"Bu torpaq üstdə qaninə qəltan Hüseyndir,*
*Bismilsifət bu vadidə qurban Hüseyndir!*

*Bu təşnəlik odunda yanan nəxli-tər kimi*
*Salmış cəhanə tüstü, yaxır can Hüseyndir!*

*Bu qanlı dəhr içində üzən natəvan balıq*
*Cismində qanlı yarə firavan Hüseyndir!*

*Bu vadiyi-bəla ki, şəhadət mühitidir,*
*Qaniylə eyləyən onu əlvan Hüseyndir!*

*Bu təşnələb düşən ki, uzaqdır Fəratdən,*
*Torpaqda eyləyən qanı tüğyan Hüseyndir!*

*Bu şahi-kəmsipah çəkən, xeyli-ah ilə,*
*Digər cəhanə xeyməni giryan Hüseyndir!*

*Bu çırpınan bədən ki, düşüb torpaq üstünə,*
*Torpağa təslim olmayan üryan Hüseyndir!*

*Baxdı Bəqi 'yə eylədi Zəhrayə ta xitab,*
*Quşlar da, vəhşilər də yanıb oldular kəbab?".*

Hazırda məhərrəmlik ayıdır və məzlum *İmam Hüseynin* qırx gün anılma əyyamıdır. Mən də onun şərəfinə "Dördüncü divan" adlı böyük həcmli kitabım üçün bir qəzəl yazdım ki, bir neçə beytimi möhtərəm oxucuların nəzərinə yetirirəm:

*Bihudə yerə axmadı ki, qan Hüseyndən,*
*Əlbəttə, hədər çıxmadı ki, can Hüseyndən.*

*Billah, məhərrəmdə müdam gözlərim ağlar,*
*Yüz söz danışar ah ilə əfğan Hüseyndən.*

*"İslamə xətər var, -dedi,-yoxdur geri dönmək!"*
*Almışdı mücahidləri fərman Hüseyndən…*

*…Dönsəydi əgər çərxi-fələk öz gedişindən,*
*Dönməzdi o yetmiş iki qurban Hüseyndən.*

*Qan rəngini hey seyr edirəm dan qızaranda,*
*Qan rəngini bəlkə götürüb dan Hüseyndən?..*

*…Tə'rif eləsəm mən nə qədər çox, yenə azdır,*
*Görmüşmü cahan bir gilə nöqsan Hüseyndən?..*

*… Hərçənd Hüseyn şə ' ninə yüzlərlə qəzəl var,*
*Şahin isə istər yaza "Divan"Hüseyndən.*

*21 noyabr 2012*

*** s.332** *Həftbənd* – Burada söhbət *yeddi bənddən* ibarət şe'rdən gedir. Amma, 7 bənddən ibarət "ney" adlı çalğı aləti də vardır. Həmin neydən çıxan səs başqa neylərdən çıxan avazdan daha ucadır (rəsa) – (Bax: Dr.M.Moin. Göst.lüğət, səh.1650).

**** s.332** "*Zəmir*" sözünün anlamlarından biri "mə'na" deməkdir. Zəmiri – yəni rəml atma peşəsinin *mə'nasına* vaqif olan şəxs.

***** s.332** *Baba Fəğani* – XVI əsrin əvvəllərində vəfat etmiş (1519) *Baba Fəğani Şirazidir*. O, Şirazdan sonra bir müddət *Təbrizdə*, Sultan Yaqub Ağqoyunlunun sarayında qalmış, ömrünün sonunu Xorasanda inzivada (guşeneşinlikdə, izlət) keçirmişdir. Baba Fəğani yüksək zövq, sadə dil, nazik məzmunlu qəzəlləri ilə qəzələ xüsusi səbk gətirmiş *(səbke-xas),* XVII və XVIII əsrlərdə onun bir çox ardıcılı mövcud olmuşdur (Bax: Dr.Moin. Göst.əsər, VI cild, səh.1371).

*** s.334** *Sənaye*' *və bədaye*' (şe'rdə)- şerin sənətkarlıq və bədiilik xüsusiyyətlərini özündə əks etdirən istilahlardır. Sənaye' barədə Müəzzimə İqbali Ə'zəmin "İslam İranında şe'r və şairlər" kitabında ətraflı mə'lumata təsadüf edirik (Baxın: Şe'r və şairan dər İrani-islami I cild, Tehran, 1367). Müəllif şe'rdə sənaye'ni "elmi-bədi'", (bədi-elmi) adlandırır. Bədi'

elə bir elmdir ki, sözün gözəlliyini öyrənməyə yönəldilmişdir. Bədi' – həm nəzmdə, həm də nəsrdə zəruridir.

*Bədi' sənaye* iki hissədən ibarətdir:

*1. Sənayeye-ləfzi*

*2. Sənayeye-mə'nəvi*

*Sənayeye-ləfzi* sözün zahiri xüsusiyyətlərini, *sənayeye-mə'nəvi* isə sözün mənəvi gözəlliyini öyrənir.

*Sənayeyi-ləfzi aşağıdakı 36 şer növündən ibarətdir*: izdivac, iştiqaq, cinas, təzmin, iqtibas, istişhad, istisna, istidrak, müləmmə, zubəhreyn, zuqafiyəteyn, təsrih, təzmini-məzduc, təkrar, tövzi, təshif, məqtə, tərbii-qəlb, tərsi, maddeyi-tarix, təşabihul-ətraf, rəddül-əcz iləl-sədr, rəddül-sədr iləl-əcz, rəddül-qafiyə, rəddül-mətlə', ləf'ü nəşr, təzad, müraati-nəzir, siyaqətül-ədad, cəm', təfriq, təqsim, cəm'i-təfriq, cəm'i-təqsim, cəm'i-təfriqü təqsim.

*Sənayeye-mə'nəvinin də 36 növü mə'lumdur*: məcaz, istiarə, istixdam, işarə, tə'riz, eyham, təcahülül-arif, təlmih, iltifat, təslim, tədarük, istitrad, təəccüb, mübaliğə, əğraq, cilu, ləğz, müəmma, çistan, irsalül-misl, təfsir, tərcümə, təşbib, təxəllüs və hüsni-təxəllüs, hüsni-mətlə', hüsni-məqtə', hüsni-tələb, hüsni-etizar, hüsni-tə'lil, insicam, icaz, səhle-mümtəne', müsabat, mütaqiqə, təkmil, tənsiqüssifat.

**** *Tərkib və tərci'* – Bu istilahlar Azərbaycan ədəbiyyatı
**s.334** tarixinə *tərkibbənd* və *tərcibənd* adları ilə daxil olmuşdur. *Əllamə Cəlaləddin Homayinin* "Fonune-bəlağət və sənaəti-ədəbi" əsərində bu barədə oxuyuruq: *Tərcibənd* müxtəlif bəndlərdən təşkil olunmuşdur ki, onların bir vəzni və müxtəlif qafiyələri vardır, yəni bir neçə beyt həmqafiyələnir və bəndin sonunda ayrıca gətirilmiş beytin qafiyəsi isə əvvəlkilərdən fərqlənir. Beləliklə, bəndlər bir-birini əvəz etdikcə birinci bəndin sonundakı beyt hər bənddən sonra təkrar olunur, yəni həmin beyt bütün bəndləri biri-digərinə bənd edir (bağlayır).

*Tərkibbənddə* isə bəndləri bir-biri ilə bağlayan beytlər tərcibənddən fərqli olaraq müxtəlifdir və hər bəndi bağlayan beyt yenidir (Bax: Cəlaləddin Homayi. Fonune-bəlağət və sənaəte ədəbir, Tehran, 1371, səh. 180-182)

* s.338 *Müəmma* – Sənayeyi – mə’nəvinin növlərindəndir. Müəmma yazan şair nəzərdə tutduğu şeyin (əşyanın, fikrin, şəxsin) adını çəkmədən ona işarə edir və oxucu həmin şeyin nə olduğu barədə düşüncəyə qapılır. (Baxın: Müəzzəmeye-Eqbali (Ə’zəm), Göst. əsəri, səh. 205).

** s.338 *Tarixguyu*, yaxud yuxarıda müxtəsər bəhs etdiyimiz “maddeyi-tarix” – “sənayeyi-ləfzi”nin növlərindəndir. Bu növ şer yazan şair hökmən əbcəd hərflərini və həmin hərflərin qiymətlərini dəqiq bilməlidir. Məsələn “B” hərfinin qiyməti 2, “L” hərfinin qiyməti isə 30-dur, yəni şair əgər “bel” və yaxud “ləb” yazırsa bu sözün qiyməti 32 olur. Beləliklə, məşhur bir şəxsin təvəllüdü, yaxüd vəfatını şe’r dili ilə yazan şair öz misralarındakı sözün birinin hərflərinin qiymətlərini toplayır və alınan tarix “maddeyi-tarix” adlanır. Məsələn, *Hafiz Şirazinin vəfatı münasibətilə* yazılmış bir şerdə “xake-müsəlla” ibarəti işlədilmişdir (X = 600, əlif – 1, K = 20, M = 40, C = 90, L = 30, İ (yaxud bu şe’rdə A) = 10) ki, bü hərflərin ümumi qiyməti 791-ə, yəni hicri tarixlə Hafizin vəfatı ilinə bərabərdir. (Baxın: Müəzzəmeye-Eqbali (Ə’zəm). Göst. əsər, səh. 181-183).

* s.342 *Mustovfi*: Maliyyə işləri ilə məşğul olan yüksək vəzifə sahibi. Ən böyük müstovfi *“mustovfiəl-məmalik”* idi ki, onun nəzarəti altında mustovfiye-mal, mustovfiye-büyutat və mustovfiye-ərbabi-təhavil vəzifəsini daşıyan maliyyə işçiləri fəaliyyət göstərirdilər. Mustovfiye-mal XVIII əsrdə *zabitənevis* və *müfridenevas* adlanmağa başladı. B.F.Minorskiyə görə zabitənevisin texniki anlaşı *“vergiyığan”* deməkdir. Müstovfaye-malın idarəsindəki mirzələr divana daxil olan pul məbləğlərini *(vücuhat)* qeydə alırdılar. “Təzkirətül-müluk” əsərində göstərilir ki, zabitənevisin idarəsində yol vergiləri *(vücuhi-rahdari)*, tütün ticarəti vergiləri, çobanbəyi vergisi *(mal-qara vergisi)* və s. toplanırdı. Mustovfiəl-məmalikin rəhbərliyi altında *əvaricənevis* (dövlət torpaqlarından toplanan vergiləri və pulları qeydə alan mə’mur) də xidmət edirdi. İsgəndər bəy Münşi tərəfindən mustovfiəl-məmalikə tabe olan başqa bir mustovfi adı da çəkilir: *Sahibi-tovcih*. Şarden və

Kempferə görə *tövcih*-ödəniş idarəsinin adı olmuşdur. Tə'diyyələrin əksəriyyəti, alıcılara torpaq üçün verilən pullar və digər gəlir mənbələri təxsisatlarla ödənildiyindən sahibi-tövcihə *"sahibi-təxsisat"* kimi də baxmaq olar. Onun *mirzələr ştatı* vardı. O, şahın sərəncamları ilə müxtəlif vergilərin miqdarını müəyyən edir, vergilərin özbaşına artırılmasına yol vermirdi.

*Büyutat mustovfiləri* isə sikkə zərb edilməsinə, habelə əmtəə və xammal işlərinə nəzarət edən mə'murlar olmuşlar (Baxın, Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, Bakı, 1993, səh. 239-241).

*** s.349** *Hafiz* – İsgəndər bəy Münşi kitabının "Çalğıçı, mütrib və nəğmə oxuyanların (əhle-nəğme) adları" adlı hissəsində Şah Təhmasib dövründəki 5 hafizdən bəhs edir: Hafiz Müzəffər Qumi aə Hafiz Haşim (Bax: "Tarixe-aləmaraye-Abbasi", tərcümə, I kitab, səh. 349-350).

M.Z.Pakalın "Hafiz" istilahını belə mə'nalandırır: "Qur'anı əzbərləmiş adamlara şamil olunan istilahdır. Elə şəxsə "*Hafize-Quran*" da deyilir. Bu sözün ərəbcə "hifz edən, qoruyan" mə'naları da vardır. Bu ifadə məcazi yolla *sadədil, abdal* əvəzində işlənir. Hafiz həm də kitabxana mə'muouna ("*hafize-kotob*", həmçinin Mövləvinin "Məcnəvi" əsərini əzbər bilənlərə "hafize-Məcnəvi"də deyilmişdir. M.Z.Pakalın şair Fazildən aşağıdakı beyti misal gətirir:

*"Kürsidə ona kaş ki, ben vaiz olaydım,*
*Ya guşeye-came'də əkar hafiz olaydım".*

(Bax: Göst.lüğət, I cild, səh.704).

*** s.384** *Darüğə istilahı* və bu vəzifə sahibinin səlahiyyətləri barədə müxtəlif fikirlər deyilmişdir. "Darüğə" yaxud "darüğəçi" istilahı monqol sözü olan və "təsir altına almaq" mə'nasını verən "*daru*" sözündən yaranmışdır. Monqol hakimiyyəti dövründə inzibati-siyasi səlahiyyətləri olan şəxsə aid edilən bu vəzifə onlardan sonra da idarəçilikdə mühüm əhəmiyyətli vəzifələrdən biri kimi uzun müddət qalmışdır.

Bu istilah Əfqanıstan və İranda "darüğə" və "darüğəçi", Türkiyə və Gürcüstanda "darüğə, darğa, tarğa", Azərbaycanda "darğa, darğalıq", Şərqi Türküstanda "darüğə, darğa", Rusiyada "daruqa, darqa", Çində "Ta-lu-xu-a-çe", Monqolustanda "daruqa, derəxçi, derəxçin, darqa" kimi işlənmişdir.

Darüğənin səlahiyyətləri barədə ilk dəfə Çin müəllifi Yuan-çao-bi-şi 1240-cı ildə mə'lumat verib yazır ki, o, əhalinin siyahıyaalınmasını təşkil edir, əsgər yığır, poçt əlaqəsi yaradır, vergi toplayır, bac-xəracın saraya çatrıdılmasını təşkil edir və s.

*Cüveyni, Rəşidəddin və Naxçıvaninin* əsərlərində "basqaq" adlı türk istilahı daha çox işlədilir ki, elə darüğənin sinonimidir.

Monqol istilasından sonra Azərbaycan, Çin, Şirvan və başqa dövlətlərdə darüğə yenə də rəsmi vəzifə kimi şəhər və kəndlərdə fəaliyyət göstərmişdir. Bir sıra fərmanlarda darüğənin adının şəhnə, məlik və kədxüdalardan əvvəl yazılması onun həmin vəzifə sahiblərindən üstün olduğunu ifadə edir.

Qeyd olunmalıdar ki, darüğə adını daşıyan müxtəlif vəzifə sahibləri fəaliyyətdə olmuşlar.

Şəhər (qəsibə, kənd) darğası-darüğeyi-şəhər;

1. *Darügeyi-dəftərxana;*
2. *Darüğeyi-fərraşxana;*
3. *Darüğeyi-kitabxana;*
4. *Darüğeyi-bazar;*
5. *Darüğeyi-ordubazar;*
6. *Darüğeyi-mohasibat;*
7. *Darüğeyi-şotorxan (Karvan darğası).*

"Daruğə" istilahı və vəzifəsi haqqında geniş məlumat üçün baxın: Dr. Şahin Fazil. "Təhəvvole-məfahime-estelahe-daruğə", "Xorasan" jurnalı, 1360, №5, Kabul, səh. 154-167.

*** s.386** *Çin və Xəta* – "Çin" sözü "tsin" padşahlar sülaləsinin adından götürülmüşdür. Ərazi e'tibarilə tarixən onların ərazisi həmçinin *Türküstan* (Çin-kyang) və *Tibeti* də əhatə etmişdir.

"Xəta" istilahı isə *Şimali Çinə* aid olan tarixi bir istilahdır və *Xəta türk qəbilələrinin məskəni kimi şöhrət tapmışdır* (Bax: M.Moin. Göst.lüğət, V cild, səh.447,474).

* s.391 *Tuğra* (toğra, turğay, tərəqə) – Fərmanlarda "bismillah" sözündən yuxarıda yazılan xüsusi yazı. Qövs şəklində olan həmin yazıda dövr sultanının adı və ləqəbləri göstərilirdi ki, həqiqətdə həmin tuğra onun imzası demək idi (Bax: D-r Moin. Göst.lüğət, c. II, s. 2227).

* s.393 *Ale-Müzəffər* – Bu sülalənin banisi *monqolların xidmətində olan* Şərəfəddin əl Müzəffərdir. *Qazan xan* onu *əmire-hezarə* (min əsgərin sərkərdəsi) vəzifəsinə tə'yin etmiş, sonradan o, Yəzd yaxınlığındakı Məybud şəhərinin *hakimi* olmuşdur. Şərəfəddinin oğlu Məhəmməd isə Yəzdə hakimlik etmişdir. 1336-cı iləd elxani hökmdarı Əbu Səidin ölümündən sonra (1336). Məhəmməd öz hakimiyyətini *Fars vilayətində* genişləndirmiş, sonra Kirmanı da ələ keçirmişdir. 1356-cı ildə artıq bütün Fars və İraqe-Əcəm hakiminə çevrilən Məhəmməd 1356-cı ildə *Azərbaycana hücum etmiş*, müvəqqəti olaraq *Təbrizi tutmuş*, lakin orada çox qala bilməmişdir.

Məhəmmədi öz doğma oğlu *Şah Şüca* devirmiş, sonra qardaşı *Mahmudla* mübarizəyə girmiş (Mahmud İsfahan hakimi idi) və bu qardaşının ölümünədək onunla vuruş məqamında olmuşdur. Mahmud bir vaxt müzəffərilərin çoxdankı düşməni cəlairilərdən kömək istəmişdisə də sonradan *Təbrizə* – Hüseyn ibn Üveys Cəlairi üzərinə – Azərbaycana qoşun çəkmiş, lakin müvəffəq olmamışdı. İrana hücüma Teymura tabe olan Şah Şüca ölümündən əvvəl (1384) əlindəki torpaqları *qardaşı Əhməd* və *oğlu Zeynalabdin* arasında bölmüşdü. Sülaləarası mübarizə nəhayət e'tibarilə *müzəffəriləri* olduqca zəiflətdi. Bu sülalənin son hökmdarı olan *Mənsur* bütün Farsı və Kirmanı idarə etməkdəydi, lakin Teymurla etdiyi son cəng zamanı öldürülmüş, sağ qalan müzəffərilərin hamısı qılıncdan keçirilmişdi.

Müzəffərilər sülaləsinin (1314-1393) şəcərəsi belədir:

– Mübarizəddin Məhəmməd (1314-1358);

– Qütbəddin Şah Mahmud (İsfahan və Əbrquh hakimi -1358-1364);

– Cəlaləddin Şah Şüca (Fars və Kirman, 1375-ci ildən sonrasa həmçinin İsfahan) – (1364-1384);

– Mücahidəddin Zeynalabdin Əli (1387-ci ildə Teymur tərəfindən devrilmişdr);

– İmaməddin Əhməd (Kirman hakimi) – 1384-1393);

– Nüsrədəddin Yəhya (Yəzd hakimi) – 1387-1393);

– Mənsur (isfahahan, Fars və İraqi-Əcəm hökmdarı) -1387-1393).

(Bax: K.E.Bosford. Göst.əsər, səh.213-214; həmçinin M.Moin. Göst.lüğət, V cild, səh.57).

*** s.395** *Təbərra rəsmi* – Əbubəkrin, Ömərin, Osmanın və Aişənin şiələr tərəfindən lənətlənməsi.

***s.402** *Zuzbabə* (zuzabə, zuzənəb) – quyruqlu ulduz, kometa.

*** s.408** *Qaziül-qüzzat* – XV-XVI əsrlərin tarixi mənbələri, yeri gəldikcə, qəza, yəni məhkəmə işləri ilə məşğul olan qazi haqqında da mə'lumat vermiş, *şər'i qazi* və *qoşun qazisindən* bəhs etmişlər. Şər'i qazi bə'zi mübahisələrin həlli, qoşun qazisi isə orduda dini təbliğatla məşğul olurdu.

Öz bacarıq və qabiyyətinə görə bəzi qazilər *sədr* və *vəzir* kimi yüksək vəzifələrə də layiq görülürdülər. Məsələn, Şirvanşah I İbrahimin vəziri *Qazi Bayazid* idi, Yaqub Ağqoyunlunun sarayında sədrliyi isə *Qazi İsa* aparırdı (Bax: Ş. Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə, s. 57-58). XVII-XVIII əsrlərdə də işlərin istintaq və həllində qazilərin müəyyən ixtiyar və səlahiyyətləri olmuşdur. *Sarden* o dövrdə həmin vəzifələrin icrasının qazilər tərəfindən məhdud aparıldığını göstərir, çünki o zaman "*divanbəyi məhkəməsi*" adlanan bir məhkəmə vardı. Bundan başqa *sədr* və *şeyxülislam* da məhkəmə işləri ilə məşğul olurdular.

*V.F.Minorski* yazır ki, qazinin vəzifəsinə vəsiyyətlərin icrası, nikah, talaq, itən şəxslərin və yetim qalanların mallarının mühafizə olunması daxil idi.

"Təzkirətül-müluk" əsərində *şeyxülislam* və *qazi vəzifələri* haqqında, onların vəzifə bölgüləri xüsusunda dolaşıq mə'lu-

mat verilir, amma, Sarden bildirir ki, öz e'tibarına görə *şey-xül-islam* "qəza işlərində ən ali" məqamdır.

*Qaziye-əsgər* orduda ruhani işlərin öhdədarı olmuşdur. Səfəvi hakimiyyəti zamanı əsgər qazisi şər'i işlər üzrə divanbəyinin müşaviri olmuşdur. Bu hakimiyyətin son illərindəsə, həmin qazi artıq hərbiçilərin iddialarının ayırd edilməsi və onların aralarındakı münaqişələrin həlli istiqamətində iş görürdü (Bax: Təzkirətül-müluk, s. 74-76).

Qazilərin başçısı isə *qaziül-qüzzat* adlanırdı.

*****
**s.412** *Sərkar (sərkare-ali)* – Hər vilayətdən yığılan pulların hesabı onun idarəsi altında xüsusi dəftərlərə səbt edilirdi. Sərkar (sərkare-xassə, sərkare-xales, sərkare-feyzasar və sərkare-ali) vəzifəsi dövlətə maliyyə baxımından xidmət edən ən e'tibarlı şəxslərə verilirdi (Bax: Təzkirətül-müluk, s.99, 147, 211).

******
**s.412** *Yüzbaşı* – hərbi mənsəb sahibi olub *yüz nəfərin* başçılığı vəzifəsini daşıyırdı. "Yüzbaşı" istilahı ilə bağlı *V.F.Miorski* "xacəsəra" məfhumunu da elmi tədqiqata cəlb edir. Onun fikrincə, sarayda adi və ali xacələr olmuşlur. *Sardenə* əsaslanan tədqiqatçı *"xacəsərayane-sefid"* ("ağ xacəsəralar") və *"xacəsərayane-siyah"* ("qara xacəsəralar") vəzifəli şəxslərdən də bəhs edir. Sardenin fikrincə, ağ xacəsəraların hərəmxanaya daxil olma hüquqları yox idi, amma, qara xacəsəraların buna hüquqları çatırdı. Minorski qeyd edir: "Ola bilsin ki, çöhrələrinin çirkinliyi və əndamlarının kobudluğuna görə ikinci xacəsəralar *"qara"* adlanmışlar".

*"Xacəsəraların yüzbaşısı"* ("yüzbaşiye-xacəsərayan") vəzifəsi Səfəvi sarayında çox mühüm vəzifə sayılırdı. *Şah Sultan Hüseyn Səfəvinin* hakimiyyəti zamanı *xassə qulamlar yüzbaşısı olmuş Əhməd ağa elə* nüfuz sahibi idi ki, o, hətta *baş vəziri* söyüb təhqir etmiş və ona layiqsiz sözlər deməyə cür'ət etmişdi (Bax: Təzkirətül-müluk, səh. 61, 107, 168)

*******
**s.412** *Eşikağası – Sarden və Kempferə* görə, bu vəzifə daşıyıcısı *"saray başçılarının rəisi"* kimi tanınır. Eşikağasıbaşı vəzifəsi, *V.F.Minorskinin* fikrincə, *iki funksiya* daşıyırdı: Ümumi məclis və yığıncaqlarda təşrifat işlərini idarə edir, habelə qapıçılır

(*dərban*), gözətçilər (*negəhbanan*) və ağalar (*aqayan*) üzərində rəhbər məqamını yerinə yetirirdi. Onun iş yeri sarayın böyük darvazasının (ali qapı) yanındakı binada idi (Sarden). Sarayın xarici hissəsindən başlamış hərəmxanaya qədər hər yer onun iqtidarı və nəzarəti altındaydı, *"hərəmxana eşikağasıbaşısı"* vəzifəsi isə onun vəzifəsindən aşağıda dururdu. Şaha gətirilən peşkəşlərin ümumi qiymətinin *on faizi* eşikağasıbaşıya çatırdı. (Bax: Təzkirətül-müluk, səh. 88-89).

******* *Üxüvvət* – "Əxi" sözündən yaranmış istilahdır. Əxinin
**s.420** hərfi mə'nası "*mənim qardaşım*" deməkdir. Eyni məslək və təriqət sahibləri öz yoldaşlarına "əxi", yə'ni "*ey mənim qardaşım*" deyə müraciət edirdilər.

"*Məcməül-bəyan*" əsərinin müəllifi yazır: "Üxüvvət" 1 ata və 1 anadan doğulmayan *qardaşları*, "ixvan" isə 1 ata və 1 anadan *doğulan* qardaşlardırlar.

Üxüvvət sözünün digər mə'nası *qardaşlaşmaq*, *dostlaşmaqdır* ki, səfəvilər arasında geniş yayılmış məfhumldur (M.Moin. Göst.lüğət, cild I, səh.175-176).

***** *Qayçıçıxanə* (qeyçacixane) – V.F.Minorski, düzgün ola-
**s.421** raq, bu istilahın *türk sözü* olduğunu qeyd edir. Sarayda *iki qayçıçıxanə* olmuşdur: 1) *Xassə* (qeyçacixaneye-xasse); 2*) Əmirlər qayçıçıxanəsi* (qeyçicixaneyi-ümərayi).

Birinci qayçıçıxanədə şah, hərəmxana əhli və böyük əmirlər üçün *libaslar hazırlanır*, ikinci qayçıçıxanədə isə başqa əmir və yüksək mə'murlardan ötrü paltar tikilirdi. Əba (balapuş), qəba (uzun qollu kişi paltarı) və papaq (tac) qayçıçıxanədə hazırlanırdı.

Sanson səfəvi sarayındakı *mehmandarın* baş geyimini belə təsvir edir: naxışlarla bəzənmiş, qızılı saplarla işlənmiş, ətraf hissəsi qabarmış, xırçınlı (dalbor), zər güləbətinli (məlile), yuxarı hissəsindəsə durna lələyi (pəre-koləng) olan böyük papaq (ərəqçin).

Sanson sonra həmin papağın *on iki imama* həsr edildiyini bildirib, həmin papaqların rəsmi qəbullar vaxtı qızılbaşlar və xanlar tərəfindən geyinildiyini yazır. O, qeyd edir ki, *rəsmi tat (qeyri-türkman) mə'murlarının* ixtiyarları yoxdu ki,

həmin papağı başlarına qoysunlar, çünki papağında durna ləleyi olan papaq sahibinin böyük ixtiyarları vardı.

Bütün bu papaqlar sarayda mövcud olan qayçıxanədə hazırlanırdı (Bax: Təzkirətül-müluk, səh. 126-127).

***** **s.429** *Bağçasaray* – XVI əsrin əvvəllərində salınmışdır. Krım *xanlığının paytaxtı olmuş* (16-18-ci əsrlər), 1783-cü ildə *Rusiyaya* birləşdirilmişdir. Rusiya ilə Türkiyə arasında *1681-ci il sülh müqaviləsi* Bağçasarayda imzalanmışdır.

Keçmiş *Xan sarayı ansamblı* (XVI əsr), 14-18-ci əsrlərə aid *türbə və mədrəsələr* şəhərin məşhur me'marlıq abidələridir. *A.S.Puşkin və A.Mitskeviçin* tərənnüm etdikləri *"Göz yaşı"* fontanf (1764, *usta Ömər*) dövrümüzədək qalmışdır (Bax: ASE, II cild, səh.45).

***** **s.450** *Dərvazeban (qapuçi)* – "Qapıçı" əvəzinə farsca *"dərvazeban"* yazan İsgəndər bəy Münşi qapıçıların vəzifə borcları barədə məlumat vermirsə də, "Təzkirətül-müluk" əsərində İsfahan sarayının qapıçıları haqqında yığcam mə'lumat vardır. V.F.Minorski qəsrin (sarayın – *Ş.F.*) əsas giriş qapısına nəzarətin *eşikağasıbaşı* tərəfindən aparıldığını, başqa qapılarınsa qapıçılar tərəfindən qorunduğunu qeyd edir. Həmin qapılardan biri *ümumi giriş qapısı* idi ki, oradan divan işçiləri (divaniyan) gedib-gəlirdilər. *"Xəlvət"* adlanan başqa qapınınsa xüsusi yolu olmuşdur. Ümumiyyətlə sarayın *beş dərvazəsi* vardı ki, onları *qorumaq* qapıçıların vəzifəsiydi. (Bax: Təzkirətül-müluk, s. 121).

****** **s.450** Şah Təhmasibin hakimiyyəti vaxtı Mazandaranın hakimi Məhdulyanın (Məhəmməd Xudabəndənin qaynatası – *Ş.F.*) atası *Mir Abdulla* idi. İmam övladlarından *Mir Sultan Murad* adlı bir şəxs onunla düşmənçiliyə başlayaraq hakimiyyəti öz əlinə aldı və Mir Abdullaya xilaf olan bir sıra mazandaranlı ona qoşuldu. Mir Sultan Murad özünü saraya çatdırıb səmimiyyət və müt'illiyini şaha izhar etdi. Mir Abdulla bəzən *sərkeşlik* (tərslik) edib xəzinəyə *əvarecat* və *xərac* ödəməyi ləngitdiyindən Şah Təhmisib Sultan Muradın tərəfini tutdu. Mir Abdulla xan da etdiklərindən peşiman olub daha da sədaqətlə xidmət edəcəyini şaha ərz etdi. Şah

Təhmasib *Mazandaranı onların arasında böldü* və hər iki seyidi barışdırdı. Amma, Mir Abdulla xan Əmir Sultan Murad xanın yüksəlişinə dözməyib, onun vilayətində nizamsızlıq yaradırdı. Vəziyyət yenidən şaha bildirildi. Nəticədə *Mir Abdulla xan Sultan Murad tərəfindən həbs edildi və bütün Mazandaran Sultan Muradın ixtiyarına keçdi.* Mir Abdulla tezliklə *vəfat etdi*. Şah Təhmasib onun yetim qalan uşaqlarına qayğı göstərərək *Məhdulyanı* öz oğlu *Sultan Məhəmməd Mirzəyə* aldı. Onlardan doğulan *Mir Əziz xana* Mazandaranın bir yarısı, *Mirzə xan* adı ilə məşhur olan *Sultan Mahmuda* isə (Sultan Muradın oğlu) o biri yarısı verildi. Amma Şah Təhmasibin vəfatından sonra *bütün Mazandaran Mirzə xanın* əlinə keçdi. O, gərək həmin vaxt İran məlakəsi olan Məhdulyanın yanına gəlib sədaqətini bildirəydi, lakin belə etmədi. Məhdulya atasının intiqamını almaq üçün Mazandaran vilayətini *öz qohumu olan Mir Əlixana verdi* və onu *Əmir Vəlican xan Türkmanla* birlikdə yola saldı.

Mirzə xan isə bir dəstə əsgəri ilə *Firuzcah* adlı bir qalaya sığındı. Məhdülya dövlət adamlarından Pirə Məhəmməd xanı *Qorxmaz xan Şamlı* və başqa əmirlərlə onun üstünə yolladı. Qalanın alınması ləngidiyi üçün Məhdülya *Şahrux xan Möhrdarı da* onların ardınca Mazandarana göndərmək fikrinə düşdü. Şahrux xan buna e'tiraz etdi. Məhdülya ərinə Şahrux xanın hərəkətindən şikayətləndisə də, əvvəlcə onu Mazandarna getməyə razı sala bilmədilər, lakin sonradan vəzir *Mirzə Salman Cabiri* və *qorçibaşının* işə qarımasına görə Şahrux xan həmin vilayətə getməyə razı oldu. Pirə Məhəmməd xan və Qorxmaz xanla birləşən Şahruxa qalanın tezliklə alına bilməyəcəyi məlum oldu. Tezliklə Şahrux xanla Mirzə xan arasında yazışma başlandı və Şahrux xan onu təslim olmağa vadar etdi, fəqət bu yolla günahının bağışlaya biləcəyini bildirdi. Nəhayət *Mirzə xan* buna razılıq verdi və qalanı Məhdülyanın adamlarına təslim etdi. Şahrux xan Mirzə xanla gəlib Qəzvinə yaxınlaşdıqda Məhdülyanın göndərdiyi qorçilər Şahrux xan və başqa əmirlərdən xəbərsiz *Mirzəni* qətlə yetirdilər. Şahrux xan, Pirə Məhəmməd xan və

Qorxmaz xan bu xəbəri eşidib pərt oldular və Məhdülyanın bu kinli rəftarından bərk incidilər. ("Tarixe-aləmarye-Abbasi" əsərindəki "Mirzə xanın öldürülməsi sabiq narazılıqları daha da artırdı" cümləsinin şərhi yuxarıda göstərildiyi kimidir. – *Ş.F.*) Mə*'*lumat üçün bax: O.Əfəndiyev. Göst. kitab, s.164-165.

***** **s.500** *Lur* (sözü cəmi: *əlvar*) – İrannın cənub-qərbindəki dağlarda məskunlaşmış qədim tayfalar. Ərəb tarixçiçi Məs'udi kürd qəbilələrinin şərhini verərkən "*luriyyə*" adlı qəbilə adını da çəkir. Yaqut Həməvi tarixi *Xuzistan* və *İsfahan arasında* yaşayan lurlardan söhbət açır, onların məskənlərini "Bilədər-lur" və ya "Luristan" adlandırır. "Şərəfnamə" əsərində bə'zi lur qəbilələrinin *(hezarəsp)* Suriyadan (Şam) gəldiklərini qeyd edir.

Lurlar əsasən 4 böyük tayfadan ibarət olmuşlar*: mömsəni*, *Kuh-Giluyə*, *bəxtiyari, luran*.

Luristan tarix boyunca *iki əsas hissədən* ibarət olmuşdur: *Lure-bozorg (BöyükLur) və Lure-kuçek (Kiçik Lur).* Bu hissələr arasındakı məkan isə *Şulestan* adlanır. Monqol elxanilərinin süqutundan sonra həmin ərazilərdə yarımmüstəqil *lur hakimləri* fəaliyyət göstərmişlər ki, onlar Füzuliyyə *və Lur ətabəkləri* adlanmışlar.

*Böyük Lur əmirləri* bunlardır: *Əbu Tahir ibn Məhəmməd, Əbu Tahir Hezarəsp ibn Əbu Tahir, İmaməddin Pəhləvan, Nüsrətəddin Kəlcə, Təklə, Şəmsəddin Alp Ərqun, Yusif ibn Alp Çrqun, Əfrasiyab ibn Yusifşah, Nüsrətəddin Əhməd ibn Yusifşah, II Yusifşah ibn Nüsrətəddin Əhməd, II Əfrasiyab ibn Nüsrətəddin Əhməd, Nur Əlvənd ibn Süleymanşah ibn Ətabək Əhməd, Pəşəng ibn Sulğəpşah ibn Ətabək Əhməd, Pir Əhməd ibn Pəşəng, Əbu Səid ibn Pir Əhməd, Şah Hüseyn ibn Əbu səid, Qiyasəddin Kavus ibn Huşəng.*

*Kiçik Lur* əmirləri*: Şücaəddin Xurşidi ibn Əbubəkr, onun qardaşoğlu Seyfəddin Rüstəm, Seyfəddin Rüstəmin qardaşı Əbubəkr Məhəmməd, Əbubəkrin qardaşı İzzəddin Gərşasf, Hüsaməddin Xəlil ibn Bədr ibn Şücaəddin Xurşid, Bədrəddin Məs'ud ibn Hüsaməddin Xəlil, Tacəddinşah ibn Hüsaməddin*

*Xəlil, Bədrəddin Məs'udun 2 oğlu: Fələkəddin Həsən və İzzəddin Hüseyn, Cəmaləddin Xızr ibn Tacəddinşah, Hüsaməddin Ömər və Şəmsəddin Mahmud, İzzəddin Məhəmməd ibn İzzəddin Hüseyn, İzzəddin Məhəmmədin arvadı Dövlət xatun və onun qardaşı İzzəddin Hüseyn, Şücaəddin Mahmud ibn İzzəddin, Şah Hüseyn Abbasi, Şah Rüstəm Abbasi, Uğur ibn Şah Rüstəm, Cahangir ibn Uğur, Rüstəm xan ibn Cahangir* (Bax: M.Moin. Göst.lüğət, VI cild, səh.1807-1808).

*** s.549** *Dəvatdar* – Aşağı dərəcəli mənsəb sahibi olmuşdur. Maaşı çox deyildi. Ümumi məclislərdə onlar əsgərlərin sıralarında dayanırdılar. "Təzkirətül-müluk"da *"dəvatdare-ərqam"* ("rəqəmlər dəvatdarı", yəni mühasibat dəvatdarı – *Ş.F.*), *"dəvatdare-mohre əngoştəri"* ("üzük möhürünün dəvatdarı") və *"dəvatdare-ehkam"* ("Hökmlər dəvatdarı") kimi qələmə verilən dəvatdarların vəzifə adları çəkilir. *Sardenə* görə, dəvatdar həmişə sultanın və xidmətində olduğu adamın yanında olardı. Qayışında, yaxud şalında dəvat (mürəkkəbqabı), cübbəsinin cibində isə kağız saxlardı. O, hər an şah fərmanları yazmağa hazır olan bir şəxs idi (Bax: Təzkirətül-müluk, s. 119).

*** s.555** *Sərdar* – Müharibə halında olan ordunun sərkərdəsinə "sərdar" deyilirdi. İsgəndər bəy Münşi əsasən osmanlı ordusu başçılarını sərdar titulu ilə adlandırır, səfəvi hərbi dəstə rəhbərləri isə onun tərəfindən əsasən *"sərəskər"* adlandırılır. Osmanlılarda sərdar əsasən *vəzirlərdən* biri olurdu. Qəza kimi kiçik yerlərə hücumla gedən döyüşçülərə yeniçəri ağası tərəfindən başçı tə'yin edilir və ona da sərdar deyilirdi.

Sərdar tə'yin olunan *sədrə'zəmə* onun qədrini artırmaq məqsədilə *"sərdare-əkrəm"* də deyilir və onun səlahiyyətləri bir neçə dəfə artırılırdı. Osmanlı ordusunun başında böyük hərbi yürüşlərə gedən sədrə'zəm, yaxud sərdare-əkrəmlərin altısı vəzifə başında həlak olmuşlar: *Xadim Əli paşa, Xadim Sinan paşa, təyyar Mehmet paşa, Körpülüzadə Mustafa paşa, Almas Mahmud paşa, Şəhid Əli paşa* (Bax: M.Z.Pakalın. Göst əsər, III cild, səh. 178, 180-181).

* s.558 *Məclise-beheştayin* (behişt ayinli şah məclisi) – “Tarixe-aləmaraye-Abbasi”nin bir çox səhifəsində bu istilah dəfələrlə işlədilmişdir.

*Məclis* – toplantı yeri mə’nasında olan ərəb sözüdür, bir məsələnin müzakirəsi üçün rəsmi məqam yerində yığışmaqdır.

Şah yanında çağırılan əsas məclislərdən biri *“Divan məclisi”* (“məclise-divan”) olmuşdur. “Məclis” sözünün cəmi “məcalisdir” (Bax: M.Moin. Göst lüğət, III c., s. 3879-3880).

M.Z.Pakalın osmanlı dövlətində mövcud olmuş bir neçə məclis haqqında yığcam mə’lumat verib, onları bir-bir sadalayır:

– *Məclise-aliye-xəzayin*. Maliyyə işlərnin nizamlanması üçün təşkil olunan məclis;

– *Məclise-aliye-tənzimat*. Qanun və nizamnamələrin hazırlanması; məmləkətin rifahından ötrü irəli sürülən tədbirlərin müzakirəsini keçirmək və müvafiq qərarın çıxarılması; mövcud nizamnamələrdəki islaha ehtiyacı olan maddələrin tədbirlərin hazırlanması və s.;

– *Məclise-əmanət*. Bu məclis hökumət tərəfindən tə’yin edilmiş altı üzvdən ibarət idi, və bugünkü Bələdiyyə məclislərinin vəzifə və səlahiyyətlərini icra edirdi;

– *Məclise-xas*. Sədrə’zəmin başçılığı və şeyxülislam ilə vəzirlərdən ibarət olmuşdur. Həmin məclisə *“məclise-vükəla”* (“vəkillər məclisi”) və *“məclise-xase-vükəla”* (“vəkillərin xüsusi məclisi”) də deyilirdi;

– *Məclise-edareye-əmvale-eytam*. Yetimlərin malları haqqındakı müamilələri tədqiq etmək üçün yaradılmışdı;

– *Məclise-məşayex* – Ziyarət yerlərinin (təkkə) təriqət üsulları üzrə işləri ilə məşğul olurdu;

Bunlardan başqa *“məclise-şər’i”* (şəriət işləri üzrə məclis”) və *“məclise-tədqiqate-şə’riyyə”* (“şər’i tədqiatlar məclisi”) və başqa məclislər mövcud olmuşdur (Bax: Pakalın, Göst. lüğət, II c., s. 429-430).

* s.561 *Male-möhtərifə* – Mərhum tədqiqatçı alim, tarix elmləri doktoru *M.X.Heydərov* “*möhtərifə*” istilahının mənasını *“sənətkarlıq təşkilatı”* kimi verir. O, yazır ki, Məhəmməd

ibn Hinduşah Naxçıvaninin əsərində belə bir cümlə vardır: "çörəkbişirənlər, qəssablar və bazarın başqa möhtərifələri…")

*Elxanların hakimiyyəti dövründə* möhtərifənin sinonimi "*uzan*" istilahı olmuşdur, lakin XIV əsrin II yarısından başlayaraq "uzan"ı "möhtərifə" əvəz etmişdir. Beləliklə, möhtərifə – bazarlarda hər birinin öz müəyyən yeri olan peşə – sənət birlikləri olmuşdur.

Bu istilah XVIII əsrə qədər *"əsnaf"* (sinif, dərəcə) sözü ilə yanaşı işlənmiş olduğundan hər ikisinin bir məna daşıdığı anlaşılır. (М.Х. Гейдаров. Социально – экономические отношения и ремесленные организации в городах Азербайджана в XIII – XVII вв., Bakı 1987, səh 50-51).

****s.561** *Təkalife-divani* – Divanın faydasına toplanan vergilər

***** s.561** *Qaziye-ehdas* – mübahisəli məsələləri həll edən qazi. Dr. M.Moin "qaziye-ehdas"dan bəhs etmirsə də, qazinin əhali arasında qazilik ehdiyini və müxtəlif ixtilaflı məsələləri həll etdiyini və düşmənçiliyin aradan qaldırılması üçün şəriət ehkamı əsasında hərəkət etdiyini bildirir (Bax: Göstlüğət, II cild, səh.2614-2615).

*** s.562** *Xasseyi-şərifə* – Akad. V.V.Bartolda görə bütün dünya islam siyasi aparatındakı idari işlər iki hissəyə bölünür: *saray işləri*, *divan işləri*. V.F.Minorski buna əlavə olaraq yazır: "Sarayın ixtiyarındakı mallar "male-xasse", adlanırdı. Səfəvi dövründəki *"xassə"* isə monqol dövründəki "*incu*"dur (Bax: Təzkirətül-mülik, s. 39-41).

İndi görək burada xatırlanın "*incu*" nədir? Bu istilah Azərbaycanda və ətraf ölkələrdə *elxanilər dövründən* (XIII əsr) yayılmağa başlamışdır. İncu-torpaq mülkiyyəti formasıdır. Bu kateqoriyadan olan torpaqlar *hökmdara* və *onun nəslindən olanlara* aid idi. O dövrdə incu torpaqları ilə yanaşı çox miqdarda *"divani torpaqlar"* da mövcuddu, *"divan"* isə *"maliyyə idarəsi"* mənasındaydı.

*İncu əraziləri*, təbii ki, ən münbit və məhsuldar sahələr olmuşdur (Bax: Vaqif Piriyev. Azərbaycan XIII-XVI əsrlərdə, Bakı, 2003. s. 211).

Səfəvilər dövründə də *"xalesə"* torpaqları üçün ən münbit torpaqlar ayrılırdı.

** *Müfti* – Şəriət məsələlərində müraciət olunan fəqihdir.
s.562 *Fəqih isə* müfti olmaqla fitva verən *dini şəxsdir* (Bax: M.Moin. Göst.lüğət, IV cild, səh.4267).

*** *Şeyxülislam* – Şeyxülislam adı altında bir çox böyük
s.562 alimlər və fazil fəqihlər şöhrət tapmışlar. Bu istilah "*baş fəqih*" mə'nalarını özündə ehtiva edir.

*Hammer* Sultan Mehmet Fateh dövründəki dövlət tə'sisatlarını tədqiq edərkən sonradan şeyxülislam adını alan müfti haqqında yazır: "Ordu qaziliyindən sonra (*Qaziəsgər*) ən yüksək elmiyyə xidmətləri padşah və şahzadə müəllimliyi (xoca) ilə şər'i hökmləri təfsir etmək səlahiyyəti olan ən böyük mə'mur *müfti* olmuşdur. *Sultan Süleyman* zamanında isə şeyxülislam bütün şəriət adamlarının birincisi oldu". *Şair Nəf'*i *demişdir:*

*"Kə'beyi-islamdır dersəm əcəbmi, sahibin*
*Şeyxülislam eyləmiş lütfü xudayi-müstəan".*

(Bax: M.Z.Pakalın. göst.əsər, III cild, səh.347-348, 351).

* *Ərradə* – ərəb sözü olub *mancanaq, zənburək və top*
s.566 anlamlarını ifadə edən silah adıdır. (Bax: D-r Qədir Çolkaryan. Göst.lüğət, s. 308).

* *He'yət elmi* – astronomiya (Bax: Nəyyerzaman Səqəfi.
s.582 Göst. lüğət. c.II, s. 852). Bu elm *ulduzların vəziyyətindən, aralarındakı məsafələrdən, onların görüşünündən, hərəkət qanunlarından* bəhs edir (Bax: Dr. M.Moin. Göst.lüğət, IV cild, səh. 5229).

** *Rəml* – rəml atmaq (falçılıq). M.Moin bu peşənin *rəmmal*
s.582 vasitəsilə icra olduğunu və adamların taleyini müəyyənləşdirdiyini, həmçinin gələcəkdən xəbər verdiyini yazır (Bax: M.Moin. Göst.lüğət, II cild, səh.1675).

** *Ceqqe (ceğğe)* – tac (Bax: Nəyyerzaman Səqəfi. Göst.
s.596 lüğət. c.I, s. 568).

* *Mütəsəddi* – Sədrin *vəqf işləri* üzrə nümayəndəsi (Bax:
s.604 Təzkirətül-mülik, s. 41).

* *Sultan Əbu Səid* (1305-1335). Elxani hökmdarı olmuşdur.
s.608 Hakimiyyətin ilk illərində dövlət işlərini baş əmir *Çoban*

idarə edirdi. Əbu Səid 1319-cu ildə Gürcüstan canişini *Əmir Qurumuşinin* qiyamını yatırarkən göstərdiyi şücaətə görə *"Bahadur xan"* adlanmışdı. 1327-ci ildə Əmir Çobanı öldürüb, nisbətən müstəqil siyasət yürüdən Əbu Səid ölkənin iqtisadi vəziyyətini yaxşılaşdırmaq məqsədi ilə bir sıra fərmanlar (yarlıq) verdi. 1335-ci ildə Azərbaycana hücum etmiş *Qızıl Orda xanı Özbəkin* qarşısını almaq məqsədiylə *Qarabağa* gələn Əbu Səidi ondan narazı əmirlər zəhərləyib öldürdülər. Onun ölümündən sonra *Elxanilər dövlətinin* süqutu sürətləndi. (Bax: ASE, c. IV, Bakı, 1980, s. 130).

Sultan Əbu Səid mə'lumdur ki, Elxani hökmdarı *Sultan Məhəmməd Xudabəndənin* (1304-1316) oğludur. Sultan Məhəmməd isə *Qazan xanın* (1295-1304) oğlu idi. Mən "Tarixe-aləmaraye-Abbasi"nin tərcüməsi üzərində işlərkən, İsgəndər bəy Münşinin "Rövzətüs-səfa" əsərindən gətirdiyi bir fikir üzərində düşündüm və müxtəlif tədqiqat əsərlərinə müraciət etdim. İsgəndər bəy *Mirxanda* əsaslanaraq Sultan Əbu Səidin guya atası Sultan Məhəmmədə qarşı üsyan etdiyini bildirir. *Prof. Vaqif Piriyevin* "Azərbaycan XIII-XIV əsrlərdə" kitabında adı çəkilən üsyan haqqında mə'lumat yoxdur. *Akad. Əbdülkərim Əlizadə* də bu haqda heç nə yazmır. V.Piriyev azyaşlı monqol hökmdarının taxta çıxması xüsusda yazır: "*Ulcaytudan sonra* Azərbaycanda vəziyyət yenidən pisləşdi. Elxanilər taxtına çıxarılan *12 yaşlı Əbu Səidin zamanında* dövlətin idarəsi baş əmir *Çobanın* ixtiyarına keçdi. Əmir Çoban oğlanlarını müxtəlif vəzifələrə qoyur, Çobanın və oğlanlarının dövlət idarəsində tutduqları mövqe bir çox feodalların narazılığına və mərkəzi hakimiyyətə qarşı mübarizə aparmalarına gətirib çıxarır… Elə bu zaman ölkə iki tərəfdən xarici həmlələrə mə'ruz qalır: *Qızıl Orda xanı Özbək* Dərbənd istiqamətindən, *Misir və Şam qoşunları* isə Diyarbəkr tərəfdən *Elxanilər dövlətinə* hücum edirlər… Gürcüstan canişini *Əmir Qurumişinin* məqsədi *Hülakular taxttacını* ələ keçirmək idi. Əbu Səid onların öhdəsindən gəlməyi bacarır. Lakin Çobanın və onun övladlarının dövlət idarəsindəki mövqeləri Əbu Səidi narahat etməyə başlamışdı.

O, 1328-ci ildə Çobanı e'dam etdirir, oğlanlarının bə'zisini məhv edir, bir neçəsi isə ölkədən qaçırlar. XIV əsrin 30-cu illərində Hülakular dövlətinin xarici vəziyyəti gərgin şəkildə qalırdı. Azərbaycana olan iddialarından əl çəkməyən Özbək xan 1335-ci ildə *iki dəfə* ölkəyə hücum edir. Onun yürüş etdiyini eşidən Əbu Səidin ordu hissələri Ağsu ərazisində yerləşir, az sonra Əbu Səidin özü də buraya gəlir, lakin o, daxili feodal çəkişmələrinin qurbanı olur və öz arvadı, əmir Çobanın qızı *Bağdad xatun* tərəfindən zəhərləndirilərək öldürülür" (Bax: Vaqif Piriyev. Göst. əsər, səh. 127-135).

****** *Ulcaytu xan* – Arqun xanın oğludur. *Qardaşı Qazan xanın*
**s.608** vəsiyyətinə görə hakimiyyətə keçmiş və *Ucanda* monqol ə'yanlarının qurultayında elxan e'lan edilmişdi. *İslam dinini qəbul etdikdən sonra* ona Məhəmməd Xudabəndə adı verilmişdi. Qazan xanın daxili və xarici siyasətini davam etdirən Ulcaytu baş əmir *Qutluqşahın*, onun ölümündən sonra isə *əmir Çobanın* köməyilə vassaları üzərində hakimiyyətini möhkəmlədə bildi. Onun dövründə Kürdüstan, Şiraz, Xorasan və Rumda baş vermiş iğtişaşlar yatırıldı, ölkənin iqtisadi həyatı nisbətən canlandı, *Sultaniyyə şəhərinin əsası qoyuldu* (tezliklə dövlətin paytaxtı da oraya köçürüldü. Ölümündən sonra (1316) yerinə oğlu Əbu Səid keçdi (Bax: ASE, VII cild, səh. 418).

Dr. M.Moin isə yazır: *Ulcaytu xan* – Elxanilər dövləti hökmdarlarındandır, *"Məhəmməd Xodabəndə"* kimi tanınmışdır (1304-1316). *Qazan xanın qardaşı və canişinidir. İslamı (şiəliyi) qəbul etmiş ilk monqol hökmdarıdır.* O, *Sultaniyyə* şəhərini inşa etdirdi və dövlət paytaxtını *Təbrizdən oraya köçürdü* (Bax: D-r. Moin. Göst, lüğət, c. V, s. 199).

***** *Baş vəzir və vəzirlər* – Mərkəzi dövlət aparatında mühüm
**s.616** yerlərdən biri dövlət gəlirləri və maliyyə idarələri, o cümlədən xarici siyasi məsələlərlə məşğul olan baş vəzirə məxsus idi. Mənbələrdə baş vəzir *"e'timadüd-dövlə"* ("dövlətin e'tibarlı adamı") kimi yazılır ki, bununla da vəzirin böyük e'timada layiq olduğu nəzərə çatdırılır. Baş vəzir divana rəhbərlik etdiyinə görə *"divan sahibi"* də adlandırılmışdır ki, bu

məsələdə onunla “sahib-divan”, yaxud “əmir-divan” vəzifəsi arasında nəsə bir ümumi yaxınlıq nəzərə çarpır. Ola bilsin ki, bu iki vəzifə bə’zən eyni şəxs tərəfindən idarə olunmuş və biri-digərini əvəz etmişdi.

Tarixçi Həsən bəy Rumlu dövlətin bütün mali və mülki işlərinə rəhbərliyin *baş vəzir* tərəfindən həyata keçirildiyini bildirir. Vəzirin vəzifəsinə aşağıdakı işlər daxil idi:

a) divan gəlirlərinin artırılması;

b) dövlət tapşırıqlarının yerinə yetirilməsi;

v) inşaat və əkinçiliyin həcmcə artırılması;

q) döyüşçülərə və rəiyyətə diqqət göstərilməsi;

d) vilayətin abadlaşdırılması.

Maliyyə divanının bütün sənədləri baş vəzirin möhürü ilə möhürləndikdən sonra hüquqi sənəd kimi rəsmiləşdirilmiş hesab olunurdu.

“Təzkirətül-mülük” əsərində baş vəzir *“ali divanın baş vəziri”* (“vəzire-ə’zəme-divane-ali”) kimi adlandırılır. Səfəvilər dövlətinin ilk vaxtlarında bu ad altında vəzifə olmamış və dövlətin şahdan sonrakı ən yüksək vəzifə sahibi *vəkil* olmuşdur, amma *vəzir* vəzifəsi, əlbəttə, fəaliyyət göstərirdi. Məsələn, 1501-ci ildə Şah İsmayıl *Mirzə Zəkəriyyanı* “divan sahibi olan vəzir” (“vəzire-sahibdivan”) vəzifəsinə tə’yin etmişdi. Şah Abbasın dövründə isə, Şah İsmayılın dövründəki vəkil vəzifəsi aradan çıxdı və onun yerini *vəzarət* vəzifəsi tutdu (məqame-vəzarət), baş vəzir əsas vəzifə sayıldı.

*Qacarların hakimiyyəti dövründə* isə “e’timadüd-dövlə” adı aradan götürüldü və onun yerinə *“sədre-ə’zəm”* (“baş sədr”) istilahı işlənməyə başladı (Bax: “Təzkirətül-mülük”, doktor Seyid Məhəmməd Dəbirsəyaqi nəşri, səh. 81-84).

Əmir Teymur, ümumiyyətlə vəzirlər barədə çox mə’lumat verən müəllifdir ki, bu da onun bu ali vəzifəyə böyük üstünlük verməsindən irəli gəlir: “Maliyyə vəzirləri maliyyə məsələlərində xəyanət eliyərək, var-dövlətin bir hissəsinin arasına keçmiş olsalar yoxlanılsınlar. Əgər mənimsənilən məbləğ maaşdan üç dəfə artıq olarsa onda maliyyə vəzirinin bütün malı, mülkü dövlətə hədiyyə sifətində əlindən alınsın”.

Əmir Teymur sərt cəzalar verməklə hakimiyyətdə olduğu müddətdə dövlət xəzinəsini son dərəcə zənginlətmişdi. Bunu da qeyd etmək lazımdır ki, Əmir Teymurun "Tüzuki-Teymuri" əsəri təkcə ləyaqətsiz vəzirlərin cəzalandırılmasından bəhs etmir, bacarıqlı və ləyaqətli vəzirlər barədə də fikirlər bildirilir: "Tədbir və qılınc gücünə hər hansı məmləkəti zəbt eləyən, yaxud himayə edərək saxlayan vəziri əziz tutmaq, ona hörmət-izzət göstərmək lazımdır. Onun rütbəsini qaldırmaq, onu "qılınc və qələm sahibi" adlandırmaq lazımdır" (Bax: "Teymurun vəsiyyətləri" , s. 71).

Səfəvilər dövründə ayrı-ayrı hakim və şahzadələrin də vəzirləri olurdu. Vəzirlər hərbi yürüşlərdə də iştirak edir, onların xidmətləri yalnız mülki və mali işlərlə kifayətlənmirdi.

Mənbələrin mə'lumatlarına görə divan vəzirlərindən birisi qorçi dəstələrinin vəzarət işlərinə rəhbərlik edir və *"qorçilər vəziri"* ("vəzire-qorçiyan") adlanırdı (Baş vəzir və vəzirlər barədə ətraflı məlumat üçün bax: Ş.Fərzəliyev Azərbaycan XV-XVI əsrlərdə, s. 53-55; Yenə onun XV əsr Azərbaycan dövlətlərinin quruluşu, s. 37-39).

**** s.616** *Bilqeys* – Tarixçilər möhtərəm saydıqları xanımların adlarına çox vaxt təşbeh olaraq *"Bilqeys"* adını artırmışlar.

Bilqeys – *Səba şəhərinin* mələkəsi olmuşdur. *Süleyman peyğəmbər* (Süleyman ibn Davud) onun görüşünə getmiş və bə'zi rəvayətlərə görə onunla evlənmişdir (Bax: Dr. m.Moin. Göst. lüğət, V cild, səh. 276-277).

*** s.617** *Mühəssil* – Dövlət tərəfindən müəyyənləşdirilmiş *vergiləri toplayan mə'mur.* Mühəssil dövlət aparatında xırda mə'murlardan sayılırdı. Mühəssilə "*qulluqçu*" da demişlər (Bax: Dr.M.Moin. Göst.lüğət. III cild, səh.3910).

*** s.625** *Çaşniqir* – monqol istilahı olan "*tuşmal*" sözünü əvəz etmişdir. *Vladimirsovun* "Monqolların ictimai quruluşu" kitabında tuşmalın *"e'tibarlı şəxs", yaxud "yeməyi yoxlayan adam"* olduğu göstərilir" (Bax: Təzkirətül-mülik, s. 128). Deməli, çaşniqirbaşı *dequstatorların başçısına* deyilmişdir.

* s.627 *Quşxana (quşxanə)* – Quşların saxlandığı yer (söhbət təbii ki, ov quşlarından gedir – *Ş.F.*).

Sarayda (osmanlılarda) padşah üçün xüsusi sürətdə yemək bişirilən yerə (mətbəxə) verilən ad da "*quşxanə*" adlanırdı. Saray mətbəxlərinə "*mətbəxe-amerə*" və "*mətbəxe-hümayun*" da deyilirdi (Pakalın, II cild, s.329).

* s.635 *Rüknüs–səltənə=Rüknünd-dövlə*. "Təzkirətül-müluk"da məhz rükunüddövlə istilahı nəzərə çatdırılmışdır. Mə'xəzlərdə baş vəzirin və vəkilin də "rüknüddövlə" yəni dövlətin *7 sütunundan* biri olduqları qeyd edilmişdir. (Bax: Təzkirətül-müluk, s. 81).

* s.641 *Ağayane – motəbərreke* – "Ağa" sözü adətən "*xacəsəra*" ("saray xacəsi") mənasındadır. *Ağalar*-mötəbərlər təbəqəsində xüsusi yerləri olan şəxslər olmuşlar. Onlar öz məqamlarına görə əmirlərdən, şaha yaxın olan şəxslərdən, yasovullardan və eşikağasılardan sonra gəlirlər (Bax: Təzkirətül-müluk, s. 88-89). "Ağayane-mötəbərrike" ifadəsi "müqəddəs ağalar" deməkdir.

*s.645 *Səqqa* – suçu, su işləri ilə məşğul olan şəxs.

*s.648 *Zabit* – əlaltı mə'mur (Bax: Təzkirətül-mülik, s. 41).

*s.649 *Müqta* – iqta sahibi (iqtadar) deməkdir.

** s.649 *Bəst* – sığınacaq yeri, ittihamdan qorxan adamların müqəddəs məkanlara (məscidlər, üləma evləri), həmçinin böyük şəxslərin mənzillərinə girib sığınmaları (Bax: D-r Moin, Göst, lüğət, c. I, s. 528-529).

*** s.649 *Mürtəza – erteza (ixtiyar sahibi)*; Əli tərəfdarları (mortəzəvi) və başqa mə'naları da ifadə edir (Bax: D-r Moin. Göst, lüğət, c.I, səh. 791).

*s.652 *Düşüllükat* – vergi növü.

*s.653 *Tənxah* – maaş. Əfqanıstanda elə bu gün də maaşa *tənxah* deyirlər.

** s.653 *Bərat* – dövlət tərəfindən verilən *rəzmi sənəd*. Belə sənədi olan şəxs *bəratdar* adlanırdı və *səlahiyyətli mə'mur* sayılırdı.

* s.696 *Xacə Rəbiəl – Xəysəmin* kim olduğunu müəyyənləşdirə bilmədik.

** s.696 *Şahpur Kəsra* – Sasani hökmdarlarından biridir. Mən onun məhz hansı Şahpur (Şapur) olduğunu müəyyənləşdirə bilmədim, I Şapur, yoxsa II Şapur ? I Şapur (m.272-ci ildə vəfat etmişdir). I Ərdəşirin oğludur. O, atasının dövləti genişləndirmək siyasətini davam etdirərək xeyli ərazi zəbt etmişdi. 260-cı ildə Edessa yaxınlığında Roma ordusunu darmadağın edərək imperator Valerianı əsir tutmuşdu. Onun dövründə zərdüştilik daha da möhkəmləndi.

II Şapur (309-379) isə Roma ilə müharibələr nəticəsində Sasani dövlətinin ərazisini xeyli genişləndirmiş, bir sıra şəhərlər saldırmışdı. II Şahpur 350-ci ildə Albaniyaya (Qafqaz) hücum edən xəzərlərə qarşı mübarizədə iştirak etmişdir (Bax: ASE, cild X, səh. 466).

* s.709 "*Mətləüs-sə'deyn*" – Məşhur özbək tarixçisi *Kəmaləddin Əbdürrəzzaq ibn Cəlaləddin İshaq Səmərqəndinin* "Mətləüs-sə'deyn və məcməül-bəhreyn" əsərinin qısaldılmış adıdır. Müəllif 1413-cü ildə *Heratda doğulmuş* və 1482-ci ildə elə orada da vəfat etmişdir. Teymuri hökmdarı Şahruxun sarayanıda bir müddət yaşayıb-yaradan Ə.Səmərqəndi 1441-1444-cü illər arasında *Cənubi Hindistanda səfir vəzifəsində* işləmiş, Herata qayıtdıqdan sonra özünün "Mətləüs-sə'deyn" əsərini yazmışdır.

İki qismdən (yaxud dəftər) ibarət olan əsər teymurilərin 1304-1470-ci illər arasındakı tarixi hadisələr (elxani Əbu Səiddən teymuri Sultan Hüseyn Bayqaranın taxta çıxmasına qədər) özündə əks etdirir (Bax: Ç.A.Stori. Göst. əsər, c. II, s. 820-821).

** s.709 "*Zəfərnamə*" – Bizə bu ad altında ondan çox kitab mə'lumdur. Zənnimcə burada Nizaməddin Şaminin, yaxud Şərəfəddin Yəzdinin "Zəfərnamə" kitablarından biri nəzərdə tutulur.

Birinci "Zəfərnamə"dəki hadisələr *Teymurun tarixinə* (1404-cü ilədək) həsr olunmuş, ikinci "Zəfərnamə" isə *Teymurun, şahzadə Xəlil Sultanın*, *Şahruxun, şahzadə İbrahim Sultanın* tarixlərini əhatə etmişdir. (Bax: Ç.A.Stori.Göst., əsər, c. II, s. 789-798).

* s.713 *Sifat* – Allahın sifətləri (sifate-zat, seifate-fel, sifate-cəlal, sifate-cəmal və s.) Bax: D-r. Seyid Cəfər Səccadi. Göst., əsər, s. 532-533.

*s.716 *İbadullah* – Allahın bəndələri

*s.749 *İmam Qəzali* (Hamid Məhəmməd ibn Məhəmməd /1059-1111) – müsəlman ilahiyyatçısı, sufizmin nümayndəsi. Qəzali maddi aləmin əbədiliyi və qanunauyğun inkişafı ideyasına qarşı çıxmışdır. Qəzaliyə görə, dünya Allahın iradəsi sayəsində mövcud olub, zaman və məkanda məhduddur. O zamana qədər bid'ət sayılan *sufizmi* ortodoksal islam tə'limi sisteminə ilk dəfə Qəzali daxil etmişdir. Qəzali mö'tədil sufizmi teologiya ilə birləşdirərək *intusiyanı* mütləq həqiqətin dərkində yeganə vasitə sayımış, *şəxsi emosional e'tiqada* üstünlük vermiş, Allahın intiusiya, ekstaz yolu ilə dərkini mümkün hesab etmişdir. Qəzali *"Məqasidəl-fəlasifə"* (Filosofların məqsədləri"), "*Təhafüt əl-fəlasifə"* ("Filosofların təkzibi") və s. əsərlərində *Aristotel məntiqini,* fizikasını və metafizikasını şərh etmiş, *Şərq peripatetiklərindən Farabi və İbn Sinanın* zəka konsepsiyasına qarşı çıxmış, obyektiv həqiqətin dərkində onların metodunun lüzumsuzluğunu göstərmişdir. Qəzali *"İhya ülum əd-din"* ("Din elmlərinin dirçəlməsi") traktatında müsəlman əxlaqının geniş şərhini vermişdir. *Ömər Xəyyam İbn Tüfeyl, İbn Rüşd* və başqaları Qəzalinin *mistisizmi* əsaslandıran fəlsəfəsini tənqid etmişlər.

Qəzalinin müsəlman qanunçuluğuna dair "Bəciz" ("Müxtəsər") adlı kitabı Azərbaycan mütəfəkkirlərindən *Siracəddin Urməvi, İmadəddin Ərdəbili, İbrahim Zəncani* tərəfindən şərh və xülasə edilmişdir. *Yəhudi ilahiyyatçılarından Kreskasa, avropalı sxolist Foma Akfinalıya Qəzalinin tə'siri olmuşdur* (Bax: Azərbaycan Sovet Ensiklopediyası, III cild, səh. 129).

*Hüccətül-islam* adlandırılan Qəzali fiqh, hikmət və kəlamda dövrünün ən öndə gedən alimi idi. O, *Taberanda* (Tus) ölmüş və orada da dəfn olunmuşdur (Bax: Dr.M.Moin. Göst. lüğət, VI cild, səh. 1252).

* s.778 İbn Ziyad (Ziyad ibn Əbih) – *Müaviyə ibn Əbu Sufyanın* böyük adamlarından olmuşdur (vəfatı: m.673). (Bax. Dr. M.Moin. Göst. lüğət, V cild, səh.662).

* s.848 *Muxtarül-hüseyni* – istilahın adından görünür ki, bu söz *"Hüseynilərin ixtiyarlı nümayəndəsi"* mənasını ifadə edir.

* s.850 *Tovliyyət* – qəyyumluq (vəqf torpaqlarına və ziyarətgahlara aiddir).

*s.856 *Xatamül* – Müctəhidin – Müctəhidlərin sonuncusu.

** s.856 *Üsul elmi* – metodologiya (Bax: Nəyyerzaman Səqəfi. Göst lüğət, c. I, s.83).

*** s.856 *Füzəla* – fazil, fəzilətli adamlar.

* s.875 "*Nüzhətül-qülub*" – *Həmdullah Müstövfi Qəzvininin* (1281-1345) çoxsaylı əsərlərindən biridir. "Nüzhətül-qülub" ("Könüllər nəşə'si") kitabı coğrafi əsər olsa da, *Azərbaycan tarixinin tədqiqində xüsusi yer tutur*. Orada Azərbaycanın sərhədləri, inzibati bölgüsü, müxtəlif dövrlərdə paytaxtları, şəhərləri, yaşayış məntəqələri, təsərrüfatı, gəlirləri, əhalisi (məşğuliyyəti, etnik tərkibi, xarici görünüşü) coğrafi mövqeyi, təbiəti, iqlimi, sərvətləri, dağları, ölkənin ictimai-iqtisadi, siyasi-mədəni və etnik tarixinin araşdırılmasında mühüm rol oynayır. Məhz bu əsərin mə'lumatlarından aydın olur ki, *Azərbaycan* XII-XIV əsrlərdə *doqquz nahiyəyə-tümənə* (Təbriz, Ərdəbil, Meskin, Xoy, Sərab, Marağa, Mərənd və Naxçıvan) bölünmüş və *27 şəhərə* malik olmuşdur. Müəllif hər tümənə daxil olan şəhərləri sadalayır, onların iqlimi, təsərrüfatı, əhalisi, məşğuliyyəti və s. barədə ətraflı mə'lumat verir. (Bax: Vaqif Piriyev. Azərbaycan XII-XIV əsrlərdə, Bakı, 2003, s. 24-25).

* s.883 *Mə'rifət* – Ariflərin fikrincə mə'rifət *Allahı tanımaqdır* (Bax: D-r. Seyid Cəfər Səccadi. Göst., əsər, s. 730). "Tarixi-aləmaraye-Abbasi"də adı çəkilən "mərifət" isə *Allahsızlığa* dəlalət edir.

** s.883 *Fiqh elmi* – şəriət ehkamının əməli cərəyanlarından bəhs edən elmdir. Fəqh aliminə *"fəqih"* deyilir (Bax: D-r. Moin. Göst, lüğət., c. II, s. 2560).

* s.884 *Təkye* – yoxsul adamların yığşdıqları yer, Yas və rövzəxanlıq mərasimlərinin icra olunduğu yer (Bax: D-r Moin, Göst, lüğət, c. I, s. 1129).

**s.884 *Tərkeşduz* – yəhərtikən, sərrac.

* s.889 *Cəlaləddin Məhəmməd Əkbər* (1542-1605) – Hindistanda *"Böyük Moğollar"* İmperiyasının üçüncü hökmdarı, *Zəhirəddin Barun* nəvəsi, *Məhəmməd Hümayun* şahın oğlu. Onun dövründə imperiyanın sərhədləri genişlənmişdi. 1574-cü ildə *"cagir"* (yer tutma, ölkə tutma – *Ş.F.*) sistemini ləğv etmək istəmiş, lakin müsəlman feodal cağırdarlarının müqavimətinə rast gəlmişdi. Hindistanda moğolların hakimiyyətini möhkəmləndirmək üçün hind cəmiyyətinin yuxarı təbəqəsi ilə yaxınlaşmağa sə'y göstərən Əkbər şah əvvəlki müsəlman hakimlərindən fərqli olaraq *hinduları da* mühüm dövlət vəzifələrinə irəli çəkirdi. O, *"dine-ilahi"* ("Allah dini") deyilən *yeni din* (əsasən islam, hinduizm, pasizm və cayuizm dini e'tiqad ənənələrinin eklektik qarışığından ibarət idi) tətbiq etmişdir (Bax: ASE, c. IV, s. 154).

Cəlaləddin Əkbərin hökmranlıq etdiyi Böyük Moğollar dövləti onun vəziri *Əbülfəzlin* böyük sə'yi və təşkilatçılıq qabiliyyəti ilə qüvvətlənmişdi (Bax: D-r Moin, Göst, lüğət, c. I., s. 167).

** s.889 *Tənasüx cərəyanı* – "Tənasüx" istilahı bir-birini batil etmək, "zail etmək", "yox etmək" mənasını verir. Tənasüx cərəyanı üzvlərinin əqidələrinə görə *ölən insanın ruhu onun bədənindən çıxıb başqa bir insanın bədənində yaşayır* (Bax: D-r. Moin., Göst, lüğət, c.I, s. 1145).

* s.892 *Səffarilər* – Səffar, Ale-Leys, Ale-Səffar, yaxud *səffariyəyə nəslinə mənsub sülalə*. Miladi tarixlə 864-903-cü illər arasında *Şərqi İranda* hökmranlıq etmişdir. Bu sülalənin banisi *Yaqub ibn Leysdir*. O uzun müddət öz qardaşları *Əmru, Əli və Tahirlə* Sistanı birgə idarə etdiyi üçün həmin nəsil *Səffarilər* adlanmışdır. Sonra Sistanı müstəqil idarə edən *Yaqub* Heratı tutdu, tədriclə Farsı, Bəlxi, Təxaristanı və Xorasanı da ələ keçirdi. Bu sülalədən hakimiyyətdə olanlar bunlardır: *Yaqub ibn Leys, Əmru ibn Leys, Tahir ibn*

*Məhəmməd ibn Əmru*. Bu sülalənin axırına *Samanilər* çıxdılar (Bax: D-r. Moin. Göst, əsər, c. V., s. 1002).

* s.903 *Büyutat* – hərfi tərcüməsi *"evlər"* deməkdir. Burada saray ə'yanlarına xas olan binalar nəzərdə tutulur.

* s.904 *Yərliğ* – rəsmi hökm, sənəd (yarlıq). Elxanilərdən başlayan hökmdar fərmanları "*yəzlig*" adlanırdı (Bax: M.Moin. Göst.lüğət, IV cild, səh.5256).

* s.907 *Bayram xan Türkman (Bayram bəy Baharlu, Bayram xan Baharlı, Bayram xan Türkman Baharlı) – Məhəmməd Hümayun şahın müşaviri*. O, 1556-cı ildə, Hümayun şahın vəfatından sonra onun oğlu Cəlaləddin Əkbər şaha xidmət etmiş, Hindistanın dövlət işlərinin çoxunu məhz o nizama salmışdı. Sonralar Qəndəhar hakimliyi də onun öhdəsinə qoyuldu və o öz tərəfindən *Şah Məhəmməd Qəllatini* Qəndəhara hakim yolladı.

Hümayun şahın taleyində və Hindistan moğol imperatorluğunun davamında Bayram xanın böyük rolu olmuşdur. 16 yaşından başlayaraq Babur padşaha xidmət edən Bayram xan sonra Hümayun şaha qoşulmuş, onun ən yaxın məsləhətçisi və müşaviri kimi tanınmışdır. *Qaraqoyunlu türkmanlarından olan Bayram xan* şiə məzhəbindən olduğu üçün Hümayun şahı da *şiəliyə* rəğbətləndirdi. (Bax: D-r. Mənüçöhr Parsadust. Göst. əsər, s. 377, 406-407, 424…).

Bu günlərdə əlimə yenicə çapdan çıxmış "Bayram xan Baharlı. Əsərləri" adlı bir kitab düşdü. Tərtibçi və ön sözün müəllifi Ənvər Çingizoğlunun kitaba yazdığı məqaləsini oxuduqdan sonra, professor, AMEA-nın müxbir üzvi olan Rafael Hüseynovun "Baharından ayrı düşən Baharlı"adlı romantik tərzdə yazdığı esse ruhlu əsərini /!/, həmçinin Babaxan Məhəmməd Şərifin "Məhəmməd Bayram xan eşq nəğməkarı" sərlövhəli yazısını oxudum, Bayram xan Baharlı haqqında geniş məlumat əldə etdim.

Bayram xan Baharlı Azərbaycan şairidir! Qaraqoyunlu Qara Yusifin kötükcəsi olan bu xan üç monqol imperatoruna xidmət etmiş, 1554-cü ildə "xanlar xanı" tituluna layiq görülmüş, demək olar ki, Əfqanıstanın çox böyük torpaqlarını

idarə etmiş, Böyük Monqollar dövlətinin vəkilus-səltənə vəzifəsini icra etmiş, azərbaycan və fars dillərində /bəlkə hind dilində də/ şeirlər yazmış, sonralar saray intriqasının qurbanlığına çevrilmiş, 1561-ci ildə öldürülmüşdür.

Mən kitabda Bayram xan Baharlının:

*“Billah ki, əğyar sözü varsa, qərəzdir,*
*Məndən sənə bir söz desə əğyar, inanma”*

beytini oxudum və dərhal onun müvafiq qəzəlinə bir qəzəl-təzmin yazdım:

*Guya ki, unutdum səni, ey yar, inanma,*
*Guya ki, mənə qeyrisi həm var, inanma.*

*“Billah ki, əğyar sözü varsa, qərəzdir,*
*Məndən sənə bir söz desə əğyar, inanma”.*

*Guya ki, bu aşiqdəki rəftar dəyişmiş,*
*Əsla dəyişilməz sənə rəftar, inanma.*

*Guya ki, fəna mülkdə düz əhd yox olmuş,*
*Düzlük mənə ömrüm boyu meyar, inanma.*

*Guya ki, vəfa rəsmini eşqimdə unutdum,*
*Ey aşiqə eşqində vəfadar, inanma.*

*Guya daha təsdiqləmirəm eşqi cahanda,*
*“Guya”lara baş qoşma, a dildar, inanma.*

*Guya edirəm təsdiqi inkar, yalandır,*
*Şahin eləməz təsdiqi inkar, inanma!*

*27.06.2013*

***** **s.912** İrəc Əfşar onun adını “Xədəməli Sultan Xanım Mosullu yazmışdır” (Bax: Tarixe-ələmaraye-Abbasi, C. II, s. 1140).

“Dünyanı bəzəyən Abbasın tarixi”nin I kitabının 490-cı səhifəsində ikinci səfəvi hökmdarının hərəmi Sultan Xanım Mosullunun vəfatı haqqında yazılır: “Bu il cənnətməkan şahın (Şah Təhmasibin – Ş.F.) hərəmi, İsgəndər şanlı nəvvabın (Şah Məhəmməd Xudabəndənin – Ş.F.) və İsmayıl Mirzənin (II Şah İsmayılın – Ş.F.) anası… Sultan Xanım … bəqa aləminə yollandı”. Dr.İrəc Əfşar çapa hazırladığı əsərin “Adlar göstəricisi” hissəsində (Bax: Əsərin fars nüsxəsi, səh. 1140) konkret olaraq bu qadının adının qarşısında yazılan “xədəməli” ifadəsini qeyd etmiş, mən isə o zaman bu ifadənin mənasını dəqiq müəyyənləşdirə bilmədiyimdən, onu öz tərcüməmdə verməmişəm. Demək, “Xədəməli”! Əlim altında olan və kitabxanalardakı mövcud lüğətlərin heç birində “xədəməli” istilahına təsadüf etmədim. “Xədəm” sözünün mənası ərəbcə “xidmətçi” deməkdir. Belə olan halda, əgər “xədəməli” ifadəsini “xədəməla” kimi oxusaq, bu ifadəni “ali xidmətçi”, yaxud “yüksək rütbəli şəxsə xidmət edən xidmətçi” kimi tərcümə edə bilərik, çünki ərəb dilində bəzi şəxs adlarının sonundakı “i” hərfi (məsələn, “Mostəfa”, “Mortəza”, “Musa” və s.), yəni “i” səsi “a” kimi qiraət olunur. Belə olan halda əgər “xədəməli” ifadəsini “xədəməla” kimi oxuyarıqsa, məna məlum olur, yəni “Şah Təhmasibin ali xidmətçisi olan xədəməla” təşbehi yerinə düşür, axı Sultan Xanım Mosullu həqiqətən də ali şəxsin ali xidmətçisi idi.

*** s.914** *Savəri* (sovğar-savərin) – töhfə, peşkəş, mal və ən’am, nəqd pul (Bax: “Əhsənüt-təvarix”, İstilahlar hissəsi, s. 835), Həmçinin bax: Temur tuzukları, Daşkənd, 1996, s. 28 ( Bu kitabın şərhlərini hazırlayan Buri Əhmədov yazır: Savəri- orta əsrlərdə padşah və xanlar, ümumiyyətlə. ali mərtəbəli adamlara təqdim olunan qiymətli hədiyyələr olmuşdur).

**** s.914** “Ulduzlar padşahı” deyildikdə Günəş nəzərdə tutulur.

***** s.914** *Hut -Balıq bürcü.*

****** s.914** *Həməl – Qoç bürcü.*

*** s.918** *Nədim* – xidmətçi. Nədim *sultana, yaxud əmirlərə* yaxın olan şəxs (Bax: M.Moin. Göst.lüğət, IV cild, səh.4698).

**s.918 *Gilək* – gilanlılara "giləkˮ deyilir.

*** s.918 *Kəştiban* – gəmi sahibi.

* s.928 *Qəbəq, qapıq, qəpaq* – Orta əsrlərin idman oyunudur. Meydanda hədəf olaraq bir ağac basdırılır və bir-biriləri ilə yarışan adamlar həmin ağacı ox ilə vururlar. Başqa bir mə'lumata görə, meydanda dikəldilən ağacın başına qabaq (balqabaq – *Ş.F.*) qoyur və yarışan kəslər həmin qabağı hədəfə alırlar. "*Tacül-məsadir*ˮ kitabında "qəbəqˮin "kəduˮ (balqabaq – *Ş.F.*) olduğu yazılıb. Hazırda Tehranda "qəbəqˮ sözü "qapuqˮ kimi tələffüz olunur (Bax: Həsən Rumlu. "Əhsənüt-təvarixˮ, h. 1349 (m.1970), Əbdülhüseyn Nəvai nəşri, s. 838, Şərhlər hissəsi).

* s.931 *Cilov, Cilovdarbaşı* – "Cilovˮ *monqol sözüdür*, mə'nası "*atı idarə edən ağızlıq*ˮ (dəhanə, yaxud *ləgam* deməkdir). Müasir fars dilində "cilovˮ sözü "qabaqˮ, "qabaqda gedən adamˮ mənasını kəsb edir. *Cilovdar* elə bir mehtərdir ki, gərək öz ağasından əvvəl irəliləsin və ona yol göstərsin. *Cilovdarbaşı*, Şardenə gör, *əmiraxurbaşının tabeliyində olub*, şahın daimi mülazimi olan *miraxurun birinci cilovdarıdır*. (Bax: Təzkirətül-mülik, s. 94).

* s.933 *Tərcüman* – cəza vergisi (Bax: D-r Qədir çolkaryan, Göst, lüğət, s. 104).

* s.952 *Qullar ağası* – "Qulamˮ mənasını verən "*qullar*ˮ istilahı altında xidmət edən adamların əksəriyyəti *Gürcüstan*, *Qafqaz və hətta Rusiyanın yerli əhalisindən ibarət idi* (Şarden). Onlara da *qorçilərə xas* silahlar verilərdi. Qulların çox hissəsi xidmətə götürüldükləri bir ya iki nəsil sonra *islamı qəbul edirdilər*. Sayı minlərlə olan qulları *"Birinci Şah Abbas özünün süvari yeniçəriləri"* adlandırırdı. Həmin qulların başçısı isə *"qullar ağası" adlanırdı*. (Bax: Təzkirətül-mülik, s. 28, 55).

* s.965 *Oymaq* – qəbilə, tayfa, dudman cəm şəkli "oymaqatˮ (Bax: M.Moin.Göst.lüğət, I cild, səh.420).

*s.971 *Həffar* – qəbirqazan

**s.971 *Hafiz* – Qur'an oxuyan adam.

***s.974** *Firidun* – pəhləvi dilində "*Freton*" kimi yazılan bu ad rəvayətə görə, Hindistan və İranın müştərək hökmdar obrazlarından biridir. Firidun *pişdadilərin* sülalə padşahlarından olmuşdur. O, *Təhmurəs Dilbəndin* nejadından sayılır. Hələ Firidun südəmər körpə olan vaxt *Zöhhak* onun atasını qətlə yetirdi. Anası *Fəranək* isə oğlunu götürüb uzaq bir yerə qaçdı və körpəsini inək südü ilə böyütdü. Zöhhak münəccimlərdən eşitmişdi ki, o, Firidunun əli ilə öldürüləcəkdir. Buna görə də, daim onu axtarmaqdaydı. Fəranək Zöhhakin qorxusundan Firidunu götürüb *Əlborz dağına* getdi. Oğlu 16 yaşına çatdıqda anasından öz nejadının kimlərdən olduğunu xəbər aldı. Fəranək ana *"Cəmşid və Zöhhak"* dastanını danışıb dedi": "Münəccim demişdi ki, Zöhhakın ölümü Firidunun əli ilə olacaqdır. Sənin atanı o öldürmüşdü və mən səni Zöhhakdan gizlin böyütmüşəm".

Zöhhak isə daim Firidunu axtarmaqda idi. O, bir gün ölkə böyüklərinə belə dedi: "Mənim elə bir düşmənim var ki, hələ az yaşlı bir uşaqdır. Xətərdən qurtulmağımdan ötrü bir sənəd hazırlayın və orada yazın ki, mən yaxşılıqdan savayı heç bir pis iş görməmişəm". Şəhər böyükləri qorxudan elə də etdilər, sözlərinə şahidlər də tapdılar. Bu zaman *Kaveye-Ahəngdər* (Dəmirçi Kavə" gəldi, hirslə Zöhnaka dedi: "Bu necə ədalətli əməldir ki, sən onun iddiasındasan? Mənim 18 oğlum vardı ki, sən onlardan 17-cini ilanlarına yem etmisən, hal-hazırdasa 18-ci oğlum sənin zindanındadır və onu da öldürmək istəyirlər. Mənim günahım nədir?" Zöllak Kavənin oğlunu ona qaytarıb dedi: "Sən də indi bu sənədə şahidlik et". Sənədi götürən Kavə onu cırdı və çölə çıxdı. Adamları ətrafına yığıb, dəridən bir *kavyani bayraq* düzəltdi. Adamlar onun ardınca rəvan olub Əlborz dağına getdilər, Firudunu özlərinə şah etdilər. Zöhhaka hücum edən Firidun onu məğlub etdi, onun əmri ilə Zöhhakı Dəmavənd dağında məhbus etdilər. Firidunun üç oğlu vardı: *Səlim, Tur, İrəc*. Onun geniş məmləkəti onların arasında bölüşdürüldü. (Bax: D-r Moin. Göst, lüğət, c.VI, s. 1360-1361).

***s.975** *Nəqşi-cahan* – İsfahanın adlarından biridir.

* s.978 *Zatülcənb xəstəliyi* – sətəlcəm, ağ ciyər pərdəsinin iltihabı.

* s.983 *Abbasiyyə xəlifələrinin hakimiyyəti dövrü* İraq və Bağdadda 656-1258, Qahirədə isə 1261-1517-ci illəri əhatə edir. (Bax: V.E.Bosfort. Göst., əsər, s. 32-33).

* s.988 *Celdu* – celduy, cəldu, culdu- mükafat, ən’am, töhfə (Bax: Əhsənüt-təvarix, “İstilahlar hissəsi, s.833”.

* s.999 *Tənsuqat* – “Tənsuq” sözünün cəmidir. Ərəbcə bu kəlmə *tənəssöxdür* ki, nəfis və az tapılan töhfə deməkdir. Bu söz tanqsuq, tənziq, təngsuq kimi də işlənir. Onun “*Tanqsuq*” şəklində yazılışı da vardır ki, “qəribə” “təəccüblü (“əcubə”)” mənasındadır. (Bax: Əhsanüt-təvarix, “Şərhlər” hissəsi, s. 830).

** s.999 *Bəyati*, güman ki, bəyat tayfası tərəfindən böyüdülən atlara verilən addır.

* s.1005 *Kədxuda* (kətxuda) – şəhər məhəllələrinin (kvartallarının) böyüyü olan inzibati işçi. O, kəndin ən böyük ağsaqqalı idi. *Məhəmməd ibn Hinduşah* Ordubaddakı *“bazar kədxudaları”* haqqında (“kədxudagane-bazar”) yazmışdır. 1571-ci ildəki Təbriz üsyanı zamanı kədxudalar hökumət nümayəndələri kimi üsyançılara qarşı çıxmışlar (Bax: М.Х.Гейдаров. Социально-экономические отношения и ремесленние организа в городах Азербайджана в XIII-XVII в.в., Bakı, 1987, s. 81-82).

Kədxuda – kənd işlərinin icraçısı, tənzimləyicisi olmuşdur. *Qəbilə başçıları* da “kədxuda” adlanmışlar. *Sənətkarlıq təşkilatlarına* da (Səfəvilər dövründə) kədxuda rəhbərlik etmişdir. *Məhəllə rəisinə* də kədxuda deyilmişdir (Bax:M. Moin. III cild, s.2921).

Kədxuda böyük dövlət adamları və ə’yan-əşrafın işlərini icra edirdi.

*Yeniçəri ocağının* böyük zabitlərindən biri də “kədxuda” adlanır və ona “*qul kədxudası*”, “*ocaq kədxudası*” deyilirdi. Kədxuda bəy *Yeniçəri ağasının müavini* idi.

Yeniçərilərin ağa bölüklərindən birinci bölüyə verilən ad *“kədxuda bölüyü”* adlanırdı (Pakalin. II c. s.251-252).

** s.1005 *Nəqşbəndiyyə* – nəqşbəndilik. Sufiliyin əsas cərəyanlarından biri. XIV əsrdə *Buxarada yaranmış*, sonra isə Orta Asiya, Qazaxıstan, Başqırdıstan, Tatarıstanın bir sıra yerlərində, Qafqazda, həmçinin Hindistan, İndoneziya, Qərbi Çin, Əfqanıstan, İran (kürdlər arasında), Türkiyə, Madaqaskar, Misir və Albaniyada yayılmışdır. *Nəqsbəndi adı* bu təriqətin banisi *Nəqşbəndi Bəhaəddin* ilə əlaqədardır. Nəqsbəndilik ilk dövrdə tərkidünyalıq və yoxsulluğu, bütün mövcudata məhəbbət ideyalarını təbliğ edirdi. Lakin sonralar bu ideyalar var-dövlətin tərifi, mövcud quruluşun himayə edilməsi, dini mütəassiblik və kafirlərə qarşı dini müharibələrin təbliği ilə əvəz edildi. Nəqsbəndliyə görə, yoxsulluq sərvətin yoxluğundan deyil, ancaq ondan mə’nən əl çəkməkdən ibarətdir. *Xoca Übeydullah* (ləqəbi Xoca Əhrar 1403-1490) təriqətin başçısı olarkən bidət və təəssübkeşlik xüsusilə gücləndi. Orta Asiyanın bir sıra elm və mədəniyyət xadimi (*o cümlədən Uluqbəy*) bu irticasının qurbanı oldu. Sonralar nəqsbəndilik bir sıra yerlərdə (*məs. Qafqazda*) dini-hərbi ordenə çevrildi (müridizm). Bu təriqət indi də başlıca olaraq Orta Asiya və Şimali Qafqazda ayrı-ayrı dindarlar qrupu və icmaları formasında qalmışdır (Bax: ASE, c. VII, Bakı, s. 220).

Səfəvilərin ikinci hökmdarı olan I Şah Təhmasibin qızı *Pərixan xanım* da nəqşbəndiliyə mənsub olmuşdur. Qəribədir, deyilmi ? 28 yaşınadək naz-ne’mət içərisində yaşayan, həyatının sonuncu iki ilində daim gərgin həyat tərzi keçirən, 2-3 ay Səfəvi dövlətinin, qeyri-rəsmi olsa belə, gerçək hökmdarı olan Pərixan xanım və nəqşbəndilik hərəkatı.

*Nəqşbəndiyyə* təriqətinin əsasını 11 əsas prinsip təşkil edir: 1.Vüqufi; 2.Vüqufi-əbədi; 3.Vüqufi-qəbi; 4.Huş bir dəm; 5.Nəzər dər qədəm; 6.Səfər dər vətən; 7.Xəlvət dər əncümən; 8.Yadkərd; 9.Bazgəşt; 1.Nigahdaşt; 11.Yaddaşt.

Nəqşbəndiyyə şeyxi *Cəmaləddin əl-Qumuqi* bu təriqətin bir şəxsdən başqa şəxsə ötürülməsini *“qızıl silsilə”* adlandırır. Deməк, Pərixan xanım bu “qızıl silsilə”nin üzvü olmuşdur.

Nəqşbəndiyyə-sufilik, dünya malından çəkinmək və özünü tamamilə Allaha ibadətə həsr etmək təriqətidir ki, mən

bundan çox danışsam mətləb çox uzanar-*Ş.F.* (Bax: Səfəvi hökmdarı I Şah Təhmasibin qızı Pərixan xanımın həyatı və fəaliyyəti barədə bə'zi mə'lumatlar, AMEA Tarix İnstitutunun Elmi əsərləri, 19-cu cild. Bakı, 2007, səh. 25-45).

*** s.1012** *Quşçu (quşçi, quşci)* – ov quşları üzərində nəzarət edən mütəsəddi (Bax: Əhsənüt-təvarix, Şərhlər, s.839).

**** s.1012** *Müşir* – məsləhətçi.

*** s.1013** *Guy* – Qədim "top və çovkan" oyununda istifadə olunan *dəridən düzəldilmiş top*.

**** s.1013** *Yərlığ* – şahanə hökm və fərman (Bax: Əhsənüt-təvarix, Şərhlər, s.845).

**** s.1021** *Şəqavül* – mehmandar, rəsuldar (Bax: Əhsənüt-təvarix, Şərhlər, s. 837). Elxanilər dövründə *hərbi vəzifə* olmuşdur (Bax: M.Moin. Göst.lüğət, II cild, səh.2052).

*** s.1030** *Yərğu (yarğu)* – monqol istilahıdır və *qanun, mühakimə etmək, cəzalandırmaq, edilən günahı araşdırmaq* mənasındadır. Yərğunu aparan şəxsə isə *yərğuçi* (yarğuçi) deyilmişdir ki, bu səlahiyyət qaziyyə müstəntiqinə və qanun hakiminə verilirdi (Bax: Əhsənüt-təvarix, Şərhlər hissəsi, s. 844).

**** s.1030** *Kəltə* – "bəy" ləqəbindən aşağıda duran istilahdır. Bu istilah müasir Əfqanıstandakı özbəklər arasında bu gün də işlənməkdədir – *Ş.F.*

*** s.1040** *Eyde-ezha* – Müsəlmanlar tərəfindən zilhəccə ayının 10-da qeyd olunan bayram (Bax: Nəyyezaman Səqəfi. Göst, lüğət, c.I, s. 84).

*** s.1041** *Ehram* – Həcc ziyarətinə gedən insanların geydikləri ağ libas.

*** s.1044** *Kutəl (kətəl)* – padşah və əmirlərin süvar olduqları atlardan əvvəldə gedən *ehtiyat atlar* (Bax: Əhsənüt-təvarix, Şərhlər hissəsi, s. 841).

**** s.1044** *Qorre* – Məhərrəm ayının adlarından biri (Bax: Nəyyerzaman Səqəfi, Göst, lüğət, c.I, s. 143).

*** s.1047** *Baş və əxtərmə gətirmək* – müharibə və yürüşlər zamanı qarşı tərəfdən öldürülən hər başın kəsilib ortaya gətirilməsinin öz qiyməti vardı.

***
s.1056** *Çaharcu* – Müasir Türkmənistanın Cərcou şəhəridir.

***
s.1058** *Müdərris* – müəllim, dərs verən, Quran oxudan şəxs.

****
s.1058** *Heffaz* – Qur'an oxuyan hafizlər.

***
s.1059** *Qəmərğə (farsca-şikarcərgə)* – şahın şikara başlaması vaxtı əskərlər şikargahın ətraf yerlərində *cərgə ilə dayanır* və ov heyvanlarının cərgədən çıxmalarına imkan vermirdilər. (Bax: "Cərgə" istilahına)

***
s.1065** *Qəlavuzi (qəlavozi)* – yol göstərmək (Bax: Əhsənüt-təvarix, Şərhlər hissəsi, s. 839).

***
s.1067** *Qabus ibn-Vəşmgir* – Ale-Ziyar sülaləsi şahlarından *Kavus ibn Vəşmgir ibn Ziyardır*. Adı Əbülhəsən, ləqəbi *Şəmsül-məali* olmuşdur. (hakimiyyət illəri birinci dəfə hicri qəməri 366-371, ikinci dəfə 388-733-cü illər). O, qardaşı *Bistun ibn Vəşmgirdən* sonra taxta cülus etdi. Dörd ildən sonra taxtdan salınan Qabus bir müddət *samanilərə* (Xorasan və Mavərən-nəhr şahları sülaləsi, miladi 395-1005-ci illər) pənah aparıb Xorasanda yaşamış, sonralar *deyləmi və təbəri* nəslindən olan dostlarının yanına getmiş, Gorganı *Ale-Buye, yaxud Buvey-hilər* (İran və İraq hökmdarları) almış, *Təbəristanın* bir hissə-sinə sahiblənmiş və *Şəmsül-məali* adı ilə xütbəni öz adına oxutmuşdur. O, qəddar, rəhmsiz, qəzəbli şəxs olmuş, asanlıqla edam qərarları çıxarmış, azacıq da olsa şübhələndiyi günahsız adamları dərhal qətlə yetirmişdir. Elə buna görə də, ona qarşı əskərlərin üsyanı baş vermiş və onu tutub zindana salmışlır.

Buveyhilər taxtı ondan sonra oğlu *Fələkül-məali* Mənu-çöhrə qismət oldu, Qabusu isə öldürdülər.

Bu xasiyyətlərə malik olması ilə yanaşı Qabus fazil, ədib, elmsevər və xoş xətti olan bir adam idi. *Sahib ibn İbad* adlı bir şəxs onun xəttini görüb heyrətlənmiş və demişdi: "*Bu Qabusun xəttidir, ya tavusun qanadı?"*. Ərəbcə çox gözəl nəsr əsərləri vardır. Fars və tazı (ərəb-*Ş.F.*) dillərində şe'rlər də yazırdı. *Əbu Reyhan Biruni* "Asarül- baqiyye" kitabını ona ithaf etmişdir.

Qabusun əsərləri Əbülhəsən Əli ibn Məhəmməd Yəzdadi tərəfindən *"Kəmalül-bəlağə"* adı ilə nəşr olunmuşdur (Bax: D-r. Moin, Göst, lüğət, c.V, s. 1412-1413); həmçinin bax: K.E.Bosfort. Göst, əsər, s. 137- 140).

*** s.1073** *Həmesale* – Bu vergi növü haqqında Şarden, Kempfer, V.Minorski, İ.Petruşevski, d-r Moin, T.Musəvi və başqa müəlliflər məlumat vermişlər. V. Minorski "Təzkirətül-müluk" əsərinə yazdığı şərhlərdə həmesaea barədə Şardenə və Kempferə əsaslanaraq belə məlumat verir: Ayrı-ayrı şəxslərə verilən baratlardan ən yaxşısı *"həmesale baratı"* ("bərate-həmesale") adlanırdı. Bu baratla insanlara illik pul məbləği müəyyən olunur və sadir edilirdi. V.Minorskiyə görə, həmaesale barədə Kempferin və Şardenin məlumatları bir-birlərindən fərqlənir, Kempfer yazır ki, həmesale-kənd vergilərinin azaldılmasıdır. Yenə də Şardenə görə bir il üçün müəyyənləşən *yeksale adlı* barat da vardı (Bax: "Təzkirətül-müluk", s. 163).

İran tədqiqatçısı d-r Moin yeksale baratının *"salyanə"* adlandığını bildirir və bu baratın hər il təzədən yazıldığını qeyd edir (Bax: D-r Moin. Göst, əsər, c. IV, s. 5199).

**** s.1073** *Çobanbəyi vergisi* – mal-davar hesabına toplanan vergi istilahı olmuşdur. Həsən Zərinəzadəyə görə, Azərbaycan dilindən fars dilinə keçməsi nəticəsində təhrif edilən bu istilah əslində *"çoban payı"* kimi işlədilmişdir. (Bax: T.M.Müsəvi. Göst., əsər, s. 57).

V. Minorski "çobanbəyi" adlanan verginin heyvanlarla əlaqədar olduğunu yazaraq onun monqollar dövründəki "*qopçur*" vergisinə oxşadığını bildirir (Bax: "Təzkirətül-müluk", s. 215), Bunu təstiq edən T. Musəvi "Çobanbəyi"nin "qopçur" olması qənaətinddir. Bu müəllifə görə çobanbəyi vergisi ətlik qoyun və quzuların sayına görə bəzən cins vergi şəklində boğaz qoyunları isə dəyərinə görə nəqd pul şəklində alınarmış. *Alessandrinin* yazdığına görə, I Şah Təhmasibin hakimiyyətinin son dövrlərində 40 baş qoyundan 15 bisti məbləğində çobanbəyi vegisi yığılırmış. Qopçur vergisi monqolşünas alim kimi təbii ki, *prof. V.Z.Piriyevin* də

diqqətini özünə cəlb etmişdir. "Qopçur"un "*qupçur*" kimi də işləndiyini qeyd edən müəllif yazır: "Monqol sözü olan qopçur termini ilə ilk vaxtlarda ilxı və sürülər üçün ayrılmış otlaqlar nəzərdə tutulurdu". Qopçurun ilk mə'nasına uyğun olaraq onun otlaqlarla yanaşı otarılan heyvanlardan alınan 1 faiz həcmində vergi olduğu da qeyd edilir.

Qopçur *xüsusi vergi kimi* monqol dövlətlərində müxtəlif mənalar kəsb etmişdir. Bu hal ölkədə təsərrüfat formalarının dəyişilməsi ilə bağlı idi. Qopçur vergisi hər bir heyvan növünün *100 başından biri hesabı* ilə toplanırdı.

Elxanilər zamanında qopçur əsasən *kənd əhalisi və köçərilərdən* alınırdı. Lakin həmin verginin şəhər sakinlərindən də toplandığı barədə faktlar az deyildir. Azərbaycanın şəhər əhalisindən qopçur toplanıldığı *Bakıdakı Cümə məscidinin minarəsində* həkk edilmiş kitabədə daha bariz şəkildə nəzərə çarpır. Kitabədə monqol hökmdarı *Məhəmməd Xudabəndənin* Bakı əhalisinin qopçur, eləcə də sərani, nefti, urfi və s. vergilərdən azad edildikləri barədə fərmanı həkk edilmişdir.

Qopçur XIV əsrin II yarısından tədricən aradan çıxmağa başlayır. Həmin dövrdə mülk torpaqlarının çoxalması nəticəsində bu ərazilərdən vergi toplanılması da köhnə monqollaraqədərki formalarda həyata keçirilir. Qopçur isə müəyyən dövr ərzində *köçərilərdən* tutulsa da, XV əsrdən başqa adlarla (məvaşi, mərai, başpulu və s.) toplanılır. (Bax: Vaqif Piriyev. Azərbaycan XIII-XIV əsrlərdə, Bakı, 2003, s. 217-219)

İlk mənbələrdə çobanbəyi vergisinin icarədarı (mustəcire-vocuhe-çupanbigi) sözlərinin işlədilməsi göstərir ki, bir sıra vergilər kimi bu verginin toplanılması işi də bəzən hökümət tərəfindən ayrı-ayrı şəxslərə icarəyə verilirmiş. Bu vergini toplayan mə'mur (zabete-vocuhe-çupanbigi) maldarlardan həm hökümət üçün müəyyn olunmuş vergini toplayır, həm də, özü üçün "*haqq pulu*" (mostəmərri) götürürmüş (Bax: T.Musəvi. Göst., əsər, s. 58-59).

*** s.1079** *Qənaət* – Ariflərin təbiri ilə deyilərsə *qismətlə razılaşmaqdır*. Qənaət-nəfsin tanınmasıdır, aza qane olmaqdır, çoxdan tamahını çəkməkdir. Qənaət edən adamın nəsibi əbədi rahətlik olar.

*Əbu Turab Nəxşəbi* deyir: Qənaət-xudavənd tərəfə getməkdən ötrü qüvvət toplamaqdır.

*Şah Nemətullah* yazır: Qane o adamdır ki, nəfsani şəhvətdən və heyvani ləzzətdən həmişə aralıdır (Bax: D-r Seyid Cəfər Səccadi. Göst., əsər, s. 646)

*** s.1083** *Kurneş* – tə'zim etmək mənasını verən monqol istilahıdır.

*** s.1086** *Səhra cəngi* – qarşı-qarşıya şəhərdən kənar döyüş.

*** s.1088** *Məsiha = İsa* – İsa ibn Məryəm. *Ləqəbi Məsihdir*. 749-cu rum ilində, yaxud hicrətdən əvvəl 622-ci ildə doğulmuş, yeni məsihi tarixi ilə 30-cu ildə çarmıxa çəkilmişdir. Xristianlar onu "*Xrist*" adı ilə ləqəbləndirirlər və əsasən ona "*Allahın oğlu*" deyirlər. Müsəlmanlara görə o, *Məhəmməddən əvvəlki peyğəmbərlər zümrəsindəndir*. İsa Rum valisi *Herodes* tərəfindən təhdid edildiyindən, ailəsi onu *Misirə* apardı. Oradan qayıtdıqdan sonra *Nasiridə* məskən salan İsa gəncliyini orada keçirdi. 30 yaşında ikən *Cəlil adlı yerdə* öz əqidəsinin təbliğinə başladı, sonra isə *Yerusəlimdə* (Beytülmüqəddəs) bu fəaliyyətini davam etdirdi. İsa bu şəhədə *Farisianın* (Parisiens) ədavətinə məruz qaldı. *Yəhuda* adlı onun bir *həvarisi* (həvari-həbəş sözü olub "*sadiq dost", "peyğəmbərə səmimi xidmət edən yolaş"* mə'nasını verir. İsa dinini təbliğ edənlərə ümumiyyətlə "həvari" deyilirdi-*Ş.F.*) *30 gümüş sikkə rüşvət alaraq* İsaya xəyanət etdi və mühakimə edildikdən sonra bu peyğəmbər çarmıxa çəkildi.

Məsihilərə görə, bir neçə *Qüds qadını* Məsihi dəfn etdi, amma *3 gündən sonra təzədən dirildi və 40 gün keçəndən sonra asimana qalxdı*. Onun həvariləri məsihiyyə dininin təbliği üçün bir neçə dəstə olub dünyanın müxtəlif yerlərinə səpələndilər.

*İsanın ömrü 33 il olmuşdur* (Bax: D-r Moin. Göst., lüğət, c. V., s. 1222-1223).

ASE-də isə İsa barədə yazılır: İsa – İisus – Xristos *xristianlığın* əfsanəvi banisi. Xristian tə'liminə görə İsa "*allah-insan*"*dır* və *"allahın oğludur"*. Rəvayətə görə Roma impe-

ratoru *Avqustun* dövründə *Fələstinin Vifleyem şəhərində* doğulmuş, *İudeya, Qalileya, Samirə* və başqa yerlərdə yeni dini təlimi təbliğ etmiş, çarmıxa çəkilmiş, sonra diriləræk qeyb olmuşdur. İsaya e'tiqad xristianlığın əsas ehkamlarındandır (Bax: ASE, c. IV, 1980, s. 526).

*** s.1114** *Rikab* – Şah qoşunun süvariləri (*rokkab*) olmuş və onlar hərbi səfərlər zamanı daim hökmdarı *müşayiət etmişlər*.

"Rikab" istilahının lüğəvi mə'nası "*üzəngi*" tutmaqdır ki, rikabdarlar şah və əmirlərin daim xidmətində olmuşlar (Bax: Fərhənge-zəbane-taciki, Moskva, II cild, 1969, səh.138; həmçinin H.Səqəfi. Göst.lüğət, I cild, səh.822).

Səfəvi və osmanlı hökmdarlarının xidmətində olan rikaba "*rikabe-hümayun*" deyilirdi. Padşah ilə səfərə yollanan mə'mur səfəvilərdə "*rikabdar*", *osmanlılarda isə "Rikab ağası"* adlanırdı. Türk tədqiqatçısı *Mehmet Zəki Pakalın* "rikabdar" istilahının dövlətdə İldırım Bayazid dövründə işlənməyə başladığını ehtimal edir. Ordu dəftərdarının (maliyyə işlərinə nəzarət edən mə'mur – Ş.F.) vəkili "*rikab dəftərdarı*" yaxud "*rikabe-hümayun dəftərdarı*" adını daşıyırdı.

"Rikab" istilahı ilə bağlı "*rikabiyyə*" adlanan başqa termin də vardı ki, səfərlər zamanı padşaha təqdim olunmaq üçün gətirilən *hədiyyələr* belə adlanırdı (Bax: Z.Pakalın. Osmanlı tarix deyimləri və terminləri sözlüyü (türk dilində), III cild, səh.44-47). Qeyd etməliyəm ki, bu faydalı sözlük İstanbulda müxtəlif illərdə *üç cild* halında nəşr olunmuşdur:

I cild – 1951;

II cild – 1951-53;

III cild – 1954-56.

**** s.1114** *Bukavul* – Tarixi ədəbiyyatda bukavul barədə mövcud olan mülahizələr onun *şənlik təşkilatçısı, süfrəyə və xörəyin dadına baxan, saqi və s.* olduğunu göstərir. Lakin, XIII-XIV əsr mənbələrinin mə'lumatından göründüyü kimi, bukavullar ordu hissələrində çox yüksək *mövqe tutmuşlar. Məhəmməd Naxçıvani* yazır ki, bukavul əmirlərdən sonra ordu hissələrində ən yüksək və böyük hesab olunan şəxsdir. Bukavullar ordunun və ordu hissələrinin quruluşu və effektli

fəaliyyəti üçün dəqiq tədbirlər görməli, *baş divandan* ordu üçün ayrılmış təxsisatı almalı, əldə edilmiş qənimətləri ordu hissələri arasında bölməli, orduda nizam-intizamın möhkəmlənməsinə çalışmalı idilər. Baş əmir istisna olunmaqla bütün hərbi-hey'ət ordu bukavuluna tabe idi. Hər bir *tüməndə* (inzibat vahid – Ş.F.) *tümən bukavulu* var idi. Bukavullar daha kiçik hərbi hissələrdə – minliklərlə (bukavuli-hezare), (bukavuler-səd) fəaliyyət göstərirdilər. Ordu bukavulunun tə'yini barədə hökmdarın xüsusi fərmanı verilirdi. Onun məvacibi *Baş divan hesabına* ödənilirdi (Bax: Vaqif Piriyev. Azərbaycan. XIII-XIV əsrlərdə, Bakı, 2003, s.323-324).

***** s.1114** *Nəcme-Sani* – "İkinci Nəcm" deməkdir. Bu ad altında 1508-ci ildə Şah İsmayıl Səfəvinin vəkili olmuş *Nəcməddin Məs'ud Gilani* nəzərdə tutulur. Bu Nəcm səfəvi qoşununun *şirvanşah Fərrux Yəsar* üzərinə hücumunda iştirak etmiş, mənbələrdə yazıldığına görə vəkilliyi dövründə *böyük hakimiyyət əldə etmişdi*. Onun vəfatından sonra (1509/10) yerinə "*İkinci Nəcm*" adlandırılan *Yar Əhməd Xuzani* keçdi. O, vəkil olmazdan əvvəl "*Birinci Nəcm*"in məsləhəti ilə *şahın vəziri olmuş və "sahibdivan" kimi fəaliyyət göstərmişdir.* Öz vəkilliyi vaxtı şahın e'timadını qazanmış, dövlət işlərinə nüfuz sahibi olmuşdu. *Nəcme-Sani* 1512-ci ildə baş vermiş qızılbaş-özbək müharibəsində *ordu başçısı olmuş*, məğlubiyyətə uğradılaraq *Übeydulla xan Özbəkin əmri ilə qətl edilmişdir* (Bax: O.Əfəndiyev. Göst.kitab, səh.253).

****** s.1114** *Zər'*– ölçü vahididir ki, 104 santimetrə bərabərdir (Bax: N.Səqəfi. Göst.lüğət, I cild, səh.794).

******* s.1114** *Movlana Cəlal Yəzdi* – "Tarixi-Abbasi" adlanan mənbənin müəllifi. Saray münəccimi olmuşdur. Onun əsəri 1576-1611-ci il hadisələrini əhatə edir. Müəllif I Şah Abbasın Azərbaycan və qonşu ölkələrə yürüşləri zamanı bu hökmdarı müşayiət etmişdir (Bax: А.А.Рахмани. Азербайджан в конце XVI-XVII веке, Баку, 1981, с.7).

******** s.1114** *Mənzil* – bir gündə qət olunan uzunluq vahididir. İki duracaq arasındakı məsafəni bildirir (Bax: N.Səqəfi. Göst.lüğət, II cild, səh.650).

* s.1115 *Təvaf* – nəyinsə dövrəsinə fırlanmaq. Şəriətə görə xüsusi dövrə vurmaqla *Kə'bə evinin ətrafına dolanmaq*. Elə təvaf etmək Həcci ziyarət etməyin şərtlərindən biridir (Bax: M.Moin. Göst.lüğət, II cild, səh.2238).

** s.1115 *Herakl (Herakles)* – qədim yunan mifologiyasının ən güclü qəhrəmanlardan biri. Zevsin və Alkmenanın oğlu. 12 qoçaqlıq göstərmiş, Nemeya şirini, Lerna hidrasını öldürmüş, Avgi tövlələrini təmizləmiş, amazonlara qalib gəlmiş və s. Digər əsatir variantlarına görə o, *Promoteyi azad etmiş, Anteyi məğlubiyyətə uğratmış, Allahlarla giqantların mübarizəsində iştirak etmiş* və s. Ölümündən sonra Olimpə aparılmış və əbədi gənclik ilahəsi Hebaya nişanlanmışdı. Herakla sitayiş *Yunanıstanda* geniş yayılmış, sonra *İtaliyaya* da keçmişdi. Qədim Roma mifologiyasında *Herkules* adlandırılırdı (Bax: Azərbaycan Sovet Ensiklopediyası, c. X, Bakı, 1987, s.175). Demək, "*Rövzətüş-səfa*" əsərinin müəllifi Mirxond Heraklın Konstontinopoldan Beytülmüqəddəsə piyada getməsini göstərməklə *12 dəfə* qəhrəmanlıq göstərmiş bu rum qeysərinin *13-cü* qəhrəmanlığını da nəzərə çatdırmışdır (mütərcim). Amma d-r Moinin "Fərhənge-Moin" lüğətinə müraciət etdikdə mənə mə'lum oldu ki, Mirxondun adını çəkdiyi Herakl (Herəql) indicə barəsində yazdığım əfsanəvi Bizans pəhləvanı Herakl deyilmiş. Herakl-Herəqlə gəldikdəsə d-r Moin yazır: "Herəqle-əvvəl. I Heraklius. O, miladi tarixlə 575-641-ci illərdə Bizansın, yaxud Şərqi Rumun *imperatoru* olmuşdur. Herəql Kappadokiyada doğulmuşdur. Atasının adı da *Herəql* idi. Herəql atasının köməyi ilə Fukası taxtdan devirdi (m. 610-cu il) və özü imperator oldu. İranlılarla müharibədə məğlubiyyətə uğrayaraq Şam, Fələstin və Misiri əldən verdi, iranlılar Konstantinorolu (Qəstəntəniyyə) mühasirə etdilər. Herəql özünün ilk hücumunda bu ölkələri geri almağa müvəffəq olmadı, amma ikinci hücumu zamanı (m.623-628) iranlıları məğlub edərək *Sasani şahənşahı Xosrov Pərvizi öldürdü, Beytülmüqəddəsi iranlılardan geri aldı* (m.629). Elə o il müsəlmanlar Şama hücuma keçib *Dəməşqi (m.635), Fələstini (m.639), Beynünnəhreyni və Misiri* tutdu-

lar. Herəql səltənətinin axırında xanəneşin oldu (Bax; D-r. Moin. Göst.lüğət, c.VI, s.2268). Biz d-r Moinin izahında Mirxondun yuxarıda yazılan mə'lumatına təsadüf etmədik. Deмək, adları çəkilən Heraklların birincisi mifoloji, ikincisi isə real obrazlardır.

***** s.1115** *Bə'sət* – lüğəvi mə'naları: diriltmək; göndərmək; maraq oyandırmaq. Məb'us olmaq peyğəmbərə xasdır. Beləliklə, bə'sət – Allah tərəfindən Məhəmmədin peyğəmbər kimi göndərilməsidir (Bax: M.Moin. Göst.lüğət, I cild, səh.549).

****** s.1115** *İstanbul* (yunanca istin polis – şəhərə gedirəm). Türkiyədə ən böyük şəhər. Mərmərə dənizi yaxınlığında, Bosfor boğazının hər iki sahilindədir. Şəhərin çox hissəsi Avropada, az hissəsi Asiyadadır. 1453-cü ildən 1923-cü il oktyabrın13- dək Türkiyənin paytaxtı idi. Osmanlı imperiyasının tənəzzülü dövründə (XVII əsrin sonundan) İstanbul Avropa dövlətlərinin mübarizə obyekti oldu.

İstanbulun iki qit'ədə yerləşməsi, Avropa hissəsinin Mərmərə dənizinin uzunsov (9 km) Xəlic körfəzi ilə iki zonaya bölünməsi onun şəhərsalma quruluşuna təkraredilməz xüsusiyyət verir. İstanbulun ən qədim abidələri Xəlicin (Qızıl Buynuz) cənubundakı Eminyönü (Köhnə şəhər) rayonundadır. Xəlicdən şimalda isə İstanbulun ticarət və mədəni mərkəzi olan Bəyoğlu (Yeni şəhər) yerləşir. Asiya materikində şəhərin üçüncü hissəsi – Üsküdar rayonu salınmışdır. Şəhərin me'marlıq simasını üç dövrün tikililəri təşkil edir. Bizans dövründən şəhərin qədim divarları (V əsr), saray xarabaları (Təkfur sarayı və s.), cıdır meydanı (Atmeydan), "Yeddiqüllə" adlanan istehkam, Qalata qülləsi, Ayasofiya mə'bədi, 336 və 224 mərmər sütundan ibarət "Yerəbatan" və "Min bir dirək" su xəzinələri (VI əsr), sonralar məscidə çevrilmiş bir sıra mə'iəd (Qəhriyyə camesi və s.) qalmışdır. Osmanlı imperiyasının paytaxtı olduqdan sonra orada böyük inşaat işləri aparılmış, 500-dən artıq məscid tikilmişdir. Bayazid camesi (1501), dördminarəli Süleymaniyyə (1550-57) və altıminarəli Sultan Əhməd (1609-16) məscidləri dünya me'marlığının şah əsərlərindəndir. (Bax: ASE, cild IV, səh.568).

* s.1116 *Leylətülqədr* – Qədr gecəsi (ramazan ayının 17, 19, 21, 23 və 27-ci günlərinin axşamı). Bax: Nəyyerzaman Səqəfi. (Göst.lüğət, II c., s.453).

* s.1117 *Divanbəyi* – Bu istilahın mə'nasını açmazdan əvvəl "*divan*" təşkilatının nə olduğuna diqqət yetirmək lazımdır. Divan – 1. Ərəb istilalarının ilk dövründə *xəlifə Ömərdən* (634-644) başlayaraq dövlət gəlirinin qeydə alındığı, siyahıların saxlanıldığı yer; 2. Əməvilər və Abbasilər dövründə vergilər və maliyyə işləri ilə məşğul olan dövlət idarəsi; 3. *Osmanlı imperiyasında* böyük vəzirdən, müftidən və b. vəkillərdən ibarət dövlət şurası; 4. *Dunay knyazlıqları Moldova və Balaxiyada* dövlət şurası, ali məsləhətçi və icraçı orqan. *Rumıniya yarananadək* (1859) Buxarestdə, Krayevoda və Yassıda ali məhkəmə orqanları da *divan* adlanırdı; 5. Bə'zi müsəlman ölkələrində *inzibati və məhkəmə işləri üzrə hökümət idarəsi*.

Səfəvilər və Qacarlar dövründə divan başçısı belə adlanırdı. *Şəhər məhkəmə orqanları da* divanbəyiyə tabe idi. Divanbəyi *divanxanalarda əyləşən ən böyük vəzifə sahibi* idi (Bax: M.Moin. Göstlüğət, II cild, səh.1599).

*Divan* – erkən orta əsrlərdən Azərbaycanda da mövcud olmuşdur. Səlcuqilər, Eldəgəzlər, Elxanilər, Cəlairilər, Şirvanşahlar, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər dövründə dövlətin və təsərrüfatın bu və ya digər sahəsinin idarəsini özündə cəmləşdirən müxtəlif divanlar mövcud idi. Tarixi əsərlərdə *20-yə yaxın divan* adı çəkilir. Ümumi idarə işləri vəzirin (sahibdivanın) başçılıq etdiyi "*Ali Divan*" tərəfindən aparılırdı. "*İstifa Divanı*" maliyyə işlərinə baxırdı. *"İncu Divanı" və ya "Divani-səltənət"* hökmdara və onun ailə üzvlərinə məxsus *incu torpaq sahələrinin* və saraya aid işlərin, "*Vəqf Divanı*" vəqf torpaqlarının idarəsi, "*İmarət Divanı*" tikinti işlərinin aparılması ilə məşğul olurdu. "*Xalisə Divanı*" torpaqları icarəyə verir və vergi toplayırdı. "*Divani-İnşa*" fərmanları, müxtəlif sənədləri, mühüm məktubları yazır, onların üzünü köçürüb mühafizə edirdi. *Hər vilayətin öz divanı var idi*. Rəisi vəzir tərəfindən tə'yin edilən *vilayət divanları mərkəzi divana tabe olurdu. Xanlıqlar dövründə*

daxili və xarici siyasət məsələləri ilə məşğul olan divanlara *divanbəyi* başçılıq edirdi (Bax: ASE, III cild, səh.439-440).

* s.1118 *Mavərənnəhr* – Adının mə'nası "çayın o tərəfində olan" kimi tərcümə olunan Mavərənnəhr orta əsrlərdə *Amudəryanın sağ sahilindəki vilayətlərin ümumi adı olmuşdur.* Sonralar bu ad altında Amudərya və Sırdərya çayları arasındakı *vilayətlər* nəzərdə tutulurdu: Səmərqənd, Buxara, Xöcənd (Bax: ASE, VI cild, səh.281).

** s.1118 *Türküstan* – XIX-XX əsrin əvvəllərində müasir Orta Asiya və Qazaxıstanı, mərkəzi Asiyanın *türk xalqları yaşayan hissəsini* əhatə edən tarixi-coğrafi vilayət. Şərti olaraq *Qərbi və ya Rusiya, Şərqi və ya Çin, Cənubi və ya Əfqanıstan Türküstanına bölünürdü.* Rusiyaya birləşdirilmiş *Qərbi Türküstanda* 1867-ci ildə Türküstan general-qubernatorluğu təşkil olunmuşdu. 1886-cı ildən rəsmi adı *Türküstan ölkəsi* oldu. 1918-ci ilin aprelində *Qərbi Türküstan ərazisində* Türküstan Muxtar Sovet Sosialist Respublikası yaradıldı. "Orta Asiya" Sovet Respublikalarının milli dövlət sərhədlərinin müəyyənləşdirilməsindən (1924-25) sonra "*Türküstan*" termini "Orta Asiya" termini ilə əvəz olundu (Bax: ASE, IX cild, səh.412).

* s.1120 *Qətif* – Bəhreyində qədim şəhər və liman. *Sasanilər dövründə* məşhur yer olmuşdur. Köhnə adı "Gera" olub (Bax: D-r Moin. Göst.lüğət, c.VI, s.1473).

** s.1120 *Bəhreyn* – *İran* körfəzində dövlət. Bu dövlət haqqında ilk mə'lumat *e.ə. III minilliyə aiddir*. Eramızın başlanğıcında *ərəb əmirliyi* idi. IV-VI əsrlərdə isə *Qərmətilər dövlətinin* paytaxtı oldu. XIII əsrdə istiqlaliyyət qazanan Bəhreyn tezliklə *Hörmüz əmirliyinə* birləşdirildi. XIV əsrin əvvəllərində oranı *portuqallar* işğal etdilər, XVII əsrin I rübündə *Səfəvilər dövlətinin* tərkibinə daxil edildi. XVIII əsrin 80-cı illərində ərəb şeyxləri Bəhreynin müstəqilliyini e'lan etdilər. XIX əsrin əvvəllərində *Böyük Britaniya Bəhreyni işğal etməyə başladı*, az sonra oranı öz protektoratlığına çevirdi, əslində isə *Bəhreyn İngiltərənin müstəmləkəsi oldu*. I Dünya müharibəsi dövründə orada İngiltərənin böyük *hərb bazası* yaradıldı. *İran isə* Bəhreyni qanunsuz işğal edilmiş İran ərazisi he-

sab edirdi. XX əsrin 20-ci illərində *Amerika* oraya soxulmağa başladı və Britaniya hökümətinin razılığı ilə 1930-cu ildə *Bəhreyn şeyxi* ilə müqavilə imzaladı, 69 il müddətində neft kəşfiyyatı və çıxarılması üzrə konsessiya aldı. II Dünya müharibəsi dövründə *İngiltərə* Bəhreynə iri qoşun hissələri göndərdi. Müharibədən sonra orada *Milli azadlıq hərəkatı* genş vüsət aldı. 1968-ci ildə Bəhreyn, Qatar və Oman Ərəb Əmirlikləri Federasiyasını yaratdılar. 1971-ci ildə Bəhreyn müstəqil suveren dövlət e'lan edildi. İdarə formasına görə *konstitusiyalı monorxiyadır*. Dövlət başçısı *əmiridir* (Bax: ASE, 1978, c. II, s. 154).

***** s.1120** *Həmdullah Mustovfi Qəzvini* barədə "Tarixe-aləmaraye-Abbasi" kitabının I cildində mə'lumat vermişik.

****** s.1120** *Lölö* – mirvarinin başqa adıdır.

******* s.1120** *Hörmüz* – Fars körfəzi və Oman dənizi arasında yerləşən *İran adasıdır*. Dairəvi şəkli olan torpaqdır. Sah 37 $km^2$-dir. Orada qırmızı torpaq mə'dənləri vardır. Dağlıq və isti yerdir. Əhalisi 4500 nəfərdir. Quyu və yağış sularından istifadə olunur. Əhalisinin peşəsi qızılgül, duz və balıq ovudur. Orada portuqalların inşa etdikləri qədim bir qala da vardır (Bax: D-r Moin. Göstərilən lüğət, c. VI, Tehran, 1378, səh. 2270).

*** s.1122** *Gorgin Milad* – Gorgin iranlı *Milad pəhləvanının* oğludur. Firdovsinin "*Şahnamə*" poemasında əsərin qəhrəmanlarından biri olan *Bijəni* turanlıların zindanına atan adamın Gorgin Milad olduğu yazılmışdır. O İran padşahı tərəfindən *Xarəzmin hökmranı oldu* və öz adına şadlığı şəhər "*Gorgan*" adlandı (Bax: D-r. Moin, Göst., lüğət, Tehran, c. VI, s. 1694).

*** s.1126** *Keyxosrov Kəyani* – Kəyanilər sülaləsinin *üçüncü padşahı*. Siyavuş və Firəngizin (Əfrasiyabın qızı) *oğlu*. Firəngiz, əri Siyavuşun Əfrasiyabın fərmanı ilə ödürülməsindən sonra *Keyxosrov* adlı bir oğlan dünyaya gətirdi. Ağsaqqallar öz əcdadının kim olmasından xəbər tutmamasından ötrü Keyxosrovu Əfrasiyabın əmri ilə *dağa yolladılar*. Əfrasiyab sonra onu *Kəngdej qalasına* göndərdi. Nəhayət, *Gudərzin*

*oğlu* Giv onu axtarıb tapdı və anası Firəngizlə birlikdə İrana gətirdir. Keyxosrov bir müddətdən sonra *Əfrasiyabı* öldürdü. Onun hakimiyyət müddətinin *160 il olduğu* yazılmışdır. Keyxosrovun adı "*Avesta*" kitabının bir neçə yerində çəkilmişdir (Bax: M.Moin. Göst.lüğət, VI cild, səh.1639).

*** s.1127** *Davud*-İsrail padşahı. O, *Şaulun canişini oldu, Fələstin üzərində qələbə çaldı, Beytülmüqəddəsi tə'sis etdi*. Şair və peyğəmbər idi. Özündən sonra onun zəngin ilhamından xəbər verən bir tütək (məzamiz) yadigar qoydu. Tövrata görə, o, Calut adlı div ilə təkbətək döyüşə girmiş və divi bircə zərbə ilə öldürmüşdü (Bax: D-r. Moin. Göst., lüğət, c. V, s. 518).

*** s.1131** *Tüfəngçiye – qədərəndaz* – Qədər (cəmi qüdur), yaxud *qadir (qadirəndaz) sərrast oxatan şəxsə* deyilirdi. Burada isə, təbii ki, sərrast güllə yağdıran mə'nasındadır (Bax: M.Moin. Göst.lüğət, II cild, səh.2644).

**** s.1131** *Qulluqçu* – türk istilahı olub, *nökər və xidmətçi mə'nasını* ifadə edir (Bax: M.Mosin. Göst.lüğət, II cild, səh.2714).

XV-XVI əsrlərdə müharibəyə yollanan döyüşçülərin bir hissəsini də qulluqçular təşkil edirdilər. V.F.Minorski qulluqçunun atlı, ya piyada olduğunu müəyyənləşdirməmişdir, lakin *Şah Təhmasibin* "Təzkirə" əsərində onun *süvari* olduğu yazılır (Bax: Şahin Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə …, səh.72).

*** s.1133** *Murçəl* (müriçal, murçal) – Qalanı tutmaq istəyən əskərlər gərək qalaya gedən yola lağım atsınlar və *lağım altından* çıxan torpağı sipər kimi yuxarı qaldırsınlar ki, qala tərəfindən atılan ox və güllələr onlara dəyməsin. Həmin lağım qala divarının altına qədər çatdırılmalı, divarın altı boşaldılmalı və oraya barıt doldurulmalıdır. Sonra o barıtlara od vurulmalıdır ki, qalanı dağıdıb içəri daxil ola bilsinlər. Bu əməliyyət "*murçəl*" adlanır. Murçəl sözünün başqa bir mə'nası da təxminən yuxarıdakı kimidir: *Əskərlərin pənahı, quyu qazılması, lağım atılması* (Bax: Əhsənüt-təvarix, Ə.Nəvai nəşri, Şərhlər hissəsi, səh. 843).

** s.1133 *Surən* – nalə, səs-küy, əskərlərin hay-haray səsləri (Bax: Şahin Fərzəliyev. Azərbaycan XV-XVI əsirlər…, s. 68).

*** s.1133 *Zərbzən* – kiçik top.

**** s.1133 *Müqtəda* – rəhbər, başçı, təqlid olunan ruhani (dini mərasimi yerinə yetirmək üçün), hörmətli din xadimi (Bax: Həyyerzaman Səqəfi. Farsca-azərbaycanca lüğət, cild II, səh. 616); İmame-Cəmamərasimə (məsciddə namaz qılınan vaxt namaz qılanların önündə dayanıb mərasimə rəhbərlik edən şəxs – Ş.F.) arxasında durmaqla namazı icra edən şəxs (Bax: M.Moin. Göst.lüğət, cild IV, səh.4288).

* s.1134 *Nəqbçi* – Ərəb əlifbası ilə bu sözü "*nəqbəçi*" kimi də oxumaq mümkündür. Azərbaycanca "*lağım*" mə'nasını verən "*nəqb*" istilahı ərəb ismindən düzələn sözdür. *Nəqbəçilər*, yaxud "*nüqqab*" mühasirə vaxtı qala və şəhər divarlarını *lağım atmaq* yolu ilə uçururdular. Həsən bəy Rumlunun mə'lumatına görə, şəhər və qalaların alınmasında *nəqbəçilər* böyük rol oynayırdılar (Bax: Şahin Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə, səh.73).

* s.1139 *Turan* – Amuyyə çayının (Ceyhun) qarşı sahilində (Mavərənnəhrdə) yerləşən torpaqlardır ki, *Xarəzmin* kənarında yerləşmişdir, *məşriqdən Aral gölünədək* uzanır. İranlılar və Turanlılar arasında baş vermiş cənglər milli dastanların mühüm hissəsini təşkil edir. *Turanın padşahı Əfrasiyab* uzun müddət *pişdadi* və *kəyani* şahları ilə savaşmışdır. "Avesta" kitabında həmin cənglərdən söhbət açılmış və qeyri müstəqim olaraq Turan torpaqlarının hüdudları tə'yin olunmuşdur. *Yunanlı Ptolomey* "Tur" adlanan yerin Xarəzmin bir nahiyəsi olduğunu bildirmiş, tarixçi Xarəzmi isə "*Məfatihül-ülum*" ("Elmlərin açarları") əsərində *Turan sərhədinin Ceyhun çayı sahilində olduğunu yazmışdır.* Firdovsinin "Şahnamə"sində isə Turan *"türklərin" və "çinlilərin" məmləkəti* kimi qələmə verilmiş və oranın İrandan *Ceyhun çayı* vasitəsilə ayrıldığı söylənilmişdir. Orta əsrlərin fars və ərəb mənbələrində Turan *Mavərənnəhr torpağı* kimi qeyd olunmuşdur. Şərqşünasların fikrincə turanlılar *Rusiya çöllərində və hazırkı Rusiyanın*

*Asiya ərazisində yaşamış* və Ceyhun (Sırdərya) çayınadək səpələnmiş *tayfalar* olmuşlar. Belə bir fikir də vardır ki, turanlılar və iranlılar *bir sülalədəndirlər*, amma bircə fərqi vardır ki, iranlılar daha tez şəhərlərdə yaşamağa başlamış və daha mədəni olmuşlar, turanlılar isə uzun müddət biyaban və səhralarda yaşamaqlarına davam etdilər (Bax: M.Moin.V cild, səh.399).

*** s.1140** *"Səhra cəngi"* ("Cənge-səhra")- Padşahların üzbəüz döyüşü.

*** s.1148** *Möhür* (mohr) – Gil, mum, surquç, boya vasitəsilə kağız, parça və s. üzərində nişan qoymaq (möhürləmək) üçün *bərk materiallardan (daş, metal, sümük, ağac və s.) hazırlanmış alət*. Möhürün üzərində adətən *gerb, şəkil, işarə, yazı həkk olunur.* Qədim zamanlarda möhür çox vaxt *qiymətli daşlardan* hazırlanırdı (*qliptika*). Möhür mülki bərabərsizlik, siniflər və dövlətin meydana gəlməsi ilə əlaqədar yaranmışdır. Qədim möhürlər qiymətli tarixi mənbədir. Möhürdən ilk dəfə e.ə. V-IV minilliklərdə *Misir və Şumerdə* istifadə olunmuşdur. Silindr formalı bu möhür tipi sonralar bir sıra Yaxın Şərq ölkəsində də yayılmışdı. *Basma möhürlərdən* e.ə. III minillikdən istifadə edilmişdir.

*Azərbaycanda* da işlədilən *ən qədim möhürlər* (silindr formalı) e.ə. II minilliyin sonu – I minilliyin əvvəllərində Yaxın Şərq ölkələrindən gətirilmişdir. Güman ki, bu möhürlərdən *bəzək kimi* istifadə etmişlər. Həmin dövrdə Azərbaycanda günəş və ya onun simvolu təsvir olunan *gil ştamplar* da işlədilmişdir. E.ə. I minilliyin ortalarından başlayaraq *üzük formalı möhürlərdən* geniş istifadə edilirdi. Xüsusi mülkiyyəti olan *hər şəxsin* möhürü var idi. Yüksək vəzifəli şəxslər *bir neçə möhürdən* istifadə edirdilər (ASE, VII cild, səh.81).

Səfəvilər dövründə şahın və əmirlərin möhürlərini "*möhürdar*" adlanan yüksək məqamlı şəxs mühafizə edirdi (Ş.F.).

Səfəvi dövlətində *möhürdar, ya möhür vəziri* həmişə şah məclislərində şaha yaxın əyləşərdi. Şah möhürdarları *üç nəfərdən* ibarət idilər: biri hümayun möhürü saxlayan

"*möhrdare-müqərrəbül-xaqan*" idi; ikincisi "*möhrdare-şərəfe-nefaz*" adlanırdı və bu iki möhürdar şah fərmanları və namələrini möhürləyir, hökmlərə də möhür vururdular; üçüncüsü isə "*Mohrdare-qoşun*" adlanırdı ki, həmin möhrdar qoşun sərdarlarının hökmlərini (əhkam) möhürləyib onları qanuniləşdirirdi (Bax: M.Moin. Göst.lüğət, VI cild, səh.4465).

**** s.1148** *Yasovulbaşı* – İsgəndər bəy Münşinin əsərinin bir yerində bu terminə təsadüf olunur. Bundan başqa orada "*yasovule-söhbət*", "*yasovule-məclis*" istilahları da vardır ki, daşıdıqları vəzifənin elə adından onların daşıdıqları vəzifənin məzmunu açıqlanır (Bax: Tarixe-aləmaraye-Abbasi, I və II kitablar, səh.39,66, 119, 141, 324, 339, 341, 472, 492, 499, 601, 630, 690, 899).

*Qurxanə yasovulbaşı* – Monqol sözü "yasa" (qanun, qayda) istilahının daşıyıcısı "yasovul" adlanır, sarayda və hökümətin nəzarətində başqa yerlərdə öz xidməti vəzifələrini yerinə yetirirdi. Qurxanə (silah ambarı – Ş.F.0 yasovullarının başçısına isə farsca "yasovule-qurxanə" deyirdilər.

***** s.1148** *Möhtəsib*-Dr. Moin bu vəzifəni belə mənalandırır:

1) Şəriətlə qadağan edilmiş işlər üzərində;

2) Din ehkamları üzərində;

3) Ticarət müamilələri üzərində *nəzarət edən mə'mur* və s. (Bax: D-r Moin. Göst., lüğət, c. 3, səh. 3896).

V.F.Minorski möhtəsib vəzifəsini belə şərh edir: Bu vəzifə islamın qədim vəzifələrindəndir ki, onun gördüyü işlər barədə çoxlu dəsturüləməllər mövcuddur. "Təzkirətül-müluk" əsərində möhtəsibin gördüyü işlər belə sadalanır: "*Xasseyi-şərifə*" mülklərində və bazarda nəzarətdən ötrü çalışan mə'mur. Cari və gündəlik işlər siyahısını (fehrest) hazırlayan və tənzimləyən mə'mur (Bax: Təzkirətül-müluk, D-r Seyid Məhəmməd Dəbirsəyaqi nəşri, Tehran, 1378, s. 154).

*** s.1150** *Cəlaləddin Məhəmməd Əkbər* – Moğollar dövlətinin *üçüncü hökmdarı,* Hümayun şahın oğlu, *Baburun nəvəsidir*. Atasının vəfatından sonra (1556) səltənət taxtına 14 yaşlı Məhəmməd Əkbər sahibləndi və *51 il padşahlıq etdi* (1556-

1605). O, taxta çıxbığı il *Panipatı* fəth edərək, sonra *Dehli və Agra* üzərində qələbə çalsa da, *bütün Hindistanı ələ keçirə bilmədi,* çünki oranın qərb sahillərində *portuqallar və başqa Avropa müstəmləkəçiləri* ağalıq edirdilər. Buna baxmayaraq Əkbər şah şimali və mərkəzi Hindistanda qüvvətli bir *imperatorluq* yarada bildi. Onun hakimiyyəti vaxtı vəzirlər və başqa mənsəb sahibləri ümumiyyətlə *siyasi bir oyuncağa* çevrilmiş, məmləkət işlərində heç bir ixtiyara sahiblərə bilməmişdilər. Ordusunun olduqca köhnə və qədim silahlarla təchiz olunmasına baxmayaraq Əkbər şah bütün *Kəşmiri, Gundvananı, Gəcəratı, Racputananı, Əcmiri, Gəvalyuru və Çituru fəth etmiş,* 1600-cü ildə *Dekən və başqa müstəqil şimal nahiyələrini* öz əlinə keçirmişdi. Əkbər şah 1605-ci ildə vəfat etdi və onun yerinə oğlu *Cahangir hökmran oldu* (Bax: Dr.Xanbaba Bəyani. Səfəviyyə dövründə baş verən cənglər (fars dilində), Tehran, h.1379, səh.583-589).

*** s.1151** *Fədəvi (fədai)* – "özünü müqəddəs iş üçün fəda edən, qurban verən şəxs" mənasındadır (Bax: Nəyyerzaman Səqəfi. Göst., lüğət, c. II, s. 167).

*** s.1157** *Cəlalilər hərəkatı* – Rum sultan və paşalarına qarşı baş vermiş siyasi hərəkatdır. Başçıları *Koroğlu* idi ki, bu haqda məlumat veriləcəkdir (mütərcim).

*** s.1159** *Cəlalilər* – XVI-XVII əsrlərdə Osmanlı imperiyasında baş vermiş feodallar əleyhinə *üsyan iştirakçılarına verilmiş addır*. Bu istilah 1518-1519-cu illərdə *Toqatda* başlanan üsyanın rəhbəri *Şeyx Cəlalinin* adı ilə bağlıdır. Cəlali hərəkatı ged-gedə genişlənmiş və Osmanlı ərazilərindən çıxaraq *Azərbaycan ərazisinə də yayılmışdı*. Ayrı-ayrı cəlali dəstələrinə bəzən hökumətdən narazı feodallar başçılıq etsələr də, hərəkatın əsas iştirakçıları kəndli kütlələri olmuşdur. Müxtəlif vaxtlarda feodalların bir çoxu qoşulduqları bu hərəkatdan ayrılaraq, yə'ni üsyançılara xəyanət edərək hökumət tərəfinə keçmiş və kəndli hərəkatının əvvəlcə zəifləməsinə, sonra isə məğlubiyyətinə səbəb olmuşlar. Tədricən Osmanlı qoşunlarına məğlub olan bəzi cəlali dəstələri *Səfəvilər tərəfə* keçməyə başladı. Cəlali qüvvələrindən osmanlılara qarşı mübarizədə

istifadə etməyi nəzərdə tutan *Səfəvi hökmdarı I Şah Abbas* (1587-1629) *Anadolu cəlalilərini* öz imperiyasının ayrı-ayrı ərazilərində yerləşirdi. Lakin, şahın yeritdiyi siyasətdən narazı qalan cəlalilər *tezliklə Səfəvi torpaqlarını tərk etdilər.*

Azərbaycanda Cəlalilər hərəkatı *əvvəllər Osmanlı işğalçılarına, sonralar isə şah hakimiyyəti, yerli bəy və xanlara qarşı* yönəlmişdi. XVI əsrin sonları XVII əsrin əvvəllərində Azərbaycan və qonşu ölkələrdə xeyli cəlali dəstələri fəaliyyətdə idilər. 1591-ci ildə baş vermiş *Təbriz üsyanı* da cəlalilərin adı ilə bağlıdır. Kürd feodallarının köməyinə arxalanan *Təbriz hakimi Cəfər paşa* üsyanı sərt şəkildə yatırdısa da, üsyançıların müxtəlif dəstələri silahlarını yerə qoymadılar. Osmanlıların və yerli feodalların zülm və istismarı varyoxdan çıxmış adamların kütləvi surətdə cəlali dəstələrinə qoşulmalarına səbəb olurdu. *Cəlalilər hərəkatı Çuxur-Səd bəylərbəyiliyi, xüsusilə Naxçıvan mahalı və Arazın hər iki sahilboyu ərazisində daha geniş yayılmışdı.* Azərbaycanda qiyam fəaliyyəti ilə kəskin məşğul olan cəlali dəstə başçılarından *ən məşhuru Koroğlu idi.*

Cəlalilər hərəkatının nəticələri haqında mənbələrdə mə'lumat azdır. Ehtimal ki, yerlərdə işğalçıların və mərkəzi dövlət hakimiyyətinin tədricən möhkəmələnməsi cəlalilərin məğlubiyyətinə səbəb olmuş, sonralar başlayan xalq hərəkatları başqa forma və ad almışdır. Bütün kəndli hərəkatlarına xas olan pərakəndəlik, vahid istiqamətverici rəhbərliyin olmaması və s. Cəlalilər hərəkatı üçün də səciyyəvi idi.

(Ətraflı mə'lumat üçün bax: Azərbaycan tarixi, c. III, Bakı, 1999; *Тверитинова А.С. Восстание Караязыджи-Дели Хасана в Турции, М-Л, 1946; Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI-начале XIX вв, Л, 1949; Рахмани. А.А. Азербайджан в конце XVI и в XVII веке, Баку, 1981;* ASE, c. X, 1987).

**** s.1159** *Paşa* – Osmanlıların ilk dövrlərində "paşa" sözü xanədan üzvləri ilə yanaşı bir qism *idarə adamlarına* verilirdi, amma sonradan hərbiçilərdə "*mire-liva*"ya və ondan yuxarı rütbədə olanlara, mülki işçilərdən isə *vəzirə, bəylərbəyiyə, mirmira-*

*na və əmirül-ümaraya* aid olmağa başladı. "*Ləhceyi-Osmani*" əsərində yazılır: "Paşa-bəyə, baş vəzirlərə və bə'zi əmirlərə (ümara) verilən *rəsmi ünvandır*". "*Qamusi-türki*"də isə oxuyuruq: "Paşa istilahı (sözün əsli türkcə "baş ağa", farsca isə "paye-şah" ("şah ayağı") kəlmələrindən yaranmışdır) osmanlı dövlətində *vəzirlərə və əsasən ali mənsəb sahiblərinə və mülki işçilərə* verilən ünvandır".

Bə'zi kitablarda böyük qardaş "*beşə*" adlanmışdır. Məsələn, Sultan Orxanın böyük qardaşı Əmir Əlaəddinə "paşa" ünvanının verilməsi "*paşa*" sözünün "*beşə*" kəlməsindən götürüldüyünə dəlalət edir.

*Hammer* yazır: " "*Paşa*" istilahının mə'nası Avropada çox az adama mə'lumdur. Bu söz iki kəlmədən ibarətdir – *pay və şah*, yə'ni farsca *hökmdarın ayağı* mə'nasını ifadə edir, çünki paşa *vilayət valiləri, vəzir, əsgər komandanı olmaq e'tibarilə hökmdarın ayaqları* deməkdir".

Başqa mə'lumata görə "paşa" "*padşah*" sözünün qısaldılmış şəklidir.

Türklərdə həmçinin böyük övlada "*paşa*" deyilmişdir.

Paşa tə'biri tə'zim mə'nasında *üləma və şeyxlərə* də aid olmuşdur.

Şair Veysi yazır:

*"Basulmasına dünyanın səbəb paşa ilə bəydir,*
*Fəsadü fitnəyə bais bulardır şübhəsiz hərgah".*

(M.Z.Pakalın, Göst.əsər, cild II, səh.756-758).

* **s.1161** *Mövlana Cəlaləddin Məhəmməd Münəccim Yəzdi* – "Mövlana" istilahı (mövla + na şəkilçisi) "bizim movla" deməkdir. Böyük üləmalar, şairlər, imamlar, həmçinin Misir Fatimilərinə "*mövlana*" deyilirdi (Bax: M.Moin.Göst.lüğət, IV cild, səh.294).

Şah Abbas sarayında məşhur münəccim olan Cəlaləddin Məhəmməd Yəzdi "*Tarixe-Abbasi*" adlı tarixi bir əsər yazmış, orada 1576-cı ildən 1611-ci ilədək baş verən hadisələri əhatə etmişdir. Müəllif bir çox səfərlərdə *Şah Abbası müşayiət etmiş,* gördüklərini qələmə almışdır (Bax: Ə.Ə.Rəhmani. Göst. əsər. səh.7).

*** s.1162** *Lisanül-qeyb* – Böyük fars şairi Hafiz Şiraziyə verilən ləqəbdir.

**** s.1162** *Miyanc* – Miyanə şəhərinin əski adıdır.

*** s.1164** *Əhli-beyt* – Məhəmməd peyğəmbərin ailə üzvlərindən peyğəmbərin özünə, qızı Fatiməyə, İmam Əli, Həsən və Hüseynə aid istilahdır.

**** s.1164** *Salyanə* – illik mükəlləfiyyət olmuşdur.

*** s.1170** *Culah* – Güman ki, Culfa şəhəridir.

**** s.1170** *Tərakomat* – "Tərəkəmə" sözünün cəm halıdır. Tərəkəmələr azərbaycanlıların etnogenezində iştirak etmiş *türkdilli tayfa üzvləri olmuşlar.* Əvvəllər *Sırdəryanın sağ sahilində yaşamış* və ərəb istilalarından sonra "*türkmən. türkman*" adlandırılmış oğuz türkləri XI əsrdən İran, Zaqafqaziya, Kiçik Asiya və Mesopotamiyaya yayılmışdılar. *Azərbaycanda* Kür-Araz ovalığı, Mil-Qarabağ, Muğan və Şirvan düzlərində yaşayan, icma halında yaşayan və icma halında yaylağa gedən tərəkəmələr həm də *əkinçiliklə* məşğul olurdular. Tərəkəmələrin kənddə qalan hissəsi aranda biçini qurtarır, payız əkininə hazırlıq görürdü. Tərəkəmələr əsasən heyvandarlıq məhsulları (yağ, pendir, yun və s.) istehsal edir, onları taxıl və sənətkarlıq məhsulları ilə dəyişirdilər. Xalçaçılıq, toxuculuq və s. də tərəkəmə ailələrində inkişaf etmişdi (Bax: ASE, IX cild, səh. 257).

*** s.1173** *Şirhacı* – top növüdür.

*** s.1174** *Balyeməz* – topun başqa bir növü olmuşdur.

*** s.1175** *Dey ayı* – İran şəmsi ilinin 10-cu ayıdır (22 dekabr – 21 yanvar).

*** s.1177** *Sahibqran* – burada Əmir Teymura işarədir.

**** s.1177** *Gürəkani* – yenə də Əmir Teymur xanədanı nəzərdə tutulur.

*Şahsevən* – Azərbaycanlıların etnoqrafik qrupu. *Cənubi Azərbaycanın şimal-şərqində, Savalan dağı və Qarasu çayı arasındakı ərazidə, qismən də Şimali Azərbaycanın cənubunda* məskunlaşmışlar. I Şah Abbas Azərbaycanın güclü tayfa başçılarının mərkəzi hakimiyyətə tabe olmamaq cəhdlərinin qarşısını almaq və mərkəzi hakimiyyəti gücləndirmək *məqsədi ilə* bə'zi tayfaları (əfşar, qacar və b.) öz tərəfinə çəkərək "*şahsevən*" adlı xüsusi şah qvardiyası yaratdı. Səfəvilər dövlətinin əsas hərbi qüvvəsinə çevrilən şahsevənlər sonralar *Azərbaycanın siyasi həyatında* mühüm rol oynamışlar. Ərdəbil, Muğan, Qəzvin və s. ərazilərlə şahsevənlərə xeyli torpaq sahələri bağışlanmışdı. XIX əsrin sonunda şahsevənlərin əksəriyyəti oturaq həyata keçdi. Maldarlıq, toxuculuq, qismən əkinçiliklə məşğuldurlar. Onlarla tayfa, tirə və qoldan (dursunxocalılar, məstalıbəylilər, zərgərlilər, quzatlılar, iranlılar, rzabəylilər, poladlılar, talışmikayıllılar, novruzəlibəylilər və b.) ibarətdirlər (Bax: ASE, X cild, səh.478).

Şah Abbas dövründə bə'zi *qeyri-müsəlman xalqlar da* şahsevən (şahisevən) olmuşlar ki, "Tarixe-aləmaraye-Abbasi" əsərində bu haqda mə'lumat vardır.

*** s.1183** *Mesq Gürcüstanı* – XVI əsrin əvvəllərində *Gürcüstan* bir dəfəlik olaraq Kartli, Kapxetiya, İmeretiya çarlarına və Şamsxe-Saatabaqo kinyazlığına bölündü. Qızılbaşların əsas yürüşləri Kartli, Kaxetiya və Mesxiya (Mesq-Ş.F.) üzərinə olurdu (Bax: O.Əfəndiyev. Göst.əsər, s.105).

*** s.1185** *Mən (batman)* – Çəki vahidi olub, təxminən 3 kiloya bərabərdir (Bax: Nəyyerzaman Səqəfi. Göst, lüğət, c. II, səh. 643).

*** s.1186** *Minbaşı* – Min nəfərə başçılıq edən *rəis* (Bax: M.Moin. Göst.lüğət, IV cild, səh.4512).

*** s.1191** *Qolame – xasse* (qolame-xasseye - şərifə) – M.Moin "qulam" ifadəsinin bir neçə mə'nasını göstərir: nökər, bəndə, qul (əbd); kəniz, cariyə; xidmətçi, yə'ni hələ həddi-büluğa çatmayan şahzadələrin xidməçisi (pişxidmət); sarayın daxilində (əndərun) şaha xidmət göstərən adam, yə'ni şaha qəlyan verən, aftafa gətirən, güldan hazırlayan; türk nejadlı qulam;

müxtəlif məclislər zamanı padşahın arxasında duran xidmətçi "*qulame-xassə*" adlanırdı; hökmdara xidmət göstərməkdən ötrü məxsusi olaraq sarayda tərbiyət olunan gənc oğlan (Bax: M.Moin. Göst.lüğət, II cild, səh.2423).

* s.1203 *Sekban (səkban, səqban)* – "Tarixe-aləmaraye-Abbasi"nin Tehran çapının naşiri *İrəc Əfşar* "sekban" sözünün qarşısında (bax: "Göstəricilər" hissəsi, səh.1218) "*ləşkəre-xassə*", yə'ni "*xüsusi ləşkər*" izahını yazmışdır. M.Z.Pakalın isə yazır: "Yeniçəri ocağının bir-birindən ayrılmış *üç qismindən birinə "sekban", iki qisminə isə "Ağa bölükləri" və "Camaat"* adı verilmişdi. "Sekban" sözünün lüğəvi mə'nası "*köpək mühafizəsi*" deməkdir. Amma, İsmayıl Haqqı Uzunçarşılı bu fikirlə razılaşmır. Sekbanların ev üçün köpəkləri bəslədiklərinə görə bu mə'na müvafiq görülürsə də, "*Divane-Luğatüt-türk*"dəki "sekban" sözünün "*sekman*" sözü ilə bağlı olması ehtimalı vardır. Sekmanın mə'nası isə "*müharibə səflərini yaran igid*" deməkdir". (Bax: M.Z.Pakalın. Göst.əsər, III cild, səh. 145). Amma, Pakalın İsmayıl Haqqı Uzunçarşılı ilə razılaşmır: "Professorun bu mülahizəsi diqqətə dəyər, amma sekbanlar ev məqsədilə təşkil olunmuş dəstələr idi ki, İsmayıl Haqqı Uzunçarşılı bunu əsasən qəbul edir. Hammer də sekban ifadəsinin ev ilə əlaqədar olduğunu bildirir".

Sekbanlar hökmdarla birlikdə səfərə gedərdilər. Sekbanların silahı bir qılınc və bir tüfəngdən ibarət idi… Yaz mövsümündə məhsulun mühafizəsinə başlayanlara da sekban deyirdilər.

Cami yazır:

"*Necə bir nəfsə uyub bir səgə səgbanlıq edəm?*
*Yeridir fəqrü fəna mülkünə sultanlıq edəm*".

Sekban dəstələrinə *sekbanbaşılar* başçılıq edərdilər. (Bax: M.Z.Pakalın. Göst.əsər, III cild, səh.145-147).

* s.1207 *Roxam* – oniks dağıdır. Əfqanıstanda zəngin oniks mə'dənləri var – Ş.F.

* s.1208 *Qapudan (qabudan)* – Dəniz qüvvələrinin ümumi komandanı belə adlanmışdır. Osmanlı dövlətinin təşəkkülündən az sonra bu dövlət hüdudlarının dəniz *sahilində olması* və

osmanlıların çox keçmədən dənizləri aşaraq qarşı tərəfdəki yerləri zəbt etmələri səbəbindən gəmilər düzəltmək və onları idarə edəcək rəislər yetişdirmək məcburiyyəti ortaya çıxdı. *İlk gəmilər hazırlananda* hər gəmi başçısı "*Dərya bəyi*", sonradan isə dərya bəylərinin rəisi əvəzinə italyan sözü olan "*kapitan*"la əvəz olundu, gəmi rəislərinə "*qapudane-dərya*", daha sonrasa "*qapudan paşa*" deyilməyə başladı (M.Z.Pakalın. Göst.əsər, II cild, səh.182).

*** s.1209** *Əqrəb ayı* – 24 oktyabr-22 noyabr.

**** s.1209** *Ceddi ayı* – 22 dekabr-20 yanvar.

*** s.1212** *Üçkəlisa* – Eçmiadzindir.

*** s.1213** *Vadi çayı* – Vedi çayıdır.

*** s.1214** *Qolavuzi* – Bu istilahın bu oxunuşları da vardır: *qolavöz, qəlvöz, qolbuz*. Mə'nası – qoşunun önündə gedən *şəxs; bələdçi. Mövlana Cəlaləddin Rumi* yazır:

*"Yolda hər kəs ki, qəlavuzsuz ola,*
*Hər günü sanki yüz ildir ol kəsin".*[1]

Qolavuz sözünün başqa mə'nası isə "*qoşun himayəçisi, qarovulu*" deməkdir. Böyük şair *Nasir Xosrov Dəhləvi* deyir:

*"Qolavuz zəhmətə olmazsa qail,*
*Tikinlar bürüyər gülzar gülünü".*[2]

Qolavuzun *vəzifəsi* qolavuzilik (qolavuzi) etməkdir (Bax: M.Moin. Göst.lüğət, II cild, səh.2706).

*** s.1216** *Yasaq* – Ordu ilə əlaqədar olan istilahlardan biri də "*yasaq*"dır. Şahın asılılığında olan əmirlərin hamısı əmr alan kimi ətraf yerlərdən *qoşun toplamağa* başlayırdılar

---

[1] Beytin farscası:

"Hər ke dər rəh biqolavuzi rəvəd,
Hər do ruze rah səd sale şəvəd".

[2] Beytin farscası:

"Bizəhməte-qolavuz xar, ey dun,
Key dəst midəhəd gole-golzarəş?".

ki, *bu əməliyyat yasaq* adlanırdı. Yasaqın icrasından ötrü əyalətlərə əmirlər və yüzlərlə mülazim göndərilirdi (Bax: Şahin Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə …, səh.70).

* s.1220 *Fərah* – müasir Əfqanıstanın vilayətlərindən biridir – Ş.F.

* s.1221 *Əmir Nəsirəddin Səboktəkin* (m. 977-997) – K.E.Bosvort onu samanilərin canişini *Nasirəddövlə Şəboktəkin* adlandırıb yazır: m.961-ci ildə samani əmiri Əmir Əbdülmalikin vəfatından sonra *türk qulu olan* və Xorasanda samani döyüşçülərinə başçılıq edən *Alptəkin* hakimiyyəti özü üçün əlverişli şəkildə kiməsə öyrətməyə cəhd etdi, amma onun bu cəhdi baş tutmadı, özü isə Şərqi Əfqanıstana, Qəzniyə getdi. Burada Samani imperiyasının qonşuluğunda, Hindistanın lap kənarında Alptəkindən sonra samanilərin *türk qullarından* bir neçə nəfəri hakimiyyətə çatdılar və nəhayət Şəboktəkin taxta əyləşdi. Ondan sonrasa oğlu *Mahmud* (998-1030) müstəqil hökmdar oldu. (Bax: K.E.Bosvort. Göst, əsər, s. 237-238).

* s.1222 *Badlic* – mərmi, mancanaqlarla atılan böyük daş parçası.

* s.1223 *Aləmlər mirzəsi (mirzaye-aləmiyan)* – Burada səfəvilər dövlətinin sonradan baş vəziri (etimadüddövlə) olmuş məşhur *Hatəm bəy Ordubadi* nəzərdə tutulur.

* s.1226 *Cilovdar, cilovdarbaşı* – Hökmdar və əmirlərin atlarını səfərə hazırlayan və onların *cilovlarını* tutub süvar olunmaq üçün irəli gətirən vəzifə sahibləri olmuşlar.

* s.1235 *Cənab Asəf (Asəfi)* – Səfəvi dövlətinin Şah Abbas dövründəki baş vəziri *Hatəm bəy Ordubadinin* vəzirliyinə verilən böyük qiymətdir. Belə ki, *Bəni-İsrail* üləmalarından birinin adı *Asəf* olmuşdur. Rəvayətə görə bu vəzir *Həzrət Süleyman* əleyhüssalama xidmət etmiş və bir çox elmlərə vaqif olmuşdur (Bax: M.Moin. Göst.lüğət, V cild, səh.40).

* s.1240 *Xətai* – I Şah İsmayılın ədəbi təxəllüssüdür. O, bu təxəllüslə *Azərbaycan, həmçinin ərəb və fars dillərində* şe’rlər yazan şair olmuşdur. Əsərlərinin çox hissəsi, əlbəttə, öz *ana dilindədir* (Bax: ASE, X cild, səh.474).

Bu ləqəbin mə’nası, güman ki, hələ dəqiq müəyyənləşdirilməyib. Ləqəbi görəsən Şimali Çindəki türk qəbilələrinin məskəni olan *Xəta* adlı yer adındanmı götürülmüşdür? Yoxsa, etdiyi səhvlərinə (xəta) görəmi "*Xətai*" olmuşdur? Deyə bilmərəm.

*** s.1247** *Aznaur* – Gürcü feodal cəmiyyətində hakim sinfin mənafeini müdafiə edən mə’mur. Aznaurlar xidmətində olduqları yüksək rütbəli şəxsin hərbi qvardiyasının üzvlərindən olmaqla, ayrı-ayrı hallarda xırda mülkiyyətçilər təbəqəsinə də mənsub idilər. Aznaur da başqa feodallar kimi öz təhkimli kəndlilərini "amansız istismara" mə’ruz qoyurdu (Bax: İ.Hüseynova. Göst. əsər, səh.63). DR. M.Moin "aznaur" adını daşıyan şəxsi gürcülərin "şərafətli və böyük adamı" olduğunu yazır, bu ifadənin həm də "igid və pəhləvan" xislətli şəxslərə aid olduğunu bildirir (M.Moin. Göst.lüğət, səh.220-221).

**** s.1247** *Yasovul* – Monqol sözu "*yasa*"dan yaranmış istilahdır. *Çingiz xan yasasının* hökmünü yerinə yetirən mə’murlar *yasovul* adlanırdı. Yasovul termini altında müxtəlif vəzifələr nəzərdə tutulurdu. XIII-XIV əsr müəlliflərinin əsərlərində yasovulla bağlı mə’lumatlar vardır. *Məhəmməd Naxçıvaninin* yazdığına görə, yasovul dövlət aparatında ən mühüm vəzifələrdəndir. Yasovullar hərbi yürüşlər dövründə və döyüş anlarında *bütün hərbi bərləşmələr və hissələr üçün döyüş yerlərini müəyyənləşdirir, əmirlər və döyüşçüləri həmin yerlərə gətirir, onların öz mövqelərini tərk etməmələrinə nəzarət edirdilər.* Yasovullar *qurultay, böyük toy məclisləri və şənliklər* keçirən vaxtlarda da əmin-amanlığı qoruyurdular. Döyüşə hazırlıq görülərkən, yeni hərbi hissələr təşkil olunarkən *xüsusi* yasovullar tə’yin olunurdular və bu iş onlara tapşırılırdı. Yasovullar yürüş zamanı *hərbi hissənin önündə və hər iki cinahda gedir* və əsgərlərin nizamlı və ahəngdar hərəkətini *tə’min edirdilər*. Yasovullar bütün hərbi bölmələrdə fəaliyyət göstərirdilər (Bax: Vaqif Piriyev. Göst.kitab, səh.324).

Ordu yasovulları *tümən yasovulu, minlik yasovulu, yüzlik yasovulu və onluq* yasovullarından ibarət idilər (Yenə orada, səh.385).

"Təzkirətül-müluk" əsərinə əsaslanan O.Ə.Əfəndiyev yazır: "Yasovullar yalnız yüksək əmirlərin övladlarından ola bilərdilər. Köhnə vaxtlarda onların sayı 8, yaxud 9 nəfər olurdu. Şah məclislərində (məclise-xass) onlar *eşikağası-başı* ilə birlikdə xidmət edirdilər. Onlar ali divan eşikağa-sıbaşçının tabeliyndə idilər" (Bax: Oqtay Əfəndiyev. Göst. əsər, səh.268).

* *Mirsəncəq* (səncəq) – Osmanlı Türkiyəsində ərazi vahidi,
**s.1256** vilayətin bir hissəsi (Bax: ASE, VIII cild, səh.291). Səncəq əmirinin vəzifəsi "*Mirsəncəq*" adlanırdı.

* *Mokri* – İranın cənub-şərq hissəsində, Pakistan hissə-
**s.1257** sində – *Mokranda* yaşayan tayfa. Qərbdən şərqə *Ommanla* sərhədlənir. Hal-hazırda orada *bəluclər* əksəriyyət təşkil edir və buna görə də həmin ərazi *Bəlucistan* adlanır. Mokran ida-ri baxımdan Bəlucistan və Sistan ostanına daxildir. Mühüm şəhərləri: Zahidan (sabiq Dozdab), Xaş, İranşəhr, Bəmpur (Bax: D-r Moin. Göst., lüğət, c. VI, s. 2010).

* *Səlihdarbaşı. Səlihdar*, *səlihdarbaşı* – "səlih" ("silah") sö-
**s.1259** zündən yaranan istilahdır. – "*silahdar*" deməkdir. "*Silahdar-başı*" silah gəzdirən adamların *rəisinə* (başçısına) deyilirdi (Bax: M.Moin. Göst.lüğət, II cild, səh.1915).

* *Motreban* – Mahnı çalan və avazla oxuyan, musiqi alət-
**s.1266** lərini dilləndirib adamları şad edərək əyləndirən sənət adam-larına ərəbcə "motreban" demişlər. Rəqqaslar da bu qəbil-dəndir. (Bax: M.Moin. Göst.lüğət, cild III, səh.4197-4198). Böyük şair *Hafiz Şirazi* qəzəllərinin birində deyir:

*"Mey və musiqi ilə gəl yanıma, qəbrimdən*
*Oynaya-oynaya durram eşidib musiqini"*[1]

** *Nəva* – Musiqi avazı. Muğam. Məşhur musiqişünas
**s.1266** *Əbdülqadir* öz "Lhğəte-şəhşamə" əsərində "*Sefahan*" muğa-mının bir şöbəsini "nəva" adlandırır. "*Tarixe-Beyhəqi*" kita-bında nəva 7 dəstgahdan birinin adıdır (Bax: M.Moin. Göst. lüğət, cild IV, səh.4823-4824).

---

[1] Beytin farscası:

*"Bər səre-torbəte-mən ba mey-o motreb beneşin,*
*Ta bebuyət ze-ləhəd rəqskənan bərxizəm"*

* s.1278 *Hezarəcat və sədəcat* – Bu istilahlar “min nəfərlik dəstə” və “yüz nəfərlik dəstə” mə’nasındadır. İsgəndər bəy Münşi yazır: “O qəbilələrin əksər həzarəcat və sədəcat qaladarları və sərdarları onlara tabe oldular” (Bax: Tarixe-aləm-araye Abbasi, II kitab, bizim tərcüməmiz, səh.170).

Müasir Əfqanıstanda *həzarə* (həzarəcat) adlı tayfa da yaşayır ki, bu sətirlər müəllifi Əfqanıstanda işlədiyi illər ərzində onlarla təmasda olmuşdur – Ş.F.

* s.1280 *Muhəssil* – dövlət vergilərini toplamağa göndərilən mə’mur belə adlanırdı. Anadolu Səlciqələrində, Səfəvilərdə və osmanlılarda mühəssil vəzifəsinin mahiyyəti eyni olmuşdur. Mühəssil tə’yin olunduğu yerlərə gedir, oradakı məclis üzvləri ilə görüşür, hər məhəllə və kəndin əhalisinin sayı və sərvətinə görə *vergi* müəyyənləşdirir, mühəssilin hazırladığı dəftərləri mərkəzdəki maliyyə idarəsinə göndərirdi (Pakalın, cild II, səh.569).

** s.1280 *Süfrəçi* – Süfrənin hazırlanmasında məs’ul şəxsə deyilirdi (farsca bu istilah “*xansalar*” adlanır). Ağqoyunlularda və Səfəvilərdə *ziyafət süfrəsini hazırlayanlardan* ötrü əhalidən vergi yığılırdı (Bax: M.Moin. Göst.lüğət, II cild, səh.1889).

* s.1283 *İrəm* – yaxud Qur’anda yazıldığı kimi “*İrəme-Zatül-İmad*. İrəmi çox vaxt “*Şəddadın cənnəti*” də adlandırmış, oranın *Cənubi Ərəbistanda* olduğunu bildirib demişlər: Səddad behişt adını eşitdikdə bu dünyada da behişt yaratmaq fikrinə düşdü. Buna görə də, Ədən adlanan bir yerdə daşları qızıl-gümüşdən, divarları isə qiymətli daş-qaşlardan olan bir şəhər saldı. İnşa işləri bitdikdən sonra oranı görmək istədi. O, *Hud peyğəmbərin* (ad tayfasının peyğəmbəri olmuşdur ki, Qur’ani-Kərimin on birinci ayəsi onun adınadır. Bax: D-r Moin. Göst, lüğət, c. VI, s. 2308) dövlətini qəbul etmədiyi üçün həmin yerə daxil olan kimi ruhunu bədənindən çıxardılar və həmin şəhər qumların altında basdırıldı (Bax: D-r Moin. Göst, lüğət, c. V, s. 124).

*Həzarə* – Əfqanıstanda yaşayan həzarə tayfanın adı “Tarixe-aləmaraye-Abbasidə” qeyd olunmuşdur. Kitabda oxuyuruq: “*Lahur* hüduduna gedib çatan *Sultan Xosrova* cığatay,

həzarə, qarabəxt əfqan, racput və başqa tayfalar birləşməyə başladılar".

Mən 1978-1982-ci illərdə, Əfqanıstana üçüncü uzunmüddətli e'zamiyyətim dövründə ölkənin maliyyə naziri olan Əbdülkərim Misaqın mütərcimi olmuşdum. O, həzarə tayfasından idi – Ş.F.

*** s.1288** *Yunis (Yunos)* – Bəni-İsrail peyğəmbərlərindən biridir. *Məttinin* oğlu olan Yunisin ləqəbi *Zəvalnun* idi. Ehtimala görə, ona peyğəmbərlik *II Yerbaatın* dövründə, yaxud onun padşahlığından əvvəl 825-ci ildə verilmişdir. *Yana* adlı yerdə bir gəmiyə minən Yunis Tərşişə (Afrikanın şərq sahilində, İspaniyanın cənubunda olan məşhur liman) getmək fikrindəydi, amma böyük bir tufana düçar oldu, dəryaya düşdü. Mö'cüzəli bir balıq Yusifi *uddu*, amma üç gündən sonra onu *Seydun* (Finikiyanın limanlarından biridir) adlı yerin sahilinə atdı. (Bax: D-R Moin. Göst., lüğət, c. VI, s. 2349).

*** s.1297** *Tənsuqat* – Tənsoq, tanksuq, tənsux, tansux, təncik ifadələri kimi də işlənən istilahdır. Mə'nası nəfis şeylər, az tapılan və hökmdara təqdim olunan töhfə və hədiyyələrdir (M.Moin. Göst.lüğət, cild I, səh.1151).

*** s.1300** *Sultan Süleyman və Sultan Səlim* – məşhur osmanlı sultanları olmuşlar:

*Sultan Süleymanın* (1495-1466) yeritdiyi fəal işğalçılıq siyasəti nəticəsində *Osmanlı imperiyası* dövrünün ən qüdərtli dövlətinə çevrilmiş və ərazisi xeyli genişlənmişdi. 1533-cü ildə Avstriya ilə sülh bağlayan Sultan Süleyman *Azərbaycana* hərbi səfərlərə başladı. Osmanlılar 1534-35-ci ildə iki dəfə Azərbaycana soxuldular və *Təbrizi* tutdular. Lakin Sultan Süleyman geri çəkilmək məcburiyyətində qaldısa da, o vaxadək səfəvilərin əlində olan *İraqi-Ərəb* osmanlı imperiyasına qatıldı, Aralıq dənizini İran körfəzi ilə birləşdirən ticarət-karvan yollarına nəzarət türklərin ixtiyarına keçdi. 1538-ci iləd *Şirvan,* 1551-ci ildə isə *Şəki* Səfəvilər dövlətinə birləşdirildi. 1548-ci ildə Sultan Süleyman üçüncü dəfə *Azərbaycana* hücuma keçdi. Osmanlı qoşunları Kaşan və Qumadək irəliləyib

İsfahanı tutdular. 1552-ci ildə I Şah Təhmasib osmanlıların yeni hücumunu qabaqlayaraq *Kiçik Asiyaya* hücuma keçib *Ərzuruma* qədər irəlilədi. 1554-cü ildə Sultan Süleyman dördüncü dəfə Azərbaycana qoşun çəkdi, lakin qızılbaş ordusunun inadlı müqaviməti, Təbriz əhalisinin fəal çıxışları və s. osmanlılara *yenə də* Azərbaycanda qalıb möhkəmlənmək imkanı vermədi. *1555-ci il mayın 29-da* bağlanmış *Amasya müqaviləsinə* əsasən osmanlılar bir müddət Azərbaycana hücumları dayandırdılar.

I Sultan Süleyman Qanuninin hakimiyyəti dövründə ölkənin daxili vəziyyətini nizama salmaq məqsədilə *qanunlar məcəlləsi (qanunnamə)* tərtib edilmişdi. Sultan Süleyman *Macarıstana* yürüş zamanı ölmüşdür (Bax: ASE, VIII cild, səh.406; IX cild, səh.99).

*Sultan Səlim Yavuz* (1470-1520) səfəvilər və şiəlik əleyhinə mübarizə şüarı altında 1513-cü ildə *Anadoluda* təqribən *40 min şiəni* qırmış, 1514-cü ildə *Çaldıran vuruşmasında* Şah İsmayılı məğlubiyyətə uğratmışdı. *1515-ci ildə* Şərqi Anadolunu, Kürdüstanı, *1516-cı ildə* Şimali İraq, Suriya və Fələstini, *1517-ci ildə* Misiri işğal etmişdi. Məkkə və Mədinə şəhrlərinin osmanlıların tabeçiliyinə keçməsi ilə Sultan Səlimin özünü *xəlifə* e'lan etməsi, sonralar türk sultanlarının müsəlman dünyasında nüfuzunu daha da artırdı (Bax: ASE, VII cild, səh.372-373).

*** s.1302** *Nəsirəddin Tusi* – Məhəmməd ibn Həsən Tusi (1201-1274) Marağa astronomiya rəsədxanasını *tə'sis etmiş*, elmin müxtəlif sahələrinə aid bir sıra qiymətli əsərlər yazmışdır. O, "*Zice-Elxani*" əsərində planetlərin *geosentrik orbitinin əsas elementlərini* vermiş, onların sutkalıq orta hərəkətini öz dövrünə və hətta XVII əsr astronomiya müşahidələrinə nisbətən *daha dəqiq tə'yin etmişdir*. Nəsirəddin Tusi *fizikaya dair əsərlərində* təbiətdə maddənin saxlanması və çevrilməsi haqqında ilk *fikir* söyləmişdir. XIII əsrin 30-cu illərində *Kuhistana gəlmiş və yerli ismaililərin başçısı Nasirin* təklifi ilə 1236-cı ildə tərbiyə, əxlaq və pedaqokiyaya aid "*Əxlaqe-*

*Nasiri*" ("Nasirin əxlaqa aid kitabı") adlı əsərini yazmışdır. Əsər Yaxın və Orta Şərq məktəblərində *əxlaq dərsliyi* kimi şöhrət tapmış, *indi də* bə'zi orta məktəb proqramlarında bu məqsəd üçün ona müəyyən yer verilir. Tusi Kuhistanda həbs olunub *Ələmut qalasına* salınmış, *monqol Hülaku xan* bu qalanı aldıqdan sonra onu azad edib özünə *məsləhətçi* götürmüş və bu zaman Nəsirəddin minlərlə günahsız alim və bacarıqlı şəxsləri monqol qılıncından *xilas edə bilmişdi*. Hülaku xanın vəfatından sonra (1265) Nəsirəddin Tusi onun oğlu *Abaqa xanın* vəziri olmuşdur (1265-1274).

Nəsrirəddin Tusi *həm də şair olmuşdur* (Bax: ASE, VII cild, səh.231-232; M.Moin. Göst.lüğət, cild VI, səh.2126-2127).

2011-ci ildə AMEA Riyaziyyat və Mexanika İnstitutu tərəfindən Məhəmməd Nəsirəddin Tusinin 810 illiyi münasibətilə keçirilən "Dahi ensiklopedik alim" adlı Beynəlxalq Elmi Konfransda bu sətirlər müəllifi də iştirak etmiş və "Tarixçi İsgəndər bəy Münşinin riyaziyyatçı Nəsirəddin Tusiyə münasibəti" adlı məruzə ilə çıxış etmişdir (Bax: Фазиль Ш. Отношение историка Искендер бека Мюнши к ученому математику Насиреддину Туси, Материалы Международной конференции, посвященной 810 летию Мухаммеда Насираддина Туси, Баку, 16-18 июнь 2011, с. 320-321).

*** s.1308** *Kəlantər (Kələntər)* – Fars dilində hərfi tərcüməsi *"ən böyük"* deməkdir. Kəlantər şəhər hakimiyyət orqanlarının nümayəndəsi idi. XIV əsrdən başlayaraq kəlantər istilahı "rəis" ifadəsini əvəz etməyə başladı 1522-ci ildə məşhur rəsam *Kəmalləddin Behzad* saray kitabxanasının kəlantəri vəzifəsinə tə'yin olunmuşdu. Müxtəlif sənətkarlıq təşkilatlarına başçılıq edən şəxs də kəlantər adlanırdı (yaxud "*ustabaşı*"). Bir şəhərdəki kəlantərlərin sayı bəzən onlarla olurdu. XVI əsrin ortalarındasa hər şəhərə bir kəlantər tə'yin edilməyə başladı. O, şah tərəfindən təyin edilirdi. Kəlantər şəhər sənətkarlarının, tacirlərin və başqa adamların şikayətlərinə baxır və ölçü götürürdü. Kəlantər müəyyən bir məsələni həll edə bilmədikdə

bu barədə divana mə'lumat verir və tədbir görülürdü. Kələntər olan şəxs vergi və mükəlləfiyyətlərin vaxtlı-vaxtında toplanılması və ödənməsinə nəzarət edir, şəhərlərdə şah fərmanlarının icrasını tə'min edirdi. O, həmçinin *xarici ölkə səfirlərini* qarşılayırdı. Bu vəzifə irsən də keçə bilirdi. Məsələn, Ordubad şəhərinin irsi kələntəri, İskəndər bəy Münşiyə görə, XIII əsrin məşhur alimi *Nəsirəddin Tusinin Nəsiriyyə-tusiyyə ailəsinə* mənsub şəxslər olmuşlar. (Bax: М.Х.Гейдаров. Социально-экономические отношения и ремесленные организации в городах Азербайджана в XIII-XVII вв., Баку, 1987, стр. 83-84).

*** s.1318** *Şəyyad, Ömər, As* – Tarixi ədəbiyyatda hiyləgərlik rəmzi – Ş.F.

*** s.1319** *Murçəl* – Qalanı ələ keçirmək istəyən əskərlər qala səmtinə uzaqdan lağım atır, lağım torpaqlarını isə topa-topa yuxarı qaldırıb onlara atılan güllə və oxlardan daldalanırdılar. Onlar lağımı qalanın bürcünədək aparıb çıxarır, bürcün altına barıt yığır və odlayırdılar ki, qalanın içərisinə girə bilsinlər. Bu əməliyyat "*mürçəl*" adlanırdı. Mənbələrdə "*murçəl*" sözü "*mulçar*" və "*murçal*" kimi də işlənmişdir. (Bax: Ə.Nəvai, "Əhsənüt-təvarix"in "Şərhlər" hissəsi, s. 843).

*** s.1321** *Badkubə (Bakı)* – Abşeron yarımadasında tapılmış arxeoloji materiallar buranın qədim yaşayış məskəni olduğunu sübut edir. İndiki Artyom, Zığ gölü ətrafı, Şüvəlan, Mərkədan, Binəqədi, Əmircan və s. yerlərdə e.ə. 3-1-ci minilliklərə aid arxeoloji materiallar tapılmışdır. Bakının *Qaytara (Qanqara, Albani, Baruka* və s. ilə eyniləşdirirlər. Bakıda tapılımış 5-7-ci əsrlərə aid Sasani dəfinəsi o dövrdə buranın yaşayış məskəni olğduğunu göstərir. 5-6-cı əsr mənbələrində Bakı "*Bağavan*" və "*Atəşi-Baquan*" adlandırılır. Ərəb mənbələrində (X əsr) *"Bakuyə", "Baku", "Baku",* rus mə'xəzlərində (XV əsr) "*Baka*", Səfəvilər dövrü farsdilli mənbələrdə "*Badkubə*" kimi qeyd edilir.

Bakı hələ orta əsrlərdən başlayaraq Yaxın və Orta Şərqin iri şəhərlərindən olmuşdur.

Bakı X əsrdən liman şəhəri kimi məşhur idi. XI əsrin sonu – XIII əsrin əvvəllərində Bakı *tərəqqi dövrü* keçirirdi. 1191-ci ildə *Qızıl Arslan* Şamaxını tutduqda şirvanşah *I Axsitan* müvəqqəti olaraq paytaxtı Bakıya köçürmüşdü. XII əsrdə Bakı ikicərgəli qala divarı və xəndəklə əhatə olundu. *Qız qalası* da şəhərin müdafiə sisteminə daxil idi. XIII əsrin 30-cu illərində *monqollar* Bakıya hücum edib, mühasirədən sonra şəhəri aldılar. *Şirvanşah I Xəlilullahın* dövründə (1417-1462) Bakıda mühüm tikinti işləri aparıldı. XV əsrin ikinci yarısında *Böyük Moskva knyazlığı* ilə diplomatik əlaqələr yaradıldı.

1501-ci ildə Şah İsmayıl Şirvana hücum edərək *Bakını* aldı. Səfəvi hökmdarı I Şah Təhmasib 1538-ci ildə Bakının da daxil olduğu *Şirvan dövlətini Səfəvilər dövlətinə birləşdirdi.* Osmanlı müharibələri zamanı osmanlı ordusu *Bakını tutdu* (1578), amma 1607-ci ildə şəhər *yenidən* səfəvilərin hakimiyyəti altına keçdi.

Səfəvilər dövründə Bakıda *sənətkarlıq* inkişaf etmişdi. Bakının *mühüm strateji əhəmiyyəti* XVIII əsrin əvvəllərindən e'tibarən Rusiyanın diqqətini cəlb edirdi. 1723-cü ildə *I Pyotrun* qoşunu Bakıya daxil oldu. Lakin, Rusiya ilə İran arasında bağlanan *Gəncə müqaviləsinə görə* (1735) Bakı yenidən *İranın* hakimiyyəti altına keçdi.

XVIII əsrin ortalarında Azərbaycanda bir sıra xanlıqlar, o cümlədən *Bakı xanlığı* yarandı. Ara müharibələri. *Ağa Məhəmməd şah Qacarın* Azərbaycana hücumları. 1796-cı ildə *II Yekaterinanın* əmri ilə rus qoşunları Azərbaycana yürüş etdi, Bakını aldı. XIX əsrin əvvəlində *I Aleksandr* Xəzərsahili vilayətləri, ilk növbədə Bakını tutmaq planı ilə xüsusi maraqlanırdı. *Rusiya-İran müharibəsi* (1804-1813) bu planın həyata keçməsini sür'ətləndirdi. *1806-cı ildə Bakı Rusiyaya birləşdirildi.* 1813-cü ildə bağlanmış *Gülüstan sülhü* ilə Şimali Azərbaycan, o cümlədən Bakının Rusiyaya birləşdirilməsi təsdiq edildi (Bax: ASE, I cild, səh.550-551).

**** s.1321** *Babül-əbvab* – Lüğəvi tərcüməsi "*Qapılar qapısı*" deməkdir. Qafqaz Albaniyasının ən qədim şəhərlərindən biri olmuş *Dərbəndi* belə adlandırmışlar. Dərbəndin salındığı tarix

dəqiq mə'lum deyildir, lakin arxeoloji qazıntılar nəticəsində orada VII-VI əsrlərə aid *yaşayış məskəni* aşkar edilmişdir.

*Çola (Çopa)* vilayətinə daxil olan Dərbənd eramızın əvvəllərindən *Qafqaz Albaniyasının* iri yaşayış məntəqələrindən birinə çevrilmişdir. *Sasanilər dövründə* hunların, barsillərin, xəzərlərin və başqa tayfaların hücumlarının qarşısını almaq üçün Dərbəndin möhkəmləndirilməsinə xüsusi diqqət verilirdi. Ərəblər də Dərbəndi tutduqdan sonra (642-43) şəhəri möhkəm strateji məntəqə kimi möhkəmləndirdilər. Dərbənd *Abbasilər xilafəti dövründə* (750-1258) Xəzər xaqanlığı, rus knyazlıqları, Bizans, Avropa ölkələri, İran, Çin, İraq, Suriya, Hindistan, Orta Asiya və s. ilə ticarətdə əsas *tranzit məntəqəsinə* çevrildi.

1239-cu ildə Dərbəndi *monqollar* işğal etdilər. *Elxanilərin* zəiflədiyi dövrdə bu şəhər Şirvanşahlar dövlətinin tərkibinə qatıldı. 1509-cu ildə *I Şa*h *İsmayıl* Dərbəndi tutdu. Səfəvi-osmanlı müharibələri zamanı bu şəhər dəfələrlə əldən-ələ keçdi. 1722-ci ildə rus qoşunu I Pyotrun başçılığı ilə Dərbəndə daxil oldu. Rusiya–İran (1723), Rusiya-Türkiyə (1724) müqafilələrinə əsasən Dərbənd *Rusiyaya birləşdirildi*. İranla Rusiya arasındakı *Rəşt* (1732) və *Gəncə* (1735) müqavilələrinə əsasən Dərbənd yenidən səfəvilərə qaytarıldı.

XVIII əsrin ortalarında mərkəzi Dərbənd olmaqla Dərbənd xanlığı yaradıldı. 1759-cu ildə *Fətəli xan Qubalı* Dərbənd xanlığını Quba xanlığına birləşdirdi. 1796-cı ildə Rusiya qoşunu Dərbəndi tutdu. Az sonra *Gülüstan sülh müqaviləsinə* (1813) əsasən Dərbənd Rusiyaya birlşdirildi (Bax: Şahin Fazil Fərzəlibəyli. Quba tarixi, Bakı. 2001, səh. 53-56; 155).

Alman səyyahı *Adam Oleari* (XVII əsr), türk səyyahı *Evliya Çələbi* (XVII əsr) və başqaları *Dədə Qorqudun qəbrinin* Dərbənddə olduğunu göstərmişlər (Bax: ASE, III cild, səh.417-418).

Bu yaxınlarda çap olunmuş "Evliya Çələbi Səyahətnaməsində Azərbaycan" kitabında Evliya Çələbi yazır: "Dəmirqapı ziyarətgahının vəsfi… Ziyarətgahı-çehel, yə'ni Ərbəin məqamı: Qırx ədəd möhtəşəm qəbirdir ki, insanların ziyarət-

gahıdır. Dədə Xorxud (Qorqud) ziyarətgahı…Cümlə Şirvan xalqı bu sultana (Dədə Qorquda – Ş.F.) e'tiqad edir" (Bax: Evliya Çələbi. Səyahətnamə. Nəşrə hazırlayan Mehmet Rıhtım, Bakı, 2012, səh.117).

***** s.1321** *Sədde-İsgəndər*. Müsəlmanların yazılarında "*Çin divarı*" ("Divare-Çin") adlandırılmışdır, çünki onlar güman edirdilər ki, İsgəndər onu *Yə'cuc və Mə'cucun* həmlələrinin qarşısının alınmasından ötrü inşa etmişdir (Bax: M.Moin. Göst.lüğət, V cild, səh.737).

*** s.1324** *Dəşte-Xəzər* – Əvvəllər *Xəzər dənizinin və Qafqaz dağlarının* şimalında yaşamış tayfa olan xəzərlərin bir qismi *Qafqaziyyənin* cənub-qərb hissəsinə və *Krıma* (Qara dənizin şimalı) üz tutdular və hicri tarixlə IV əsrədək həmin yerlərdə qaldılar. İslamın başlanğıcında və müsəlmanların fəthləri dövründə onların paytaxtı *Bələncər şəhəri* olmuşdur (Bax: M.Moin. Göst.lüğət, V cild, səh.487).

İsgəndər bəy yəqin ki, "*Dəste-Xəzər*" adı altında *xəzərlərin yaşadıqları əraziləri* nəzərdə tutmuşdur – Ş.F.

**** s.1324** *Qıpçaq diyarı* (Qebçaq, Qefçaq) – *Xəzər dənizinin şimalında* yerləşən çöl və nahiyələrdə yaşayanlara *türklərə* qıpçaq demişlər. Vaxtı ilə *səlcuqilər* həmin yerlərdə mal otarırdılar. Çingizi məmləkətlərinin bölünməsi zamanı *Qıpçaq çölü* Cuci xan və övladının əlinə keçdi. *Cucinin özü və oğlu Batı* (Batu) o ərazidə hökmranlıq edirdilər. Tarixçilərə görə, Cucinin *xələfləri* hicri tarixlə 929-cu ilədək Qıpçaq diyarında qalmışlar. Qıpçaq çölü *iki hissəyə* bölünmüşdü: a) *Şərqi Qıpçaq çölü* (Ceyhun dərəsi, Uluqdağ və Kiçikdağ arasındakı ərazi. Bu ərazi məğribdən Batu xana tabe olan tabe qəbilələrinə, şimaldan Şeybana tabe özbək məskənlərinə, məşriqdən cığatay ulusunun xanlarının torpaqlarına, cənubdan isə Qızılqum qumsallığına yanaşı idi); b) Qərbi Qıpçaq çölü (Don və Volqa çaylarının keçdiyi məskənlər, Şərqdən Ural dağları, Qərbdən Dnepr çayı, Şimaldan Xəzər dənizi, Cənubdan isə Qara dəniz Qərbi Qıpçaq hissəsinə daxil idi). Bunlar M.Moinin mə'lumatlarıdır (Bax: Göst.lüğət, IV cild, səh.1337).

ASE-də oxuyuruq: Qıpçaqlar. *Qədim türkdilli xalq*. İlk vətənləri Altayın şimal-qərbindəki Çyeylen vadisi hesab edilir. Onlar 6-7-ci əsrlərdən *Orxon və İrtış çayları* hövzələrinə köçmüşlər. 9-10-cu əsrlərdə qıpçaqlar *Tyanşan* ətəklərindən *Dunay və Volqaya* qədər ərazidə yaşamışlar (bu ərazi "*Dəşti-Qıpçaq*" adlanırdı). *Suqrov, Şarukan, Sudak* şəhərləri qıpçaqların mühüm ticarət mərkəzləri idi. Orta əsrlərldə onlar *ağqıpçaq, qaraqıpçaq və sarıqıpçaq* qruplarına bölünürdü. Qazax, qırğız, özbək, türkmən, tatar, başqırd, altay, noqay, qaraçay, balkar və qumuq xalqlarının təşəkkülündə rol oynamış qıpçaqlar *Azərbaycan xalqının etnogenezində* də iştirak etmişlər. 8-ci əsrdə xəzərlərin tərkibində Zaqafqaziyaya gələn qıpçaqlar 722-23-cü illərdə *Arranda və Ermənistanda* (ermənilər yaşayan torpaqlarda-Ş.F.). 765-ci ildə *Şərqi Gürcüstanda* yerli əhali ilə *ərəb işğalçılarına* qarşı vuruşmuşlar. 9-11-ci əsrlərdə Dəryal dərəsindən və Dərbənd keçidindən Zaqafqaziyaya gəlmiş *türkdilli tayfaların tərkibində* qıpçaqlar çoxluq təşkil edirdilər. 1118-20-ci illərdə gürcü çarı *IV David* 45 minlik süvari ordusu olan 225 min qıpçağı Şimali Qafqazdan Şərqi Gürcüstana *köçürmüşdü…* Həmin ərazidə türklər sayca çoxluq təşkil etdiyindən 11-13-cü əsr gürcü mənbələrində Şərqi Gürcüstan *"Didi Türkoba" (Böyük türk obası")* adlanırdı. 9-10-cu əsrlərdə Volqa-Ural-Don çayları hövzələrində slavyan və Avropa mənbələrində *poloves, kuman* kimi xatırlanan qıpçaqların sayı artmışdı. 1061-ci ildə onların rus torpaqlarına ilk ciddi yürüşü başlanmış və 1240-cı ilədək (Batu xanın yürüşünədək) qıpçaqlar həmin zonanın əsas sakinləri olmuşlar. Batunun yürüşləri zamanı qıpçaqların *bir qismi monqol qoşunlarının tərkibinə daxil olmuş, bir hissəsi isə Macarıstana gedərək* yerli əhali ilə qaynayıb qarışmışlar (ASE, cild III, səh. 164).

*Əlbürz dağı (Hərborz)* – "Hər" dağ mə'nasındadır, "bürz" isə yüksək, uca, böyük mə'nalarını özündə ehtiva edir. *Məğribdən məşriqədək uzanan* Şimali İran dağ silsiləsidir ki, onun ən uca qülləsi *Dəmavənd* dağıdır (Bax: M.Moin. V cild, səh. 169).

ASE-də Əlbürzün mə'nası "parlaq, bərq vuran" kimi işlədilir və bu dağın İranın şimalında Xəzər dənizinin cənub sahili boyunca uzanan dağlar olduğu göstərilir. Uzunluğu təqribən 900 km., eni 120 km.-ə qədərdir (Bax: ASE, III cild, səh. 596).

**** s.1325** *Çobanilər* – türk-monqol mənşəli nəsil, sonralar tayfa. *Suldus tayfasından* törəmişlər. Suldus tayfa başçıları Çingiz xanın hakimiyyətə keçməsində yaxından iştirak etmişlər. Sulduslardan *Əmir Çoban* Elxanilər dövlətinin idarə olunmasında mühüm rol oynamışdır. *Arqun xan dövründə* (1284-91) Çoban baş vəzir vəzifəsinə yüksəldi. 1316-cı ilədən Elxani hökmdarı Əbu Səidin azyaşlı olmasından istifadə edən Çoban ölkəni faktiki olaraq təkbaşına idarə edirdi. 1328-ci ildə Əbu Səidin göstərişi ilə *Çoban öldürüldü* və çobanilər hakimiyyətdən uzaqlaşdırıldı. 14-cü əsrin 30-cu illərində *Elxanilər dövlətinin tənəzzülü zamanı* Çobanilər yenidən hakimiyyət uğrunda mübarizəyə qalxdılar. Əmir Çobanın nəvəsi *Şeyx Həsən Çobani* Əbu Səidin öldürülməsindən sonra (1335) feodal ara müharibələrinə qoşuldu, 1338-ci ildə Şeyx Həsən Cəlayirini məğlubiyyətə uğradan *çobanilər* Təbrizi tutdular. Şeyx Həsən Çobani 1339-cu ildə Məhəmməd Xudabəndənin qızı *Satıbəy xatunu* hökmdar elan etdi, ölkəni onun adından idarə etməyə başladı. O, 1340-cı ildə Satıbəy xatunu hakimiyyətdən uzaqlaşdırıb *Süleyman xanı* taxta çıxardı, amma 1343-cü ildə arvadı İzzət Mələk tərəfindən öldürüldü. Hakimiyyət uğrunda mübarizədə qalib gələn Məlik Əşrəf Çobani Arranda "Ənuşirəvanı-Adil" ləqəbi ilə taxta çıxarıldı. Məlik Əşrəf 1356-cı ilə kimi Ənuşirəvanın adından Elxanilər dövlətini idarə etdi.

Qəddar və zalım şəxs olan Məlik Əşrəfin yeritdiyi siyasət əhalinin vətəni tərk etməsinə səbəb oldu. 1344-cü ildə Təbrizdə çobanilərə qarşı üsyan baş verdi. Məlik Əşrəf və çobani əmiri Yağı Basdı üsyanı çətinliklə yatırdılar. 1345-ci ildə yeni *Təbriz üsyanı*. Məlik Əşrəf 1356-cı ildə Ənuşirəvanı taxtdan salıb *Həsən xanı* hökmdar elan etdi. Azərbaycanın

yerli feodalları ölkəni çobani əmirlərinin zülmündən xilas etmək üçün Qızıl Ordaya və Şirvana müraciət etməli oldular. Qızıl Orda xanı *Cani bəy* 1357-ci ildə Şirvan ərazisinədək keçərək *Təbrizə* daxil oldu. Məlik Əşrəf edam edildi (Bax: ASE, X cild, Bakı, 1987, səh. 369-370).

***** s.1325** *Tuqməs xan (Toxtamış xan)* (1406) – Qızıl Orda xanı. Atası *Tuy Xoca* monqol *Cuci xanın* nəslindən idi. 14-cü əsrin 70-ci illərində Teymurun köməyi ilə *Otrap vilayətini* (Cənubi Qazaxıstan) və *Sauranı* (Sırdərya hövzəsi) tutmuşdu. Kulikovo vuruşmasında (1380) *Mamayın* məğlubiyyətindən istifadə edərək Ordada hakimiyyəti ələ keçirmişdi. Daxili çəkişmələrin qarşısını alaraq bir müddət Qızıl Ordanın keçmiş qüdrətini dirçəltmişdi. 1382-ci ildə Toxtamış hiylə ilə *Moskvanı* tutaraq şəhəri talamış və yandırmışdı. 1386-cı ilin əvvəlində 90 min nəfərlik qoşunla *Azərbaycana* soxuldu; Şirvanı talayaraq *Təbrizə* yollandı. Təbrizlilərin müqavimətinə baxmayaraq hiylə ilə şəhəri tutudu. *Naxçıvan, Mərənd, Marağa, Sultaniyyə* şəhərləri də qarət olundu. Toxtamışın adına *Bakıda, Şabranda* sikkələr kəsilirdi. Zaqafqaziya və Orta Asiya torpaqları üstündə Teymurla apardığı mübarizə 1395-ci ildə Toxtamışın məğlubiyyəti ilə nəticələndi, o Volqadan şərqdəki torpaqlarını itirdi. *Toxtamışı Sibir xanı Şadi bəy öldürmüşdür* (Bax: Azərbaycan Sovet Ensiklopediyası, IX cild, səh. 331).

****** s.1325** *Beytülmüqəddəs* – Ərəblərin Beytülmüqəddəs adlandırdıqları *Yerusəlim* şəhərinin adıdır, İsrail dövlətinin paytaxtıdır (bəs Təl Əviv ?-Ş.F.) və onun bir hissəsi Haşimi İordaniyasına aiddir. Yəhudilər, məsihilər və müsəlmanlara görə, bu dini şəhər *müqəddəsdir* (Bax: M.Moin. Göst. lüğət, V cild, səh. 195).

ASE-də isə yazılmışdır: *"Fələstində şəhər.* Qüds haqqında ilk mə'lumat e.ə. 2-ci minilliyin ortalarına aiddir. Kən'anilərin qalası olmuş Qüdsü təqribən 1000-ci ildə Davud işğal etmiş, şəhər *İsrail-Yəhudi padşahlığının*, e.ə. 935-ci ildə isə *Yəhudi padşahlığının* paytaxtı olmuşdur. Qüdsü Davudun oğlu *Süleyman* genişləndirmiş və burada *Yəhva*

*mə'bədi* (Süleyman mə'bədi) tikdirmişdi. E.ə. 586-cı ildə Babil padşahı *II Navuxodonosor* şəhəri dağıtmış, e.ə. 6-cı əsrin son rübündə Babil əsarətindən qayıdan yəhudilər Qüdsə gəlmişlər. E.ə. 3-cü əsrdə Qüds *Ptolomeylər və Selevkilər* arasında mübarizə meydanına çevrilmişdi. E.ə. 63-cü ildə şəhər romalılar tərəfindən işğal olunmuşdu. *Yəhudi müharibəsində* (66-73) romalılara qarşı müqavimət mərkəzi idi. Eramızın 70-ci ilində *romalılar* Qüdsü işğal edib dağıtmışdılar. 2-ci əsrdə Qüdsdə Romanın *Eliya Kapitolina kaloniyası* yaradılmışdı. 4-cü əsrdə Qüds xristianların "müqəddəs" şəhərinə çevrilmişdi. Qüds 608-ci ildə *ərəblər tərəfindən* (Ömərin dövründə) işğal edilmiş və Məkkədən sonra müsəlmanların ikinci "müqəddəs" şəhəri olmuşdu. 1099-cu ildə *səlibçilər* Qüdsü işğal etmiş, 1187-ci ildə isə *Səlahəddin Əyyubi* şəhəri geri almışdı. 1517-1917-ci illərdə Qüds Osmanlı imperiyasına daxil idi. 1917-ci ilin dekabrında *İngiltərə qoşunları* Qüdsü tutmuşdu. 1920-47-ci illərdə *İngiltərənin Fələstin mandatlıq ərazisinin* inzibati mərkəzi idi. 1948-49-cu illər *ərəb-İsrail* müharibəsindən sonra *İsrail və İordaniya arasında barışıq sazişinə görə* (1949, 3 aprel) Qüds iki hissəyə bölündü: *qərb* İsrailə, *şərq* isə İordaniyaya verildi. 1950-ci ilin yanvarında İsrail *qeyri-qanuni olaraq* Qüdsün qərb hissəsini *dövlətin paytaxtı* e'lan etdi. 1967-ci ilin iyunun 5-də İsrail qoşunları Qüdsün *şərq hissəsini* tutdu və iyunun 28-də şəhərin *qərb hissəsi* ilə birləşdirilməsi haqqında qərar qəbul etdi.

Qüdsdə *həm xristian, həm yəhudi, həm də müsəlman* abidələri var (Bax: ASE, III cild, səh. 292). Göründüyü kimi, ASE-nin mə'lumatı daha e'tibarlıdır-Ş.F.

*** s.1336** *"Nüzhətül-qülub"* – Həmdullah Mustovfi Qəzvininin əsəridir. Bu tarixçi həm də "Tarixe-gozide", "Zəfərnamə", "Zeyle-tarixe-gozide" əsərlərinin müəllifidir.

"Tarixe-gozide"nin VI babının 12-ci fəsli monqollardan bəhs etdiyi üçün Azərbaycan tarixinin həmin dövrünün, xüsusilə *1290-1330-cu* illər tarixinin araşdırılması baxımından əhəmiyyətlidir (Bax: V.Z.Piriyev. Azərbaycan XIII-XIV əsrlərdə, səh. 23-24).

* s.1338 *Tiyul* – Müəyyən bir yerin müvəqqəti istifadə olunmasından ötrü şahın *dövlət torpaqları hesabına* xüsusi şəxslərə verdiyi sahəyə deyilirdi. Tiyul sahibi (*tiyuldar*) həmin sahədən alınan gəlirin hamısını, yaxud böyük bir hissəsini mənimsəyirdi. O, dövlətə hər il "rüsum" adı altında müəyyən məbləğ vəsait verməliydi. Bə'zən tiyul müəyyən qoşun hissələri hazırlanması məqsədi ilə də verilir və tiyuldar lazımi vaxtda dövlətin sərəncamına *əsgəri qüvvə verməyə* vəzifədar edilirdi. Tiyul soyurqaldan fərqli olaraq əmir, şahzadə və başqa şəxslərə *irsən verilə bilməzdi*, çünki bu mülkiyyət növü məhz tiyula layiq görülən mə'murun etdiyi xüsusi xidmət müqabilində *maaş kimi* verilirdi. Xidməti böyük olan şəxsin tiyulu da çox olurdu. Dövlət başçısı müharibəyə yollanan vaxt tiyuldarlar da onunla həmrah olmalı, öz qoşunlarıyla *kömək* etməliydilər.

Tiyulun hökmdar tərəfindən *ləğvi* nəticəsində yaranan *vahimə* bu mülkiyyət formasının tiyuldar əmirlərdən ötrü *nə qədər gərəkli* olduğunu bildirir (Bax: Şahin Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə…, səh. 80-81).

* s.1339 *Çöhrə* – Özbəklərdə əsgər, döyüşçü və başqa süvarilərə "çöhre" deyilirdi. İsgəndər bəy Münşi yazır: "Əvvəlcə Saqqal Mirzə və Quzu Mirzə ad-sanlı bahadırların beş yüz nəfər çöhrəsini irəli yolladı… Çöhrələrin əksəriyyəti qılınca yem və təqdir oxuna hədəf oldu" (Bax: Göst.əsər, İrəc Əfşar nəşri, II kitab, səh.743-744). Cəm halı *"çöhreqan"* olan çöhre istilahı hökmdara və orduya *mülazimlik (xidmət) edən əskərə* aiddir ki, ona bə'zən *nökər* (nukər) də deyilirdi (M.Moin. Göst. lüğət, I cild, səh. 1326).

* s.1340 *Bəndəqəndaz* – "Bəndəq" (cəmi *bənadeq*)-*güllə* deməkdir. *Bəndəqəndaz,* yaxud *bəndəqçi*-güllə atan, yaxud tüfəngdolduran mə'nası daşıyır. Bəndəqçi, yaxud bəndəqaz bə'zən *tüfəngçi* də adlanır (Bax: M.Moin. Göst. lüğət, I lüğət, I cild, səh. 576).

* s.1349 *Haceb* (cəm şəkli həvaceb) – pərdə arxasında olanlara, yə'ni qadınlara aid olan istilahdır (Bax: M.Moin. Göst. lüğət,

I cild, səh. 1329). *Hacib*-İrfan ədəbiyyatında Allahla insan arasındakı səddir ki, həqiqəti görməyə maneçilik törədir. Hacib elə bir örtükdür ki, seyr, davranış və vüsala mane olur. Bəzən *dərgahın xüsusi nümayəndələrinə* də "hacib" demişlər.

Mövlana (Cəlaləddin Rumi-Ş.F.) belə deyir:

*Sufidir hacib olan kəs, ey pesər,*
*Sadədir, azadədir, əfkənde sər.*

(Beytin farscası:

*Haceban in sufiyanənd, ey pesər,*
*Sade-vo azade-vo, əfkənde sər.)*

Orjinala sabiq qalmaq xatirinə "pesər" ("oğul") və "əfkənde sər" ("başı aşağı") kəlmələri olduğu kimi saxlanıldı-Ş.F. (Bax: Seyid Cəfər Səccadi. Göst., lüğət, səh. 307).

** s.1349 *Carçıbaşı* – Car, carbül-car, məcrur, carçi, carçibaşiqəri istilahları kimi "carçıbaşı" sözü də eyni söz kökündən götürülmüşdür və müəyyən *şəxslərə tapşırılmış* vəzifənin ifadəsidir. Car-*qışqırmaq, fəryad etmək, nalə, avaz* mə'nasındadır. Çarçi-adamları yanına səsləyən və ona tapşırılan əmri yanına yığılanların diqqətinə çatdıran şəxsdir. *Çarçıların rəisi çarşıbaşı* adlanır. Səfəvilər dövründə dövlət vəzifəlrindən biri olmuşdur (M.Moin. Göst. lüğət, I cild, səh. 1203).

* s.1351 *Dəftərdar* – məktubları xüsusi dəftərlərdə səbt edən kiçik dövlət mə'muru. Xəzinədarlar, maliyyə işçiləri, dəftərxana rəisi, mühasiblər və hesabdarlar da dəftərdar adlanırdılar (M.Moin. Göst. lüğət, II cild, səh. 1541).

Bu vəzifə sahibinin (sahibmənsəb) əsas vəzifəsi hümayun dəftərxananın sənədlərini qeydə almaq idi. Bundan başqa o, *eşikağasıbaşının və başqa yüksək mə'murların* da sənədlərini imzalayır (tovqi) onları işə keçirirdi. Əmir və başqa adamların rüsumlarında onun da payı vardı (Bax: Təzkirətül-müluk. Göst., nəşr, səh. 142).

* s.1352 *Tərcoman vergisi* – Müəyyən məbləğ pul əvəzində günahın bağışlanması (Bax: M.Moin. Göst.lüğət, cild I, səh.1064).

* s.1353 *Züəma* (tək halı-zəim) – köməkçilər, əvəz edənlər, zaminlər mə'nasını verir. Öncül, rəhbər, rəis kimi də ifadələnən

zəimlər Bəlucistanda hal-hazırda əkinçilərə də deyilir (Bax: M.Moin. Göst. lüğət, II cild, səh. 1740).

******
**s.1353** *Timar*-hərfi mə‘na baxımından müasir dövrdə xəstələrə xidmət edən, qəmxarlıq göstərən şəxslərə aid istilahdır; bəlaya giriftar olan şəxslərə yardım edən kəslər "timarxar" adlanır; divanələrin saxlandıqları və müalicə olunduqları yerə "timaristan yaxud darül-məcanin" də deyirlər. Orta əsrlərdəsə, güman ki, *köməkçi mə‘nasını* özündə əks etdirmişdir (Bax: M.Moin. Göst. lüğət, I cild, səh. 1181-1182).

*****
**s.1357** *Çərkəz ölkəsi* (ülka) – "Adıqlar" adlanan xalqın 13-cü əsrin yazılı mənbələrində və rus ədəbiyyatında işlənən adı. 19-cu əsrdə Türkiyəyə köçən və indi Yaxın Şərqin bir sıra ölkəsində (Türkiyə, İraq, Suriya və s.) yaşayan Qafqaz dağlılarının (adıqlar, abxazlar, osetinlər və s.) nəsilləri də özlərini çərkəz adlandırırlar (Bax: ASE, X cild, səh. 341). Qafqaz dağlarında Terek və Kuban çayları arasında yaşayan Qafqaziyyə tayfaları "çərkəzlər" adlanır. Onların qədim tarixi haqqında az mə‘lumat vardır, amma hazırda yaşadıqları yerin adı "Çərkəzistan"dır (Bax: M.Moin. Göst. lüğət, V cild, səh. 441).

XIX-XV əsrlərdə adıqlar xristian idilər, lakin XVI əsrdə türk işğalı nəticəsində çərkəz əhalisi islam dininin sünni məzhəbini qəbul etməyə başladı. Çərkəzlər o vaxtdan başlayaraq bu günədək öz dinlərinə sadiqdirlər (Bax: Ирада Гусейнова. Историческая Энциклопедия Кавказа, Баку, 2010, с.733).

*****
**s.1360** *İbarət və istiarat* – bu istilahlar xüsusunda "Tarixe-alamaraye-Abbasi" tərcüməsinin I kitabının şərhlərində mə‘lumat verilmişdir-Ş.F.

*****
**s.1364** *Şeyxül-arifin.* Burada bu ifadə "ariflər şeyxi" Şəhabəddin Əhəriyə aiddir.

Şeyx ərəblərdə qəbilə və tayfa başçısına deyilmişdir. Müsəlman ölkələrində bu termin həmçinin təriqət başçılarına, görkəmli ilahiyyatçılara, ümumiyyətlə hörmətli adamlara (məs., Şeyx Nizami, Şeyx Sə‘di və b.) aid edilir (Bax: ASE, X cild, səh. 486).

*Şeyxül-Arifin*-Ariflərin fikrincəsə “mürşid”, “murad”, “qütb” mənasındadır ki, şeyx şəriət, təriqət və həqiqətdə kamillik məqamına gəlib çatmışdır. *Şeyxi* olmaqdan məqsəd nübüvvətin (peyğəmbərliyin-Ş.F.) nəyabət [təmsilçisi] dərəcəsinə yetişməkdədir. Şeyx *nəbinin* (peyğəmbərin-Ş.F.) *naibidir.*

Mövlana deyir:

*Duası fərqlidir hər bir duadan,*
*Şeyxin dediyini deyib Yaradan.*

(Beytin farscası:

*K-in doaye-şeyx ni çon hər doast*
*Faniəst-o gofte-u gofte-Xodast.)*

Arif isə elə şəxsə deyilir ki, həzrət Allah onu zatın *şühud (şahid*-Ş.F.) mərtəbəsinə çatdırmış və onu özünün *sifatı* etmişdir. Bizlərinin fikrincə, arif elə şəxsdir ki, fənaya, hələlik bəqabillah mərtəbəsinə yetişməmişdir. Bəziləri isə deyirlər: “Arif elə kəsdir k, nəfsdən keçir və həqiqətin sirrini tapır”.

Əvhədi deyir:

*Ariflər Həqq camın içdilərsə gər,*
*Sirlər öyrəndilər və gizlətdilər.*

(Beytin farscası:

*Arefan ke, came-Həqq nuşideənd*
*Razha daneste-vo puşideənd.)*

Seyid Cəfər Səccadi *həqiqi arifin* kamil insan olduğunu söyləyir (Bax: Seyid Cəfər Səccadi. Göst., lüğət, səh. 566-567).

*** s.1368** *Müməyyiz* – Müfəttiş, yoxlayıcı, təftişçi, mühasibat işlərini nəzarət altında saxlayan *ən məsul* şəxs.

**** s.1368** *Çardəh mə‘sum* (Çahardəh mə‘sum) – Məhəmməd peyğəmbər, rəsulillahın qızı Fatimə, rəsulun əmisi oğlu və damadı Əli ibn Əbi Taleb, Əlinin 11 fərzəndi və davamçıları Həsən, Hüseyn, Əli Məhəmməd Bağır, Cəfəre-Sadiq, Museyi-Kazım, Əli Rza, Məhəmməd Təqi, Əli Nəqi, Həsən Əskəri, Mehdi (Bax: Seyid Həsən Musəvi. Din təlimləri, Bakı, 2006, səh. 103-238).

*** s.1369** *Vəqfnamə* – Sənəd, yaxud *vəqf qəbaləsi*. Aşağıdakı vəqf növləri mövcud olmuşdur: *1)Vəqfe-lazım; 2) Vəqfe-mötləq; 3)vəqfe-cayez; 4)Vəqfe-möcəvvez; 5)Vəqfe-morəxxes* və s.

Vəqfnamədə vəqf olunmuş mülk, ya əmlak, mövcud olduğu məkan, mütəvvəllinin yaxud vəqfləri idarə edəcək mütəvəllinin, yaxud vəqfləri idarə edəcək mütəvəllilərin adları və s. səbt olunmalıdır (Bax: M.Moin. Göst. lüğət, IV cild, səh. 5048).

I Şah Abbas tərəfindən onun bütün əmlakı, hətta minik at və başqa heyvanları da (başqa sözlə ilxıları) da 1607-ci ildə dövlətin xeyrinə vəqf olunmuşdu.

*** s.1371** *İlxı* (ilxi) – At, dəvə sürüsü. İlxı heyvanının yaşından və cinsindən asılı olaraq təşkil edilir.

İsgəndər bəy Münşi 1607-ci il hadisələrinin təsviri zamanı Şah Abbasın öz *mülkiyyətini vəqf etdirməsi* məsələsinə də toxunur. Həmin il səfəvi hökmdarı dövlətin sədri olan *Mirzə Raziyə* xüsusi tapşırıq vermiş, beləliklə "şahın bütün mülk və torpaqlarının hamısını vəqf dəftərinə" səbt etdirmişdi. Bu münasibətlə Şah Abbas deyir: "Mənim mülkiyyətimdə olan *bütün əşyalar, hətta barmağımdakı iki üzük də* artıq vəqf edilmişdir". Şahın vəqf olunan şeyləri arasında *at ilxıları* da vardı. İsgəndər bəy Münşi yazır: "…Həmçinin nəfis cəvahirlər, qiymətli daş-qaşla bəzədilmiş əşyalar, qızıl və gümüş qablar, o cümlədən heç bir padşahda olmayan *əşqərnejad* (yallı və quyruq tükləri qırmızı rəngdə olan at cinsi-Ş.F.) və paknejad *rumi tazi at ilxuları,* bəyani, gürcü, hesari, bədəxşi, mavərənnəhri kimi iti sür'ətli atlar (ələşələr), saysız-hesabsız ağlasığmaz dərəcədə çoxlu dəvə və başqa heyvanlar da vəqf olundu və onların hər biri üçün məsrəf ayrıldı" (Bax: Tarixe-aləmaraye-Abbasi, II kitab, səh. 1370-1371).

*** s.1372** *Sufi* – Sufi istilahının *müxtəlif mə'naları* vardır ki, onların bə'ziləri bunlardır:

"Sufi o kimsələrdir ki, onun qəlbi *Allah üçün* paklanmışdır (səfvət), tərtəmiz olmuşdur (Bəşir bin əl Həris əl Hafi əl Sufi);

"Sufi bulanıqlardan qurtularaq durulan, düşüncəyə dalan, bəşərdən əl çəkib *Allaha bağlanan və qızıl ilə daşı bərabər tutan kəsdir* (Səhl bin Əbdülüt-Tüştəri) və s.

*Sufilik* islam dininin, sufiyyə təriqətinə görə dörd rüknün, yə‘ni *şəriət, təriqət, həqiqət və mə‘rifətin* hikmətidir.

Sufi ləqəbini özünə götürən *ilk zahid Əbu Haşim əl Kufi* olmuşdur (miladi VIII əsr).

*Hammer* bu kəlmənin yunanca *"sofos"*dan götürüldüyünü bildirir.

Sufiyyə elmi *"təsəvvüf"* adlanır. Sufiyyə əsasən *iki hissədən* ibarətdir:

a) *elm yolunda addımlayanlar;*

*b)mücərrəd zövq və vəcd yolu ilə gedənlər.*

*Dədə Ömər Rövşəni* (1486-1487-ci ildə vəfat etmişdir) yazır:

"Ona demiş təsəvvüf əhli sufi
Ola məcmui-əsrarə vüqufi"

(Bax: M.Z.Pakalın. Göst. əsrə, III cild, səh. 245-251).

Sufilərin elmi-dini tə‘limi *sufizm* (sufilik) adlanır. Sufiliyin hərfi mə‘nası *"yun əbalı adam"* deməkdir. Bu mistik cərəyan VIII əsrdə İraq və Suriyada yaranmış, Məqrib ölkələri və İspaniyada (IX əsr), İran, Azərbaycan və Orta Asiyada (IX-X əsrlər), Hindistan, Malakka və Sumatrada (XIII-XV əsrlər) yayılmışdır. Sufizmin səciyyəvi cəhətləri *bunlardır*: İdealist metafizikanın (irfan) xüsusi tərki-dünya praktikası ilə birləşdirilməsi; müridin mistik məhəbbət yolu ilə Allahı dərk etməyə və tədricən ona qovuşmağa yaxınlaşması tə‘limi; müridi Allaha qovuşanadək mistik yol (təriqət) ilə aparan ustadın (mürşid, pir) rolunun mühüm olması. Sufilər xüsusi rəqslər və ya duaların sonsuz təkrarı ilə intuitiv idraka, "nurlanmaya", ekstaza cəhd etmişlər. Sufinin Allaha çatmaq yolunda ani olaraq nurlanması, ekstaz vəziyyətinə gəlməsi (hal) tə‘limi *Əbu Abdullah əl Mühasibiyə* aid edilir. *Məlamətiyyə məktəbi* (Nişapur, IX əsr) daxili paklığın qəsdən dinsizliklə (məs. şərab içməklə) əlaqələndirilməsi tə‘limini yaratmışdı; bu, kənar şəxslərin tə‘nəsinə səbəb olmalı və qürrələnməyin qarşısını almalı idi. *Cüneyd Bağdadinin* yaratdığı fəna (sufini fövqəlvarlığa-bəqaya aparan, onu Allaha qovuşduran) tə‘liminə görə əbədilik mütləqdə mövcuddur.

Cüneydə görə sufinin sirli yolunda ilk pillə - *şəriət,* ikincisi *təriqət,* üçüncüsü *həqiqətdir* (nədənsə, bu mə‘lumatda *mə‘rifət pilləsi unudulmuşdur*-Ş.F.). Həllac Mənsura görə sufinin ruhu Allah ilə real qovuşa bilər. Ekstaz anlarında o, *"Mənəm haqq"* (Allah mənəm") deyə qışqırarmış; ona görə də bid‘ətçilikdə təqsirləndirilib e‘dam edilmişdir (922-ci il). *Qəzalinin* islahatçılıq fəaliyyəti sahəsində *ortodoksal islamda* sufiliyin tə‘qibi dayandırıldı. *Sühpəvərdi* işraqilik (sirli nurlanma) tə‘limini, *Həmədani Eynülqüzzat, ibn əl-Ərəbi və Əhməd Qəzali* vəhdəti-vücud nəzəriyyəsini yaratmışlar (Bax: ASE, IX cild, səh. 91-92).

Böyük şairimiz *Məhəmməd Füzuli*

*"Gər mən mən isəm nəsən sən, ey yar,*
*Gər sən sən isən nəyəm məni-zar"*

deməklə sufiliyə dərin meyl etdiyini və vəhdəti-vücud nəzəriyyəsinə tərəfdar olduğunu bildirmirmi? – Ş.F.

*** s.1375** *Mərsumat* – Hakim və vali tərəfindən sadir olunan *məktub və fərmanlar* belə adlanırdı; Amma, bu istilah əsasən *vergi və məvaciblərə də aid olunurdu.* Mərsumat həmçinin müəyyən xidmətçilərə, xüsusilə hərbiçilərə *maaşdan əlavə ödənilən puldur* ki, dövlət tərəfindən *ilbəil* ödənilirdi (Bax: M.Moin. Göst. lüğət, III cild, səh. 415).

*"Rəsm"* və *"rüsum"* ifadələri də *"mərsumat"* kimi, mərhum tarixçi Ə.Ə.Rəhmaniyə görə, vergi adı altında rəiyyətdən dövlət mə‘murları və ruhanilərin *xeyrinə yığılmışdır.* Rüsuma *vəqf mütəvəllilləri* üçün yığılan *"Həqqüt-tövliyə",* vəzir, sədr, nazir kimi şəxslərdən ötrü alınan *"Rəsmül-vüzəra", "Rəsmül-südəra"* və "rəsmül-nüzəra" kimi vergi adları da aid idi. XVII əsrin sonlarında *rüsum* daha geniş yayıldı, kəndlilərdən başqa əhalinin başqa təbəqələrini də əhatə etdi (Bax: Ə.Ə.Rəhmani, Göst. əsər, səh. 152).

**** s.1375** *Züəma* –"zəim" sözünün cəm şəklidir, zəimin mə‘nası isə zamin, rəis, rəhbər deməkdir (Bax: M.Moin, Göst.lüğət, cild II, səh.1740).

**** s.1381** *Subay ləşkəri* – silahlı qüvvələrin böyük hissəsini təşkil edən insanlar olmuşlar. Subaylarla əskərlərin arasındakı

fərqlər bunlardır: Əskərlər ümumi əskərlik qanununa tabe idilər, subayların isə xüsusi qanunları vardı. Əskərlər dövlət tərəfindən ayrılan xüsusi təxsisat əsasında iaşə ilə tə‘min olunurdular, subaylar isə normal vaxtlarda, özlərinin ailə büdcələri hesabına yaşayır, səfərbərlik və yürüşlər vaxtı isə onlar da əskərlər kimi dövlət himayəsində olur, ümumi qazandan yeyir, müəyyən olunmuş paltar geyinirdilər. Əskərlik etmək hər bir türk vətəndaşı üçün mütləq mükəlləfiyyətdir, subaylar isə şəxsən öz istəkləri üzrə səfərbər olunmuş şəxslər olmuşlar.

Onların aralırında fərqlər də vardır: onların hər biri vətəni müdafiə etməli, dövləti qorumalıdır; Subaylar öz-özlərini idarə edir, əskərlər isə idarə olunurlar; mükəlləfiyyətləri eyni olsa da, əskər cinayət etdikdə dövlət qanunları ilə, subay isə öz xüsusi qanunları üzrə cəzalanırdı.

Subay ilə əskər arasında *əssubay* adlı bir təbəqə də vardı. Əssubaylar (çavuş, üst çavuş, baş çavuş) müxtəlif yerlərdə əssubay hazırlama mərkəzlərində hazırlıq dərsləri keçirdilər (Bax: İslam Ansiklopedisi, cild 37, İstanbul, səh.449-451).

İsgəndər bəy Münşinin əsərində “subay ləşkəri” ifadəsindən başqa “*subaşı*” istilahı da vardır:

*Sübaşı* – Türk dövlətlərində ordu başçısı, osmanlılarda isə şəhərləri qoruyan zabit olmuşdur. Türk dilində “sü” və ya “su” ifadəsi “əskər, ordu” mə‘nasında işlənir, bə‘zən oğuz qəbilələri bu kəlməni “sü bəyi” kimi də tələffüz edirdilər. Qaraxanlılarda ordunu idarə etmək “sü başlamaq” ifadəsi ilə ünvanlanırdı. “Kutatqu bilik”də “sübaşlar ər”, “sübaşlar kimi”, “sübaşçısı” kimi terminlər mövcuddur. Sübaşı tə‘yin ediləcək şəxsdə sərt təbiət, təcrübə, cəsarət, comərdlik, yaxşı nişançılıq qabiliyyəti, heysiyyət, tədbir, hiyləgərlik, hərbi taktikaları bilmək və siyasi zəkaya malik olmaq kimi xüsusiyyətlər mühüm keyfiyyətlər idi. Səlcuqilərin əsasını qoymuş *Səlcuq bəy də subaşı olmuşdur*. Şəhəri fəth edən sərkərdə dərhal “*vali*” adlanır və fərmanla təsdiq olunurdu. Sübaşılar inzibati işlərdən başqa ticarət məsələlərinə də qarışa bilirdilər. Süba-

şılıq XX əsrin əvvəllərində ləğv olundu (Bax: İslam Ansiklopedisi, cild 37, İstanbul, 2009, səh.447-448).

*** s.1383** *Rum eli* – "Tarixi-aləmaraye-Abbası" kitabında (Bax: səh. 768, 769, 822, 903, 1015) bu əyalətin adı ilə bağlı hadisələr şərh olunmuşdur.

"Rum eli" *Osmanlı imperatorluğunun Avropa qit'əsindəki hissəsinə* verilən addır. İmperator *Konstantin* Bizans şəhərini yenidən quraraq xalqın rəğbətini artırmaq üçün orada yerləşənlərə *"Romalı vətəndaş"* haqqını verdiyindən vaxt ötdükcə *Şərqi Roma* hüdudu içində yerləşənlərə *"Romalı"* deyilməyə başlandı. Ərəbcəyə *"rumi"* şəklində keçən bu istilah imperatorluğun hakim olduğu yerlər və xüsusilə Anadolu *"Mülki-Rum"* kimi anılmağa başladı. Sonralar eyni məmləkətlərə sahib olan Osmanlı hökmdarlarına *"Rum padşahı"* deyildi. Osmanlı dövründə Sivas vilayətinə *"Rum vilayəti"* adı verilmişdi.

Rum vilayəti aşağıdakı yerlərdən ibarət idi: *Səlanik, Üskür, Ohri, Kösləndil, TİrhaIa, Delvina, Avlonya, Elbasan Pirzvan, Dikaqin, Alacahisar, Vilçetrin, Yanya, Semandre, Yanova* (Bax: M.Z.Pakalın, Göst. lüğət, III cild, s. 56).

*** s.1388** *İvar* – "Axşam vaxtı", "günəşin qürubuna az qalmış" və yaxud "günəşin çıxmasına az qalmış ("şəbgir") mə'nalarını ifadə edən istilahdır (Bax: M.Moin. Göst. lüğət, I cild, səh. 422; II cild, səh. 2019).

*** s.1392** *Yüzbaşı* – türk sözü yüz+başı=yüzbaşı, yə'ni *rəis*. Bu istilah *yüz nəfərə* başçılıq edən hərbi rəisin daşıdığı vəzifənin adıdır (Bax: M.Moin. Göst. lüğət, IV cild, səh. 5273).

*** s.1394** *Şərbətdar* – Şərbət, şərab və içməli su hazırlayan *xidmətçi* (dövlət divanında). Şərbətdar *şərbətxanə* adlanan xüsusi otaqda hazırlanan bütün içkilərə *məs'ul* şəxs idi (M.Moin. Göst. lüğət, II cild, səh. 2036).

*** s.1405** *Qəcərçi (ğəcərçi)* – bələdçi, yolgöstərən mə'nasını ifadə edir (Bax: M.Moin. Göst. lüğət, II cild, səh. 2389, 2640)..

V.Z.Piriyevin yazdığına görə, monqol qoşunlarında *"qəcirçi"* (!) adı altında fəaliyyət göstərən *"rabitəçilər"* var idi (Bax. Vaqif Piriyev, Göst. əsər, səh. 328).

** s.1405 *Məhəmməd Səlim Cahangir ibn Cəlaləddin Məhəmməd Əkbər* – Böyük Moğollar dövlətinin *dördüncü* hökmdarı Məhəmməd Əkbər, bildiyimiz kimi 1605-ci ildə vəfat etmişdir. O, ölümqabağı oğlu Səlim *Cahangiri* özünə canişin tə‘yin etmişdi. Səlimin hakimiyyətə başlaması vaxtından başlayaraq Hindistanın Moğol İmperatorluğunda daxili və xarici cənglər baş qaldırdı və nəhayət bu imperatorluğun süqutunu yaxınlaşdırdı.

Əkbər şahın *ikinci oğlu Xosrov* 1606-cı ildə qardaşına qarşı üsyan etdi, *Pəncabı* əlinə keçirdi. Onu əzməkdən ötrü Pəncaba qoşun çəkən Səlim Cahangir xeyli adam qırdı və *şeyxləri* (üsyançı ağsaqqalları –.F.) qılıncdan keçirdi.

Səlim Cahangirin imperatorluq etdiyi dövlət tezliklə onun gözəllikdə, kamalda, tədbirdə və siyasətdə dünyada məşhur olan *iranlı arvadı Nurcahan* tərəfindən idarə olunmağa başladı və bu qadın tədriclə *bütün hakimiyyəti* öz əlinə ala bildi, iranlı ailə üzvlərini və başqa yaxın adamlarını məmləkətin siyasi işlərinə cəlb etdi. Beləliklə, Böyük Moğol imperiyasında bütün işlər iranlılar tərəfindən aparılmağa başladı. Səlim Cahangir özünün zəif xarakteri ilə ölkədə narazılıq yaratdığı üçün ona qarşı üsyanlar baş qaldırdı. Həmçinin, qardaşı Xosrovu qətlə yetirmiş *Şah Cahan* (Cahangirin başqa qardaşı-Ş.F.) da səlim Cahangirə qarşı üsyana başladı. Amma tab gətirə bilməyib Dekəndən Bengala getdi. Çox keçmədən Səlim Cahangir öz sərdarlarının biri tərəfindən tutulub zindana salındı, lakin Nurcahan onu həbsdən azad etdisə də o, 1627-ci ildə həyata əlvida etdi və Şah Cahan hakimiyyət ipini öz əlinə keçirməyə müvəffəq ola bildi (Bax: Xanbaba Bəyani. Göst. əsər, səh. 589-590).

* s.1409 *Əcəm diyarı* – Ümumiyyətlə ərəb irqindən olmayanlara (qeyri ərəb) *əcəmlər* deyilirdi, xüsusən *iranlılar* əcəm adlanırdılar. Şair Sənayinin belə bir misrası vardır:

*“Əcəm odur ki, çəkir nalə ərəb zülmündən”*

*Tərcüməsi: “Əcəm sezəd ke benalənd əz ərəb”*

(Bax: M.Moin. Göst. lüğət, II cild, səh. 2278)

* s.1415 *Xüms* – Hər nəyinsə beşdə biri (1/5) mə‘nasındadır. Müsəlmanlar tərəfindən ticarətdən əldə edilən gəlirin beşdə biri vergi növü kimi “xüms” adlanmışdır (Bax. M.Moin. Göst. lüğət, I cild, səh. 1440).

* s.1448 *Mirşekarbaşı* – Ova çıxan *“şikarçı”ların başçısı*. Şah xidmətində duran *ovçuların əmiri.*

* s.1455 *Yəmani* – Yəməndə hazırlanan əşya, əsasən qılınc. İsgəndər bəy Münşi burada “Yəmən” və “yəman” (“yaman”) sözlərini antonim kimi işlətmişdir – Ş.F.

* s.1460 *Bəhram* (Vəhram, Pəhram) – Bir neçə *sasani şahının* adı Bəhram olmuşdur (m. 272-276). *İkinci Bəhram* sasanilərin beşinci şahı *I Bəhramın* oğludur (m. 276-293). *Üçüncü Bəhram* sasanilərin altıncı padşahdır və *I Hörmüzün* oğlu idi. O, m. 293-cü ildə yalnız dörd ay hökmdarlıq edə bildi. *Dördüncü Bəhram* “Kirmanşah”adı ilə məşhur olan *on üçüncü* sasani padşahıdır (m. 388-399). O, Rum İmperatoru *Teodor* ilə sülh sazişi bağladı və *Ermənistan iki ölkə arasında (sasanilər və romalılar) bölüşdürüldü.* Bəhram Gur adı ilə tanınan *beşinci Bəhram* isə sasani sülaləsinin *on beşinci padşahıdır* (m. 421-438). O, ərəb şahlarından olan Monəzzərin sarayında boya-başa çatmış və rəvayətə görə səltənət tacını 2 şirin arasından götürə bilmişdir. *V Bəhram bütün Ermənistanı İran ərazisinə birləşdirdi* və ona tabe olan ölkələrdəki əhaliyə məzhəb azadlığı verdi (Bax: D-r. Moin. Göst., lüğət, c. V, səh. 303.).

*İskəndər bəyin adını çəkdiyi Bəhram* məhz V Bəhramdır ki, o, *Nizaminin* tərənnüm etdiyi məşhur *Bəhram Gurdur* – Ş.F.

* s.1464 *Ehram* – Bir-birinə tikilməmiş iki ağ parça. Həcc ziyarəti zamanı o parçaların birini bədəni örtmək, ikincisini isə çiyinə çəkməkdən ötrü istifadə edirlər (Bax: D-r Moin. Göst., lüğət, c. I, səh. 157).

* s.1465 *Çavuş* – Zənnimizcə, fars dilinə də keçən türk istilahıdır. D-r Moin öz lüğətində yazır: “Ləşkərin və karvanın önündə gedən şəxs. Qafilənin nəqibi. Çavuş qafilənin önündə gedir və avazla oxuyur”. D-r Moinin fikrincə *“hacib”* də çavuşdur (Bax: D-r. Moin. Göst., lüğət, c. I, səh. 1270).

*s.1467 *Mən* (çəki vahidi) – batman.

* s.1469 *Fələkül-əflak* (fələklər fələyi)-mifologiyada *empirey.*

* s.1474 *Misqal* – təqribən *5 qrama* bərabər çəki ölçüsü vahididir (Bax: Nəyyerzaman Səqəfi. Göst, lüğət, c. II, səh. 500).

* s.1475 *Şənb-Qazan* – Təbriz yaxınlığındakı tarixi yer. "Şənb" sözünün mənası *gümbəz, qubbə* deməkdir. Həmin yer monqol hökmdarı *Qazan xanın* şərəfinə elə adlandırılmışdır.

Şənb-Qazan orta əsrlər dövründə *"Qazaniyyə"* də adlanmışdır. İran tarixçisi *Həmdullah Qəzvininin* mə'lumatına görə Qazan xan Təbrizin aşağı səmtində *"Şam"* adlanan yerdə şəhərcik saldıraraq, onu "Qazaniyyə" adlandırmışdı. Qazaniyyənin yerində isə *Şam kəndi* yerləşmişdi. Məhz buna görə də bu yerin adı "Şam Qazan" kimi işlənməyə başlanmışdı. Təbrizlilər elə bugün də Qazaniyyənin xarabalıqlarına *"Şam Qazan"* deyirlər (Bax: ASE, II cild, səh. 559).

*Prof. V.Z.Piriyev – Buduqlunun* "Azərbaycan XIII-XIV əsrlərdə" kitabında verilən məlumata görə Qazan xan *Təbrizin cənub-qərbində* geniş bir sahədə *"Qazaniyyə"* adlı bir şəhər saldırır və həmin şəhər az vaxtda iqtisadiyyat, elm və mədəniyyət mərkəzinə, həmçinin strateji məntəqəyə çevirir. "Şam-Qazan" və ya "Şənb-Qazan" adlanan bu şəhərcikdə Qazan xan məqbərəsi, Cümə məscidi, şafeiyyə və hənəfiyyə mədrəsələri, darüs-şəfa (xəstəxana), kitabxana, beytül-qanun (qanun evi), xanəgah, seyidlər evi, müstəvəlli evi və s. binalar inşa olunur (Bax: Vaqif Piriyev. Göst., əsər, səh. 300).

* s.1476 *Axurbaşı (əmiraxur, əmiraxurbaşı)* – heyvanların olduğu yerə (estəbl) vəzifədar edilən əmir; Bu axurbaşı, yaxud əmir şərq padşahlarının sarayında çalışan vəzifəli şəxslərdən biri idi (Bax: M.Moin. Göst. lüğət, I cild, səh. 356).

* s.1481 *Rəb'e-Rəşidi* – Qazan xanın vəziri *Rəşidəddinin* inşa etdirdiyi nəhəng abidələr kompleksi idi. Mə'lum olduğu kimi, Rəşidəddin Təbrizin şimal-qərbində bir şəhər saldırmışdı. Orada *30 min ev, 1500 dükan, 24 karvansara, mədrəsə, binalar, darüş-şəfa, müəllimlər evi, həkimlər evi, tələbə evləri, əczaxana, universitet binası, zərbxana, kağız hazırlayan*

*bina, boyaqçılıq və toxuçuluq karxanaları, kitabxana, məscid, yoxsullar evi, qonaq evi, dəyirman və s.* tikilmişdi (Bax: Vaqif Piriyev. Göst. əsər, səh. 300).

V.Piriyev-Buduqlu Rəbe-Rəşidini *"kiçik bir şəhər"* adlandırır. Əcəb kiçikmiş!

*** s.1485** *Məclisnevisi* – Məclisnevis vəzifəsini daşıyan mə'mur Səfəvilər dövründə Baş vəzirdən sonra sarayın bütün mə'murlarından *şaha ən yaxın adam* sayılırdı. Bu mə'mura *"müqərrəbül-xaqan"* (xaqana yaxın şəxs) da deyilirdi. O, *xüsusi* və *ümumi məclislərin* keçirildiyi vaxt *şaha yaxın* əyləşir, *divan məclislərində* iştirak edirdi. Bütün *şah hökmləri* onun vasitəsilə *yazılır və icra olunurdu.* Məclisnevis bütün *dövlət sirlərindən* agah olan bir adam idi. *Xarici padşahların* məktublarına cavabı *o yazırdı.* Vilayətlərdən gələn əmir və hakimlərə xas *ərizələr* şaha məhz onun tərəfindən ərz olunur, cavab məktublarını şahın əmri ilə *o qələmə alırdı.* Məclisnevis məclisdə şahın *sol tərəfində əyləşdiyindən* ona *"sol vəzir"* də deyirdilər (Bax: M.Moin. Göst. lüğət, III cild, səh. 3881).

*** s.1486** *Əhli-beyt* – Peyğəmbərlərə yaxın ailə üzvləri "əhli-beyt" adlanır, məs., əhli-Musa, əhli-İsa və s. Məhəmməd peyğəmbərin əhli-beyt üzvləri bunlardır: *Məhəmməd peyğəmbər, Fatimeyi-Zəhra, İmam Əli, İmam Həsən, İmam Hüseyn.*

**** s.1486** *Aşura günü* – Hüseyn ibn Əlinin şəhadətə yetirildiyi *məhərrəm ayının onuncu günüdür* (Bax: D-r Moin, Göst. Lüğət, c. II, səh. 2262).

*** s.1503** *Çovkanbazi* – At üstündə çovkan oyunu oynamaq belə adlanırdı. Bu oyun Yaxın və Orta Şərq ölkələrində geniş yayılmış oyunlardan olmuşdur. Bu sətirlərin müəllifi *Əfqanıstanda* dəfələrlə çovkanbazi oyunlarına tamaşa etmişdir. Oyunçular xüsusi öyrədilmiş atların üstündə oturub, meydandakı *topu* əllərindəki ucu əyri bir *ağacla* götürür və rəqib tərəfin qapısından keçirirlər. Elə öyrədilmiş atlara *"çövkani"* deyilir-Ş.F.

**** s.1503** *Qəbəqəndazi, yaxud qəbəqbazi* – İran alimi *Əbdülhüseyn Nəvai* "qəbəq" sözünün bir neçə mə'nasını göstərərək onun "qapuq", "qəpaq", "qəpəq" kimi də işləndiyini yazır: "Qəpəq meydanın ortasında yerə basdırılmış *hədəf ağacıdır* ki, dö-

yüşçülər həmin ağaca hədəf kimi ox atırlar; həmçinin *balqabaqdır* ki, meydanda yerə basdırılmış *dirəyin* başına hədəf kimi qoyulur; *"Tacül-məsadir"* kitabında "qəbəq" yalnız "kədu" (balqabaq – Ş.F.) kimi göstərilmişdir; Tehranda hal-hazırda bu kəlmə *"qapuq"* şəklində qalmaqdadır və Tehranın bir məhəlləsi *"paqapuq"* adlanır (Bax: Əhsənüt-təvarix, Tehran, h. 1349/m. 1970/, I cild, "Şərhlər" hissəsi, səh. 838).

Bir neçə il bundan qabaq *"Venesiyalılar Şah I Təhmasibin sarayında"* adlı bir kitab çap olundu (Mikele Membre və Vinçenso Alessandrinin səfərnamələri – ingilis dilindən tərcümə, ön söz, giriş və şərhlər AMEA-nın müxbir üzvü *Oqtay Əfəndiyevindir,* Bakı, 2005). Mən həmin kitaba xüsusi bir məqalə də yazdım. Məqalədə belə cümlələr vardır: "Darvaza ilə üzbəüz at yarışları üçün meydan deyilən *böyük sahə* var. Bu meydanın ortasında başında zərlə örtülmüş misdən *alma* olan çox uzun və hündür ağac dirək var. Onlar (adamlar) at çapan zaman bəʻzən həmin almaya *ox atırlar"* (Bax: Göst. kitab, səh. 29-30).

Doğrusu, mən mənbələrdə *"hündür ağac dirək"* barədə məʻlumata təsadüf etmişdim, lakin o hündür ağac dirəyin "qapaq ("qəpək") adlandığını, qapağın üstündəki almaya isə ox atıldığını və məhz belə oxatma yarışının *"qapaqəndizi"* adlandığını bilmirdim. "Qapaqəndazi" yarışının mahiyyətini alim *Oqtay Əfəndiyev* vasitəsilə venesiyalı səyyah-diplomat *Mikele Membredən* öyrəndim (Bax: Şahin Fazil Fərzəlibəyli. Səfir Mikele Membre hökmdar Şah Təhmasib Səfəvinin sarayında, "Hikmət" elmi araşdırmalar toplusu № 12, Bakı, 2008, səh. 101).

***** s.1503** *Atəşbazi* – hərfi məʻnası "atəş oyunu, od oyunu" deməkdir. M.Moində oxuyuruq: "Odla oynayanlar. Atəşlə oynamaq. Şənlik məclisləri və bayramlarda od yandırmaqla əylənmək" (Bax: Göst. lüğət, I cild, səh. 28).

****** s.1503** *Şəbistan* – "Yataq otağı" ifadəsindən başqa bu sözün *"hərəmsaray",* yaxud *"hərəmxana"* məʻnası da vardır (Bax: D-r Moin. Göst. lüğət, c. II, səh. 2018).

*** s.1506** *Pişxanə* – şahların özlərinin gedişindən əvvəl yola saldıqları *səfər ləvazimatıdır* (Bax: D-r Moin, Göst. lüğət, c. I, səh. 920).

* s.1507 *Rəfze* – tərk etmək, boşlamaq, özündən ayırmaq, rədd etmək kimi mə‘nalar əhatə edir. Sünnilərə görə şiələrin hamısı rafezidirlər. Rafezilər öz məshəblərindən dönən adamlara verilən addır. Sünnilərin əqidəsincə rafezilər Zeyd ibn Əli ibn Hüseynin davamçılarıdırlar. Zeyd haqqında isə oxuyuruq: "Zeyb ibn Əli ibn Hüseyn ibn Əbu Taleb" (h. 121, m. 740-cı ildə qətl olunmuşdur, *zeydiyyə firqəsinin* banisidir. Zeyd *mötəzele firqəsinin* (başqa əqidələri inkar edənlər-Ş.F.) təşkilatçısı *Vasil ibn Ətanın* şagirdi olmuşdur. O, öz əqidəsində ortancıl mövqe tutmuş, əmisi *Haşim ibn Əbdülməliki* ölkəsindən qovmuşdur. Hicri tarixlə 121-ci ildə çarmıxa çəkilən Zeyddən sonra oğlu *Yəhya ibn Zeyd* xəlifə ilə müxalifətdə olmuşdur (Bax: D-r Moin. Göst., lüğət, c. II., səh. 1624-1664; c. V, səh. 663).

* s.1517 *Nəqşbəndiyyə təriqəti* – I Şah Təhmasibin qızı Pərixan xanımın da üzv olduğu bu təriqət haqqında "Tarixe-aləmaraye-Abbasi" əsərinin I kitabında ("Şərhlər") ətraflı mə‘lumat verilmişdir.

* s.1520 *Resalət* – məktub aparmaq; məktub gətirmək; səfarət; dövlətlərarası elçilik xidməti; peyğəmbərlik; risalə (kiçik kitab). Bu sözün cəm şəkli "resalat"dır (Bax: M.Moin. Göst. lüğət, cild II, səh. 1450).

*Risalət* (Elçigəri, səfarət) – XV-XVII əsrlərdə Azərbaycanla Türkiyə arasındakı *səfarət münasibətlərinə* xüsusi həsr edilən tədqiqat işi yoxdur. Müxtəlif türkdilli xalqların tə‘birincə desək, *"elçiləşmək"* və *"elçilik",* yə‘ni "səfarət" məsələsi *müstəsna əhəmiyyətli* olduğu üçün buna xüsusi diqqət yetirmək diplomatika tariximizin öyrənilməsindən ötrü *zəruri məsələdir.* Müxtəlif tarixi mənbə və səndləri mütaliə etdikdə səfarət nümayəndələri olan elçi-səfirlərin kimlərdən ibarət olduğunu və onların vəzifələrini dövrlərə görə müəyyənləşdirmək lazımdır:

I. *Elçilər* xüsusi tapşırıqla bir ölkədən başqa ölkəyə göndərilən e ëtibarlı şəxslərdir və onların vəzifələrinə, əsasən aşağıdakı işlərin icrası şamildir:

Taxta cülus edən hökmdarın təbriki;

vəfat edən hökmdarın adına aparılan tə‘ziyətnamənin təqdim olunması;

hədiyyə verilməsi;

sülh müqaviləsinin imzalanması;

fəthnamə aparılması;

dövlətlərarası ixtilafların həlli və s.

II. *Elçi və elçi hey‘ətinin göndərilmə xüsusiyyəti:*

Bir elçi bir dəfə göndərilir;

bir elçi bir neçə dəfə göndərilir;

elçini elçi hey‘əti müşahidə edir;

bir ölkəyə gələn elçi üçüncü bir dövlətə elçi sifətilə göndərilir və s.

III. *Elçinin dərəcələri:*

Böyük elçi;

Elçi.

Tarixən XV əsr Azərbaycan dövlətlərinin ərazisində Dərbəndi Şirvanşahlar (1382-1538), Qaraqoyunlular (1368-1478) və Ağqoyunlular (1370-1503) kimi üç sülalə hökmranlıq etmiş, XVI əsrdən isə Səfəvilərin hakimiyyəti başlanmışdı. Həmin sülalərin üzvləri ilə Osmanlı imperiyasının ayrı-ayrı üzvləri arasında münasibətlər tez-tez dəyişikliyə uğrasmış, müxtəlif illərdə *sülh şəraitinin bərqərar olmasına baxmayaraq,* qanlı döyüşlər də baş vermişdir. Belə bir şəraitdə həmin dövlətlər arasındakı münasibətlərin tənzim olunmasında hökmdarların e‘tibarlı nümayəndələri olan elçi-səfirlərin böyük rolu olmuşdur.

*Osmanlı dövlətində qəbul olunan qaydaya görə,* elçilər ali divana çağırılır, orada dinlənilir, onların sonrakı görəcəyi iş sultanının hökmü üzrə müəyyənləşirdi. *Tarixçi Heydər Çələbinin* 1515-ci ildə olan qeydlərinə görə, ali divan iki şəkildə-*gizli və ya açıq* çağırılır, təbii ki, gizli divan yalnız sultan və bir neçə ali rütbəli şəxsin iştirakı ilə keçirilirdi.

Azərbaycan və Türkiyə arasında orta əsrlərdə *daimi səfarətxana* və daimi fəaliyyət göstərən səfirlər olmamışdır. Lakin, bu dövlətlərə bə‘zi *Avropa ölkələrindən,* həmçinin Venesiya Respublikasından uzun müddətə xüsusi səfirlər yollanır, onlar

üçün müəyyən edilən *səfərətxanalarda* fəaliyyət göstərirdilər. *Bertold Şpulerə* əsaslanan türk tədqiqatçısı *Faiq Rəşad Unatın* mə‘lumatına görə, Venesiya 1454-cü ildən, Polşa 1475-ci ildən, Rusiya 1497-ci ildən, Fransa 1525-ci ildən, İngiltərə 1583-cü ildən başlayaraq İrana, Türkiyəyə və Azərbaycana öz *daimi* səfirlərini yollamışdılar (Bax: Faiq Rəşad Unat. Osmanlı səfirləri və səfarətnamələri, Ankara, 1987, səh. 14). Amma Azərbaycandan və ona qonşu dövlətlərdən uzaq və yaxın ölkələrə XIX əsrə qədər *"qasid", "namərəs", "rəsul"* və başqa adlar ilə, əsasən *az müddətə* elçilər göndərilməkdə davam etmişdir (Bax: Şahin Fazil Fərzəlibəyli. Azərbaycan və Osmanlı imperiyası…, səh. 197-199).

*** s.1526** *Hicaz*-Hal-hazırda Səndiyyə Ərəbistanında vilayətdir.

*** s.1527** *Zəvalnuniyyə* – Bu ifadə *"Zəvalnunun tərəfdarları"* mə‘nasını verir. "Zəvalnun" sözü "Balıq Allahı", "Balığın həmdəmi" kimi Yunis ibn Mətinin ləqəbidir. İskəndər bəy Münşinin xatırlatdığı zəvalnuniyyə təriqəti isə *Əbülfeyz, yaxud Əbülfəyyaz* ləqəbli Suban ibn İbrahim Əxmimi Meşriyə xas təriqət olmuşdur. Suban ibn İbrahim (h. 245=m.859-cu ildə doğulmuşdur) məşhur alimlərdən olub fəsahətli və hikmətli bir şəxs idi. Onu kafərlikdə (zendeqə) ittiham etdilər. *Mütəvəkkil Abbasi* onu öz yanına çağırdı, söhbət etdi, sonra sərbəst buraxdı (D-r Moin. Göst., lüğət, c. V, s. 564).

*** s.1530** *Həvizə* – Bir vaxt Ərəbistanda *müstəqil sultanlıq* olmuşdur. Hazırda *İrandadır. Dəşte-Mişanda* şəhristandır. *Susəngərdin* cənub-şərqində yerləşir. Əhalisi əkinçilik və maldarlıqla məşğuldur (Bax: D-r Moin. Göst. lüğət, c. VI, səh. 2315).

*** s.1531** *Qədəmgah* – qədəm basılan yer; ayaq yeri; pak yer; ayaq yolu; peygəmbərin, ya imamın qədəminin gəlib çatdığı yer; ayaq izinin nəqş olunduğu daş. Bütün bu açıqlamaları D-r Moinin lüğətindən əxz etdik (Bax: Göst., lüğət, c. II, s. 2647). Bu sətirlərin müəllifi *kərbəlayi və məşədi olan Şahin Fazil* Nişapur sərhədindəki Qədəmgahı *(İmam Rzanın qədəmi nəqş olunan yer)* 1999-cu ilin iyun ayının 20-də ziyarət etmişdir. Onun "12 gün Firdovsi və Xəyyam diyarında" adla-

nan səfər təsərrüfatlarında yazılmışdır: “Nişapur ilə Məşhəd arasında “Qədəmgah” adlanan tarixi bir məkan var. Deyilənə görə *İmam Rza* buradan keçərkən qədəmini yerə bərk vurub və oradan bir bulaq çıxıb. Biz hal-hazırda yerdən iki metr aşağıda olan həmin bulaqdan su içdik, imamın hər iki ayağının izi nəqş edilən divarın önündə sükut içərisində dayandıq. Yanımızdakı zəvvarlar həmin ayaq nəqşini öpüb imama dua edirdilər” (Bax: “12 gün Firdovsi və Xəyyam diyarında” Səkkizinci İran səfərnaməsi, Şahin Fazil. İran səfərnamələri, Bakı, 2003, s. 149).

*** s.1539** *İctihad məsələləri:* cahad etmək, cəhd etmək, mücdəhid olmaq, çalışqan olmaq, savab axtarmaq, ustadlıq etmək, şəriət kitablarına əsasən şər‘i məsələlərin sübut olunması *(Qu‘ran və hədisələrə söykənərək),* ictihada mənsub olan məsələlərdir (Bax: D-r Moin. Göst., lüğət, c. I, səh. 146-147).

**** s.1539** *Mir Damad kimi məşhur olan Məhəmmədbağır Məhəmməd Astrabadi* (h. 1040-cı ildə vəfat etmişdir). *Şah Abbasın* xüsusi diqqətinə layiq olan Səfəvi dövrünün məşhur filosofu və alimi. Məşhəddə təhsil almışdır. Ömrünü əsasən İsfahanda keçirən Mir Damad *Şeyx Hüseyn Amelinin və Şeyx Əbdülalinin şagirdlərindəndir,* Molla Şədraye Şirazi isə *onun şagirdi idi*. Fiqh və hikmətə dair çoxlu əsəri vardır: “Əl-siratül-müstəqim”, “Qəbəsat”, “Əl-mövzəcül-ülum”, “Ət-təqdisat” və s. O, şair də olmuş, “Eşraq” təxəllüsü ilə şeirlər yazmışdır, *“Məşrəqül-ənvar”* adlı məsnəvisi də vardır (Bax: D-r Moin. Göst., lüğət, c. VI, s. 2069).

***** s.1539** *Şeyx Lütfulla ibn Əbdülkərim ibn İbrahim Fəqih* (h. 1032-ci ildə vəfat etmişdir). O, *Cəbəl Amel (Livan)* ölkəsinin meys tayfasından idi. Şeyx Lütfulla, Cəbəl Amelin bir çox alimləri kimi, gənc yaşından ikən İrana gəlmiş, əvvəlcə Məşhəddə yaşamışdır. O, bu şəhərin alimləri tərəfindən tanındıqdan sonra Molla Abdulla Şüştərinin təqdimatı ilə Şah Abbas tərəfindən *İmam Rza rövzəsində* işə başlamış, özbəklərin *Məşhəddəki* fitnəkarlıqlarına qədər orada qalmış, sonra *Qəzvində* fəaliyyətdə olmuşdur. Şah Abbas onu Qəzvindən İsfahana gətirdi. Bu səfəvi hökmdarı h. 1011-ci ildə *Nəqşe-*

*Cahan* meydanında onun şərəfinə mədrəsə, məscid, iqamət və imaməti üçün ev tikdirmişdir. 17 il davam edən inşa işlərindən sonra şeyx həmin məsciddə fəaliyyətdə olmuşdur. Hal-hazırda da o məscid *"Şeyx Lütfulla məscidi"* ("Məscide Şeyx Lütfullah") adlanır (Bax: D-r Moin. Göst., lüğət, c. VI, səh. 1813).

********
**s.1539** *Təlqin* – D-r Moinin və Nəyyerzaman Səqəfinin lüğətlərində bu ifadənin aşağıdakı mə'naları var: öyrətmək, anlatmaq, hər hansı mətləbi şifahi ərz etmək, dəfn zamanı məzhəbi üsul və əsaslardan danışmaq, öyüd-nəsihət vermək, beynə yeritmə, meyid duası oxumaq (Bax: D-r Moin. Göst., lüğət, c. I, səh. 1133; Nəyyerzaman Səqəfi. Göst., lüğət, c. I, səh. 508).

*****
**s.1542** *Mal vergisi*-müxtəlif xüsusi əmlakdan, o cümlədən bağ, zəmi, meşə, dəyirman və s.-dən alınan vergilər mə'nasında işlədilmişdir. Mərkəzi hökumət aparatında həmin vergilərin toplanılması məsələlərinə baxan *divane-mal* adlı xüsusi idarə olmuşdur. *"Nameye-nami"* əsərində verilən mə'lumatdan aydın olur ki, həmin idarəni *əmir rütbəsində olan şəxslər* idarə edirmişlər. Bu idarə eyni zamanda mərkəzi hökümətin sərvətini artırmağa, ölkədə əkinçiliyi genişləndirməyə, şəhərlər və vilayətlərdə abadlıq və quruculuq işləri aparmağa vəzifədar imiş (Bax: T.M.Musəvi. Göst., lüğət, əsər, s. 56).

******
**s.1542** *Dəh-yek* – Hərfi tərcüməsi: "Onda bir". Ərəb istilahı olan "üşr"ün sinonimidir. Dəh-yek istehsal olunan məhsuldan onda bir hissə alınan *vergi növüdür* (Bax: O.Əfəndiyev. Göst., əsəri, səh. 227). T.M.Musəvi isə bu vergi barədə belə yazır: Üşr-ərəb dilində onda bir deməkdir. Qətiyyətlə demək olar ki, bu vergi Azərbaycanda məhz ərəb istilası ilə əlaqədar meydana gəlmişdir. Mə'lum olduğu kimi, ərəblər işğal etdikləri əraziləri ümumiyyətlə 4 yerə ayırmışlar:

1) Qılınc gücü ilə işğal olunun əkin sahələrinin mücahidlər arasında bölüşdürülmüş ərazisi;

2) Müsəlmanların əli ilə ehya olunan və əkin üçün yararlı hala salınan ərazi;

3) Əhalisi könüllü surətdə islam dinini qəbul etmiş ərazi;

4) Əhalisi müqavilə əsasında ərəblərə təslim olmuş ərazi;

Ərəb hökmdarları 1, 2 və 3-cü ərazidə işləyən əkinçilərdən *üşr vergisi* toplayır, 4-cü ərazidə çalışan ərazidən isə *xərac* alırlarmış (Bax: T.M.Musəvi. Göst., əsər, səh.57).

*** s.1542 *Şafei məzhəbi* – İslamda sünniliyin əsas qollarından (məzhəb) və müsəlman hüququ (fiqh) məktəblərindən biri. Əsası *Məhəmməd ibn İdris* (767-820) tərəfindən qoyulmuşdur. Şafeilik orta əsirlərdə Azərbaycan, Xorasan, İraq, Misir və Suriyada geniş yayılmış, uzun müddət *hənəfiliklə* (sünniliyin başqa qolu – Ş.F.) münaqişədə olmuşdur. Şafeiliyin təkamül, inkişaf və yayılmasında *Nəsai* (IX əsrin sonu-X əsrin əvvəlləri), *Əş'əri* (?-935), *Mavərdi* (XI əsr), *Şirazi* (XI əsr), *Qəzali* (?-1111) və *Nəvəvinin* (XIII əsr) böyük xidmətləri olmuşdur. Şafeiliyin yüksəlişi səlcuqların vəziri *Nizamülmülkün* adı ilə bağlıdır. Şafeiliyin ideya və hüquq baxşlarının təkmilləşdirilməsində azərbaycanlılardan *Rafii Qəzvini* (?-1226) və *Cəmaləddin Ərdəbilinin* (?- 1397) xidməti olub. Şafeiliyin orta əsr Azərbaycan hüquşünaslığının formalaşmasında mühüm yeri var (Bax: ASE, 1987, X c. , səh. 471) Qeyd: Möhtərəm oxucu! Sovet dövründə yazılan və şafeiliyin məzmununu açıqlamayan bu məqalədən yəqin ki, heç nə başa düşmədiniz, çünki, şafeiliyin məzmunu və qayəsi sizə, eləcə də mənə mə'lum olmadı. Hazırda Azərbaycan Respublikası Ensiklopediyasının yeni nəşri yazılır. Yəqin ki, yeni nəşrdə şafeilik və başqa məzhəblər haqqında dolğun mə'lumat oxuya biləcəyik-Ş.F.

* s.1544 *Mire-bəhr* – Əmirülbəhr. *Hərbi dəniz qüvvələrinin əmiri* (hökmranı). Müasir istilahla desək *"admiral"* mə'nasındadır (Bax: Fərhənge zəbane-taciki, I cild, səh. 63).

** s.1544 *Rim papa* – Roma Katolik kilsəsinin ən böyük başçısı. Hazırda bu istilah "papa" şəklində işlədilir.

"*Biz nə müfti, nə imam istəmidiz Avropadan*
*Nə də üqbadə şəfaət diləriz Rim papadan*"
(Pakalın, c.III, səh.48).

* s.1550 *Nizamşahiyyə* – Hindistan müsəlmanları sülaləsinin adıdır. Bu sülalə *bəhmənilərin* dağılmasından sonra hakimiyyətə

gəlmiş, *Əhmədnegar vilayətində* bərqərar olmuşdur. Hicri-qəməri 869-1044-cü illərdə hakimiyyətdə olan nizamşahiyyə sultanları *moğol imperatoru Cəlaləddin Əkbər tərəfindən* siyasət səhnəsindən silindilər (Bax: D-r Moin. Göst., lüğət, c. VI, səh. 2131)

** s.1550 *Qütbşahilər* – Hindistanın Gölkəndə adlı yerində hökmranlıq edən sülalə üzvləri (hicri-qəməri 918-1098). Onların padşahları *Sultanqulu* (h.q. 918-m. 1512); *Cəmşid (*h.940-m. 1543); *Sübhanqulu* (h. 957-m. 1550); *İbrahim* (h. 957- m. 1550); *Məhəmmədqulu* (h. 989- m. 1581); *Abdulla* (h. 1020-m. 1611); *Əbülhəsən* (h. 1083-m. 1672) olmuşlar. Bu sülaləni Hindistan moğolları suquta uğratdılar (Bax: D-r Mion. Göst., lüğət, c. VI, səh. 1472).

* s.1561 *Qanıq* (Qanıx çayı) – Azərbaycanda və Gürcüstanda çay. Uzunluğu 321 km-dir. Mingəçevir su anbarına tökülür. Böyük qolları: İlto, Kabeli (Gürcüstanda), Balakən, Katex, Talaçay, Kürmük, Əyriçay və s. Yeraltı yağış və qar suları ilə qidalanır.

"Qanıx" sözünün etimologiyası hələ dəqiq müəyyənləşdirilməyib. Bəzi tədqiqatçıların fikrincə udin və saxur dillərində "su" bildirən "xan" ("qan") sözündəndir. Tayfa adı ilə də əlaqələndirilir. Qanıx çayı sahilində, (e. ə. 66-65-ci illərdə *Albaniya (Qafqaz) və Roma qoşunları,* 16-cı əsrdə *səfəvilərlə-osmanlılar,* 18-ci əsrdə *Şəki xanı Hacı Çələbi* ilə Kartli-Kaxeti çayının qoşunları arasında döyüşlər baş vermişdir (Bax: ASE, c. II, Bakı, 1979, səh. 35).

** s.1561 *Başıaçıq* – XVI əsrdə Gürcüstan knyazlığı (Bax: O.Əfəndiyev. Göst. əsər, səh. 63).

* s.1570 *Qəmərğə ovu* – Cərgə ovu da adlanır. Belə ki, heyvanları qovub dairə (cərgə) içərisinə salır, onları qaçmağa qoymur və yüksək rütbəli ə'yanlar, xüsusiylə şah onları ovlayırlar (Bax: Əhsənüt-təvarix, Şərhlər hissəsi, səh. 839).

* s.1578 *Mircümlə* – İrəc Əfşar bu vəzifə sahibinin Hindistanda *"vəzir"* olduğunu bildirir (Bax: Tarixe - aləmaraye-Abbasi, Göstəricilər hissəsi, səh. 1221).

*Yasaqçıbaşı, Yasaqçı* – əsgər toplanışından ötrü (yasaq) vilayətlərə göndərilən adamlar belə adlanırdı. *Yasaqçıbaşı* sözünün mə‘nası isə elə bu sözün adından mə‘lumdur – Ş.F.

*** s.1578** *Nəqarəxanə* – Yüksəklikdə yerləşən bir məkandır ki, orada hər sübh və hər axşam *təbil, şeypur, kərənay və nağara* səsləndirirdilər. M.Moin səfəvilər dövründə bu dövlətə gəlmiş bir *avropalıya* əsaslanıb yazır: "Nağaraçılar (nəqarəçiyan) günəşin çıxmasından əvvəl və batmasından sonra (qürub) əllərində *uzun kərənaylar tutaraq* canlı təbiətin ən böyük nümayəndəsi olan *günəşi* salamlayırlar. Bir sıra ölkələrdə qədim dövrlərdən *nağaraxanalar* mövcud olmuşdur (Bax: M.Moin. Göst. lüğət, IV cild, səh. 4782).

*** s.1596** *Orlatlar* – Monqolların Mərkəzi Asiya və Azərbaycanda məskunlaşmasından sonra monqollarla yerli əhalinin bir-biri ilə qaynayıb-qarışması münasibətiylə yaranan tayfa üzvləri. Mən monqol dövrünün tarixi ilə məşğul olan məşhur tarixçimiz Vaqif Piriyev Buduqlunun "Azərbaycan XIII-XIV əsrlərdə" kitabında orlatlar barədə mə‘lumata təsadüf etmədim. D-r Moinin lüğəti və ASE də mə‘lumatdan xalidir. Amma, mə‘lumdur ki, orlat tayfası Azərbaycanda əsasən Şəki bölgəsnin sakinləri olmuşlar. Məşhur Şəki hakimləri *Seyd Əli Orlat* (XIV əsrin ikinci yarısı) və *Seydi Əhməd Orlat* (XV əsrin birinci yarısı) bu tayfa nümayəndələri olmuşlar.

İsgəndər bəy Münşi özbək orlatlarını *"cığatay orlatları"* adlandırır. Belə olan halda, biz də ölkəmizdə yaşamış orlatları *"azərbaycanlı orlatlar"* adlandırsaq yanılmarıq zənnindəyəm.

*** s.1598** *Yəde-beyza* – "Ağ əl" deməkdir. Musa peyğəmbərin iki möcüzəsindən biri olmuşdur. Belə ki, o, əlini cibinə qoyub-çıxaranda peyğəmbərin əlində nur görünürdü. "Yəde-beyza"nın başqa mənası isə "qüdrət, nüfuz" deməkdir (Bax: D-r Moin. Göst., lüğət, c. IV, səh. 5252-5253).

*** s.1599** *Ehdas vergisi* – V.F.Minorski yazır: "Ehdas-gecə vaxtı şəhərdə gəzən, mühüm məsələlərə nəzarət edən və qanuna xilaf hərəkət edənləri cəzalandıran şəxslərin *rəisidir*" (Bax: V.Minorçki. Göst., əsər (Məhmməd Dəbirsəyaqi nəşri), s. 153).

* s.1603 *Ordubəyi* – ordu başçısı, əskərlərin böyüyü; ordubəyilik vəzifəsinin sahibi (Bax: M.Moin. Göst. lüğət, I cild, səh. 197).

* s.1605 *"Əhl tayfası"* – "dindar adamlar tayfası" deməkdir. D-r Moinin lüğətində "əhl" ifadəsinin *aşağıdakı mə'naları* vardır: xanədan, əhali, sakin, qadın, ləyaqət sahibi, nəcib, əsilzadə, hər bir peyğəmbər ümməti, əhli-Musa, əhli-İsa və s. (Bax: D-r Moin. Göst., lüğət, c. I, səh. 409).

* s.1608 *Çərik* – XV, qismən də XVI əsrlərdə ordu sarayın ixtiyarında olan *kiçik qoşundan* və ayrı-ayrı vilayətlərdə yaşayıb, yalnız müharibə vaxtı cəmlənərək öz başçıları (sərdar) ilə birlikdə hökmdarın *köməyinə yollanan döyüşçü dəstələrindən* (çərik) ibarət olmuşdur. Qoşunlarda həm *süvari,* həm də *piyada* hissələr vardı (Bax: Şahin Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə., səh. 68). M.Moin yazır: "Könüllü olaraq yığılan tə'lim görməmiş döyüşçülər *çərik* adlanır. Tayfa və qəbilələrdən yığılan və tə'lim görən əsgərlərin *(sərbaz)* köməyinə gələn həmin adamların qoşununa "çərik" deyilmişdir" (Bax: M.Moin. Göst. lüğət. I cild, səh. 1283).

* s.1647 *Tənxah* – Kapital (sərmayə), nəqd pul və mal, sərvət. Maaşların ödənilməsindən ötrü xəzinəyə göndərilən qəbz (barat). Lazımi vaxtda sərf olunmaqdan ötrü idarə, yaxud müəssisənin kassasında (sənduq) saxlanılan pul (Bax: M.Moin. Göst. lüğət, I cild, səh. 1149).

* s.1653 *Tuğra* – Fərmanlarla "Bismillah" sözünün başında yazılan xətt. Qövs şəklində olur. Orada dövr sultanlarının adı və ləqəbləri (əlqab) yazılır ki, tuğra əslində *padşah hökmünün imzalanmasını* əks etdirmiş olurdu (Bax: D-r Moin. Göst., lüğət, c. II, səh. 2227).

* s.1655 *Abdarbaşı* – Bu istilahdan bəhs etməkdən əvvəl *abdardan* və *abdarxanadan* söz açmaq lazımdır.

a) *Abdar* – əmirlər və başqa böyük mə'murlara veriləcək su və başqa içkilərin hazırlanmasına cavabdeh şəxs; Müxtəlif içkilərin hazırlanmasında mə'sul xadim; şərbətdar, saqi, əyaqçı; çay, qəhvə və qəlyan hazırlayan işçi;

b) *Abdarxanə* – çay, qəhvə, şərbət və qəlyan hazırlanan yer; abdarın sultanlara xidmət etməsindən ötrü işlədilən ləvazimatın, işçilərin və heyvanların saxlandığı yer.

*Abdarbaşı* – abdarların rəisi, abdarxanə işçilərinə nəzarət edən mə‘sul adam (Bax: M.Moin. Göst. lüğət, I cild, səh. 12-13).

** s.1655 *Məş‘əlxanə* – Şahların və başqa böyük adamların saraylarında saxlanılan məş‘əllərin yığılıb saxlanıldığı *məkan adıdır*. Məş‘əl gecələr padşah və əmirlərin qarşısına qoyulan böyük *qəndillərdir*. Məş‘əlin başqa mə‘nası ağac, yaxud metaldan düzəldilmiş bir ağac dəstəyinin ucuna bərkidilmiş əskiləri alışdıran maddə ilə yanan *"alət"* deməkdir. Mə‘şəl tutanlar *məş‘əlçi* adlanırdılar. Məş‘əlxanə məş‘əldarlarının başçısı *məş‘əldarbaşı* adlanırdı (Bax: M.Moin. Göst. lüğət, III cild, səh. 4145).

Şarden onu *məş‘əldarların rəisi* adlandırır. Sarayın isinməsi və işıqlandırılması işi ilə məş‘əldarlar məşğul olurdular. Məlum olmayan səbəbdən, təbilçi və şeypurlardan ibarət *nağaraxana da* məş‘əldarbaşının ixtiyarında idi. Təbilçi və şeypurçular şah sarayanın eyvanında və darvazasından öz alətlərini səsləndirməklə məşğul idilər. Dyu-Man və Kempferə görə *çalcıbaşı* (çalğıçıbaşı-Ş.F.), yəni çalğıçıların rəisi, həmçinin *rəqqas qızlar və başqa çalıb-oynayanlar* da məş‘əldarbaşıya tabe idilər. Məş‘əldarbaşı dərgah adamlarını çalıb-oxumaqla əyləndirən bütün adamlar üzərində mə‘sul şəxs idi. O, hətta fitnəkarlıq və dələduzluq edənləri də öz nəzarəti altında saxlayır. XVIII əsrin əvvəllərində *İsfahanda* qeydə alınmış *on bir min fahişə və min beş yüz nəfər çirkli işlərə qurşanmış qadın* vardı ki, onlar məş‘əldarbaşının cəzasına mə‘ruz qalırdılar. Bütün *qumarbazlar* ələ keçirilib cərimələnirdilər ki, bütün bunların nəzarətçisi məş‘əldarbaşı idi (Bax: Təzkirətül-müluk., səh. 131-132).

* s.1663 *Qoraqorum* (Qəraqorum) – Pamir dağına birləşən dağlardan biridir. Bu dağ *Kuyənlən və Himalaydan* başlayaraq şimal-qərb və cənub-şərqdən *Tibet, Sind və Gonga* qədər uzanır. Hazırda Qaraqorum *"Bəlnuyi"* adlanır. D-r Moin ya-

zır: "İndi bu yer *Monqolustandadır"* (Bax: D-r Moin. Göst., lüğət, c. VI, səh. 1445-1446).

* s.1671 *Müfti* – Dini-hüquqi məsələlərdə qərar vermək, şəriət qaydalarının icrasını təfsir etmək hüququ olan *müsəlman ali ruhanisidir*. Müftinin çıxardığı qərar (fitva) həmin ölkədə yayılmış islam təriqətinin (sünnilik) qanunlarına, həmçinin dini-hüquqi qaydalarına əsaslanır. *Fitva* (fətva) müsəlman ölkələrində yüksək rütbəli ruhanilərin (müfti, şeyxülislam) hüquqi və dini məsələlərə dair çıxardığı *hökm və qərarlardır*. Fitva *şifahi*, yaxud *yazılı sənəd* şəklində verilir. Fitva islam dini prinsiplərinə və müsəlman hüququ praktikasına əsaslanmalıdır. Orta əsrlərdə bütün *mühüm dövlət məsələləri* (müharibə e'lan etmək, sülh bağlamaq və s.) haqqında fitva verilməsi *zəruri idi* (Bax: ASE, VII cild, səh. 135; IX cild, səh. 571).

Müfti elə şəxsdir ki, *fəqih* adlanır və əhali şər'i məsələlərdə ona müraciət edir.

*Şair Hafiz Şirazi* tərəfimizdən tərcümə olunmuş bir qəzəlində deyib:

"*Ey müftiye-zaman, qadağan etmə o eşqi,*
*Əfv eyləyirəm, çünki onu görməmisən sən"*
(M.Moin. Göst. lüğət, IV cild, səh. 4267).

Beytin farscası:

*"Mən'əm məkən ze eşqe-vey, ey moftiye-zəman,*
*Mə'zur darəmət ke, ta u-ra nədidei"*

* s.1679 *Dörd ünsür, yaxud dörd əxsican* – Su, torpaq, hava və atəşi ifadə edərək dörd ünsürü əhatə edən istilahdır ki, ona "dörd əxsican" da deyilir (Bax: D-r Moin. Göst., lüğət, c. I, səh. 1324).

* s.1688 *Şəttül-ərəb* – İraqdakı Dəclə və Fərat çayının birləşməsi nəticəsində yaranmış çayın adını *Şəttül-Ərəb* adlandırmışlar ki, bu sətirlərin müəllifi özünün İraqa ilk səfəri zamanı (1999) həmin çayı yaxından seyr etmişdir (Bax: Yuxarıda adı çəkilən "Xurma kimi şirin Bağdad" səfərnaməsi).

* s.1690 *Tuşmalbaşı* – "Tuşmal" və "tuşmalbaşı" istilahının mə'nası haqındakı mə'lumata yenə də "Təzkirətül-müluk" əsərinə V.F.Minorski tərəfindən verilən şərhlərdə təsadüf etdik. Onun fikrincə rus alimi *Vladimirtsov* monqol sözü olan tuş-

malın "e'tibarlı məqam sahibi" olduğunu göstərir, sözünə belə davam edir: *"xörəyin dadına baxan bu mə'murun* xüsusi e'tibarı vardı". Ə.Dehxodanın *"Loğətnamə"*sinə əsasən V.Minorski yazır: *"Tuşmal"*-fars dilində *"kuli, qırışmal və luli"* sözlərinin sinonimidir". Biz *"qərəşmal"* sözünün ifadə etdiyi mə'nanın "tuşmal" ilə əlaqələndirilməsi ilə razılaşa bilmərik. D-r Moinin lüğətində "qərəşmal" (yaxud ğərəşmal) ifadəsinin yarandığı "ğər" sözünün mənası belə açıqlanır: "Ğər (ğərçe, ğəraçe)"-fahişə qadın, pis niyyətli insan, müxənnəs adam; "Ğərəşmal" ifadəsi isə *D-r Moinə* görə ölkə-ölkə gəzən, ev-eşikləri olmayan adamlar da "ğırışmal" adlanır (Bax: D-r Moin. Göst., lüğət, c. II, səh. 2394-2400). *N.Səqəfi* də "qərəşmalın" qaraçı, həyasız, utanmaz, hay-küyçü məna xüsusiyyətlərinə malik olanlara verilən həqarətli söz olduğunu göstərir (Bax: N. Səqəfi. Göst., lüğət, c. II, səh. 255). Deməli, "tuşmal" ifadəsini heca oxşarlığına görə "qərəşmal" ilə müqayisə etmək yersizdir. V.Mirovski yazır: "Təzkirətül-müluk" əsərində… "tuşmalbaşı" idarəsinin mövcud olmasına işarə edilmişdir… Amma, Şarden onun *"mətbəx mülazimlərinin, yaxub mübaşirlərinin rəisi"* olduğunu bildirir. V.Minorski belə qənayətə gəlir ki, bu vəzifənin sahibi şah mətbəxinin nəzarətçisi olub, aşpazxananın bütün işlərini öz nəzarəti altında saxlayırdı. O, sözünə davam edir: Tuşmalbaşı-*mühüm vəzifə* olmuşdur. *Şah* hərəmxanadakı xanımların yanında olduğu vaxt tuşmalbaşı oraya aparılan xörək qab-qacağını hərəmxana qapısına qədər *nəzarətdə saxlayır*. O, rəsmi ziyarətlərdə xörəklərin məclisə aparılmasından əvvəl onların dadına baxır, ziyafət bitənədək ayaq üstə dayanır, sonra sultanın yediyi xörəyi öz bıçağı ilə hissələrə bölərək başqalarına verir (Bax: Təzkirətül-müluk. Göst., nəşr, səh. 128-129).

*** s.1694** *Amel* – vəzir istilahının sinonimidir (Bax: Təzkirətül-müluk. M.Dəbirsəyaqi nəşri, səh. 171).

**** s.1694** *Exlate-fasede* – bir-birinə qarışmış şeylər. N. Səqəfiyə görə "qədim tibb elmində orqanizm üçün zəruri sayılan dörd

ünsürün-qanın, odun, sovdanın və bəlğəmin – bir-birinə qarışması" (Bax: N.Səqəfi. Göst., lüğət, c. I, səh. 32).

* s.1701 *Lə raqemə* – Ərəbcə ifadə olub "Lə ədri" ("namə‘lum müəllif") sözünün daşıdığı mə‘nanı ifadə edir, yəni "bu sətirlərin müəllifi mən deyiləm" deməkdir-Ş.F.

* s.1710 *Çurəağası – Dr.İrəc Əfşar* "Tarixe-aləmaraye-Abbasi" əsərinin *"Göstəricilər"* hissəsində "Çurəağası" istilahı ilə əlaqədar bu ifadənin *özbəklərdə* səfəvilərin işlətdikləri *"qorçi"* mə‘nasını bildirdiyini yazır (Bax: Göst. əsər, Tehran nəşri, II kitab, səh. 1216).

* s.1711 *Kəngaş,* yaxud *ləngtuş* – birincisi monqol, ikincisi isə özbək istilahı olan bu sözlər *"məşvərət, məsləhət"* mənalarını verir.

* s.1717 *Qaziül-qüzzat:* XV-XVI əsrlər mənbələri cahad, qazi, qüzzat və başqa əlaqədar istilahlar barədə geniş mə‘lumat verir. Qəza, yaxud məhkəmə işləri ilə məşğul olan *qazi* haqqında mülahizə yürüdərkən *iki qazidən* hökmən danışmaq lazımdır: 1) *Qazi*-yəni mülki və dövləti işlərlə məşğul olan *şər‘i qazi;* 2) Hərbi işlərdə qayda-qanunun bərqərar olmasına çalışan *qoşun qazisi* (qaziye-əskər). Şə‘ri qazi yerlərdə mübahisəli məsələlərin həllinə çalışır, qoşun qazisi isə orduda *dini iş və təbliğat* aparır, təqsirkar hərbiçilərin mühakiməsi ilə məşğul olurdu. *Qaziül-qüzzat* isə bütün ölkə qazilərinə rəhbərlik edən şəxs olmuşdur (Bax: Ş.F. Fərzəlibəyli XV əsr Azərbaycan dövlətlərinin …, səh. 73).

* s.1730 *Nübüvvət* – Allahdan və onun hökmlərindən xalqa xəbər çatdırmaq. *Nübüvvət əhli* sufiləri və övliyaları nəbilərin davamçıları və nəvvabları hesab edir (Bax: D-r Seyid Cəfər Səccadi. Göst., lüğət, səh. 759).

** s.1730 *Fütüvvət* – cəvanmərdlik (comərdlk), özünü kiçik, başqalarını böyük sanmaq, xalqla yaxşılıqla davranmaq, bağışlamağı bacarmaq, əhalinin fəzilətini, özününsə eyblərini müşahidə edə bilmək bacarığı, başqalarının zülmünə qarşı düşmənçilik iddiasına düşməmək, pisliyə qarşı yaxşılıq etmək. *İblis demişdir:* "Adəmə hərgah səcdə etdim, amma mənə *fütüvvət sahibi* demədilər". Fir‘an dedi: "Mən Allahın rəsuluna iman gətirdimsə də, məni fütüvvətli şəxs kimi tanı-

madılar" (Bax: D-r Məhəmməd Cəfər Səccadi. Göst. lüğət, səh. 618-619).

* s.1731 *Male-əmani* – Şəhəri döyüşlə tutan, yaxud şəhər əhalisindən narazı qalan hökmdar onlardan böyük məbləğdə *aman malı* (male-əmani) tələb edirdi (Bax: Şahin Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə, səh. 83-84). İskəndər bəy Münşinin əsərində həmin istilah altında bu vergi növü nəzərdə tutulmuşdur.

* s.1738 *Ənvəri* – Əli Övhədəddin Əbivərdi (təqr. 1126-1187). *Fars-tacik şairi.* Bəlxdə yaşamış bu şair həm də alim və filosof kimi tanınmışdır. O, *Sultan Səncərin* sarayında yaşamış, ömrünün sonlarında saraydan uzaqlaşmış, məddah şairlərə *həcvlər* yazmışdır. Vətənpərvər ruhlu *"Xorasanın göz yaşları"* qəsidəsi məşhurdur. *Əbdülrəhman Cami* onun qəsidələrindəki sənətkarlığı *"mö'cüzə"* adlandırmışdır. Ənvəri Götenin yüksək qiymətləndirdiyi *yeddi böyük fars şairindən biridi* (Bax. ASE, 1980, IV c., səh. 210).

Ənvəri dövrün ədəbi və əqli elmlərini, xüsusilə hikməti, riyaziyyatı və nücum elmini mükəmməl bilmiş, *İbn Sinanın* davamçısı kimi onu daim müdafiə etmişdir (Bax: D-r. Moin. Göst., lüğət, c. V, səh. 191).

* s.1740 *Solğərşah ibn Şəhabəddin ibn Turanşah* – XVI əsrin əvvəllərində *Hörmüz adasında* hökmranlıq etmiş padşah. Mən bu şəxs haqqında və onun sülaləsi barədə müəyyən mə'lumat toplaya bilmədim. Təəssüf ki, "Şah İsmayıl Səfəvi dövründə İranın xarici əlaqələr tarixi" adlı əsər yazmış *Əli Əkbər Vilayəti* də Solğərşah və davamçıları xüsusunda "Hörmüz adasının padşahı" yazmaqla kifayətlənmişdir. *Dr. M.Moin* də öz lüğət kitabında *"solğərilər"* ünvanı altında fəqət fars atabəyləri, Böyük Lur atabəyləri və başqa *solğərilər* haqqında mə'lumat verməsinə baxmayaraq Hörmüz solğərilərindən bəhs etməmişdir (Bax: Ə.Ə.Vilayəti. Göst. kitab, Bakı, 1998, səh. 235; M.Moin. Göst. lüğət, V cild, səh. 789-790). Solğərşah barədə İsgəndər bəy Münşinin mə'lumatı ilə kifayətlənməli oldum. Bu tarixçinin mə'lumatına görə, *iki Solğərşah olmuş,* solğərşahiyyə xanədanının daha iki üzvü-

*Fərruxşah və Firuzşah* da hakimiyyət sürmüşlər (II kitab, səh. 663).

* s.1756 *Ənsariyyə sülaləsi* – Alim və mütəfəkkir Şeyxül-islam Əbu İsmail ibn Məhəmməd *Ənsari Herəvi. O, Pir Ənsar və Xacə Ənsari* kimi çox məşhur bir şəxsiyyət idi (m. 1006-1088). Herat şəhərində doğulmuş, çoxsaylı kitab yazmış, şe'rlər qələmə almış *(fars və ərəb dillərində)*, hədisləri mükəmməl bilmiş, fiqh elmində Əhməd Hənbəlin davamçısı olmuş, *Şeyx Əbülhəsən Xərəqanidən* təsəvvüfü öyrənmiş, Heratda də vəfat etmişdir.

Abdullar Ənsarinin davamçıları *"Ənvariyyə sülaləsi"nin* ardıcılları kimi məşhurdurlar (Bax: M.Moin. Göst. lüğət, V cild, səh. 1150).

* s.1768 *Ələvi padşahları* – Əli ibn Əbu Talibin, yaxud *Ale-Əlinin* xanədan üzvləri (Bax: M.Moin. Göst. lüğət, V cild, səh. 1192).

Şiəliyə mənsub dini-fəlsəfi tə'lim *ələvilik* adlanmışdır. Bu cərəyan 10-11-ci əsrlərdə *Fatimilər xilafəti zamanı* Suriyada meydana gəlmiş və banisi *İbn Nüseyrin* adı ilə *"nüseyrilik"* kimi məşhur olmuşdur. Ələviliyə görə, *Allah ruhu yalnız Əlinin şəxsində zahir ola bilər,* çünki Əli ən ali şəxsiyyətdir. Ələvilik *Əli, Məhəmməd və Salmandan* ibarət üçlüyə sitayişi, ruhun bir bədəndən digərinə keçməsinə inamı təbliğ edir. Bu tə'limə görə, ələviliyi sıravi ələvilər üzərində hakim və nəsihətçi olan möminlər dərk edə bilərlər. Ələviliyə xristianlıq və bə'zi qədim dinlər və ayinlər tə'sir göstərmişdir. Ələvilik tə'limi *Əliallahiliyin yaranması üçün* əsas olmuşdur (Bax: ASE, IV cild, səh. 162).

* s.1769 *Ətəbate-aliyyat* – İraqın şiə dini mərkəzləri olan müqəddəs qəbirlər belə adlanır (Bax: N.Səqəfi., Göst., lüğət, II c., səh. 104-105).

* s.1772 *Tərcomani* – müəyyən günah üzündən ödənilən cəriməyə deyilirdi (Bax: D-r Moin. Göst., lüğət, c. I, səh. 1064).

* s.1773 *Ziya Məhəmməd Yusif Qəzvini* – Onun təxəllüsü *"Valeh"* olmuşdur. O, XVI əsrin son onilliyində doğulmuş, XVII əsrin sonunda vəfat etmişdir. *Saray tarixçisi olan* bu müəllifin *"Xolde-bərin"* ("Əbədi cənnət") adlı ümumtarix məzmunlu

bir kitabı məşhurdur ki, bu əsərin son hissəsi Səfəvilərin hakimiyyət tarixinə (1694-cü islədək) həsr olunmuşdur (Bax: Ə.Rəhmani. Göst., əsər, səh. 9).

*** s.1777** *Kazimeyn* – Bağdadın bir fərsəxliyində yerləşən bir şəhərdir ki, *İmam Museyi-Kazim və İmam Məhəmməd Təqi* orada dəfn olunmuşlar (Bax: D-r Moin. Göst., lüğət, c. VI, səh. 1530).

*Qeyd:* Hazırda həmin şəhər tamamilə Bağdada birləşmişdir. *Bu sətirlər müəllifi* iki dəfə-1999 və 2000-ci illərdə həmin rövzəni ziyarət etmişdir – Ş.F.

*** s.1779** *Ənuşirəvan=Nuşirəvan*. "Dadgər" ("Adil, ədalətli") ləqəbli Sasani hökmdarı *I Xosrovdur*. O, 21-ci Sasani hökmdarı olmuşdur. (miladi 531-579). Atası *Qubad Sasani*, anası isə *dehqan qızı* idi. Qubadın vəfatından sonra Ənuşirəvan ilə *qardaşları Kəyus və Cam* arasında taxt-tac uğrunda mübarizə başlayır, amma *vəzir Mehbudun köməyi ilə* Ənuşirəvan padşah olur. *Roma və şərq hökmdarları ilə* müharibələrdə qalib gələn Ənuşirəvan ölkədə daxili islahatlar keçirir, *adil bir şah* kimi tanınır. *Həzrət Məhəmməd peyğəmbər Ənuşirəvanın dövründə doğulmuşdur* (Bax: D-r Moin. Göst., lüğət, c. V., səh. 191).

*** s.1780** *Əbu Hənifə* – adı Ne'man ibn Sabit ibn Zuti olan böyük *İslam rəhbərlərindəndir* (m. 696-767). *Əslən iranlıdır.* Babası *Kabulda,* başqa bir fikrə görəsə *Nisada* yaşamışdır. Peşəsi *bəzzazlıq* olduğundan iqtisadi və ticari biliyə malik idi. *Ələviliyə meyilli* Əbu Hənifənin yolunu davam etdirən *Əbu Yusif* sonralar olduqca məşhurlaşdı. *Əbu Hənifə hədislərə tənqidi yanaşan bir alim idi.* Belə ki, o, bütün hədislərdən cəmi *on yeddisini* qəbul edirdi. *Əbu Hənifə hənəfi məzhəbinin əsasını qoymuşdur* (Bax: D-r Moin. Göst., lüğət, c. V. səh. 92).

**** s.1780** *Zülcəlal* – Allahın adlarından biridir.

*** s.1782** *Müstənsirbillah* – Abbasilərin *36-cı xəlifəsi* (623-640 hicri-qəməri) olmuşdur. Bax: D-r Moin. Göst., lüğət, c. VI, səh. 1968; həmçinin K.E.Bosvort, Göst. kitab, səh. 32.

* s.1784 *Qənat* – yeraltı su kanalı (Bax: N.Səqəfi. Göst., lüğət, c. II, səh. 242).

** s.1784 *Kövsər* – Cənnətdə olan *çeşmənin* adıdır. *Hafiz* deyir:

*Şe‘r*

*Zəmzəmü Kövsər ilə olmaz ağartmaq əsla,*
*Qara iplə toxunulsa adamın bəxt kilimi.*

(Beytin farscası:

*Be abe-Zəmzəm-o Kovsər sefid nətvan kərd,*
*Kelime-bəxte-kəsi ra ke baftənd siyah).*

(Bax: D-r Moin. Göst, lüğət, c. VI, səh. 1619).

* s.1785 *Rübat* – Yol kənarında istirahətdən ötrü karvançıların istifadəsinə verilən yer; *karvansara, zaviyə, xanəgah* (Bax: D-r Moin. Göst., lüğət, c. II, səh. 1635)

* s.1789 *Pişnamaz* – Camaat namazı vaxtı namaz qılan adamların *iqtida* (fikir və əqidəyə tabeçilik – Ş.F.) etdikləri şəxs; *camaat imamı.*

*Pişnamazlıq (Pişnəmazi)* isə pişnamazın namaz vaxtı icra etdiyi əməldir (iş); *camaat imaməti.* İskəndər bəy Münşinin əsərinin I cildində /s. 146/ yazılmışdır: *“Mir Rəhmətulla* Nəcəfe-Əşrəf seyidləri pişnamazlarından və dövrünün fəzilətli adamlarından idi. Ali dərgahda *pişnamazlıq* vəzifəsindəydi” (Bax: D-r Moin. Gösət., lüğət, c. I, səh. 935).

** s.1789 *Hərim* – məscidin *yalnız pişnamaza məxsus olan otağı.* Kənar şəxslərin daxil olmadıqları yer (Bax: D-r Moin. Göst., lüğət, c. I, səh. 625).

*** s.1789 *Yəqin, yəqiniyyə* – Qəlbi etiqad; şəksiz fikir; *Ariflər* “yəqin” haqqında müxtəlif fikirlər söyləmişlər: gözün yox, qəlbin gördüyü şey; həqiqət nurunun görünməsi; şəkk-şübhənin aradan götürülməsi; gözün görə bilmədiyi şey; *“Yəqin”* məfhumu barədə mə‘lumat verən *Nəsirəddin Tusi onun* 3 cür olduğunu yazır: *Elmül yəqin* (yəqinlik elmi); *Eynül-yəqin* (göz yəqinliyi); *Həqqül-yəqin* (Haqq yəqinliyi, Allah yəqinliyi) (Bax: D-r Seyid Cəfər Səccadi. Göst əsər, səh. 804-805).

**** s.1789 *Dəvatdar* – Olduqca aşağı dərəcəli *vəzifə* olmuşdur. *Məvacibləri* az idi. Ümumi məclislər və başqa işlər aparılan vaxt əskərlər və silahlı başqa adamlarla *bir cərgədə* dayanırdı-

lar. *V.F.Minorski* bir neçə dəvatdar haqqında məlumat verir: *Dəvatdare-ehkam* (fərman dəvətdarı); *dəvatdare-ərqam* (müxtəlif yazılar dəvatdarı); *dəvatdare-mohre-əngöştər* (möhür dəvatdarı). Şardenə görə, dəvətdar *hökmdarın yanında vəzifədar* idi. Onun belinə bağladığı şalında *dəvat* (mürəkkəbqabı – Ş.F.) və *cübbəsinin* (arxalıq, libas – Ş.F.) cibində *kağız* olurdu (Bax: Təzkirətül-müluk. D-r Dəbirsəyaqi nəşri, səh. 119).

* s.1790 *Zabetnevis* – Ölkə divanında divan üçün ayrılan *məhsulların qeydiyyatını aparan şəxs* (Bax: Təzkirətül-müluk. D-r. Dəbirsəyaqi nəşri, səh. 145).

** s.1790 *Sahebe-tovcih*-Mustovfiəl – məmalikin əli altında işləyən mə‘mur. o, ayrı-ayrı yerlərdən yığılan şah gəlirlərinin *hesabını aparırdı* (Bax: Təzkirətül-müluk, D-r Dəbirsəyaqi nəşri, səh. 140-141).

* s.1791 *Məclisnevis* – *V.F.Minorski* yazır: “Məclisnevisə” *“vaqiənevis”* də deyilir. Mühüm müdir və mənsəb sahiblərindən olan məclisnevis, *Şardenə* görə baş vəzir iş yerində olmadığı vaxtlarda onun işlərini icra edirdi. O, məclislərdə *şahın sol yanında əyləşirdi və onu “sol vəzir”* adlandırırlar. Amma o, baş vəzirin məclisləri vaxtı *“sağ vəzir” adı ilə məşhur idi*.

Məclisnevisin üç vəzifəsi vardı: *“Məclisnevis”* ifadəsindən məlum olur ki, onun işi məclisdəki *müzakirə olunan* məsələləri yazmaq, yaxud məclisdə qoyulan məsələlərin [protokolunu – Ş.F.] aparmaqdır (birinci vəzifə-Ş.F.).

*Sanson* onu *“padşahın münşisi”, Kempfer* isə *“ölkənin böyük”* yaxud *“baş münşisi”* adlandırırdı. Məclisnevis padşah fərmanlarını səhih və münasib şəklə salırdı (ikinci vəzifə – Ş.F.). Şah çox vaxt fərmanları şifahi tərzdə söylədiyi üçün bütün fərmanlar ya baş vəzir, yaxud əmirlərin biri tərəfindən *“ali əmrə əsasən...”* sözləri yazılaraq təqsirlənir, sonra isə həmin fərman *vaqiənevisə* təqdim olunur, *“bəyazi” yaxud “dəftəri”* adlanırdı. Fərmanın üzərində qara mürəkkəblə tuğra səbt olunurdu. *Məşhur türk istilahı olan “tuğra”da* hökmən xoş xətt ilə padşahın adı yazılırdı ki, bu da *imzanı əvəz edirdi.*

*Vaqiənevisin* sonrakı *3-cü vəzifəsi* isə baş verən hadisələri və daxil olan ərizələri (məktubları) *şaha çatdırmaq idi.*

*O, hakimlərin hesabatlarını* padşaha oxuyur və şahın qərarını *hakimlərə bildirirdi* (Bax: Təzkirətül-müluk, D-r Dəbirsəyaqi nəşri, səh. 95-97).

*** s.1802** *Qolğay* – İrəc Əfşar bu ifadənin tatar dilində mə‘nasının *vəliəhdlik* (vəliəhdi) olduğunu bildirir (Bax: Tarixe-aləmaraye-Abbasi, Tehran nəşri, Göstəricilər hissəsi, səh. 1219).

*"Qol"* istilahı ərəb hərfləri ilə *"qəyl"* kimi də oxunur. M.Moin bu sözün mə‘nasının *islamdan əvvəlki* padşahlara aid olduğunu bildirir və yazır ki, *"qəyl"* istilahı Xosrov (Kəsra) və başqa İran şahənşahlarının titulu olmuşdur (Bax: M.Moin. Göst. lüğət, II cild, səh. 2771).

*** s.1809** *Mouravi* – qəyyum, rəis mə‘nalarını verən bu istilah feodal Gürcüstanında *inzibati vəzifə* olmuşdur. XV əsrdən başlayaraq mouravi vəzifəsi irsi xarakter kəsb etdi. Xəzinə və feodallardan ötrü yığılan gəlirin *onda bir hissəsi* mouraviyə çatırdı. *İrsi mouravilərdən* başqa kəndlərdə *yerli mouravilər* də vardı ki, onlar kəndliləri amansızcasına soyurdular.

*XIX əsrin əvvəllərində* Gürcüstanda rus idarəçiliyi bərqərar olandan sonra mouravi vəzifəsi *ləğv edildi* (Bax: Ирада Гусейнова. Историческая Енциклопедия Кафказа, Баку, 2010, səh. 471-472).

I Şah Abbasın hakimiyyəti dövründə şah tərəfindən *Georgi Saakadze* adlı bir şəxs *Kartli hakimliyinə* layiq görüldü. İradə Hüseynova yazır: "Georgi Saakadze (təqribən 1580-1629)-görkəmli gürcü siyasi xadimi, sərkərdə, Gürcüstanın birləşməsinin tərəfdarı. 1612-ci ildə Şah Abbas şah tərəfdarı olan *Simon xan* az yaşlı olduğuna görə G. Saakadzeni *Kartli hakimi* vəzifəsinə tə‘yin etdi. Amma, o *1625-ci ildə* bu Səfəvi şahı əleyhinə *üsyana* başçılıq etdi, lakin gürcü çarı *I Teymuraz* (yə‘ni Təhmurəs – Ş.F.) ilə apardığı mübarizədə məğlub olaraq Türkiyəyə *qaçdı və orada öldürüldü* (Yenə orada, səh. 601).

*** s.1812** *Məhəffə* – "Hudəc" sözünün sinonimidir. (N.Səqəfi. Göst., lüğət, c. II, səh. 850). Elə bir *taxtdır ki*, böyük adamları ona əyləşdirib qulamlar vasitəsiylə aparırlar. D-r Moin məhəffəni

"səyyar taxt" da adlandırır (Bax: D-r Moin. Göst., lüğət, c. I, səh. 1045).

***
s.1829** *Sipəhsalar, sipəhdar – "qoşun"* ("sepah") sözündən yaranmış yüksək hərbi vəzifə olub *"qoşunu olan şəxs"*, *"qoşun başçısı"* deməkdir. *Sepəhsalar* ordunun ən böyük sərdarı olmuşdur (M.Moin. Göst. lüğət, II cild, səh. 1822, 1827).

***
s.1834** *Mən* – N.Səqəfinin lüğətində bu sözün həm də *batman* adlandığı bildirilir. Müəllifə görə *Təbriz batmanı* üç kilo, *şah batmanı* isə altı kiloya bərabərdir (Bax: N.Səqəfi. Göst, lüğət, c. II, səh. 643).

***
s.1835** *Qapuçibaşı* – "Qapı" türk sözü olub, *dərvazə, böyük qapı* deməkdir. "Qapıçı" *qapını qoruyan adam mə'nasında* da işlənir. "Qapıçıbaşı" – *dərbanbaşı,* qacarlar dövründə isə *dərbanlar rəisi* idi (Bax: M.Moin. Göst. lüğət, II cild, səh. 2606).

***
s.1841** *Qicacigəri* – Bu ifadə "qica" (qiça) və "gəri" sözlərindən yaranmışdır ki, mə'nası "qayçı işlədən", "dərzi" deməkdir. Səfəvilər zamanı vəzir və əmirlərin *xüsusi qicaçiləri* olmuşdur. Qicaçilər şah və hərəmxana qadınları üçün xüsusi paltarlar tikir və *xüsusi dərzilər* sayılırdılar.

*Qicacigəri* – qicaçinin vəzifəsidir və işinin mənsub olduğu xüsusi ustaya (dərziyə) şamil olunan istilahdır (Bax: M.Moin. Göst. lüğət, II cild, səh. 2763).

***
s.1842** *Quşçu (quşçugəri)* – bu istilah elə adından da göründüyü kimi, *vəhşi ov quşlarını əhliləşdirilməsi və ova hazırlanması* ilə məşğul olan şəxsə aiddir.

****
s.1842** *Mirşikar* – Hökmdarın *ov məşğuliyyətini* təşkil edən vəzifəli şəxs. *Quşçuların əmiri.*

***
s.1843** *Mə'qul və mənqul elmlər:* Mə'qul elmlər sahəsinə əql vastəsiylə dərk oluna bilən fəlsəfi və şər'i elmlər, mənqul elmlərə isə rəvayət olunan mə'lumatlar və hədislər elmi aiddir (Bax: M.Moin. Göst, lüğət, c. III, səh. 4235-4236; c. IV, səh. 4405).

***
s.1844** *Qran, qeran* – Bu sözün ifadə etdiyi mə'nalar: 1) yaxınlaşma, birləşmə; 2) Yeddi səyyarənin (günəşdən başqa) və iki ulduzun *bir bürc altında* birləşməsi (bir dərəcə, ya-

xud bir dəqiqədə); 3) *yaxınlıq*; 4) *iki xoşbəxt səyyarənin* (Müştəri və Zöhrə səyyarları kimi) *bir bürc altında* birləşmələri; 5) *İki nəhs səyyarənin* (Zühəl və Mərrix kimi) *bir bürc altında* birləşmələri; 6) *İranın pul vahidi* (qacarlar dövrü və pəhləvilər dövrünün əvvəllərində). *Qran* bir riyala bərabər olan gümüş sikkə idi (Bax: M.Moin. Göst., lüğət, c. II, səh. 2654).

İsgəndər bəy Münşi əsərinin bu səhifəsində *Qəndəharı "darülqran" adlandırmaqla* "qran" sözünün həm də ifadə etdiyi *"birləşmə"* mə'nasını ehtiva etmişdir, yə'ni "darülqran"ı "birləşmə evi" adlandırmaqla həmin vilayətin *səyyarələr tərəfindən* Səfəvilər dövləti üçün *müəyyən olunduğunu* nəzərə çatdırır-Ş.F.

**** s.1844** *Babayi* – "bab", "babu" sözlərinin *"baba"laşmış* şəklidir. Hazırda qoca kişilərə də "baba" deyirlər. Lüğəvi mə'nası *ata və babadır.*

M.Moin yazır: "Hər kəsə xitab olunarkən *"babacan", "baba"* deyə müraciət olunur (fərqi yoxdur kişi, qadın, böyük, kiçik adam olsun). Tarixən *ariflərə və müdrik həkimlərə* də "baba" demişlər, məsələn Baba Əfzəl, Baba Kuhi, Baba Tahir və s.

"Babayi" sözünün işlənməsi xüsusunda *"mən qəribə babayiyəm"* cümləsi də M.Moinin lüğətində misal gətirilir (Bax: M.Moin. Göst. lüğət, I cild, səh. 428-429).

*** s.1851** *Hiravol* –"Hirəvul" kimi də oxunan bu istilahın lüğəvi mə'nası *"qoşunda kəşfiyyat dəstəsinin ardınca gedən bölük"* deməkdir (Bax: Teymur tuzukları, Daşkənd, 1996, səh. 40; həmçinin "Əmir Teymurun vəsiyyətləri". Bakı, 1991, səh. 21).

Əmir Teymur yazır: "Müharibəyə başlamaq qərarına gəldim. Gördüm ki, düşmən qoşunu üç dəstəyə ayrılaraq, döyüşə hazır dayanıb. Öz qoşunumu yeddi bölüyə ayırdım. Yeddi bölük qoşunumu düşmən üstünə bir-birinin ardınca göndərməyi buyurdum. Dava-qırğın alovu göyə dirək olanlda əmr verdim ki, *Hiravul dəstəsi* pusqudan çıxıb düşməni oxa tutsun" (Əmir Teymurun vəsiyyətləri, səh. 21).

Hiravul istilahı ilə bağlı başqa bir istilah da nəzərimi cəlb etdi: *Şiqavul.* Bu ad altında *qoşunun sol cinahını qoruyan bölük"* nəzərdə tutulur (Bax: Əmir Teymurun vəsiyyətləri, səh. 21). Həmçinin *"çəpavul"* sözü də vardır ki, *"qəfildən güclü hücuma keçən bölük"* mə'nasını özündə ehtiva edir (Bax: Əmir Teymurun vəsiyyətləri, səh. 21). Həmin kitabda şiqavul və çəpavulun *Hiravul qismləri* (bölükləri) olduğu göstərilir:

Hiravul:
şiqavulun hiravul qismi;
şiqavulun birinci qismi;
şiqavulun ikinci qismi.
Şiqavul:
cəvanğarın (qoşunun sol cinahı) hiravul qismi;
cəvanğarın birinci qismi;
cəvanğarın ikinci qismi.
Cəvanğar:
çəpavulun hiravul qismi;
çəpavulun birinci qismi;
çəpavulun ikinci qismi.
Çəpavul:
bərənğarın (qoşunun sağ cinahı) hiravul qismi;
bərənğarın birinci qismi;
bərənğarın ikinci qismi.
(Bax: Əmir Teymurun vəsiyyətləri, səh. 106).

Yuxarıda göstərilən istilahlarla bağlı qeyd olunmalıdır ki, *"qarovul"* sözü *"irəlidə gedən dəstə", "çəpavul"* isə, məğlubiyyətə uğrayan qoşunları *"qarət etməyə şığıyan dəstə"* mə'nalarını əhatə edir. Çəpavula gedən əsgər *"çəpavulçu"* adlanırdı (Bax: M.Moin. Göst. lüğət, III cild, səh. 2654-2655; I cild, səh. 1271).

*** s.1860** *Cəbbəxana* – Cəbbə (cəm şəkli cübbab), yə'ni burada *zirehli geyim, silah* mə'nasında işlənən istilahdır. Cəbbəxana isə, ifadədən göründüyü kimi, *hərbi ləvazimatların saxlanıldığı anbara* deyilmişdir (M.Moin. Göst. lüğət, I cild, səh. 1216).

* s.1901 *Səfi Mirzə*-Şah Abbasın nəvəsi və canişini, *mərhum şahzadə Məhəmməd Bağır Mirzənin* oğlu (Bax: D-r Xanbaba Bəyani. Səfəvi dövrü cəngləri (fars dilində), Tehran, h. 1379, səh. 483).

* s.1917 *Şıxavənd* (=şeyxavənd) təbəqəsi-[Şah Səfi Ərdəbiliyə mənsub] Səfəvi padşahlarını *"şeyxzadə",* yaxud *"şeyxoğlu"* o silsiləni qohumlarını isə "şixavənd" adlandırırdılar. Şixavənd təbəqə üzvlərinin sayı Böyük Şah Abbasın dövründə 2000 nəfərə yaxın olmuşdur. Onlar ən çox Ərdəbildə və oraya yaxın yerlərdə yaşayırdılar. *Bu təbəqənin başçıları şah xanədanı ilə bağlı olduqları üçün* bütün qızılbaş əmirlərindən üstün və möhtərəm olmuşlar. Şıxavəndlər vəzarət, möhrdarlıq, şah topçularının sərkərdələri və s. böyük vəzifələrə tə'yin edilirdlər (Bax: M.Moin. Göst., lüğət, c. V, səh. 948).